**AZƏRBAYCAN RESPUBLİKASЫ**
**SİLAHLI QÜVVƏLƏRİNİN HƏRBİ AKADEMİYASI**

**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**A.BAKXANOV adına TARİX İNSTİTUTU**

**MEHMAH SÜLEYMANOV**

# SƏFƏVİLƏR

## I Cild

## ŞEYX SƏFİƏDDİN ƏRDƏBİLİ

Azərbaycan Respublikası Silahlı Qüvvələri Hərbi Akademiyasının Elmi şurasının 31 may 2019 cu il tarixli 2 nömrəli qərarı ilə çapa tövsiyə olunub

MAARİF
nəşriyyatı

**BAKI – 2019**

**Kitab Azərbaycan Milli Elmlər Akademiyasının A.Bakıxanov adına Tarix institutunun elmi-şurası tərəfindən də çapa tövsiyə edilmişdir**

Baş məsləhətçilər: **Heydər Piriyev**: general-leytenant

**Yaqub Mahmudov**: əməkdar elm xadimi AMEA həqiqi üzvü, dövlət mükafatı laureatı

Elmi redaktor: **Şahin Fazil (Şahin Fazil oğlu Fərzəliyev)**, tarix üzrə elmlər doktoru, professor

**Səməd Bayramzadə**, tarix üzrə fəlsəfə doktoru

Rəyçilər: **Aydın Abi**, professor

**Eynulla Mədətli**, tarix üzrə elmlər doktoru

**Vaqif Süleymanov**, müəllim-ilahiyyatçı

Mehman Süleymanov. Səfəvilər. Şeyx Səfiəddin Ərdəbili
Bakı, 2019. 704 səhifə

Kitab Azərbaycan xalqının və eləcə də islam mədəniyyətinin parlaq tarixi şəxsiyyətlərindən biri olan, Səfəvi təriqətinin mürşidi, Səfəvilər dövlətinin banisi olan Şah İsmayılın ulu babası Şeyx Səfiəddin Ərdəbilinin həyat yoluna, onun ictimai-dini baxışlarının təhlilinə, ondan miras qalmış zəngin irsin öyrənilməsinə həsr edilmişdir.

**İSBN: 978-9952-37-139-4**

# GİRİŞ

Təqdim olunan bu kitab Azərbaycan xalqnın və eləcə də islam dünyasının tarixində, ictimai-dini həyatında silinməyən izlər buraxmış Şeyx Səfiəddin Ərdəbilinin həyatı və fəaliyyəti haqqındadır. Əslində, Şeyx Səfiəddinin həyatı bir kitaba sığışmayacaq qədər zəngin və öyrənilməli bir tarixdir. Çünki Şeyx Səfiəddin bəşər tarixnin yetişdirdiyi tək-tək nadir şəxsiyyətlərindən biridir ki, zəmanəsinin ictimai həyatında çox ciddi dəyişikliklərə yol aça bilmiş, minlərlə, on minlərlə və bəlkə də milyonlarla insanı öz ətrafında birləşdirərək onların düşüncəsində, əqidəsində və dünyagörüşündə bir oyanış yarada bilmişdir. XIII-XIV əsrlərin kəsişməsində uzun bir ömür sürmüş bu dahi şəxsiyyət öz elmi, biliyi, istedadı, qabiliyyəti ilə dövrünün ən kütləvi dini təriqətlərindən biri olan Səfəvi təriqətini təşkil etməklə Səfəvi dövlətinə aparan yolun başlanğıcını qoya bilmişdir. Onun haqqında aparılan araşdırmalar da bu fikirlərin söylənməsi üçün bir əsas ola bilər.

Hər şeydən əvvəl belə bir məqama diqqət yetirilməlidir ki, Şeyx Səfiəddin son dərəcə zəngin biliklərə malik olan bir insan idi. Xüsusi ilə, islam dininin dəyərlərinə, sirlərinə dərindən bələd olması, müqəddəs kitabın, habelə islm peyğəmbərinin hədislərinin təfsirində xüsusi zəka nümayiş etdirməsi onu dövrünün ən mahir arifləri sırasına yüksəldə bilmişdir. Bu mənada belə bir zəka sahibinin həyatının və elmi dünyagörüşünün öyrənilməsi tədqiqatçılardan universal biliklərə sahib olmasını və bu zəka sahibinin daxili aləminin açılmasına ən müxtyəlif prizmalardan yanaşılmasını tələb edir. Ona görə də bir tədqiqatla Şeyx Səfiəddinin həyat və fəaliyyətinin, onun zəngin dünyagörüşünün və düşüncələrinin açılması birdəfəlik həll ediləcək qədər asan məsələ deyildir. Yəni Şeyx Səfiəddin elə bir şəxsiyyət deyil ki, onun bütün dəyərini bir kitabla vermək mümkün olsun. Yalnız davamlı və ardıcıl şəkildə aparılmış tədqiqatlarla Azərbaycan xalqınını yetirdiyi bu böyük insanın doğru və obyektiv portretini formalaşdırmaq olar.

Şeyx Səfiəddinin həyat yolunun öyrənilməsi hər şeydən əvvəl Azərbaycan xalqınını XIII-XIV əsrlər tarixinin öyrənilməsinin tamamlanması baxımından əhəmiyyətlidir. Bu dövrlərdə Azərbaycan mühitində baş verən proseslər Şeyx Səfiəddinin həyat yolunda da öz əksini tapırdı. Məlumdur ki, Şeyx Səfiəddin Azərbaycanın əksər bölgələrinə səfər etmiş, həmin bölgələrdə insanların ictima-dini həyatı ilə tanış olmuş, yeri gəldikcə dövrünün hakimləri qarşısında yerli əhalinin gün-güzəranının yaxşılaşdırılması üçün məsələlər qaldırmışdır. Şeyx Səfiəddinə həsr olunmuş mənbələrdə dövrünün bir sıra hakimlərinin adları da sadalanır, onlarla olan münasibətlərindən söhbət açılır. Bu görüşlər dövrün tarixinin öyrənilməsi baxımından da qiymətli faktlardır və onların açılması dövrlə bağlı maraqlı məlumatları üzə çıxara bilər.

Şeyx Səfiəddinin həyat yolunun öyrənilməsi ilə onun yaşadığı dövrdə Azərbaycanın tartixi coğrafiyası, Azərbaycan arealı haqqında maraqlı məlumatları da üzə çıxarmaq olar. Bu baxımdan Şeyx Səfiəddinin həyatına həsr olunmuş "Səfvətüs-səfa" əsərində çoxlu sayda coğrafi adlara, onların yerləşmə məkanlarına, bu məntəqələrdə yaşayan əhalinin ictimai həyatına aid olan xeyli məlumatlarla da rastlaşmaq mümkündür.

Şeyx Səfiəddin Azərbaycanın və Şərqin ictimai fikir tarixinin zirvələrindən biridir. Onun həyatının öyrənilməsi XIII-XIV əsrlərdə Azərbaycanın ictimai fikrinin formalaşma və inkişaf tarixinin öyrənilməsi baxımından da əhəmiyyətlidir. Bununla Azərbaycanda ictimai fikrin inkişaf xüsusiyyətlərini, ictimai fikrin bölgənin və islam dünyasının ictimai fikri ilə qarşılıqlı əlaqəsinin və qarşılıqlı təsir imkanlarının üzə çıxarılması mümkündür. Eyni zamanda onu da əlavə etmək olar ki, Şeyx Səfiəddinin həyatı və fəaliyyəti Azərbaycanda təsəvvüfün inkişaf tarixinin öyrənilməsi baxımından aktuallıq kəsb edir. Şeyx Səfiəddin Azərbaycan təsəvvüf tarixində hansı səhifəni təşkil edir, ona qədər Azərbaycanda təsəvvüf hansı səviyyədə idi, Şeyx Səfiəddin öz fəaliyyəti ilə bu tarixi necə zənginləşdirdi, Şeyx Səfiəddin təsəvvüfünün ona qədər mövcud olan təsəvvüfdən hansı fərqli

cəhətləri var idi və s. kimi suallara məhz Şeyx Səfiəddinin həyat yolunun araşdırılması ilə cavab tapmaq mümkündür. Bu araşdırmaları aparmaqla həm də yüz minlərlə insanın könüllü şəkildə Şeyx Səfiəddinin yaratdığı təriqətin ətrafında birləşməsinin, onların Şeyx Səfiəddini öz mürşidləri seçməsinin, onun yolunu ardıcıl çəkildə davam etdirmələrinin səbəbini müəyyənləşdirmək olar.

Səfəvi dini-ideoloji xəttinin necə formalaşmasının, bu dini-ideoloji xəttin inkişaf edərək sonradan dini-hərbi ideologiyaya çevrilməsinin, nəhayət bu ideoloji xəttin sonda Səfəvi imperiyasının yaranmasına aparmasının səbəblərinin üzə çıxarılması baxımından da Şeyx Səfiəddinin həyat yolunun araşdırılması elmi-tarixi əhəmiyyətə malikdir. Şeyx Səfiəddindən Şah İsmayıla qədər təxminən iki əsrə qədər fasilə vardır. Bu müddət ərzində Səfəvi təriqətinin zəifləməməsi, aradan çıxmaması, əksinə, dünya tarixində hadisə olan Səfəvi dövlətinin təşkilinə zəmin yaratması bir təsadüf idi, yoxsa Şeyx Səfiəddindən başlanan yolun məntiqi davmı idi? Belə sullara da Şeyx Səfiəddinin həyat yolunu araşdırmaqla cavab tapmaq mümkündür.

Şeyx Səfiəddinin yazılı ədəbiyyatın inkişafında da özünəməxsus xidmətləri vardır. Bu xidmətlərin üzə çıxarılması üçün də onun bədii yaradıcılığının, yazılı əsərlərinin öyrənilməsi bir sıra mətləblərin üzə çıxarılması üçün əhəmiyyət kəsb edə bilər. Onun Azərbaycan dilinin inkişafındakı rolunun öyrənilməsi də bütünlükdə Azərbaycan ədəbi dilinin inkişafının, Azərbaycan ədəbi söz tarixinin hazırkı nəsillərə çatdırılması üçün gərəkli ola bilər.

Şeyx Səfiəddin bütünlükdə islam dünyasının çox böyük zəka sahiblərindən biri olmaqla, həm də islam mədəniyyətinin zirvəsi səviyyəsinə yüksəlmiş şəxsiyyətlərdən birdir. Bu gün də onun adı islam tarixinin ən dəyərli bəndlərindən biri kimi xatırlanmaqdadır. Şeyx Səfiəddin haqqında aparılan tədqiqatlar onu bu yüksək zirvəyə aparan amilləri üzə çıxarmaq, onun şəxsiyyətini və fəaliyyətini doğru-düzgün dəyərləndirməyə imkan verə bilər. Bir daha qeyd edilməlidir ki, Şeyx Səfiəddinin şəxsiyyətini, Şərq tarixindəki yerini bir və bir neçə tədqiqatla doğru-düzgün

müəyyənləşdirmək elə də asan deyildir. Lakin bu istiqamətdə görülən hər bir iş Şeyx Səfiəddin irsinin öyrənilməsi sahəsində irəliyə atılmış addım ola bilər.

Şeyx Səfiəddin irsinin araşdırılması həm də bu mövzuda yol verilən təhriflərin, qeyri-elmi fikir və qənaətlərin aradan qaldırılması üçün də elmi-tarixi əhəmiyyət kəsb edir. Çünki mövcud olan araşdırmalarda Şeyx Səfiəddinin həyat yoluna birtərəfli və səthi yanaşmaların, hətta müəyyən hallarda qərəzli münasibətin mövcudluğunu da görmək mümkündür. Xüsusi ilə, Şeyx Səfiəddinin Azərbaycan həyatından qoparılması, Səfəvi təriqətinin formalaşmasında Azərbaycan mühitinin inkar edilməsi, onun dili və etnik mənsubiyyəti ilə bağlı qərəzli münasibət və qeyri-məntiqi qənaətlər bir sıra tədqiatçıların araşdırmalaının əsasını təşkil etməkdədir. Belə yanaşmaların əsassızlığının ortaya qoyulması da Şeyx Səfiəddin irsinin tədqiqinin elmi aktuallığına dəlalət edir.

Şeyx Səfiəddinin həyatının və fəaliyyətinin öyrənilməsi üçün istər Azərbaycan, istərsə də qonşu ölkələrin tarixşünaslığında müəyyən cəhdlər göstərilmişdir. Bunun nəticəsi kimi, çoxlu sayda məqalələr, məqalə topluları işıq üzü görmüş, konfranslar təşkil edilmişdir. Amma Şeyx Səfiəddinin həyat yolunun sistemli və əhatəli şəkildə öyrənilməsi halına rast gəlmək mümkün deyildir. Bir tərəfdən bunun obyektiv səbəbi vardır. Çünki Şeyx Səfiəddinin həyatı haqqında kifayət qədər mənbə və məlumatlar mövcud deyil. Mövcud olan mənbə məlumatlarına isə müxtəlif prizmalardan yanaşılması və ya onların müxtəlif mövqelərdən dəyərləndirilməsi heç də obyektiv mənzərənin formalaşdırılmasına imkan verməmişdir.

Şeyx Səfiəddinin həyatı və fəaliyyəti ilə bağlı əsaslı mənbə İbn Bəzzaz (Dərvüş Təvəkkülü ibn İsmayıl ibn Hacı Məhəmməd) tərəfindən yazılmış "Səfvətüs-səfa" əsəridir. Kifayət qədər həcmli olan bu əsər hətta Səfəvilər dövründə və sonra da Şeyx Səfiəddin haqqında verilən məlumatların başlıca mənbəyi olmuşdur. Burada verilən məlumatların obyektivliyinin yoxlanılması və ya tamamlanması üçün digər mənbələrdə elə də ciddi məlumatlarla rastlaşmaq çətindir.

“Səfvətüs-səfa” əsəri Şeyx Səfiəddinin dünyasını dəyişməsindən sonra, onun oğlu Şeyx Sədrəddinin sifarişi və nəzarəti altında yazılmışdır. Əsər elə indi də tədqiqatçılar tərəfindən Şeyx Səfiəddin haqqında əsas mənbə kimi qəbul edilməkdədir. XVI əsrdə isə bu əsər Şah Təhmasibin fərmanı ilə Azərbaycan türkcəsinə tərcümə edilmişdir. Adı çəkilən əsərdə Şeyx Səfiəddin haqqında verilən məlumatların demək olar ki, hamısı bu zəka sahibini tanıyan şahidlərin dilindən, onların söylədikləri əsasında öz əksini tapmışdır. Bu da söylənilən məlumatlarda müəyyən subyektiv münasibətə, müəyyən təhriflərə yol verilməsinə səbəb ola bilər. Çünki məlumdur ki, söylənilənlərin obyektivliyi onu söyləyənlərin hafizəsində məlumatın necə saxlanmasından asılıdır. Digər tərəfdən, məlumatı verənin Şeyx Səfiəddinə olan münasibəti də verilən məlumatın keyfiyyətinə öz təsirini göstərə bilərdi.

“Səfvətüs-səfa” əsərində məlumatların çoxu hekayət və rəvayət şəklində verilmişdir. Bu üsulun seçilməsi dövrün yazılı ədəbiyyat ənənələrindən irəli gəlsə də, bir çox hallarda əsərdə öz əksini tapmış məlumatlar daha çox elə rəvayət təəssüratı yaradır. Ona görə bu rəvayətlərin obyektiv məlumatlar kimi qəbul edilməsi tədqiqatçılarda müəyyən çətinliklər yarada bilər. Çünki bir çox hallarda doğru olan məlumatla rəvayət xarakteri daşıyan məlumat arasındakı sərhədi müəyyənləşdirmək qeyri-mümkün olur.

“Səfvətüs-səfa”nın bir xüsusiyyəti də ondan ibarətdir ki, bu əsərin müxtəlif dövrlərə aid olan əlyazma nüsxələrinə müəyyən dəyişikliklər və əlavələr edilmişdir. Bu dəyişikliklərin məqsədyönlü şəkildə, bəzi hallarda isə Şeyx Səfiəddinin şəxsiyyətinə olan münasibətlə əlaqədar edilməsi güman edilir. Məlumdur ki, hətta Şah Təhmasib də bu əsərin təkmilləşdirilməsi haqqında fərman vermişdi. İstənilən halda həmin dəyişikliklər Şeyx Səfiəddinin həyat yolu və fəaliyyəti haqqında fərqli qənaətlərin ortaya çıxmasına səbəb olur. Ona görə “Səfvətüs-səfa” əsərinə istinad zamanı bu məqamın mövcudluğu nəzərə alınmalıdır. Bununla belə, “Səfvətüs-səfa” əsəri Şeyx Səfiəddinin həyat yolunun öy-

rənilməsi üçün qiymətli bir qaynaqdır və diqqətlə yanaşılacağı halda ondan dəyərli məlumatları əxz etmək mümkündür.

Bütünlükdə, Şeyx Səfiəddinin həyatının əhatəli və sistemli şəkildə tədqiq edilməsinə elmi-tarixi ehtiyac vardır və təqdim olunan kitab da bu istiqamətdə irəli atılmış addımlardan biridir.

Kitabın hazırlanmasında göstərdikləri dəyərli kömək və məsləhətlərinə görə müəllif professor Aydın Abiyə (Abıyevə), tarix üzrə elmlər doktoru Eynulla Mədətliyə, filologiya üzrə fəlsəfə doktoru Teymur Sadıqova, kitablln ədəbi redaktəsininin zəhmətini öz üzərinə götürmüş Mərhəmət Abiyevə səmimi minnətdarlığını bildirir.

# I FƏSİL. ŞEYX SƏFİƏDDİNİN NƏSLİ VƏ UŞAQLIQ İLLƏRİ

## 1. Şeyx Səfiəddinin ulu əcdadları

Səfəvi xanədanının Azərbaycan tarixində və bütünlükdə Şərqdə tanınması Səfəvilər sülaləsinin banisi sayılan Şeyx İsaq Səfiəddin Ərdəbilinin adı ilə bağlıdır. Şah İsmayıl tərəfindən XVI əsrin əvvəlində əsası qoyulan Səfəvilər dövlətinin adı da Şeyx Səfiəddinin adından qaynaqlanır. Zəmanəsinin böyük zəka sahibi olan Şeyx Səfidəddin həm də Səfəvilər təriqətinin yaradıcısı idi və bu təriqət ətrafında formalaşan ictimai-dini fikirlər sonradan siyasi məzmun kəsb etməklə yeni dövlət qurulması uğrunda aparılan mübarizənin ideoloji istiqamətlərindən birinə çevrildi.

Şeyx Səfiəddinin ölümündən sonra onun həyat və fəaliyyəti haqqında İbn Bəzzazın yazdığı "Səfvətüs-səfa" əsərində bu böyük mürşidin və irfan sahibinin dünyaya gəlişi islam peyğəmbərinin müqəddəs hədislərindən biri ilə əlaqələndirilmişdir. Həmin hədisə görə, həzrət peyğəmbər bildirirmiş ki, hər yüz ilin əvvəlində islam dininin təbliğini və canlandırılmasını öz üzərinə götürəcək bir təriqət və mərifət sahibi meydana gələcək və insanlar arasında haqqa dəvət yolunu tutacaqdır. Həzrət peyğəmbərin bu hədisinin təsdiqi kimi, adı çəkilən əsərdə bildirilir ki, hicrətin birinci əsrində imam Cəfər, ikinci əsrində Əbülfeyz Misri, üçüncü əsrində Seyid Əbülqasım ibn Cüneyd, dördüncü əsrində Şeyx əbu Əli əl Dəqqaq, beşinci əsrində Şeyx Nəsr ibn İbrahim, altıncı əsrində Şeyx Şəhabəddin Ömər Sührəverdi və yeddinci əsrində Şeyx Səfiəddin düynana gəlmiş və islam dininin və elminin yaşadılması və canlandırılması sahəsində şeyxlik və zahidlik missiyasını həyata keçirmişlər (1). Yəni Şeyx Səfiəddin islam aləmində bütün dövrlər üçün son dərəcə böyük məqam sahibi olan bir zahid və irfan əhli kimi tanınmış və tanınmaqdadır.

Şeyx Səfiəddinin əcdadlarının kökünün peyğəmbər nəslinə qədər gedib çatdığı bildirilir və bu xanədanın dərin etiqad sahibi olması mənbələrdə xüsusi olaraq qeyd edilir. Şeyx Səfiəddinin

nəsil şəcərəsinin peyğəmbər nəslinə bağlanması elmi-tarixi ədəbiyyatda bir sıra müəlliflər tərəfindən birmənalı şəkildə qəbul edilməsə də mənbələrdə Şeyx Səfinin əcdadlarının nəsil şəcərəsi belə göstərilmişdir: Şeyx Səfidəddin ibn (oğlu) Şeyx Əminəddin Cəbrayıl ibn Qütbəddin ibn Səlahəddin ibn Məhəmməd əl-Hafiz ibn Əvəz ibn Firuzşah Zərrin Kolah ibn Məhəmməd ibn Şərəfşah ibn Məhəmməd ibn Həsən ibn Seyid Məhəmməd ibn İbrahim ibn Seyid Cəfər ibn Seyid Məhəmməd ibn Seyid İsmayıl ibn Seyid Məhəmməd ibn Seyid Əhməd Ərabi ibn Seyid Qasım ibn Seyid Əbülqasım Həmzə ibn Musa əl-Kazım ibn Cəfər əs-Sadiq ibn Məhəmməd Bağır ibn Zeynalabdin ibn Hüseyn ibn Əli ibn Əbu Talib (2).

"Səfvətüs-səfa" əsərində isə Şeyx Səfiəddinin şəcərənaməsi belə göstərilmişdir: "Əbülfəth Səfiəddin İshaq ibn Seyid Əminəddin Cəbrayıl ibn əs-Seyid Saleh ibn əs-Seyyid Qütbəddin Əhməd ibn əs-Seyyid Səlahəddin Rəşid ibn əs-Seyyid Məhəmməd əl-Hafiz Kələmullah ibn əs-Seyyid Əvəz əl-Xəvas ibn əs-Seyyid Firuzşah Zərrinkülah ibn əs-Seyyid Məhəmməd ibn əs-Seyid Şərəfşah ibn əs-Seyyid Məhəmməd ibn əs-Seyyid Həsən ibn əs-Seyyid Məhəmməd ibn əs-Seyyid İbrahim ibn əs-Seyyid Cəfər ibn əs-Seyyid Məhəmməd ibn əs-Seyyid İsmayıl ibn əs-Seyyid Məhəmməd ibn əs-Seyyid Əhməd Əl-Ərabi ibn əs-Seyyid Əbu Məhəmməd əl-Qasim ibn əs-Seyyid Əbülqasim Həmzə ibn imam əl-Hümam Musa əl-Kazım ibn əl-imam Cəfər əs-Sadiq ibn əl-imam Məhəmməd əl-Bağır ibn əl-imam Əli Zeynəlabidin ibn əl-imam əs-seyyidüş-şühəda əbi Abdullah əl-Hüseyn ibn əl-əmirəl-mömünin və imaməlmüttəqin Əsədüllahol-ğalib Əli ibn Əbu-Talib (3).

"Səfvətüs-səfa" əsərinin fars dilində olan variantında bu şəcərənamə bir qədər fərqli şəkildə verilmişdir: "Şeyx Səfiəddin Əbülfəth İshaq ibn Şeyx Əminəddin Cəbrayıl ibn Saleh ibn Qütbəddin Əbubəkr ibn Səlahəddin Rəşid ibn Məhəmməd əl-Hafiz Kələmullah ibn Əvəz ibn Piruz Kürdi əl-Səncəri (Piruzşah Zərrinkülah) ibn Məhəmməd Şərəfşah ibn Məhəmməd ibn Həsən ibn Məhəmməd ibn İbrahim ibn Cəfər ibn Məhəmməd

İsmayıl ibn Məhəmməd ibn Əhməd Ərabi ibn Əbu Məhəmməd əl-Qasim ibn Əbülqasim Həmzə ibn imam əl-hümam Musa əl-Kazım ibn əl-imam Cəfər əs-Sadiq ibn əl-imam Məhəmməd əl-Bağır ibn əl-imam Əli Zeynəlabidin ibn əl-imam əs-seyyi-düş-şühəda əbi Abdullah əl-Hüseyn ibn əl-əmirəl-mömünin və imaməlmüttəqin Əsədüllahül-ğalib Əli ibn Əbu-Talib (4).

Şeyx Səfiəddinin əcdadları ilə bağlı göstərilmiş bu şəcə-rənamələr, göründüyü kimi, bir-birindən fərlənməkdədir. Burada ilk növbədə diqqəti cəlb edən Şeyx Səfiəddinlə onun nəslinin bağlandığı güman edilən imam Musa əl-Kazım arasında neçə nəslin dəyişməsidir. Doğrudur, Şeyx Səfiəddinin nəslinin imam Musaya bağlılığının doğruluğu elmi ədəbiyyatda heç də birmə-nalı qəbul edilmir (bu barədə aşağıda danışılacaqdır). Bununla belə, müxtəlif mənbələrdə Şeyx Səfiəddin ilə imam Musa əl-Kazım arasında neçə nəsil olması haqqında müxtəlif rəqəmlər göstərilməkdədir. Yuxarıda göstərilən şəcərənamələrdə Şeyx Səfiəddinlə imam Musa əl-Kazım arasında 18, 19 və 20 nəsil olduğu göstərilmişdir. Elə şəcərənamələr də mövcuddur ki, orada Şeyx Səfiəddinin 15 nəsildən sonra imma Musa əl-Kazıma bağlandığı göstərilmişdir (5).

Şeyx Səfiəddinin nəsli ilə bağlı məlumatlar, bir qayda olaraq "Səfvətüs-səfa" əsərindən götürülür. Amma ola bilsin ki, bəzi hallarda diqqətsiz müraciət belə fərqliliyin ortaya çıxmasına yol açmışdır. Onu da qeyd etmək lazımdır ki, adı çəkilən əsərin özündə də Şeyx Səfiəddinin şəcərəsi ilə bağlı sual doğuracaq məqam vardır. Elə yuxarıdakı şəcərənamə də buna misal ola bilər. "Səfvətüs-səfa" əsərinin fars dilində olan mətni ilə bu əsə-rin XVI əsr tərcüməsi Şeyx Səfiəddinin şəcərəsini fərqli şəkildə vermişdir. "Səfvətüs-səfa"da Şeyx Səfiəddinin şəcərəsi ilə bağlı sual doğuracaq məqam yanız bundan ibarət deyil. Bu əsərdə Şeyx Səfiəddinin babasının kim olması haqqında tam aydın olmayan məlumatla rastlaşmaq mümkündür (bu məqama da aşağıda toxunulacaqdır). Elə Şeyx Səfiəddinin ulu babası sayılan Firuz şah Zərrinkolahın etnik mənsubiyyəti haqqında da elmi ədə-biyyatda mübahisəli fikirlər mövcuddur.

Hər halda onu qeyd etmək lazımdır ki, Şeyx Səfi təzkirəsindən Şeyx Səfiəddinin yuxarıda verilmiş şəcərəsi (bəzi hallarda onun babasının olduğu iddia edilən Saleh istisna olmaqla) istər mənbələrdə, istərsə də elmi ədəbiyyatda daha tez-tez təkrarlanmaqdadır. Ona görə Şeyx Səfiəddinin nəsil şəcərəsinin daha real variantı kimi bu varianta istinad etmək mümkündür.

Bununla belə, bu şəcərə sıralanmasının nəyə əsaslanması barəsində "Səfvətüs-səfa" əsərində ciddi tarixi əsaslar ortaya qoyulmamışdır. Ona görə də bu sıralanmanın etibarlılığı bu günün özündə də tədqiqatçılar arasında da müəyyən suallar doğurmaqdadır (6). Məsələn, yuxarıdakı şəcərənamələrin birində Firuzşahın əcdadlarından biri kimi Məhəmməd Şərəfşah da ayrıca bir bənd kimi göstərilmişdir. Digər şəcərənamədə isə Məhəmməd və Şərəfşah ayrı-ayrı adamlar kimi göstərilmişdir. Bunu Firuzşahın əcdadlarından olan Məhəmməd İsmayıla da aid etmək olar. Bu məsələnin tam şəkildə aydınlaşdırılması üçün "Səfvətüs-səfa"da hər hansı bir qeyd yoxdur. Ümumiyyətlə, Firuzşahdan əvvəl gələn şəcərə üzvləri haqqında hər hansı bir məlumatla rastlaşmaq mümkün deyildir. Çox güman ki, "Səfvətüs-səfa" əsərinin müəllifi və ona bu əsərin yazılmasında yaxından kömək etmiş Şeyx Səfiəddinin oğlu Şeyx Sədrəddinin də bu barədə hər hansı bir məlumatı olmamışdır. Əgər onların qaneedici məlumatları olsaydı, yəqin ki, həmin məlumatlar əsərdə də öz əksini tapardı. Görünür, elə ona görə də, İbn Bəzzaz "Səfvətüs-səfa" əsərində Şeyx Səfiəddinin əcdadları ilə bağlı məlumatları Firuzşahdan başlamışdır.

Göründüyü kimi, Şeyx Səfiəddinin nəsil şəcərəsi imam Musa əl-Kazıma bağlanılır və mənbələrdə göstərilir ki, imam övladlarından sonra bu nəslin ilk tanınmış üzvlərindən biri Firuzşah idi. Onun haqqında mənbələrdə müəyyən məlumatlara da rast gəlmək mümkündür. Həmin məlumatlara görə, Şeyx Səfiəddin nəslinin Ərdəbildə məskunlaşması da onun yeddinci (bəzi məlumatlara görə isə altıncı) babası Firuzşahın adı ilə bağlıdır və onun Ərdəbildə məskunlaşması təxminən VIII-IX əsrlərə aid edilir.

Mənbə məlumatlarına əsasən, VIII əsrdə yaşamış təriqət sultanlarından olan İbrahim Ədhəmin övladlarından biri Qafqazda, Azərbaycanda, Azərbaycanın Aran və Muğan bölgələrində islam dininin yayılması üçün cihada qalxmışdı. Bu bölgədə yaşayan əhali o zamanlar həm xristian dininə, həm də atəşpərəstliyə sitayiş edirdi. İslam dini bu ərazilərdə bərqərar edildikdən sonra İbrahim Ədhəmin cihada qalxmış övladı tərəfindən Firuzşah Ərdəbilin və onun ətrafının əmiri (hakimi) təyin edilir. "Səfvətüs-səfa" əsərinə istinad edən İsgəndər bəy Münşinin "Tarix-i Aləmara-yi Abbasi" əsərində bu barədə belə yazılmışdır: "Dünyada təriqət sultanı olan İbrahim Ədhəmin oğlanlarından biri ölkə tutmaq bayraqlarını qaldırıb, həmişə qəzavat və cihadla məşğul idi. O zaman Muğan, Arran və o hüdudun xalqı iman bəzəyindən məhrum və islam şərəfindən bəhrəsiz idilər. O mücahid sultan (İbrahim Ədhəmin oğullarından biri) qüvvətli qılıncının atəşi ilə o vilayətin ərazisini islamın nuru ilə işıqlandırıb, qaranlıq və kafirlik adətlərini aradan qaldırdı və zahiri nailiyyət və mənəvi inkişaf cəhətcə dini hökumət və dünyəvi rəyasətə qabil olan Əmir Firuzşahı Ərdəbil vilayətinə və onun ətrafına başçı və əmir [təyin] etdi. [Firuzşahın] o qədər var-dövləti, sərvəti, ilxısı, mal-qarası və qənimətləri var idi ki, Ərdəbil vilayətinə sığmırdı. O, oradan Gilanın kənar meşələrinə gedib, Rəngin [adlı] yerdə iqamət saldı və o vilayətdə dini məsələlər və maarif işləri ilə məşğul olub, bilik və səxavət süfrəsini böyük və kiçiklər üçün açdı" (7).

Bildirilir ki, Firuzşah həm etiqad sahibi olduğu və həm də dünyəvi işlər sahəsində təcrübəyə malik olduğu üçün bu vəzifəyə məsləhət bilinmişdi. Firuzşah da bu əmirliyi bacarıqla yerinə yetirdi və nəticədə kifayət qədər imkanlı və sərvətli bir şəxsə çevrildi. Deyilənə görə, Firuzşahın var-dövləti artandan sonra Xəzər dənizinin cənubunu əhatə edən Gilan vilayətində məskunlaşdı və burada da həm dinin təbliği,, həm də xeyriyyəçilik işləri ilə məşğul oldu. Səfəvilər xanədanının tarixi ilə bağlı olan mənbələrdə Firuzşah xeyirxah və hörmətli bir insan kimi xatırlanmaqdadır (8).

Başqa bir mənbənin verdiyi məlumata görə, soltan İbrahim Ədhəmin oğlu olan Sultan Ədhəm Ərdəbil ətrafında yaşayan Firuzşah haqqında əvvəldən məlumatlı olmuş və bölgəyə gələndə özü onun görüşünə yollanmışdır. Firuzşah haqqında hətta belə söz-söhbətlər də yayılırmış ki, guya o öz nüfuzundan və gücündən istifadə etməklə ölkədə hakimiyyəti ələ keçirməyə çalışır. Bu barədə soltan Ədhəmə də yerli-yersiz məlumatlar çatdırılırmış. Soltan Ədhəmin sözlərinə görə, o heç zaman bu söhbətlərə inanmırmış. Nəhayət, o özü Firuzşahla görüşmək qərarına gəlir və ona görə də Ərdəbilə doğru səfərə başlayır. Firuzşah öz müridləri və yaxınları ilə tezliklə  böyük ehtiramla Sultan Ədhəmi qarşılanmağa çıxır. Sultan Ədhəm onun evində qonaq olur və Firuzşahın irfan əhli olması, böyük hörmət və nüfuz qazanması haqqında eşitdiklərini söyləyir. Sultan Ədhəm sonradan bildirirdi ki, görüşləri zamanı onun hakimiyyət niyyətində olmasını heç də hiss etmədi. Əksinə, özü ona hakimiyyət təklif edir. Firuzşah da onun təklif etdiyi hakimiyyətdən imtina edir. Belə olanda Soltan Ədhəm ona and verir ki, heç olmasa Ərdəbili tiyul kimi qəbul etsin. Onda Firuzşah edilən xahişi rədd edə bilmir. Bu xahiş qəbul olunduqdan sonra öz papağını çıxarıb Firuzşahın başına qoyur və onu "Firuzşah Zərrinkolah" (zərpapaqlı) adlandırır (9).

Firuzşah (Şeyx Səfiəddinin peyğəmbər nəslinə bağlılığı və Firuzşahın etnik mənsubiyyəti ilə bağlı elmi dövriyyəyə çıxarılmış bəzi məlumatlara sonrakı fəsillərdə münasibət bildiriləcəkdir) dünyasını dəyişəndən sonra oğlu Əvəzşah onun işlərini və vəzifəsini davam etdirir. Amma atasından fərqli olaraq Əvəzşah yenidən Ərdəbil ətrafında məskunlaşmağı qərara alır. O, müridləri və qohum-əqrəbası ilə Ərdəbilin İsfərəncan kəndinə gəldi və bu kənddə yaşamağa başlayır. Əvəzşah da mənbələrdə müdrik və xeyirxah bir insan kimi xatırlanır və bunun nəticəsi idi ki, onun ətrafına müridlər də toplaşmışdı.  Onun da işlərini sonradan oğlu Məhəmməd əl-Hafiz davam etdirir. Məhəmmədin də hələ kiçik yaşlarından islam elminə bağlılığı haqqında məlumatlar yer alır. Hətta belə bir məlumat da var ki, yeddi yaşında ikən Məhəmməd evdən qeyb olur və nə qədər axtarırlarsa onu

tapa bilmirlər. Harada olması barədə xəbər çıxmayanda onun dünyasını dəyişməsi güman edilir və hətta ona yas mərasimi də qurulur, ehsan verilir. Bir də yeddi ildən sonra Məhəmməd evinə qayıdır və ondan harada olmasını soruşanda cavab verir ki, xəlvətə çəkilərək islam elminin öyrənilməsi ilə məşğul olmuşdur. Mənbələrə görə, Məhəmməd xəlvətə çəkilməsini müsəlman cinlərin köməyinə bağlayırdı və bu cinlər tərəfindən onun xəlvətə aparıldığı bildirilirdi. Hər halda məlumata görə, xəlvətdə olduğu yeddi il ərzində Məhəmməd "Quran"ı bütünlüklə əzbərləmiş və fəzilətlərə yiyələnmişdi. Məhəmmədin qayıdışı sözsüz ki, böyük sevinclə qarşılandı və o, ata-babasının işlərini davam etdirməyə başladı. Məhəmməd həm dünyəvi, həm də dini işlərdə rəhbərlik səlahiyyətlərinə malik idi və mənbələrdə o da ətrafında çoxlu müridləri olan mürşid kimi xatırlanmaqdadır. Onun həm də mömin və ədalətli bir insan olduğu bildirilir (10). "Bir müddətdən sonra o [Əvəzşah], səxavət və bilik evindən ənam süfrəsini yığıb axirət müsafirxanasında mənzil seçdikdən (öldükdən) sonra onun misilsiz oğlu Məhəmməd əl-Hafiz mərhəmətli atasının yerinə keçdi. Əcaib hadisələrdən [biri] odur ki, o, yeddi yaşında ikən atası evindən qeyb və yox oldu. Bu xanədanın qohumları nə qədər axtarsalar da, onu tapa bilmədilər və onun yoxluğundan məyus olub, ona yas tutdular. Yeddi il bitəndən sonra o, on dörd gecəlik ay kimi, cövza bürcündə, boynundan bir «"Quran"» asıldığı halda atası evinin qapısında göründü. Onun qeybliyi zamanında ağlayan və inildəyən o ali sülalənin xidmətçiləri və müridləri öz gözlərini o kəramət asimanının bədrlənmiş ayının mübarək görüşü ilə işıqlandırdılar, onların yası və matəmi şadlıq və şənliyə çevrildi. Onun əhvalatından soruşdular. [O] dedi ki, bir neçə həqiqət və doğruluq yolu ilə gedən müsəlman cinlər məni öz yanlarına apardılar, mehribanlıq və səmimiyyət qapılarını üzümə açıb, mənə şəriəti öyrətdilər və «"Quran"»ı əzbərlətdilər. Bu yeddi ildə mən onların arasında fəzilətlərə yiyələndim və nəhayət, indi vətənə gəldim. Müridlər onun mübarək qədəmlərini dini və dünyəvi səadətə səbəb bilib, [onu] böyük babalarının rəhbərlik taxtında oturtdular. O da öz ali mənşəli əcdadlarının

gözəl adətlərini davam etdirib, kamil möminlik və haqq ilə işlərini görərək, xalqa rəhbərlik və mürşidlik etməyə başladı" (11).

Bəzi mənbələrdə Məhəmmədin itməsi rəvayət kimi təsvir edilmişdir. Məsələn, bildirilir ki, bir gün Əvəz evinin həyətində şagirdlərinə dərs verirmiş və oğlu Məhəmməd də bu dərsdə imiş. Bu vaxt evinin bir tərəfindən güclü ağlaşma səsi eşidilir. Amma bu ağlaşmanın kimlər tərəfindən edildiyi görünmür. Həmin anda Məhəmmədin səsi eşidilir ki, ay ata, məni apardılar. Bununla Məhəmməd qeyb olur və nə edirlərsə onu tapa bilmirlər. Təəccüb və anlaşılmazlıq içərisində qalan Əvəz və onun müridləri bu itkiyə pərişan olub göz yaşı töksələr də bir nəticə hasil olmur. Onda, Əvəz deyir ki, mən övladımı Allaha tapşırdım və ümid edirəm ki, onunla bir də görüşə biləm. Beləcə 7 il ötür və bir gün Əvəz öz hücrəsində Allaha müraciətlə iltimas edir ki, oğlunu ona yetirsin. Bu zaman Əvəz əvvəlcə gülüş səsləri eşidir. Mənbələrdə bu gülüş səsinin cinlərə məxsus olduğu bildirilir. Sonra da oğlu onun qarşısında zühur edir. Məhəmmədin başında zərli papaq, belində zərli bir kəmər, boynunda həmayil var imiş. Atası üz-gözündən öpərək harada olmasını, qeyb olduğu zaman eşidilən ağlaşma səslərinin, zühur edərkən gülüş səslərinin sirrini ondan soruşur. Məhəmməd də ona bildirir ki, itməsinin səbəbi cinlər tərəfindən oğurlanması olmuşdu. Onun sözlərinə görə, cinlər padşahının 7 yaşında bir oğlu itkin düşübmüş. Cinlər padşahı öz cinlərindən tələb edir ki, onu tapsınlar. Bu axtarış zamanı cinlər Məhəmmədlə rastlaşırlar. Məhəmməd cinlər padşahının övladına oxşadığı üçün onun aparılması qərara alınır. Cinlər padşahı bildirir ki, Məhəmmədi yanında saxlayacaq. Əgər övladı tapılarsa, Məhəmməd geri qaytarılacaq. Əks təqdirdə Məhəmməd birdəfəlik onun yanında qalmalı idi. Cinlərin yanında olduğu müddətdə ona təlim verilir və bu müddət ərzində müqəddəs "Quran" kitabının oxunması öyrədilir. Əvəz Allaha üz tutaraq övladının qayıtmasını iltimas edəndə cinlər padşahı onun səsini eşidir və Məhəmmədin geri qaytarılmasına razı olur. Beləliklə, Məhəmməd də öz ailəsinə qovuşur (12).

Məhəmmədin işlərini davam etdirən Səlahəddin Rəşid də əcdadlarına xas olan keyfiyyətlərə malik bir insan idi. O da həm idarəçilikdə, həm fəzilətdə, həm də xeyirxahlıqda ədalətli, bilikli və səxavətli bir şəxs kimi xarakterizə olunur. Mövcud məlumatlara görə, Səlahəddin halal zəhmətə üstünlük verər və özü də əkinçiliklə məşğul olarmış. Hətta müridlərinin gətirdiyi nəzir və niyazlardan uzaq qaçar və çalışarmış ki, öz zəhməti ilə özünü və ailəsini dolandırsın. Bu mənada o həm zahid və həm də pəhrizkar bir fəzilət sahibi kimi tanınırdı. Səlahəddin Rəşid sonradan ailəsi və müridləri ilə Ərdəbilin yaxınlığındakı Kəlxoran kəndinə köçdü. Səfəvilər xanədanının sonrakı bir neçə təmsilçisi bu kənddə yaşadı və yuxarıda qeyd edildiyi kimi, Şeyx Səfiəddin də bu kənddə anadan olmuşdur (13).

Səlahəddin Rəşidin işlərini onun oğlu Seyid Qütbəddin davam etdirir. Seyid Qütbəddin də irfan sahibi olmaqla çoxlu sayda müridləri və yaxınları arasında islam elminin öyrədilməsi və təbliği ilə məşğul idi. Onun xeyli müridi olması mənbələrdə də qeyd olunur (14). Bildirilir ki, Seyid Qütbəddin müqəddəs və mütəşəkkil dəstənin başçısı və rəhbəri oldu. Bu da onu deməyə əsas verir ki, Seyid Qütbəddinin zamanında bu irfan sahibinin ətrafında kifayət qədər təşkilatlanmış bir məktəb mövcud idi və Seyid Qütbəddin də onları öz mərhəmət və məhəbbət qanadının altına alaraq haqq yolu ilə aparırdı. Mənbələrdə xüsusi olaraq bildirilir ki, bu zaman Seyid Qütbəddin öz əcdadlarının yolunu davam etdirir və onun müridləri də bu yolda olmağı özlərinə şərəf bilirdilər.

Seyid Qütbəddinin həyatı XIII əsrin əvvəllərinə təsadüf edir və həmin vaxt Azərbaycan əraziləri gürcü qoşunlarının basqınlarına məruz qalmışdı. Gürcü qoşunları öz talançı yürüşləri ilə Ərdəbilə qədər gəlib çıxmışdılar. 1210-1211-ci illərdə baş verən bu hücum zamanı bölgə əhalisi çox böyük dağıntı və qırğınlarla qarşılaşmalı oldu. Gürcü qoşunları Təbrizdən keçməklə Ərdəbilə doğru irəliləyir. Bu şəhərin 12 min nəfər əhalisi gürcülər tərəfindən məhv edilir, şəhər əhalisi çox böyük talanlara məruz qalır və hüdudsuz məhrumiyyətlərlə qarşılaşır (15).

Mənbələrdə bildirilir ki, 12 min nəfərlik gürcü qoşunun Kəlxoran kəndi istiqamətində yürüşü haqqında məlumat alınanda Seyid Qütbəddin qadınların və uşaqların müdafiəsi üçün onları Ərdəbilə köçürtdü və özü də müridləri ilə birlikdə bu şəhərə üz tutdu. Gürcülər şəhərdə talanlarla məşğul olduğu zaman Seyid Qütbəddin pənah apardığı yerdən kənara çıxan kimi hücuma məruz qaldı və qılınc zərbəsi aldı. Gürcülər onun bu zərbədən sonra dünyasını dəyişdiyini güman edərək oradan uzaqlaşdılar. Amma müridləri onu taparaq müalicəsinə başladılar və o da tezliklə şəfa tapıb öz mürşidliyini davam etdirdi. "Tarix-i aləmara-yi Abbasi" əsərində Seyid Qütbəddinlə bağlı aşağıdakı qeydlər vardır: "Onun əziz oğlu Əmir Qütbəddin yüksək rütbəli atasının yerinə keçdi. O, müqəddəs, mütəşəkkil dəstənin başçısı və rəhbəri oldu. [O], bu sülaləyə mənsub olanları öz mərhəmət və məhəbbət qanadı altına alıb, böyük əcdadlarının adəti üzrə haqq yolu ilə getmək istəyənləri düzgün yolla aparmağa başladı. Müridlər o səadət dairəsinin qütbünə və kəramət fələyinin məhvərinə xidmət etməyi öhdələrinə götürməyi lazım bildilər. O seçilmiş xasiyyətli əmirin həyatı zamanı gürcü hakimlərindən biri kafir gürcü qoşunlarının bir dəstəsi ilə qəfildən Ərdəbil vilayətinə basqın etdi. O azğın dəstənin hücumundan müsəlmanlara çox ziyan dəydi. Əmir Qütbəddin o təhlükənin qorxusundan, ismət pərdəsi arxasında oturanları (qadınları) darülirşada [Ərdəbilə] köçürüb, möhkəm yerdə gizlətdi. Günün axırında [yolunu] azmışların vəziyyətindən bir xəbər əldə etmək üçün gizləndiyi yerdən çıxan zaman kafirlərdən biri yetişib, o sərvərə ağır bir yara vurdu. O da yaralanaraq və inildəyərək, öldürülmüş [adamların] arasına düşdü. O qorxunc hadisə sovuşduqdan sonar cərrahlar [onu] müalicə etdilər, yara sağaldı və mübarək şəxs salamat qaldı. O əhvalatdan sonra bərəkətli və səxavətli nəsihət və rəhbərlik taxtı bəzənib, xalqın mürəkkəb və çətin işləri onun dürr tökən dilinin bəyanatından aşkar olurdu. O, özünün gözəl təbiətli, mübarək nəsəbli nəvəsi Səfi əl-həq vəl-həqiqə vəd-din İshaqın səadətli təvəllüdü zamanında sağ və həyatda olub, bir neçə il o əzizi görməklə gözünü işıqlandırmışdır" (16).

"Alәmara-yi Şah İsmayıl" isә bu hadisәni belә tәsvir edir: “Baqrat xan Gürcüstanın çarı olduqdan sonra bölgәyә hücum etdi. O, peyğәmbәr dinini öyrәdәn Seyid Qütbәddinin vә onun müridlәrinin öldürülmәsi üçün 12 min nәfәrlik qoşunla Kәlxoran kәndi üzәrinә yürüşә başladı. Seyid Qütbәddin bu xәbәri eşidәndә ailә üzvlәrini, qadınları, müridlәrini, ümumәn, 10 min nәfәri toplayıb Әrdәbilә sığındı. O, Әrdәbildә öz müridlәrini yerli әhalinin evlәrindә gizlәtdi. Baqrat xan bir aydan sonra Kәlxorana yetişdi vә kәndin boşaldıldığını gördü. Seyid Qütbәddin haqqında soruşduqda isә ona bildirdilәr ki, Әrdәbilә yollanıbdır. Bu xәbәri alınca Baqrat da qoşunu ilә Әrdәbilә yollandı. Gürcü qoşunları 3 gün şәhәrdә qәtl vә qarәtlә mәşğul oldu. Dördüncü gün gürcü qoşunları şәhәr kәnarına çәkildikdә Seyid Qütbәddin dә pәnah apardığı evdәn bayıra çıxdı ki, müridlәrinin vәziyyәtindәn bir xәbәr tutsun. Bu zaman tәsadüfәn şәhәr küçәlәrindә olan bir gürcü silahlısı onu gördü vә әlindәki nizә ilә ona zәrbә vurdu. Mәnbәdә xәbәr verilir ki, bu zaman yaxınlıqdakı evin damından bir xanım bu mәnzәrәni seyr edirmiş. Seyid Qütbәddini tanıyan bu xanım onun yaralanmasından çox müәtәәssir olur vә elә evin damından әlinә keçәn bir kәrpici gürcü döyüşçüsünün başına çırpır. Bundan sonra xanım Seyid Qütbәddinin yaralanması haqqında evin kişisinә xәbәr verir vә onlar Seyidi evә gәtirirlәr. Eyni zamanda onun müridlәrinә xәbәr göndәrildi. Müridlәr yetişib onun yarasının müalicәsinә başladılar. Amma bu müalicә ciddi nәticә vermәdi vә üç gündәn sonra Seyid Qütbәddin dünyasını dәyişdi. Amma dünyasını dәyişmәzdәn әvvәl Seyid Qütbәddin oğlu Seyid Cәbrayılı yanına çağırıb öz mәqamını ona hәvalә etdi, ona vәsiyyәtini vә nәsihәtlәrini çatdırdı (17).

Bu mәnbәdә Seyid Qütbәddinin gürcü qoşunlarının hücumundan dәrhal sonra dünyasını dәyişmәsi faktı müәyyәn şübhә doğurur. Çünki elә mәnbәlәrdәn mәlumdur ki, Şeyx Sәfiәddinin dünyaya gәlmәsi Seyid Qütbәddinin sağlığında olmuşdur. Şeyx Sәfinin dünyaya gәlişi isә yuxarıda qeyd edildiyi kimi, XIII әsrin ortalarına tәsadüf edir. Ona görә Seyid Qüttbәddinin vәfatı da XIII әsrin ikinci yarısına tәsadüf etmәlidir.

Qeyd etmək lazımdır ki, "Səfvətüs-səfa" əsərində gürcü qoşunlarının Ərdəbilə yürüşü fərqli şəkildə təsvir edilmişdir. Hətta Seyid Qütbəddinin nizə ilə deyil, qılıncla yaralanması da mənbələrdə öz əksini tapmışdır. "Və bu Seyyid Qütbəddinin bir oğlu Seyyid Əminəddin Cəbrayıl var idi və həzə bir aylıq uşaq idi. Pəs gürcilərin qorxusından əhli və əyalı götürüb Ərdəbil şəhərinə meyl etdi və külfətini anda bir sərdabədə gizlətdi. Bir yıgıt anun qövmindən ol sərdabənün üstində durmiş idi. Nagah bir gürci ol evə girdi. Ol duran yigit gələn gürciyə dolaşub bir-birinə yapışdılar. Yigit ol gələn gürciyi basub öldürdi. Gürci ol halətdə çığırdı, dışxarudakı gürcilər anun ünin eşidüb, avazun həncarına varub, ol evəyə girməyə durdılar. Ol yigit fikir etdi kim, çün evə girələr və əhvalı məlum edələr, sərdabənün adamların görələr, olmaya kim, bir məzərrət anlara dəgə və namusları zaye ola. Ölmiş gürcinün üstindən qalxub, bir kəndu ol sərdabənün üstində durur idi, güc eyləyüb anı sərdabənün dəlügi üsnə saldı, ol qədər kim, sərdabənün dəlügi gözükməz oldı. Amma çün gürcilər içərü girdilər və qələbə irilər və ol yigit yalguz idi. ...İttifaqən ol sərdabə igən dar idi və övrətlər ilən uşağlardan dolu idi. Seyyid Qütbəddin orada sığmaz idi, sərdabədən çıxdı kim, özi içün bir bucağ tapa. Gürcilər anı dutub ayağı üsnə oturtdular və mübarək boynuna bir qılıc çaldılar. Qılıcun zərbindən yüzi quyi düşdi. Tanrınun təqdirindən boynından bir parə ət kəsildi. Amma ol damarlara kim, diriligün səbəbidür, heç məzərrət dəgmədi. Gürcilər anı ölmiş sağınub andan ötdülər. **"Və ma kanə li-nəfsin ən təmutə illa bi iznillahə kitabən müəccilən"** (Allahın izni olmayınca heç kəsə ölüm yoxdur. O, vaxtı müəyyən edilmiş bir yazıdır – Ali-İmran surəsi, 145-ci ayə) mövcibi ilən çün həyatı baqi idi, həm böylə şəhidlərün içində akşamadək qan ilə toprağa bulaşuq qaldı və heç kimsənün xəbəri yok idi. Amma gecədə nəbbas əvbaslar ölüləri soydurmağə dəlüklərdən çıxdılar və ölülərün içində gəzərlərdi. Seyyid Qütbəddinün ünin şəhidlərün içindən eşitdilər, yanına varub tanıdılar, əhvalın sordılar. Dedi: "Şirin damarum səhihdür". Belində kətandan bir qurşaq var idi, çizdilər və Seyyid Qütbəddinin boynı ehtiyat ilə bərk bağladılar. Pəs, naçar qalxdı

və genə həm ol sərdabəyə varmağ əzm etdi kim, əhli ilə əyalı yanuna vara. Yolda gedərkən bir məscidün eşigində bir yaş uşağ ağlar gördi. Sağındı kim, məgər ol həzrətün fərzəndi Əminəddin Cəbrayıldır kim, gürcilər sərdabəyə girüb andakıları aparub, uşağı orada salubdurlar. Bağırı bağırparəsi içün parə-parə oldı. Çün yaxınına vardı, ol dəgül idi, Tanrıya çok-çok şükrlər qıldı" (18).

Seyid Qütbəddin dövrünün və mühitinin çox hörmət edilən adamlarından biri idi. Onun ölümündən sonra nəsil şəcərəsinin kim tərəfindən davam etdirilməsi haqqında mənbələrdə bir dolaşıqlıqla qarşılaşmaq mümkündür. Məsələn, Şeyx Səfi təzkirəsinin bir yerində Seyid Qütbəddinin işlərinin onun oğlu Seyid Əminəddin Cəbrayıl tərəfindən davam etdirildiyi bildirilir (19). Bu əsərin fars dilində olan variantında da həmin fakt təkrar olunur (20). Amma bu əsərlərin başqa bir yerində nəsil şəcərəsi göstərilərkən Əminəddin Cəbrayılın Seyid Qütbəddinin deyil, Seyid Salehin oğlu olması göstərilmişdir (21). "Tarix-i aləmara-yi Abbasi" əsərində də Seyid Qütbəddinin oğlunun Seyid Saleh olması göstərilmişdir. Bu əsərdə Seyid Salehi xarakterizə edən cümlələr də mövcuddur. "Xülasə, o tərifəlayiq xasiyyətli əmirin ölüm vaxtı çatdıqda böyük atalarından miras qalmış və öz mübarək ailəsinin xəzinəsində saxladığı irşad və irfan çiçəklərini və cavahirlərini öz sevimli oğlu Seyid Salehə tapşırıb, [bu] etibarsız aləmlə vidalaşdı, onun pak ruhunun quşu ülvi aləmin zirvəsinə uçdu. Seyid Saleh müqəddəslik və mürşidlik dənizindəki sədəflərdən [çıxan] bir inci idi və düzlük, yaxşılıq və rəhbərlik bürcündəki dürlərdən idi. Gözəl adının mənası onun zahiri görünüşündə öz əksini tapırdı və səadət şüaları onun açıq alnından aydın və aşkar idi. O, ehtiyacı olanların qeydinə öz atalarından daha çox qalırdı, xalqın ona olan hüsn-rəğbəti gündən-günə artırdı. Həmişə füqəra və möhtaclar onun [evinin] səadətli qapısına gəlib-gedirdilər; qətiyyən ona olan müraciətlərin çoxluğundan usanmazdı. O, axirət səfərinə hazırlığa başlayıb, şərəfli ruhu təmiz və vəfalı [adamların] ruhları ilə birləşdi və onun həyat bağının cavan ağacı (oğlu) Seyid Cəbrayıl o həzrəti Kəlxoran darülimanında dəfn etdi" (22).

"Aləmara-yi Şah İsmayıl" əsərində də Seyid Qütbəddinin oğlu kimi Seyid Əminəddin Cəbrayıl göstərilmişdir. Çox güman ki, bu əsərdəki dolaşıqlıq “Səfvətüs-səfa”nın səfihələrində yol verilmiş diqqətsizlikdən irəli gəlmişdir.

Qeyd etmək lazımdır ki, Seyid Qütbəddinin oğlunun kim olması istər mənbələrdə, istərsə də elmi-tarixi ədəbiyyatda da araşdırma mövzusu olmuşdur. Bəzi araşdırmaçılar apardıqları tədqiqatlardan sonra belə bir qənaətə gəlirlər ki, Şeyx Səfiəddinin nəsil şəcərəsində Seyid Saleh adlı bir adam olmamışdır. Bildirilir ki, bu adın ortaya çıxması “Səfvətüs-səfa” əsərinin düzgün şərh edilməməsi ilə bağlıdır. Müəllif onu da göstərir ki, bu əsərin nüsxələrindən birində Qütbəddin Əbubəkr fərqli şəkildə, yəni Saleh Qütbəddin Əbubəkr kimi göstərilmişdir. Yəni Saleh əslində elə Qütbəddinin özüdür. Ona görə də Seyid Saleh nəsil şəcərəsinin ayrıca bir bəndi kimi qəbul olunmur (23).

Müəllif bu fikrinin təsdiqi üçün “Səfvətüs-səfa”nın digər nüsxələrində də Salehin mövcudluğu haqqında bir məlumatın olmadığını iddia edir. Lakin Şeyx Səfiəddinin “Səfvətüs-səfa”ya istinadən yuxarıda verilmiş iki şəcərənaməsindən görmək mümkündür ki, həmin əsərdə Salehin mövcudluğu öz təsdiqini tapır.

“Fotuhat-e şahi” əsərinin müəllifi Əmir Sədrəddin İbrahimi Əmini də XVI əsrdə qələmə aldığı əsərində Seyid Saleh məsələsinə münasibətini bildirmişdir. O, “Səfvətüs-səfa” əsərində bu məsələ ilə bağlı doğrudan da dolaşıqlığa yol verildiyini və bu dolaşıqlığın aradan qaldırılması üçün araşdırmalar aparıldığını da qeyd edirdi. O, bəyan edirdi ki, aparılan düzəlişlər onu deməyə əsas verir ki, Şeyx Səfiəddinin Seyid Saleh adlı babası olmuşdur və ona görə də Seyid Salehi Şeyx Səfiəddinlə bağlı nəsil şəcərəsinin bir bəndi hesab edirdi. Müəllif Şeyx Səfiəddinin nəsil şəcərəsində də Seyid Salehə ona aid edilən yeri vermişdir. Şeyx Səfiəddinin atası olan Şeyx Əminəddin bu əsərdə Salehin oğlu kimi göstərilmişdir (24).

“Aləmara-yi Şah İsmayıl” əsərində də Seyid Salehin (mənbələrin heç də hamısında Şeyx Səfiəddinin nəsil şəcərəsinə aid olanlar seyid adlandırılmamışlar) mövcudluğu qəbul olun-

muşdur. Onun həyatına bu əsərdə hətta daha geniş yer verilmişdir. Bu da ondan irəli gəlir ki, Seyid Qütbəddinin gürcülərlə bağlı rastlaşdıqları haqqında yuxarıda qeyd olunanlar “Aləmara-yi Şah İsmayıl” əsərində Seyid Salehin adı ilə bağlanmışdır. Bu əsərdə bildirlir ki, Seyid Saleh gürcülərdən aldığı yara nəticəsində dünyasını dəyişdi və öz yerini oğlu Seyid Cəbrayıla verdi (25).

Amma tədqiqatçılar bu faktın doğruluğunu qəbul etmirlər. Bildirilir ki, “Səfvətüs-səfa”dakı məlumata görə, gürcülər Ərdəbilə hücum edəndə Seyid Cəbrayılın cəmi bir yaşı var idi. Ona görə Seyid Salehin öz yerini bir yaşlı oğluna verməsi inandrıcı deyil (26). Buradan da belə bir qənaətə gəlinir ki, Seyid Salehə aid edilən bu fakt, əslində, Seyyid Saleh Qütbəddinə aid edilməlidir.

“Tarix-i aləmara-yi Abbasi” əsərində Seyid Cəbrayıl belə təsvir olunmuşdur: “Sultan Seyid Cəbrayıl ayıqların və bilicilərin başçısı, Allahı tanıyan səccadədə oturanların ən seçilmişi idi. Dindarlıq, möminlik, pəhrizkarlıq və ibadətdə ali dərəcəyə çatmışdı. Şərəfli atasının adəti üzrə, onun doğulduğu və böyüdüyü yerdə - Kəlxoranda məskən saldı. O diyarın camaatı o nəcib [adamın] müqəddəs nəfəsindən səadət işığı alırdı. Nəhayət, Allahla yaxınlaşmaq həvəsi onu yadlarla söhbətdən və zəmanə əhli ilə münasibətdən çəkindirdi. O, [Allah yolunda] mücahidlik və zahidliyə başlayıb, zahir və batinini irfan nuru ilə bəzəmişdi, sakitliyi sevərdi və xalqla az danışardı. Onun şöhrəti hər tərəfə yayıldıqda tayfa əyanlarının əziz qızlarından bir namuslu, təmiz ürəkli, oruc tutan, gecə namazı qılan və zamanın gözəli olan Dövləti adlı bir qız o ali nəsəbli ilə evlənməyə meyil göstərdi” (27).

"Aləmara-yi Şah İsmayıl"ın verdiyi məlumata görə, Seyid Qütbəddinin sağlığında onun oğlu Seyid Əminəddin Cəbrayıl Şiraza səfər etdi. Bu zaman 30 yaşlarında olan Seyid Əminəddin Cəbrayıl elm və irfan sahibi idi və Şiraz əhli onun dərviş libasında fəzilət sahibi olduğuna şübhə etmədilər. Bu türk dərvişinin kəramətli ailədən çıxmasını eşidincə yerli fazil insanlar ona Şirazda qalmağı, oradakı elm və irfan əhlinin mürşidi olmasını təklif et-

dilər. Seyid Cəbrayıl bu təkliflə razılaşır və hətta orada ailə də qurur. Şirazda onun Seyid Saleh adlı bir övladı da dünyaya gəlir. İki il (bəzi məlumata görə isə daha çox) Şirazda qalandan sonra atasından məktub alır ki, Ərdəbilə qayıtsın. Seyid Cəbrayıl da bu məktubu alandan sonra Ərdəbilə qayıtmalı olur. Ərdəbilə döndükdən sonra Seyid Qütbəddin onu öz yerində görmək istədiyini bildirir. Atasının və anasının təkidlərindən sonra Seyid Cəbrayıl Ərdəbildə qalmağa razı olur. Bundan sonra Seyid Cəbrayıl yeni bir nikah kəsdirməyi də mümkün sayır və bu nikahı anasının seçimi ilə edir. Yaşadıqları kənddə anası Xədicə və Dövlət (bəzi mənbələrdə Dövləti) adlı iki gənc xanım üzərində seçim aparır və Allaha iltimas edir ki, seçimin daha düzgün edilməsi üçün ona bir işarə verilsin. Anası Dövlət üzərində seçim edilməsi ilə bağlı gecə yuxu görür və bununla da ailənin qərarı qətiləşir. Seyid Cəbrayıl elə həmin günlərdə Dövlət xanımla nikah kəsdirir və zamanı yetişəndə Şeyx Səfiəddin dünyaya gəlir. Şeyx Səfiəddin 6 yaşında olarkən atası dünyasını dəyişir və haqq dünyasına qovuşmazdan əvvəl bütün müridlərinə oğlunun mürşidliyini qəbul etməyi vəsiyyət edir (28).

Mənbələrdə Seyid Əminəddin Cəbrayıl xeyirxah, mömin və səmimi bir adam kimi təsvir edilmişdir. Bildirilir ki, o, mübarək bir kişi olmaqla mütədəyyin (mömin), övliyaların söhbətlərini sevən, vaxtının çoxunu isə əkin-biçinlə keçirən bir adam idi. Halal zəhmətlə qazandığı sərvətdən kimsəsizlərə pay ayırmağı heç bir vaxt yaddan çıxarmazdı. Heç vaxt başqaları ilə ixtilafda olmazdı, ibadətini davamlı şəkildə yerinə yetirərdi. Onun kəbin etdirdiyi Dövlət xanım Ərdəbilin Barüq kəndindən olan Bab Camal adlı imkanlı bir adamın qızı idi. Dövlət xanımın da əməli-saleh, mömin bir insan olması, gündüzlər oruc tutub gecələrini ibadətlə keçirməsi haqqında məlumatlar mövcuddur (29). Bu iki nəcib insanın nikahından isə, qeyd edildiyi kimi, Şeyx Səfiəddin dünyaya gəldi.

## 2. Şeyx Səfiəddinin anadan olması və gənclik dövrü

Şeyx Səfiəddin dövrünün və mühititnin sayılıb-seçilən, ehtiramla xatırlanan bir nəslinin davamçısı idi. Amma onun dünyaya gəlişi ilə bu nəslin tarixində tamamilə yeni və şərəfli bir səhifə açıldı. Şeyx Səfiəddin nəinki öz nəslinin adını uca etdi, eyni zamanda islam tarixinin ən tanınmış elm, bilik və kəramət sahiblərindən birinə çevrildi. İrfani biliklərə yeni bir nəfəs gətirən, onu daha da canlandıran bu tarixi şəxsiyyətin dünyaya gələcəyi mənbə müəllliflərinin fikrincə, hələ xeyli əvvəldən islam müqəddəslərinə bəlli idi və bununla bağlı Şeyx Səfiəddinin tarixinə həsr edilmiş "Səfvətüs-səfa" əsərində insan təəccübünə səbəb olacaq neçə-neçə maraqlı hekayətlər öz əksini tapmışdır. Bu hekayətlərin doğruluğunun birmənalı şəkildə təsdiq edilməsi indi mümkün olmasa da, şübhə yoxdur ki, onların qələmə alınması Şeyx Səfiəddinin islam tarixində çox yüksək mərtəbəyə qalxması ilə bağlıdır.

Həmin hekayətlərin birində bildirilir ki, hətta islam peyğəmbəri də belə bir türk oğlunun dünyaya gələcəyini öncədən görürmüş və onu islamın fəxrlərindən biri hesab edirmiş: "Xütənlü Seyyid Cəlaləddin kim, ləqəbi Məşuq ilən məşhur olmuş, dedi kim, Əsfəris dərvazəsinün dışxarısında kim, həzrət Şeyxün (q.s.) mütəhhər mərqədi və zaviyəsi anda vaqe olupdur, Ərdəbilün yazılarında həzrət risalətpənah Məhəmmədi (s.) qalın tabein ilə övliyanun ortasında durmuş vaqiədə gördüm və mübarək əllərin qaldırıb dua eylərdi və yanındakılar qamu amin derlərdi. Sordum kim, həzrət Peyğəmbər (s.) kimin içün dua qılır? Dedilər: "Şeyx Səfiəddin içün". Mən irəlü vardum və həzrət risalətpənahı (s.) ziyarət qıldım və güstaxlığ edüb dedim: "Ya Rəsulüllah, bu duayı kimün içündür və səbəbi nədür?" Vəhyyetürici mübarək ləfzi ilə buyurdı: "Şeyx Səfiəddin içün ki, mənüm dinümi yenidən zinət ilə qüvvət verür" (30).

"Səfvətüs-səfa" əsərində islam təsəvvüfünün zirvələrindən biri sayılan Mövlana Cəlaləddin Ruminin dilindən də Azərbaycan torpağında islamın fəxrlərindən biri olacaq Şeyx Səfiəddinin

dünyaya gəlişi barəsində öncədən xəbər verilmişdir (Mövlana Ruminin Şeyx Səfiəddin haqqında söylədiklərinə aşağıda toxunulacaqdır). Mövlana Rumi də çox böyük sevinc və məmnunluqla bəyan edirdi ki, insanlar arasında islam irşadının gücləndirilməsi, islami dəyərlərin canlandırılması və onların gələcək nəsillərə ötürülməsi üçün Şeyx Səfiəddin kimi bir işıqlı və nurlu insan dünyaya gələcəkdir (31).

"Səfvətüs-səfa" əsərində Şeyx Səfiəddinin dünyaya gələcəyi barəsində bir öncəgörmə də İlvanəqli Pirə Yusifin dilindən verilmişdir. Adı çəkilən əsərdə Pirə Yusif "Məlikül-ibad vəl-övliya" kimi təqdim olunmuşdur. Yəni Pirə Yusif dövrünün tanınan və təqdir olunan bir övliyası kimi məşhur idi. Bu böyük övliya bir dəfə yuxusunda görübmüş ki, gecənin qaranlıq anlarında bir işıq və nur ortaya çıxdı və aləm də bu işıqdan aydınlığa boyandı. Yəni şərqdən böyük bir günəş zühur etdi və onun nuru aləmin dörd tərəfini işığa bürüdü. Pirə Yusif gördüyündən təəccübə düşərək soruşur ki, bu sübhün açılması və günəşin doğması nə ilə bağlıdır? Ona cavab verirlər ki, açılan sübh Şeyx Zahiddir və o, cahanın qaranlığını işığa çevridi. Doğan günəş isə Şeyx Səfiəddindir ki, üfüqləri tərbiyə nuru ilə nurlandırdı (32).

Pirə Yusifin yuxusunun bir mənası da o idi ki, Şeyx Zahidlə Şeyx Səfiəddin biri-digərini tamamlayacaqdır və onlar öz varlıqları ilə islam aləmini yeni bir nura boyayacaqlar. Əslində də belə oldu. Çünki Şeyx Səfiəddin kimi bir təsəvvüf adamının islami dəyərlərə və biliklərə kamil şəkildə yiyələnməsində Şeyx Zahidin xüsusi rolu var idi və onun təlimini və məktəbini keçmədən Şeyx Səfiəddinin malik olduu mərtəbəyə qalxması yəqin ki, çətin ola bilərdi.

Səfəvilər xanədanının əcdadı kimi qəbul edilən Əbülfət Səfiəddin İshaq 1252-ci ildə Ərdəbil yaxınlığındakı Kəlxoran (Kəlxoran) kəndində anadan olmuşdu və buna görə o həm də Şeyx Səfiəddin Ərdəbili Kəlxorani kimi də tanınmışdır. Şeyx Səfiəddini nəslin ulu əcdad sayılan Firuzşahdan 7 nəsil ayırır. Yəni Şeyx Səfiəddinin atası Seyid Əminəddin Cəbrayıl, onun atası Seyid Saleh, onun atası Seyid Qütbəddin, onun atası Seyid Səla-

həddin, onun atası Məhəmməd, onun atası Əvəz və onun da atası Firuzşah. Şeyx Səfiədinin formalaşmasında, əxlaqi dəyərlərə yiyələnməsində bu nəsildən qaynaqlanan dəyərlərin təsirini də inkar etmək yəqin ki, düzgün olmazdı.

"Səfvətüs-səfa"nın müəllifi şahidlərin ifadələrinə istinad edərək yazıdı ki, Səfiəddin dünyaya göz açandan sonra anası üç gün ayağa qalxa bilmədi və həmin günlər ərzində onun gözünə qəribə şeylər görünərdi. Başlıcası isə, Səfiəddin doğulandan sonra onun anasının gözündə şimaldan cənuba, şərqdən qərbə bütün aləm nura boyandı, dilinə isə bir şey vurmadı. Ondan düşdüyü vəziyyətin nə olduğunu soruşanda deyərmiş ki, eşitdiklərimi və gördüklərimi siz görə bilmirsiniz. Sonra da əlavə edərdi ki, dünya üzü elə bir qələbəlik və elə bir avazla əhatə olunub ki, onları dil ilə bəyan etmək mümkün deyil (33).

Səfiəddin ailənin beşinci uşağı idi. Ondan əvvəl onun Məhəmməd, Səlahəddin və İsmayıl adlı üç qardaşı və bir bacısı olmuşdu. Ondan sonra isə Yaqub və Fəxrəddin adlı daha iki qardaşı doğulmuşdu. Yəni Səfiəddin böyük bir ailədə dünyaya gəlmişdi. Səfiəddin altı yaşında olarkən onun atası dünyasını dəyişdi (34). Bundan sonra ailənin güzəranının təmin edilməsində Səfiəddinin də üzərinə müəyyən ağırlıqlar düşdü. Sözsüz ki, ailə qayğıları ilə yaşamaq, gün-güzəranı təmin etmək Səfiəddindən də çoxlu vaxt ayırmasını tələb edirdi. Lakin Səfiəddinin bilik və savad dalınca getməyə, zəmanəsinin tanınmış şeyxlərindən dərs almağa xüsusi bir meyli var idi və bu istiqamətdə bir dönməzlik nümayiş etdirirdi.

Şeyx Səfiəddinin gələcək həyat yolunun müəyyənləşdirilməsində, onun tərəfindən etiqad və elm yolunun seçilməsində ailəsinin təsiri böyük olmuşdu. Belə ki, atası Seyid Cəbrayıl Əminəddin dövrünün tanınmış alimi və mütəfəkkiri, sufi şeyxi və alimi Xacə Kəmaləddin Ərəbşah Ərdəbilinin müridi olmuşdu. Anası Dövləti xatun isə dövrünün tanınmış mütəfəkkiri və fazil insanı Cəmaləddin Baruqinin ailəsində tərbiyə almışdı. Əminəddinin erkən vəfatından sonra ailənin saxlanması ilə bərabər övladların tərbiyəsinin əsas ağırlığı da onun üzərinə düşmüşdü.

Baxmayaraq ki, Səfiəddin ilahiyyat üzrə dərslərini fars və ərəb dillərində alırdı, Azərbaycan ailəsində böyümüş bir insan kimi Azərbaycan dilinin sirlərinə də dərindən bələd idi və məlum olduğu kimi, Azərbaycan dilində şeirlər də yazmışdı. Dövrünün tanınmış ilahiyyatçıları onu hətta türk (Azərbaycan) piri də adlandırırdılar. "O hidayət taxtı sultanının (Seyid Cəbrayılın) sadiq oğlu, safların safı və din başçılarının başçısı Şeyx Səfi əl-millət vəd-dindir. Onun sirri mübarək olsun! Onun ali məqamlarını və gözəl xasiyyətlərini saymaqla qurtarmaz. Onun işıqlı məzarı isə feyz nurunun və tayı-bərabəri olmayan qüdrət sahibinin (Allahın) rəhmətinin qonma yeridir. Yüksək mərtəbəli atasının vəfatından sonra möhtərəm anası o ilahi feyzlə bəslənmişin tərbiyəsi ilə məşğul oldu. Uşaqlıqdan Allahın kəramət nuru onun üzərinə düşmüşdü. Onun mübarək alnından qeybi sirləri açmaq nuru işıldayır və parlayırdı. Həmişə qəbirlərin sirrindən, ölülərin əhvalından və buna bənzər məsələlərdən xəbər vermək kimi qəribə işlər görürdü və anasına nəql edirdi. Anası [isə] ona yüksək mərtəbələrə və ali dərəcələrə çatmaq müjdəsi verirdi. Bir müddət biliyə və zahiri kamilliyə yiyələnməklə məşğul oldu. [Sonra] o, gəzib səyahət etmək və mənəvi aləmin çətinliklərini dərk etmək həvəsinə düşüb, zahidlik və çalışma çölünə qədəm qoydu. Bilirdi ki, kamillik sahibi olan bir mürşidin rəhbərliyi olmadan kamal dərəcələrinə çatmaq mümkün deyil. Buna görə də, bəzən ərdəbilli Şeyx Fərəcin, bəzən Şeyx Əbu-Səidin - bu ululların hər ikisi Şeyxüt-tayifə Şeyx Cüneyd Bağdadinin müridlərindəndirlər - məzarı kənarında ibadətlə məşğul olurdu, bəzən də vaxtını ilahiyyat alimi Şeyx Şihabəddin Mahmud Əhərinin məzarı yanında keçirirdi" (35).

"Səfvətüs-səfa" müəllifi yazırdı ki, Səfiəddinin taleyində əzəli dövlətlə əbədi inayət nişanələri var idi. Onun əqli və zəkası həmyaşıdları olan uşaqlar arasında da özünü göstərərdi. Belə ki, həmyaşıdları ilə oyun oynayarkən onu padşah seçərdilər, ətrafında "vəzir-vəkil" toplanar, "qoşun" formalaşardı. Səfiəddin eyni zamanda öz yaşıdları içərisində "şeyxlik" edərdi, uşaqlar arasında öz liderliyi ilə seçilərdi. Uşaqlar da hər zaman ona hörmətlə ya-

naşardılar. Səfiəddin öz çevikliyini, diribaşlığını yalnız oyun oynamaqda yox, həm də bilik öyrənməkdə göstərdi. Kiçik yaşlarından "Quran" oxumağı, şəriətin fərzlərini öyrəndi. Şeyx Səfiəddin ilk təlim-tərbiyəsini doğulduğu yurdunda almışdı. Hələ uşaq yaşlarından da onda elmə və biliyə güclü bir meyil özünü göstərirdi. Bundan başqa, o həm də kəramət sahibi kimi ad çıxarmışdı. Adı çəkilən əsərdə də bildirilir ki, hələ uşaqlıq yaşlarında Səfiəddin türk dilindən əlavə fars, ərəb və moğol dillərini də öyrəndi (36). Yəni həmin vaxtlardan onda elmə və biliyə güclü bir həvəs özünü göstərməyə başladı.

Uşaqlıq yaşlarında ona həm də gələcəkdə çox uca mərtəbələrə yüksələ biləcəyi barəsində müəyyən mətləblər əyan olmuşdu. Xüsusən, uşaqlıq yuxularının sirləri onu dərindən düşünməyə vadar edirdi və sirrini tapa bilmədiyi məqamları isə anasından öyrənməyə çalışırdı. Məsələn, dünyanı nura bəzəyən günəşdə öz üzünü müşahidə etməsi barəsində anası ona bildirmişdi ki, sən ulu bir şeyx olacaqsan və bütün dünya da sənin irşadınla nura bürünəcəkdir. Və ya əlindən yerə düşən çubuqların dərhal kök atıb göyərməsi ilə bağlı gördüyü yuxunun yozumunda anası bildirmişdi ki, Səfiəddinin gələcəkdə çoxlu övladları və müridləri olacaqdır (37).

Uşaqlıq illərində gördüyü yuxulardan birini Şeyx Səfiəddin sonralar belə xatırlayırdı: "...tüfuliyyət çağında vaqiədə gördüm ki, Qaf dağının üstündə idim. Bir uzun, enli qılınc belümdə idi və bir səmur börk başımda. Öz-özümə fikir eylədüm kim, Pirə Cəbrayılun oğlına börk və qılınc nə nisbət? Və belimdən qılıcı çizmək istərdüm, çizməz idi. Nə qədər kim, cəhd ilə səy eylədüm, faidə verməz idi. Özümə dedim kim, çün belimdən qılıc açılmaz, başumdan börki götürəyim. Həman kim börki başımdan götürürdüm, bir günəş zahir olurdı kim, qamu aləm andan aydın olur idi. Çün genə başıma qoyardum, ol nur gözükməz olurdı. Dəxi başumdan götürürdüm, ol günəşün şövqi şua verürdi. Üç qatladək böylə vaqe oldı. Çün həzrət Şeyx Zahidün xidmətinə yetüb ol duşun hekayəti ərz etdim, buyurdı kim, ol qılıc vilayətin hökmi və ol börk vilayətün nuridür" (38).

Beləliklə, Şeyx Səfiəddinin dünyaya gəlişi onun mənsub olduğu xanədanın tarixində tamamilə yeni bir səhifə açır. Onun dövründə mənsub olduğu xanədanın ətrafında toplaşan müridlərin və irfan əhlinin daha da təşkilatlanması, genişlənməsi və ayrıca bir təriqət şəklində meydana çıxması baş verdi. Sonradan isə məlumdur ki, Şeyx Səfiəddin tərəfindən əsası qoyulmuş təriqətin tərəfdarlarının siyasiləşməsi Səfəvilər dövləti kimi böyük bir imperiyanın yaranmasına yol açdı.

Mənbələrdə bildirilir ki, Şeyx Səfiəddin anadan olanda dövrünün böyük irfan və fəzilət sahibi olan Şeyx Şəmsəddin Təbrizinin vəfatından beş il, Şeyx Məhyəddin ibn əl-Ərəbinin vəfatından 12 il, Şeyx Nəcməddinin vəfatından 32 il ötmüşdü. Cəlaləddin Rumi dünyasını dəyişəndə Şeyx Səfiəddin 22 yaşında, Sədi Şirazinin vəfatı zamanı 42 yaşında, Hülaki xanın vəfatı zamanı isə 41 yaşında idi (39).

Hələ uşaqlıq yaşlarında Səfiəddin ona verilmiş fəhm və kəramətlə ətrafdakıların duya bilmədiklərini duyur, görə bilmədiklərini də fəhm edirdi. Onun oğlu Şeyx Sədrəddin də sonralar bildirirdi ki, atası uşaq yaşlarında batini kəşflərə də sahib olmuşdu və onun bu keyfiyyətləri günü-gündən daha da artmaqda idi. Başqalarının görə bilmədiyinin Səfiəddinə nə zamandan əyan olması haqqında Şeyx Sədrəddin belə danışırmış: "Kəlxoran kəndinün yanında küçücük təpə var idi və ol təpə bir ulu kişinün məzarı idi. Yatanun adı Zərrad Əvrəng idi. Bir gün həzrət Şeyx zahirən görmiş idi kim, bir kişi anun əlin dutub, ol məzarun üstünə apardı. Və aləmün şərqi ilə qərbi büqələr ilə məzarlar çevrəsinə gəzdürdi və həzrət Şeyx xəlayiqi səvab ilə iqabda gördi. Neçələri kim, əzabun firiştələri əlində gördi, bildi kim, gördügi ölülərin əhvalıdur. Bu mənadan bəqayət qorxdı və sayru olub, çox müddət ol zəfdə qaldı. Çün sayrulığı uzandı, mütəhhərə anası təbiblər ilə həkimləri yığışdurub üstinə gətürdi. Anlar ittifaq ilə nə qədər kim davalar qıldılar, faidə vermədi. Anası (r.ə.) çün bu bağlu qapunı heç kilidi görmədi və ol dərdün davası bulmadı, aciz qaldı. Pəs həzrət Şeyx öz əhvalının keyfiyyəti anasına bildürdi. Anası çün anun halına vaqif oldı, yəqin ilə bildi kim, bu

mərəzün həkimi övliyadan özgə kimsə yoxdur. Və bu dərdün davası “fə iza məriztü fəhüvə yəşfini” (Xəstələndiyim zamanı mənə yalnız O şəfa verir. Şüəra surəsi, 80-ci ayə) şəfaxanəsindən qeyri bulunmaz. Pəs, hər kim Ərdəbilün şəhəri çevrəsində səlahiyyət və təqvada məşhur idi, qonağlığa evinə çağırub, həzrət Şeyxün mərəzi anlara ərz etdi. Həman kim həzrət Şeyx ağzını öyləməgə açub kələci söylər idi, eşidənlər qamu sözlərində heyran qalurlardı və heç hanğısınun fəhmi anun kəlimatınun kəmiyyətinə yetməyüb, qamusına mühəqqəq oldı kim, həzrət Şeyxün mərtəbəsi anlardan yuxarudur. Pəs, günbəgün anun əhvalı artar idi və dərdinün davası və halının mərhəmi bulunmazdı” (40).

Onu maraqlandıran suallara isə cavab tapmaq istəyi Səfiəddini heç vaxt rahat buraxmazdı. Ona görə özünə elə bir mürşid tapmaq istəyirdi ki, qarşılaşdığı suallara ondan cavab ala bilsin. Səfiəddinin uşaqlıq illərində insanlar tez-tez Savalan dağına yollanardılar. Onlarda belə bir inanc var idi ki, Savalan dağında övliyalar məskunlaşıblar və onlar da insanların istəklərinə şəfaətçi olurlar. Səfiəddin də bir dəfə Savalan dağına yollandı ki, bəlkə orada məskunlaşmış övliyalardan biri onun istəklərinin müstəcəb olmasına yardımçı ola. Savalan dağına isə hər zaman çıxmaq mümkün deyildi. Ora havaların münasib vaxtlarında çıxmaq olardı. Həmin münasib vaxt yetişəndə Səfiəddin də dağa yollandı. Bu dağı ziyarətə gələn insanlar geri qayıdanda özləri ilə ziyarətdə olduqları məkandan torpaq və su gətirirdilər. Səfiəddin də bu ənənəyə bağlı qalaraq geri qayıdanda özü ilə torpaq və su götürdü. İnsanlar arasında belə bir mövhumat hakim idi ki, dağın torpağı və suyu müqəddəsdir və onlar insanların arzularının həyata keçməsinə kömək olacaqdır. Geri qayıdarkən Səfiəddin gördü ki, bir türk əlində yay və ox yol üstündə oturubdur. Həmin adam Səfiəddini görən kimi moğol dilində onu yanına çağırdı və əlindəkilərin nə olduğunu soruşdu. Səfiəddin də ona bildirdi ki, Savalan dağının suyudur və təbərrük üçün evə aparır. Bu kişi tələb edir ki, həmin suyu və torpağı yerə töksün və sonra da bəyan edir ki, Savalanın suyu ilə torpağının başqa yerlərin suyu ilə torpağının heç bir fərqi yoxdur. Yol üstündə dayanan adam sonra

qəzəblə əlavə edir ki, Səfiəddin dünyaya ağıl və zəkası ilə baxsın və mövhumata uymasın. Sonra da əlavə edir ki, bir də Səfiəddini belə əməllərə bağlı görsə, onda onu əlindəki oxla vuracaqdır (41).

Bu hadisə Səfiəddində elmə və biliyə olan meyli daha da artırdı və anladı ki, marağında olduğu suallara yalnız biliklərə yiyələnməklə cavab tapa bilər: "Andan sonra həzrət Şeyxün əhvalı saətfəsaət tərəqqidə idi. Amma bir kimsə kim, anun müşkillərin həll eyləyə, ol yerlərdə gözükməz idi və Şeyxün tələbi günbəgün artar idi. Ərdəbilün guşənişinləri yanına gəzər idi və heç hanğısından könlinün təsəllisin hasil olmaz idi. Anasından səfərə varmağ rüxsət almağa durdı kim, bulay kim, bir kamil mürşidə yetə. Anası rüxsət verməz idi və Şeyxün tələbi dərdi artar idi və mundan ötrü taqətsiz olub, qatlanaməz idi" (42).

Yəni Səfiəddin artıq o qənaətə gəlmişdi ki, marağında olduğu elm və biliyə yiyələnmək üçün ona bu bilikləri verə biləcək irfan əhli tapmalıdır. Ədəbildə və onun ətrafında bilikləri Səfiəddinin istədiyi mərtəbədə olan irfan sahibi isə mövcud deyildi. Ona görə də Səfiəddin evini tərk etmək və onun bütün maraqlarına cavab verə biləcək mürşid axtarmaq qərarına gəldi. Anası isə onu öz yanından buraxmaq istəmirdi. Çünki bir müddət əvvəl Səfiəddinin böyük qardaşı - ticarət işləri ilə məşğul olan Məhəmməd Şiraz-Hörmüz bölgəsinə səfərindən geri qayıdarkən dünyasını dəyişmişdi. Səfiəddinin digər bir qardaşı Səlahəddin isə Şiraza yollanaraq orada özünə ailə qurmuş və evdən uzaqlaşmışdı. Ona görə anası Səfiəddinin də evdən uzaq düşməsinə razılıq vermək istəmirdi. Səfiəddin isə tanıdıqları insanlarla söhbətlərində Şirazda Şeyx Nəcibəddin adlı bir fazil insanın yaşadığını və onun ilahiyyat elmlərinə dərindən bələd olduğunu eşitmişdi. Bu xəbərdən sonra Səfiəddin evi tərk edərək Şeyx Nəcibəddinin yanına yollanmağı və onun yanında təhsilini davam etdirməyi qətiləşdirdi. Anasının icazəsini və razılığını almaq üçün isə Səfiəddin qardaşı Səlahəddinin görüşünə getmək istədiyini bildirdi (43).

"Tarix-i aləmara-yi Abbasi"əsərində bu hadisə aşağıdakı kimi təsvir olunmuşdur: "Yüksək mərtəbəli atasının vəfatından

sonra möhtərəm anası o ilahi feyzlə bəslənmişin tərbiyəsi ilə məşğul oldu. Uşaqlıqdan Allahın kəramət nuru onun üzərinə düşmüşdü. Onun mübarək alnından qeybi sirləri açmaq nuru işıldayır və parlayırdı. Həmişə qəbirlərin sirrindən, ölülərin əhvalından və buna bənzər məsələlərdən xəbər vermək kimi qəribə işlər görürdü və anasına nəql edirdi. Anası [isə] ona yüksək mərtəbələrə və ali dərəcələrə çatmaq müjdəsi verirdi. Bir müddət biliyə və zahiri kamilliyə yiyələnməklə məşğul oldu. [Sonra] o, gəzib səyahət etmək və mənəvi aləmin çətinliklərini dərk etmək həvəsinə düşüb, zahidlik və çalışma çölünə qədəm qoydu. Bilirdi ki, kamillik sahibi olan bir mürşidin rəhbərliyi olmadan kamal dərəcələrinə çatmaq mümkün deyil. Buna görə də, bəzən ərdəbilli Şeyx Fərəcin, bəzən Şeyx Əbu-Səidin - bu uluların hər ikisi şeyxüt-tayifə Şeyx Cüneyd Bağdadinin müridlərindəndirlər - məzarı kənarında ibadətlə məşğul olurdu, bəzən də vaxtını ilahiyyat alimi şeyx Şihabəddin Mahmud Əhərinin məzarı yanında keçirirdi. O, kamil bir mürşid axtarırdı. O, Şeyx Nəcibəddin Bozquş Şirazinin fəzilət dərəcəsinin yüksəkliyini və gözəl halını öyrənəndə arzu dalınca qaçmaq həvəsi onu Şiraza tərəf yollandırdı. Onun Şirazda çoxlu var-dövlət və nüfuz sahibi olan Səlahəddin adlı özündən böyük qardaşı vardı ki, o da orada əsilzadə qızlarından bir iffətlisi ilə evlənib, bu qohumluq vasitəsilə Şirazda yaşayırdı. Şeyx qardaşı ilə görüşmək bəhanəsi ilə mehriban anasından səfər etmək icazəsi alıb, məqsədə tərəf yola düşdü. Yolda hər yerdə Allah adamlarına, dərvişlərə və möminlərə çatdıqda onlarla söhbət etməyə can atır, hər kəsdən bir şey öyrənirdi" (44).

Beləliklə, Səfiəddin cavan yaşlarında mürşid axtarışı ilə Şiraza üz tutdu. "Səfvətüs-səfa"nın məlumatına görə, Şiraza doğru irəlilədiyi günlərdə də Səfiəddin hansı məntəqələrdə onun sualarına cavab verə biləcək bir dərvişin olub-olmaması ilə maraqlanırdı. Belə dərvişlərin sorağınca hətta Qəzvinə və Əbhərə də səfər etmişdi. Səfiəddin istəyirdi ki, elə bir mürşidi tapsın ki, onun əlindən tövbə alsın və ona müridliyi qəbul etsin. Rastlaşdığı şeyxlərlə və dərvişlərlə ilk söhbətlərindən sonra isə məlum olurdu ki, bu insanlar da onun istəklərinə tam şəkildə cavab vermək

qabiliyyətində deyildirlər. Ona görə də tövbə qəbul etməmiş dərhal oradan uzaqlaşırdı. Axtarışları zamanı Səfiəddin Gülpayqan məntəqəsində bir pirin yaşaması barəsində xəbər aldı. Şiraza yetişməzdən əvvəl ora da yolunu saldı. Lakin ilk ünsiyyətdən sonra Səfiəddin həmin pirin də onun axtardığı adam olmadığını anladı və Şiraza doğru yolunu davam etdirdi (45).

Qardaşı Səlahəddin Rəşid də onun Şiraza gəlməsi barəsində əvvəldən xəbər tutubmuş. Ona görə Səlahəddin Rəşid onun qarşılanması üçün xüsusi hazırlıq görməyə başladı. Qardaşı Səfiəddin üçün zərbəft parçalardan paltarlar tikdirdi, bədöv atlar hazırlatdı və bir dəstə xidmətçisini Teymur adlı qulunun rəhbərliyi altında onu qarşılamağa göndərdi. Səlahəddin istəyirdi ki, Səfiəddin onun göndərdiyi bahalı paltarları geysin, sonra da ata minərək xidmətçilərin müşayiəti ilə şəhərə daxil olsun. Səfiəddin isə qardaşı tərəfindən onun üçün hazırlanmış yeni paltarları geymədi və elə əynindəki nimdaş paltarla Şiraza daxil olmağa üstünük verdi (46).

Şiraza yetişdikdən sonra Səfiəddin Nəcibəddin Bozquşun artıq dünyasını dəyişməsi haqqında xəbər aldı. Bu xəbər onun əhval-ruhiyyəsini xeyli pozdu və bir müddət nə edəcəyini də bilmədi. Qardaşı Səlahəddin Rəşid həyat tərzinə və maraqlarına görə Səfiəddindən tamamilə fərqlənən bir insan idi. Ona görə Səlahəddin Rəşidlə birgə vaxt keçirmək onu heç də qane etmirdi. Var-dövlət sahibi olması Səlahəddinin dünyabaxışında fərqli meyarlar meydana çıxarmışdı. Bu meyarlar isə Səfiəddini qane etmirdi və hətta Səlahəddinin dəbdəbəli həyata meyil etməsi onun daxili etirazı ilə qarşılaşırdı. “Səfvətüs-səfa” əsərinin müəllifi Səfiəddinin ilk vaxtlarda Şirazda keçirdiyi günləri belə təsvir edirdi: “...tələb dərdindən qardaşınun söhbətinə və anunlən oturmağına pərva etmədi və anun otağuna varmadı və gecə-gündüz tələbdə idi. ...Bir gün həzrət Şeyx Şirazun bazarından ötərdi, qardaşı Xacə Səlahəddin Rəşidi gördi kim, atlanub keçərdi igən əzəmət və şövkət ilən və yetmiş-səksən adam yasavul ilə bukavuldan və qul ilə nökərlərdən ögində yerirdilər. Və rəvayət edərlər kim, əzəməti ol qayətdə idi kim, on səkiz surna ilə çalğu

ögində çalardılar. Həzrət Şeyx çün anı gördi, özini bir qırağa çəkdi və qardaşınun görməgindən möhtəriz etdi. Amma ötəndə o qələbəliğ içində Xacə Səlahəddin Rəşidin üzəngüsi həzrət Şeyxün geyəsilərinə dəgdi. Çün anlar ötdülər, həzrət Şeyx geyəsini suya qoyub yudı" (47).

Səlahəddin Rəşidin Şirazda Seyfəddin Bəlukdar adında bir ticarət ortağı var idi. Bu Seyfəddin Bəlukdar da Səlahəddin kimi kifayət qədər imkanlı bir adam idi və çoxlu var-dövlət toplaya bilmişdi. Maddi cəhətdən özünü təmin edə bilmiş Seyfəddin Bəlukdar özlüyündə belə qərara gəldi ki, qızını Səfiəddinə nikah etdirsin və bununla mömin insanlarla da bir bağlılıq əldə etsin. Öz istəyini o, Səfiəddinə çatdıranda ondan müsbət cavab almadı. Səfiəddin Şirazda olduğu günlərdə də evdə işsiz dayanmaqdan yorulduğu üçün, ətrafda mövcud olan pirlərin ziyarətinə yollanar və bu pirlərin ziyarətində olan möminlərlə söhbətlər edərdi. Bir dəfə Seyfəddin Bəlukdar Səfiəddinlə pirlərin ziyarətində olduğu vaxt görüşə bildi. Seyfəddin qızına nikah olunacağı təqdirdə Səfiəddinə on min qızıl altun verəcəyini vəd etdi. Səfiəddin yenə təklifdən imtina etsə də Seyfəddin öz təkidində əl çəkmədi. Belə olanda, Səfiəddin razılıq verdi və xahiş etdi ki, həmin qızıl altunları elə indi ona təqdim etsin. Seyfəddin də qızıl altunları onun ixtiyarına verdi. Səfiəddin həmin altunları ovuc-ovuc ziyarətində olduğu məzar üzərinə səpdi, bu məzar ətrafında olan yoxsullara və fəqirlərə verdi. Seyfəddin bunu görcək çox əsəbiləşir və kisədə qalmış altunların Səfiəddinin əlindən qapıb alır. Sonra da bildirir ki, altunları torpaq üstünə səpilməsi üçün yox Səfiəddinə veribdir (48).

Bununla belə, Səfiəddin Şiraza səfərindən əliboş qayıtmaq istəmirdi, bilikli adamları axtarıb tapır və onlarla maraqlandığı suallar ətrafında fikir mübadiləsi aparırdı. Rastlaşdığı və ünsiyyətdə olduğu möminlər, şeyxlər onun zəkasına, ağıl və qabiliyyətinə heyran olurdulsr. Beləlari də ona məsləhət bilirdilər ki, bilik və elmi daha çox olan şeyxlərin yanına getsin və onların biliyindən bəhrələnsin. Görüşündə olduğu insanların məsləhəti ilə Səfiəddin Şirazda olduğu vaxt Bəyza adlanan məntəqədə Rük-

nəddin adlı birisi ilə görüşdü, yuxuda gördüklərini ona danışdı, maraqlandıqları mətləblər barəsində ondan soruşdu. Rüknəddin də Səfiəddinin marağında olduğu mətləblərdən xəbər verməkdə aciz olduğunu bəyan etdi və o da daha dərin biliklərə malik olan şeyxlərin xidmətinə yollanmağı təklif etdi. Rüknəddin şübhə etmirdi ki, Səfiəddin təkid göstərsə onun üçün faydalı ola biləcək şeyxi tapa biləcəkdir. Ona görə ondan xahiş etdi ki, axtarışında olduğu şeyxi tapanda onun yanında Rüknəddini də xatırlasın (49).

Bir müddətdən sonra Şeyx Səfiəddin Şirazda və onun ətrafında böyük alimlərdən biri sayılan Mövlana Rəziyyuddinlə görüşdü. Bu Mövlana həm kifayət qədər geniş bilikli bir irfan əhli idi, həm də halal dolanışığa xüsusi üstünlük verən bir insan idi. Mövlana Rəziyyuddin şagirdlərinin irşadı ilə məşğul olmaqdan əlavə, zəhmətlə məşğul olur və zəhmətinin nəticələrini şəxsən özü aparıb bazarda satır və bu yolla halal pul əldə edirdi. O, şagirdlərinə də icazə vermirdi ki, onun yerinə bazara getsinlər. Şeyx Səfiəddin bir müddət onun yanında qalaraq ondan da dərslər aldı: "Çün həzrət Şeyxün tələbi müddəti uzandı və sonucı məalı məlala döndi, dərdinə dərman bulunmazdı və iztirabı həddən ötərdi. Şirazda Mövlana Rəziyyüddin adlı bir rəbbani alim idi dinlü, şəriətlü kim, Tanrı içün xəlqə vəz ilə ögütlər verür idi. Həzrət Şeyx bir gün anun məclisinə vardı və söhbətini bəgənüb bir az müddət anunlən müvafiqət və müsahibətlik etdi. Və bu Mövlana Rəziyyüddin culfalık edüb hər gün toxunmuş bezlərin götürüb, yarım ağac yol aparub, bazarda satub geri gəlürdi. Şagirdləri nə qədər kim şəfaət ilə iltimas qılurlardı kim, bezi biz aparub, satub, bəhasını həzrət Mövlananun xidmətinə gətürəlim, qəbul qılmayub deyər idi: "Çün siz satasınız, siz kəsb etmiş olasınız və mən sizin dəst rənciniz yemiş olam və mənüm himmət ilə könlümi bu mənada riza verməz". Pəs, öz nəfsi ilən varub satar idi və gündə bir altun anın kəsbi hasil idi. Həzrət Şeyx buyurdı ki, mən xəyalladum kim, bir altun hasil etmək bir gündə çoxdur. Mövlana Rəziyyüddin (r.ə.) fərasət ilən məlum edib dedi: "Bu altun Azərbaycanun altunı dəgül, bəlkə Şirazun altunıdır kim,

vəzni bir təsüc ilə iki arpadur və bu cümlədən iki arpa sədəqə verür idi və hər təsüc ilən quru üzüm və fındıq satun alub və həm özi yeyər idi və həm həzrət Şeyxə yedürürdi. Pəs, Mövlana Rəziyyüddin həzrət Şeyxi elm oxumağa buyurur idi və həzrət Şeyx "“Quran”i-Məcidi" yenidən Mövlana Rəziyyüddinün məclisində keçürdi və Kəlamüllahun təfsiri "iza zülzilət əl-ərz" surəsinədək oxudı və çün Mövlana Rəziyyüddin həzrət Şeyxdə istedad mülahizə qıldı, kəlami-məcidin təfsirin etməgə rüxsət verdi" (50).

Göründüyü kimi, burada Şeyx Səfiəddin elə bir istedad və bilik nümayiş etdirdi ki, dərslərini başa çatdırmamış Mövlana Rəziyyüddin ona "“Quran”" surələrini təfsir etmək icazəsi verdi. Yəni Şeyx Səfiəddin öz biliklərinə görə digər şagirdlərdən xeyli üstün idi və hətta, "“Quran”"ı təfsir etmək savadına da malik idi. Bununla, əslində, Mövlana Rəziyyüddin də Şeyxin daha təcrübəli mürşidlər yanında bilik almalı olduğunu təsdiq etdi.

Şirazda olduğu vaxt Şeyx Səfiəddin dövrünün çox tanınmış irfan əhli və şairi Şeyx Müslihəddin Sədi Şirazinin də görüşlərində oldu, dəfələrlə məclislərində iştirak etdi, onun söhbətlərinə qulaq asdı. "Səfvətüs-səfa" əsərində onıarın görüşləri haqqında belə qeydlər vardır: "Və gah-gah şair Şeyx Sədiyi-Farsinün (tabə-rəmsəhü) hüzurinə varub söhbət eylər idi. Və buyurdu kim, Şeyx Sədini bir sahibməzaq kişini gördüm kim, əgər məlahətlü bir sahibcəmal hüzurinə varur idi, söhbətinə girmək məcal verür idi, yoxsa yox. Əgərçi etiqad üzərindən qədəm qoymuş ola idi və xəlqün müsahibəti ilə mücalisətinə ictinab eylər idi. Çün həzrət Şeyxün istədügi anun söhbətindən hasil olmadı, andan dəxi özini geriyə çəkdi" (51).

Baxmayaraq ki, Şeyx Sədi dövrünün müdrik bir insanı, böyük irfan adamı kimi qəbul olunurdu, bununla belə Şeyx Səfiəddin daha dərin biliklər axtarışında idi və ona görə də Şeyx Sədinin çatdığı məqam onu qane etmədi.

"Tarix-i Aləmara-yi Abbasi" əsərində Şeyx Səfiəddinin Şirazdakı son günləri və gələcək həyatını necə qurmaq barəsində hansı qərara gəlməsi haqqında belə qeydlər vardır: "Onun Şeyx

Müslihəddin Sədi Şirazi ilə də söhbəti oldu, [lakin] onunla görüş əziz xatirinə xoş gəlmədi. O vilayətin dərvişləri və səadət məzhəbli irşad sahibləri o həzrətin rütbəsini sufilik vadisinin yolunda özlərindən yüksək gördükdə onu seyidlər zümrəsindən və dini rəhbərlərdən olan Əmir Abdullanın yanına apardılar. Onun yanına çatdıqda, həqiqətən, bir adam gördü ki, bütün yaxşı sifətlərə və kamilliklərə malikdir və elə bir ayna müşahidə etdi ki, [Allahın] camal və calalının nuru onda əks olunur. Həzrət Şeyx Səfiəddin öz əhvalatını ona söylədi. [Əmir Abdulla] bir az fikrə getdikdən sonra başını qaldırdı və dedi:

- Ey gənc türk! Mücahidlik, zahidlik və yüksək əhvali-ruhiyyə sayəsində sənin üçün hasil olan [şeylər] mənim bəsirət gözümə çatmayıb. Sənin qarşında böyük bir alış-veriş durur. Lakin bu bazarda belə bir alış-veriş mümkün deyildir. Bu gün sənin gözündən pərdəni götürüb, səni məqsədə tərəf yönəldə biləcək ilahiyyət elmlərini bilən Şeyx Zahid Gilanidən başqa bir kəs yoxdur. Onun Gilanda, sizin vilayətinizin yaxınlığında, dəniz kənarında xəlvət yeri var" (52).

"Aləmara-yi Şah İsmayıl"ın məlumatına görə isə, Səfiəddin qardaşı Seyid Səlahiddinlə görüşündə Şirazda fəzilət sahiblərinin olması ilə maraqlandı və Səlahəddin də şair Sədi Şirazının adını çəkdi. Bundan sonra Səfiəddin Sədi Şirazinin hüzuruna yollandı. Bu mənbənin məlumatına görə, Səfiəddin şair Sədi Şirazi ilə görüşəndən sonra iki saat onun yanında qaldı. Amma onların söhbəti alınmadı. Ona görə Səfiəddin oranı tərk edib Şirazda başqa fazil insanların olub-olmaması ilə maraqlandı və ona mövlana Əmir Abdulla haqqında məlumat verdilər. Səfiəddin böyük məmnunluqla onun hüzuruna yollandı, onun müridi olmağa gəldiyini bildirdi. Onda Əmir Abdulla ona bildirdi ki, Səfiəddin öz biliyi ilə çox yüksək məqama yetişib və ona daha yüksək fəzilət sahibləri mürşidlik etməlidirlər. Belə bir fəzilət sahibi kimi isə o, Şeyx Zahid Gilanini məsləhət bildi (53).

Şeyx Səfiəddinin dövrünün fazil insanı Əmir Abdulla ilə görüşü və ondan aldığı təklif haqqında "Səfvətüs-səfa" əsərində daha geniş məlumat vardır. Bu əsərin müəllifinin yazdığına görə,

Əmir Abdulla həm mömin, həm halal, həm də çox nurani bir insan idi və öz təklifi ilə də Şeyx Səfiəddinin qəlbinə bir nur saldı. Əmir Abdulla elə bir dərin bilik sahibi idi ki, Şeyx Səfiəddinlə elə ilk görüşündə onun nə istədiyini və istədiyini harada tapa biləcəyini anladı və təklifini də ona açıqladı. Bu əsərdə bildirilir ki, Şiraz övliyaları Şeyx Səfiəddinin axtarışları ilə tanışlıqdan sonra ona belə məsləhət bildilər ki, Əmir Abdulla ilə də görüşsün və ondan məsləhət alsın. Çünki Əmir Abdulla bilik mərtəbəsinə görə digərlərindən yüksəkdə idi, günü ibadətdə, riyazətdə, zöhd ilə taətdə keçirdi. Onun yüksək mərtəbəyə malik olması kimsədə şübhə doğurmurdu. Şeyx Səfiəddin də bu məsləhətlərə qulaq asdı və Əmir Abdullanın yanına yollandı. İlk görüşlərində Şeyx Səfiəddin də arif və fazil bir insanın ziyarətinə gəldiyini anladı və məqsədini ona açıqladı. Əmir Abdulla isə Şeyx Səfiəddindən eşitdiklərini dinlədikdən sonra uzun müddət fikrə getdi və sonra ona öz məsləhətini çatdırdı: "Əmir Abdullah (r.ə) bir saət dinc olub, susub, başını aşağı salub, pəs mübarək başını qaldırub, yuxarı eyləyüb dedi: "Ey türk piri, bizim himmətimizün quşi burayadəngic uçmayubdur. Əgər kəşf ilə qədəm istərsən, bu vilayət hasil olur, amma sənün istədügün məta bu bazarda ələ gəlməz və bu haldan biz bixəbərüz". ...Həzrət çün mətlubindən naümid qaldı, gözlərindən həsrət yaşın axdurub hay-küy ilə ağladı və dedi: "Qamu dustlar ilə övliyalar məni sanaa həvalə qıldılar kim, işüm qulluğında açılacaqdur. Səndən dəxi umdugum hasil olmadı, imdi mənüm tədbirüm nədür?" Əmir Abdullah çün Şeyxün iztirabı gördi, dedi: "Ey türk piri, aləmün şərqindən qərbədəkin kimsə kim, sənün vaqiələrünin təbirin eyləyə müşkil işlərünni həll qıla, kimsə yoxdur, Şeyx İbrahim Zahid Gilanidən özgə hasil olmaz". Həzrət Şeyx çün bu söz eşitdi, halı digərgün olub, dedi: "Budur ol kimsə kim, yıllar anun tələbində aləmdə seyd edərəm. Amma çün Şeyx Zahidi bilməzəm və piri tanıməzəm, nərəyə varalım və anı nərədə bulayım?" Əmir Abdullah buyurdu kim, bu Şeyx Zahidün yeri Gilandadur. Həzrət Şeyx sordı: "Hanğı Gilan?" Əmir Abdullah dedi"Ol Gilan ki, sənün vilayətünə yakındır və xəlvəti dənizün qırağunda vaqe olubdur. Qaçan kim dəniz

mövc urar, dənizin suyı xəlvətinün eşiginədək gəlür və xəlvətinün qapusı məşriq sarusındadur, eylə kim, çün günəş məşriqdən tülu eylər, günəşün şövqi xəlvətün içinə düşər”. ...Pəs həzrət Şeyx Səfiəddin Şeyx Zahidün hiylə ilə heyəti və zahir surəti Əmir Abdullahdan sordı. Əmir Abdullah dedi kim, ol bir kişidür qısa boylu, qırmızı bənizlü, sürməli gözlü, çox alınlu, incigə yanağlu. Pəs Əmir Abdullah dedi: “Ey türk piri, sən oraya varmaq gərəksən kim, məşriqdən məğribədəkin kimsə ki, bu mənidən xəbərdar ola, andan özgə yoxdur” (54).

"Səfvətüs-səfa" əsərində dəfələrlə Səfiəddinə "ey türk piri" deyə müraciət edilir. Bu ifadə həm onun etnik mənsubiyyətinə, həm də ilahiyyat elminə vaqif olmasına bir işarədir. Şirazın tanınmış ilahiyyatçısı Əmir Abdulla təkidlə ona bildirir ki, şərqdən qərbə var olan hər şeydən xəbəri olan şəxs məhz Şeyx Zahid Gilanidir və Səfiəddin malik olduğu elmini təkmilləşdirmək istəyirsə, onda Zahid Gilaninin yanına getməlidir. Səfiəddin bu xəbəri çox böyük məmnunluqla qarşıladı və sevindi ki, onun marağında olduğu bilikləri almaq üçün müdrik və fazil bir insan mövcuddur. Ona görə də, daha Şirazda qalmağı lazım bilməyib səfər hazırlığına başladı. Geri qayıtmazdan əvvəl Səfiəddin əvvəlcə Sədi Şirazi ilə görüşdü. Sədi Şirazi eşidəndə ki, Səfiəddin geri qayıtmağa hazırlaşır onun üçün çoxlu hədiyyə və sovqat hazırlatdırdı. Səfiəddin bu hədiyyələrin heç birini qəbul etmədi və onların hamısını öz sahiblərinə qaytardı. Belə olanda Sədi Şirazi də ona "pir" deyə müraciət edərək öz əli ilə yazdığı divanını hədiyyə kimi qəbul etməyi xahiş etdi. "Səfvətüs-səfanın" məlumatına görə, Səfiəddin dövrünün böyük şair-filosofu Sədi Şirazinin divanını da qəbul etmədi və bunun səbəbini də açıqladı: “Həzrət Şeyx andan sonra məmləkətinə qayıtmak əzm eylədi. Pəs, övliyayi-Allahdan ki, anunlən söhbət dutmuşdılar, hər kimsədən zahir ilə batindən mədəd ilə himmət istəyüb vida qıldı və qayıtməgə duru. Pəs dedi: “Şeyx Sədinün vidainə varmək gərək ki, aramızda söhbət vaqe olupdur və bir-birimizin mərifəti hasil eyləmişüz”. Pəs vida səbəbi ilən anun hüzurinə vardı. Şeyx Sədi öz əshabinə dedi: “Bu türk piri səfərə varur, təbərükklər ilə hədiy-

yələr həzrətinə isar etmək vacibdür”. Hər kimsə kəpənəkdən, papuşdan, yolun azuqindən və hər nəstə kim təriqə gərəklüdür, həzrətinə hazır etdilər. Həzrət Şeyx çün ol halı gördi, qamusun iyəsilərinə bağışladı və yüzini anlardan çevirüb, heç nəstə qəbul etmədi. Şeyx Sədi çün bu halı gördi, dedi: “Ey pir, çün bunları qəbul eyləməzsən, mənim əşar divanum ki, öz xəttüm ilən yazmışam, qəbul eylə ki, yolda yoldaşun olsun”. Həzrət Şeyx buyurdı: “Tanrınun divanından könlüm ol qədər doludur kim, özgənün divanı anda sığmaz və sənün divanun ilə Tanrıya yetmək olmaz”. Şeyx Sədi çün bu sözi andan eşitdi, bir saət başını aşağa salub, andan sonra baş qaldurub der idi: “Könlüm ol qədər Tanrınun divanından doludur kim, sənün divanundan bizarəm”. Bu sözi təkrar eyləyüb, əllərin başına urub ağlar idi” (55).

Bununla, Şeyx Səfiəddin mürşid axtarışı ilə Şiraza səfərini başa vurdu və geri dönmək hazırlığına başladı. Anasına verdiyi sözü də həyata keçirmək üçün qardaşı Səlahəddin Rəşidlə söhbət etdi və ona da Ərdəbilə, anasının yanına qayıtmaq təklifi etdi. Səlahəddin Rəşid bu təklifi qəbul etmədi, Şirazdakı mülklərini, ticarətini buraxmaqdan imtina etdi. Əvəzində Şeyx Səfiəddinə çoxlu mal-dövlət təklif etdi. Şeyx Səfiəddin qardaşının təklif etdiyi var-dövlətdən imtina etdi və özünün adi paltarı ilə Şirazı tərk etdi (56). O, Ərdəbilə yollanmaq üşün Şirazdan hərəkətə başlayan karvanlardan birinə qoşuldu və bir müddətdən sonra Ərdəbilə yetişdi.

### 3.İstifadə olunmuş mənbə və ədəbiyyat

1. İbn Bəzzaz Ərdəbili. Səfvətüs-səfa. Tərtibçi Qulamrza Təbatəbayi Məcd. Təbriz, 1373, s. 57-58
2. Şeyx Hüseyn. Silsilət-ül nəsəb Səfəviye. Berlin, 1343, s. 10-11
3. İbn Bəzzaz Ərdəbili. Səfvətüs-səfa. Təbriz, 1373, s. 45
4. İbn Bəzzaz Ərdəbili. Səfvətüs-səfa. Təbriz, 1373, s. 70
5. Hüseyni S. Nəqş-e əcdad-e Şeyx Səfiəddin Ərdəbili dət bər-amədən-e Səfəviyan, s.118/Şeyx Səfiəddin Ərdəbili də aine-ye irfan, honər və siyasət. London, 1393, s. 117-130
6. Hüseyni S., s. 119
7. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi. C.I, Bakı, 2009, s.36-37. Tərcüməsi Oqtay Əfəndiyevə və Namiq Musalıya məxusdur.
8. Şeyx Səfi təzkirəsi. "Səfvətüs-səfa"nın XVI əsr türk tərcüməsi. Tərtibçilər: Möhsün Nağısoylu, Sevər Cabbarlı və Rauf Şeyxzamanov. Bakı, 2006, s.48

İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi. C.I, Bakı, 2009, s.37. Tərcüməsi Oqtay Əfəndiyevə və Namiq Musalıya məxusdur.

9. Cahanqoşa-ye xaqan. İslamabad, 1986, s. 5-6

Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 1-2

10. Tarix-i aləmara-yi Abbasi. C.I, Bakı, 2009, s.37-38
11. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi. C.I, Bakı, 2009, s.37-38.

Tərcüməsi Oqtay Əfəndiyevə və Namiq Musalıya məxusdur.

12. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 3-4
13. Şeyx Hüseyn. Silsilət-ül nəsəb Səfəviye. Berlin, 1343, s. 12
14. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 5

İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi. C.I, Bakı, 2009, s.38

15. Bünyadov Z. Azərbaycan Atabəylər dövləti. Bakı, 2007, s. 117
16. Tarix-i aləmara-yi Abbasi, s.38
17. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.5-6

18. Şeyx Səfi təzkirəsi. Bakı, 2006, s.49-50
19. Yenə orada, s. 50
20. İbn Bəzzaz Ərdəbili. Səfvətüs-səfa. Təbriz, 1373, s.75
21. İbn Bəzzaz Ərdəbili. Səfvətüs-səfa. Təbriz, 1373, s.70
Şeyx Səfi təzkirəsi. Bakı, 2006, s. 45
22. Tarix-i aləmara-yi Abbasi, s.38-39
23. Hüseyni S., s. 125
24. Əmini, Əmir Sədrəddin İbrahimi. Fotuhat-e şahi. Tehran, 1383, s.3
25. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.7-8
26. Hüseyni S., s. 125
27. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi. C.I, Bakı, 2009, s.39.
Tərcüməsi Oqtay Əfəndiyevə və Namiq Musalıya məxusdur.
28. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.6-7
29. Şeyx Səfi təzkirəsi. Bakı, 2006, s. 50-51
30.Şeyx Səfi təzkirəsi. Bakı, 2006, s. 37-38
31.Yenə orada, s. 39-40
32. Yenə orada, s. 37
33. Yenə orada, s. 52
34. Yenə orada
35. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi. C.I, Bakı, 2009, s.40. Tərcüməsi Oqtay Əfəndiyevə və Namiq Musalıya məxusdur.
36. Şeyx Səfi təzkirəsi. Bakı, 2006, s. 55
37. Yenə orada, s. 55-56
38. Yenə orada, s. 56-57
39. Qulam Sərvər. Tarix-e Şah İsmayıl Səfəvi. Tehran, 1374, s.26
40. Şeyx Səfi təzkirəsi. Bakı, 2006, s. 57-58
41. Yenə orada, s. 60-61
42. Yenə orada, s. 61
43. Şeyx Səfi təzkirəsi. Bakı, 2006, s.63
44. Tarix-i aləmara-yi Abbasi. C.I, Bakı, 2009, s., s.40-41
45. Şeyx Səfi təzkirəsi. Bakı, 2006, s.62
46. Yenə orada, s. 62-63

47. Yenə orada, s. 63
48. Yenə orada s. 67
49. Yenə orada, s. 68
50. Yenə orada, s. 68-69
51. Yenə orada, s. 69
52. Tarix-i aləmara-yi Abbasi. C.I, Bakı, 2009, s., s.40-41
53. Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.8
54. Şeyx Səfi təzkirəsi. Bakı, 2006, s.70-71
55. Şeyx Səfi təzkirəsi. Bakı, 2006, s.72
56. Yenə orada, s. 72

# II FƏSİL. ŞEYX SƏFİƏDDİN VƏ ŞEYX ZAHİD MÜNASİBƏTLƏRİ

## 1.Şeyx Zahid

Elmi-dini bilikləri daha da təkmilləşdirmək üçün Gilana yollanmaq təklifini Səfiəddin dərhal qəbul etdi və ona görə də Şiraz səfərini başa vurub Ərdəbilə geri qayıtdı. Mənbələrdə verilən məlumatlar belə bir gümanı ortaya qoyur ki, Səfiəddində Şeyx Zahid Gilani haqqında hər hansı bir məlumat olmayıb və hətta onun harada yaşamasından xəbərsiz imiş. Amma bu məlumatın doğruluğu müəyyən şübhə yaradır. Çünki Ərdəbildən çox-çox uzaqda qərar tutan Şirazın tanınmış din xadimləri haqqında məlumatlı olduğu halda Səfiəddinin yaşadığı bölgəyə qonşu olan Gilanda Şeyx Zahid Gilani kimi dövrünün tanınmış təriqət rəhbəri haqqında məlumatsız olması heç də inandırıcı görünmür.

İslam aləminin tanınmış təsəvvüf adamları arasında özünə yer almış Şeyx Zahid Gilani Azərbaycan mühitinin yetişdirdiyi dərin zəka sahiblərindən biri idi. Mənbələrdə və tarixi ədəbiyyatda Şeyx Tacəddin İbrahim ibn Rövşən Əmir ibn Şeyx Babil ibn Şeyx Bəndar əl Kürdü əl Səncani kimi təqdim olunan Şeyx Zahid Gilanı hicri qəməri tarixi ilə 615-ci ildə, miladi tarixlə isə 1215-ci il mart ayının 15-də Lənkəranın Siyavrud (indiki Siyavar) kəndində anadan olmuşdu. Şeyx Zahidin əcdadları əslən Xorasanın Mərv bölgəsinin Səncan kəndindən idilər. Həmin bölgədə cərəyan edən mürəkkəb hərbi-siyasi proseslər sonralar Şeyx Zahidin atası Rövşən Əmiri məcbur etdi ki, öz yurdunu tərk etsin və Gilana yollansın. Rövşən Əmir çox güman ki, gənc yaşlarında Xorasanı tərk etmişdi. Çünki mənbələrdə olan məlumatlara görə, Rövşən Əmir Siyavurudda ailə həyatı qurmuş və bu evlilikdən də İbrahim (Şeyx Zahid) adlı övladı dünyaya gəlmişdi (1).

Mövcud olan kasad məlumatlara görə, Şeyx Zahidin əcdadları şeyxzadələr olmuşlar və onlar böyük din xadimləri olmaqla insanlar arasında dini maarifçiliklə məşğul idilər. Onun

bəzi ulu babalarının çoxlu müridlərə malik olması haqqında da məlumatlar mövcuddur. Başqa sözlə, Şeyx Zahidin bəzi ulu babaları dini elmlərə yiyələnməkdə o səviyyəyə qalxa bilmişdilər ki, onlar çoxları tərəfindən mürşid kimi qəbul edilirdilər (2).

Şeyx Səfiəddinin həyatı haqqında yazılmış «Səfvətüs-səfa” əsərində bu barədə aşağıdakı qeydlər vardır. Həmin qeydlər adı çəkilən əsərin XVI əsrə aid Azərbaycan dilinə tərcüməsindən olduğu kimi verilir: “Anun adı Şeyx Tacəddin İbrahim bin Rövşən Əmir bin Şeyx Babil bin Şeyx Pəndar əl-Kürdi Səncanidür, rəhmətüllahi əleyhüm. Və yedi dədəyəkin Şeyx oğlu Şeyxdürlər. Və anun yedinci dədəsi Şeyx Ələşiçün müridi idi və həm böylə atadan-anadan pirü mürşid və abid imişlər və Şeyx Pəndarəkin. Və bu Şeyx Pəndar vilayət iyəsi və cinn ilə insün müridləri sahibi idi.

...Və bir padşah cinnilərdən Şeyx Pəndar ilən kamil etiqadı var imiş və bir qız cinnilərdən anun nikahi-əqdində imiş. Və Şeyx Pəndarın ol cinni qızdan bir oğlu doğmuş Babil adlu və anun yanında dəxi həm şeyxliğ qaidəsi sabit idi və məşayixin vəzifəsi riayət eylərmiş, ta anun dəxi bir oğlu doğdu Rövşən Əmir adlu. Və ol həm yaxşı təriqəlü imiş. Pəs bu Rövşən Əmir bir kəntdən Bəhrullah kim, Gilanın dağlarındadur, bir məsturə qız şəri nikah ilə aldı və andan Şeyx İbrahim Zahid Gilanda vücuda gəldi” (3).

Bu sətirlərdən göründüyü kimi, mənbələrdə Şeyx Zahidin nəslinin cinlərə bağlılığına işarə edilmişdir. Şeyx Zahid haqqında yazan müəlliflər bu fikrin üzərindən yan keçmişlər və çox güman ki, əsaslı dəlilin olmaması buna səbəb olmuşdur. Yuxarıdakı cümlələrdən həm də Şeyx Zahidin atasının Gilanın Bəhrulla kəndində məskunlaşdığı və həmin kənddə olduğu zaman ailə qurduğu məlum olur. Sonradan o, Siyavrud kəndinə köçmüş, orada yaşamış və həmin kənddə də dünyasını dəyişmişdir.

Ulu babasının adının qarşısında əl Kürdü yazılmasına görə Şeyx Zahidin nəslinin kürd olması ehtimalları irəli sürülür. Eyni zamanda onun əcdadlarının Şeyx Səfiəddinin əcdadları ilə eyni məntəqədən olması da güman edilir. Mənbələrdə bu günə qədər gəlib çatmış bəzi məlumatlara görə, Şeyx Səfiəddinin ulu babası

Firuzşah Zərrinkolah da Səncan kəndindən idi və elmi-tarixi ədəbiyyatda onun da kürd olması haqqında bəzi fikirlər mövcuddur. Amma Firuzşahın kürd olması məsələsi elmi-tarixi ədəbiyyatda birmənalı şəkildə qəbul edilmir və bununla bağlı müəyyən qənaətlər də ortaya qoyulmaqdadır. Əslində, Şeyx Zahidin əcdadlarının kürd olması ehtimalı da tədqiqatçılar tərəfindən bütünlüklə qəbul edilmir. Bəzi tədqiqatçıların fikrincə, Şeyx Zahidin əcdadlarının adının qarşısına qoşulmuş olan "Kürdü" sözü heç də etnik mənsubiyyət mənasını vermir və bu söz talış dilində "kırdi" olmaqla ağlaşma və ya ağı demə mənasındadır. Yəni "kırdi" dərviş və ya nöhə deyən adam anlamında başa düşülməlidir (4).

Tədqiqatçılar arasında Şeyx Səfiəddinin ulu babası Firuzşahla Şeyx Zahidin babası Şeyx Bəndar əl Kürdü arasında şəxsi tanışlığın olmasını və bu tanışlığın nəticəsi kimi onların Xorasandan köç edərək Xəzərin cənub-qərb sahillərinə gəlməsini və talışlar yaşayan bölgədə məskunlaşmasını güman edənlər də vardır. Amma bu fikir də gümandan başqa bir şey deyildir və onun əsaslandırılması üçün hər hansı bir sübut da ortaya qoyulmur. Sadəcə olaraq onların eyni kənddən olması haqqında məlumatlar belə ehtimalın irəli sürürlməsinə əsas olmuşdur.

Adi məntiqi yanaşma da bu ehtimalın düzgün olmadığını göstərməkdədir. Bu ehtimalı irəli sürən müəllifin özünün də göstərdiyi şəcərə sıralanmasında Şeyx Bəndar əl Kürdü, Şeyx Zahidin atasının babasıdırsa, Firuzşah isə Şeyx Səfiəddinin 6-cı ulu babasıdır. Ona görə də onların eyni vaxtda yaşaması məntiqdən uzaqdır.

Belə bir fikir də irəli sürülür ki, guya Şeyx Zahidin əcdadları Firuzşahın xidmətində olmuşdular. Yəni Firuzşah yerlisi saydığı insanlara öz yanında yer vermiş və həmin insanlar da bunun qarşılığı olaraq Firuzşaha sədaqətlə xidmət etmişdilər. Şeyx Zahid də bunun qarşılığında Firuzşahın xələflərinə, konkret olaraq Səfiəddinə öz ehtiramını əməldə nümayiş etdirmişdir. Başqa sözlə, özünün yaratdığı təriqət rəhbərliyini oğlu Cəmaləddinə deyil, Səfiəddinə həvalə etmişdi. Bundan əlavə, qızı Bibi

Fatiməni də Səfiəddinə nikah etdirməklə Səfiəddinin əcdadlarının yaxşılıqlarının əvəzini çıxmağa çalışmışdır. Bu fikri irəli sürən müəllif sonra onu da əlavə edir ki, Şeyx Zahid əslən kürd olsa da, talışların arasında dünyaya gəlmiş, talış dilini öyrənmiş və həyatını da talışlar arasında qurmuş, talış dilini və mədəniyyətini öyrənmişdi. Elə mürşidliyə də talışlar arasında başladığı üçün talışların hörmətini qazanmış və onun qəbri talışlar tərəfindən ziyarətgaha çevrilmişdi (5).

Bu ehtimalın əsaslandırılması üçün ciddi bir fakt ortaya qoyulmamışdır və əslində, müəllif tərəfindən irəli sürülən həmin fikir ehtimaldan başqa bir şey deyildir. Çünki bir tərəfdən Şeyx Zahidin etnik mənsubluğu ciddi faktlara söykənməyən ehtimallar əsasında şübhə altına alınır. Digər tərəfdən isə Səfiəddinin böyük bir təsəvvüf mütəfəkkiri olması şübhə altına alınır. Belə bir güman yaradılır ki, Şeyx Zahid öz qızını Səfiəddinə onun elminə, biliyinə, zəkasına, etiqadına və sədaqətinə görə deyil, əcdadlarına Səfiədinin əcdadlarının etdiyi yaxşılıqlara görə nikah etdirmişdi.

İstər İbrahim (Şeyx Zahid), istərsə də onun ata-babası zəhmətlə məşğul olan insanlar kimi tanınmaqdadırlar. Bildirilir ki, atası Rövşən Əmir əkinçiliklə məşğul olmuş və ailəsini öz zəhmətinin bəhrəsi ilə dolandırmışdır. Baxmayaraq ki, Şeyx Zahidin əcdadları şeyx kimi tanınırdılar, bununla belə onlar halal zəhmətlə dolanmağa üstünlük verirdilər. Bu da onların sufi həyatının ayrılmaz tərəflərindən biri idi. Şeyx Zahiddə də halal zəhmətə olan bağlılıq qalmaqda idi və hələ erkən yaşlarından o da əkinçiliklə məşğul olur və zəhmətə qatlaşırdı (6).

Şeyx Zahidin mürşidi olmuş Seyid Cəmaləddin də halal zəhməti ilə yaşayan bir təsəvvüf əhli kimi xatırlanmaqdadır. Seyid Cəmaləddin XIII əsrtin əvvəllərində Azərbaycan mühitində yetişmiş böyük sufilərdən biri kimi tanınmışdır və istər Zahidiyyə təriqətinin və istərsə də Səfəviyyə təriqətinin meydana gəlməsində onun özünəməxsus rolu və təsiri olmuşdu. Əslən Azərbaycandan olan Seyid Cəmaləddin Şirazda anadan olsa da, sonradan öz təhsilini və həyatını Azərbaycanla bağlamışdı. Seyid Cəmaləddin də dövrünün çox nüfuzlu sufilərindən olan Şeyx

Şəhabəddin Əhəridən dərs almış və böyük sufi mütəfəkkiri kimi yetişmişdi. Sonradan mürşidi Şeyx Şəhabəddinin tapşırığı ilə Seyid Cəmaləddin Lənkəran bölgəsinə gəlmiş və Malavan kəndində məskunlaşmışdı. Seyid Cəmaləddin elə bir elm və bilik sahibi olmuşdu ki, mürşidi Şeyx Şəhabəddin Mahmud Əhəri ona "Eynüz zaman" adı vermişdi və ona görə mənbə və tarixi ədəbiyyatda onun bu adla adlandırılmasına da rast gəlmək mümkündür. Mövcud olan faktlar onu deməyə imkan verir ki, Seyid Cəmaləddin öz mürşidinin sevimli müridi olmaqdan əlavə, həm də etibar etdiyi bir şəxs idi. Yəqin elə buna görə idi ki, Seyid Cəmaləddin sufiliyin təbliği məqsədilə Lənkəran bölgəsinə göndərilmişdi. Rəvayət xarakteri daşıyan bir məlumata görə, mürşidi Seyid Cəmaləddini Lənkəran bölgəsinə göndərəndə ona demişdi ki, həmin bölgədə böyük bir sirr ilə qarşılaşacaq və Seyid Cəmaləddin də həmin sirri açmalıdır. Seyid Cəmaləddin də mürşidinin tapşırığı ilə bölgəyə gəlib adı çəkilən kənddə yerləşdikdən sonra bir dəfə təsadüfən İbrahimlə (Şeyx Zahidlə) qarşılaşır və baxışlarından onun çox dərrakəli bir uşaq olduğunu hiss edir. Özlüyündə belə bir fikrə gəir ki, qarşılaşmalı olduğu sirr elə İbrahimdir ki, gərək onun elm və təhsili ilə məşğul olsun və onun istedadını üzə çıxarsın. Bununla, Seyid Cəmaləddinlə Şeyx Zahidin mürşid-müridliyi başlayır (7).

«Səfvətüs-səfa" əsərində Seyid Cəmaləddinin Gilana göndərilməsi belə təsvir edilmişdir:

"Təbrizlü Şeyx Şihabəddin, Seyyid Cəmaləddini Gilana göndərməgi səbəbi ol idi ki, Şeyx Zahidi tərbiyət eyləyə. Və şərhi böylə idi kim, Dirkəkənd kim, Gilanın kəntlərindən bir kənt idi, Əbülqasim adlı bir kişi var idi kim, Gilandan Əhrəyə gedərdi və Şeyx Şihabəddinin hüzurinə müşərrəf oldı. Bir neçə gündən sonra anda Tanrı rəhmətinə vardı. Şeyx Şihabəddin, Seyyid Cəmaləddinə işarət qıldı kim, Əbülqasimin cəsədi Gilana iltürə. Seyyid Cəmaləddin anun nəfəsi qəbul eyləyib ölünün nəşi götürüb aparmağa durdı. Şeyx Şihabəddin dedi kim, əyalın dəxi götür və Gilana apar kim, bizim anda bir sirrimiz vardır və ol sənin əlindən zahir olacaqdur.

...Pəs, Seyyid Cəmaləddin öz əhli ilə əyalını götürüb Gilana vardı və bir az müddət anda qaldı. Bir gün Şeyx Zahid uşağ ikən məktəbə varırdı, təxtəsi qoltuğu altında. Seyyid Cəmaləddin mübarək nəzəri ana düşdü. Şeyx Zahidin əlindən təxtəsini aldı və mübarək əlini anun mübarək başına sürtdü və dedi ki, bu sirr ol sirrdir kim, Şeyx Şəhabəddin məni bu səbəb ilə buraya göndəribdir" (8).

Digər bir məlumata görə, Şeyx Zahid ilkin təhsilini doğulduğu bölgədə almışdı. Əvvəlcə o, dünyəvi elmlərin öyrənilməsi ilə məşğul oldu. Sonra isə Şeyx Zahid irfani elmlərin öyrənilməsinə başladı və bu sahədə marağında olduğu bilikləri almaq üçün Şiraza yollandı. Orada irfan mütəfəkkirlərindən biri kimi tanınan Sədi Şirazinin yanına getdi. Bildirilir ki, Sədi Şirazi də onun elm və savadı ilə məşğul olmağa razı oldu. Bu məlumatın doğru olacağı təqdirdə Şeyx Zahidin neçə il Sədi Şirazinin yanında qaldığını söyləmək çətindir. Amma mövcud məlumatlar onun Sədi Şirazinin rəhbərliyi altında elmi-irfani biliklərini kifayət qədər təkmilləşdirdiyini nümayiş etdirir. Şeyx Zahidin dərin elmi-irfani biliklərə yiyələndiyini görəndə, Sədi Şirazi ona geri qayıtmağı, Gilanda Seyid Cəmaləddinin rəhbərliyi altında öz təhsilini davam etdirməyi tövsiyə etdi. Sədi Şirazi onun elmi baxımdan kamilləşməsinin sonrakı dövrünü Seyid Cəmaləddinin verə biləcəyi təhsildə görürdü. Şeyx Zahid də bu tövsiyəni qəbul etdi və Gilana qayıdaraq Seyid Cəmaləddinə müridlik etməyə başladı (9).

Başqa bir məlumata görə isə, Şeyx Zahid ailəsi tərəfindən təhsil üçün Seyid Cəmaləddinin yanına göndərilmişdi. Şeyx Zahid də təhsil zamanı biliyə marağını və istedadını nümayiş etdirdi və irfan elmlərinə sahib oldu. Zahid adı da ona elə Seyid Cəmaləddin tərəfindən verilmişdi (10). Seyid Cəmaləddin onun savadlı və bilikli bir təsəvvüf sahibi olacağını görürdü və o bu gümanlarında heç də səhv etməmişdi.

Zahid adının mənası zöhd edən deməkdir. Zöhd isə irfan əhli arasında təsəvvüfün ilk şərti kimi qəbul olunmaqdadır. Bildirilir ki, zühdün mənası Allahdan başqa hər şeyi insan qəl-

bindən çıxarmaq, onları əsas tutmamaq, dünya malının varlığına sevinməmək, yoxluğuna üzülməmək, Allah ilə kifayətlənməkdir. Əsl zöhd adamlarını başqalarından fərqləndirən cəhət onların qəlbində Allah eşqinin yer tutması, Allaha itaətin birmənalı şəkildə qəbul edilməsi, pəhrizkarlığa üstünlük verilməsidir. Zahidlər o adamlar hesab edilirdi ki, dünya malına və zinətlərinə aldanmasın, həyatını maddi nemətlər arxasınca qaçmağa həsr etməsin, əsiri olmadığı nemətlərin əldə edilməsini isə Allahın ona iltifatı kimi qəbul etsin. Mütəxəssislərə görə, zöhdün üç dərəcəsi mövcuddur: a) fərz olan zöhd, yəni günah buyrulmuş hər şeydən kənar olmaq; b) halal olmayan, şübhəli görünən əməllərdən uzaq olmaq və c) Allahı tanımağa və dərk etməyə mane olan hər şeydən kənar olmaq (11).

Şeyx Zahid də etiqad yolunu tutandan sonra özündə bu keyfiyyətləri formalaşdıra bilmişdi və buna görə də Zahid adını qazana bilmişdi.

Şeyx Zahid qabiliyyəti, savadı ilə ətrafa səs sala bilmiş və mürşidlik səviyyəsinə yüksəlmişdi. Dünya malından uzaqlaşaraq özünü irfan elminə həsr etmişdi. Seyid Cəmaləddin həm təhsili ilə, həm də həyat tərzi ilə Şeyx Zahidə də bu dəyərləri aşılamağa çalışırdı.

Şeyx Zahidlə Seyid Cəmaləddin arasındakı münasibətlərin xarakteri barəsində rəvayəti andıran bir məlumat mənbələrdə qalmaqdadır. Həmin mlumata görə, Seyid Cəmaləddin ağır zəhmətlə məşğul olaraq özünə ruzi qazanırdı və müridlərini də bu ruhda tərbiyələndirirdi. Məlumata görə, Seyid Cəmaləddin pambıq yetişdirilməsi ilə məşğul olurmuş. Bir dəfə Seyid Cəmaləddin öz sahəsindən topladğı pambığın bir miqdarını öz ehtiyacları üçün saxlayır, artığını isə Şeyx Zahidə tapşırır ki, onu Astara bazarına aparıb satsın və əldə etdiyi pula düyü alıb gətirsin. Şeyx Zahid də bu tapşırığı yerinə yetirir. Bazara apardığı pambığı sataraq əvəzində düyü alır və Seyid Cəmaləddinin yaşadığı Bütəsər (Pensər) kəndinə yola düşür. Yorulduğu üçün yolda bir qədər dincəlmək qərarına gəlir. Düyü kisəsini yanına qoyanda həmin kisədən bir düyü dənəsi  yerə düşür. Şeyx Zahid ac olduğu üçün

həmin düyü dənəsini ağzına atmaq istəyir. Bu zaman onun gözlərinə Seyid Cəmaləddinin narazı baxışları görünür. Şeyx Zahid düyü dənəsini kisəyə atarq hərəkətə başlayır. Mənzil başına yetişəndə Seyid Cəmaləddin onu qarşılayır və bildirir ki, tamahına üstün gəlməklə və düyü dənəsini icazəsiz yeməməklə zahidliyini, yəni pəhrizkarlığını sübut etmişdir. Elə bu hadisədən sonra da Seyid Cəmaləddin onu Zahid adlandırmağa başlayır (12).

Seyid Cəmaləddinə müridlik edərkən Şeyx Zahidin pəhrizkarlığı haqqında "Səfvətül-səfa" əsərində başqa bir hekayət də mövcuddur. Burada bildirilir ki, Seyid Cəmaləddin müridi Şeyx Zahidi tövbəyə çəkdi, ona ilahi dəyələri təlqin etdi. Bir dəfə ona tapşırdı ki, pambıq sahələrini alaq otlarından təmizlənməsində ona kömək etsin. Şeyx Zahid də bu xahiş əsasında alaq otlarının təmizlənməsinə yollandı. Bu zaman yerdən qopardığı alaq otları ona qızıl və gümüş şəklində göründü. Həmin hadisə təkrar-təkrar baş verdi və hər dəfə də Şeyx Zahid ona qızıl və gümüş kimi görünən alaq otlarını yerə atdı, onların parlaqlıqlarından üz döndərdi. Bütün bunlar Seyid Cəmaləddinə əyan idi və ona görə də müridinin dünya nemətlərinə aldanmamasını məmnunluqla qarşıladı. Seyid Cəmaləddin öz məmnunluğunu və razılığını Şeyx Zahidə də çatdırdı və ona Zahid adı verməkdə yanılmadığını qeyd etdi (13).

Bu təsvir rəvayət məzmunludur. Lakin çox güman ki, bununla Şeyx Zahidin əqidəsinin möhkəmliyinə, sufi dəyərlərinə olan sədaqətinə işarə edilmişdir.

Seyid Cəmaləddinin müridliyində olanların sayı elə də çox deyildi. Məlumatlara görə, onlar cəmi üç nəfər idilər. Mənbələrdə onun müridlərinin sayının az olmasının əkinçiliklə məşğul olması ilə bağlandığına işarə olunmuşdur. Çox güman ki, Seyid Cəmaləddin həm də istedadlı, elm-bilik qavramı güclü olan müridləri öz ətrafına toplamışdı. O da bildirilir ki, Şeyx Zahid təhsilinin əvvəlində özünü heç də istedadlı bir mürid kimi göstərə bilməmişdi. Yəni irfani elmlərin öyrənilməsi zamanı xüsusi bir istedadı ilə fərqlənmirdi. Lakin sonradan o özünü bir etiqad əhli kimi təsdiqləyə bilmişdi (14).

Şeyx Zahidin etiqad və irfana bağlılığının təsadüfi olmadığını yoxlamaq üçün Seyid Cəmaləddin onu fiziki sınağa da çəkmişdi. Bu hadisə onların hər ikisinin səma(a) halında olduqları zaman baş vermişdi. Səma(a)da olmaq - ilahi məzmun daşıyan mətnin və ya səslərin eşidilməsi ilə təsəvvüf əhlinin daxili vəcdə gəlmələri və bu zaman hətta özlərindən getmələri idi. Belə bir vəziyyətdə olduqları zamanı Seyid Cəmaləddin müridi Şeyx Zahidi qaldırıb yerə çırpır və sonra da bir ağac götürüb ona bir neçə zərbə vurur. Bu zərbələrdən sonra Şeyx Zahidin başı üç yerdən yarılır. Seyid Cəmaləddin onu bu vəziyyətdə tərk edib evinə qayıdır və xanımına baş verənlər haqqında danışır. Sonra da əlavə edir ki, əgər Şeyx Zahid baş verənlərdən sonra geri dönüb mürşidindən uzaqlaşarsa, onda onun nə dini var, nə də dünyası. Yox, əgər, bu sınaqdan sonra mürşidinin yanına gələcəksə, onda onun həm dini olacaq, həm də dünyası. Bu məsələni dəqiqləşdirmək üçün Seyid Cəmaləddin həyat yoldaşından xahiş edir ki, dışarı çıxsın və Şeyx Zahidin gəlib-gəlməməsindən xəbər tutsun. Seyid Cəmaləddinin həyat yoldaşı evdən çıxıb Şeyx Zahidin huşsuz vəziyyətdə evin kandarına yıxıldığını və başından da qan axdığını görür. Seyid Cəmaləddin bundan xəbər tutanda məmnunluqla bildirir ki, Şeyx Zahid həm dünyasını qazandı, həm də axirətini (15).

Şeyx Zahidin müridlərinin təhsilinin necə aparılması, irfanın hansı mövzularının bu müridlərə o cümlədən də Səfiəddinə necə öyrədilməsi haqqında mənbələrdə lazım olan məlumatlarla rastlaşmaq çətindir. Heç şübhəsiz ki, onun təhsili islam şərqində, o cümlədən də Azərbaycan mühitində təsəvvüfün sınanmış təcrübəsi və ənənəsi üzərində aparılırdı. Tədqiqatlar da göstərir ki, XII-XIII əsrlərdən etibarən islam təriqətçiliyin mərkəzlərindən biri də Azərbaycan idi və bu dövrdə Azərbaycanda islam təsəvvüfünün böyük mütəfəkkirləri yetişmişdilər. Onların arasında Əbdülqahir Sührəvərdi, Əbu Nəfs Ömər Sührəvərdi, Qütbəddin Əbhəri, Şəhabəddin Məhəmməd Təbrizi, Seyid Cəmaləddin Təbrizi kimi böyük təsəvvüf arifləri yetişmişdilər (16). Onların hər birinin öz məktəbi, çoxlu sayda

müridləri var idi və onlar da dini-ictimai fikrin formalaşmasına öz təsirlərini göstərirdilər.

İslami dəyərlərə, mənəvi kamilləşməyə, əxlaqi keyfiyyətlərə, ictimai ədalətə, şəriət normalarına dayaqlanan təsəvvüfün mərkəzində heç şübhəsiz ki, etiqad və haqqın tanınması dayanırdı və Şeyx Zahid də öz elmində bu hədəfləri qarşısına məqsəd qoymuşdu. Bu hədəflərə çatmaq üçün isə onun Seyid Cəmaləddin kimi bir mürşidi, ustadı var idi və haqqı tanımağın, haqqa çatmağın irfani yollarını ondan öyrənirdi. Seyid Cəmaləddin elə bir təcrübəli və kamil təsəvvüf əhli idi ki, Şeyx Zahid marağında olduğu ilahi bilikləri ondan almaqla onun əməli təcrübəsindən də bəhrələnə bilərdi. Şeyx Zahidin istedadı və qabiliyyəti isə onda idi ki, irfani elmləri qavramaq üçün iti zəkası və bu yolda davamlı inkişafda olmaq üçün qətiyyətli iradəsi var idi.

Seyid Cəmaləddin isə öz mürşidliyi ilə Şeyx Zahidə göstərdi ki, irfani elmlərin kəsb edilməsi uzun bir yoldur və qarşıya qoyulan məqsədə varmaq üçün hansısa bir məqamda kifayətlənmək və izlənilən yoldan çəkinmək olmaz. Bu böyük təriqət sahibi Şeyx Zahiddə belə bir inamı yarada bildi ki, hətta Seyid Cəmaləddin dünyasını dəyişəndən sonra da elm və bilik yolundakı mücadiləsini dayandırmasın, aldığı biliklərini təkmilləşdirməklə kamil bir haqq adamına çevrilsin. Konkret olaraq Seyid Cəmaləddin ona mürşidsiz daha iyirmi il də təhsilini davam etdirməyi və həmin illər ərzində özünə mürid götürməməyi tövsiyə etdi. Şeyx Zahid də mürşidinin tövsiyəsini qəbul etdi, rahatlıq bimədən irfani elmlərin öyrənilməsini, təsəvvüfün ən dərin qatlarda yerləşən sirlərinin əxz edilməsini davam etdirdi. «Səfvətüs-səfa” əsərində Seyid Cəmaləddinin tövsiyələri və onlara Şeyx Zahid tərəfindən necə əməl edilməsi belə təsvir edilmişdir: “ Çün Şeyx Zahid Seyyidün qulluğı can ilən eylər idi və məşəqqət ilə ələm çəkməgə qatlanurdı, Seyyid Cəmaləddin fəna mənzilindən bəqa yurtına varurdı, Şeyx Zahidə dedi: “Zahid, mənim həyatumdan sonra igirmi yıl gərək kim, tərbiyət ilə irşada məşğul olmayasan və döşəgə girməyib uyumayasan və arxan ilə qaburğanı yerə yetürməyəsən. Andan sonra bir bulağ kimi olursan. Nə qədər

kim, anı yaşırmağa cəhd eylərsən, bər həm yetməyə, pəs Həqq-təala səni aləmdə bildürə.

...Və çün Seyyid Cəmaləddin bəqa aləminə vardı, Şeyx Zahid igirmi yıl Seyyidin buyruğu ilən qaburğayı yerə dəgdirmədi və tərbiyət ilə irşada məşğul olmadı və heç kimsə ilən söyləmədi, ol həddə kim, bir şəriki var imiş, əkin-biçində ortağ idilər və ol qamu işləri Şeyx Zahidə qoymuş idi və özü heç iş işləməz idi. Və gəlüb bir əli çuxanın yeninə çəkərdi və durub der idi: “Pir, nə xoş işlərsən, mən sənin işlədigini bəgəndim ki, cid ilən işləməgə durubsan”. Şeyx Zahid dodağı altında der idi: “Mübarək olsun. Əgər bilsə idin kim, sənin işçin kimdir, heybətdən ölürdün”.

...Və həm böylə əpsəm idi, ta ol dörd yıl kim, Şeyx Səfiəddin Ərdəbildə anı istəyüb hər yandan xəbərin sorar idi və irşad ilə tərbiyətə məşğul olduği işi ol idi ki, ol vəqtdə Seyid Cəmaləddin Əlinin sifəti Şeyx Zahidə görünüb dedi kim, Tanrı-təala səni anun içün durğuzubdur ki, xəlqin tərbiyət ilə irşadına məşğul olasan və səni bu işə göndərübdür. Pəs, Şeyx Zahid xəlayiqin tərbiyət ilə irşadı qılmağa sabit oldı. Və çün Şeyx Səfiəddin anun hüzurinə vardı və nuri-Tanrı sübhanəhü və təala aydınlığ qapusını xəlayiqün yüzünə açdurub günbəgün həqiqət yolı zahirrak olur idi və ol zəman bidət qaranluğu aləmi qararmış idi və xəlayiq doğru yolu tanımazdılar, Şeyx Zahidin tərbiyət ilə irşad günəşi dəmbədəm ucalur idi, övci-kəmala yetincə, vallahü ələm” (17).

Sonuncu fikir Səfiəddinin Şirazdan Ədəbilə qayıtdıqdan sonra Şeyx Zahidin yanına yollanmaq üçün münasib anı gözləməsi ilə bağlıdır. Amma bu fikrin dəqiqləşdirilməsinə ehtiyac vardır. Yuxarıdakı cümlələrdən belə məlum olur ki, hətta Səfiəddinin Şirazdan Ərdəbilə qayıtmasına qədər Şeyx Zahid müridlərin irşadı ilə məşğul olmurdu və Seyid Cəmaləddin də onun gözünə görünərək Tanrının onu bu işlərə vəzifələndirdiyini bildirdi. Əslində isə Səfiəddin mürşid sorağı ilə Şiraza yollananda Şeyx Zahid artıq tanınmış mürşid və təriqət rəhbəri idi. Onun məhz tanınmış mürşid olmasının nəticəsi idi ki, Şiraz arifləri də Səfiəddinə onun yanına yollanmağı tövsiyə etmişdilər. Bəzi

mənbələrin verdiyi məlumata görə, Səfiəddinin Gilana yollanmaq istədiyi günlərdə Şeyx Zahid Gilaninin ətrafında və ətraf bölgələrə səpələnmiş 100 min nəfər müridi var idi. Yalnız onun ətrafında olan müridlərin sayının 12 min nəfər olduğu bildirilir ki, onlardan da 400 nəfəri xəlifə məqamına yetişmişdi (18). Bu müridlərdən Gilanda, o cümlədən Azərbaycanda yaşayanlar da var idi və onlar Şeyx Zahiddən dərs almaqla bərabər, həm də onun baxışlarının davamçıları idilər. Doğrudur, tədqiqatçılar heç də Şeyx Zahidin müridlərinin yuxarıda göstərilən sayı ilə razılaşmırlar (19). Bununla belə, hər halda Səfiəddinin mürşid sorağında olduğu vaxtlarda Şeyx Zahid kifayət qədər tanınmış və nüfuzlu bir təriqət rəhbəri idi və onun müridlərinin sayı da xeyli çox idi.

İstər Şeyx Səfiəddinin və istərsə də Şeyx Zahidin həyatı haqqında əsas mənbə sayılan İbn Bəzzazın «Səfvətüs-səfa" əsərində müəyyən fikirlərin və ifadələrin konkret olmaması, bəzi məlumatların daha çox informasiya xarakterli olması ayrı-ayrı məsələlər haqqında tədqiqatçıların fərqli qənaətlər ortaya qoymasına səbəb olmuşdur. Məsələn, Şeyx Səfiəddinin Gilana gəlməsi ərəfəsində Şeyx Zahidin kifayət qədər tanınmış bir mürşid olmasını, onun irşadında çoxlu sayda müridin olmasını qeyd edirlər. Belə tədqiqatçılar həm Şeyx Zahidin adının Şiraz arifləri arasında tanınmasını, həm də onun müridlərinin çox olmasını, habelə Şeyx Zahidin yalnız İran arealında deyil, onun sərhədlərindən kənarda da tanınmasını qeyd edərək və bununla Şeyx Zahidin şəxsiyyətinə böyük dəyər verirlər (20).

Bəzi müəlliflər isə İbn Bəzzaza istinad etməklə bildirirlər ki, Şeyx Səfiəddinin Gilana gəlişi ərəfəsində Şeyx Zahid heç də tanınmış bir təsəvvüf əhli deyildi. Mürşidinin vəsiyyətinə əsasən o, daha çox əkinçiliklə məşğul olur və Şeyx Səfiəddinin gəlişi ərəfəsində onun yanında barmaqla sayılacaq qədər mürid var idi. Belə bir fikir irəli sürülür ki, İbn Bəzzaz qəsdən Şeyx Zahidin nüfuzunu pərdələməyə çalışmış və bununla öz mürşidi olmuş Şeyx Səfiəddinin tərifini ucaltmaq istəyirmiş. Yəni iddia edilir ki, İbn Bəzzaz bununla Şeyx Zahidin məhz Şeyx Səfiəddinin ona

qoşulmasından sonra məşhurlaşdığını qabartmaq istəyirmiş. Bundan əlavə o da qeyd edilir ki, guya Şeyx Zahidin kəraməti haqqında da məhz Şeyx Səfiəddinin gəlişindən sonrakı dövrdə daha çox söhbət açılır və bu dövrdən başlayaraq Şeyx Zahidin həm Gilanda, həm də Gilan xaricində müridlərinin sayı çoxalmağa başladı (21).

Amma qeyd edilməlidir ki, Şeyx Zahidin təqvası və etiqadı, onun kəramət sahibi olması heç də Şeyx Səfiəddinlə bağlı deyildi. Şeyx Səfiəddinin onun mürşidliyini qəbul edib-etməməsindən asılı olmayaraq Şeyx Zahid etiqadında və ibadətində yüksək məqama yetişmişdi və məhz buna görə də Şeyx Səfiəddin onun müridliyini qəbul etmişdi. Əksinə, şübhə yoxdur ki, Şeyx Səfiəddinin məşhurlaşmasında, nüfuz qazanmasında Şeyx Zahidin özünəməxsus təsiri olmuşdu. Çünki Şeyx Səfiəddinin kamil sufi kimi yetişməsində və sonradan yeni bir təriqəti formalaşdırmasında Şeyx Zahidin və onun təriqətinin təsiri istisna edilə bilməz. Zahidiyyə təriqəti istər Səfəviyyə təriqətinin, istərsə də Səfəvi ideologiyasının formalaşmasının mənbələrindən birini təşkil edir və bu mənada Şeyx Zahidin məşhurlaşmasının Şeyx Səfiəddinin adı ilə bağlanmasının iddia edilməsi subyektiv mövqedən başqa bir şey deyildir.

Mövcud məlumatlar Şeyx Zahidin dərin etiqadlı bir sufi olmasını nümayiş etdirir. Bildirilir ki, Şeyx Zahid yuxuya çox az vaxt ayırardı, vaxtının böyük hissəsini yaradana ibadətdə keçirərdi. Bir qayda olaraq, gündüzlər oruc tutar, gecələr isə vaxtını namaz və ibadətdə keçirərdi. "Quran" oxuması və Allahı zikr etməsi də onun ibadətinin əsasını təşkil edərdi. Gündüzlər yalnız müəyyən vaxtlarda tarlasında çalışar və bu nunla dolanışığını da öz zəhməti ilə təmin etməyə çalışardı. Yəni halal dolanışıq, başqalarının köməyinə arxalanmamaq da onun sufi həyatının ayrılmaz tərəfi idi (22).

Şeyx Zahid elmində, biliyində və etiqadında elə bir səviyyəyə yüksəldi ki, fitva vermək məqamını kəsb etdi və onun ətrafında çoxlu sayda mürid toplaşdı. Bununla da onun adı ilə bağlanılan Zahidiyyə təriqəti formalaşdı. "Təriqət" ərəb sözü olub

hərfi mənada “yol” deməkdir. Üfrani mənada isə təriqət Allaha aparan yol kimi qəbul edilir.

Təriqətlərin meydana gəlməsi islamın meydana gəlməsinin sonrakı dövrlərinə aiddir. İslam peyğəmbərinin dövründə təriqətlər olmamışdı. Ona görə bəzən belə bir fikir də irəli sürülür ki, əgər peyğəmbərin dövründə təriqətlər olmayıbsa onun mövcudluğuna və ya ona riayət edilməsinə ehtiyac yoxdur.

Amma təriqətlər islam aləmində təbii bir zərurət kimi ortaya çıxıb və təriqət əhli olmaq da din tərəfindən günah bilinməmişdir. Məlumdur ki, istənilən bir insanın hansısa bir sahədə maariflənməsi təcrübəli, işi bilən, savadlı insanların rəhbərliyi altında daha səmərəli şəkildə həyata keçir. Dini həqiqətlərin öyrənilməsi, onlara varılması, Allaha çatmağın doğru yollarının müəyyənləşdirilməsi də arif insanların, irfan əhlinin rəhbərliyi altında daha asanlıqla və əhatəli şəkildə həll edilə bilər. İnsanlar və o cümlədən də islam dininə mənsub olan adamlar eyni zehni, fiziki, mənəvi keyfiyyətlərə malik deyildirlər. Bu mənada onların islamın müqəddəs kitabında yazılanların və müsəlmanlara buyurulanların bütöv və kamil şəkildə qavrayacaqları da mümkün deyildir. Öz zehni keyfiyyətlərinə görə dini bilikləri tezliklə qavraya bilənlər də mövcud ola bilər, qavraya bilməyənlər də. Gündəlik qarşılaşdığı ən müxtəlif hadisələrdən doğru nəticə çıxarmaq, onların mahiyyəti haqqında düzgün qənaətə gəlmək hamıya eyni səviyyədə müəyyəsər olmur. Ən adi ixtisas biliklərinin öyrənilməsi belə təkbaşına çox çətinliklə başa gələ bilər. İslam normalarının, islamın müqəddəs kitabında öz əksini tapmış təlimlərin öyrənilməsi və dərk edilməsi də müxtəlif hazırlıq səviyyəsinə məxsus müsəlmanlar tərəfindən müxtəlif səviyyədə qavranıla bilər. Ona görə dini biliklərin, şəriət normalarının düzgün öyrənilməsi, anlaşılması və onların düzgün icra edilməsi üçün ustad təliminə təbii bir ehtiyac vardır. Təriqətlər də məhz bu zərurətdən meydana gəlib. Təriqət, yaradana aparan və ona qovuşduran yolun, yaradanın dərk edilməsinin, haqq dünyasına etiqadın müridlərə aşılanması üsullarıdır. Bu mənada təriqətlərin qarşısında dayanan mühüm vəzifə müsəlmanların ruhunu tərbiyə

etmək, onları xarici təsirlərdən uzaqlaşdıraraq daxili dünyalarına tapınmalarına, mütləq həqiqətə yetişmələrinə yol göstərmək, habelə ruhun nəfs üzərindəki hakimliyini, nəfsin ruhdan asılılığını təmin etməkdir. (23). Bu mənada təriqətçilik islami maarifçilik qurumlarının fəaliyyəti kimi də qəbul edilə bilər.

Tarixdən məlumdur ki, islam dünyasında xeyli sayda təriqətlər olmuşdur. Lakin bu heç də müsəlmanların yaradana, onun kitabına, peyğəmbərinə, haqq dünyasına baxışlarında müxtəlifliyin özünü göstərməsi demək deyildir. Haqqa qovuşmağın yolunun təlimi bütün təriqətlər üçün dəyişməz hədəfdir. Lakin mühitdən, şəraitdən, müsəlmanların təfəkkür səviyyəsindən, onlara kənar təsirlərin miqyasından asılı olaraq bu hədəflərin aşılanması, təlimi, öyrədilməsi, əqidəyə çevrilməsi üçün müxtəlif üsullardan istifadə oluna bilər ki, təriqətlərin çoxluğu da bundan irəli gəlir. Məqsəd vahidliyi bütün təriqətləri birləşdirən xarakterik cəhətdir. Təriqət anlamının qavranılması üçün elmi-tarixi ədəbiyyatda bu məsələni bəzən zəvvarların həcc səfərləri ilə müqayisə edirlər. Həccə yollanan zəvvarların bəziləri yaxın məsafədən, bəziləri isə uzaq məsafələrdən Məkkəyə doğru səfərə başlayırlar. Onların Məkkəyə qədər olan məsafələri fərqli olsa da, hamısının məqsədi eynidir. Təriqətlər də belədir. Bu təriqətlərə mənsub olan müridlərin haqqa ibadətlərində şəriət normalarından kənara çıxmamaq şərti ilə fərqlilik olsa da, məqsəd eynidir – haqqı dərk etmək, haqqa qovuşmaq. Məsələn, xəlvətilik heç də bütün təriqətlərə mənsub olmaya bilər. Və ya islamda oruc ildə bir ay nəzərdə tutulsa da, bəzi təriqətlərə mənsub müridlər daha uzun müddətə oruc tuta bilərlər. Yəni təriqət heç də mahiyyəti dəyişmir, ancaq bu mahiyyətə aparan yolları fərqli bucaqlardan daha asan, anlaşıqlı və zəngin edə bilər.

Məqsəd eyniliyindən başqa, təriqətlər üçün zəruri olan bəzi digər məqamlar da vardır. Bu məqamlardan biri təriqət sislsiləsidir.Təriqət silsiləsi təriqət şeyxlərinin islam peyğəmbərinə qədər uzanan  mürşidlər zənciridir (24). Hər bir təriqətin öz silsiləsi vardır. Yəni müridlər mürşidlər vasitəsilə həzrət peyğəmbərdən mənbə götürən biliklərin və dəyərlərin öyrənilməsi ilə

məşğuldurlar. Mürşidlər silsisləsinin mövcudluğu müridlərə irşad olunan bilik və dəyərlərin sağlamlığına və mötəbərliyinə bir işarədir.

Təriqət sislsiləsi həzrət Əbu Bəkr və həzrət Əli vasitəsilə islam peyğəmbərinə bağlanılır. Ona görə təriqət silsilələri Ələvi və Bəkri təriqət silsilələri kimi də qruplaşdırılır (25). Təriqət silsiləsinə aid olan mürşidlər heç də həmişə xronoloji baxımdan bir-birini əvəzləmirlər. Ola bilsin ki, bəzi mürşidlər arasında uzun bir zaman fasiləsi olsun. Belə hallarda mürşidlər arasında bir mənəvi bağlılıq olur, sonrakı mürşid özündən əvvəlki mürşidin təlimlərini qəbul edir və sonra da onun təlimlərini öz müridlərinə öyrətməyə başlayır. Təriqət silsilələrinin həzrət Əli və ya həzrət Əbu Bəkr vasitəsilə həzrət peyğəmbərə bağlanması heç də məzhəb fərqliliyi ilə bağlı deyildir. Yalnız sünni mürşidlərdən ibarət olan xeyli sayda təriqət silsisləsi olmuşlar ki, onlar həzrət Əliyə bağlanmışlar. O cümlədən elm aləmində sünni məzhəbinə mənsubluğu şübhə doğurmayan Şeyx Zahidin təriqət silsiləsi də həzrət Əliyə bağlı olmuşdur. Bu təriqət silsiləsinin mürşidlərinin zənciri aşağıdakl kimidir:

1.Şeyx Tacəddin İbrahim Gilani
2.Seyid Cəmaləddin Təbrizi
3. Şəhabəddin Təbrizi
4.Rüknəddin Sincasi
5. Qütbəddin Əbubəkr Əbhəri
6. Şeyx Əbunəcib Sührəverdi
7. Şeyx Qazi Ömər Vəcihəddin
8. Əbu Abdulla Məhəmməd Dinəvəri
9. Şeyx Əli Abdulla Mümşah Dinəvəri
10.Əbülqasim Cüneyd ibn Məhəmməd əl-Bağdadi
11.Şeyx Əbülhəsən Səriyyus-Səqati ibn Müqəlləs
12. Şeyx Fəhim Əbülməhfuz Məruf Kərxi
13. Seyid Həbib ibn Məhəmməd Əcəmi
14. Həsən Bəsri
15.Həzrət Əli ibn Əbu Talib (26).

«Səfvət-üs səfa" əsərində Şeyx Zahid Gilaninin bağlı oluğu təriqət silsiləsi aşağıdakı kimi göstərilmişdir: "Şeyx Səfiəddin İshaqın tövbə ilə xirqə sultanül-mühəqqiqin, qütbülğəqtab, tacül-həqqüd-din Şeyx İbrahim Gilanidən yetmiş idi və ol, təriqətin mürşidi Seyyid Cəmaləddin Əlidən və ol, əsrarın dənizindən Şihabəddin Mahmud Təbrizidən və ol, rümuz mədənindən və künuz məxzənindən Əbülqənaim Rüknəddin Sücasidən və ol, qütbül-övliya vəl-əsfiya Qütbəddin Əbhəridən və ol irşad iyəsi Əbünnəcib Sührəvərdidən və ol, öz əmisi kaşifül-əsrar Qazi Vəcihəddindən və ol, öz atası ümmanül-məani Məhəmməd əl-Bəkridən və ol, qüdsün lisanı Əhməd Əsvəd Dinuridən və ol, övliyanun qəcərəsi Məmşad Dinuridən və ol, seyyidüt-tayifə Cüneyd bin Məhəmməd Bağdadidən və ol, həqiqət bəhri Səri Səqtidən və ol, ariflərin başı Məruf Kərxidən və ol, rümuzun kəlməcisi Davud Taidən və ol, məhbubi-qülub Həbib Əcəidən və ol, aləmin seçməsi Həsən Bəsridən və ol, məzhərül-əcaib və məzhərül qəraib, həqiqət aləminin götüricisi və tanrının qüvvəti ilən Xeybər qapısı qoparıcısı əmirəlmöminin və ümamülmüttəfiqin əsədüllahol-qalib və mətlubi-külli-talib Əli ibn Əbi Talib (ə.s.)-dən və ol nübüvvət həzrəti və risalət mənqəbətindən və fi fətədəlli nünün məhrəmi və sübhanül-ləzi əsra meydanının şahsuvarı, peyğəmbərlərün xatəmi və ülulərəbün imamı Əbülqasim Məhəmməd Mustafa əleyhüs-sələvat vəs-səlam vət-təhiyyət vəl-ikramdan və ol Tanrı vəhiyinün əmini və gögdəli kitabları ənbiyaya yetirən Cəbrəili-Əmindən əleyhüssəlam və ol həzrət İzzətdən təala şənəhü və cəllə sultanəhü" (27).

Elmi-tarixi ədəbiyyatda Şeyx Zahid Gilaninin rəhbəri olduğu təriqət silsiləsinin fərqli sıralanması ilə də rastlaşmaq mümkündür. İstənilən halda Şeyx Zahidin müridləri özlərini Şeyx Zahid və onun mürşid kimi qəbul etdikləri sufilər vasitəsilə islam peyğəmbərindən başlanan islami biliklərə və dəyərlərə bağlı bilirdilər.

Təriqətlər üçün xarakterik olan məqamlardan biri də mürşid-mürid münasibətləridir. Mürid və mürşid, əslində, təriqət üçün zəruri olan məqamlardır. Mürşid olmasa təriqət formalaşa

bilməz, mürid olmasa isə mürşidlik təsdiqlənə bilməz. Təriqətin qarşısında dayanan başlıca vəzifə məhz mürşid vasitəsilə müridlərin haqqa qovuşdurulmasıdır. Müridlər isə haqqa qovuşmağın yolunu təriqət daxilində mürşidlərin fəaliyyətində tapırdılar. Mürşidin qarşısında dayanan vəzifələrin əhatəli şəkildə qavranılması üçün elmi-dini ədəbiyyatda onun müəllimlə, həkimlə, alimlə, hətta ordu komandanı ilə müqayisə edilməsinə rast gəlmək mümkündür. Çünki hər bir mürşid müəllimdir, bir müəllim kimi öz müridlərinin öyrədilməsinə çalışır, haqqa qovuşmaq yolunda ona yol göstərir. Hər bir mürşid eyni zamanda həkim kimi öz müridlərinin mənəvi çətinliklərinin müalicəsini aparır, həkim öz xəstəsinin xəstəliyini müəyyənləşdirib onun müalicəsini apardığı kimi, mürşid də müridlərinin dini-mənəvi ehtiyaclarını müəyyənləşdirib onların mənəvi kamilləşməsinə çalışır. Hər bir mürşid eyni zamanda alimdir. Çünki irfani elmləri müridlərə öyrətmək üçün mürşid kamil bir alim olmalıdır. Irfani elmlərə kamil şəkildə bələd olmadığı halda mürşid haqqa qovuşmağın yollaırnı da öz müridlərinə təlim edə bilməz. Mürşidlər eyni zamanda ordu komandanları ilə də müqayisə edilir. Çünki ordunun düşmənə qarşı səmərəli mübarizə yolu komandan tərəfindən müəyyənləşdirildiyi kimi, müridlərin öz nəfsinə qarşı səmərəli mübarizəsinin yolları da onlara mürşidlər tərəfindən öyrədilir. Amma mürşid sadəcə müəllim, həkim və ya alim deyil. Mürşid öz müridlərinə müəllimdən, həkimdən, alimdən daha yaxın olan, hər an onların yanında olan, xüsusi mənəvi-dini keyfiyyətlərə malik olan rəhbərlər, yol göstərənlərdir (28).

İslam mütəfəkkirlərinin və alimlərinin fikrincə, mürşid şəriət, təriqət və həqiqət elmlərinə kamil bələd olmalı, öz müridlərini istiqamətləndirməyi, peyğəmbər yolu ilə aparmağı, sonda onları yaradana qovuşdurmağı bacarmalı, onların dini və nəfsani çatışmazlıqlarından xəbərdar olmalı və onların müalicəsini aparmalı, irfani elmlərə bələd olmaqla müridlərin irşadını həyata keçirməli, müridlərin ziyanına və xeyrinə olan məqamları onlara göstərərək başa salmalı və Allah bəndələrini Allah xatirinə, Allahı isə onun bəndələri xatirinə sevməli, öz qəlbini kin-kü-

durətdən uzaq saxlamalı və digər təriqət keyfiyyətlərinə malik olmalıdır (29).

Seyid Yəhya Bakuvinin yazdığına görə isə hər bir mürşid öz etiqadında düzgün və pak olmalı; şəri məsələləri bilməli, aqil olmalıdır ki, hər səviyyədə müridlərinə tərbiyənin tədbirlərini deyib anlada bilsin; səxavətli olmaqla müridlərin ehtiyaclarını aradan qaldırmağı bacarmalı; təqva əhli və pəhrizkar olmalı; şəriət normalarına ciddi riayət etməklə müridlərinin etimadını qazanmalı; dünya nemətlərindən uzaq olmalı; müridin malına meyil etməməli; qazandığ nemətləri Haqq yolunda xərcləməyi bacarmalı; müridin tərbiyəsinə meyilli olmalı; sədaqətli və mərhəmətli olmalı; müridinə hər zaman yumşaqlıqla müraciət etməli, müridinin əhvalından hər zaman xəbərdar olmalı və ona yardım etməli; iradəli olmalı, bəsit şeylərlə müridləri incidib özündən uzaqlaşdırmamalı; müridlərin xətasını görəndə onu bağışlamağı bacarmalı, onu nəsihətlə həmin yoldan çəkindirməyə çalışmalı; yüksək əxlaq sahibi olmalı, məhəbbəti müridin könlündə və canında yer etməli; çox comərd olmalı, öz payından keçməli; kərəm əhli olmalı, kəramət göstərməlidir ki, müridi öz muradını onda tapmalı, müridi nə qədər çox olarsa, onların ruzisi üçün qəm çəkməməli; hər işi Allahın rizası kimi qəbul etməli, onu inkar edənlərə qarşı nifrət etməməli; riza əhli olmalı, Allahdan nə gəlsə razı olmalı, əcəl necə olarsa onunla barışmalı; vüqar və hörmət sahibi olmalı, həssas olmalı, müridlər üçün davranış nümunəsi olmalı; müridlərin tərbiyəsində tələskənliyə yol verməməli, bu işdə səbr nümayiş etdirməli və s. (30). Bir sözlə, mürşid o insan olmalıdır ki, müridlər bütün mənalarda öz iradələrini onlara etibar edə bilsinlər, onların elmi və əməllərinin nümunəsi ilə axtarışında olduqları dini-mənəvi səviyyəyə yiyələnə və haqqa qovuşa bilsinlər.

Təriqət mürşidləri kimi müridlər də lazımi keyfiyyətlərə malik olmalıdırlar. Hər adam özünü mürid adlandıra bilməz və ya müridliyə qəbul oluna bilməz. Haqqa qovuşmaq yolunu tutub mürşid yanında mürid olmağı qərara alanlar əvvəlcə talib olmalıdlrlar. Talib haqqa qovuşmaq yolunda ilk dərəcə kimi qəbul

olunmuşdur. Mürid olmaq arzusunu bildirincə taliblər mürşidlər tərəfindən qəbul olunar, onlarla söhbətlər aparılar, onların haqqa bağlılığı müəyyənləşdirilər və müridliyə qəbul olunması barəsində qərar verilərdi. Əgər mürşid tərəfindən müsbət qərar qəbul edilərdisə, onda taliblər müridə çevrilərdilər. Mürid təriqət yolunu tutmağa qəbul edilən insanlardır. Hərfi mənada mürid – iradə nümayiş etdirən mənasındadır. Təsəvvüf anlamında isə mürid iradəsini yaradana tapşıran, Allah sevgisi ilə yaşayan, dünya cazibəsindən uzaq qaçan inanclı insanlardır (31).

Seyid Yəhya Bakuviyə görə müridlər aşağıdakı keyfiyyətlərə malik olmalı idilər:

-təriqət yolunu tutan ilk növbədə tövbə etməlidir;

-mürid daim zöhd içində olmalı, maddi dünyadan uzaq olmalı, mal və mənsəbi tərk edərək özünü mürşidinə bağlamalıdır;

-mürid təqva əhli olmalı, pəhrizkar olmalı, ifratçılıqdan və vəsvəsədən uzaq olmalı, libası pak olmalıdır;

-günah olan işləri tərk etməli. Allahın günah buyurduğu işləri könlündən çıxarmalı, mürşidin mətləblərinin icrasına vəsilə olmalıdır;

-mürşiddən hər nə hal olarsa səbr etməli, mürşidi zəhər versə belə onu içməli, onun bütün əmr və qadağalarına əməl etməlidir;

-nəfsinə azadlıq verməməli, nəfsi ilə daim mübarizə aparmalı, ibadəti həyata keçirməyə yetərli olacaq qədər qida qəbul etməli, artıq qidaya ehtiyac duymamalı, nəfsə qarşı daim müxalifətdə olmalıdır;

-daim "lailahə illəllah" zikrində olmalı, canının və başının qayğısına qalmamalıdır;

- doğru və sözünə sadiq olmalıdır;

-sünnəni biləcək qədər elmli olmalı, şəriətə zidd işlər görməməli, faydasız işlərlə məşğul olmamalıdır;

-gecə-gündüz dua ilə məşğul olmalı, xeyiri şərdən ayırmağı bacarmalı, qazandığını İlahidən bilməlidir;

-ağlı sağlam olmalı, işi doğru olmalı, əməllərində ağıl və zəkanı üstün tutmalıdır;

-mürid ədəbli, mürşid əlindən xələt qazanmağa layiq olmalıdır. Çünki ədəb və həya Haqq nurudur;

-təkəbbürlü və qürurlu olmamalı, əxlaqı xoş olmalı, vaxtı xidmətdə keçməli, kiçiyə və böyüyə ehtiramla yanaşmalı, mürşidin etibarını qazanmağı bacarmalı, əsas məqsəddən yayınmamalıdır;

-öz davranışını və hərəkətlərini mürşidin əmələrinə və tələblərinə görə müəyənləşdirməli, şeyxə itaət etməlidir;

-daim itaətdə olub işlərini Haqqa buraxmalı, nəsibini mürşidə tapınmaqda görməldir (32).

Əslində, mürşidlə mürid təriqət daxilində biri-digərini tamamlayırdılar. Mürşid öz məqamını biliyi və əməlləri ilə təsdiqləməklə müridinin tam etimadını qazanmalı, mürid də özünü bütünlüklə onun rəhbərliyinə və idarəçiliyinə təslim etməyi bacarmalı idi. Haqqa qovuşmaq yolunda onlar bərabər addımlayırdılar və ali məqsədə çatmaq üçün onların qarşılıqlı münasibətlərinin təriqət tələblərinə uyğun qurulması xüsusi əhəmiyyət kəsb edirdi.

Təriqətlər sözsüz ki, müəyyən məqamlarına görə bir-birindən fərqlənirdi. Lakin bütün təriqətlər üçün ümumi və ortaq olan cəhətlər də var idi. Həmin cəhətlər Zahidiyyə və Səfəviyyə təriqətləri üçün də zəruri olan cəhətlər idi. Bu oxşar və ümumi cəhətlər aşağıdakılardan ibarət idi:

1.Tövbə. Yuxarıda qeyd edildiyi kimi, təriqət yolunu seçmək arzusunda olan hər bir insan əvvəlcə tövbə edərək günahlarından təmizlənməli, yanlış əməllərdən uzaqlaşmalı və islamın buyurduğu yola qayıtmalı idi. Həm də tələb olunurdu ki, tövbə edilməsinə səmimiyyətlə yanaşılsın, müridlikdən qabaq edilən tövbə ilə günah və yanlış əməllərin icrasından üz çevrilməsinə qətiyyət və iradə göstərilsin, şəriətin buyurduğu yoldan yayınmağın qarşısı birdəfəlik alınsın. Tövbədə səmimi olmayan insanın təriqət daxilindəki mövqeyi təsdiqlənmədiyi kimi, haqqa qovuşma arzusu da baş tutmazdı.

2. Zöhd. Təriqət yolunu tutmaq istəyən adam özlüyündə qətiyyətli seçim etməli idi – maddi dünya, yoxsa haqq dünyası. Haqq dünyasını seçən mürid maddi dünyanı əsas saymamalı, maddi nemətlərə aldanmamalı, pəhrizkarlığı həyat yolu seçməli, ruhu nəfsdən üstün tutmalı, Haqq sevgisi bütün varlığına hakim olmalı idi.

3. Təvəkkül. Təriqət əhli Haqqa qovuşmaq yolunu tutub Haqq sevgisini varlığının hakiminə çevirdiyi kimi, taleyini də Haqqa bağlamalı, qarşısına çıxanların Haqqdan gəldiyini qəbul etməli, qismətini də Haqqın istəyi kimi qiymətləndirməli idi. Yəni Haqqın iradəsinə boyun əyməli, gördüyü işin nəticəsini Ondan gözləməli və Onun qədəri ilə razılaşmalı idi.

4. Qənaətcillik. Pəhrizkarlıq yanlnız maddi nemətlərin israfçılığının qarşısının alınması üçün deyil, həm də nəfsin idarə edilməsi, nəfsin məğlub edilməsi baxımından əhəmiyyət kəsb edirdi. Təriqət əhli maddi nemətlərin israfçılığından uzaq olmalı, əsas diqqətini ibadətinə yönəltməli idi.

5. Üzlət. İbadət hər bir təriqət əhlinin həyatının əsasını təşkil etməli idi. Bunun üçün təriqət əhli xalqdan uzaqlaşıb bir hücrəyə çəkilməli, zikr və ibadətlə məşğul olmalı idi. Üzlət bundan ibarətdir. Fəaliyyətdən azad vaxtlarda da təriqət əhli vaxtını səmərəsiz işlərlə deyil, savab təşkil edəcək işlərlə məşğul olmalı və zikrlə keçirməli idi.

6. Zikr hərfi mənada "qavramaq", "təkrarlamaq" anlamında olmaqla Allaha ibadətin bir formasıdır. Zikr – təriqət mənsublarının maddi dünyadan təcrid olunaraq Allahın adlarının tək və ya toplu şəkildə avazla və ya səssiz şəkildə təkrarlaması ilə həyata keçirilən bir mərasimdir. Məqsəd Allahı daim yadda saxlamaq, onun lütf etdiyi ruzilərin qarşılığında şükrlər edilməsinə hazırlanmaqdır. Allaha qovuşmaq yolunu tutmuş hər bir təriqət əhli üçün zikr edilməsi ən önəmli vasitələrdən biri kimi qəbul olunur. Bəzi təriqətlərdə (Qədiriyyə təriqəti) zikr avazla, bəzi təriqətlərdə isə (Nəqşbəndiyyə) zikr gizli şəkildə həyata keçirilir.

7. Təbəttür. Qeyd edildiyi kimi, Haqqa qoşvuşmaq arzusunda olan insan həyatını bütünlüklə Haqqa bağlamalıdır. Bunun

üçün o, dünyəvi nemətlərdən, istəklərdən təcrid olunaraq Haqqla baş-başa qalmalı, Haqq sevgisi ilə yaşamalıdır.

8. Səbir. Haqqa qovuşmaq yolunda qarşısına çıxan heç bir çətinliyə boyun əyməmək, mümkün olan məhrumiyyətlərə dözmək, tələsgənliyə yol verməmək təriqət əhli üçün mühüm keyfiyyətlər kimi qəbul olunur. Səbir təriqət əhlinin iradəsinin formalaşdırılması, onların yanlışlıqlardan və günah işlərdən çəkindirilməsi üçün əməli əhəmiyyət kəsb edən bir məqamdır.

9. Müraqibə (Rabitə). Müraqibə - təriqət əhli tərəfindən nəfsin idarə edilməsi, nəfsə üstün gəlinməsi, nəfsə bağlılığın aradan qaldırılması deməkdir. Qəflət halına düşməmək üçün təriqət yolçuları müəyyən vaxtlarda diz çökərək gözlərini yumur və başlarını sinələrinə doğru əyərək mürşidlərini gözləri qarşısına gətirirlər. Bu məqam da müraqibəyə aidir.

10. Riza. Təriqətin ən son mərtəbəsidir. Bu mərtəbəyə yüksəlmək və Allahın rizasını qazanmaq üçün təriqət əhli istənilən fədakarlığa razı olmalı və məhrumiyyətlərə sinə gərməli idi. Riza sahibi həm də Allahdan gələn hər şeyə riza göstərməli və onu qəbul etməli idi (33).

Hazırkı tədqiqata cəlb edilmiş mənbə və ədəbiyyatda Zahidiyyə təriqətinin fərqləndirici xüsusiyyətlərinin konkretlədirilməsinə rast gəlmək mümkün olmamışdır. Amma nəzərə alınsa ki, Zahidiyyə təriqətinin əsasında sonradan Xəlvətilik və Səfəviyyə təriqətləri meydana gəlmişdir, onda bu təriqətlərin özləllikləri haqqında mövcud olan məlumatlara əsasən Zahidiyyə təriqəti haqqında da bəzi fikir və qənaətləri müəyyənləşdirmək olar. Bəzi tədqiqatçılar Xəlvətilik və Səfəviyyə təriqətlərini Zahidiyyə təriqətinin bətnindən çıxmış iki qardaş kimi də xarakterizə edirlər (34).

Mahiyyət etibarilə hər iki təriqətin, o cümlədən də Zahidiyyə təriqətinin əsasını dünyəvi cazibələrdən təmizlənərək Haqqa qovuşmaq təşkil edirdi. Xəlvətilik, əslində, bu və ya digər şəkildə bütün təriqətlərdə özünü göstərir. Yəni insanın dünyəvi cazibələrdən öz daxilinə çəkilməklə, dünyəvi cazibələrdən uzaqlaşmaqla, mənən Haqqla baş-başa qalması bütün təsəvvüf əhlinə

xas olan cəhətlərdir. Xəlvətilik təriqətində isə bu məqamın dəyərinə diqqət daha da qabardılmışdır.

Xəlvətilik təriqətində aşağıdakı şərtlərin icrası təriqət əhli üçün zəruri sayılırdı:

-mürşidin nəzarəti altında olmaq;

-mülayim mövsümdə tənha yerdə olmaq;

-müntəzəm şəkildə dəstəmazlı olmaq;

-müntəzəm şəkildə oruc tutmaq və axşam namazından öncə iftar etmək;

-az yemək və mədənin üçdə birini boş saxlamaq;

-Allah-təalanın zikri xaricində zərurət olmadıqca davamlı sükut etmək;

-müntəzəm şəkildə zikr və müraqibədə olmaq;

-yuxu üçün az vaxt ayırmaq;

-istimdad və etiqad ilə öz mürşidinə könül vermək;

-qəlbə gələn düşüncələrin yaxşı və yaman olduğunu bilmək;

-qəlbə gələn şeytani düşüncəni dəf etmək (35).

İslam mütəsəvviflərinin fikrincə, bu şərtlərə əməl etməklə aşağıdakılar əldə edilir:

-dili onu bəlalardan uzaqlaşdırır. Çünki insan xəlvətdə olduğu vaxtlarda Allah-təala ilə baş-başa qalmış olur və qəlbini Allaha bağlayır;

-qəlb riya və küdurət kimi xəstəliklərdən qorunmuş olur;

-dünyəvi cazibələrdən uzaqlaşma, pəhrizkarlıq və zöhd özünü göstərir;

-xəbis insanlarla ünsiyyətdən nicat tapmaq olur;

-ibadət və zikrə daha çox vaxt ayırmaq imkanı əldə edilir ki, bu da təqvanı gücləndirir;

-xəlvətdə olarkən özünü göstərən ibadət zövqü insanın mənəvi gözəlliklərini daha da artırır;

-qəlb rahatlığa qovuşur. Çünki ruh dünyəvi cazibələrdən uzaqlaşmaqla rahatlıq tapır;

-insan nəfsi kin və düşmənçilikdən təmizlənir;

-xəlvət zamanı zənginləşən idrak müridi Allaha daha da yaxınlaşdırır (36).

Bu ruhi-dini məsələlər Zahidiyyə təriqəti üçün də xarakterik idi və Şeyx Zahid də öz müridlərində bu keyfiyyətlərin formalaşmasını istəyirdi. Hər şeydən əvvəl Şeyx Zahid bu keyfiyyətlərin daşıyıcısı idi. O həm əməlləri ilə, həm də bilikləri və irşadı ilə müridlərinin mürşidi idi. Təriqət yolunda kamillik zirvəsinə çatdığı üçün idi ki, onun adı-sanı və kərtaməti ətrafa yayılmışdı, başına çoxlu sayda müridlər toplaşmışdı. Hətta Şirazda yaşayan ariflər və müctəhidlər də Şeyx Səfiəddin kimi bir təriqət adamına məhz Şeyx Zahidin elm və biliyindən faydalanmağı məsləhət bilmişdilər.

Şeyx Zahid uzun illər ərzində həm öz biliklərini təkmilləşdirdi, həm də islami irşadla məşğul oldu. O, çoxlu sayda müridlərin haqqa qovuşmaq niyyətlərinin həyata keçməsinə mürşidlik etdi. Mövcud məlumatlara görə, Şeyx Zahid nəfsini bütünlüklə ələ ala bilmişdi, yuxuya çox az vaxt ayırardı, həyatını Haqqa ibadətdə keçirərdi. Gündüzlər davamlı şəkildə oruc tutar, gecələri isə ibadətlə, namaz qılmaqla, "Quran" oxumaqla, Haqqı zikr etməklə məşğul olardı. Gündüzlər çox vaxt oruc olmasına baxmayaraq əkin sahəsində zəhmətlə məşğul olmaqdan da əl çəkməzdi və bununla ruzisinin halallığına nail olardı (37).

Şeyx Zahidin nəvəsi, Şeyx Səfiəddinin oğlu olan Şeyx Sədrəddin nəql edərmiş ki, atası Şeyx Zahid öz təkyəsinin və xəlvətinin qızdırılması üçün o qədər odun daşıyıbmış ki, çiynində şişlər yaranıbmış. Əynində bir könyəyi var idi və uzun müddət həmin köynəkdə gəzərdi və hətta anasının toxuyub ona göndərdiyi köynəyi və digər geyim əşyalarını da öz müridlərinə bağışlardı (38). Yəni dünya malında gözü yox idi və ona sığınmış müridlərini  qayğısını daha çox düşünərdi. Tarixi mənbələrdə Şeyx Zahid həm də Şeyx Zahid Qüdüsulla Sərruh kimi təqdim olunur. Bu da onun kamilliyindən və kəramətindən xəbər verir.

Şeyx Zahidin iki həyat yoldaşı var idi. Onlardan biri Hiləkəranda, digəri isə Siyavrudda məskunlaşmışdı. Onun ikinci həyat yoldaşı Əxi Süleyman adlı bir xadiminin qızı idi. Şeyx

Zahid onun qızı ilə 70 yaşlarında nikah kəsdirmişdi və ondan iki övladı olmuşdu. Onlardan biri oğlu Şeyx Şəmsəddin, digəri isə qızı Bibi Fatimə idi. Bibi Fatimə də sonradan Şeyx Səfiəddinin həyat yoldaşı olmuş və Səfəvi şeyxinin övladları da ondan dünyaya gəlmişdi. Şeyx Zahid həyatının çoxunu bu adları çəkilən kəndlərdə, ümumən Talış və Gilan bölgəsində keçirmişdi (39).

«Səfvət-üs səfa" əsərində isə Şeyx Zahidin 80 yaşında ikinci nikaha girdiyi bildirilir. Həmin əsərdə bildirilir ki, Şeyx Zahid igid bir qızı nikahına gətirdi və yeni xanımı da ondan bir qız və bir oğlan istədi. Şeyx Zahid isə bu arzunun həyata keçməsini yaradanın lütfünə bağladı. Doğrudan da, yuxarıda deyildiyi kimi, əvvəlcə Bibi Fatimə və sonra da Şeyx Şəmsəddin dünyaya gəldi (40).

Amma onun başqa bölgələrə səfərləri haqqında da mənbələrdə bəzi məlumatlar vardır. «Səfvət-üs səfa" əsərindəki bir məlumatdan belə bir qənaət əldə etmək olur ki, Şeyx Zahid Şirvana, Güştasba (Salyan bölgəsi), Səblana, Abgərmkuha, Səraba, Muğana, Alaruğa, Ərdəbilə, Şitavəndə, Pişkinə, müridi və kürəkəni yaşadığı Kəlxoran kəndinə də səfərlər etmişdi. Çox güman ki, bu səfərlər adi gəzinti səfərləri deyildi və müəyyən zərurətdən irəli gəlirdi. Məsələn, "Səfvətüs-səfa"dakı bir məlumata görə Şeyx Zahid Şirvan bölgəsinə səfər edərək oradakı uşaqların irşadı və təqvası ilə məşğul olurdu. Bildirdiyinə görə, Şeyx Zahid 40-50 nəfərin irşadı və təlimi ilə məşğul olurdu. Adı çəkilən mənbənin bir yerində göstərilir ki, Şeyx Zahid elmi və biliyi ilə bölgədə bir günəş kimi parlayanda ətrafındakılar ona digər bölgələrə səfər etməyi, digər bölgələrdə irfani elmləri öyrənmək arzusunda olanları elm nuru ilə işıqlandırmağı təklif etdilər. Şeyx Zahid də bu təklifi qəbul etdi və Güştasba getməyi qərarlaşdırdı. Bu səfər Şeyx Zahidin ilk səfəri idi. Amma onun bu səfəri Güştasb ətrafında özlərini pir adlandıran bəzi adamların heç də xoşuna gəlmədi və Şeyx Zahidin bölgəyə gəlməsini özlərinin nüfuzdan düşmək təhlükəsi kimi qəbul etdilər. Lakin bölgəyə hakim olan insanlar Şeyx Zahidin elminə, biliyinə, etiqadına şahid olduqdan sonra ona qarşı yönəlmiş təzyiqlərin qarşısını aldılar (41).

Şirvanşah Əxsitanla Şeyx Zahid arasında səmimi münasibətlər meydana gəlmişdi və Əxsitan onun mürşidliyini və arifliyini qəbul edirdi. “Səfvətüs-səfa”dakı məlumata görə, Şirvanşah Əxsitanın Şeyx Zahidlə tanışlığı onun bu təriqət rəhbərinin kəramətini görməsindən sonra olmuşdu. Bir dəfə Şeyx Zahid Şirvanda olarkən biri onun yanında danışır ki, havada uçmaq qabiliyyətinə malikdir, digəri deyir ki, səccadəni su üstünə salaraq su üzərində namaz qıla bilir. Başqa biri isə bildirir ki, istədiyi vaxt qovun tapa bilir. Ətrafdakılar həmin adamlardan öz möcüzələrini göstərməyi xahiş edəndə, onlar heç bir iş görə bilmirlər. Şeyx Zahid onlara səslənib deyir ki, sizin bu möcüzələriniz divlərlə (cinlərlə) bağlıdır. Bu qüvvələr dərvişlərin yanında özlərini göstərə bilmirlər. Yəni Şeyx Zahid bununla onlara çatdırır ki, həmin adamların möcüzə kimi təqdim etməyə çalışdıqları heç də onların kəramət sahibi olmasından xəbər vermir. Şirvanşah Əxsitan bu söhbətdən xəbər tutandan sonra onun kəramətinə etiqad etdi, onun üçün Güştasbda (Salyan bölgəsində) bir zaviyə tikdirdi və orada Şeyx Zahidin təlimi üçün imkan yaradıldı. Mənbə məlumatından aydın olur ki, bu hadisə Şeyx Zahidin mürşidliyinin əvvəlinə təsadüf etmişdi. Çünki mənbədə bildirilir ki, Şeyx Zahidin sirəti və kəraməti günbəgün aləmə aşkar oldu, ulu müridlər və böyük taliblər onun yanında tövbə və təlqin etdilər (42).

“Səfvətüs-səfa”nın verdiyi məlumata görə, Şirvanşah Əxsitanın Siyamək adlı bir oğlu var imiş. Şeyx Zahidin Şirvanda təriqət irşadı ilə məşğul olması, insanların onun yanında tövbə edərək təriqət yolunu tutması Siyaməki narazı salırdı. Onun gümanında, insanların təriqət yolunu tutması onları iş-gücdən edirdi. Ona görə bir dəfə hərbi səfərə yollanmamışdan qabaq geri qayıdan kimi Şeyx Zahidlə haqq-hesab çəkəcəyini, onun zaviyəsini yandıracağını bildirmişdi. Bu xəbər Şeyx Zahidə çatanda o, Siyaməki “Siyah mərg” (qara ölüm) adlandırdı. Hərbi yürüş zamanı Siyamək dövrün Elxani hakimi olan Arğunun (1284-91) əlinə keçdi. Arğunun şirvanşahlarla münasibətləri gərginləşibmiş. Ona görə də əmr edir ki, ələ keçirilmiş Siyaməki qara keçəyə bürüyüb ayaqlar altına atsınlar. Belə də edirlər. Siyaməki qara

keçəyə büküb qoşunların ayaqları altına atırlar və o da qoşunların ayaqları altında dünyasını dəyişir. Bununla, onun Şeyx Zahid haqqında məkrli planı da həyata keçməmiş qalır (43). Bu fikir, əslində, Şeyx Zahidin kəramətinə bir işarə idi.

Məlumatlara görə, Şirvan əhlinin Şeyx Zahid təriqətinə meyil etməsi, insanların tövbə edərək ibadətə daha çox vaxt ayırması şirvanşahları doğrudan da narahat etməyə başlayıbmış. Onların fikirncə, bəzi vaxtlar xəzinənin dolmaması Şirvan əhalisinin Şeyx Zahid irşadına daha çox vaxt ayırması ilə bağlı idi. Bu da insanların dünyəvi nemətlərdən uzaqlaşmasına, təsərrüfat həyatının solğunlaşmasına aparırdı. Ona görə Şeyx Zahidin zaviyyəsinin fəaliyyətinin məhdudlaşdırılması haqqında planlar qurulmasına başlandı. Şeyx Zahid bu xəbəri eşidəndə qəmgin oldu, lakin onun zaviyyəsinə qarşı düşünülmüş planların qarşısının alnması qətiyyətində olması barəsində kimsəyə heç nə demədi. Bir gün xəbər alınır ki, Şirvanşah havalanıb, əlinə qılınc alaraq sarayın divarlarını qılınclamaqla məşğuldur. Şeyx Zahid də bunu eşidəndə bildirir ki, Şirvanşaha elə qılınc zərbəsi dəyib ki, bu əməlləri onun qəzəbini heç də soyuda bilməz (44). Bununla ona işarə edilirdi ki, əslində, Şeyx Zahidin kəraməti Şirvanşahı haldan çıxarmışdır.

Şeyx Zahidin Şirvan ərazisində olarkən göstərdiyi kəramət haqqında «Səfvətüs-səfa" əsərində başqa bir məlumat da vardır. Qeyd edilir ki, Şeyx Zahid Güştasbda olarkən ora bir qoşun dəstəsi gəldi. Bu qoşun dəstəsinin yeməyinin təmin edilməsi üçün Şeyx Zahid evinə adam göndərdi və qoşun əhli üçün yemək ayrılmasını istədi. Ona məlumat verildi ki, yemək yoxdur. Belə olanda Şeyx Zahid özü mətbəxə daxil oldu və qazanları yoxladı. Qazanların birinin içində az miqdarda yemək var idi. Şeyx Zahid buyurur ki, yemək qoyulacaq çanaqları gətirsinlər və sonra da yemək üçün nəzərdə tutulmuş çanaqları bir-bir yeməklə doldurmağa başladı. Bu hal ilə o, 17 çanağı yemək ilə doldurdu və hələ qazanın daxilində də yemək qaldı (45). Beləliklə, Şeyx Zahidin kəraməti nəticəsində qoşun əhlini yeməklə təmin etmək mümkün oldu.

Şeyx Zahidin Güştasbdə göstərdiyi bəzi başqa kəramətlər haqqında məlumatlar da mövcuddur. Belə məlumatlar həm də onu təsdiq edir ki, Şeyx Zahidin mürşidlik fəaliyyəti əsasən, Azərbaycan həyatı ilə bağlıdır. Yuxarıdakı məlumatlardan göründüyü kimi, Şirvanda Şeyx Zahid təriqətinin çoxlu sayda tərəfdarları toplanmışdı və burada onun irşadına və fəaliyyətinə böyük əhəmiyyət verilirdi. Yəqin elə bunun nəticəsi idi ki, Şeyx Zahiddən sonra bu bölgədə Xəlvətilik təriqəti geniş yayıldı və Seyid Yəhya Bakuvinin simasında bu təriqət öz kamillik səviyyəsinə çatdı.

Şeyx Zahidin Elxanilər dövlətinin tanınmış hökmdarlarından biri olmuş və islam dinini qəbul etmiş Qazan xanla da yaxşı münasibətləri formalaşmışdı. Həyatnın sonlarına yaxın Şeyx Zahid onunla da görüşə bilmişdi. Qazan xan da onunla görüşməyə maraq göstərirdi və istəyirdi ki, Şeyx Zahidin kəramət sahibi olmasını öz gözləri ilə görsün. Amma görüşə yollanmazdan əvvəl Qazan xan özlüyündə üç dilək tutur və fikirləşir ki, əgər Şeyx Zahid bu diləklərin nədən ibarət olduğunu bilsə, onda doğrudan da kəramət sahibidir. Qazan xanın özü üçün müəyənləşdirdiyi diləklərdən biri Mənsur Həllacın kəlamlarının nədən ibarət olması idi. Bu kəlamlarla bağlı müxtəlif fikirlər irəli sürülürdü. Qazan xan isə həmin kəlamların doğru variantını öyrənmək istəyirdi. Qazan xan ikinci dilək kimi istəyirdi ki, Şeyx Zahid ona ədalət və insaflılıq haqqında fikirlərini söyləsin. Üçüncü dilək kimi isə Qazan xan istəyirdi ki, Şeyx Zahid əynindəki köynəyini çıxarıb ona geyindirsin. Əgər bu diləklər Şeyx Zahid tərəfindən tapılsaydı, onda Qazan xan da onun kəramətinə şübhə etməzdi. Amma elə görüşün ilk anlarında Şeyx Zahidin Allah adamı olması haqqında Qazan xanda şübhə qalmadı və bunu ətrafındakılara da belə izah etdi ki, kimə əl verib görüşürəmsə, həmin adamın əlinin əlimdə titrədiyini hiss edirəm. Şeyx Zahidlə görüşəndə isə mənim əlim titrəməyə başladı. Görüşləri zamanı Şeyx Zahid soruşdu ki, Qazan xanın etibar etdiyi və sirləini bölüşdüyü bir yaxın adamı varmı? Qazan xan öz sirlərini bölüşməyə etibar etdiyi belə bir yaxın adamının olduğunu təsdiqlədi. Bunu

eşidəndə Şeyx Zahid ondan bir də soruşdu ki, əgər etibar etdiyi həmin adam Qazan xanın məhrəm sirlərini başqalarına açarsa, ona qarşı hansı tədbirləri görər? Cavab belə oldu ki, Qazan xan onu asdırar və sonra da meyidinə od vurub yandırar. Bu sözləri eşidəndən sonra Şeyx Zahid dedi: "Oğul, Tanrı-təala Hüseyn Mənsur ilən həm bu əməl etdi kim, çün bir sirr öz əsrarından ana bildirdi, ol anı saxlaya bilməyib əğyara dedi. Lacərm, Tanrının qeyrəti anı dardan asdurdı və cəsədi oda yandırıb külini dənizə saldurdı" (46).

«Səfvətüs-səfa" əsərində yazılanlara görə, Şeyx Zahid onun görüşünə gəlmiş Qazan xanın digər diləyini də duydu və ondan xəzinəsinin olub-olmaması barəsində soruşdu. Qazan xanın nəzərində xəzinə var-dövlətin, qiymətli əşyaların saxlandığı bir məkan idi. Şeyx Zahid isə bildirdi ki, əsil xəzinə Qazan xanın sədaqətli nökərləri və xidmətçiləridir. O xüdmətçilər ki, Qazan xanın lütfi ilə işlərini qursunlar və ədalətlə insanları idarə edib Qazan xana da xeyir-dua qazandırsınlar. Şeyx Zahid ədalətin mahiyyəti haqqında öz fikirlərini Qazan xana çatdırdı. Qazan xan bu diləyinin də açıldığını qəbul etdi və üçüncü diləyinin açılıb-açılmayacağı haqqnda düşünəndə Şeyx Zahid dedi ki camaat içində onun soyunması yaxşı deyil, tək qaldığı zaman köynəyini çıxarıb ona verər. Sonradan Şeyx Zahid köynəyini çıxarıb Qazan xanın boynuna sarıdı. Qazan xanın daha heç bir şəkk-şübhəsi qalmadı. O, Şeyx Zahiddən iltimas edir ki, onun ayağından öpməyə icazə versin. Şeyx Zahid əvvəlcə buna etiraz edir və bildirir ki, Qazan xan padşahdır və onun dərviş ayağını öpməsi rəva deyil. Qazan xan yenidən təkid edəndə Şeyx Zahid ona üzünü ayaqlarına toxundurmağa imkan verdi. Qazan xan görüşü başa çatdırandan sonra Şeyx Zahidin bağışladığı köynəyi xəzinədara verdi və ona tapşırdı ki, dünyadan köçəndə ona bu köynəyi geyindirsinlər (47).

Şeyx Zahidin Qazan xanla başqa bir görüşü də olmuşdu. Bu görüş Gilan hakimi Məlik Əhmədin günahlarının bağışlanması ilə bağlı Şeyx Zahidin təşəbbüsü ilə baş tutmuşdu. Məlik Əhməd əvvəllər Şeyx Zahidin müridi olsa da, sonradan ondan üz dön-

dərmişdi. O hətta Şeyx Zahidin müridlərini də təqib edir və onları Şeyx Zahidin ətrafından uzaqlaşmağa sövq edirdi. Şeyx Zahid bundan xəbərdar olsa da, Məlik Əhmədin təqiblərinin qarşısını almağa da bir cəhd göstərmirdi. Bir müddət sonra elə olur ki, Məlik Əhmədi bəzi əməllərinə görə Qazan xan həbs etdirir. Ona hətta ciddi cəza da veriləcəyi gözlənilirdi. Belə bir zamanda Məlik Əhməd canını qurtarmaq üçün Şeyx Zahidin yanına adam göndərir və onun kömək göstərməsini iltimas edir. Bu hadisə o vaxtlar baş vermişdi ki, Şeyx Səfiəddin də Şeyx Zahidin müridi idi. Məlik Əhmədin xahişi əsasında Şeyx Zahid ona kömək göstərməyi qərara aldı və Qazan xanın düşərgəsinə yollandı. Qazan xanın düşərgəsi də Muğanda yerləşirmiş. Şeyx Səfiəddin özünü mürşidindən tez Qazan xanın düşərgəsinə yetirdi və Şeyx Zahidin gəlməsi haqqında Qazan xana xəbər çatdırdı. Qazan xan da ehtiram əlaməti olaraq Şeyx Zahidin qarşılanmasına yollandı. Şeyx Zahidi böyük ehtiramla qarşıladıqdan sonra Qazan xan ondan təşrif gətirməsinin səbəbini soruşdu. Şeyx Zahiddən Məlik Əhmədin bağışlanması xahişini eşitdikdə Qazan xan bildirdi ki, beş qisim adamların bağışlanması düzgün deyildir. Onun sözlərinə görə, birincisi, padşaha qarşı qiyam qaldırmış adamları, ikincisi, dinə və şəriətə xəyanət etmiş qazıları, üçüncüsü, qəlp sikkə vurmuş saxtakarları, dördüncüsü, atasının və anasının üzünə ağ olmuş övladları və nəhayət beşincisi, ağasının üzünə ağ olmuş qulları bağışlamaq olmaz. Şeyx Zahid eşitdiklərini təqdir edir və Qazan xanın dedikləri ilə razılaşır. Bununla belə, ondan bir daha Məlik Əhmədin bağışlanmasını xahiş edir. Qazan xan da onu bağışlayır (48).

İstər yuxarıda deyilənlər, istərsə də mənbələrin yazdığı onu göstərir ki, Qazan xan dövrünün tanınmış ariflərindən olan Şeyx Zahidə böyük ehtiram bəsləyirdi. Şeyx Zahid sözsüz ki, bundan razı idi və onun gümanında dövrün hakiminin onun etiqadına hörmətlə yanaşması bu hakimin insanlara qarşı münasibətinin yaxşılaşmasına da təsir edə bilərdi. Doğru olaraq qeyd edilir ki, Qazan xanla olan münasibətləri Şeyx Zahidin mənəvi gücünün nümayişi idi. Amma bəzi müəlliflər onu da iddia edirlər ki, Şeyx

Zahid mənəvi gücünün artmasından maddi fayda görməyə çalışırdı və bununla bağlı bəzi sübutların da göstərilməsinə cəhd edilir (49). Lakin məlumdur ki, Şeyx Zahidin istər öz mürşidindən aldığı təlimin, istərsə də onun özünün irşad etdiyi təlimin mərkəzində məhz dünya maddiliyindən uzaqlaşmaq, zöhd və riyazətə üstünlük vermək dayanırdı. Şeyx Zahid hətta onun müridlərinin dünya nemətlərinə meyilliliyini düzgün saymırdı və sufi kimi formalaşması üçün maddiliyə qarşı iradənin formalaşdırılmasına çox əhəmiyyət verirdi.

Bəzi tədqiqatçılar onu da iddia edirlər ki, Şeyx Zahidin dünyasını dəyişməsindən sonra Şeyx Səfiəddin də mürşidi kimi dövrün hakimləri və sultanları ilə əlaqələri davam etdirdi (50). Əslində, bu fikirdə Şeyx Zahidin və Şeyx Səfiəddinin təriqət fəaliyyətinin, həyata baxışlarının, etiqadının mahiyyətinin təhrif edilməsi cəhdi vardır. İstər Şeyx Zahid, istərsə də Şeyx Səfiəddin hər ikisi maddi dünya ilə yox, haqq dünyası ilə yaşayan etiqad sahibləri idi və onları yaşadıqları dünyanın maddilikləri maraqlandırmırdı. Onlar hakimlərlə yox, hakimlər onlarla əlaqə qurmağa çalışırdılar və onların təlimini qəbul edirdilər. Adları çəkilən şeyxlərin hər ikisi həm də Tanrının lütfünə layiq görülmüş kəramət sahibləri idilər və dövrün hakimləri də bu kəramət sahiblərinə ehtiramla yanaşmağı özlərinin mənəvi borcu bilirdilər.

Hətta mənbələr də məhz hakimlərin Şeyx Səfiəddinə iradət göstərmələrindən və bunun nəticəsi kimi, hakimlərin yerli əhaliyə qarşı münasibətlərinin yumşalmasından bəhs edirt. Nümunə kimi, monqol hakimlərinin Şeyx Səfiəddinə ehtiram göstərmələri qələmə alınmışdır. Bəzi tədqiqatçılar isə bu məqama diqqət yetirməklə yenə də Şeyx Səfiəddinin monqol hakimləri ilə yaxşı münasibətlər qurmağa çalışmasını iddia etməkdədirlər (51). Əslində isə, yuxarıda qeyd edildiyi kimi, bunun əksinə idi və yerli hakimlər bölgədə və ətrafda hörmət və nüfuz sahibi olan Şeyx Səfiəddinlə yaxşı münasibətlər qurmağa, bu kəramət sahibinə köməklər etməyə çalışırdılar. Elə bunun nəticəsi idi ki, Qazan xan öz istəyi ilə Şeyx Zahidin müridi olmuşdusa, Əbu Səid Elxani də Şeyx Səfiəddinin müridi olmuşdu.

Şeyx Zahid də hələ dünyaya gəlməmişdən əvvəl onun simasında böyük bir kəramət sahibinin Gilanda dünyaya göz açacağı dövrün fəzilət sahiblərinə əyan olmuşdu. Bununla bağlı «Səfvətüs-səfa" əsərində bəzi məlumatlar da vardır. Həmin məlumatlar Şeyx Zahidin dünyaya gəlməsindən əvvəl öz seyidliyi və fəziləti ilə Təbrizdə və ətrafında ad çıxarmış Bala Həsən Binisiyə istinadən verilmişdi. Şahidlərin söylədiyinə görə, Bala Həsən bir gün başını dizlərinə dayayıb özünə çəkilir və bu halda xeyli sükut etməli olur. Bir müddətdən sonra o özünə gəlir və uca səslə "Allahu əkbər, Allahu əkbər, La ilahə illəllah, Allahu əkbər və lillahil həmd" sözlərini səsləndirir. Bundan sonra isə gözləri qızarmış halda ayaqlarını uzadıb divara dayayır və yenə xeyli sükut etməli olur. Bala Həsən özünə gələndə ondan düşdüyü vəziyyətin səbəbini soruşurlar. Cavab verir ki, röyada gördüm ki, Gilan tərəfdə bir günəş doğub, aləm onun nurundan aydınlığa çıxıb. Ətrafdakılar bu günəşin nə olması ilə maraqlanırlar. Onda cavab verir ki, bu günəş Gilandakı dəniz kənarında zühur edəcək və bu günəş öz irşadı ilə aləmi tutacaqdır. Bala Həsən bu günəşin təxminən nə vaxt doğacağını da ətrafındakılara söyləyir və cavanlardan birinə işarə edərək bildirir ki, bu gənc həmin günəşi görə biləcəkdir. Belə də olur və təxminən nəzərdə tutulan vaxtda Şeyx Zahid dünyaya gəlir. Onun dünyaya gəlişini eşidən fəzilət və irfan sahibləri yaradana şükür edirlər ki, nəhayət ki, Şeyx Zahidin dünyaya gəlişi ilə aləm yenidən nura boyanacaqdır (52).

Yuxarıda qeyd edildiyi kimi, Şeyx Zahid çox sadə həyat sürürdü və çoxları onun bu sadəliyinə görə mürşid olmasına inanmırdılar. Bununla bağlı da «Səfvətüs-səfa" əsərində bəzi hekayətlərlə qarşılaşmaq mümkündür. Bu hekayətlərin birində deyilir ki, çox riyazət çəkmiş, kəşf ilə qədəm və kəraməti hasil olmuş Pir Əhməd Kərakanlı adlı fazil bir insan yaşının çox ahıl vaxtlarında Məkkə ziyarətinə yollanmaq fikrinə düşübmüş. Riyazət anlamda çətinlik çəkmək, məşəqqətlərə düçar olmaq mənasındadır. Sufi anlamında isə riyazət nəfsə qalib gəlmək üçün təriqət əhlinin dözüm və iradə göstərməsidir. Yəni riyazət dünyəvi cazibələrdən əl çəkmək üçün insanın öz iradəsini möhkəm-

lətməsi, zahiri aldanışlara qarşı daxili müqavimət göstərməsidir. Bəzi irfan əhlinin fikrincə, riyazət sufinin şəhvani hisslərdən və meyillərdən uzaqlaşması, insanın özünü günahlardan uzaq saxlamaq bacarığıdır. Riyazət təriqət əhli arasında nəfsə qarşı cihad kimi də qiymətləndirilir (53). Ümumən, riyazət irfan aləmində islamın mühüm tələblərindən biri kimi qəbul edilir.

Pir Əhməd Kərakanlı həcc səfərinə başlarkən Muğan düzündəki Biləsuvarda istirahətə dayanmalı olur. Yuxuda olarkən ona deyilir ki, sənin səfərin Məkkəyə yox, Siyavruda olmalıdır, geri qayıt və Siyavruda yollan. Pir Əhməd ayılır və yuxusunda gördüklərindən ona bir şey hasil olmur. Yenidən yuxuya gedəndə ona bir daha həmin sözlər deyilir və açıq-aydın çatdırılır ki, onun həcci Siyavruddadır. Pir Əhməd bu yuxunu üçüncü dəfə də görür və bundan sonra qərara gəlir ki, Siyavruda qayıtsın. Belə də edir və Siyavruda yaxınlaşanda Şeyx Zahid nimdaş paltarda öz əkin sahəsində çalışırmış. Məlumata görə, Pir Əhməd rastlaşdığı adamın Şeyx Zahid olmasından xəbər tutur və özlüyündə belə fikirləşir ki, zahiri görünüşünə görə onun necə şeyx olması məlumdur. Yəni Şeyx Zahidin mürşid olması ona inandırıcı görünmür və belə qərar gəlir ki, gecəni Şeyx Zahidin zaviyəsində keçirsin və səhəri Siyavrudu tərk etsin. Şeyx Zahid tarla işlərini başa vurub zaviyyəyə qayıdır və ibadətindən sonra Pir Əhmədlə görüşür. Ona anladır ki, Siyavruda səfər etməsi bir gecədə üç dəfə yuxuda eşitdiyi tövsiyənin nəticəsidir və bəyan edir ki, insanlara yalnız zahiri görünüşünə görə qiymət verməsin. Çünki həqiqət yalnız zahiri görünüşdə deyil. Bundan sonra Şeyx Zahid hətta Pir Əhmədin həyat yolu haqqında da bir çox mətləbləri açıb sadalayır. Pir Əhməd anlayır ki, Şeyx Zahid böyük bir kəramət sahibidir və onun bu kəraməti şübhə mövzusu deyil. Bundan sonra Pir Əhməd fikrindən dönür və Şeyx Zahidin əllərini öpərək ona müridliyi qəbul edir. “Səfvətü-səfa” bəyan edir ki, Pir Əhməd müridliyi qəbul edəndən sonra onun kəraməti yox olur. Şeyx Zahid bildirir ki, kəramət sahibi olmaq təriqət yolu ilə hasil olur. Pir Əhməd təriqət yolu ilə irəlilədikcə onun əvvəlki kəraməti də özünə qayıdacaqdır. Doğrudan da belə olur. Bir müddət Şeyx Zahidin

yanında qaldıqdan sonra Pir Əhməd ona ətraf bölgələrə səfər etməyi, həmin bölgələrdəki insanların irşadı ilə məşğul olmağı təklif edir. Məlumata görə Şeyx Zahidin Güştasba ilk səfəri də məhz bu təklifdən sonra baş tutmuşdu (54).

Başqa bir hekayətdə isə bildirilir ki, Pirə Məhəmməd və Xalxallı Hacı Həsən adlı tanınmış iki nəfər Şeyx Zahidlə görüşmək üçün bir gün onun yanına yollanırlar. Şeyx Zahid həmin vaxt əyninə bir çuxa geyib çəltik sahəsində işləyirmiş. Adları çəkilən adamlar Şeyx Zahidi palçıq içində və köhnə paltarda görəndə onun mürşidliyinə şübhə edirlər və gəlməyə də peşmançılıq duyurlar. Şeyx Zahid onların fikrindən keçənləri hiss edib çəltik sahəsindən kənara çıxır, əl verib görüşür, sonra da onlara belə bir sual edir ki, əgər Qazan xan öz qoşunları ilə meşədə yolunu itirsə və düz yolu tapmaq üçün ayağı palçıqlı bir adam ona düzgün məsləhət versə onu qəbul etməlidir, yoxsa yox? Pirə Məhəmmədlə Hacı Həsən də öz səhvlərini başa düşür və ona öz ehtiramlarını bildirirlər (55).

Şeyx Zahidin kəraməti və nüfuzu bir günəş kimi parlamaqla bərabər, həm də bəzi insanların qısqanclığı və kini ilə qarşılaşırdı. Beləlіri hətta Şeyx Zahidə qarşı düşmənçilik yolu tutmaqdan belə çəkinmirdilər. Xüsusilə, dünya sərvətlərinə və cazibəsinə qurşananlar fürsət yarananda Şeyx Zahidə qarşı məkrli əməllərdən belə çəkinmirdilər. «Səfvət-üs səfa” hekayət edir ki, qısa müddət ərzində (1281-1284) Elxanilər hakimi olmuş Sultan Əhmədin etimadını və etibarını qazanmış Məngli Həsən adlı birisi də belələrindən idi. O, Sultan Əhmədə şikayət edir ki, Şeyx Zahid və onun oğlu Şeyx Cəmaləddin onların 40-a yaxın adamını öldürərək suya atıblar. Ona görə təklif edir ki, qoşun dəstəsi göndərilsin, Şeyx Zahidlə onun oğlu haqlı cəzalarına çatdırılsın. Sultan Əhməd də Məngli Həsənin dediklərinə inanaraq Şeyx Zahidin üzərinə qoşun göndərmək fikrinə düşür. Lakin elə bu vaxtlarda Arqun xan (Sultan Əhməddən sonrakı Elxani hakimi) Sultan Əhmədə qarşı fəallaşmağa başlayır. Sultan Əhməd öz hakimiyyətini qorumaq üçün Ərdəbil ətrfina qoşun çəkir. Burada onu qarşılayanlar arasında Şeyx Zahidin müridləri də var idi.

Həmin müridlərin insanlar arasındakı nüfuzunu görəndə Məngli Həsən bir daha Sultan Əhməd qarşısında Şeyx Zahid müridlərinin də məhvi məsələsini qaldırır. Sultan Əhməd də ona cavab verir ki, əvvəlcə gərək öz yürüşünü başa çatdırsın. Bundan sonra isə o, Şeyx Zahidin zaviyəsini dağıdacaq və onun mürşidlik fəaliyyətinə son qoyacaqdır. Bu məsələdən xəbər tutanda Şeyx Səfiəddin Siyavruda yollanır və eşitdiklərini Şeyx Zahidə danışaraq onu ehtiyatlı olmağa çağırır. Şeyx Zahid bundan təşvişə düşməməyə və yaradanın lütfünə tapınmağa çağırır. Sultan Əhməd isə Ərdəbili tərk edib Arqun xanla döyüşməyə gedir. Yüzağac adlı məntəqədə Sultan Əhmədlə Arqun xan arasında döyüş baş verir. Sultan Əhməd ələ keçirilir və o, qara keçəyə bağlanaraq qoşunların ayaqları altına atılır, və həyatına son qoyulur. Sultan Əhmədi Şeyx Zahidə qarşı düşmənçiliyə sövq edən Məngli Həsən isə Arqun xanın qoşunları tərəfindən tutularaq qaynar qazana atılır (56).

### 2.Şeyx Səfiəddin Şeyx Zahidin müridliyində

Şeyx Səfiəddinin mürşid axtarışı ilə Gilana səfər etdiyi zaman Şeyx Zahid istər təsəvvüf elmlərində, istər ibadətində kifayət qədər kamil və tanınmış bir insan idi. Sadə və halal həyatını davam etdirməklə bərabər, Şeyx Zahid öz biliklərini daim təkmilləşdirməklə dövrünün arif və mütəfəkkirlərindən birinə çevrilmişdi. «Səfvətüs-səfa"da Şeyx Səfiəddinin Şirazdan qayıtdıqdan sonra dörd il Ərdəbildə həyat sürməsi və yalnız dörd ildən sonra Gilana yollanması barəsində məlumat vardır. Lakin elm və bilik sorağında olan Şeyx Səfiəddinin nə üçün dörd il gözləməsi barəsində bu mənbədə açıqlama mövcud deyil. Bu mənbənin məlumatına görə, Şeyx Səfiəddin hətta dörd il ərzində Şeyx Zahiddən bir soraq almadı da. Bir daha qeyd edilməlidir ki, Gilanla Ərdəbilin qonşu bölgələr olduğu halda Şeyx Səfiəddinin Şeyx Zahiddən xəbərsiz olması anlaşılan deyildir. O da bildirilir ki, həmin illər ərzində Şeyx Səfiəddin günlərini riyazətdə keçirdi, ibadətlə məşğul oldu, ətrafdakı övliyaların qəbirlərini ziyarət

edərək müqəddəslərin ruhlarını yad etdi. Şeyx Səfiəddinin elm və biliyə, ibadətə bağlılığı valideynləri tərəfindən rəğbətlə qarşılanırdı. Xüsusilə, anası onun Tanrıya ibadətiinə hörmətlə yanaşırdı və ibadətini lazımınca yerinə yetirməsi üçün ona hətta dünyəvi işləri də çox tapşırmazdı. Şeyx Səfiəddin təriqət şeyxləri kimi gecələri səhərə kimi ibadətdə keçirər və Şeyx Zahidlə görüşməyi heç zaman yaddan çıxarmazdı (57).

Bu məqam bir sıra tədqiqatçıların da diqqətini cəlb etmiş və onlar bunu özünəməxsus şəkildə şərh etmişlər. Ümumən, bəzi tədqiqatçılar Şeyx Səfiəddinə daha çox özünə həyatda rahat yer tapmaq istəyən, dünyəvi cazibələr arxasınca qaçmaq arzusunda olan bir insan kimi yanaşırlar. Beləl決inin fikrincə, Şeyx Səfiəddin hələ gənc yaşlarındanvar-dövlət arzusunda olmuş və onu əldə etməyə çalışmışdı. Sözsüz ki, bunun sübutu üçün əsaslı dəlillər deyil, ayrı-ayrı məlumatların məqsədyönlü təfsiri ortaya qoyulur. Hətta, Şeyx Səfiəddinin Şiraza yollanması da onun maddiliyə bağlılığı ilə əlaqələndirilirdi. Halbuki, mənbələr Şeyx Səfiəddinin hələ kiçik yaşlarında irfani elmlərə bağlılığını, anasının da onun dünyəvi işlərdən ayrılaraq elm və bilik kəsb etməsinə şərait yaratmasını qeyd edirdilər. O da qeyd olunur ki, Şeyx Səfiəddinin irfani elmlərə yiyiələnmək adı ilə Şiraza yollanması əfsanədən başqa bir şey deyildir. Guya onun Şiraza yolanmaqda məqsədi orada yaşayan qardaşının var-dövlətini ələ keçirmək idi. Amma qardaşının tədbirliliyi nəticəsində o bu niyyətlərinə nail ola bilmədi. Belə bir fikir də irəli sürülür ki, Şeyx Səfiəddinin Şirazda Əmir Abdulla ilə görüşməsi və Əmir Abdulla tərəfindən ona Şeyx Zahidin yanına yollanma təklifi də uydurmadan başqa bir şey deyildir. Guya bu məlumatın İbn Bəzzaz tərəfindən qələmə alınması, əslində, Şeyx Səfiəddinin əsas məramının kölgə altında qoyulması idi və buna da nail olmuşdu. Çünki onun əsərinə müraciət edən tarixçilər həmin məlumatı doğru məlumat kimi öz əsərlərində təkrar etmişdilər (58).

Qeyd edilməlidir ki, bu fikrin əsaslandırılması üçün tədqiqatçılar tərəfindən ciddi dəlillərə istinad edilməməsi söylənilən fikrin doğruluğuna təbii bir şübhə doğurur. İstər mənbələrdə olan

məlumatlar, istərsə də Şeyx Səfiəddinin həyatı, etiqadı bu deyilənlərin də doğruluğuna hər hansı bir şübdə yeri qoymur. Sözsüz ki, Şeyx Səfiəddin də canlı bir insan idi və bir insan kimi onun də təbii ehtiyacları var idi. Bununla belə, onun dünya nemətlərini mənəvi əqidəsindən və etiqadından üstün tutması barəsində ifratçılığa varılması heç də düzgün deyildir.

Şeyx Səfiəddinin Şirazdan döndükdən sonra nə üçün dörd il gözləməsi və dörd ildən sona Şeyx Zahidin görüşünə yollanması haqqında «Səfvətüs-səfa" əsərində aydın bir izah yoxdur. Bu izahın olmaması isə bəzi tədqiqatçılar arasında subyektiv baxışdan doğan fikirlərin ortaya çıxmasına yol açmışdır. Məsələn, bildirilir ki, əgər doğrudan da Şeyx Səfiəddində irfani elmlərə dərin bir meyil olsaydı, o heç vaxt dörd il Ərdəbildə gözləməzdi və Gilana yollanardı. İddia edilir ki, Şeyx Səfiəddinin Gilana yolanmaqda məqsədi yüksək məqam və qüdrət əldə etmək, Zahidiyyə təriqətini ələ keçirmək idi. Məhz bunun üçün də o, Zahidiyyə müridlərinin libasına büründü və Şeyx Zahidə qoşulduqdan sonra ilk əməllərindən biri bu oldu ki, Şeyx Zahid ailəsi ilə qohumluq yaratsın. Yəni Şeyx Zahidin qızı ilə evləndi. Bildirilir ki, Şeyx Zahidin qızına evlənməklə Şeyx Səfiəddin Şeyx Zahidin qızının xətti ilə gələcək övladlarına seyidlik məqamı qazandırdı, digər tərəfdən də Şeyx Zahidin ailə üzvünə çevrilə bildi (59). Bu isə ona Şeyx Zahidin davamçısı olmaq şansı yarada bilərdi.

Şeyx Zahidlə Şeyx Səfiəddin arasında olan münasibətlər haqqında məlumatlar yuxarıda söylənilənlərin doğruluğunu bütünlüklə təkzib edə bilər. Mənbələrdən məlumdur ki, Şeyx Səfiəddin Gilana yollananda Şeyx Zahidin qızı Bibi Fatimə hələ anadan olmamışdı. O da məlumdur ki, Bibi Fatimə, Şeyx Zahidin ikinci nikahından dünyaya gəlmişdi. İkinci nikahını isə o təxminən 70 yaşında kəsdirmişdi. Onda Şeyx Səfiəddinin Bibi Fatimə ilə evlənməsi Şeyx Zahidin həyatının son illərinə təsadüf edə bilərdi. Belə olan təqdirdə Şeyx Səfiəddinin Gilana gələn kimi ilk işlərindən birinin Bibi Fatimə ilə evlənməsinin olmasını iddia etmək heç bir halda doğru olmazdı.

Bundan başqa istinad edilən tədqiqat əsərinin müəllifləri Şeyx Səfiəddinin Gilana gələndən sonra Şeyx Zahidin müridlərini öz tərəfinə çəkməsi haqqında da iddialar irəli sürürlər. Həmin müəlliflər eyni zamanda onu da əlavə edirdilər ki, Şeyx Səfiəddinin Şeyx Zahidə birləşməsindən əsas məqsədi Şeyx Zahidin malik olduğu çoxlu sərvəti ələ keçirmək idi və bu sərvəti ələ keçirməklə o, öz qüdrətini artırmaq istəyirdi. İddia edilir ki, Şeyx Zahidə birəşdirkdən sonra Şeyx Səfiəddin məharətlə öz rəqiblərini aradan çıxartdı, Şeyx Zahidin sərvətlərini ələ keçirməklə bərabər, onun təriqətini də öz təriqətinə çevirdi (60). Şeyx Səfiəddinin həyat yolu ilə ötəri tanışlıq isə bu söylənilən fikirlərin doğruluğunu şübhə altına almağa bəs edə bilər. Şeyx Səfiəddin bu dünyəvi hisslərlə yaşayan sufi deyildi. Onun həyat yolunu müəyyənləşdirən əsas məqsəd dünyəvilikdən təmizlənməklə haqqa qovuşmaq idi və o, Şeyx Zahidin irşadında kamilləşərək bu məqsədinə yetişə bilmişdi.

Dörd il Ərdəbildə ibadətlə, öz biliklərini və təqvasını möhkəmləndirməklə məşğul olandan sonra Şeyx Səfiəddin nəhayət ki, Şeyx Zahidin görüşünə yollana bildi. Mənbə məlumatına görə, bu da bir təsadüf nəticəsində baş verdi. Bildirilir ki, Şeyx Səfiəddinin Kəlxorandakı yaxınlarından olan İbrahim Məhəmməd adlı birisi düyü almaq üçün Gilana səfər etmişdi. Bu zaman onun yolu Gilanın Xanbəli bölgəsinin Hiləkəran kəndindən düşür. Yuxarıdakı qeydlərdən məlumdur ki, Şeyx Zahidin iki xanımından biri Hiləkəranda yaşayırdı və İbrahim Məhəmməd həmin kəndə gələndə Şeyx Zahid də orada imiş. İbrahim Məhəmməd hətta Şeyx Zahidin zaviyəsinə də yolunu salır və onun müridləri ilə də görüşür. Şeyx Zahid müridlərinin səliqə-sahmanı, onların geyimlərinin fərqliliyi və müridlik ədəbləri, zikr və ibadətlə məşğul olmaları İbrahim Məhəmmədi özünə cəlb edir və onda da Şeyx Zahidə müridlik meyli yaranır. Bu məqsədlə o, Şeyx Zahidin əllərini öpür, onun qarşısında tövbə edir, təriqətə məxsus libası geyinməklə Şeyx Zahidin müridliyini qəbul edir. Bir müddətdən sonra İbrahim Məhəmməd yenidən Kəlxorana qayıtmalı olur. Yolda ikən o, qar-borana düşür və hətta bu qar-borandan

xilas etmək üçün Kəlxoran adamları onun köməyinə yollanırlar. Şeyx Səfiəddin də ona kömək üçün yollananlar arasında imiş və əynindəki sufi paltarını görüncə ondan bu libasda olmağın səbəbini soruşur. İbrahim Məhəmməd də cavab verir ki, o, indi Şeyx Zahidin mürididir və əynindəki libas da onun təriqətinə məxsus sufilərin libasıdır. Şeyx Zahidin adını eşidəndə Şeyx Səfiəddin çox sevinir və Şeyx Zahidin nişanələri haqqında Şirazda eşitdiklərinin doğru olub-olmadığını İbrahim Məhəmməddən soruşur. İbrahim Məhəmməd də onun söylədiyi nişanələri təsdiq edir. Yəni Şeyx Səfiəddin əmin olur ki, İbrahim Məhəmmədin mürşidi doğrudan da ona nişan verilən Şeyx Zahiddir. Bundan sonra Şeyx Səfiəddinin qəlbində Gilana yollanmaq şövqü daha da güclənir və öz qərarını yaxınlarına da bildirir. Yaxınları isə havaların çox soyuq olduğu və yolları qar tutduğu üçün Şeyx Səfiəddinə səfərini təxirə salmağı məsləhət bilirlər. Şeyx Səfiəddin isə fikrindən dönmür və soyuq havada Şeyx Zahidin görüşünə yollanır: "Həman kim, Şeyxün mübarək nəzəri ana düşdi, Məhəmmədi gördi kim, sufilər kisvətün geyüb, kəndü libasını tərk edübdür və özini taliblərün kisvəti ortasına buraxubdur. Muni görüncə əcəbdə qaldı. ...Sordı kim, ey Məhəmməd, bu, nə vəz ilə surətdür? Dedi: "Bu, Şeyx Zahidün kisvəti ilə libasıdur kim, mən anun müridiyəm". Həzrət Şeyx çün Şeyx Zahidün adın eşitdi, saətdə canı quşı uçmağa durdi və könlü iztiraba düşdi. Pəs, sordı: "Sən Şeyx Zahidi gördün?" Dedi: "Bəli". Pəs Şeyx Zahidün heyət ilə şəkli və surəti, hər nəstə ki, Şirazda Əmir Abdullahdan eşitmiş idi, bir-bir sordı. Məhəmməd dedi: "Bəli, qamu böylədür kim, sən görmədin salığ verürsən". Pəs, həzrət Şeyxün taqəti taq olub, çün məhbubun nişanəsi və mətlubun xəbərin eşitdi, durmağ məcalı qalmadı və Gilanun əzmini eylədi. Nə qədər kim qövm ilə qardaşlar mübaliğlər qıldılar kim, bu çağ yol qamu qarludur və igən savux, qatlan, ta hava bir parə yumşanub isinsün, andan ana varmağ əzimət eylə, qəbul etmədi, Şeyxün könlündə ol qədər məhbubun həvəsi qalib olmuş idi kim, zərrəcə qatlanmaz idi. Pəs, həm ol savuxluğ çağında kim, yuxarudan

zəmhərir yağar idi və aşağada su daş kimi bağlar idi, rəvan oldı” (61).

Nəhayət, qışın çətinliklərinə baxmayaraq Şeyx Səfiəddin özünü Şeyx Zahidin zaviyəsinə yetirir. Ramazan ayı olduğu üçün Şeyx Zahid adətən kimsəni qəbul etməz və ibadətlə məşğul olardı. Amma Şeyx Səfiəddinin zaviyəyə gəlməsi artıq ona əyan olmuşdu. “Səfvətüs-səfa”nın məlumatına görə, Şeyx Səfiəddin zaviyədə namazda olarkən Şeyx Zahid xadimlərə ocaq yandırmağı tapşırdı. Baxmayaraq ki, zaviyə daxilində hava isti idi, bununla belə yenidən ocaq yandırıldı. Əslində, Şeyx Zahid bu ocağı yandırmaqda məqsədi var idi. Yenidən yandırılan ocaq zaviyəni daha da istiləşdirdi. Həmin isti Şeyx Səfiəddinin tərlətdi və həmin tər ilə də yol boyunca soyuğun yaratdığı fəsadlar onun canından çıxdı (62).

Bir məlumata görə isə Səfiəddin bu məkana yetişəndən sonra əvvəlcə namaz qılıb ibadət etdi və bu ibadət əsnasında Şeyx Zahid Gilani öz müridlərindən birinə tapşırdı ki, zaviyədə ibadətlə məşğul olan şəxsi onun xəlvətinə gətirsin:

"- Bu gün dünyanın haqq axtaranlarından biri [buraya] qonaq gəlib, ibadətgahda namaz qılır. [Namazı] qurtarandan sonra onu mənim yanıma gətir. Xidmətçi o haqq yolu ilə gedəni gətirdi və o, Şeyx [Zahidlə] görüşmək səadətinə çatdı. Şeyx [Zahid] onu Səfiəddin deyə çağırdı, onun ali rütbələrə və yüksək dərəcələrə çatacağı haqqında xoş xəbər verdi. Şeyx Səfiəddin Şeyx Zahidin bütün xüsusiyyətlərini onun haqqında eşitdiklərinə uyğun görərək, kömək əli ilə onun ətəyindən yapışdı və layiq xidmətlər göstərməklə [onun] ən yaxın adamlarından oldu. Həzrət Şeyx Səfiəddinin pəhrizkarlığı və zahidliyi o yerə çatmışdı ki, hər həftədə bir dəfə iftar xörəyi yeyərdi. Şeyx Zahidin nəsihətləri nəticəsində o, üç gündə bir dəfə [yeməyi] qərara aldı. Nəhayət, Şeyx [Səfiəddin] o adəti də əziz xasiyyətindən tərk edib, gündə bir dəfə iftar yeməyə başladı. Ancaq bir tikə quru düyüyə qənaət edib, ət və yağdan çəkinərdi, heyvani qidanı qətiyyən yeməzdi" (63).

Başqa bir mənbədəki məlumata görə, Səfiəddin Gilana, Şeyx Zahidin xanəgahına yetişəndən sonra Şeyx Zahid böyük oğlu Şeyx Cəmaləddini yanına çağırdı və bildirdi ki, zaviyədə namaz qılmaqla məşğul olan bu görkəmdə və bu nişanədə olan cavan türkü onun yanına gətirsin. Şeyx Cəmaləddin əvvəlcə buna etiraz etdi ki, kənar adamın onun hücrəsinə gətirilməsi düzgün deyildir. Belə olanda Şeyx Zahid öz sözünə təkid edir və onda onun oğlu Səfiəddinin namaz qıldığı zaviyəyə gedir və namaz bitdikdən sonra Səfiəddini atasının yanına dəvət edir. Məlumata görə, Səfiəddin hücrəyə yollanır və Şeyx Zahidlə görüşü çox böyük məmnunluqla qarşılayır. Elə ilk görüşdə də Səfiəddin onu maraqlandıran məsələlər haqqında Şeyx Zahidə 80 sual verir. Bu suallardan sonra Şeyx Zahid onun nə məqsədlə gəlməsi ilə maraqlananda, Səfiəddin cavab verir ki, onun mürşidliyini qəbul etmək üçün gəlmişdir. Şeyx Zahid böyük məmnunluqla onu qəbul edir və elə özünün hücrəsində ona yer verir. Bir ay onlar çilləxanada qalmaqla ramazan ayını başa vururlar. Mənbələrin verdiyi məlumata görə, ramazan bayramı günü Şeyx Zahid çilləxanadan Səfiəddinlə birlikdə bayramlaşmağa çıxdı. Səfiəddinin belə bir hörmət və nüfuz qazanması Şeyx Zahidin bəzi müridlərinin qısqanclığına səbəb oldu. Şeyx Zahid bu məsələni hiss edəndə ətrafındakılara bildirdi ki, bu gənc türk haqqında şəkk gətirməyin. Çünki Şeyx Zahid onun gələcəkdə hansı məqama yetişə biləcəyini hiss edirdi (64).

"Səfvətüs-səfa"ya görə isə Şeyx Zahidin tapşırığı əsasında Şeyx Səfiəddini onun yanına gətirdilər. Şeyx Zahid ondan nə məqsədlə gəlməsini, ata-anasının olub-olmamasını soruşdu. Şeyx Səfiəddin də tövbə və təlqin üçün onun yanına gəldiyini, anasının sağ olduğunu, atasının isə vəfat etdiyini bildirdi. Bundan sonra Şeyx Zahid öz tariblərini xəlvətinə dəvət etdi və onlara dedi: "Ol kəpənəkli yigid kim, mundan ilərü sizə derdim kim, Ərdəbildə dörd yıldır kim, sərgərdan qalubdur, budur. Və Pirə Ziyaəddin rəvayəti ilən kim, Həqq-təala ilə bu yıgıdin arasında bir hicabdan artuq nəsnə yoxdur, budur və ol bir hicab dəxi ortadan götürüldü" (65).

Bundan sonra Şeyx Zahid təriqət xadimi Məhəmməd Xəlilana tapşırdı ki, Şeyx Səfiəddini xüsusi xəlvətə aparsın. Həmin xüsusi xəlvətə Şeyx Zahiddən başqa kimsə daxil olmazmış. Şeyx Zahid bununla Şeyx Səfiəddinə böyük ehtiram bəslədiyini nümayiş etdirdi və Şeyx Səfiəddinin Şeyx Zahid yanında müridlik dövrü başladı.

Bəzi müəlliflərin fikrincə, Şeyx Zahidlə görüşənə qədər Şeyx Səfiəddin irfani elmlərin ədəbi və üsuli ilə elə də tanış deyildi və sonra da belə bir ehtimal irtəli sürülür ki, o, həyatda öz ictimai mövqeyinin axtarışında idi. Bəzi tədiqatçılar hətta əminliklə onu da iddia edirlər ki, Şeyx Səfiəddin də öz əcdadları kimi daha çox tanınmış ailələrlə əlaqə yaratmaqda maraqlı idi. Şeyx Zahidin yanına yollanması da Şeyx Səfiəddinin məhz nüfuzlu ailələrlə əlaqə yaratmaq istəyi kimi dəyərləndirilmişdir (66). Bununla da, əslində, Şeyx Səfiəddinin şəxsiyyəti üzərinə kölgə salınmasına, onun etiqadının dərinliyinə bir şübhə oyadılmasına cəhd göstərilmişdir. Çünki Şeyx Səfiəddinin Şirazın tanınmış arifləri və fəzilət sahibləri tərəfindən hörmətlə qarşılanması, həmçinin həmin ariflərin, o cümlədən də böyük sufi mütəfəkkiri Sədinin Şeyx Səfiəddinə münasibətini həm də onun irfani ədəbinə və istəklərinə verilən qiymət kimi qəbul etmək olar.

Səfiəddin Gilana gələndə 25 yaşında idi. Onun Şeyx Zahidin yanında 25 il müridlik etdiyi bildirilir. Yəni Səfiəddin kifayət qədər uzun bir zaman ərzində Şeyx Zahidə müridlik etmiş və öz biliklərində yüksək səviyyəyə qalxmışdı. Şeyx Zahid onun istedadına və etiqadına şübhə etmirdi və onun sufi kimi yetişməsinə xüsusi qayğı göstərirdi.

Şeyx Səfiəddinin mürşid sorağı ilə Şiraza yollanması Şeyx Zahidə də əyan olmuşdu. Bunu bir dəfə o özü də Şeyx Səfiəddinə açıqladı. Söhbtləri zamanı ona bildirdi ki, onun Gilana gəlməyini Əmir Abdulla tövsiyə etmişdir və sonra da Əmir Abdullanın nişanələrini sadaladı. Eşitdiklərindən sonra Şeyx Səfiəddinə bəlli oldu ki, sufi məqamında Şeyx Zahidlə Əmir Abdulla eyni mərtəbədədir. Ona görə Əmir Abdullanın onu Şeyx Zahidin yanına göndərməsini bir qədər təəccüblə qarşıladı. O bunun səbəbini

Şeyx Zahiddən soruşdu. Şeyx Zahid də Əmir Abdullanın yüksək elm və bilik sahibi olmasını təsdiq etdi. Amma onu da əlavə etdi ki, Əmir Abdulla irşadla məşğul olmur və Şeyx Səfiəddinə rədd cavabı verməklə onu incitmək istəməyib. Əvəzində ona Gilana yollanmağı tövsiyə edib: "Bir gün həzrət Şeyx Zahid həzrət Şeyx Səfiəddinə dedi: "Ərdəbillü, səni buraya Əmir Abdullah salığ verdi?" Dedi: "Bəli". Şeyx Zahid dedi: "Əmir Abdullah bir uzunboylu müxəttət yigitdür kim, yüzində bir yaşıl bən var". Həzrət Şeyx Səfiəddin çün bu sadiq nişanı gördi, Şeyx Zahidün sər və əlini öpüp, könlində keçürdi kim, çün Şeyx Zahid anun əhvalından xəbərdardur və ol munun şəkli ilə vəfasından sahib-vüquf, pəs, ikisünün mərtəbəsi bir ola, neşün məni buraya göndərdi? Həman kim, bu xəyalı xatirində keçdi, həzrət Şeyx fərasət ilən məlum edüb buyurdı: "Ərdəbillü, nə fikirdəsən? Əmir Abdullah atludur, amma atlanduramaz. Əgər anun bu mərtəbəsi var ola idi və səni tərbiyət eyləməklə rədd eyləmiş ola idi, sənə zülm qılmış ola idi. Və əgər anda dəxi bu mərtəbə var ola idi, mən səni qəbul eyləməyüb, genə ana göndərürdüm" (67).

Şeyx Zahidlə yaxından tanış olduqdan sonra Şeyx Səfiəddində belə bir əminlik yarandı ki, mürşid axtarışında olması Şeyx Zahidə əyan idi. Amma nədənsə o öz kəramətinə sığınmaqla Şeyx Səfiəddinin birbaşa onun yanına gəlməsinə şəfaqət etməmişdi. Bunu bir dəfə Şeyx Səfiəddin onun özündən də soruşdu. Şeyx Zahid də bunun təsadüfi olmadığını bildirdi. Onun sözlərinə görə, əgər Şeyx Səfiəddin birbaşa Şeyx Zahidin yanına gəlsəydi, onda fikirləşə bilərdi ki, Şeyx Zahidin yanında öyrənə bildiyini başqa mürşidlərin və pirlərin də yanında öyrənə bilərdi. Lakin Şeyx Səfiəddin digər pirlərin və şeyxlərin yanında müridlik etdikdən sonra anlamış olardı ki, Şeyx Zahidin yanında öyrənə bildiyini digər yerlərdə öyrənə bilməz. Ona görə Şeyx Səfiəddində də bir əminlik hasil oldu ki, təsəvvüf yolunda ən yüksək mərtəbəyə məhz Şeyx Zahidin irşadı ilə nail ola bilər. Şeyx Səfiəddin də mürşidinin bu fikri ilə razılaşır (68).

Şeyx Səfiəddin dünyəvi cazibələrdən əl çəkərək həyatını bütünlüklə sufiliyə, irfani elmlərin öyrənilməsinə bağladı. O bir

daha zöhd və riyazəti özündə tərbiyələndirməyə qərar verdi, gecələr yatmayıb ibadətlə məşğul oldu. Pəhrizkarlığı özündə gücləndirmək, nəfsə üstün gəlmək üçün Şeyx Səfiəddin davamlı şəkildə oruc tutardı. Məlumatlara görə, Şeyx Səfiəddin hətta günlərlə orucunu açmağa belə meyil etməzdi. Bu adətin onun səhhətini zəiflədə biləcəyi üçün Şeyx Zahidin təlqini ilə üç gündən bir iftar etməyə başladı. Beləcə onun riyazəti bir neçə il çəkdi. Şeyx Səfiəddin gecələri ibadətdə keçirər, gündüzlər isə zaviyənin təsərrüfat işləri ilə məşğul olardı. Gecələr gözünü yuxu aparmaması üçün Şeyx Səfiəddin ağaclara dırmaşıb onun budaqları üstündə oturardı ki, yuxusunu qovsun, zikr və ibadətini davam etdirə bilsin. Gündüzlər isə Şeyx Səfiəddin meşələrdən odun daşıyar, zaviyənin mətbəx və sobalarının qızdırılmasını təmin edərdi. Şeyx Səfiəddinin oğlu danışarmış ki, bir dəfə Şeyx Səfiəddinin çiyinlərində şişlərin olmasını müşahidə etmişdi. Soruşanda Şeyx Səfiəddin də bildiribmiş ki, bu şişlər Şeyx Zahidin zaviyəsinə daşıdığı odun şələlərinin kəndir izləridir (69).

Şeyx Səfiəddin geyim əşyalarının istifadəsində də gözütoxluq edərdi. Bir dəst nimdaş paltar və başına bağlamaq üçün bir arşın şal ilə keçinərdi. Bu paltarlar üzüləndə də anasının toxuyub ona göndərdiyi əşyaları da ehtiyacı olan başqa müridlərə hədiyyə edərdi. Vaxtaşırı da anasına müraciət edərdi ki, onun borclarının ödənməsinə kömək etsin. Anası da, bəzi vaxtlar isə Şeyx Zahid də onun borclarını ödəyərdi. Yəni bütün işlərdə Şeyx Səfiəddin dünya malına qarşı pəhrizkarlıq nümayiş etdirərdi. Bu pəhrizkarlıq və riyazət hətta ifrat səviyyəyə qədər qalxmışdı. Məhz bunun üçün idi ki, Şeyx Zahid özü çalışırdı ki, Şeyx Səfiəddinin yaxşı qidalanmasına nail olsun. Bir çox hallarda onu yanında otuzdurar və yemək yeməsini təklif edərdi. Şeyx Səfiəddin də bu zaman çox az miqdarda düyünü ovucu arasına alıb onunla qidalanardı. Ət yeməkdən isə uzaq qaçardı. Şeyx Zahid onun riyazətinə, dünya malına qarşı gözütoxluğuna rəğbətlə yanaşsa da, azacıq qidalanmasının onun səhhəinin zəifləməsinə səbəb ola biləcəyindən də ehtiyat edirdi. Ona görə o, Şeyx Səfiəddinə məsləhət bildi ki, ət yeməkdən imtina etməsin.

Yemək pəhrizkarlığı Şeyx Səfiəddin üçün sufi həyatının ayrılmaz tələbi idi və ona görə bu məsələdə öz əqidəsi və inancları çərçivəsində hərəkət etməyi üstün tuturdu. Şeyx Zahid bir dəfə bişirilmiş toyuğun bir qanadını yeməyi ondan tələb etdi. Digər dəfə toyuğun bir budunu Şeyx Səfiəddin yeməli oldu. Şeyx Zahid çalışırdı ki, beləcə hər gün Şeyx Səfiəddinin ət normasını bir qədər də artırsın. Bununla, Şeyx Səfiəddini yemək pəhrizkarlığından bir qədər uzaqlaşdırmaq mümkün oldu. Təriqət həyatının da belə bir tələbi var idi ki, əgər müridlər öz riyazətində, pəhrizkarlığında kamilləşdilərsə, bütünlüklə bu məsələnin mahiyyətinə vardılarsa, onda mürşidlər onları riyazəti davam etdirməkdən çəkinməyə çalışardılar. Şeyx Səfiəddin də öz riyazətində o məqama yüksəldi ki, Şeyx Zahid onu bu mərtəbədə dayanmağı tövsiyə etdi. Çünki o, pəhrizkarlığın da ifrata varılmasını istəmirdi (70).

Hətta bu vəziyyətində də Şeyx Səfiəddin daha çox öz mürud yoldaşlarına kömək etməyə çalışardı. O özü də yaxşı bilirdi ki, çox ciddi pəhrizkarlıq müridlərin səhhətini zəiflədə bilər. Buna görə də Şeyx Səfiəddin ona ünvanlanmış ərzaq əşyalarını da digərləri arasında bölüşdürərdi. Şeyx Səfiəddinə görə, kənd həyatına öyrəşməyənlər ərzaq pəhrizkarlığından xüsusilə əziyyət çəkə bilərdilər. O, Kəlxorandan bal, yağ və çoxlu sayda yemişlər gətizdirdi, Şeyx Zahid üçün pay ayırdıqdan sonra qalanlarını zaviyyədə gizlətdi və sonra da onları vaxtaşırı müridlər arasında paylaşdırdı. Bunu elə etdi ki, müridlərin yeməklərinə yağ-bal əlavə edilməsi haqqında Şeyx Zahidə məlumat çatdırılmasın. Ona görə hər dəfə yeməkdən sonra müridlər öz qablarını yuyardılar ki, onlarda yağ-bal nişanələri qalmasın. Zaviyənin xadimlərindən olan Əxi Süleyman müridlərin yağ-bal yeməsindən xəbərdar olub məsələni Şeyx Zahidə çatdırdı. Şeyx Zahid də bundan qəzəbləndi. Müridlərin pəhrizkarlığa riayət etməmələrini o, ümumən onların riyazət və mücahidətdən üz döndərməsi, təriqət normalarına əməl etməmələri kimi qiymətləndirdi. Şeyx Zahid baş verənlərə bir izah tapmaq üçün Şeyx Səfiəddini yanına çağırdı, onunla sərt danışdı, qida normalarının pozulmasını dərvişlər,

sufilər üçün düzgün olmadığını bildirdi. Şeyx Səfiəddin səbrlə qulaq asdı, Şeyx Zahidin qəzəbi qarşısında bir cavab qaytarmadı. Şeyx Zahid baş verənlərlə bağlı öz narazılığını bildirib xəlvətinə çəkiləndə Şeyx Səfiəddin də onun arxasınca getdi və ona öz fikrini açıqladyaraq dedi ki, yeməklərinə yağ və bal əlavə edilmiş müridlər şəhər uşaqlarıdır və sərt pəhrizkarlıq onların səhhətini korlaya bilər. Ona görə də Şeyx Səfiəddin təklif edirdi ki, bu müridlər pəhrizkarlığa tədricən öyrəşdirilsinlər və bununla onların səhhətinin korlanmasına da yol verilməsin. Şeyx Zahid bu fikri bəyəndi və hətta pəhrizkarlığa belə yanaşmanı savab kimi də qiymətləndirdi. Sonra zaviyə xadimi Əxi Süleymana tapşırıq verdi ki, müridlərin yeməyini gücləndirsin və ən azı həftədə bir dəfə onlara ət yeməkləri versin və bununla onların səhhətinin zəiflməsinin qarşısını alsın (71).

"Səfvətüs-səfa" əsərində Şeyx Səfiəddinin Şeyx Zahid yanında təsəvvüfün sirlərinə necə yiyələnməsi və bunun üçün Şeyx Zahiddən hansı dərsləri alması haqqında ayrıca hekayətlər yoxdur. Lakin ayrı-ayrı məlumatlar bu barədə müəyyən təsəvvürlərin əldə edilməsinə imkan verir.

Şeyx Səfiəddin ruhi və mənəvi baxımdan kamilləşməsi üçün riyazətin bütün tələblərinə ən ciddi şəkildə riaəyət etdi və bu yolda özünü məhrumiyyətlərə düçar edti. O, yaxşı bilirdi ki, sufi kimi formalaşması üçün nəfsinin idarə edilməsinə nail olmalıdır və bu yolda kifayət qədər dözümlülük nümayiş etdirirdi. Təriqət yolunun bütün çətinliklərinə və sınaqlarına sinə gərmək Şeyx Səfiəddinin həyat məqsədi idi və ona görə də bu yol ilə səbir və dözümlə irəliləyirdi. O bildirirdi ki, Şeyx Zahid qarşısında nəfsi, könlü və malı ilə göstərdiyi xidmətlərə görə onun rəğbətini qazanmağa nail olmuş, bütünlükdə isə kamil bir sufi və təriqət əhli kimi yetişə bilmişdi (72).

Məlumdur ki, Şeyx Zahidin mürşidliyini qəbul edib təsəvvüf yolunu tutanlar ilk növbədə onun rəhbərliyi altında tövbə edib dünya maddiliklərindən imtina edəcəyini və təsəvvüfün bütün tələblərini icra edəcəyini öz öhdəsinə götürməli idilər. Şeyx Səfiəddin də mürşidinin yanında tövbə edib həyatının yeni bir

səhifəsini açdı. Dünya nemətlərindən üz döndərmək üçün müridlər, o cümlədən də Şeyx Səfiəddin uzun müddət xəlvətdə oturur, dua və zikr etməklə nəfsin idarə edilməsinə, nəfsin tabe edilməsinə çalışırdı. Bunun üçün Səfiəddin çox ciddi riyazətə qatlaşmalı olurdu. Qeyd edildiyi kimi, riyazət hərfi mənada dözümlülük, zülmə qatlaşmaq, çətinliklərə dözmək və s. mənadadır. Sufi anlamında isə nəfsin idarə edilməsi, nəfsin tabe etdirilməsi, nəfsani hisslərə üstün gəlinməsidir. Şeyx Səfiəddin üçün birmənalı şəkildə aydın idi ki, Allaha qovuşmaq yolunu tutmaq üçün nəfsinə üstün gəlməli, həyatını batini dünyaya bağlamalı, təsəvvüfün mərhələlərini keçməlidir. Ona görə də Şeyx Səfiəddin mürşidinin rəhbərliyi altında xəlvətdə olmağa, riyazətlər çəkməyə başladı və bunun üçün çox ciddi sınaqlarla qarşılaşmalı oldu. Şeyx Zahid isə Şeyx Səfiəddinin istəyini və etiqadını görüncə onun batini və zahirinin tərbiyələndirilməsi ilə məşğul oldu. “Səfvətüs-səfa” əsərində bu barədə belə deyilir: “Çün Şeyx Zahid (r.r.) Şeyx Səfiəddinin (q.s.) əzəməti əhvalı və tərəqqisi kəmalı zahir gördi, xatirinün ehtimamı və zahirinin tərbiyəti anun həqqində məsruf edüb, himmətə bağladı. Və Şeyx Səfiəddin qatı riyazətlər çəkməkdən usanmazdı və adəti böylə idi kim, hər yedi gündə bir qatla orucun açar idi. Amma hər gecə barmağın suya, ya torpağa bulaşdurub ağsına qoya idi, məqsud o kim, ittisal oruci kim, mənidür, olmaya. Həzrət Şeyx anı ol riyazətlərdən hikmət ilən aşağıya endürüb, eylə eylədi kim, üç gündə bir qatla iftar edərdi. Və böyləlik ilən neçə yıl riyzətlər çəkdi” (73).

Şeyx Səfiəddin özü də yaxşı bilirdi ki, riyazət çəkməkdə görüntü yaratmır və bu məsələyə çox ciddi yanaşırdı. Ona görə sonralar özü də etiraf edirdi ki, bütün zamanların taliblərini bir yerə toplasalar onların hamısı Səfiəddin qədər riyazətə qatlaşmamışdı və həyatda qazandıqlarına da məhz həmin riyazətlər nəticəsində nail olmuşdu (74).

Şeyx Zahidin rəhbərliyi altında müridlər, o cümlədən də Şeyx Səfiəddin həm fiziki sınaqlardan keçirdilər, həm də Şeyx Zahiddən “Quran”ın, şəriətin, təsəvvüfün sirlərinə bələd olurdular. “Səfvətü-səfa” əsərindən məlum olur ki, nəzəri biliklərin

öyrədilməsi üçün Şeyx Zahidin yanında xüsusi söhbətlər və məşğələlər təşkil edilirdi və bu zaman Kəlimatın sirləri müridlərə, sufilərə öyrədilirdi (75). Adı çəkilən əsərdə təkrar-təkrar Şeyx Zahid tərəfindən irşad aparılması bəyan edilmişdir.

"Səfvətüs-səfa" əsərindən o da məlum olur ki, nəzəri təlimlərin aparılması üçün Şeyx Zahidin istinad etdiyi mənbələr var idi. Bu mənbələr, sözsüz ki, ilk növbədə "Quran", peyğəmbər hədisləri və bir də təfsir kitabları idi. Mövcud olan məlumatlar onu deməyə əsas verir ki, Şeyx Zahid müxtəlif təfsir kitablarından müridlərin irşadı zamanı istifadə etmişdi (77).

"Səfvətüs-səfa" əsərində müxtəsər olaraq Şeyx Zahid yanında irşadın necə aparılması haqqında məlumat vardır. Bu əsərin bir yerində bildirilir ki, birisi Şeyx Zahidin əlindən tövbə alıb işə başladı, ondan təlqin aldı, ciddi şəkildə irşadla məşğul oldu, işi (irşadı) və müamiləsi ucaldı, son mərtəbəsi bir yerə yetdi ki, xassül-xass olub qütblük mərtəbəsinə yetdi və Tanrının gizli sirləri onun üzünə açıldı (78).

"Səfvətüs-səfa" əsərinin başqa bir yerində isə taliblərin öz ibadətlərində və irşadlarında hansı mərtəbəyə yiyələnə bilməsi belə təsvir olunmuşdur: "Çün bir nüçə müddət mundan keçdi, anun kəşfi-halı ucaldı və batin kəşfi dəxi zahir oldı, ol qayətədəkin kim, gögün qat-qat mələkləri ilə bürcləri nişan verür idi və hər nəstə kim, xəlayiqün zəmiri ilə xatirlərində keçər idi, xamusun bilür idi" (79).

Yəni talib özünün davamlı irşadı ilə elə bir mərtəbəyə də yüksələ bilmişdi ki, batini kəşfin sirləri də ona açılırdı. Bundan sonra həmin talib göydə mələkləri müşahidə edir, insanların ürəyindən keçənləri duya bilirdi.

Bu sözləri, əslində, Şeyx Səfiəddinə də aid etmək olar. O, Şeyx Zahidin yanında addım-addım o mərtəbəyə yetişdi ki, Allahın bir çox sirlərindən də agah ola bildi. Bu da ona imkan verdi ki, "Quran"ın sirlərini daha əhatəli şəkildə başa düşsün və insanlara çatdırsın. "Səfvətüs-səfa" əsərində yazılanlardan belə bir qənaətə gəlmək olar ki, irfan aləmində müəyyən mərtəbəyə qalxmaq heç də ona əsas vermirdi ki, əyan olunan bütün sirlər

açılsın və bəyan edilsin. Yəni belə bəlli olur ki, Tanrının elə sirləri var idi ki, insan övladı onlardan agah olsa belə, onları başqalarına açmaqda haqlı deyil. Bununla bağlı Şeyx Səfiəddinlə onun qardaşı Səlahəddin Rəşid arasında ciddi bir gərginlik də yaşanmışdı. Şeyx Zahid bu məsələyə qarışanda Şeyx Səfiəddin demişdi ki, əgər sirr sözləri birisinə bəyan edirsənsə və o adam onu saxlaya bilmirsə, onun cəzası ciddi olmalıdır. Şeyx Zahid də eşitdiklərindən sonra belə bir fikir söylədi ki, Səlahəddin Rəşidi sirlərə agah olmaq mərtəbəsindən aşağı endirmək lazımdır. Bununla da ona sirr agah olmasın və o da sirləri faş etməsin. Belə də olur və Şeyx Zahid və onun yaxınları onlara məlum olan başqa bir sirlə Səlahəddin Rəşidi "yuxarı qütbliğ aləmdən endürdilər və abdallığ mərtəbəsinə yetürdilər" Amma kəşf və qədəm andan almadılar" (80).

Hələ müridlik edərkən Şeyx Səfiəddin artıq öz bilikləri, etiqad dərinliyi, riyazət və zöhdü ilə digər müridlərdən fərqlənirdi. Məhz bunun üçün idi ki, Şeyx Zahid digər müridlərin təlim-tərbiyəsinə nəzarəti ona tapşırdı. Şeyx Zahid dedi ki, xəlvətdə olduğu zaman taliblərin təlim-tərbiyəsi ilə məşğul olsun və onların formalaşmasına məsuliyyəti öz üzərinə götürsün. Məlumdur ki, Şeyx Zahid xəlvətdə uzun müddət oturar və ibadətlə məşğul olardı. Bu zamanlar taliblərin (müridlərin) təriqət əhli kimi yetişməsinin nəzarətdən kənar qalmaması üçün bu işlər Şeyx Səfiəddinə həvalə olundu. Yəni Şeyx Səfiəddin öz elmini, biliyini, vərdişlərini kamilləşdirməklə bərabər, həm də talib yoldaşlarının yetişməsinə kömək göstərməli idi.

Şeyx Səfiəddin öz müridliyində elə bir ali məqama yetişmişdi ki, Şeyx Zahid hətta kənar taliblərin yetişdirilməsini də ona həvalə etməkdən çəkinmirdi. Şeyx Zahid təklif edirdi ki, Şeyx Səfiəddin müridlərin irşadı ilə məşğul olsun, onları tövbəyə gətirməklə təlqini icra etsin. Şeyx Səfiəddin ona verilən tapşırıqları yerinə yetirirdi və o cümlədən müridlərin yetişməsi ilə bağlı öz köməyini əsirgəmridi. Lakin o bu işlərin Şeyx Zahid adından görülməsi, yəni mürşidin əvəz edilməsi ilə razı olmurdu. Bu mənada Şeyx Səfiəddin ətraf bölgələrdə toplanmış taliblərin

irşadını öz üzərinə götürməyə də cəsarət etmirdi. Şeyx Zahid isə bu məsələdə təkid göstərməkdə davam edirdi. Bir dəfə Marağadan onun yanına nümayəndələr gəldilər və ondan xahiş etdilər ki, Marağaya gəlib oranın insanlarının irşadı ilə məşğul olsun. Şeyx Zahid Marağaya yollana bilmədiyi üçün Şeyx Səfiəddini yanına çağırdı, Marağada toplanan taliblərin irşadı və tərbiyələndirilməsi üçün ora yollanmağı tapşırdı. Şeyx Səfiəddin bu dəfə də imtina etmək istədi və bəyan etdi ki, onun işi hələlik mürşidinin xidmətində olmaq və onun üzünü görməkdir. "Şeyx Zahid dedi: "Oğul, Səfiəddin, Tanrı-təala səni xəlqə göstərdi və Tanrının buyruğu böylədir kim, sən oraya varmağ gərəksən". Şeyx Səfiəddin dedi: "Mən nəstə bilməzəm və anda danişməndlər ilə bilicilər çoxdurlar, anlar ilə bəhz eyləyəmanam". Şeyx Zahid dedi: "Oğul, Səfiəddin, bütün münafiqlərin çovganların ufatdım və topı sənin ögünə bıraxdım, hər yana kim, xatirün meyl eylər, topı çal ki, meydan xass sənündür və mundan sonra mən bir bucağda oturmağum gərək və hər yana kim, səni dəvət eyləyüb çağıralar, varmağ gərəksən kim, təliblərə tövbə ilə təlqin verəsən kim, bu ulu mərtəbədə Tanrı-təali sana ərzani qılmışdır" (81).

Şeyx Zahid əmin idi ki, Şeyx Səfiəddin öz elmində və təqvasında kamillik zirvəsinə yetmişdir və təriqət biliklərinin irşadında lazım olan işləri görə bilər. İnsanların irşadı ilə məşğul olmağı Şeyx Zahid Tanrı-təaladan gəlmiş bir buyuruq kimi dəyərləndirdi və Şeyx Səfiəddinin də bu buyuruğu həyata keçirməyə borclu olduğunu bildirdi. Ona görə Şeyx Səfiəddin mürşidinin tapşırığından boyun qaçıra bilmədi və Marağaya yola düşür. Bu səfərin hansı tarixdə baş verdiyini söyləmək çətin olsa da, amma həmin səfər Şeyx Səfiəddin üçün bir sınağa da çevrildi.O bu sınaqdan uğurla çıxdı. Məsələn, bildirlir ki, Şeyx Səfiəddin səfər zamanı Ərdəbilin Bərniq kəndindən keçərkən həmin kənddə Mövlanə Şəmsədin adlı bir fəzilət sahibinin yaşadığı haqqında məlumat aldı. Mövlanə Şəmsəddin irfan elmində kifayət qədər təcrübəli bir insan idi və taliblərin biliyinin yoxlanmasına çox ciddi yanaşırdı. Özünü talib kimi təqdim edənlər onun suallarına cavab verə bilməyəndə Mövlanə Şəmsəddin onlara qarşı çox sərt

münasibət göstərərdi və ona görə də taliblər, irfan yoluna qədəm qoymaq istəyənlər adətən Bərniq kəndindən uzaq olmağa çalışardılar. Hətta Şeyx Səfiəddinə də məsləhət görüldü ki, Bərniq kəndindən uzaq olsun, Mövlanə Şəmsəddinlə qarşılaşmasın. Şeyx Səfiəddin isə bununla razılaşmadı və dedi ki, əgər Mövlanə Şəmsəddin sınağından çıxa bilməyəcəksə, onda Marağa əhlinin irşadı ilə necə məşğul ola bilər? Ona görə Şeyx Səfiəddin Bərniq kəndinə daxil oub məscidə yollandı. O məsciddə olarkən Mövlanə Şəmsəddin də gəlib çıxdı, salam vermədən mehraba yaxınlaşdı və iki rükət namaz qıldıqdan sonra Şeyx Səfiəddini sorğu-suala tutdu. Hər sualına cavab aldıqca Mövlana Şəmsəddin oturduğu yerdən bir qədər geri çəkildi və bu yolla xeyli geri çəkilməli oldu. Sonra Şeyx Səfiəddin ona birlikdə xəlvətə çəkilməyi xahiş etdi. Onlar birlikdə xəlvətə çəkildilər və Şeyx Səfiəddin ona öz təlqinlərini etdi. Mövlana Şəmsəddin orada Şeyx Səfiəddindən eşitdiklərindən sonra bəzi fikirlərinin kamilləşməli olduğunu yəqin etdi, yenidən tövbəyə gəldi. "Səfvətüs-səfa"nın verdiyi məlumata görə, Şeyx Səfiəddinlə görüşdən sonra Mövlana Şəmsəddin öz məqamını daha da təkmilləşdirdi. Ali mərtəbəyə yetişməklə bu insan həm də kəramət sahibinə çevrildi (82).

Sonra Şeyx Səfiəddin yolunu Səraba, Gərmrud və Həştruda saldı və oradan da Marağaya yollandı. Bu məntəqələrdə olduğu zaman Şeyx Səfiəddin çoxlu insanı tövbə və təlqinə gətirdi, onlara dinin və ibadətin düzgün yolunu öyrətdi, onların irşadı ilə məşğul oldu. Marağada Şeyx Səfiəddin xeyli vaxt keçirməli oldu. Geri qayıdarkən taliblər və sufilər tərəfindən ona bağışlanmış bütün töhfə və hədiyyələri gətirib Şeyx Zahidə çatdırdı. Şeyx Zahid müridinin bu ədəbindən daha da xoşlandı və Marağada gördüyü işlər barəsində ondan məlumat aldı. Eyni zamanda Şeyx Zahid Marağa əhalisinin dini inanclarının səviyyəsi ilə də maraqlandı. Şeyx Səfiəddin cavab verdi ki, oranın insanları etiqadlıdırlar. Lakin onların irşadının davamlılığı üçün həmin bölgəyə təriqət xəlifələrinin göndərilməsi yaxşı olardı. Onun fikrində, bu xəlifələr mömin insanları doğru dinə və ibadətə çağırmaqla onların irşadını öz üzərlərinə götürə bilərdilər. Şeyx Səfiəddin

təriqət xəlifəsi kimi həmin bölgəyə kimlərin göndərilə biləcəyini də dilinə gətirdi. Lakin Şeyx Zahid həmin insanların təriqət irşadı üçün Şeyx Səfiəddin kimi hələ yetişmədiyini bildirdi (83).

Şeyx Səfiəddinin Şeyx Zahid tərəfindən müridlərin irşadına cəlb edilməsi bəziləri tərəfindən qısqanclıqla qarşılanırdı. Bununla bağlı hətta Şeyx Zahidə də xəbərlər çatdırılmışdı ki, Şeyx Səfiəddin səccadə üzərində oturur, müridlərə tövbə və təlqin verir və bununla özünü mürşid məqamında təqdim etməyə çalışır. Görünür, bu barədə söz-söhbətlər o qədər çox imiş ki, məsələnin aydınlaşdırılması üçün Şeyx Zahid müridi Şeyx Səfiəddini öz yanına çağırmalı olmuşdu. Şeyx Zahid ondan danışılanların doğru olub-olmadığını, özbaşına şeyxlik etməyə başladığını soruşdu. Şeyx Səfiəddin də cavabında bildirdi ki, səccadə üzərində oturub müridlərə tövbə və təlqin verməsi doğrudur. Lakin bu işləri Şeyx Zahid adından görür. Bundan sonra Şeyx Zahid də razılaşdı ki, müridlərə və taliblərə tövbə və təlqin verilməsi üçün ona rüxsət veribdir və Şeyx Səfiəddinin məqamı da buna imkan verir. Şeyx Səfiəddinlə bağlı başqa bir şikayət də Güştasbdan gəlmişdi. O bölgənin Mahmud adlı bir etiqad sahibi Şeyx Zahidə xəbər göndərdi ki, Şeyx Səfiəddin ətrafına müridlər toplayır, onlara tövbə və təlqin verir, onların irşadı ilə məşğul olur və sonra da onlardan hədiyyələr toplayır. Mahmud bölgədə riyazət sahibi kimi tanınmışdı və ola bilsin ki, ona görə də Şeyx Zahid onun xəbərini ciddi qəbul etmişdi. Şeyx Səfiəddin, doğrudan da, ətrafına müridlər toplayırmış, onların irşadı və öyrədilməsi ilə məşğul olurmuş. Lakin bu işləri o, Şeyx Zahidin adından görürdü və ətrafına toplaşanları da Şeyx Zahidin təriqətinə dəvət edirdi. Bu yolla o, xeyli sayda talibi də öz ətrafına toplaya bilibmiş. Bu xəbər də Şeyx Zahid tərəfindən müəyyən nigarançılıqla qarşılandı. Ona elə gəldi ki, Şeyx Səfiəddin doğrudan da ondan xəbərsiz mürşidliklə məşğul olmaq niyyətindədir. Görüşləri zamanı Şeyx Zahid bir daha ondan eşitdikləri söz-söhbətlər haqqında fikrini söyləməyi xahiş etdi. Şeyx Səfiəddin bir daha söylədi ki, Şeyx Zahidin verdiyi rüxsət çərçivəsində taliblərin irşadı ilə məşğul olur və onun buyruğu olmadan bu işlərlə məşğul olmazdı. Şeyx Səfiəddin

sonra əlavə etdi ki, şeyxinin izni olmadan kimsəni öz ətrafına toplamaz, onun əleyhinə nəfəs belə çəkməz və onun adına toplanan hədiyyələri də heç zaman özünə götürməz. Bu sözlərdən sonra Şeyx Zahid bir daha Şeyx Səfiəddinin daxili kamilliyinə əmin oldu və bir daha taliblərin irşadı üçün ona izn verdiyini bildirdi (84).

Şeyx Zahid özü də etiraf edirdi ki, Şeyx Səfiəddinə Haqq-təala tərəfindən kəramət lütf edilibdir və əslində, mürşidliklə məşğul olmaq onun haqqıdır. Yəni Şeyx Səfiəddin elmi və təqvası ilə belə bir məqama yüksələ bilmişdi.

Şeyx Səfiəddinlə bağlı müridlər arasında qısqanclıq görünür uzun müddət davam etmiş və bu məsələ onun özündə də ağır hisslər yaratmışdı. Şeyx Səfiəddin hətta belə fikirləşirdi ki, Şeyx Zahid onun haqqında danışılan sözlərə inana və ona digər müridlər yanında xoşagəlməz sözlər söyləyə bilər. Ona görə də Şeyx Səfiəddin qərara aldı ki, Şeyx Zahidlə vidalaşsın, Məkkəyə yollansın və orada qalaraq Kəbədə mücavirlik etsin. Bu fikirlərlə öz xəlvətindən dışarı çıxanda Şeyx Səfiəddin mürşidi Şeyx Zahidlə qarşılaşır. Şeyx Səfiəddin həmin qarşılaşmanı belə xatırlayırdı: “Həmin ki, mübarək nəzəri mana yetdi, buyurdı: “Oğul, Səfiəddin, bəri gəl”. Çün yanına vardım, dedi: “Oğul, Kəbənün Tanrısı bu yerin Tanrısından ayrumıdır?”. Dərhal ayağına düşüb dedim: “Ya Şeyx, hər günah kim, özgələr eylərlər, mana itab eylərsən və mənim taqətim yoxdur və qorxaram ki, dinümi zaye ola”. Şeyx dedi: “Səfi, böylə ola, zira kim taliblərin qayıtdığı sanadır və sənün qayıtduğun mana” (85).

Şeyx Zahid onun ətrafına toplaşanların arasında bir dəfə bildirmişdi ki, Şeyx Səfiəddin Tanrıdan nə istədisə, Tanrı ondan əsirgəmədi (86). Yəni Şeyx Səfiəddin elmində, ibadətində və etiqadında o mərtəbəyə yüksəlmişdi ki, Tanrı onun diləklərini cavabsız qoymurdu. Sözsüz ki, onun bu məqama yetişməsi də bəzilərinin qısqanclığına səbəb olurdu. Belə qısqanclardan bəziləri bayram ərəfəsində belə bir plan qurdular ki, Şeyx Səfiəddinin Şeyx Zahidin yanında əyləşməsinin qarşısını alsınlar. Şeyx Zahid məclislərdə hər zaman Şeyx Səfiəddini yanında əyləşdirərdi.

Şeyx Zahidin ahıl yaşlarında gözləri zəiflədiyi üçün məclisə daxil olanların heç də hamısını seçə bilməzdi. Bu zaman Şeyx Səfiəddin məclisə təşrif gətirənlərin kim olduğunu Şeyx Zahidə anladar və qonaqlar barəsində ona məlumat verərdi. Qısqanclar öz planlarını həyata keçirmək üçün münasib bir yer seçdilər. Bu elə bir yer idi ki, məclisə gələnlərin hamısını oraya yerləşdirmək çətin idi. Belə darısqal bir yerdə Şeyx Zahid üçün bir taxt qoyuldu. Bu taxtda Şeyx Zahiddən başqa onun oğlu Şeyx Cəmaləddinə və Mövlana Müvəffəqəddinə yer ayrıldı. Yəni Şeyx Zahidin yanında Şeyx Səfiəddin üçün yer qalmadı. Güman edilirdi ki, Şeyx Səfiəddin məclisə gəlsə də Şeyx Zahidin yanında yer olmadığını görüncə geri qayıdacaqdır. Təsadüfən həmin gün Şeyx Səfiəddinin ayağında yara peyda olubmuş və ona görə onun təşkil olunan məclisə getmək fikri yox imiş. Amma Şeyx Zahid məclisə gələn kimi, onun harada olması ilə maraqlanır və tapşırır ki, Şeyx Səfiəddini məclisə gətirsinlər. Şeyx Səfiəddin məclisə gəlib Şeyx Zahidin əllərini öpdü və Şeyx Zahid tərəfindən taxt üstünə dəvət edildi. Şeyx Səfiəddəin mürşid üçün nəzərdə tutulmuş taxtın üstünə qalxmağa cəsarət etmədiyini bildirdi. Bununla belə, Şeyx Zahid öz sözündə israr etdi və taxt üzərində Şeyx Səfiəddinə də yer etdi. Şeyx Zahid dedi: “Səfiəddin, sağınma ki, mən səni təxtin üstünə oturtururam, Tanrı-təala səni təxt üstünə oturturubdur”. Şeyx Zahid çün bu sözləri qaxımaq ilə dedi, Şeyx Səfiəddin həzrət Şeyxün qaxıduğı gördi, təxtün üstinə çıxub, Şeyx Zahidün əlini həm eylə kim dutmuş idi, özinə çəkər idi, ta öz yanında yer eyləyüb orada oturtdı. Və Şeyx Səfiəddinün biləgü dutub, oturanlara görsədüb dedi kim, biliniz kim, bu əl mənim əlümdür. Hər kim bunun müridüdür, mənüm müridümdür və bunun müridi dəgül, mana gərəkməz və anun dəxi dəgül. Və mən Səfiəddinəm və Səfiəddin mən” (87).

Şeyx Səfiəddin xatırlayarmış ki, bir dəfə Şeyx Zahidin zaviyəsinə yollanarkən ona qısqanclıqla yanaşan müridlərdən biri ilə rastlaşdı. Həmin mürid Şeyx Səfiəddini görüncə, onunla qarşılaşmaq istəmədi və yolunu dəyişib başqa səmtə üz tutdu. Şeyx Səfiəddin bu haldan bir qədər tutuldu və fikirləşdi ki, nə üçün bir

müsəlman qardaşı ondan incik düşsün və onunla qarşılaşmaqdan çəkinsin. Elə bu vaxt o, Şeyx Zahidlə qarşılaşdı. Şeyx Zahid nə baş verdiyini duyub Şeyx Səfiəddinə çatdırdı ki, aslanların qarşısından qaçmaq tülkülərin adətidir. Ona görə də baş verənlərə təəssüflənməməyə çağrır (88).

"Səfvətüs-səfa"nın müəllifi yazırdı ki, Şeyx Zahidlə Şeyx Səfiəddin arasında bir mənəvi və ruhani bağlılıq var idi. Onlar fiziki anlamda bir-birindən uzaq olduqları anlarda da bir-birilərini hiss edir, ruhən bir-birilərindən xəbər tuturdular. Bildirilir ki, əgər Şeyx Zahid Gilanda öz xanəgahında qızdırmaya düçar olsaydı, Şeyx Səfiəddin də Ərdəbildə qızdırmaya tutulurdu. Və ya əksinə, Şeyx Səfiəddin hər hansı bir çətinliklə qarşılaşmalı olurdusa, Şeyx Zahid də oxşar çətinliklə üzləşirdi (89).

"Səfvətüs-səfa"nın məlumatlarından aydın olur ki, Şeyx Zahidin mürşidliyi altında təriqət yolunu tutmaq istəyənlərin heç də hamısı qəlbini kin və küdurətdən təmizləməyə nail ola bilmirdilər. Bu isə tez və ya gec açılır və belələrinin tövbəyə gətirilməsi üçün müəyyən cəhdlər də göstərilirdi. Adı çəkilən əsərdəki hekayətlərdən birində bildidilir ki, bir dəfə Şeyx Zahidin xidmətində olan taliblərdən beş nəfər öz mürşidinə qarşı çıxdılar və onlar öz ətrafındakıları da bu yola təhrik etməyə çalışdılar. Əsərdə bu adamların adları da sadalanmışdır. Təriqət yolundan azmış həmin adamlar başqalarını da bu yoldan döndərməyə çalışmaqla bərabər, yüksək məqama yetişdiklərini iddia edir və səccadə üzərində oturmağa (yəni başqalarna tövbə və təlqinə gətirməyə) haqlı olduqlarını bəyan edirdilər. Şeyx Zahid bu hadisədən xəbər tutunca həmin adamlara qarşı dözümlülük nümayiş etdirdi və onlarla ehtiyatla davranmağı lazım bildi. Elə vəziyyət yarandı ki, hətta təriqətin sağlam müridləri zaviyədən uzaqlaşmaq seçimi ilə üzbəüz qaldılar. Bu barədə Şeyx Zahidə xəbər çatdırılanda o da bildirdi ki, bizim bahadır igidimiz Səfiəddindir, onu çağırıb onunla məsləhətləşmək lazımdır. Həmin vaxt Şeyx Zahid Güştasbda imiş və onun tapşırığı əsasında Şeyx Səfiəddinin arxasınca çapar göndərirlər. Şeyx Səfiəddin də bir müddətdən sonra gəlib vəziyyətdən hali olur və Şeyx Zahidin qarşısında hə-

min üzüdönüklərlə görüşmək barəsində məsələ qaldırır. Şeyx Zahidin razılığı ilə Şeyx Səfiəddin müşriklərlə görüşür. Şeyx Səfiəddin onlarla bir xeyli söhbət edir, onlara yanlış yola düşdüklərini anlatmağa çalışır. Sonra bildirir ki, onlara düz və müstəqim yolu göstərən pir və mürşidlərə asi olanlar mürtəddirlər. Həmin adamlar Şeyx Səfiəddinin dediklərini dinlədikdən sonra səhv yola düşdüklərini anlayır və bağışlanmaları üçün Şeyx Səfiəddindən kömək istəyirlər. Şeyx Səfiəddin də deyir ki, başı açıq və ayaqyalın qamışlığa yollansınlar, orada qamış bağlamaları düzəldib zaviyəyə gətirsinlər və bu qamışla zaviyənin mətbəxinin uçmuş hasarını yenidən bərpa etsinlər. Bununla, Şeyx Səfiəddin onları fiziki məhrumiyyətə məcbur edir. Çünki həm ayaqyalın qamışlıqda gəzmək, həm də qamış bağlamalarını daşımaq əzab və əziyyətli iş idi. Bu adamlar günahlarının bağışlanması üçün belə əziyyətlərə qatlaşdılar və tapşırılan işi gördükdən sonra onlar Şeyx Zahidin xəlvəti qarşısında toplaşdılar. Bundan sonra Şeyx Səfiəddin xəlvətə daxil olub Şeyx Zahiddən bu adamların günahlarının bağışlanmasını xahiş etdi. Şeyx Zahid də baş verənlərdən xəbər tutandan sonra mürşid kimi onların günahını bağışladığını bəyan etdi. Bununla, əslində, müridlər və taliblər arasında təriqətə asiliyin qarşısı alındı və ona görə də Şeyx Zahid bildirirdi ki, əgər Şeyx Səfiəddin olmasaydı bizim işlərimiz çətin ola bilərdi. Təriqətin doğru yoluna qayıdanlar isə bəyan etdilər ki, Şeyx Səfiəddin olmasaydı iki dünyada üzümüz qara olardı (90).

Haqq yolundan sapınanlara qarşı müdriklik nümayiş etdirilməsi Şeyx Səfiəddinin xarakterik cəhətlərindən biri idi. Çünki o, Tanrı sevgisini Tanrının yaratdıqlarına qarşı sevgi ilə qovuşdura bilmişdi. Tanrının yaratdıqlarının irşadı və Haqq yoluna çıxarılması Şeyx Səfiəddin üçün elə Haqqa xidmətin bir yolu idi. "Səfvətüs-səfa"dakı hekayətlərdən birində verilənməlumata görə, Təbrizli Mövlana Əminəddin bir dəfə Şeyx Zahidin yanına gələrək ona bildirdi ki, Təbrizdə və ətrafında tövbə etmək istəyən sadiqlər və taliblər çoxdur. Onun sözlərinə görə, bu insanların heç də hamısının Gilana gəlmək imkanları yox idi. Ona görə Mövlana Əminəddin xahiş etdi ki, Şeyx Zahid ona Təbriz sadiqlərinin və

taliblərinin tövbəyə gətirmək icazəsini versin. Mövlana Əminəddin bu işləri görmək üçün zəruri olan mərtəbəyə yetişməmişdi və onun buna haqqı yox idi. Lakin o, sözləri ilə Şeyx Zahiddə başqa bir fikir yarada bildi və Şeyx Zahid də ona belə bir icazəni verdi. Amma Şeyx Zahid də özlüyündə bilirdi ki, Mövlana Əminəddin insanları tövbəyə gətirmək mərtəbəsinə malik deyildir. O, verdiyi qərardan bir peşimançılıq hissi keçirdi və bunu Şeyx Səfiəddinə də açıqladı. Şeyx Səfiəddin də söz verdi ki, o, Mövlana Əminəddinlə danışar və onu bu yoldan çəkindirər. Bu məqsədlə o, Mövlana Əminəddinlə görüşdü və ona belə bir sual everdiki, Həcc ziyarətinə getmək istəyən bir müsəlmanın səfər zəhmətlərini çəkmədən Həccə yetişməsi mümkündürmü? Sözsüz ki, cavab mənfi oldu. Sonra sual verildi ki, əgər kimsə Məkkəyə vardısa, Həcc ziyarətini etdisə də, Məkkənin yollarını tanımadan Həccə aparan karvanlara karvanbaşılıq edə bilərmi? Mövlana Əminəddin yenə də mənfi cavab verdi. Şeyx Səfiəddin sonra əlavə etdi ki, Məkkəyə yollanan özünü bu səfərə hazırlamalı və Həcc karvanlarına rəhbərlik edən Həccə aparan yollara bələd olmalı olduğu kimi riyazət gördükdən və mücahidətlər çəkdikdn sonra mürşid və xəlifə məqamına yetişə bilər. Yəni yalnız bu məqama yetişəndən sonra başqalarını tövbəyə gətirə bilər. “Şeyx Səfiəddin dedi: “Hilə və mübaliğə ilən tövbə icazəti Şeyx Zahiddən almışsan və hal ol kim canyandırıcı yabanlara ayağ basmayubsan və öz vücuduni riyazət butəsində yandırmayub, nəfs ilə şeytanın mərəkəsinə girməyüb, təsfiyyə dənizindən təharət almayub, təsəvvüf mənzilində həzə əvvəl qədəmindəsən. Necəlik yuxarı mənzilə varmağ istərsən” ( 91).

Bununla, Şeyx Səfiəddin onu razı sala bildi ki, lazımi mərtəbəyə yetişmədən kimləri isə tövbəyə gətirməyə haqqı yoxdur. Mövlana Əminəddin də Şeyx Səfiəddinin bu qənaətləri ilə razılaşdı və öz sövdasından əl çəkdi.

Bütün bu cəhətlərinə görə, Şeyx Zahid müridi Şeyx Səfiəddinə böyük hörmətlə yanaşır və onu özünün davamçısı kimi görürdü. Ona görə də Şeyx Zahid həyatını dəyişməzdən hələ xeyli əvvəl ona mürşidliyi qəbul etməyi təklif etmişdi. «Səfvə-

tüs-səfa" bu barədə belə yazır: "Şeyx Zahid dedi: "Bu yigit, yəni Şeyx Səfiəddin nə qədər kim, imtəhan eylədim anı bir nəstə ilən andan artuq gəldi. Ana dedim: Şeyxliq sənin olsun". Cavab verdi: "Mən bir kəndlünün oğliəm, şeyxliğə layiq degüləm". Dedim: "Səccadə sənündür". Dedi: "Mən bunun layiqi degüləm". Hər nəstə kim, anı ana ərz etdim, anun himməti andan uçarak idi, ta hər nəstə kim, dilxahı idi, məndən hasil etdi və özgə nəstələr ilə başın endürmədi. Bu mərtəbə ana mübarək olsun" (92).

Şeyx Səfiəddin bir tərəfdən mürşidinə ehtiramla yanaşıb onun məqamını tutmaq istəmirdi, digər tərəfdən də Şeyx Səfiəddin kamilləşməyi daha vacib bilirdi. Nə qədər ki, Şeyx Zahid sağ idi, Şeyx Səfiəddin çalışırdı ki, ondan daha çox biliklər öyrənsin və onun ehtiramını qazansın.

Dünysını dəyişməzdən əvvəl Şeyx Zahid Ərdəbilə gəlibmiş. Məqsədi Şeyx Səfiəddinə qonaq olmaq və onun gördüyü işlərlə tanış olmaq idi. Şeyx Səfiəddinin zaviyəsində olduğu günlərdə bir dəfə onun başına çoxlu sayda insan yığışır. Onların qarşısında Şeyx Zahid uzun müddət susub heç nə danışmır. Sonra o özü nə üçün susduğunun səbəbini açıb ətrafdakılara söyləyir: "Şeyx dedi: "Mənüm könlüm aləmün dörd guşəsini gəzüb bir məqam istədi ki, Səfiəddinün zahir ilə batin mənzili anda ola, ixtiyar eyləyüb müqərrər eyləyim. Ərdəbil yaxşı yerdür kim, anun torpağı xalis etiqad ilə ulaşmış və ol yerdəkinün adamları imana bidət ilə naməşru qaranğuliğdən safi və arıdur və Həqqün məzhəbi yeridür və yaman məzhəblərinün bidətləri mundan irağdur. Anlarun etiqadı bostanında müxalif yeli əsməz və heç kimsə məzhəbi-Həqsən özgə şəriətdən bir qədəm dışxarı qoymaz. İmdi, Səfiəddin, gərək kim, burada bir ev yapdurasan kim, sənün məqamı və dəryanun yurtı burada olacaqdur. Və bir zaviyə yapdur kim, ərşi seyr eyləyən zayirlər və Tanrıya tapan sufi zakirlər munda olmaq gərəkdürlər. Gərək kim, xəlayiqi doğru dinə və sirati-müstəqimə kim, imamlarun yolı və təriqidür, çağırasan və "əcibu daiyəllahi" [Allaha çağırana səs verin – Əhqaf surəsinin 31-ci ayəsi] səlası aləmün dört guşəsində urasan ki, Həqq-təala səni xəlqə və xəlqi sana həvalə eyləyübdür" (93).

Şeyx Zahid bu sözləri ilə bir tərəfdən Şeyx Səfiəddinin mürşidliyinə və irşadına bir daha xeyir-dua verdi və digər tərəfdən də onun öz xanəgahını Ərdəbildə qurmasına təqdirini bəyan etdi. Şeyx Zahid bəyan etdi ki, Ərdəbilin torpağı etiqad məskəni, insanları isə Haqqın məzhəbinə sadiqdirlər. Ona görə də xanəgahın burada yaradılmasını doğru və düzgün hesab etdi. Sonra da Şeyx Zahid ona taliblərin irşadı ilə necə məşğul olması üçün tövsiyələrini verdi: "Gərək kim, ictihad kəməri aləmün müsafirləri belinə bağlayasan və taliblərün dili zikr həlqəsində açdurasan kim, mundan sonra mən bir bucağda oturmağ gərəkəm. Amma sana mümkin olmaz, bəlkə aləmi özünə yar eyləyüb, böyük ilən kiçik kəşf və kəramət ilən seyd eyləyüb mürşidiyyət tuğrası islam dinində həqiqətin minbərində öz adun ilən oxutdurmaq gərəksən kim, "inna cəəlnakə xəlifətən fil-ərzi" [biz səni yer üzünün xəlifəsi etdik – Sad surəsi, 26-cı ayə] mənsuri sənün adına əzəl gündə yazılubdur kim, hər əmanət kim, ustaddan irşadda mana tapşurulmuş idi, qamu əmanət ilə sana tapşurdum (94).

«Səfvətüs-səfa" əsərindəki məlumatlardan belə bir qənaət hasil olur ki, Şeyx Səfiəddin heç də təriqət əhli kimi yüksək mərtəbəyə çatmaqla Şeyx Zahidin davamçısı olmaq arzusundan uzaq deyildi. Bir dəfə məclislərin birində Şeyx Zahid də bəyan edir ki, elə bir mürid arzusundadır ki, kamillik məqamına çatsın və onun yolunun davamçısı olsun. Bu zaman Şeyx Səfiəddin məhz belə bir arzuda olduğunu öz fikrindən keçirir. Sonra Şeyx Zahid davam edərək deyir ki, elə mürid arzusundadır ki, öz qızını kamala yetmiş belə bir müridə verə və onlardan doğulan övlad həm atasının, həm də babasının yolunu davam etdirə. Bu zaman Şeyx Səfiəddin fikirləşir ki, Şeyx Zahid onu özünün kürəkənliyinə layiq bilməz və yəqin ki, başqa adamı nəzərdə tutmuşdur (95). Amma, əslində, Şeyx Səfiəddin sonralar Şeyx Zahidin qızı Bibi Fatimə ilə ailə həyat qurdu və bu ailəlikdən dünyaya gələn Şeyx Sədrəddin həm Şeyx Zahidin, həm də Şeyx Səfiəddinin yolunun davamçısı oldu.

"Səfvətüs-səfa"nın məlumatına görə, Şeyx Səfiəddinin irfan və kəramət sahibi olması haqqında xəbərlər Şirvanşah

Əxsitana da gedib çatmış və o da öz qızını ona nikah etdirmək qərarına gəlmişdi. Əxsitan vəd etmişdi ki, qızına cehiz kimi 14 min qızıl ağça və düyü yetişdirilməsi ilə məşğul olan bir kənd versin. Bu xəbəri Şeyx Zahid Şeyx Səfiəddinə çatdıranda o cavab verdi ki, mənim hakimim şeyxdir, onun qərarı necə olarsa, mən də həmin hərəkəti edərəm. Əxsitanla bağlı isə dedi ki, o padşahdır, mən də bir dərviş. Mənim onunla bir işim yoxdur. Bu söhbətdən sonra Şeyx Zahid bildirdi ki, qızı Fatiməni ona vermək istəyir və onu da əlavə etdi ki, Fatimədən dünyaya gələcək oğlun həm sənin işlərinin, həm də mənim işlərimin davamçısı olacaqdır (96).

Məlumdur ki, Şeyx Zahid hələ sağlığında ikən özünün mürşidlik məqamının Şeyx Səfiəddinə verilməsini istəyirdi. Həm Şeyx Səfiəddin buna razılıq vermirdi, həm də Şeyx Zahidin ətrafındakılar bu haqqın Şeyx Zahidin oğluna keçməli olduğunu bildirirdilər. Şeyx Zahid özü uzun müddət mürşidliyə daha çox haqlı olmasını Şeyx Səfiəddinə təlqin etdi. Dünyasını tərk etməsindən əvvəl Şeyx Zahid müridlərini toplayıb bir daha öz məqamının Şeyx Səfiəddinə vəsiyyət etdiyini bildirdi. Ətrafındakı müridlər bir daha etiraz edərək bu məqamın Şeyx Cəmaləddinə keçməli olduğunu söylədilər, bu məqamın kənar adama deyil, ailənin böyük övladına keçməsinin daha doğru olduğunu bəyan etdilər. Şeyx Zahid isə öz qərarından dönmədi və bu qərarın həm də yaradanın iradəsi ilə bağlı olduğunu söylədi. Şeyx Zahid onu da bildirdi ki, onun övladlarının da, müridlərinin də gələcəyi Şeyx Səfiəddinlə bağlıdır və ona görə onun seçiminə hörmətlə yanaşılmasını lazım bildi: "...çün Şeyx Səfiəddinün mərtəbəsi ucaldı və sözi ilə kələcəsi qamu Şeyx Zahidin yanında bəqayət müstəhsən və qəbul idi, Şeyx Zahid dilər idi kim, öz həyatında irşad səccadəsi və tərbiyət icazəsi Şeyx Səfiəddinə tapşura. Həsudlar güniləyüb hər kimsə özi içün istər idi kim, Şeyx ana xəlifəliğini rücu eyləyə və der idilər kim, gərək idi kim, Şeyx Zahid irşad səccadəsi öz fərzəndinə - Şeyx Cəmaləddin Əliyə rücu eyləyə idi ki, bir ağsaqqallu kişi və şeyxzadeyi-bərhəqdür və çox kəmalat iyəsi. Və Şeyx Zahid Şeyx Səfiəddini tərbiyət eylər və

çox kimsələr ana uydılar. Həman kim ol öz vilayətinə və elinə varur, özi içün anda şeyxliq edər və burada bu zaviyə ilə xanədan şeyxliq ilə irşadiyyətdən boş qalacaqdur. Bunlar ittifaq eyləyüb vardılar və Şeyx Zahidün xidmətində ərz etdilər və çox mübaliğlər qıldılar. Çün Şeyx Zahid bu sözləri dinlədi, anlara məsəl ilən dedi kim, ey dustlar, gözi görməyən kişi Tanrıdan nə istər: iki aydın göz. Mənim niyyətüm dəxi həm böylə istər idi, amma murad Tanrının muradıdır" (97).

Şeyx Zahid seçiminin doğru olduğunu ətrafına toplanmış müridlərinə də nümayiş etdirdi və bundan sonra müridlər də onun seçimi ilə razılaşdılar. Bu barədə «Səfvətüs-səfa" belə yazırdı: "Vəli Şeyx Zahid istərdi kim, öz oğlınun mərtəbəsi və Şeyx Səfiəddinin kəraməti anlara görsədə. Sordı kim, Cəmaləddin Əlinün xəlvəti nerədədür? Dedilər: "Şeyxün xəlvəti altında". Dəxi sordı: "Səfiəddinin xəlvəti xandadur?" Dedilər: "Dənizün qırağında, yarım ağac yol mundan irağ". Şeyx dedi: "Mən ikisini dəxi çağırayım?" Dedilər: "Əmr Şeyxündür". Pəs, üç qatla avaz ilən dedi: "Cəmaləddin Əli, Cəmaləddin Əli, Cəmaləddin Əli". Heç cavab gəlmədi. Pəs, çığırdı kim, Səfiəddin. "Ləbbeyk" avazı gəldi, eylə kim hazirlər xamu eşitdilər. Pəs, "ləbbeyk" ünindən sonra Şeyx Səfiəddin məclisdə hazır oldı. Şeyx Zahid sordı: "Şeyx Səfiəddin, xanda idin?" Dedi: "Xəlvətdə". Dedi: "Nə işə gəldün?" Dedi: "Həzrət Şeyx bəndəni çağırdı, anun içün qulluğa gəldüm". Şeyx Zahid dedi: "Mənim ünüm eşitdin?" Dedi: "Bəli". Şeyx Zahid hazirlərə baxub dedi: "Ey əzizlər, mənim gördügüm məsləhəti və xilafət səccadəsi və irşadı ilə tövbəvü təlqin icazəsi Səfiəddinə rücu eylədügüm həqmidir, yoxsa batil?" Cəmaləddin Əli oğlumdur və xəlvətin qonşısı, qafil ünüm eşitdi və "ləbbeyk" deyüb, saətdə hazır oldu. Pəs, məlum oldı kim, aramızda bir batinlü müamilə və əsllü qürbət vardur kim, öz güci ilən hasil eyləyübdür. Əgər mən anı bu işə tikdüm isə, Həqq-təala bu ulu mərtəbə ana əta eyləyüb, ərzani qılıbdur və anun həqqidür. Və siz istərsiniz kim, bu işdə məni xain çıxarasız. Tanrınun verdüginə və təqdirinə xəyanət eyləyəməzəm". Eşidən həsudlar və görən gözləri gör-

məyənlər, münafiqlər öz qüsurinə mötərif olub, tövbə ilə peşimanlığ üzərinə gəldilər" (98).

Elmi-tədqiqat əsərlərində olan fikirlərdən belə bir qənaət hasil olur ki, Şeyx Səfiəddin mürşidinin həyatının son günlərinə kimi onun yanında olmuş və mürşidliyini davam etdirmişdir. «Səfvətüs-səfa" əsərindəki məlumatlar isə Şeyx Səfiəddinin daimi olaraq Gilanda qalmadığını və onun Kəlxorana qayıtdığını deməyə əsas verir. Bu əsərdəki hekayətlərdə dəfələrlə Şeyx Səfiəddinin Kəlxoranda olmasına, Şeyx Zahidin onu yanına çağırmasına və Şeyx Səfiəddinin də dərhal özünü onun yanına çatdırmasına işarə edilmişdir. Hətta Şeyx Zahidin özünün də Kəlxorana, Şeyx Səfiəddinin yanına getməsi haqqında məlumatlar bu əsərdə mövcuddur. stənilən halda Şeyx Səfiəddin mürşidi Şeyx Zahidin vəfat etdiyi günə qədər özünü onun müridi hesab etmiş və böyük bir ehtiramla onun xidmətində dayanmışdır.

### 3.Şeyx Zahidin vəfatı və dəfni

Araşdırmalarda Şeyx Zahidin vəfat ili kimi 1300 və ya 1301 göstərilmişdir (99). Onun vəfat tarixi hicri-qəməri tarixi ilə 700-cü ilə təsadüf edir. Tədqiqatçılar həmin tarixi miladi tarixlə 1300 və ya 1301-ci il kimi qəbul edirlər. Amma tədqiqatçıların çoxu Şeyx Zahidin vəfat tarixinin 1300-cü ilə aid olması üzərində dayanırlar.

Şeyx Zahidin dünyasını dəyişməsi ərəfəsində onun müridləri və yaxınları arasında mürşidin harada dəfn edilməsi barəsində müxtəlif fikirlər səslənməyə başladı. Güştasb əhalisi onun qəbrinin Güstasbda olmasını arzu edirdilər. Şeyx Zahidin oğlu Şeyx Cəmaləddin Əli isə atasının qəbrinin Muğana yaxın olan Çobanabadda olmasını istəyirdi. Şeyx Zahidin özü isə qəbrinin Siyavrudda olmasına meyilli idi. Bu barədə aparılan müzakirələr lazımi nəticəni vermədi və belə olanda Şeyx Zahid istədi ki, Şeyx Səfiəddinin də bu barədə fikri öyrənilsin. Şeyx Səfiəddin həmin vaxt Ərdəbildə idi. Şeyx Zahidin təklifi ilə onun arxasınca Bərzəndli Xızır göndərildi. Şeyx Zahid istəyirdi ki, Şeyx Səfiəddin tez bir zamanda onun yanına gəlsin. Ona görə o, Bərzəndli Xızıra

bir gün getməyə və bir gün də qayıtmağa vaxt verdi. Şeyx Zahid bu zaman onu da əlavə etdi ki, göstərilən zaman ərzində Şeyx Səfiəddini ona yetirə bilsə Bərzəndli Xızırın cənnətməkan olacağına zəmanət verir. Bu vədi eşitdikdən sonra Bərzəndli Xızır yola hazırlaşdı və Şeyx Zahidin xeyir-duasından sonra Ərdəbilə doğru istiqamət götürdü. O, böyük sürətlə yoluna davam etdi və axşama yaxın Kəlxorana çatdı. Bu zaman Şeyx Səfiəddin xırman üstündə idi. Xızırın gəlməsini görüncə ondan gəlişinin məqsədini soruşdu. Pirə Xızır (mənbədə o həm də belə adlandırılmışdır) da gəlişinin məqsədini açıqladı və dedi ki, Şeyx Zahid bir gündən sonra onu öz yanında görmək istəyir. Şeyx Səfiəddin bu sözləri eşidib işini yarımçıq dayandırdı, evə yollandı, səfər tədarükü gördü və səhəri gün tezdən Pirə Xızır ilə birlikdə Şeyx Zahidin yanına yola düşdü. Şeyx Zahid bu zaman Sutəmürdə adlanan məntəqədə imiş ki, bu məntəqə də Gilandan kənarda idi. Həmin günün axşamı Şeyx Səfiəddin özünü Şeyx Zahidə yetirə bildi. Şeyx Zahid sevimli müridinin gəlişindən çox sevindi və baş verən sövbətlər haqqında ona məlumat verdi. Şeyx Zahid onun gələcək dəfn yerinin harada olması haqqında mövcud təklifləri açıqladı. Şeyx Səfiədin cavabında bildirdi ki, Şeyx Zahidin Gilanda dəfn olunmaq arzusundan xəbərdardır və o özü də mürşidin Gilanda dəfn olunmasını istəyir. Şeyx Zahid doğrudan da bu arzuda olduğunu bəyan etdi. Ona görə o, Şeyx Səfiəddinə tapşırdı ki, Gilana yola düşmək üçün hazırlıq görsün və elə etsin ki, onların Gilana yola düşməsindən kimsənin xəbəri olmasın. Şeyx Səfiəddin də gizlicə səfər hazırlığı gördü və kimsənin xəbəri olmadan Şeyx Zahidi gəmiyə oturdaraq dəniz yolu ilə Gilana üz tutdu. Yerli adamlar o zaman xəbər tutdular ki, Şeyx Zahidlə Şeyx Səfiəddinin olduğu gəmi artıq dənizin ortasında idi və onları geri qaytarmaq mümkün olmadı. Bu gəmi ilə adları çəkilən şeyxlər Lənkəran yaxınlığında quruya çıxdılar. Şeyx Səfiəddin dərhal yumşaq bir mihəffə düzəltdirdi, Şeyx Zahidi bu mihəffəyə oturtdu və yollarına davam etdilər. Hazırda məqbərəsinin Siyavrudda yerləşdiyi məkana çatanda Şeyx Zahid bir an dayanılmasını istədi. Şeyx Zahid burada nəfəs aldıqdan sonra əllərini

üzünə sürtdü və dedi: “Əlhəmdülillah ki, özümüzü gorxanaya yetirdik”. Şeyx Səfiəddin bu yeri özü üçün nişan etdi və sonra onlar öz yoluna davam etdilər. Şeyx Zahid zaviyəyə gətirildi. O, 14 gün ərzində bu zaviyədə həyat sürdü. Şeyx Səfiəddin bu günlər ərzində şəxsən onun xidmətində dayanmışdı. O yalnız namaz vaxtları Şeyx Zahidin yanından uzaqlaşırdı. Bu zamanlar onu bir nəfər əvəz edərdi. Şeyx Zahid isə Şeyx Səfiəddin yanından uzaqlaşan kimi onu axtarırdı və davamlı olaraq onun harada olmasını soruşurdu. Yəni Şeyx Zahid bir an da olsa Şeyx Səfiəddinin ondan ayrılmasını istəməzdi. Vəfatından bir gün əvvəl Şeyx Zahid haqq dünyasına qovuşmaq vaxtının çatdığını Şeyx Səfiəddinə çatdırdı, ona vəsiyyətlərini etdi. Səhəri gün Şeyx Zahid öz ölümünü zikrlərlə qarşıladı. Şeyx Zahid dünyasını dəyişərkən Şeyx Səfiəddinin qucağında idi. Mürşidinin dünyasını dəyişməsini Şeyx Səfiəddin göz yaşları ilə qarşıladı və o, Şeyx Zahidi öz qucağından yerə qoymadı. Sonra Şeyx Səfiəddin də huşsuz vəziyyətdə Şeyx Zahidin yatağına düşdü. Bir xeyli müddətdən sonra yaxınları evə daxil olaraq Şeyx Zahidin dünyasını dəyişməsinin, Şeyx Səfiəddinin isə huşsuz vəziyyətdə onun yanında uzanmasının şahidi oldular. “Səfvətüs-səfa” əsərində Şeyx Zahidin son günləri belə təsvir olunmuşdur: “Andan sonra Şeyxi götürüb xəlvətinə apardılar. On dörd gün döşəgün üstündə yatdı və Şeyx Səfiəddin anun xidməti kəndü eylədi və heç kimsəyə dəxi verməyüb bir ləhzə xidmətdən qafil olmazdı. Və bu on dörd gündə Şeyx heç yemək yeməyüb qərar dutmadı və həzrət Şeyxi öginə alup, Şeyx Zahid ana dayanurdı. Həman kim namaz çağı olurdı, kəndü qövmlərindən birisin çağırub öz yerində oturtdurur idi. Və namazdan sonra gəlüb yerində oturur idi. Və çün Şeyx Zahid peyvəstə: “Səfiəddin, Səfiəddin!” – çağırurdı, hər qaçan kim özgə kimsə cavab verürdi, Şeyx qəzəb eyləyüb qatılıq eylərdi kim, Səfiəddin qandadur? Cavab verülərdi kim, ol namaza məşğuldur. Məqsud ki, bu qədər Şeyxdən ayrılmazdı. Və der idi: “Səfiəddin, gərək kim, bir ləhzə surət ilə məndən ayrılamayasan”.

Və daim mübarək əlin Şeyx Səfiəddinün (q.s.) əlinə qoymışdı və aralarında gizlü əsrar kim, dil ilən deməli dəgül idi, ke-

çərdi. ...Ol müddətdə kim, gəmidə idilər, gördilər kim, gögün ayı dörd parə olub dənizin içinə batdılar, genə çıxdılar və dördi dəxi bir olub yuxarı vardılar. Bu sözi Şeyx Zahidə (q.s.) söylədilər. Buyurdı kim, mənüm getməgüm çağıdur. Həman kim on dörd gün mundan keçdi, buyurdı: "Səfiəddin, danla çün sabah mən dünyadan getməlüyəm və Tanrıya ulaşmağ gərəkəm". Və hər nəstə kim, vəsiyyət idi, qamu yerinə yetürdi və dedi: "Mənüm tərtibümi hər nəstədən olsa, öz nəfsün ilə qayırmaq gərəksən". Çün sabah oldı, vəslüm qoxusu canun burnuna dəgdi və dili zikrə məşğul olub, ruhun münəvvər qədəmi məqidi-sidq astanına qondı. ...Ol vəqtdə mütəhhər gövdəsi Şeyx Səfiəddinin (q.s.) qucağında idi. İkisinün ruhi çün həqiqətən bir idi, böylə uçub qüds aləminə vardılar. İkisi dəxi bir döşəkdə düşdilər və həm eylə Şeyx Zahidin gövdəsi Şeyx Səfiəddinin köksinə yapışmış idi və bir-birindən ayrılmazdılar və bu iki vəfalu yardan özgə ol evdə kimsə yox idi və bu halətdən kimsənin vüqufu yok" (100)

Otağa daxil olanlar əvvəlcə Şeyx Səfiəddinə şərbət içizdirməyə çalışdılar. Buna nail olmayanda onun ayaqlarını ovuşdurmağa başladılar. Bir qədərdən sonra onda həyat nişanələri özünü göstərməyə başladı. Ayılanda isə nə baş verdiyini Şeyx Səfiəddinə bildirmədilər. Ətrafındakılar istədilər ki, Şeyx Səfiəddin özünə gəlsin, toxtasın və sonra ustadının və mürşidinin dünyasını dəyişməsi yenidən ona çatdırılsın. Belə də edilir. Şeyx Səfəddin daxil olmaqla ətrafdakılar Şeyx Zahidin dünyasını dəyişməsini ah və fəryadlarla qarşıladılar. Üç gün ərzində ağlaşma və fəqan kəsilmədi və Şeyx Zahidin dəfni də aparılmadı. "Səfvətüs-səfa"dakı məlumata görə, Şeyx Zahid vəfatının üçüncü günü Şeyx Səfiəddinin yuxusuna girdi və Tanrının qədəri ilə razılaşaraq nəhayət ki, dəfninin təşkilini ondan xahiş etdi. Bundan sonra Şeyx Səfiəddin dəfn mərasiminə başladı. Mürşidinin qüslünü Şeyx Səfiəddin təkbaşına etdi və icazə vermədi ki, kimsənin əli Şeyx Zahidin bədəninə toxunsun. Sonra da Şeyx Zahid böyük hüzn və üzüntü içərisində dəfn edildi. Bir müddət sonra isə onun qəbri ətrafında bir günbəz tikildi (101).

Şeyx Səfiəddin də hər zaman ustadının və mürşidinin xatirəsinə böyük ehtiramla yanaşmış və onun təriqəti bazasında öz təriqətini formalaşdırmışdı. Mövcud ehtimala görə, Şeyx Səfiəddin hətta Şeyx Zahidin xatirəsinə şerlər də yazmış və onlardan biri günümüzə qədər gəlib çıxmışdı. Həmin şer parçalarından biri belə idi:

Ürəyim-zirvəsi görünməz dağın,
Eşqin bir bulaqdır, çağlayar, daşar.
Helmin abad edər şəriət bağın,
Ruhun bir qaytardır, buludlar aşar.

Mən qala bilmərəm onlardan uzaq,
Gücüm və qüvvətim onlardır hökmən,
Çiynimdir ərş ilə kürsüyə dayaq
Sanki Sultan Zahid çəvkanıyam mən (102).

Şeyx Zahidin elə ilk günlərdən də xalqın, onun müridlərinin və tələbələrinin ziyarətgahına çevrildi. Şah İsmayılın özü də daxil olmaqla onun sələflərinin və xələflərinin də bu qəbri ziyarət etmələri haqqında məlumatlar mövcuddur. Belə məlumatların birində bildirilir ki, Şah İsmayılın atası Sultan Heydər bir dəfə yuxusunda Şeyx Zahidi nigaran halda gördü. Şeyx Zahid ona bildirdi ki, yaxınlarda Xəzər dənizinin suyu qalxacaq və onun qəbri su altında qalacaqdır. Ona görə də Şeyx Zahid onun qəbrinin daha təhlükəsiz yerə köçürülməsini istədi. Sultan Heydər də bu istəyə əməl etdi. Məlumatlarda bildirilir ki, Sultan Heydər Şirvana səfəri zamanı oradan təcrübəli bənnalar və xarratları özü ilə Gilana gətirdi və Şeyx Zahidin qəbrini Siyavruddan Hiləkərana köçürdü. Siyavrudla Hiləkəran kəndləri arasındakı məsafə elə də böyük deyildir. Sadəcə olaraq bu kəndin dəniz suyu altında qalacağı ehtimal edilmədiyi üçün Şeyx Zahidin qəbri bura köçürüldü. Hazırda bu kənd Şıxakəran adlanır

Bəzi tədqiqatçılar və müəlliflər belə hesab edirlər ki, Sultan Heydər tərəfindən Şeyx Zahidin qəbri Şıxəkərana deyil, Lahi-

canın Şeyxanvər (Şıxanvər) kəndinə köçürülmüşdür və hazırda bu qəbir oradadır (103). Doğrudan da, hazırda İran ərazisində, Lahican bölgəsinin Şeyxanvər kəndində Şeyx Zahid məqbərəsi kimi tanınan bir məqbərə kompleksi qalmaqdadır və insanlar tərəfindən də bu məqbərədə dəfn olunanın məhz Şeyx Zahid olması güman edilir. Bu məqbərə Lahican-Ləngərud yolunun iki kilometrliyində olmaqla maraqlı bir arxitekturaya malikdir. Bu məqbərə Səfəvi dövrünün ənənələrinə və yerli şəraitin tələblərinə uyğun olaraq tikilmişdir. Bölgə dəniz ətrafında olduğu və rütubətli olduğu üçün məqbərə zərif kaşilərlə işlənmişdir. Çünki kaşilər bölgənin rütubətinin tikiliyə dağıdıcı təsirinin qarşısının alınması baxımından daha doğru seçim kimi qəbul edilmişdi. Məqbərənin damı isə dördbucaqlı piramida şəklində düzəldilmişdir. Bu piramıdanın təxminən yarıdan yuxarısı isə səkkizbucaqlı piramidaya çevrilmişdir.
Şeyxanvər sözündəki "şeyxan" tərcümədə "şeyxlər" deməkdir. Güman edilir ki, bu söz Şeyxanvər kəndindəki Şeyx Zahid məqbərəsində iki şeyxin dəfn edilməsinə işarədir. Bəzi məlumatlara görə, bu məqbərədə Şeyx Zahidlə bərabər, həm də Şeyx Səid Rza ibn Mehdi Başkocani dəfn edilmişdir. Məqərədə əlavə bir qəbir də vardır. Həmin qəbrin kimə məxsusluğu barəsində isə də müxtəlif fikirlər vardır. Həmin qəbrdə dəfn olunanın həm Şeyx Zahidin xidmətçisi olması, həm də Əmir Teymurun qızlarından birinin qəbri olması ehtimal edilir (104).

Şeyx Zahidin qəbrinin məhz Şıxakəranda olması Azərbaycanda şübhə doğurmurdu. Son zamanlar iranlı tədqiqatçılar da Şeyx Zahidin qəbrinin Şıxakəranda olmasını təsdiq etməkdədirlər. Bu tədqiqatçıların fikrincə, Şeyxanvər kəndində çox güman ki, Zahid adında başqa bir müqəddəs insan dəfn edilmiş və sonradan o, insanlar arasında Şeyx Zahid kimi qəbul edilmişdir. İstənilən halda Lahicanın Şeyxanvər kəndində mövcud olan məqbərə elə indinin özündə də Şeyx Zahid məqbərəsi kimi tanınmaqdadır və insanlar da bu məqbərəni daha çox Şeyx Zahidi nəzərdə tutmaqla ziyarət edirlər.



**Şeyx Zahid Gilaninin Lənkəranın Şıxakəran kəndindəki məqbərəsi**



**Şeyx Zahid Gilaninin Şıxakəran kəndindəki məqbərəsinin daxili görünüşü**



**Şey Zahid Gilaninin Şıxakəran kəndindəki qəbri**



**İranın Gilan vilayətində Şeyx Zahidə məxsusluğu ehtimal edilən məqbərənin görünüşü**

Məlumatlara görə, Şeyx Zahidin qəbri Şıxakəran kəndinə köçürüldükdən sonra onun üzərində Səfəvi memarlığı nümunəsində məqbərə tikildi. Hətta o da bildirilir ki, zəvvarların çox olması bu məqbərə ətrafında mağazaların artmasına, karvansaralar tikilməsinə səbəb oldu. Lakin Sovet hakimiyyəti illərində Şeyx Zahidin qəbri üzərindəki məqbərə dağıdıldı. Hətta bu qəbrin üzərindəki məzar daşınını da sökülərək Leninqrada aprıldığı və onun indi Ermitajda saxlandığı bildirilir (105).

Sovet ideologiyasının qadağalrına baxmayaraq, insanlar bu qəbri ziyarət etməkdə davam edirdilər. Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra isə yerli əhali öz vəsaiti hesabına Şeyx Zahidin qəbri üzərində yeni bir məqbərə tikdirmişdir. Bu məqbərə iki hissədən ibarətdir. Birinci hissə məqbərəyə giriş otağıdır. Məqbərənin ikinci hissəsində isə Şeyx Zahidin qəbri yerləşir. Hazırda bu qəbrin üzərində taxta şəbəkədən düzəldilmiş sənduğə vardır.

## 4."Səfvətüs-səfa" əsərində Şeyx Zahidlə bağlı olan hekayətlər

Şeyx Səfiəddin bir mürşid kimi formalaşmasında, dərin irfani elmlərə yiyələnməsində Şeyx Zahidin xidmətlərini həmişə yüksək qiymətləndirirdi və bunu hər zaman da xatırlayırdı. Bu iki bilik adamı arasındakı münasibətlər təsəvvüfün tələb etdiyi və Şeyx Səfiəddinin özünün də hər zaman təqdir etdiyi əsl mürşid-mürid münasibətləri idi. Ona görə də Şeyx Səfiəddin bütün həyatı boyu mürşidi Şeyx Zahidi xatırlayırdı və bununla bağlı "Səfvətüs-səfa" əsərində də xeyli xatırlamalar özünə yer almışdır. Şeyx Səfiəddin üçün mürşidi Şeyx Zahid az qala and yerinə çevrilmişdi və hansısa bir məsələdən narahatlıq keçirəndə onu da bildirərdi ki, əgər bu işi görə bilməsəm heç Şeyx Zahidin yetirməsi deyiləm və ya Şeyx Zahidin əlinə su tökməmiş olam. Bununla bağlı «Səfvətüs-səfa"əsərində xatırlamalar da vardır (106).

Şeyx Zahidə olan ehtiramı idi ki, Şeyx Səfiəddin özü də ona oxşamağa çalışırdı, onun kimi mürşidlik etməyi özünə borc bilirdi. Eyni zamanda istəyirdi ki, onun Şeyx Zahidə etdiyi müridlik

özünün yanında olan müridlər tərəfindən də təkrarlansın. Görünür, müridlərinin heç də hamısı Şeyx Səfiəddinin ümidlərini və gözləntilərini lazımi səviyyədə doğrultmurdu. Lakin doğruldanlar da var idi. Beləlderindən biri Marağalı Pirə İzzəddin idi. Oğlu Şeyx Sədrəddin soruşanda ki, müridlərindən hansı ilə durub-oturmağı, söhbətlərində olmağı tövsiyə edir, onda Şeyx Səfiəddin yalnız Pirə İzzəddini məsləhət bilmişdi. Şeyx Sədrəddin elə adamlarla durub-oturmaq istəyirdi ki, onlar riyazət çəkmiş sufi olsunlar və onların söhbətindən, ədəb-ərkanından bəhrələnsin. Pirə İzzəddin həm kifayət qədər bilik sahibi və həm də ədəb-ərkanını bilən adam idi. Şeyx Səfiəddinin dediyinə görə, o özü Şeyx Zahidə necə müridlik etmişdisə, Pirə İzzəddin də ona elə müridlik etmişdi. Bununla, Şeyx Səfiəddin bir daha Şeyx Zahidə böyük dəyər verir və ona müridlik etməkdən məmnun olduğunu bəyan edirdi (107).

Məlumdur ki, Şeyx Səfiəddinin müridlərinin sayı çox idi və həmin müridlər də öz dərdlərini və ürək sözlərini onunla bölüşərdilər. Müridlər hətta yuxuda gördüklərini səhər bir-bir Şeyx Səfiəddinə danışar və o da yuxuların yozumunu edərmiş. Şahidlərin fikrincə, Şeyx Səfiəddin yuxuyozmalara çox vaxt ayırırdı və bundan yorulurdu da. Şeyx Səfiəddin isə bildirərmiş ki, əgər həzrət Məhəmməd Mustafanın dövlətindən və Şeyx Zahidin hümmətindən bütün aləm ona mürid olsa, onların yuxularının yozulmasına vaxt tapacaqdır (108).

Şeyx Səfiəddin dini elmlərin addım-addım öyrənilməsinə tərəfdar idi. O, müridlərinə də tövsiyə edərdi ki, öyrəndikləri ilə kifayətlənməsinlər və biliklərini hər zaman dərinləşdirsinlər. O özü də bu yolu tutmuşdu. Sözsüz ki, mürşidlərindən aldığı biliklər onun çox əhatəli bir bilik adamı kimi formalaşmasına yol açmışdı. Amma müridliyini başa vurduqdan sonra da biliklərini dərinləşdirməkdən usanmırdı. Bununla belə, o, Şeyx Zahidə müridliyini hər zaman minnətdarlıqla xatırlayırdı. Onun yanına gələnlərə və sual verənlərə də bildirərdi ki, Şeyx Zahiddən öyrəndikləri əsasında suallara cavab verməyə çalışacaq, bilmədiklərini isə axtarıb tapacaqdır (109).

Oğlu Şeyx Sədrəddinin fikrincə, "Quran"ın Nəhl surəsinin 91-ci ayəsinə (Allaha verdiyiniz əhdi yerinə yetirin) istinad etməklə Şeyx Səfiəddinin də öz əhdlərinə, o cümlədən Şeyx Zahidlə bağlı olan əhdlərinə sədaqətli idi. O bildirirdi ki, hətta uzun müddət keçməsinə baxmayaraq, Şeyx Səfiəddin verdiyi vədləri unutmurdu və onların icrasına çalışırdı. "Səffətüs-səfa" əsərində bu məsələ ilə bağlı Şeyx Sədrəddinin dilindən belə bir təsvir vardır: "Əgər uşağlığ çağında kimsə anunlən bir yaxşılığ etmiş ola idi, yoxsa bir kimsə ilən müsahib olmuş ola idi, anları unutmayub həmişə anı duada anar idi və çün tərbiyət ilə tövə və təlqin həzrət Şeyx Zahiddən (q.s.) almışdı, hər kim ol həzrət ilə bir nisbəti var idi, anı igən əziz dutardı. Və Şeyx Zahidün çağlarında ildə iki dəst geyəsi ana başdan ayağadəkin tikdürüb aparur idi və özü şal geyər idi və hər nəstə kim, hasil edərdi, qamu həzrət Şeyx Zahidin ayağında nisar edər idi və xan ilə manı və bud ilə vücudi varı anun iradəti yolunda qoymuş idi və həzə ədəb üzərindən qorxulu idi kim, nəuzibillah, əgər qəbul etməyə idi, neyləyə idi. Və buyururdı kim, əgər bütün ömrümdə saqqalum iləm anun yolının toprağını süpürmüş ola idim, həzə anun təlqini şükri öhdəsindən çıxmamış olam" (110).

Şeyx Sədrəddinin dediyi kimi, Şeyx Səfiəddin yalnız mürşidi Şeyx Zahidin deyil, onun nəslindən olanlardan hamısının ehtiramını saxlayırdı və bildirirdi ki, bütün ömrü boyu saqqalı ilə Şeyx Zahidin keçdiyi yolu süpürməli olsaydı, yenə də onun haqqından çıxa bilməzdi.

Şeyx Səfiədinin mürşidi Şeyx Zahidin nəslinin nümayəndələrinə necə böyük hörmətlə yanaşması haqqında "Səffətüs-səfa" əsərində də bir hekayət vardır. Bu hekayət də Şeyx Sədrəddinin dilindən qələmə alınmışdır. O danışırdı ki, Şeyx Səfiəddin bir dəfə Qarabağa gedibmiş. Əmir Dəməşq Xacə (çox güman ki, yerli əmirlərdən biri olub) onun Qarabağa gəlməsindən xəbər tutub evinə dəvət edibmiş. Çünki Şeyx Səfiəddin bütün Azərbaycanda çox böyük hörmət və ehtirama malik idi. Qarabağda olduğu günlərdə Əmir Dəməşq qonağına çox böyük ehtiram göstərmişdi. Həmin günlərdə Şeyx Zahidin nəvəsi Şəm-

səddin Cəmalan da Qarabağda imiş və ona lazım olan işin görülməsinə çalışarmış. Bununla bağlı Şəmsədin Cəmalan yerli bəylərlə görüşmüş, onlardan kömək almağa çalışmış və hətta orada olduğu vaxt ərzində 4 min ağca xərcləmçyə məcbur olmuşdu. İşi isə düzəlmirmiş. Dərdinə çarə etmək üçün Şəmsəddin Cəmalan istəmirmiş ki, Əmir Dəməşq ilə görüşsün. Bir dəfə Şəmsəddin Cəmalan hazırlaşaraq Şeyx Səfiəddinin yanına yollanır. Bu zaman Əmir Dəməşq də Şeyx Səfiəddinin qonaq qaldığı otaqda imiş. Şeyx Səfiəddin yanına Şəmsəddin Cəmalanın gəldiyini görüncə çox sevinir və ona hətta Əmir Dəməşqin oturduğu yerdən də yuxarıda yer verir. Əmir Dəməşq bundan bir qədər narahat olur. Şeyx Səfiəddin də ona bildirir ki, Şəmsəddin Cəmalan onun mürşidinin nəslindədir, bu dünyada nail olduqları bu nəslin ona etdiklərinin bərəkətindəndir. Ona görə Şeyx Səfiəddin ədəblə Əmir Dəməşqə anladır ki, Şeyx Zahid nəslinin haqqını ödəmək hər zaman onun borcudur və Şəmsəddin Cəmalana göstərdiyi səmimiyyət də bu borcun qaytarılmasının bir ifadəsidir (111).

Bundan sonra Şeyx Səfiəddin başqalarının haqqının ödənilməsi ilə bağlı Əmir Dəməşqə bir hekayət nəql elədi. Həmin hekayət belədir: “Bir uslu bağban var imiş, bağında bir ağac var idi kim, həmişə yaxşı yemişlər bar gətürürdi. Çün yemiş yetişdi, səbədə alub həzrət padşahi-zamana apardı. Amma çün həzrət padşaha vardı, naiblər anun əlindən yemişi alub padşahun ögində qoydular. Padşah yemişin bəgənib, buyurdu kim, anı xəzinəyə aparsınlar kim, hər nə kim dilxahı olsa, özü üçün götürə. Çün bağbanı xəzinəyə apardılar xəzanənün içində gəzüb ol qalın aqçalar ilən nəfis mətalar kim, anda var idi, heç nəstə almadı, məgər bir şişə gülab kim, anı götürüb xəzanədən çıxdı. Ol xəbəri padşaha aparub, əhvalı ərz etdilər. Padşah dedi: “Bu kişi ya igən aqildür, ya külli dəlü. Varsunlar, anı gözləsünlər kim, ol gülabı neylər”. Gördülər kim, gülabı aparub bir ağacun dibinə tökdi. Görənlər gəlüb padşaha gördükləri ərz etdilər. Padşah dedi: “varun, anı gətürün”. Vardılar, bulub hazır etdilər. Padşah dedi: “Biz səni xəzinəyə göndərdük, hər nə kim xatirün istər ola, andan götürəsən. Nədən bu bol xəzanədən həman bir şüşə gülabı götürdün

və anı dəxi aparub toprağa tökdün? Munda nə hikmət var idi?" Bağban dedi: "Muncılayın yüz min adam eşigində sərgərdan gəzərlər və həzrət padşaha yetəməzlər. Mən ol yüçinlü ağacun dövlətindən bu izzəti tapuram. Xəyalumda bu keçdi kim, mən dəxi anun həqqini yerinə yetürəyim. Ol gülabı götürdüm və suyun əvəzinə ol ağacun dibinə tökdüm, zira kim xəzanədəki cəvahir ilə qumaşlar ol ağacun vəsləsinə yaramazdı". Padşah çün bu sözi eşitdi, bəgənüb buyurdı: "Bu aqil kişidür və vəzirligə layiq". Saətdə xələt gətürtdürüb, ana geydürüb vəzirliğin ana rücu eylədi" (112).

Şeyx Səfiəddin bu hekayəti danışdıqdan sonra bir daha əlavə etdi ki, varını-yoxunu Şeyx Zahid xanədanı bərəkətindən əldə edib və ona görə bu xanədanın izzətinə hörmətlə yanaşmaq onun borcudur. Əmir Dəməşq bu ibratəmiz hekayətdən və Şeyx Səfiəddinin dediklərindən çox xoşhal oldu və eyni zamanda Şəmsəddin Cəmalanın işlərinin düzəldilməsinə də göstəriş verdi.

Yuxarıdakı qeydlərdən məlumdur ki, Şeyx Səfiəddinlə Şeyx Zahidin münasibətləri, hörmət və ehtiramı qarşılıqlı idi və məhz bunun üçün idi ki, Şeyx Zahid təriqətə rəhbərliyi Şeyx Səfiəddinə tapşırdı. Şeyx Zahidin öz müridinə olan ehtiramı haqqında "Səffətüs-səfa" əsərində başqa bir hekayət də vardır. Həmin hekayətə görə, Şeyx Zahidin oğlu Cəmaləddin Əli öz daxilində Şeyx Səfiəddin haqqında şübhəli fikirlərə malik idi və bir dəfə o öz fikirlərini dilinə də gətirdi. Şeyx Zahid bundan xəbər tutan kimi oğlunu yanına çağırdı və çuxasının ətəyini qaldıraraq Cəmaləddin Əlinin başını özünə yaxınlaşdırdı. Şeyxin çuxasının ətəyi altında yeddi qat göy Cəmaləddin Əlinin gözləri qarşısında canlandı. Şeyx Zahid ondan xahiş etdi ki, gözləri qarşısında canlananlara diqqətlə baxsın. Cəmaləddin Əli də baxdıqda gördü ki, Şeyx Səfiəddin "sidrətül-müntəhada ərşün qarşusunda durub Tanrı-təala ilə minacatda"dır. Bununla Şeyx Zahid bir daha Şeyx Səfiəddinin necə bir adam olmasını oğluna nümayiş etdirdi və ona bir daha tövsiyə etdi ki, belə bir kimsənin haqqında qısqanclıq göstərməsin (113).

Şeyx Səfiəddin də öz mürşidinə elə bağlı idi ki, onun vəfatından sonra uzun müddət özünə gələ bilmədi. Hətta bir müddət öz müridlərinin irşadı ilə də məşğul olmadı. Belə nigaran günlər keçirərkən bir gün xırmanda işləyən zaman onun qulağına səs gəldi. Həmin səs ona çatdırdı ki, biz səni xırmanda işləməyə vəzifələndirməmişik, biz səni göndərmişik ki, bəndələrimizin tərbiyəsi və irşadı ilə məşğul olasan (114). Bu hadisədən sonra Şeyx Səfiəddin də nəhayət toparlanaraq hüzn girdabından çıxdı və müridlərin irşadına davam etdi.

Şeyx Səfiəddin vaxtaşırı Şeyx Zahidin məzarını ziyarət edirdi. O, üç il müddətində Şeyx Zahidin təriqətinə rəhbərlik etdi və mürşidinin təlimlərini davam etdirdi. Bu istiqamətdə Şeyx Səfiəddinin uğurlu fəaliyyəti onun hörmət və izzətini daha da artırdı. Lakin onun nüfuzunun günü-gündən artması bir sıra adamların qısqanclığına səbəb oldu. Bu qısqanclıq Şeyx Zahidin övladlarına da keçdi. Onların düşmənçiliyi və qısqanclığı haqqında Şeyx Səfiəddinin qardaşı Xacə Fəxrəddin Yusifdən də tutdu və ona görə də o, Şeyx Səfiəddini Şeyx Zahidin məzarının ziyarətindən çəkindirməyə çalışdı. Çünki bu zaman Şeyx Səfiəddinin təhlükəyə məruz qalacağı gözlənilirdi. Şeyx Səfiəddin isə onun narahatçılığını bölüşmədi və bildirdi ki, əgər onun həyatının sonunun çatması Tanrı-təalanın qədəridirsə, bunun qarşısını almaq mümkün deyil. Yox, əgər Tanrını qədəri yoxdursa, onda bəndənin cəhdi faydasızdır. Belə də olur və onu Şeyx Zahidin məzarının ziyarətindən döndərmək mümkün olmur. Bununla belə, Şeyx Zahidin oğlu Cəmalədin Əli və onun ətrafındakılar da öz niyyətlərindən əl çəkmədilər. Bu dəfə onlar Şeyx Səfiəddinin xəlvətinə (otağına) od vurub onu yandırmaq istədilər və niyyətlərinə nail olmaq üçün xəlvətə od vurmazdan əvvəl qapını arxadan yaxşıca bağladılar ki, Şeyx Səfiəddin yanan xəlvətdən bayıra çıxa bilməsin. Amma bu dəfə də onlar niyyətinə nail ola bilmədilər. Məkrli planı həyata keçirmək istəyənlər nə qədər çalışsalar da xəlvət od tutmadı. Baxmayaraq ki, xəlvət quru qamışlardan tikilmişdi. Onda başqa bir plan işə salındı. Şeyx Səfiəddinin qısqancları onu oxla vurub həyatına son qoymaq istədilər. Bunun

üçün oxatanlar tapıldı, münasib məkanda yerləşdirildi və onlara Şeyx Səfiəddini vurmaq tapşırıldı. Lakin qəzadan oxatanlar da Şeyx Səfiəddinin həyatına son qoya bilmədilər. Onun qısqancları isə bununla da öz niyyətlərindən əl çəkmədilər. Onların növbəti məkri belə oldu ki, Şeyx Səfiəddinin süfrəsinə zəhər qatılmış bal qoysunlar. Şeyx Zahidin oğlu Cəmaləddin Əlinin xanımının bu qəsdlərdən xəbəri var imiş və Şeyx Səfiəddinə qarşı qurulan məkrli planları heç də dəstəkləmirdi. Ona görə o, gizlicə Şeyx Səfiəddinə xəbər göndərdi ki, süfrədəki bala toxunmasın, çünki ona zəhər qatılıb. Şeyx Səfiəddin də məsələdən xəbərdar olduğu üçün bala toxunmadı. Hətta sonrakı günlərdə də süfrə üzrəindəki yeməklərə zəhər qatılanda Cəmaləddin Əlinin xanımı gizlicə ona bu barədə xəbər göndərərdi. Şeyx Səfiəddin də deyilənə qulaq asaraq zəhərli yeməklərə əl vurmazdı. Növbəti dəfə isə Cəmaləddin Əli və onun ətrafındakılar Şeyx Səfiəddini suda boğmaq qərarına gəldilər. Bunun üçün Şeyxin minəcəyi gəmini idarə edəcək dənizçilərlə sözləşdilər və onları öz tərəflərinə çəkdilər. Plan belə quruldu ki, Şeyx Səfiəddin gəmi ilə dənizə çıxanda gəmiçilər gəmini deşsinlər, özləri isə üzə-üzə kənara çıxsınlar. Üzməyi bacarmayan Şeyx Səfiəddin də beləcə suda boğulmalı idi. Şeyx Səfiəddin dənizə çıxmalı olduğu gün Cəmaləddin Əlinin və onun ətrafındakıların hərəkətlərindən ona qarşı yenə də məkrli planın qurulmasını duydu. Gəmiyə minməkdən imtina edərək nəzərdə tutduğu mənzilə atla getmək niyyətində olduğunu bildirdi. Söylədi ki, Şeyx Zahid zahir olaraq ona atla getməyi məsləhət bilmişdir. Beləcə, o, dəniz səfərindən imtina etdi. Geri döndükdən sonra o, Cəmaləddin Əlini yanına çağıraraq onun və ətarafındakıların məkrli planlarından xəbər olduğunu söylədi. Onu da əlavə etdi ki, Tanrı-təala onların muradının hasil olmasına imkan verməyəcəkdir. Bundan sonra Cəmaləddin Əli də öz əməllərindən peşiman olur və Şeyxə bir at bağışlamaqla ondan halalllıq istəyir (115).

Şeyx Səfiəddin öz mürşidinə olan ehtiramın əlaməti kimi Şeyx Zahidin köynəyini, cübbəsini, nimtənəsini və börkünü son günə qədər yanında saxlamışdı. Hətta vəsiyyət də etmişdi ki,

onlardan birini onun qəbrinə qoysunlar. “Səffətüs-səfa”nın verdiyi məlumata görə, Şeyx Zahidin nimtənəsi dəfn zamanı Şeyx Səfiəddinin bədəninə geydirilmişdi (116).

## 5. İstifadə olunmuş ədəbiyyat


1.Yusifcamali M.K., Pənahi A. Rəvabet-e mütəqabil-e Şeyx Zahid Gilani və Şeyx Səfiəddin Ərdəbili bər yek digər.
Quliyev S. Şeyx Zahid irsi.
referat.ilkaddimlar.com › d_pdf_refe_felse_5431
Şurmix M. Ruykərd-e siyasi Şeyx Zahid Gilani və Şeyx Səfiəddin Ərdəbili əz mənzər-e motun-e tarixi, s.90/Motaleat islami – tarix və fərhəng. N-87, 1390, s. 89-106
2. Şeyx Zahid Gilani (Lahicani). http://www.cloob.com/c/hitmanclub/43788508
3. Şeyx Səfi təzkirəsi. “Səfvətüs-səfa”nın XVI əsr türk tərcüməsi. Tərtibçilər: Möhsün Nağısoylu və Sevər Cabbarlı. Bakı, 2006, s. 135
4. Quliyev S. Şeyx Zahid irsi...
5. Qaffarifərd A. Xastqah niyakan-e Şeyx Zahid və məhəll-e konuni-ye aramqah-e u. http://ensani.ir/file/download/article/20120329152946-5055-14.pdf
6. Yenə orada
7. Şeyx Zahid Gilani. http://www.instantweb.com/j/jjjsz/zahed.html
8. Şeyx Səfi təzkirəsi. “Səfvətüs-səfa”nın XVI əsr tərcüməsi. Tərtib edənlər: Möhsün Nağısoylu, Sevər Cabbarlı, Rauf Şeyxzamanov. Bakı, 2006, s. 136
9. İbrahim Zahid-i Geylani. Həyatı hakkında bilgi. http://www.mumsema.org/arap-islam-alimleri/195744-ibrahim-zahid-i-geylani-hayati-hakkinda-bilgi.html
10. Rıhtım M. Seyid Yəhya Bakuvi və xəlvətilik. Bakı, 2005, s. 105
Şeyx Zahid Gilani (Lahicani).

http://www.cloob.com/c/hitmanclub/43788508
11. Yılmaz K. Anahatlarıyla tasavvuf ve tarikatlar. İstanbul, 2004, s. 182-183
12. Yusifcamali M.K., Pənahi A. Rəvabet-e mütəqabil-e Şeyx Zahid Gilani və Şeyx Səfiəddin Ərdəbili bər yek digər/
13. Şeyx Səfi təzkirəsi. "Səfvətüs-səfa"nın XVI əsr türk tərcüməsi. Bakı, 2006, s. 137
14. Şeyx Zahid Gilani (Lahicani). http://www.cloob.com/c/hitmanclub/43788508
15. Şeyx Səfi təzkirəsi. "Səfvətüs-səfa"nın XVI əsr türk tərcüməsi. Bakı, 2006, s. 139
16. Rıhtım M. Seyid Yəhya Bakuvi və xəlvətilik. Bakı, 2005, s. 77, 96-98
17. Şeyx Səfi təzkirəsi. Bakı, 2006, s. 139-140
18. Cahanqoşa-ye xaqan. İslamabad, 1986, s. 15
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s.8
Aləmara-yi Səfəvi. Tehran, 1350, s. 11
19. Şurmix M. Ruykərd-e siyasi Şeyx Zahid Gilani və Şeyx Səfiəddin Ərdəbili əz mən- zər-e motun-e tarixi, s.91/Motaleat islami – tarix və fərhəng. N-87, 1390, s. 89-106
20. Yusifcamali M.K., Pənahi A. Rəvabet-e mütəqabil-e Şeyx Zahid Gilani və Şeyx Səfiəddin Ərdəbili bər yek digər, s.142/....
21. Şurmic M. Ruykərd-e siyasi-ye Şeyx Zahid Gilani və Şeyx Səfiəddin Ərdəbili əz mənzər-e motun-e tarixi, s.91-92 /Motaleat-e İslami:tarix və fərhəng, sal-e çehel-e sevvom, şomare 87, paiz və zemestan, 1390, s.89-106
22. İbrahim Zahid-i Geylani. Həyatı hakkında bilgi. http://www.mumsema.org/arap-islam-alimleri/195744-ibrahim-zahid-i-geylani-hayati-hakkinda-bilgi.html
23. Tarikat və tarikatçılık.
http://www.dinimizislam.com/detay.asp?Aid=3994
Coşan M. E. Tasavvf ve tarikatlar.
http://www.dervisan.com/yazi/tarikat.html
Tasavvuf – Tarikat Çerçevesi

http://hasankamilyilmaz.com/tasavvuf-tarikat-cercevesi.html
İbrahim Zahid-i Geylani. Həyatı hakkında bilgi.
http://www.mumsema.org/arap-islam-alimleri/195744-ibrahim-zahid-i-geylani- hayati-hakkinda-bilgi.html
Yılmaz K. Anahatlarıyla tasavvuf ve tarikatlar. İstanbul, 2004, s. 232, 235
24. Rıhtım M. Seyid Yəhya Bakuvi və xəlvətilik. Bakı, 2005, s. 87
25.Tatlılıoğlu D. Tasavvuf ve tarikata sosyolojik bir bakış, s.115/ Dinbilimleri akademik araştırma dergisi, IX (2009), sayı 1, s.99-128
26. Bakuvi S.Y. Səfa əl Əsrar. Nəşrə hazırlayanı M.Rıhtım. Bakı, 2010, s.74
Yılmaz H. Halvetilik və Anadolu aleviligi ilişgisi çevresinde Pir Ahmed efendi ahfadına genel bir bakış, s. 124/ NEÜ Sosyal Bilimler Enstitüsü Dergisi 2 (2013), s.121-130
27. Şeyx Səfi təzkirəsi, s.133-134
28. Yılmaz K. Anahatlarıyla tasavvuf ve tarikatlar. İstanbul, 2004, s. 186-187
29. Gövhərin S.S. Şərh-e istilahat-e təsəvvüf. Tehran, 132, s.60-66
30. Bakuvi S.Y. Səfa əl Əsrar. Nəşrə hazırlayanı M.Rıhtım. Bakı, 2010, s.262-263
31. Tatlılıoğlu D. Tasavvuf ve tarikata sosyolojik bir bakış, s.118/ Dinbilimleri akademik araştırma dergisi, IX (2009), sayı 1, s.99-128
32. Bakuvi S.Y. Səfa əl Əsrar. Nəşrə hazırlayanı M.Rıhtım. Bakı, 2010, s. 264-265
33. Tatlılıoğlu D. Tasavvuf ve tarikata sosyolojik bir bakış, s.116-117/ Dinbilimleri akademik araştırma dergisi, IX (2009), sayı 1, s.99-128
34. Yılmaz H. Halvetilik və Anadolu aleviligi ilişgisi çevresinde Pir Ahmed efendi ahfadına genel bir bakış, s. 123-124/ NEÜ Sosyal Bilimler Enstitüsü Dergisi 2 (2013), s. 121-130

Rıhtım M. Seyid Yəhya Bakuvi və xəlvətilik. Bakı, 2005, s.204
35. Rıhtım M. Seyid Yəhya Bakuvi və xəlvətilik. Bakı, 2005, s. 113-114
36. Yenə orada, s. 114
37. İbrahim Zahid-i Geylani. Həyatı hakkında bilgi. http://www.mumsema.org/arap-islam-alimleri/195744-ibrahim-zahid-i-geylani-hayati-hakkinda-bilgi.html
38. Şeyx Səfi təzkirəsi, s. 82-83
39. Qaffarifərd A. Xastqah niyakan-e Şeyx Zahid və məhəll-e konuni-ye aramqah-e u/.....
Şeyx Zahid Gilani.
`http://www.instantweb.com/j/jjjsz/zahed.html
44. Şeyx Səfi təzkirəsi, s.170
45. Şeyx Səfi təzkirəsi, s. 9, 145
46. Yenə orada, s. 146-147
47. Yenə orada, s. 147-148
48. Yenə orada, s. 160
49. Şurmix M. Ruykərd-e siyasi Şeyx Zahid Gilani və Şeyx Səfiəddin Ərdəbili əz mənzər-e motun-e tarixi, s.100/Motaleat islami – tarix və fərhəng. N-87, 1390, s. 89-106
50. Yenə orada, s. 101
51. Yenə orada, s. 102
52. Şeyx Səfi təzkirəsi, s. 141-142
53. Gövhərin S.S. Şərh-e istilahat-e təsəvvüf. Cild-e şeşom. Tehran, 1380, s.142-144
54. Şeyx Səfi təzkirəsi, s.143-145
55. Yenə orada, s. 162
56. Yenə orada, s. 166-167
57. Yenə orada, s. 73-74
58. Yusifcamali M.K., Pənahi A. Rəvabet-e mütəqabil-e Şeyx Zahid Gilani və Şeyx Səfiəddin Ərdəbili bər yek digər, s. 142
59. Yenə orada, s.149-150
60. Yenə orada, s. 139-140
61. Şeyx Səfi təzkirəsi, 74-75

62. Yenə orada, s. 76
63. Tarix-i aləmara-yi Abbasi. C.I, Bakı, 2009, s.42
64. Cahanqoşa-ye xaqan. İslamabad, 1986, s. 16
65. Şeyx Səfi təzkirəsi, s. 77
66. Şurmix M. Ruykərd-e siyasi Şeyx Zahid Gilani və Şeyx Səfiəddin Ərdəbili əz mən-zər-e motun-e tarixi, s.95/Motaleat islami – tarix və fərhəng. N-87, 1390, s. 89-106
67. Şeyx Səfi təzkirəsi, s. 79
68. Yenə orada, s. 80
69. Yenə orada, s. 81-82
70. Yenə orada,s. 83-84
71. Yenə orada, s. 85
72. Yenə  orada, s. 61
73. Yenə orda,. 81-82
74. Yenə orada, s. 86
75. Yenə orada, s. 116
77. Yenə orada, s. 17
78. Yenə orada, s. 99
79.Yenə orada, s. 211
80. Yenə orada, s. 99-100
81. Yenə orada, s. 117
82. Yenə orada, s. 118
83. Yenə orada, s. 120-121
84. Yenə orada, s. 121-122
85. Yenə orada, s. 168
86. Yenə orada, s. 129
87. Yenə orada, s. 130-131
88. Yenə orada, s. 180-181
89. Yenə orada, s. 102
90. Yenə orada, s. 90-91
91. Yenə orada, s. 124-125
92. Yenə orada, s. 93
93. Yenə orada, s. 132-133
94. Yenə orada, s. 133
95. Yenə orada, s. 126

96. Yenə orada, s. 126-127
97. Yenə orada, s. 128
98. Yenə orada, s. 128-129
99. Amoli Kəlxoran İ. Təbar-e Şeyx Zahed Gilani;
İsmayılzadə O. Şeyx Zahid Tacəddin İbrahim ibni Rövşən Əmir Gilani-Şıxakərani. Bakı, 2014, s.41
Qaffarifərd A. Xastqah niyakan-e Şeyx Zahid və məhəll-e konuni-ye aramqah-e u/
http://www.kalkhoran.ir/index.php/
100. Şeyx Səfi təzkirəsi, s.191-192
101. Yenə orada, s. 193
102. İsmayılzadə O. Şeyx Zahid Tacəddin İbrahim ibni Rövşən Əmir Gilani-Şıxakərani. Bakı, 2014, s.64-65. Şerin Azərbaycan dilinə tərcüməsi Mirsalam Babayevə məxsusdur.
103. Şeyx Zahid Gilani (Lahicani).
http://www.cloob.com/c/hitmanclub/43788508
104. Yenə orada
105. İsmayılzadə O. Şeyx Zahid Tacəddin İbrahim ibni Rövşən Əmir Gilani-Şıxakərani. Bakı, 2014, s.69
Böyük hökmdarın babası Azərbaycanda uyuyur. https://sputnik.az/life/20170421/409923996/boyuk-hokmdarin-babasi-azerbaycanda-uyuyur.html
106. Şeyx Səfi təzkirəsi, s.203, 299
107. Yenə orada, s. 202
108. Yenə orada, s. 583
109. Yenə orada, s. 643
110. Yenə orada, s. 713-714
111. Yenə orada, s. 714-715
112. Yenə orada, s. 715.
113. Yenə orada, s. 787
114. Yenə orada, s. 727
115. Yenə orada, s. 623-625
116. Yenə orada, s. 739, 742

# III FƏSİL. ŞEYX SƏFİƏDDİNİN HƏYATI

## 1.Şeyx Səfiəddinin mürşidliyi

Şeyx Zahid təxminən 1301-ci ildə dünyasını dəyişdi. Bundan sonra Şeyx Səfiəddin birdəfəlik Ərdəbilə qayıtdı və burada müstəqil şəkildə taliblərin və müridlərin irşadına başladı.

Yuxarıda qeyd edilmişdi ki, Şeyx Səfiəddin təxminən 25 il Şeyx Zahidə müridlik etmişdi. "Səfvətüs-səfa" əsərinin verdiyi məlumatlardan aydın olur ki, Şeyx Səfiəddin heç də müridlik etdiyi 25 illik ömrünün hamısını Gilanda keçirməmişdi. Ola bilsin ki, müridlik dövrünün müəyyən hissəsini Şeyx Səfiəddin davamlı şəkildə Gilanda qalmışdı. Lakin Şeyx Zahidin həyatının sonlarına yaxın Şeyx Səfiəddin vaxtının daha çoxunu Ərdəbildə olurdu. Bununla belə, o, Şeyx Zahidə olan müridliyini davam etdirirdi. Məlumdur ki, hətta Şeyx Zahid də dəfələrlə Ərdəbilə gəlmiş və Şeyx Səfiəddinin qonağı olmuşdu (1). Şeyx Zahid Kəlxoranda da Şeyx Səfiəddinin qonağı olmuşdu (2). Bu faktlar da onu göstərir ki, Şeyx Səfiəddin heç də müridlik dövrünü bütünlüklə Gilanda keçirməmiş və arzusunda olduğu bilikləri kəsb etdikdən, yüksək sufi məqamlarına yetişdikdən sonra Ərdəbilə daha tez-tez gedərdi. Şeyx Səfiəddin Ərdəbildə olduğu vaxtlar həyət-bacasında zəhmətlə məşğul olur, halal qazanc üçün əziyyətlərə qatlaşırdı.

Bununla belə, o, Şeyx Zahidlə əlaqəsini kəsmirdi və vaxtaşırı Gilana yollanırdı. Yəni bu iki irfan sahibi arasında mürşidlik və müridlikdən başqa həm də səmimi bir insani münasibət mövcud idi. Şeyx Zahid bütün işlərində bir qayda olaraq onunla məsləhətləşər və onun fikirlərinə qulaq asarmış (3).

Hələ Gilanda olduğu zamanlar Şeyx Səfiəddin mürşidlik etmək, ona müraciət edən talibləri müstəqil şəkildə tövbəyə gətirmək, onların irşadı ilə məşğul olmaq mərtəbəsinə yüksəlmişdi. Bunun üçün onun kifayət qədər biliyi və sufi təcrübəsi var idi. Hətta Şeyx Zahid də ona talibləri tövbəyə gətirməyə və onların irşadı ilə məşğul olmağa icazə vermişdi. Bununla belə, Şeyx Zahid sağ olduqca Şeyx Səfiəddin mürşidliyi öz üzərinə götür-

mədi. Doğrudur, Şeyx Səfiəddin hələ Şeyx Zahidin sağlığında taliblərin tövbəyə gətirilməsi və onların irşadı ilə məşğul olmuşdu. Bu barədə yuxarıda qeyd edildiyi kimi, "Səfvətüs-səfa" əsərində də bir neçə fakt vardır. "Bir qatla Şeyx Zahidə tənə ilə der idi kim, Şeyx Səfiəddin özü içün müridlər aparur və imdi mürid ilə murad və tərbiyət ilə irşad anundur və tövbə ilə təlqin verür və kimsələr ana uyubdurlar və töhfələr ilə hədiyyələr kim, taliblər gətürürlər, özi içün qəbul eylər və bu işdə bərk və müstəqildir. Şeyx Zahid muni eşidincə bəşəriyyət üzərindən məzacı mütəğəyyir oldı və Şeyx Səfiəddin ilə mübarək xatirində bir nəstəcük keşmişdi və hal ol kim Şeyx Səfiəddin qamu talibləri həzrət Şeyx Zahidə dəvət eylər idi. Hədiyyələr və töhfələr, hər nəstə kim, gətürərlərdi, həm gətürənün yanında tapşururdı, ta həm ol kimsə həzrət Şeyxin qulluğına gətürə və özinün hədiyyəsi talibərün hədiyyələri ilən qatmaz idi, bəlkə ayru aparurdı. Andan sonra çün Şeyx Səfiəddin Şeyx Zahidün hüzurinə gəldi, Şeyxün xatiri bir nəmə ağır gördi. İttifaqən ol qeybətedici Yəpə Mahmud həsudlar ilə xəlvətin dışxarısında durmuşdılar və Şeyx Zahidün inciklü sözləri kim, Şeyx Səfiəddin ilən söylər idi, eşidürlərdi kim, Şeyx Zahid itab eylərdi. Və Şeyx Səfiəddin der idi kim, bilürəm ki, Şeyxün mübarək xatiri danuqluğ verür və qəbul eylər ki, mən Şeyxdən dəstursız müridləri özüm içün dəvət etmənəm və Şeyxün xilafına nəfəs çəkmənəm və taliblərin hədiyyə ilə töhfələri özüm içün almənəm və sənün xidmətündə özümi bir nadan sağınurəm. Əgər tövbə ilə təlqin isə, Şeyxün icazəti ilədür və andan buyuruqsız heç əməl etmənəm. Şeyx Zahid anun həqiqətən zahir ilə batini məlum eyləmiş idi, həsudlar xatiri içün bu bazxastı eylər idi. Pəs, dedi: "Bəli, gerçək dersən, bu icazəti mən sana verübəm və Həqq-təala bu kəramət ilə mənziləti sana verübdür və sənün haqqındür: mübarək olsun, mübarək olsun" (4).

Bu cümlələrdən göründüyü kimi, hələ Şeyx Zahidin sağlığında Şeyx Səfiəddin taliblərə təlqin vermək, onları tövbəyə gətirmək kəramətinə və mərtəbəsinə sahib olmuşdu. Şeyx Zahid özü də bunu təsdiq edirdi və Şeyx Səfiəddinə də belə bir səlahiyyəti vermişdi. Sadəcə olaraq, bəzi qısqanc insanların qısqanc

məlumatlarından sonra Şeyx Zahiddə Şeyx Səfiəddinin səmimiyyətinə müəyyən şübhə yer almışdı və ona görə də onu yanına çağırmışdı.

Bir çox hallarda Şeyx Zahid özü ona müraciət edənləri tövbəyə gətirməyi Şeyx Səfiəddinə tapşırardı. “Və təriqətdə qaidədür kim, əgər bir talibdə bir suç zahir olsa, təriqətün cünübidür, gərək kim, həzrət Şeyxi ana yenidən qüsl tövbəsin verə. Pəs, Yəpə Mahmud ayağa qalxdı tövbə almağa. Şeyx Zahid Şeyx Səfiəddinə işarət qıldı ki, Yəpə Mahmuda tövbə verə. Şeyx Səfiəddin ədəb üzərindən bir saət təəmmül eylədi. Şeyx Zahid qədəğən eylədi (buyurdu-M.S.) və mübaliğə qıldı kim, mən derəm ana tövbə ver. Şeyx Səfiəddin dedi: “Padşahun qulluğunda özgələrnün nə həddi var ədəbsizlik etmək?” Şeyx Zahid anı qaxub dedi: “Mən derəm, tövbə ver, ol der ki, padşah böylə, vəzir şöylə, tövbə ver”. Neçə qatla Şeyx Zahid işarət eylədi kim, ana tövbə ver, ol ədəb saxlar idi və tövbə verməzdi. Sonra Şeyx Zahid iki qatla səcdə eyləyüb ana qədəğənlədi tövbə verməgə. Pəs taliblərün hüzurində Şeyx Zahidin işarəti ilən ana tövbə verdi və Yəpə Mahmudun nifaqı vifaqə və fasid etiqadı sadiq ixlas ilən mübəddəl olub, təmami-ömrin Şeyx Səfiəddinün qulluğında sabitqədəm idi və həmişə der idi: “Mən Şeyx Səfiəddinün satın alınılmışıam”. Və Həqq nemətin unutmaz idi” (5).

Bir sözlə, Şeyx Səfiəddin hələ Şeyx Zahidin sağlığında etiqadında, biliyində ən yüksək mərtəbələrə yüksələ bilmişdi və mürşidlik etmək üçün onun həm yetərli biliyi, həm də təcrübəsi var idi. Şeyx Zahidin etiraf etdiyi kimi, Şeyx Səfiəddin biliklərində hətta daha yüksək mərtəbəyə qalxa bilmişdi və ona görə Şeyx Zahid də mürşidliyi məhz ona etibar etdi. Yəni Ərdəbilə qayıdanda Şeyx Səfiəddin təsəvvüfün ali mərtəbələrinə sahib olmuşdu.

Məlumdur ki, Şeyx Səfiəddin Ərdəbilə qayıtmazdan əvvəl həm də Şeyx Zahidin qızı ilə ailə həyatı qurmuşdu. Onların ilk övladı da Şeyx Zahidin sağlığında dünyaya gəlmişdi. Bütünlükdə, Şeyx Səfiəddinin Şeyx Zahidin qızı Bibi Fatimədən üç oğlu olmuşdu. Bu oğlanların böyüyü olan Mühyiəddin dünyasını

vaxtsız dəyişmişdi. Bu hadisə Şeyx Səfiəddini xeyli sarsıtmışdı və bir ilə yaxın onun yasını saxlamışdı. Dediyinə görə, elə yuxuda ikən Mühyiəddin onun hüzuruna gəlmiş və atasını saxladığı yasa nəhayət son qoymağa çağırmışdı. Şeyx Səfiəddinin oğlu Şeyx Sədrəddin bunu belə xayırlayırdı: “Çün mərhumi-məğfur Xacə Mühyiəddin bəqa aləminə vardı, həzrət Şeyx bir yıladək mübarək ayağını səmadan çəküb heç səma etmədi və heç kimsənün şəfəqqəti eşitməzdi, ta bir gecə öz mübarək zaviyəsində oturmuş idi. Neçə sufi hafizlər ol həzrətün hüzurində idilər, ixtiyarsız qalxub səmaə durdu. Çün qəvvallardan kimsə hazur dəgül idi, hafiz Mövlana Əbdürrəhman oturmuş idi. “Quran”i-məciddən bir ayə oxudu, həzrət Şeyx (q.s.) vəcdlər sürüb gözlərindən yaşlar axıtdı və səmaə durub çox çərxlər urdu. Çün səma axır oldu və genə məclis oldı, otururkən hazirlərdən sordı kim, səmaün səbəbini sormadınız. Dedilər: “Şeyx buyursun”. Buyurdı: “Gördüm kim, fərzənd Xacə Mühyiəddin gəldi əlində bir şəm və Şeyx Zahid ardında. Mənüm əlimü öpüb dedi: “Baba, Şeyx Zahidi şəfaət eyləməyə gətürmişəm kim, səma eyləyəsən”. Və boğazını dutdı. Naçar Şeyxün işarəti və Xacə Mühyiəddinün şəfaəti ilən səmaə qalxdım” (6).

Fatimədən olan digər iki oğlan uşaqları isə Şeyx Sədrəddin və Şeyx Əbu Səid idilər. Kəlxoranda nikah etdirdiyi başqa bir xanımdan da Şeyx Səfiəddinin daha iki oğlu var idi - Şeyx Əlaəddin və Şeyx Şərafəttin. Bunlardan başqa, Səfiəddinin bir qızı da var idi (7). Bu qız Şeyx Səfiəddinin ikinci xanımından doğulmuşdu və onu sonralar Şeyx Zahidin oğlu Şeyx Şəmsəddinin nikahına vermişdi.

Şeyx Zahidin dünyasını dəyişməsi və təriqət rəhbəri kimi Şeyx Səfiəddinin elan edilməsi ilə təriqətin mürşidliyi də onun üzərinə düşdü və buna görə onun müridlərinin sayı xeyli artdı. Şeyx Səfiəddin hələ Gilanda ikən "şeyx" məqamına sahib olmuşdu. Səfəvi xanədanı arasında Səfiəddin ilk şəxs idi ki, bu məqama layiq görülmüşdü və sonradan onun övladları da "şeyx" adlandırıldılar. Onun müridlərinin və tələbələrinin sayı isə qısa müddət ərzində xeyli artdı və Şeyx Səfiəddin Ərdəbildə özü üçün

bir xanəgah yaratmalı oldu. Həmin xanəgah hazırda Şeyx Səfi türbəsinin Ərdəbildə yerləşdiyi ərazidə idi. Yuxarıdakı məlumatdan aydın olur ki, həmin məkanın xanəgah üçün seçilməsini Şeyx Zahid tövsiyə etmişdi.

Şeyx Səfiəddinin müridlərinin xüsusi geyim formaları və görünüşləri var idi. Mövcud olan məlumatlara görə, müridliyi qəbul edən taliblər başlarını qırxdırır və sonra da müridlərə məxsus olan geyimləri geyirdilər. Bu geyim və görünüşə görə, Şeyx Səfiəddinin müridlərini başqalarından fəqləndirmək mümkün idi (8).

Şeyx Səfiəddin irfani biliklərə yiyələnməkdə özü ardıcıllıq nümayiş etdirdiyi kimi, müridlərindən də belə ardıcıllq və qətiyyət tələb edirdi. O, şübhə etmirdi ki, bu yolda laqeydliyə, səhlənkarlığa yol verilməsi elmə qarşı hörmətsizlikdir və belə münasibətlə qarşıya qoyulan məqsədə yetmək mümkün deyildir. Söhbətlərinin birində o bu məsələyə öz münasibətini belə bildirirdi: "Təriqət gündə yetmiş qatla baş qırkmışlara xitab eylər kim, məni saxlın, ta mən dəxi sizi saxlayım və hər kim təriqətdən düşə, andan bətərdür kim, gögdən yerə düşə, nədən kim hər kim gögdən düşdü, qayəti ol ola kim, həlak ola. Amma əgər dünyadan çıxdı, axirətdən naümid dəgül, illa hər kim təriqətdən düşdi, həm dünyadan çıxar və həm axirətdən məhrum qalur, ol qələndər kim, başında tələb dərdi var idi və çün təriqətün həqqi ilə şərti yerinə yetürmədi, təriqət anı özindən sürüb yad eylədi və tələbsiz heç kimsə yok. Amma əgər talib bir ifrit şeytana yoluxa, anun yolını azdurur və əgər bir mürşidə yetdi, tanış olub yol bilici olur" (9).

Şeyx Səfiəddinin fikrincə, mömin insan üçün təriqətdən yayınmaq göydən yerə düşməkdən daha pis idi. Çünki təriqətdən məhrum olmaqla insan həm bu dünyasını, həm də o dünyasını itirmiş olurdu. Ona görə də məsləhət bilirdi ki, taliblər mürşidin rəhbərliyi altında düz yolu tutsunlar və biliklərə yiyələnsinlər.

Şeyx Səfiəddin irfani elmləri və təsəvvüf məqamlarını kəsb etməkdə, yuxarıda qeyd edildiyi kimi, sonsuz bir ardıcıllıq və qətiyyət göstərirdi, öz fəhmi ilə digərlərindən fərqlənirdi və xüsusi bir istedada malik idi. Mütəxəssislərin fikrincə, Şeyx

Zahidin onu öz təriqət varisi seçməsi Şeyx Səfiəddinin aşağıdakı keyfiyyətləri ilə bağlı idi (10):

1. Şeyx Səfiəddin hər şeydən əvvəl, kamil bir irfan əhli kimi formalaşmışdı, şəriət elmlərini və məqamlarının əxz etməsi üçün daha çox riyazətə qatlaşırdı, davamlı olaraq vaxtını ibadətdə keçirirdi, gecələr zikr və ibadətlə məşğul olmaq onun adətinə çevrilmişdi, çox böyük təkidlə dini biliklərə yiyələnirdi, öyrəndikləri ilə əməli arasında qırılmaz bir bağlılıq var idi. Ona görə də Şeyx Səfiəddin təsəvvüfdə kamilləşərək ən ali mərtəbəyə yüksəlmişdi. Yəni Şeyx Səfiəddin əhatəsində olan digər taliblərdən və müridlərdən həm biliyinə, həm də əməlinə görə fərqlənirdi və ona görə də Şeyx Zahid onu öz varisi seçmişdi.

2. Şeyx Səfiəddin dərin biliklərə yiyələndiyi kimi, onları başqalarına çatdırmaqda da xüsusi bir işgüzarlıq nümayiş etdirirdi. O, tələbləri, ona müraciət edən insanları inandırıcı şəkildə Haqq yoluna istiqamətləndirməyi və ardınca aparmağı bacarırdı. İstinad etdiyi biliklər onun fikirklərinin əsaslı olmasını və etibarlılığını təmin edir və bu da insanlarda onun təliminin həyatiliyinə bir inam yaradırdı. “Səfvətüs-səfa” əsərindən də məlumdur ki, Şeyx Zahid sağlığında ikən Şeyx Səfiəddini başqa bölgələrin insanlarının irşadına göndərirdi və o da həvalə olunmuş vəzifəni layiqincə yerinə yetirirdi. Bu bacarığı və qabiliyyəti ilə də Şeyx Səfiəddin ətrafındakılardan fərqlənirdi.

3. Şeyx Səfiəddin Haqq yolunun irşadında birliyin, vəhdətin dəstəkçisi idi, müridlərin öz biliklərindən sui-istifadə edilməsinin əleyhinə idi. Bu mənada onun Şeyx Zahidlə qarşılıqlı anlaşması, fəaliyyət və əməl birliyi diqqətəlayiq keyfiyyətlərdən biri idi. Şeyx Səfiəddin mürşid qədrini, yəni mənəvi rəhbərin səfərbəredici təsirini lazımınca dəyərləndirir və bunu öz davranışında da rəhbər tuturdu. Baxmayaraq ki, Şeyx Səfiəddin hələ Şeyx Zahidin sağlığında müstəqil şəkildə mürşidlik etmək, müstəqilləşərək böyük dünyəvi nüfuz əldə etmək imkanı var idi. Bununla belə, o, Şeyx Zahidin haqqına xilaf çıxmadı. Şeyx Səfiəddin özü də qeyd edirdi ki, onun mürşidlik məqamına və mərtəbəsinə yüksəlməsində Şeyx Zahidin xüsusi xidmətləri var. Ona

görə də Səfiəddin onun xidmətlərini hər zaman yüksək qiymətləndirirdi və mürşid haqqının tanınmasını da imandan bilirdi. Bunun nəticəsi idi ki, Şeyx Səfiəddin öz mürşidindən qopmağı və ondan qabağa keçməyi özünə rəva bilmirdi və bu keyfiyyət Şeyx Zahid tərəfindən də lazımınca qiymətləndirildi.

4. Şeyx Zahidlə Şeyx Səfiəddin arasındakı münasibətlər həm də mürşid-mürid münasibətlərinin ən gözəl nümunələrindən biri idi. Şeyx Səfiəddin bütünlüklə öz mürşidinə bağlı idi və iradəsini onun iradəsinə bağlamışdı. Bu cəhət təsəvvüfün mühüm tələblərindən biri idi. Şeyx Səfiəddin üçün mürşidi Haqq yolunun sarvanı idi və onun irşadını qəbul etməklə bərabər, bütün həyatında da ona müti idi. Şeyx Səfiəddin hətta fiziki baxımdan çətinliklərlə qarşılaşdığı anlarda mürşidinin əmrlərini sözsüz yerinə yetirirdi və bununla bağlı hər hansı bir bəhanəyə və səbəbə istinad etməyi qeyri-mümkün sayırdı. Ona görə Şeyx Zahid buyururdu ki, mən Səfiəddinəm, Səfiəddin də mən. Yəni bu insanlar bir-birini bu dərəcədə tamamlayırdılar.

5. Şeyx Səfiəddinin dəyərli keyfiyyətlərindən biri onun zəhmətə qatlaşması, çətinliklərdən çəkinməməsi idi. Sonsuz riyazətlərə sinə gərməsi, nəfsini idarə etməyi bacarması da onun bu keyfiyyətindən irəli gəlirdi. Şeyx Səfiəddin eyni zamanda fiziki zəhmətlərə də qarşılaşırdı. İstər Şeyx Zahidin xanəgahında olarkən, istərsə də Kəlxoranda hər zaman zəhmət başında idi, heç bir işi görməkdən çəkinməzdi. Şeyx Zahid özü də bəzən onu bu sonsuz fiziki zəhmətlərdən çəkindirməyə çalışırdı. Amma eyni zamanda onun bu zəhmətsevərliyini də qiymətləndirirdi.

6. Şeyx Zahidin yanında qəbul etdiyi tövbəni Şeyx Səfiəddin bütün etiqadı ilə bərabər, əməlində və fikrində də əsas tuturdu. Yoldaşları arasında müşahidə olunan qısqanclıq, paxıllıq, yersiz ədalar Şeyx Səfiəddinə xas deyildi. Təriqət birliyini də hər zaman qoruyub saxlamağa çalışırdı. Gilanda olduğu zaman Səfiəddin bu keyfiyyətləri ilə həm də Şeyx Zahidlə taliblər arasında bir körpü olmuşdu. O, talibləri və müridləri mürşid ətrafında sıx birləşməyə çalışdığı kimi, taliblərin mürşid qəzəbindən qurtarmasında da öz səylərini göstərirdi.

7. Səmimiyyət və təvazökarlıq da Şeyx Zahidin Şeyx Səfiəddində qiymətləndirdiyi cəhətlərdən idi. Şeyx Səfiəddin bilikdə, ibadətdə yoldaşlarından fərqlənsə də, zahirdə bu fərqi hiss etmək mümkün deyildi. Hətta, məlum olduğu kimi, Şeyx Zahid ona bəzi hallarda talibləri tövbəyə gətirməyi tapşırsa da, Şeyx Səfiəddin bundan qaçmağa, yəni mürşidini əvəz etməkdən çəkinməyə çalışırdı.

8. Şeyx Səfəddinin Şeyx Zahidin varisi olmasını şərtləndirən məqamlardan biri kimi Səfiəddinin öz mürşidinin qızı ilə ailə qurması da göstərilir. Şeyx Zahid üçün bu evlilik adi bir nikah deyildi. O arzulayırdı ki, elə bir müridi olsun ki, elmində biliyində yüksəlsin, kamilləşsin, mürşidinin qızı ilə ailə qursun və bu nikahdan Şeyx Zahidin təriqətini davam etdirəcək bir övlad dünyaya gəlsin. Bunları insanlar arasında deyəndə Şeyx Zahid, əslində, Şeyx Səfiəddini nəzərdə tutrdu. Səfiəddin Gilanda olduğu dövrdə Şeyx Zahidin ümidlərini doğruldacaq bir mərtəbəyə yüksəlmişdi və şübhə etmirdi ki, Səfiəddinin onun qızı ilə evliliyindən dünyaya gləcək övlad da onların yolunu davam etdirəcəkdir.

Mütəxəssislər Şeyx Səfiəddini həm də dövrünün böyük alimi, zəka sahibi, arifi, təfsirçisi və hədis bilicisi kimi xarakterizə edirlər və onun bütünlükdə islam dünyasının ən tanınmış alimləri və bilik adamları ilə bir səviyyədə görürlər. Səfəviyyə təriqətinin formalaşdırılması və bu təriqətin o dövrdə mövcud digər təriqətlərə nisbətən üstün dəstək tapması da Şeyx Səfiəddinin mənəvi və dini keyfiyyətləri ilə əlaqələndirilməkdədir (11).

Şeyx Zahidin vəfatından sonra Şeyx Səfəiddinin mənəvi-dini həyatında yeni bir səhifə açıldı. O, mürşidinin rəhbəri olduğu təriqətin yolunu sadəcə davam etdirmədi, bu təriqəti daha da təkmilləşdirdi və Səfəviyyə təriqətinin əsasını qoydu. Mütəxəsislərin fikrincə, Səfəviyyə təriqəti Şeyx Zahidin izlədiyi Xəlvətiyyə təriqəti ilə Qələndəriyyə təriqətinin bir-birinə qovuşdurulması idi. O da əlavə olunur ki, insanlar kütləvi şəkildə bu təriqətə qoşulurdular (12).

Şübhə yoxdur ki, Şeyx Səfiəddin yeni təriqəti formalaşdırmaqda səmimi idi. Şeyx Səfiəddin sözsüz ki, qarşısına yeni bir təriqəti formalaşdırmaq məqsədi qoymamışdı. Sadəcə olaraq onun bilikləri və bu biliklər əsasında mövcud normaları daha da təkmilləşdirməsi, onlara yeni bir məzmun verməsi dini dəyərlərə baxışların və yanaşmaların daha da zənginləşməsinə yol açmışdı. Mütəxəssislər belə bir qənaətdədirlər ki, Səfəviyə təriqəti məzmun baxımından Şeyx Zahidin mürşidi olduğu təriqətdən xüsusi olaraq fərqlənmir. Yəni Şeyx Zahiddən alınan biliklər Şeyx Səfiəddinin dini və təsəvvüf baxışlarının əsasını təşkil edirdi. Bu iki təriqət arasındakı fərqlilikdə nəzərə çarpan bəzi məqamlarla bərabər, daha çox təşkilati-formal fərqliliklər özünü göstərməkdə idi (13).

Şeyx Səfiəddinin Ərdəbilə qayıtması ilə, əslində, bu şəhər həm də bölgənin elm-irfan mərkəzinə çevrildi. Şeyx Səfiəddinin müdrikliyi, dərin etiqadı və əməlləri ilə kamilləşən Səfəviyyə təriqəti islam dininin əsaslarına dayaqlanmaqla bu əsasların qorunmasını, düzgün dini baxışların dirçəldilməsini və canlandırılmasını, təriqətin şəriətlə qovuşmasını, mövcud təriqətlər arasında ədavətin aradan qaldırılmasını təbliğ edirdi. Ona görə də, Səfəviyyə təriqəti hətta onun yaradıcısının dünyasını dəyişməsindən sonra insanlar tərəfindən hörmət və ehtiramla qarşılanırdı və onun sıraları da ildən-ilə, aydan-aya genişlənirdi. Bu baxımdan Səfəviyyə təriqəti kütləviliyi, rövnəqliyi ilə seçilirdi. İnsanlar bu təriqətdə axtarışında olduqları sirləri, həqiqətləri tapa bilirdilər və ona görə də hətta zəmanəsinin hakimləri də onun təriqətinə ciddi maraq göstərirdilər. O damələumdur ki, bu hakimlərlə Səfəvi xanəgahının rəhbərləri arasında xüsusi münasibətlər də formalaşmışdı.

Bununla belə, bir daha qeyd edilməlidir ki, insanların Səfəviyyə təriqətinə qoşulmasında başlıca məqsəd dini-mənəvi ehtiyaclarına cavab tapmaları və dövrün alim, arif, fazil və kəramət sahibi kimi Şeyx Səfiəddinə olan bağlılıq ilə əlaqədar idi. Bu bağlılıq qısa bir zaman içində Səfəviyyə təriqətini kütləvi bir təriqətə çevirdi.

“Səfvətüs-səfa” əsərində də Şeyx Səfiəddinin müridlərinin və taliblərinin sayının çox olması haqqında qeydlər vardır. Bu əsərdə müridlərin sayının çox olması Şeyx Səfiəddinin əzəməti kimi xarakterizə olunmuşdur və doğrudan da onun mürşidlik etdiyi təriqət insanlar arasında elə bir nüfuz qazanmışdı ki, bu təriqətə qoşulanların sayı barəsində dəqiq məlumatları söyləmək də çətin idi: “Və həzrət Şeyxün (q.s.) əşrafı müridlərinün əhvalında həm ol həzrətün əzəməti nişanələrindən idi, ol cümlədən kim, kitabın beşinci babında yazılubdur kim, şeyxzadə Cəmaləddin Əli həzrət Şeyx ilən (q.s.) münazirələr çağında həzrət Şeyx Səfiəddin (q.s.) buyurdu kim, irşad etməq ol kişiyə yaraşur kim, əgər anun dörd müridi ola kim, anlardan biri məşriqdə və biri məğribdə və biri şimalda və birisi cənubda olalar, anlarun halından qafil olmayub anlara tərbiyət eyləyə və əgər anlarun dördi dəxi bir gündə, bir saətdə əcəlləri yetə və köçməq çağları ola ol saətdə şeytan anlarun imanına təməə eyləyə, dördinə dəxi mədəd eyləyə, böylə kim imanları böylə aparalar kim, əgər ol mərtəbədə olmasa, səccadə ilə irşad ana haram ola və qiyamətün güni qarayüzlü toprağdan baş qaldura və həzrət Tanrı-təaladan şərmsarlik çəkə” (14).

Bu cümlələrdən göründüyü kimi, Şeyx Səfiəddin özü də dini irşadın geniş yayılmasının tərəfdarı idi. Çünki o, dini irşadın genişlənməsi ilə insanların yaşayış tərzinin təkmilləşəcəyinə, insanlar arasında Haqq axtarışının genişlənəcəyinə və bununla halallığın da artacağına ümid edirdi.

“Səfvətüs-səfa” əsərində Şeyx Səfiəddinin taliblərinin və müridlərinin sayı haqqında olan qeydlərdən biri də belədir: “Və həzrət Şeyxün (q.s.) əzəməti nişanəsi biri bu idi kim, xəlvətlər çağında aləmin dörd guşəsindən ol qədər talibləр ol həzrətə varurlardı kim, həzrət Şeyx Sədrəddin (r.r.) rəvayət qıldı kim, bir qatla xəlvətün çağında ətrafdan ol qədər sufi taliblər olmışdılar kim, zaviyənün xəlvətləri ilə mülhəqatları və məhəllələrün məscidləri içində eylə doptalı idi kim, yerimək məcal yox idi. Və həzrət Şeyx (q.s.) Xacə Mühyiəddini (r.ə.) əkməgün üstinə durğuzmış idi kim, xəlvətlülərə əkmək verə, amma özgə yemək

tövbəkarlularun evlərində bişürürlərdi və məhəllələrün məscidləri içində oturanlara yetürürlərdi və bu yeməklərün məsalihi xamu zaviyədən aparurlardı. Xacə Mühyiəddin (ə.r.) dedi: “Xəlvətdə oturanlarun hər birinə bir əkmək verür idim, özgə təamlardan ayru, gündə beş min əkmək verürdüm”(15).

Bu hesabla Səfəviyyə təriqətinin müridlərinin sayı xeyli çoxalmışdı. Səfəviyyə təriqətinin belə nüfuz qazanması bir tərəfdən də dövrün islam təriqətlərinin islamın əsaslarından uzaqlaşması ilə bağlı idi. Belə təriqətlərdən bəziləri islamın zahiri tərəflərinə fikir verir və şəriət məsələlərinin müəyyən tələblərinin ciddi icrasına loyallıqla yanaşırdılar. Səfəviyyə təriqətinin islamın əsaslarına sədaqəti ona olan bağlılığı artırırdı və ona görə islamın böyük müctəhidləri də bu təriqətin əleyhinə çıxmırdılar. Bunlar isə təriqətin tərəfdarlarının sayını artırırdı. Mövcud məlumata görə, dövrün hakimi olan Əmir Çoban Sulduz Şeyx Səfiəddindən əmir qoşunlarının, yoxsa təriqət müridlərinin sayının çox olmasını soruşanda Şeyx Səfiəddin bildirmişdi ki, hər bir qoşun döyüşçüsünün qarşısına 100 min nəfər təriqət müridi çıxa bilər (16). Yəni hələ Şeyx Səfiəddinin sağlığında onun müridlərinin sayı bu qədər çox idi.

“Səfvətüs-səfa” əsərində Marağalı Mövlana İzzəddinin dilindən bildirilir ki, “həzrət Şeyxün iki min min ilən səkiz yüz min müridləri var idi” (17). Bu hesabla Səfəviyə təriqətinin üzvlərinin sayı 3 milyon nəfərə yaxınlaşmış olur. Sözsüz ki, Səfəviyyə təriqətinin üzvlərinin hamısının statistikasını aparmaq mümkün deyildi. Lakin onların son dərəcə çoxluğu bəlli idi və şahidlər ifadə etdikləri rəqəmlərlə bu çoxluğu çatdırmaq istəyirdilər.

Bəzi müəlliflər Şeyx Səfiəddinin təriqətinə qoşulmuş müridlərin ictimai bazasını Azərbaycandan kənarda, konkret olaraq Anadoluda axtarmağa və bununla Səfəviyyə təriqətini Azərbaycandan qoparmağa çalışırlar. Məsələn, Səfəvi tarixinə aid olan əsərlərdən birində göstərilir ki, üç ay ərzində Təbriz və Marağa yolundan 13 min nəfər Ərdəbilə gəlmişdi. Sonra da əlavə edilir ki, bu müsafirlər Anadolu və İraqdan gələnlər idilər və bu fikir-

lərin təsdiqi kimi Şeyx Hüseynin “Silsilət-ül nəsəb Səfəviye” əsərinə istinad edilir (18). Şeyx Hüseyn adı çəkilən əsərində doğrudan da Təbriz və Marağa yolundan tövbə almaq üçün Şeyx Səfiəddinin yanına üç ay ərzində 13 min nəfərin gəlməsini qeyd etmişdir. Lakin o, bu zəvvarların Anadoludan və ya İraqdan olmasını göstərməmişdir (19). Əslində, buna heç ehtiyac da yox idi. Çünki Şeyx Səfiəddinin müridlərinin ictimai bazasını Azərbaycan təşkil edirdi və işarə edilən 13 min nəfər isə Azərbaycanın müxtəlif bölgələrindən idi.

Məlumdur ki, Şeyx Səfiəddin haqqında mövcud olan mənbə “Səfvətüs-səfa” əsəridir və Şeyx Səfiəddinlə bağlı məlumatların əksər ilkin mənbəyi məhz bu əsərdir. “Səfvətüs-səfa” əsərində isə Marağa və Təbriz yolundan deyil Bərniq yolundan Ərdəbilə üç ayda 13 min nərəfin tövbə almaq üçün gəldiyi göstərilmişdir (20).

Şeyx Səfiəddin Gilanla bağlı olduğu üçün bu bölgədə də onun müridlərinin olması şübhəsizdir. Lakin onun müridlərinin əsasını Azərbaycan əhalisinin təşkil etməsi də məlum məsələdir. “Səfvətüs-səfa” özü bunu deməyə əsas verir. Yəni Şeyx Səfiəddinin səfərdə olduğu, insanlarla görüşdüyü məntəqələr bir neçəsi istisna olmaqla Azərbaycanın şəhərləri və kəndləridir. Onlaırn sayı xeyli çoxdur. Çünki bu yaşayış məntəqlərində Səfəviyyə təriqətinin və o cümlədən də Şeyx Səfiəddinin müridləri çox idi. “Səfvətüs-səfa” əsərinə istinad etməklə həmin yaşayış məntəqələri arasında aşağıdakıların adlarını çəkmək olar: Təbriz, Urmiyə, Sərab, Xalxal, Zəncan, Marağa, Gərmrud, Sultaniyyə, Bərzənd, Savalan dağı, Vərəzqan, Muğan, Aran, Həştrud, Diyukəziv, Mahmudabad, Kəndovan, Tərkkənd və s. Bu məntəqələr Şeyx Səfiddinin Azərbaycan daxilində ziyarətində olduğu yaşayış məntəqələrinin yalnız bir hissəsidir. Bu məntəqələrin hər birində də Şeyx Səfiəddin çox böyük izdihamla, sevinclə qarşılanırdı (21).

Şeyx Səfiəddinin Azərbaycanın Urmiyə bölgəsində yerli müridlər tərəfindən neçə böyük izdihamla qarşılnaması haqqında “Səfvətüs-səfa” əsərində belə qeydlər vardır: “Ol çağ kim, həzrət

Şeyx (q.s.) Ürmiyə varur idi, həman kim, Toğay məmləkətinə yetdi kim, Torğaydadur və yüz kəndi var idi. Ol qədər müridlər şağatu ilə tağatu və ləc və dəryaz və sulduz həzrət Şeyxə gəldilər kim, atlarınun tozı gögə baş çəkmiş idi və aydın günəşin nuri görükməz oldı və qələbəliğdən xəlqün gəzməginə məcal qalmadı və həzrət Şeyxün vücudi çox ziyarət etməgindən zəhmətdə idi. Ol ətrafın ellərindən üç böyük oymağın bəgləri nökərləri ilən həzrət Şeyxün (q.s.) xəlqün qələbəliğindən saxlarlardı və hücumından mənn edərlərdi və mütləqa faidə verməz idi. ...Çün müridlərin çoxluğu tövbə qılmaq içün çoxaldı, ittifaq eyləyüb, ol üç bəg beş yüz-altı yüz adam gətürürlərdi və tövbə alub gedərlərdi. Dəxi həm böylə növbət ilən artuq-əksük gəlüb, tövbə silsiləsin dutub, tövbə qılurlardı və çün həzrət Şeyx (q.s.) tövbə ləfzin derdi, neçə xəlifələr qatı avaz ilən həm ləfzi söylər idi, ta ol silsilə dutanlar eşidib derlərdi. Və ol üç bəglərdən bir bəg müridləri həzrət Şeyxün yanından bir bəgə dəxi yetürüb, bir qövldən rəvayət qılub, bir qoşun dəxi alub gətürürdi və həm böylə ol qalın ol müridləri tövbəyə yetürürlərdi. Və həm bu ravilər dedilər kim, ol gündə tövbə alanlar altmış min, ya yetmiş min adam idilər və ol səfərdə çün həzrət Şeyx ol el ilə ulusların içindən ötər idi, oymağlular süfrələr ilə yeməklər tərtib edüb yolun üstündə hazır edərlərdi. Həzrət Şeyx (q.s.) anlara nəzər eyləyüb, genə həm ol xəlayiqə ulaşdurur idi və Seyyid Cəmaləddin ilə İsfahanlu Mövlana Şərafəddini yeməklər ilə süfrələrə durğuzmuş idi kim, səviyyət ilə paylasunlar. Və yolun hər yarım mildə bir süfrə türlü-türlü yeməklərdən həzə Şeyx (q.s.) yetmədin yolun üstündə hazır edüb döşəmişdilər. Həman kim həzrət Şeyxün nəzəri anlara yetər idi, xəlifələr anları xəlayiqə ulaşdururlardı. Və həm bu ravilər dedilər kim, bir gün sanaduk türlü-türlü yeməklərdən özgə, min büryan gətürmişdilər və halvalar ilə ballar həddən artuq. Əmir Çobanın bəglərindən birisi ol məcalda hazır idi. Ol halətləri görüb, mütəhəyyir olub dedi kim, əgər padşah Əbu Səid xanun buyruğı olsa, on gündə neçə mühəssillər ilən bu qədər yemək bəhrəm yetürəməzlər. Səltənət ilə padşahlığ budur, nə ol ariyət bəglik kim, özgələrdə var” (22).

Şeyx Səfiəddinin izdihamlı şəkildə qarşılanmasının biri də Darur kəndində olmuşdu. Şeyx Səfiəddinin bu kəndə gəlməsi xəbərini alandan sonra kənddən və onun ətrafından o qədər insan onun tövbəsini almağa gəlmişdi ki, sayı-hesabı da məlum deyildi. İzdiham elə böyük idi ki, hətta Şeyx Səfiəddinin olduğu məkanda onun həkətlərinə də çətinliklər yaradırdı. İnsanlar onu ziyarət etmək və ondan tövbə almaq üçün qərar tutduğu otağa daxil olmaq üçün cidd-cəhd göstərirdilər. Belə olanda Şeyx Səfiəddin qərara aldı ki, evin damı üzərinə qalxsın və oradan ziyarətə gələnləri tövbəyə gətirsin. "Səfvətüs-səfa" əsərinin verdiyi məlumata görə, Şeyx Səfiəddinin ziyarəinə o qədər insan gəlmişdi ki, onların ucunu-bucağını görmək mümkün deyildi və Şeyx də bütün bu insanları tövbəyə gətirməli oldu (23).

Bütün bunlar Səfəviyyə təriqətinin ictimai bazasının əsasını məhz Azərbaycan türklərinin təşkil etdiyini göstərir. Sözsüz ki, ətraf bölgələrdən də Səfəviyyə təriqətinə qoşulanlar var idi. Amma Şeyx Səfiəddinin dövründə onun rəhbəri olduğu təriqətin üzvlərinin çoxunun və böyük bir hissəsinin Anadoludan və ya İraqdan olması haqqında "Səfvətüs-səfa" əsərində hər hansı bir məlumatla rastlaşmaq mümkün deyil. Hətta bu əsərdə Anadolu arealına daxil olan məntəqlərin adları da demək olar ki, çəkilmir. Şeyx Səfiəddinin Məkkə səfəri zamanı Şam yolu ilə hərəkət etməsi haqqında "Səfvətüs-səfa" əsərində bir məlumat vardır. Həmin məlumatdan aydın olur ki, Şeyx Səfiəddinin sorağı Şama və onun ətrafına da çatmışdı. Şeyx Səfiəddin orada olarkən xeyli insan ondan töbə alıb Səfəvi təriqətinə qoşuldu. Elə bu məlumatdan aydın olur ki, Şeyx Səfiəddin Şama gələnə kimi bu şəhərdə və onun ətrafında Səfəviyyə təriqətinin müridləri yox idi: "Rumlu Mövlana İsa dedi: "Mövlana Səlahəddindən eşitdim kim, ol vəqt kim, Məkkənin səfərinə varurdum, Diməşqin şəhərində yetdim. Andakı müsafirlər dedilər kim, bir həzrət Şeyx Səfiəddini həzrət Süleyman nəbinin təxtgahında görüb xidmətinə müşərrəf olduk və gördük kim, anda taliblər ilə xəlayiqi tərbiyət verür idi və tövbə ilə təlqin zikrin təlim edər idi və biz dəxi tövbə qılduk. Diməşqlilər çün bu sözü eşitdilər və anda bir xacə kişi var idi yüz

əlli yaşlu, anun hüzurinə vardılar və bu sözləri ana təqrir qıldılar. Qoca kişi həman kim bu sözi eşitdi, kəndünün zəifligi ilə qoca olduğundan və yola getmədügündən çok həsrətlər yeyüb dedi: "Mən igən zəif olmışam və əcz ilə natəvanlığ mənüm məhrumlığımun səbəbi oldu, amma siz alimlər ilə salehlər varunuz və qulluğuna müşərrəf olunız". Bir cəmaət Süleymanın taxtgahına kim, Şamda bir bəllü yerdür, vardılar, həzrət Şeyxi anda gördilər və dəstbusinə sərəfraz oldılar və tövbə ilə təlqin aldılar. Ziyarətdən sonra həzrət Şeyxdən rüxsət alıb Diməşqə qayıtdılar. Anlar dəxi gördükləri hekayətlədilər bir cəmaətə, dəxi həzrət Şeyxə. Həm oraya vardılar, amma həzrət Şeyxi anda görmədilər və ol dövlətdən məhrum qaldılar" (24).

Bu kimi məlumatlar da bir daha onu deməyə əsas verir ki, Şeyx Səfiəddinin rəhbərlik etdiyi Səfəviyyə təriqətinin ictimai bazasının Azərbaycandan kənarda axtarılmasının heç bir tarixi əsası yoxdur. Amma bu təriqətin vaxt ötdükcə çox böyük auditoriya qazanmasını da istisna etmək olmaz.

Xüsusilə, Şeyx Səfiəddinin həyatının sonlarına yaxın onun yaradıcısı olduğu təriqətin çoxlu sayda xəlifəsi Yaxın Şərq və eləcə də Afrikanın şimalına yayılaraq təriqətin əsaslarının təbliğinə başladılar və bunun nəticəsində bölgə ölkələrində Səfəviyyə təriqətinin davamçıları və müridləri daha da artmağa başladı. Bildirilir ki, bu müridlərin arasında bölgə ölkələrində hakimlik edən şəxslər də var idi. Şeyx Səfiəddinin xanəgahının söz-söhbəti o qədər geniş yayılmış və insanlar arasında hörmət qazanmışdı ki, zəmanəsinin böyük şairi Hafiz Şirazi də öz şeirlərinin birində buna işarə etmişdi. Beytlərinin birində Şərqin bu böyük şairi bildirirdi ki, ey səba, əgər Araz sahillərindən keçməli olsan, bu vadinin torpağını öp ki, nəfəsin də təravətlənsin (25).

Beləliklə, kütləviliyi Səfəvi təriqətinin mühüm xüsusiyyətlərindən biri idi. Bu təriqət çox böyük sayda insanları öz əhatəsinə toplaya bilmişdi. Sözsüz ki, bu kütləvilik ilk növbədə Səfəviyyə təriqətinin insanların dini-mənəvi ehtiyaclarına cavab verməsindən irəli gəlirdi. Məsələyə konkret şəkildə yanaşdıqda Səfəviyyə təriqətinin kütləviliyini şərtləndirən amillərdən (26)

biri onun dini dəyərlərə bağlılığı idi. Dinin ictimai və məişət həyatında çox güclü təsirə malik olduğu bir vaxtda Haqqın axtarışı, ibadətin icrası və insani davranışın nizamlanması istiqamtində dini biliklərə olan ehtiyaclar da artmaqda idi. Səfəviyyə təriqəti insanlara dini dəyərləri daha sadə, inandırıcı şəkildə çatdırmaqla onların dini-mənəvi ehtiyaclarına daha yaxından və daha səmimi şəkildə cavab verə bilirdi. Bu da insanların Səfəviyyə təriqətinə, Səfəviyyə təriqəti vasitəsilə dini dyərlərə bağlılığını daha da gücləndirirdi. Səfəviyyə təriqəti insanların dini biliklərə olan marağını ödəməyə qadir idi. Eyni zamanda təriqətin mürşidi olan Şeyx Səfiəddinin çox dərin bilik sahibi olması, həm də ona Tanrı kəramətinin lütf olunması insanların bu təriqətə olan bağlılığını artırırdı. Şeyx Səfiəddinin Tanrı kəramətinə malik olması həm də onun mürşidi olduğu təriqətin Tanrı yanında bəyənilməsi kimi qəbul edilirdi və ona görə də Səfəviyyə təriqətinə könüllü bir axın özünü göstərməkdə idi.

Səfəviyyə təriqətinə olan meylin həm də bir ictimai tərəfi var idi. Bu təriqət həm ictimai davranış normalarında bərabərliyin tərəfdarı olmaqla dünyəvi imkanlarına görə insanların bir-birindən fərqləndirilməsinin əleyhinə idi. Səfəviyyyə təriqəti insanların maddi və ictimai mövqeyinə və imkanlarına görə deyil, onların etiqadına, imanına, dini dəyərlərə bağlılığına görə qiymətləndirilməsinin tərəfdarı idi. Təriqət insanlara eyni mövqedən yanaşılmasına, ehtiyacı olanlara kömək göstərilməsinə, dini dəyərlərin ictimai davranışda əsas tutulmasına üstünlük verirdi.

Mütəxəssislərin fikrincə, insanların Səfəviyyə təriqətinə meylini artıran şərtlərdən biri də məhz bu təriqətin insanlara bərabər gözlə baxması, ehtiyacı olanlara kömək göstərilməsi idi. Şeyx Səfiəddin bu mənada özü bir nümunə idi və ehtiyacı olanlara kömək göstərilməsini o, dini-mənəvi borc kimi qəbul edirdi. Şeyx Səfiəddin bütün həyatı boyu digərlərinə kömək göstərilməsinə çalışmışdı və bu məsələdə də hər zaman səmimi olmuşdu. “Səfvətüs-səfa” əsərindən məlumdur ki, Şeyx Səfiəddin malik olduğu bütün nemətləri ətrafdakılarla, ehtiyacı olanlarla bölüşürdü və dünyasını dəyişəndə də böyük borca malik idi. Bu borc

ehtiyacı olanlara kömək göstərilməsi üçün alınan borclar idi. Şeyx Səfiəddin hətta ona bağışlanmış kəndləri də xanəgah əmlakına çevirmişdi və həmin kəndlərdən və ona bağışlanmış digər torpaqlardan əldə edilən gəlirlər də möhtac olan insanlara paylanırdı. Yəni insanlar bilirdilər ki, təriqət əhli tərəfindən onların mənəvi ehtiyaclarından başqa maddi ehtiyaclarına da səmimiyyətlə yanaşılacaqdır.

Səfəviyyə təriqəti ilkin yaranışında siyasətdən uzaq idi və bu cəhət Şeyx Səfiəddindən sonrakı bir neçə nəsil boyu da davam etdirildi. Şeyx Səfiəddin saraylardan, siyasi idarəçilikdən uzaq bir adam idi. Lakin dövrün hakimləri ona ehtiramla yanaşırdılar, onun fikirləri ilə hesablaşırdılar və onun dediklərini qəbul edirdilər. Bu mənada Şeyx Səfiəddin ona müraciət edənlərlə bağlı dövrün hakimləri qarşısında müəyyən məsələləri də qaldırır və onlara müsbət cavab alırdı. Ona görə də mütəxəssislərin fikrincə, insanlar Şeyx Səfiəddinin simasında özlərinə bir dəstək də görürdülər və bu da onların təriqətə meylinə əlavə bir stimul olurdu.

Səfəviyyə təriqətinin çox böyük sayda insanları öz əhatəsinə cəlb etməsinə səbəb Şeyx Səfiəddinin nüfuzu ilə bərabər, həm də bu təriqətin ciddi dini-irfani əsaslara malik olması idi. Təriqətin qəbul edilməsi eyni zamanda bu əsasların qəbul edilməsi, həmin əsasların təsdiq edilməsi, onların rəhbər tutulması demək idi. Təriqət tərəfdarları şübhə etmirdilər ki, həmin əsaslara riayət etməklə, Haqq yolunda irəliləyə bilməklə maddi və batini dünyanı özlərinə təmin edə biləcəklər. Səfəvi təriqəti əsaslarının qəbul edilməsi həm də insan həyatının həmin əsaslar üzərində qurulması demək idi.

Mütəxəssislərin və tədqiqatçıların fikrincə, Səfəviyyə təriqəti aşağıdakı əsaslara dayaqlanmışdı və həmin əsaslar üzərində qurulmuşdu (27):

Səfəviyyə təriqətinin **ilkin və başlıca əsası** onun müqəddəs "Quran" kitabına və islam peyğəmbərinin hədislərinə və sünnətinə dayaqlanması idi. Bu fikri irəli sürən müəlliflər Səfəviyyə təriqətinin eyni zamanda həzrət Əlinin və onun övladlarının

buyuruqlarına istinad etməsini də bəyan edirlər. Şeyx Səfiəddin, sözsüz ki, böyük irfan əhli kimi islam müqəddəslərinə, peyğəmbər övladlarına sonsuz bir ehtirama malik idi. Lakin məlumdur ki, Şeyx Səfiəddinin şiə məzhəbinə mənsub olması tədqiqatçılarn çoxu tərəfindən qəbul olunmur və şiə məzhəbinə aid olan qeydlərin "Səfvətüs-səfa" əsərində verilməsi də bu əsərin sonralar köçürülmüş nüsxələrində öz ifadəsini tapdığı bildirilir. Qaldı, təriqətin "Quran" və islam peyğəmbərinin sünnətinə və hədislərinə istinad etmsinə, bu məsələdə hər hansı bir şübhə yeri yoxdur. Səfəviyyə təriqətinin və o cümlədən də Şeyx Səfiəddinin irşad fəaliyyətində başlıca məqsədi "Quran" buyruqlarının və sirlərinin, islam peyğəmbərinin buyuruqlarının, əməllərinin mahiyyətinin insanlara təlim edilməsi, bu yolla insanların Haqq yoluna çıxarılması idi. Təriqətin "Quran"a əsaslanmasından söz açarkən iki ayəyə istinad edilir. Birinci ayə "Quran"ın Maidə surəsinin 67-ci ayəsidir ki, həmin ayədə deyilir: "Ya Peyğəmbər! Rəbbin tərəfindən sənə nazil ediləni *("Quran"ı)* təbliğ et. Əgər *(bunu)* etməsən, *(Allahın)* risalətini *(sənə həvalə etdiyi elçilik, peyğəmbərlik vəzifəsini)* yerinə yetirmiş olmazsan. Allah səni insanlardan qoruyacaq". İkinci ayə də yenə Maidə surəsindən 3-cü ayənin son hissəsidir. Burada deyilir: "Bu gün dininizi sizin üçün kamil etdim, sizə olan nemətimi *(Məkkənin fəthi, islamın mövqeyinin möhkəmlənməsi, Cahiliyyət dövrünün bir sıra zərərli adətlərinin aradan qaldırılması və i. a. )* tamamladım və sizin üçün din olaraq islamı bəyənib seçdim" (28).

Bu ayələrdə islam dininin kamil bir din olması və bunun Tanrı tərəfindən təsdiqlənməsi və bu dinin müqəddəs kitabı olan "Quran"ın təbliğ edilməsi dini vəzifə kimi Səfəviyyə təriqətinin də qarşısında dayanan başlıca vəzifə idi. Məlumdur ki, "Quran" ayələrinin və bu ayələrdə gizlənmiş sirlərin açılması sahəsində Şeyx Səfəddinin xüsusi bu fəhmi var idi və onun islam irşadı da əsasən belə bir fəhm üzərində qurulmuşdu. Şeyx Səfiəddin din və şəriətlə bağlı olan fikirlərini də bir qayda olaraq "Quran" ayələrinə və islam peyğəmbərinin hədislərinə əsaslanmaqla açar və ya əsaslandırardı. Bununla bağlı istər "Səfvətüs-səfa" əsərində,

istərsə də onun adından toplanmış yazılarda çoxlu faktlar vardır. “Səfvətüs-səfa” əsərinin dördüncü hissəsi (bab) də, əsasən, Şeyx Səfiəddin tərəfindən “Quran” ayələrinin, peyğəmbər hədislərinin təfsirinə və onların dini həyatda əsas tutulmasına həsr edilmişdir.

Səfəvi təriqətinin **ikinci əsası** onun şəriətə-təriqətə-həqiqətə əsaslanmasıdır. Bu məsələdə hələ Səfəvi təriqətinin təşkilatlanmasından xeyli əvvəl fərqli yanaşma mövcud idi və bu fərqli yanaşmaların da öz tərəfdarları var idi. Şəriət, təriqət və həqiqət, ümumən, təsəvvüfə aid olan anlayışlardır. Bəzi mütəxəssislər onları təsəvvüfün qapıları, bəziləri mərhələləri, bəziləri də körpüləri adlandırırlar. Bütünlükdə, bu qapılar sufilərin Haqqa qovuşması üçün keçməli olduqları təsəvvüf mərhələləridir və onlar təsəvvüf üzərində qurulmuş Səfəviyyə təriqətinin də əsas məqamlarıdır.

Təsəvvüfün islam peyğəmbərinin dünyasını dəyişməsindən sonra islam aləmində baş verən proseslərə, haqsızlıqlara bir etiraz forması kimi meydana gəlməsi bildirilir. Xüsusi ilə Əməvilərin hakimiyyəti dövründə özünü göstərən ictimai-siyasi haqsızlıqlara qarşı ciddi bir tədbirin həyata keçirilməməsi insanların müəyyən qisminin tərkidünyalığına, cəmiyyətdən üz döndərməsinə yol açırdı və belə insanlar ümidində olduqları ədaləti, haqqı batini dünyada tapmağa çalışırdılar. İlk vaxtlar təsəvvüf anlayışı mövcud olmadığından zahid və abid kəlmələrindən istifadə edilmiş və insanlar arasında özünü göstərən bu cərəyan formalaşdqdan sonra təsəvvüf anlayışı da meydana gəlmişdi (29).

İnsanların ictimai dərdləri və axtarışları ilə səsləşdiyi üçün təsəvvüf meydana gəldiyi dövrdən genişlənməyə və daha çox insanı öz ətrafında toplamağa başladı. Bu fikir və əqidə birliyinin kütləviləşməsi tezliklə bu sahənin nəzəriyyələşdirilməsinə də zəmin yaratdı və təsəvvüfün böyük bilik adamları fikir dünyasına qədəm qoydular. Sufi həyat tərzini seçmiş insanlar üçün Haqqa qovuşmaq yolunda şəriət, təriqət və həqiqət qapıları əsas qapılar kimi qəbul edilirdi. Bu yolun yolçuları şübhə etmirdilər ki, həqiqətə yetişmək üçün şəriətə əməl etməklə təriqətdən keçməlidirlər. Bu mərhələlərin də öz məqamları var idi.

Təsəvvüfün **ilk qapısı şəriət qapısıdır**. Şəriət Allah tərəfindən müəyyənləşdirilmiş qanunlar, buyuruqlar və göstərişlər məcmusudur ki, islam peyğəmbərinin əməllərində, buyuruqlarında, ehkamlarında öz əksiuni taparaq insanların hidayət edilməsi üçün nəzərdə tutulmuşdur (30).

Başqa bir müəllifin fikrincə isə şəriət Allah tərəfindən vəhy vasitəsilə islam peyğəmbərinə çatdırılan və onun vasitəsi ilə insanlara bəyan edilən dini, mənəvi, əxlaqi hökmlər, buyuruq və göstərişlərdir (31).

Yəni şəriət müsəlmanların həyatı boyu əməl etməli olduqları dini qanunlar, göstərişlər, buyuruqlar məcmusudur. Bu göstərişlər və buyuruqlar Allahın müqəddəs kitabına dayaqlanıb və islam peyğəmbəri vasitəsilə insanlara çatdırlıbdır. Həmin göstəriş və buyuruqlara əməl edilməsi hər bir müsəlman üçün fərzdir. Irfan əhlinin fikrincə, şəriətin də təsəvvüfün digər qapıları kimi on məqamı vardır və həmin məqamlar müsəlmanların birmənalı şəkildə əməl etməli olduqları məqamlardır. Həmin məqamlar bunlardır: 1) iman gətirmək, 2) elm öyrənmək, 3)ibadət etmək, 4) haramdan uzaq olmaq, 5) ailəsinə faydalı olmaq, 6) ətrafdakılara zərər verməmək, 7) peyğəmbərin əmrlərinə itaət etmək, 8) şəfqətli və rəhimli olmaq, 9) təmiz olmaq və 10) yaramaz işlərdən çəkinmək (32).

İman gətirmək – Allaha, onun göndərdiyi kitaba, islam peyğəmbərinə inanmaq, etiqad etmək və inamı əməldə göstərməkdir; elm öyrənmək – biliklərə yiyələnməkdir. İnsanın imanının, etiqadının möhkəm və davamlı olması onun bilikləri ilə birbaşa bağlıdır və insanlara təlqin olunur ki, biliksiz insanın izlədiyi yolun sonu qaranlıq olacaqdır; ibadət etmək – Tanrı qarşısında öz borclarını yerinə yetirməkdir, Tanrı buyuruqlarının həyata keçirilməsidir, islamın fərzlərinə əməl edilməsidir; haramdan uzaq olmaq – hər bir insanın öz əməyi, zəhməti, biliyi ilə yaşaması və dolanışığını təmin etməsi, başqalarının zəhmətinin mənimsənilməsindn çəkinməsidir; ailəsinə faydalı olmaq – ailəyə doğru, düzgün dəyərin verilməsi, ailə qarşısındakı məsuliyyətin düzgün dərk edilməsi, həmin məsuliyyətə əməl edilməsidir; ət-

rafdakılara zərər verməmək – özünü təbiətin bir parçası hiss etmək, bu təbiəti qorumaq və təbiətdə onunla birlikdə olanların hüququnu pozmamaqdır; peyğəmbərin əmrlərinə itaət emək- islam peyğəmbərinin Allahın rəsulu olduğunu qəbul etmək, onun buyurduqlarına əməl etmək, onun göstərdiyi yol ilə getməkdir; şəfqətli və rəhimli olmaq – bütün insanlara bir gözlə baxmaq, dinindən, dilindən, irqindən asılı olmayaraq onlara ehtiramla yanaşmaq, hüquqlarına hörmət qoymaqdır; təmiz olmaq – insanın zahiri saflığı ilə daxili saflığı və ətrafının təmizliyinin qorunmasıdır; yaramaz işlərdən çəkinmək – şəriətlə haram buyurulmuş əməllərdən uzaq olmaq, ətrafdakıların hüquqlarını poza biləcək hərəkətlərə yol verməmək deməkdir (33).

Bu normalara riaəyət edilməsi həm hər bir müsəlmanın, həm də təsəvvüf yolunu tutan hər bir sufinin borcudur. Bu normalara əməl edilməsi həm də təsəvvüf yolunun ilk qapısı (mərhələsi) hesab edilir.

Təsəvvüfün **ikinci qapısı təriqətdir.** Təriqət Haqqa qovuşmaq üçün izlənilməli olan yoldur. Başqa bir fikrə görə, təriqət-Allahı tanımaq, tapmaq və ona qoşvuşmaq üçün riayət olunan ibadət yoludur. Bu yol dünyaya, maddiliyə dəyər verməyərək nəfsə üstün gəlinməsi, qəlbin təmizlənməsi və zahidanə həyat tərzinin seçilməsidir (34).

Təriqət Tanrıya qoşvuşmaq üçün adi bir yol deyil. Bu yol əsaslandırılmış, müəyyən bir toplum tərəfindən qəbul edilmiş bir yoldur və o, “Quran”la, islam peyğəmbərinin hədisləri ilə müəyyənləşdirilən bir yoldur. Bu yolun mahiyyəti ondan ibarətdir ki, Haqqa qovuşmaq istəyən sufi gərək 1) tövbə etsin, 2) mürşidin öyüdlərinə riaəyət etsin, 3) təmiz geyinsin, 4)yaxşı əməllər yolunda mübarizə aparsın, 5) xidmətdə dayanmağı sevsin, 6) haqsız əməllərə yol verməkdən qorxsun, 7) ümidsizliyə düşməsin, 8) ibrət götürsün, 9) səxavətli olsun və 10) özünü fəqir görsün (35).

Təriqət yoluna varmaq istəyən hər bir kişinin etmiş olduğu bütün günahlardan təmizlənməsinə, bu günahları şərtləndirən yollardan ayrılmasına, yeni bir yola daxil olmasına ehtiyac vardır. Tövbə etmək – günahlardan təmizlənmək, günahları yaradan

əməllərə bir daha qayıdış olmayacağını iqrar etmək, Tanrının buyurduğu düz yolda qalmaq deməkdir. Tövbə yalnız zahiri əməllərdən çəkinmək deyil, həm də fikirdə, etiqadda, inamda, batində bir təmizliyin aparılması deməkdir. Təriqət elə bir yoldur ki, onun düzgün izlənilməsi üçün məsləhətə, öyüdə, göstərişlərə, düzgün istiqamətlənməyə ehtiyac vardır. Bu yolun sınaqlarına, imtahanlarına necə sinə gərmək, qarşıya çıxan sınaqlardan necə çıxmaq, düzgün olan yolu necə müəyyənləşdirmək, mənası və mahiyyəti sirr olan mətləblərdən baş çıxarmaq üçün mürşid təliminə ehtiyac vardır. Mürşidin təlimlərini öyrənmədən, mürşidin buyurduqlarını qəbul etmədən təriqət yolu ilə irəliləmək də çətindir. Təmiz geyinmək təriqətin üçüncü məqamıdır. Təriqət əhlinin bir qayda olaraq oxşar və təmiz geyimi olurdu. Onlar üçün saçın kəsdirilməsi də məcburi sayılırdı. Zahiri səliqə və təmizlik sufinin batini təmizliyinə aparan bir zəmin kimi də qəbul edilirdi. Təriqət yolunun yolçusu üçün mühüm şərtlərdən biri onun nəfsinə üstün gəlməsi idi. Nəfsə üstün gəlmək dünya nemətlərinə olan ifrat meyillərdən uzaq olmaq, başqalarına qarşı qısqanclıq, paxıllıq, kobudluq, xəbislik kimi hisslərdən təmizlənmək demək idi. Bu təmizlənmə həm də insanın yaxşı əməllər uğrunda mübarizəsi xarakteri daşıyırdı. Yəni yaxşı əməllər uğrunda mübarizə insanın özünün nəfsinə qarşı mübarizəsindən başlayırdı. Təriqət yolunun yolçusu xalqa və başqalarına təmənnasız xidmət etməyi öz borcu saymalı idi. Xalqa edilən təmənnasız xidmət, əslində, Haqqa edilən xidmət kimi qəbul edilirdi və Haqq yolunda irəli atılan addım idi. Haqq yolunda olan insan isə bu yoldan yayınan əməllərdən uzaq olmalı, haqsız əməllərə yol verməkdən çəkinməli idi. Haqq yolunda olan yolçu ümidsizliyə də qapılmamalı, qarşıya çıxan bütün sınaqlardan bir çıxış yolunun olacağına ümid etməli, inanmalı və ibrət götürməli idi ki, hər əməldə Haqdan gələn bir qədər və qismət vardır. Nəhayət, təriqət yolunun yolçusu səxavət yolu ilə addımlayaraq insanlara əməli və məsləhətləri ilə faydalı olmalı, Allah eşqi ilə yaşamalı, öz varlığını Allah eşqinə bağlamalı, bir fəqir olaraq həyatının mənasını Allah eşqində görməli idi (36). Bütün bu məqamlara əməl edilməsi,

onlara etiqadla yanaşılması isə sufinin həqiqətə yaxınlaşması yolunda əldə edilmiş mühüm bir mərhələ idi.

Təsəvvüfün **üçüncü qapısı isə həqiqətdir**. Həqiqət qapısı bütün pərdələrin aradan qalxdığı, son məqsədə varıldığı, Haqqın tapıldığı bir qapı idi. Bu qapını açanlar bütün fikirləri və əməlləri haqq üzərində yenidən qurulmuş olanlar, Haqqa qovuşanlar, özünü Haqqın təcəllisi hesab edənlər idi. Bu qapını açanlar yalnız doğru əməllər sahibi idilər, onlar üçün artıq gizli sirlər mövcud deyildi, onlar yalnız doğru (savab) olanları dilə gətirməklə, doğru hərəkətə baş vuranlar idilər (37).

Həqiqət körpüsünün məqamları bunlardır: 1) açıq könüllü olmaq – insanlara qarşı səmimi olmaq, onlara yardımçı olmaq, təvazökarlıq etmək, insanlara fərq qoymadan hamıya kömək əlini uzatmaq, özünü kimsədən üstün tutmamaq; 2) kimsənin ayıbını görməmək – insanlarda ibrətverici cəhətləri önə çəkmək, başqalarının qüsurlu cəhətlərini axtarmaq yerinə öz qüsurlarının islahına çalışmaq, digərlərinin qüsurlarını yaymaq əvəzinə dostcasına onların aradan qaldırılmasına çalışmaq; 3) yaxşılıqları əsirgəməmək – ehtiyacı olanlara öz bilik və məsləhətləri ilə, öz əməlləri ilə yardım göstərmək, rastlaşdıqlarının çətin vəziyyətdə qalması ilə barışmamaq, xeyirxah əməllər nümunəsi olmaq, digərlərinə mənəvi və maddi dəstək olmaq üçün imkanlarını əsirgəməmək; 4) Allahın yaratdıqlarını sevmək – tövhidə, Tanrının təkliyinə etiqat etməklə, onun yaratdıqları hər şeyi həm yaradanın xatirinə, həm də yaradılanın xatirinə məhəbbətlə qarşılamaq, hər şeyə qarşı qəlbdə Allah sevgisi yaratmaq; 5) bütün insanları bir gözdə görmək – Tanrının yaratmış olduğu bir varlıq kimi bütün insanlara dinindən, dilindən, cinsindən, ictimai mövqeyindən, imkanlarındn asılı olmayaraq eyni gözlə baxmaq, sadalanan səbəblərə görə insanlara qərəzli yanaşmamaq, özünü yaradılmışların birisi hesab etmək, insanı sevmək; 6) birliyə doğru yönəlmək və yönləndirmək – vəhdəti-vücuda etiqad göstərmək, Allaha yaxın olmaq, Allaha qovuşmaq, Tanrının keyfiyyətlərini özündə əks etdirmək; 7) sirləri öyrənmək – sirli görünən bütün biliklərə yiyələnmək, onları təfəkkürdən keçirmək, batini

biliklərə varmaq, batini biliklərə yiyələnməklə başqalarının nüfuz edə bilmədiyi gizli sirlərə nüfuz etmək və onlara sahib olmaq; 8) özünə dönmək (seyri-süluku tamamlamaq). Seyri-süluku tamamlamaq, yəni salik insanı Haqqa qovuşmağa hazırlayan mənəvi-əxlaqi tərbiyəni başa çatdırmaq, cəhalətdən elmə, əxlaqi-zəmimədən əxlaqi-həmidəyə, öz varlığından Haqqın varlığına doğru irəliləmək və hərəkət etmək. Bəzi mütəxəssislərə görə, seyri-süluk dörd məqamda tamamlanır. Bu məqamların sayının çox olmasını iddia edən müəlliflər də vardır. Dörd məqam deyiləndə aşağıdakılar nəzərdə tutulurdu: a) Seyri-İlləllah (Tanrı yolçuluğu). Yəni, bütün maddiliklərdən uzaqlaşaraq Tanrının iradəsinə təslim olmaq; b) Seyri-Fillah (Tanrıda yolçuluq). Yəni, Haqqı özündə təcəlli etdirmək, Tanrının iradəsinə görə hərəkət etmək; c) Seyri-Məallah (Tanrı ilə birlikdə yolçuluq). Yəni Haqqa doğru yolçuluq, vəhdəti-vücuda qovuşmaq, mövcud olan hər şeydə Tanrının bir parçasını görmək; ç) Seyri-Ənillah (Tanrıdan yolçuluq). Yəni vəhdətdən (Haqdan) çoxluğa doğru başlanan yolçuluq, mənəvi yolçuluq, ruhlar aləmindən insanlara dönərək Haqqa qovuşmaq yolunu insanlara təbliğ etmək; 9) Haqqın sirrini öyrənmək və öyrətmək – Haqqa qovuşmuş sufinin nüfuz etdiyi ilahi sirləri Allahın varlığını təsdiq etməklə insanlara öyrətmək, əldə edilən bilikləri insanlara tapşırmaq, onların kamilləşməsinə yönəltmək; 10) Allahın varlığına qovuşmaq – yəni bəsirətlə, müşahidə və öyrənməklə Elmül-yəqinə (ağıl və fəhmlə Tanrı haqqındakı biliklərə yiyələnmək), Eynül-yəqinə (ilham və fitrət gözü ilə Haqq yolçusunun Tanrı sirlərinə yiyələnmək) və Haqqül-yəqinə (Allah elmi ilə elmlənib, Tanrı iradəsini qazanıb birbaşa Haqqı dərk etmək, başqalarının vasitəçiliyi olmadan Haqqı fəhm etmək) vaqif olmaq (38).

Elmi ədəbiyyatda həqiqət məqamlarının fərqli qruplaşdırılmasına və şərhinə də rast gəlmək mümkündür. Belə şərhlərdən birinə görə, həqiqət: “Birincisi, Haqq-Təalaya qovuşmaq və mərifət hasil etməkdir. Həzrət Peyğəmbərə (s.a.v) tabe olmaqla mövcudat sirlərindən xəbərdar olmaqdır. İkincisi, kimsəyə qarşı kobud söz və əməl nümayiş etdirməməkdir. Hənəfi, Şafiə,

müsəlman və ya yəhudi olsun, hər kəsi həqiqət nəzərində özü kimi aciz və çarəsiz görməkdir. Üçüncüsü, bütün yaradılmışlara və insanlara qarşı şəfqətli davranmaq, hər kəsə nəsihət və səxavət göstərməkdir. Dördüncüsü, təvazokar olmaqla hər kəsi əziz bilmək və kimsəni həqir sifətində görməməkdir. Beşincisi, riza və təslim ruhunda olmaqdır. Yəni Allah-Təalanın qədərinə razı olub bəlalarına boyun əyərək onlar qarşısında ağlayıb-sızıldamaqdansa, etiraza və inkara qapılmaqdansa səbr etməkdir. Altıncısı, təvəkkül etməkdir. Yəni digər dərvişlərin hər hansı bir yaxşılığı müzakirə mövzusu olması xaricində, canla-başla nəyə isə sarılmayıb öz nəfsi üçün çalışmamaqdır. Yeddincisi, dözümlülük göstərməkdir. Yəni hər hansı bir şəkildə xalq onu incidərsə, buna qarşı oxşar cavab verməməkdir. Çünki Allah-Təala onun qarşılığını verəcəkdir. Səkkizincisi, tamahını kəsməkdir. Çünki tamah fəsadı çox olan içki kimi bütün pisliklərin anasıdır. Doqquzuncusu, qənaətdir. Yəni qərar tutduğu vəziyyətdən Haqq-Təalanın xəbərdar olduğunu bilərək ruzi üçün qayğı çəkməməlidir. Onuncusu, təmkinli olmaqdır. Yəni öz halında sabitqədəm və müstəqim olmaqdır. Daim şövq və zövq içində yoluna davam edib geri dönməməkdir. Əgər dönəcək olursa Haqqa qovuşması gerçəkləşməyəcəkdir. Çünki Haqqa qovuşan insan arxasına baxmamalıdır. Ona görə ki, o artıq bu aləmdən deyil" (39).

Təsəvvüfün bu üç qapısı və onun məqamları Şeyx Səfiəddinin rəhbəri olduğu Səfəviyyə təriqəti üçün də xarakterik idi və bu təriqətin şəriət, təriqət və həqiqət vəhdətinə əsaslanmasının iddia edilməsi heç də təsadüfi deyildi. Çünki bu vəhdətdən yayınma halları mövcud idi və onun da müəyyən səbəbləri var idi.

Araşdırmalar göstərir ki, təsəvvüf meydana gələndə o, bütünlüklə "Quran" buyuruqlarına, islam şəriətinə dayaqlanırdı və bütün fəaliyyət də islamın köklü dəyərləri üzərində qurulmuşdu. Lakin vaxt ötdükcə bu cərəyanda fərqlənmə, fərqli yanaşma, düşüncə və əməl fərqliliyi özünü göstərməyə başladı. Sonradan bu fərqlilik hətta nəzəriyyələşdirmə həddinə yüksəldi. Təsəvvüf əhlinin dini-mənəvi baxımdan əhalinin digər təbəqələrindən mü-

əyyən fərqliliyə malik olduğu məlumdur. Bu yolun yolçuları maddi dünyanı nisbi qəbul etsə də, digərlərini mövqeyindən asılı olmayaraq eyni gözdə görsə də təsəvvüf daxilində bir ierarxiya mövcud idi. Təsəvvüfə dayaqlanan təriqətlər daxilində mürid-mürşid məsələsi də mövcud idi və mürşidə bütün varlığı ilə tabe olmaq, iradəsini onun iradəsinə tabe etdirmək təsəvvüfün zəruri məqamlarından biri kimi qəbul edilməkdə idi. Ona görə də sufilər təriqət rəhbərliyinin iradəsini qəbul etməli, Haqq axtarışında onların müəyyənləşdirdiyi xətlə irəliləməli idilər. Bir sıra sufi şeyxləri isə belə hesab edirdilər ki, təriqət qapısını açmış olan sufilər Allaha qovuşmaq üçün nəfsə üstün gəlməklə, günlərini zöhd və riyazətdə keçirməklə, maddi dünyadan imtina edərək batini dünyaya qapılmaqla məqsədlərinə çata bilərlər. Bu isə təriqət şeyxlərində belə bir qənaət yaradırdı ki, təriqət qapısının məqamlarını adlamaqla Haqqa qovuşmaq olursa, onda daha şəriətə riayət etməyə ehtiyac yoxdur. Bu fikrin tərəfdarları hətta namaz qılmağa, oruc tutmağa və islam şəriətindən irəli gələn digər fərzləri yerinə yetirməyə ehtiyac görmürdülər (40).

Qeyd edilməlidir ki, bu məsələdə sui-istifadə hallarının olması da istisna deyildir. Bir zamanlar yetkin və kamil olmayan sufi xəlifələri və müəyyən mərtəbəyə çatdığını iddia edənlər təsəvvüfün mahiyyəti ilə səsləşməyən iddialar irəli sürür, bu iddiaların sufilər tərəfindən qəbul edilməsinə nail olur və beləliklə də, islam dəyərlərinə ziyan vururdular. Müəyyən dövrlərdə hətta sufi şeyxləri ilə islam arifləri arasında fikir qarşıdurmasının olması halları da bəllidir. Bu qarşıdurmaya səbəb olan br sıra konkret məqamları var idi ki, onlardan bəziləri belə idi: islam arifləri (şəriət tərəfdarları) təsəvvüfün vəhdəti-vücud fəlsəfəsini qəbul etmirdilər və bu fəlsəfəni şəriətdən yayınmaq kimi dəyərləndirirdilər. Vəhdəti-vücud fəlsəfəsinin tərəfdarları (sufilər) bütün yaradılışı yaradanın təcəllisi və bir parçası sayırdısa, islam arifləri yaradanla yaradılan arasında aydın sərhəd olduğunu bildirirdilər. Sufilər “Quran”ın müxtəlif ayələinin təfsiri zamanı bu ayələrin dərinliklərində gizlənmiş batini mənaların olduğunu və onları üzə çıxarılması zəruriliyini deyirdilərsə, islam arifləri

“Quran” ayələrindən müstəqim nəticələrin çıxarılmasına tərəfdar idilər. Sufilərin dinlər arasında bərabərlik işarəsi qoymaq barədə də fikirləri var idi. İslam arifləri bu fikri də qəbul etmirdilər. İnsanların təriqət əhlinə qoşularaq məscidlədən yayınmaları, xəlvətlərə çəkilmələri islam arifləri tərəfindən dində təfriqə halı kimi də dəyərləndirilirdi.Təsəvvüf əhlinin müəyyən ayinlərin icrası zamanı rəqs etməsi, musiqidən istifadə etməsi kimi hallar da islam arifləri tərəfindən qəbul edilmirdi (41).

Qarşılıqlı narazılığa səbəb olmuş digər məqamları da sadalamaq mümkündür. İslam arifləri müəyyən hallarda təsəvvüfə dayaqlanan təriqətləri dində təfriqə salan cərəyanlar kimi də qəbul edirdilər. Nəticədə, islami dəyərlərin başa düşülməsində fərqli yanaşmalar ortaya çıxmışdı. Şeyx Səfiəddinin rəhbərlik etdiyi Səfəviyyə təriqətinin mühüm xüsusiyyətlərindən biri bu idi ki, şəriət təriqətdən ayrı görülmürdü və Səfəviyyə təriqəti şəriət, təriqət və həqiqətin vəhdəti üzərində qurulmuşdu. Təriqətin bu vəhdət üzərində qurulması Şeyx Səfiəddinin islam dininin dəyərlərini dərindən bilməsi ilə bağlı idi. Ümumən, Şeyx Səfiəddin islam dünyasının böyük ariflər nəslinin son yadigarlarından idi ki, rəhbəri olduğu təriqət daxilində islamda özünü göstərən yayınmaların qarşısını aldı və islamın doğru və düzgün əsaslarını qoruyaraq cəmiyyətdə onun irşadını apardı.

Səfəviyyə **təriqətinin üçüncü əsası** onun eşq və zöhdə dayaqlanmasıdır. Təriqətin üzvləri və onun mürşidləri belə hesab edirdilər ki, bütünlükdə islam dini eşq üzərində qurulubdur. Bu eşq hər şeydən əvvəl xaliqlə məxluq arasında olan eşqdir. Xaliqini tanımaq istəyən insan ona qarşı qəlbində bir eşq formalaşdırmalı idi. Yəni Tanrıya bağlılıq insanın varlığını istiqamətləndirən güclü bir hissə çevrilməli və Allha bağlılıq ötəri, keçici xarakter daşımamalı idi. Əks təqdirdə, Tanrını dərindən tanımaq, ona qovuşmaq mümkün deyildi. Zöhd də insan qəlbindən dünya bağlılıqlarının çıxarılmasını, insan qəlbində yalnız Allaha olan bağlılığın, eşqin, mehr və məhəbbətin yaranmasını nəzərdə tuturdu. Zöhd təriqət yoluna qədəm qoymuş sufilər və taliblər qarşısında dayanan sınaqlardan biri idi və bu sınağa üstün gəlməklə,

qəlbdə yalnız Allah eşqini hakim etməklə batini dünyaya sahib olmaq mümkün idi. Bunun əldə edilməsi üçün isə sufilər öz mürşidlərinin rəhbərliyi altında addım-addım məqsədə doğru irəliləyirdilər. Bildirilirdi ki, eşq məhəbbətin yüksək dərəcəsidir və yalnız bu eşqə sahib olmaqla Allaha bağlanmaq olar, Allah yolunda irəliləmək və nəhayətdə Allaha qovuşmaq olar. Sufilər şübhə etmirdilər ki, bu eşq, əslində, qarşılıqlıdır. İnsan Tanrıya qarşı eşq yolunu tutursa, Tanrı da öz məxluqlarına eşqlə yanaşır, məxluqunun eşqini cavabsız qoymur. Təriqət eşqi yalnız məxluqun xaliqə olan eşqi deyil, məxluqun bütün məxluqata, bütün yaradılışa olan eşqini nəzərdə tuturdu. Hər bir insan özünə qarşı necə eşq, məhəbbət və hörmətlə yanaşılmasını arzu edirdisə, canlı-cansız bütün yaradılışa qarşı da həmin mehr və məhəbbəti nümayiş etdirməli idi. Yəni Səfəviyyə təriqətinin talibləri və müridləri üçün Allaha, onun peyğəmbərinə, onların buyuruqlarına olan eşq, Allahın yaratdıqlarına qarşı olan eşqlə tamamlanmalı idi (42).

Səfəviyyə təriqətinin **dördüncü əsası** zikr, fikir və əməl birliyinin olması idi. Zikr etmək müəyyən vaxtlarda Allahın adının və eləcə də müəyyən duaların avazla və ya səssiz şəkildə təkrarlanması ilə bütün təriqətlərin (43), o cümlədən də Səfəviyyə təriqətinin mühüm əsaslarından birini təşkil edir. Zikrin başlıca məqsədi insan qəlbində Tanrı eşqinin, Tanrıya bağlılığın yaradılması, insan qəlbində batini dəyişikliklərin yaradılması, ilahi etiqadın formalaşdırılmasına doğru addım atılması idi. Zikrdə bir zahirilik görüntüsü olsa da, onun həyata keçirilməsində məqsəd yalnız Tanrının adının, islami dəyərlərlə bağlı olan duaların təkrarlanması deyil, təkrarlanan məfhumun əqidəyə çevrilməsinə zəmin yaradılması idi. Ona görə təsəvvüfdə zikr mühüm əhəmiyyət kəsb edir və insanın daxilinin təmizlənməsi, tədricən dərin etiqadın formalaşması üçün zikrin davamlı şəkildə həyata keçirilməsinə ciddi əhəmiyyət verilirdi.

“Qurani-Kərim”də zikr kəlməsi və anlayışı 250 dəfədən çox təkrar olunmuşdur. Bu özü də zikrin islami etiqadın formalaşmasında əhəmiyyətinin göstəricisi sayıla bilər. Tanrı da

“Quran”da əksini tapmış bu anlayışla bəndələrinə zikrin xüsusi əhəmiyyət kəsb etdiyini çatdırmışdır. Zikrin anıldığı “Quran” ayələrindən bəziləri belədir (44): **İman gətirənlərin qəlblərinin Allahın zikri və haqdan nazil olan** (“Quran”) **üçün yumşalması vaxtı gəlib çatmadımı?!”** (əl-Hədid surəsi, 16-cı ayə); **“Allahı zikr etmək** (Allahın cəlalını və əzəmətini həmişə, hər yerdə yada salmaq), **şübhəsiz ki,** (savab etibarilə bütün başqa ibadətlərdən) **daha böyükdür”** (əl-Ənkəbut surəsi, 45-ci ayə); **“Belə olduqda siz** (itaətlə) **Məni xatırlayın ki, Mən də sizi yada salım! Mənə şükür edin, Məni danmayın!”**(əl-Bəqərə surəsi, 152-ci ayə). **“Yeddi göy, yer və onlarda olanlar** (bütün məxluqat) **Allahı təqdis edir. Elə bir şey yoxdur ki, Allaha tərif deyib Ona şükür etməsin, lakin siz onların** (dillərini bilmədiyiniz üçün) **təqdisini anlamazsınız.** (Allah) **həqiqətən, həlimdir, bağışlayandır!”**(əl-İsra surəsi, 44-cü ayə).

Təsəvvüfün böyük şeyxlərindən olan Seyid Yəhya Bakuvi də zikrin sufi həyatındakı təsirini yüksək qiymətləndirirdi və onun həyata keçirilməsinin əhəmiyyətini qeyd edirdi: “Zikri çox etməklə zakirin qəlbindən pərdələr qaldırılar, cəlal və əzəmət açılar. O zaman cəlal ilə əzəmət üzrə sidq bəsirəti açılar. ...Nə zaman ki, qul bu məqama çatsa, davadan bizar olar. Məhəbbəti Haqq Təala ilə olar. Haqq Təala bu qulunu sevər, bu qul da Haqq Təalanı sevər” 45).

Zikr zamanı müsəlmanın qarşıya qoyduğu məqsəd maddilikləri unudaraq qəlbində yalnız Allaha yer verməkdir. Bu ayinin icrası zamanı daha çox “La ilahə illəllah” ifadəsi təkrar olunurdu. Bir məlumata görə bu ifadənin zikrin əsasını təşkil etməsi islam peyğəmbəri tərəfindən buyurulmuşdur. Ona görə də təriqət əhli arasında zikrlər, bir qayda olaraq, məhz bu ifadənin təkrar edilməsi ilə başlanırdı (46).

Zikrin fikrə çevrilməsinin, əqidə kimi formalaşmasının əhəmiyyətini Şeyx Səfiəddin də qeyd edirdi. Onun da buyurduqlarından alınan nəticə budur ki, zikrin icra olunması vacibdirsə, onun fikrə və əqidəyə çevrilməsi də vacibdir. Yəni zikrlə zikrin əqidəyə çevrilməsi bir-birini tamamlamalıdır. Soruşanda ki, əh-

li-zikr kimlərdir? Şeyx Səfiəddin belə cavab verirdi: “Həzrət Şeyx (q.s.) buyurdu: “Anlar “la ilahə illəllah”un əhlidürlər, yok həman dil ilən demək, bəlkə “la ilahə illəllah”un mərifəti əhli, yəni anlar ki, bilici olalar, “la ilahə illəllah”a andan ötrü kim, “la ilahə illəllah” deyənlər özgədürlər və “la ilahə illəllah”un mərifətinə arif olanlar özgə və anlar ki, bu sifət ilən mövsufdurlar, anların əli Tanrının əsrarı xəzinəsinə yetüpdür. Çün anlar əhldürlər, hər nəstə kim, anlardan sual qılalar, əgər bilməyələr, Tanrıdan məlum edüb cavab verələr” (47).

Göründüyü kimi, Şeyx Səfiəddin də “la ilahə illəllah” ifadəsini sadəcə zikr edənlərlərlə onun mərifətinə arif olanlar arasında fərq qoyurdu. Sonra da əlavə olunurdu ki, bu zikrin mərifətinə arif olanlar əlləri Tanrı xəzinəsinə yetmiş insanlardır.

Şeyx Səfiəddin zikrin formal xarakter daşımasını doğru saymırdı və buyururdu ki, zikr insanın bütün varlığı ilə icra edilməli və onun varlığına hakim kəsilməlidir. Yalnız bu yolla zakir adam öz məqsədinə yetişə və qəlbində Allah sevgisini yetişdirə bilərdi.”Həzrət Şeyx buyurdu: “Əl-ləzinə amənu və tətməinnu qülubühüm bizikrullahi ə la bizikrüllahi tətməinnül -qülubü” (O kəslər ki, Allahı zikr etməklə ürəkləri rahat olduğu halda iman gətirmişlər. Qəlblər yalnız Allahı zikr etməklə aram tapar - Rəəd surəsi, 28-ci ayə). Könlün istiqaməti Tanrınun zikri ilən olur, amma həman bu demək ilən dəgül, bəlkə ol qədər zikr eyləsün kim, gövdəsinün tüklərin hər biri bir dil olub, zakir ola, andan sonra istədügünə yetər. Və munun misalı ana bənzər kim, kişi qupquru yabanda susız qalub sunun tələbində pərişan olubdur. Həman sunun adın aparma ilən susızlık andan bərtərəf olmaz və suya yetməyincə və sudan içməyincə susız qalacaqdur. Bəli, gərək kim, vüsal susızlığı ana qalib olub, sövq ilə iztirabı arta, ol qədər kim, Tanrınun vüsalı hasil olsun. Pəs, ol könül təsəllisinün bir xass nuri var kim, həman ki ol nur könülə enə, könlün itminanı, yəni təsəllisi hasil olur” (48).

Şeyx Səfiəddin buyururdu ki, zikr son nəhayətdə zakiri Allah vüsalına çatdırmalıdır. Allah vüsalına yetmək isə həm də Allahın buyurduqlarına əməl etmək demək idi. Bu mənada Sə-

fəviyyə təriqəti digər təriqətlər kimi, zikrin, Allah sevgisinin həm də əməldə, insanların həyatında, davranışında özünü göstərməsini vacib sayırdı. Yəni zikr və əməl bir-birini tamamlamalı idi. Allaha qovuşmağın yolu da zikr və əməlin vəhdətindən keçirdi.

Səfəviyyə **təriqətinin beşinci əsası** onun ictimai əxlaqa dayaqlanması, insansevərlik üzərində qurulması idi. Yuxarıda qeyd edildiyi kimi, təriqət yolunun yolçusu Allahını sevdiyi kimi Allahın yaratdıqlarına da oxşar sevgi nümayiş etdirməli idi. Məlumdur ki, təsəvvüf əhli bütün insanları bir gözdə görürdü və bir gözdə görməyə borclu idi. İnsana məhəbbət təsəvvüf əhli üçün Allaha məhəbbət qədər mühüm idi. Bu hisslər də bir-birini tamamlamalı idi. İnsanı sevmək, insanlara hörmət və ehtiramla yanaşmaq təsəvvüf yoluna qədəm qoyanlar qarşısında qoyulan mühüm tələblərdən biri idi. Bu tələbə əməl etmədən təsəvvüf yolu ilə irəliləmək, təsəvvüf qapılarını adlamaq mümkün deyildi. Taliblər və müridlər zöhd və riyazəti tamamladıqca, nəfsin idarə edilməsinə nail olduqca dünyaya bağlılıqlarından uzaqlaşmalı və onların qəlbində rəhmlilik, səxavət, ehtiram, ətrafdakılara sevgi kimi hisslər daha da möhkəmlənməli idi. Həmin hisslər isə insanlara sevgini gücləndirməli, savab işlərə meyli daha da artırmalı idi. Şeyx Səfiəddinin həyatı da bütünlüklə insanlara sevgi üzərində qurulmuşdu. Yuxarıda toxunulan faktlardan da aydındır ki, o, bütün var-yoxunu ehtiyacı olanlara xərcləməkdən çəkinməzdi və hətta dünyasını dəyişəndə də dünyanı borcla tərk etmişdi. İstər onun buyurduqlarında, istərsə də təriqətlərlə bağlı olan arif şəxslərin risalələrində ictimai əxlaq baxımından islam peyğəmbərinin həyatı nümunə göstərilirdi və insanlar da bu əxlaqdan nümunə götürməyə, bu əxlaqı davam etdirməyə dəvət edilirdi.

Əslində, Şeyx Səfiəddinin öz həyatı da insansevərliyin bir nümunəsi idi. Onun ətrafdakılara səmimiyyətlə, sevgi və məhəbbətlə yanaşmasının nəticəsi idi ki, həm nüfuzu günü-gündən artmaqda idi, həm də onun ətrafında birləşənlərin sayı çox idi.

İnsana məhəbbət və ehtiram təriqət başçısı kimi Şeyx Səfiəddinin davamlı olaraq təlqin etdiyi mühüm dəyərlərdən biri idi.

Səfəviyyə **təriqətinin altıncı əsası** mərifət və ondan doğan eşq idi. Mərifət təsəvvüfə aid, kəşf yolu ilə əldə edilən mənəvi-ilahi bilgi idi. Bu mənəvi və ilahi bilgini sufilər, adətən, ruhani halları yaşamaqla, daxili təcrübə və vasitə olmadan əldə edirdilər (49). Bir çox alimlər və təsəvvüf əhli mərifəti təsəvvüfün qapılarından, mərhələlərindən biri kimi də qəbul edirdilər. Yəni bildirilir ki, təsəvvüf yolu ilə Haqq yoluna qədəm qoyanlar şəriət və təriqət qapılarını adlamağa nail olduqdan sonra mərifət qapısını açmalı olurlar. Bu fikrə görə, şəriət və təriqət mərhələlərində sufilər öyrənə bildiklərini mərifət mərhələsində ortaya qoya bilməli idilər.

Şəriət, təriqət və həqiqət kimi mərifətin də on məqamının olduğu bildirilir. Həmin məqamlar bunlardır (50): 1. Ədəbli olmaq (ədəbli, əxlaqlı olmaq, başqalarının haqqını pozmamaq, haqsızlığa dözməmək, kömək istəyənlərə kömək əli uzatmaq, düşmənçiliyi və nifaqı rədd etmək və dostluğa üstünlük vermək, özünə qarşı olunan haqsızlıqları təkrarlamamaq və başqasına rəva görməmək, dedi-qodu, qeybət, yalan danışmaq kimi əməllərdən uzaq olmaq, nəfsi idarə edə bilmək, nəfsin girdabından uzaq olmaq və nəfsdən uzaq həyat sürmək, dilinə, sözünə, əməlinə, ailəsinə sadiq olmaq). 2. Kin və qərəzdən uzaq olmaq (eqoist duyğulardan uzaq olmaq, mənəm-mənəmliyin yarada biləcəyi fəsadları önləmək, kin və küdurəti tərk etmək, qərəzə son qoymaq, bütün insanlara qarşı sevgi və ehtiram hissləri ilə yaşamaq, insanlara qarşı savab əməllər barəsində düşünmək). 3. Pəhrizkarlıq (təsəvvüf yolunda uğurla irəliləyə bilmək, nəfsi idarə edə bilmək, israfçılıqdan çəkinmək. Bu məqam batini məna da kəsb edir. Bu məqamla sufidən həm də sözündə, danışığında pəhrizkarlıq tələb olunurdu). 4. Səbir (Haqq yolunda irəliləyərkən dözümlü olmaq, qarşıya çıxan sınaqlara sinə gərmək, məhrimiyyətlərə qatlaşmaq, Tanrıya pənah aparmaqla ümidlə, ardıcıl olaraq yolunu davam etmək, məqsədə çatmaqda israrlı olmaq, iradə nümayiş etdirmək və məqsədə çatmağın mümkünlüyünə inan-

maq). 5. Təmkin (məsləhət olmayan bütün əməllərdən, hərəkətlərdən çəkinmək, onlardan kənar olmaq, izlənilən yolun tələblərinə uyğun olmayan işlərin icrasına görə məsuliyyət hiss etmək, qərar qəbul edərkən, fəaliyyətdə olarkən tələskənliyə yol verməmək və bunun sıxıntısını yaşamaq). 6. Comərdlik (sufinin malik olduğu dünyəvi və batini bilikləri, təcrübəni heç bir təmənna güdmədən layiq olan, arzusunda olan insanlara vermək, öz biliklərini kimsədən əsrigəməmək). 7. Elm (dünyəvi və batini biliklərə yiyələnmək, dini sirlərə bələd olmaq, bu sirlərin mahiyyətinin axtarışında olmaq. Təsəvvüfün şəriət qapısının (mərhələsinin) ikinci məqamı da elmlə bağlıdır. Lakin Mərifət qapısının eşqi daha dərin, daha zəngin, daha kamildir. Bu elm dünyəvi elmlərlə batini elmin bir-birini tamamlamasını, bu nəticənin mərifətdən doğmasını, ondan Allah lütfünün olmasını tələb edir). 8. Nikbinlik (izlənilən yolun tələblərinə qarşı inam və sədaqət, bütün varlığa qarşı xoş münasibət, sevgi və ehtiram göstərmək). 9. Özünü bilmək (bu məqam daha çox idrak kimi də xarakterizə edilə bilər. Özünü bilmək deyəndə insanın başa düşülməsi, dərk edilməsi, bunun davamı olaraq kainatın başa düşülməsi və dərk edilməsi nəzərdə tutulur). 10 Ariflik (dəruni keyfiyyətləri özündə əks etdirmək, fəhm ilə bir sıra mətləblərin sirrinə bələd olmaq).

İslam aləminin böyük sufisi Seyid Yəhya Bakuvi belə hesab edirdi ki, arif olmağın yeddi şərti vardır. Həmin şərtlər bunlardır: həmd, cəhd, qorxu, ümid, təvəkkül, ixlas, istiqamət. Onun fikrincə, arifliyin bu şərtləri "Quran"ın Fatihə surəsinin ayələrində öz əksini tapmışdı. Sadalanan şərtlərin olması isə mərifətin tamamlanması kimi qəbul edilirdi (51).

Haqqın mərifətinin əldə edilməsi daxili kəşflə, salik insanın mənəvi seyri-süluk yolunda Haqqa doğru irəliləməsinin elmi ilə əldə edilirdi. Mütəxəssislərin fikrincə, bu məqam sufinin daxili aləminin xüsusi bir halı idi, bu hal Tanrı ətası və Tanrıdan əta olunan bir (varidat) vergi idi. Şeyx Səfiəddin də bu fikrin doğruluğuna təkid edirdi və bildirirdi ki, varidat Tanrının sufiyə lütfüdür: "Həzrət Şeyx buyurdu kim, varidat Tanrının ətasıdır kim, könüldə keçirür kəsb etmədin. Və bu varidat ol çağ olur kim,

kimsənün bir elmi ilə mərifəti hasil olmuş ola və andan fəhm ilə irfanı kəsb etmiş ola və vəqt ola kim bir nur ola kim, enə, yoxsa bir lütf ola Tanrınun əflatından və vəqt ola kim, eşq ilə məhəbbətin odı ola. ...Və anun endügindən eşq ilə məhəbbətün odı çölə urur ya şadiliğ ilən qayğu səbəbsiz. Və vəqt olur kim, varidat ruhani olur və anun etdügindən bir fərəh ilə rövh ana yetər, ya yaxşı nəğmələrün üni eşidür. Və vəqt olur kim, ol kişiyə kim, varidat varid olur, bir ağırlıq zahir olur, eylə kim vəhy halətində həzrət Peyğəmbərə (s) sadir olur idi və zahirində bir incimək və fürumandəlik zahir olur. Amma həman kim ol halətdən qurtuldı, özində bir yüngüllik ilə şadiliğ və tərəb ilə ləzzətlər bulur. Və vəqt ola km, ol varidatı məlum eyləyə və vəqt ola kim, bilməyə” (52).

Göründüyü kimi, sufi tərəfindən mərifətin əldə edilməsini Şeyx Səfiəddin islam peyğəmbərinə verilmiş vəhy ilə müqayisə edir və bununla mərifətin sufi həyatındakı əhəmiyyətinə işarə edilir.

Mərifətin təsəvvüf əhli üçün necə hal olmasını Seyyid Yəhya Bakuvi belə təsvir edirdi: “İbrahim (ə.s.) Mərifət məqamına çatınca masivaullahı, yəni Haqqdan başqa bütün nəsnəni unutdu. Çünki: Mərifət Allahdan qeyrini unutmaqdır, dedilər. Məhəmməd ibn Fəzl dedi: Mərifət, Allah ilə bərabər olmaqdır. Əbülhəsən ən-Nuri dedi: Mərifət, Allahı vəhdaniyyəti ilə bilməkdir. Onun hər şeyin əvvəli və axırı olduğunu, hər şeyin Ona döndüyünü və Onun Həyy (diri) olduğunu bilməkdir” (53).

Səfəviyyə **təriqətinin yeddinci əsası** xəlvət və müraqəbədir. Xəlvət Səfəviyyə təriqətinin mühüm əsaslarından və şərtlərindən biridir. Haqqa qovuşmaq yolu da təriqət talibləri və müridləri üçün məhz bu məkandan başlayırdı və bu məkan, əslində, təriqət əhli üçün hər zaman öz mövcudluğunda qalırdı. Xəlvət – hərfi mənada gözdən-könüldən kənar bir yer, gizli bir yer, ətraf aləmdən təcrid olunmuş bir məkan, gediş-gəlişin az olduğu məkan, tənha bir məkan mənasındadır. Xəlvət, yəni talibin və müridin tənhalığa, kimsəsizliyə çəkilərək ibadətlə məşğul olduğu, təriqət ayinlərini icra etdiyi bir müqəddəs məkandır. Tə-

riqət mürşidlərinin və şeyxlərinin fikrincə, xəlvət elə bir məkan idi ki, orada müridlərin Haqqa qovuşması baş verirdi və ya Haqqa qovuşmaq yolunda ilk ciddi addımlar atılırdı. Təriqət yoluna qədəm qoyan talib və müridlər mürşidin və ya xəlifələrin rəhbərliyi altında Haqq yoluna qoşulmaq üçün tövbə aldıqdan sonra bir qayda olaraq xəlvətə çəkilir və könüllü şəkildə ətraf aləmdən təcrid olunaraq xanəgahların və ya təkyələrin xəlvət adlanan hücrələrində 40 günlük dua və ibadətlə məşğul olurdular. 40 gün ərzində xəlvətdə olduğu zaman müridlər nəfsinin idarə edilməsinə nail olunmasına çalışır, həmin günlər ərzində zikrlə, riyazətlə və müraqəbə ilə məşğul olurdular. 40 gün xəlvətdə olmaq ərbəin və çillə sözləri ilə də ifadə olunurdu (54).

Xəlvət, əslində, nisbi bir məna kəsb edirdi. 40 gün xəlvətdə olmaq o demək deyildi ki, ərbəin keçirmiş mürid artıq təriqətin tələblərinə uyğun olaraq nəfsinə üstün gələ bilib, qəlbində Allah sevgisi bütünlüklə yer alıb və dünya maddiliklərindən imtina edərək batini aləmin işığına boyanıb. Bu keyfiyyətləri 40 gün ərzində formalaşdıra bilməyənlər üçün xəlvət sonradan yenə də davam edə bilərdi. Belə keyfiyyətləri özündə formalaşdıra bilənlər üçün də, əslində, xəlvət sonradan, bəlkə bütün həyat boyu davam edirdi.

Təsəvvüfə dayaqlanan böyük təriqətlərdən birinin rəhbəri olan Şəhabəddin Sührəverdi xəlvətin xüsusiyyətləri və ibrətləri haqqında belə yazırdı: "Əslində, sufilərin xəlvəti müəyyən müddətdə deyil, davamlı olaraq həyata keçirilir. Ancaq 40 gün müddətində olan xəlvət Haqqın lütflərinin doğulmasına, fütuhatının qəlbə mənəvi bilikləri gətirməsinin bir uyğunlaşma dövrüdür. Lakin təmiz qəlbə niyyət və ixlas ilə deyil, sırf xəlvətə girən sufilərin kəşf və kəramətlərə yetişdiklərini duyaraq onların mərtəbəsinə çatmaq üçün xəlvətə girənlər vardır ki, bu hərəkət, yolundan azmadır. Sufilər kəramətlər əldə etmək üçün deyil, nəfslərini tərbiyə etmək, ibadəti sırf Allaha görə qicra etmək, riyadan uzaq qalmaq üçün xəlvətə girərlər" (55).

Təriqət əhli üçün nəfsin idarə edilməsi, riyazət, müraqəbə sufinin bütün həyatı boyu davam etməli idi. Yəni sufi bütün

həyatı boyu Haqq yolunda addımlamalı, qəlbini Haqq sevgisi ilə formalaşdırmalı, riyazət çəkməli, müraqəbədə olmalı idi. Müraqəbə " hal əhlinə görə Allahdan qeyi hər şeydən əlaqəni kəsərək qəlbən Cənabi-Haqqa yönəlmək, ilahi elmin hər şeyi əhatə etmiş olduğu inanc və mülahizəsi ilə nəfsini yasaq olunmuş şeylərə qarşı cilovlayıb həyatını Allahın əmrləri işığında yaşamaqdan ibarətdir. Təsəvvüf məktəbində bir müraqəbə üsulu vardır ki, gecə yarısı dizüstü oturularaq, vücudun heç bir üzvünü tərpətmədən, gözləri yummaqla əməl edilir. Sadəcə Allah düşünülür, 15 dəqiqədən 3 saata qədər bu duruma davam edən bu durumda dərvişə mənəvi aləmdən müxtəlif feyzlər gəlir" (56).

Xəlvət müridin öz Tanrısı ilə təkbətək qaldığı bir məkandır. Amma bu məkanda Tanrı sevgisini qazanmaq müridin öz istəyindən və iradəsindən asılı olurdu. Xəlvətə girmək özü də müriddən müəyyən bir daxili təmizlənmə tələb edirdi. Seyid Yəhya Bakuvinin fikrincə, xəlvətdə olmağın səkkiz şərti var idi: 1) davamlı xəlvət: xəlvətə davam gətirmək; 2) zikr: zikrə davam gətirmək; 3) vüzu: daim dəstəmazlı olmaq; 4) savm: oruclu olmaq; 5) sükut: daim susmaq; 6) nəfs: könlündən masivaullahı (Allahdan qeyrisini) çıxarmaq; 7) rəbt: əlaqə, sadəcə Allahı düşünmək və qəlbini ona bağlamaq; 8) etiraz etməmək: şeyxinə etiraz etməmək (57).

Başqa bir fikrə görə isə xəlvətin şərtləri aşağıdakılar idi:

- şeyxin nəzarətində olmaq;
- mülayim bir mövsümdə və tənha yerdə olmaq;
- müntəzəm şəkildə dəstəmazlı olmaq;
- müntəzəm şəkildə oruc tutmaq və axşam namazından öncə iftar etmək;
- yeməyi az yemək və mədənin 1/3-ini boş saxlamaq;
-Allah-təalanı zikr xaricində zərurət olmadıqca davamlı sükut etmək;
- müntəzəm şəkildə zikr və müraqəbədə olmaq;
- az yatmaq;
- istimdad və etiqad ilə öz şeyxinə könül vermək;

- qəlbə gələn düşüncələrin yaxşı və yaman olduğunu bilmək;

- qəlbə gələn şeytani düşüncələri dəf etmək (58).

Bir qayda olaraq mürid xəlvətə şeyxi tərəfindən müşayiət edilir, orada şeyx və ya mürşid tərəfindən müvafiq dua oxunur, xəlvətə girənə xeyir-dua verilir və bundan sonra xəlvətə girən tək buraxılırdı. Xəlvətə girən ehtiyac olmadığı təqdirdə xəlvəti tərk etməzdi. Onun yeməyi-içməyi də yanına gətirilərdi. Xəlvətdə olan adam bu zaman zikr, ibadət, sakit düşünməklə məşğul olardı. Qırx gün tamam olanda şeyx və ya mürşid yenidən xəlvətə qayıdar, qırx günün başa çatması ilə bağlı qurban kəsilər və bununla çillə başa vurulardı (59).

Qeyd edildiyi kimi, 40 gün ərzində xəlvət qarşısında qoyulan tələbləri yerinə yetirməyi bacarmayanlar da var idi. Beləlləri xəlvəti yenidən təkrarlamalı idi. Şeyx Səfiəddin də xəlvətin tələblərinə çox ciddi yanaşırdı. Onun fikrincə, xəlvət müridlərin imtahandan keçməsi üçün başlıca məkan idi və bu məkanın sınaqlarına sinə gərmək tələb olunurdu. Şeyx Səfiəddin onu da əlavə edirdi ki, müridin xəlvəti və ya mücahid adlanması üçün onun ən azı üç dəfə dəri-qabıqdan çıxmasına ehtiyac var idi (60).

Səfəviyyə **təriqətinin daha bir əsası** kimi mütəxəssislər tərəfindən təriqət və siyasət vəhdətinin olması göstərilmişdir (61). Bu məsələ ilə bağlı bildirilir ki, Səfəviyyə təriqətinin qarşısında dayanan məsələlərin həlli, düzlüyə, doğruluğa əsaslanan dini cəmiyyətin yaradılması üçün təriqətin siyasətlə əlaqəsi mümkündür. Bununla bağlı, Səfəvi dövlətinin məhz Səfəviyyə təriqətinə əsaslanan dini-siyasi ideologiya üzərində bərqərar olması göstərilir. Amma görmək çətin deyildir ki, siyasətin Səfəviyyə təriqətinin əsası kimi götürülməsi, bütünlükdə, dinin siyasətə qarışdırılması əməllərinə haqq qazandırılması istəyindən irəli gəlmişdir. Səfəviyyə təriqəti başlanğıcında siyasətdən kənar bir dini-mənəvi cərəyan kimi meydana gəlmişdi. Səfəviyyə təriqətinin dayaqlandığı Zahidiyyə təriqəti kimi Səfəviyyə təriqəti də siyasətdən uzaq idi. Sufilik, tərkidünyalıq, maddilikdən imtina edilməsi özlüyündə siyasəti inkar edirdi. Səfəviyyə təriqətinin

Səfəvilər dövlətinin dini-siyasi-ideoloji bazasını təşkil etməsi isə heç də təsəvvüfə dayaqlanan təriqətlər üçün xarakterik deyildir. Bu təriqətin dini-siyasi ideologiyaya çevrilməsi isə həmin təriqətin ömrünü davamlılığına müsbət təsir göstərmədi və vaxt ötdükcə zəifləməyə başladı.

Səfəviyyə təriqəti dünyəvi hakimiyyət ətrafında deyil, öz mürşidi ətrafında formalaşan bir təriqət idi. Bu təriqətin rəhbəri "pir" adlanırdı. Səfəviyyə təriqətinin müridi olmaq istəyən insanlar bölgənin çox yerlərində var idi və sözsüz ki, onların hamısının Şeyx Səfi xanəgahına toplaşması mümkün deyildi. Təriqətin yetirmələri olan xəlifələr yerlərdə təriqətin müridlərinə mürşidlik edirdilər. Beləliklə, bu təriqətdə özünəməxsus bir üçbucaq yaranmışdı - pir-xəlifə-mürid. Xəlifələr mömin, etiqadlı və etibarlı şəxslər kimi tayfaların rəhbərləri idilər və onlar pir ilə müridlər arasında əlaqələndirici bir bənd kimi qəbul edilirdilər. Xəlifələr yerlərdə pirlərin iradəsini və onun dini-mənəvi xəttini təmsil edirdilər. Bu cəhət xəlifələrdən həm bilikli olmağı, həm də lazımi təcrübəyə malik olmağı tələb edirdi. Onlar da öz pirlərinin iradəsini təmsil etdikləri üçün yerlərdə müridləri və dərvişləri tövbəyə gətirib onlara təlqin qıla bilərdilər. Bununla həmin müridlər də vəd edirdilər ki, gələcəkdə şəriətin rədd etdiyi əməlləri etməsin. Yəni bir daha günah qazanmasın. Bu təriqətin davamçıları dövrün bəzi təriqətlərinə mənsub olan dərvişlərdən fərqli olaraq ehsan toplamaqdan imtina etməli və dolanışığını öz işi və zəhməti ilə qurmalı, vaxtlı-vaxtında namazını qılmalı, ibadətini etməli və imkan daxilində savab işlərin icrası ilə məşğul olmalı, təmizliyə riayət etməli, təmiz paltarlar geyməli, dırnaqlarını vaxtında tutmalı, başını qırxdırmalı və sonra çilləyə oturmalı idilər. Ruhi çətinliklərlə qarşılaşdıqda təriqət üzvü dərdini və narahatçılığını şeyxlə, mürşidlə və ya onlar tərəfindən təyin olunmuş xəlifə ilə bölüşməli və onların məsləhətlərini almalı idi. Bu yolla mürşid də mürid və ya təriqət üzvünə vücudun sirləri, mənəviyyatın gizlinlərini çatdırmalı və onun kamilləşməsinə çalışmalı idi. Şeyx və ya xəlifə görəndə ki, çilləyə oturmuş mürid dünyanın maddiyatından uzaqlaşa bilmir, onda həqiqətlərin üzə çıxarılması

və kamilləşməsi üçün ona son irfani dərslər təlim edilir və sonra da müstəqil fəaliyyətə izn verilirdi. Mürid kimi öz təlim-tərbiyəsini tamamlayanlar sonradan ya yaşadıqları, ya da göndərildikləri bölgədə təriqəti artıq müstəqil şəkildə təmsil edir və müridlərin toplanması və öyrədilməsi ilə məşğul olurdular (62). Bu da son nəhayətdə təriqət üzvlərinin sayının artmasına gətirib çıxarırdı.

Müridlərin sayının artırılması Səfəviyyə təriqəti üçün məqsəd deyildi. Şeyx Səfiəddinin başlıca məqsədi insanların irşad edilməsi, onların haqq yoluna istiqamətləndirilməsi idi. Təriqət üzvlərinin artması könüllü bir proses idi. Bu təmayül həm də, yuxarıda qeyd edildiyi kimi, Şeyx Səfiəddinin möminliyi, onun biliklərinə və kəramətinə olan inamla bağlı idi.

Mənbələrin verdiyi məlumata görə, Səfəviyyə təriqətinin müridləri çox sadə həyat keçirirdilər. Səhərdən-axşama kimi onlar ünsiyyətdən uzaq olmağa çalışmaqla gün ərzində ən azı bir saat zikr edirdilər. Axşamçağı bu zikr yenidən təkrarlanardı. Axşam namazından sonra müridlər "Quran" oxumaqla məşğul olurdular. Onlar çox az miqdarda yemək yeyər və çox vaxt da oruc olardılar. Çilləyə isə, adətən, qışın əvvəlində otururdılar (63).

Ümumən, çoxlu zikr edilməsi Səfəviyyə təriqətinin əsas şərtlərindən biri idi. Zikrdən sonra müridlərdə daxili coşqunluq yarananda xüsusi qəvvallar sufiliklə bağlı olan şeirləri xoş avazla oxuyar və bununla müridləri daha da vəcdə gətirərdilər. Şeyx Səfidəddin də zikrdən sonra sufi şeirlərinin oxunması (qulaqasma) mərasimlərində bir çox hallarda iştirak edir və bununla müridlərin vəcdə gəlməsini daha da təşviqləndirərdi (64).

Şeyx Səfiəddin haqq yolunda göstərdiyi xidməti, ibadəti, mərifəti ilə Allah dərgahında uca məqama yüksəlmiş, Allahın kəramətini qazanmış bir müqəddəs kimi tanınmışdı. Hələ sağlığında ikən onun vasitəçiliyi ilə Allaha pənah aparanlar şəfa tapar və niyyət etdikləri işləri uğurla başa çatdırardılar. Əslində, Şeyx Səfiəddinin saf niyyətli olması, haqq qarşısında təmənnasız xidmətdə olması, əsil müctəhid həyatı sürməsi, imkansızlara kömək

göstərilməsini insani və ruhani vəzifəsi sayması, doğrunun və ədalətin keşiyində dayanması, islamın doğru yolunu insanlara təlqin etməyə çalışması Səfəviyyə təriqətinin kütləviləşməsinə yol açırdı. Onun təriqətinin əsaslarına yiyələnən müridləri və tərəfdarları da bu yolu davam etdirirdilər və bütün bunların nəticəsidir ki, Şeyx Səfiəddin yalnız dövrünün deyil, bütün dövrlərin böyük irfan və ilahiyyat əhli kimi tanınır.

## 2. Şeyx Səfiədinin fiziki və mənəvi keyfiyyətləri

Şeyx Səfiəddinin fiziki keydfiyyətləri haqqında «Səfvətüs-səfa" əsərində elə də çox məlumat mövcud deyildir. Amma bu əsərin bütün məzmunu ondan xəbər verir ki, Şeyx Səfiəddin kifayət qədər sağlam, inkişaf etmiş bədən quruluşuna və fiziki imkanlara malik olmuşdu. 85 il ömür sürməsi də Şeyx Səfiəddinin sağlam həyat sürməsindən və fiziki imkanlarından xəbər verir. Baxmayaraq ki, Şeyx Səfiəddin nəfsinə qalib gəlmişdi və dünya nemətlərinə, dünyanın maddiliklərinə dərindən bağlı deyildi. Təsəvvüf yolunu tutandan sonra onun yemək-içməyi xeyli sadələşmişdi, uzunmüddətli oruc tutardı. Bunlar da sözsüz ki, onun sağlamlığına təsir göstərirdi. Bununla belə, o, uzun bir ömür yaşaya bilmişdi.

Şeyx Səfiəddinin zahiri görünüşü haqqında adı çəkilən əsərdə Mövlana Cəlaləddin Ruminin dilindən müxtəsər məlumat verilmişdir. Bildirilir ki, Mövlanə Rumi belə bir insanın dünyaya gələcəyini öncədən görmüş və hətta onun zahiri nişanələrini də bildirmişdi. Onun verdiyi nişanələr belə idi: "...Pəs, həzrət Şeyx Səfiəddin (q.s.) hilyə ilə şəkli və vəzi təmam şərh etmiş kim, mübarək surəti ətlü ola və boyu orta və mütəhhər məhasini kəsif, gözləri kəhil, qaşları qəliz, alnının sağ tərəfində bir nişanə ola. Eşidənlər çün bu sifət ilə mənqəbəti eşitdilər və surət ilə sifət ilə sirəti dinlədilər, çün həzrət Şeyxi (q.s.) eynül-yəqin ilən görmüşdülər, təsdiq dilin açub sidq üzərindən "sədəqə vəliyüllah" dedilər ki, bu, ol qülubun qəbuli və məhbubun vəliyyidir" (65).

Bu nişanələrdən belə bir qənaət hasil olur ki, Şeyx Səfiəddin orta boylu, orta köklükdə, geniş sifətli, geniş alınlı bir insan olmuşdu. «Səfvətüs-səfa" əsərində Şeyx Səfiəddinin zahiri görünüşü haqqında bəzi digər məlumatlar da vardır. Həmin məlumatlar belədir: "Allah-təala ol həzrəti yigitlik çağında hüsni bəqayət görk yaratmış idi və cəmalı bir qayətdə idi kim, kəndü zəmanında Yusifi-sani idi və uşağlığ çağından büluğ həddinədək kəmali-ismət ilə təharətdə idi və həmişə mərifətün tələbində idi. Və çok dişi eli ol həzrətün məhəbbətindən əllərin xəbərsiz kəsərlərdi, amma ol həzrətün könli anlardan ürküb mütləqa heç hanğısına göz salmaz idi və anlar nə qədər kim məkr ilə qılarlardı, olay kim anı dama çəkələr, faidə verməyüb məqsudları hasil olmazdı, zira kim həzrət Şeyx (q.s.) kəndü nəfsi şəriətün qeydində müqəyyəd eyləmiş idi və məanisi bu zindanun quyısından çıxarmış idi və Misri-həqiqətdə yüz qoyub könül təxti öz təsərrüfünə gətürmiş idi. ...Və ol yigitliklə övliyaullahün nəzərində həm ol cəmal ilən mütəcəlli və həm ol kəmal ilən mütəhəlli idi, məhasini çıxınca və həzrət Şeyx Zahid (q.r.) mübarək nəzəri anun zahir cəmalı ilə batin kəmalında qılurdı. Beyt:

Sanasan can güzgüsi idi yuzi,
Canları bağışlar idi hər sözi.

Və taliblər ilə gərçək sufilər ol həzrətə Zeynəlməhasin derlərdi və həzrət Şeyx Zahidün (q.r.) xacəliği çağında çün zahir gözləri zəif olmış idi, gah-gah həzrət Şeyx Səfiəddini (q.s.) öz yanına oturtdurur idi və mübarək əli Şex Səfiəddinün (q.s.) məhasininə endürüb der idi: "Oğul, Səfiəddin, bitün zahir məhsusatdan sənün məhasimündən özgə heç nəstə mənüm xəyalumda qalmayubdur". Və həzrət Şeyx Səfiəddinün xacəliği çağında çün cəmalı Tanrının ənvarından münəvvər idi, yüzinə baxanlarun taqəti qalmaz idi və heç kimsənün könli riza verma idi kim, gözi anun yüzindən bir ləhzə qaldura və həmişə könülləri avlatmağ və canları müqəyyəd etməq işi idi" (66).

Şeyx Səfiəddin uşaq yaşlarından fiziki işlərə qatlaşmalı olmuşdu. Bir tərəfdən atasının dünyanı erkən tərk etməsi, bir tərəfdən də kənd mühitində böyüməsi onu fiziki işlərə alışdırmışdı.

Ümumiyyətlə, Şeyx Səfiəddin bütün həyatı boyü fiziki işlərlə məşğul olmağı sevər və özünü də "kəndçi oğlu" adlandırardı (67). Şeyx Səfiəddinin ailəsi həm əkinçiliklə, həm də heyvandarlıqla məşğul olurdu. Hətta Şeyx Zahidin yanında müridlik edəndə də Şeyx Səfiəddin fiziki işlərlə məşğul olur, mürşidinə məxsus əkin sahələrində işləməkdən məmnunluq duyardı (68).

Yuxarıdakı qeydlərdən də aydındır ki, Şeyx Səfiəddin Gilandakı müridliyi dövründə gündüzlər Şeyx Zahid xanəgahının təsərrüfat işləri ilə məşğul olar, gecələr isə ibadətini davam etdirərdi. Meşədən odun daşımaqdan Şeyx Səfiəddinin çiyinlərində şişlər də yaranmışdı. Bu işləri o könüllü şəkildə edirdi və halallıqla yaşamağı özü üçün vacib sayırdı.

Şeyx Səfiəddin ailəsinə mənsub olan əkin sahəsində də işləməyi xoşlardı. İstər Şeyx Zahid, istərsə də Şeyx Səfiəddin halal zəhmətlə dolanmağa üstünlük verirdilər və ona görə fiziki işlərdən də çəkinmirdilər.

Sağlam bədənə malik olduğu üçün idi ki, Səfiəddin gəncliyində çox yemək yeyərdi. Bununla bağlı «Səfvətüs-səfa" əsərində də müəyyən qeydlər vardır. Bu, sözsüz ki, Şeyx Səfiəddinin təsəvvüf yoluna düşməzdən əvvəlki illərə aid ola bilərdi. Həmin qeydlərdən biri belədir: "Pəs, Şeyxdən irəlü kəndlərə kim, ögünlərinə vaqe idi, varup qalın yeməklər tərtib edərdilər və ol qədər yeməklər kəndlərdə yığışdururlardı kim, çox kimsələrin yeygüsi olur idi. Həman kim Şeyx oraya qonar idi, öginə çəkərdilər. Həzrət Şeyx anları qamusun yeyər idi. Və bu təriq ilən Ərdəbilə yetdilər və yolda on üç kəndə yetdilər. Və hər kənddə beş-altı qoyun bişürürdülər və ol nuşi-can edərdi. Çün evinə girdi, əkmək bişürürlərdi, təndirin başında oturub, hər nə kim, təndirdən çıxarurlardı, yeyər idi, ta əkməkləri təmam oldı. Anası çün oğlını o halilə gördi, evində bir simiz böyük qoç dururdı, anı boğazlatdı və ətlərin qamusı bişürtdi və Şeyxün öginə çəkdi. Anı dəxi yedi və Şeyxdə çün odından içinə iztirab düşdü və çarəsiz qaldılar. Amma çün salikün sülukində böylə halətlər vaqe olur, mürşidi ana bir zikr təlqin edər və ol şu andan gidərür. Çün Şeyx Səfiəddində bu halət vaqe oldı və işi bir qayətə yetdi kim, həlaka

yaxın oldı, ol vəqtdə Şeyx Zahid gördi kim, gəlüb anı təlqinlərdi və ol halətdən qurtardı" (69).

Yuxarıdakı cümlələrdən göründüyü kimi, Şeyx Səfiəddin cavanlığında az qala bir məclisin yeməyini təkbaşına yeyə bilirmiş. Belə iştahalı insan, sözsüz ki, canlı bədənə malik idi.

Şeyx Səfiəddinin mənəvi keyfiyyətlərinə gəlincə isə, haqqında yazılanlar, söylənənlər bu və ya digər dərəcədə onun mənəvi dünyası ilə bağlı idi. Onun islam tarixinin zirvəsinə qalxması da elə mənəvi dünyası və zənginlikləri ilə bağlı idi. Bir tərəfdən sufi həyat tərzi, digər tərəfdən isə onun daxili keyfiyyətləri mənəviyyatını formalaşdıraraq zəmanəsinin ən böyük şəxsiyyətlərindən birinə çevirmişdi. Əsasını qoyduğu Səfəviyyə təriqəti də onun mənəviyyatının əməli təcəssümü idi və onun müridliyini qəbul etmiş saysız-hesabsız insanları birləşdirən də Şeyx Səfiəddinin mənəviyyatı idi.

Sözsüz ki, Şeyx Səfiəddinin mənəvi dünyasının, baxışlarının, istək və arzularının formalaşmasında ailə həyatının, mühitinin təsirini inkar etmək olmaz. O kifayət qədər tanınmış bir nəslin üzvü kimi dünyaya gəlmişdi və nəsildən gələn ənənələrdən zənginləşməklə, özü də bu ənənələri inkişaf etdirirdi. Səfiəddin atasını çox erkən yaşlarında itirmişdi. Onun atası ilə qarşılıqlı münasibətləri haqqında mənbələrdə xüsusi bir məlumata rast gəlmək mümkün deyil. Bununla belə, məlumdur ki, Şeyx Səfiəddin boynunda haqqı olanlara qarşı hər zaman minnətdarlıqla yanaşırdı və bu haqqın qarşısında özünü borclu sayırdı (70). Belə olan təqdirdə şübhə etmək olmaz ki, Şeyx Səfiəddin öz atasını da hər zaman minnətdarlıqla xatırlamışdı. O, ümumən, ailə dyərlərinə bağlı olan şəxs idi. Atasının yoxluğu zamanı ailənin güzəranı naminə ağır fiziki işlərlə məşğul olmaqdan çəkinməzdi.

Şeyx Səfiəddinin anasına, qardaşına olan münasibəti haqqında «Səfvətüs-səfa"da müəyyən qeydlərlə rastlaşmaq mümkündür. O, anasına sonsuz dərəcədə böyük məhəbbət bəsləyirdi. Anlamaqda çətinlik çəkdiyi məsələlər barəsində anası ilə məsləhətləşərdi, ondan nəsihətlər alardı. Bir dəfə Səfiəddin yuxusunda görür ki, Ərdəbil məscidinin minbərinin zirvəsindən günəş doğ-

maqdadır. Diqqətlə baxdıqda həmin günəşin mərkəzində özünün sifətini gördü. Səhəri bu yuxusunu anasına danışdı və ondan bunun mənasını soruşdu. Anası da dedi ki, "sən inşallah bir ulu şeyx olacaqsan ki, aləmin xəlayiqi sənün tərbiyət ilə irşadun rövşən və aydın ola" (71).

Bir dəfə də Səfiəddin yuxusunda görür ki, əlində çoxlu çubuqlar vardır. Bu çubuqlar onun əlindən yerə düşdükcə dərhal kök atır və boy ataraq ucalırdı. Yuxuda gördüyünü o, yenidən anasından soruşdu. Anası cavabında söylədi ki, əlindəki çubuqların çox olması və onların qol-budaq atması o deməkdir ki, sənin uşaqların və müridlərin çox olacaqdır (72).

"Səfvətüs-səfa" əsərində Səfiəddinlə anası arasındakı münasibətlər barəsində belə bir hekayət də vardır: "Həzrət Şeyx buyurdu kim, duşda gördüm kim, bir çanağ yoğurt biləmcə idi və əkmək ilən yemək istərdüm və heç kimsə evdə yox idi. Əzm etdim kim, bir əkmək gizlücə götürəyim, genə özümdən münfəil olub, götürməzdüm. Çün uyxudan oyandum, fikirdə qaldum ki, bu duşun təbiri nə ola? Danlası evimdə igən ac oldum, evin içində gəzdüm, bir yogurtlu qab durur gördüm. Və kimsə evdə yok idi və qatı ac idim. Bir əkmək götürdüm yoğurt ilən yeməgə. Həman kim lüğməni yoğurtda batdurub ağzuma qoymaq istərdüm, gecəki duş xatirümə gəlüb, tikəni əldən qoydum. Həman ki, anam gəldi, ol lüğməni yoğurt içində batdurmış gördi, keyfiyyətin sordi kim, neşün təam yeməyübsən? Mən gördügüm duşi ana bildürdüm və dəxi dedim ki, səndən dəstursiz (icazəsiz –M.S.) almadum. Çün anası bu sözü eşitdi, zar-zar ağlayub dedi: "Əziz başın sərvərligə və arı gövhərün əfsərliğə yetəcəkdür" (73).

Yəni Şeyx Səfiəddin anasına o dərəcədə hörmət bəsləyirdi ki, onun icazəsi olmadan yeməyə belə əl vurmazdı. Bu cəhət də onun mənəviyyatının zənginliyindən xəbər verirdi. Şeyx Səfiəddin anasının həm də ağıllı və zəkalı bir insan olmasını məmnunluqla anırdı. Sonralar o danışarmış ki, Şeyx Zahidin yanında mürid olduğu vaxtlar yuxuda gördüklərini və anasının bu yuxuları necə yozmasını mürşidindən soruşmuşdu. Mürşidi də bildirmişdi ki, anası onun gördüyü yuxuları düzgün yozmuşdur (74).

Yəni anası da hələ gənc yaşlarında olarkən Səfiəddinin gələcəkdə böyük irfan sahibi olacağını, müqəddəsləşəcəyini görürdü və onun belə bir məqama yetişəcəyindən sonsuz fərəh duyurdu. Hətta ona övladlıqdan başqa, həm də bir müqəddəs kimi yanaşırdı. "Səfvətüs-səfa" əsərində bildirilir ki, anası Səfiəddinin alnında irşad nuru və cahangirlik nişanələri görürdü. Ona görə də on iki il gizli şəkildə Səfiəddinin dəstəmaz suyu ilə orucunu açardı. Bundan xəbər tutanda Səfiəddin anasına belə etməyi qadağan etdi. Bununla belə, anası bir xidmətçiyə göstəriş verdi ki, Səfiəddinin dəstəmaz suyundan onun üçün gətirsin ki, o da orucunu açsın (75).

Adı çəkilən əsərdə olan başqa bir epizod da onu deməyə əsas verir ki, Şeyx Səfiəddin ardınca düşdüyü işləri anasının icazəi və xeyir-duası ilə edərdi. Məsələn, mürşid axtarışı üçün Şiraza yollanmaq istəyəndə anasının yanına gəldi, ondan icazə istədi. Anası onun ayrılığına dözə bilməyəcəyi üçün dəfələrlə bu barədə söhbət olsa da, Şiraza yolanmasına icazə verməmişdi. Səfiəddin anasının sözündən çıxmırdı, amma məqsədinə yetişə bilməməsi də onu çox narahat edirdi. Anası da onun narahatlığını görürdü. Bununla belə, Səfiəddinin onun yanından ayrılmasını da istəmirdi. Səfiəddin də anasından icazəsiz Şiraza yollanmaq istəmirdi. Anasının nigarançılığının bir səbəbi onda idi ki, Səfiəddinin Məhəmməd adlı qardaşı ticarət işləri üçün Şiraz və Hörmüz ətrafına yolanmış və orada dünyasını dəyişmişdi. Onun varidatına sahib çıxmaq üçün ardınca yollanmış digər qardaşı Səlahəddin Rəşid də evlənərək Şirazda qalmışdı. İki övladından uzaq düşmüş anasını üçüncü övladını da itirməkdən qorxudurdu. Amma Səfiəddin qardaşı Səlahəddin Rəşidlə görüşmək və onu geri qaytarmaq adı ilə anasından yenidən icazə istədi və anası bu dəfə razılaşdı. Yəni anasının icazəsi olmayınca Səfiəddin evi tərk etmədi (76).

Şeyx Zahidin yanında müridlik etdiyi zaman da anası Səfiəddinin qayğısı ilə yaşayardı. Gilanda yaşadığı illərdə pula ehtiyacı olanda Şeyx Səfiəddin anasına xəbər göndərər, o da imkanı olan miqdarda pul yollayardı (77).

Səfiəddin hələ uşaq yaşlarından bilik öyrənməyə xüsusi bir meyil göstərirdi. Bu meylin onda necə yaranmasını söyləmək çətindir. Amma daxili bir istedad onda bilik almağa olan meyli həm də əmələ çevirirdi. Məlumdur ki, Səfiəddin həm bilikli adamlarla söhbətləşər, həm də ətrafda olan övliya məzarlarını ziyarət edər, bu məzarlar ətrafında cəmləşən ariflərin söhbətlərinə qulaq asardı. Elə gənc yaşlarında da eşitdikləri, bildikləri onu qane etməzdi və ona görə də daha bilikli adamlarla ünsiyyət qurmağa və daha çox öyrğnməyə çalışardı. Yəni elm və bilik ardınca getməsi Şeyx Səfiəddinin mənəviyyatını formalaşdıran güclü istəklərdən biri idi. Məhz biliklənmək, yaradana qovuşmaq elminə yiyələnmək istəkləri onu Şeyx Zahidin yanına gətirib çıxardı.

Şeyx Zahidin müridliyində olarkən Şeyx Səfiəddin sadəcə yeni biliklər qazanmadı, həm də xüsusi istedadı ilə digərlərindən fərqləndi. Şeyx Zahidə görə, Şeyx Səfiəddində olan istedad sadəcə fitri qabiliyyət deyildi, həm də Tanrının iradəsinin nümayişi idi və Şeyx Səfiəddin insanların irşadı kimi müqəddəs bir vəzifəyə sahib idi.

Şeyx Səfiəddinin elm və bilik kəsb etmək sahəsindəki istəyi və istedadı onun sonsuz işgüzarlığı ilə tamamlanırdı. Yuxarıda qeyd edildiyi kimi, gündüzlər fiziki işlərlə, gecələr isə elm və bilik almaqla, ibadətlə məşğul olardı. Təsəvvüfün vacibatının həyata keçirilməsi üçün Səfiəddin çox böyük sınaqlarla üzləşirdi. Amma geri çəkilmirdi, iradəsini daha da möhkəmlədirdi və bununla addım-addım istəyinə doğru irəliləyirdi. Yuxarıda deyildiyi kimi, Şeyx Səfiəddin hansı sınaqlarla qarşılaşmasını özü belə xatırlardı: “Bir gün Şeyx Səfiəddin dedi: “Ol qədər riyazət ki, mən çəkmişəm, əgər bütün zəmanənün talilərinə ulaşduralar, heç kimsə öz payın çəkməz olur. Amma mənüm işüm ol riyazət ilə açıldı, bəlkim, çox xidmətlərdən kim, Şeyx Zahidə eylədüm, özgələr dəxi həm nəfsüm ilən və həm malum ilə və həm könlüm ilə. Və Şeyx Zahid ol xidmətlər ilən mana nəzər eylədi və işim bu mərtəbəyə yetdi” (78).

Şeyx Zahid də müridinin böyük sınaqlara dözümlə sinə gərdiyini bilirdi. Onu da bilirdi ki, Səfiəddinin bu əməlində daxili

inamdan doğan bir məsuliyyət vardır və onun bu işgüzarlığını hər zaman təqdir edərdi. “Və Şeyx Səfiəddin hər nə kim, xidmətdə müqərrər və müəyyəndür, can ilən məşğul olur idi ol qayətə kim, Şeyx Zahid buyurdu: “Hər nə kim məxdumları içün və qullar xacələri içün və məhrəmlər məhrəmləri içün xidmət babında yerinə yetürübdürlər, Səfiəddin mənim içün yerinə yetürübdür” (79).

Yəni Səfiəddin sınaqlara dözümlü şəkildə sinə gərilməsinə şüurlu şəkildə yanaşırdı. Onun üçün bu sınaqlar sadəcə fiziki çətinliklər deyildi. Səfiəddin yaxşı bilirdi ki, nəfsin idarə edilməsi üçün rastlaşdıqları çətinliklər onun təsəvvüf yolunda keçməli olduğu məqamlardır və bu məqamların hər biri də onun mənəviyyatının formalaşması, biliklərinin artması və haqq yolunda irəliləməsi üçün zəruri pillələrdir.

Şeyx Səfiəddin hələ Gilanda ikən özünü əliaçıq, səxavətli bir insan kimi tanıda bilmişdi. Dünya maddiliklərindən uzaqlaşmağa çalışan bir sufi kimi, sahib olduğu maddi nemətlərin səxavətlə yaxınları və ətrafındakılar arasında paylanmasını özünə borc bilirdi. Hətta anası tərəfindən ona göndərilən geyimləri də çox vaxt kasıblara paylayar və özü isə nimdaş paltarda dolanmağa üstünlük verərdi: “Və əkin eyləyəndə heç kimsə ilə söyləşməyüb ixtilat eyləməz idi, bəlkə öz əhvalına və vəqtinə məşğul idi. Və daima gündüz oruc dutar idi və gecə namaz qılurdı və mücərrəd ilə yalğuz ovqatın keçürürdi ol həddədəkin kim, həm ol bir kəpənək ilən və yunlu könlək ilən gecə-gündüz ömrin sərf edərdi. Və bir arşun şal mübarək başına sarmış idi və vəqt olurdı kim, ol şal dəxi ortasından iki parə olur idi. Neyleyninün ipini otdan idi və hər yıl mütəhhər anası iki qatla Şeyx üçün dulbənd və könlək öz əgirdügindən düzəldüb göndərür idi və həzrət Şeyx anları geyməyüb dərvişlərə bağışlar idi və kəndi geyəsi ilə qənaət eylər idi” (80).

Onun səxavətliliyindən mürşidi Şeyx Zahidə də pay düşərdi və sözsüz ki, Şeyx Zahid də onun xarakterinin bu cəhətindən məmnunluq duyardı. Şeyx Səfiəddinin oğlu Şeyx Sədrəddin rəvayət edərdi ki, atası Kəlxoranda becərdiyi torpaq sahəsindən əldə etdiyi məhsulları da yaxın ətrafına, o cümlədən də Şeyx Za-

hidə hədiyyə edərdi: “Şeyx Sədrəddin buyurdu kim, çün aləmdə həzrət Şeyx Səfiəddinün əkin içün Kəlxoranda həman bir cüft sığırı var idi kim, anunlən ziyarət eylərdi və türlü-türlü nemətlər kim, sadir ilə varidə verür idi, qamu andən idi və yaxşı xidmətlər kim, Şeyx Zahid ilə hərəmlərinə eylər idi və bitün xadimləri ilə xadimələrinə və çəp-çevrəsi ilə qövmlərinə, məcmu andan olur idi. Və ol qədər bərəkətlü nəstələr gətürüb, qamusına ulaşdururdı kim, xəlayiq deyirdilər kim, məgər Şeyx Səfiəddin bir gənc (xəzinə -M.S.) tapubdur, zira kim hər yıl həzrət Şeyx Zahid içün iki dəst geyəsi başdan-ayağadək həm qış içün və həm yay içün və Şeyxün evdəkiləri və mütəəlliqləri içün dəxi iki dəst düzətdürüb hazır edərdi, ta bir qatla böylə ittifaq oldı kim, adətincə geyəsilər mühəyya eyləmiş idi və yemişdən yüklər tərtib etmiş idi. Və ol çağ həzrət Şeyx Zahid Siyahrudda idi və çün iştiyaqı qalib oldı yükləri yolda dənizin qırağında qoyub, özi ilərü varub, həzrət Şeyx Zahidün hüzurinə müşərrəf oldı. Və özinə böylə müqərrər oldı kim, əliboş həzrət Şeyxə varmağ olmaz. Yarım batman nabat biləsincə götürüb belinə bağladı. Amma çün Şeyxün dəstbusinə müşərrəf oldı, ol nabatları belindən cüzib öginə qoydı. Çün həzrət Şeyxün nəzəri ol nabata düşdi, tündlik eyləyüb dedi: “Pirlərün yanına böylə varurlar və böylə nəstələri aparurlar? Məgər mən uşağam ki, mənim içün şirini gətürüblər?” Həzrət Şeyx Səfiəddin həm böylə ki, ayağ üstinə durmuş idi, dinc olub, heç söz söyləmədi. Amma çün Zahid bu sözlərdən sonra əpsəm olub, çox mübaliğələrdən peşiman oldı və Şeyx Səfiəddin anun yüzindən peşimanlığ əsərin gördi, dışxarı çıxub qapuda xadim Əxi Süleymana dedi: “Neçə kölüklər Navun yolına göndər kim, yüklər ilən təbərrükləri gətürsünlər”. Şeyx Zahid çün bu sözü eşitdi, dedüklərindən peşiman olub xəcil oldı. Pəs, kölükləri göndərüb yükləri gətürdilər və Şeyx Səfiəddin hər nəstə kim, özgələr içün gətirmiş idi, anlara göndərdi. Məgər ol təbərrüklər kim, xassən həzrət Şeyx içün gətürmiş idi kim, ol saət ortaya gətürmədi. Şeyx Zahidün xatirinə keçdi kim, çün qamu kimsə içün hədiyyə gətürübdür, nədən ötrü mənim içün nəstə gətirməyübdür? Ol seşənbə güni idi. Cümə günədəkin səbr qıldı. Amma cümə güni Şeyx Zahidün

hüzurinə vardı və Şeyx başmağını düz qoyub, iltimas qıldı kim, Şeyx bir sat mənüm xəlvətüm təşrif ərzani qılsın. Həzrət Şeyx Zahid qəbul etdi və qalxub Şeyx Səfiəddinün xəlvətinə vardı. Pəs dedi: "Həzrət Şeyx bu qədər nuçi-can eyləsün və bu qədər dövlət-xanəyə göndərsün". Və çün Şeyxə yeməgə əl uzatdı, Şeyx Səfiəddin geyəsilərnün boxçaları başın açub içindəkilər çıxardı və Şeyxün mübarək nəzəri öginə çəkdi və qamusın ərz etdi, ol cümlədən iki börk ilən bir dulbənd idi və iki könlək və iki dizdonı və ədük ilən başmağ. Pəs bir dəst geyəsi həzrət Şeyx Zahidə geydürdi və bir dəst boxçaya bağladı kim, evinə göndərə. Şeyx Zahid gilan dili ilən söylədi: "Ləyaaləhu dlə kəs toyi", yəni Səfi sənün ulu könlün var. ...Pəs baş götürüb gögə baxdı və gövdəsi başı ilən hərəkətlər eyləyüb tərpətdi və Şeyx Səfiəddin içün batində dualar qıldı" (81).

"Səfvətüs-səfa" əsərində Şeyx Səfiəddinin səxavətliliyinə ayrıca bir fəsil həsr edilmişdir. Həmin fəsildə də Şeyx Səfiəddinin şəxsiyyətinin bu mənəvi keyfiyyəti ilə bağlı maraqlı fikirlər ortaya qoyulmuşdur. Adı çəkilən əsərin müəllifinin fikrincə, Şeyx Səfiəddin öz səxavətliliyində çox yüksək mərtəbəyə yetişmişdi, onun kərəmi xəlayiqin kərəmindən daha artıq idi və səxavətlilikdə kimsənin səviyyəsi və mərtəbəsi ona yetişə bilməzdi. Şeyx Səfiddinin dediyinə görə, kərəm və səxavətlilik Allah tərəfindən bəndələrin həyatında yüksək qiymətləndirilən əməllərdən idi. "Səfvətüs-səfa" əsərində o da bildirilir ki, Haqq-təalanın ona verdiyi səxavətliliyin nəticəsi idi ki, Şeyx Səfiəddin sabahın nigarançılığı ilə yaşamadan bu gün əlində olanları ehtiyacı olanlara verməkdən çəkinməzdi (82). Ona görə də, Şeyx Səfiəddin səxavətlə, əl tutmaqda da insanlar arasında böyük hörmət və izzət sahibi olmuşdu. Onun bu keyfiyyəti mürşidi Şeyx Zahid tərəfindən də yüksək səviyyədə təqdir olunurdu.

Səxavətliliyin Allah dərgahında yüksək məqama malik olmasının açıqlanması üçün "Səfvətüs-səfa" əsərində Şeyx Zahidlə Şeyx Səfiəddin arasında maraqlı bir dialoq verilmişdir. Həmin dialoq belədir: "Həzrət Şeyx Zahid (q.s.) demiş idi: "Səfiəddin, sizin şəhərinizdə palçığçı ustad çün izləməkdə ola, əgər əlindəki

kirpüç həm böylə əldə saxlayub işə qoymaya, dəxi anun əlinə kirpüç verülərmi?" Dedi: "Yok". Pəs dedi: "Həman kim əlindəkü kirpüc işə qoya və dəxi ala və işlədə, divar ucalurmı?". Dedi: "Bəli". Pəs buyurdı: "Səxavət dəxi həm muna bənzər kim, çün Tanrı-təala bir nəstə verə, sən dəxi xəlqdən diriğ etmə, ta dinün işarəti ucala". Pəs bu vəsiyyətdən ötrü dəxi bir nəstə kim, mülkindən, ya özgə yerlərdən hasil olurdı, fəqirlər ilə gələn-gedənə sərf edərdi ol qayətə kim, hər yıl əmlakınun hasilindən özgə, qalın borcları var idi. Beyt:

Əlində hər nə kim vardır, Həqqin yolində sərf etgil,
Yerindən on əvəz yetər sana Tanrıdən eşitgil" (83).

"Səfvətüs-səfa" əsərində olan məlumata görə, Şeyx Səfiəddin öz gəlirindən zəkat verməzdi. Başqa sözlə, heç vaxt onun yanında və evində zəkat verilməsi vacib olan məbləğdə pul olmazdı. Çünki əlinə gələn gəlirlərini dərhal ehtiyacı olanlara paylardı və evində ehtiyat pul saxlamazdı. Bu əsərdəki məlumata görə, Şeyx Səfiəddin yalnız bir dəfə zəkat verməli olmuşdu. Bunun da bir maraqlı tarixçəsi var idi. Deyilənə görə, Şeyx Səfiəddin bir dəfə üç yüz altunu saxlamaq üçün Pirə Cəbrayıla veribmiş və bir müddətdən sonra ona pul tapşırıldığını da unudubmuş. Bir gün Şeyx Səfiəddinin evinə bir dəstə qonaq gəlir. Onun evində bu qonaqları qarşılamaq və yola salmaq üçün yetərli pul yox imiş. Bu zaman Pirə Cəbrayıl məsələdən hali olur və Şeyx Səfiədinin ona tapşırdığı pulu geri qaytarır ki, qonaqlarına sərf etsin. Şeyx Səfiəddin əlbədə ki, bundan sevinir və pul əlinə çatandan sonra əvvəlcə ondan zəkat verir və qalanı da qonaqlara xərcləyir. Hətta qonaqları yola salandan sonra Pirə Cəbrayılın verdiyi puldan da bir miqdar qalıbmış. Baxmayaraq ki, ətrafındakılar ona həmin pulun ehtiyat üçün saxlanmasını məsləhət bilirlər, bununla belə, Şeyx Səfiəddin bildirir ki, bu pulu evində saxlasa onu da varlı bir bəy kimi qəbul edərlər. Ona görə həmin pulu ehtiyacı olanlar arasında bölüşdürür (84).

Oğlu Şeyx Sədrəddin hekayət edərmiş ki, Şeyx Səfiəddin çox vaxt kəndləri gəzər, fəqirlərin, zəiflərin ehtiyaclarından xəbər tutar və sonra da onlara öz köməyini yetirərdi. Kimsənin ac ol-

duğunu görsəydi, gecələr onun gözünə yuxu getməzdi. Dərhal çörək və digər yeməklər hazırlayıb həmin ehtiyacı olanlara çatdırardı. Özü də bunu elə edərdi ki, yeməyin və çörəyin kim tərəfindən çatdırıldığını bilməsinlər. Hətta Şeyx Səfiəddin taxıl kisələrini çiyninə alıb uzun yolu keçməklə ehtiyacı olan dərvişlərə çatdırardı (85). Kimsənin bir şeyə ehtiyacı olması xəbərini alandan sonra Şeyx Səfiəddin həmin adama kömək etməyi özünün daxili borcu sayırdı və həmin köməyi yetirmədən rahatlıq da tapmazdı. Səxavətlilyi Şeyx Səfiəddin həm Allahın təqdir etdiyi bir əməl sayılırdı, onu həm də özünün insani borcu hesab edirdi və o öz ailə üzvlərini də bu ruhda tərbiyələndirirdi. Sözsüz ki, Şeyx Səfiəddin eyni zamanda bütün müridləri qarşısında səxavətliliyi mühüm bir tələb kimi qoyurdu. Əslində, nəfsə qarşı mübarizə həm də səxavətliliyi özündə əks etdirirdi.

Şeyx Səfiəddin öz səxavətliliyində elə bir mərtəbəyə çatmışdı ki, dünyasını dəyişəndə onun xeyli miqdarda borcu var idi. Həmin borclar, əsasən, ehtiyacı olanlara edilən kömək üçün alınan borclar idi. "Həzrət Şeyx Sədrəddin buyurdu kim, çün həzrət Şeyx (q.s.) bitün əmlakı, malı və davarı zaviyəsinə vəqf etdi, zahir ömri sonında xeyrat içün borclar eylərdi. Tanrıya varanda min altun borcu qaldı və heç nəstə kim, miras adını ana qoyauz kim, borclarını andan ödəyəüz, qalmamış idi və həm ol yaxında dəxi həzrət mütəhhərə anam Tanrı rəhmətinə vasil oldı və andan dəxi ol qədər nəstə geri qalmamış idi kim, satub ol borcun əvəzini ola idi. Pəs, uşağlar içün miras heç nəstə qalmadı. ...Və (q.s.) həmişə uşağlarını ögütləyüb bu vəsiyyəti edərdi kim, oğullar, mənim evim bu zaviyədür. Gərək kim, himmətiniz munun imarəti ilə rəfahətin sərf edəsiniz və əgər mövqufatdan bunun xərcindən bir nəstə qala, kimə xatiriniz qəbul eylər, ana veriniz. Və buyurdu kim, əkmək verəndə dost ilə düşmən və mömin ilə kafirin aralarında fərq etməyiniz kim, ol livəchillahdur. Və ömrinün axırında bir gün məhəllə ilə küçənün itləri üçün bir qazan yemək bişürtdürüb anlara verürdi və buyurdı kim, əkmək ilə su böylə deyübdürlər və : "eyyüma müslümin səqa müslimən əla zəmain səqahü Allah minər-rəhiqil-məxtumi" (Hər hansı müsəlman susuz mü-

səlmana su verərsə, Allah onu xalis müşk-ənbərlə ətirləndirər) müvafiqətinə bir quyı qazmaq buyurtdı kim, andan bir savuq su hasil olur idi və issilik çağlarında buzdan bir küp mövcud etdürmiş idi kim, susızlar andan savuq işsinlər" (86).

Bir dəfə Şeyx Səfiəddəin Təbrizdə Xacə Rəşidin xanəgahında qonaq imiş və bir müddət həmin xanəgahda qalmalı olur. Orada olduğu günlərdə Şeyx Səfiəddin xəbər tutur ki, Qiyasəddin Məhəmməd adlı biri Şeyx Səfiəddin və onun əshabəsi üçün 70 dəst xələt hazırlatdırıb. Bundan xəbər tutan kimi, Şeyx Səfiəddin yanındakı əshabələri ilə birlikdə Təbrizi tərk etdi. Ona sonradan deyəndə ki, Qiyasəddin Məhəmməd böyük bir qonaqlıq hazırlığı göməklə həm də çoxlu sayda hədiyyələr hazırladıbmış, Şeyx Səfiəddin cavab verdi ki, istər onun, istərsə də onun əshabələrinin heç vaxt belə şeylərə meyli olmayıbdır. O həm də məhz buna görə xalq arasında müəyyən hörmət-izzət sahibi olduğunu bildirirdi (87).

Səxavətliliyi və əliaçıqlığı həm də Şeyx Səfiəddinin gözütoxluğundan irəli gəlirdi. O, nəfsinə sahib olmaqda həm də tamahına üstün gələ bilmişdi və ona görə də qisməti ilə razılaşırdı. Ona görə hətta mümkün olanda belə dünya malına meyil etməzdi və özündə olanla razılaşırdı. Özü üçün gərək ola biləckləri əvvəlcə ətrafındakılara, ehtiyacı olanlara gərək bilirdi və nəfsindən uzaq qaçardı. "Səffətüs-səfa" əsərindəki məlumatlara görə, Şeyx Səfiəddin heç vaxt özü üçün xüsusi yeməklər sifariş etməzdi və hər zaman da deyərdi ki, ürəyiniz nə istəyirsə onu bişirin, mən də sizə qoşularam. Şeyx Sədrəddin də nəql edərdi ki, atası ömründə öz nəfsi üçün evində xüsusi yeməklər bişirilməsini istəməzdi. Adətən onun evində sadə və gündəlik yeməklər bişirilərdi və Şeyx Səfiəddin də həmin yeməkləri yeməyə adət etmişdi. Bir dəfə evdə ondan xəbərsiz hansısa bir dadlı yemək bişirilir. Baxmayaraq ki, Şeyx Səfiəddin bu yeməyi xoşlardı, amma onu yeməkdən imtina etdi və nəfsininə boyun əymədi. Şeyx Sədrəddin bunu görüncə ondan belə soruşur: "Baba, çün ev sənündür və mülk sənün və buyruğ sənün, neşün nəstə buyurmayıb bişürt-

məzsən?" Buyurdu: "Utanıram kim, öz nəfsim içün bir ayru nəstə buyuram" (88).

Bir təsəvvüf adamı kimi, Şeyx Səfiəddin yemək-içmək məsələsində də nəfsini öz iradəsinə tabe edə bilmişdi və bunu müridlərinə də hər zaman təlqin edərdi. "Səfvətüs-səfa"nın müəllifi yazırdı ki, "ol çağ kim, mübarək qədəmini təsəvvüf yoluna qoymuş, bəlkim anadan doğalı ömrinün axırınadəkin sərkeş nəfsinün başına riyazət yügəni urub muradınca ram eyləmiş idi". Şeyx Sədrəddin də danışardı ki, öz nəfsinə üstün gəlmək üçün Şeyx Səfiəddin iradə nümayiş etdirirdi. Bu məqsədlə hətta oruc tutduğu günlərdə belə Şeyx Səfiəddin çox sadə yeməklə kifayətlənirdi. Şeyx Sədrəddinin sözlərinə görə: "iftar çağında kim, orucun açar idi, bir şərbət içərdi və üç təpsi yemək ögində hazır edərdük: birisi buğda aşı və birisi turş aşı və birisi dügi və bunlardan cüzvicə təsərrüf edərdi və nafilə namazından sonra əsla rüxsət verməz idi kim, özgə təamı ortaya gətürələr və heç nəstə namazdan sonra yeməzdi. Bir kəz buyurdu kim, bir gecə nafilədən sonra yeməgə əl uzatdım, həzrət Şeyx Zahidi zahir gördüm kim, mana dedi: "Hərgiz mən nafilədən sonra nəstə yemişəm kim, sən yeyərsən?"Andan bəri hərgiz nafilə namazından sonra heç yemədüm. Və səhər çağı yemək yemək kim, sünnətdür, bir sucuğaz nuş edərdi və çün xəlvətdə böylə qatılıq ilən məşəqqətdə ovqatın keçürürdi, ruhani aləmindən və Tanrılık müamiləsindən Allah-Təaladan ol qədər feyzlər ol həzrətə varur idi kim, xəlvətdən çıxanda gövdəsi eylə qüvvətli idi kim, özgələr eylə sağınurlardı kim, məgər xəlvətdə türlü-türlü yeməklər ilə nemətlər nuş edər və hal ol kim həzrətün ovqatı xəlvətdə böyləlik ilə keçərdi" (89).

Əyin-başı üçün də özünə paltarlar sifariş etməzdi. Nə qismətinə çıxardısa onunla razılaşardı. Ona görə bəzən dərviş paltarı ilə kifayətlənir, bəzən də ətrafdakılar kimi geyinərdi. Yaxınlarına da Şeyx Səfiəddin hər zaman belə deyərdi: "Qənaət odur kim, Tanrı verdüginə razı ol". Şeyx Sədrəddin hekayət edərdi ki, bazardan dadlı meyvə və yeməklərin alınıb evə gətirilməsi ilə də Şeyx Səfiəddin razı olmazdı və hər zaman da tələb edərdi ki,

onun yaxınları tamahdan tövbə edib Tanrının verdiyi ilə razılaşsınlar (90).

Şahidlər də qeyd edirdilər ki, Şeyx Səfiəddinin diqqəti zahiri bəzəklərə və nemətlərə deyil, daxili insan batininin zənginləşməsinə istiqamətlənmişdi. Buna görə idi ki, ona məxsus olan tikililərin əzəmətinə, ifrat genişliyinə də xüsusi diqqət yetirməzdi. Məsələn, məlumdur ki, Şeyx Səfiəddin bir dəfə çiy kərpicdən bir zaviyə tikdirmişdi. Bu zaviyə kifayət qədər dar idi və müridlər orada çətinliklə yerləşirdilər. Şeyx Səfiəddinin belə bir zaviyədə müridlərin tərbiyəsi və irşadı ilə məşğul olmağın çətinliyini nəzərə alaraq Gilanın imkanlı adamları daha böyük bir zaviyənin tikilməsi üçün ondan icazə istədilər. Şeyx Səfiəddin isə bu təkliflə razılaşmadı. Fikri də bundan ibarət oldu ki, ona imarət yox, ibadət üçün bir zaviyə gərəkdir. Ehtimal edilir ki, həmin zaviyə Şeyx Səfiəddinin həyatının sonyuna qədər qaldı və onun dünyasının dəyişməsindən sonra həmin zaviyə sökülərək onun yerində Şeyx Səfi məqbərəsi tikildi (91).

Şeyx Sədrəddin xatırlayırdı ki, atası ona da sərvətə meyillilikdən qaçmağı təlqin edərdi. Şeyx Səfiəddin ona məsləhət bilərmiş ki, kənd sahibi olmağa çalışmasın. Çünki əgər o, hər hansı bir kəndin sahibi olsaydı, onda vaxtının çoxu həmin kəndin idarə edilməsinə sərf ediləcəkdi. Şeyx Səfiəddin isə ondan tələb edirdi ki, vaxtını taliblərin (müridlərin) könül evinin tövbəsi və təlqininə sərf etsin, bununla bu dünyanın rahatlığını, axirət dünyasının isə savabını qazanmış olsun (92).

Şeyx Səfiəddin onu da bildirirdi ki, gözütox olmaq insanı başqalarının qarşısında gözükölgəli olmaqdan da xilas edir. Bununla bağlı o öz həyatına aid bir fakta da istinad edirdi. Şeyx Səfiəddin qeyd edirdi ki, Gilandan İmadəddin Məhəmməd adlı bir qoşun başçısı ondan xahiş edirdi ki, qoşunlara gəlsin və qoşunlara şəfaətçi olsun. Şeyx Səfiəddin əlavə edirdi ki, adı çəkilən qoşun başçısının atası da, babası da ona çoxlu sərvətlər təklif etmişdilər. Amma Səfiəddin onların heç birini almamışdı. Ona görə də Şeyx Səfiəddin deyirdi ki, əgər onların təklif etdiyi sərvətlərə sahib olsaydım, onda İmadəddin Məhəmmədin yanında

gözükölgəli olardım və onun xahişini qəbul etmək məcburiyyətində qalardım. Şeyx Səfiəddin kömək istəyənə kömək etməkdən heç zaman gecikməzdi. Amma nəyə görə isə kimsəyə kömək göstərmək məcburiyyətində qalmağı düzgün saymırdı (93).

Şeyx Səfiəddin daxilən təmiz və nəcib bir insan idi, kin-küdurətdən, qısqanclıq və riyadan uzaq idi, kiminsə üstünə qəzəblənmək onun adətində yox idi. “Səfvətüs-səfanın” müəllifi də yazırdı ki, kimsə bu həzrətdən inciməmişdi, kimsə onun qəzəbinə düçar olmamışdı, kimsənin xatirinə dəyməmişdi. Bildirilir ki, kimsə ona aid olan bir əşyanı oğurlasaydı və ya kimsə qulağı eşidə-eşidə onun barəsində nalayiq sözlər söyləsəydi, onların eybini üzlərinə vurmazdı, onları incitmək fikrinə düşməzdi. Müridlərinə də hər zaman təlqin edərdi ki, dinli insan kinli ola bilməz. Yəni doğru etiqad əhli kinli olmamalıdır. Çünki kinli insanın dini də əsaslı ola bilməz (94). Əslində, Şeyx Səfiəddin öz irşadı ilə yeni bir insan formalaşdırırdı və onun müridliyində olan taliblər qarşısında da dini və bəşəri normaların tənzimlənməsini mühüm şərt kimi qoyurdu. O öz şəxsi nümunəsi ilə də mənəvi-əxlaqi normaların dəyərini müridlərinə aşılamağa çalışırdı.

Şeyx Sədrəddinin söylədiyinə görə, Şeyx Səfiəddin həm də səmimi və xoş əhval-ruhiyyəli bir insan idi, rastlaşdıqlarını həmişə gülümsər üzlə qarşılayardı. Hətta ona qarşı səmimi müraciət olunmayanda belə təbəssümünü sifətindən əskik etməzdi. Kimsə onun haqqında haqsız bir söz deyəndə, yaraşmaz hərəkət edəndə müridlər həmin adama qarşı sərt mövqe tutanda belə, müridlərini belə sərtlikdən şəkindirməyə çalışırdı. Belə anlarda Şeyx Səfiəddinin məsləhəti bu olardı ki, biri səhv edirsə, müridlər də ona cavab verməklə onun kimi səhv yol tutmasınlar. O şübhə etmirdi ki, haqsız olan adam onsuz da Tanrıdan öz cəzasını alacaqdır. Şeyx Sədrəddin atasının xarakterinin bu keyfiyyəti ilə bağlı belə bir hadisəni nəql edirdi ki, bir dəfə bir nəfər ədəbsizcəsinə Şeyx Səfiəddinə qarşı hörmətsizlik etdi. Şeyx Sədrəddin də onun cavabını vermək istəyirmiş. Onda atası ona tövsiyə edir ki, bu qərarından əl çəksin. Sonra da bildirir ki, kimliyindən asılı olmaya-

raq başqasının könlünü incitməsin. Çünki könlü incimiş insandan çox fəsadlar gözləmək mümkündür (95).

İnsan övladına qarşı son dərəcə mehriban olması heç də Şeyx Səfiəddinin bütün məsələlərdə ürəyiyumşaq olması demək deyildi. Elə məsələlər var idi ki, Şeyx Səfiəddin öz qətiyyətini göstərirdi, ardıcıllıq və məqsədyönlülük nümayiş etdirirdi. Məsələn, o, tutduğu yolda son dərəcə qətiyyətli idi, təsəvvüf yolunda zəiflik göstərənlərə qarşı barışmazlıq göstərirdi. Şeyx Səfiəddin olan məclislərdə sultanlar, alimlər və bilik adamları kimsə cəsarət edib onun sözünün qarşısına söz qoya bilməzdilər: "Və əgər dəxi alimlərün xatirlərinə keçə idi kim, imtahan içün neçə suallar eyləyələr, anun söhbətində hədləri yok idi ağuzların açmağa və əgər lazimən sormağa dururlardı, heybətindən sözlərini unudurlardı, həman kim məclisindən çıxarlardı, kəndülərinə derlərdi: "Biz özimizə müqərrər eyləmişdük kim, neçə suallar soralım. Bizə nə oldı kim, anda böylə aciz qalduk?" Eylə kim gilanlu Mövlana Şəmsəddinün xəyal etdükləri sualatı ol həzrətün söhbətlərində qamusın unutdı və ilərüdə anun şərhin deyildi. Və çok olurdu kim, taliblər vaqiələrini ərz etmək çağı məqsudları unudub heyran qalurdı və məclisində kimsənin öksürmək məcalı, ya söyləmək fürsəti, ya gülmək həddi, ya söhbətindən çıxmaq qüvvəti yox idi" (96).

Şeyx Səfiəddinin mürşidlik həyatı müridlərin, taliblərin və yaxınlarının irşadı, təlim-tərbiyəsi ilə bağlı idi. Evində olanda da ailə üzvlərinin, xadimlərin və qulluqçuların nəsihətlənməsini bir an da unutmazdı. "Səfvətüs-səfa"da yazılanlara görə, Şeyx Səfiəddin çox sadə və şirin bir dildə öz nəsihətlərini edər, biliklərin yayılması ilə məşğul olardı və kimsə aylarla onun söhbətinə qulaq assaydı, yenə yorulmazdı. O, adətən, çox asta səslə danışardı və ürəyindəkilərini məclis əhlinə çatdırardı. İnsanlar onun söhbətinə elə diqqət kəsilərdilər ki, ən uzaqda dayanan adam belə onun sözlərini aydın şəkildə eşidə bilirdi. Onun həkimanə sözlərindən ölü könüllər şəfa tapar, köhnəlmiş xatirələr təzələnərdi. Söhbətlərini onu dinləyənlərin marağına və qavrama qabiliyyətinə görə qurardı. Eyni zamanda dinləyənlərin kimliyi də onun

söhbətlərinin məzmumuna təsir edərdi. Şeyx Səfiəddin harada və kimin qarşısında necə söhbət edilməsinə xüsusi diqqət yetirirdi. Əgər qarşısındakının ibrətmiz sözdən bir nətcə çıxarmayacağı bəlli olurdusa, onunla aparılan söhbət başqa istiqamətdə olardı: "...Sultan Əbu Səid xan bir qatla həzrət Şeyxdən iltimas qıldı kim, həqiqətdən neçə söz buyursun. Həzrət Şeyx ədl ilə ehsandan özgə heç söz ana söyləmədi. Mən həzrət Şeyxdən sordum: "Nədəndür kim, həzrət Şeyx gərmrudlular ilən həştrudlulara həqiqətdən sözlər buyurur və böylə padşahun söhbətində eyləməz?" Buyurdu: "Əgər mən həqiqət sözi anun yanında söyləyəydüm, ol, ol sözlərün müştərisi dəgül idi. Böylə məlum eylə kim, eşidici deyicidən söz çəkər, deyici gərək kim, eşidicinün əqli ilə fəhmi görsün, andan anun istədügi ilə gərəklüsi ana versün. Bir kimsə kim, muncuqun müştərisi ola, ana gövhər satmağ olmaz və hər kimə kim issi odlar yemiş ola və hərarəti artmış ola, ana nabat ilə şirinliğ vermağ bitəqrib ola. Padşahlardan ədl və ehsan ummaq gərək, andan ötrü anun məclisində ədl ilə ehsandan özgə nəstə söyləmədüm"(97).

Şeyx Səfiəddin eyni zamanda qarşıya çıxan çətinliklərlə bağlı dözümlü münasibət göstərilməsinin nümunəsi idi və belə bir keyfiyyəti öz müridlərinə də aşılayırdı. O, hətta müsibətlə qarşılşan insanlara səbirdən daha çox şükr etməyi məsləhət bilirdi. Onun təbirincə əgər bir müsibət baş veribsə, insan şükr etsə də, etməsə də artıq olan olmuşdur və onu dəyişməyə insanın gücü çatmaz. Amma müsibət qarşısında səbirlə birlikdə şükr etməyi Şeyx Səfiəddin imandan sayırdı. Hər zaman da bildirərdi ki, iman iki hissədən ibarətdir: onun yarısı səbir, yarısı isə şükürdür. Şeyx Səfiəddin təlqin edirdi ki, insan yalnız dili ilə deyil, bütün bədəni ilə, bütün varlığı ilə şükr etməlidir (98). Yəni bu şükür onun daxili etiqadından irəli gəlməli idi.

Şeyx Səfiəddin səbir və şükrü yalnız təlqin etmirdi, həm də öz yaşayışı ilə bunu insanlara nümayiş erdirirdi. Hər dəfə bir pərişanlıq və ya müsibət ilə qarşılaşanda Şeyx Səfiəddin səbir və dözüm göstərib deyərdi: "Ol nəstələrdən kim, mundan bətərrakdur, həzrət Tanrı-təala saxlasun". Sonra da öz minacatlarında bu

sözləri söylərdi: “Ya Rəbbülaləmin, mülk sənün mülkündür və hökm sənün hökmün...”. Rastlaşdığı müsibətlər qarşısında ah-nalə çəkməzdi. Amma göz yaşlarının qarşısını da almazdı. Ona tanış olmayan insanların tabutu ilə rastlaşanda da göz yaşları ilə onları yola salardı. İnsanların öz övladlarını itirdikləri zaman sonsuz kədərə mübtəla olmasının səbəbini soruşanda Şeyx Səfiəddin belə cavab vermişdi: “Cavab buyurdı kim, ol fərzənd bu cismin nütfəsidür, bəlkim cismin bir parəsi. Çün cism cismdən ayrılur, lazım təəssüf yeyib ana qatı gəlür və ağlamağ ana mərhəmət üzərindədür və bu təəssüf ilə ağlamağ nəfsani şəhvətdən, yəni diləməgindəndür. Ol çağ kim, həzrət Şeyxün (q.s.) böyük oğlı Xacə Mühyiəddin (q.r.) Tanrının (c.c.) rəhmətinə vasil oldı, anun fəraqı otı ilə möhnəti qüssəsi bitün xəlayiqün könlində işlədi. Təvəkküli Mövlana Şəmsəddin anun yasına vardı, gördi kim, təmami-xəlayiq ağlamağdadurlar və səbr ilə sükutun yügəni kimsədə qalmayubdur, mütəhəyyir qaldı. Həzrət Şeyx həman ana baxınca təsəlli verüb buyurdı: “Mövlana, matə Rəsulüllah (s) hər nə kim, Həqq-təala (c.c.) hökm eylər, buyruğ anundur və fərman anun. Əzizlər, şükr etməyim kim, bu fərzənd bir kimsənin fərzəndidür kim, qamu kimsələr anun bəgənilmiş xisalı ilə əfalı anub, gözlərindən yaş axudurlar, nə bir kimsənin oğlıdur kim, xəlayiq anun yaman əfalı anub lənət eyləyələr, yüz min şükr kim, həzrət Tanrının taəti bilə varıyok günah ilən. Beyt:

Hər nə kim Həqq anı hökm etmişdürür,
Etməsək şükr, əlimizdən nə gəlür?” (99).

Şeyx Səfiəddin həm də kifayət qədər təvazökar bir insan idi. Baxmayaraq ki, zəmanəsinin böyük bilik adamı idi, irfan elminə dərindən bələd idi, heç vaxt özündən danışmazdı, öz şəxsiyyətini başqalarının gözündə qabartmazdı və özünü də kimsədən fərqləndirməzdi. Onun bildiklərinə ətrafdakılar tərəfindən bir heyranlıq nümayiş etdiriləndə də bildirərdi ki, Kəlxorandan çıxmış sadə bir insandır, ulu bir insanın yanında bəzi məqamları öyrənib ki, o da öz növbəsində onları başqalarına yetirməyə çalışır (100).

Haqq yolunda olmaq, Haqqa qovuşmaq, qeyd edildiyi kimi Şeyx Səfiəddinin mənəviyyatının əsasını və mənasını təşkil edirdi. Bu mənəviyyatın formalaşdırılması üçün şəriətin və təriqətin vacibatının yerinə yetirilməsinə də Şeyx Səfiəddin həyatının mənası kimi baxırdı və bütün həyatını da bu xətt üzərində qurmuşdu: "Həzrət Şeyx (q.s.) ömrinün əvvəlindən axırınadək təriqətün əmalı yoluna və həqiqətün səccadəsinə sabitqədəm idi və hər nəstə kim, ibadətdə adət eyləmiş idi, tərkin etmədi və sağlığ ilə sayrulığda və yigitliğ ilə qarılığda öz adətindən zərrəcə dönməz idi". Beləcə, Şeyx Səfiəddin hətta qoca yaşlarında da eyni ciddiyətlə ibadətini davam etdirirdi. Baxmayaraq ki, ömrünün sonlarına yaxın səhhətində müəyyən problemlər yaranmışdı və zəifləyib gücdən düşmüşdü, bununla belə, ibadətinin zəifləməsinə heç bir imkan verməzdi. Oğlu Şeyx Sədrəddin də danışarmış ki, yaşlanıb zəifləyəndə ibadət etmək onun üçün çətinliklə başa gəlirdi və ibadətin yerinə yetirilməsi onun səhhətinə də mənfi təsir göstərirdi. Təbiblər ona ibadət hərəkətlərini dayandırmağı tövsiyə etdilər. Şeyx Səfiəddin bu tövsiyələri qəbul etmədi və bildirdi ki, əksinə, ibadəti dayandırmaq onun zəifliyini daha da artıra bilər. Onun sözlərinə görə, ibadətlə məşğul olanda, taliblərin söhbətlərinə qulaq asanda zəifliyini unudur və özündə yüngüllük hiss edirdi (101).

Məlumdur ki, Şeyx Səfiəddin müridlik dövründə gecələri də uzun-uzadı ibadətdə keçirərdi. Sonralar isə o, gecə saatlarını bir neçə hissəyə bölmüşdü. Şeyx Səfiəddin gecənin bir hissəsini ibadətdə keçirir, sonra bir neçə saat yatıb istirahət edir və sonra yenidən dua və zikrlə məşğul olurdu. Bu adətinə o, uzun müddət sadiq qaldı. Yalnız yaşlaşıb zəifləyəndə gecə saatlarını iki yerə böldü. Gecənin bir hissəsini ibadətlə məşğul olur, ikinci yarısını istirahətdə keçirirdi. Gündüz saatlarını isə Şeyx Səfiəddin belə bölüşdürürdü: dan namazını qılandan sonra o, vird və zikrə vaxt ayırırdı. Bu zaman kimsə ilə ünsiyyətə girməzdi. Gün boylanandan sonra evdəki xəlvətinə çəkilib "Quran"ın tilavəti ilə məşğul olardı. "Quran" tilavətindən sonra səhər yeməyinin süfrəsi açılardı. Şeyx Səfiəddin onu qane edəcək qədər yemək yeyərdi və

sonra günorta namazınadək həm müridlərin irşadı, həm də onun görüşünə gələnlərə nəsihət verməklə məşğul oludru. Bundan başqa, kömək üçün ona üz tutanlata mümkün köməyi göstərməyə çalışırdı. Bəzən onun ziyarətinə çoxlu adam gəlirdi və Şeyx Səfiəddin bu adamlar üçün nahar yeməyi də təşkil etdirərdi. Zərurət yarananda Şeyx Səfiəddin hətta nahar yeməyini də unudub onun yanına gələnlərə kömək göstərməyə çalışardı. Günorta namazını qıldıqdan sonra isə Şeyx Səfiəddin ilkindi namazının intizarında olardı. İlkindi namazına qədər də müridlərin və ziyarətə gələnlərin irşadı ilə məşğul olardı. Söhbətlərini və nəsihətlərini isə hər zaman həkimanə mövzular üzərində qurardı və etiqad etdiyi mənəvi keyfiyyətləri və dini normaları səbirlə qarşısındakılara aşılayardı. Yəni dini inanclar onun irşadının və nəsihətlərinin məğzini təşkil edərdi (102)

Şeyx Səfiəddinin kamil mənəvi normaları var idi və ardıcıllıqla, sonsuz enerji ilə bu normaların dərin bir etiqada çevrilməsinə nail olmuşdu. Onun bu mənəvi keyfiyyətləri bəşəriliyi ilə seçilirdi və ona görə də özünə çox böyük sayda ardıcıllar toplaya bilmişdi. Bu mənəvi normalar tezliklə digərləri tərəfindən də mənimsənilmişdi. Bir daha qeyd edilməlidir ki, tövhidə və şəriətə əsaslanan, bəşəri dəyərlərlə tamamlanan Şeyx Səfiəddin mənəviyyatı tezliklə minlərin, on minlərin izlədiyi mənəviyyat yoluna çevrildi. Onun rəhbərliyi altında həyata vəsiqə almış Səfəviyyə təriqəti, əslində, Şeyx Səfiəddinin mənəviyyatının ifadəsi idi və Şeyx Səfiəddin özündən sonra elə bir dərin mənəvi irs qoydu ki, illər ötdükcə onun dəyərləri solğunlaşmadı, əksinə, insanların mənəvi-ictimai ehtiyacları ilə səsləşdiyi üçün öz ətrafına daha geniş kütlələri birləşdirdi. Bu təriqət islam tarixində yaddaqalan bir hadisəyə çevrildi və nəhayət bu təriqət sonradan müəyyən transformasiyaya uğramaqla Azərbaycanın və Yaxın Şərqin tarixində yeni bir səhifə olan Səfəvilər dövlətinin rəsmi ideologiyasını təşkil etdi.

### 3. Şeyx Səfiəddinin kəraməti

Şeyx Səfiəddin inamı, imanı, əqidəsi, etiqadı, ibadəti, riyazət və zöhdü ilə təsəvvüfün mərtəbələrini uğurla adlamış və ən yüksək mərtəbəyə kimi yüksələ bilmişdi. Haqqa qovuşmaqla o, Haqqın bir sıra sirli mətləblərinə də vaqif olmuşdu. Bu da onu müasirlərindən fərqləndirən mühüm cəhətlərdən biri idi.

Şeyx Səfiəddin yalnız islam aləminin dərin zəkalı və tanınmış ariflərindən biri deyildi. O həm də islam dünyasının böyük kəramət sahiblərindən biri idi. İstər şahidlər, istərsə də tədqiqatçılar Şeyx Səfiəddinin kəramət sahibi olmasını şübhə altına almırlar. Hələ sağlığında ikən insanlar müəyyən istəklərlə onun ziyarətinə gələr və Tanrı qarşısında onlar üçün şəfaətçi olmasını istərdilər. Şeyx Səfiəddin də niyyətli olan insanlara şəfaətçi olmağa çalışardı. İstər "Səfvətüs-səfa" əsərindən, istərsə də təsəvvüf tarixi ilə bağlı digər əsərlərdən görmək mümkündür ki, təriqət yolunda təsəvvüfün mərtəbələrini keçən, bütün varlığı ilə dünya cazibəsindən qoparaq həyatının mənasını Tanrıya qovuşmaqda görən insanların həqiqətə yetişməsi onlar üçün həm də kəramət lütfünə yol aça bilərdi. Şeyx Səfiəddin də bu mənada istisna deyildi. Onun həyatı onu nümayiş etdirir ki, Tanrıya doğru irəliləyib Tanrıya qoşvuşmaqla həm də Tanrının lütfünü qazanmaq olar. Kəramət Haqqa aparan yolun sonunda salik insana bəxş olunan Tanrı lütflərindən biri də ola bilərdi. Lakin bu o demək deyildi ki, Tanrının kəramətini əldə etmək üçün insanlar Tanrı yolçuluğuna başlamalıdırlar və bu yolun sonunda Tanrı kəraməti də əldə edə biləcəkirlər. Tanrı sevgisindən kənar hər hansı bir niyyətlə Tanrı yolçuluğuna başlamaq günah sayıla bilərdi. Kəramətin kimə isə lütf olunması özü də bir Tanrı sirri idi və bəşər övladı onun kimə və necə veriləcəyini müəyyənləşdirə bilməzdi.

Şeyx Səfiəddin də sözsüz ki, tanrı yolçuluğunu tutmaqla heç də qarşısına Tanrı kəramətini əldə etmək məqsədi qoymamışdı. O, həyatın mənasını Haqqa qovuşmaqda, Haqq yolu ilə irəliləməkdə və Haqq yolunun irşadında görürdü. Şeyx Səfiəddin həyatını bu yola bağladı, Haqqına təmənnasız xidmət

göstərdi və təmənnasız da bir kəramət sahibinə çevrildi. Onun həyatı ilə bağlı yuxarıda qeyd edilənlərr onu deməyə əsas verir ki, Şeyx Səfiəddin Tanrının seçilmiş bəndələrindən biri idi. Şeyx Səfiəddinin həyat yolu haqqında ətraflı bir mənbə olan "Səfvətüs-səfa" əsərinin müəllifi də, bu əsərdə adları çəkilən şahidlər də şübhə etmirdilər ki, Şeyx Səfiəddin hələ dünyaya gəlməmişdən əvvəl Tanrının seçilmiş bəndəsi lütfünə layiq görülmüşdü. Elə anasının bətnində olarkən də bu seçilmişlik müşahidə edilmişdi, uşaqlıq yaşlarında da Tanrı seçilmişlərindən olmasını ortaya qoymuşdu. Bu məqam onun davranışında, hərəkətlərində, qabiliyyətində özünü aydın şəkildə göstərirdi. Tanrı elminə yiyələnməkdə də Şeyx Səfiəddinin seçilmiş olması kimsədə şübhə doğurmurdu. Onun fəhmi, duyumu, təriqət sınaqlarına sinə gərməsi, maddi dünyanın cazibələrindən uzaqlaşa bilməsi digərlərindən tamamilə fərqlənirdi. Bunu dövrün böyük bilik və zəka sahibləri də görürdülər və onlar Şeyx Səfiəddinin islam aləmində çox böyük bir mərtəbəyə yüksələ biləcəyinə şübhə etmirdilər. Mürşidi və böyük ustadı Şeyx Zahid də onun dərin bilik sahibi olmasından başqa, həm də Tanrı lütfündən pay almasını müşahidə edirdi və ona görə də özündən sonra təriqət rəhbəri kimi yerini ona verməyi qərarlaşdırmışdı.

"Səfvətüs-səfa" əsərində Şeyx Səfəddinin kəraməti ilə bağlı çoxlu sayda hekayətlər vardır. Bu hekayətlər müəyyən mənada rəvayət kimi də görünə bilər. Amma məlumdur ki, "Səfvətüs-səfa" əsəri yazılanda Şeyx Səfiəddinin həyatı, əməlləri hələ canlı idi, çoxlu sayda şahidlər həyatda qalmaqda idi və onun kəraməti ilə bağlı hekayətlər də həmin şahidlərin dilindən qələmə alınmışdı. "Səfvətüs-səfa" əsəri də, əslində, daha çox elə Şeyx Səfiəddinlə bağlı olan kəramət hekayətlərinin üzərində qurulmuşdu. Məzmunundan asılı olmayaraq bu hekayətlər Şeyx Səfiəddinin həyatı ilə bağlı müəyyən maraq doğurur və bu hekayətlərin diqqətdən kənarda qoyulması Şeyx Səfiəddinin şəxsiyyəti haqqında olan təsəvvürlərin də qeyri-mükəmml olmasına yol aça bilərdi.

“Səfvətüs-səfa” əsərində Şeyx Səfiəddinin kəraməti ilə bağlı olan hekayətlər müəyyən mövzular ətrafında qruplaşdırılmışdır. Bu hekayətlərdən bir qismi islam peyğəmbərinin xatırlanmaları ilə bağlıdır. Əsərdə müxtəlif ifadə vasitələrindən istifadə edilməklə Şeyx Səfiəddinin seçilmiş olması və peyğəmbər şəriətinin doğru-düzgün irşad edilməsi yolundakı fəaliyyətinin islam peyğəmbəri tərəfindən təqdirlə qarşılanması təkrar-təkrar bəyan edilmişdir. Bir sıra hekayətlərdə islam peyğəmbəri ilə Şeyx Səfiəddin arasında bağlılıqların yaradılması Şeyx Səfiəddinin kəramətinə işarə idi. Həmin hekayətlərdə islam peyğəmbəri Şeyx Səfiəddinin bilik və etiqadını təqdir etməklə onu müasirlərinə kəramət sahibi kimi təqdim edirdi.

“Səfvətüs-səfa” hekayətlərinin birində islam peyğəmbərinin dilindən Şeyx Səfiəddinin tövbə və təlqin icazəsinə malik olduğu söylənərək bildirilirdi ki, “imdi və mundan sonra qiyamətədək bu hökm anlarun əlində olacaqdur” (103). Bununla, Şeyx Səfiəddinin həm kəramətinin, həm də irşadının Tanrı və peyğəmbər rizası ilə baş verdiyi bəyan olunurdu.

Digər hekayətlərdə də islam peyğəmbərinin dilindən Şeyx Səfiəddinin imanına və etiqadına yüksək qiymət verilirdi. İslam peyğəmbəri bu hekayətlərin birində bəyan edirdi ki, Şeyx Səfiəddinin tövbəsi (talibləri tövbəyə gətirməsi) elə islam peyğəmbərinin tövbəsidir (104). Yəni Şeyx Səfiəddinin bütün əməlləri islam peyğəmbəri tərəfindən qəbul olunurdu və onun tövbəsi də doğru və düzgün sayılırdı.

Haqq yoluna qədəm qoyanların Şeyx Səfiəddin tərəfindən tövbəyə gətirilməsinin islam peyğəmbəri tərəfindən tövsiyə edilməsi haqqında “Səfvətüs-səfa” əsərində bir neçə hekayət vardır. Admanlı Xacə Məhəmmədin dilindən edilmiş hekayətlərin birində deyilirdi: “Mənim atam bir dərvişin müridi idi. Həman kim, ikisi Tanrı rəhmətinə vardılar, mən həm ol şeyxün oğluna xidmət eylərdüm, ta bir gün mana dedi: “Ərrücu ələl Həqq ula” (Haqqa qayıdış ən birincidir). Ol nəstə kim sən istəsən, məndə yoxdur. Xəyanətliq eyləmənəm. Məqsudini özgə yerdən istə”. Mən öz işümdə heyran qalub gecə yatdum. “Taha” və “Yasin” tuğrasınun

iyəsi, sübhanül-ləzi əsra bəidənün şahsüvarı Məhəmməd Mustafa (s.) duşda gördüm qələbə əshabı ilən. Məniləri varub düşdüm və mübarək ayağını öpdüm. Pəs, ol həzrət bir kimsəyə kim, ögündə durmuşdı, çağırdı kim, ilərü gəl. Ol kişi həzrətə yaxın oldı. Həzrət Risalətpənahı əli ilə mənüm əlümi dutub anun əlinə qoydı və ana ismarladı kim, buni sana tapşurdum, tərbiyət eylə. Mən ol kişiyə dedim: "Mən səni tanımazam, neylüm?" Mənüm əlümi bərk dutub dedi: "Ərdəbilə gəl". Həman kim, uyxudan çıxdum, Ərdəbilə varmağa əzm eylədüm. Çün Ərdəbilə yetüb Şeyxün xidmətinə müşərrəf oldum, həm ol kimsəni gördüm ki, duşda Peyğambər (ə.s.) məni ona tapşurdı. Başımı ayağına qoydum, ...tövbə və təlqin aldüm" (105).

"Səfvətüs-səfa" hekayətlərinin başqa birində islam dinini qəbul etmək istəyən İbrahim adlı bir xristiandan söhbət açılır. İbrahimin vətəni kimi Firəngistan göstərilmişdir. Firəngistan isə bütünlükdə xristian Avropasını ifadə edən bir ümumiləşdirici ad idi. İbrahim kifayət qədər savadlı və bilikli bir adam kimi təqdim olunmuşdur. O, "İncil" və "Tövratı" oxumaqla axır-zaman peyğəmbərinin dünyaya gələcəyindən xəbərdar olmuş və onun adı ilə bağlı olan islam dinini qəbul etməyi qarşısına məqsəd qoymuşdu. İbrahim bir dəfə yuxuda islam peyğəmbərini görür və ona yaxınlaşaraq onun hüzurunda islamı qəbul etmək istədiyini bildirir. İslam peyğəmbəri də ona "kəlmeyi-şəhadəti" oxudaraq onun etiqadını qəbul edir. Amma İbrahim anlayır ki, islamı qəbul etmək hələ onun yeni həyatının başanğıcıdır. İndi onun qarşısında islamın rüknlərini, fərzlərini, vacibatlarını öyrənmək vəzifəsi dayanmışdır. Bununla bağlı da o, islam peyğəmbərinə müraciət edir ki, bu məsələdə kimdən kömək alsın. İslam reyğəmbəri də ona cavab verir ki, "din ilə şəriətin adabı və irşad ilə təriqətün ərkanı mənüm xələf ilə xəlifəmün Səfiəddin Ərdəbilidən ögrən". Sonra da islam peyğəmbəri Şeyx Səfiəddini səsləyir. Şeyx Səfiəddin də məclisdəkilər arasından qalxaraq onlara yaxınlaşır və islam peyğəmbərinin tapşırığı ilə İbrahimə islamın vacibatlarının öyrədilməsinə başlayır. Şeyx Səfiəddinin kəramətindən İbrahim elə yuxuda ikən islamın fərzlərini və vacibatını öyrənir. İbrahim islam

dinini qəbul edəndən sonra öz vətənini tərk etməyə məcbur oldu və Şeyx Səfiəddinin məqamına üz tutmaq qərarına gəldi. Bu yolçuluq zamanı İbrahim bir sıra sınaqlarla qarşılaşdı və hər dəfə də Şeyx Səfiəddindən kömək diləməklə həmin sınaqları aşa bildi. Onun qarşılanması üçün Şeyx Səfiəddinin tapşırığı ilə Ərdəbildə xüsusi mərasim təşkil edildi və bildirilir ki, Şeyx Səfiəddinin zaviyəsinə yetişəndə İbrahim uzaqdan onu tanıdı. Çünki peyğəmbərin hüzurunda Şeyx Səfiəddini hansı geyimdə görmüşdüsə, Ərdəbildə də həmin geyimdə idi. “Həzrət Şeyx çün İbrahimi gördi, izzətin saxlayub təzimi etdi və yenidən şəhadət kəlməsi və tövbə ilə təlqin ana bildürdi və hər xəlvətdə ki, zaviyənün münzirlərindədür, anı oturtdurub altı gün buyurdugi zikrə məşğul oldı. Çün əvvəlki zikri ana döndi, Şeyx (q.s.) ikinci zikr ana rücu eylədi. Pəs, Şeyx (q.s.) bir xəlvət kim, çaharyaqun təxtində iki kim, imdi mübarək həzirəsidür, təyin etdi kim, otura. Bir aydan sonra kəşf ana zahir oldı. Eylə kim hər nəstə kim, şəhərdə vaqe olur idi, bəlkə şəhərün evləri içində həman kim ol nəzər salurdı, təmamiyyətin ana gözükür idi” (106).

Şeyx Səfiəddin də kəşf məqamına yüksələ bilmişdi və kəşf, əslində, onun kəramətinin tərkib hissəsi idi. Onda da hadisələri duyma, görmə, hissetmə qabiliyyəti var idi və islam peyğəmbəri ilə bağlı olan hekayətlərdən biri də bu mövzuda idi. Kiçik Əli adlı biri hekayət edirdi ki, bir gecə islam peyğəmbərini yuxuda gördü və peyğəmbər (ə.s.) ona bir neçə hədis bəyan etdi ki, onları Şeyx Səfiəddinə çatdırsın. Bu hekayətin sonrası “Səfvətüs-səfa” əsərində Kiçik Əlinin dilindən belə nəql olunmuşdur: “Danlası çün zaviyəyə vardum, Şeyxi (q.s.) gördüm kim, zaviyədə oturub can bağışlayıcı sözlərlə məşğul idi. Məcal düşmədi Peyğəmbərün (s.) peyğamlarını yetürməyə. Qalxub evimə vardum, bir saatdən sonra Şeyxün xadimi Pirə Məmi gəldi ki, Şeyx (q.s.) səni çağırur. Durdum və Şeyxün qulluğuna vardum. Şeyx hazır cəmaətə buyurdı kim, qulaq asınız. Pəs dedi: “Küçük Əli, peyğam böylə yetürmək gərək, ilərü gəl və həzrət Peyğambərün (s.) buyurdugi peyğamlar söylə”. Mən dedim: “Çün Şeyx (q.s.) xamusın bilür, mən nə deyim?”. Şeyx (q.s.) Peyğambərün (ə.s.) hədislərin qamu

əvvəldən axırınadək kim mana demiş idi, buyurdı. Mən anun mübarək ayağına düşdüm və dedim: "Çün Şeyxün mübarək xatirində Peyğəmbərin (s.) buyurdugi peyğamlar qamu var idi, məni neşün çağırdı və neşün sordı?" Şeyx dedi: "Şəriətin zahiri riayət eyləmək vacibdür" (107).

"Səfvətüs-səfa" əsərində Şeyx Səfiəddinlə islam peyğəmbəri arasındakı bağlılıq əsasən yuxular vasitəsilə yaradılmışdır. Ümumən, bu əsərdə yuxu real bir əlaqə vasitəsi kimi istifadə edilmiş və mömin insanların yuxuları həqiqətlərin ifadəsi kimi qəbul edilmişdir. Gizli ilahi mətləblərin çoxu mömin insanlara məhz yuxular vasitəsilə açılmış və onlar da obyektiv reallıq və ya obyektiv reallıqdan xəbər verən Tanrı möcüzələri kimi "Səfvətüs-səfa" əsərində əks olunmuşdur. İslam peyğəmbərinin bu yuxulara gəlməsi, bu yuxularda Şeyx Səfiəddin haqqında bəyanlarını açması həm möcüzə kimi, həm də islam peyğəmbərinin doğru-dürüst mövqeyi kimi dəyər tapmışdır. Əsərin ifadə üsulundan göründüyü kimi, istər müəllif, istərsə də yuxusunu söyləyənlər onların doğruluğuna zərrəcə şübhə etməmişdilər. Şeyx Səfiəddin də buna şübhə etmirdi və bir çox hallarda o da öz işlərini və qərarlarını məhz yuxuda gördükləri əsasında qururdu.

Belə yuxular vasitəsilə çatdırılan peyğəmbər bəyanına görə, islam peyğəmbəri kimsə tərəfindən Şeyx Səfiəddinin incik salınması ilə barışmırdı və Şeyx Səfiəddinə belə yüksək qiymət verirdi. Bununla, Şeyx Səfiəddinin dərin bilik, iman, etiqad sahibi olması onun müasirlərinin də nəzərinə çatdırılırdı. Məsələn, Şeyx Səfiəddinin müasirlərindən olan tanınmış mövlanalardan biri baş vermiş bir hadisə ilə əlaqədar olaraq Şeyx Səfiəddinin hüzuruna yollanmaqdan və onunla görüşməkdən çəkinərdi. Bu mövlana da bir dəfə yuxuda islam peyğəmbəri ilə qarşılaşmaq şərəfi tapır və səhhətindəki çətinliklə bağlı ondan şəfaət istəyir. İslam peyğəmbəri də ona cavab verir ki, əgər Şeyx Səfiəddinlə görüşüb onunla barışmasa, peyğəmbər iltifatını ala bilməyəcəkdir. Həmin mövlana nəql edirdi ki, bu yuxudan sonra Şeyx Səfiəddinin ziyarətinə yollandı və yuxusunu danışmamış Şeyx Sə-

fiəddin peyğəmbərdən buyuruq almasından xəbərdar olduğunu bildirdi (108).

Şeyx Səfiəddinin istər sağlığında, istərsə də dünyasını dəyişməsindən sonra niyyətlə onun ziyarətinə gələnlərin və ya uzaqdan ondan şəfaət istəyənlərin niyyətlərinin həyata keçməsi ilə bağlı kəramət göstərməsi haqqında da çoxlu faktlar mövcuddur. "Səfvətüs-səfa" əsərində bu faktların da qruplaşdırılmasına cəhd göstərilmişdir. Başlıcası isə bu faktlar və hekayətlərlə Şeyx Səfiədinin Tanrı lütfünə sahib olması və onun şəfaətlərinin də Tanrı tərəfindən qəbul olunması bir daha ortaya qoyulmuşdur.

Bu hekayətlərdə həm də Şeyx Səfiəddinin təmannasızlığı, Tanrı tərəfindən ona lütf edilmiş kəramətin Tanrı bəndələri üçün əsirgənməməsi öz əksini tapmışdır. Şeyx Səfiəddin bunu özünün Haqqdan gələn borcu sayırdı və heç zaman da kəramətinin lütf olmasını insanlarla münasibətlərində hər hansı şəkildə bildirməzdi.

İslam peyğəmbəri ilə bağlı olan və Şeyx Səfiəddinin kəramətindən xəbər verən hekayətlərdən sonra "Səfvətüs-səfa" əsərində dənizdə və sularda çətinliyə düşənlərin Şeyx Səfiəddinin kəramətinə müraciət etmələri haqqında hekayətlər toplanmışdır. Bu hekayətlərdə də rəvayət çalarlarını görmək mümkündür. Lakin bunları danışanlar rastlaşdıqlarını real hadisə kimi qəbul edirdilər. Həmin hekayətlərdə dəniz səfərləri və səyahətləri zamanı, çaylarda sel olması zamanı insanların qarşılaşdıqları təhlükəli hallar və bu hallardan çıxmaq üçün Şeyx Səfiəddinin kəramətinə sığınmaları nəql olunmuşdur. Əsərdə bu hekayətlərin kimlər tərəfindən nəql olunması da göstərilmişdir.

"Səfvətüs-səfa" əsərində Şeyx Səfiəddinin kəramətinə dəlalət edən maraqlı dəniz hekayətlərindən biri də aşağıdakı kimidir: "Əxi Mirmar Hacı Rəvəndədən rəvayət edər kim, yigitlik çağında dörd müsahib ilə Misrün şəhərində idük. Bir gün dördimiz dəxi müqərrər eylədük kim, varub Nil çayınun bulağı məlum edəüz kim, nərədən çıxar. Dördimiz bu mənada ittifaq eyləyüb yola düşdük. Üç ay Nilin sərçeşməsi bulmağa çayun qırağında qətrə urarduk. Nagah dənizin içində bir cəzirə göründi,

bişmiş kirpücdən bir imarət anda yapılu və çayun qırağında iki gəmicük durur və iki adam anda hazır. Həman kim bizi gördilər, gəlişimiz ilən getdiyimiz nərədən və nərəyə xəbər sordılar. Cavab verdük kim, biz dört müsafiriz və üç aydur kim, Misirdən çıxub qətrə uraruz burayadəkin. Anlar muni eşdincə bizi gəmiyə girdürdilər və ol cəzirənün içinə apardılar. Baxduk, bir imarəti gördük və bir cəmaət qamu sufilər kisvətində ol mənzildə oturur. Həmin kim bizi gördilər, qarşulayub bizi qucağladular və dərvişlik soruçı ilə bizi soruşdılar. Anlarun ulusı mana baxub sordı kim, sən nə yerlüsən kim, dilün bunların dilinə bənzəməz? Dedim: "Azərbaycanun məmləkətindənəm, Təbriz şəhərindən". Dedi: "Sən Ərdəbil şəhəri görübsən?" Dedim: "Bəli". Dedi: "Necə şəhərdür?" Ol nəstələr ki, bilürdüm, söylədüm. Sözün ortasında dedim: "Ol şəhərin içində bir şeyx var kim, anun müridləri bu kisvət ilə surət kim, siz geyübsiniz geyərlər". Sordı kim: "Ol şeyxün adı nədür?". Dedim: "Şeyx Səfiəddin". Ol kişi həman kim məndən bu sözi eşitdi, bir nərə urub yerdən sıçradı və səmaə vardı və sərxoşlar kimi cuş və xüruş eylədi. ...Səmadən sonra yanumıza gəlüb, oturub dedi: "Bu zaviyə Şeyx Səfiəddinündür və biz anun müridləriüz". Biz dedük: "Siz Azərbaycana varub, Şeyxü görübsiniz?". Dedi: "Yox". Dedük: "Çün siz oraya varmayubsınız və həzrət Şeyxi görməyübsiniz, necəlik ana mürid olasınız?" Dedi: "Bizim bir əcəb hekayətimiz var. Bu səffədə qəbiri görərsiniz, mənüm atamundur. Bir bazərgan kişi idi və səfəri daim dəniz üstində idi. Tanrınun qəzasından dəniz içində bir böyük daş gösükmiş, gəmisi ilən gəmidəlilər anı görincə fəryad ilə fəğana düşdilər. Mənüm atam ol saətdə nəzir eylədi kim, əgər bu qatla bu fitnədən can aparam, mundan sonra bir bucaqda oturub malumı müstəhəqlərə sərf edəyim. Həman kim bu niyyəti xatirümdən baş çıxardı, dəniz üstindən bir kişiyi gözükdi kim, bir cübə geymiş idi və başına bir qursaq sarmış idi. Mübarək əlini uzadub ol daşa urdı və gəmiyi andan qurtarub dəniz üstində yeritdi və salamatlığ ilən ol pərişanlığdan qurturdılar. Sonra atam ol nəzir kim, eyləmiş idi, yerinə yetirüb bu imarəti yapdı və xurma ağacları tikdirdi və gələn-gedənün süfrəsi müqərrər eylədi. Hər

gün mehraba oturarkən Tanrı-təalaya bir münacat edüb derdi: "Nolaydı kim, biləydim kim, ol dəniz üstində gözükən kim idi və adı nə idi və nə yerlü idi?" ...Bu sözləri der ikən göz açub həm ol kişi kim, dəniz üstündə görmiş idi, gördi ki, mehrabda durub namaz qılurdı. Atam filhal ayağına düşüb ağlamağ ilə zariligə vardı. Ol kişi atamun çigninə əl urub yumşağlığ ilə soruşdı. Atam öz halını təmam həzrətində ərz etdi. Pəs dedi: "Tanrıyı sevərsən, adını söylə". Buyurdı: "Mən Ərdəbillü Səfiəddinəm". Pəs, atama tövbə və təlqin verüb, gərəklü nəstələrü bildirüb, rücu eylədi. Genə həm ol yoldan kim, gəlmiş idi, qayıtdı. Və mənüm atam andan sonra səkkiz yıl diri idi və hər qaçan kim atama bir müşkil iş düşərdi, Şeyxi çağırurdı və filhal öginə hazır olub müşkilin həll eylər idi və imdi üç yıldur kim, atam Tanrı rəhmətinə varubdur". Hacı Rəvəndə dedi: "Çün bu sözləri eşitdim, andan qayıdub Ərdəbilə gəldüm və Şeyxin (q.s.) hüzurinə müşərrəf olub tövbə və təlqin aldum" (109).

"Səfvətüs-səfa" əsərində Şeyx Səfiəddinin kəraməti ilə bağlı öz əksini tapmış digər qrup hekayətlər qara, çovğuna düşmüş insanların Şeyx Səfiəddindən şəfaət istəməsi və onların öz istəklərinə yetməsi ilə bağlıdır. Burada da Şeyx Səfiəddinin kəramətinin göstəricisi olan çoxlu sayda hekayətlər verilmişdir və bu hekayətlərin hər biri də konkret ünvanlara bağlıdır. Həmin hekayətlərdə də Şeyx Səfiəddinin kəramətinə ehtiram və dərin inam ifadə olunmuşdur. Bu inam və ehtiramın nəticəsidir ki, Şeyx Səfiəddinin kəraməti ilə qarşılaşanlar sonradan onun əlindən tövbə alıb müridliyini də qəbul edirdilər.

Əmir Mahmud adlı bir nəfərin dilindən qələmə alınmış hekayətdə bildirilirdi ki, o, yanında olan yoldaşı ilə Əlivan adlanan məntəqədə qar-borana düşmüşdü. Qar-boran o dərəcədə güclü imiş ki, Əmir Mahmudla onun yanındakı adam hətta sağ qalacaqlarına belə ümidlərini itiriblərmiş və onlar hara gedəcəklərini də bilmirlərmiş. Belə bir anda yaşıl donlu və boz atlı bir kişi atı ilə birlikdə orada görünür və onların qarşısına düşərək atlara yol göstərməyə başlayır. Bu minvalla onlar boz atlının arxasınca Əvtad adlı məntəqəyə yetişirlər və bununla da fəlakətdən nicat

tapırlar. Sonradan bu nicat tapanlar Şeyx zaviyəsinə yollanırlar və orada onlara məlum olur ki, çətin anlarda onların qarşısına düşüb onlara yol göstərən Şeyx Səfiəddin imiş (110).

Şeyx Səfiəddinin müasirlərindən biri olan Marağalı Mövlana Tacəddin danışırmış ki, bir dəfə taliblər və tövbəlilər ilə birlikdə Marağaya yollanırlarmış. Raşidi gədiyinə çatanda qatı bir dumana düşürlər. Bu duman o qədər qatı imiş ki, hətta çox yaxında olan insanları da görmək çətin imiş. Bu vəziyyətdə Mövlana Tacəddin və yoldaşları ciddi bir təhlükə ilə qarşılaşdıqlarını güman edirlər. Mövlana Tacəddin hərəkətsiz dayanıb bir müddət gözlərini yumur. Gözlərini açanda isə bildirir ki, Şeyx Səfiəddin onun gözünə göründü və havaya işarə elədi. Yəni, bununla o, Şeyx Səfiəddinin kəraməti ilə qarşılaşacaqlarına ümid etdiyini bildirir. Doğrudan da tezliklə duman çəklir və yolçular sağ-salamat mənzil başına yetişirlər (111).

Hekayətlərin bir çoxunda Şeyx Səfiəddinin müşgülə düşmüş insanların gözünə yaşıl paltarda və boz at üstündə görünməsi xatırlanmışdır. Onun yaşıl geyimə meyilli olması digər faktlardan da məlumdur. Atına gəlincə isə, çox güman ki, onun boz rəngdə atı olubmuş və ona görə də müasirlərinin yaddaşlarında da Şeyx Səfiəddin boz at üstündə xatırlanır. Şeyx Səfiəddinin kəraməti ilə bağlı olan hekayətlərdə hətta dövlət adamlarının adlarına da rast gəlmək mümkündür. Həmin hekayətlərdən biri belə idi: "Xəlifələrin böyügi kəndüsi zamanında Pirə Bədrəddin dedi: "Bir qatla Əmir Çopan Xorasandan qayıdub Tarəmə yetdi, anda av əzminə atlandı və anun böyük nökəri Daştəmir biləsincə idi. Və əmir Çopan bir qatıbaşlu at ana bağışlayub, Daştəmir ol gün ol ata minmişdi. Bir uca dağun üstinə çəkinüb atları səgirdürlərdi və bu Daştəmir ol atun adəti ilə huyi bilməz idi səgirtməkdə. Cilovu əlindən alub ixtiyarsız at bir kəmərün üstinə çıxdı kim, andan aşağayadəkin xeyli yol idi. Tanrınun qəzasından atı ilən ol kəmərdən rədd olub düşdi və Daştəmir yuxarudan aşağıya yetəndə kəmərün ortasında atdan ayrıldı. Və at eylə heybət ilən yerə düşdi kim, gövdəsi parə-parə olub sümükləri qamu ufandı və Daştəmir salatlığ ilə yerə erə, dübdüz ayağ üstinə durdı və gövdəsinə müt-

ləqən heç zəhmət uğramadı və qılca incimədi. Əmir Çopan bu haləti görüb xeyli pərişan oldı. Çün başına vardılar, gördilər at parə-parə olub, Daştəmir sağlık ilən qurtulub anda durubdur. Əcəbdə qalub ol haldan xəbər sordılar, dedi: "Hava yüzində küm, at ilən yuxarudan aşağıya düşərdüm, Şeyxi (q.s.) gördüm kim, hazır olub, əlin uzadıb, mənüm yakam ilən köksümi bərk dutub, at üstindən qopdurub, zəhmətsiz, ahəstəlik ilən yerə endürdi və bu düşməkdən ki, həlaka yaxın idi, qurtardı" (112).

Şeyx Səfiəddin dövrünün Elxani hakimləri olan Sultan Məhəmmədlə Sultan Əbu Səidin adına da onun kəraməti ilə bağlı olan hekayətlərdə rast gəlmək mümkündür. Bu hakimlərin hekayətlərdə xatırlanması həmin hekayətlərdə haqqında danışılan kəramət hadisəsində reallıq görüntüsünü daha da gücləndirməkdədir. Belə hekayətlərdən biri Şeyx Səfiəddinin oğlu Şeyx Sədrəddinin nökəri Əxi Əmir Əlinin dilindən qələmə alınmışdır. Xorasanda yaşadığı zaman Əxi Əmirdən dövrün hakimi Sultan Məhəmmədə şikayət çatdırılır və Sultan Məhəmməd də onun öldürülməsinə qərar verir. Bu məqsədlə Əxi Əmir Əlinin arxasınca qorçular göndərilir. Əxi Əmir Əli də canını xilas etmək üçün Şeyx Səfiəddindən şəfaət iltiması edərək Sultan Məhəmmədin Mazandaranda hakim olan oğlu Sultan Əbu Səid xanın yanına yollanır. O belə güman edirdi ki, haqqında yalandan şikayət edilməsini Sultan Əbu Səidə çatdıra bilsə onun vasitəsilə Sultan Məhəmmədin də qəzəbindən qurtula bilər. Pərişan halda Mazandaran yolçuluğunda olanda Əxi Əmir Əli bir dəfə Şeyx Səfiəddinlə rastlaşır. O, rastlaşdığı yaşıl libaslı bu insanın kim olmasından xəbərdar deyildi. Sonralar anlamışdı ki, o, Şeyx Səfiəddinlə qarşılaşıbmış. Şeyx Səfiəddin ona təlqin edir ki, təşvişlənməsin və aram olsun. Bundan sonra Əxi Əmir bir qədər sakitlik tapır və Sultan Əbu Səidlə görüşəndə günahkar olmamasını sübut edən bir sənədi ona çatdırır. Əbu Səid də bu sənədlə tanışlıqdan sonra Əxi Əmirə böhtan atan adamın tapılmasına göstəriş verir. Bununla, Əxi Əmir ölümdən nicat tapır və bu nicata görə Şeyx Səfiəddinə borclu olduğunu bəyan edir (113).

Şeyx Səfiəddin kəraməti ilə bağlı hekayətlərin bir qrupu da onun xəstələrə və əlacsızlara göstərdiyi şəfaəti haqqındadır. Yuxarıda toxunulan hekayətlər qrupunda Şeyx Səfiəddinin kəraməti daha çox qiyabi yolla özünü nümayiş etdirirdisə, xəstələrlə bağlı olan hekayətlədə Şeyx Səfiəddinin özünün real iştirakını görmək mümkündür. Belə ki, əvvəlki hekayətlərdə Şeyx Səfiəddin ya şəfaət diləyənlərin yuxusuna girirdi, ya da qeybdən onların gözünə görünürdü. Xəstələrlə bağlı hekayətlərdə də bu halı müşahidə etmək mümkündür. Amma daha çox onun özünün real olaraq xəstələrə şəfaətçi olmasını, əlini xəstələrə çəkməsini, ya onların qarşısında dua oxuyaraq Tanrıdan şəfaət istəməsini görmək mümkündür. Belə hekayətlərdən birində Əxi Şadi adlı birisi nəql edirdi ki, ramazan ayının sonlarına yaxın Şeyx Səfiəddin ona iki günlük çörək bişirməyi tapşırdı. O da bu tapşırğı yerinə yetirmək üçün mətbəxdə işə başlayır və çörək bişirərkən əllərini yandırır. Onun işinin gərgin vaxtında Şeyx Səfiəddin yanına gəlir və əllərinin yanmasının şahidi olur. Əxi Şadi danışır ki, Şeyx Səfiəddin onun yanmış əlinin üzərinə öz əlini çəkdi və bununla onun əlinin yanığı da yox oldu (114).

Hekayətlərin birində Qızıl Orda xanı Özbək də xatırlanmışdır. Özbək xan Şeyx Səfiəddinin həyatının sonlarına yaxın hakimiyyətdə olmuş, bölgəyə, o cümlədən Azərbaycana da yürüşlər etmişdir. Bu yürüşlər, sözsüz ki, insanlara böyük məhrumiyyətlər gətirirdi. Hekayətlərin birində məhz Şeyx Səfiəddinin kəraməti nəticəsində Özbək xanın Azərbaycanda uzun müddət dayana bilməyib geri çəkilməsindən danışılır. Bildirilir ki, bu yürüşlərdən birində Özbək xanın qoşunları Kür çayına kimi irəliləmişdi. Ətraf bölgələrin əhalisi isə bu qoşunların daha da irəliləyəcəyindən və qoşunların talanları ilə qarşılaşacağından nigarançılıq keçirirdi. Bu hekayəti danışan bildirirdi ki, bir gecə Şeyx Səfiəddini yuxuda gördi və Şeyx Səfiəddin tərəfindən Özbək xanın geri qayıtmağa məcbur edildiyindən çox sevindi. Hekayətə görə bu yuxudan bir neçə gün sonra Özbək xan doğrudan da qoşunları ilə geri çəkildi (115).

Şeyx Səfiəddinin kəraməti ilə bağlı olan hekayətlərin əksəriyyəti onun real həyatından götürülmüşdür və bu hekayətlərdə Şeyx Səfiəddinin kəraməti ilə bərabər, onun müdrikliyinin və kəşfinin (təriqət) dərin izlərini görmək mümkündür.

Məsələn, Sultaniyyə istiqamətində olan Ağara kəndində bir yoxsul kişi böyük ailəsini dolandırmaqda çətinlik çəkirdi. Onun həyətində bir ərik ağacı var idi. Bu kişi bir dəfə qərara gəlir ki, ərikləri toplayıb yol üstünə çıxsın, bəlkə onu satıb ailəsi üçün bir tikə çörək qazansın. Belə də edir və yol üstünə çıxanda görür ki, böyük bir izdiham ona yaxınlaşmaqdadır. Bu izdiham da Şeyx Səfiəddinin ətrafına toplaşanlar imiş. Yoxsul kişi satmaq istədiyi ərikləri Şeyx Səfiəddinin qarşısına qoyur və deyir: "Aləmin xəlayiqi Tanrıdan hacət ilən Qədr gecəsi istərlər, amma Tanrıya yüz şükr ki, mən gündüzdə Qədr gecəsi gördüm. İmdi mənim muradımı ver". Şeyx Səfiəddin həmin əriklərdən bir neçəsini əvvəlcə özü yeyir və qalanlarını da ətrafındakılara təklif edir. Eyni zamanda ətrafdakılardan xahiş edir ki, ərik sahibinə nə isə versinlər. Yoxsul kişiyə o qədər pul, hədiyyə, geyəcək və yeyəcək verilir ki, sayı-hesabı olmur. Yoxsul kişi hətta Şeyx Səfiəddindən kömək istəyir ki, toplananların evə aparılması üçün ona köməkçi versin. Hekayətdə sonra qeyd olunur ki, bundan sonra həmin yoxsul kişi həm də yoxsulluğun daşını atdı (116).

Şeyx Səfiəddinin oğlu Şeyx Sədrəddin danışırmış ki, Kavzəndə Pirə Yusif adlı birisi təriqət yolunda addımlamaqla, təsəvvüfün sirlərini və ilahi mətləbləri öyrənməyə çalışırdı. Amma istəyirdi ki, dərin bilikli bir mürşidə xidmət etsin. Nəğlədərli Məhəmməd bir müddət onun mürşidi olur. Amma onun bilik mərtəbəsi Pirə Yusifi qane etmir və onun yanından uzaqlaşır. Pirə Yusif dərin iman, etiqad sahibi olduğu, riyazətlər çəkdiyi üçün ona kəşf məqamı qismət olmuşdu. Yəni bir sıra ilahi sirlər ona aşkar olurdu. Pirə Yusif bir gecə yuxuda görür ki, ona Şeyx Səfiəddinin yanına getmək tövsiyə olunur. Ona bəyan edilir ki, təsəvvüf yolunda əldə etməyə çalışdıqlarını Şeyx Səfiəddinin mürşidliyi ilə əldə edə bilər. Bu yuxudan sonra Pirə Yusif Ərdəbilə yollanmağı və Şeyx Səfiəddinin müridi olmağı qərara alır. Bu zaman Şeyx

Səfiəddin hələ Kəlxoranda yaşayırdı və zaviyəsi də orada idi. Pirə Yusif də ora yollanır və təsadüfdən həmin anda Şeyx Səfiəddin zaviyəsində yox imiş. Pirə Yusif bir qədər səbirsiz adam imiş və Şeyx Səfiəddini çox gözləməyə səbri çatmır. Ona görə də geri dönür. Şeyx Səfiəddin isə zaviyəsinə qayıdan kimi onun sorağı ilə gəlmiş Pirə Yusifi soruşur. Eşidəndə ki, o artıq Kəlxoranı tərk edib, onda onun arxasınca adam göndərir. Yəni Pirə Yusifin nə üçün gəlməsi Şeyx Səfiəddinə əyan olmuşdu. Pirə Yusif geri qayıdır və Şeyx Səfiəddinin hüzuruna yetişir. Hekayətdə bildirilir ki, Pirə Yusif gəlib Şeyx Səfiəddinlə görüşəndə onun otuz illik riyazəti dövründə kəsb etmiş olduğu kəşf və kəraməti yox olur. Pirə Yusif buna heç də heyifslənmir və bildirir ki, məqsədi Şeyx Səfiəddinin mürşidliyini əldə etməkdir. Şeyx Səfiəddin də onu öz zaviyəsinə qəbul edir. Bu qərar Şeyx Səfiəddini sevindirməklə bərabər, həm də Pirə Yusif özü Tanrı lütfünə sahib olur və onun kəşfi və kəraməti daha yüksək səviyyədə geri qayıdır. Pirə Yusif orada Şeyx Səfiəddindən tövbə və təlqin alır və bir müddətdən sonra evinə qayıdır. Sonra Pirə Yusif özlüyündə hiss edir ki, Şeyx Səfiəddindən tövbə və təlqin almaq onun özünün etiqad mərtəbəsini qaldırmaqla yanaşı, həm də onun ailə üzvlərinin mərtəbəsini yüksəltmişdir. Pirə Yusifə görə, bu, Şeyx Səfiəddinin kəramətinin lütfü idi (117).

Şeyx Səfiəddin zəmanəsinin tanınmış bilik və kəramət sahibi olsa da, həm də səmimi, sadə və təvazökar bir insan idi. O özünü heç vaxt ətrafdakılardan fərqləndirməzdi, yüksək vəzifə sahibləri ilə halal zəhmət sahibləri arasında fərq qoymazdı. O bir dəfə Xalxala yollanan zaman bu məntəqənin adamları Şeyx Səfiəddini öz evlərinə qonaq aparmaq üçün əldən-ayaqdan gedirdilər. "Səfvətüs-səfa"nın yazdığına görə, Şeyxi qonaq etmək haqqını əldə etmək üçün yerli əhali arasında hətta mübahisələrə də yol verilmişdi. Şeyx Səfiəddin isə onun üçün açılmış zəngin süfrələrin heç birini qəbul etmədi və Gazur Bəhaəddin adlı bir yoxsul dərvişin evinə yollandı, ev sahibinin yemək üçün nəyi var idisə onunla kifayətləndi və süfrə üstünə gətirilmiş nemətlər üçün dua və şükür etdi. Gazur Bəhaəddin sonradan xatırlayırmış ki,

Şeyx Səfiəddinin bərəkətindən onun halında dəyişikliklər baş verməyə başladı, ibadətlə daha dərindən məşğul oldu, həyatı da Haqq yoluna daha dərindən bağlandı. Onun dediyinə görə, hətta bədənin hər bir tükü də Tanrıya zikrlə məşğul olurdu. Bəhaəddin özündəki dəyişiklikləri Şeyx Səfiəddinin kəraməti ilə bağlayırdı və bunun üçün də onu minnətdarlıqla anırdı (118).

Şeyx Səfiəddin sadə olduğu qədər də, səliqəli geyimi ilə fərqlənirdi. Yuxarıda qeyd edildiyi kimi, yaşıl rəngli geyimlərə üstünlük verirdi və mindiyi at da başqalarından seçilərdi. Dövrünün tanınmış ruhanilərindən biri olan Mövlana İsmayıl danışırmış ki, bir dəfə Ərdəbilə yollanır və orada Şeyx Səfiəddini qiymətli geyimdə və həm də qiymətli bir atın üstündə görür. Onun dediklərinə görə, bu qiyafədə və bu atın üstündə Şeyx Səfiəddin hətta padşaha da oxşayırmış və sanki padşahlar məclisinə yollanırmış. Gördükləri Mövlana İsmayılda belə bir fikir yaradırır ki, Şeyx Səfiəddinin geydiyi şeyx libası deyil. Yəni Şeyx Səfiəddində dünyəvi nemətlərin cazibəsinə meyil vardır. Mövlana İsmayıl sonra da əlavə edir ki, onun qəlbindən keçən bu fikir dərhal Şeyx Səfiəddinə əyan oldu və üzünü ona tərəf çevirərək dedi ki, düşündükləri heç də doğru deyil, təmiz və bahalı paltar padşahlardan daha çox aşiqlərə xas olan bir keyfiyyətdir. Aşiq deyəndə o, Tanrı aşiqini nəzərdə tuturdu. Şeyx Səfiəddinə görə, kimsə Tanrı aşiqi olurdusa, Tanrı onun batini kimi zahirini də bəzədirdi (119).

Şeyx Səfiəddin hər zaman sadəliyində qalmışdı və yuxarıda deyilənlər də bir daha bunu nümayiş etdirir. Hətta ona məxsus olan əmlak və mülkdən əldə edilən gəlirləri də imkansızlara paylamağı üstün tuturdu. “Səfvətüs-səfa” əsərində onun kəraməti ilə bağlı olan çoxlu hekayətlərdə bu məsələyə aid faktlar vardır. Məsələn, bu hekayətlərdən birində deyilir ki, Bəlvanlı Mövlana Nizaməddinin Ərdəbil divanında bir surğalı var idi. Mövlana Nizaməddin həmin surğalı Şeyx Səfiəddinə bağışlamaq istəyirdi və bununla bağlı o öz qardaşını da Şeyxin yanına göndərmişdi. Şeyx Səfiəddin isə belə işlərə heç meyl etməzdi və hekayətdə bildirilir ki, o öz tasliblərinə və müridlərinə də belə sərvət əldə etməyi qa-

dağan etmişdi. Mövlana Nizaməddinin qardaşı israr etsə də Şeyx Səfiəddin surğalı qəbul etmir. Bu zaman həmin adamın fikrindən keçir ki, yəqin Şeyx Səfiəddin Kəlxoran kəndinin əmlakından əldə edilən sərvətləri daha halal bilir və ona görə də surğaldan üz çevirir. Onun bu fikri Şeyx Səfiəddinə əyan olur və bəyan edir ki, onun Kəlxoranın malında da gözü yoxdur və heç vaxt Kəlxoranda toplanan sərvətə göz dikməmişdir (120).

Bu hekayətlər həm də Şeyx Səfiəddinin kəramətinin göstəricisi idi. Həmin hekayətlərdə Şeyx Səfiəddin halallığını nümayiş etdirməklə bərabər, insanların qəlbindən keçənləri duyma və oxuma kəramətinə də sahib olduğunu nümayiş etdirirdi.

Şeyx Səfiəddinin kəramətində bir xeyirxahlıq, xeyir-dua nişanələri də var idi və bununla ona müracət edənlərin xeyirli və müşkülsüz həyatları üçün Tanrı qarşısında şəfaətçi olurdu. Yalnız adi insanlar deyil, dövrünün hakimləri də onun kəramətinə tapınır və həyatları üçün ondan Tanrı dərgahında şəfaətçi olmağı xahiş edirdilər. Məsələn, Cəlairli hakimlərindən biri olan Əmir Hüseyn bir dəfə öz oğlu Əmir Şeyx Həsəni vəkil Daşdəmirin müşayiəti ilə Şeyx Səfiəddinin ziyarətinə göndərdi. Məqsəd də bu idi ki, Şeyx Səfiəddin onun oğluna xeyir-dua versin və ona uğurlar arzulasın. Şeyx Səfiəddin də Əmir Şeyx Həsəni öz zaviyəsinə qəbul etdi. Vəkil Daşdəmir Cəlayirli Əmir Hüseynin adından xahiş etdi ki, Şeyx Səfiəddin xeyir-duasından əlavə həm də Əmir Şeyx Həsənə öz əşyalarından nəyi isə şəfqət eyləsin. Yəni Şeyx Səfiəddinə məxsus olan əşyalar müqəddəs əşyalar kimi hər zaman Şeyx Həsənin yanında qalsın və onu bəlalardan hifz eləsin. Şeyx Səfiəddin də ona öz dulbəndini və börkünü bağışladı. Şeyx Həsən onları qəbul edib atasının yanına döndü. Əmir Hüseyn bundan çox mənun oldu və oğlunun Şeyx Səfiəddinin xeyir-duasını almasına çox sevindi. Səhəri gün Şeyx Həsən atası ilə birlikdə yenidən Şeyx Səfiəddinin ziyarətinə gəldi. Əmir Hüseyn dövrünün böyük irfan və təsəvvüf əhli olan Şeyx Səfiəddinin əllərini öpdükdən sonra ona belə müraciət etdi: “Ya Şeyx, padahlar ilə bəglərün ortasında bir törə vardur kim, padşahzadələrdən hər

kimin alnında bir dövlət nişanəsi gözükür, bəglər hər biri bir oğlı ol padşahzadənün xidmətinə aparub nökər edərlər, ta bir gün ki, padşahzadə dövlətinə yetüb, təxt üstündə otura, bu əbəkcilər anun yanında izzətlü olub qoca atalarına və oymağı ilə qövmi-qardaşına padşahun sədəqəsindən himayətçi olalar. İmdi mən Şeyx Həsəni anun üçün qulluğına tapşurdum kim, həzrət Şeyx andan şəfəqqət ilə tərbiyət nəzəri əksük etməsün, ta qiyamətdə bizə himayət edüb, Şeyxün bərəkətindən məhşər gününün əzabından bir qurtarıcı ola ki, illahilhəmd, dünyalikdə heç nəstəyə möhtac dəgülüz, bəlkə himmətimiz təmam axirətün əhvalına qoyupduruz" (121).

"Səfvətüs-səfa" əsərində yazılana görə, Şeyx Həsən bu ziyarətlər zamanı Şeyx Səfiəddinin xeyir-duasını almaqla yanaşı, həm də onun öyüdi və tövsiyələrini qəbul etdi, mömün bir insana çevrildi, namazını heç bir zaman qaçırmadı, şəhadət kəlməsi də dilindən düşmədi. Adı çəkilən əsərdə bildirilir ki, Şeyx Səfiəddinin xeyir-duası və kəraməti Şeyx Həsəni hər cürə bəlalardan qorudu, yaşlı vaxtlarına qədər çətinliklərdən kənar oldu və hətta sultan Əbu Səid tərəfindən həbsə alınanda da ona bir müşkül üz vermədi. Tarixdən də məlumdur ki, Əbu Səid tərəfindən həbs edilsə də, Şeyx Həsən bu həbsdən sağ-salamat qurtara bilmişdir.

Dövrünün başqa bir hakimi olan Elxani hakimi Əbu Səid xan da hələ uşaqlığında Şeyx Səfiəddinin ziyarətində olmuşdu. Əbu Səid xan Şeyx Səfiəddinin həyatının sonlarında bölgənin hakimi məqamına yüksələ bilmişdi. O da danışırmış ki, uşaq yaşlarında olarkən atası ilə birlikdə Şeyx Səfiəddinin ziyarətinə yollanmışdılar. Bu ziyarətə Cobanilərdən xeyli adam yollanıbmış. Şeyx Səfiəddin onlarla görüşəndən sonra Əbu Səidi yanına çağırır və onun atasına bildirir ki, bu uşağın başında dövlət görünür. Əbu Səid qeyd edirdi ki, Şeyxin bu sözlərindən sonra özümdə bir səadət hiss etdim və işlərimin uğurları da bir-birini təkrarladı. O, dövrün hakimi məqamına yüksəlməsini də Şeyx Səfiəddinin kəramətindən bilirdi (122).

Müasirləri arasında Şeyx Səfiəddinin kəramətinə şübhə ilə yanaşanlar da tapılırdı. Belələri öz şübhələrinə son qoymaq üçün

müəyyən yollarla Şeyx Səfiəddini imtahana da çəkməyə çalışırdılar. Şübhələrinin doğru olmadığını bilənlər isə Şeyx Səfiəddinin tövbəsini qəbul edər və ya da öz etiqadlarına daha dərindən bağlanardılar. Məsələn, Şeyx Səfiəddin Gərmrud kəndinə gələndə Mövlana Nurəddin adlı birisindən də xahiş olunur ki, təriqət rəhbəri Şeyx Səfiəddinin ziyarətinə yollansın, ondan tövbə və təlqin alsın. Mövlana Nurəddin əvvəlcə buna ehtiyac olmadığını bildirsə də, sonradan Şeyx Şəfiəddinin kəramət sahibi olub-olmamasını yoxlamağı qərara alır. Mövlana Nurəddin əynindəki ruhani libasını çıxarır və adi paltar geyib Şeyx Səfiəddinin yanına yollanır. Paltarını dəyişməkdə də məqsədi o idi ki, Şeyx Səfiəddin onun ruhani olduğunu hiss edə biləcək, ya yox? Görüşdükləri zaman Şeyx Səfiəddin dərhal onun kim olduğunu bildi və ona “Mövlana” deyə müraciət edti və başqa geyimdə olmasına ehtiyac olmadığını bildirdi. Mövlana Nurəddin də bundan sonra Şeyx Səfiəddinin kəramətinə inandı və onun əlindən tövbə almağı özünə borc bildi (123).

Bir dəfə Bərniq kəndinin sufiləri toplaşaraq Şeyx Səfiəddini ziyarət etmək qərarına gəlirlər. Onlar kəndin şeyxi olan Şeyx Qələndərin oğlu Pir Əhmədə də təklif edirlər ki, onlarla birlikdə Şeyx Səfiəddinin ziyarətinə yollansın. Pir Əhməd isə bildirir ki, o, şeyx oğludur və onun digər bir şeyxin yanına yollanmasına ehtiyac yoxdur. Pir Əhməd bu məsələni evində öz xanımına açıb danışır ki, sufilər onu Şeyx Səfiəddinin ziyarətinə getməyə dəvət etsələr də, o bu dəvətdən imtina etmişdir. Xanımı isə, əksinə, ona məsləhət bilir ki, Şeyx Səfiəddinin ziyarətinə yollansın və onun doğrudan da kəramət sahibi olub-olmadığını yoxlasın. Bunun üçün onlar niyyət də tuturlar. Niyyətin biri belə idi ki, görüşləri zamanı Şeyx Səfiəddin onu “şeyxoğlu” adlandırsın, ikinci niyyət də belə idi ki, Pir Əhmədin xanımının istəyindən xəbər tutub Şeyx Səfiəddin ona bir nar göndərsin. Pir Əhməd də xanımının məsləhətindən sonra Şeyx Səfiəddinin ziyarətinə getməyi qərara alır və Ərdəbilə yollanır. Şeyx Səfiəddin görüşdükləri zamanı ona “şeyxoğlu” deyə müraciət edir ki, bu da Pir Əhmədin təəccübünə səbəb olur. Əslində, Pir Əhməddə bununla Şeyx Səfiəddinin

kəramət sahibi olmasına şübhə yeri qalmır. Onun başı bu ziyarət mərasiminə elə qarışır ki, xanımının niyyətini yadından tamam çıxarır. Geri qayıtmaq dəmində Şeyx Səfiəddin özü ona müraciət edir ki, axı, xanımın səndən nar istəmişdi, nə üçün nar istəməyi unutdun? Şeyx Səfiəddin bir ədəd narı Pir Əhmədə verir və deyir ki, mən bu narı yemək istəyirdim. Amma sənin xanımın nar niyyəti edəndə onu yemədim və sənin xanımın üçün saxladım. Pir Əhməd bununla Şeyx Səfiəddinin kəramətinə dərindən etiqad edir və baş verənləri eşidəndən sonra onun xanımı da Şeyx Səfiəddinin müridi olmağı qərara alır (124).

"Səfvətüs-səfa" əsərində Şeyx Səfiəddinin kəramətini sınamaq üçün nəql edilmiş hekayətlərdən biri də belə idi: "Pirə Məqsud kim, salehlərdən biri idi, dedi kim, mənüm qardaşum tövbəkar olmış idi. Gecələr çok zikr etdügündən bizi yatmağa qoymaz idi. Bir gün ana dedüm: "Sənün şeyxün "Fatihə"ni dürüst oxuyamaz, necə bizi incidirsən?" Qardaşım dedi: "Gəl ikimiz bilə Şeyxün həzrətinə varalım. Əgər ol dedigimizdən xəbər verə, xub, yoksa mən dəxi tövbədən tövbə eyləyim". Saətdə ikimiz həzrət Şeyxün qulluğına varduq. Akşam namazun çağı idi. Bangçı akşam bangın çağırdı. Həzrət Şeyx (q.s.) dedi: "Bu gecə mən iməmət eylərəm". Və mehraba varub, məni çağırub yanımnda yer verdi. Pəs namazın təkbiri dedi, çün namazdan fariğ oldı, yüzini mana eyləyib buyurdı: "İlyasın oğlu, "Fatihə"ni dürüst oxuya bilürəm, yoksa, yok?". Munı eşidincə taqətüm taq olub, nifaqum vifaqa mübəddəl olub saətdə tövbə qıldum və ixlas ilən mürid oldum" (125).

"Səfvətüs-səfa" əsərində olan hekayətlərə görə, hətta dövrünün bilik adamları arasında da Şeyx Səfiədinin kəramət sahibi olmasına şübhə ilə yanaşanlar tapılırdı. Belələri onun haqqında danışılanlara inanmaz və özləri Şeyx Səfiəddinin kəramətinin şahidi olmağa çalışardılar. Məsələn, Şirazdan Təbrizə bazarlıq üçün gəlmiş bir bilik adamı da Şeyx Səfiəddinin kəramətinə şübhə ilə yanaşır və onun haqqında söylənilənləri qəbul etməzdi. Ona Şeyx Səfiəddinin əlindən tövbə almaq təklifini də qəbul etməzdi. Çox təkiddən sonra Şirazlı bilik adamı qərara aldı ki,

Şeyx Səfiəddinin ziyarətinə yollansın, onun kəramət sahibi olub-olmamasına özü şahid olsun. Bir neçə gündən sonra həmin adam Ərdəbildən qayıdır və məlum olur ki, o artıq Şeyx Səfiəddinin əlindən tövbə və təlqin almışdır. Onu tanıyanlar bunu təəcüblə qarşılayırlar və səbəbini ondan soruşurlar. Həmin adam da nəql edir ki, o, Ərdəbilə ikindi namazı vaxtı çatmışdı. Bu adam da Şeyx Səfiəddinlə birlikdə ikindi namazını qılır və sonra Şeyx Səfiəddin namaz əhlinə Allah kəlamından danışmağa başlayır. Məclisdə çoxlu sayda talib də var imiş. Bu taliblər Allah kəlamını eşitdikcə nərə çəkib öz hisslərini uca səslərlə bəyan edirlərmiş. Şirazlı qonaq sual edib taliblərin bu nərələrinin və çığırtılarının nə ilə bağlı olduğunu soruşmaq istəyir. Bu zaman Şeyx Səfiəddin danışığını dayandırır və əlini şirazlı qonağın çiyninə qoyaraq belə bir misra oxuyur:

“Çün eşq piş-e mən bud, labod konəm fəryad əz u”

(Eşq mənim qarşımda olduğu üçün ondan hökmən fəryad edərəm)

Şirazlı qonaq bu misranı eşitdikdən sonra nə baş verdiyinin mahiyyətinə vardı. Sonra Şeyx Səfiəddin onu öz xəlvətinə çağırır və onu narahat edən sualların hamısına cavab verir. Bununla, şirazlı qonaqda da Şeyx Səfiəddinin kəramət sahibi olamsına şübhə yeri qalmır (126).

Şeyx Səfiəddini imtahan etmək istəyənlər təkcə onun kəramət sahibi olmasının deyil, həm də dərin bilik sahibi olmasının şahidi olurdular, ondan elm və bilik də kəsb edirdilər. Bir çoxları öz təəccüblərini də gizlətmirdilər ki, mədrəsə təhsili almağıdı halda Şeyx Səfiəddin əhatəli elmi biliklərə sahib idi: “Məliküs-sadat İsfahanlu Seyyid Qütbəddin Murtuza dedi: “Bir gecə Mövlana Nizaməddin Əbdülməlik ilə Marağalu Mövlana İzzədin və Qazı Tacəddin ilə Seyyid Həmidəddin və Mövlana Mahmud Şeyxün həzrətinə (q.s.) varduk. İmtahan üzərində neçə suallar fikir etmişdük kim, həzrət Şeyxdən soralım və hal ol kim Mövlana İzzəddindən sormuşdık kim, həzrət Şeyxün (q.s.) heç elmi

hasil olubdur?” Dedi: “Yok”. Və biz təəccüb eylərdük kim, çün anun elmi yok, məsələlərün cavablarını necə verür? Bilməzdik kim, ol elmlərün ucarakı ilə əlarakı kim, ol, Tanrınun elmidür, bilcidür. Əlqissə, imtahan içün xidmətinə varduk. Həman kim oturduk, Şeyxün kəramatından dillərimiz bənd olub tərpənməzdi. Marağalu Mövlana İzzəddin başını ögin salub heç qaldurmaz idi. Çün bir saət mundan keçdi, həzrət Şeyx (q.s.) başın qaldurub ol suallar kim, biz fikir etmişdük, arı zəmir ilən pak himmətindən bir-bir cavabını dedi və bir ibarət ilən kim, mən derdüm: “Həqq ləhü ən yəktübə bisəvadil-əbsari əla bəyazil-eyni” (Haqq gözün qarası ilə görünərək, ağı üzərində yazılmalıdır). Çün anun kəramatı zəmirimizün kəşfini gördük və eylə cavablar eşitdük, qeybdən bir heyrət mana endi və bir nərə urub əlümi həzrət Şeyxün (q.s.) ətəgünə urub tövbə qıldum və etiqadımız safi olub mürid olduk. Çün məclisdən dışxarı çıxduk, Mövlanə İzzəddinə dedim: “Mən sənün fikrindənəm ki, böylə əzəmət və cəlalət kim, həzrət Şeyxün var elmdə, neşün dedim ki, ol elmdən az nəstə oxuyubdur?” Mövlana İzzəddin and içdi kim, həzrət Şeyx (q.s.) bu nəstələri mədrəsələrdə talibi-elm ilən oxumayubdur” (127).

Şeyx Səfiəddəinin ziyarətində olmaq həm də yeni bir həyat və irşad dərsi almaq demək idi. Hətta onu imtahan üçün etmək gələnlər də Şeyxin kəramətinə şahid olmaqla bərabər, həm də ibrət dərsləri alaraq qayıdırdılar və bununla öz inanclarını da dərinləşdirirdilər. Belələrinə Şeyx Səfiəddin həm də təriqət yolunda doğrunu düzgündən ayırd etməyi öyrədirdi. Hekayətlərin birində danışılır ki, Heyruz kəndinin bir ulu kəndxudası var idi və o da Şeyx Səfiəddinin kəramətinə şübhə ilə yanaşırdı. Bir gün qərara alır ki, Ərdəbilə yollansın və öz şübhələrinin doğru olub-olmadığını yoxlasın. Belə də edir və Şeyx Səfiəddinin zaviyəsinə yollanır. Həmin kəndxuda onunla birlikdə gəlmiş adamlarla bir neçə gün Şeyx Səfiəddinin zaviyəsində qaldı. Bu günlər ərzində gördülər ki, yemək üçün onlara buğda şorbası gətirilir, başqaları üçün isə dadlı-dadlı yeməklər verilir. Gördükləri kəndxudada və onun yanındakılarda bir pərişanlıq yaradır və onlar zaviyəni tərk edərək geri üz tuturlar. Onların bu hərəkəti Şeyx Səfiədinə əyan

olur və adam göndərərək onları yanına çağırtdırır. Şeyx Səfiəddin onlara bildirir ki, bu zaviyəyə gələnlər Tanrı üçün, Tanrının mərifətini qazanmaq üçün gəlirlər, dadlı-dadlı yeməklər üçün yox. Belə adamlar üçün buğda şorbası və dadlı yeməklər yemənin fərqi yoxdur. Onlar üçün əsas olan qarşılarına qoyduqları məqsəddir. Bu sözləri eşidəndən sonra həmin kəndxuda da, onun yanında olanlar da Şeyx Səfiəddinin yanında tövbəyə gəlib ondan təlqin aldılar (128).

Şeyx Səfiəddinin kəramətinin imtahana çəkilməsi ilə bağlı "Səfvətüs-səfa" əsərində bir sıra digər hekayətlər də vardır. Həmin hekayətlər də Şeyx Səfiəddinin kəramət sahibi olmasını təsdiq etməklə bərabər, həm də şübhəli adamların fikirlərinin təmizlənməsi və onların Haqq yoluna daha dərindən bağlanmasının ifadəsidir. Şeyx Səfiəddinin özünə də bir çox hallarda bəzi adamların onun kəramətini yoxlamağa gəlməsi əyan olurdu və belələrinə öz müdrikliyi ilə yanaşırdı: "Səravlu Mövlana Hacı dedi: "Qazı Mənsur ilə varalım və həzrət Şeyxi (q.s.) ziyarət edəlim və görəlim kim, necə kimsədür və elmlərdən nə nəstə bilür?" Çün həzrət Şeyxün qulluğına yetdük, buyurdı: "Bəli, bəli, imtahan etmək içün gəlüpdürlər kim, məlum eyləyələr kim, biz nə karəüz və nə nəstə bilürüz". Mövlan Hacı, Qazı Mənsur ilə çün bunı eşitdilər, nərələr urub tövbə qıldılar" (129).

Şeyx Səfiəddinin kəraməti yalnız bu kəramətə üz tutanların şəfaət qapısı deyildi. Onun kəraməti həm də haqsızlıqlara qarşı ümidsizlərin ümid yeri idi. Şeyx Səfiəddinin bir xüsusiyyəti də var idi və heç vaxt razı olmazdı ki, haqsızların haqqı tapdansın, köməksizlərin dərdinin üstünə bir dərd də əlavə olunsun. Şeyx Səfiəddin kəraməti ilə haqsızlıqlara düçar olmuşların haqqının müdafiəsində də dayanırdı. Bununla bağlı "Səfvətüs-səfa" əsərində çoxlu hekayətlər mövcuddur.

Şahidlərin biri danışırmış ki, Şeyx Səfiəddin Ərdəbildəki zaviyəsində yaşayanda anadan olduğu Kəlxoran kəndində yerli sakinlər arasındakı mübahisə qan tökülməsi ilə nətiəcələnir. Mübahisə edən tərəflər arasında qan nifaqının aradan qaldırılması üçün Şeyx Səfiəddin də Kəlxoran kəndinə yollanır. Qan qisasını

almaq istəyən adam eşidəndə ki, Şeyx Səfiəddin barışdırıcılıq üçün Kəlxorana gəlir, onda kəndi tərk edib dağlara çəkilir. Yəni o barışmaq niyyətində deyilmiş. Şeyx Səfiəddin kəndə yetişəndə ona çatdırırlar ki, "qana qan istəyən" Şeyxlə qarşılaşmamaq üçün kəndi tərk etmişdir. Şeyx Səfiəddin də belə bir cavab verir: "Çün vardı, vardı". Bunu deyib Şeyx Səfiəddin geri qaydır və ondan sonra daha kimsə həmin adamı görmür. Bununla qan nifaqı söhbətlərinə də son qoyulur (130).

Urmiyə bölgəsinin Duzluqlu kəndindən Cəmaləddin adlı birisinin üstünə böhtan atırlar və onu adam öldürməkdə günahlandırırlar. Yaxınları və qohumları Cəmaləddini ağır nəticələr gözlədiyini gördüyü üçün onu Şeyx Səfiəddinin yanına gətirirlər və məsələni danışdıqdan sonra ona himayəçilik etməsini xahiş edirlər. Şeyx Səfiəddin də onun günahsızlığına əmin olduqdan sonra kömək əlini uzatmağı qərara alır. Elə həmin günlərdə idarəçilik məmurları Cəmaləddinin sorağıyla Ərdəbilə gəlib çıxırlar və zorla Cəmaləddini Şeyx Səfiəddinin himayəsindən alıb aparmağa cəhd göstərirlər. Bu, Şeyx Səfiəddini çox qəzəbləndirir və qəzəb üzünü məmurlardan birinə tərəf çevirir. Deyilənə görə, həmin məmurun dərhal dili tutulur. Digərləri bu vəziyyəti görəndə Şeyxin zaviyəsindən çəkilirlər, amma uzaqlaşmırlar. Gözləyirlər ki, fürsət yaranan kimi Cəmaləddini tutub aparsınlar. Belə bir fürsət də onların əlinə düşür. Məmurlar Cəmaləddini tutub aparırlar. Bundan xəbər tutan kimi Şeyx Səfiədin onların ardınca adam göndərir. Amma Cəmaləddin bu qaçaqaçda yaralanıbmış və ona görə də elə yolda ikən dünyasını dəyişibmiş. "Səfvətüs-səfa" əsərində qeyd olunur ki, Cəmaləddini xilas etmək mümkün olmasa da, onu tutmağa gələnlər də canlarını salamat qurtara bilmədilər və hərəsi bir ağır əcəllə həyata vida dedilər (131).

Hekayətlərdən birində bildirilir ki, yerli hakimlərdən olan Əmir Dərviş kənd adamlarına yerli-yersiz zülm edirmiş. Adamlar cana doyaraq axırda Şeyx Səfiəddindən özlərinə bir kömək dilədilər. Şeyx Səfiəddin də öz adamlarını Əmir Dərvişin yanına göndərdi ki, bu yoldan çəkindirsin. Əmir Dərviş öyüdləri qəbul

etmir və bununla da kifayətlənməyərəkŞeyx Səfiəddin haqqında ağır sözlər işlədir. Şeyx Səfiəddin bu xəbəri eşidəndə cavabı belə olur: "Çün Əmir Dərviş yaxşı varmayub, şəfaəti qəbul eyləməz, öz cəzasını görəcəkdir". Doğrudan da belə olur. Elə həmin gün Əmir Dərviş atdan yıxılır və ayağını sındırır. O, anlayır ki, başına gələn Şeyx Səfiəddinin sözündən çıxmasınını nəticəsidir. Ona görə tələb edir ki, onu Şeyx Səfiəddinin yanına aparsınlar. Əmir Dərviş hərəkətlərindən peşiman olduğunu bildirəndə Şeyx Səfiəddinin cavabı belə olur: "Dəxi böylə eyləmə, qəm yemə kim, yaxşı olarsan, amma gərək kim, dəxi sərkeşlik etməyəsən, ta ayağın ufanmaya" (132).

Şeyx Səfiəddinin kəramətləri ilə bağlı olan digər hekayətlərdə onun dövrün hakimlərinə qarşı ədalətli və kəskin mövqe tutması ilə rastlaşmaq mümkündür. Bu hekayətlədən göründüyü kimi, bir çox hallarda insanlar Şeyx Səfiəddini son ümid kimi qəbul edirdilər və dərdlərinin əlacını onun şəfaətində tapmağa çalışırdılar.

Həmin hekayətlərin birində deyilir ki, Şeyx Səfiəddinin mürşidi Şeyx Zahidin nəvəsi Şəmsəddin Məhəmməd də saray məmurlarından olan Əmir Mübarəkşah tərəfindən ciddi şəkildə incidilirmiş. Bir dəfə Sultan Əbu Səidin göstərişi ilə Əmir Mübarəkşah Xorasana yolanmalı olur və yolu Ərdəbildən düşür. Əmir Mübarəkşah bu fürsətdən istifadə edərək Şeyx Səfiəddinlə də görüşməyi qərara alır. Şeyx Səfiəddin də onunla görüşmək fürsətindən istifadə etməklə ona həm öyüd-nəsihətini verir, həm də Şeyx Zahidin nəvələri ilə düşmənçiliyə son qoymağa çağırır. Bildirir ki, Şeyx Zahidin nəvələrinin könlünü qırmaq onun üçün yaxşılıqla qurtarmaz. Əmir Mübarək bu sözləri bir qədər istehza ilə qarşılayır və Şeyx Səfiəddinin xahişinə biganəliklə yanaşır. Şeyx Səfiəddin isə ona belə bir cavab verir: "Əgər bir kimsə özüni iti qılınca urub həlak ola, qılıcın suçı olamı, ya özinün?". Əmir Mübarək də Şeyx Səfiəddinin demək istədiyi mətləbə varmadan bəyan edir ki, burada günah özünü qılınca vuranındır. Şeyx Səfiəddin bir daha ona işarə edir ki, Şeyx Zahidin nəvələrindən əl çəksin. Əmir Dərviş aydın bir cavab vermədən yola

düşür. Amma Ərdəbildən bir qədər aralanmış Sultan Əbu Səidin adamları onun ardınca gəlib onu yaxalayır və sultanın əmri ilə qətlə yetirirlər (133).

Məlumdur ki, Şeyx Səfiəddin mürşidi Şeyx Zahidə dərindən bağlı və sədaqətli bir insan idi. O bütün həyatı boyu Şeyx Zahidə olan minnətdarlığını yaddan çıxarmamışdı və Şeyx Zahidlə bağlı olan hər şeyə xüsusi bir həssalıqla yanaşırdı. Baxmayaraq ki, Şeyx Zahidin oğlu bəzi adamların təhriki ilə Şeyx Səfiəddinin mürşidliyinə qarşı çıxmışdı. Amma sonradan onların münasibətləri həm yaxşılaşmış, həm də Şeyx Səfiəddin Şeyx Zahidin övladlarını öz himayəsi altına almışdı. Şeyx Səfiəddin, ümumən, Şeyx Zahidin yaşadığı yerləri müqəddəs yerlər kimi anırdı və hətta onun vətəni Gilana qayğı göstərilməsini diqqətdən kənarda qoymurdu. Şeyx Zahid övladlarına və Şeyx Zahidin yaşadığı yerlərə hörmətsizlik edənlər isə Şeyx Səfiəddin qəzəbindən də qurtara bilmirdilər.

Bir dəfə Sultan Əbu Səid Ərdəbil yaxınlığındakı Veyləq məntəqəsinə gəlir və  Qıpçaq bəylərindən olan Canı bəyi Şeyx Səfiəddinin yanına göndərir ki, oradan ərzaq gətirsin. Canı bəy də Şeyx Səfiəddinin yanına yollanaraq Əbu Səidin tapşırığını ona çatdırır. Canı bəy bu zaman Şeyx Zahidin yaşadığı bölgənin hakimi imiş. Şeyx Səfiəddin bu görüş fürsətindən istifadə edərək Canı bəydən xahiş edir ki, Şeyx Zahidin yaşadığı yerlərə və oraların əhalisinə ehtiramla yanaşsın. Şeyx Səfiəddin onu da əlavə edir ki, Şeyx Zahidin ruhuna ehtiram göstərməsə Canı bəy özü ziyanla rastlaşa bilər. Canı bəy bu sözlərə istehza ilə yanaşdı və Şeyx Zahidin ruhunun insanlara ziyan yetirə biləcəyinə şübhəsini də gizlətmədi. Belə olanda Şeyx Səfiəddin yaxınlıqda dayanmış qılınclı bir nəfəri ona göstərib dedi: “Əgər ol duran kişi qılıcı çəkə və bir kişi varub özüni ol yalın qılıca ura, gövdəsi yarulurmı, yoxsa yok?” Dedi: “Yarılur”. Şeyx dedi: “Mürşidlər ilə güstaxlıq etmək ol qılıca bənzər”. Canı bəg bu sözə baxmayub, qalxub yerinə vardı”.  Yəni Şeyx Səfiəddin mürşidlərə hörmətsizlik edilməsinin yaxşı qurtarmayacağını Canı bəyə çatdırdı. O isə öz fikrindən dönmədi, həm Şeyx Səfiəddinə, həm də Şeyx Zahidə hörmət-

sizlik nümayiş etdirdi. Çox keçmədi ki, Canı bəyin dünyasını dəyişməsi xəbəri alındı (134).

Şeyx Səfiəddin özlərini təriqət yolunda olduğunun elan edərək bu yola sədaqət nümayiş etdirməyənlərə, batil yola uyanlara qarşı da barışmazlıq nümayiş etdirirdi və beləri Şeyx Səfiəddinin nəsihətlərini və doğru yola çağırışlarını qəbul etməyəndə Haqq cəzası ilə qarşılaşırdılar. Şeyx Səfiəddinin kəraməti yalançı Haqq yolçularına da arzuedilməz anlar yaşadırdı. "Səfvətüs-səfa" əsərində olan hekayətlərdən birində deyilir ki, Şeyx Zahidin tliblərindən biri xeyli riyazət çəkmiş və təsəvvüfün müəyyən məqamlarına yetişmiş idi. Müəyyən bir məqama yetişməsi onda bir təkəbbür yaratmış və o, mürşid olmaq xəyalına düşmüşdü. Görüşdüklərinə də hər zaman bildirərdi ki, Şeyx Səfiəddinin səccadə üzərində oturmağa və taliblərə irşad etməyə heç bir haqqı yoxdur. Yəni o bu yolla özünün mürşidlik haqqı olduğunu insanlara qəbul etdirmək istəyirdi. Güştasbda olarkən Şeyx Səfiəddinə bu xəbəri çatdırdılar. Onun da eşitdiklərinə heyrət və təəccüb etməkdən başqa çarəsi qalmadı. Həmin günün gecəsi Şeyx Səfiəddin ətrafındakılara yalançı mürşidi xatırladaraq belə dedi: "Miskin yigit idi". Şeyx Səfiəddini müşayiət edənlər əvvəlcə Şeyxin nə demək istidiyini anlamasalar da, sonradan xəbər tutdular ki, Şeyx Səfiəddinin xatırladığı gecə həmin yalançı mürşid həyatla vidalaşmalı olmuşdu (135).

Bir dəfə Şeyx Səfiəddin Gərmruda tərəf yollanırmış. Bu bölgənin Camalabad kəndində Sədrəddin adında bir talibi-elm yaşayırmış. Bu insan doğru yoldan batil yola üz tutmuş, əməli-saleh işlərdən uzaqlaşaraq fəsad hərəkətlər girdabına yuvarlanmışdı. Şeyx Səfiəddin bu səfəri zamanı Camalabad kəndinə yaxınlaşanda bu kəndin bütün sakinləri onun ziyarətinə yollandılar. Mövlana kimi tanınan Sədrəddin isə Şeyx Səfiəddinin ziyarətinə yollanmadı və bu ziyarəti özünə layiq bilmədi. Yəni Şeyx Səfiəddinə münasibətdə bir təkəbbürlülük nümayiş etdirdi. Şeyx Səfiəddin onun ziyarətinə gələnlərə Mövlana Sədrəddininə fikir verməməyi tövsiyə etdi və bildirdi ki, Mövlana Sədrəddin fasid yola düşməklə, əslində, özünü zibil quyusuna mübtəla edibdir.

Şeyx Səfiəddin həmin kəndi tərk edəndən sonra da Mövlana Sədrəddin səhv yolundan əl çəkmədi. Onunla bağlı olan hekayətdə deyilir ki, bir dəfə də bir tövbəkar-talib həmin kəndə gəlir, gecəni məsciddə zikr etməklə keçirir. Mövlana Sədrəddin ona da əziyyət verərək zikrlə məşğul olmasını təqdir etmədiyini bildirir. Amma Mövlana Sədrəddinin heç də öz əməllərini uzun müddət davam edə bilmir. Bir gün adamlar xəbər tuturlar ki, Mövlana Sədrəddin əməllərinin cəzası olaraq Şeyx Səfiədinin dediyi kimi, ayaqyolu quyusuna düşərək iyrənc bir şəkildə həyatını itiribdir (136).

Bir başqa təkəbbürlü şəxs də Xalxal vilayətində yaşayırmış. Pirə Məhəmməd adlı bu adam təriqət yolçuluğunun əvvəlində riyazət keçmiş, müvafiq ayinləri icra etmiş və müəyyən mərtəbəyə yüksəlmişdi. Amma o öz yolçuluğunu başa çatdırmadı və düşündü ki, çatdığı mərtəbədə artıq digərlərinin irşadı və yönləndirilməsi ilə məşğul ola bilər. Yaşadığı kəndin insanları arasında da belə bir şayiə yaymışdı ki, kim üç gün onun yanında qalsa bütün niyyətlərinə yetişə biləcəkdir. Bu xəbər əvvəlcə Şeyx Səfiəddinin müridlərinin qulağına çatdı və həmin müridlərdən biri Pirə Məhəmməd haqqında eşitdiklərini Şeyx Səfiəddinə danışdı. Görüşlərin birində Pirə Məhəmməd həmin müridə söyləmişdi ki, yaxın günlərdə Şeyx Səfiəddin həyatını başa vuracaq və onun səccadəsi Pirə Məhəmmədə qismət olacaqdır. Bir müddətdən sonra həmin mürid Pirə Məhəmmədlə birlikdə Şeyx Səfiəddinin ziyarətində olurlar və bu mürid Şeyxə bildirir ki, Xalxalda bir nəfər Şeyxin yaxınlarda rəhmətə gedəcəyindən və Şeyx səccadəsinin də ona qismət olacağından xəbər vermişdir. Şeyx Səfiəddin fikrə dalır ki, Xalxal vilayətində öncəgörmə qabiliyyəti mərtəbəsinə yüksəlmiş kimsə yoxdur. Ona görə də eşitdiklərinin böhtan olması onu qəzəbləndirdi. Şeyx Səfiəddin biləndə ki, həmin sözləri söyləmiş Pirə Məhəmməd onun məclisində iştirak edir, böhtan söyləyən bu adamı oradan uzaqlaşdırdılar. Pirə Məhəmməd sadəcə həmin məclisdən uzaqlaşdırılmadı, o, eyni zamanda ruhani həyatdan uzaqlaşmalı oldu. Çünki müəyyən vaxtdan sonra onun

əhvalı dəyişdi, namaz və oruc tutmaqdan qaldı, məscidi tərk edib adi bir adama çevrildi (137).

Şeyx Səfiəddin təriqət yoluna dərindən bağlanmış və müəyyən mərtəbələrə qədər yüksəlmiş müridlərinin də qazandıqları məqamlardan sui-istifadə etməsinə, onların vaxtından əvvəl mürşidlik iddiasına düşmək həvəslərinə qarşı barışmazlıq göstərirdi. Şeyx Səfiəddinə görə, mürşidlik üçün yetişməmiş müridlərin onlara lütf olunmuş qabiliyyət və kəraməti nümayiş etdirmələri onlarda təkəbbürlülük və nəfsani hisslərə rəvac verə bilərdi. Mürşid-mürid münasibətlərinin və ieraraxiyasınnı gözlənilməsini Şeyx Səfiəddin təsəvvüfün mühüm tələblərindən biri sayırdı və özü də Şeyx Zahidin sağlığında heç zaman mürşidlik keyfiyyətlərini qabartmağa çalışmamışdı. Deyilənlərə nümunə kimi, "Səfvətüs-səfa" əsərində bir hekayət nəql edilmişdir. Bir dəfə Şeyx Səfiəddinin müridlərindən olan Kəşhirli Pirə Əhməd mürşidindən icazə alaraq öz evinə yollanır. O, yolda ikən bir lal uşaqla rastlaşır və biləndə ki, bu uşaq laldır əli ilə onun dilindən tutub dartır. Bununla uşağın dili açılır. Həmin uşağın yaxınları da, bu uşağın yaşadığı kəndin adamları da baş verəndən sevinməklə bərabər, həm də Şeyx Səfiəddinə mürid olacaqlarını bəyan edirlər. Onların bir neçəsi Pirə Əhmədlə birlikdə Şeyx Səfiəddinin yanına gəlir və ondan tövbə qəbul edir. Şeyx Səfiəddin baş verəndən xəbər tutduqda uşağın dilinin açılmasına sevinirsə də, Pirə Əhmədin vaxtından tez kəramət nümayiş etdrməyə başlaması ilə razılaşmır və bunu onun diqqətinə də çatdırır. Bildirilir ki, bundan sonra Pirə Əhməd bir daha kəramət nümayiş etdirə bilmədi və onun bu qabiliyyəti yox olub getdi (138).

Vaxtından qabaq mürşidlik iddiasına düşənlərə qarşı Şeyx Səfiəddinin münasibəti "Səfvətüs-səfa" hekayətlərindən birində daha aydın şəkildə nəql edilmişdir: "Ərdəbillü Çanağcı Şəmsəddin kim, Şəmsə ilə məruf olmuş idi, riyazətdə uca məqamı yapmış idi və özüni qayəti-kəmala yetişmişə sağınurdı. Burnında təkəbbürlik yeli yer dutmış təxəyyül artuqlığından və xudbinlik çoğluğından istətdi ki, həzrət Şeyxün kəmalı mərtəbəsini məlum eyləyə. İttifaqən xəlvətdə həzrət Tanrı-təaladan dərxast etdi ki,

Şeyxün ali mərtəbəsi ana verə. Çün Şeyx ana baxdı, vilayət nuri ilən istədügi məlum etdi, dedi: "Ari, bala bə-gor, neşün bir nəstə ki, sənün həddün dəgül, istərsən?". Bu sözlərdən sonra Şeyx Səfiəddin mürşidlik iddiasına düşənə Əbülqasim Bağdadi Cüneydin müridinin belə təkəbbürlüyünün ona ağır başa gəlməsini nəql etdi. Şəmsəddin bu deyiləni də qulağına almadı və öz iddiasından əl çəkmədi. Əvəzində Şəmsəddin tezliklə müxtəlif sınaqlarla üzləşməli oldu. Özü də, ətrafındakılar da yaxşı başa düşürdülər ki, Şəmsəddinin qarşılaşdığı bu sınaqlar və çətinliklər onun Şeyx Səfiəddin qarşısında etdiyi ədəbsizliyin nəticəsidir. Daha ağır vəziyyətlə qarşılaşmasının qarşısını almaq üşün Şəmsəddin qərara gəldi ki, Şeyx Səfiəddinin böyük oğlu Xacə Mühyiəddinlə danışsın və onun vasitəsilə Şeyx Səfiəddindən təqsirinin bağışlanmasını xahiş etsin. Şeyx Səfiəddin də oğlunun vasitəçiliyini qəbul edir və bildirir ki, əgər Şəmsəddin üç il dayanmadan oruc tutub ibadət etsə, onda bəlkə Tanrı onun günahlarını bağışlayar. Doğrudur, Şəmsəddin ona deyiləni qəbul etsə də, Şeyx Səfiəddinin qəzəb kəramətinin əsərindən də tamam nicat tapa bilmədi. Bu hadisədən sonra Şeyx Səfiəddin öz müridləri haqqında belə dedi: "Tanrı-təaladan umaram kim, bir kimsə ki, məndən tövbə ilə təlqin almış ola, şeytan anı qarət eyləyə bilməyə və əgər bir suç eyləyə və sonucı tövbəyə gəlüb, istiğfar edüb sirati-müstəqimə yüz qoya" (139).

Şeyx Səfiəddinin kəraməti yalnız insanlara qarşı deyil, həm də heyvanlara qarşı münasibətdə də özünü göstərirdi. Bununla bağlı olan hekayətlərdə Şeyx Səfiəddinin atların sədaqətindən, Şeyx Səfiəddinin kəramətini qavraya bilmələrindən, Şeyx Səfiəddinin qəhrinə düçar olmuş heyvanların başına gələnlərdən danışılmaqdadır. Ümumən, Şeyx Səfiəddin öz müridlərinə Tanrının yaratdığı bütün heyvanlara şəfqətlə yanaşılmasını təlqin edir və bunu öz davranışında da nümayiş etdirirdi. Bundan başqa, "Səfvətüs-səfa" əsərində gündəlik həyat və məişət məsələləri ilə bağlı da Şeyx Səfiəddinin kəramətini nümayiş etdirən bir sıra hekayətlər vardır. Həmin hekayətlərdə də Şeyx Səfiəddinin ondan şəfaətçi olmağı diləyənlərə qarşı şəfqətlə yanaşması, insanlara

yardımçı olmağa çalışması və nəhayət dərin etiqad sahibi olması öz əksini tapmışdır.

Bu hekayətlərdən birində deyilir ki, Bərniq adlanan kənddə bir bulaq var imiş. Bu bulaqdan həm insanlar su içirdilər, həm də onun suyu ilə əkinləri suvarardılar. Bir gün necə olursa bulaq quruyur və insanlar da bundan narahatçılığa düşürlər. Hətta susuzluqdan nicat tapmaq üçün öz yerlərini təkr etmək barəsində də düşünürmüşlər. Həmin bu vaxtlarda xəbər gəlir ki, Şeyx Səfiəddin Həcc səfərindən qayıdır və yaxın günlərdə adı çəkilən kəndə yetişəcəkdir. Elə ki, Şeyx Səfiəddin kəndə yetişdi kənd əhli onu ziyarət etdikdən sonra kənd bulağının quruması və bundan da insanların əziyyət çəkməsi haqqında danışdılar. Şeyx Səfiəddin də kənd əhlinə ümid verdi və Tanrı lütfünin əksik olmayacağını söylədi. Onun kəndi tərk etməsindən bir az sonra insanlar kənd bulağına yenidən su gəlməsinin şahidi oldular (140).

Ərdəbil ətrafındakı kəndlərdən birində yaşayan bir tacir nəql edirdi ki, yoldaşları ilə Kirman şəhərinə satlıq mal almaq üçün gediblərmiş. Geri qayıdarkən Yəzd hakiminin məmurları onların qarşısını kəsir və yollarına davam etmək üçün onlardan böyük miqdarda pul istəyirlər. İstənilən miqdarda pul vermək imkanı olmayan tacirlər hədiyyə və töhfə ilə Yəzd əmirinin yanına yollanırlar ki, ondan kömək ala bilsinlər. Yola davam icazəsi almaq üçün tacirlər hətta 5 min ağca veməyə də razı olmuşdular. Yəzd əmiri onları qəbul edəndə Ərdəbildən olduqlarını eşidib Şeyx Səfiəddini tanıyıb-tanımamalarını soruşur. Biləndə ki, bu tacirlərin hamısı Şeyx Səfiəddinin müridləridir, dərhal onları azad edir və gətirdikləri hədiyyəni də özlərinə qaytarır. Tacirlər, beləliklə, Şeyx Səfiəddinin adına bağışlanırlar və onlar öz yoluna davam edirlər (141).

"Səfvətüs-səfa" əsərində şahidlərə istinadən nəql edilən hekayətlərdən aydın olur ki, Şeyx Səfiəddinin kəraməti onun ziyarətinə gəlmək imkanı olmayan və Ərdəbildən çox-çox uzaqlarda yaşayan insanların qəlbinə nur kimi axaraq onlarda Haqq sevgisi oyadırdı. Həmin kəramətin bərəkətindən idi ki, Şeyx Səfiəddinin üzünü görməyənlər ruhən onun əlindən tövbə və təl-

qin alır və Şeyx Səfiəddinin müridlərinə çevrilirdilər. Şeyx Səfiəddin bir çoxlarının vaqiəsinə gəlir və onların tövbəsini qəbul edirdi və onlar dərin etiqadla Səfəviyyə təriqətinin müridlərinə və taliblərinə çevrilməklə təriqət libasını da geyinirdlər. Reallıqda belə, Şeyx Səfiəddinin rəhbəri olduğu təriqət haqqında ətrafa yayılan söz-söhbətlər Şeyx Səfiəddinin mürşidi olduğu təriqətə olan meyilləri gücləndirir və beləəri Haqq yolunu Şeyx Səfiədinin mürşidliyində tapırdılar.

Şeyx Səfiəddini görmədən onun təriqətinə üz tutmuş, Şeyx Səfiəddinin müridliyini qəbul etmiş çoxlu sayda insanın aqibəti haqqında da "Səfvətüs-səfa" əsərində maraqlı hekayətlər mövcuddur.

Şeyx Şəfiəddinlə əyani olaraq görüşmədən onun müridliyini qəbul etmiş mömin insanlardan biri Səqsinli Pirə Həsən idi. Şeyx Səfiəddinin oğlu Şeyx Sədrəddinin dediklərinə görə, Pirə Həsən sonradan seyyidül-xüləfa mərtəbəsinə qədər yüksələ bilmişdi, onun kəraməti bütün aləmə yayılmışdı və dövrün hakimi, Qızıl Orda xanı Özbək xanın yanında böyük hörmət qazanmışdı. Onun Səfəviyyə təriqətinə bağlılığı isə belə başlamışdı ki, bir gecə yuxuda Şeyx Səfiəddini görür və ondan tövbə alır. Yuxuda tövbə və təlqinini aldığı şeyxin Şeyx Səfiəddin olmasından onun xəbəri yox imiş. Sonradan o, yuxusunu yanındakılara danışır və verdiyi nişanələrdən yanındakılar yuxuda görülmüş şeyxin Şeyx Səfiəddin olduğunu ona xəbər verirlər. Pirə Həsənə məsləhət bilinir ki, Ərdəbilə yollansın və orada Şeyx Səfiəddini ziyarət etsin. O belə də edir və dərhal Ərdəbilə yollanır. Pirə Həsən Ərdəbildə Şeyx Səfiəddinlə ilk rastlaşdığında çöhrəsinə və əynindəki geyiminə görə, yuxuda gördüyü adamın da elə Şeyx Səfiəddin olduğunu anlayır. Bundan sonra Pirə Həsən əyani olaraq Şeyx Səfiəddindən tövbə və təqlin alır, onun müridinə çevrilir və onun irşadından sonra Səfəviyyə təriqətinin ulu xəlifəsi mərtəbəsinə qədər yüksəlir (142).

Şahidlər nəql edirdilər ki, onlar Məkkə ziyarətində olarkən orada da Şeyx Səfiəddinin mürşidi olduğu təriqətin libasında xeyli sayda insanla rastlaşmışdılar. Onlar da Şeyx Səfiəddinlə

şəxsən görüşməmişdilər, amma özlərini Şeyx Səfiəddinin müridləri kimi təqdim edirdilər. Ərdəbil ətrafından Məkkə ziyarətinə yollanan insanlar onların nə yol ilə Şeyx Səfiəddin təriqətinin müridləri olmasını soruşanda bildirirlər ki, Şeyx Səfiəddinin nuru ilə yuxuda qarşılaşıblar və həmin yuxudan sonra onların yaşadığı məntəqədə birdən-birə yetmiş nəfər Şeyxin müridləri olmağı qərara almışdı. Şeyx Səfiəddini şəxsən tanıyan, ona müridliyi qəbul edən və onun ehtiramına yüz on dörd qəsidə yazan Əhməd Məddah da Hörmüz ətrafında qiyabi şəkildə Şeyx Səfiəddinə müridliyi qəbul etmiş çoxlu sayda insanla qarşılaşdığını bildirirdi. Həmin insanlar Hörmüzdən deyildilər və onlar uzun bir yolu keçərək dənizlə Hörmzə gəlmişdilər. Bu adamlar Şeyx Səfiəddinin üzünü görmədən önun müridliyini qəbul etmələrini özlərinin həyat seçimləri kimi dəyərləndirirdilər (143).

Şeyx Səfiəddin sağlığında öz irşadı ilə Haqq yoluna dərin etiqadla bağlanmış, təsəvvüfün ali mərtəbələrinə yüksəlmiş çoxlu sayda mürid, xəlifə yetişdirə bilmişdi. Bu müridlər və xəlifələr Şeyx Səfiəddin dünyasını dəyişəndən sonra onun yolunu davam etdirməklə, özlərindən həm də kəramət də nümayiş etdirlər. "Səfvətüs-səfa" əsərində Şeyx Səfiəddin müridlərinin və xəlifələrinin kəramət nümayiş etdirmələri də Şeyx Səfiəddin kəramətinin nişanələri kimi dəyərləndirilirdi. Çünki bu müridlər və xəlifələr Şeyx Səfiəddinin irşadnı alaraq onun kəramət nuruna boyanmışdılar. Həmin müridlər nümayiş etdirdikləri kəramətin də məhz Şeyx Səfiəddin kəramətindən qaynaq almasını gizlətmirdilər. "Səfvətüs-səfa" əsərinin on ikinci babında kəramət sahibi olmuş Şeyx Səfiəddin xəlifələrinin adları çəkilmiş və onların kəramətləri haqqında hekayətlər nəql edilmişdir. Bu babda adları çəkilən ulu xəlifələr bunlardır: Əş-şeyxül-kamil vəl-qütbül-mükəmməl, sahibül-ayatül-bahirə, şəmsi-həqq vəl-millət vəd-din əz-Zahidi; vilayət dənizinin dürri və hidayət göginün bədri, nəvrüd-dövhətis-Səfəviyə və nurul-millətül-Mustafaviyyə, səlalətüs-sultani-məşayix vəl-arifin Xacə Mühyiəddin; həzrət Şeyx Səfiəddinin qardaşı kaşifül-kəşfün-nəəm vəl-mücərrədül-fəridil-müvəhhədil-məcid Səlahəddin Rəşid kim, ixtiyar ilən əhl ilə

əyalı tərk edüb, Yəmən məmləkətinə varub, irşad ilə tərbiyətün adabına məşğul olub, Şamun məmləkətinə dəxi qədəm ilən varub taliblərə tərbiyət edərdi və həzrət Şeyxdən özgə, qövm ilə qardaşlarından və əhli ilə əyalından kimsə anı görməzdi, amma qədəm ilən hər beş namaz çağı gəlüb qardaşı ilə namazın əda qılurdı və genə öz yerinə varurdı; sahibül-məqamatil-aliyyə həzrət Şeyxin qardaşı oğlu Xacə Fəxrəddin Yusif; əs-səriyyül-kamil sahibl-kəramət fil-axir vəl-əvvəl Səravlu Xacə Əfzələddin; əl-kamilül-müttəqin vəl-sasil bil-həqq vəl-yəqin Pirə İzzəddin; əs-salikül-vasil vən-nasül-kamil Gavərlü Pirə Yusif; Marağalı Baba; Darurlu Pirə Məhəmməd; Kəşhirli Pirə Əhməd; İlvənəqli Pirə Yusif.

Kəramətləri məlum olmuş digər xəlifələr isə təsəvvüf mərtəbəsi bir qədər aşağı olan xəlifələri idlər. Onların adları belə idi: Mövlana Nəcməddin, Kürdə İbrahim, Ərdəbilli Pirə İsmayıl, Hacı Bilal, Pirə Məhəmməd, Gərmarudlu Pirə Əli Dal, Bərniqli Pirə Əvəzşah, Pirə Məhəmməd (çərkəz), Kəlləçi Əhməd, Pirə Kamal, Pirə Əhməd (Əsədli), Naxçıvanlı Pirə Mahmud, Muğanlı Pirə Süleyman, Pirə Kəmaləddin, Mövlana Əbdülməcid, İsfahanlı Seyid Camaləddin, Əxi Şihab.

Adları çəkilən xəlifələr yalnız kəramət göstərməklə tanınmırdılar. Onlar eyni zamanda Şeyx Səfiəddindən alınan dərsləri sonrakı nəsillərə ötürməklə onun adı ilə bağlı olan təriqətin uzun müddət canlı qalmasını təmin etdilər. Bunun nəticəsi idi ki, Səfəviyə təriqəti islam dünyasında həm uzunömürlü, həm də ən kütləvi təriqətlərdən biri oldu. O da qeyd edilməldir ki, yuxarıda adları sadalanan xəlifələrin böyük əksəriyyəti Azərbaycandan idi. Bu da Səfəviyyə təriqətinin genişlənməsində və möhkəmlənməsində Azərbaycan arealının rolunu nümayiş etdirir.

## 4. Şeyx Səfiəddinin seyidlik və məzhəb mənsubluğu məsələsi

Müvafiq mənbələrin və məlumatların qıtlığı üzündən Şeyx Səfiəddinin həyat yolu ilə bağlı bir sıra suallara cavab tapılması davamlı olaraq araşdırmaçıların diqqət mərkəzində qalmaqdadır.

Belə sullardan biri də Şeyx Səfiəddinin seyid olub-olmaması və onun hansı məzhəbə mənsub olmasıdır. Qeyd etmək lazımdır ki, Şeyx Səfiəddin haqqında ən qədim və daha əhatəli mənbə olan "Səfvətüs-səfa" əsərində bu suala aydın və birmənalı cavab yoxdur. Mövcud olan kəsad məlumat isə bu suallar ətrafında mübahisələr və fikir mübadiləsi aparan tərəflər arasında birmənalı qarşılanmır. Şeyx Səfiəddinin seyid olmasını iddia edənlər "Səfvətüs-səfa" əsərində yalnız bu məqamı təsdiqləyə biləcək məlumatı qəbul edirlər və mövcud məlumatı məhz seyidlik nöqteyi–nəzərindən qəbul edirlər. Şeyx Səfiəddinin seyidliyini qəbul eməyənlər də öz fikirlərinin təsdiqi üçün yenə də "Səfvətüs-səfa" əsərində dəlillər tapıb ortaya qoymağa çalışırlar. Eynilə də Şeyx Səfiəddini sünni və ya şiə məzhəbinə mənsubluğu məsələsi "Səfvətüs-səfa" əsərindəki məlumatların müxtəlif prizmadan yozulması ilə əsaslandırılır.

Bəzi tədqiqatçıların qeyd etdiyi kimi, Şeyx Səfiəddinin seyid olub-olmaması məsələsi onun sağlığında deyil, oğlu və təriqət varisi Şeyx Sədrəddinin dövründə müzakirə mövzusuna çevrilmiş və bununla bağlı müəyyən fikirlər irəli sürülmüşdü. Bir sıra tədqiqatçıların qənaəti belədir ki, Şeyx Səfiəddin öz həyatında heç bir zaman siyasi və dini iddiada olmamış, seyidlik meyli onda görünməmiş və yalnız dünyasını dəyişməsindən sonra onun seyidlik məsələsini ortaya atmışdılar (144). İddia olunur ki, Şeyx Səfiəddinin nəslinin islam peyğəmbərinə bağlanmasına cəhd göstərməklə Səfəvi xanədanı öz işlərinin irəli getməsinə təriqətin nüfuzunun daha da artırılmasına çalışmış və bununla daha böyük fayda əldə edilməsi niyyətində olmuşdur. Bildirilir ki, o zamanlar seyidlik böyük hörmətə malik idi və seyidlər xüsusi nüfuz sahibi idilər (145).

Əslində, Şeyx Səfiəddin Tanrının lütfünə və kəramətinə nail olmuş elə bir böyük irfan sahibi idi ki, həyatını hər hansı bir dünyəvi iddia, hiss və maraq olmadan Tanrı yolçuluğuna həsr etmişdi, seyidlik şəcərəsinə mənsub olub-olmamasından asılı olmayaraq islam dünyasının nurlu şəxsiyyətləri səviyyəsinə yüksələ bilmişdi. O, ariflər sultanı olmaqla, bütün həyatı və əməlləri

ilə islami dəyərlərin təcəllisi idi. Yəni seyid şəcərəsinə mənsub olub-olmaması onun islam tarixində malik olduğu zirvənin möhtəşəmliyini heç də dəyişə bilməz.

Bununla belə, Şeyx Səfiəddin şəxsiyyətinin böyüklüyünə olan maraq tədqiqatçıları onun həyatının ən müxtəlif məqamlarının işıqlandırılmasına sövq edir ki, seyidlik və məzhəb mənsubluğu məsələləri də belə məsələlərdən biridir.

Şeyx Səfiəddinin seyidlik, məzhəb və etnik mənsubluğu ilə bağlı aparılan araşdırmaları iki qrupa bölmək olar. Bu qruplar bir-birinə əks fikirlər irli sürən müəlliflərdən ibarətdir. Bu qruplar da yekcins qruplar deyildir. Yəni Şeyx Səfiəddinin seyidliyi ilə bağlı bir mövqedə dayanan bəzi müəlliflər onun etnik mənsubluğu və ana dilinin hansı dil olması haqqında başqa bir mövqedə dayanırlar.

Bu məqamların araşdırılması və ya onlarla bağlı mübahisəli fikirlərin ortaya atılması Əhməd Kəsrəvinin yaradıcılığında böyük yer tutur. Qeyd etmək lazımdır ki, Əhməd Kəsrəvi farsdilli tarixşünaslıqda kifayət qədər tanınmış bir tədqiqatçıdır. Onun istər Azərbaycanın, istərsə də İranın tarixi ilə bağlı bir sıra maraqlı tədqiqatları mövcuddur. Lakin onun adının tarxşünaslıq gündəmində daha tez-tez xatırlanmasına səbəb olan fikirləri Şeyx Səfiəddinlə bağlı irəli sürdüyü fikirlərdir ki, onlar da tarixçilər tərəfindən birmənalı qarşılanmır. Şeyx Səfiəddinin həyatı ilə bağlı olan seyidlik, məzhəb və etnik mənsubiyyət məqamlarının araşdırılması ideoloji məzmunu ilə diqqəti cəlb edir və Əhməd Kəsrəvinin yaradıcılığında da bu ideoloji yanaşmanın mövcudluğunu görməmək mümkün deyildir. Yalnız Əhməd Kəsrəvi tərəfindən deyil, Şeyx Səfiəddinin həyatı ilə bağlı ideoloji mövqedə dayanan digər tədqiqatçılar tərəfindən irəli sürülən fikirlərin elmiliyini və qərəzsizliyini isə yəqin ki, bütünlüklə qəbul etmək mümkün olmazdı.

Ə.Kəsrəvi də məlum kitabının ("Şeyx Səfi və təbarəş") bir yerində qeyd edir ki, Şeyx Səfiəddinin seyid olub-olmamasının sübut edilməsinin tarix üçün nə dərəcədə əhəmiyyətli olması onun özü üçün də aydın deyildir. Bununla belə, o da ortaya atıl-

mış olan müəyyən məqamların doğruluğunun üzə çıxarılmasına meyyili olduğunu nümayiş etdirmişdir.

Bir daha qeyd edilməlidir ki, müxtəlif tədqiqatçılar arasında göstərilən məqamlarla bağlı fikir ayrılığına səbəb "Səfvətüs-səfa" əsərində həmin məqamlar haqqında verilən məlumatların konkret olmaması və bu əsərin ilkin variantına sonradan müxtəlif əlavələr edilməsidir. Ona görə tədqiqatçılar məntiqi yanaşma, tarixi faktların müqayisəsi, əsərin əlyazmasının müxtəlif variantlarının tutuşdurulması ilə müvafiq nəticələrə gəlməyə çalışırlar.

"Səfvətüs-səfa" əsərinin müxtəlif əlyazmalarında dəyişikliklərin olması bu əsərin tanınmış tədqiqatçılarından sayılan və əsərin tənqidi mətnini 1371-cü ildə Tehranda çap etdirmiş Qulamrza Təbatəbayinin bu əsərə yazdığı ön sözdə də, Ə.Kəsrəvinin tədqiqatında da geniş təhlil edilmişdir. Hətta ciddi tədqiqat aparmadan ilkin müşahidələrin icrası ilə də "Səfvətüs-səfa" əlyazmasına müəyyən dəyişikliklərin edildiyini görmək mümkündür.

Yuxarıda Şeyx Səfiəddinin nəsil şəcərəsi ilə bağlı verilmiş məlumatda da ("Şeyx Səfiəddinin ulu əcdadları") müxtəlif əlyazmalarda fərqli variantların olduğunu görmək mümkündür. Həmin məlumatlardan göründüyü kimi, həm Şeyx Səfiəddinin nəsil şəcərəsinin bəndlərinin sayı haqqında rəqəmlər müxtəlifdir, həm də Şeyx Səfiəddinin nəslinə mənsub olanların qarşısında bütün əlyazmalarda "seyid" sözü yazılmamışdır. Konkret olaraq Qulamrza Təbatəbayinin tərtib etdiyi tənqidi mətndə Şeyx Səfiəddinin sələflərinin və xələflərinin adlarının qarşısında "seyid" sözünü görmək mümkün deyil.

"Səfvətüs-səfa" əsərinin əlyazmalarında belə fərqliliyin təsadüf olmadığı bildirilir. Tədqiatçılar əlyazmalarda mövcud olan bu fərqliliyin bir tərəfdən sifariş və göstəriş əsasında baş verdiyini, bir tərəfdən də əsərin üzünü köçürən katiblərin Şeyx Səfiəddinin şəxsiyyətinə xüsusi hörmətlə yanaşmaları nəticəsində baş verməsini istisna etmirlər. Məlumdur ki, Səfəvilər hakimiyyəti illərində Şeyx Səfiəddinin nəsil şəcərəsinin əhli-beytlə bağlanması müəyyən əhəmiyyət kəsb edirdi. Çünki şiə məz-

həbinə dayaqlanan bir dövləti yaradan sülalənin başlanğıcının əhli-beytə bağlanması dini məzmundan başqa, həm də siyasi mahiyyət kəsb edirdi. Ona görə də xüsusi ilə Səfəvilərin hakimiyyəti illərində meydana çıxan əyazmalarda Şeyx Səfiəddinin nəsil şəcərəsinin əhli-beytə bağlanmasının əlyazmalarda əksini tapması dövr üçün aktual idi.

Bəzi əlyazmalarda Şeyx Səfiəddinin adınını qarşısında "seyid" sözünün yazılmamasını bir sıra tədqiqatçılar təsadüf hesab etmirlər. Beləlәrinin fikrincə, Şeyx Səfiəddinin nəslində seyidlik olmadığı üçün onun özünün və eləcə də sələflərinin və xələflərinin adlarının qarşısında "seyid" sözünün yazılmadığını bildirirlər. Nəsil şəcərəsindən göründüyü kimi, Şeyx Səfiəddinin sələflərinin və xələflərinin adlarının qarşısında "şeyx" sözü yazılmışdır. Şah İsmayılın babasından başlayaraq isə "sultan" sözünün işlədilməsinə başlanmışdır ki, bu söz də hərbi-siyasi məna kəsb edirdi. Bir daha qeyd edilməlidir ki, "şeyx" sözü daha çox təriqət yolunda müəyyən mərhələyə çatmış, mürşid məqamına yüksəlmiş ariflərin adlarının qarşısında işlədilirdi. "Seyid" sözü isə nəsil şəcərəsi imamlar və əhli-beyt vasitəsilə islam peyğəmbərinə qədər uzanan adamların adlarının qarşısında qoyulurdu (146).

Əhməd Kəsrəvi də bu məqamın üzərində xüsusi olaraq dayanır və bildirirdi ki, istər Şeyx Səfiəddin, istər onun sələfləri və onun xələfləri seyid adlandırılmamışlar. Çünki onların seyidliyi yox idi və "Səfvətüs-səfa"nın tənqidi mətnindəki nəsil şəcərəsindən də göründüyü kimi, Şeyx Səfiəddinin sələfləri və xələfləri arasında "şeyx" sözündən əlavə, "xacə" və "soltan" sözləri ilə adlandırılanların da olmasını görmək olar. Bu sözlər də yenə qoşulduğu adın sahibinin seyid olmasına dəlalət etmirdi. Adı çəkilən müəllif bildirirdi ki, Şeyx Səfiəddinin dövründə də, ondan əvvəl də seyidliyə mənsub olan şəxslərin adlarının qarşısına əksər halda "seyid" sözü və bir çox hallarda isə "əmir" və "şah" sözləri artırılırdı. Fikrinin təsdiqi kimi, Ə.Kəsrəvi on nəfər tanınmış və islam aləmində seyidliyi şübhə doğurmayan şəxsin adını çəkir və həmin adamların heç vaxt və heç kim tərəfindən

“şeyx” və ya “xacə” adlandırılmadığını bəyan edirdi. Müəllif fikrinin əsaslandırılması üçün Şeyx Səfiəddinin öz dövrünə aid olan bəzi sənədlərə və faktlara da müraciət edir ki, həmin sənədlərdə də Şeyx Səfiəddinin və ya onun nəslindən olanların heç birinin adının qarşısında seyid sözü və ya seyidliyə aidiyyəti olan bir söz işlədilməmişdir. Monqolların hakimiyyəti illərində yazılmış tumarlardan birində Şeyx Səfiəddinin ləqəbi “şeyxlər sultanı”və “ariflər qütbü” kimi göstərilmişdir. Ə.Kəsrəvinin istinad etdiyi vəqf sənədlərinin birində isə Şeyx Səfiəddinin oğlu Şeyx Sədrəddinin ləqəbləri sadalanmışdır. Həmin sənəddə də Şeyx Sədrəddinin seyid olmasına dəlalət edən hər hansi bir ləqəbi görmək mümkün deyil. Ə.Kəsrəvi hətta Şah İsmayılın da seyidliyə xüsusi bir maraq göstərmədiyini Səfəvi nəslinin seyidliyə mənsub olmadığının təsdiqi kimi irəli sürürdü. O bildirirdi ki, Şah İsmayıl heç zaman özünü seyid kimi təqdim etməyə çalışmamışdı. Bunu onun əsərlərində və onun zamanında tikilmiş məscidlərin kitabələrində də görmək mümkündür (147).

Şeyx Səfiəddin nəslinin seyidliyə mənsub olmaması barəsində Ə.Kəsrəvi başqa sənədlərə də istinad etmişdir. Onların arasında Elxanilər dövlətinin böyük vəziri Fəzlullah Rəşidəddinin Ərdəbil hakimi olmuş oğlu Mir Əhmədə və eləcə də Şeyx Səfiəddinin özünə yazdığı məktubda Şeyx Səfiəddinə hansı ləqəblərlə müraciət etdiyini göstərmişdir. Həmin ləqəblərdə də Şeyx Səfiəddinin seyidliyə mənsubluğunun göstərilmədiyi öz əksini tapmışdır. Adı çəkilən müəllifin fikrincə, Səfəvilər hakimiyyəti illərində nəslin seyidliyə bağlanması məsələsində Şah Təhmasibin dövründə də xeyli işlər görülmüşdü. Şah Təhmasib özünü imam nəsli ilə bağlamağa rəğbətlə yanaşırdı və bir çox hallarda adı və ləqəbləri yazılarkən də bunu görmək mümkün idi. “Səfvərüs-səfa” əsərinin türk dilinə tərcüməsi də Şah Təhmasibin hakimiyyəti illərində həyata keçirilmişdi və şübhə yoxdur ki, Səfəvi şahının seyidliyə olan bağlılığını gördükdən sonra onun sifarişi ilə icra olunan tərcümədə də şahın bu meyli və əhli-beyt bağlılığı öz əksini tapmışdı. Ə.Kəsrəvi birmənalı şəkildə şübhə etmir ki, “Səfvətüs-səfa”nın sonrakı dövrlərdə üzü köçürülmüş

nüsxələrində, o cümlədən də bu əsərin türkcə tərcüməsində Şeyx Səfiəddinin seyidliyi məsələsi katiblər tərəfindən artırılmışdır və artırılma Səfəvilər tarixi ilə bağlı bir sıra digər mənbələrdə də öz əkisni tapmışdır. Yəni Ə.Kəsrəviyə görə, Şeyx Səfiəddinin nəslinin seyidliyə bağlanması sifarişlə baş vermiş bir hal idi.

Tədqiqatçıların fikrincə, ümumən, Səfəvilər şəcərəsinin seyidliyə bağlanması meyli Şeyx Səfiəddinin oğlu Şeyx Sədrəddinin dövründən başlamışdı. Bu meylini Şeyx Sədrəddin atası haqqında yazdırdığı "Səfvətüs-səfa" əsərində də ifadə etdirməyə çalışmışdı. Dərviş Təvəkkülü ibn İsmayıl ibn Hacı Məhəmməd əl-Ərdəbili (ibn Bəzzaz) tərəfindən "Səfvətüs-səfa" əsərinin yazılması da Şeyx Sədrəddinin sifarişi və nəzarəti altında aparılmışdı. Təriqət rəhbəri və dərin bilikli arif kimi Şeyx Sədrəddin də dövrünün çox böyük nüfuz sahiblərindən biri idi və ona görə də "Səfvətüs-səfa" əsərinin yazılmasında onun əməli təsirini istisna etmək mümkün deyildir. Tədqiqatçıların fikrincə, Şeyx Sədrəddin atasınnı seyidliyə bağlılığı fikrinin əvvəlcə öz müridləri arasında yayılmasına rəvac vermiş və sonra da bu məqamı adı çəkilən əsərə daxil etdirmişdir (148). Bununla belə, "Səfvətüs-səfa" əsərində də Şeyx Səfiəddinin seyidliyi barəsində aydın və qəti fikir əldə etmək mümkün deyildir. Bu əsərə ilkin nüsxəsində, istərsə də sonralar əlavə edilmiş dəyişikliklərdə Şeyx Səfiəddinin seyidliyə bağlılığı mübahisə mövzusu olaraq qalmaqdadır.

"Səfvətüs-səfa" əsərinin müəllifinin özü də Şeyx Səfiəddinin seyidliyi ilə bağlı aydın təsəvvürə malik deyildir. Məlumdur ki, ibn Bəzzaz həyatının bir hissəsini Şeyx Səfiəddinin dövründə yaşamışdır. Əsərinin bir yerində o, hətta Şeyx Səfiəddinlə rastlaşmasını da qeyd etmişdir. Bununla belə, o, Şeyx Səfiəddinin seyidliyi barəsində aydın bir fikir söyləməmişdir (149). Əksinə, onun da yazdığı bəzi hekayətlər Şeyx Səfiəddinin seyidliyini bir qədər şübhə altına alır.

Ə.Kəsrəvi də öz tədqiqatında bu şübhəni yaradan bəzi hekayətlərə istinad etmşdir. Məsələn, onun istinad etdiyi hekayətlərdən birində ibn-Bəzzaz belə yazırdı: "Sultanül-məşayix fil aləmin Şeyx Sədrəddin aləmullah bərəkətuhu buyurdu ki, Şeyx

qüddəsullah sərruh buyurdu ki, bizim nəsəbimizdə səyyadət vardır. Ancaq sual etmədim ki, ələvi, yoxsa şərif. Beləcə, aydın olmadı" (150).

Yuxarıdakı cümlələr "Səfvətüs-səfa" əsərinin çap olunmuş tənqidi mətnindən götürülmüşdür. Həmin cümlələr "Səfvətüs-səfa" əsərinin türk dilinə XVI əsr tərcüməsində isə belə verilmişdir: "Sultanül-məşayix fil-aləmin Şeyx Sədrül-millət vəd-din (r.r.) dedi kim, həzrət-Şeyx (q.s.) buyurdı kim, bizim nəsəbimizdə siyadət var" (151). Yəni fikir qırılmışdır və məsələnin mahiyyətinə dəlalət edə biləcək cümlə tərcümədə saxlanmamışdır. Çünki sonrakı cümlə Şeyx Səfiəddinin seyid olmasını şübhə altına alır. Yuxarıdakı cümlələrdə ələvi olmaq söhbəti seyidliyin ata xətti ilə olmasına, "şərif" kəlməsi isə seyidliyin ana nəsli vasitəsi ilə olmasına işarədir. Bu cümlələrə işarə etməklə, Ə.Kəsrəvi bildirir ki, Şeyx Səfiəddin seyid olsaydı oğlunun bundan xəbəri ola bilərdi (152). Eyni zamanda ona da işarə olunur ki, Şeyx Səfiəddinin seyidliyinin ata və ya ana xətti ilə olub-olmamasını Şeyx Sədrəddin bilmirsə, deməli bu da məsələnin şübhəli olmasına bir sübutdur. Əgər nəsil şəcərəsi əhli-beytə bağlı olsaydı, Şeyx Sədrəddinin bundan xəbərsiz olması mümkün deyildi.

Şeyx Səfiəddinin seyidliyinin düzgün olmaması ilə bağlı Ə.Kəsrəvinin "Səfvətüs-səfa" əsərində istinad etdiyi ikinci hekayət aşağıdakıdır: "Seyyid Haşim bin Seyyid əl-Məkki Təbrizün ulu əkabiri yanında dedi kim, mən həzrət Şeyxdən (q.s.) eşitdim ki, buyurdı: "Mən seyyidəm". Və keyfiyyət böylə idi ki, mən bir qatla həzrət Şeyxün xidmətünə vardum. Mana çox təzim ilə izzətlər eylədi və mənüm yıgıtligüm çağı idi. Pəs bir ağ saqqallı kişi gəldi, həzrət Şeyx ana igən dəxi təzim etmədi. Həzrətdən sual qıldılar kim, ya Şeyx, bu yigiti çox izətlədün və bu ağ saqqallı qocaya ol qədər etmədün? Həzrət Şeyx buyurdı kim, bu yigit mənüm qonağım və qövmümdür. Mən başum həzrət Şeyxün yanına aparub sordum ki, həzrət Şeyx seyiddir? Buyurdı: "Bəli". Amma mən hicab edüb sormadum kim, Həsəni, yoxsa Hüseyni?

Şeir:
Əsli kökindən xəbər sordum anun,
Sormadum kim, hanğı budağdandurur?

Amma çün bu hal Təbrizün əkabiri hüzurində idi, güstaxlığ etmədüm kim, soram kim, nəsəbüniz Həsənə varur, ya imam Hüseynə? Bu təfəkkürdə qaldum. İttifaqən qırx gün qarın mərəzinə mübtəla oldum və nə qədər kim, müalicə eylərdüm, heç faidə eyləməz idi. Qırx gündən sonra bir gecə həzrət Şeyxi vaqiədə gördüm kim, mübarək qədəmi rəncidə qılub gəldi və mübarək barmağı göbəgümə ağrıyan yerə qoydı. Saətdə şəfa buldum. ...Ol halətdə mana dedi: "Oğul, neşün nəsəbümi yaxşıca sormadun? Mən Hüseyniyəm. Çün munı eşitdim, ol dəğdəğə dəxi könlümdən bərtərəf oldı" (153).

"Səfvətüs-səfa"nın fars dilində olan tənqidi mətnində söhbət edənin şəfa tapmasından sonrakı cümlələr belə verilmişdir: "Həm də o halda mənə dedi: "Seyyid. Nə üçün oğlum Sədrəddin demədi ki, Hüseyniyəm? Bu səhv də qəlbimdən yox oldu" (154).

Ə.Kəsrəvi bu hekayəti təhlil edərkən belə bir qənaətə gəlirdi ki, insanlar, Şeyx Səfiəddini tanıyanlar onun seyid olub-olmamasından xəbəsiz idilər. Yəni belə bir qənaət ortaya qoyulur ki, Şeyx Səfiəddin kimi məşhur bir arifin seyid olması insanlar üçün gizli qala bilməzdi. Yuxarıdakı hekayətdə söhbəti eşidənlər sanki Şeyx Səfiəddinin seyyid olmasını böyük bir təəcüblə qarşılayırlar. Hətta Şeyx Səfiəddinlə ünvanlanmış sual da onun seyidliyinə bir aydınlıq gətirməmişdi. Bu aydınlığı əldə etmək üçün illərlə gözləmək lazım gəlmiş və yalnız yuxu vasitəsilə Şeyx Səfiəddinin seyid olması təsdiqlənmişdi. Belə məlum olur ki, Şeyx Səfiəddinin seyidliyinin imam Həsənə və ya imam Hüseynə bağlı olması haqqında da insanlarda, təriqət mürirlərində və xəlifələrində bir məlumat yox imiş. Bu məlumatın alınması üçün də Şeyx Sədrəddinə müraciət etmək lazım imiş. Bütün bunlar isə Ə.Kəsrəviyə görə, Şeyx Səfiəddinin seyid olmadığını nümayiş etdirirdi.

Şeyx Səfiəddinin seyid olmamasnın təsdiqi üçün Ə.Kəsrəvi "Səfvətüs-səfa" əsərində başqa bir oxşar hekayətə də istinad etmişdir. Həmin hekayət belədir: "Şeyx Zeynəddin dedi: "Bir qatla

həzrət Şeyxün oğlı (q.s.) Xacə Mühyiəddin öz anası rəhmətullah əleyhüma hüzurinə varub dedi: “Mənüm qövmlərüm içün bir süfrə göndər”. Anası dedi: “Qövmlərün kimlərdürlər?” Dedi: “Seyyid Zeynəddin ilən özgə seyyidlər kim, gəlübdürlər”. Anası dedi: “Anlar seyyiddirlər, necəlik ilən sənə qövm olurlar?” Həzrət Şeyx bu kələciləri eşidüb buyurdı: “Mühyiəddin gerçək der. Bunlar bizim qövmlərimizdürlər və nəsəbimizdə siyadət var” (155).

Ə.Kəsrəvi haqlı olaraq belə bir fikir yürüdür ki, yuxarıdakı hekayət də Şeyx Səfiəddinin seyid olmadığına bir sübutdur. Çünki Şeyx Səfiəddinin seyid olmasından hətta onun xanımının da xəbəri yox idi. Əgər Şeyx Səfiəddin seyid olsaydı, uzun müddət onunla birgə həyat sürmüş xanımının bundan xəbəri olardı. Ona görə də onların böyük övladı olan Mühyiəddin seyidlərə qo humluğu çatmasını bildirəndə, anası Bibi Fatimə bu xəbəri böyük təəccüblə qarşılamış və Mühyiəddinin seyidliyə bağlılığından xəbərsiz olduğunu açıqlamışdı. Belə olanda Şeyx Səfiəddin söhbətə qarışmış və doğrudan da onun nəslinin seyidliyə bağlı olduğunu bəyan etmişdi. Ə.Kəsrəviyə görə, Bibi Fatimənin həyat yoldaşının və oğlunun seyidliyindən bixəbər olması heç də təsadüfi deyildi. Çünki Şeyx Səfiəddin seyid nəslinə mənsub deyildi və ona görə də onun seyidliyi barəsində Bibi Fatimənin də məlumatı yox idi (156).

Ə.Kəsrəvi onu da əlavə edirdi ki, yuxarıda istinad olunan hekayətlər Şeyx Səfiəddinin seyid olmasını təsdiq etdiyi kimi, həm də onun seyidliyə bağlanması məsələsinin nə zamandan gündəmə gəlməsinə də bir aydınlıq gətirməyə imkan verir.

Ə.Kəsrəvi ümumiyyətlə, yuxarıda istinad edilən hekayətlərin “Səfvətüs-səfa” əsərinin müəllifi ibn Bəzzaza məxsusluğunu da qəbul etmirdi. O əminliklə qeyd edirdi ki, həmin hekayətlər sonradan adı çəkilən əsərə əlavə edilmişdir. Yəni həmin hekayətlər Şeyx Səfiəddinin seyidliyinin təsdiq edilməsi məsələsi gündəmə gələndə müəyyən adamlar üçün aktuallıq kəsb etmiş və həmin vaxt bu hekayətlər quraşdırılaraq kitaba əlavə edilmişdi. Fikrinin təsdiqi kimi, Ə.Kəsrəvi haqqında danışılan hekayətlərin

dilini və ifadə üsulunu diqqət mərkəzinə çəkirdi. Məlumdur ki, "Səfvətüs-səfa" əsərində nəql edilən hekayətlərin daxilində və ya sonunda müxtəlif nəzm parçaları verilmişdir. Yuxarıdakı hekayətlərdə də nəzm parçaları vardır. Ə.Kəsrəvi bu nəzm parçalarını müqayisə etməklə bildirirdi ki, yuxarıdakı hekayətlərdəki nəzm parçası bədii baxımdan çox zəifdir və digər nəzm parçalarından fərqlənir. Əsərdəki nəzm parçalarının əksəriyyəti ibn Bəzzaza məxsusdur. Ə.Kəsrəvi yuxarıdakı hekayətlərdəki nəzm parçalarının zəif olmasına görə, onları ibn Bəzzaza şamil etmidi və buradan da belə bir nəticəyə gəlirdi ki, həmin hekayətlər sonradan başqası tərəfindən yazılaraq kitaba əlavə edilmişdir. Bu fikir digər tədqiqatçılar tərəfindən də təsdiqlənmişdir .

Ə.Kəsrəvi fikirlərini davam etidrərək onu da bəyan edirdi ki, Şeyx Səfiəddin heç vaxt özünü seyid adlandırmamışdı. Bu məsələ ilə bağlı onun birbaşa fikirləri ilə rastlaşmaq çətindir. Şeyx Səfiəddin dolayısı yolla seyid olmasına işarə etmişdir ki, bu da sonralar "Səfvətüs-səfa" əsərinə əlavə edilmişdir. Eləcə də onun seyid olması haqqında aydın və etibarlı bir məlumat mövcud deyil. Onun yazdıqlarından belə bir qənaət hasil olur ki, Şeyx Səfiəddinin seyidliyə bağlılığının ictimaiyyətə qəbul etdirilməsi üçün Şeyx Sədrəddinə müəyyən vaxt lazım olmuşdu. Yəni o, ilk vaxtlar aydın və qətiyyətli şəkildə Şeyx Səfiəddinin seyid olmasını bəyan etməmiş, bu barədə müəyyən fikir yaratmağa çalışmışdır. Sonradan isə bu fikirlər genişləndirilmiş və hətta bu fikirlər "Səfvətüs-səfa" əsərinə də gətirilmişdi. Bu mənada Səfəvilər şəcərəsinin imam Musa əl-Kazıma bağlanmasının səhv olması Ə.Kəsrəvi tərəfindən qeyd edilmişdir. O yazırdı ki, Şeyx Sədrəddinin sağlığında onun adı imam Musa əl-Kazıma bağlanmamışdı və Şeyx Sədrəddinin adının qarşısında onun səfəvilərə bağlanması bildirilirdi. Şeyx Sədrəddinin adının imam Musa əl-Kazıma bağlanması ilk dəfə onun oğlu Xacə Əlinin dövründə baş vermişdir. Yəni bununla Səfəvilər şəcərəsi imam Hüseynə bağlanmışdı. Ə.Kəsrəviyə görə, Şeyx Sədrəddin sağlığında o, "Şeyx Sədrəddin əl-Səfəvi" kimi xatırlanırdısa onun oğlu Xacə Əlinin adının sonuna isə "əl-Musəvi əl-Səfəvi" sözləri artırılmış-

dı. Güman olunur ki, bununla Xacə Əli adının sonuna “Musa” sözünü artırmaqla, əslində, atasının Musa Sədrəddin olmasına işarə etmişdi. Sonradan bəzi katiblər isə buna başqa məna verərək “Musa” sözünün “imam Musa əl-Kazım” olması qənaətinə gəlmiş və bununla da Səfəvilərin şəcərəsi imam Musa əl-Kazıma bağlanmışdı. Nəhayət, buradan Ə.Kəsrəvi belə bir qənaətə gəlir ki, Səfəvilər şəcərəsinin imam Musa əl-Kazıma bağlanması Şeyx Sədrəddinin oğlu Xacə Əlinin dövründə baş vermişdi. Qeyd edilir ki, o zamanlar tanınmış insanların şəcərəsinin yaradılması yayılmış bir hal idi. Xacə Əlinin dövründə də Səfəvilərin şəcərəsi quraşdırılmış və bu şəcərə imam Musa əl-Kazıma bağlanmışdı. Güman edilir ki, məhz bundan sonra həmin şəcərə “Səfvətüs-səfa” əsərinə əlavə edilmişdi (157).

Ə.Kəsrəvi apardığı təhlildən sonra belə bir qənaətə gəlmişdir ki, Şeyx Səfiəddinin seyidliyə bağlanmasına onun oğlu Şeyx Sədrəddinin dövründə başlanmış və bunun nəticəsi kimi yuxarıda toxunulan hekayətlər “Səfvətüs-səfa” əsərinə əlavə edilmişdi. Onun fikrincə, səfəvilərin şəcərənaməsinin tərtib edilməsinə və onun əhli-beytə bağlanmasına Şeyx Sədrəddinin oğlu Xacə Əlinin və ola bilsin ki, onun oğlu Şeyx İbrahimin dövründə başlanmış və sonradan bu şəcərənamə “Səfvətüs-səfa” əsərinə də əlavə edilmişdir. Ə.Kəsrəviyə görə, Səfəvi təriqət və hakimiyyət başçılarında da seyidliyə meyil görünmür. Hətta Şah İsmayılın özünün də seyid kimi xatırlanmasına rast gəlmək çətindir. Müəllifin fikrincə, sultan (şeyx) Heydərin dövrünə qədər Səfəvi nümayəndələrinin adi geyimdə gəzməsi və onların geyimində seyidliyə mənsubluğun məlum olmaması da səfəvilərin seyidliyə mənsub olmamasının təsdiqidir. Səfəvilərin seyidliyə bağlanmasının yuxular vasitəsilə aydınlaşdırılmasını da Ə.Kəsrəvi qeyri-ciddi bir dəlil kimi qəbul edirdi (158).

Ə.Kəsrəvi tədqiqatında Şeyx Səfiəddinin seyidliyinin olmasını bəzi mənbələrdə etibarlı məlumatlara dayaqlanması haqqındakı fikirləri də qəbul etmirdi. O qeyd edirdi ki, bəzi mənbə müəllifləri belə bir fikir irəli sürsələr də, söylədiklərinin hansı etibarlı mənbələrə dayaqlandığını göstərmirdilər. Buna görə on-

ların da Səfəvilərin seyidliyə bağlanması haqqındakı fikirlər ciddi qəbul edilmirdi. Ə.Kəsrəviyə görə, Şeyx Səfiəddinin seyidliyə bağlılığının sübutu üçün istinad olunan əsərlərdən biri “Ümdət əltalib fi ensab al Əbu Talib” əsəridir ki, Seyid Cəmaləddin Əhməd ibn Əli ibn əl-Hüseyn tərəfindən yazılmışdı. Bu müəllif İraq ərazisində yaşayırdı və əsərində islam aləminin tanınmış nəsillərinin şəcərəsini göstərmişdi. Ə.Kəsrəvi onu da qeyd edirdi ki, imam Musa əl-Kazımın çoxlu sayda övladları var idi. Xüsusilə onun övladlarından olan Həmzənin də çoxlu uşaqları var idi və həmin uşaqların indiki İran ərazisində də nəsil davamının baş verməsi məlum idi. Lakin heç bir mənbədə Şeyx Səfiəddinin bu nəsil ilə bağlılığı haqqında məlumat mövcud deyil. Sonra o da bildirilir ki, Seyid Cəmaləddin Əhmədin məşhur şəcərənamələr kitabında da Şeyx Səfiəddinin adı ümumiyyətlə xatırlanmamışdır. Ə.Kəsrəvi əlavə edirdi ki, adı çəkilən müəllif Şeyx Səfiəddinin nəvəsi Xacə Əlinin müasiri olmuş və hətta onu tanımışdır. Əgər Şeyx Səfiəddinin seyidliyə bağlılığı olsaydı, onda Seyid Cəmaləddin səfəvilərin də adını Həmzə ibn Musa əl-Kazımın tanınmış qolları arasında çəkərdi. Bunun da səbəbi Şeyx Səfiəddinin həmin dövrə qədər seyid kimi tanınmaması ilə bağlanırdı (159).

Ə.Kəsrəvi fikrinin əsaslandırılması üçün başqa faktlara və məlumatlara da müraciət etmiş və bununla Şeyx Səfiəddinin nəsil şəcərəsinin seyidliyə bağlanmasının doğru olmadığını bəyan etmişdir. Onun bu məsələ ətrafında söylədiyi fikirlərdə bir məntiqi nəticənin olduğunu söyləmək mümkündür. Yəni Şeyx Səfiəddinin seyidliyə bağlanması haqqındakı fikirlər aydın və əsaslandırıcı deyildir. Şeyx Səfiəddin haqqında başlıca mənbə olan “Səfvətüs-səfa” əsərinin ruhunda da Şeyx Səfiəddinin seyidliyə mənsubluğu haqqında aydın bir xətti izləmək mümkün deyildir. Şeyx Səfiəddinin seyidliyə mənsub olacağı halda ondan sonra gələn nəsillərin hamısının seyid olması qəbul edilməli idi. Amma mənbələrdə Şeyx Səfiəddinin adı çəkilən xələflərinin hər hansı birinin seyidliyi haqqında da azacıq məlumat belə yoxdur. Onların hərəkətlərində, fəaliyyətlərində də seyidlik əlaməti görmək

mümkün deyildir. Ola bilsin ki, mənbə müəllifləri bu məqamın vacibliyinə elə bir əhəmiyyət verməmişlər. Lakin bu hal heç də məsələnin əhatəli şəkildə aydınlaşdırılmasına imkan vermir. Şeyx Səfiədinlə əhli-beyt üzvləri arasındakı şəcərə bəndlərinin müxtəlif sayda göstərilməsi və bu şəcərəni təşkil edən insanların bir çoxunun həyatı haqqında ən kiçicik məlumatların olmaması da Şeyx Səfiəddinin şəcərə bağlılığının ümumi xəttini aydınlaşdırmağa çətinlik yaratmaqdadır.

Şeyx Səfiəddinlə bağlı tədqiqatçılar arasında fikir ayrılığına səbəb olan məqamlardan biri də onun məzhəb məsnubluğudur. Bu məsələdə də “Səfvətüs-səfa” əsərində aydın və konkret bir mövqe yoxdur və ya ola bilsin ki, mövcud olan fikirlər aradan götürülmüşdür. Şeyx Səfiəddinin məzhəb mənsubluğu məsələsində də tədqiqatçılar iki yerə ayrılırlar. Onlardan bir qrupu Şeyx Səfiəddinin sünni, digər bir qrupu isə şiə məzhəbinə mənsubluğunu iddia edir. Hər iki qrup da yenə öz mövqeyini ilk növbədə “Səfvətüs-səfa” əsərindəki məlumatlarla təsdiqləməyə çalışır.

Əlavə olaraq müəlliflər və tədqiqatçılar Şeyx Səfiəddinin müasiri olmuş Həmdulla Müstövfi Qəzvininin “Nizhətül qülub” əsərinə istinad edirlər. Həmin əsərdə müəllif bildirmişdir ki, Ərdəbil əhalisinin əksəriyyəti imam Şafiə məzhəbindən olmaqla Şeyx Səfiəddinin müridləridir (160). Başqa sözlə, belə bir fikir irəli sürülür ki, Ərdəbil şəhərinin əhalisinin əksəriyyəti sünni idi və Şeyx Səfiəddin də sünni olmasaydı sünni əhali də onun müridləri olmazdı.

Şeyx Səfiəddinin sünniliyini iddia edən digər tədqiqatçılar da mövcuddur. Amma bu məsələdə də geniş fikir söyləyən Ə.Kəsrəvidir. O özünün məşhur “Şeyx Səfi və təbarəş” adlı əsərində bu məsələyə də geniş şəkildə toxunmuşdur. Ə.Kəsrəvi Şeyx Səfiəddinin sünni olmasını birmənalı şəkildə irəli sürürdü. O da bildirirdi ki, “Səfvətüs-səfa” əsərində Şeyx Səfiəddinin sünni məzhəbinə mənsubluğunun aydın bilinməməsi həmin əsərdə bu məsələni təsdiqləyən hekayətlərin əsərdən çıxarılması və ya da onların əvəzlənməsi ilə bağlıdır. Ə.Kəsrəvi adı çəkilən əsərdən bəzi başlıqların olmamasını konkret faktlarla əsaslandır-

mağa çalışırdı. Belə ki, bəzi əlyazmalarda bu və ya digər fəsillərdə əks olunmuş hekayətlərin sayı müxtəlif idi. Bu fərqliliyi Ə.Kəsrəvi bəzi hekayətlərin dastandan çıxarılması ilə əlaqələndirirdi. Eyni zamanda Şeyx Səfiəddinin sünniliyi üzərinə şübhə salan bəzi məlumatların da sonradan əlavə edildiyini bəyan edirdi. Ə.Kəsrəvi şübhə etmirdi ki, Şah İsmayılın hakimiyyəti illərindən başlayaraq "Səfvətüs-səfa" əsərinə səfəvilərin şiə məzhəbinə mənsubluğu haqqında dəyişikliklər əlavə edilmişdi. "Səfvətüs-səfa" əsərinə Şeyx Səfiəddinin məzhəb mənsubluğu ilə bağlı dəyişikliklərin edilməsini bu əsərin türk dilinə tərcüməsi nümunəsində də görmək mümkündür. Bu kitabın səkkizincı babının ikinci fəsli yalnız bir hekayətdən ibarətdir və o da Şeyx Səfiəddinin məzhəb mənsubluğuna həsr edilmişdir. Həmin əsərin türkcəyə tərcüməsində bu hekayət belədir: " Həzrət Şeyxdən (q.s.) sual qıldılar kim, nə məzhəbin var? Buyurdı kim, dərvişlərün məzhəbi Həqqün məzhəbidür və fərzənd gərək atasınun məzhəbində ola. Çün dədələrimizün məzhəbi kim, siratül-müstəqimdür və mömin övliyalar ol yola varubdurlar və bir qılça Mustafa ilə Murtaza əleyhimassəlam vəttəhiyyət vəlikramun buyurduğundan çıxmayubdurlar, biz dəxi anlarun ardınca varub doğru yoldan dönməzüz, inşaallah, bir yol varuruz kim, məhşərün günində nəbi ilə vəsi və Əhli-Beytləri yanında xəcalət çəkməyəcəgüz" (161).

"Səfvətüs-səfa" əsərinin Q.Təbatəbayi tərəfindən fars dilində çap etdirilmiş tənqidi mətnində bu hekayətin fəqli variantını görmək mümkündür. Ümumiyyətlə, onu da qeyd etmək lazımdır ki, əsərin türk dilinə tərcüməsində bu fəsil cəmi bir hekayətdən ibarət olduğu halda, tənqidi mətndə bu fəslin bir hekayəti və əlavə məlumatları da vardır. Tənqidi mətndə bu məsələ belə nəql edilmişdir: "Şeyx qəddus serruhdan soruşdular ki, şeyxin məzhəbi nədir? Buyurdu ki, "biz səhabənin məzhəbinə mənsubuq, hər dördünü sevirik və hər dördünə dua edərik" (162).

Şəhabə məzhəbi dedikdə Şeyx Səfiəddin sünni məzhəblərini nəzərdə tuturdu. "Səfvətüs-səfa" əsərinin nüsxələrindən birində isə Şeyx Səfiəddin belə cavab verir ki, o, əəmə məzhəbinə

mənsubdur. Bu ifadə də onun sünni məzhəbinə mənsubluğunu ifadə edirdi. Amma o da məlumdur ki, adı çəkilən əsərinin heç də hamısında Şeyx Səfiəddinin sünni məzhəbinə mənsubluğu təsdiqlənmir və onun şiə olması göstərilir (163). Belə nüsxə fərqlərinin olması isə, yuxarıda qeyd edildiyi kimi, bəzi tədqiqatçılar tərəfindən əlyazmaya sonradan əlavə və dəyişikliklərin olması ilə izah edilməkdədir.

"Səfvətüs-səfa" əsərinin səkkizinci babınını ikinci fəslinin türk dilinə tərcüməsi ilə Q.Təbatəbayi tərəfindən tərtib edilmiş tənqidi mətnin həmin fəslində başqa bir fərq də vardır. Həmin fərq belədir: "Bir gün mübarək əli kiçik yaşlı qızının əlinə toxundu, dəstəmaz aldı. Şeyx Sədrəddin adəmullah bərəkətu buyurdu ki, bu dəstəmazı nə üçün almasının səbəbini soruşdum. Vallah ki, mənim əlim sənin ananın əlinə də toxunmur, toxunanda dəstəmaz alıram. Ona görə ki, Haqq-təala buyurmuşdur: "la məstum ənnəsa" (Maidə surəsi, 6-cı ayə). Bunlar nəsadandırlar" (164).

Bu cümlələr "Səfvətüs-səfa"nın türk dilinə tərcüməsində, ümumiyyətlə, mövcud deyil. Ə.Kəsrəvi bu cümlələrin də ifadə etdiyi mənaya şübhə ilə yanaşmışdır. Çünki onun sözlərinə görə, bu dəyişiklik də Şeyx Səfiəddinin sünniliyini şübhə altına almaq üçün həyata keçirilmişdi. Məlumdur ki, "Səfvətüs-səfa" əsərinin türk dilinə tərcüməsi Şah Təhmasibin vaxtında edilmişdi. Bu dövr elə bir dövr idi ki, istər şiəlik, istərsə də Şeyx Səfiəddinin seyidliyi məsələsi böyük siyasi-ideoloji əhəmiyyət kəsb edirdi. Ona görə də, tədqiqatçıların fikrincə, Şah Təhmasibin dövründən başlayaraq "Səfvətüs-səfa" əsərinə əlavələr edilməsi yeni bir aktuallıq kəsb etdi.

"Səfvətüs-səfa" əsərinin variant fərqliliyinin olması bu əsərin toplanması, tədqiqi və çapı ilə məşğul olan adamlar tərəfindən birmənalı şəkildə irəli sürülür və hətta bu əsərlərlə bağlı ciddi tədqiqatların da daha qədim əlyazmaları üzərində qurulmasına təkid edilirdi. Ə.Kəsrəvi belə bir məqama toxunurdu ki, Təbrizdən Mirzə Əhməd adlı bir sufi "Səfvətüs-səfa" əsərinin qədim nüsxələrini toplamağa başlamış və onların üç qədim nüsxəsini Bombeydə çap etdirmişdi. Mirzə Əhməd həm də bu nüs-

xələrin təhlilini aparmış və onların mətn fərqliliyini ortaya çıxarmışdı. Sonra da o, bu əsərlə maraqlanan bütün taliblərə vəsiyyət etmişdi ki, "Səfvətüs-səfa" əsərinin tədqiqi üçün Ərdəbilli katib Şeyx Hüseynin yazdığı əlyazmadan istifadə etsinlər. Çünki digər əlyazmalarda kifayət qədər böyük dəyişiklik və təhriflər vardır (165).

Şeyx Səfiəddinin məzhəb mənsubluğu ilə bağlı "Səfvətüs-səfa" əsərində başqa bir qeydlə də rastlaşmaq mümkündür. Bu əsərin bir yerində Şeyx Səfiəddinin gündə beş dəfə namaz qılmasından söhbət açılır (166). Şeyx Səfiəddinin gündə beş dəfə namaz qılması da onun sünniliyinə işarə ola bilər.

Şeyx Səfiəddinin məzhəb mənsubluğu ilə bağlı Ə.Kəsrəvinin fikirləri çoxlu sayda tədqiqatçı tərəfindən rədd edilir. Lakin buna baxmayaraq onun Şeyx Səfiəddinin sünni məzhəbinə mənsubluğu ilə bağlı müəyyən məntiqi müşahidə etmək mümkündür. Tarixdən məlumdur ki, Şeyx Səfiəddinin rəhbərlik etdiyi təriqətin kütləvi sayda müridləri və tərəfdarları var idi. Bununla bağlı, "Səfvətüs-səfa" əsərində də müvafiq məlumatlarla rastlaşmaq mümkündür. Bölgədə, konkret olaraq Azərbaycanda əhalinin kütləvi olaraq şiələşdirilməsi Şah İsmayılın hakimiyyəti dövründən başlamışdı. Doğrudur, onun babası Sultan Cüneyd zamanından etibarən şiəliyin kütləviləşməsinə yol açılmışdı. Lakin Şeyx Səfiəddinin sağlığında bölgə əhalisi tərkibində şiəlik kütləvilik təşkil etmirdi. Yuxarıda istinad olunan məlumat da onu bildirirdi ki, Şeyx Səfiəddinin sağlığında Ərdəbil əhalisinin əksəriyyətini sünnilər təşkil edirdilər. Sünni əhali isə kütləvi şəkildə şiə məzhəbinə mənsub olan Şeyx Səfiəddinin müridləri olmazdılar. Belə bir güman etməyə əsas vardır ki, Şeyx Səfiəddin sünni idi ki, onun ətrafına çoxlu sayda sünni müridlər toplaşmışdılar. O cümlədən, Əmir Teymurun Səfəvi xanəgahına xüsusi ehtiramı da Səfəvi təriqət rəhbərliyinin sünni məzhəbinə mənsubluğuna bir işarə ola bilər. Lakin bu mövqe və fikirlə razılaşmayan xeyli sayda tədqiqatçı da vardır.

Şeyx Səfiəddinin seyid olmaması və sünni mənsubiyyəti ilə razılaşmayan tədqiqatçıların sayı da xeyli çoxdur. Onlar da öz

mülahizələrinin əsaslandırılması üçün kifayət qədər dəllillərə istinad edir və nəticədə Şeyx Səfiəddinin seyid olması, şiə məzhəbinə mənsubluğu haqqındakı fikirlərinin üstündə dayanırlar.

Ə.Kəsrəvi araşdırmasında Şeyx Səfiəddinin seyid olub-olmaması məsələsinə adi bir tarixi fakt kimi yanaşırdısa, ona əks mövqedə olan tədqatçılar bu məsələnin aydınlaşdıırlmasını mühüm bir vəzifə kimi dəyərləndirir və az qala buna bir siyasi məzmun da verirlər. Belə bir fikir irəli sürülür ki, bu məsələnin aydınlaşdırılması, bütünlükdə Səfəvilərin tarixinin doğru araşdırılması üçün əhəmiyyət kəsb edir (167).

Şeyx Səfiəddinin seyidliyə bağlılığını israr edən tədqiqatçılar ilk növbədə Ə.Kəsrəvinin bu məsələdəki mövqeyini və arqumentlərini təhlil obyektinə çevirir və onun arqumentlərini təkzib etməyə çalışaraq öz mövqelərinin doğruluğunu irəli sürürdülər. Bu tədqiqatçıların bəziləri Ə.Kəsrəvinin irəli sürdüyü dəlilləri və fikirləri yetərli saymır və bu dəlillərin doğruluğunu qəbul etmirdilər. Onların fikrincə, Ə.Kəsrəvi məsələnin aydınlaşdırılması üçün yetərincə etibarlı faktlara arxalanmayıb və ona görə də onun fikirləri qəbuledilməzdir. Konkret olaraq "şeyx" və "xoca" sözlərinin seyidliyi ifadə etməməsi barəsində Ə.Kəsrəvinin iddiaları əsaslı arqument kimi qəbul edilmir və tənqidə tutulurdu (168).

Şeyx Səfiəddinin seyidliyini təsdiq edənlər də öz dəlillərini ilk növbədə "Səfvətüs-səfa" əsərində axtarmağa çalışırdılar. Buna bir əsas da var idi. Çünki qeyd edildiyi kimi, bu əsərin əlyazmalarının variantlarındakı fərqlilik Şeyx Səfiəddinin seyidliyinin təsdiqi üçün müəyyən dəlillər verməkdədir. Məsələn, tədqiqatçıların fikrincə, "Səfvətüs-səfa"əsərinin Məşhəddəki İmam Rza kitabxanasında saxlanılan nüsxəsində, Britaniya muzeyində, Təbriz universitetinin Ədəbiyyat fakültəsinin kitabxanasında saxlanılan nüsxələrində Şeyx Səfiəddinin şiə məzhəbinə mənsubluğu və seyidliyi haqqında aydın məlumatlar vardır. Bu məlumatı verən tədqiqatçılar belə fikirdədirlər ki, "Səfvətüs-səfa" əsərində Şeyx Səfiəddinin seyidliyi haqqında birmənalı fikir ortaya qoyulmaması Şeyx Səfiəddinin özünün təvazökarlığından

da irəli gəlirdi. Yəni o bu məsələni açıb-ağartmağı lazım bilmirmiş. Bu barədə sual veriləndə Şeyx Səfiəddin də buna işarə etmişdi. Araşdırmaçılar tərəfindən Şeyx Səfiəddinin seyid olmaması və ya şiə məzhəbinə mənsub olmaması haqqında "Səfvətüs-səfa" əsərində mövcud olan bəzi qeydlərin doğruluğu da şübhə altına alınmışdır. Bununla əlaqədar, belə bir fikir irəli sürülür ki, Şeyx Səfiəddin doğrudan da əgər sünni məzhəbinə mənsubluğu haqqında sözlər deyibsə, bu sözləri məcburiyyət qarşısında deməli olmuşdu. Bu fikrin tərəfdarı olan araşdırmaçılar "Səfvətüs-səfa" əsərinə sonralar əlavələr edilməsini danmasalar da, onların ehtimalına görə həmin əlavələr Səfəvi xanədanı tərəfindən yox, bu xanədana rəğbətlə yanaşmayanlar tərəfindən edilmişdir (169).

Şeyx Səfiəddinin seyidliyini və şiə mənsubluğunu birmənalı şəkildə qəbul edənlər bu məqamlarla bağlı irəli sürülən dəlillərin, xüsusi ilə də Ə.Kəsrəvinin istinad etdiyi faktların hər birinə ayrı-ayrılıqda cavab verməyə çalışmışlar. Bu istiqamətdə Ə.Kəsrəvinin istinad etdiyi ciddi faktlardan biri Seyid Cəmaləddin Əhməd ibn Əli ibn əl-Hüseyn tərəfindən yazılmış "Ümdət əltalib fi ensab al Əbu Talib" əsərində Şeyx Səfiəddinin şəcərəsinin əhli-beytə bağlanması haqqında hər hansı bir qeydin olmaması idi. Çünki adı çəkilən müəllif islam aləminin tanınmış şəcərələri haqqında geniş biliyi olan şəxs sayılırdı və adı çəkilən əsərdə də bu barədə geniş məlumatlar var idi. Bu kitabda Əbu Talib nəslinin, xüsusilə də İmam Əlinin övladlarından başlanan şəcərələr yer almışdır ki, Ə.Kəsrəvinin həmin kitaba istinad etməsi də orada Şeyx Səfiəddinə qədər uzanan bir şəcərənin olmaması idi.

Bəzi tədqiqatçıların fikrincə, "Ümdətət əltalib fi ensab al Əbu Talib" əsərində Şeyx Səfiəddinə qədər uzanan şəcərənin göstərilməməsi heç də onun əhli-beytə bağlılığının inkar edilməsi demək deyildir. Bu fikrin əsaslandırılması üçün tədqiqatçılar öz arqumentlərini də irəli sürməkdədirlər.

Qeyd edilənlərdən məlumdur ki, Şeyx Səfiəddinin nəsil şəcərəsi imam Musa əl-Kazıma bağlanırdı. "Ümdət əl talib..."

ktabında bildirilir ki, imam Musa əl-Kazımın 60 övladı olmuşdur ki, onlardan 37-sü qız, 23-ü isə oğlan övlad olmuşlar. Bu oğlan övladlarından beşinin övladı olmamış və üçünün isə ancaq qız övladı olmuşdu. Yəni onlar Şeyx Səfiəddinin şəcərəsinin başlanğıc həlqələri ola bilməzdilər. Bu əsərə görə, Musa əl-Kazımın oğlan övladlarından on nəfərinin dəqiq şəkildə övladları olmuşdu. Onların arasında Həmzə də var ki, Şeyx Səfiəddinin seyidlik şəcərəsinin də onun vasitəsi ilə imam Musa əl-Kazıma bağlandığı ehtimal edilir. Kitabda imam Musa əl-Kazımın oğlu Həmzəyə bağlanan çoxlu şəcərələr verilmişdir ki, bu şəcərələr arasında səfəvilərə qədər uzanan hər hansı bir şəcərə yoxdur. Ə.Kəsrəvi də buna istinad edərək Şeyx Səfiəddinin seyidliyini təkzib edirdi (170).

"Ümdət əl talib..." ktabında olan məlumata görə, Həmzə nəslindən İran arealında yayılanlar xeyli çox idi. Xüsusilə onun Qasım və Həmzə adlı övladları İran arealında yayılmışdılar. Həmzə Xorasan ətrafında məskunlaşmış və onun nəslinin davamçıları elə də çox olmamışdı. Bununla həm də belə bir fikir söylənilir ki, Şeyx Səfiəddinin şəcərəsi Həmzəyə deyil, onun qardaşı Qasıma bağlıdır. Qasımın da üç oğlan övladı olmuşdu – Məhəmməd, Əli və Əhməd. "Ümdət əl talib..." ktabında Məhəmmədin və Əlinin övladlarının şəcərəsi haqqında müəyyən məlumatlar vardır. Amma Əhmədin özündən sonra gələnlər haqqında yetərli məlumat yoxdur. Tədqiqatçılar Şeyx Səfiəddinin şəcərəsinin də məhz Əhməd ibn Qasım ibn Həmzə... ilə bağlayırlar. Bu tədqiqatçıların fikrincə, Əhmədin nəslinin davamı haqqında şəcərə kitabında məlumat olmaması, heç də onun övladlarının olmaması mənasında deyildi. Qeyd edilir ki, "Ümdət əl talib..." ktabının müəllifi də Əhmədin nəsil şəcərəsinin davam etməməsi haqqında dəqiq bir fikir söyləməmişdir. Güman edilir ki, Əhmədlə davam edən nəsil şəcərəsinin Şeyx Səfiəddinə qədər çatdırılmamasının səbəblərindən biri Şeyx Səfiəddinə qədər olan şəcərə mənsublarının sayının çox olması ilə də bağlı ola bilərdi. Çünki Şeyx Səfiəddindən başlanan şəcərə iyirmi nəsildən sonra islam peyğəmbərinə çatırdı ki, bu nəsillərin bütün üzvlərinin sa-

dalanması bir kitabda mümkün deyildi. Digər tərəfdən də belə güman edilir ki, Əhməddən sonra gələnlərin şəcərə kitabında xatırlanmaması imam övladlarının islam arealında təqib olunması ilə bağlı ola bilərdi. Bu təqiblərdən xilas olmaq üçün imam övladlarının hətta özlərini sünni məzhəbinə mənsub olan şəxlər kimi də təqdim edirdilər. Yəni bəzi tədqiqatçılar bu fikirdədirlər ki, "Ümdət əl talib..." kitabında Şeyx Səfiəddinə qədər uzanan şəcərənin göstərilməməsi Şeyx Səfiəddinin seyidliyə bağlılığının inkar edilməsi üçün dəlil ola bilməz. Ona görə tədqiqatçılar tərəfindən Ə.Kəsrəvinin bu fakta istinad etməsi də əsassız sayılırdı (171).

Ə.Kəsrəvinin Səfəvi nümayəndələrinin adlarının qarşısında "seyid" yox, "şeyx" yazılmasını onun seyidliyinin inkar edilməsi haqqında irəli sürdüyü ehtimal da ona müxalif fikirdə olan tədqiqatçılar tərəfindən ciddi arqument kimi qəbul edilmirdi. Belə tədqiqatçılar, ümumiyyətlə, Şeyx Səfiəddinin seyidliyinin təkzibi haqqında dəlillər axtarılmasını düzgün saymırdılar və bu məsələnin bir növ sübuta ehtiyacı olmadığını da bəyan edirdilər. Bu tədqiqatçılar belə bir fikir irəli sürürlər ki, Şeyx Səfiəddinin seyidliyə bağlılığı üçün kifayət qədər faktlar və sübutlar mövcuddur və tədqiqatçılar istədikləri təqdirdə çoxlu sayda belə faktları tapa bilərlər. Daha doğrusu, bununla obyektiv faktlara məqsədyönlü şəkildə istinad edilmədiyi iddia olunur.

Tədqiqatçıların fikrincə, seyid şəcərəsinə mənsub olan adamların adlarının qarşısında "seyid"dən əlavə "şah" sözünün yazılması da həmin adamın seyidliyə mənsubluğunun göstəricisi idi. Bildirilir ki, "şah" sözü şah olmayan insanların da adlarının qarşısında yazılması təcrübəsi mövcuddur. Bu söz lüğəvi mənada yüksək, ali, şərəfli, yüksək məqamlı anlamında işlədilirdi və islam aləmində də bu sözün "əmir", "seyid" sözləri ilə birlikdə seyidlik şəcərəsinə mənsub olan adamların adlarının qarşısında işlədilməsi təcrübəsi də mövcud idi. Doğrudur, bu məsələdən bəhs edən tədqiqatçılar "şah" sözünün seyidliyə mənsubluğunun göstəricisi olmasının təsdiqləyən etibarlı dəlillər irəli sürə bilməsələr də, Şeyx Səfiəddinin altıncı babası olan Firuzşahın və səkki-

cizinci babası Şərəfşahın adlarında "şah" sözünün olmasını onların seyidliyə bağlılığının sübutu kimi qəbul edirlər (172).

"Şeyx" sözünün Ə.Kəsrəvi tərəfindən təriqət məqamı kimi qəbul edilməsi də onunla fikir ayrılığına malik olan tədqiqatçılar tərəfindən qəbul edilmir. Bildirilir ki, imam Əliyə bağlanan seyidlik şəcərələrinin çoxunda "şeyx" sözü ilə başlanan adlara rast gəlmək mümkündür. Bu fikirin əsaslandırılmasına həsr olunmuş araşdırmada seyid şəcərəsinə mənsub olan bir çoxlarının adlarının "şeyx" sözü ilə başlaması haqqında böyük siyahılar da verilmişdir. Bununla, Ə.Kəsrəvinin belə bir dəlil gətirməsi də əsassız sayılır. Bundan başqa o da əlavə olunur ki, "şeyx" sözü bədii əsərlərdə də işlənmişdir. Xüsusilə, təsəvvüf məzmunlu bəzi əsərlərdə seyid şəcərəsinə mənsub olan adamların adları qarşısında "şeyx" sözü işlənmiş və bu sözü işlətmiş şairlər bu sözün arxasında seyidlik məzmununun dayandığına işarə etmişlər (173).

Ə.Kəsrəvinin "Səfvətüs-səfa" əsərinə Səfəvilərin hakimiyyəti dövründə, konkret olaraq Şah Təhmasibin hakimiyyəti illərində məqsədyönlü şəkildə dəyişikliklər edilməsi barəsindəki fikri də onunla fikir müxalifliyində olan mütəxəssislər tərəfindən qəbul edilmir. Səfəvi tarixşünaslığında belə bir fikir var ki, Şah Təhmasibin göstərişi ilə Əbülfət Hüseyni "Səfvətüs-səfa" əsərinin üzərində yenidən işləmiş və ona məzmun baxımından ciddi dəyişikliklər etmişdir. Bu məsələ, ümumiyyətlə, səfəvişünaslar tərəfindən qəbul olunur və "Səfvətüs-səfa" əsərinin tənqidi mətnini hazırlamış Q.Təbatəbayi də çap etdirdiyi əsərin müqəddiməsində bu barədə yazmışdır. Yəni mütəxəssislər tərəfindən "Səfvətüs-səfa" əlyazmaları mətnlərin sabitliyinə görə 1-ci və 2-ci əlyazma qruplarına bölünür. 1-ci qrup əlyazmalar daha erkən qələmə alınanlar hesab edilir. 2-ci qrup əlyazmalar isə sonrakı dövrlərdə üzü köçürülmüş əlyazmalar hesab edilirlər. Q.Təbatəbayi də bu iki qrup əlyazmanın müqayisəsini aparmış və belə bir qənaətə gəlmişdir ki, hər iki qrupa aid olan əlyazmaların əsas mətnində ciddi dəyişikliklər baş verməmişdir. Mövcud olan dəyişikliklər isə aşağıdakı kimidir:

1. Şah Təhmasibin göstərişi əsasında Əbülfət Hüseyni tərəfindən "Səfvətüs-səfa"nın əsərinin əsas mətninə müqəddimə əlavə edilmişdir;

2. Şeyx Səfiəddindən başlayaraq Şah İsmayıla qədər olan Səfəvi təriqət başçıları haqqında məlumatlar və hekayətlər "Səfvətüs-səfa" əsərinin sonluğuna əlavə edilmişdir;

3. Bir sıra hekayətlər "Səfvətüs-səfa" əsərinin əlyazmasından çıxarılmışdır (174).

Ə.Kəsrəvinin də müdafiə etdiyi iddiaya görə, edilən əlavələr və aparılan ixtisarlar zamanı Şeyx Səfiəddinin sünniliyə mənsubluğu və seyidliyə bağlı olmaması haqqındakı qeydlər kitabdan çıxarılıb və onların yerinə əks fikirlər daxil edilibdir. Bununla da, Şeyx Səfiəddinin seyidlik şəcərəsinə mənsubluğu haqqında süni bir mövqe formalaşdırılıbdır. Bu fikir heç də bütün səfəvişünaslar tərəfindən qəbul edilmir və bəzi tədqiqatçılara istinad edilməklə bildirilir ki, "Səfvətüs-səfa" əsərinə əgər dəyişikliklər edilibsə də, onlar yalnız əsərin girişinə və sonluğuna edilibdir. Yəni güman edilir ki, bununla əsərin məzmununa xələl gətirilməmişdir. "Səfvətüs-səfa" əsərinə dəyişikliklərin edilməməsinə əmin olmaq üçün bəzi tədqiqatçılar Q.Təbatəbayi tərəfindən 9 əlyazma nüsxəsi əsasında hazırlanmış "Səfvətüs-səfa" əsərinin tənqidi mətninə müraciət edilməsini məsləhət bilirlər. Qeyd olunur ki, həmin tənqidi mətni nəzərdən keçirməklə bu əsərə Əbülfət Hüseyni tərəfindən dəyişikliklər edilmədiyini görmək mümkündür. Qəbul olunur ki, əsərin müqəddiməsində və sonluğunda dəyişiklik və əlavələr var. Lakin əsərin məzmununa Ə.Hüseyni tərəfindən müdaxilə edilməmişdir. Başqa sözlə, Ə.Kəsrəvinin "Səfvətüs-səfa" əsərinin məzmununa məqsədyönlü şəkildə müdaxilə edilməsi fikri təkzib olunur. Ə.Hüseyni tərəfindən "Səfvətüs-səfa" əsərinin əsas məzmununa toxunmadan onun sonluğuna Şeyx Səfiəddindən sonra gələnlərin hekayətlərini əlavə etməsi də, göründüyü kimi, tədqiqatçılar tərəfindən qəbul olunur. Bildirilir ki, bu zaman Ə.Hüseyninin məqsədi yalnız kitabın tamamlanması, Şeyx Səfiəddin kəramətinin onun davamçılarında öz əksini tapmasının göstərilməsi olmuşdur. Yəni bu

əlavəni əsas mətndən fərqləndirmək mümkündür. Eyni zamanda Şeyx Səfiəddinin qeyri-seyidliyinə işarə olan hekayətlərin "Səfvətüs-səfa" əsərindən çıxarılması haqqındakı Ə.Kəsrəvi iddiaları da düzgün qəbul edilmir. Bu fikrin tərəfdarları olan tədqiqatçılar əminliklə bildirirlər ki, Ə.Hüseyni qarşısına belə bir məqsəd qoymamışdı və Şah Təhmasibdən də belə bir tapşırıq almamışdı. Çünki "Səfvətüs-səfa" əsərinin tənqidi mətnində istifadə olunmuş nüsxələrdəki fərqlər də verilmişdir. Həmin fərqlərdən, yəni bəzi nüsxələrdən çıxarıldığı güman edilən hekayətlərin təhlili onu göstərir ki, bu hekayətlər daha çox ciddi məzmuna malik deyildi və onlarda Şeyx Səfiəddinin seyidliyi və ya sünni məzhəbin mənsubluğu haqqındəa əhəmiyyətli bir məlumat yoxdur. Ona görə də "Səfvətüs-səfa" əsərinə məqsədyönlü müdaxilələr edilməsi haqqındak Ə.Kəsrəvinin iddiaları bir çox tədqiqatçılar tərəfindən rədd edilirdi (175).

Ə.Kəsrəvinin iddiaları ilə razılaşmayan tədqiqatçılar yalnız onun fikirlərinin təkzib edilməsi ilə kifayətlənmirlər və eyni zamanda məlum olan sənəd və faktları da ortaya qoyurlar. Bu tədqiqatçıların fikrincə, Şeyx Səfiəddinin seyidliyə bağlılığını və şiə məzhəbinə mənsubluğunu sübut etmək üçün hazırda artıq ciddi sənədlər və dəlillər mövcuddur. Belə sənədlərdən biri Ərdəbilin Ətiq məscidindən tapılmış daş kitabədir. Bu kitabə tünd yaşıl rəngdə olan gəç lövhə üzərində yazılmışdır. Həmin lövbə 1991-ci ilə qədər adı çəkilən məscidin minarəsinin qərb tərəfindən idi. Sonralar bu kitabənin hifz edilməsi, həmçinin daha yaxşı mühafizə edilməsi üçün onu Şeyx Səfiəddin türbəsinə köçürmüşdülər və bir müddət orada saxlanılmışdı. Kitabənin üzərində nə yazılması uzun müddət kimsəni maraqlandırmırdı. Yalnız 2002-ci ildə bu kitabə nəzərdən keçirilmiş və orada Şeyx Səfiəddinin nəsil şəcərəsi ilə bağlı tədqiqatçılar üçün maraq doğuran məlumatlar aşkarlanmışdı. Bu kitabə 117 x 43 x 6 santimetr ölçüsündədir və onun üzərində 10 sətirlik bir yazı olmuşdur. Bu kitabənin 9-cu və 10-cu sətirləri havanın təsiri nəticəsində ovularaq yox olmuşdur. Həmin sətirlərdən yalnız bir neçə hərfi seçmək mümkündür. Sətirlər 10x43 santimetr ölçüsündədir. Kitabənin yazıları dörd-

bucaqlı çərçivələr daxilindədir və tədqiqatçılar bu kitabənin Şah İsmayılın hakimiyyətə başlamasından əvvəl, onun böyük qardaşı Sultan Əli tərəfindən yazıldığını müəyyən etmişlər. Bu kitabə Sultan Əli tərəfindən verilmiş bir göstərişdir (tamğadır) və kitabənin əvvəlində Sultan Əlinin ləqəbi göstərilərkən "seyyid ül-sadat" yazılmışdır. Tədqiqatçıların fikirncə, bu söz Şeyx Səfiəddin nəslinin seyid olmasını təsdiqləyən bir faktdır. Bu faktın elmi-tarixi əhəmiyyəti kimi onun Səfəvi dövlətinin yaranmasından əvvəl yazıldığı iddia olunur. Kitabədə Ərdəbil bazarında düyü satışı ilə bağlı bəzi məlumatlar öz əksini tapmışdır. Mütəxəssislərin fikrincə, bu kitabə Səfəvi nəslinin seyidliyə bağlılığının təsdiqi kimi əhəmiyyət kəsb etməklə bərabər, həm də Səfəvi dövlətinin qurulmasından əvvəl səfəvilərin işlərinin yüksələn xətlə getməsinin göstəricisidir. Digər tərəfdən, bu kitabənin üzə çıxmasını tədqiqatçılar həm də Ə.Kəsrəvinin iddialarının doğru olmamasını sübut edən dəyərli bir fakt kimi qəbul edirlər. Ə.Kəsrəvi bildirirdi ki, Şah İsmayıldan əvvəlki Səfəvi təriqət nümayəndələri "şeyx" və ya "xacə" adları ilə çağırılırdılar. Ərdəbildən tapılmış kitabə isə onun bu iddiasının da təsdiqi kimi qəbul edilirdi. Yəni belə bir fikir irəli sürülürdü ki, "seyid" sözü "Səfvətüs-səfa" əsərinə bəzi düzəlişlərin edilməsindən əvvəl də, Səfəvi dövlətinin qurulmasından əvvəl də işlədilmişdi və bu da Səfəvi nəslinin seyidliyə bağlılığının təsdiqi kimi qəbul olunurdu (176).

Ciddi və mötəbər mənbələrə istinad edən müasir ərəb tədqiqatçılarının əsərlərində də Şeyx Səfiəddinin seyidlik şəcərəsinə mənsubluğunun təsdiq edildiyi bildirilir. Səfəvi tarxçilərindən biri bu mənada bir vaxtlar İraqın Suriyada səfiri olmuş Seyid Əlaülcəvadinin elmi araşdırmasını nümunə göstərmişdir. Bildirilir ki, adı çəkilən ərəb tarixçisi imam Musa əl-Kazımın oğlu Həmzənin övladlarından başlanan şəcərələri 2 min səhifəlik elmi əsərində təhlil etmiş və bu əsərdə Şeyx Səfiəddinin nəsil şəcərəsinin İimam Musa əl-Kazıma bağlanması haqqında dəyərli məlumatlar vermişdir. Həmin məlumatların əldə edildiyi mənbələrin və ədəbiyyatın uzun bir siyahısı da verilmişdir. Bu siyahıda 100-ə

yaxın mənbə və ədəbiyyat vardır. Bu ədəbiyyat siyahısında çoxlu sayda ərəb dilində olan mənbələr də vardır (177).

Şeyx Səfiəddinin seyid şəcərəsinə bağlılığının sübutu kimi istinad edilən sənədlərdən biri də Əmir Teymur tərəfindən Şeyx Səfi nəslinə verilmiş vəqfnamədir. Bəzi tədqiqatçılar bu vəqfnamədə də Şeyx Səfiəddinin nəslinin seyidliyinin aydın şəkildə ifadə olunduğunu göstərirlər. Bu sənəd də xüsusilə ona görə dəyərli sayılır ki, o da Səfəvi dövlətinin yaranmasından əvvəl meydana gəlmişdi (178).

Şeyx Səfiəddinin seyidliyinin təsdiqi üçün elmi dövriyyəyə çıxarılmış sənədlərdən biri də Səfəvi dövlətinin əsasının qoyulmasından bir neçə onillik əvvəl Nəcəfin seyid nəsilləri arasında meydana çıxmış və həmin nəsillər tərəfindən də etibarlı bir sənəd kimi qəbul olunmuş şəcərənamədir. Hazırda bir sıra mütəxəssislər bu şəcərənaməni etibarlı bir sənəd kimi qəbul edirlər və ona əsaslanaraq Şeyx Səfiəddinin nəsil şəcərəsinin seyidliyə bağlanmasına şübhə etmirlər. Nəcəfdə meydana gəlmiş şəcərə "Ərdəbil şeyxlərinin nəsil zikri" adlanır. Bu şəcərənamənin kim tərəfindən tərtib edilməsi də məlumdur və müəllifin həyatının öyrənilməsi göstərir ki, bu adamın Səfəvi xanədanına bağlılığı yoxdur. Yəni şəcərənamənin tərəfsiz bir adam tərəfindən tərtib edildiyi üçün etibarlılığı daha çox qəbul olunur. Aparılan araşdırmalar onu da göstərmişdir ki, Nəcəf seyidləri arasında tərtib olunmuş bu şəcərənamə Şah İsmayılın atası Sultan Heydərin uşaqlıq dövrünə gedib çıxır. Sultan Heydərin 5-6 yaşı olan vaxtlarda tərtib edilən bu şəcərənamə hazırda Londonda saxlanılır. Mövcud məlumatlardan belə bir qənaətə gəlmək olur ki, həmin şəcərənamə ilk dəfə yapon alimi K.Morimoto tərəfindən araşdırılmışdır. Şəcərənamənin ilkin müşahidəsi göstərir ki, o, Əli əl-Musəvi əl-Nəcəfi tərəfindən tərtib edilmişdir. Müəllifin adına görə onun Nəcəfdə tərtib edildiyi güman olunur. Eyni zamanda o da məlum olur ki, bu şəcərənamə xüsusi və ayrıca olaraq tərtib olunmamışdır. O daha çox müəllifin qeydlərinə bənzəyir. Lakin bu qeydlərdən müəyyən nəticələr əldə etmək mümkündür. Şəcərənamə üzərində XV əsrə aid bir neçə rəqəm mövcuddur. Bu rəqəmlər ilk növbədə

şəcərənamənin tərtib edildiyi tarix kimi də görünə bilər. Amma mütəxəssislərin fikrincə, həmin tarixlər müəllifin həyatında baş vermiş müxtəlif hadisələrin tarixi də ola bilərdi (179).

Bu şəcərənamə iki hissədən ibarətdir. Mütəxəssislərin müşahidələri onu deməyə əsas verir ki, bu hissələr ayrı-ayrı adamlar tərəfindən yazılmışdır. Çünki yazı xətti bir-birindən xeyli dərəcədə fərqlənir. Şəcərənamənin birinci hissəsi Şah İsmayılın atası Şeyx Heydərin adı ilə tamamlanır. İkinci hissə isə Şah Təhmasibin uşaqlarına qədər davam edir. Şeyx Heydərlə tamamlanan şəcərənamənin ümumi zənciri yuxarıdan aşağı Şeyx İbrahimin oğlu Cəfərdə tamamlanır. Cəfərin adından sonra şəcərənamə zəncirindən iki şaxə ayrılır. Bu şaxələrdən biri Şeyx Cüneydin və ondan sonra da Şeyx Heydərin adı ilə davam edir. Cəfərdən ayrılan ikinci şaxənin isə Cəfərin övladları üçün nəzərdə tutulduğu ehtimal edilir. Lakin bu şaxədə kimsənin adı yoxdur. Mütəxəssislərin fikrincə, Cəfərdən sonra şəcərə zəncirinin parçalanması və iki yerə ayrılması heç də təsadüfi deyildi. Çünki Şeyx İbrahimdən sonra təriqət daxilində bir parçalanma baş verdi. Təriqətin bir hissəsi Şeyx Cüneydlə Şeyx Heydərin ətrafında birləşdilər və onlar ağqoyunlularla sıx əlaqə qurdular. Hətta Şeyx Cüneyd Ağqoyunlu hökmdarı Uzun Həsənin bacısı, Şeyx Heydər isə onun qızı ilə ailə qurdu. Təriqətin Cəfər ətrafında birləşən hissəsi isə Qaraqoyunlularla sıx əlaqə qurdular. O da məlumdur ki, Cəfər Qaraqoyunluların köməyi ilə bir müddət Şeyx Səfi xanəgahına rəhbərliyi ələ keçirmişdi. Ola bilsin ki, məhz buna görə o, nəsil şəcərəsindəki ümumi sıralanmada yer almışdı (180).

Bu şəcərənamənin mətnini tam aydınlıqla oxumaq mümkün deyildir. Bununla belə, lazımi qənaətlərin və məlumatların əldə edilməsi üçün oxunan məqamlar da az deyil. Mətndə müəllifin ayrı-ayrı qeydləri ilə də rastlaşmaq mümkündür. Məsələn, mətnin daxilində bir yerdə ərəb dilində belə yazılıb ki, bu şəcərə müxtəlif yerlərdən tapılmışdır. Mətnin bir neçə yerində “həqiqət” sözünün yazılışını da görmək mümkündür ki, bu da tərtib edilmiş şəcərənin etibarlılığına müəllifin özünün münasibətidir. Qeyd edildiyi kimi, bu şəcərə yuxarıdan aşağı bir xətt üzrə gəlir və

Şeyx İbrahimdən sonra bu şəcərə xətti iki qola ayrılır. Əgər Şeyx Heydər və Şeyx Cüneyd Səfəvilər şəcərənamsənin əsas bəndləri sayılarsa onda bu şəcərənamə aşağıdan yuxarı belə sıralanmışdır: Şeyx Heydər ibn Şeyx Cüneyd ibn Şeyx İbrahim ibn Şeyx Əli ibn Sədrəddin ibn Səfiəddin ibn Cəbrayıl ibn Saleh ibn Qütbəddin ibn Səlahəddin ibn Məhəmməd Hafiz ibn Əvəz ibn Firuzşah ibn Məhəmməd ibn Şərəfşah ibn Məhəmməd ibn Həsən ibn Məhəmməd ibn İbrahim ibn Cəfər ibn Məhəmməd ibn İsmayıl ibn Əhməd ibn Əhməd ibn Əbülhəsən Əhməd əl-Ərabi ibn Qasım əl-Ərabi ibn Həmzə ibn Musa əl-Kazım (181).

Şəcərənamənin ikinci hissəsində isə, qeyd edildiyi kimi, başqasının xətti ilə şəcərənamə davam etdirilmişdir. Bu şəcərənaməyə Şeyx İbrahimin övladlarının adları da artırılmışdır. Başlıcası isə Şeyx Heydərdən sonra Şah İsmayılın adı gəlir. Bu şəcərə xətti Şah İsmayılın oğlu Şah Təhmasiblə sonuclanır. Lakin Şah Təhmasibin adından sonra "ibn" kəlməsi yazılmış və bu sözdən sonra bir xətt yuxarı qaldırılmış və bu xətt Şah Təhmasibin oğlan övladlarının adları ilə tamamlanmışdır. Bu adlar belədir: İmamqulu, İsmayıl, Heydər və Süleyman (182).

Mütəxəssislər və tədqiqatçılar üçün bu şəcərənin tarixi əhəmiyyəti ondadır ki, həmin şəcərə Səfəvi arealından kənarda tərtib olunmuşdu və güman edilir ki, bu şəcərəni tərtib edənin Səfəviliklə hər hansı bir bağlılığı olmamışdır. O da ehtimal edilir ki, bu şəcərənin tərtib edilməsi üçün müxtəlif şəcərə variantlarından istifadə olunmuş və sonda doğru olan tərtib edilmişdir. Şəcərə mətnində həmin şəcərənin müxtəlif yerlərdən toplanması sözlərinin yazılması da tədqiqatçılara görə həmin zaman fərqli şəcərə variantlarından istifadə edilməsinə bir işarədir. Bu şəcərə ilə "Səfvətüs-səfa" əsərinin tənqidi mətnində mövcud olan şəcərə arasında müəyyən fərqlilik vardır. Həmin fərqlilik, əsasən, Firuzşahdan yuxarı olan şəcərə bəndlərindədir. Belə fərqliliyi elə "Səfvətüs-səfa"nın müxtəlif əlyazmalarında da görmək mümkündür. Diqqəti cəlb edən məsələ isə Nəcəf şəcərənaməsinin imam Musa əl-Kazım, onun oğlu Həmzə və onun oğlu Qasıma

bağlanmasıdır. Bununla da mütəxəssislər Şeyx Səfiəddin şəcərəsinin seyidliyə bağlılığına şübhə etmirlər.

Tədqiqatçıların fikrincə, Səfəvi dövlətinin qurulmasından əvvəlki dövrə aid olan tarixi sənədlər vardır ki, onlarda da səfəvilərin seyidliyi qeyd olunur. İstinad olunan belə sənədlərin bəziləri qonşu dövlətlərin hakimlərinə aiddirlər ki, bu dövlətlərin hakimləri heç də həmişə səfəvilərə yaxın münasibətdə olmurdular. Yəni bu sənədlərin səfəvilərə rəğbətli olmayan hakimlərə məxsus olması səfəvilərin seyidliyinə tərəfsiz münasibət kimi qəbul olunmaqdadır. Belə sənədlərdən biri Şirvanşah Xəlilullaha aid edilən məktubdur. Şeyx (Sultan) Cüneydə ünvanlanış həmin məktubda Cüneyd və onun nəsli seyid kimi xatırlanmışdır. Osmanlı sultanı II Bəyazidin məktublarının birində də Şeyx Heydəri seyid kimi tanımağını qeyd etmişdi. II Bəyazidin Şah İsmayıla məktubunda da Şah İsmayılın seyid kimi xatırlanmasına rast gəlmək mümkündür. Tarixdən məlumdur ki, Anadolu ərazisində çoxlu sayda Səfəvi təriqət əhli yaşayırdı və onlar tez-tez Ərdəbildəki Səfəvi xanəgahının ziyarətinə gəlirdilər. Səfəvi sehrinə düşənlərin sonradan Osmanlı hakimiyyətinə müxalif ola biləcəklərindən sultan II Bəyazidin göstərişi ilə bir müddət onların Ərdəbilə səfəri yasaqlandı. Şah İsmayıl bu yasaqın aradan qaldırılması üçün II Bəyazidə məktub yazdı. II Bəyazid də cavab məktubunda həm zəvvarların Ərdəbil səfərinə yasağın aradan qaldırıldığını bildirdi, həm də Şah İsmayılı seyid nəslinə mənsub bir hökmdar kimi yad etdi (183).

Bütün bunlara baxmayaraq, Şeyx Səfiəddinin nəsil şəcərəsinin seyidliyə bağlı olub-olamaması hələ də səfəvişünaslıqda müzakirə mövzusu olaraq qalmaqdadır və görünür hələ uzun müddət də bu sahədəki tədqiqatlar davam edəcəkdir. Eyni zamanda Şeyx Səfiəddinin məzhəb mənsubluğu ətrafında da elmi mübahisələr hələ də öz həllini bütünlüklə tapmamışdır. Şeyx Səfiəddinin şiə məzhəbinə mənsubluğunun tarixin sonrakı dövrlərində araşdırma mövzusu olduğunu yazmaqla Şeyx Səfiəddinin müasiri olmuş Həmdulla Müstövfi Qəzvininin yazdığına istinad etmişdi. Yuxarıda qeyd edildiyi kimi, Həmdulla Qəzvini əsər-

lərinin birində Şeyx Səfiəddinin yaşadığı dövrdə Ərdəbil əhalisinin əksəriyyətinin şafiə məzhəbinə mənsub olmaqla Şeyx Səfiəddinin müridləri olmasını bildirirdi. Göründüyü kimi, bu fikirdə həm Şeyx Səfiəddinin sünni olması və həm də onun dövründə Ərdəbil əhalisinin əksəriyyətinin sünni olması üçün kifayət qədər güclü dəlil vardır. Nəzərə alınsa ki, Həmdulla Qəzvini dövrün müasirlərindəndir, onda onun verdiyi məlumatın ciddiliyinə də şübhə yeri qalmır. Bununla belə, Şeyx Səfiəddinin sünni məzhəbinə mənsubluğunu qəbul etməyən tədqiqatçılar Həmdulla Qəzvininin bu fikirlərinin doğruluğunu da şübhə altına alırlar.

Həmdulla Müstövfi Qəzvini dövrünün tanınmış adamlarından biri idi. O həm Qazan xanın, həm də ondan sonra Məhəmməd Xüdabəndə Ulcaytunun hakimiyyəti illərində Azərbaycanın bir sıra şəhərlərində, o cümlədən Qəzvin, Zəncan, Əbhər və digərlərində hakimlik etmişdi. Bundan başqa o, müstövfi, yəni şəhərlərin gəlir-çıxarlarının, vergilərinin mühasibatı işləri ilə də məşğul olmuş və bu işi ilə bağlı istər Azərbaycanın şəhərlərini, istərsə də İran arealında olan şəhərləri gəzmişdi. Yəni bölgənin şəhərləri haqqında onun kifayət qədər məlumatları var idi və bu məlumatları əsasən, öz müşahidələri əsasında əldə etmişdi. Güman edilir ki, onun Ərdəbil əhalisi və o cümlədən Şeyx Səfiəddin haqqında yazdıqları da şəxsi müşahidələrindən qaynaqlanıb. Lakin Şeyx Səfiəddinin sünniliyi ilə razılaşmayanlar Həmdulla Qəzvininin həm Ərdəbildə olmasını, həm də Ərdəbil barədə yazdıqlarının onun öz şəxsi müşahidəsi olmasını şübhə altına alırlar. İddia olunur ki, Həmdulla Qəzvini Ərdəbilə getməyə də bilərdi. Və ya ola bilsin ki, Həmdulla Qəzvini Ərdəbil haqqında başqa müəlliflərin əsərləriəsasında yazmışdır. Yəni mümkündür ki, onun istinad etdiyi mənbələrdə Ərdəbil əhalisinin məzhəb mənsubiyyəti haqqında doğru məlumat olmayıb və Həmdulla Qəzvini də bu məlumatları təkrarlayıbdır (184). Lakin bu fikrin təsdiqi üçün tədqiqatçılar tərəfindən ciddi bir arqument ortaya qoyulmur. Ümumiyyətlə, Qəzvin, Zəncan, Əbhər kimi şəhərlərin hakimi olan Həmdulla Qəzvininin bu şəhərlər üçbucağında yerləşən

Ərdəbildə olmaması və ya Ərdəbil haqqında məlumatsız olması heç də inandırıcı səslənmir. Çox güman ki, Həmdulla Qəzvininin hakim olduğu şəhərlərdə də məzhəb mənsubluğu baxımından oxşar vəziyyət mövcud idi. Çünki bölgə şəhərlərinin istimai-siyasi-dini həyat tərzi eyni siyasi və dini mühit tərəfindən formalaşdırılırdı və Həmdulla Qəzvini kimi bir adam da elə bu mühitin yetirməsi idi.

Bəzi tədqiqatçılar bu fikrin davamı kimi, iddia edirlər ki, Həmdulla Qəzvini Təbrizdə olmuş, amma Ərdəbildə olmamışdır. Çünki o öz əsərində Təbriz haqqında xeyli geniş və müfəssəl yazmışdır. Ərdəbil haqqında yazılanlar isə çox-çox müxtəsərdir. İrəli sürülən fikir bundan ibarətdir ki, Həmdulla Qəzvini Təbrizi gördüyü üçün bu şəhər haqqında təfsilatı ilə yazmışdır. O, Ərdəbildə olmaduğundan bu şəhər haqqında müxtəsər məlumatla kifayətlənmişdir (185).

Amma bu iddia da məntiqli görünmür. Təbriz haqqında müfəssəl məlumat verilməsinin səbəblərindən biri bu idi ki, bunun üçün mövzu var idi. Şəhərdə gördükləri və eşitdikləri Həmdulla Qəzviniyə bu şəhər haqqında daha geniş yazmaq ilhamı vermişdi. Ərdəbil haqqında müxtəsər yazılsa da, həmin yazıda konkret faktlar vardır ki, yəqin ki, Həmdulla Qəzvini onları görmüş və ya müşahidə etmişdi. İstənilən halda, Ərdəbil öz ətrafında yerləşdiyi şəhərlərdən öz dini mühitinə görə kəskin şəkildə fərqlənə bilməzdi və ya bu şəhərdəki dini mühitdən xəbərdar olmaq üçün mütləq bu şəhərə getməyə ehtiyac olmazdı. Həmdulla Qəzvininin Ərdəbildə olmamasını ehtimal üzərində qurmaqla onun yazdıqlarının şübhə altına alınması da yəqin ki, məntiqi nəticəyə doğru yol aça bilməz.

Şeyx Səfi türbəsi haqqında qeydlər etməməsini də bəzi tədqiqatçılar Həmdulla Qəzvininin Ərdəbildə olmamasına bir əsas kimi irəli sürürlər. Həmdulla Qəzvini hələ Şeyx Səfiəddinin sağlığında yazdığı əsərlərində bu insanı son dərəcə nüfuzlu, monqol hakimləri yanında ehtiram sahibi olması və onun xahişləri əsasında monqol hakimlərinin də yerli əhaliyə hörmətlə yanaşması haqqında qeydlər etmişdi. Ona görə belə bir iddia irəli

sürülür ki, Şeyx Səfiəddinə belə böyük ehtiram bəsləyən Həmdulla Qəzvini Ərdəbildə olsaydı, mütləq Şeyx Səfi türbəsi haqqında da yazmış olardı. Həmdulla Qəzvininin Ərdəbil haqqında verdiyi məlumatın düzgün olmamasının əsaslandırılması üçün bəzi tədqiqatçılar bu şəhərin Təbrizlə müqayisəsini də aparırlar. Bununla, adı çəkilən müəllifin verdiyi məlumata əsasən, Təbriz kimi Ərdəbildə də şafiə məzhəbindən başqa digər məzhəblərin, o cümlədən şiə məzhəbinin olmasını istisna etmirlər. Təbriz əhalisinin məzhəb mənsubluğu haqqında da H.Qəzvini yazırdı ki, onların əksəriyyəti şafiyə məzhəbinə mənsubdurlar. Amma şəhərdə başqa dinlərə və məzhəblərə mənsub olanlar da vardır. Bu məlumata istinad etməklə bəzi tədqiqatçılar bildirirlər ki, Ərdəbildə də başqa məzhəblərə mənsub olanlar var idi. Ona görə Şeyx Səfiəddin də şiə məzhəbinə mənsub ola bilərdi (186). Sözsüz ki, belə bir ehtimalı etmək olardı. Amma bu ehtimal çox böyük bir bölgənin ictimai-dini həyatına həlledici təsir göstərən Şeyx Səfiəddin kimi nüfuzlu bir təriqət rəhbəri haqqında Həmdulla Qəzvininin az məlumatlı olmasına güclü əsas deyil.

Yuxarıda qeyd edildiyi kimi, "Səfvətüs-səfa" əsərinin əlyazmalarının bir qismində Şeyx Səfiəddinin şiə məzhəbinə mənsubluğu təsdiqlənirsə, bir qismində isə onun sünni məzhəbinə mənsubluğu haqqında məlumat verilmişdir. Q.Təbatəbayi tərəfindən adı çəkilən əsərin 9 əlyazma nüsxəsi əsasında tərtib edilmiş tənqidi mətndə də Şeyx Səfiəddinin sünni məzhəbinə mənsubluğundan xəbər verilmişdir. Doğrudur, bəzi tədqiqatçılar bu məzmunlu məlumatların doğruluğunu da şübhə altına alırlar. Elə əlyazma nüsxələri də vardır ki, onlarda Şeyx Səfiəddinin şiə məzhəbinə mənsubluğunu görmək mümkündür. Məsələn, yuxarıda qeyd edildiyi kimi, "Səfvətüs-səfa" əsərinin Məşhəddəki İmam Rza kitabxanasındakı, Britanya muzeyindəki, Təbriz universitetinin Ədəbiyyat fakültəsinin kitabxanasındakı nüsxələrdə belə məlumatı müşahidə etmək mümkündür.

Məlum olduğu kimi, sünniliyə mənsubluğu ilə bağlı bəzi nüsxələrdə Şeyx Səfiəddinin adından onun əəmə məzhəbinə mənsub olduğu, bəzi nüsxələrdə isə səhabənin məzhəbinə mən-

sub olması bildirilmişdir. Əamə məzəbi dedikdə sünniliyə aid olan hənbəli, hənəfi, maliki və şafiə məzhəbləri nəzərdə tutulmuşdur. Səhabə məzhəbi dedikdə isə islam xəlifələrinin mənsub olduğu məzhəb nəzərdə tutulmuşdur. Bəzi tədqiqatçılar bu fikirlərin hər ikisinə qarşı çıxırlar və bildirirlər ki, Şeyx Səfiəddin o zaman şiə məzhəbinə mənsub olmuş və şiəliyin təqib edildiyi üçün bu məzhəbə mənsubluğunu gizlətmiş və əamə məzhəbinə mənsub olduğunu bildirmişdi. Səhabə məzhəbinə gəlincə Şeyx Səfiəddin tərəfindən imam Əlinin digər islam xəlifələri ilə bir sıraya qoyulması mümkünsüz sayılır (187).

Amma söylənilən bu arqumentlərin ciddi qəbul edilməsinə də ehtiyatla yanaşılmasına bir ehtiyac vardır. Burada da əsaslı bir arqument ortaya qoyulmamışdır. Şeyx Səfiəddinin həyatı ilə az-çox tanışlıq onu deməyə əsas verir ki, həyatını Tanrı sevgisinə, Tanrıya qovuşmağa bağlayan və bu etiqadı ilə milyonları öz ardınca aparan Şeyx Səfiəddin kimi dərin inanclı bir insanın hansısa təqib qorxusundan öz məzhəbini inkar edəcəyi və ya gizlədəcəyi elə də inandırıcı görünmür. Şiəliyin tarixinin tədqiqi ilə bağlı bəzi araşdırmalarda da təsdiq olunur ki, Şeyx Səfiəddinin zamanında şiəliyin təqibi elə də aktual deyildi. Hətta Hülaki xanı Qazan xan da şiəliyə rəğbətlə yanaşırdı. Ona görə Şeyx Səfiəddinin bir şiə kimi təqiblərə məruz qala bilməsi heç tarix baxımından da təsdiqlənmir. Əqidəsində sabit olmayan belə təriqət rəhbərinin ardınca minlərlə və milyonlarla insan yəqin ki, heç getməzdi də. Belə arqumentlərin ortaya atılması nəyin bahasına olursa-olsun Şeyx Səfiəddinin şiələşdirlməsi cəhdlərinin ortada olması təsəvvürü yaradır. Amma sözsüz ki, Şeyx Səfiəddin islamın bir məzhəbi ilə məhdudlanan bir insan deyildi.

Şeyx Səfiəddinin şiəliyinin təsdiqi və xüsusilə də Ə.Kəsrəvinin Şeyx Səfiəddinin sünni məzhəbində olması barəsində söylədiyi fikirlərin təkzibi üçün bəzi tədqiqatçılar ifrata da varırlar. Yəni heç bir məntiqi qəbul etmirlər və bunun üçün məntiqli bir dəlil də ortaya qoya bilmirlər. Hətta müəyyən məsələlərin qeyri-müsətqim yolla mövzuya istiqamətləndirilməsi ilə də qarşıya qoyulan vəzifənin təsdiqinə cəhd göstərilir. Məsələn, tədqi-

qatçılardan biri bildirir ki, Şeyx Səfiəddin "Qara məcmuə" toplusuna aid olan əsərlərdə "yeddi sifət", "on iki şərt" kimi ifadələr işlədib və burada təriqət müridlərinin və tariblərinin malik olmalı olduğu sifətlərdən söz açıb. Sonra da müəllif əsaslandırmağa çalışır ki, Şeyx Səfiəddinin bəhs etdiyi sifətlər yalnız təriqət əhlü üçün zəruri deyil. Elə imamlar özləri də bu sifətlərin sahibidirlər. Yəni Şeyx Səfiəddinin ideallaşdırmağa çalışdığı sifətlər elə imamlara məxsus olan sifətlərdir. Və ya bildirilir ki, Şeyx Səfiəddin öz fikirlərində xəlifə Əbu Bəkrlə imam Əlinin adını çəkmişdir. Lakin bu zaman Əbu Bəkrin yalnız adı çəkilir, imam Əlinin qarşısında isə onun ləqəbləri sadalanır. Bununla müəllif onu çatdırmaq istəyir ki, Şeyx Səfiəddinin islam xəlifələrindən olan Əbu Bəkrə xüsusi ehtiramı yox idi və ona görə də onun adınını qarşısında hər hansı bir ləqəbi açıqlamırdı. Yəni Şeyx Səfiəddin də şiə əhli kimi Əbu Bəkrə ötəri yanaşır, imam Əliyə isə xüsusi bir ehtiram nümayiş etdirirdi (188).

Əslində, bu fikrə də tənqidi yanaşmaq olar. Məsələn, "Səfvətüs-səfa" əsərinin bir yerində Şeyx Səfiəddin islam xəlifələrinin hər dördünün adını çəkir və heç birinin adının qarşısında hansısa bir ləqəb göstərmir (189). Bu əsərin başqa bir yerində Şeyx Səfiəddin ilk xəlifə olan Əbu Bəkrin adını çəkir və adının sonuna "siddiq" kəlməsi əlavə edir (190). Yəni Şeyx Səfiəddin, ümumən, islamın təhrif olunmamış bütün dəyərlərinə böyük ehtiramla yanaşırdı, onları dərindən öyrənirdi və sonra da onları ətrafındakılara öyrədirdi. Bu mənada Şeyx Səfiəddin mövzusunun onun seyidlik və məzhəb mənsubluğu məsələsinə istiqamətləndirilməsi bu böyük şəxsiyyət haqqında təsəvvürlərin yayılmasına yol aça bilər. Birmənalı şəkildə məlumdur ki, Şeyx Səfiəddini islam və Azərbaycan tarixinin zirvəsinə yüksəldən səbəblər onun seyid olub-olmaması və ya hansı məzhəbə mənsub olması deyildi. Şeyx Səfiəddini qərar tutduğu zirvəyə qaldıran islami biliklərin ən dərin ariflərindən biri olması, bu biliklərə yiyələnməsi üçün nəsillərə nümunə olacaq ardıcıllıq, qətiyyət nümayiş etdirməsi, islami dəyərlərə bir canlanma gətirməsi, bu dəyərlərin yayılmasında və irşadında öz həyatını əsirgəməməsi, milyonlarla

insanı öz bilikləri, inamı və etiqadı ilə Tanrı yolçuluğuna istiqamətləndirməsi, təriqət mərtəbələrinə yüksələrək Tanrının kəraməti lütfinə layiq görülməsi, Azərbaycanın və bölgənin tarixində əvəzolunmaz izlər buraxmış Səfəvilərin əsasını qoyması idi. Şeyx Səfiəddin məzhəb müxtəlifliyindən yuxarıda dayanan, Tanrı sevgisinə qovuşan Tanrı adamı idi. Oğlu Şeyx Sədrəddin də bunu təsdiq edirdi: "Həzrət Şeyxün (q.s.) bütin himməti ilə niyyəti həman Tanrı idi və Tanrınun işi idi və xəlqi Tanrıya oxumaq pişəsi idi və taliblər ilə sufiləri Həqqə yakın edərdi və mütləqa dünyalık malı ilə mənalına baxmaz idi və dünya və dünyayı sevənlərdən müstəğna [kənar] idi" (191).

## 5. Şeyx Səfiəddinin etnik və dil mənsubiyyəti

Şeyx Səfiəddinin həyatı ilə bağlı elmi ədəbiyyatda vaxtaşırı qaldırılan məsələlərdən biri də onun etnik və dil mənsubiyyəti məsələsidir. Bu məsələ ətrafında səfəvişünaslıqda artıq kifayət qədər müzakirələr aparılıb və müvafiq elmi qənaətlər ortaya qoyulubdur. Həmin qənaətlər sözsüz ki, yekdil deyildir. Güman etmək olar ki, bu da Şeyx Səfiəddinin və onun adı ilə bağlı olan sülalənin tarixinə olan marağın bir ifadəsidir. Çünki Şeyx Səfiəddin tərəfindən yaradılan təriqətin uzun illər boyu canlı qalması və sonradan bu təriqətin siyasi-ideoloji məzmun kəsb edərək iki əsrdən artıq mövcud olan bir dövlətin yaranmasına yol açması bəşər tarixinin nadir hadisələrindən idi. Amma o da məlumdur ki, bu tarixin öyrənilməsinə müxtəlif prizmalardan yanaşılır, müxtəlif iddialar və yanaşmalar ortaya qoyulur və sözsüz ki, əldə edilən nəticələr də həmin iddia və yanaşmalardan doğur.

Şeyx Səfiəddinin etnik və dil mənsubiyyətinin vaxtaşırı müzakirə obyektinə çevrilməsi və bu mövzunun bəzən ifrat səviyyəyə qaldırılması da onun şəxsiyyətinə və həyat yoluna olan iddialı yanaşmanın bir nümunəsidir. İrəli sürülən iddiaların "təsdiqlənməsi" üçün müxtəlif arqumentlərə və fərziyyələrə əl atmaqla bir sıra müəlliflər Şeyx Səfiəddini doğulub boya-başa çatdığı, kökləri ilə bağlı olduğu, formalaşdığı və fəaliyyət

göstərdiyi Azərbaycan həyatından qoparmağa cəhd göstərir və bununla da Şeyx Səfiəddinin həyatına bağlanılan təhriflərin qanuniləşdrilməsinə çalışırlar. Çoxları kimi, Şeyx Səfiəddinin də nəsil şəcərəsində digər etnik qrupların izlərinə rast gəlinməsi mümkündür. Onun mürşidi qeyri-türk Şeyx Zahidin qızı Bibi Fatimə ilə həyat qurması və ondan övladları olması buna misal ola bilər. İstər Şeyx Səfiəddinin özündə, istərsə də onun mənsub olduğu türk mühitində bu məsələyə anlaşıqlı bir münasibət var idi. Buna baxmayaraq, bir sıra müəlliflər Şeyx Səfiəddinin və onun nəsil şəcərəsinin kürdləşdirilməsinə xüsusi bir canfəşanlıq göstərirlər. Bu cəhdin təsdiqi kimi istinad olunan mənbə isə yenə də "Səfvətüs-səfa" əsəridir.

"Səfvətüs-səfa" əsərinin bəzi nüsxələrində, o cümlədən də Qulamrza Təbatəbayi tərəfindən tərtib olunmuş tənqidi mətndə Şeyx Səfiəddinin nəsil şəcərəsi sadalanarkən ondan yeddi nəsil əvvələ aid olan ulu babasının adı Piruz (Firuz) əl-Kürdü əl-Səncani kimi göstərilmişdir. Sonra daha bir yerdə bu əsərdə Firuzun kürd olması xatırlanmışdır (192). Bu da bir sıra müəlliflərə əsas vermişdir ki, Şeyx Səfiəddinin bütün nəsli kürdləşdirilsin. Başqa sözlə, Şeyx Səfiəddinin Azərbaycan-türk həyatından qoparılmasına elmi-tarixi don geyindirilsin.

Lakin o da məlumdur ki, "Səfvətüs-səfa" əsərinin heç də bütün nüsxələrində Şeyx Səfiəddinin ulu əcdadı Firuzşahın kürd olması öz ifadəsini tapmamışdır. O cümlədən, bu əsərin mötəbər nüsxələrindən hesab olunan Hindistan və Sankt-Peterburq nüsxələrində buna rast gəlmək mümkün deyil (193). Bu əsərin XVI əsr türk dilinə tərcüməsinin mətnində də Firuzşahın kürd olması xatırlanmamışdır. Həmin mətn belədir: "[Hekayət]. Və cun Seyyid Firuzşahın nisbəti nəsəbun zikrində deyildi, surəti boylə idi kim, ol vəqt kim, bir padşah Sultan İbrahim Ədhəmun fərzəndlərindən Səncar qolundan cıxıb, ləşkəri Adərbaycana cəkdi və ol yerləri qanu musəxxər qıldı və Arran ilə Əlivan və Darbumun sakinləri qamu kafir idilər. Cun islam ləşkəri ol məmləkətləri aldılar, andakılar musəlman olub, dinin ərkanu ədabı təlim aldılar" (194).

Məlumdur ki, “Səfvətüs-səfa” əsəri Şah Təhmasibin sifarişi və nəzarəti altında tərcümə edilmişdi. Şah Təhmasibin göstərişi əsasında bu əsərə müəyyən əlavələr və düzəlişlər də edilmişdi. Əgər Səfəvi nəslinin kürdlüyə bağlılığı qəbul edilmiş bir məsələ olsaydı, yəqin ki, Şah Təhmasib bu məqamın tərcümədə öz əksini tapmasına etiraz etməzdi. Digər tərəfdən, əgər Firuzşahın qanında kürd qanının izləri olsaydı belə, 6-7 nəsildən sonra gələnlərin etnik mənsubiyyətinin kürdlüyə bağlanması yəqin ki, doğru olmazdı.

Ümumiyyətlə, Firuzşahın atası Sultan İbrahim Ədhəmin kürd əsilli olması, onun qoşunla Azərbaycana gəlməsi, Azərbaycanı, Aranı, Muğanı işğal etməsi barəsində “Səfvətüs-səfa” əsərində söylənilənlər dünya alimәri tərəfindən şübhə altına alınmaqdadır. Bildirilir ki, “İbrahim Ədhəm - VIII əsrdə yaşamış, Bəlx hakimləri nəslindən olmuş və Suriyada vəfat etmiş bir ruhanidir. Onun xələflərindən hər hansısa bir hökmdar çıxmamışdır. Buna görə də tədqiqatçılar, guya İbrahim Ədhəmin övladlarından olan bir hökmdarın Azərbaycana yürüş etməsi və Firuzşahı Ərdəbil hakimi təyin etməsi barədə Səfəvi mənbələrində verilmiş məlumatların qeyri-dəqiq olduğunu hesab edirlər” (195).

Azərbaycanın IX əsr tarixinə aid olan ciddi elmi araşdırmalarda da İbrahim Ədhəmin və ya onunla bağlı olan adamların Azərbaycan həyatında hər hansı bir rol oynaması, Aranda və Muğanda islamın IX əsrdə qəbul edilməsi haqqında məlumatlarla rastlaşmaq mümkün deyildir (196). Ümumiyyətlə, Şeyx Səfiəddinin ulu əcdadlarının kənardan gəlməməsi və onların Ərdəbildən olması ilə bağlı aparılan araşdırmalar da (197) bu məsələ ilə bağlı irəli sürülən fikirlərə tənqidi yanaşılmalı olduğunu göstərir.

Səfəvi xanədanının etnik mənsubiyyətinin kürdlüyə bağlanmasının təsdiqi üçün bəzi müəlliflər Əhməd Kəsrəviyə də istinad etmişlər (198). Doğrudan da Ə.Kəsrəvidə də belə bir fikir vardır. Amma o, əsərlərinin birində isə Şeyx Səfinin və onun əcdadlarının Ərdəbildən olmasını və onların dilinin də Azərbaycan dili olmasını birmənalı şəkildə təsdiq etmişdir (199).

Ümumiyyətlə, Şeyx Səfiəddinin Azərbaycan türkü olması elə “Səfvətüs-səfa” əsərində də öz ifadəsini tapmışdır. Əgər onun nəslinin kürdlüyə bağlanması haqqında “Səfvətüs-səfa” əsərinin yalnız ayrı-ayrı nüsxələrində rast gəlmək mümkündürsə, Azərbaycan türklüyünə mənsubluğu haqqındakı fikirlərlə bütün nüsxələrdə rastlaşmaq mümkündür. Yəni bu məsələ adı çəkilən əsərin surətlərinin köçürüldüyü dövrlərdə mübahisə mövzusu olmamışdı.

“Səfvətus-səfa” əsərinin muxtəlif yerlərində Şeyx Səfiəddin “Piri turk” kimi xatırlanmışdır. Şeyx Səfi oz elmi biliklərini genişləndirmək ucun Şirazda olarkən bu şəhərdə yaşayan məşhur din xadimi və irfan sahibi Əmir Abdulla da Şeyx Səfiyə belə muraciət etdi: " Ey gənc türk! Mucahidlik, zahidlik və yüksək əhvali-ruhiyyə sayəsində sənin ucun hasil olan [şeylər] mənim bəsirət gozumə catmayıb. Sənin qarşında böyuk bir alış-veriş durur..." (200). Dövrün böyük arifinin Şirazda Şeyx Səfiyə "türk" deyə muraciət etməsi də onun bir türk kimi tanınmasının təsdiqi idi.

Səfəvi xanədanının qeyri-azərbaycanlı mənşəyinə mənsubluğun iddia edilməsi turkdilli elmi-tarixi ədəbiyyatda da geniş müzakirə olunan movzulardan birinə cevrilmişdir. Bəzi muəlliflər, o cumlədən Səfəvi tarixi ilə bağlı araşdırmalar aparmış Faruq Sümər ciddi-cəhdlə səfəvilərin şəcərəsinin kürdlərə bağlanması zəruriliyi uzərində təkid edir və bununla bağlı Ə.Kəsrəvinin fikirlərini əsas tutur: "Bu xanədanın Sincardan Firuzşah adlı bir kürdə bağlanması şəksiz qəbul olunmalıdır" (201).

Faruq Sümər o muəlliflərdəndir ki, o da qətiyyətlə Şeyx Səfiəddinin nəsil şəcərəsini və dovlətinin mənşəyini Azərbaycan həyatından qoparmağa calışmış və bu istəyini əsaslandırmaq üćün muxtəlif faktları da oz istəyinə əsasən şərh etmişdir. Amma onun bu qeyri-elmi mövqeyi hec Türkiyə elmi və ictimai fikrində birmənalı şəkildə qəbul olunmur. Bəzi müəlliflərin fikrincə, sunnilikdən kənar olan islami dəyərləri rədd edən Faruq Sümərin bu fikri ciddi qəbul edilməməlidir (202). Əslində, Faruq Sümər də öz

iddiasını əsaslandırmaq ucun mötəbər faktları ortaya qoya bilməmişdir.

Şeyx Səfiəddinin Azərbaycan həyatından qoparılması üçün müxtəlif tədqiqatçılar tərəfindən başqa konsepsiyalara da əl atılmışdır. Bu konsepsiyalar içərisində Əhməd Kəsrəvinin "Azəri dili" konsepsiyası öz ətrafına daha çox tərəfdar toplaya bilmişdir. Həmin konsepsiyanın da mahiyyəti azəri dilinin fars dilləri qrupuna daxil olmasını "əsaslandırmaqla" Şeyx Səfiəddinin ana dilinin Azərbaycan türkçəsi olmaması və bununla onun etnik mənsubiyyətinin türk olmamasına elmi don geyindirməkdir. Qeyd etmək lazımdır ki, Ə.Kəsrəvi bu konsepsiyasını irəli sürməklə onun mənsub olduğu dilin və millətin tarixinə qərəzli münasibət bəsləyən topluma çox böyük elmi "xidmət" göstərməli olmuş və hətta Ə.Kəsrəvinin bu qeyri-elmi konsepsiyası tarixi bir kəşf kimi dəyərləndirilmişdir. Həmin konsepsiyaya belə səxavətlə yanaşan müəllif göstərirdi ki, Ə.Kəsrəvi öz tarixi kəşfi ilə zülmət pərdəsini və Azərbaycan xalqının dilinin keçmişi haqqındakı məlumatsızlığı parçaladı və öz elmi kəşfi ilə alimlərin, ədəb və mədəniyyət əhlinin, vətən aşiqlərinin gözlərini açdı. Bu mövzuya toxunan müəllif Ə.Kəsrəvinin Azərbaycan dili haqqındakı konsepsiyasını İran tarixi üçün madalıların, əhəmənilərin tarixinin kəşfi qədər qiymətli bir kəşf adlandırır və bildirir ki, bu kəşf bir sıra alimləri və müəllifləri son dərəcə ilhamlandırmış və onlar da Ə.Kəsrəvinin bu kəşfini öz əsərləri ilə daha da zənginləşdirmişlər (203).

Şeyx Səfiəddini Azərbaycan həyatından qoparmağa çalışanların xüsusi sevincinə və razılığına səbəb olan bu "kəşfin" mahiyyəti isə ondan ibarət idi ki, Ə.Kəsrəvi azəri dilini (yəni Azərbaycan əhalisinin dilini) fars dilinin ləhcələrindən biri kimi təqdim edirdi. Onun konsepsiyasına görə, Azərbaycan əhalisinin dili heç də türk dili olmamışdı. Azərbaycan əhalisi milli mənsubiyyətlərinə uyğun olaraq fars dilinin ləhcələrindən biri olan azəri dilində danışmış və yalnız sonralar bu dili türk dili əvəz etmişdi. Ə.Kəsrəvi iddia edirdi ki, hicri VI əsrə (miladi XII əsr) qədər Azərbaycan əhalisi ariyanlara və ya iranlılara, onların dili isə ari

dilinə mənsub olmuşdur. Yalnız səlcuqların bölgəyə axınından sonra Azərbaycan türkləşməyə başlamışdı. Onun fikrincə, həmin vaxta qədər Azərbaycan ərazisində türklər olmamış və ya əgər olmuşdularsa da, onlar ayrı-ayrı dəstələrdən ibarət idilər. Müəyyən vaxtdan sonra isə onlar da yox olmuşdular (204).

Burada xüsusi maraq kəsb edəcək məqamlardan biri budur ki, Ə.Kəsrəvinin öz qeyri-elmi konsepsiyasını sübut etməyə çalışdığı vasitələrdən biri də Şeyx Səfiəddinin yaradıcılığıdır. Onun gümanınca, Şeyx Səfiəddinin gilək dilində yazmış olduğu şeir parçaları məhz azəri dilində idi. Yəni Şeyx Səfiəddin də etnik mənsubiyyətcə farslara bağlı olan azərilərdən idi və onun ana dili də azəri dili idi.

Qeyd etmək lazımdır ki, Ə.Kəsrəvinin bu konsepsiyasının qeyri-elmiliyi istər farsdilli, istərsə də Azərbaycan dilli tədqiqatçılar tərəfindən geniş təhlil edilmiş və onun əsassızlığı ortaya qoyulmuşdur (205). Bu əsassız konsepsiya ilə bağlı farsdilli tədqiqatçılar arasında Hüseyn Məmmədzadə Sədiqin və Həsən Rəşidinin məntiqli tədqiqatları səfəvişünaslıq üçün böyük elmi əhəmiyyət kəsb edir.

Mövcud olan bir məlumata görə, Ə.Kəsrəvinin Azərbaycan dilinin və tarixinin təhrifinə yönəldilmiş olan əsəri ("Azəri ya zəban-e bastan-e Azərbaycan" – "Azəri və ya qədim Azərbaycanın dili") xüsusi sifarişlə yazılmış bir əsərdir. Bildirilir ki, Ə.Kəsrəvi Xuzistana səfəri zamanı ingilis konsulluğu ilə yaxın əlaqələrdə olan Xan Bahadur adlı birisi ilə tanış olmuş və o da Ə.Kəsrəviyə azəri dili ilə bağlı bir əsər yazmağı sifariş etmişdi. Bu əsər başa çatdıqdan sonra o, sifarişçilərə təqdim olunmuş və sifarişçilər də Ə.Kəsrəvinin azəri dili haqqında irəli sürdüyü konsepsiyadan o qədər xoşlanmışdılar ki, bu barədə "Times" qəzetində də ilkin məlumat vermişdilər (206).

Bunu, əslində, Ə.Kəsrəvi özü də etiraf edirdi. O, adı çəkilən əsərinin müqəddəməsində yazırdı ki, Azərbaycan hər zaman kiçik istisnalar olmaqla İranın tərkib hissəsi olmuşdur. Buna baxmayaraq Azərbaycanda (Cənubi-M.S.) insanların türk dilində danışması onun üçün bir tapmacaya çevrilmişdi və bunun sə-

bəbini anlaya bilmirdi. Bir müddət İranın vilayətlərində çalışan Ə.Kəsrəvi Xuzistandan Tehrana qayıdandan sonra İran Azərbaycanında yaşayan əhalinin nə üçün türk dilində danışmasının araşdırılması ilə məşğul olmuş və özünün dediyi kimi, nəhayətdə Azərbaycanın necə türkləşməsinin səbəbini tapa bilmişdi. Ə.Kəsrəvinin azəri dilinin tarixi ilə bağlı yazdığı dəftərçə tezliklə onun kimi düşünənlər tərəfindən bir kəşf və tapıntı kimi dəyərləndirilmiş, bu dəftərçə barəsində ingilis dilində çıxan qəzetlərdə məlumatlar verilmiş və sonra da bu dəftərçə Londandakı Asiya Coğrafiya Cəmiyyətinə təqdim olunmuşdu. Azəri dili haqqında ortaya atılan bu yeni konsepsiya adı çəkilən Cəmiyyət tərəfindən də dəstəklənmiş və hətta ingilis dilində çap da edilmişdi. Ə.Kəsrəvinin etiraf etdiyi kimi, bu konsepsiyanın ortaya atılmasından sonra onunla bir sıra Avropa alimləri arasında fikir birliyi yarandı və bunun nəticəsi kimi o, Avropanın və Amerikanın bir sıra elmi cəmiyyətlərinə yol tapdı (207).

Ə.Kəsrəvi iddia edirdi ki, azəri dili haqqındakı dəftərçəsinin ilkin variantını yazdıqdan sonra o, pəvləvi, arami dilini öyrəndi, köhnə əhəməni dili ilə tanışlıq əldə etdi və bunlar da azəri dili ilə bağlı irəli sürdüyü konsepsiyanın doğruluğunu bir daha təsdiq etdi. Guya həmin dilləri öyrənməsi qədim azəri dilinin də həmin dillər ailəsindən olması haqqında əsas verdi. Ə.Kəsrəvinin iddiasına görə, apardığı digər axtarışlar onun konsepsiyasının doğruluğunu təsdiq etdi. Belə ki, onun sözlərinə görə, Xalxal, Gəlinqaya, Zənuz ətrafında qədim azəri dilində danışan kəndlərin olduğu aşkarlandı və bu da Ə.Kəsrəvinin konsepsiyasının doğruluğuna bir sübut oldu (208). Bu iddiadan məntiqi olaraq belə bir qənaət hasil olurdu ki, Şeyx Səfiəddinin ana dilində danışan insanlar hələ də Azərbaycan ərazisində yaşamaqda davam edirdilər.

Azərbaycan (Cənubi) ərazisində qeyri-türk dilində danışan kəndlərin olması Ə.Kəsrəvinin öz konsepsiyasının təsdiqi üçün əsas tutduğu dəlillərdən biri idi. Onun fikrincə, qədim azəri dili tamamilə məhv olmamışdı və bu dilin qalıqlarının mövcudluğu onun konsepsiyasının da canlılığını nümayiş etdirirdi. Məlumata görə, Ə.Kəsrəvi həmin kəndlərə səfər etmiş, bu kəndlərin əhalisi

ilə söhbət etmiş və onların hansı dildə danışdığı ilə maraqlanmışdı. Rastlaşdığı insanların heç biri ona azəri dilində danışdıqlarını bildirməmişdi. Müxtəlif kəndlərin əhalisi herzəndi, talış, tat dilində danışdıqlarını bəyan etsələr də, Ə.Kəsrəvi təkidlə onların qədim azəri dilində danışdıqlarını anlatmağa çalışmışdı. Azərbaycan arealında olan bu kəndlərdə yerli əhalinin danışdığı dillər bir-birindən kəskin şəkildə fərqlənsə də, bu dillərdə danışanlar bir-birlərini başa düşməsələr də Ə.Kəsrəvi israrla onların qədim azəri dilində danışdıqlarını bildirirdi. Baxmayaraq ki, belə kəndlər Azərbaycan arealında barmaqla sayılacaq qədər az idilər. Bununla belə, Ə.Kəsrəvi məhz bu kəndlərin mövcudluğuna istinad edərək Azərbaycanın əsas dilinin də həmin kəndlərdə danışılan dil olmasını irəli sürürdü. Mütəxəsislər haqlı olaraq bildirirdilər ki, hazırkı İranın elə bir vilayəti yoxdur ki, orada Azərbaycan türkcəsində danışan çoxlu sayda kəndlər olmasın və bu fikrin təsdiqi kimi, farsdilli tədqiqatçılar tərəfindən İranın etnik coğrafiyasının məlumatlarına da istinad olunurdu. Yəni İranın müxtəlif vilayətlərində çoxlu sayda Azərbaycan türkcəsində danışan kəndlər olsa da, həmin vilayətlərin yerli dili heç də Azərbaycan türkcəsi sayılmırdı. Ona görə Ə.Kəsrəvinin bir neçə qeyri-türk kəndinin olmasına görə Azərbaycanın yerli dilinin qeyri-türk dili olması haqqındakı iddiası mənasız və cəfəng bir fikir kimi qəbul olunurdu (209).

Ə.Kəsrəvi sonra qeyri-elmi və qeyri-məntiqi konsepsiyasının əsaslandırılması üçün adı çəkilən əsərində başqa vasitələrə də əl atmışdır. O bildirirdi ki, Azərbaycan ərazisində çoxlu sayda coğrafi adlar vardır ki, müasir dildə onların mənasını anlamaq çətindir. Bir sıra məkan adlarını sadaladıqdan sonra Ə.Kəsrəvi belə bir qənaətə gəlirdi ki, həmin adlar məhz qədim azəri dilindədir. Sonra da Ə.Kəsrəvi qədim müəlliflərin Azərbaycanla, azəri dili ilə bağlı fikirlərini iqtibas edir və həmin iqtibasları da azəri dilinin mövcudluğuna bir dəlil kimi irəli sürürdü (210).

Oxşar fikirləri azəri dilinin varlığını hər vasitə ilə sübut etməyə və onu Azərbaycan əhalisinin əsas dili olmasını sübut etməyə çalışan digər müəlliflər də təkrar etmişlər. Bu mövzu kifa-

yət qədər böyük bir mövzudur və azri dili konsepsiyası ilə bağlı irəli sürülən saxtakarlıqların təhlili böyük bir tədqiqatın mövzusu ola bilər. Hazırkı tədqiqatın mövzusu çərçivəsində onu demək olar ki, Azərbaycanın dilinin türk dili olmasını qəbul etmək istəməyənlər Azərbaycan ərazisində bu dilin yayılmasını miladın XI əsrindən sonra həm səlcuqların, həm də sonradan monqolların Azərbaycana gəlməsi ilə bağlamağa çalışmışlar.

Müxtəlif Şərq müəlliflərinin əsərlərində Azərbaycan sözünün və ya azəri sözünün işlədilməsini azəri dili konsepsiyasının əsaslandırılması dəllilləri kimi irəli sürən müəlliflərin saxta fikirlərinə bu mövzunun tanınmış tədqiqatçılarından biri olan doktor Hüseyn Məhəmmədzadə Siddiq tərəfindən ətraflı və elmi cavab verilmişdir. O, sözlərin və ifadələrin müqayisəli təhlilini aparmaqla azəri dili ifadəsinin məhz Azərbaycan türkcəsinə işarə olduğunu və Azərbaycan əhalisinin əsas dilinin də məhz Azərbaycan türkcəsi olduğunu əsaslandırırdı. Onun tədqiqatlarında azəri dili konsepsiyasının elmiliyə hər hansı bir bağlılığının olmadığı açıq və konkret nümunələrlə ortaya qoyulmuşdur. Əslində, irəli sürdüyü konsepsiyanın ciddi köklərə malik olmadığını Ə.Kəsrəvi özü də etiraf edirdi. Bütün cəhdlərinə baxmayaraq, o, pəhləvi dilinin ləhcəsi kimi təqdim etdiyi azəri dilinin varlığı ilə bağlı aydın bir sübut ortaya qoya bilməmişdi və bildirirdi ki, azəri dilində hər hansı bir yazılı nümunə mövcud deyil və ya mövcud olmuşdusa da itib-batmışdır (211).

Azəri dili konsepsiyasının əsassızlığını irəli sürən mütəxəssislərin fikrincə, Azərbaycan türkcəsinin Azərbaycan (Cənubi) ərazisinə yayılması fars dilinin bu əraziyə yayılmasından əvvəl baş vermişdi və bu cəhət özü də azəri dilinin fars dilinin bir ləhcəsi olmasının qeyri-məntiqiliyini nümayiş etdirirdi. Bildirilir ki, fars (dəri) dili samanilərin dili kimi əvvəllər Tacikistan və Əfqanıstan ərazisində mövcud olmuş və yalnız sonralar indiki İran ərazisinə yayılmışdı. Mütəxəssislərin fikrincə, Azərbaycan türkcəsinin Azərbaycan ərazisində təxminən 7 min illik bir tarixi var idi və bu dilin kökləri şumer dilinə bağlanılırdı. Şübhə edilmirdi ki, azəri dilinin sonradan zor əsasında türk dili ilə əvəz

edilməsi iddiaları da elmi əsasa malik deyil. Çünki Azərbaycan ərazisində azəri dilində danışanlar çoxluq təşkil edirdisə, sayca az olan türk mühacirlərinin, türk axınının dilini yerli çoxluğa qəbul etdirmək mümkün olmazdı. Bu mənada türk dilinin zorla Azərbaycan əhalisinə qəbul etdirilməsi iddiası da mütəxəssislər tərəfindən qəbul edilmirdi (212).

Qeyd edildiyi kimi, Ə.Kəsrəvi öz tədqiqatlarında Şeyx Səfiəddinə məxsus 17 beytlik gilək dilində olan şer parçalarını da azəri dilinin nümunələri adlandırmışdı. O, Şeyx Səfiəddinin də azəri dilində danışdığını və onun ana dilinin qeyri-türk dili olduğunu iddia edirdi. Onun sözlərinə görə, Şeyx Səfiəddin azəri dilində danışsa da, Şah İsmayıl Səfəvi dövlətini yaradanda Azərbaycanda artıq türk dili özünə yer tapmışdı. Ə.Kəsrəvinin iddiasına görə, Osmanlı qoşunları ilə davamlı döyüşlərin aparılması, Osmanlı qoşunlarının vaxtaşırı Azərbaycan ərazisinə gəlməsi də Azərbaycan ərazisində türk dilinin möhkəmlənməsinə və azəri dilinin sıxışdırılmasına səbəb oldu. Guya azəri dili bu zaman yalnız evlərdə, ailə daxilində istifadə olunurdu. Sonra da Ə.Kəsrəvi bu nəticəyə gəlirdi ki, səlcuqlarla Azərbaycana yol tapan türk dili 7 əsr ərzində Azərbaycanda möhkəmləndi. Ə.Kəsrəviyə görə, oxşar hal Aran ərazisində də baş verdi və azəri dilinin qardaşı olan Aran dili bu yolla öz yerini türk dilinə təhvil verdi. Öz konsepsiyasından danışarkən Ə.Kəsrəvi belə bir fikri də xüsusi məmnunluqla irəli sürürdü ki, məşrutə hərəkatıdan sonra türk dilinin meydanı yenidən sıxışdırılmağa başlandı və Azərbaycan əhalisinin böyük arzularından biri kimi Azərbaycan ərazisində fars dilinin möhkəmlənməsi rəvac tapdı (213).

Şeyx Səfiəddinin azəri dilində yazdığı şeirlər kimi təqdim olunan gilək dilindəki beytlərə gəlincə isə doktor Hüseyin Məhəmməd Siddiq öz tədqiqatında gilək dilinin lüğət ehtiyatına əsaslanmaqla bu beytlərin tərcüməsini və şərhini vermiş və bununla, Ə.Kəsrəvinin azəri dili haqqındakı konsepsiyasının əsassızlığı üçün tutarlı bir dəlil ortaya qoymuşdur (214). Şeyx Səfiəddin məlumdur ki, uzun müddət Gilanda yaşamışdı və Şeyx Zahidin müridi olmuşdu. Şübhə yoxdur ki, Gilanda olduğu za-

man o, gilək dilini də öyrənmişdi. Şeyx Səfiəddinin Azərbaycan türkcəsində də şeirləri vardır. Gilək dili farskökənli dil oduğu üçün onun öyrənilməsi xüsusi bir çətinlik tələb etmirdi. Bu dilin öyrənilməsinin asanlığı Şeyx Səfiəddinə imkan vermişdi ki, həmin dildə də ədəbi nümunələr yaratmağa cəhd göstərsin. Həmin nümunələrdən biri belədir:

Be mən cani bede, ke canvər bövəm
Be mən nitqi bede, ta dəmavər bövəm
Be mən quşi bede ke, şeneva bövəm
Hər an ca vang bu əz an xəbər bövəm (215).

Doktor Nüseyn Məhəmməd Siddiq tərəfindən fars dilinə tərcümə edilmiş bu beytlərin Azərbaycan dilinə tərcüməsi belədir:

Mənə can ver ki, canlı olum
Mənə nitq ver ki, danışan olum
Mənə qulaq ver ki, eşidən olum
Harda səda (əzan səsi) olsa ondan xəbərdar olum.

Şeyx Səfiəddinin gilək dilində şeir yazması onun Gilanda olarkən buranın yerli dilini öyrənməsi ilə bağlıdır. Gilək dili də Gilanda yaşayanların dili idi, Ərdəbildə və Azərbaycanda yaşayanların dili deyildi. Azərbaycanda yaşayanların dili Azərbaycan türkcəsi idi və Şeyx Səfiəddinin yaşadığı dövrdə bu dil ədəbi dil kimi də özünü təsdiqləyə bilmişdi. Şübhə yoxdur ki, Arana, Muğana, Azərbaycanın digər bölgələrinə səfərləri zamanı da Şeyx Səfiəddin yerli əhali ilə gilək dilində yox, fars dilində yox, məhz azəri türkcəsində ünsiyyət qururdu.

## 6. İstifadə olunmuş mənbə və ədəbiyyat


1. Şeyx Səfi təzkirəsi. "Səfvətüs-səfa"nın XVI əsr tərcüməsi. Tərtib edənlər: Möhsün Nağısoylu, Sevər Cabbarlı, Rauf Şeyxzamanov. Bakı, 2006, s. 132, 149, 165
2. Yenə orada, s. 271
3. Mənuçehr Parsadust. Şah İsmayil əvvəl. Tehran, 1375, s. 118
4. Şeyx Səfi təzkirəsi, s.123
5. Yenə orada, s. 123
6. Yenə orada, s. 518
7. Şeyx Hüseyn. Silsilət-ül nəsəb Səfəviye. Berlin, 1343, s.36
8. Şeyx Səfi təzkirəsi, s. 163, 235
9. Yenə orada, s. 163
10. Karadeniz Y. Safevi devletinin kuruluşe meselesi II. Safeviler döneminde tarikat-şeriat mücadilsei, s.34/Journal of Qafqaz University-History? Law and political science
2014, Volume 2, Number 1, Pages 33-36
11. Dinpərəst M. Bərrəsi-ye zəmine və zəmane-ye soltanül arefin Şeyx Səfiəddin Ərdəbili dər qoftequ ba doktor Seyyid Səllman Səfəvi.
12. Ekinçi M. Safeviyye tarikati və türkmenler üzerindeki rolu, s.146/ Sakariya Universitesi yayınları. 1.Baskı, 2010, s.142-174
13. Hüseyni S.Ə. Nəqş-e Şeyx Səfiəddin Ərdəbili dər ru-ye kar amədən-e Səfəviyan.
نقش-شیخ-صفی-الدین-اردبیلی-در-روی-کارآمد
http://sheikh-safialdin.com//
14. Şeyx Səfi təzkirəsi. Bakı, 2006, s.792
15. Yenə orada, s. 792-793
16. Mənuçehr Parsadust. Şah İsmayil əvvəl. Tehran, 1375, s. 121
17. Şeyx Səfi təzkirəsi. Bakı, 2006, s.794
18. Valter Hints. Təşkil-e dövlət-e milli dər İran. Tehran, 1361, s.5
19. Şeyx Hüseyn. Silsilət-ül nəsəb Səfəviye. Berlin, 1343, s. 38
20. Şeyx Səfi təzkirəsi. Bakı, 2006, s.794-795

21. Yenə orada, s. 214, 531, 537, 538
22. Yenə orada, s. 796
23. Yenə orada, s. 798
24. Yenə orada, s. 622
25. Rəhimzadə Səfəvi. Zendeqani-ye Şah İsmayıl Səfəvi. Tehran,1389, s. 102
26. Hüseyni S.Ə. Nəqş-e Şeyx Səfiəddin Ərdəbili dər ru-ye kar amədən-e Səfəviyan.
نقش-شیخ-صفی-الدین-اردبیلی-در-روی-کارآمد
http://sheikh-safialdin.com//
27.Ələvi M.Ə. Ərkan-e təalim-e Səfəvi/Şeyx Səfiəddin Ərdəbili dər aine-ye orfan, honər və siyasət. Məqalələr məcmuəsi, London, 1393, s.221-242
31-2. Dinpərəst M. Bərrəsi-ye zəmine və zəmane-ye soltanül arefin Şeyx Səfiəddin Ərdəbili dər qoftequ ba doktor Seyyid Səllman Səfəvi.
http://iranianstudies.org/fa/بررسی-زمینه-و-زمانه-سلطان-العارفین-شیخ/
28. “Quran”i-Kərimin Azərbaycan dilinə tərcüməsi. Ərəb dilindən tərcümə edənlər Z.Bünyadov və V.Məmmədəli-yevdir. Bakı, 2004, s. 63, 57
29. Karadeniz Y. Safevi devletinin kuruluşe meselesi II. Safeviler döneminde tarikat-şeriat mücadilsei, s.34
30. Əfrasiyabpur Ə.Ə. Təriqət, şəriət və həqiqət əz didqah-e Şeyx Səfiəddin Ərdəbili,
s.275/ Şeyx Səfiəddin Ərdəbili dər aine-ye orfan, honər və siyasət.Məqalələr məcmuəsi, London, 1393, s.267-286
31. Babayev Y. Təriqət ədəbiyyatı: sufizm, hürufizm. Bakı, 2007, s. 33
32. Kaptan R. Dört kapı, kırkmakam.
http://www.alevitentum.de/Insan-i_Kamil_Olmanin_Yolu_Dort_Kapi_Kirk_Makamdan_Gecer.pdf
33. Yenə orada
34. Tatlılıoğlı D. Təsəvvuf ve tarikatlara sosiolojik bir bakış, s.109-110 /Dinbilimleri Akademik Araştırma Dergisi, IX(2009), sayı 1, s.99-128

35. Kaptan R. Dört kapı, kırkmakam.
http://www.alevitentum.de/Insan-i_Kamil_Olmanin_Yolu_Dort_Kapi_Kirk_Makamdan_Gecer.pdf
36. Kaptan R. Dört kapı, kırkmakam.
http://www.alevitentum.de/Insan-i_Kamil_Olmanin_Yolu_Dort_Kapi_Kirk_Makamdan_Gecer.pdf
Tatlılıoğlı D. Təsəvvuf ve tarikatlara sosiolojik bir bakış, s.109-110 /Dinbilimleri Akademik Araştırma Dergisi, IX(2009), sayı 1, s.99-128
37. Kaptan R. Dört kapı, kırkmakam.
http://www.alevitentum.de/Insan-i_Kamil_Olmanin_Yolu_Dort_Kapi_Kirk_Makamdan_Gecer.pdf
38. Rıhtım M. Seyid Yəhya Bakuvi və xəlvətilik. Bakı, 2005, s.129; Kaptan R. Dört kapı, kırkmakam.
http://www.alevitentum.de/Insan-i_Kamil_Olmanin_Yolu_Dort_Kapi_Kirk_Makamdan_Gecer.pdf
39. Ögke A. Türk təsavvuf düşüncesinde şeriat, tarikat, hakikat, marifat kavramları ve
Marmaravide “dört kapı-kırk makam” anlayışının izleri. http://www.hbvdergisi.gazi.edu.tr/index.php/TKHBVD/article/viewFile/417/409
40. Karadeniz Y. Safevi devletinin kuruluşe meselesi II. Safeviler döneminde tarikat-şeriat mücadilsi, s.34-35
Rəcəbi Ə. Təalim-e orfani-ye Şeyx Səfiəddin Ərdəbili və təqabol-e an ba təsəvvof bedun-e şəriət, s.245-246/ Şeyx Səfiəddin Ərdəbili dər aine-ye orfan, honər və siyasət. Məqalələr məcmuəsi, London, 1393, s.243-268
Orfan bedun-e paybəndi be təriqət emkan nədarəd. Şəriət əsas-e soluk-e orfani.
http://www.mokhbernews.ir/Home/ShowNewsInfo/4254557/
عرفان-بدون-پايبندي-به-طريقت-امكان-ندارد-شريعت؛-اساس-سلوک-عرفاني
41. Karadeniz Y. Safevi devletinin kuruluşe meselesi II. Safeviler döneminde tarikat-şeriat mücadilsei, s.35-36
42. Tatlılıoğlı D. Təsəvvuf ve tarikatlara sosiolojik bir bakış, s.109-110 /Dinbilimleri Akademik Araştırma Dergisi, IX(2009), sayı 1, s.99-128

Ələvi M.Ə. Ərkan-e təalim-e Səfəvi/Şeyx Səfiəddin Ərdəbili dər aine-ye orfan, honər və siyasət.Məqalələr məcmuəsi, London, 1393, s.221-242
43. Rıhtım M. Seyid Yəhya Bakuvi və xəlvətilik. Bakı, 2005, s.119
44. Təsəvvüf tarixi. II nəşr. Bakı, 2011, s.127-128
45. Seyid Yəhya əş-Şirvani əl-Bakuvi və Səfa əl Əsrar (sufiliyin sirləri). Nəşrə hazırlayan-Mehmet Rıhtım. Bakı, 2010, s. 273
46. Rıhtım M. Seyid Yəhya Bakuvi və xəlvətilik. Bakı, 2005, s.119
47. Şeyx Səfi təzkirəsi. Bakı, 2006, s.349
48. Yenə orada s.359
49. Seyid Yəhya əş-Şirvani əl-Bakuvi və Səfa əl Əsrar (sufiliyin sirləri). Nəşrə hazırlayan-Mehmet Rıhtım. Bakı, 2010, s. 377
50. Kaptan R. Dört kapı, kırkmakam.
http://www.alevitentum.de/Insan-i_Kamil_Olmanin_Yolu_Dort_Kapi_Kirk_Makamdan_Gecer.pdf
Tatlılıoğlı D. Təsəvvuf ve tarikatlara sosiolojik bir bakış, s.117 ...
51. Seyid Yəhya əş-Şirvani əl-Bakuvi və Səfa əl Əsrar (sufiliyin sirləri). Nəşrə hazırlayan-Mehmet Rıhtım. Bakı, 2010, s. 149
52. Şeyx Səfi təzkirəsi. Bakı, 2006, s.420
53. Seyid Yəhya əş-Şirvani əl-Bakuvi və Səfa əl Əsrar (sufiliyin sirləri). Nəşrə hazırlayan-Mehmet Rıhtım. Bakı, 2010, s. 280
54. Rıhtım M. Seyid Yəhya Bakuvi və xəlvətilik. Bakı, 2005, s.109-110
55. Yenə orada, s. 112
56. Bax: Seyid Yəhya əş-Şirvani əl-Bakuvi və Səfa əl Əsrar (sufiliyin sirləri). Nəşrə hazırlayan-Mehmet Rıhtım. Bakı, 2010, s. 379
57. Yenə orada, s. 259-260

58. Rıhtım M. Seyid Yəhya Bakuvi və xəlvətilik. Bakı, 2005, s.113-114
59. Yenə orada, s. 115
60. Ələvi M.Ə. Ərkan-e təalim-e Səfəvi, s.234/Şeyx Səfiəddin Ərdəbili dər aine-ye orfan, honər və siyasət. Məqalələr məcmuəsi, London, 1393, s.221-242
61. Dinpərəst M. Bərrəsi-ye zəmine və zəmane-ye soltanül arefin Şeyx Səfiəddin Ərdəbili dər qoftequ ba doktor Seyyid Səlman Səfəvi.
http://iranianstudies.org/fa/بررسی-زمینه-و-زمانه-سلطان-العارفین-شیخ/
Ələvi M.Ə. Ərkan-e təalim-e Səfəvi, s.234/Şeyx Səfiəddin Ərdəbili dər aine-ye orfan, honər və siyasət.Məqalələr məcmuəsi, London, 1393, s.221-242
62. Mənuçehr Parsadust. Şah İsmayil əvvəl. Tehran, 1375, s. 120
63. Valter Hints. Təşkil-e dövlət-e milli dər İran. Tehran, 1361, s.11
64. Mənuçehr Parsadust. Şah İsmayil əvvəl. Tehran, 1375, s.120
65.Şeyx Səfi təzkirəsi ("Səffətüs-səfa"nın XVI əsr türk tərcüməsi). Bakı, 2006, s.40
66.Yenə orada, s. 723-724
67. Yenə orada, s. 93
68. Yenə orada, s. 116
69. Yenə orada, s. 97
70. Yenə orada, s. 713
71. Yenə orada, s. 55
72. Yenə orada, s.55-56
73. Yenə orada, s. 56
74. Yenə orada
75. Yenə orada, s. 59
76. Yenə orada, s. 61-62
77. Yenə orada, s. 83
78. Yenə orada, s. 86
79. Yenə orada
80. Yenə orada, s.82-83
81. Yenə orada, s. 86-89

82. Yenə orada, s. 708
83. Yenə orada, s. 708-709
84. Yenə orada, s. 709
85. Yenə orada
86. Yenə orada, s. 710
87. Yenə orada, s. 713
88. Yenə orada, s. 700
89. Yenə orada, s. 690
90. Yenə orada, s. 702
91. Yenə orada, s. 721
92. Yenə orada
93. Yenə orada, s. 712
94. Yenə orada, s. 718
95. Yenə orada, s. 700
96. Yenə orada, s. 711
97. Yenə orada. s. 696
98. Yenə orada, s. 706
99. Yenə orada, s. 705-706
100. Yenə orada, s. 697-698
101 Yenə orada, s. 704
102. Yenə orada, s. 707
103.Şeyx Səfi təzkirəsi ("Səffətüs-səfa"nın XVI əsr türk tərcüməsi). Bakı, 2006, s.220-221
104. Yenə orada, s. 216
105. Yenə orada, s. 221
106. Şeyx Səfi təzkirəsi ("Səffətüs-səfa"nın XVI əsr türk tərcüməsi). Bakı, 2006, s.205-210
107. Yenəorada, s. 217
108. Yenə orada, s. 222-223
109. Yenə orada, s. 235-237
110. Yenə orada, s. 243
111. Yenə orada, s. 247
112. Yenə orada, s. 249-250
113. Yenə orada, s. 254-255
114. Yenə orada, s. 264

115. Yenə orada, s. 267
116. Yenə orada, s. 277
117. Yenə orada, s. 271-272
118. Yenə orada, s. 273
119. Yenə orada, s. 525
120. Yenə orada, s. 526
121. Yenə orada, s. 274
122. Yenə orada, s. 273-274
123. Yenə orada, s. 527
124. Yenə orada, 523-524
125. Yenə orada, s. 534
126. Yenə orada, s. 542-543
127. Yenə orada, s. 575
128. Yenə orada, s. 578-579
129. Yenə orada, s. 548
130. Yenə orada, s. 282
131. Yenə orada, s.283-284
132. Yenə orada, s. 293
133. Yenə orada, s. 285-286
134. Yenə orada, s. 306-307
135. Yenə orada, s. 294
136. Yenə orada, s. 295-296
137. Yenə orada, s. 303-304
138. Yenə orada, s. 298-299
139. Yenə orada, s. 327-329
140. Yenə orada, s. 501-502
141. Yenə orada, s. 507
142. Yenə orada, s.  800-801
143. Yenə orada, s. 804, 805
144.Karadeniz Y. Safevi tarikatının seyidligi ve şiiligi meselesi, s. 16/ Türk kültürü ve Hacı Bektaş Veli araştırma dergisi, 2015, N-75, s.15-28
145. Kəsərvi Ə. Şeyx Səfi və təbarəş. Tehran, 2535, s. 3

146. Səfəvi S.S. Səyyadat şeyxül arifin Seyid Səfiəddin Ərdəbili, s.70/Şeyx Səfiəddin Ərdəbili də ayine-ye orfan, honər və siyasət. Məqalələr toplusu, London, 1393, s. 63-85
147. Kəsərvi Ə. Şeyx Səfi və təbarəş. Tehran, 2535, s. 37-38
148. Karadeniz Y. Safevi tarikatının seyidligi ve şiiligi meselesi, s. 18
149. Yenə orada
150. İbn Bəzzaz Ərdəbili. Səfvətüs-səfa. Tehran, 1373, s. 71
151. Şeyx Səfi təzkirəsi ("Səffətüs-səfa"nın XVI əsr türk tərcüməsi). Bakı, 2006, s. 45
152. Kəsərvi Ə. Şeyx Səfi və təbarəş, s. 25
153. Şeyx Səfi təzkirəsi, s. 45-46; Kəsərvi Ə. Şeyx Səfi və təbarəş, s. 26-27
154. İbn Bəzzaz Ərdəbili. Səfvətüs-səfa. Tehran, 1373, s. 71
155. Şeyx Səfi təzkirəsi, s. 46-47; Kəsərvi Ə. Şeyx Səfi və təbarəş, s. 27-28
156. Kəsərvi Ə. Şeyx Səfi və təbarəş. Tehran, 2535, s. 33; Karadeniz Y. Safevi tarikatının seyidligi ve şiiligi meselesi, s. 19
157. Kəsərvi Ə. Şeyx Səfi və təbarəş, s. 29-32
158. Yenə orada, s. 34-35
159. Yenə orada, s. 44-45
160. Heydəri Ə. Cədd-e bozorg-e padşahan-e Səfəvi (nəğd-e nəzə-riyyat-e Əhməd Kəsrəvi). http://rasekhoon/net/article/show/1067663
161. Şeyx Səfi təzkirəsi, s. 687
162. İbn Bəzzaz Ərdəbili. Səfvətüs-səfa. Tehran, 1373, s. 886
163. Heydəri Ə. Cədd-e bozorg-e padşahan-e Səfəvi (nəğd-e nəzəriyyat-e Əhməd Kəsrəvi). http://rasekhoon/net/article/show/1067663
164. İbn Bəzzaz Ərdəbili. Səfvətüs-səfa. Tehran, 1373, s. 886
165. Kəsərvi Ə. Şeyx Səfi və təbarəş, s.15
166. Şeyx Səfi təzkirəsi, s. 811

167. Heydəri Ə., Baqeri Bidəhəndi N. Naqahi be mövzu-e səyyadat-e Şeyx Səfiəddin Ərdəbili, s.59/Tarix dər ayine-ye pəjuheş. Sal-e həştom, N-2, s.59-82
168. Karadeniz Y. Safevi tarikatının seyidligi ve şiiligi meselesi, s. 20
169. Yusifi H., Nistani C., Musəvi Kuhpər S., Hejbəri Nobəri Ə. Təhlili bər səyyadat-e səfəviyan dər dövre-ye piş-e səfəviyan bər əsas-e sənədi noyafte-ye bastanşenasi dər məcmue-ye xaneqahi və aramqahi Şeyx Səfiəddin Ərdəbili, s. 197/ Pejuheş-ha-ye bastanşenasi-ye İran, 1394, N- 8, 191-207
170. Heydəri Ə., Baqeri Bidəhəndi N. Naqahi be mövzu-e səyyadat-e Şeyx Səfiəddin Ərdəbili, s.61-62
171. Yenə orada, s. 62-63
172. Yenə orada, s. 64
173. Yenə orada, s. 65
174. Asemi T. Səyyadat və təşəyyo-e Şeyx Səfiəddin Ərdəbili, s.111 / Şeyx Səfiəddin Ərdəbili də ayine-ye orfan, honər və siyasət. Məqalələr toplusu, London, 1393, s.105-115
175. Heydəri Ə. Cədd-e bozorg-e padşahan-e Səfəvi (nəğd-e nəzəriyyat-e Əhməd Kəsrəvi).
http://rasekhoon/net/article/show/1067663
176. Yusifi H., Nistani C., Musəvi Kuhpər S., Hejbəri Nobəri Ə. Təhlili bər səyyadat-e səfəviyan dər dövre-ye piş-e səfəviyan bər əsas-e sənədi noyafte-ye bastanşenasi dər məcmue-ye xaneqahi və aramqahi Şeyx Səfiəddin Ərdəbili, s. 198-199
Səfəvi S.S. Səyyadat şeyxül arifin Seyid Səfiəddin Ərdəbili, s.74-75
177. Səfəvi S.S. Səyyadat şeyxül arifin Seyid Səfiəddin Ərdəbili, s.72-83
Seyid Əlaülcəvadi. Mülahizat innülşeyx Səfiəddin əl Ərdəbili/ Şeyx Səfiəddin Ərdəbili də ayine-ye orfan, honər və siyasət. Məqalələr toplusu, London, 1393, s. 157-196
178. Səfəvi S.S. Səyyadat şeyxül arifin Seyid Səfiəddin Ərdəbili, s. 75

179. Heydəri Ə., Baqeri Bidəhəndi N. Naqahi be mövzu-e səyyadat-e Şeyx Səfiəddin Ərdəbili, s.68
180. Yenə orada, s. 68
181. Yenə orada, s. 79-80
182. Yenə orada, s.80
183. Yenə orada, s. 72-73
184. Heydəri Ə. Məzhəb-e Şeyx Səfiəddin Ərdəbili, s. 74/ Tarix dər ayine-ye pəjuheş. Sal-e həftom, N- 4, 1389, s.63-86
185. Yenə orada, s. 74
186.Yenə orada, s. 75
187. Yenə orada, s. 75-76
188. Ətayi N. Şeyx Səfiəddin.
http://qaramacmua.blogfa.com/post/6
189. İbn Bəzzaz Ərdəbili. Səfvətüs-səfa. Tehran, 1373, s.275
190. Yenə orada, s. 377
191. Şeyx Səfi təzkirəsi, s. 712
192.İbn Bəzzaz Ərdəbili. Səfvətüs-səfa. Tehran, 1373, s. 70, 72
193.Yenə orada, s. 72. Bax: Səhifənin aşağısındakı şərh
194. Şeyx Səfi təzkirəsi (“Səffətüs-səfa”nın XVI əsr türk tərcüməsi). Bakı, 2006, s. 47
195. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbbasi (Abbasın dünyanı bəzəyən tarixi). I cild. Tərcümə edənlər: O.Əfəndiyev və N.Musalı. Bakı, 2009, s. 36-37, (sətiraltı şərh)
196. Bünyadov Z. Azərbaycan VII-IX əsrlərdə Azərbaycan tarixi. II cild
197. Süleymanov M. Şah İsmayıl Səfəvi. Bakı, 2018, s. 594
198. Faruq Sümər. Nəqş-e türkan-e Anatoli dər təşkil və tousəə-ye dövlət-e Səfəvi. Tehran, 1371, s.5
199. Kəsrəvi Ə. Şeyx Səfi və təbarəş. Tehran, 2535, s. 4
200. Tacbəxş Ə. Tarix-e Səfəviyyə". Şiraz 1372, s.11
Nəcəfli T. Səfəvilərin etnik mənsubiyyətinin mənşəyi müasir Türkiyə tarixşünaslığında.
http://www.strategiya.az/chap.php?id=9600

201. Faruq Sümər. Nəqş-e türkan-e Anatoli dər təşkil və tousəə-ye dövlət-e Səfəvi. Tehran, 1371, s.5
202. Şakir Keçeli Baba. Katletmediğimiz Şah İsmail Safevî Kalmıştı!..
www.refikengin.com/upload/files/.../744REHAÇAMUR.doc
203. İnsafpur Q. Tarix-e təbar və zəban-e mərdom-e Azərbaycan. Tehran, 1377, s.
204. Kəsrəvi Ə. Azəri ya zəban-e Bastan-e Azərbaycan, s.12 (elektron variant)
205. Mədətli E. Azərbaycan tarixi məsələləri İran tarixşünaslığında (XX əsrin əvvəlləri). Bakı, 2017, s. 80-95
Rəşidi H. Zəban-e torki və mouğiyyət-e qozəşte və konuni-ye an dər İran (Bohran-e höviyyət). Tehran,1395, s. 7-26;
Məmmədzadə Siddiq H. Fərziyye-ye zəban-e azəri və Kəsrəvi. Tehran, 1389, s. 35-54
206. Məmmədzadə Siddiq H. Fərziyye-ye zəban-e azəri və Kəsrəvi, s.35
207. Kəsrəvi Ə. Azəri ya zəban-e Bastan-e Azərbaycan, s.6
208. Yenə orada
209. Rəşidi H. Zəban-e torki və mouğiyyət-e qozəşte və konuni-ye an dər İran (Bohran-e höviyyət). Tehran,1395, s. 8-9
210. Kəsrəvi Ə. Azəri ya zəban-e Bastan-e Azərbaycan, s.9-11
211. Bax: Rəşidi H. Zəban-e torki və mouğiyyət-e qozəşte və konuni-ye an dər İran (Bohran-e höviyyət). Tehran,1395, s. 10
212. Yenə orada, s. 21-22
213. Kəsrəvi Ə. Azəri ya zəban-e Bastan-e Azərbaycan, s. 18-19
214. Məmmədzadə Siddiq H. Fərziyye-ye zəban-e azəri və Kəsrəvi, s.35
215. Yenə orada, s. 45

# IV FƏSİL. ŞEYX SƏFİƏDDİNİN TƏSƏVVÜF GÖRÜŞLƏRİ

## 1. Şeyx Səfiəddin elm və təhsil haqqında

Şeyx Səfiəddin yalnız dövrünün deyil, bütünlükdə islam dünyasının çox görkəmli alimlərindən biri idi və təsadüfi deyil ki, tədqiqatçıların və araşdırmaçıların əsərlərində o, "sultan-ül arifin" (ariflər sultanı) və ya "şeyx-ül arifin" (ariflər şeyxi) kimi də təqdim olunmaqdadır (1). Bu sahədə o, xüsusi bir istedad sahibi idi və özündən sonra bu gün də elmi maraq kəsb edən bir miras qoyub getmişdir. Ailədə 6 qardaş olmalarına baxmayaraq, yalnız Şeyx Səfiəddinin elm və irfana güclü meyli, bu istiqamətdə ardıcıllıq nümayiş etdirməsi onun bu sahədəki istedadından və elmə bağlılığından irəli gəlirdi. Maraq və istedadın zəhmətsevərliklə birləşməsi isə Şeyx Səfini öz müasirləri arasında fərqləndirməklə, həm də islam tarixinin ən tanınmış alimləri sırasına yüksəldə bilmişdi.

Şeyx Səfiəddinin elmə marağının və bu sahədəki xüsusi istedadının nəsil ənənələri ilə bağlılığını istisna etmək olmaz. Mənbələrdə olan kasad məlumatlar da belə bir qənaətə gəlməyə əsas verir. Məsələn, Şeyx Səfiəddinin beşinci babası olan Seyid Məhəmməd dövrünün tanınmış islam alimlərindən biri olmuşdu. Mənbə rəvayətlərinə görə, o, beş yaşında ikən yoxa çıxmışdı və bir neçə ildən sonra geri qayıdanda artıq "Quran" hafizi olmaqla bərabər, həm də islam sünnələrinə və fərzlərinə dərindən bələd idi. Həyatının sonrakı illərini də o, islam dəyərlərinin təbliği və maarifçiliyi ilə keçirmişdi (2).

Seyid Məhəmmədin oğlu, yəni Şeyx Səfiəddinin dördüncü babası Seyid Səlahəddin və üçüncü babası Seyid Qütbəddin də mənbələrdə elm və irfan sahibi kimi xarakterizə olunmuşlar. Onlar da Seyid Məhəmməd kimi müsəlmanların maarifləndirilməsi və islami dəyərlərin onlara çatdırılması ilə məşğul olmuşdular (3).

Şeyx Səfiəddinin atası erkən yaşında rəhmətə getsə də, çox güman ki, onun yaxın ətrafında elm və savada maraqlı insanlar

var idi və Şeyx Səfiəddində elmə-savada ilkin marağı da elə onlar yaratmışdılar. Sonradan isə onda elm öyrənilməsinə dərin bir etiqad və bağlılıq meydana gəlmişdi.

Şübhə etmək olmaz ki, Şeyx Səfiəddinin elm və təhsil yolunu tutmasına dövrün və şəraitin də özünəməxsus təsiri olmuşdu. Çünki mövcud ictimai-siyasi həyatın nizamlanmasında islami dəyərlər xüsusi əhəmiyyət kəsb edirdi və istər dini biliklərə olan tələbatın öyrənilməsində, istərsə də insanlar arasında ictimai-mənəvi münasibətlərin formalaşdırılması sahəsində dini məktəblərin, cərəyanların mövcudluğu dövrün xarakterik cəhətlərindən biri idi. Şeyx Səfiəddinin formalaşdığı dövrdə bölgədə təsəvvüf kifayət qədər geniş yayılmış və bu cərəyanın çox tanınmış nümayəndələri fəaliyyət göstərirdilər. Ona görə idi ki, 20 yaşına çatandan sonra Şeyx Səfiəddin özü üçün ona kamil islami biliklər verə biləcək mürşid axtarışına başladı (4). Bununla bağlı, Şeyx Səfiəddin həm Şirazda oldu, oranın irfan əhli ilə tanış oldu və sonra da üzünü Gilana, Şeyx Zahidin yanına tutdu.

İslami dəyərlərə daha dərindən bələd olduqca Şeyx Səfiəddində elmə bağlılıq daha da artdı. Çünki o, islami dəyərləri birmənalı şəkildə elm və bilik öyrənilməsini dinin vacib şərtlərindən biri sayırdı. Bəlli idi ki, elm və bilik kəsb edilməsi ilə həm islami dəyərlərin mahiyyətinə nüfuz etmək, bu dəyərləri düzgün anlamaq, həm də cəmiyyət daxili münasibətlərdə kamilliyə yetişmək olardı. Müqəddəs kitabda öz əksini tapmış hökmlərə görə, insanın dəyərini müəyyənləşdirən amillərdən biri də məhz onun bilik səviyyəsidir. Hətta hər bir müsəlmanın imanının səbatlığı və saflığı da elm və biliklə birbaşa bağlanılırdı. Möhkəm və səbatlı imanın əldə edilməsinin ən düzgün yolu da məhz elm və biliklə əlaqələndirilidi. İslam alimlərinin və mütəfəkkirlərinin də fikri belə idi ki, Allah tərəfindən yer üzünün əşrəfi kimi yaradılan insan öz əşrəfliyini yalnız elm və bilik sahibi olduqda daha ətraflı nümayiş etdirə bilər (5).

İslamın elmə veridyi dəyəri açıqlamağa çalışan tədqiqatçılar da bildirirlər ki, insan doğulduğu gündən elm öyrənmək ehtiyacları ilə üzbəüz qalır. Çünki həyatın başa düşülməsi, in-

kişaf, təkamül elm və biliklə bağlıdır. Elmi dəyərlərə yiyələnmək insanı kamilləşdirməklə, onun bütün potensialının üzə çıxmasına zəmin yaradır (6).

Elm və bilik öyrənilməsi müqəddəs kitabda da çox geniş şəkildə öz əksini tapmışdır. Mütəxəssislərin fikrincə, "Quran" ayələrinin dörddə biri bu və ya digər dərəcədə elmə münasibətlə bağlıdır (7). Müvafiq araşdırmalarda "Quran"da elm öyrənilməsi ilə bağlı olan ayələr 4 qrupa bölünmüşdür (8):

Birinci qrupa Allah elmi haqqında olan ayələr aiddir. Bu qrupa daxil olan ayələr Allahın elm və mərifətlə bağlı olan sifəti haqqındadır. Həmin ayələrdə Allahın tanınması üçün elmin vacibliyi qeyd edilir. Bildirlir ki, Allahın sifətlərindən biri də elmdir. Yəni Allah-təala hər şeydən xəbərdardır. Hər şeydən xəbərdar olan Allahın dərk edilməsi üçün isə onun buyurduğu elmdən xəbərdar olmaq lazımdır. Allahın hər şeydən xəbərdar olması məsələsi tədqiqatçıların qənaətinə görə "Quran"da 128 dəfə təkrar edilmişdir.

İkinci qrupa peyğəmbər elmi haqqında olan ayələr daxil edilmişdir. Həmin ayələr həm islam peyğəmbərinə, həm də digər peyğəmbərlərə aiddir. Bu ayələr islam peyğəmbərinin və digər peyğəmbərlərin elm və biliklərindən söhbət açır və bildirilir ki, Allah-təala öz peyğəmbərlərinə müxtəlif elmləri və bilikləri öyrətmişdir. Məlumdur ki, peyğəmbərlərin risalətinə Allah kəlamlarının insanlara çatdırılması, insanların düz yola yönəldilməsi və Allah təlimlərinin insanlara öyrədilməsi də daxil idi. İnsanların düz yola necə istiqamətləndirilməsi peyğəmbərlərə Allah tərəfindən öyrədilirdi. Peyğəmbərlər isə Allah təlimini doğru-düzgün öyrənə bildikləri üçün insanları həmin təlim əsasında istiqamətləndirə bilirdilər. Peyğəmbərlərin insanlar arasında ən seçilmişi olmasının bir səbəbi də sözsüz ki, Allah təliminə bütünlüklə yiyələnmələri ilə bağlı idi. "Quran"da peyğəmbərlərin elmi haqqında çoxlu ayələr vardır. Məsələn, ən-Nəcm surəsinin 5-ci ayəsi, Yusif surəsinin 22-ci, 62-ci və 68-ci ayələri, Ənbiya surəsinin 79-80-ci ayələri, əl-Əəraf surəsinin 62-ci ayəsi, Ənam surəsinin 75-ci ayəsi və s. belə ayələrdəndir.

Baxmayaraq ki, islam peyğəmbərinə böyük kəramət lütf olunmuşdu və bütün insanlardan fərqlənirdi, bununla belə “Quran”da ondan da birmənalı şəkildə tələb olunurdu ki, daim öz biliklərini artırsın: ”Həqiqi hakim olan Allah (hər şeydən) ucadır! *(Müşriklərin Ona aid etdikləri sifətlərdən uzaqdır!)* Həm də *(ey Peyğəmbərim! Cəbrail tərəfindən)* sənə tamam-kamal vəhy olunmadan əvvəl “Quran”ı oxumağa tələsmə və: “Ey Rəbbim! Mənim elmimi artır!”- de” (9). Çünki elm və bilik sahibi olmadan “Quran”ın özünün də kamil anlaşılması mümkün deyildi. Bu hökm isə yalnız islam peyğəmbərinə yox, həm də islam peyğəmbərini tanıyanların hamısına aid idi. Ona görə islam peyğəmbəri də buyururdu ki, “elm öyrənmək hər müsəlman kişi və qadın üçün fərzdir” (10).

Üçüncü qrupa elm və bilik öyrənilməsinin əhəmiyyətinə münasibət ifadə edən ayələr şamil edilmişdir. Bu ayələrdə insanlar üçün elm və bilik arxasınca getməyin Allah yanında hansı məqama malik olması açıqlanmışdır. Həmin ayələrdə birmənalı şəkildə təsbit olunmuşdur ki, elm və bilik arxasınca getmək hər bir müsəlmanın borcudur və elmə yiyələnmək insanların həm şəxsi həyatında, həm ictimai həyatında səmərəli nəticələrlə müşayiət olunur. Yəni Allah kəlamlarında elmin, elm arxasınca getməyin insanlar üçün böyük əhəmiyyəti aydın şəkildə açıqlanmışdır. Bu ayələrdə insanlardan tələb olunur ki, elm və bilik öyrənilməsi ilə məşğul olsunlar. İnsanlara o da çatdırılırdı ki, bilikli insanla biliksiz insan eyni ola bilməz. “Quran”da açıq şəkildə bəyan edilmişdir ki, elm və biliyə yiyələnmiş insanla elmsiz və biliksiz insanı bir səviyyədə tutmaq olmaz: “De: “Heç bilənlərlə bilməyənlər *(alimlə cahil)* eyni ola bilərmi?! *(Allahın ayələrindən, dəlillərindən)* yalnız ağıl sahibləri ibrət alar!” (11).

Bu ayədə bildirilir ki, Allah tərəfindən nazil olunmuş ayələrdən də yalnız elmli və bilikli insanlar düzgün nəticə çıxara bilərlər. Şeyx Səfiəddin də “Quran”da təsbit olunmuş bu hökmlərdən, eləcə də islam müqəddəslərinin elm öyrənilməsinə verdikləri dəyərdən lazımınca xəbərdar idi və ona görə də elm və

bilik öyrənilməsində xüsusi bir qətiyyət və ardıcıllıq nümayiş etdirirdi.

"Quran"da insanları elm və bilik öyrənilməsinə çağıran ayələr də öz növbəsində bir neçə bəndə bölünmüşdür (12):

a) bu bəndə aid olan ayələrdə bəyan edilir ki, insanlar arasında seçim aparılması üçün əsas meyarlardan biri məhz həmin insanda elm və bilik səviyyəsinin olmasıdır. "Quran"ın Zümər surəsindən yuxarıda göstərilən 9-cu ayəsində də belə bir məzmun ös ifadəsini tapmışdır.

Həmin ayəni, sözsüz ki, həm peyğəmbərlərin seçilməsinə, həm də insanların həyatdakı yerinin müəyyənləşdirilməsinə aid etmək olar. Peyğəmbərlər Allah biliklərinə bələd olmaq kəramətinə malik idilər və buna görə də onların adi insanlardan seçilirdilər. Bununla onlar Allah yanında da daha yüksək məqama sahib idilər.

"Quran"ın Bəqərə surəsinin aşağıdakı ayəsi də bu məsələ ilə bağlıdır: "*(İsrail övladının)* peyğəmbəri onlara dedi: "Allah Talutu" sizə padşah göndərdi". Onlar isə: "Biz hökmdarlığa daha layiq ikən və ona var-dövlət verilmədiyi halda, o, necə bizə padşah ola bilər?"-deyə cavab verdilər. *(Peyğəmbər onlara)* dedi: "Allah sizdən ötrü onu *(bəyənib)* seçmiş, elm və bədəncə *(qüvvəcə)* ona üstünlük vermişdir. Allah Öz mülkünü *(səltənətini)* istədiyinə verər. Allah *(Öz lütfü və kərəmi ilə)* genişdir, *(Allah hər şeyi)* biləndir!" (13).

b) bu bəndə aid olan "Quran" ayələrində müsəlmanlara təlqin olunur ki, elm-biliklə iman arasında birbaşa əlaqə vardır. Çünki müsəlman yalnız lazımi biliklərə malik olmaqla islami dəyərlərin və vacibatların mahiyyətinə nüfuz edə və bununla sağlam etiqada malik ola bilərdi. Bu bəndə aid olan ayələrdə hətta o da bəyan edilir ki, elmsiz imanın dəyəri yoxdur. Bununla müsəlman qarşısında öz biliklərini artırmaq kimi vəzifə qoyulur, onlar elm və bilik əldə etməyə həvəsləndirilir. "Quran"ın Ali-İmran surəsinin 7-ci ayəsində, Nisa surəsinin 162-ci ayəsində, əl-İsra surəsinin 107-ci ayəsində, Həcc surəsinin 54-cü ayəsində, Ənkəbut surəsinin 49-cu ayəsində, Səba surəsinin 6-cı

ayəsində elmlə iman arasında birbaşa əlaqənin olması öz ifadəsini tapmışdır. Həmin ayələrdən biri belədir: "*(Ya Rəsulum!)* Sənə Kitabı *("Quran"ı)* nazil edən Odur. Onun *(Kitabın)* bir hissəsi *("Quran"ın əslini, əsasını təşkil edən) möhkəm (mə'nası aydın, hökmü bəlli),* digər qismi isə mütəşabıh *(çətin anlaşılan, dəqiq mənası bilinməyən, məğzi bəlli olmayan)* ayələrdir. Ürəklərində əyrilik *(şəkk-şübhə)* olanlar fitnə-fəsad salmaq və istədikləri kimi məna vermək məqsədilə mütəşabih ayələrə uyarlar *(tabe olarlar).* Halbuki onların yozumunu *(həqiqi mənasını)* Allahdan *(yaxud Allahdan və elmdə qüvvətli olanlardan)* başqa heç kəs bilməz. Elmdə qüvvətli olanlar isə: "Biz onlara iman gətirdik, onların hamısı Rəbbimizin dərgahındandır", - deyərlər. Bunları ancaq ağıllı adamlar dərk edərlər" (14).

Bu ayədən göründüyü kimi, Allah tərəfindən də "Quran" ayələlərinin düzgün başa düşülməsi üçün insanların elm və biliyə yiyələnmələrinin zəruriliyi bəyan edilmişdir.

c) bu bəndə aid olan ayələrdə göstərilir ki, Allah qəzəbindən və cəzasından daha çox qorxanlar və ehtiyat edənlər məhz alimlərdir. Çünki onlar başqalarına nisbətən haqq yoluna daha yaxşı bələddirlər və bu haqq yolundan azmağın hansı cəzalara apara biləcəyini də başqalarından daha yaxşı bilirlər. Onlar yaxşı bilirlər ki, hansı əməllər günahdır və hansı əməllər Allah qəzəbinə səbəb ola bilər. Ona görə haqq yolundan çıxmağa ehtiyat edirlər. Amma o insanlar ki, haqq yolunun nə olduğunu bilmirlər, onlar bu yoldan çıxmağın nəyə gətirə biləcəyindən də ehtiyatlanmırlar. Məhz buna görə də, haqq yolunu tanıyan və ondan kənara çıxmayan alimlərin Allah yanındakı məqamı da böyük hesab edilir. Məsələn, Fatir surəsində belə bir ayə vardır: "İnsanların, *(yer üzündə gəzən)* heyvanların və davarların da bu cür müxtəlif rəngləri vardır. Allahdan Öz bəndələri içərisində ancaq alimlər qorxar. *(Onlar elm sahibi olduqları üçün Allahın vəhdaniyyətini, heybət və əzəmətini daha yaxşı başa düşür və Ondan daha çox qorxurlar).* Həqiqətən, Allah yenilməz qüvvət sahibidir, *(möminləri)* bağışlayandır!" (15).

Sözsüz ki, bu ayədə olan “qorxmaq” yalnız hərfi mənada qəbul edilməməlidir. Bu sözün arxasında həm dərin etiqad, həm də iman və inam dayanır. Yalnız dərin etiqada, iman və inama malik olan müsəlmanlar düz yoldan sapmazlar və günah işlərə meyil etməzlər. Şübhə edilmir ki, yalnız dərin biliyə malik olmaqla yaradanın haqq olduğunu da sübut etmək olar. İlahiyyat elmində də haqqın varlığının biliklə sübut edilməsi və inanılması, ona kor-koranə inamdan daha üstün tutulur.

ç) bu bəndə şamil edilən ayələr isə elm və bilik sahiblərinə ehtiram göstərilməsi, onların elmindən bəhrə götürülməsi, alimlərin yolunun izlənilməsi ilə bağlıdır. Həmin ayələrdə buyurulur ki, elm və bilik sahibi olanların yolunun davam etdirilməsi, onlardan öyrənilməsi yaradan yanında böyük qiymətə malikdir. Bu tələb istər dünyəvi işlərin görülməsinə, istərsə də mənəvi dəyərlərin əxz edilməsinə aiddir. Məlumdur ki, insanların heç də hamısı yüksək elm və bilik sahibi olmur. O cümlədən müsəlmanların heç də hamısı ilahiyyat elminə yüksək səviyyədə bələd deyildir. Beləəri dini və dünyəvi dəyərlərin, biliklərin əldə edilməsi üçün elm adamlarının biliklərindən bəhrələnməlidirlər. Bu mənada həm bilik əldə edilməsinə ehtiyacı olanlar qarşısında müqəddəs kitabın ayələri tərəfindən müəyyən öhdəliklər qoyulur, həm də elm və bilik sahibləri vəzifələndirilir ki, onlar öz bildiklərini insanlara öyrətsinlər. Peyğəmbər hədislərindən birində belə buyrulmuşdur: “Elm öyrənmək Allah yanında savabdır, onun öyrənilməsi ibadətdir, elmi söhbət aparmaq təsbihdir, elmin tətbiq edilməsi cihaddır, elmin elmsizlərə öyrədilməsi sədəqədir, onun başqasına bağışlanması Allaha yaxınlaşmağa səbəb olur” (16).

İslam peyğəmbəri eyni zamanda buyururdu: “Bir insan ki, Allah rizası üçün elm öyrənsin və Allah rizası üçün onu insanlara öyrətsin, Allah-təala 70 peyğəmbərin mükafatını ona bağışlar”. İslam peyğəmbərinin başqa bir hədisində isə deyilir ki, kimsə cəhənnəm atəşindən nicat tapmış birisini görmək istəyirsə, elm öyrənənlərə baxsın. Sonra da təkidlə əlavə olunur ki, kimsə elm öyrənmək istəyi ilə alimin evinə tərəf bir addım atırsa, Allah

tərəfindən ona bir illik ibadətin savabı yazılır, onun hər bir addımına görə cənnətdə bir şəhər salınır, yer üzündə addımladıqca torpaq ona rəhmət diləyir (17).

Dördüncü qrupa daxil olan ayələrdə birbaşa elm və bilik öyrənilməsinə və ya öyrədilməsinə işarə edilməmişdir. Lakin "Quran"da çoxlu sayda ayələr vardır ki, onların məzmunu və mahiyyəti həm də elm və bilik əldə edilməsinin vacibliyini özündə ifadə edir. Belə ayələr, yuxarıda qeyd edildiyi kimi, xeyli çoxdur və əslində, bu ayələrin mahiyyətinin və buyuruqlarının düzgün başa düşülməsi üçün də müəyyən bilik səviyyəsinə malik olmaq lazımdır.

Elm və bilik öyrənilməsinin əhəmiyyəti və vacibliyi islam peyğəmbərinin hədislərində də özünün geniş əksini tapmışdır. Bu hədislər də, əsasən, "Quran"da ona ünvanlanmış buyuruqlardan rişə alır. "Quran"ın nazil olmuş ilk ayəsinin ilk sözünün "oxumaq" olması özü də peyğmbər risalətinin elm və biliklə nə dərəcədə bağlı olmasının təsdiqidir. Həmin ayədə deyilir: "(Ya Peyğəmbər! "Quran"i-kərimi bütün məxluqatı) yoxdan yaradan Rəbbinin adı ilə (Bismillah deyərək) Oxu! O, insanı laxtalanmış qandan yaratdı. (Ya Peyğəmbər!) Oxu! Sənin Rəbbin ən böyük Kərəm sahibidir! O Rəbbin ki, qələmlə (yazmağı) öyrətdi". O Rəbbin ki, insana bilmədiklərini öyrətdi" (18).

Ərəb dilində "oxu" sözü ayənin əvvəlində gəlmişdir. Yəni insanların hidayət kitabı olan müqəddəs "Quran"ın islam peyğəmbərinə nazil olmuş ilk ayəsinin ilk sözünün "oxumaq" kəlməsi ilə başlaması, oxumağa, başqa sözlə elm öyrənməyə, elm öyrətməyə islam dinində böyük yer ayrılmasının göstəricisidir. Yer üzünə nazil olmuş ilk ayədə öz ifadəsini tapmış "oxumaq" sözü çox geniş məzmun kəsb edir. Oxumaq – yəni daim axtarışda olmaq, daim öz biliklərini təkmilləşdirmək, aləmlərin sirrinə nüfuz etmək, oxutdurmaq, ətrafdakıların oxumasına, savadlanmasına kömək etmək və s. Oxumadan, elm və bilik kəsb etmədən həyatı və yaradılışı düzgün başa düşmək də mümkün deyil. Dini təlimlərə görə, yer üzünə peyğəmbərlərin göndərilməsi də ilk növbədə dini dəyərlərin insanlara öyrədilməsi zərurəti ilə bağlı

idi. Həmin peyğəmbərlər məhz dövrünün dini dəyərlərini insanlara öyrətməklə, onlara bilik verməklə məşğul idilər.

İslam peyğəmbəri elm və bilik öyrənilməsini yalnız fərz saymırdı. Hər bir müsəlmanın elm və biliyiə yiyələnməsini və sonra da onun başqalarına öyrədilməsini böyük savab sayırdı. Məsələn, peyğəmbər hədislərindən birində belə deyilir: “ Kim bir elm qapısından yapışaraq, elmdən istifadə etmək və başqalarına öyrətmək üçün evindən çıxırsa, atdığı hər addım üçün Allah Təala ona orucu və namazı ilə birlikdə min ilin savabını verər. Mələklər qanadı ilə onu əhatə edər. Havadakı quşlar, dənizdəki balıqlar və qurudakı bütün canlılar ona salam verərlər” (19).

“Quran” və islam peyğəmbəri, habelə islam müqəddəsləri yalnız elm öyrənilməsinə deyil, elm sahiblərinə, yəni alimlərə də böyük dəyər verir və onların məqamını çox yüksək tuturlar. Belə ki, alimlərin yaradanın dərgahında hətta şəhidlərdən də yüksək mərtəbəyə malik olması peyğəmbər hədislərində də öz əksini tapmışdır. Məsələn, hədislərin birində peyğəmbər adından alimin məqamı belə dəyərləndirilir: “Cəbrayıl əleyhüssəlamdan soruşdum: Allah dərgahında alimlər əzizdirlər, yoxsa şəhidlər? Dedi: bir alim Allah dərgahında min şəhiddən daha əzizdir” (20).

İnsanların faydası üçün elm öyrədən alimlərin gördükləri işin son dərəcə böyük savab kəsb etməsi haqqında islam peyğəmbərinin çoxlu sayda hədisləri mövcuddur. Həmin hədislər yalnız alimin zəhmətinə dəyər veilməsi barəsindəki tövsiyələr deyil, həm də islam peyğəmbərinin özünün alimlərə olan münasibətidir. Bu baxımdan aşağıdakı hədislər xarakterik sayıla bilər: “Alim məclisində iştirak etmək, min dəfə dəfn mərasimində iştirak etməkdən, min dəfə xəstəyə baş çəkməkdən, min gecəlik ibadətdən, min günlük orucdan, miskinlərə min dirhəm sədəqə verməkdən, vacib həcc istisna olmaqla min həcc səfərindən, Allah yolunda malın və canınla cihad etmək istisna olmaqla min müharibədə iştirak etməkdən daha üstündür” ; “Alimin çöhrəsinə baxmaq savabdır. Alimin çöhrəsinə baxmaq min nəfər qulu azad etməkdən daha üstündür”; “Kimsə alimi əziz tutursa məni əziz tutmuş olur, kimsə məni əziz tutmuş olursa, Allahı əziz tutmuş

olur və kimsə Allahı əziz tutmuş olursa aqibəti cənnətdir"; "Alimin abid üzərindəki üstünlüyü, on dörd gecəlik ayın ulduzlar üzərindəki üstünlüyü kimidir" (21).

Bütün bu hədislər elm və biliyin insan həyatındakı əhəmiyyətini özündə əks etdirir, insanların elm və bilik öyrənməsinə xüsusi məsuliyyətlə yanaşılmasını bəyan edir. "Quran" ayələrini və islam peyğəmbərinin hədislərini özünə rəhbər tutan çoxsaylı islam müqəddəslərinin və islam mütəfəkkirlərinin əsərlərində də elmin və alimin (elm öyrədənin) dəyəri haqqında yetərincə tövsiyələr və təkiflər vardır. Elmin və alimlərin insan həyatındakı rolu barəsində ilahiyyat mütəfəkkirlərinin belə deyimləri də vardır:

"Beş işdə alim əməl sahibindən üstündür;

Birincisi, ən xeyirli əməl elm ilə olur. Elmsiz əməl faydasızdır.

İkincisi, əməlsiz elm fayda verir. Lakin elmsiz əməl fayda verməz.

Üçüncüsü, əməl lazımdır. Elm isə əməl üçün şərtdir. Elm ilə əməl işıq və çıraq kimidir.

Dördüncüsü, alimlərin məqamı nəbilərin məqamıdır. Əməl sahiblərinin məqamı isə övliyanın məqamıdır.

Beşincisi, elm Allahdan, əməl isə quldandır" (22).

Bütün bunlar onu göstərir ki, islam dini elm və bilik öyrənilməsini müsəlmanlar qarşısında dayanan çox mühüm vəzifələrdən biri kimi irəli sürür. Çünki insanlığın inkişafı, həyatın tənzimlənməsi, maddi və mənəvi dünyanın tanınması üçün elm əsaslı bir vasitə kimi qəbul olunur. "Quran"ın buyuruqlarına, islam peyğəmbərinin hədislərinə əsaslanan tədqiqatçılar da şübhə etmirlər ki, elm və bilik insanlığın ən qiymətli neməti və sərmayəsidir və bu dəyərlər o insanlara nəsib olur ki, onlar bu yolda qətiyyət və ardıcıllıq göstərirlər. Şübhə edilmir ki, islam dini elmi və biliyi müsəlmanlar üçün vacib saydığı üçün elmin inkişafında və təkamülündə, hətta Qərb dünyasına yayılmasında islam aləminin böyük xidmətləri olmuşdur (23).

Şeyx Səfiəddin də elm və bilik öyrənilməsinə islamın fərzlərindən biri kimi yanaşırdı və ona görə şüurlu həyatını da elmin öyrənilməsinə və öyrədilməsinə həsr etmişdi. Onun mürşidlik, habelə islam aləminin böyük mütəfəkkiri məqamına yetişməsi də məhz elm və biliyə bağlılığı nəticəsində mümkün olmuşdu. Şeyx Səfiədinin bütün həyatı elmə bağlılığın və elmi dəyərlərin islam dünyasının xidmətinə istiqamətləndirilməsinin çox dəyərli bir nümunəsidir. Onun ətrafına çox böyük sayda müridin toplanması da bu təsəvvüf sahibinin elminin dərinliyi və elmi maarifçiliyinin təsirliliyi ilə əlaqədar idi. Əslində, elə təsəvvüfün də ana xəttini elm və bilik təşkil edirdi və təsəvvüf yoluna qədəm qoyanın qarşısında dayanan ilkin vəzifə də məhz dini dəyərlərin öyrənilməsi, mənimsənilməsi və dini qənaətlərə uyğun olaraq onların icra edilməsi idi.

İslam mütəfəkkirləri elmi iki istiqamətə ayırırdılar: 1)batini elmlər və 2) zahiri elmlər. Elm sahələrinin belə qruplaşdırılmasını da islam ilahiyyatçıları "Quran"ın ayələrinə istinad edərək irəli sürürdülər. Konkret olaraq alimlər bu məsələdə Loğman surəsinin 20-ci ayəsinə istinad edirlər. Həmin ayə belədir: "*(Ey insanlar!)* Məgər Allahın göylərdə və yerdə olanları *(günəşi, ayı, ulduzları və buludları; meyvələri, bitkiləri, dənizləri, çayları və gölləri)* sizə ram etdiyini *(sizin istifadənizə verdiyini),* aşkar *(görmə, eşitmə, sağlamlıq)* və gizli *(əql, şüur, fəhm, elm və i. a.)* nemətləri sizə bolluca ehsan etdiyini görmürsünüzmü? İnsanlar içərisində eləsi də vardır ki, nə bir elmi, nə bir doğru yol göstərən rəhbəri, nə də bir nurani *(ilahi)* kitabı olmadan Allah barəsində mübahisə edər" (24).

Tədqiqatçılarn fikrincə, bu ayədə bəyan edilən aşkar nemətlər zahiri, gizli nemətlər batini elmlərə bir işarədir. Zahiri elmlər dedikdə isə daha çox dünyəvi, gizli elmlər dedikdə isə dini elmlər, insanın ruhi dünyası ilə bağlı olan elmlər nəzərə tutulmuşdur. Dini və ilahiyyat elmləri də batini elmlərə şamil edilirdi və Şeyx Səfiəddin də bütün həyatını batini elmlərin öyrənilməsinə və təbliğinə həsr etmişdi.

Təsəvvüf aləminin böyük mütəfəkkiri Mövlana Cəlaləddin Rumi zahiri elmləri maddi dünyanın qayğılarının həlli üçün lazım olduğunu qeyd edirdisə də, batini elmlərə üstünlük verir, onları haqqa qovuşmaq yolu, insanın səadət yolu kimi dəyərləndirirdi. Ruminin fikrincə, insan batini elmlərə sahib olmaqla yaradılışın mahiyyətini daha dərindən dərk edə bilərdi və şübhə etmirdi ki, hikmət dünyasına yalnız ürəyi pak olan insanlar baş vura bilərdilər. Yəni o belə bir inamın sahibi idi ki, yalnız ürəyi pak olan insanlar batini elmlərə yiyələnə bilərdilər (25).

Sözsüz ki, bu zaman insanın istəyi, iradəsi, qətiyyəti, elmi biliklərin əldə edilməsi yolunda zəhmətə qatlaşmaqdan qorxmaması heç də kənara qoyulmurdu. Lakin dünya maddiyatından uzaqlaşmaq təsəvvüfün, batini elmlərə yiyələnməyin təməl prinsiplərindən biri idi. Şeyx Səfiəddin də məhz belə bir yolu tutmuşdu. Onun həyatını həsr etdiyi elmlər haqqında söylədiyi fikirlər heç şübhəsiz ki, təsəvvüf dünyasında toplanmış elmi biliklərin və qənaətlərin davamı və inkişaf etdirilməsi idi. Şeyx Səfiəddin həmin biliklərin öyrənilməsi üçün ömrünün çox böyük hissəsini həsr etmiş, bu zaman özünə qarşı yüksək tələbkarlıq nümayiş etdirmiş və dövrünün ən böyük alimlərinin müridi olmuşdu.

Şeyx Səfiəddinə görə din və insanın mənəvi dünyası ilə bağlı olan elmlər insanın vücuduna və onun dini həyatına yeniləşmə, çiçəklənmə, sevinc gətirən ətirli bir dalğa idi. O buyururdu ki, elm sanki küləyə bənzəyir. Şeyx Səfiəddinin nəzərincə külək bütün əşyalara bir təzəlik və rayihə gətirən hadisə idi və əlavə edirdi ki, əgər külək olmasa dənizin suyu köhnəlib iylənər. Əgər dənizin suyu durğunluq içərisində iylənib köhnələrsə onda dənizdə yaşayan heyvanlar da məhv olarlar. Bunun nəticəsində isə yer üzü dərin fəsadlarla qarşılaşmalı olar. Külək isə suyun təzələnməsi ilə bərabər, onun daxilində olan heyvanların da salamat qalmasına səbəb olur. Şeyx Səfidəddin elmi küləklə müqayisə edirdi və bildirirdi ki, elm də dinin əbədi və canlı qalmasına səbəb olan bir amildir. Elm dini rövnəqləndirir, onu təzələyir və canlandırır (26).

«Səfvətüs-səfa” əsərində Mövlana Rumi ilə Şeyx Səfiəddin arasında bir qiyabi bağlılıq yaradılmışdır. Heç şübhəsiz ki, bu bağlılıq həm Şeyx Səfiəddinin təsəvvüfün böyük siması Cəlaləddin Rumiyə olan ehtiramından, həm də Rumi ənənələrinin Şeyx Səfiəddinin həyatına böyük təsirindən irəli gəlirdi. Bununla həm də bir növ Şeyx Səfiəddinin özünün böyük sufi mütəfəkkiri olmasına işarə edilmişdir. Adı çəkilən əsərdə bildirilir ki, Mövlanə Rumi islam dünyasına Şeyx Səfiəddin kimi nəhəng bir mütəfəkkirin gələcəyindən agah olmuş, bunu ətrafındakılara bəyan etmiş və dünyanın da onun elminin nuru ilə işıqlanacağını bildirmişdi. Həmin məsələ «Səfvətüs-səfa” əsərində belə təsvir olunmuşdur: “Həzrət Şeyxin (q.s.) qardaşı oğlu Xacə Cəlaləddin və məşayixin müsahibi Pirə Ziyaəddin və neçə bazərganlar dedilər: “Ərzinganda bir neçə ulu talibi-elmlər ilən bazərganlar və özgələr Rum adından Ərzinganlu Qazı Cəlaləddinin hüzurunda oturmuş idik və həzrət Şeyxin q.s. mənaqibindən hər babdan sözlər keçər idi. Söhbət[də] Rumlu Mövlana Cəlaləddinün əşarı kim, anun təbi-vəqqadından… idi və aşiqlərin məjnun dimağı şeyda və rüsva qılurdı, bəhs olur idi. Rumlu Qazı Cəlaləddin qeyb ülumun üzərində bir risalə həzrət Şeyx Səfiəddinin mənaqibində tərtib etmiş idi, ol risaləni bəcins məclisdə hazır etdi və yazduğları məclis əzhabına ərz edərdi. Məzmuni ol kim, Rumlu Mövlanə Cəlaləddin, yəni mövlanə Rumi yazmış idi ki, mən bir kimsənün sirri diliəm ki, mundan sonra zühur eyləyəcəkdür və vücud ərsəsinə qədəm basacaqdur və anun aləmə gəldüginə aləmün xəlayiqinə və mustilərəm kim, ol vəlilərün məhbubi və talibləün mətlubi və siratül-müstəqimin dəlili və rahnəmayidür və cəhan anun tərbiyət nuri ilə münəvvər olacaqdur.

...Və anun gəldügindən və getdügindən nişanəsi oldur kim, Azərbaycan məmləkətində ola və doğduğu bir kəntdən ola kim, bir şəhərə yakın ola. Həmin kim anun işi ucala, ol kəntdən qopup, ol şəhərə varub, Həqqin doğru dinün və Mustafa ilə Murtəzanun sələvatüllahi və səlamühü əleyhima millətin aşkar eyləyə və aləmün xəlayiqi “la İlahə İllallah “un zikri ilən təhris edə. Və sənəti ziraət və əməli taət ola və yedugi halal kəsbindən qıla və mürid-

ləri halal kəsbə buyura və ədəbləri və iktibası qamu ola. Və özgə taifələr kimi kim, özlərinin məası və müridləri mundan ötrü zəcr ilə mən eyləyə [və sual qapuları] taliblərinün yüzinə bağlaya və qamusına halal lüqmə ilən məaş [müqəyyəd] eyləyə və hər nəstə kim, Tanrı-təaldan qismət olmış ola, gələn-güdənün süfrəsinə xərc eyləyə. ...Və zeyy ilə kisvəti özgə dərvişlər kimi dəgül ola kim, türlü-türlü xudnəmaylik, jindəpuşlik surətinə və mənlik etməkdən özgələrinə bağlarlar.

...Bəlkim anun taliblərinün geyəsi bir məxsus şəkil ilə vəzdən ola kim, libaslarından "və libasot-təqva zalikə xeyrün" asarı zahir ola. ...Və böylə məşhur isi ki, Mövlana Rumi (r.r.) anun gəldügindən xəlqə xəbər verübdür və özini anun tərbiyət müridi olub, bəşarəti aləmün xass ilə ammına yetürübdür və çox nişanələr dəxi verübdür. Əlqissə, Qazı Cəlaləddin dedi: "Çün bu nişanələrdən məlum etdim və həzrət Şeyx Səfiəddinün (q.s.) zühuri çaği özümə müqərrər qıldım, Adərbaycana varmağ əzm edüb, Təbrizə vardum. Və ol vəqtdə Bimaristanlu Mövlana Nurəddin rəhmətullah həzə diri idi. Bu əhvalun keyfiyyəti təhqiq etmək [içün] yanına vardum kim, görəm kim, ol hilyə iyəsi kim, Mövlana Rumi əleyhirrəhmə sorağ verübdür, olmıdur, ya yox? Nişan verdügi hilyə anda görmədüm. Pəs, Təbrizün əkabiri ilən salihlər və abidlərə ol hilyənün kəmiyyətin ərz etdim, bulay kim, hilyənin sorağın verələr. Qamu müttəfiq olub həzrət Şeyx Səfiəddinün nişanın verdilər və işarət qıldılar kim, sənün tərif etdügün hilyə bəeynə həzrət Şeyx Səfiəddindür (q.s.) kim, bu sifat ilə mövsüf və bu şəkil ilə mərufdur.

...Və ol çax həzrət Şeyx Səfiəddin (q.s.) həzrət Şeyx Zahid (q.s.) yanına Gustasfiyə varmış idi. İttifaq düşmədi Gustasfiyə varmağ. Pəs, qamu əkabirün ittifaqı ilən mühəqqəq oldı kim, Mövlana Cəlaləddinün nişan verdügi həzrət Şeyx Səfiəddindür (q.s.) kim, qeybün güzgüsində Mövlana Ruminin könlində məkşuf olupdur" (27).

Şeyx Səfiəddindən ilahiyyat və "Quran" elmləri barəsində ayrıca əsərləri qalmamışdır. Lakin onun "Quran" elmlərinin istiqamətləri üzrə ayrı-ayrı fikirləri toplanaraq günümüzə

çatdırılmışdır. “Səfvətüs-səfa” əsərinin dördüncü babında Şeyx Səfiəddinin “Quran” elmlərinin mahiyyəti, anlamı haqqında xeyli dəyərli fikirləri toplanmışdır. Bu babda Şeyx Səfiəddinin “Quran”ın bu və ya digər ayələri ilə bağlı fikirləri sual-cavab şəklində açıqlanmışdır.

Şeyx Səfiəddinin burada toplanan fikrilərinin bir çoxu yaradanın dərk edilməsi, onun buyurduqlarının düzgün başa düşülməsi və onlara əməl edilməsinin yolları haqqındadır. Kitabda toplanan fikirlərində Şeyx Səfiəddin, əslində, “Quran” ayələrinin təfsirini verir və onların daha düzgün anlamını öz müridlərinə çatdırırdı. Ona verilən suallardan biri belə idi: “Sual qıldılar bu ayətdən: “Vəqül Rəbbi zidni limən” (Taha surəsi, 114-cü ayə. Pərvərdigara. Mənim elmimi artır-de). «Səfvətüs-səfa” əsərində “Quran” ayələrinin tərcüməsi “Şeyx Səfi təzkirəsi” kitabının arxasında verilmiş tərcümədən götürülmüşdür). Çün Həqq-təala buyurur: “Vəla rətbin və ya yasibin illa fi kitabin mübinin” (Ənam surəsi, 59-ci ayə. Elə bir toxum, elə bir şey yoxdur ki, məhz açıq-aydın kitabda olmasın), yəni qamu elmlər, gərək yaş, gərək quru Kəlamullahda var və həzrət Peyğəmbər anları bilür, amma ol elm ki, Tanrı-təala anı artmağa Peyğəmbərinə əmr edübdür, hangıdur”.

Cavab. Şeyx (q.s.) buyurdu: “Ol rətb ilə yabis elm ki, “Quran”dadur, mükəvvənat elmidür, gərək təfsil ilə olsa, gərək icmal. Və hər nə kim, əzəldən əbədədəkin vardur, oldur kim, “Quran” içində var. Amma ol elm ki, “Rəbbi zidni ilmən”dür, üluhiyyat elmi, yəni Tanrınun zat ilə sifatinün elmidür kim, ol elmün nə əvvəli var və nə axırı və ol elm bu elmin yanında bir qətrə kimidir dənizin yanında” (28).

Şeyx Səfiəddin bu sual-cavabda Allah elminin mahiyyətini açmışdır. “Quran” ayələrinə istinad etməklə ondan soruşulur ki, yaşdan quruya bütün elmlər haqqında “Quran”da bilgilər vardır. Sözsüz ki, islam peyğəmbəri də bu elmlərədn xəbərdar idi. Ona görə Şeyx Səfiəddindən sual edilir ki, islam peyğəmbərinin yaradandan onun elmini artırmasını təvəqqe etməsi nə ilə bağlıdır? Şeyx Səfiəddin də cavabında bildirir ki, Taha surəsinin yu-

xarıda xatırlanan ayəsinin nazil olmasında məqsəd "Quran" elmlərinin yox, Tanrının zatı və sifəti haqqında olan elmin öyrədilməsidir. Verilən cavabın mahiyyəti bundan ibarətdir ki, Allah elminin başlanğıcı və sonu yoxdur və bu elmin genişliyi o dərəcədədir ki, digər bütün elmlər Allah elmi ilə müqayisədə dəniz yanında bir damla kimidir. Başqa sözlə, bununla həm də ona işarə edilir ki, Allah elmi bəşər övladının zəkasının bütünlüklə əhatə edə biləcəyi bir sahə deyil, insan bu sahədə ömrü boyu çalışsa da yalnız bir ömür imkanlarına yerləşə biləcək qədər elm öyrənə bilər. Ona görə Şeyx Səfiəddin də çalışırdı ki, ona ayrılmış ömür boyu Allah elmindən heç olmasa bir qətrəyə sahib ola bilsin.

Ümumiyyətlə, Allaha bağlılıq, Allaha qovuşmaq yolu ilə irəliləmək Şeyx Səfiəddinin həyatının və mənəviyyatının başlıca hədəfi idi. Şeyx Sədrəddin də təkrar-təkrar bildirərdi ki, Şeyx Səfiəddinin bütün himməti və niyyəti həman Tanrı və Tanrının işi idi. O yalnız özü Tanrı yolunda deyildi, həm də bütün xalqı Tanrı yolunu tutmağa sövq edirdi. Xüsusi ilə müridlərini tövhidi dərindən dərk etməyə çağırırdı və Allahdan başqa kimsənin qarşısında baş əyməyi mümkün saymırdı. Şeyx Səfiəddin öz müridlərinə belə təlqin edirdi: "Gərəkdir kim, himmətiniz Tanrıdan özgə heç nəstəyə baş endürməsün və dəxi gərək kim, Tanrıdan həman Tanrıyı istəyəsiniz kim, hər kim Tanrı onunla oldı, dünya ilə axirəti anun tüfeylindən hasil olur. Misalı bu kim, əgər kimsə yüzini günəşə qoyub anun yamacına vara, kölgəsi anun ardından varur və arxası günə ura, kölgəsinün ardına varur. ...Talib yolda ikən hər nəstəyə kim, Tanrıdan özgə başını endürə, həm ol məqamda alur və məqsəd ilə məqsudinə yetməz, həm böylə kim, quşlar qış çağı qışlağa varurlar və yay çağı yaylağa və hər quş kim, dünyanun ab ilə danəsinə baş endürə kim, gövdənün xəttidür, qane ola, ruhani xəttindən məhrum qalır" (28a).

Şeyx Səfiəddin Allah elminə varid olmağın, Allaha qovuşmağın mühüm vasitələrindən birini yaxşı işlərin icrasında görürdü. Allaha qovuşmaq üçün görülməli olan yaxşı (saleh) işləri isə Şeyx Səfiədin belə xarakterizə edirdi: "Həzrət Şeyx (q.s.) buyurdu ki, saleh əməl iki növdür: birisi zahir surəti ilən və biri batini

mənəvi. Amma zahir suri saleh əməl oldur kim, qamu fərziyyələr ilə sünnətləri və şəri ədəbləri yerinə yetürsün və andan xəlayiqə incinmək zahirən yetməyə və bir fel andan olmasın kim, dilinə ziyan dəgə. Amma batinlu mənəvi saleh əməl oldur ki, könli fasid nəfsin buyuruğundan səlaha gətürə və ol hicab kim, həman kim anı götürüldü, kişi vasil olur nəfsdür ki, ... pəs bu nəfsani hicablar çün gidərdi, könül aydın olur, sadiq ilən Tanrının liqasına müşərrəf olur" (29).

Şeyx Səfiəddin sözsüz ki, şəriət buyruqlarının, islam mərasimlərinin düzgün icra ediləsinin, günahdan qaçılmasının vacibliyini qeyd edirdi. Bunları o, zahiri əməllərə şamil edirdi. Batini əməllərə isə Şeyx Səfiəddin daxili etiqadı, Allah yolunda nəfsə üstün gəlinməsini aid edirdi. Nəfsə qarşı mübarizə, maddi dünyaya bağlılıqdan uzaqlıq, məlum olduğu kimi, təsəvvüfün mühüm şərtlərindən biri idi. O insanlar nəfsə üstün gələ bilirdilər ki, onların qəlbində Allah eşqi daha güclü idi. Şeyx Səfiəddəin də ona işarə edirdi ki, nəfsani meyillərə üstün gələndən sonra insanın könlü də aydın olur və bundan sonra Allaha qovuşmaq yolu da açılır.

Dünya nemətlərinə bağlılığın puç olmasını müridlərinə təlqin edərkən Şeyx Səfiəddin islam peyğəmbərinin həyatı ilə bağlı olan bir hekayətə istinad edirdi: "Bir gün yenə Rəsul həzrəti-səlləlahu əleyh və səlləm – Əbu Hüreyrəyə rəziyallahu ənhu-aydır kim: «Sənə dünyanın misalını göstərim», - deyir.

Əlindən yapışdı Əbu Hüreyrənin. İlətdi bir dərya kimi yerə. Ol dərya məzbələ idi. Ayıtdı: «Ya Əbu Hüreyrə! Bax, bu dərya!».

Əbu Hüreyrə baxdı, gördü kim, quru adam başları və sümükləri və əski buzlar və heyvan çifələri və sükükləri dökülmüş yatır biqiyas.

Şol aydır: «Ya Əbu Hüreyrə! İşbu başları kim, görürsən, bu başların kimi igid, kimi qoca, kimi övrət, kimi oğlan, kimi qul, kimi xəlayiq, kimi sultan, kimi vəzirdir. Kimi yoxsul, kimi baydır. Bunlar dəxi bizciləyin adam idi. Bunların daha hirsləri var idi. Uzaq-uzaq sunular sunurlardı. Bunlar daha çərb yeyib nəfis donlar geyirlərdi. Atlar minib yorurlardı. Şimdi gör kim, quru

sümüklər olmuşlar, yatırlar. Ətləri, dəriləri çürümüş, topraq olmuş, nazik çərb yeyən ağızları çənələrindən ayrılmış, yatır.

Və bunların içində kişilər vardır kim, halal-haram deməyib düşürüb yığardı. Və qalın döşəklərdə yatırlardı. Və saraylarda otururlar, deyu. Şimdi gör kim, bu məzbələdə cifə olub necə yatırlardı. Necə topraq olub yatırlar. Gələn-keçən basar bunları. Və kimi bunlardan yanrınır, amma uslular bunlardan ibrət alır və bu yatan əskiləri kim görürsən, yellər dağıdıb savurur. Bunlardan kimi sufi və kimi kimxa və kimi bezdir. Bunlar bu yatanların donları idi. Bunları geyib bunlar sallanır və fəxrlənirlərdi. Şimdi gör çürümüş, yellər savurur.

Bu yatan davar ölülərin kim görürsən, bəzi at, bəzi qatır və bəzi dəvə və bəzi himardır. Bunların binətləri idi. Bunlar bunlara binib dilədikləri yerlərə varırlar, gəlirlərdi. Şimdi gör dökülüb necə yatırlar.

Uş dünyanın misalı kim görürsüz, budur. Aqibət dünyanın işi bu olusardır. Ya Əbu Hüreyrə! Sən daha, mən daha ibrət alalım. Axirət işimizin halı/nın/ şöylə olacağını anlayalım. Şol bizim əlimizdə, qoynumuzda, evimizdə olanlar həp bizim degildir. Bizdən öndən daha hər birinin usu vardı. Bizdən sonra daha usu vardır. Gəlisərdir. Sən onu sanırsan kim, ol sənindir.

Ya Əbu Hüreyrə! Var, indi ölməzdən ön, bu dünyadan könlünü götür. Dünya səni tərk etmədən, sən dünyanı tərk eyləyi gör. Əlində malın fəqirlərə ver gör. Yoxsa ötə, sən daha şöylə olursan», - dedi

Bu dünyaya aldanma! Bunun rahətinə məğrur olma! Bu dünya kimə güldü, aqibət ol ağlamadı? Bu dünyada kim rahət oldu, aqibət ol möhnətə sataşmadı? Hər qancaru baxarsan, bu dünya bir qəm və qüssə görünürdü” (30).

Nəfsə qalib gəlməyin və bununla Allaha qovuşmağın yolunu isə Şeyx Səfiəddin davamlı ibadətdə görürdü və bunu öz müridlərinə də təlqin edirdi. Onun fikrincə, yalnız davamlı ibadət bəndəni nəfsin də əsirliyindən xilas edə bilərdi. “Həzrət Şeyx (q.s.) buyurdu bu ayətdə: “Vəbüd Rəbbəkə hətta yatiyəkəl-yəqinü” (Hicr surəsinin 99-cu ayəsi. Əcəlin gəlib çatana

qədər Rəbbinə ibadət et) kim, bəndə gərək kim ol qədər Tanrını pərəstiş eyləyə kim, nəfsün bəndəligindən xilas ola və həzrət İzzətün yəqininə yetə. Ol çağ bir bəndədür azad və nəfsin qulluğundan azadlığ bulmuş. Misalı ol kim, hər bəndə kim, mükatib oldı, yəni özüni xacəsindən satun aldı, ta bir həbbə bahasından qalmışdur, bəndədür, ta talibin nəfsi vəsvəsəsindən bir şəmməcük vücudunda baqi qalmış ola, həzə bəndədür. Amma həmən kim azadlığı bəlli oldı, gərək kim, bəndəliğ arturaq eyləyə və ixlas üzərindən nəfsün şəvayibindən azad ilə fariğ Tanrının bəndəsi ola kim, ol bəndədən olur kim, Tanrı-təala anı özünə izafət eyləmiş ola və ana "innə ibadi" (Hicr surəsinin 42-ci ayəsi) yəni "mənim bəndəm" demiş ola və bu ayətün zahir mənasından bu məlum olur kim, "ey bəndə Tanrını tap ölümün yetincə" və ol yəqin deməkdən məqsud ölümdür. Və (q.s.) buyurdu: "Yəqin deməkdən məqsud Tanrının mərifətidir. Amma həman kim bəndə ol qayətədəkin ibadət qıldı kim, azad oldı, andan sonra şükranə üçün ibadət eylər: "Əfəla əkunü əbdən şəkurən" (Şükr edən bəndə olmarammı?). Məsələn, hər padşahnun bir bəndəsi var ki, anun qulluğında qarımış ola, padşah anı azad eyləyə və qulluğ etməkdən anı tərxan edə. Danlası özgə qulluqçılardan eylər və xidmətinə gələ və özgələrdən artuq xidmət vəzifəsi yerinə gətürə. Sultan buyura kim, mən səni qulluğdan məzul edüb azad eyləmişəm, bu, xidmətindəndür. Qarı qul söyləyə: "İmdiyədək qul olduğumdan ötrü qulluq eylərdüm, imdi azad olduğumdan ötrü şükranə içün qulluğ edərəm" ( 31).

Ali-İmran surəsinin 7-ci ayəsinə (Ürəklərində əyrilik olanlar fitnə-fəsad salmaq və istədikləri kimi məna vermək məqsədilə mütəşahib ayələrə uyarlar) istinad etməklə düzgün yoldan sapınmağı və bunun üçün müxtəlif bəhanələrə əl atmağı Haqqın dərk edilməsi üçün yalnış yol kimi dəyərləndirirdi. O, belə bir fikri təlqin edirdi ki, əgər insan qarşısına Haqqı tanmaq məqsədi qoyursa yayındırıcı səbəblərdən çəkinməli, nəfsin və o cümlədən də dünyəvi işlərin meydanını kiçiltməli və öz məqsədi yolunda irəliləməlidir. Şeyx Səfiəddin buyururdu ki, dinin tələblərinin icrasına fasilə vermək və bunun üçün dəlillər axtarmaq, əslində,

Haqqdan üz döndərmək və nəfsə meydan verməkdir. Ona görə də məsləhət bilirdi ki, Haqq yolunu tutmaq istəyən salik insan nəfsini cilovlamağı bacarmalıdır. Çünki əks təqdirdə fitnə ilə üzləşər və özgələrini də fitnəyə yuvarlaya bilər. Günah buyurulmuş işlərdən Şeyx Səfiəddin çəkinməyə çağırırdı. Onun fikrincə, günah buyurulan əməllərin nədən günah olmasının sirri yalnız Allaha məxsusdur və bu sirrin cavabının axtarışı insan üçün nəticə verməyə də bilər. Şeyx Səfiədin deyirdi: "...Hər nəstə kim, Tanrı əmr ilə nəhy eyləyübdür, anun həqqini Tanrı bilür və təvil istəməz: "Va ma yələmü təviləhü illallah" (Ali-İmran surəsi, 7-ci ayə. Allahdan başqa onun təfsirini bilən yoxdur). Və anlar kim, ülumda bərkdirlər, həqiqətün elmi əhlidürlər. Yəni hər kim, Həqq-təalanı tanıdı, elmlər qamu anun ola. Və ol qamu nəstələri tanur" (32).

Şeyx Səfiəddin, yuxarıdakıl cümlələrdən göründüyü kimi, Haqqın tanınmasını, onun dərk edilməsini Allah elmlərinin, bütün batini elmlərin son məqsədi sayırdı. Onun fikrincə, məhz Haqqı tanıyanlar elmdə təpərlidirlər və onlar həqiqətə çatmaq yolunun elm əhlidirlər.

Nəcm surəsinin 42-ci ayəsinə (Həqiqətən, axır dönüş sənin Rəbbinədir) istinad etməklə Şeyx Səfiəddin təkid ediridi ki, insanın bu dünyada başladığı yolun sonu onun Rəbbinə dönüşüdür. Onun qənaətinə görə, Haqqı tanımağın və dərk etməyin sonu yoxdur. Amma insan öz həyatının sonuna qədər bu yolda irəliləməlidir. O, əlavə ediridi ki, Haqq yolunun talibi getdiyi yoldan dönməməlidir və bu yoldan dönməyəcəyi təqdirdə məqsədinə nail olacağı da şübhə doğurmamalı idi. Bununla bağlı, Şeyx Səfiəddin islam peyğəmbərinin həyatını örnək göstərirdi: islam peyğəmbəri qarşısına Haqqa qovuşmaq məqsədi qoydu və bu yolda heç tərəfə də meyil etmədi. Nəticədə o öz Allahına yetişə bildi: "Çün Peyğəmbərin (s.) uca himməti var idi və himməti nəzəri heç nəstəyə Tanrıdan özgə qarışmadı və iltifat etmədi, ta kim öz məqsudi ilə məqsədinə yetdi. Həman kim nəzəri mətlubin yüzindən münəvvər qıldı, qayıdanda qamu əşyayı gördi. Andan sonra kim, Tanrı-təala anun gözində və könlində qərar dutmuş idi

və həzrət izzətün əzəməti anun könlində yer eyləmiş idi, heç nəstə dəxi anun gözində və könlində yer dutmadı, ana xitab oxundi. Pəs, bu dəlil ilən gərək kim, salik gözi bağlu mənzilinə yetə və getməkdə yolun üstində və çər-çevrəsində sağa-sola heç nəstəyə baxmaya, zira kim imkanı var kim, yoldakı nəstələrə məşğul olub, məqsuddən məhcub qala" (33).

Şeyx Səfiəddin Haqqı dərk etmək yolundan dönməməyi təkidlə təlqin etməklə, onu bəyan etmək istəyirdi ki, bu istiqamətdə yetərincə biliklərə yiyələnmək üçün səbir, dözüm, qətiyyət, iradə lazımdır. Çünki yuxarıda qeyd edildiyi kimi, Haqqın dərk edilməsi elmi elə bir dərya idi ki, ondan bir damla qazanmağı belə Şeyx Səfiəddin böyük nəticə sayırdı. Onun həyatı da bunu göstərirdi ki, Haqqın dərk edilməsi biliklərinin öyrənilməsi, bütünlükdə bu elm sahəsi çox dərindir və yalnız səbir və ardıcıllıq göstərməklə məqsədə çatmaq olar.

Şeyx Səfiəddin Fatir surəsinin yuxarıda xatırlanan 28-ci ayəsinə (Allahdan öz bəndələri içərisində ancaq alimlər qorxar) də öz münasibətini bildirmişdir. O, qorxmaq anlayışını burada yalnlz fiziki mənada nəzərdə tutmamışdır. Şeyx Səfiəddin qeyd edirdi ki, kimsə Allahını tanıyır və dərk edirsə onun qorxacağı bir şey yoxdur. O da belə bir qənaəti ortaya qoyurdu ki, Allah elminə vaqif olduqca Allahın sifətlərini daha yaxşı tanımaq, Allahı daha yaxşı dərk etmək olar. Allahını yaxşı dərk edən, Allahını yaxşı tanıyan isə Allahın buyurduğu yoldan sapınmaz və bunun nəyə gətirib çıxaracağını yaxşı bilər (34). Allah qorxusu, əslində, Allahı tanımaq, Allaha etiqad kimi qəbul edilirdi. Bu dəyərləri isə yalnız Allah elminə yiyələnməklə daha kamil şəkildə əldə etmək olardı. Ona görə Şeyx Səfiəddin də Allah elminin öyrənilməsinə və bu yolda ardıcıllıq göstərilməsinə çox böyük əhəmiyyət verirdi.

Şeyx Səfiəddin onu da təkidlə bildirirdi ki, Allah elminin yoluna düşmək və bu yolla irəliləmək şüurlu şəkildə və dərin etiqadla olmalıdır. Bunun üçün Şeyx Səfiəddin müxtəlif misallara da müraciət edir və birmənalı şəkildə bildirirdi ki, zahiri görüntülərə yer verməklə Haqq yolunun yolçusu olmaq mümkün de-

yildir. Rəəd surəsinin 28-ci ayəsinə istinad etməklə (o kəslər ki, Allahı zikr etməklə ürəkləri rahat olduğu halda iman gətirmişlər. Qəlblər yalnız Allahı zikr etməklə aram tapar) Şeyx Səfiəddin zahiri görüntüdən uzaq olmağı, Haqq yoluna şüur və etiqadla bağlanmağı zəruri sayırdı. Eyni zamanda o, Haqq yolunda irəliləməyin hansısa fərdi məqsədlərlə bağlanmasını da düzgün saymırdı. Şeyx Səfiəddinin bu fikrinin izahı üçün yuxarıda toxunulmuş bir fikri burada da xarakterik ola bilər: "Könlün istiqaməti Tanrının zikri ilən olur, amma həman bu demək ilən degül, bəlkə ol qədər zikr eyləsün kim, gövdəsinün tüklərin hər biri bir dil olub, zakir ola, andan sonra istədügină yetər. Və munun misalı ana bənzər kim, kişi qupquru yabanda susuz qalub sunun tələbində pərişan olubdur. Həman sunun adun aparmağ ilən susuzlık andan bərtərəf olmaz və suyu yetməyincə və sudan içməyincə susız qalacaqdur. Bəli, gərək kim, zakir ol qədər zikrə məşğul olsun və könli Tanrı-təalanun məhəbbətinə istəsün kim, vüsal susızlığı ana qalib olub, sövq ilə iztirabı arta, ol qədər kim, Tanrınun vüsalı hasil olsun. Pəs, ol könül təsəllisinün bir xass nuri var kim, həman ki ol nur könülə enə, könlün itminanı, yəni təsəllisi hasil olur" (35).

Şeyx Səfiəddin eyni zamanda Haqqı bəsirət gözü ilə tanımağa səsləyirdi. Əslində, bu tövsiyənin mahiyyəti də Haqq yolunun şüurlu münasibətdən keçməsinin təsdiqi idi. Bu fikrinin şərhi ilə bağlı Şeyx Səfiəddin İsra surəsinin 72-ci ayəsinə müraciət edirdi. Həmin ayədə deyilirdi ki, "bu dünyada kor olan axirətdə də kor olar". Şeyx Səfiəddin bununla onu demək istəyirdi ki, yaşadığı həyat hər bir insana yaradılışın mahiyyəti ilə bağlı biliklər verib onun gözünü açmalı, Haqqı insana tanıtmalıdır. Bununla insanda bir bəsirət yaranmalıdır. Yalnız bəsirətlə qiyamət günün haqq-hesabından xəbərdar olar, yaxşı-yamanı bir-birindən ayıra bilər. Bəsirət yolunu Şeyx Səfiədddin Allah yolu bilirdi və bu yolla Haqqa doğru irəliləməyi mümkün sayırdı. O əlavə edirdi ki, bu dünyada Tanrını görə bilməyən, onu dərk etməyən qiyamətdə də həqiqəti görə bilməyəcəkdir (36).

Şeyx Səfiəddəin "Quran"a yalnız müqəddəs kəlamların toplusu kimi deyil, həm də müqəddəs bir abidə kimi yanaşırdı. Onun qərar tutduğu otağa və ya məkana "Quran" gətiriləndə ayağa qalxırdı və bunu bütün müsəlmanlar üçün də vacib sayıdı. Bununla bağlı "Səfvətüs-səfa" əsərində də bir epizod vardır. Həmin epizodda nəql edilir ki, bir dəfə Şeyx Səfiəddinin iştirak etdiyi bir məclisə onun xadimlərindən biri "Quran" ilə daxil olub bir kənarda əyləşir. Şeyx Səfiəddin həmin xadimin əlində tutduğunun "Quran" ola biləcəyini hiss edir və bunu həmin xadimdən də soruşur. Həmin şəxs də əlində tutduğunun həqiqətən də "Quran" olduğunu təsdiqləyir. "Səfvətüs-səfa" əsərində həmin epizod belə təsvir olunmuşdur: "Həzrət Şeyx (q.s.) sordı kim, əlindəki nə nəstədür? Dedi: "Kəlamüllahi-məcid". Həzrət Şeyx (q.s.) həman muni eşidincə ayağa qalxub, ana qəzəb eyləyib dedi: "Çün qapudan içəri girdin, sələvat göndərmədün, ta biz dəxi məlum edib ayağa qalxa idik və ədəb şərti yerinə yetürə idük. Həzrət Tanrı-təala bu kitabı "və innəhül-kitabü əzizün" [həqiqətən, bu, izzətli kitabdır] təzimi ilə izzətləyübdür bir məxluq üçün kim, dünyada iki gün batildə dirilür, ayağa qalxarsınız və izzətin dutarsınız, pəs Xaliqün həqq kəlamı içün kim, lareybün xəzanəsindən enübdür, izzət ilə təzim və ədəb vacibdir" (37).

Qeyd edildiyi kimi, Şeyx Səfiəddindən çox kiçik bir yazılı miras qalmışdır və həmin miras bu böyük təsəvvüf mütəfəkkirinin bütün potensialını açmaq imkanına malik deyildir. Təsadüfi deyildi ki, Şeyx Səfiəddin yalnız zəmanəsinin deyil, bütünlükdə islam tarixinin böyük fikir sahibi kimi tanınmaqdadır. Digər tərəfdən Şeyx Səfiəddinin "Quran" elmi ilə bağlı söylədiyi hər hansı bir fikrin ayrıca, digər fikirlərindən və baxışlarından təcrid olunmuş şəkildə təhlili də heç də həmişə doğru nəticəyə yol aça bilməz. Şeyx Səfiəddinə məxsus olan bütün fikir və baxışlar qarşılıqlı surətdə öyrənilməlidir. Yalnız bu zaman Şeyx Səfiəddinin fikirlərinin tam anlamına sahib olmaq olar.

Bu baxımdan Şeyx Səfiəddinin Allah elmi haqqında söylədikləri fikirlər onun islam peyğəmbəri, təsəvvüf yolunun məqamları haqqında dediyi fikirləri tamamlamaqdadır. Onun "Qara

məcmuə” adı altında toplanmış fikirlərində, o cümlədən “Səfvətüs-səfa” əsərində islam peyğəmbərinin hədislərinin, buyuruqlarının açılması, düzgün şərhi ilə bağlı ilə də bir sıra fikirləri qalmışdır. Həmin fikirlər də Şeyx Səfiəddinin islam mütəfəkkiri kimi çox dərin biliklərə malik olmasını nümayiş etdirir.

Hələ gənc yaşlarından Şeyx Səfiəddin peyğəmbər şəriətinə düzgün əməl edilməsi üçün iik növbədə onun öyrənilməsini qarşısına məqsəd qoymuşdu və bunu mürşidi Şeyx Zahid də ondan ciddi şəkildə tələb edirdi. Peyğəmbər şəriətinin düzgün öyrənilməsi isə peyğəmbər elminə yiyələnmək üçün başlıca zəmin idi. Şeyx Zahid təkidlə Şeyx Səfiəddindən tələb edirdi ki, onun yanında olan digər müridlərin islam biliklərinə necə yiyələnməsinə baxmasın, onlardan nümunə götürməsin və bu işdə özü ardıcıllıq nümayiş etdirsin. Çünki Şeyx Zahid onun istedad və qabiliyyətinə yaxşı bələd idi. Digər tərəfdən Şeyx Zahid şübhə etmirdi ki, Səfiəddin həm də Haqq tərəfindən islamın irşadına vəzifələndirilbdir. Ona görə ona da məsləhət görürdü ki, dini bilikləri yaxşı öyrənsin və islam peyğəmbərinin şəriətinə bütün könlünü bağlasın və kimsənin verə biləcəyi suallar qarşısında da çətinliklə rastlaşmasın. Şeyx Zahid eyni zamanda “böylə buyurdu kim, çün Tanrı-təala irşadı sana həvalə qıldı, gərəkdir kim, həqiqət ilə şəriəti cəm eyləyəsən və həqiqətün lüqməsi şəriətün kisvətində müridlərin qursağına buraxasan. Pəs, həzrət Şeyx Səfiəddin (q.s.) təmami-ömrində şəriətin mütabiətində eylə qədəm basdı kim, bir qıl başınca şəriətün xilafı andan zahir olmadı, nə qövl ilən və nə fel ilən” (38).

“Səfvətüs-səfa”nın təsdiq etdiyi kimi, Şeyx Səfiəddin bütün ömrü boyu peyğəmbər şərətinə sözü və əməli ilə riayət etdi. Çünki şəriəti də çox dərindən bilirdi və ona əməl etməyin də nə demək olduğunu yaxşı bilirdi. Şeyx Səfiəddin eyni zamanda islam peyğəmbərinin həyatı, fəaliyyəti və ondan miras qalmış hədisləri ilə yaxından tanış idi. Peyğəmbər hədislərinə, bu hədislərdə toxunulan məsələlərə yaxşı bələd olduğu üçün idi ki, hədisləri də düzgün və ətraflı şərh edə bilirdi.

“Səfvətüs-səfa” əsərində Şeyx Səfiəddinin islam peyğəmbərinə olan bağlılığının təsdiqi üçün xeyli sayda hekayətlər verilmişdir. Həmin hekayətlər bir tərəfdən Şeyx Səfiəddinin peyğəmbər elminə bələdliyini nümayiş etdirirsə, digər tərəfdən də onun peyğəmbər şəriətini irşad etməyə haqqı olacaq dərəcədə bilik sahibi olmasını nümayiş etdirirdi.

“Səfvətüs-səfa” əsərində Şeyx Səfiəddinlə islam peyğəmbəri arasındakı bağlılığı əks etdirən hekayətlərdən biri Pirə İzzəddin adlı bir təsəvvüf əhlinin adından verilmişdir. Həmin hekayətə görə, Pirə İzzəddin təsəvvüfün sirlərinə müstəqil şəkildə yiyələnməyə çalışırmış və bunun üçün təsəvvüfün məqamlarını da təkbaşına keçmək istəyirmiş. Bir dəfə Pirə İzzəddin Ərdəbil yaxınlığında Şeyx Səfiəddinlə rastlaşır. Bu zaman Şeyx Səfiəddin Gilandan geri dönmüş və Ərdəbil xanəgahında mürşidliyə başlamışdı. Pirə İzzəddinlə yaranan qısa söbət zamanı Şeyx Səfiəddin onu xanəgaha gəlməyi və onun mürşidliyi altında müridlik etməsini təklif edir. Pirə İzzəddin isə Şeyx Səfiəddinə mürid olmağa razılıq vermir. Amma bunu da bilir ki, təsəvvüfə kamil yiyələnmək üçün bir mürşidə ehtiyacı vardır. Belə bir mürşid sorağında ikən Həmədanda Şəms Əhməd adlı bir bilikli dərvişin olmasından xəbər tutur və qərara alır ki, onun yanına yollananaraq mürşidliyini qəbul etsin. Pirə İzzəddin özünə bir neçə yoldaş da taparaq onlarla Həmədana yollanmaq barəsində razılığa gəlir. Səfərə yola düşməzdən bir gün əvvəl Pirə İzzəddin məcidə gəlir və necə olursa orada onun gözlərini yuxu aparır. Yuxuda görür ki, bir dəstə adamla məclisdə oturubdur və məclisdəkilərin hamısının üzü qibləyə tərəf olsa da, onun üzü əks tərəfədir. Bundan həyəcan keçirərkən qulağına bir səs gəlir ki, sən könül əhlindən üz döndəribsən və ona görə də sənin üzün qiblədən dönmüşdür. Pirə İzzəddin sual edərək soruşur ki, üzünü döndərdiyi könül yiyəsi kimdir? Cavab gəlir ki, Pirə İzzəddinin üzünü döndərdiyi könül yiyəsi Ərdəbildəki müsəllada oturubdur və ona məsləhət görülür ki, Ərdəbilə gedərək həmin könül yiyəsi ilə görüşsün və ondan muradını istəsin. Bunu eşidəndən sonra Pirə İzzəddin yuxusunda Ərdəbilə dönür. Həmin hekayətin sonrası “Səfvə-

tüs-səfa”əsərində belə təsvir olunmuşdur: “Çün bu ün qulağıma gəldi, həm ol uyxuda yüzümi müsəlla sarusuna qoyub yügürürdüm. Həman kim müsəllaya yetdim, bir qələbə cəmaətlər gördüm: qamu nuranu, cəmi peyğəmbərlər ilə övliyalar anda hazır. Sövq artuqluğundan bunlara heç nə deməyüb gedərdüm. Nagah bir ulu şeyxi gördüm kim, Peyğəmbəri-ərəbi (sələvatullah və məlaikə əleyhü) Məhəmmədül-Mustafa ol təxtin üstündə oturur. ...Və ol həzrətin yanında bir kişi niqablı oturur və Peyğəmbərün əshabı qarşuda durub səflər çəkibdürlər. Həman kim həzrət Peyğəmbərin (ə.s.) qutlu yüzünü gördüm, çağırdım ki, ya Rəsulallah, qövrümə yet və bir mürşid mana göstər. Ol həzrət işarət eyləyib, məni öz yanuna aparub buyurdı kim, irşadi-müstəqim kim, Haqq yoludur, əvvəl mən eyləmişəm və məndən sonra Əli bn Əbi Talib (ə.s.). Pəs mürşidlər kim, anun sərvəridürlər, biri birindən sonra adlarun Şeyx Zahidədəkin apardı. Pəs buyurdu: “İmdi mürşidi-kamil bu kişidir ki, mənim yanımda oturubdur”. Dedim: “Ya Rəsulallah (s.), bu, nə kişidir?” Mübarək əlini uzadub ol kişinin yüzündən bürqəi götürdi. Həmin kim mən anun yüzünə baxdum, Şeyx Səfiəddini gördüm (q.s.). Bir ah çəkdüm kim, həm həyasızlar ilə ədəbsizlik etdim kim, böylə irşad sultanı hazır ikən Şəms Əhmədin yanına varurdum. Bu heyrətdə aciz qaldım və bilməzdim kim, sonucı işüm nərəyə yetər. Həzrət şahi-dinpənab əmirəlmöminin Əli (ə.s.) ögümə gəlüb buyurdı: “Qorxma kim, kərəm ilə mürüvvət anundur, suçunı bağışlar”. Mən Peyğəmbərə (ə.s.) derdüm: “Ya Rəsulallah, mənim üçün şəfaət eylə kim, anunla ədəbsizlik etmişəm”. Peyğəmbər mənim əlümi dutub tövbə ilə təlqinüm verdi.

...Bu halətdə bir nərə urub uyqudan oyandum. Yanumdakılar sordular kim, bu çığırmağun səbəbi nə idi? Anlara gördügüm vaqiəni hekayətlədüm.

...Çün məsciddən dışaru gəldüm, Mövlana Əbdüllətif kim, Şeyxün (q.s.) zaviyəsində pişnamazlıq edirdi, göründi. Dedim: “Şahı sevərsən, məni həzrət Şeyxün (q.s.) qulluğuna apar”. Pəs, anun yoldaşlığı ilən Şeyxin xidmətinə yetdim və Şeyx (q.s.) öz zaviyəsində oturmuş idi və faidəlü sözlər deməgə məşğul idi.

Mövlana Əbdülləltifdən sordı kim, bu, kimdir? Dedi: "İranilərün qövmündəndür". Mana işarət qılıb buyurdı: "İrəli gəl". Çün əlim Şeyxün əlinə qoydum, buyurdı: ""Mövlana, ta yüzün qiblədən dönməyə və Peyğəmbər (ə.s.) səni yanuma göndərməyə, yanumıza gəlməyəsən". Pəs, dönəndə gördügüm hekayətləri qamusın əvvəlldən axıradəkin dedi. Anları eşidincə başumı ayağına qoyub tövbə ilə təlqin aldım və Şeyxün himmətindən bir nəstə ki, umardum, buldum" (39).

«Səfvətüs-səfa"əsərində bu yolla oxucuya çatdırılır ki, Şeyx Səfiəddin islam peyğəmbərinin xeyir-duasını almağa layiq olan bir etiqad və bilik sahibi idi. Peyğəmbər isə o şəxslərin mürşidliyinə xeyir-dua verərdi ki, onlar islam dəyərlərinə, peyğəmbər şəriətinə dərindən bələd idilər, təqva sahibi idilər, islam yolunu canlandırmağa yetərli ola biləcək bilik sahibi idilər. Başqa sözlə, onlar həm də peyğəmbər elminə vaqif idilər.

Yəqin elə buna görə idi ki, adı çəkilən əsərin müəllifi də islam peyğəmbərinin dili ilə islam irşadının məhz Şeyx Səfiəddin tərəfindən aparılmasının əhəmiyyətinə işarə edirdi. Əsərdə təsvir olunan hekayətlərin birində haqqında danışılan şəxslərdən biri islam fərzlərinin və şəriət hökmlərinin kimdən öyrənilməsi haqqında islam peyğəmbərinin bəyanını eşitmək istəyəndə, ondan Şeyx Səfiəddinə üz tutulması cavabını almışdı. Çünki Şeyx Səfiəddin etiqad sahibi olmaqla bərabər, həm də geniş bilik sahibi idi: "İbrahimün xatirinə keçdi ki, çün həzrət Məhəmmədün (ə.s.) əlində müsəlman oldum, şəriətün ərkanı ilə islamın fəraiz və nəvafili kimdən ögrənəyim və dəxi həzrət Peyğəmbəri (əleyhissəlavar vəs-səlamı) nərədə görəyim. Bu məna həzrət Rəsulallahdan sual qıldı ki, din ilə şəriətin ərkanı kimdən təlim almaq gərəkəm? Peyğəmbər (ə.s.) buyurdu kim, din ilə şəriətin adabı və irşad ilə təriqətün ərkanı mənüm xələf ilə xəlifəmün Səfiəddin Ərdəbilidən ögrən. Dedi: "Ya Rəsul, mən anı tanımazam, anun yeri nərədədür?" Həzrət Peyğəmbər (ə.s.) çağırub dedi: "Ya Şeyx Səfiəddin!" Şeyx Səfiəddin bu avaz eşidincə minbərin ögindən ayağa qalxub ləbbeyk cavab verdi. Peyğəmbər (ə.s.) İbrahimi Şeyxə tapşurdı və əlini Şeyxün əlinə qoyar idi. Ol, Şeyxün əli və

Şeyx anun əlini dutar idi dəxi İbrahimün xatirində keçdi kim, hər qaçan kim ani istər olam kim, andan din təlqini və təriqət irşadı təlim alam, anı nərədə bulayım? Şeyx (q.s.) İbrahimin əlini bərk dutdı, yəni əpsəm ol. Pəs, İbrahim, Şeyxün hüzurində oturdı və islamun ərkanı və ibadətlərün fərizləri və təharət vacibatı və cənabət qüsli və namaz ilə oruc keyfiyyəti təlim alurdı və ol qəbul eylər idi. Həman kim uyxudan oyandı, duşda ögrəndügi təmam xatirində var idi" (40).

Bu hekayətdə Şeyx Səfiəddinin Allah və peyğəmbər elminə dərindən bələd olması ilə bərabər, həm də onun kəramət sahibi olmasına işarə edilmişdir.

«Səfvətüs-səfa" əsərində müqəddəslərin iradəsinin ifadə edilməsi üçün yuxulardan da geniş istifadə edilmişdir. İstər Şeyx Səfiəddinin, istər haqqında danışılan digər şəxslərin müqəddəslərlə bağlılığı, onların istəklərinin bəyan edilməsi çox hallarda yuxular vasitəsilə çatdırılmışdır. O cümlədən, elə Şeyx Səfiəddinin kəraməti, onun fəziləti haqqında da maraqlı şəxslərə yuxular vasitəsilə bilgilər verilmişdir. Şeyx Səfiəddinlə islam peyğəmbəri və digər islam müqəddəsləri arasında olan ruhi-mənəvi bağlılıq da əsasən yuxularla bəyan edilmişdir. Bu mənada yuxular «Səfvətüs-səfa" əsərinin qəhrəmanları üçün dini-mənəvi əhəmiyyət kəsb edirdi.

Belə yuxuların birində də Seyyid Müşərrəfəddin adlı birisinin dilindən danışılır ki, bir dəfə o, yuxuda islam peyğəmbərini gördü. Dediklərinə görə, islam peyğəmbəri də onu gördükdə qucaqlarını açıb yanına çağırdı. Seyyid Müşərrəfəddin də sevincək ona tərəf irəliləyir və yaxınlaşanda onu səsləyənin islam peyğəmbərinin deyil, Şeyx Səfiəddinin olduğunu görür. Belə olanda o, qışqıraraq yuxudan ayılır və yuxuda gördüklərini yanındakılara danışır. Sonra bir neçə rükət namaz qılaraq yuxusuna davam etmək istəyir. Bu dəfə də əvvəlcə gördüyü yuxu təkrar olunur. Ayılıb yenidən yatanda yenə də həmin yuxunu görür və anlayır ki, bu yuxuda bir hikmət var. Seyyid Müşərrəfəddin dövrünün böyük təsəvüvf və bilik adamlarından imiş. Bununla belə, yuxuda gördüklərindən sonra o, Şeyx Səfiəddinin daha

böyük mürşidi olmas və onun mürşidliyinin islam peyğəmbəri tərəfindən də təqdir olunması qənaətinə gəldi və Şeyx Səfiəddinə mürid olmaq qərarını verdi. O öz qərarını belə izah edirdi: "Pəs, uyxudan oyanub qardaşlarıma görmüş vaqiələri bildürdüm kim, bu gecə üç qatla həzrət Peyğəmbər (s.) məni Şeyx Səfiəddinün (q.s.) tövbə ilə irşadına həvalə qılubdur, mən ana mürid olacağam. Dedilər: "Biz dəxi sənə müvafiqət eylərüz və bu, bir ulu dövlət olacaqdur". Danlası tövbə eylədük və təlqin alduk və riyazətə məşğul olduk. Seyyid Şərəfəddinin oğlu Seyyid Nəcməddin dedi: "Çün atam başını qırxdı və siyadət asarı, yəni saçların gidərdi, özgə seyyidlər dedilər kim, seyyid, bu qədər elmü fəzl ilə ulu mərtəbə xəlayiq içində kim, səndə var idi, neşün böylə eylədün?" Seyyid Şərəfəddin dedi: "Rəhmətullah əleyhi, cəddümdən Məhəmməd Mustafa (ə.s.) siyadət nəsəbi yalğuz mana miras dəgmüş idi və ol nəstə ki, siyadətün əslidür ki, ol Tanrıyı bilmək və mərifəti hasil etmək və təqva ilə təharətə əməl eyləməkdür, munda tapdım" (41).

Bu sətirlərdən göründüyü kimi, dövrün tanınmış seyidləri də təsdiq edirdilər ki, Şeyx Səfiəddin Tanrının dərk edilməsi, onun tanınması, mərifət, təqva və təharət haqqında daha geniş və dərin biliklərə malik idi və ona görə tanınmış seyidlər də onun müridi olmağı, ondan öyrənməyi böyük bir məmnunluqla qəbul edirdilər.

Şeyx Səfiəddinin islam peyğəmbərinə bağlılığını, islam peyğəmbəri tərəfindən onun təqdir edilməsini özündə əks etdirən bir neçə digər hekayət də «Səfvətüs-səfa" əsərində yer almışdır. Bu hekayətlər də görülən yuxular üzərində qurulmuşdur. Çünki islam peyğəmbəri ilə Şeyx Səfiəddin arasındakı mənəvi-dini bağlılığın nümayiş etdirilməsi üçün yuxulara müraciət edilməsi mümkün olan vasitələrdən biri idi. Həmin yuxulardan biri təbrizli Mövlana Nəcməddinin adından hekayət edilmişdir. O bir gün yuxuda görür ki, Təbrizin şəhər carçısı əhali arasında car çəkib islam peyğəmbərinin Təbrizə qonaq gələcəyini xəbər verir. Bu xəbəri eşidən kimi bütün sakinlər şəhərin mərkəzinə toplanır və islam peyğəmbəri Təbrizə daxil olanda insanlar onun ziyarətinə

yollanırlar. İslam peyğəmbəri şəhərə daxil olandan sonra qədim bir məscidin minarələrinin birinin yanında oturur. Mövlana Nəcməddin xatırlayırdı ki, həmin minarənin yanında Şeyx Səfiəddin da oturub və ibadət edərmiş. İslam peyğəmbəri də istirahət üçün məhz Şeyx Səfiəddinin bəyəndiyi yeri seçmişdi. Mövlana Nəcməddin bununla həm Şeyx Səfiəddinin islam peyğəmbəri tərəfindən təqdir olunduğunu bəyan edirdi, həm də Şeyx Səfiəddinin elm və bilikdə zəmanəsinin yeganəsi kimi dəyərləndirirdi. Yuxusundan sonra bir dəfə Mövlana Nəcməddin yuxuda gördüyü Təbriz məscidinin yanından ötürmüş. Müşahidə edir ki, həmin məscid ətrafına çoxlu adam toplaşıbdır. Yaxınlaşıb nə baş verdiyini soruşanda ona deyirlər ki, Şeyx Səfiəddin Təbrizə gəlib və indi bu məsciddədir. Mövlana Nəcməddin məscidə daxil olanda Şeyx Səfiəddinin yuxuda gördüyü kimi islam peyğəmbərinin oturduğu yerdə oturduğunu gördü. Bununla da onda bir daha Şeyx Səfiəddinin müqəddəslər tərəfindən təqdir edildiyinə əmin oldu və ona görə də Mövlana Nəcməddinin onun ayaqlarından öpməyi özünə borc bildi (42).

Şeyx Səfiəddinin islam peyğəmbərinə bağlılığını nümayiş etdirən başqa bir hekayət isə «Səfvətüs-səfa" əsərində xalxallı Mövlana Siracəddin adından təsvir edilmişdir. O, gənc yaşlarından islam elmlərini və biliklərini öyrənməyə başlamışdı. Bu sahədə təhsilini başa vurub geri qayıtdıqdan sonra atası onu Şeyx Səfiəddinin yanına apardı və lazım bildi ki, Mövlana Siracəddin öz təhsilini və biliyini burada daha da kamilləşdirsin. Mövlana Siracəddin də Şeyx Səfiəddinin mürşidliyi altında biliklərini genişləndirməyə başladı. Bu zaman o, Şeyx Səfiəddindən bəzən mübarək kəlamlar eşidirmiş. Onda o öz-özünə bu kəlamların mənasını başa düşməyə çalışıb onların başqa yerlərdə səsləndirilməsinin mümkünlüyünü fikirləşir. Bu fikirlər onun başında dolaşdığı günlərin birində islam peyğəmbərini yuxuda görür. Həmin zaman islam peyğəmbəri ibadətlə məşğul imiş. Mövlanə Siracəddin yuxuda islam peyğəmbərini görməsinə çox böyük sevinc keçirir və islam peyğəmbərinin buyuruqlarını çox böyük həyəcanla qarşılayır. İslam peyğəmbəri ona bəyan edir ki, Şeyx

Səfiəddinin dediklərinin hamısı haqqdır və onun dediklərinə şübhə ilə yanaşmasın. İslam peyğəmbəri sonra onu da əlavə edir ki, Şeyx Səfiəddindən tövbə almaq məndən tövbə almaq dərəcəsindədir və ona təlqin edir ki, Şeyx Səfiəddinə inamla yanaşın (43).

Maraqlı hekayətlərdən biri «Səfvətüs-səfa" əsərində ərdəbilli Mövlana Bəhaəddin Əlinin dilindən nəql edilmişdi. Adı çəkilən əsərdə bu şəxs "mövlanai-aləm" (aləmin mövlanası) kimi təqdim olunmuşdur. Yəni bildirilir ki, dövrünün tanınmış təsəvvüf adamlarından biri və həm də böyük nüfuz sahibi idi. O da həyatını təsəvvüfə həsr etmişdi və bu yolun bütün incəliklərinə bələd olmağa çalışırdı. Amma sufilərin bir-birindən fərqli libaslarda olmasını o özlüyündə düzgün saymırdı və bunun doğru olub-olmadığını müəyyənləşdirməyə çalışırdı. Bu fikirlərlə dolaşdığı günlərin birində məsciddə gözlərini yuxu aparır və islam peyğəmbəri onun yuxusuna girir. Mövlana Bəhaəddin Əli islam peyğəmbərinin ziyarətinə yollanır və ayaqlarını öpdükdən sonra onu narahat edən sualı da islam peyğəmbərinə ünvanlayır. Mövlanə Bəhaəddin bildirir ki, tayfaların hərəsi bir libas geyir və biz də bu libasların hansının təsəvvüf yoluna uyğun olmasını müəyyənləşdirməkdə çətinlik çəkirik. Bu sözləri eşitdikdən sona islam peyğəmbəri ətrafdakıları diqqətlə nəzədən keçirir və gözü Şeyx Səfiəddinin müridlərinə sataşır. Onları göstərərək bildirir ki, bu libaslar daha düzgündür. İslam peyğəmbəri Şeyx Səfiəddin tərəfdarlarının tutduğu yolun doğruluğuna işarə edərək bildirir ki, onların yolu haqqdır və onlar mənim şəriətimdən azacıq da olsa kənara çıxmayıblar. Ona görə də məsləhət bilinir ki, Şeyx Səfiəddinin yolu doğru yol kimi izlənilsin. İslam peyğəmbərinin bu sözlərini eşidəndən sonra Mövlana Bəhaəddin dərhal Şeyx Səfiəddinin xanəgahına yollanır, ondan tövbə və təlqin alandan sonra zikr və ibadətlərini davam etdirir (44).

«Səfvətüs-səfa" əsərinin müəllifinin, əslində, reallıq kimi qələmə aldığı yuxulardan bir başqasında da islam peyğəmbərinin Şeyx Səfiəddinin etiqadına verdiyi dəyərdən söz açılır. Nəzərə alınsa ki, «Səfvətüs-səfa" hekayətlərinin çoxu Şeyx Səfiəddinin

oğlu, onun mirasının layiqli davamçısı, təriqət rəhbəri, zəmanəsinin böyük təsəvvüf əhli Şeyx Sədrəddin tərəfindən nəql olunmuşdur, onda belə bir qənaətə gəlmək olar ki, Şeyx Sədrəddin də atası haqqında danışılan yuxuların gerçəkliyinə inanırdı. İslam peyğəmbərinə istinadən, yuxarıda deyildiyi kimi, Şeyx Səfiəddin şəriətin doğru yolunu irşad edirdi və müridlərini də bu yoldan dönməməyə hazırlayırdı. Yenə elə yuxulara əsaslanan hekayətlərdən birində deyilir ki, bir dəfə Şeyx Səfiəddin ətrafına toplaşan insanları yanına alaraq islam peyğəmbərinin ziyarətinə aparır və onları islam peyğəmbərinin bayrağı altına gətirirdi. Bununla deyilirdi ki, Şeyx Səfiəddin müsəlmanları parçalanmağa qoymurdu və onların islam bayrağı ətrafında birləşməsinə çalışırdı (45).

Mövlana Siracəddininin adından qələmə alınan başqa bir hekayətdə deyilir ki, ilk vaxtlar onun Şeyx Səfiəddinin yanında mürid olmağa elə də meyli yox imiş. O fikirləşirmiş ki, hidayət kitabı olan "Quran" var, islam peyğəmbərinin hədisləri var və müsəlman üçün zəruri olan bilikləri bu mənbələrdən əldə etmək olar. Ona görə də mürşid yanına gedilməsi əlavə bir iş kimi dəyərləndirilirdi. Həmin vaxtlarda Şeyx Səfiəddin artıq mürşidliyi ilə aləmdə tanınmışdı və Mövlana Siracəddin də fikirləşirdi ki, mürşid olmadan da dini biliklərə yiyələnmək olar. Amma yuxuda islam peyğəmbərini görməsi və onun buyuruqlarını eşitməsi Mövlana Siracəddini öz fikrindən dönməyə məcbur edir. Yuxuda ikən öz səhabəsi ilə olan islam peyğəmbəri üzünü ona çevirib Şeyx Səfiəddini işarə verir. Bundan sonra islam peyğəmbəri onun nəzərinə çatdırır ki, bu duran kişi Şeyx Səfiəddindir, o mənim xəlifəmdir və tövbə ilə təlqin icazəsi indi ona verilibdir. Mövlana Siracəddin yaxınlaşaraq Şeyx Səfiəddindən tövbə və təlqin alır. Bundan sonra islam peyğəmbəri bir də üzünü ona tərəf çevirərək bildirir ki, "imdi və mundan sonra qiyamətədək bu hökm anlarun əlində olacaqdır". Bu yuxunu görəndən sonra Mövlanə Siracəddin tərəddüd etmədən Şeyx Səfiəddinin yanına yollanır, ondan tövbə ilə təlqin aldıqdan sonra təsəvvüf yolunu tutur (46).

Şeyx Səfiəddin biliklərin dərindən öyrənilməsinə tərəfdar olduğu kimi, onlara əməl edilməsini də insanlar üçün zəruri sayırdı. Bunu o, ətrafında olan müridlərdən, ünsiyyətdə olduğu təsəvvüf əhlindən və din xadimlərindən də tələb edirdi. Şeyx Səfiəddin şübhə etmirdi ki, insanlarının elm və bilik yolunu tutmaları zamanı bu işin zahiri tərəfi ilə batini tərəfi bir-birini tamamlamalıdır. Elm öyrənən adamın öyrəndiklərinə əməl etməməsini həmin insanın qeyri-kamilliyi ilə bağlayırdı və bunun aydın başa düşülməsi üçün uyğun bir müqayisə də aparırdı. Onun fikrincə, elminə əməl donu geyindirməyən adamın hərəkəti xəstəliyi ilə bağlı həkim yanına gedən, lakin həkimin dediyini etməyən bir adamın hərəkətinə bənzəyirdi. O danışırdı ki, insanlar xəstələnəndə həkim yanına yollanırlar və həkim də onun vəziyyətini yoxlayandan sonra müalicəsi üçün dərmanlar məsləhət görür. Xəstələnən adam sağalması üçün gərək həmin dərmanları tapıb qəbul etsin. Sonra Şeyx Səfiəddin yazırdı ki, əgər xəstə adam yalnız həkimin yazdığı resepti oxumaqla kifayətlənərsə və reseptdə yazılanları tapıb qəbul etməzsə, onda onun səhhəti yaxşılaşmaz. Şeyx Səfiəddinin fikrincə, bilik öyrənməyə çalışan adam da yalnız əlinə keçən kitabları oxumaqla kifayətlənərsə onun elmindən nə fayda ola bilər? Belələri nə özləri üçün, nə də ətrafındakıar üçün faydalı və gərəkli bir insana çevrilə bilməzdilər. Ona görə Şeyx Səfiəddin elm və bilik öyrənilməsini elmin əməllə qarşılıqlı əlaqəsində görürdü (47).

"Səfvətüs-səfa"da olan bir hekayətə görə, bir dəfə bir Təbriz sakini Şeyx Səfiəddinin yanına gəlibmiş. Şeyx Səfiəddin ondan adını soruşduqda deyir ki, əsil adım Məhəmməddir, amma insanlar məni daha çox Arif deyə çağırırlar. Bunun səbəbi soruşulanda həmin adan cavab verir ki, təsəvvüflə bağlı bir para kitablar oxuyubdur və ona görə də ətrafındakılar onu Arif deyə çağırırlar. Amma söhbət zamanı məlum olur ki, Arif adlanan adam heç də arif bir insan deyildir. Belə olanda Şeyx Səfiəddin ona təlqin etməyə çalışır ki, oxuduqlarından nəticə çıxararaq onları həyata keçirməyə çalışsın. Çünki Şeyx Səfiəddinin fikrincə, oxuduqları oxunan kitabların müəlliflərinə məxsus fikirlər və

kəlamlar idi. Ona görə o tövsiyə edirdi ki, oxunanlar və öyrənilənlər inkişaf etdirilsin. Bununla bağlı da Şeyx Səfiəddin bir müqayisə aparmışdı. Onun sözlərincə, əgər bir tacir öz xidmətçisini uzaq bir ölkəyə ipək və qumaş almağa göndərə və həmin xidmətçi də getdiyi ölkədən aldığı ipək və qumaş haqqında öz sahibinə bir siyahı göndərirsə, bu siyahını ipək və qumaş yerinə satmaq mümkün olmaz. Gərəkdir ki, həmin ipək və qumaş gəlsin çıxsın. Yəni bununla o belə bir qənaətə gəlirdi ki, elm və bilik ardınca gedən adam yalnız ariflərin əsərlərini oxumaqla özünün işini bitmiş bilməməli və özünü arif saymamalıdır. Ariflik öyrənilənlərin əmələ çevrilməsi və öyrənilənlərin inkişaf etdirilməsi ilə tamamlanmalıdır (48).

Şeyx Səfiəddin eyni zamanda elm və biliklərin sistemli və davamlı şəkildə öyrənilməsini zəruri sayırdı. Onun fikrincə, biliklərə mərhələli şəkildə yiyələnmək lazım idi. Yəni talib və ya bilik axtarışına başlayan adam bu yolda addım-addım irəliləməli idi. İlk növbədə təməl biliklər öyrənilməli və sonra da bu biliklər dərinləşdirilməli idi. Yox, əgər bilik axtarışında olan adam birdən-birə çox ciddi əsərləri, başa düşülməsi müəyyən hazırlıq tələb edən əsərləri oxumağa başlasaydı ümidində olduğu nəticələrə yetə bilməzdi: "Şeyx (q.s.) buyurdu kim, əvvəl riyazət çəkubəni dərvişlərün müamilələri hasil etmək gərək, sonra bu məqalatlar mütaliə qılmaq gərək, ta faidələr verə və kəndü etdiklərün müamilələri ol risalətlərdə görəsən və qamunun keyfiyyətlərin məlum eyləyəsən. Və əgər ol məqalatun risalələri mütaliə eylərsən, ol müamilələri hasil etmədin faidə verməz və işdən qalursan. Eylə kim, məsələn, bir qara qul hər gün meydana varurdı və yarım dirəm hasil qılub anunlən qənaət qılırdı. Bir gün bir gəncnamənün bitigi (xəzinə haqqında sənəd- M.S.) tapdı, andan sevinüb ol gün axşamadəkin anun mütaliəsinə məşğul oldı və hal ol kim, gəncnamənün oxuduğundan heç faidə hasil olmazdı, bəlkə hər günki qazanduğundan qalurdı" (49).

Heç şübhəsiz ki, Şeyx Səfiəddini islam aləminin ən böyük mütəfəkkirləri sırasına çıxaran onun biliyi, etiqadı və ibadəti (əməl) idi. Bu keyfiyyətlər bir-birini tamamlayırdı. O əgər lazımi

bilik dərinliyinə malik olmasaydı onun etiqadı və ibadədi kamil ola bilməzdi və əksinə. Dövrünün ən tanınmış bilik adamları Allah elminin, peyğəmbər elminin sirlərinin açılması üçün son nəhayətdə ona müraciət edərdilər və gizlinlərin sirrini də onun dilindən eşidərdilər. Ondan miras qalmış fikirlər, «Səfvətüs-səfa" əsərində onun adından nəql edilmiş hekayətlər bu və ya digər dərəcədə Şeyx Səfiəddinin elmi və biliyi ilə bağlıdır. Həmin fikirlərdə birbaşa elmin, biliyin əhəmiyyətinə və dəyərinə toxunulmasa da, əslində, bu fikirlər onun biliyinin ifadəsi idi. Bütünlükdə, onun həyatı, irfanı, sufiliyi biliklər üzərində qurulmuşdu və fəaliyyətinin mahiyyətini də elə biliyə çağırış təşkil edirdi. Ümumən, Şeyx Səfiəddin ona görə müvəffəq təsəvvüf əhli idi ki, bütün ömrü boyu biliklərə yiyələnməyi və onların öyrədilməsini özünə həyat yolu seçmişdi.

## 2. Şeyx Səfiəddinin təsəvvüf baxışları

Şeyx Səfiəddin islam dünyasının təsəvvüf zirvələrdindən biridir və ona görə, əslində, onun bütün həyatı sufi görüşlərinin əməli ifadəsidir. O yalnız təlimi ilə deyil, həm də əməli həyatı ilə müridlərinə bir nümunə idi və nəzəri hazırlıqdan uzaq olan müridlər, sufilər və dərvişlər də təsəvvüf yolunda onun əməli fəaliyyətindən, davranışından nümunə götürürdülər. Ona görə də Şeyx Səfiəddinin təsəvvüf görüşlərindən danışarkən onun əməli fəaliyyəti də təsəvvüf görüşlərinin əməli ifadəsi kimi dəyərləndirilə bilər. Bu məqamın mühümlüyü ondadır ki, təsəvvüflə bağlı Şeyx Səfiəddinin bütün baxışları mövcud yazılı əsərlərdə özünün tam əksini tapmamışdır. Mövcud olan fikirlər isə oğlu Şeyx Sədrəddinin və müridlərinin dilindən qələmə alınmışdır. Bu fikirlər hazırda Şeyx Səfiəddinin təsəvvüf görüşlərini dəyərləndirmək üçün böyük əhəmiyyət kəsb etsə də, onlar mükəmməl deyil. Çünki bir tərəfdən mövcud olan yazılı abidələr Şeyx Səfiəddinin bütün təfəkkürünü əhatə etmək imkanına malik deyil, digər tərəfdən də həmin fikirlərin başqalarının dilindən səslənməsi bu

fikirlərdə müəyyən təhriflərə yol verilməsini də istisna edə bilməz.

Məlumdur ki, Şeyx Səfiəddinin təsəvvüf görüşlərini özündə əks etdirən bəzi toplu fikirləri "Qara məcmuə" adı altında elmi-ictimai dövriyyəyə gətirilmişdir. "Səfvətüs-səfa" əsəri də Şeyx Səfiəddinin dini, ictimai və təsəvvüf görüşlərinin öyrənilməsi üçün mənbə sayla bilər. Bu kitabda onun haqqında danışılan çoxsaylı hekayətlərdə müxtəlif dini və təriqət məsələləri ilə bağlı fikirləri, baxışları və əməlləri öz əksini tapmışdır. Bu əsərin dördüncü babının birinci fəslində Şeyx Səfiəddinin "Quran"i-Kərimin ayələri haqqındakı təfsirləri yer almışdır ki, burada təsəvvüfün müxtəlif məsələləri ilə bağlı da dəyərli fikirlərlə rastlaşmaq mümkündür.

Şeyx Səfiəddinin təsəvvüf görüşlərinin mərkəzində Haqqa qovuşmağın yolunun tapılması dayanır. Bu, əslində, bütün təsəvvüf əhlinin qarsında dayanan başlıca məqsəddir. Ona görə də Haqqı tanımaq, ona doğru irəliləmək və ona qovuşmaq Şeyx Səfiəddinin təsəvvüf görüşlərində də aydın bir xətt kimi özünü göstərməkdədir. O, Haqqa doğru irəliləməyi hər bir sufinin vəzifəsi sayırdı və bunun üçün Allah elminin öyrənilməsinə təkid edirdi. Allah elminə bələd olmayan sufi öz Allahını tanıya da bilməzdi. Amma Şeyx Səfiəddin bəyan edirdi ki, Allah elmi sərhədsiz bir dəryadır, bu dəryanın nə əvvəli var, nə də sonu. "Quran"i-Kərimin Taha surəsinin 114-cü ayəsini, yəni "Pərvərdigara! Mənim elmimi artır" buyuruğunu şərh edərkən Şeyx Səfiəddin bildirirdi ki, Allah elmini əhatə etmək mümkün deyildir. Lakin bəşər övladı bu elmdən nəyi isə hasil etməyə çalışmalıdır (50).

Məlumdur ki, yuxarıdakı ayə Tanrı tərəfinfən islam peyğəmbərinə göndərilmiş buyuruq idi. Şeyx Səfiəddin bu ayənin şərhində onu da bəyan edirdi ki, əgər Allahı tanımaq elminin öyrənilməsini Tanrı islam peyğəmbərinin vəzifəsi bilridisə, deməli, bu vəzifə həm də islam hümmətinə aiddir.

Allah elminin məhvərini isə Şeyx Səfiddinə görə tövhidə, Allahın təkliyinə etiqad təşkil edirdi. O, Allahın təkliyini iqrar

edən “la ilahə illəllah” ifadəsinin sadəcə dilə gətirilməsini yetərli saymırdı. Şeyx Səfiəddinə görə, bu ifadəni dilinə gətirənlərlə, bu ifadənin mərifətinə bələd olanlar başqa-başqa etiqaddan xəbər verirdi: “Həzrət Şeyx (q.s.) buyurdı: “Anlar “la ilahı illəlah”un əhlidürlər, yok həman dil ilə demək, bəlkə “la ilahə illəllah”un mərifəti əhli, yəni anlar ki, bilici olalar, “la ilahə illəllah”a andan ötrü kim, “la ilahə illəllah” deyənlər özgədürlər və “la ilahə illəllah”un mərifətinə arif olanlar özgə və anlar ki, bu sifət ilən mövsufdurlar, anların əli Tanrunun əsrarı xəzinəsinə yetüpdür. Çün anlar əhldürlər, hər nəstə kim, anlardan sual qılalar, əgər bilməyələr, Tanrıdan məlum edüb cavab verərlər” (51).

Şeyx Səfiəddin onu da bəyan edirdi ki, Tanrını tanımadan heç bir elmə vaqif olmaq mümkün deyil. Yalnız Allahı tanımaqla bütün elmlərin açarını əldə etmək mümkündür (52).

Şeyx Səfiəddin “la ilahə illəllah” kəlməsini sufi zikrlərinin də əsası sayırdı və şübhə etmirdi ki, bu ifadənin zikri sufinin tövhid etiqadını möhkmləndirməklə həm də onun qəlbini yumşaldır və insan qəlbində ibadət inamına zəmin yaradır: “Şeyx Sədrəddin (r.r.) dedi kim, həzrət şeyx (q.s.) buyurdı ki,”La ilahə illəllah”un təyyibat kəlməsi çox deməgün xasiyyətlərindən biri budur kim, könlün məzrəəsi yumşaldur və ibadət ziraətinə qabil edər və köki könlünün dibinə batdurur və nəfsün xəbis kökini qoparur. Misalı bu kim, bir faidəlü ot kim, içərlər, ağrığ zəhməti gidərməgə ağrığun ardınca varur. Həman kim ana yetdi, anun kökini qoparur. ...”la ilahə illəllah”un kəlimeyi-təyyibəsi saleh əməli qabil və məqbul edər” (53).

Şeyx Səfiəddin bildiriri ki, “la ilahə illəllah” ifadəsi islam vacibatındandır. Bu ifadə həm də Tanrının vahidliyinə ilqar gətirmək idi. Sufi üçün sadəcə bu cümləni təkrar etmək kifayət deyildi. Haqq yolunun yolçuları bu ifadənin kəsb etdiyi mənanın doğruluğuna etiqat gətirməli idilər (54).

Haqqın tanınmasında yanlışlıqlara yol verilməməsi üçün Şeyx Səfiəddin “Quran”dan İbrahim peyğəmbərin başına gələnləri misal göstərirdi. Bəllidir ki, müxtəlif inanclara mənsub olan insanlar yaradanı Onun yaratdıqlarının timasılında axtarmağa

cəhd göstərirdilər. Bu isə məlumdur ki, bütpərəstliyə, yanlış inanclara yol açırdı. İbrahim peyğəmbər də belə yanlış inanclara meyil etmiş, amma sonda Tanrının mahiyyətini dərk etmişdi. Şeyx Səfiəddin insanları da İbrahim peyğəmbərdən nümunə götürməyə, inanclarında yanlışlıqlara yol verməməyə çağırırdı: "Həzrət Şeyx buyurdı: "Fələmma cənnə əleyhil-leylü rəa kövkəbən. Qalə haza Rəbbi" (Gecə qaranlığı [İbrahimi] bürüdükdə o, bir ulduz görüb: "Bu mənim Rəbbimdir" – dedi. *Ənam surəsi, 76-cı ayə*). Həqq-təala İbrahimə bu halətdən ilərü göglərdəki ilə yerlərdəki qamu ana göstərmiş idi və İbrahümün yəqini hasil olmuş idi. Qalə Allahü-təala: "Və kəzalikə nuri İbrahimə mələkutəs-səmavati vəl-rəzi və liyəkunə minəl-muqininə" (Allah-təala buyurdu: "İbrahimə göylərin və yerin mülkünü, səltənətini göstərdik ki, tam qənaətlə inananlardan olsun. *Ənam surəsi, 75-ci ayə*). Və göglərün yulduzları ilən Ay və Günəş birlə və göglərin qalınlığı yerlər ilən andan irəlü ana görsədüb bildürmiş idi" (55).

Şeyx Səfiəddin sözlərinə davam edərək bildirirdi ki, İbrahim peyğəmbər ulduzu görəndə onu öz Tanrısı bildi, sonra günəşi gördü və Tanrını onda axtarmağa çalışdı. Amma istər ulduzun, istər ayın, istərsə də günəşin batmasını görüncə özündə bu qənaətə gəldi ki, onlar heç də Tanrı deyillər. Sonra fəhm ilə bu qənaətə gəldi ki, yerdəkilərin və göydəkilərin özləri də Tanrı lütfünə möhtacdırlar. Bu yolla İbrahim peyğəmbər Tanrıya olan yolu tapdı və Tanrısına qovuşdu. Şeyx Səfiəddin sufiləri də Tanrıya aparan müstəqim yola tapınmağı tövsiyə edirdi.

Tanrıya yetmək üçün Şeyx Səfiəddin eyni zamanda islam peyğəmbərinin həyatını bir nümunə sayırdı. O buyururdu ki, islam peyğəmbərinin uca hümməti var idi və onun hümməti-nəzəri Tanrıdan başqa heç bir varlığa yönəlmədi. Nəticədə də o öz məqsədinə yetişdi: "Andan sonra kim, Tanrı-təala anun gözində və könlündə qərar dutmuş idi və həzrət izzətün əzəməti anun könlündə yer eyləmiş idi, heç nəstə dəxi anun gözində və könlində yer dutmadı" (56).

Şeyx Səfiəddin bu məqama toxunduqdan sonra salik insanlara tövsiyə edridi ki, onlar gərək Tanrıya aparan yolda ardıcıl olsunlar, heç nə onları yayındırmasın, izlədikləri yolun sağına-soluna baxmasınlar. O şübhə etmirdi ki, rastlaşdıqlarına yayınanlar öz məqsəinə yetişə bilməzlər və tanrıya yetişmək üçün salik insan öz məqsədini və məramını əvvəlcədən düzgün müəyyənləşdirməlidir.

"Və innə ila Rəbbikəl-müntəha" (həqiqətən, axır dönüş sənin Rəbbinədir – *Nəcm surəsi, 42-ci ayə*) ayəsinə istinadla Şeyx Səfiəddin bildirirdi ki, talibin yolu Tanrı yoludur və bu yolun bir sonu var. Yəni bu yolun sonu Tanrıya qovuşmaqdır. Amma bir şərtlə ki, talib gərək Tanrıya aparan yolun şərtlərinə riayət etsin, Tanrı yolunda ardıcıllıq göstərsin və əgər çətinliklərlə rastlaşsa belə yolundan dönməsin. Yalnız bu zaman o, öz məqsədinə yetişə bilərdi. Bu fikrini ifadə edərkən Şeyx Səfiəddin onu da əlavə edirdi ki, Tanrı yolçuluğunun bir sonu olsa da, Haqq-təalanın sonu yoxdur (57).

Şeyx Səfiəddinin diqqətini cəlb edən məsələlərdən biri də Tanrı yolunda olan insanın, Tanrısını tanıyan insanın davamlı şəkildə Tanrıya ibadətdə olmasıdır. İbadət insana həm də könül bəsirəti gətirirdi və bu könül bəsirəti də öz növbəsində Tanrını tanımaq üçün insanların istinad edə biləcəyi bir vasitə idi. Ona görə Şeyx Səfiəddin Tanrını tanımaq üçün insanları könül bəsirəti qazanmağa çağırırdı. Fikrinin əsaslandırılması üçün Şeyx Səfiəddin islam peyğəmbərinin bu hədisinə müraciət edirdi: "Peyğəmbər (s.) demişdir: Allah-təala buyurmuşdur: Kim mənə düşmənçilik edərsə, ona müharibə ilə xəbərdarlıq edərəm. Mənə əlavə dua-namazlarla yaxın olanları sevərəm. Və onları sevirəmsə, onlara qulaq asmağa qulaq, görməyə göz, vurmağa əl, hərəkət etmək üçün ayaq olaram, nə istəsələr – verərəm və dərhal ona kömək edərəm" (58).

Şeyx Səfiəddin ibadət və səcdənin də yalnız Tanrıya ünvanlanmalı olması haqqındakı "Quran" ayələrinin icrasını öz fikirlərində qabarıq şəkildə ifadə edirdi. Təsəvvüf əhlinin nəfsini idarə edə bilməsi üçün qarşılaşdığı sınaqlar, riyazət və müraqibə də

yalnız Tanrı üçün edilən ibadət idi. Şeyx Səfiəddindən miras qalmış fikirlər toplusunun birində o, mələklərin Adəmə səcdə qılmasını heç də səcdənin yalnız Allaha ünvanlanması tələbi ilə uyğunsuzluq təşkil etmədiyini bildirirdi və fikrini belə izah edirdi: «Ol vaxt kim, Həqqi-təala həzrət Adəmin qalıbını qüdrət əli ilə düzüb və məlaikələrə səcdə üçün əmr etdi, ol əmr xud həqq oldu. İndi ol vaxt Həqqi-təala Adəmin qalıbında kəndüsünü gizlətdi, məlaikələr kəndüyə səcdə etdilər. Pəs İblis – əleyhəllənə ol vaxt təkəbbürlük edib səcdə etmədi, məlun və mətrud oldu. Bu mənadan kim, İblis qeyri-həqq sandı və Həzrəti-Həqqi Adəmin məzhərində görmədi və tanımadı. «Əbi vəs-təkbərə və kanə minəl-kafirin» oldu (Tərcüməsi: İblisdən başqa hamı səcdə etdi. /yalnız/ o, lovğalanaraq /səcdə etməkdən/ imtina etdi və kafirlərdən oldu. *«Bəqərə » sürəsi, 34 -cü ayə* /. Dorumuz (?), bisəm və bibəsər, biyəd və biyəmşi və bibətəi İblis əleyhəl-lənət kəşf oldu. Və bilmədi kim, Həqdən qeyriyə səcdə qılmaq küfrdür. «Mən səcdəül-qeyr Allah fəqəd kafər». Tərcüməsi: «Əgər Adəm qeyri-həqq olaydı, ona səcdə eləyən kafiri-mütləq olaydı». Pəs məlum oldu kim, səcdə Həqqədir, Həqqdən qeyriyə səcdə qılmaq caiz dəgildir. Əgər Həqq üçün edərsə, ol kişi kafiri-mütləq olur. Bu mənayı yaxşı fəhm eylə, əqlində sekəliyə gör, ta kim, «Latə -fəğhua»lardan olmayasan. «Ula-ikə kəl-ə nami bəlhum əzəllu ula-ikə humul-gafilun» (Tərcüməsi: Bunlar heyvan kimidirlər, bəlkə də /ondan/ daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz onlardır! *«Əraf» surəsi, 179-cü ayə* ). Onların şənında gəlmişdir ki, həqqi batildən fərq eyləyəməzlər və Adəmə səcdə eyləyəməzlər, səlat və zəkat əhlindən degildirlər, cənabi Həqqin əsrarın nəql və tavil eyləyəməzlər. Heyvan kimi şərabi-şəhvətdən özgə bilməzlər. «Yələmunə zahirənminəl-hə-yatid-dünya və humənil -axirəti hum gafilun» (Tərcüməsi: Onlar dünya həyatının zahirini /ticarət və əkincilik işlərini, məişət məsələlərini/ bilirlər, axirətdən isə xəbərsizdilər. *«Rum» surəsi, 7-ci ayə* )" (59).

Yəni Şeyx Səfiəddin "Quran" bəyanlarına istinad edərək bildirirdi ki, Allah-təala həzrət Adəmi xəlq edəndə öz sifətlərini də onda təcəlli etdirmişdi və ona görə də mələklərdən ona səcdə

etməsini tələb etdi. Allahın sifətlərini həzrət Adəmdə görənlər ona səcdə etdilər. Şeytan isə həzrət Adəmdə Allahın təcəllisini görə bilmədi və ona səcdədən imtina etdi.

Gilək dilində olan şerlərinin birində Şeyx Səfiəddin belə yazırdı:

Həman hoy, həman hoy, həman hoy
Həman kövşən, həman dəşt, həman kuy
Əz vacəm oyan tənha çu mən bur
Be hər şəhri beşəm hey haye hey hoy (60).

Bu sətirlərin təxmini məzmunu belədir: Həman xudadır, həman xudadır, bənzəri olmayan təkdir, sifətlərində və zatında təkdir. Mənim istəyim budur ki, Allah sevgisi mənim qismətim olaydı, hansı şəhərə getsən orada Allah müştaqı çoxdur (61). Şeyx Səfiəddin bu sətirlərində həm Allahın bənzərsizliyini vəsf edirdi və həm də Allah sevgisi ilə yaşadığını ifadə edirdi. Bu fikirlər Şeyx Səfiəddinin təsəvvüfünün ana xəttini təşkil edirdi.

İslam peyğəmbərinin yolunu Şeyx Səfiəddin Haqqa qovuşmaq yolu bilirdi və onun rəhbərlik etdiyi təriqət də "Quran" buyuruqları ilə islam peyğəmbərinin hədisləri, sünnəsi və buyuruqları üzərində qurulmuşdu. Şeyx Səfiəddin islam peyğəmbərinin hədislərini və sünnəsini olduğu kimi qəbul etməyi və onlara əsaslanmağı təlqin edirdi. Onun nəzərində Allah elmi ən kamil şəkildə islam peyğəmbərinin şəxsində təcəssüm etmişdi və peyğəmbərin buyuruqları Haqqdan gələn buyuruqlar idi. "Səfvətüs-səfa" əsərinin dördüncü babının ikinci fəsli Şeyx Səfiəddinin islam peyğəmbərinin hədislərinin təfsirinə həsr edilmişdir. Bu fəsildə təfsir olunan hədislərin sayı elə də çox deyildir. Lakin həmin hədislərə yanaşma üsulu və təfəkkürü bütünlükdə, Şeyx Səfiəddinin islam peyğəmbərinin buyurduğu yola, onun şəriətinə etiqadını nümayiş etdirir. Onun Məhəmməd şəriətinə olan etiqadını, əslində, bütün həyatı boyu izləmək mümkündür. Elə təriqətlə şəriətin vəhdətdə götürülməsi Şeyx Səfiəddinin peyğəmbər yolunun doğruluğuna olan etiqadı idi.

Adı çəkilən əsərdə islam peyğəmbərinin elə bir hədisinə münasibət bildirilmişdir ki, talibin iki günü bir-birinin təkrarı olsa, o, məğbundur. Şeyx Səfiəddin bu hədisi şərh edərkən bildirirdi ki, islam peyğəmbəri talibləri daim inkişafda olmağa çağırırdı. İki günün bir-birinin təkrarı olması o deməkdi ki, bu günlər ərzində talibin düşüncəsində, təfəkküründə dəyişiklik baş verməyib, irəliləməyibdir. Şeyx Səfiəddin buyururdu ki, sufi ən azı gündə gərək bir əsa boyunca hərəkət edə, irəliləyə. Bu hərəkət və irəliləyiş yalnız fiziki hərəkət kimi deyil, həm də mənəvi irəliləyiş, etiqad və iman irəliləyişi kimi də, onun etiqadının daha da güclənməsi, ibadətinin daha da dərinləşməsi kimi nəzərdə tutulurdu (62).

Təriqət taliblərindən və müridlərindən də məhz bu keyfiyyət, etiqad, iman dəyişikliyi istiqamətdində çalışmaq tələb olunurdu. Şeyx Səfiəddin özü də hər zaman riyazəti, münaqibəni, nəfs ilə mübarizəni, Haqq yolunda irəliləməyi həyatının mənası sayırdı və ömrünün son anlarınadək etiqadının və əqidəsinin yolunda ardıcıllıq göstərməkdən usanmadı.

Şeyx Səfiəddin islam peyğəmbərinin "Vətən sevgisi imandandır" hədisinə də öz şərhini vermişdir. Bu hədisə istinadən ona belə bir sual verilir ki, kafir də öz vətəni Firəngistanı sevir və bu kafirdə iman ola bilərmi? Bu sualın qarşısında Şeyx Səfiəddin belə bir cavab vermişdir: "Q.S.buyurdı: "Hübbül-vətən"ün mənası budur kim, kişi üns ilə müşahidə aləmindən həbs ilə zindan aləminə gəlübdür və imdi ol aləmi sevər. Bu sevmək imandandur" (63).

Şeyx Səfiəddinin bu şərhinin özünün açılamsına ehtiyac vardır. Amma onun söylədiklərindən və bəyanlarından belə bir qənaətə gəlmək olar ki, Şeyx Səfiəddin burada insan ruhunu nəzərdə tutmuşdur. Çünki onun söhbətlərində belə bir fikir mövcuddur ki, insan ruhu insan qəfəsində (bədənində) həbs olunubdur və dünyəvi həyatın başa çatması ilə bu ruh də insan qəfəsindən azad olur və batini dünyaya qovuşur. Çox güman ki, Şeyx Səfiəddin burada təsəvvüfdən doğan fikrə, vəhdəti-vücuda işarə etmişdir.

Şeyx Səfiəddinin şərh etdiyi peyğəmbər hədislərindən biri ilahi sifətlərin insanda təcəssüm olması ilə bağlıdır. Bu barədə ondan sual edilir ki, bəndə bəndədir, Tanrı da Tanrı. Tanrının sifətləri bəndədə necə zühur edə bilər? "Həzrət Şeyx (q.s.) buyurdı: "Tanrı-təala hər bəndəni kim seçdi, anı bir sifət ilə öz sifatinə məcaz ilə mövsüf edər, eylə kim, Həqq-təala kərimdir, bəndəyə bir kərəm verür və Tanrı-təala rəhimdür, bəndənün könlində bir rəhim salur. Allah-təala mömindür, bəndəsi dəxi mömin edər və munun kimi misallar çoxdur" (64).

Peyğəmbər hədisinə istinad edən Şeyx Səfiəddinin qənaəti belədir ki, Tanrı yaratdığı bəndələrin vücuduna özünün sifətlərini də lütf etmişdir. Həmin bəndə Tanrı yolunu tutarsa onda Tanrının sifətlərini də müşahidə etmək mümkün olar. Şeyx Səfiəddin rəhbəri olduğu təriqətin yolçularına da məhz belə doğru Tanrı yolçuluğunu təlqin edirdi ki, Tanrı sifətləri onlarda daha parlaq şəkildə təcəssüm etsin.

Tanrı yolunun sadiq yolçuları isə nümayiş etdirdikləri bəndəliyinin sonunda övliya məqamına da yüksələ bilirdilər. Bu övliyalarla bağlı bir hədisin də Şeyx Səfiəddin tərəfindən təfsiri "Səfvətüs-səfa" əsərində öz əksini tapmışdır: "Sual qıldılar bu hədisdən ki, "Övliyai təhtə qübabi la yərifühüm ğeyri" (Mənim övliyalarım mənim qübbələrmin (göylərimin) altındadır, onları məndən başqa kimsə tanımaz) anlar hanğıdurlar və olamı kim, anlar dəxi özlərini vəli sağınmayalar?"

Peyğəmbər hədisindən qaynaqlanan bu sualın qarşısında Şeyx Səfiəddin belə bir cavab verdi: "Cavab. Həzrət Şeyx buyurdı kim, vəlilik üç qismdür: Əvvəl, ol kim, ol özi bilə ki, vəlidür, amma el anı bilməyələr. İkinci. Oldur kim, nə özi bilür kim, vəlidür və nə el. Və Mustafanun (s.) "övliyai təhtə qübabi" deməkdən məqsudi bu vəlidür. Üçüncüsü, ol kim, özi bilə ki, vəlidür və el dəxi bilələr ki, vəlidür və Tanrı-təala anı vilayət sərhəddinə yetürmiş ola və kəndü mərifətini ana bildürmiş ola və anı andan qayıtdurmuş ola xəlqə tərbiyət ilə irşad vermək içün və xəlqə görsətmiş ola. Pəs əvvəlki vəliyi-amlardurlar, yəni abdallar və övtadlar və anlar üç yüz qırx yeddidürlər kim, xəlayiq anları

bilməzlər. İkincisi, vəliyi-xaslardürlar kim, bəkülli Həqq-təalaya məşğuldurlar kim, özini tanımazlar və Tanrıdan özgə kimsə anları tanımaz. Üçüncüsi, xassül-xasdurlar kim, anlar Tanrı-təalayi bilübdürlər və Tanrı-təala anları xəlqə gösrədübdür irşad etməyə və kəmal mərtəbəsi verüb xəlqə göndərübdür" ( 65).

Şeyx Səfiddin "Əl-Buyuruq" risaləsində də övliyaların məqamına toxunmuşdur. Bu risalədə də islam peyğəmbərinin dilindən övliyalarının islam aləmindəki məqamlarının yüksək olması qabardılmışdır. Şeyx Səfiəddinə görə islam peyğəmbəri təriqət rəhbərlərini övliya adlandırmışdı. Bu dəyərləndirmə, əslində, elə Şeyx Səfiəddinin özünə də aid edilə bilər. Məlumdur ki, Şeyx Səfiəddin övliya məqamına yetişmişdi və Tanrı tərəfindən ona kəramət verilmişdi. "Əl-Buyuruq" risaləsində islam peyğəmbərinin adından verilmiş bəyan belə idi: "Pəs ol vaxt Əsədullahül – qalib Əmirəlmöminin Əli ibn Əbu Talib həzrətlərini hüzuruna istədi və ayıtdı:

- Ya Əli! Qürbi-həqqə müvasilət qərib olmuşdur. Mən dünyadan axirətə gedirəm və sənə bir qaç vəsiyyət edirəm. Gərəkdir kim, qəbul edəsən, iki cahanda əziz və möhtərəm olasan. Zira təriqət içində lazım olan nəsnələrdir, mənə Cəbraili-əmin həzrət Rəbbil-aləmindən vəhy gətirmişdir. İndi şəriət ənbiyanın və təriqət övliyanındır, mərifət sulükdur, həqiqət vəslət məqamıdır. Öylə haqq olmaqdır. Pəs bu cövhərləri «Yazı»da sənə yadigar verəlim" (66).

Bu vəsiyyətdə peyğəmbərlə övliya arasında hansı fərqin olmasına da işarə edilmişdir. Söylənilən fikir həm də Şeyx Səfiəddinin qəbul etdiyi fikirdir. O şübhə etmirdi ki, islam peyğəmbəri bütün insanlıq üçün göndərilmiş Tanrı rəsuludur. Peyğəmbər (nəbi) həm də övliyalar üçün peyğəmbər idi və övliyalar "Quran"a istinad etməklə onun şəriətinin irşad edilməsi üçün övliya məqamına yetişmişdilər. İslam dünyasının böyük sufilərindən biri olan Seyid Yəhya Bakuvi peyğəmbərlə övliya arasında olan fərqi belə izah edirdi: "Heç şübhəsiz ki, bütün nəbilər heç kimə bağlı olmadıqları halda, istər avam olsun, istərsə də seçilmiş (xas) olsun, göndərildikləri bütün bölgənin

insanlarına peyğəmbər olaraq göndərilmişlər Məhəmməd peyğəmbərə bağlı övliya əgər bir müriddirsə, o, yalnız xüsusi qullar üçün göndərilmişdir. Əslində, heç bir övliya o mərtəbəni öz-özlüyündə əldə edə bilməz. Ancaq Peyğəmbər (s.a.v.) həzrətlərinə qəti bir şəkildə etiqadla əldə edə bilər. Hətta bir övliya "Mən Məhəmmədə etiqad etmədən öz-özlüyümdə övliya oldum" – deyə bir iddiada olursa, bu söz küfr sayılır. "Övliyalıq məqamı peyğəmbərliyin bir cüzüdür. Peyğəmbərimizin batini hər bir övliyanın yanında vəfat edənə qədər əmanət qalır. Övliyalardan məqsəd zahir elmi ilə əlaqəli hər bir insan deyildir. ...Beləliklə, vəli Məhəmməd peyğəmbərə varis bir oğul yerindədir: elə bir oğul ki, atanın zahirən və batinən sirri mövqeyindədir" (67).

Yəni övliyalar peyğəmbərə bərabər tutulacaq məqam deyildirlər, onlar peyğəmbərin zahiri və batini sirlərini irşad etmək üçün vəzifələndirilmiş müqəddəslər və ariflərdir.

Şeyx Səfiəddinin söylədiklərinə görə, islam peyğəmbəri pak etiqadlı möminlərə, "ümməti-xas"a yüksək dəyər verirdi və onlara söylənilən vəsiyyətlərə ciddi yanaşmağı tövsiyə edirdi. O, tövsiyə edirdi ki, möminlər peyğəmbərlərin sirlərini öyrənsinlər, övliyaların irşadına könül versinlər. İslam peyğəmbəri diləyirdi ki, möminlikdə pak etiqadı olan insanlar qiyamət günündə peyğəmbər bayrağı altında toplanaraq şəfaətdən məhrum qalmayacaqlar. Bu şəfaət, heç şübhəsiz ki, islam irşadı ilə məşğul olan Şeyx Səfiəddin kimi kəramət sahiblərinə də aid idi. Peyğəmbər tərəfindən açıqlanan bəyanları Şeyx Səfiəddin, şübhəsiz ki, özü üçün də həyat dərsi kimi qəbul edirdi və bu bəyanların icrasını təriqət rəhbəri kimi dini və insani borcu sayırdı.

Şeyx Səfiəddindən qalmış öyüdlərə görə, islam peyğəmbəri Haqq yolunu tutmuş insanları övliyaların ədəb və ərkanından yaxşıca bəhrələnməyi tövsiyə edirdi və belələrini özünün dostu sayırdı. "Əl-Buyuruq" risaləsinə görə, islam peyğəmbəri həzrət Əliyə müraciətlə belə dedi: «Ya Əli! Həqq olub mühibbi-övliya olan kimsənələrə təlqin edib bu vəsiyyətləri deyəsən. Gücləri yetdikçə əla qədrihi övliyanın ədəbindən və ərkanından eşidələr. Bilib, öyrənib övliyanın təriqin dutub gedələr və ona görə əməl

edələr. Və daha hər kim bu vəsiyyətləri dinləyib mucibincə əməl edərsə, ol mənim dostumdur, mən ondan xoşnud oluram, yarın həqqin camalını kəndisinə göstərirəm. Və hər kim bu vəsiyyətləri eşidib tutmaz isə, mənim düşmanımdır», - dedi" (68).

Şeyx Səfiəddin peyğəmbərdən qalmış bu vəsiyyəti özü qəbul etməklə bərabər, onu həm də təriqət əhlinə ünvanlayırdı. Yəni daim bilik arxasınca getmək, hər gün inkişafda olmaq hər bir sufinin davamlı vəzifəsi olmalı idi. Yalnız bu şərtlə təsəvvüf əhli Allaha qovuşmaq yolunda uğurla irəliləyə bilərdi. "Əl-Buyuruq"da qeyd olunur ki, Şeyx Səfiəddin islam peyğəmbərindən qalmış vəsiyyətləri təriqət əhlinə çatdırdı və həmin vəsiyyətlərə uyğun olaraq müridlərə islami bilikləri irşad etdi. Başqa sözlə, bu risalədə belə bir qənaət ortaya qoyulur ki, Şeyx Səfiəddinin irşadı həm də peyğəmbər vəsiyyətinin icrası idi. Çünki bildiklərini müridlərə öyrətmək övliyalar qarşısında islam peyğəmbəri tərəfindən qoyulmuş bir vəzifə idi: "Şeyxi-aqil və kamil və qürbi-həqqə vasil təhqiq xəlifətullah ənduh Şeyx Səfiəddin – rəhmətullah həzrətləri buyurur: «Hacan bir talib bu vəsiyyətləri dinləsə və mənasını anlasa, ol talib Həqq hüzurunun əmn və amanında olub dünya və axirət qorxularından qiyamət günündə bizim ilə həşr olur. Bu «Vəsiyyətnamə» oxunur/sa/, kimi qulaq dutub dinləməsə və mənasın anlamasa, gözü, könlü, bəyanda övliyanın ədəbin yerinə gətirməsə, ol talibdən Allah bizar, Rəsulallah bizar və filcümlə dünya və övliyalar və məlaikələr bizar olurlar», - dedi" (69).

Başqa bir fikrində Şeyx Səfiəddin taliblərin və müridlərin övliya irşadına və tərbiyəsinə əməl etməli olduğunun vacibliyini qeyd edirdi. Yəni əgər övliya "Quran" sirlərini, habelə peyğəmbər şəriətini, onun zahiri və batini sirlərini irşad etmək vəzifəsi daşıyan bir müqəddəs insandırsa, onun irşadından boyun qaçırmaq mürid və talib üçün arzuedilməz sayılmalı idi. Övliyadan üz döndərmişlər Şeyx Səfiəddin tərəfindən hətta iblisə uymuş insanlar kimi qəbul edilirdi: "Şeyx Sədrəddin ayıtdı: «Ya Şeyx! Bir talib övliyadan üz döndərsə, halı necə olur?».

Şeyx Səfi həzrətləri buyurdu: «Bir talib övliyadan üz döndərsə, pirdən dönmüş olur. Piri qəbul etməmiş, iblisi qəbul etmiş olur. Münkirdir, münafiqdir, üzüqaradır, dünyadan axirətə imansız gedər. Bir talib bir talibə nəfəs versə, bir gün vədə ilə üç gün olsa, varmasa yeddi gün olsa, varmasa, ya on iki gün olsa varmasa, ol talib nəfəsə can buldurmasa, ol nəfsdən ötrü taliblər onunla durub oturmasınlar. İqrarına can buldurmayınca hər kim onunla durub otursa, övliya nəfəsinə iman gətirməmiş olur, üzüqara olur. İlla məgər kim ol talibin üzrü olmuş ola. Öylə olunca vədəsinə xilaf etmiş olmaz. Gəlib mürüvvət dedikdə qəbul edələr. Zira kim «Əl üzr əndə kəramül nas» məqbul deyib buyurmuşlar gərək. Tərcüməsi: Ol talib bu taliblərdən üz döndərirsə, münafiqdir» (70).

Övliyalıq Tanrıya qovuşmaq yolunda möminlərin qazana biləcəyi ən yüksək mərtəbələrdən biridir. Şeyx Səfiəddinin fikirlərindən belə bir qənaət hasil olur ki, o, övliya dedikdə həm də təriqət şeyxini (mürşidini) nəzərdə tutmuşdur. Şeyx Səfiəddinin təriqət şeyxi haqqında, mürşid-mürid münasibətləri haqqında maraqlı fikirləri vardır. O, şübhə etmirdi ki, təriqət şeyxi səviyyəsinə qalxmaq üçün talib təsəvvüf məqamlarına sahib olmalıdır, mürşidinin rəhbərliyi altında konkret mərhələləri adlamalıdır, riyazəti ilə, ibadəti ilə mürşid səviyyəsinə yüksəlməlidir. Şeyx Səfiəddin onu da bəyan edirdi ki, mürşidlik səviyyəsinə yetişmək üçün mürşidin rəhbərliyi altında təlim almaq lazımdır. Mürşid rəhbərliyi altında irşad və təlim almağı Şeyx Səfiəddin bütün müridlər üçün vacib sayırdı. Mürşid yol göstərən, istiqamət verən, təlim edən, öyrədən bir mömin adam idi. Mürid isə təriqətə daxil olmaq üçün mürşidin rəhbərliyi altında irşad və təlim alan, riyazət və münaqibə görən bir insan idi. Müridlərin hansı keyfiyyətlərə malik olması haqqında yuxarıda danışıldı. Ümumən, onu qeyd etmək lazımdır ki, Şeyx Səfiəddin mürid-mürşid bağlılığının klassik məktəbini keçmişdi və özü də əldə etdiyi təcrübənin qətiyyətli və ardıcıl şəkildə həyata keçirilməsinin tərəfdarı idi. "Müzzəkkiün-nüfus" ("Qəlbləri paklaşdıran") risalədə Şeyx Səfiəddin mürid-mürşid (şeyx) münasibətləri haqqında belə

bəyan edirdi: “ Şöylə bilgil kim, bu şeyxlər hər iş kim işlərlər, həqq dəsturunsuz işləməzlər. Ey əziz! Neçə nəsnələr vardır kim, talib onu xeyir sanır, amma şərdir. Və necə nəsnələr vardır kim, talib onu şər sanır, amma xeyirdir. Pəs kişi hər işini bir işarət əhlinə məşvərət etmək xeyirlidir. Bunu bildikdən sonra bunu daha bilgil kim, müridligin bir ədəbi daha şeyx sevdigini sevib və şeyx sevmədigini sevməməkdir. Əgər ol şeyx diləmədigi kişi müridin atası, anası, oğlu, qızı daha olarsa. Çün şeyx rədd etdi, mürid daha rədd etmək gərəkdir. Pəs şeyxin qəbulu muridin qəbulu gərək. Və şeyxin rəddi müridin daha rəddi gərəkdir. İndi ey əziz! Bunca ayat və əxbar və dəlayil birlə təriqi-təriqət bildinsə, yəni iradəti-kamili bildinsə, yəni muridligin şərtlərini, ədəblərini bildinsə, cəhd elə şeyxi-aləm xidmətinə, hörmət və təzim dilə, mülazim ol. Ol şeyxin könlünü ələ gətirmək ardınca ol. Hərgiz qilü-qal eyləmə. Gərəkməz nəsnələri şeyxə sormağıl. Həzrət Musaya «Fəla təsəlni an şeyin» («Elə isə məndən heç bir şey haqqında soruşma», «Kəhf» surəsi, 70-ci ayə) dedigi ədəbi saxlağıl, ta ki ustadın və şeyxin xatiri sənə məlul olmaya. Nəsibsiz, məhrum, növmid qalmayasan. Uşda müridligin qayət gərəklisi degildir. Haçan bu şərtlər ilə və bu ədəblər ilə bir şeyxə mürid olasan, kim ol şeyx daha gerçək şeyx olsa, şol yuxarı dedigim gibi, pəs onun gibi şeyx sənin həqqin zaye eyləməz, səni tərbiyət edər. Səndən nəsnə olmaz. Və əgər bu ədəblərdən və bu şərtlərdən fariq olub mücərrəd bir şeyxdən tövbə edib daha qolayına üz vursan, vəqtha yer-göy durduqca şeyxin söhbətinə gəlib, yenə varıb kəndi işində – gücündə olub ölürsən, müridi-kazibsən, kəndi muradına mürid olub yerirsən. Şeytan gibi əgər yer ilə göy arası dopdolu mürşidi-kamil olursa, səni bir adam yer/inə/ almayalar. Pəs iradəti – kamil gərək, ta ki şeyxdən fayda tuta biləsən” (71).

Mürşidlik mərtəbəsinə yetişmək üçün Şeyx Səfiəddin çox ciddi tələblər irəli sürürdü. Onun fikrincə, mürşid yalnız irşad etməyi bacaran şəxs olmamalı idi, onda irşadlıq ləyaqəti ilə birlikdə həm də Tanrı kəraməti olmalı idi. Yəni mürşidlik üçün yalnız bilik və təcrübə kifayət deyildi. Bilik, təcrübə, etiqat və digər təsəvvüf dəyərləri həm də Tanrı kəraməti ilə tamamlanmalı

idi. Bu məsələ ilə bağlı Şeyx Səfiəddinin Şeyx Zahidin oğlu Şeyx Cəmaləddin Əli ilə xüsusi bir söhbəti də olmuşdu. Qeyd edilməlidir ki, Cəmaləddin Əli "Səfvətüs-səfa" əsərində şeyx kimi təqdim olunmuşdu. Bu onu göstərir ki, Cəmaləddin Əli də şeyxlik mərtəbəsinə yüksələ bilmişdi. Bununla belə, Cəmaləddin Əli Şeyx Səfiəddinin irşadının söz-söhbətlərinin ətrafa yayılmasından müəyyən qısqanclıq keçirirdi. Bir dəfə Kəlxoran kəndində Şeyx Səfiəddinin qonağı olanda bu qısqanclığını da gizlədə bilmədi və hətta Şeyx Səfiəddinə irad da tutdu. Onun sözlərinə görə, irşad səccadəsi üzərində oturmağa cəsarət edən adam hətta Bağdadda yaşayan bir irşad talibinin bardağında qalmış azacıq taxılın dənlərinin sayını görməyə qabil olmalıdır. Yəni onda ilahi bir fəhm olmalıdır. Şeyx Səfiəddin də ona belə bir cavab verdi: "Ey atan ilə anan rəhmət, bu sözcüğaz sənün həqqündə layiq dəgül. Amma mürşidün mürşirligi ol çağ dürüstdür kim, anun irşadı ol qayətdə ola kim, əgər anun müridləri məşriq ilə məğribdə, ya Xətay ilə Çində olalar, anun əşrafı anlarun əhvalına ol qayətdə ola kim, gərəkməz nəstələri anlardan gidərə və rəva görməyə kim, anlardan ol yaman feli zühur eyləyə və gərəkli nəstələri anlara göndərə və könüllərinə keçdürə. Və əgər Qaf dağınun ətrafında anun dörd müridi var ola kim, dördinün dəxi ölümi bir çağda ola və son nəfəsləri ola və şeytan anlarun imanına qəsd eyləyə və Mələkül-mövt (ə.s.) canların almağda ola, dördinün bir nəfəsdə mürşid anlarun qövrinə yetüb mədəd eyləyə və imanların şeytanun qarəti ilə qəsdindən eymən saxlaya kim, əgər bu qayətdə olmasa, səccadə ilən xirüqə ana haram ola və qiyamət günində qarayüzlü torpağdan qalxa həzrət İzzətün (c.s.) yanında şərmsarlığ çəkə" (72).

Yəni Şeyx Səfiəddin deyirdi ki, o insanın mürşidliyə haqqı vardır ki, əgər onun müridləri Xətayda və Çində olsalar belə mürşid onları gərəkməz əməllərdən qorumağı, onları pis işlərdən çəkindirməyi bacarmalı və onlara gərəkli işləri təlqin etməyə qadir olmalıdır. Sonra da əlavə edirdi ki, mürşidliyə o insanın haqqı olmalıdır ki, həmin mürşid Qaf dağı ətrafında həyatla vidalaşmaq anında olan dörd müridinin köməyinə çata bilməli,

onların imanını şeytanın qəsdindən xilas etməli və qorumalı idi. Şeyx Səfiəddinə görə, bu keyfiyyətlərə (kəramətə) malik olmayan mürşidə səccadə və xirqə haram sayılmalı idi.

"Müzzəkkiün-nüfus" risaləsinin başqa bir yerində Şeyx Səfiəddin mürid-mürşid əxlaqı haqqında daha geniş fikir söyləmişdir. Burada söylənilənlər mürid-mürşid münasibətlərinin qurulması sahəsində Şeyx Səfiəddinin təriqət əhlinə təlqin etdiyi fikirlər idi. Bu söylənilənlərdə bəşəri əxlaq özünü qabarıq şəkildə ifadə etməkdədir. Lakin bu bəşəri əxlaq da batini əxlaqı tamamlayan bir məqam kimi qəbul edilir və Haqqa qovuşmaq yolunda ona əməl edilməsi vacib bilinirdi: "Bilgil indi, məşayixin ədəblərindən birisi daha budur kim, şeyx ilə mürid bir süfrəyə sunmaya və bir xalıcaya oturmaya və şeyxin oturduğu yerə daha oturmaya və şeyx ilə bir bardaqdan su içməyə və şeyxi dünyadan nəql edərsə və ya boşarsa, övrətini almaya kim, adabi-təriqətdə yoxdur. Şeyxin kisvətini, yəni xirqəsini dəstursuz geyməyə və şeyxi ziyarət etmək istəyəcək, yəni şeyxin əlin-ayağın öpmək istəyəcək abdəstsiz etməyə kim, bir qaç nəsnəyə abdəstsiz yapışmaq biədəblikdir. Bir müshəfə və bir peyğəmbərə və qəbirlərinə daha ziyarət etmək haman kəndiləri həyatında ziyarət etmək gibidir. Və bir daha Kəbəyə və bir daha övliyalara abdəstsiz varıb yapışmaq ədəb degildir. ... Və haçan şeyx ilə yerimək, yola getmək vaqe olsa, şeyxin yanınca getmək ədəb degildir. Şeyxin ardınca yab-yab getmək yaxşıdır. Əgər şeyx aydırsa kim: «Gəl önümcə yeri!», - yerimək gərəkdir. Onda hikmət vardır, onu əhlinə derlər. Və bir ədəbi daha müridliyin budur ki, şeyxə qayət hörmət edə və şeyxə hörmət etdigi gibi oğluna, qızına, quluna, xəlayiqinə, hətta atına, quşuna, cəmi heyvancıqlarına belə hörmət edə kim, hörmətsizlik daha ədəbsizlikdir, məhrumluğa səbəbdir.

...Amma adabi-təriqət budur kim, mürid şeyxdən hörmət ummaya və «şeyx müridə hörmət etmək» yoxdur. Vəqtha bir kərrət xatircığın təsəlli edib riayət edərsə, dürüstdür. Və mürid olub, talib olub məşayix eşigində olan kişilər şeyx yeməgindən artıq yemək ədəb degildir. Bazara varmaq hacət olmadan və bazar yeməgin yemək və dükan yeməgin və ölü üçün pişən yeməgi

yemək və vəqf ətməgin yemək və əvanlar ətməgin yemək, müridə cəmi bunları yemək qayət ədəbsizlikdir və könlü daha qarardar. Mürid/in/ bunun gibi loğmaları yeməgi kəndi-kəndinə təqsirlik edib hörmətini kəndinin əli ilə oda vurmaq gibidir. Və mürid olan kişi /dən/ ədəbsizlik etmək olmaz. Pəs ədəb budur kim, hərgah kim bir iş işlər, şeyx məşvərətilə işləyə. Və hər nə kim edər, şeyxinə danışmayınca, işləməyə. Ya səfərə getməli olsa və ya nəsnə satmalı və ya nəsnə almalı olsa və ya oğul evermәli olsa, və ya qız çıxarmalı olsa, şeyxinə danışmaq gərəkdir. Danışmadan mürid başlı-başına bir iş işləmək kütsaxlıq, ədəbsizlikdir. Və işi rast daha gəlməz və həm təriqətə müxalifdir. ...Pəs təriqətdə mürid hər işi şeyxə danışmaq gərək və şeyxin sözünü tutmaq gərək. Və mürid bir işində mütəhəyyir olsa, varıb şeyxinə «Şu/nu/ mən necə edəyim? Şu işimdə aciz qaldım», - demək gərəkdir. Şeyx necə məsləhət görərsə, necə buyurarsa, elə etmək gərəkdir. Və əgər danışmazsa, qatı yaramazlıq edər” (73).

Şeyx Səfiəddin təriqət arifləri ilə söhbətlərinin birində mürid-mürşid münasibətini bal arıları ilə müqayisə edirdi və arı ailəsində olan intizamı təriqət əhli üçün də ibrətverici sayırdı. Bu mənada Şeyx Səfiəddin doqquz məqama (müqayisəyə) işarə edirdi. Birinci məqamla bağlı o bəyan edirdi ki, bal arısı imansız və sultansız yerdə dayanmaz və sultanı gəlməyincə özündə rahatlıq tapmaz. Onun fikrincə, mömin insan da belə olmalı idi. O da peyğəmbər şəriətinə riayət etməklə mömin insanlarla birlikdə olmağa çalışmalı və peyğəmbərin buyuruqlarına qarşı mövqe tutmamalı idi. Burada Şeyx Səfiəddin həm də müridin öz şeyxinə qarşı itaətkar mövqe tutmalı olmasına işarə edirdi. Onun ikinci müqayisəsinə görə, arı onun sultanı (ana arı) olmayan yerdə qərar tutmadığı kimi, sultanın icazəsi olmadan da heç yerə getməzdi. Müriddən də belə itaətkarlıq tələb olunurdu ki, heç zaman pirin irşadından dönməməli, pirin icazəsi olmayan əməllərə baş vurmamalı idi. Üçüncü müqayisəyə görə, bal arısı bitkilərdən, gül və çiçəklərdən hasil etdiyi lətafəti öz sultanının hüzuruna aparar və sultanın buyurduğu yerə qoyar, mürid də bu hərəkəti təkrarlamalı idi. O da öz könlünü təlqin etməli, tövhid kəlməsindən

hasil olan lətafəti və gördüyü vaqiələri yalnız öz şeyxinə açıqlamalı və kimsəyə bu barədə danışmamalı və yalnız şeyxin tapşırığı ilə öz sirlərini başqalarına bildirməli idi. Dördüncü müqayisə belə idi ki, bal arısı əvvəlcə öz pətəyini (evini) bal ilə doldurmağa çalışar və yalnız sonra başqalarına faydalı olmağa səy edərdi. Mürid də əvvəlcə çalışmalı idi ki, öz vücudunu mərifətlə zənginləşdirsin, dini dəyərlərə sahib olsun və bundan sonra öz təriqət qardaşlarının biliklənməsinə kömək göstərsin. Beşinci müqayisə belə idi ki, Şeyx Səfiəddinin sözlərinə görə, bal arıları heç vaxt imkan verməzdilər ki, yad həşəratlar onların evinə daxil olsun. Əgər daxil olsaydı belə, onunla ünsiyyət qurmaz və onu evdən bayıra çıxarardılar. Mürid də öz könlündə yalnız Tanrı eşqini formalaşdırmalı, Tanrıdan başqa kimsənin sevgisinə qəlbində yer verməməli idi. Əgər qəlbində hər hansı bir sevgi yer tapmış olsaydı, onda bu sevgini qəlbindən təmizləməli və kənar söhbətlərdə iştirak etməkdən çəkinməli idi. Altıncı müqayisəyə görə, bal arıları öz həyatlarını çox düzgün növbələşdirmişdilər, hər işi vaxtında görürdülər. Məsələn, yaz gələndə toxum qoyulması üçün su dalınca gedər, çiçəklər açanda özlərinə pətək qurub onu çiçəklərlə doldurardılar, beçələri böyütmək vaxtı gələndə isə pətəklərə topladıqları çiçəkləri yeyib boşalan şanları bal ilə doldurardılar. Müridlərə də tövsiyə olunurdu ki, öz vaxtlarını düzgün planlaşdırsınlar, vaxtın itməsinə yol verməsinlər. Yəni mürid Haqq yolunda irəliləmək üçün ondan tələb olunanların icrasına məsuliyyətlə yanaşmalı, süstlüyə və bignəliyə yol verməməli idi. Şeyx Səfiəddin əlavə edirdi ki, vaxtı fövtə vermək ölümdən də pisdir. Yeddinci müqayisəyə görə, bal arıları ilin müəyyən vaxtlarında sultanın hüzurunda olar və başqa bir işlə məşğul olmazlar. İşləri yalnız özlərinə tumar vermək olar. Müriddən də tələb olunurdu ki, gecələrin müəyyən vaxtlarında sakitcə otursun və könlünün camalını müşahidə etsin. Yəni daxilən təmizlənməyə çalışsın. Səkkicinci müqayisəyə görə, bal arısı bütün gün ərzində zəhmətlə məşğul olar. Amma heç vaxt topladığını özününkü bilməz, gördüyü işin həcmi ilə maraqlanmaz. Əvəzində bütün gün zəhmət çəkər və topladığını başqalarının topladığına

qatar. Mürid də heç vaxt əlinə keçəni yalnız özününkü bilməməli, əlinə keçənləri mütləq mürşidinin hüzuruna gətirməli, sonradan öz işlərini davam etdirməli, davamlı olaraq işlə məşğul olmalı idi. Doqquzuncu müqayisəyə görə, bal arıları beçə verəndə bu beçə arasından sultan olmağa layiq olanları fərqləndirərlər və sonra da sultanlığa layiq olanlar arasından birini sultan seçərlər. Sultan seçiləndən sonra bütün arılar da bu sultana tabe olarlar. Sultanlığa namizəd olmuş digər arılardan hansısa sultanlığa iddiasını ortaya qoyarsa, onda bütün arılar onun üzərinə hücum çəkər, onu öldürərək bayıra atarlar. Beləliklə, seçilmiş sultanın hakimiyyətinə müxalifətçiliyə yol verməzlər. Müriddən mürid-mürşid münasibətində belə bir aydın mövqe tələb olunurdu. Mürid öz mürşidini tanımalı, iradəsini onun iradəsinə bağlamalı, onun mürşidliyini birmənalı şəkildə qəbul etməli və bu qərarında da ardıcıl olmalı idi. Şeyx Səfiəddin gizlətmirdi ki, mürşidlik bəzilərini şirnikləndirdyi üçün haqqı olsa da, olmasa da bu mərtəbəyə iddia edirdilər. O isə bunu qəbul etmirdi və bəyan edirdi ki, qiblə birdir, peyğəmbər birdir, mürşid ilə Haqqa qoşvuşmaq yolu da birdir. Sonra da əlavə edirdi ki, bir namazı iki qibləyə qılmaq olmaz. Yəni mürid öz qibləsini, öz yolunu və öz mürşidini düzgün müəyyənləşdirməli və qərarında sabitqədəm olmalı idi. Haqqı olmadan mürşidlik iddiası edənləri və ətrafına müəyyən sayda insanları toplayanları da Şeyx Səfiəddin bal arıları ilə müqayisə edərdi. Bal arılarının içərisində də bəziləri var idi ki, bal arısına bənzəsələr də, onlardan fərqlənirdilər Bu arılar da özlərinə sultanlar seçərdilər və sultanların göstərişi ilə işlə məşğul olar, özlərinə pətəklər qurardılar. Amma bu arılar bal vermirdilər, yəni onların heç bir səmərəsi yox idi. Mürşidlik iddiasına düşən bəzilərini də Şeyx Səfiəddin məhz belə arılara bənzədirdi. Həmin arılar kimi, mürşidliyə haqqı olmayan mürşidlərin fəaliyyətindən də bir səmər hasil olmazdı (74).

Təriqət əhli arasında təsəvvüf bilikərinin irşadında və təlimində xəlifələrin böyük rolu var idi. Xəlifələr təriqət şeyxinin sağlığında onun varisliyi səviyyəsinə qalxa bilmiş sufilər idilər. Şeyx Səfiəddinin sağlığında onun müridlərinin sayı xeyli artdı-

ğından ətraf bölgələrdə taliblərin tövbəyə gətirilməsi onun tərəfindən müəyyənləşdirilmiş xəlifələrə həvalə edildi. Bu xəlifələr talibləri tövbəyə gətirmək və təlqin etmək səlahiyyəti almışdılar. Lakin məlumdur ki, onlar Şeyx Səfiəddinin adından bu işi görürdülər. Başqa sözlə, xəlifələr yüksək mərtəbəyə qalxmış sufilər idilər və Şeyx Səfiəddinin rizası ilə onlar yerlərdə müəyyən təsəvvüf müstəqilliyinə malik idilər.

Şeyx Səfiəddinə görə yer üzünün ilk xəlifəsi Adəm peyğəmbər idi. Ondan sonra isə xəlifəlik Xatəmə verilmişdi. Onun sözlərinə görə, yer üzünə gəlmiş yüz iyirmi dörd min peyğəmbərdən və üç yüz on üç mürsəldən yalnız bir neçəsinə xəlifəlik verilmişdi. Onların  sonuncusu islam peyğəmbəri idi və o da həyatının 23 ilini insanların islam dininə dəvətinə həsr etmişdi. Yəni Şeyx Səfiəddin xəlifəliyə belə yüksək dəyər verirdi və onların qarşısında insanların irşadı və təlimi ilə bağlı çox ciddi vəzifələrin dayandığını qeyd edirdi.

Ərəb əlifbası ilə xəlifə sözü beş hərfdən ibarətdir. Bu hərflər x, l, i, f, h (oxunuş zamanı sonuncu hərf həm də  “e”  kimi oxunur) – hərfləridir. Şeyx Səfiəddinə görə, “x” hərbi xəlifə, yəni oğul, xələf mənasındadır, “l” hərfi – lütf və kərəm mənasında, “i” hərbi yer kimi sakit olmaq mənasında, “f” hərfi fariqül-bal, asudəlik mənasında, “h” hərfi isə ismi—hudur, yaradana işarədir. Sonra da bildirilir ki, xəlifə sözü də ərəb hərfləri ilə Allah və Məhəmməd sözləri kimi beş hərfdən ibarətdir. Yəni xəlifə sözünün cövhərində də bir müqəddəslik əlaməti mövcuddur. Şeyx Səfiəddinə görə, xəlifə olmağın yeddi üzü və bu yeddi üzün də on iki şərti var idi. Bunlar xəlifə olmaq istəyənlər üçün irəli sürülən tələblər idi və yalnız bu tələbləri həyata keçirmiş olanlar xəlifə ola bilərdilər. Onun nəzərdə tutduğu yeddi üz bunlardan ibarət idi: vəhdət, xidmət, iradət, imamət, səlamət, məlamət və dövlət. Həmin yeddi üzün mənasını Şeyx Səfiəddin belə açırdı:

“1. «Vəhdət» oldur kim, ikilikdən keçib birliyə irişə. Onun əsəri vahidindir.

2. «Xidmət» oldur kim, yol əhli olan qardaşların cümləsinə bir gözlə baxmaqdır. Yəni böyük və kiçigi bir bilməkdir. Həpsinə

birdən xidmət eyləməkdir. Onun əsəri təkəbbürlügü tərk edib, könüldə təvazö və miskinət olmaqdır.

3. «İradət» oldur kim, bu yola sidq ilə gəlib, mürşidi-kamilə iradət gətirməkdir. Onun əsəri eşqdir. Məşuqə cəmalın müşahidə qılmaqdır.

4. «İmamət» oldur kim, imamlar yoluna, din eşqinə düşə. Onun əsəri oldur kim, qeyr ilə həmdəm olmamaqdır.

5. «Səlamət» oldur kim, kəndi imanın və dinin səlamət tutmaqdır. Onun əsəri xaslardan qeyri ilə söhbət etməməkdir.

6. «Məlamət» oldur kim, rüsvayi-aləm olub, ar və namusu tərk etməkdir. Yəni xərabat güşəsində xərab olmaqdır. Onun əsəri məhəbbət məclisində elm təlim etməkdir. Yəni göylərdən xəbər verməkdir.

7. «Dövlət» oldur kim, tərki-təəllüqat edib cümlə varlığın yoxluğa satmaqdır. Nə qədər kim var isə, din qardaşları ilə yeyib-içib, xoş görməkdir. Onun əsəri dəmi-didar görməkdir və onlardan murad almaqdır və dostun cəmalı müşahidəsinə irməkdir. Və murad istəyənlərə murad verməkdir” (75).

Şeyx Səfiəddin sonra xəlifələr üçün tələb olunan yeddi üzdən sonra gələn on iki şərti də açıqlamış və onların hər birinin də açıqlamasını vermişdir: “Şeyx Səfiəddin həzrətləri buyurdu: «Cün bu yeddi üz tamam oldu, on iki şərt bəyan və əyan edəlim: səxavət, səadət, qeyrət, ibrət, hörmət, söhbət, mürüvvət, şəfqət, iqrar, isar, təvəlla, təbərra.

İndi «səxavət» oldur kim, yeyəsən, yedirəsən, adını sahibi-comərd dedirəsən. Amma ariflər bunda bir məna buyurmuşlar: «Yeyən baazardır, yeməyib yedirən biazardır», - demişlər. Bunun əsəri yeyib-yedirmək, həqq üçün olmaqdır, kimsəyə minnət etməyəsən.

«Səadət» oldur kim, qadir olduğun qədər əldən gələni mən etməyəsən. Onun əsəri murad yaxşı olmaqdır, könül evin yapıb məmur qılmaqdır.

«Qeyrət» oldur kim, din uğrunda çalışasan, nəfs ilə ruzü şəb cihad edəsən. Onun əsəri cəhd edib İblisin üzərinə qalib olmaqdır. Əldən gəldikcə məğlub olmamaqdır.

«İbrət», can gözü açıq ola, hər nəyə baxarsa, ondan ibrət ala. Həqqin hikmətin müşahidə qıla. Onun əsəri «məqami-müntəhayə» qədəm basmaqdır.

«Hörmət», kəndi əli altında olan kimsələrə riayət etməkdir. Və dadlı /söz/ söyləməkdir. Onun əsəri mehr və məhəbbətdir.

«Söhbət» oldur kim, məclislərdə danışarkən, düşünərək danışmaq. Onun əsəri mərifətdir.

«Mürüvvət» oldur kim, düşmanı qəhr etməyə qadir ola. Ona mürüvvət göstərib əvf eyləyə. Onun əsəri müdara qılmaqdır.

«Şəfqət» oldur kim, zəif və miskinləri görəndə, rəhm edib əsirgəyə, təriqət əhli qardaşlarının hər bir hacətin /yerinə/ yetirə. Onun əsəri möhtaclıqdan xilas olmaqdır.

«İqrar» oldur kim vədəyə xilaf etməmək, vədəsi yetdikdə yerinə gətirməkdir. Onun əsəri dostlar yolunda can verib, təriqət içində xak olmaqdır.

«İsar» oldur kim, hər nə var isə, dost yoluna saçıb, kəndi öz canını ərənlər yoluna fəda edib baş ilə candan keçməkdir. Onun əsəri sahibi-əsrar olmaqdır.

«Təvəlla» oldur kim, əhli-beyti-Rəsula məhəbbət edib, al və övladına can /və/ könüldən və dəruni-dildən on iki imama tabe olmaqdır. Onun əsəri tərki-dünyadır.

«Təbərra» oldur kim, Məhəmməd və Əli həzrətləri düşmanlarına nifrət edib qaçmaqdır, əhli-beytə ədu olan məlunlara lənət qılmaqdır. Onun əsəri Məhəmməd və Əlidən qeyriyə könül verməyib murad almaqdır.

Pəs indi xəlifənin şərt və xasiyyətləri budur kim, zikr olundu" (76).

Sonra Şeyx Səfiəddin təriqət mürəbbiləri haqqında da öz fikirlərini açıqlamışdır. Onun söylədiklərindən belə məlum olur ki, mürəbbilər taliblərin irşadının icraçıları idilər. Şeyx Səfiəddinin bəyanlarında mürəbbilərin adı taliblərlə bağlı olduğu üçün onların irşadın ilkin mərhələsinin icraçıları olduğunu güman etmək olar. Bununla belə, mürəbbilərin fəaliyyətinə və bu fəaliyyətin qurulması üçün tələb olunan keyfiyyətlərinə Şeyx Səfiəddin xüsusi əhəmiyyət veridi. Çünki taliblərin Haqq yoluna çıxarıl-

masında, Haqq yolu ilə irəliləməsində mürəbbilərin də əməyi var idi və ona görə mürəbbilərin bilik mərtəbəsi bu işin uğurlu aparılmasına bir təminat ola bilərdi.

Şeyx Səfiəddin tələb edirdi ki, taliblərlə söhbətlər aparan haqq adamları eyni zamanda mürəbbiləri də yoxlamalı və onlarda mürəbbbilik əlamətlərinin olub-olmaması ilə maraqlanmalı idilər. Onun fikrincə, mürəbbi olmayan bir adamın təriqətə talib gətirməsi doğru deyildi. Çünki təsəvvüfü başa düşməyən birisinin kimi isə təriqət talibliyinə gətirməsinin bir nəticəsi olmayacağı ehtimal edilirdi. Mürəbbilik etməyən adam üçün Şeyx Səfiəddin üç şərt və dörd əlamət irəli sürürdü. Bu şərtlərə və əlamətlərə cavab verməyən adamların mürəbbilik etməyə layiq olmadığı bildirilirdi. Şeyx Səfiəddin tərəfindən bəyan edilən həmin şərtlər və əlamətlər (nişanlar) bunlar idi:

“1.Əvvəl şərt: İndi mürəbbiliyin əvvəl şərti budur kim, mürəbbi köprü kimi ola. Zira daha ol köprünün yanında qorxuluq gibidir, ol talibi köprüdən düşməyə qoymaz.

2. İkinci şərt: İkinci şərt oldur kim, kişi qəlbi vase ola. Heç darılmaya, qağıyıb kimsəyə kişi surət göstərməyə, gülər üzlü, şirin sözlü, nəfsi həlim və qəlbi səlim ola.

3. Üçüncü şərt: Üçüncü şərt oldur kim, mürəbbi olan kişi heç bir nəsnədən ikrah etməyə, kəm nəzər ilə baxmaya, kimsənin xatir /və/ könlün yıxmaya. Cümlə yaradılmış məxluqata bir göz ilə baxa, qadir olduğu qədər hər kişinin könlüni görə.

...1. Birinci nişan: /Birinci nişan/ oldur kim, bu aləmdə hər nə ki varsa, bula, kəndündə hər nə ki, müşkül var, həqq qatında hasil ola.

2. İkinci nişan: Və daha mürəbbiliyin ikinci nişanı oldur kim, zəbanı arı ola, kimsəyə azarlıq yetirməyə, kimsə ondan rəncidə olmaya və kəndisindən xilaf söz gəlməyə

3. Üçüncü nişan: Mürəbbiliyin üçüncü nişanı oldur kim, səttar ola, kimsənin eyibinə baxmaya. Göz ilə gördügün ətək ilə örtə və kimsənin eyibini üzünə urmaya.

4. Dördüncü nişan: Və daha mürəbbiliyin dördüncü nişanı oldur kim, mürəbbi olan kimsə gərəkdir dünyaya meyli-məhəbbət

etməyə, həqq yoluna varını sərf edə, baş və candan keçmiş ola, fəna şərbətini içmiş ola" (77).

Şeyx Səfiəddin sonra bir daha bəyan edirdi ki, yalnız bu şərtlərə cavab verən adamlar mürəbbilik etməyə haqlı idilər. Çox güman ki, təsadüfi adamlar da taliblər toplayaraq özünü Şeyx Səfiəddinə mürəbbi kimi təqdim etmişdilər. Bunu elə Şeyx Səfiəddinin söylədiklərindən də görmək mümkündür. Yəqin elə buna görə idi ki, Şeyx Səfiəddin mürəbbiliyə haqqı olmayan adamların bu ada iddia etməsinə birmənalı şəkildə etiraz edirdi.

Şeyx Səfiəddin elə taliblərin özlərinə qarşı da ciddi tələblər irəli sürürdü. "Əl-Buyuruq" risaləsinin əsasını da elə Şeyx Səfiəddinin taliblər haqqında söylədiyi fikirlər təşkil edir. Bu risalədə talibin keyfiyyətləri, talib-şeyx münasibətləri, talibə qarşı irəli sürülən tələblər, talibin həyat mövqeyi və s. məsələlər haqqında dəyərli fikirlər öz əksini tapmışdır. Şeyx Səfiəddinin fikrincə, talib yoluna qədəm qoyan adam ümumi kütlədən müəyyən qədər təcrid olunmağı bacarmalı, daxilən ədəbli olmalı, pis əməllərdən qaçmalı, Haqqa və xalqa yaraşmayan hərəkətlərə son qoymalı, öz şeyxindən daxilən qorxmalı idi.

"Şeyx Səfi həzrətləri buyrub kim: «Talibi-həqq oldur kim, əvvəl ədəb /ala/, ikinci, əvamdan kəsilə, üçüncü, məhrəmin bilə, dördüncü, cəmi yədfelin tərk edə, beşinci, həqqə və xəlqə yaramaz iş etməyə, altıncı, hər qanda ola, şeyx qorxusun çəkə. Yəni: «Aşikar və ya məxfi mən bu işi görərsəm, şeyxim görür, bilər».- deyə, etməyə. Övliya talibin könlünə və gözünə gündə yetmiş kərə nəzər eylər". Bundan sonra isə Şeyx Səfiəddin talibin əlamətləri haqqında öz fikirlərini bəyan etmişdir. Onun bəyanına görə taliblər həm də bu əlamətlərə malik olmalı idilər: " Şeyx Səfi həzrətləri buyurdu kim: «Ol talibin nişanı övliya ətəgin tutmaq, iqrar verib can və könüldən inanmaq və iman gətirməkdir. Yəni hər felinə və hər halına «bəli» deyib inanmaqdır. «Mənaqibi-şərif» dinləyib övliya nəfəsin eşidib, mənasını anlayıb, ona görə əməl etməkdir. Cümlə varlığın ərənlər yoluna sərf edib, xərc etməkdir» (78).

Şeyx Səfiəddinin bəyanına görə, talib həm zahirən, həm də batinən təmiz insanlar olmalı idilər. Bu təmizlik təriqət şeyxlərində də talibə qarşı xüsusi bir rəğbət yarada bilərdi. Belə keyfiyyətlərə malik olmayanlardan isə Şeyx Səfiəddinin sözlərinə görə, həm peyğəmbərlər bizar idilər, həm də övliyalar. Taliblərin öz batinini necə təmizləməli olmaları haqqında verilmiş suala isə Şeyx Səfiəddinin cavabı belə idi ki, onlar gərək namazsızların çörəyini yeməsinlər. Namazsızların (binamazların) kim olmasını isə Şeyx Səfiəddin belə şərh edirdi: «Binamaz anlardır kim, həqq sevgisin, peyğəmbər mehrin və övliya məhəbbətin könlündən çıxara. Bunların yerinə təşviş və qillü qəşdən bədfikir və bədəndişə dolmuş ola və könlü daima təkəbbür ola, həqqə baş endirməyə və həqq sözə baş endirib «bəli» deməyə. Zira namazdan murad olunan niyazdır. Həqqə baş endirib, səcdə qılmaqdır. Bir kişi səcdə tərk eləsə, Həqqi-təala həzrətinə ibadət və pərəstiş etməmiş olur və şeytan kibi mərdud olur. Bir qul əfəndisinə sərkeş olub baş endirməsə və əmrinə müti olmasa, asi olsa, əfəndisi onu qapısında qoymaz, rədd edər. İndi talib olan kişi ciddü cəhd edib qadir olduğu qadar gözə və könülə girmək. Zira kim, könül həqqin evidir. Pəs ev sahibi evdən xali degildir. Bir kişi həqqin evinə girsə, həqq ilə birlik etmiş olur» (79).

Səcdə etməyin dini-mənəvi əhəmiyyəti barədə də Şeyx Səfiəddin öz fikirlərini açıqlamışdı. Onun fikirncə, səcdə yalnız fiziki bir hərəkət deyildi. Bu hərəkət həm islam üçün, həm də təriqət üçün xüsusi əhəmiyyətə malik bir məzmun kəsb edirdi. Şeyx Səfiəddin səcdənin talib üçün kəsb etdiyi məzmunu belə dəyərləndirirdi: «Təriqət içində səcdə qılmaq niyaz məqamıdır, yəni təslim olmaqdır. Təslimdən murad oldur kim, başımı yolunuza qoydum, ayrıq mənim degildir. Zira kim, ər meydanı həqq meydanıdır. Bu meydana girən kişi başını top eyləyib kəndini meydana fəda edib, baş və candan keçmək gərəkdir. Böylə olsa, o kişi iradət ilə kəndini təsdiq və təhqiqi-övliyaya təslim etmişdir. Təriqətdə sidqi-etiqadını möhkəm edib könlünə vəsvəsə gətirməyə. Amma ədəb üzərinə olmasa, ol kişinin təslimi olmaz» (80).

Batinin təmizlənməsinin başqa bir yolunu isə Şeyx Səfiəddin taliblərin günah və halal olmayan işlərdən çəkinməsində görürdü. "Yəzid övrət ilə yatmaya, yəzidin loğmasın yeməyə, kəndi gövhərini yəzidə xərc etməyə və kəndi loğmasın yəzidə yedirməyə. Bir kimsə münkir və münafiq əkməgin yeyər isə, qursağında ikən ol kişinin vədəsi irişib ölür isə, imansız ölür» (81).

"Yəzid" ifadəsini işlətməkdə də Şeyx Səfiəddin, heç şübhəsiz ki, imansız, halal olmayan insanları nəzərdə tuturdu. Şeyx Səfiəddin talibin zahirində, batinində, düşüncəsində, əqidəsində, davranışında, əməllərində halallığın olmasını təsəvvüfün mühüm şərti kimi qəbul edirdi. Talib eyni zamanda şeyxinə mütilikdə də hallalığını qorumalı idi və bu işdə qeyri-səmimiliyə yol verməməli idi.

Talibin keyfiyyətləri haqqında Şeyx Səfiəddin daha sonra belə bəyan edirdi: "İndi talib olan kişi gərəkdir ki, sahibi-əql ola və hər işi ki işlər, əql təsərrüfü ilə işləyə, cəmi hərəkatı ilə zəbt eyliyə, müxaliflik etməyə və əgri təriqə getməyə. Etdigi iş və getdigi yol şeyxin rizası ilə ola. Əgər şeyxin əmrinə müvafiq olmazsa, ol talibin çəkdigi zəhmət və möhnət və məşəqqət filcümlə zaye olur və axirətdə şeytan kimi məlun və məğbun və mərdud olmayasan və dərgahdan sürülməyəsən. Cəhd edəsən kim, yüz min günahın daha olursa, Adam gibi, peyğəmbər gibi məğf ur və məqbul olasan. ...Talib gərək bir iş işləyincək fikir eyləyə, əgər xeyir işləyə, şəri tərk eyləyə. Amma bir kişi zahir və batində Şeyxin işarətinə müntəzir ola və səfa nəzərinə məzhər düşə, haçan bir kişi talibi-həqq ola və daha övliya dərgahına gələ, əl verib ətək dutsa, iradət ilə təslim ola, övliyaya iqrar verib iman gətirsə, bu dünya xəlqindən kəsilib övliya güruhundan ola. Amma burada imandan murad sidq və etiqad birlə inanmaqdır. Bir kişinin iqrarı sadiq və etiqadı dürüst olmasa, ol kişinin imanı olmaz. Din daha imandır və iman iki qism üzərindədir: biri təhqiqdir, digəri təqliddir. Təhqiq oldur kim, könlu qillü qəşdən mübərra ola və təqlid oldur kim, könlü doydolu vəsvəseyi-şeytan ola. Və Şeyx Səfi buyurur ki: «Övliya mənzilində otura, talibin könlünə nəzər edə,

lövhül-məhfuzə və lövhül-insanə ola. Yəni bir kişi kim, yanına gəldi, nuri-vilayət ilə onun yapdığı xətaları bilə və görə və tərbiyə eyləyə. Və hanki talibin könlü pak degildir, anı yanında qoymuya, rədd edə» (82).

Fikirlərinin başqa birində də Şeyx Səfiəddin taliblərin öz mürşidinə bağlanmasının vacibliyini qeyd edirdi. Onun bəyanına görə, talib hər zaman ustad nəfəsini yanında hiss etməli, onun rəbərliyi altında Haqq yolunda irəliləməli idi. Şeyx Səfiəddinə görə, mürşidin iradəsinə bağlanmaq sadəcə olaraq mürşidin istəklərinin həyata keçirilməsi demək deyildi. Mürşidin iradəsi Şeyx Səfiəddin tərəfindən, əslində, təriqət yolu kimi qəbul edilirdi. Mürşidin iradəsindən boyun qaçırmaq, yəni təriqət yolundan boyun qaçırmaq, Haqq yolundan yayınmaq demək idi. Şeyx Səfiəddin bildirirdi ki, talibin öz mürşidinə iman gətirməməsi, ona inanmaması yetmiş mürşidi qətl etməyin günahına bərabərdir (83).

Şeyx Səfiəddin tələb edirdi ki, talib hər zaman mücahidədə olmalıdır. Təsəvvüfdə mücahidə nəfsə üstün gəlmək üçün sufilər tərəfindən aparılan mübarizənin bir formasıdır. Mücahidə, yəni cihad etmək, nəfsə qarşı talibin cihad etməsi, qətiyyətli mübarizəsi və iradəsinin ortaya qoyulması deməkdir. Dünya bağlılığna qarşı yalnız qətiyyətli iradə ortaya qoymaqla maddiliklərdən təmizlənmək, dünya zövqlərindən, ləzzətlərindən üz çevirmək və batini dünyaya bağlanmaq, təriqət yolunda irəliləyərkən nəfsə üstün gəlmək mümkündür. Bu yolla islam dininin yasaq bildiyi və təriqət tərəfindən də qəbul edilməyən əməllərdən, düşüncələrdən, fikirlərdən, insan qəlbini, zehnini aldadan fikirlərdən təmizlənmək olar. Bütün bunlara nail olmaq isə insan qəlbi üçün heç də asan başa gəlmirdi. Bir tərəfdən ətrafda olan nemətlərin cazibəsi, digər tərəfdən isə şeytanın insan qəlbinə vəsvəsə salması və onun təhrikləri talibi də çox çətin seçim qarşısında qoya bilərdi. Bu zaman talib mücahidə yolunu tutmalı olurdu. Təsəvvüf təcrübəsinə görə, talib nəfsinə üstün gəlmək üçün apardığı mücahidə az danışmaq (qilləti-kəlam), az yemək (qilləti-təam), az yatmaq (qilləti-mənam) və insanlardan uzaqlaşmaq (üzlət

anil-ənam) əsasları üzərində qurulmalıdır. İnsanın öz nəfsini islah etmək üçün nəfsinə qarşı apardığı mücadilə islam aləmində elə böyük bir məqam kəsb etmişdir ki, islam peyğəmbəri tərəfindən bu mücadilə böyük cihad, düşmənlə silahlı mübarizə isə kiçik cihad adlandırılmışdır. Bütünlükdə isə mücahidə yalnız nəfsani meyllərin gizlədilməsi, onlara qarşı fiziki müqavimət göstərilməsi deyil, bu, nəfsə qarşı həm də biliyi, inamı, imanı, əqidəsi və zəkası ilə müqavimət göstərməkdir (84).

Şeyx Səfiəddin mücahidəti talibin mübarizəsi, bütün varlığı ilə Tanrının ibadətinə bağlanması, nəfsə qarşı müxalifəti kimi dəyərləndirirdi və bununla bağlı öz fikrini belə açıqlayırdı: "Həzrət Şeyx (q.s.) buyurdı kim, mücahidət cəhd eyləməkdir və gövdə ilən Tanrı-təalanun ibadətinə və nəfsün müxalifətinə riyazət çəkmək, Həqq-təalanun rizayi ilən deyə bilmək və həzrət Peyğəmbər ilə vəsinün şəritinə baş endürmək və anlarun buyurduğu sidq ilən əmələ gətirmək və könül iyəsinün rizasın saxlamaq. Və riyazət yemək ilə içməgün tərkin etmək degül, bəlkim oldur kim, Tanrı ilə Peyğəmbəri və vəsiyyi və şeyxi ki, tərbiyətün atasıdur, rizalarını saxlaya. Və əgər nəfs xəlvət istər ola, ana müxalifət eyləyüb, cəmün ortasına gələ və əgər nəfsi cəmaət içinə girmək istər ola, ana müxalif olub, xəlvətə girə və əgər nəfsi zikr istər ola, zikri tərk eyləsün. Və bu düstur ilən hər taət kim, anda bir nəfsaniyyət rüunəti var ola, ana xilaf eyləsün ol qədər dəxi yok kim, özinə aclıq ilən susuzlıq kim, qeyri-millət öz nəfslərinə qoyarlar, qoya kim, Həqq-təalanun buyruğı və Peyğəmbər şəriəti olmaya. ...Və qatırak hicab kim, xəlqün içindən sonucu pak olur, riyadur. Pəs, ana cəhd etmək kim, işi və ibadəti riyadən pak eyləyə və andan pəhriz edə və nəfsün məkrindən eymən olmaya. Əgərçi kim igən zəif olub müti gözükə kim, ol bir məkkardur kim, çün öz həvası ilən halını tərk eyləyə, bir busuda oturub məkrün fikrində ola kim, yabanda qurt həman kim zəif oldu və yügürməkdən güci qalmadı, özini bir çuxura, ya bir quru arxa toprağ içinə yatdura və gizlidə anun intizarında ola kim, qoyunlar qafil ikən anun üstinə, ya yavuxuna gələlər, bir uğurda sıçrayub qoyunun boğazını dutub həlak eyləyə" (85).

Şeyx Səfiəddin bu fikrinin sonundakı müqayisəsində göstərirdi ki, əgər sürüdəki qoyunlar zəifləsələr, diqqəti əldən versələr çox asanlıqla pusquda onların intizarını çəkən qurdun ovuna çevrilə bilərlər. Bununla, Şeyx Səfiəddin bildirmək istəyirdi ki, talibləunder də gərək iradələrini zəiflətməsinlər, dünya nemətlərinin cazibəsinə uymasınlar. Əks təqdirdə nəfsin məkrinə sinə gərə bilməzlər. Şeyx Səfiəddin nəfsi məkrə bənzədirdi və talibləri də bu məkrdən qorunmağa çağırırdı.

Şeyx Səfiəddin bildirirdi ki, mücadilə ilə talibin könül aynası silinir və pak vəziyyətə gəlir. Talibin hər zaman ibadətdə olması, təriqət ayinləri yerinə yetirməsi özü də mücadilənin bir üsulu kimi qəbul edilirdi. Şeyx Səfiəddinə görə, talib gecələr az yatmaqla vaxtının çoxunu ibadətə həsr etməli idi. O təklif edirdi ki, hər bir talib gecə vaxtını beş yerə bölsün və bu vaxtları mənalı keçirsin. Təklif olunan təcrübə Şeyx Səfiəddinin öz təriqət təcrübəsindən idi: "Şeyx Səfiəddin həzrətləri buyurur: «Sufi gərəkdir bir gecə ni beş qism üzərinə təqsim eyləyə: Əvvəl qism, taət və ibadət ilə məşğul ola. İkincisi qism, qal və qeydi fərağət edib rahət etməgə məşğul ola. Üçüncü qism, səhhət etməgə məşğul ola. Dördüncü qism, vəhdət etməgə məşğul ola. Beşinci qism, xəlvət etməgə məşğul ola». Şeyx həzrətləri bu minval üzərinə daima ibadət etmiş idi. Zira kim, nəfsi-mücahidə bütün nicat verir. Onun üçün kim bir gecənin on iki saatını beş qism edib və hər qismi bir dürlü hal üzərinə keçirsin və hər hal sirr üzərinə. Ol talib olan kişi kəndü /gecəsini/ şöylə təqsim eyləyə" (86).

Şeyx Səfiəddin talibləri bütün varlığı ilə Haqq yoluna bağlanmağa çağırırdı. O bildirirdi ki, əgər talib xəlvətdə oturub fikrini cəmləyə bilmirsə və fikri kənarlardadırsa, onda bu talib Yeziddir. Şeyx Səfiəddin belələrinin riza əhli olmasını tələb edirdi. Onun fikrincə, riza əhli olmayan beləleri, əslində, təriqət daxilində olsalar da, təriqətdən kənar insanlar idi (87).

Şeyx Səfiəddinin ətrafına cəm olmuş taliblərin təriqət yolunda olmalarının, mürşidin dediklərinə riayət etmələrinin, hallalıqdan kənar olmadıqlarının nümayişi kimi "Əl-Buyuruq" risaləsində maraqlı bir hekayət təsvir edilmişdir. Bir dəfə Şeyx

Səfiəddin bir bağın yanından keçirmiş. Görür ki, bağın kənarındakı bir alma ağacının üstündə üç ədəd alma var. Dolanıb geri qayıdanda görür ki, bu almalardan biri yoxdur. O, bağbanı yanına çağırıb üçüncü alma ilə bağlı ondan soruşur. Bağban da cavab verir ki, alma yerə düşdü və bir sufi onu istədi, mən də almanı sufiyə verdim. Bundan sonra Şeyx Səfiəddinin bağbana sualları başlayır. Əvvəlcə soruşur ki, almanı sufi özü istədi, yoxsa bağban bu almanı ona hədiyyə etdi?. Bağban dedi ki, sufi istəmədi, o özü almanı ona hədiyyə etdi. Belə olanda Şeyx Səfiəddin yenə soruşur ki, sufi bu almanın bahasını ödədimi? Bağban yenə cavab verir ki, özü istəmədiyi halda sufi bu almanın bahasını ödədi. Bunu eşidəndən sonra Şeyx Səfiəddin bir də bağbana sual ilə müraciət edir ki, sufi könüllü şəkildə almanın bahasını ödədi, yoxsa bağban istəyəndən sonra ödəməli oldu? Bağban cavab verir ki, o, almanın bahasını istəmirdi, amma sufi onu almanın bahasını almağa məcbur etdi. Belə olanda Şeyx Səfiəddin əllərini qaldırıb Tanrıya dua və şükür edir ki, onun ətrafında olan sufilər rəhmani sufilərdir və şeytan təhrikinə uymayanlardır (88).

Şeyx Səfiəddin halallığı da təriqət əhlinin mühüm keyfiyyətlərindən biri sayırdı. “Səfvətüs-səfa” əsərində də Şeyx Səfiəddinin halallığını ifadə edən bir hekayət vardır. Həmin hekayətdə deyilir ki, bir dəfə Şeyx Səfiəddin Baruqlu Xacə Bədəlin evində qonaq imiş. Xacə Bədəlin tapşırığı ilə bu əziz qonaq üçün ləzzətli yeməklər hazırlanır və süfrəyə gətirilir. Ev sahibi yemək yeməyi təklif edəndə, Şeyx Səfiəddin ondan imtina edir və bildirir ki, sənin süfrə üstünə qoyduğun qabların içindəki yemək yox, neftdir, onu yemək olmaz. Yəni bildirir ki, təklif etdiyin yemək haram yeməkdir. Yanındakılar söyləyirlər ki, Xacə Bədəl ona verilən maaşla dolanır, başqa bir qazancı yoxdur. Şeyx Səfiəddin isə bildirir ki, Xacə Bədəl məhkəmə məsələləri ilə məşğul olur və bu zaman haqsızlıqlara, harama yol verir və ona görə onun süfrəsi üstündə olan da haramdır. Adı çəkiln əsərin müəllifi də bildirirdi ki, Şeyx Səfiəddin zəhməti ilə ruzisini qazanardı və müridlərinə də bunu təbliğ edərdi. O, dilənməyi, başqalarından pul istəməyi düzgün saymırdı və bildirirdi ki, halal zəhmət insanın səxavətini

artırar, dilənmək isə paxıllığa yol açmaqla insan könlünü də pərişan edər. Şeyxlərin nəzir almasını da Şeyx Səfiəddin dilənçilik kimi qəbul edirdi və müridlərini və taliblərini də bundan çəkinməyə çağırırdı (89).

Halallıq Şeyx Səfiəddinin nəzərində həm də nəfsin cilovlanması demək idi. Yəni nəfsi cilovlamaqla harama meylin qarşısını almaq olardı. O bildirirdi ki, insanda beş zahiri görmə, danışma, hərəkət orqanları olduğu kimi, daxildə də beş belə orqan vardır. Bununla Şeyx Səfiəddin insanın gözünə, dilinə, qulağına, əlinə və ayağına işarə edirdi. Onun fikrincə, bu daxili və xarici orqanların da bir-biri ilə əlaqəsi var idi. Şeyx Səfiəddin insanın xarici fiziki orqanlarında nəfsə və harama doğru istiqamətlənmə meylini görürdüsə, daxili orqanlar isə nəfsin və haramn əksinə idilər. Həmin daxili orqanların hərəkətə gəlməsi və insanı nəfsdən qoruması isə xarici orqanların hərəkətlərinin məhdudlaşdırılması və nəzarətdə saxlanılması ilə bağlı idi. Şeyx Səfiəddin bunu belə izah edirdi ki, şəriət baxımından haram olan bir şeyə baxmamaq üçün insanın gözü yumulsa, onda insanın batinində olan bəsirət gözü açılar və insanın batinini nurlandırar. Və ya Tanrı-təalanın haram buyurduğu qeybət və yalanları eşitməmək üçün qulaq yumulsa, onda könül qulağı açılır və insan batinində Tanrının müqəddəs xitablarını eşidə bilir. İnsanın dili böhtan və yalan danışmaqdan dayanıb zikrlə məşğul olsa, o zaman könlün dili Haqqın hikmətindən və Tanrının mərifətindən söz açar. Daha sonra əgər insan əli oğurluqdan və haramdan, insanları incitməkdən uzaq olarsa, daxilndə gizli olan Tanrı xəzinəsinə əli yetmiş olar. Şeyx Səfiəddin daha sonra əlavə edirdi ki, şəriətə zidd olan əməllər dalınca getməsə, Haqq-təala ona bərəkətli qədəmlər qismət edər və bu qədəmlərlə öz məqsədinə yetişər. Onun bəyanına görə, əgər insanın hiss və fikirləri Haqq yolunda olsa, batini zənginləşsə, ağlı və zəkası ilə ətrafdakıları dərk etsə, onda ruhu və könlü Tanrının mərifətinə nüfuz edə bilər (90).

Talibin və müridlərin xarici orqanlarının harama və maddi nemətlər cazibəsinə meyillənməsinin qarşısının alınması yollarından birini də Şeyx Səfiəddin müəyyən qədər tərkidünyalıqda,

maddi dünyadan uzaqlaşmaqda, tənhalıqda görürdü. Bu tələb bir qədər kəskin səslənsə də, əslində, təsəvvüfdən, vəhdəti-vücud fəlsəfəsindən irəli gəlirdi. Haqqa qovuşmaq dünya maddiliklərindən üz döndərərək Haqq yolunda irəliləməyi tələb edirdi. Aşağıda ifadə olunan fikrə görə, cəmiyyətdən uzaq olmaqla daha az haramla rastlaşmaq olardı. Şeyx Səfiəddinin adından ifadə olunmuş bu fikirdə belə deyilir: “Bilgil indi, ey əziz qardaş! Kişi bu xəlqdən üzlət edib kəsliməyincə dilini, dinini, qarnını, gözünü və bu yeddi əzasını saxlayamaz. Zira bu cəmi əzaları şərrə ilətməgə səbəb bu xəlqdir. Haçan bir kişi bü xəlqə qarışsa, əlbəttə, bu xəlqə uymaq lazım gələr. Əgər uymayıb müxalif edərsən, sənə düşman olurlar. Sənə rahət göstərməzlər. Səni incidərlər. Elə olsa, bunlardan üzlət gərəkdir. Və həm neçə dürlü afətlər bu xəlqə qarışmaqdan gələr. Bəzi ariflər demişlərdir kim, bu xəlqə müsahib olmaq, haman od ilə müsahib olmaq gibidir. Pəs bu oddan kişi mənfəətlənmək gərəkdir. Amma ki, həzər etmək gərəkdir kim, bu od kənduyi yandırmaya. Qardaş! Qeybət ixtilatdır, riya ixtilatdır. Yəni xəlqə qarışmaqdır. Yalançılıq ixtilatdır. Təkəbbür, həsəd, nifaq ixtilatdır. Daha nə dənli yaramaz fel var isə həp ixtilatdadır. Pəs üzlət salamatlıqdır. Kişi xəlvətdə otursa, neçə mövla ilə müamiləyə yol bulmaz. Xüsusən kim, bu şimdiki zamanda, bu şimdiki zamanın qövmündən üzlət etmək, əlbəttə, gərəkdir. Şol hədis ilə kim, Rəsul həzrətləri – əleyhissəllam buyurmuşdur: «Axır bir zaman gələ kim, zəif üzrə ola islam, iman. Vaizlər çox ola, dünya üçün vəz edələr, bulduqların söyliyələr, Tanrıya və Rəsuluna böhtan edələr. Yəni Tanrıya və Rəsuluna böhtan edib, isnad edib sözlər söyləyələr. Ol zamanın alimləri az ola ol zalimləri dəf etməyə. Kəndi/ləri/ minbərə çıxıb əklərikləri üçün onlar daha dinməyələr. Dilənçuları çox ola, vericiləri az ola. Elə olsa, ol zaman kim irişsə, zinhar, onlara qarışmanız, onlardan üzlət ediniz» (91).

Xalqdan üzlət qılmağın yollarından birini isə Şeyx Səfiəddin taliblərin daim mürşid nəzarəti altında olmasında və müridlərin tələblərinə lazımınca riayət etməsində görürdü. Onun fikrincə, mürşidinin iradəsinə bağlanan, onun dediklərini edən

müridlər möminlərdən olurdu. Belələri üçün ölüm yox idi, həyatları başa çatanda da onlar bir evdən başqasına (o biri dünyaya) köçürdülər. Belə müridlər qiyamət günündə də övliyaların himayəsi altında olacaqdılar (92). Şeyx Səfiəddin bu müridlər və taliblərin aqibəti haqqında belə deyirdi: "Bir talib övliya kəlamın eşidə, həqq bilə, övliyanın mənaqibin dinləyə, hər nə deyərsə, ona görə əməl eyləyə və mürşidin əmrini yerinə gətirə, ol talibə hərgiz ölüm yoxdur. Dünyadan axirətə iman ilə gedə, cümleyi-ənbiya və zümreyi-övliya ondan xoşnud ola, cənabi-Həqq həzrətləri ondan razı ola və cəmalını göstərə" (93).

Yalan söyləməyi, qeybətlə məşğul olmağı Şeyx Səfiəddin talliblər üçün, daha geniş mənada isə təsəvvüf əhli üçün müsibət kimi dəyərləndirirdi. Onun sözlərincə, yalan danışmaq və qeybət etmək talib lərin qarşılaşa biləcəkləri üç müsibətdən ikisi idi. Üçüncü müsibət isə Şeyx Səfiəddinə görə, övliya (mürşid) mehr və məhəbbətinin talibin qəlbindən çıxması idi. Şeyx Səfiəddin bildirirdi ki, bu üç müsibətdən yaxa qurtara bilməyən talib dərgaha qəbul olunmaz, dünyadan axirətə imansız gedər, bütün həyatında nə qədər savab iş görsə də qiyamət günündə cəhənnəm əzabına layiq görülər (94).

Təriqət yolunda talib lərin və müridlərin uğurla addımlamasının başlıca şərtlərindən birini Şeyx Səfiəddin bütün tələblərin icrasına könüldən yanaşılmasında görürdü. Şeyx Səfiəddinə görə könül imanın yeridir və möminlik də könüldə formalaşır. Ümumən, o, könülü insan varlığını (vücudunu) formalaşdıran dörd ünsürdən biri kimi qəbul etmişdi. İnsan varlığını formalaşdıran digər ünsürlər isə bədən, nəfs və ruh idi. Bu ünsürlər arasında Şeyx Səfiəddinə görə, könül daha əhəmiyyətli yer kəsb edirdi və hətta könülün Şeyx Səfiəddin tərəfindən maddiləşdirilməsi (bədənin bir əzası kimi) meyli də görünməkdədir (95).

Bu fikrə görə, təriqət yolunun yolçuluğu da könüldə sona çatırdı, son məqsədə burada yetmək olurdu, sufilik də könüldə formalaşırdı. Ona görə təsəvvüf üçün könül xüsusi əhəmiyyət kəsb edirdi. Şeyx Səfiəddin könül ilə bağlı belə deyirdi: «Sözün əsli könüldür. Hər kim könül bəhrinə yol buldu, nə durr istərsə,

dalıb çıxardı. Onlar kim surətə baxdı, qəflət ipin boynuna taxdı, taət xərmənin oda yaxdı, duxanı göylərə çıxdı. Zira könlü Həqq kəndi üçün yaratdı. «Hər kim məni istərsə, sınıq könüllər içrə bulsun», - dedi. Hər kim könülə yol bulmadı və istədigi nəsnəni onda daha bulmadı, uçmağa daha girmədi, padşah didarın daha görmədi. ...İndi sən daha könlünü əlinə al, elmi-rəbbani kitabından oxu, könül göyündə doğan dövlət ayını və səadət günəşini gör, ta gözündən qəflət hicabı gedib, Həqq kitabı rövşən ola. Qara tənindən ağ güllər açıla, vücudun qaranquluğundan aydınlıqlar saçıla. «Qara məcmuə»yi əlinə al, oxu, könlünün sarayı rövşən olub, oğrular ondan kəsilə, mələklər dola. Zira bu vücud bir dükandır, sənə kirayə verilmişdir, içində rəncbərlik edərsən. Bu dükanın küncündə gənc vardır. Dükan əlində ikən küncü qaz, gənci bul. Yoxsa vədə gəlicək səni dükandan çıxararlar və küncündə gənci bularlar. Ardınca baxa-baxa qalarsan" (96).

Göründüyü kimi, Şeyx Səfiəddin insan vücudunu insana kirayəyə verilmiş bir dükana bənzədirdi və ona tövsiyə edirdi ki, bu dükanda rəncbərlik etsin. Yəni zəhmətə qatlaşsın və bu dükanın dərinliklərində gizlənmiş olan xəzinəni tapıb üzə çıxarsın, bu xəzinədən bəhrələnsin. Şeyx Səfiəddin bildirirdi ki, insan bu dükanda (vücudunda) əbədi deyil, bir gün onu tərk etməli olacaq və orada olan xəzinəni tapa bilməsə sonra gec olacaq. Xəzinə dedikdə, Şeyx Səfiəddin könülə işarə edirdi və müridlərinə, taliblərinə məsləhət bilirdi ki, vaxtında öz könüllərinə sahib ola bilsinlər, dünyaya könül gözü ilə baxsınlar, könül qulağı ilə dinləsinlər. Şeyx Səfiəddinin fikrincə, insan vücudununda əsas ünsür olan könül bir işdə qərarlı olardısa, daha heç nə ilə onu bu qərardan döndərə bilməzdi. Ona görə də könül hətta ruhun da qibtə etdiyi bir ünsür sayılırdı (97).

Başqa sözlə, əgər talib və ya mürid könüldən təriqət yoluna bağlansaydı, Haqq yolunu tutsaydı artıq şeytan təhriki və ya da dünya nemətlərinin cazibəsi onu öz yolundan yayındıra bilməz, nəfsin sınaqlarına üstün gələ bilərdi. Mürid və talibin maddi dünyadakı tərkidünyalığı və tənhalığı da məhz könül dünyasında intizarında olduğu rahatlıq və batini feyzlə tamamlanırdı.

Şeyx Səfiəddin könülün hər yaradılışa deyil, məhz insana verilməsinin sirri barədə də öz bildiklərini bəyan edirdi. Bununla bağlı "Quran"i-Kərimə istinad etməklə ona sual da verilmişdi. Bildirilir ki, "Quran"ın Əshab surəsinin 72-ci ayəsi ilə Nisa surəsinin 28-ci ayəsi insana Tanrı tərəfindən könül lütf edilməsi məsələsinə həsr edilmişdir. Həmin ayələr belə idi: "Biz əmanəti göylərə, yerə və dağlara təklif etdik. Onlar onu götürməkdən qorxub çəkindilər. İnsan isə onu götürdü. İnsan zəifdir". Şeyx Səfiəddindən belə bir sual edildi ki, əgər Tanrı könülü insana lütf edibsə, nə üçün onu zəif adlandırıb? Şeyx Səfiəddin belə cavab verir ki, mövcudatın xülasəsi insan, insanın xülasəsi isə onun könlüdür. Könül əziz və şərif bir nəstə olduğu üçün onun yerləşməsi üçün də əziz və şərif bir yer lazım idi. Göy və göydəkilərin, yer və yerdəkilərin heç birinin könlü yoxdur. Çünki onlar könülü götürməyə aciz qaldılar. Şeyx Səfiəddinə görə, Tanrı-təala insan qəlbini yer və göydən də geniş saydı və ona görə də könülü insan qəlbinə yerləşdirdi. Şeyx Səfiəddin sonra da əlavə edirdi ki, insanın ruhu üns aləmindən idi, Tanrı onu insan cəsədinin zindanına göndərdi və bu ruh sirlərə vaqif olduğu üçün könülü qəbul etməyə bilərdi. Ona görə də insana və insan ruhuna Tanrı tərəfindən bir qəflət göndərildi və onlar da cahil anlar yaşayaraq könülün insan qəlbinə girməsinə mane ola bilmədilər: "...çün insanun ərvahı üns aləmindən idilər və bilici və hazır idilər, çün Tanrı-təala anları cəsədün zindanına göndərdi, əgər anlara səhv ilə qəflət müstövli etməsə idi, iztirab edüb, girməyüb anda qərar dutmaz idilər, lazımən Həqq-təala qəflət anlara verdi, ta əmanətün götürməgindən cahil olalar. Mundan ötrü ana "cühul" dedi ki, həm ol cəhalətdə qalub kəndü götürdügi əmanətün mərifətini hasil etməyə və bilməyə kim, öz nəfsinə zülm eyləyübdür və zülum ola və Tanrınun cavabını verə bilməyə, bu dəlil ilən həm zalım ola həm cahil" (98).

Könülü möhkəmləndirməyin mühüm yollarından birini Şeyx Səfiəddin hər zaman halal tikə yeməkdə görürdü. O bəyan edirdi ki, insan qazandığı nemətləri könülü, bədəni və əlləri ilə əldə edirdi və bu nemətlərin halal olmasının vacibliyinə toxu-

nurdu. İnsan halal tikə yeyəndə könüldə itaətə meyil daha da artır. Halal tikə yeyəndən sonra insanın bədəni və əlləri də ibadətə meyil edirdi. Lakin insan halal tikə yeməyəndə, yedikləri halallıqdan uzaq olanda könül zəifləyirdi və bu zaman insan başında şəhvət havası güclənirdi. İnsan nəfsində günahlara həvəs daha da güclənirdi. Ona görə də halal tikə yeyilməsi insanın könlündə Haqq sevgisi yaratdığı halda, haram tikə də haram işlərə meyli artırardı. Şeyx Səfiəddin fikrinin əsaslandırılması üçün "Quran"ın Mömininin surasəinin 51-ci ayəsinə istinad edirdi. Həmin ayədə deyilirdi: "Ey Peyğəmbərlər! Təmiz, halal nemətlərdən yeyin və yaxşı işlər görün". Müqayisə üçün Şeyx Səfiəddin qeyd edirdi ki, əgər bir insan şoran ərazidə əkin əksə, bu əkin bitməz və məhsul verməz. Yox əgər, həmin şoran əraziyə hər gün şirin su verilsə, bu torpağın duzluluğu yavaş-yavaş azalar və nəticədə əkiləndən bir səmərə də əldə etmək olar. Şeyx Səfiəddinin nəzərində halal tikə də şirin su kimi duzlaqları əridib insanın vücudundakı səmərəni daha da artırar və könülü daha da möhkəmləndirər (99).

Şeyx Səfiəddinə görə, könlün iki libası var idi – biri günəş libası, digəri yer libası. O, libaslardan söhbət açsa da, əslində, könülü günəşə və yerə bənzədiri. Könlün günəşlə bənzərliyi Şeyx Səfiəddinə görə onda idi ki, könül də günəş kimi həyatverici qabiliyətə malik idi. Belə ki, yer üzündə olan bütün canlılar, cansızlar, bitkilər günəşdən işıq və enerji alıb inkişaf etdiyi, gücləndiyi, səmərə verdiyi kimi, taliblərin formalaşdırılması, yetişdirilməsi də onların könlündə baş verirdi. Könülün işığı və enerjisi ilə taliblərin günahları da əriyib yox olur və onlarda yeni hallar yaranırdı. Könülün yerlə bənzərliyi isə onda idi ki, yer ziraətin, əkinlərin, tikintilərin, quruculuğun məkanı olduğu kimi, könül də eşqin qurulduğu, məhəbbətin əkildiyi, Tanrının mərifətinin meydana gəldiyi məkan idi. Xəzinələr və qiymətli mədənlər yerdə tapıldığı kimi, insan könlü də mənaların, mərifətlərin xəzinəsi, gizləndiyi yer hesab edilirdi (100).

Başqa sözlə, təsəvvüfün, təriqətin hədəfi olan batini dəyərlərin formalaşma məkanı könül idi və ona görə də Şeyx Səfiəddin

könülün sufi həyatındakı yerinə xüsusi önəm verirdi. Amma Şeyx Səfiəddin onu da bəyan edirdi ki, könülün mövcudluğunu qəbul etmək sufi üçün yetərli deyil. Hər bir sufi könüldə yer almış xəzinəyə istinad edərək həyatını, davranışını qurmalıdır. Onun fikrincə, insan könlünün xəzinəsini formalaşdıran mənbə "Quran"i-Kərim və islam peyğəmbərinin hədisləri, buyuruqları və sünnəsi idi. Sufi bu mənbələrin sadəcə müşahidəçisi olsa, onda həyatında uğurlara doğru irəliləyə bilməz. İnsan öz həyatını qurmaq üçün bu mənbələrə istinad etməklə hər zaman inkişafda olmalıdır (101).

Şeyx Səfiəddin təriqət əhlinin öz ibadətini, təriqət tələblərini bu mənbələrə istinad etməklə və könülə dayaqlanmaqla icra etməsini zəruri sayırdı. Könüldən gəlməyən ibadəti Şeyx Səfiəddin qəbul etmirdi. Bir dəfə Şeyx Səfiəddindən soruşulur ki, əgər bəndə nahar zamanı iki rükət namaz qılsa, Tanrı-təala onun savabını yazacaqmı? Şeyx Səfiddin bu sualın qarşısında soruşur: bu namaz dəstəmazla qılınır, yoxsa dəstəmazsız? Şeyxin yanındakılar təəccüblə bildirirlər ki, namaz qılmaq ki, dəstəmazsız olmaz. Şeyx Səfiəddin də bildirir ki, əgər sufi batini dəstəmaz almasa, təharət etməsə onun namazı dəstəmazsız namaz kimi qəbul olunar. "Səfvətüs-səfa" əsərində Şeyx Səfiəddinin bu cavabından sonra belə bir beyt verilmişdir:

Könülnün qüsli hər kim qıldı, yetmiş qatla pak olur,
Yox isə, talibün qamu namazı eybnak olur (102).

Bunula belə, Şeyx Səfiəddin namazın zahiri tərəfini də diqqətdən kənarda qoymur və onun tələb olunduğu kimi icra edilməsini də vacib sayırdı. Yəni namaz üçün zəruri olan hərəkətlərin icrası, surələrin və duaların oxunması düzgün sıralanmalı idi. "Səfvətüs-səfa"da öz ifadəsini tapan bir hekayətdə Şeyx Səfiəddin namazın düzgün icra olunmasının vacibliyini qeyd edirdi. Bu hekayətdə bildirilir ki, Şeyx Səfiəddin səfərlərinin birində namaza durarkən pişnamazlıq edən əvvəlki təşəhhüdü unudub ayağa qalxdı, üçüncü rükətlə dördüncü rükəti tamam edəndən sonra səhv olaraq səcdəyə getdi və salam verdi. Namazdan sonra Şeyx Səfiəddin namazın düzgün icra edilmədiyinə öz iradını

bildirdi. Pişnamaz da səhvə yol verdiyini etiraf etdi və bildirdi ki, səcdəyə öz yerində getmədiyi üçün sonradan bu səhvini düzəltmək istədi. Şeyx Səfiəddin bunu eşidincə məsləhət bildi ki, namaz yenidən qılınsın və onun hissə-hissə qılınması səhvi aradan qaldırılsın. Namaz yenidən qılınandan sonra məclisdəkilərdən biri islam peyğəmbərinin həyatında da namaz qılınarkən belə bir halın olduğunu, onun da hazırkı pişnamaz kimi hərəkət etdiyini və namazdan sonra səhv səcdəsini icra etdiyini söylədi. Deyildi ki, həzrət peyğəmbər bir dəfə ikindi namazını qılarkən səhv olaraq əvvəlki təşəhhüdə salam verdi. Səhabələrindən biri bunu Ona çatdırdıqda islam peyğəmbəri qalxıb namazı yenidən qıldı və səhv səcdəsini icra etdi. Ona görə Şeyx Səfiəddindən sual edildi ki, onun namazı yenidən bütünlüklə qılması islam peyğəmbərinin hərəkətinə əkslik təşkil etmirmi? Şeyx Səfiəddin də cavab verdi ki, islam peyğəmbərinin və imamların səhv etməsini düşünmək, onlara düzgün olmayan hərəkətləri şamil etmək doğru deyildir. Çünki həzrət peyğəmbərin hər namazı bir merac idi, onun icrası isə kamil idi. Şeyx Səfiəddinə görə, qeyd olunan halda əvvəlki təşəhhüddə meracın bütün keyfiyyəti hasil olmuşdu və ona görə salam vermişdi. Lakin görəndə ki, bununla namazın icra ardıcıllığı pozulub, onda namazı yenidən ardıcıllıqla qıldı ki, bu ardıcıllıq pozulmasın və başqaları da doğru olan ardıcıllığı icra etsinlər, namazın qılınmasında yeni ardıcıllğın olması barəsində səhv təsəvvürlər də rəvac tapmasın (103).

Məlumdur ki, təriqət əhli üçün təriqət yolçuluğu tövbədən başlayırdı. Təriqətin tələblərindən biri bu idi ki, talib olan insan təriqət şeyxinin rəhbərliyi altında tövbə alır və sonra da dini-mənəvi həyatında yeni bir mərhələyə qədəm qoyurdu. Talibləri tövbəyə gətirmək təriqət mürşidlərinin səlahiyyətində idi. Yuxarıda yazılanlardan bəllidir ki, Şeyx Zahidin sağlığında onun tapşırığına uyğun olaraq müəyyən hallarda Şeyx Səfiəddin mürşidinin əvəzində talibləri tövbəyə gətirirdi. Şeyx Səfiəddin bildirirdi ki, tövbəyə gəlmək adi bir mərasim deyildir. Tövbəni edən talib üç məsələdə əvvəlki adətlərini tərk etməlidir. Birincisi, tövbə edən talib öz danışıqlarını və söhbətlərini dəyişməli və on-

lara nəzarət etməyi bacarmalı idi. Yəni talib inanclarını, əqidəsini dəyişməli idi. Əks təqdirdə, o, digərlərindən heç nə ilə fərqlənə bilməzdi və başqalarının söhbətlərinə uymaqla təriqət yolundan yayına bilərdi. İkincisi, təriqət talibi görünüşünü dəyişməli idi. Bəlli idi ki, sufilərin öz geyimləri var idi və bu geyim onu geyənləri yalnız zahiri cəhətdən dəyişdirmirdi, həm də onlarda müəyyən məsuliyyət yaradırdı. Hətta ətrafdakı insanlar da bilirdilər ki, bu geyimin sahibləri əməlləri və əqidələri ilə digərlərindən fərqlənirlər. Ona görə də sufi geyimində olanlar hamısı ətrafdakıların tənəsindən də qorunurdular. Nəhayət, tövbə qəbul edənlər haram tikə yeməkdən çəkinməli idilər. Çünki haram tikə yemək tövbə qəbul edənləri əvvəlki halətinə qaytara bilərdi (104).

Şeyx Səfiəddin onu da əlavə edirdi ki, talibin tövbə qəbul etməsi və tövbəsinə sadiq qalması heç də onun könlünün təmizlənməsi və tövbə yolunda qərarlaşması demək deyildir. Çünki insanın düşməni olan şeytan tövbənin qəbul edilməsindən sonra heç də insandan əl çəkmir. Əksinə, şeytan insanın tövbə qəbul etməsindən sonra ona qarşı düşmənçiliyini daha da artırır və məkrlərini daha da gücləndirir. Şeyx Səfiəddinin fikrincə, şeytan elə bir düşmən idi ki, o, insanı görür, amma insan onu görə bilmir. Bundan əlavə, şeytan güclü bir düşmən olduğu halda, insan zəif bir məxluqdur və ona görə şeytanın öz məkrində üstün gəlmək şansı həmişə qalmaqdadır. Ona görə tövbə etmiş insan da daim özünü şeytan şərindən qorumağı bacarmalıdır. Şeytanın şərindən qorunmağın yollarından biri isə "la ilahə illəllah" zikrinin edilməsi idi. Şeyx Səfiəddin bu məsələyə dair Tanrıya aid bir hədisə də istinad edirdi. Həmin hədisdə deyilirdi: "la ilahə illəllah" – mənim qalamdır, kim qalama girərsə, Mənim əzablarımdan tam himayə olunar". Bu hədisə istinadən Şeyx Səfiəddin də bəyan edirdi ki, tövbə almış talib gərək "la ilahə illəllah"ın zikri qalasına girsin və bununla özünü şeytanın şərindən qurtarmış olsun (105).

Ümumiyyətlə, təriqət əhli tərəfindən davamlı zikr edilməsinin vacibliyi barəsində Şeyx Səfiəddinin xeyli fikirləri mövcuddur. Onun nəzərində zikr edilməsi sadəcə olaraq islami ayinlərdən birinin fiziki icrası deyildi. Zikr sufi qəlbinin təmizləyicisi,

Haqq eşqinin sufi könlündə möhkəmləndirilməsi, sufinin Haqqa daha möhkəm bağlanması üçün dini-batini bir aiyn idi. O hətta zikri namaz qədər vacib sayırdı və onun üstünlüklərini sufilərə çatdırırdı. "Quran"i-Kərimin Ənkəbut surəsində də Allah zikrinin bütün başqa ibadətlərdən üstün olduğu bildirilirdi. Bu surənin 45-ci ayəsində deyilirdi: "Həqiqətən, namaz şirk və pis əməllərdən çəkindirər. Allahı zikr etmək [bütün başqa ibadətlərdən] daha böyükdür". Namazın islam dininin ən böyük rüknü olduğu halda zikrə də belə dəyər verilməsinin nə ilə bağlı olduğunu Şeyx Səfiəddin belə şərh edirdi ki, namazın zahiri və batini tərəfləri olduğu halda, zikr yanız batin üçündür və zikr Tanrının nəzərgahı olan batini münkürlərdən və şübhələrdən pak edər. Ona görə də zikrə belə üstünlük verilib (106).

Zikrə bağlı olan sufiləri Şeyx Səfiəddin "la ilahə illəllah" əhli adlandırırdı. Onun fikrincə, zikr edənlər (zakirlər), zikrinə etiqadla yanaşanlar sadəcə "la ilahə illəllah" əhli deyildilər, bu ifadənin mərifətinə vaqif olan insanlar idilər. Şeyx Səfiəddin bəyan edirdi ki, "la ilahə illəllah"ın mərifətinə vaqif olanlar isə o insanlar idilər ki, onlar zikrləri ilə Tanrının xəzinəsinə yol tapa bilmişdilər və beləri onlardan soruşulan suallara cavab tapa bilməyəndə də Tanrı lütfündən məlum edib cavab verə bilirdilər (107). Başqa sözlə, Şeyx Səfiəddin ona işarə edirdi ki, zikr Haqqa qovuşmağın yollarından biri idi və həqiqi zikr yolunu tutmaqla Haqqa qovuşmaq olardı.

Yuxarıda qeyd edildiyi kimi, Şeyx Səfiəddin zikrə bütün vücudla bağlanmağı tövsiyə edirdi. Onun fikrincə, zikrə bağlanmış insanın bədəninin hər bir tükü də vəcdə gələrək yaradanı zikr etməli idi. Yalnız bu zaman zikr edən Tanrı feyzinə yetişə bilərdi.

Şeyx Səfiəddin fikirlə zikri səhv salmamağa çağırırdı və zikrin fəzilətini fikrin fəzilətindən üstün sayırdı. Onun fikrincə, zikr insan könlünün bəsirətini artırmağa xidmət edirdi və zikri icra etdikcə insanın könlü zənginləşir, Haqq sevgizi artırdı. Şeyx Səfiəddin fikri zikrin nəticəsi bilirdi. Amma insan qəlbindəki fikirlər yalnız zikrdən yaranmırdı. Şeyx Səfiəddin bəyan edirdi

ki, insanın bir sıra fikirləri onun bəsirətsizliyindən meydana gəlirdi. Onu da əlavə edirdi ki, insanın Tanrı haqqında fikirləşməyi onun bəsirətsizliyinin məhsulu idi. Çünki Tanrının zatını fikirlə dərk etmək mümkün deyildi. Ona görə insanlara tövsiyə olunurdu ki, onlar Tanrının yaratdıqları haqqında fikirləşsinlər, Onun özünün yaradılışı haqqında yox. Belə fikirlər bir nəticəyə gətirə bilməzdi. Şeyx Səfiəddin belə bir qənaəti ortaya qoymaq istəyirdi ki, əgər zikr insan könlündə Allah sevgisi yaradırdısa, bəsirətdən doğmayan fikir Haqq yolundan yayındıran addımlara yol aça bilərdi. Ona görə də Şeyx Səfiəddin təriqət əhli üçün zikri fikirdən üstün sayırdı (108).

Şeyx Səfiəddin bildirirdi ki, zikr könülə təsir edəndə könüldə bir qorxu yaranır. Həmin qorxunun nəticəsi elm, elmin nəticəsi yəqin idi və yəqindən də təvəkkül hasil olurdu. Onun sözlərinə görə, könül Tanrını çox zikr etməklə Tanrıya qovuşa bilər və "Quran"i-Kərimin mütaliəsindən imanı artar və yəqinlik sahibi olar. Yəni zikrin çox edilməsi ilə könül açılır. Könülün açılmağı isə əllərin açılmağına səbəb olur. Şeyx Səfiəddin qeyd edirdi ki, əllərin açılması və səxavətin ortaya çıxması könülün açılması ilə əlaqəlidir. Onu da əlavə edirdi ki, könülün açılması həm xasiyyəti yaxşılaşdırır, həm də səxavətə yol açır. Könülün açılması həm də nəfsin aradan götürülməsinə zəmin yaradırdı. Bütün bunlardan Şeyx Səfiəddin belə bir qənaəti ortaya qoyurdu ki, yaxşı xasiyyəti və səxavəti şərtləndirən könül açıqlığı davamlı zikrin nəticələrindən biridir. Bununla belə, bir fikir də ortaya qoyulurdu ki, zikr etməklə insan çox mətləblərə yetməyə qadirdir və zikrin sufi həyatındakı mərtəbəsi çox yüksəkdir (109).

Şeyx Səfiəddin bəyan edirdi ki, sufinin baş endirməsi qorxunun nəticəsidir və bu qorxu da zikrdən hasil olur. Zikr etdikcə könül dərisi yumşalıb yuxalanır və bunun nəticəsində də qorxu yaranır. Çox güman ki, Şeyx Səfiəddin burada psixoloji qorxunu deyil, Tanrı sevgisindən yaranın məsuliyyət hissini nəzərdə tuturdu. Şeyx Səfiəddinə görə, könüldə zikrdən doğan qorxu yerləşəndən sonra o könül daha da formalaşır və möhkəmlənir. Müqayisə üçün bildirilir ki, bir kişi evdə yaşamasa, bu evin ehtiyac

duyulan təmirini aparmasa, həmin ev getdikcə yararsız vəziyyətə düşər. Könül evi də belə qəbul olunurdu. Əgər könül evi də yad hisslərdən təmizlənməsə orada mərifət də yerləşə bilməz. Könül evinin yad hissələrdən təmizlənməsi isə davamlı və etiqadlı zikr vasitəsilə əldə edilə bilərdi (110). Şeyx Səfiəddin onu da bəyan edirdi ki, Tanrının zikri ilə məşğul olan möminin könlü heç vaxt ölməyəcəkdir (111).

Zikrin necə icra edilməsi üsulu ilə bağlı da Şeyx Səfiəddin öz fikirlərini bildirmişdir. Dövrün təcrübəli sufiləri bir qayda olaraq zikri sakit və dinməzcə edərdilər. Şeyx Səfiəddin isə talib və müridlərdən tələb edirdi ki, zikri uca səslə icra etsinlər. Bununla bağlı ona sual verildi ki, bu üsulların hansı doğrudur? Şeyx Səfiddin hər iki üsulu doğru saydı, amma təriqət yoluna yeni qədəm qoymuş taliblər və müridlər üçün zikrin uca səslə icrasını doğru bildi. O, fikrini belə əsaslandırdı ki, zikri səsləndirməklə icra edəndə onun icrasını kənardan da izləmək və müşahidə etmək mümkündür. Şeyx Səfiəddinə görə, zikri uca səslə icra edəndə zikr edənin xarici və daxili etiqadı vəhdətdə formalaşırdı və mürid təriqət yolu ilə daha tutarlı şəkildə irəliləyə bilərdi. “Dəxi aşkar zikr etmək zahir əməllərdəndür və zahir əməllər cismə təəllüqdür kim, ol dəridə əsası ilə əməl eylər. Andan sonra könilə “sümmə təlinü cüludühüm və qülubühüm ilə zikrillahi” (Allahın zikrindən sonra dəriləri və qəlbləri yumşalar – Zümər surəsi, 23-cü ayə). Pəs dışxarkı əməllər gərək kim, zahir ilən ola və andan sonra güclü zikr ustadun tərbiyəti mədənindən hasil olur və həm böylə Rəşirlü Xacə Qiyasəddin Məhəmməd sual qıldı kim, ya Şeyx, zikr gizlü demək yaxşıdur, yoxsa aşkar? Həzrət Şeyx (q.s.) cavab verdi kim, fərzənd, əgər bir kimsə düşmən ilə savaşda olsa, düşməninə əgər bir qatı zərb ursa, yaxşımudur, yoxsa səhlcə? Dedi: “Yok, qatı gərək”. Pəs dedi: “Həman böylə, hər kim nəfs ilə şeytana savaşsa, zərbi qatırak ursa yaxşırakdur kim, əgər səhlcə ursa, müti olmaz, bəlkim həman kim sən anunlən yumşaq söyləyəsən, ol sənünlən mühaba eyləməyüb səhl dutmaz. Pəs, qatı zikr eyləmək yegrakdur, ol qədər kim zakir aşkarən zikrə yetə kim, ol ixtiyarsızlık zikridür. Andan sonra könül gizli

zikrə məşğul ola və əvvəlki aşkarən zikri ilən axır gizli zikri cəm etmiş ola" (112).

Könülün formalaşdırılmasında, qəlbin pak edilməsində, dünya nemətləri cazibəsinə qarşı müqavimətin yaradılmasında, Haqqa doğru davamlı şəkildə irəliləməkdə nəfslə mübarizənin, nəfsin nəzarət altına alınmasının təsəvvüfdə xüsusi yeri vardır. Yuxarıda yazılanlardan da göründü ki, nəfsin insan iradəsinin nəzarəti altına alınması üçün taliblər xəlvətə oturur, uzun müddət oruc tutur, az yeyir, az yatır və digər vasitələrə əl atırdılar. Bütün bunlar təriqət şeyxinin nəzarəti altında həyata keçirilirdi.

Nəfsə üstün gəlmək üçün Şeyx Səfiəddin nəfsin mahiyyətini də açıb təhlil edirdi. O bildirirdi ki, üç növ nəfs vardır: nəfsi-əmmarə, nəfsi ləvvamə və nəfsi mütməinnə. Bunlardan təriqət əhli üçün ən ağırı nəfsi-əmmarı idi. Nəfsi-əmmarə insanı dünya cazibələrinə, şəhvətlərinə sürükləyən, təhrik edən nəfs idi. Şeyx Səfiəddin bildirirdi ki, nəfsi-əmmarə küfr və üsyanın yoldaşıdır və qəbul edilməyən əxlaqın müttəfiqidir. Nəfsi-əmmarə gizlində olan bir nəfsdir, hücum etməsi çox hallarda gözlənilməz şəkildə baş verirdi. Onun sözlərinə görə, şeytan həmişə insanın bədənində, onun damarlarında gizləndiyi kimi, əmmarə nəfs də beləcə gözəgörünməzdir. Amma qəfil şəkildə ortaya çıxaraq insanı günaha sürükləmək qabiliyyətinə və gücünə malikdir. Yəni bu mənada ki, ən adi şəraitdə birdən-birə insan qəlbində nəfs baş qaldırıb onu doğru yoldan yayındıra, onu günah əməllərə təhrik edə bilər. Şeyx Səfiəddinə görə, bəzən əmmarə nəfs müsəlman olurdu, amma münafiqlik onun bətnində qalırdı. Bu mənada ki, insan nəfsi ilə mübarizə aparanda ona üstün gəldiyini güman edə bilərdi və müəyyən hallarda bu nəfs özünü göstərməyə bilərdi. Amma bu nəfsə birdəfəlik üstünlük əldə edilmədiyi üçün həmin nəfs gözlənilməz hallarda, gözlənilmədən özünü göstərə və bununla insanı günaha sürükləyə bilərdi. Belə halların qarşısının alınmasının və nəfsin birdəfəlik nəzarət altına alınmasının təsirli yollarından birini Şeyx Səfiəddin aclıq keçirməkdə və riyazətdə görürdü və əlavə edirdi ki, iti ac saxlamaqla müti etmək mümkün olduğu kimi, riyazət və aclıq da nəfsi müti edə bilərdi (113).

Şeyx Səfiəddin mütməinnə nəfsini insana ziyan gətirməyən, günah qazandırmayan nəfs kimi xarakterizə edirdi. O qeyd edirdi ki, mütməinnə nəfs Tanrının fərmanı altında aram dayanıbdır və ondan heç bir yamanlıq gözləmək olmaz. Şeyx Səfiəddinə görə, mütməinnə nəfsi insan əxlaqının məkanıdır, insan əxlaqının ülvi hissləri bu nəfsdə cəmlənibdir, bütün yaxşı sifətlər ilə bəzənibdir və bir əmanət kimi gizli məkanda qərar tutubdur. İnsan əxlaqına mənsub olan səxavətlilik, təvəkkül, həqiqət, insansevərlik, dözüm, şükür və s. kimi keyfiyyətlər bu nəfsdə cəmləşmişdi. Sonra da Şeyx Səfiədin nəfsi-ləvvaməni xarakterizə edirdi və bildirirdi ki, nəfsi-ləvvamə əmmarə nəfsi ilə mütməinnə nəfsi arasında qərar tutmuş bir nəfsdir. Yəni əgər nəzarət edilərsə o, mütməinnə nəfsinə, yox əgər nəzarət altında saxlana bilməzsə onda əmmarə nəfsinə tərəf meyil edər. Konkret olaraq qeyri-əxlaqi arzular, ötəri həvəslər, xudpəsəndlik, başqasına üstün gəlmək və s. kimi hisslər məhz bu nəfsə aiddir: "Və ləvvamə nəfsi bir lətif cisimdür kim, görmək olmaz, zücəsədeyndür, yəni ikiüzlüdür: bir yüz mütməinnənün aləminə qoyupdur və bir yüz əmmarə aləminə. Əgər əmmarə nəfsi güclüdür, anunlən bilədür və anun mütabiətin eylər və andan əxlaqi-zəmimə vücuda gəlür. Və nəfsi-ləvvamə anun içün məhəlli-qəsəmdür Tanrıya eylə kim buyurmuş və ... anun içündür kim, anun elm artuğlığı var kim, gah mütməinnə nəfsün tərəfindən kəsb eylər və gah əmmarə nəfsün yanından faidə alur. Və ləvvamə ol iki nəfsün ortasında vasitə və kəlməçidür və elmün artuğlığı içün Tanrı anunlən and içər. Və bu nəfsi-ləvvamənün iki tərəfi var: bir tərəf yuxaruya mütməinnə aləmində və bir tərəf aşağaya, əmmarənün canibində" (114).

Ləvvamə nəfsinin hansı tərəfə meyil etməsi isə sufinin iradəsindən, onun riyazətindən asılı idi və Şeyx Səfiəddin də təriqət əhlini riyazətə, nəfsi ilə mübarizəyə dəvət edirdi ki, ləvvamə nəfsinin girdabında qalmasın.

Nəfslə mübarizə və nəfsin idarə edilməsi məsələsinə Şeyx Səfiəddin böyük əhəmiyyət verirdi. Ona verilən və şərhi ondan soruşulan suallar arasında nəfs məsələsi tez-tez təkrar olunmuşdu. Belə sullardan biri "Quran" ayələsi ilə peyğəmbər hədisinin

məzmunu arasında zahiri fərqliliyin olması ilə bağlı idi. “Quran”ın Bəqərə surəsinin 284-cü ayəsində deyilirdi: “Siz ürəyinizdə olanı zahirə çıxarsanız da, çıxarmasanız da Allah sizinlə haqq-hesab çəkər”. İslam peyğəmbərinin hədisi isə belə idi: “Allah mənim ümmətimin ürəyinə vəsvəsə gətirən (yoldan azıb günah işlətmək) nə varsa onları bağışlayar, əgər hələ onları əməli işdə tətbiq etməyibsə və ya onu təbliğ etməmişlərsə”. Peyğəmbər hədisindən belə məlum olur ki, insanın ürəyinə vəsvəsə gətirən fikirlər əməldə həyata keçməyibsə günah sayılmaya bilər. Şeyx Səfiəddin bu zahiri fərqin nədən qaynaqlanmasına cavab verərkən bildirdi ki, insanlar iki cürdürlər – biri əbrar və digəri müqərrib. Əbrarlar o insanlar idi ki, əgər onlar ürəyə vəsvəsə salan fikirləri həyata keçirməyiblərsə, şəriətin zahiri tələblərinə riayət ediblərsə bu insanlara günah yazılmaz. Yəni islam peyğəmbərinin hədisi bu insanlara aiddir. Müqərrib insanlar isə Tanrının rizasını qazanmış insanlardır. Belə insanlar günah sayıla biləcək əməlləri xəyallarına gətirsələr və ya Tanrıdan başqa digər birinin xatirinə yaşasalar onda onlar Tanrının haqq-hesabı ilə qarşılaşarlar. Şeyx Səfiəddinə görə, beləlləri iraqlıq əzabına düçar olarlar ki, bu əzab digər əzablardan daha çətindir (115).

Şeyx Səfiəddin də belə bir fikrə tərəfdar idi ki, hər kəs nəfsini tanısa, Tanrısını tanımış olar. O bildirirdi ki, nəfsin tanınması onun aradan qaldırılmasına başlanması deməkdir. Nəfsi aradan qaldırmaq üçün əvvəlcə ona bələd olmaq gərəkdir. Bununla bağlı, Şeyx Səfiəddin belə bir misal çəkirdi ki, kimsə öz paltarında bir çirk görsə, onu paltarından təmizləməyə çalışar. Nəfs də bunun kimi idi. Təriqət yolunda olan talib və ya mürid nəfslə qarşılaşdığını bildikdə onu islah etməyə çalışmalı idi. Şeyx Səfiəddin bildirirdi ki, insan ki, nəfsinə üstün gələ bildi, ondan sonra bütün diqqətini Tanrıya çevirir və Tanrını dərk etməyə çalışır. Tanrı mərifətinə vaqif olmaq da nəfsə üstün gələndən sonra mümkün olur. Bütün bunlardan nəticə çıxararaq Şeyx Səfiəddin də bəyan edirdi ki, Tanrısını tanımaq istəyən əvvəlcə nəfsinə üstün gəlməlidir (116).

"Quran"ın Qaf surəsinin 16-cı ayəsinin (Biz ona şah damarından da yaxınıq") təfsirini Şeyx Səfiəddin həm də nəfs məsələsi ilə bağlayırdı. Onun bəyanından hasil olan qənaətə görə, Tanrı insana onun şah damarından da yaxın olduğu halda, insanın Tanrıya nə dərəcədə yaxın olması onun nəfsi ilə bağlı idi. İnsan nəfsinə üstün gəlmədikcə Tanrıdan çox-çox uzaq idi. Nəfsə nə dərəcədə üstün gəlməsi isə onu Tanrıya o dərəcədə yaxınlaşdırırdı. Nəfsə üstün gələn, təriqət yolu ilə qətiyyətlə irəliləyib həqiqətə varan salik insan həm də Tanrıya qovuşmuş olur. Başqa sözlə, ona yaxından-yaxın olan Tanrıya insanın nə dərəcədə yaxın olmasını müəyyənləşdirən amillərdən biri də onun nəfsinə nə dərəcədə üstün gəlməsi idi (117).

Mövcud olan yazılı mənbələrdə Şeyx Səfiəddinin təsəvvüfün mühüm məqamları ilə bağlı digər fikirlərinə də rast gəlmək mümkündür. Bir tərəfdən həmin yazılı mənbələrdə bir sıra təsəvvüf məqamlarına Şeyx Səfiəddinin münasibəti ötəri şəkildə bildirilmişdir və bununla, onun geniş fikirlərini ortaya qoymaq mümkün deyildir. Digər tərəfdən elə həmin məqamlar Şeyx Səfiəddinin təsəvvüf haqqındakı biliklərinin vüsətini təsəvvür etməyə imkan verir. Şeyx Səfiəddin təkrar-təkrar etiraf edirdi ki, Allah elminin hüdudları yoxdur və hər kəs öz qabiliyyətincə ondan pay götürə bilər. Bu mənada Şeyx Səfiəddinin bilik və elmi potensialı Allah elminin bir zərrəsi kimi dəyərləndirilə bilər. Lakin bu zərrə onu islam dünyasının ən böyük alimləri sırasına qaldıra bilmişdi.

### 3. Bəzi təsəvvüf kəlamlarının Şeyx Səfiəddin tərəfindən təfsiri

"Səfvətüs-səfa" əsərində bir sıra təsəvvüf kəlamları ilə bağlı Şeyx Səfiəddinin təfsirləri də öz əksini tapmışdır. Bu təfsirlər kifayət qədər müxtəsər olsa da, onlar bir tərəfdən Şeyx Səfiəddinin maraq dairəsini nümayiş etdirir, digər tərəfdən də onun elminin dərinliyindən xəbər verir. Həmin təfsirlər konkretliyi ilə seçilir və bu təfsirlərin ifadə etdiyi mənanın lazımınca

açılması həm tədqiqatçıdan, həm də oxucudan uyğun hazırlıq səviyyəsinə malik olmalarını tələb edir.

Şeyx Səfiəddinin təfsir etdiyi kəlamlardan biri "**vaxt**"dır. Onun nəzərində vaxt Tanrı-təala tərəfindən insanlar üçün endirilmiş hal, vəziyyət və ya durumdur. Yəni mövcud olan durumlar müəyyən vaxt çərçivəində, keyfiyyətcə bir-birini əvəzləməklə meydana gəlmişdir: "Həzrət Şeyx (q.s.) buyurdu kim, vəqt bir halətdir kim, həzrət Tanrı-təaladan kişiyə enər və ol həman andadur, eylə ki Həqq-təala yaradılmışların əhvalı müqəddər eyləyübdür iman ilə küfrdən və səadət ilə şəqavətdən və baylığ ilə yoxsulluğdan və sayrulığ ilə sağlığdan və şadlığ ilə qayğudan. ..."Küllə yövmin hüvə fi şənin" (O, hər gün bir işdədir – *Ər-Rəhman surəsi, 29-cu ayə*). Həqq-təala anları hər biri öz vəqtində zühura gətürür" (118).

Şeyx Səfiəddinə görə, vaxt Tanrının qədəri ilə insanlar üçün zərurət yaranan anda müəyyən edilmiş bir durumdur. Bu qədərə Şeyx Səfiəddin iman və küfrü, səadət və bədbəxtliyi (şəqavət), varlılığı və yoxsulluğu, xəstəliyi və sağlamlığı, şadlıq və qəmi aid edirdi. Sözsüz ki, insanın qarşılaşdığı hallar yalnız bunlardan ibarət deyildi və Şeyx Səfiəddin bu ziddiyətlərin nümunəsində vaxtın nə demək olduğunu aydırnlaşdırmağa çalışırdı. Burada Şeyx Səfiəddin vaxtın ifadəsi olan halların insan üçün Tanrı qədəri olmasını bəyan edir və həm də bu halları mövcudluğun şərti kimi qəbul edirdi. Vaxtın dəyişkən olmasının göstərilməsi inkişafın da bu dəyişikliklərlə bağlı olması qənaətinə gəlməyə əsas verə bilər. Şeyx Səfiəddin sonra belə bəyan edirdi: "Və "Əl-vəqtü seyfün qatiün" (Zaman iti qılınc kimidir) mənası xud həman budur ki, çün bunlardan birisi zühura gəlür, hər nə kim, sonradur, ilərüsini kəsdürür, eylə kim gecə ilə gündüz ki, həman kim gecə gəlür, gecənün qaranluğı ilən gündüzün aydınlığı qət eylər və həman kim gündüz olur, gündüzün nuri gecənün qaranluğunı gidərür" (119).

Şeyx Səfiəddinin münasibət bildirdiyi daha bir anlayış "**məqam**"dır. Məqam onun bəyanında insanın kəsb etdiyi və qərar tutduğu dərəcə, mərtəbə, səviyyədir. Məcazi mənada mə-

qam həm də məkandır. İnsanın, sufinin yaşadığı dünyada kəcb edə biləcəyi məkan. Məqamı Şeyx Səfiəddin həm də ömrü qədərincə maddi dünyada malik olduğu həyat, zaman kimi də dəyərləndirmişdir. Lakin burada onun başlıca məqsədi sufinin həyatı boyunca öz ibadəti, möminliyi ilə qazana biləcəi Tanrı mərtəbəsidir. Bu mərtəbə cənnət dərəcəsində də, cəhənnəm dərəcəsində də ola bilərdi: "Həzrət Şeyx (q.s.) buyurdı kim, məqam durmağ yeridür və dünyanun uçağlarunun məqamı həm dünyadur ki, özlərinə iqamət mənzili qılubdurlar ömri qədərincə və taət ilə məişətün kəsbi qədərincə kim, əgər taəti kəsb eyləmiş ola, anun yeri cənnətin dərəcatında ola və əgər günah ilə məsiyət kəsb etmiş ola, yeri damunun dərəkatında ola" (120).

Şeyx Səfiəddin sonra onu da əlavə edirdi ki, Haqq yoluna qədəm qoymuş süluk əhlinin hansı məqamda olması, əslində, onun özündən asılıdır. Əgər insan Tanrının buyurduğu müstəqim yol ilə addımlayarsa, onun batini məqsədinə çatması və cənnətə yiyələnməsi imkanı daha çoxdur. Amma insan şeytan şərinə uyub müstəqim yoldan aza da bilər. Bu zaman isə onun məqamı fərqli olacaqdı: "Amma süluk əhlinün məqamı uca himmət ilə anun cəhdindədür və əsli məqsədi tələb etmək. Əgər nəuzübillah, şeytani anı sirati-müstəqimdən özgə yola apara, anun məqamı ol ola və əgər himmət başı dəxi sirati-müstəqimə endürməyə, Saliki-təmam ola, ol qədər kim, məqsədə yetə və təmkin iyəsi ola, pəs anun məqamı ol ola" (121).

Şeyx Səfiəddin **hal** ilə məqamın müqayisəsini də aparmışdır. Onun bəyanına görə, hal Tanrı qədəri idisə, məqam insanların zəhməti ilə əldə edilə bilən bir dərəcə və mərtəbə idi. Mərtəbənin əldə edilməsində də Şeyx Səfiəddin Tanrı qədərini heç də kənara qoymurdu. O bildirirdi ki, burada da Tanrı lütfü özünü göstərməkdədir. Çünki təriqət yoluna qədəm qoymaq, riyazət çəkmək də hər adama qismət olmurdu və burada da Tanrı lütfü gərək idi.

Haqq yolunda davamlı şəkildə irəliləmək üçün Tanrı xofuna düzgün dəyər verilməsini də Şeyx Səfiəddin təriqət əhlü üçün vacib sayırdı. Tanrı xofu təriqət əhlini tutduğu yoldan çəkindirməməli, əksinə, bu xofun mahiyyətində nə dayandığına

vaqif olmalı idi. Bu mənada o, **heybət** (qorxu, xof) və **üns** anlayışlarına da öz münasibətini bildirirdi. Fikrini daha aydın şəkildə ifadə etmək üçün Şeyx Səfiəddin bir nümunə də gətirirdi. O, əvvəlcə qeyd edirdi ki, heybət və üns vüsal əhlinə xas olan xarakterik cəhətlərdir. Vüsal əhli deyəndə isə Şeyx Səfiəddin Haqqa qovuşmaq yolunu tutanları nəzərdə tuturdu. Şeyx Səfiəddinin fikrincə, üns o zaman yaranırdı ki, qorxu və xof insan qəlbindən yığışsın və insan qəlbində qorxunun əksinə olan hisslər bərqərar olsun: "Həzrət Şeys (q.s.) buyurdı kim, heybət ilə üns qürb ilə vüsal əhlinün məxsusidir, eylə kim bir kimsə bir padşahın padşahlığı və əzəməti ilə şövkəti avazəsi eşitmiş ola və andan bir heybət ilə qorxu anun könlində düşmüş ola və həzrətinə varmağ qəsd eyləyə, nə qədər ki, yaxınrak ola, heybəti artuğraq olur. Həman kim ol padşahun ordusuna yetə, heybəti arta və çün padşahun divanxanəsinə yaxınlaşa, heybəti dəxi arta. Amma çün padşahun xass hərəminə yetə və padşahun əzəməti ilən səltənəti görə, qorxu ilə heybət anda qalib ola və vəqt ola kim, sultanun heybət ilə əzəmətindən özündən qafil ola. ...Amma çün neçə qatla padşahun məclisinə varub, padşah anunlən oynayub tələttüf edə, ol vəhşət andan gedüb heyəti üns ilən mübəddəl olur" (122).

Şeyx Səfiəddin insanları heybət halından çıxmağa çağırırdı. Çünki, onun fikrincə, heybət halında olanlar öz zəkalarını və idraklarını itirmiş olurdular. Beləəri gördüklərini və eşitdiklərini də aydın şəkildə dərk edə bilmirdilər, dediklərinin mahiyyətinə bütünlüklə nüfuz edə bilmirdilər, bəzən elə hərəkətlər də edirdilər, müsəlman və ya kafir olmalarının fərqinə vara bilmirdilər. Şeyx Səfiəddin bu halətlərdən yaxa qurtarılmasının yolunu üns yaratmaqda görürdü və şübhə yoxdur ki, daha geniş mənada Şeyx Səfiəddin məhz Tanrı ilə üns yaradılmasını təlqin edirdi.

**Vəcdə gəlmək** Haqq yolunda addımlayan sufilərin xüsusi bir durumu idi. Bu cəhətlə bağlı olan bəzi kəlamlara da Şeyx Səfiəddin öz şərhini vermişdir. Onların arasında **təvacüd, vəcd və vücud** kəlmələri də vardır. Şeyx Səfiəddinə görə, təvacüd yolun əvvəlində olanlara, vəcd yolun ortasında olanlara və vücud yolun sonunda olanlara xas olan keyfiyyətlər idi. Təvacüd təriqət

yolunun başlanğıcında olan insanların vəziyyətinə daha çox uyğun idi. Bu insanlar həssas olan insanlar idilər. Onlar bu yolu tutmuşdular, amma onun mahiyyətinə hələ lazımınca bələd ola bilməmişdilər. Şeyx Səfiəddin belələrini xəstələrlə müqayisə edirdi. Elə xəstə ki, isitmə və titrəmədən qurtarmışdı. Lakin bu xəstənin lazımi qədər qüvvəsi yox idi ki, bütünlüklə sağala bilsin. Yəni insan xəstəliklə sağlamlığın arasında idi və ondan bu vəziyyətdən çıxmaq tələb olunurdu. Təriqət yolunda olanın da ikili və ehtiyatlı vəziyyətdən çıxması üçün doğru yolda irəliləməyi qarşısına məqsəd qoymalı və özünə aydın hədəf müəyyənləşdirməli idi. Yalnız hədəfə aparan düzgün yol və vasitə aydınlaşandan sonra ehtiyatlı, tərəddüdlü vəziyyətdən çıxaraq vəcd mərtəbəsinə qədəm qoya bilərdi. Şeyx Səfiəddin belə bəyan edirdi: “Amma vəcd bir kimsənündür kim, ixtiyar iyəsi ola. Və vəcd iyəsi bir kimsədür kim, könli sayrulığından səhhət tapılmış ola və cismaniyyəti ruhaniyə dönmüş ola və könli Tanrıdan gəldügi məhəlli olmış ola. Həman kim varidat, yəni gəldügi ana varid və sultan anun halı güclı qılmış ola, anun hərəkəti güclürak və ixtiyarı qatırak ola və əgər zəifrak ola, hərəkəti dəxi zəifrak ola, dəgirmənün çarxı misalı kimi kim, əgər su dəgirmanün çevrildügi tezrakdur və ol ağır daşı yünülrak gəzdürür. Həm böylə vəcdün iyəsinə çün varidatı qüvvətlüdür, cismaniyyəti ağırlığ tezrak və çüstrak gəzdürür. Və vəcdün iyəsi öz ixtiyarı əlində dəgül və vəqt ola kim, vəcdün artuqluğundan və varidat ilə hal qüvvətlügindən eylə ussız-ixtiyarsız qala kim, əgər bir yara ana uralar və ya gövdəsindən bir üzvi kəsdürələr, anun heç xəbəri olmaya. Amma həman kim hal ilə varidatı azala, özündən xəbərlü olub, bilə kim, nə olur. Misalı ana bənzər kim, bir laçınun gözü tumağəlü ola, həman kim anı başından götürələr və anun avı görsədələr, laçın həman kim öz avını görə, adətincə uçub qərar dutmaya, öz avını almayınca. Pəs, vəcdün iyəsi çün qəvvaldan bir nəstə eşidə kim, anun mənzil ilə məqamından xəbər verür, ruhaniyyət qüvvəti ana qalib olub, ol tumağəyi gözündən qalxa və məqamatı ilən halı ana məkşuf ola, ana vəcd derlər. Pəs, vəcd iyəsi öz halı ilə vəqti yax-

şıca zəbt eyləyə, ta halı ilə vəqti muradınca sürə və həman ki, vəqti axır ola, qayıda" (123).

Şeyx Səfiəddin bu cümlələrdə qeyd edirdi ki, vəcd sahibi xəstəliklərdən çıxmış, yəni əvvəlki halından çıxaraq doğru yolu tutmuş olan, cismiyyətdən batinə üz tutmuş və könlü də Tanrı məkanına çevrilmiş insanlardır. O bildirirdi ki, vəcd sahiblərinin iradəsi möhkəm, hərəkətləri güclü olduqca onun vəcdi də, yəni Haqqa bağlılığı da güclü olacaqdı. Şeyx Səfiəddin vəcd sahibində həm də Tanrı vergisinin, lütfünün güclü olmasını vəcdin güclü olmasının şərtlərindən biri sayırdı və bəyan edirdi ki, su dəyirmanları suyun şiddətindən daha yaxşı işləyirsə, vəcd sahibləri də həm onlara verilmiş Tanrı lütfünün şiddətinə, həm də öz iradələrinə görə tutduqları yolda davamlı ola bilərdilər. İradə nümayiş etdirib təriqət məqamlarını aşdıqca vəcd sahibinin bilikləri də genişlənir və gözü də açılırdı. Gözü (bəsirət) açılmaqla isə vəcd sahibi öz hədəfini daha yaxşı və aydın görə bilirdi. Şeyx Səfiəddin bu məqamı da laçın quşları ilə müqayisə edirdi və bildirirdi ki, laçın quşunun gözləri üstündəki örtük qaldırılanda, o öz ovunu aydın şəkildə görə bilirdi.

Şeyx Səfiəddin bildirirdi ki, vəcd əhli təsəvvüfdə müəyyən mərtəbəyə sahib olmuş insanlardır və onların səma icra etməsində müəyyən fərqli əlamətlərlə də qarşılaşmaq mümkündür. Səma, ümumən, sufinin eşitdiklərindən vəcdə gəlməsi, coşması və bunu hərəkətləri ilə ifadə etməsi idi. Çox zaman sufilər eşitdikləri irfan məsələlərinə və mətləblərinə münasibətini sufi musiqisinin sədaları altında müəyyən hərəkətlərlə və rəqslərlə ifadə edirdilər. Səma zikrlə musiqinin və rəqsin vəhdəti idi və bir qayda olaraq, ritmik hərəkətlərlə icra olunurdu. Amma vəcd əhli olanlar bəzən bu hərəkətləri etmirdilər və Şeyx Səfiəddin bunun nə ilə əlaqədar olmasını aydınlaşdırarkən Şeyx Əbülqasım Cüneyd Bağdadidən bir nümunə gətirirdi. Bir dəfə Şeyx Cüneyd Bağdadinin iştirakı ilə keçirilən səma məclisində onun yanındakılar uyğun hərəkətlər etməyə başlayırlar. Cüneyd Bağdadi isə sakitcə dayanıb yerindən tərpənmir. Bunu görəndə yanındakılar ondan soruşurlar ki, nə üçün hərəkət etmir və səma icra etmir. O da cavabında bildirir ki,

zahiri hərəkətsizliyi heç də onun hərəkətsizliyi demək deyildir və daxilən həmin hərəkətlərə qoşulmuşdur. Cüneyd Bağdadi onu da bildirir ki, sıra-sıra dağlar ilk baxışda hərəkətsiz dayanıblar. Lakin insanlar müşahidə edə bilməsələr də, əslində, bu dağlar da topa-topa buludlar kimi hərəkətdədirlər. Şeyx Səfiəddinə görə təvacüd əhli səmanı öz bədən hərəkətləri ilə, vəcd əhli öz könüllərində və vücud əhli isə öz ruhları ilə icra edirdilər: "Dəxi (q.s.) buyurdı: "Təvacüd bir səmadur gövdə ilən və vəcd bir səmadur könül ilən və vücud bir səmadur ruh ilən və təvacüd iyəsinin həman ki, haləti zahir olur, əgər ol qədər hərəkət eyləməsə kim, anun hiddət ilə tündliğin bir yan eyləyə, gövdəsinə zəhmət dəgər. Və vəcdün iyəsi əgər andan ilərü kim, ana bir halət enə, özüni saxlayub bir hərəkət etməyə, könül andan incinə və ufana və vücud əhli əgərçi kim ixtiyar əlindədür, amma əgər ol ruhaniyyət mütabiəti ilən ol dat ilə hüzur və zövq ilə sürur kim, andadur, etməsə, ruhinə pərişanlik ilən xəstəlik düşər. Məsələn, bir quş kim, uçmaqda igən uçqun ola, ya bir kişi seyrdə yeldən dəxi yerigən ola, əgər bir kimsə onları uçməkdən, ya yeriməkdən mənn eyləyə, ol saətdə uçana və yeriyənə çox-şox məlalət və pərişanlığ yetər. Və bu üç növ səma mübahdır və təvacüdün səmayi ammə sufilərindir və vəcd səmayi xassə sufilərindir və vücud səmayi xassüil-xassə sufilərindür" (124).

Şeyx Səfiəddin bəyan edirdi ki, vəcd sahibinin səma hərəkətlərini etməməsi heç də onun bu mərasimə biganə qalması demək deyildir. Vəcd sahibi ruhən bu mərasimin içində idi. Əks təqdirdə, bu mərasimdən kənarda qalmaq onun ruhuna bir pərişanlıq gətirə bilərdi. Şeyx Səfiəddin onu da əlavə edirdi ki, təvacüd səması sufilər kütləsi, vəcd səması xüsusi mərtəbəyə yüksəlmiş xüsusi sufilər, vücud səması isə xüsusilərin xüsusisi olan sufilər üçün idi.

Şeyx Səfiəddinin təfsir mövzusu olmuş kəlamlardan biri də **fəna və bəqadır**. Özlüyündə fəna – fanilik, keçicilik, müvəqqətilik mənası daşıyır. Sufinin qarşısında dayanan məqsəd isə maddiliyə, dünyəvi hisslərə bağlılıqdan can qurtararaq Haqqı özündə canlandıran batini hisslərə, bəqa olanlara qovuşmaqdır. Bəqa

əbədi olandır, sonsuzdur, sərhədləri bilinməyəndir. Fəna və bəqa təsəvvüfdə keçici olan nəfsdən, dünya nemətlərinə bağlılıqdan uzaqlaşaraq kamilləşmək, sufinin özünü Haqqın varlığında yox etmək, əxlaqı ilahi əxlaqla əvəzləmək mənasında işlədilməkdədir. Ötəri olan, keçici xarakterə malik hisslərdən, zövqlərdən, meyillərdən uzaqlaşaraq əbədi dəyərlərə doğru irəliləmək təriqət əhlinin başlıca hədəfidir və bu hədəfə yetmək üçün fəna və bəqanın mahiyyətindən xəbərdar olmaq da təriqət əhli üçün xüsusi önəm kəsb edirdi.

Şeyx Səfiəddin bəyan edirdi ki, hər ölümün bir fənası vardır, amma hər ölüm heç də fəna deyildir. Həyata son qoyulması ilə insanın əbədi həyatı başlaya bilərdi. Lakin istənilən ölümü əbədi həyatın başlanğıcı da saymaq olmazdı. Çünki əbədi bəqanı diri olarkən qazanmaq lazım idi. Bunun üçün Haqq yolu ilə irəliləmək, əbədi hədəflərə nail olmaq hələ həyatda olarkən təriqət əhlinin məqsədi olmalı idi. Əbədi nemətləri bu dünyada qazana bilməyən insanları Şeyx Səfiəddin elə sağlıqlarında ölü könüllü sayırdı və belələri məşhər anında diriləndə belə onda dirilik hiss olunmayacaqdı :"Həzrət Şeyx (q.s.) buyurdı kim, hər ölümün bir fənası var, amma hər fəna ölüm olmaz və bu taifə surətin bəqası bəqa saymazlar. Anun içün kim, hər kim dirilik əbədi bəqasından hasil etməmiş ola və kəndünün könlini dirildürməmiş ola və ölü könüllü olmış ola, əgərçi məhşərdə dirilə, həman ölü könüllik həsrəti anda qalmış ola və zindədillik néməti andan fövt olmış ola.

Beyt:

Kim ki, qoxu almadı bu dirilikdən, ey oğul,<br>
Bil ki, ölü doğdu, ölü qaldı, murdar oldu ol" (125).

Şeyx Səfiəddin maddi dünyanın faniliyini göz önünə çəkirdi. Lakin o heç də bu dünyanın faniliyinə aldanıb onun fövtə verilməsinin də tərəfdarı deyildi. İlahi biliklərə əsaslanmaqla Şeyx Səfiəddin də bəyan edirdi ki, varlığın əbədiyyətini bu fani dünyada qazanmaq lazımdır. Bunun üçün isə bu fani dünyada əbədiyyəti qazandıracaq əməllər icra edilməli idi. Ona görə də Şeyx Səfiəddin də "diriliyim ölümümdə, ölümüm diriliyimdədir"

– deyirdi. Yəni insan diri ikən ölümdən sonra başlanacaq həyat haqqında düşünməli və onu qazanmalı idi. Fikrini bir qədər də konkretləşdirən Şeyx Səfiəddin sufilərə tövsiyə edirdi ki, ölüm gəlməmişdən qabaq ölməyi bacarın, yəni ölümdən sonrakı həyata qazanmağa çalışın. Eyni zamanda o, əbədilik qazandıracaq sifətlərin yox olmasından əvvəl dirilməyi, bu sifətləri yaşatmağı və qazanmağı tövsiyə edirdi: "Amma bu taifənün bəqası fənadur, yəni ta kimsə kəndüdən fani olmaya, baqi olmaz kim, "həyati fi məmati və məmati fi həyati", yəni mənüm diriligüm ölümümdədür və ölümüm dirilügümdə. Və "mutu qəblə ən təmutu"dan murad bəşəriyyət fənasıdur, yəni nəfsani sifatindən öğlüniz andan ilərü kim, ölüm gələ və dirilün andan ilərü kim, bu sifatün ölümü gələ, yəni ölüm ilən gör və qiyamət ta yəqin əhlindən olasınız və qeybiniz iman ilə yəqinə dönsün. Və q.s. buyurdı kim, kişi ta kəndünün nəfsani faidələrindən fani olmaz, bəqa məşrəbindən zövq ilə bəqa şərbətin içəməz" (126).

Təriqət ədəbiyyatında olduğu kimi, Şeyx Səfiəddin də fənanı üç növə bölürdü. 1.Surətin fənası – yəni sufinin özündə varlıq görməməsi, özünün bu dünyada əbədi olmadığını anlaması, həqiqi varlığın Tanrının şəxsində cəmləşməsini qəbul etməsidir. 2. Sifətin fənası – yəni dünyəvi-bəşəri sifətlərdən uzaqlaşmaq, ruh və məna aləminə qovuşmaqdır. 3. Ruhun fənası – yəni özünü tərk etmək, özünün varlığını fani bilmək və Tanrının əbədi varlığını təsdiq etməklə onun əbədi varlığına qovuşmaq.

Şeyx Səfiədinin təfsirinin mövzusu olmuş digər kəlmələr **qeybət və hüzur** kəlmələridir. Qeybət – yox olma, tərk etmək, yayınma mənasında, hüzur isə - hazır olma, hüzurda olma, iştirak etmə mənasında işlədilir. Sufi ədəbiyyatında isə bu kəlmələr daha çox məcazi məna kəsb edir. İnsanın özünü tərk etməsi Haqqa aparan sədaların eşidilməsi, Haqdan gələn feyzin və lütfün dərk edilməsi zamanı baş verir. Bu zaman insan bir növ öz maddiliyindən ayrılaraq batini dünyaya qapılır və özünü tərk etmiş olur. İnsanın özündən ayrılması, maddiliyi tərk edərək batini dünyaya qapılması təriqət əhli üçün yaxşı bir vəziyyət sayılır. Çünki Sufinin öz maddiliyini unutması onun Haqqa qovuşması, onun

Haqq hüzurunda olması və ya Haqqa doğru irəliləməsi deməkdir. Bu isə hüzur mənasını verir. Qeybətə vararaq hüzura yol tapılması təriqət ayinlərindəndir. Özünü və insanları unudan Haqq hüzurunda olur, Haqqı unudan isə insanların hüzurunda olur. Qeybətə varmaq sufinin müəyyən mərtəbəyə yüksəlməsinin göstəricisidir. Bu mərtəbəyə yüksəlmək müəyyən təriqət hazırlığının olmasını tələb edir. Sufi qeybətə vara bilirsə, deməli Haqqa qovuşmaq yolundadır və Haqq hüzurundadır. Namaz üstündə olan insanlar Haqq hüzurunda saylılırlar. Ona görə ki, namaz üstündə olanlar özlərini, ətrafı unudaraq yalnız namazın feyzinə qapılır və bütün varlıqlarını və iradələrini Haqqa bağlayırlar. Bir sözlə, qeybət və hüzur sufinin maddi dünyanın cazibəsindən ayrılaraq Haqqın yolunu tutmaq iradəsinin nümayişdir.

Şeyx Səfiəddin qeybətin iki növündən danışırdı. Biri zahiri qeybət, digəri isə könül qeybəti. Onun sözlərinə görə, zahiri qeybət "Quran"i-Kərimdən müəyyən ayələri eşitdikdən sonra və ya digər səbəblərdən ola bilərdi. Bu zaman sufidə hərəkət donuqluğu özünü göstərə bilər. İnsanın özünü və ətrafını ruhu ilə tərk edərək Haqqa qovuşması hüzurdan başqa mühazirə kimi də xarakterizə olunur. Şeyx Səfiəddinə görə, könül qeybəti isə Tanrının əzəməti və heybətin nəticəsində baş verir və bu zaman onun könlündə yalnız Tanrı sevgisi yer tutmuş olur: "Həzrət Şeyx buyurdu ki, qeybətün bir növü oldur kim, surətdən qaib olalar. Və bir növ dəxi oldur kim, könüldən qaib olalar və böylədür kim, bir heybət ilə qorxu damudən, ya özgə nəstədən, ya kəlamüllahdən bir ayət eşitməkdən kəndi surətindən qaib olurlar. Və bu surətün qeybəti böylədür ki, hərəkət ilə tərpənməkdən qala və bu halətdə vəqt ola kim, könül ilə hazır ola və vəqt ola kim, könüldən dəxi qaib ola və muna suri qeybəti derlər və ol kim, könül dəxi qaib olur, Tanrınun əzəmət ilə heybətindən ola və: "Vələmu ənnəllahə yəhulü beynəl-məri və qəlbihi" (Bilin ki, Allah insanla onun qəlbi arasına girər – Ənfal surəsi, 245-cü ayə). Amma hüzur çün kəndüdən və xəlqdən qaib olur, Tanrıya hazır olur və bu mərtəbəyə mühazirə ilə hüzur derlər" (127).

Qeybətlə **sükr** oxşar təsəvvüf anlayışlarıdır. Sükrün qarşılığı isə səhvdir. **Səhv** ayıq başla, ağlını və huşunu itirmədən maddi dünyada mövcud olmaq deməkdir. Səhv – adi insanın normal halıdır və insan hər hansı bir ruhi vəziyyətə düşmədən qərar tutduğu anlardır. Sükr isə bunun əksi olaraq ilahi feyzlərlə batini dünyaya qapılması, normal psixi durumdan çıxaraq ruhi zövqlərə qapılmasıdır. Sükr insanın ilahi vəcdə gəlməsinin yüksək mərtəbəsidir. Bu vəcdə gəlmə bəzən elə dərin olur ki, insan tamamilə fərqli bir psixoloji duruma qədəm qoyur, normal həyat durumunu unudur, tamamilə başqa bir aləmə qapılır. Belə anlarda bəzən insan öz hərəkətini və şüurunu idarə etmək qailiyyətini də əldən verir və bəzən hətta özündən ixtiyarsız, hətta şəriətə zidd olan ifadələr belə səsləndirir. Təsəvvüf ədəbiyyatında belələrinin ilahi zövqlə məst halına gəlməsi də öz əksini tapmışdır (128).

Sufinin sükr halından dönməsi və normal duruma qayıtması isə, qeyd edildiyi kimi, səhv adlanır. Şeyx Səfiəddin səhvi əql və bəşəriyyət aləmi, sükrü isə eşq aləmi adlandırırdı. Sonra da əlavə edirdi ki, səhv – huşyarlıq, əql və bəşəriyyət aləmi, insanın özü və axirət dünyası ilə məşğul olduğu durumdur. Sükrü isə o, eşqin aləmi, sərxoşluğun və özündəngetmənin zahir olduğu aləm kimi xarakterizə edirdi. Sərxoşluq burada ilahi eşqlə feyzə qapılma kimi nəzərdə tutulurdu. Şeyx Səfiəddinə görə, qeybət sükrün kamillik həddinə çatmasından sonra baş verirdi: "Həzrət şeyx buyurdu kim, səhv əqlilə bəşəriyyətün aləmidür və sükr eşqin aləmi. Və hər kim səhvdə, yəni huşyarlıqda ola, əql ilə bəşəriyyətün aləmində ola və kəndüyə və qeyrə və dünya ilə axirətün əhvalına məşğul ola. Və bu ixtiyar aləmidür. Və sükr, yəni əsrlük eşqün aləmidür. Həman kim, eşq aləminə yetdi, eşqün həvası anda əsər eylər və çün eşqün sükr ilə əsrüligi göründi, sərxoşlarun bixudlığın zahir olur, amma həman kim, əsrüligi artdı, əql andan qaçup bucağa varur. ...Və hər kimün məstliği eşqnün şərabı qədərincədür və nə qədər kim, şərabı çoxrak, sərxoşlığı dəxi artuğraq. Amma həman kim, sükri kəmal həddinə yetdi, qeybət gətürür. Və əgər kəmal həddinə yetməmiş ola, sükr qeybətdən artuqrağdur. Və ta kimsədə bəşəriyyət sifati var ola və əql ilə vəhm və hiss ilə

fəhm anunlən bilə ola, bunlar ilən eşq aləminə qədəm qoymaz, zira kim eşq aləmi öldürəndür və ölmək əql ilə bəşəriyyətün sifətidür. ...Və kişi eşqün çaxırı içməyincə bəşəriyyətün əqli ilə sifati bucağa girməz və sükrün cürəti ilə bəhadurlığı anda görünməz. Amma haman kim, eşqün çaxırı içdi və əql ilə bucağa girdi və sükr oldı, ol aləmə ayağ basar və ta sərxoşlığda yürəkli olmayınca can ilən həstəliğin bir yan eyləməz və həqiqətün dənizində qövs edəməz və həqiqətün qapusına yetəməz” (129).

Sükr durumu da Haqqa qovuşmaq yolunda irəliləmək kimi qəbul olunurdu. Şeyx Səfiəddin qeyd edirdi ki, sadəcə sükr durumu həqiqətə yetişmək üçün kifayət deyildir. Bu məqsədə çatmaq üçün eşqin sərxoşluğu davamlı olmalı və sufi qətiyyətlə öz yolunda irəliləməlidir. Yəni sükr də ötəri durum olmamalı və sufinin həyat tərzinə çevrilməlidir.

Şeyx Səfiəddinin təfsir etdiyi kəlamlardan bir də **zövq ilə şürb**dür. Onun yazdığına görə, zövq ilə şürb təcəlli ilə kəşfin nəticələri idi. Təcəlli – lüğəti mənada əyan olmaq, özünü göstərmək, təzahür etmək, öz ifadəsini tapmaq, məlum olmaq, görünmək deməkdir. Sufi ədəbiyyatında isə bu anlayış ilahi sirlərin, Tanrı sifətlərinin insan qəlbində canlanması və təzahür etməsi, insanın tanrının bir parçasına çevrilməsi anlamında işlədilmişdir. İnsan öz etiqadında və inamında o dərəcəyə yüksələ bilməlidir ki, ilahi feyzlər onun qəlbində təcəlli tapsın, təzahür etsin, özünü göstərsin. **Kəşf** sözü də təsəvvüf ədəbiyyatında məcazi məna kəsb edir və insanın öz ağlı, zəkası ilə dini biliklərə nüfuz etməklə ilahi sirlərə və mətləblərə vaqif ola bilməsidir. Təsəvvüf əhlinin fikrincə, maddi dünyanın cazibələri və insana xas olan nəfs insan qəlbinin batini dünyaya, qəlb aləminə nüfuz etməsinə, onun dərk etməsinə bir maneçilik yaradır. Sufi təriqət və təsəvvüf yolunda irəliləməklə, xəlvətə çəkilərək riyazət və zöhdə dalması ilə batini dünyanı ondan aralayan pərdələri qaldıra və qeyb aləmini kəşf edə bilir. Kəşf ilahi dünyanın fiziki orqanlar ilə deyil, hisslərlə, daxili yaşantılarla məlum etməsi, aşkarlaması deməkdir. Amma təcəlli və kəşf hər bir insana xas olacaq keyfiyyətlər deyildi. Təcəlli və kəşf yalnız o insanlara müəssər olurdu ki, onlar öz qəlb

aynasını təmizləyə bilmişdilər, yəni təriqət yolunda müəyyən mərhələni keçmişdilər və müəyyən hazırlıq və təcrübəyə malik idilər (130).

Təsəvvüf ədəbiyyatına görə, salik insan qəlbinin gözü ilə ilahi sirlərə vaqif ola bilirdisə onun nəticəsi həmin insanda zövq yardırdı. Şürb isə sufinin təriqət yolunda, Haqqa qovuşmaq yolunda rahatlıq tapmaması və hədəfə çatmaq məsədilə irəliləmək üçün qətiyyət göstərməsi idi. Bildirilir ki, salik insan təriqət yolunda hər bir mərtəbəyə çatdıqca orada Tanrının həqiqətlərini əldə edə bilirdi. Amma sufi bununla kifayətlənmir və çalışırdı ki, qarşıdakı mərtəbəyə yetişsin və daha böyük həqiqətlərə sahib olsun. Eşq şərabından məst olması ilə ilahi məqamlara doğru irəliləmək üçün ona bir ilham bəxş olunurdu.

Şeyx Səfiəddinə görə, təcəllinin nurlu olması mənanın zövqünü hasil edirdi. Əgər təcəlli nurlu olmasa, onda, zövq də hasil olmurdu. Əgər təcəlli nurlu olmurdusa, doğru olmurdusa, onda məna yalnız zahiri tərəfləri əks etdirirdi və mənanın daxili mahiyyətinə nüfuz etmək və onun vüsalına yetmək üçün isə şəraba ehtiyac olurdu. Şürb də şərab ilə əldə edilirdi və Şeyx Səfiəddinə görə, bu şərabın da növləri var idi: "Həzrət Şeyx (q.s.) buyurdı kim, zövq ilə şürb təcəlli ilə kəşfün nəticəsidürlər və təcəlli ya nurludur, ya suri. Əgər təcəlli nurlu olsa mənaları bilməkdən və məaninün zövqindən hasil olur və çün kişi andan qayıda, bir zövq ilə hüzur və şadiliq ilə sürur anda var. Və əgər təcəlli suri olsa məani şahidin zühurindən olur və anlarun müşahidə ilə kəşfində və anlarun röiyyəti ilə vüsalun varlığı hasil olur və anlarun vüsalı görməkdən şərab lazım gəlür. İmdi bu şürb ilən şərab üç qismdürlər. Bir qism mömin ilə sufiyi-əvamundur kim, ol "şərabən təhura"dur ( şərabən təhura – pak şərab deməkdir və bu ifadə "Quran"ın əl-İnsan surəsinin 21-ci ayəsinin son sözlərinə işarədir. Həmin ayədə belə deyilir – Rəbbi onlara çox pak şərab içdirəcəkdir-M.S.) və anı içməkdən vüsalun tələbi və təmənnası hasil olur. Və ikinci qism bir şərabdur kim, Tanrı-təala anı kəndü xass bəndələri içün saxlayubdur kim, ol eşq ilə məhəbbətün şərabıdur və anı içməkdən "masivəllah"ı (yəni Allahdan qeyri-

ləri-M.S.) tərk etmək və Tanrıya vasil olmaq hasil olur. Və üçüncüsi bir şərabdur ki, Tanrı-təala kəndü xassül-xass bəndələri içün mühəyya qılupdur və ol, mərifət şərabıdur ki, müayinə məşrəbindən içərlər və safi olub könülləri təskin bulur və bu çaxırun sükri yoxdur. ...Və şərabun şürbi dəxi təfavüt ilən kişinün hövsələsi qədərincədür, yəni nə qədər kim hissi odı artuğraqdur, şürb ilə zövqün məhəlli çoğraqdur və çaxır içməkdə əyağ ilə peyumanə və küp vardur. Əyağ ərləründür və peymanə ilə küp kamil ərlərnündür. Və zövq dəxi iki növdür: bir zövq var ki, məaninün əhvalı zühurindən hasil olur və bir zövq var ki, şürbdən hasil olur və "şərabən təhura" şürbindən vüsalun tələbi və təmənnası hasil olur və eşq ilə məhəbbətün şərabı şürbindən "masivəllah"ı tərk etmək və vüsal hasil olur və mərifətün şərabı şürbindən qamu ləzzatun tərki hasil olur və həqiqətün mərifəti və həqqi hasil olur" (131).

Tövbə ilə başlanan Haqq yolçuluğunda təriqət əhli hədəfinə çatmaq üçün günah sayılan hisslərdən, düşüncələrdən, inanclardan, təsirlərdən, fikirlərdən, əməllərdən təmizlənməli və onları Haqqa yetirəcək inamla, etiqadla, əməllərlə, düşüncələrlə əvəzləməlidir. Təsəvvüf ədəbiyyatında günah düşüncələrdən və əməllərdən təmizlənmə **məhv** adlanır. Məhv edilən düşüncə və əməllərin yerində Haqqa aparan düşüncələrin, inamın və əməllərin möhkəmlənməsi isə **isbat** adlanır. Daha geniş mənada isə məhv insan qəlbinin təmizlənməsi və isbat isə insan qəlbində Haqq sevgisi yaradan fikir və əməllərin özünə yer tapmasıdır. Nəfsin özü də məhv sayıla bilər. Məhvi həyata keçirib isbata yetmək qəlbdə biganəliyə son qoyaraq Tanrı ilə tanışlığa başlanmasıdır. Məhvdən isbata keçid insanın əqidəsində, inamında Tanrıya ibadətində keyfiyyət dəyişikliyinin yaranması, Tanrı sevgisinin dünyəvi meyilləri üstələməsidir (132).

Şeyx Səfiəddin isə məhv və isbatı belə şərh edirdi: "Həzrət Şeyx buyurdı kim, məhv iki növdür. Biri oldur kim, Tanrı-təala anı məhv ilə yok edüb kəndi həstligini isbat edə. Və dəxi oldur ki, bəndə öz səy və cəhdi ilən məhv və isbat eyləyə, kəndüsini məhv edə və Tanrı-təalanı isbat edə və gərəkməz sifatları məhv edüb

özindən gidərə zahir ilə batinindən və gərəkli sifatları isbat eyləyə və təbdil ibarətinün mənası budur. Amma ol məhv ilə isbat dəxi kim, Tanrı-təala edər, iki növdür. Biri odur kim, bəndənün könlindən küfri gidərüb məhv edə və bəndəni isbat edə və günahları məhv edə və taətləri isbat qıla və həm böylə hər nəstə ki, lövhi-məhfuzda müqəddər eyləyübdür müəlləq, yəni asılı səbt edüpdür kim, nəstələri məhv edə və artuq-əskük eyləyə. Eylə kim bəndənün könli ilə dilindən qeyrinün zirkini məhv edə və kəndinün zikri isbat eyləyə. İkinci ol kim, kəndü yolında saliklərinün bəşəriyyət asarını məhv edə və isbatın edə, ta kim ibadətə qiyam edə bilə" (133).

Təsəvvüfün mərtəbələri olan şəriət, təriqət və həqiqət haqqında yuxarıda danışılmışdı. Şeyx Səfiəddinin bu anlayışlarla bağlı da müxtəsər şərhi vardır. Həmin şərhində bildirirdi ki, **şəriət** Tanrı-təalanın buyuruğu əsasında islam peyğəmbəri tərəfindən müəyyənləşdirilmiş normalardır. **Təriqət** həzrət peyğəmbərin əməlləri və **həqiqət** də islam peyğəmbərinin halıdır. O sonra da əlavə edirdi ki, şəriət islam peyğəmbərinin əmrləri, növhələri və təklifləridir. Şeyx Səfiəddin də şəriəti bir növ zahiri əməllərin icrası kimi qəbul edirdi və onların mənası isə təriqətdə öz ifadəsini tapırdı. Təriqəti isə o, Haqq aparan yol kimi dəyərləndirirdi. Fikrinin daha aydın olması üçün Şeyx Səfiəddin yemişin yetişməsini misal gətirirdi. Yemiş onun qabığı və yeyilən hissəsi ilə birlikdə bəslənilirdi. Əgər qabıq olmasaydı yeyilən hissəsi də olmazdı və əksinə. Ona görə də Şeyx Səfiəddin əlavə edirdi ki, təriqət şəriətsiz və həqiqət də təriqətsiz ola bilməz (134).

Şeyx Səfiəddin tərəfindən təsəvvüfə aid olan **xəvatir** kəlamına da şərh verilmişdir. Xəvatir insanın qəlbinə, ruhuna, batininə olan müraciətdir. Bu müraciət həm Tanrı və onun mələkləri, həm də şeytan tərəfindən ola bilər. Xəvatir bəsirət gözü ilə qəbul etdiyi batini hərəkət stimuludur. Qərar tutduğu durumda sufi daxili səsi və müraciəti qəbul edə bilər və onun əsasında da hərəkət edə bilər. Təriqət əhlinin istədiyi budur ki, insanların fəaliyyətini və düşüncəsini istiqamətləndirən daxili səs Tanrıya və

onun mələklərinə məxsus olsun. Çünki belə olan təqdirdə salik insan Haqq yolunda uğurla irəliləyə bilər.

Şeyx Səfiəddin isə xəvatiri ilham kimi xarakterizə edirdi. Onun dediklərinə görə, xəvatir beş növ idi – nəfsani və ya şeytani, ya mələki, ya qəlbi və ya da Həqqi xəvatir. Sonra da Şeyx Səfiəddin bu növlərin açıqlamasını verirdi: "Həzrət Şeyx(q.s.) buyurdı kim, xəvatir bir ilhamdur kim, kişinin zəmirinə və içinə girər və bu ilham beş növdür: ya nəfsanidür, ya şeytani, ya mələki, ya qəlbi, ya Həqqi və Rəbbani. Amma nəfsani vəsvəsədür və şeytanlığ iblisün təsərrüfidür və mələk firiştənin ləmməsidür və qəlb yəqinün ilhamıdur kim, ol Həqqdəndür və sadiq danuğ anun həqiqətinə... Və ol nəstə kim, könül anun ilən deyici ola və ol danuğ ola, amma Həqqi və Rəbbani ilhamı anda heç xilaf ilə şəkk və şayibə yoxdur" (135).

Şeyx Səfiəddin bəyan edirdi ki, ilk iki xəvatir günah xəvatirlərdir və salik insanlar bu xəvatirlərdən qaçmalı idilər. Digər xəvatirlər isə insanları təriqət yolunda uğurla addımlamaq üçün savab və dəyər kəsb edən xəvatirlər idi. Bu xəvatirdən xilas olmağın yolunu isə Şeyx Səfiəddin sufilərin riyazətində, onların qəlbinin təmizlənməsində görürdü: "...və ol nəstə ki, nəfsün vəsvəsəsidür, qamu batildür və hər nəstədə kim, vəsvəsə və təmənna eylər, ol istəməkdən bəcidd dura və ta öz məqsudin hasil etməz, qərar dutmaz və ol ilham ki, şeytanlığdur, həm batildür və bitün günahdur. Amma həman kim, şeytanun istədüklərindən birisini mənn eyləyələr və qəbul etməyələr, özgə təmənna ilə istəmək öginə gətürür. İstədügi ol kim, kişi üsyana bıraxa anun şərrindən Tanrı-təalaya pənah və nəfs ilə şeytan hərgiz kişiyə doğru yol görsədüb taətə buyurmazlar üsyandan özgə. Və əgər dəxi bir taətə rücu eyləyə, ana bənzər ki, ağuyı bala qatmış ola və istər kim, anı içürüb həlak eyləyə. ...Və nəfsani vəsvəsəsindən və şeytani ləmməsindən bir kimsə xilas olur ki, həmişə riyaətlə ola və anun müxalifi olub, hər nəstə kim, könlinə və xatitinə gəlür, təmiz eyləyüb anlarun ilhamı məlum edər. Amma mələki ilham oldur kim, xeyir işlərə buyurur. Əgər kişi anun buyurduğuna mütabiət eyləyə: "fəniməl məunətü minəllahi" (bağışlanan nemət

Allahdandır). Amma ilhami-qəlb oldur kim, könli Tanrınun elm və mərifət və hikməti ilə dindirə. Pəs, hər nəstə kim, ol buyurur, xeyri-məhz ola. ...Və Həqqi və Rəbbani bir könülündür kim, arı və səfalı olmuş ola. Pəs, ol ilham ana yetər və ol ilham qamu töhmət ilə şəkk və reybdən bəri və aridur. Və bu Rəbbani ilham bir çağ olur kim, hərf ilə sövtdən irağ ola, amma mənası könülə yetər və könülə bildirür və vəqt ola kim, bu ilham hərf ilə sövtdən bilinə və könülün qulağına dəgə. ...Amma nəfsün vəsvəsəsi ilə şeytanun ləmməsi ortasında bu qədər fərq var kim, nəfsaninün vəsvəsəsi aşağıdan tütün kimi yuxarı varur, eylə kim əgər kimsənün ol qədər hissi var isə kim, məlum eyləyə bilür kim, aşağıdan və könülə yaxun varur və şeytanlığ ləmməsi sağ qoldan və sol qoldan və arddan gəlür. Ammaələkinün ləmməsi yuxarudan gəlür və vəqt olur kim, balun arısı kimi avazı gələ və vəqt ola kim, donqırazun üni kimi gələ və vəqt ola kim, sərihən bir avaz eşidə, eylə kim sağına kim, kimsə bir kimsə ilən söyləşür, amma qəlbinün xəvatiri eylə ola kim, kişi kəndü içərüsindən ehsas eyləyə. Amma Rəbbani ilham eylə ola kim, cəmi cəhatdən "dəfətən vahidətin", yəni bir uğurda gələ və könül andan xəbərdar olub əsəri zahir ola" (136).

Salik insanın Tanrı ilə daxili ünsiyyəti həm də varidatda öz əksini tapır. Varidat varid olmaq, daxil olmaq kimi lüğəti mənaya malikdir. Təsəvvüf anlamında isə varidat salik insanın qəlbinə Tanrının lütfi ilə müəyyən bir halın, bir mənanın və ya müraciətin insan qəlbinə enməsi və insanın qəlbindəkilərə yeni bir məzmun gətirməsidir. Yəni insan Haqq yolunda olanda və bu yol ilə irəliləyəndə Tanrı ilə onun qəlbi arasında bir ünsiyyət yarana və bu zaman Tanrı lütfündən onun qəlbinə irfani bir məna daxil ola bilər. Bu varidat insanın gözləmədiyi halda baş verir. Lakin varidat o insanların qəlbinə daxil olur ki, onlar salik insanlardır, onlar Haqqa qovuşmaq yolunu özləri üçün varlığın məqsədi etmişlər və onların könlündə Haqq sevgisi yer tutmuşdur. Bununla da onlar öz qəlblərində Tanrı varidatı üçün münbit bir zəmin yarada bilmişdilər.

Şeyx Səfiəddin də bildirirdi ki, varidat Tanrı ətasıdır və salik insan onu könlündən keçirib kəsb edir. O da qeyd edirdi ki, varidat o zaman baş verir ki, bir insan öz elmi ilə mərifətə yetişmiş olur və bu zaman Tanrıdan gələn nur onun qəlbinə yol tapır. Şeyx Səfiəddinə görə, varidat Tanrı nuru olanda onun ünvan seçdiyi qəlbdə eşq və məhəbbət odu alovlanır, qəlbdə qayğısız bir şadlıq vüsət alır. Varidat ruhani varidat olduqda isə insanda bir fərəh yaranır və sanki o, yaxşı nəğmələrin sədasını eşidir. Varidat insan qəlbinə yol tapanda insan sanki tutulmuş kimi, batininə varmış kimi görünür. Şeyx Səfiəddin bəyan edirdi ki, islam peyğəmbərinə Tanrı vəhyi gələndə o belə bir duruma düşürdü. Varidat insanı tərk edəndə isə onda bir yüngüllük, şadlıq yaranır, özünə qapılmaqdan azad olur. Varidatın daxil olmasını insan hiss edə də bilər, hiss etməyə də bilər. Bu, həmin insanın halından asılı olurdu (137).

Təsəvvüf kəlamlarından biri də **şahid**dir. Şahid sufinin müəyyən halında qəlbində qərar tutmuş düşüncə, fikir, inam, əqidə, meyil və s. dir. Yəni insanın qəlbinə hakim olmuş hər şey şahiddir (138). Şeyx Səfiəddin isə şahidi daha konkret şəkildə xarakterizə etmişdir.

Onun fikrincə, şahid – könüldə qərar tutan, hər şeydən xəbərdar olan və haqqı batildən seçə bilənlərdir. Şahidi o, könüldə mövcud (hazır) olan adlandırırdı. Haqqı batildən ayırmağı bacaran və hər şeydən xəbərdar olan isə salik insanın bəsirəti, imanı, etiqadı, Haqqın rizasından xəbər verən biliklər və inanclarıdır. Bir sözlə, salik insanın batini dünyasını təşkil edən məzmun təsəvvüf əhli üçün şahiddir və onun yaxşı əməllərinə şahidlik edir (139).

**Sitr və təcəlli** anlayışları haqqında da Şeyx Səfiədin öz fikirlərini söyləmişdir. Sitr müəyyən mətləblərin gizlədilməsi, örtük arxasında saxlanması mənasındadır. Təcəlli təsəvvüf ədəbiyyatında həm də sitr ilə birlikdə işlədilir və məlum olduğu kimi, bu söz aydın olma, təcahür etmək, müəyyən hallarda kəşf olma mənasında işlədilir. Bu kəlamların təsəvvüf ədəbiyyatına gətirilməsində məqsəd aşkar edilmənin və gizlində qalmanın sirrinin,

həm də onların təsəvvüf baxımından əhəmiyyətinin dildə və yazıda ifadə edilməsidir. Təriqət yolunda elə hallar var ki, onlar pərdə axrasında saxlanılır, bu halların bəxş edəcəyi zövq və səfa gizli şəkildə mövcud olur. Bu mübhəm məqamlardan kənar olmaq bəzən sufilərdə bir rahatsızlıq yaradır və həmin mübhəmlərə yetişəndə insanda bir məmnunluq və aramlıq özünü göstərir. Eyni ilə bildirilir ki, bütün mətləblərin də təcəlli tapması sufidə bir əminsizlik, rahatsızlıq yaradır. Ona görə müəyyən mətləblər üzərində pərdə olur. Bu məqamların hər ikisi Tanrının insanlara lütfi sayılır və Şeyx Səfiəddinin də qeyd etdiyi kimi, əgər bütün mətləblər təcəlli tapsaydı, onda insanlara elm və bilik dalınca getməsinə, ibadətlə məşğul olmasına ehtiyacı qalmazdı. Ona görə də müəyyən məqamlar mübhəm şəkildə mövcud olur və onun təcəllisinə nail olmaq üçün insanlar bilik və təcrübəyə əl atmalı olurlar. Buna nümuunə kimi cəlvət göstərilir. Cəlvət xəlvətin əksidir. Məlumdur ki, sufilər təriqət yolunda irəliləmək üçün tövbədən sonra uzun müddət xəlvətdə olurdular. Xəlvətin tələblərini yerinə yetirdikdən sonra sufilər xəlvəti tərk edirdilər və xəlvətin tərk edilməsi cəlvət adlanır. Yəni sufi nə qədər ki, xəlvətdədir və ya xəlvətə oturmayıb çəlvətin feyzini bütünlüklə təsəvvür edə bilmir. Çünki bu təcrübəni yaşamayıbdır. Digər bir sıra ilahi mətləblər var ki, onların üzərindən də pərdə götürülməsi üçün müəyyən biliklərə yiyələnməyə, müəyyən təcrübəyə ehtiyac vardır. Beləliklə, sitr və aşkarlığın bir-birini əvəzləməsi Tanrının lütfi olmaqla bərabər, həm də sufinin təriqət yolu ilə irəliləməsinin tərkib hissəsidir. Yəni sufi bu yolda davamlı şəkildə irəlilədikcə sitr təcəlliyə şevrilə bilər: “Həzrət Şeyx (q.s.) buyurdı kim, sitr örtməkdür və təcəlli kəşfdür və Tanrınun örtügi xass bəndələri içün lütf ilə rəhmətdir. Anun içün kim, əgər daimüt-təcəlli ola, bəndə mütəlaşi və heyran olub, bəşəriyyət ləvazimindən kim, ol ibadət ilə kəmalatı kəsb etməkdür, məhrum qalur və gah-gah təcəllinün halətində Həqq-təalanun mərifətinə məşğul ola bilür. ...Və təcəlli neçə dürlüdür: cəmal ilə lütfün təcəllisi və cəlal ilə qəhrin təcəllisi və surət təcəlisi. Və nur təcəllisi və qəhr ilə cəlaliyyət təcəllisindən bəndəyə fəna lazım olur kim, bəşəriy-

yət ilə cismani rəsmi məhv edə və bir qeyrət munın ilə böylədür ki, qeyri ortaya qoymaz. ...Və lütfi ilən cəmal təcəllisi kim, bəndəyə bu sifət ilə mütəcəlli ola və əgərçi kim kişi kəndözindən alur, amma götürüci və tərbiyət vericüdür. Misalı bu kim, günəş çün şövqi ilə şüası kölgəyə sala, kölgəlik andan gidərür və anun kölgəligi öz vücudində məhv edər və həman kim günəş hicab pərdəsinə girər, ya məğribdə batar, genə kölgə öz halına gəlüb gözükür. ...Və qəhr ilə cəlali təcəllisi eylə ki, həzrət Musanın (ə.s.) Turun dağında gəldi və cəmal ilə lütfi təcəllisi eylə kim Məhəmmədin (s.) meracda göründi kim, həm özi gördi və andan xəbər verdi" (140).

Şeyx Səfiəddinin şərh verdiyi təsəvvüf kəlamları içərisində **mühazirə və müşahidə** də vardır. Mühazirənin lüğəti mənası hüzurda olmaq, hüzura gəlmək deməkdir. Təsəvvüf ədəbiyyatında mühazirə sufinin müəyyən qədəmlərdən sonra, müəyyən təcrübədən və biliklərdən sonra Tanrının hüzuruna yetişə bilməsi mənasında işlənməkdədir. Sufinin başlıca məqsədi sözsüz ki, Tanrıya qovuşmaqdır. Bu yolda onun Tanrı hüzuruna yetişə bilməsi sözsüz ki, qəlbini qeyri-tanrıdan təmizləməsindən, ibadət və ayinlərin icrasından sonra baş verir. Ya da bu yolda atdığı ilkin və etiqada dayaqlanan əməlləri sufini Tanrı hüzuruna istiqamətləndirə bilər. Sufi Tanrıya doğru öz inamlı və imanlı addımlarını atandan, Tanrısını tanımağa çalışandan sonra gizli pərdələr aradan qalxmış olur və Tanrı sevgisi onun qəlbinə hakim olur. Tanrı hüzurunda olmaq o deməkdir ki, salik insan başını və canını Tanrı yoluna həsr edə, maddi dünyanın cazibəsindən uzaqlaşaraq həyatını batini dünyaya, əbədilik dünyasına həsr edə və Tanrıdan buyurulanlara boyun əyə. Mühazirə sözsüz ki, birdəfəlik akt deyil. Mühazirə davamlı bir prosesdir və salik insanın ibadəti və bilikləri möhkəmləndikcə onun mühazirəsi də güclənir və bu durum müşahidəyə keçir. Müşahidə mühazirənin yuxarı səviyyəsidir və bu durum bəsirət ruhu ilə əldə edilir. Müşahidə o deməkdir ki, salik insanla Tanrı arasında olan gizli pərdələr tamamilə aradan qalxır, salik insan mərifət gözü ilə Tanrının təcəllisinə nail olur və Tanrı vahidliyi onun könlündə möhkəmcə yer

tutur. Yəni salik insan bütün təcrübəsi, biliyi, inamı, imanı ilə Tanrısını tanıyır, ona bağlanır (141).

Şeyx Səfiəddinin nəzərində mühazirə salik insanın könlüdür. O könül ki, pərakəndəlik və pərişanlıqdan əl çəkərək özündə Haqqı canlandıra bilir. O da mühazirəni müşahidənin başlanğıc hissəsi kimi qəbul edirdi. Müşahidə ilə isə salik insan Tanrı təcəlliyatına nail olurdu. Müşahidədə məqsəd Tanrının cəmalına yetmək, Tanrıya ola biləcək bütün şübhələri və şəkləri aradan qaldırmaq idi: "Həzrət Şeyx buyurdı kim, mühazirə könüldür, yəni pərakəndəlik ilən pərişanlığdan kim, ol Həqqən qeybətdür, kəsilə və Həqqə hazır ola. Və bu müqəddimə mükaşifənün nəticəsidür kim, ana əşyanun kəşfi olur və munun əsrarı gözükə, yəni görici ola və bu məqamdan yuxarı mükaşifədən Tanrınun təcəlliyat ənvarı və sifat kəşfidür. ...Və müşahidədən məqsud Tanrınun cəmalıdur, təala şanəhu. Və Tanrunun vücudi ol qədər kim, şəkk ilə güman bəkülli kəsilüb bir yan olsun, ol qayətə kim, mərifətün gögi saf və aydın olmış ola və hicabun bulutı ortadan kəsilmiş ola və həqiqi günəş tövhidün bürcindən zahir olmış ola və həm bu əşyada bəsirəti kamil iyəsinün heç nəstəyə güman ilə şəkki qalmayubdur. Müşahidə iyəsinün dəxi Həqq-təalanun çühudinə mütləqa şəkk ilə reyb yoxdur və murad müşahidədən və Tanrınun röyətindən mütəfavidür, neçəsində çoxrak və neçələrdə azraqdur. ... Və müşahidədən ucarak oldur kim, yaxınrakdur və ana həqiqət derlər andan ötrü kim, müşahidə gah olur kim, hər saət özgə libas ilən özini cilvə edər və aşiqdə qələq ilə iztirab arturur və könli təsəlli olmaz, zira kim şahid birdür və libas türlü-türlü" (142).

Təsəvvüf ədəbiyyatında olan fikirlərə görə, mühazirə təlvin əhlinə, müşahidə isə təmkin əhlinə aiddir. Təlvin və təmkin də təsəvvüf kəlamlarındandır və onların mahiyyəti haqqında da Şeyx Səfiəddinin şərhi mövcuddur. Təlvin o deməkdir ki, salik insan təriqət yolu ilə mərhələ-mərhələ, məqam ardınca yeni məqam prinsipi ilə irəliləyir, hər mərtəbəyə və ya məqama yetişəndə həmin məqamın mahiyyətini kəsb edir və sonra da Haqqa qovuşmaq yolunda növbəti məqama və ya mərtəbəyə dorğu yo-

lunu davam etdirir. Yəni salik insan öz hədəfinə doğru məqsədyönlü şəkildə irəliləyir, məqamdan məqama yetişir və bu zaman daim irləliləməkdə, daim öz bilik və təcrübəsini təkmilləşdirməkdə olur. Bu isə onun fəhmini, bəsirətini daha da artırır və Haqq yolunda inamla irəliləmək üçün ona güc-qüvvət verir. Yəni təlvin salik insanın Haqqa doğru irəliləməsi, Haqqa doğru can atması və bunu ardıcıllıqla həyata keçriməsidir. Təmkin isə təlvinin sona çatması, salik insanın hədəfinə yetməsidir. Bu zaman təmkin əhli qəlbini bütün qeyri-tanrıdan təmizləmiş olur, Tanrı təcəllisinin nuru onun bütün varlğını bürüyür, Tanrı ilə onun arasında olan pərdələr qalxır, Tanrıdan başqa kimsənin özünü göstərə bilməyəcəyi bir məqamda özünə məkan tutur və vüsal taxtına əyləşmiş olur. Bu, əslində, hər bir salik insanın və sufinin məqsədidir ki, təriqət yolu ilə addım-addım irəliləyib, ilahi dəyərlərə sahib olub hədəfinə qovuşsun. Təmkin əhli də məhz şəriət, təriqət yolu ilə irəliləyərək həqiqətə yetişənlərdir (143).

Şeyx Səfiəddin də təsəvvüf həyatında təlvin və təmkinə böyük dəyər verirdi. Onun nəzərində təmkin əhli ilə təmkinə yetməyənlər arasında təbii bir fərq var idi və onlar bərabər ola bilməzdilər. Şeyx Səfiəddin bəyan edirdi ki, salik insanlar təlvin əhlidirlər. Çünki onlar Tanrının doğru yoluna qədəm basmışdılar və ciddi-cəhdlə çalışırdılar ki, mənzildən-mənzilə adlamaqla özünü Haqqa yetirsinlər: "Həzrət Şeyx (q.s.) buyurdı kim, salik təlvin iyəsidür kim, ol Tanrınun doğru yolına qədəm basubdur və yol xovf ilə xətərdən eyməndir və salik səy ilə cəhddür kim, özüni mənzildən mənzilə və aləmdən aləmə və sifatdan sifata Tanrınun hidayəti ilən tərəqqisi ola və xaçan kim tərəqqidədür, təlvinün iyəsidür. Və həman kim qamu xovf ilə xətər yolları sidq qədəmi ilən yeriyə və bunlardan keçə, ol qədər kim məqsuda yetə və həqiqinün Kəbəsi hərəminə qədəm basa və anda qonub aram duta və ol müxaviflərdən eymən ola, ana təmkin iyəsi derlər. Misalı ana bənzər ki, susuz badiyədə su istəməgə hər yandan sorağ ola və həman ki bulağun üstünə yetə və ol sudan doyunca içə və yenidən tazələnə, anun könli təsəlli bulur. Və əgər susızun yanında min qatla suyun adı və vəsfi söyləyələr, susızlık andan bərtərəf

olmaz, bəlkə nə qədər kim, suyun adını eşidür, susızraq olur və suya yetməyincə və içməyincə susızlıgi getməz. Həm böylə Tanrınun talibləri kim, Həqqün yolında ayağ basubdurlar və Həqqi tələb edərlər və vüsal zülalinün susızlarıdurlar, vüsala yetməyincə vüsalun dadını dadmayınca, könülləri təskin bulmaz. ...Və həm böylə padşahun xassələri ilə naibləri kim, saətfəsaət padşahun vüsalındadurlar və vüsalda mütəməkkin oturubdurlar və özgə kimsələr kim, irağda durub padşahun vüsalı zəhmət ilə bulurlar və ta vüsalda təmkin bulmayubdurlar, bərabər dəgüldürlər" (144).

Şeyx Səfiəddinin şərh verdiyi təsəvvüf kəlamları içərisində **elmül-yəqin, eynül-yəqin və həqqül-yəqin** də vardır. Elmül-yəqin salik insanın və ya sufinin təriqət yolunda, Tanrının, onun kitabının, peyğəmbərinin, əbədi dünyanın mövcudluğunun tanınması yolunda əldə etdiyi bilik mərtəbəsidir. Təriqət yoluna qədəm qoyan hər bir təsəvvüf əhli bir müsəlman kimi əldə etdiyi biliklər nəticəsində Tanrının təkliyinə, onun peyğəmbəri tərəfindən təbliğ olunan şəriətin haqlılığına, qeybə, qiyamət gününə iman gətirmək üçün əldə etdiyi biliklərin doğruluğuna inanmaqla şəkk etmədiyi biliklərə sahib olur. O özlüyündə yəqin edir ki, onun bilikləri haqqdır, hər cürə şübhədən kənardır və bu biliklər onun üçün etiqada çevrilir. Bu məqam elmül-yəqin adlanır. Yəni bu məqamda salik insan müsəlman üçün zəruri olan və yəqinliyə yol açan biliklərə sahib olur. Nəticədə, təriqət yolunda müəyyən mərtəbəyə yetişmiş olur. Eynül-yəqin isə lüğəti mənada gözlə görünənlərə yəqinlik hasil edilməsidir. Eynül-yəqin, ümumiyyətlə, insan orqanları vasitəsilə qavranılanlar mənasında da qəbul edilə bilər. Təsəvvüfdə isə eynül-yəqin bəsirət gözü ilə dərk edilən biliklər mənasında işlədilir. İslami dəyərlərin əldə edilməsi üçün bir sıra həqiqətlər vardır ki, onları oxumaqla, icrasını həyata keçirməklə, ibadətlə, təhlil etməklə, qulaq asmaqla əldə etmək mümkündür. Əslində, bu mərhələ eynül-yəqinə keçmək üçün zəuri olan mərhələdir. İslamın elə dəyərləri vardır ki, zəruri elmi bilikləri və dini təcrübəni qazandıqdan sonra onları bəsirət gözü ilə qavramaq, fəhm ilə dərk etmək mümkündür. Gözlə görünmə-

yən inanclara, məqamlara məhz eynül-yəqinlə vaqif olmaq mümkündür. Həqqül-yəqin isə elmül-yəqin və eynül-yəqin məqamlarından sonra Haqqa qovuşmaqdır. Bu zaman salik insan özünün fənalığını dərk edərək varlığını Haqqın varlığında əridir, insan özünün dünyəvi varlığından keçir və la ilahə illəllah həqiqəti bütünlüklə ona hakim kəsilir (145).

Şeyx Səfiəddin elmül-yəqini öyrənilən elm, eynül-yəqini idrakla əldə edilən elm və həqqül-yəqini öyrənilmiş elm adlandırırdı. O sonra da əlavə edirdi ki, elmül-yəqin qələm vasitəsi ilə, yəni təhsil almaqla əldə edilirdi. Şeyx Səfiədinin fikrincə, eynül-yəqin isə saleh insana bəyan olunurdu. Amma nəzərdə tutulan biliklərin saleh insana əyan olması üçün onun elmül-yəqinə malik olması tələb olunurdu. Şeyx Səfiəddin qeyd edirdi ki, eynül-yəqin mərtəbəsində şeytanın insan könlünə vəsvəsə gətirməsi artıq mümkün deyildir. Çünki o, artıq şeytana üstün gələcək bir mərtəbəyə yüksələ bilmişdi. Həqqül-yəqin isə həqiqətin təcəlli etdiyi bir məqam kimi xarakterizə edilirdi (146).

Şeyx Səfiəddin bir sıra digər təsəvvüf kəlamları kimi ruh haqqında da öz şərhini açıqlamışdır. Onun qeydlərinə görə, ruh Tanrı tərəfindən islam peyğəmbərinin nurundan yaradılmışdır. Nur müşahidə aləmindədir və müşahidə ilə qüvvətləndirilibdir. Yəni onu yalnız bəsirət gözü ilə dərk etmək mümkündür və gözlə görünən maddilik deyildir. Tanrı insanı xəlq edəndə ruhu da gətirib insan cəsədinin zindanına saldı. Şeyx Səfiəddin sonra yazırdı ki, ruh cəsəddə zindana salınıbdır və onu tərk etməz. Cəsəd ruh ilə diridir və insan yuxuya dalanda da ruh cəsəddən ayrılmır. Əgər ayrılsaydı onda cəsəd həyatını itirib adi bir cəsədə çevrilərdi. Şeyx Səfiəddinə görə, yuxu vaxtı insanı tərk edən insani ruh deyil, heyvani ruhdur. O sonra əlavə edirdi ki, insani ruh Tanrının əmri ilə insana lütf edilir, heyvani ruh isə insanın yaradılışı ilə ona verilir. Şeyx Səfiəddin bildirirdi ki, insani ruh insan əqlinin dərk edə biləcəyi bir məzmun deyil və ona görə ruhun tərifini vermək də mümkün deyildir. Onun sözlərinə görə, hətta Tanrı da ruhun tərifini müəyyənləşdirməyə imkan verən hər hansı bir bilgi verməmişdi. Bu mənada o, Tanrı tərəfindən "Quran"ın İsra

surəsinin 85-ci ayəsindən islam peyğəmbərinə ünvanlanmış buyuruğa istinad edirdi: “De ki: Ruh rəbbimin əmrindədir”. Yəni islam peyğəmbərinə də buyurulmuşdu ki, ruh Tanrı dərgahına məxsus olan bir məzmundur və onun mahiyyətinə kimsə nüfuz edə bilməz. Başqa sözlə, ruh – ilahi bir məzmundur və onun mahiyyətinə nüfuz edilməsinin bir nəticəsi yoxdur: “Həzrət Şeyx (q.s.) buyurdı kim, ruh bir lətif cismdür pak, arı kim, şəhvət ilən yemək-içmək yeri dəgül və Tanrı-təala anı Peyğəmbərin nurindən yaradupdur və qarşusunda müşahidə aləmində durğuzubdur və müşahidə qüvvəti ilə bəsləyübdür” (147).

“Səfvətüs-səfa” əsərinin müvafiq fəslində Şeyx Səfiəddinin şərh verdiyi sonuncu təsəvvüf kəlamı **“sirr”dir.** Burada sözsüz ki, ilahi sirdən, Tanrı dərgahında olan sirdən söhbət gedir və bu sirlərə Tanrıdan başqa kimsə bələd deyildir. Şeyx Səfiəddin bəyan edirdi ki, könül məhəbbət ilə mərifətin yeri olduğu kimi, ruh da müşahidənin məhəllidir. O sonra da əlavə edirdi ki, sirr ruhdan daha lətif və şərafətlidir və sirrlərin həqiqətindən Tanrıdan başqa kimsə baş çıxarmaz (148).

“Səfvətüs-səfa” əsərində Şeyx Səfiəddinin bir sıra təsəvvüf şairlərinin beytlərinin və misralarının açması ilə bağlı şərhləri də verilmişdir. Bu şərhlər adı çəkilən əsərin dördüncü babının dördüncü fəslində toplanmışdır. Burada təsəvvüf şairlərinin ayrı-ayrı beyt və misralarına istinad olunur və onların şərhi verilir. Şeyx Səfiəddinin əsərlərinə müraciət etdiyi sufi və mütəfəkkir şairləri arasında Mövlana Cəmaləddin Rumi (XIII əsr), Şeyx Fəridəddin Əttar Nişapuri (XII əsr), Şeyx Əvhədəddin Kirmani (XIII əsr), Şeyx Fəxrəddin İraqi (XIII əsr), Şeyx Əhməd Cam (XII əsr), Şeyx Ruzbehan (XII əsr), Şeyx Sənai (XI əsr ) də vardır. Adları çəkilən sufi mütəfəkkirlərinin beytlərinin şərhinə həsr edilmiş fikirlər də Şeyx Səfiəddinin təsəvvüfün dərin incəliklərinə bələd olmasının və eyni zamanda təsəvvüf irsi ilə yaxından tanış olmasının təsdiqi sayıla bilər. “Səfvətüs-səfa” əsərində təsəvvüf poziyasının çox az sayda nümunələri Şeyx Səfiəddin tərəfindən şərh edilmişdir. Bununla belə, əldə olunan nümunələr Şeyx Səfiəddinin bu sahədə də ciddi yaradıcılığının ola bilməsindən

xəbər verir. Onun bu sahədə əsərlər yazması da istisna edilməməlidir.

Təqdim olunan nümunələr isə Şeyx Sədrəddinin dilindən qələmə alınmışdır. Bu nümunələrin hansı prinsiplə cəmləşdirildiyini söyləmək çətindir. Çox güman ki, yalnız Şeyx Sədrəddinin yadında qalan şərhlər qələmə alınmışdır.

Şeyx Səfiəddinin Mövlana Cəlaləddin Ruminin yaradıcılığına müraciət etdiyi misralardan biri belədir:

Yek bar zayəd hər kəsi, mən barha zayideəm
(Hər kəs bir dəfə doğulur, mən dəfələrlə doğulmuşam)

Şeyx Səfiəddinə görə, burada çox dəfələrlə doğulmaq məsələsindən danışarkən əvvəlcə insanın ilk doğuluşu və dünyaya gəlişi nəzərdə tutulur. Bu doğuluş bioloji doğuluşdur və bu doğuluşla insan maddi dünyaya qədəm qoyur. Sonrakı doğuluşlar isə insanın ictimai mövqeyi ilə bağlıdır. Yəni insan bu dünyada elm və bilik kəsb edir, dünya mətləblərinə vaqif olur, ustadlardan təlim-tərbiyə alır və yeni bir insan kimi formalaşır. Yəni Mövlana demək istəyirmiş ki, insan doğulduğu mənəvi ölçülərdə qalmır və həyat onu yeni bir insan kimi formalaşdırır və o, bir növ yenidən doğulur. Şeyx Səfiəddin bəyan edirdi ki, ana bətnində olan insan gizli bir varlıqdır və dünyaya göz açmaqla o, artıq yeni bir dünyanın uşağına çevrilir və bu maddi dünyada formalaşıb özünə həyat qazanır. Bir sözlə, Şeyx Səfiəddinə görə insan həm bir bioloji varlıq kimi, həm də bir ictimai varlıq kimi doğulur və formalaşır. Şeyx Səfiəddin burada sözsüz ki, insanın batini dünyasının yenidən formalaşmasını və Tanrıya qovuşmasını da insanın yeni bir doğuluşu kimi qəbul edirdi: "Həzrət Şeyx (q.s.) buyurdı kim, murad bu çok doğulmaqdan oldur kim, əvvəlki doğmağ bu, suri bəşərün doğmağıdur kim, anun rəhəmi-məsiməsindən doğar və suri aləmün fəzasına gəlür. İkinci doğmağıdur sifətün doğmağ kim, ustadun tərbiyəti ilən anun sifəti doğar və həzrət İsa (ə.s.) buyurubdur kim, kişi yuxaru aləminə yetməz iki qatla doğmayınca. Və dəxi bu sifət insanun qarnundan

mundan sonra doğacəgdür kim, ol qaranlarda ol nəstə kim, insanın xülasəsidür, gizlüdür. Yəni bir aləmdən bir aləmə tərəqqi eyləmək ki, çün qədəm özgə aləmə qoya, ol aləmün uşağı ola və anda dəxi bəslənüb böyük olur və andan dəxi tərəqqi eyləyə son aləminədək ki, Tanrınun aləmidir" (149).

Mövlana Rumidən şərh olunan digər bir beyt isə belədir:

İn çeşm o in çerağ do nurənd, hər yeki
Kişan behəm rəsənd, kəs işan coda nəkərd
(Bu göz və çırağ iki nurdur ki, hər biri
Bir-birinə çatsa, kimsə ayıra bilməz)

Şeyx Səfiəddin bəyan edirdi ki, həm insan gözü, həm də çıraq özü biri nur mənbəyidir. Bu nur mənbələri bir digərinə mane olmazlar, əksinə onların birləşməsi mövcud olanları görməyə və müşahidə etməyə imkan verir. O bildirirdi ki, qaranlıq otaqda göz nuru olsa, çıraq olmasa və ya çıraq olsa göz nuru olmasa bir əşyanı görmək mümkün olmaz. Şeyx Səfiəddinə görə, bu beytdə Mövlana Rumi, əslində, bəsirət nurunu nəzərdə tutmuşdur və göz deyəndə insan bəsirətinə işarə etmişdir. Amma bu bəsirətin bəbəyində bir pərdə mövcuddur və həmin pərdə iki nur arasında olan pərdədir. Ona görə bəsirətlə hər şeyi görmək mümkün deyil və həmin pərdə aradan qalxdıqda iki nur bir-biri ilə birləşir və mərifətullaha yetişmək mümkün olur. Dərin mənada isə bu beytdə ruhun Haqqa qovuşmasından söhbət gedir. Şeyx Səfiəddinə görə, bu beytdə şair demək istəmişdir ki, Haqq həqiqəti ruha təcəlli olanda ruh özündən fani olur və Tanrı ilə qovuşur və bundan sonra onları bir-birindən ayırmaq mümkün olmur (150).

Mövlana Rumidən şərh edilən digər bir beyt belədir:

Ey qovm-e be Həcc rəfte, kocayid, kocayid
Məşuğe həm incast, biyayid, biyayid
(Ey Həccə gedənlər, haradasınız, haradasınız
Məşuqə də buradadır, gəlin, gəlin)

Bu beytin şərhində Şeyx Səfiəddin bildirirdi ki, müsəlmanlar üçün iki Kəbə vardır. Onlardan biri mövcud olan həqiqi Kəbə idi, digəri isə insanların könlündə qərar tutmuş Kəbədir. Onların birinə niyyət edib Həcc səfərini icra etməklə nail olmaq mümkündür, digərinə isə mərifətlə yetmək mümkündür. Yuxarıdakı beytin ilk misrasında səfərlə ziyarət edilən Kəbə nəzərdə tutulmuşdur. Amma Mövlana Rumi tariblərə eyni zamanda könül Kəbəsinə yiyələnməyi də məsləhət görürdü. O bildirirdi ki, Tanrıya yalnız səfər icra etməklə yetişmək olmaz, Tanrını hər bir talib eyni zamanda öz könlündə aramalıdır. Yəni Tanrı talib üçün Həcc qədər uzaqda deyildi, ona çox yaxındır və ona yetmək talibin əlindədir. Şeyx Səfiəddin yuxarıdakı beytlərdən gələn Mövlana fikrini açmaq üçün "Quran"i-Kərimdən iki ayəyə də istinad edirdi. Həmin ayələrdən biri Bəqərə surəsinin 186-cı ayəsi idi: "Bəndələrim məni soruşduqda söylə ki, Mən onlara yaxınam". Digər ayə isə Qaf surəsinin 16-cı ayəsi idi: "Biz ona şah damarından da yaxınıq". Bir sözlə, Mövlana bəyan edirdi ki, Tanrını yalnız Kəbədə axtarmaq yetərli deyil. Həcc səfəri həm də insan könlündə Tanrının yer etməsi ilə tamamlanmalıdır.

Bu fikrin davamı kimi Şeyx Səfiəddin Mövlananın aşağıdakı beytinə də müraciət edirdi:

Məşuğe be həmsaye vo divar be divar
Dər badiye sərgəşte şoma dər çe həvayid?
(Məşuqə qonşuda, divarın o tərəfindədir,
Siz isə səhrada çaşqın qalmısınız, nəyin hayındasınız?)

Bu beytə istinadən də Şeyx Səfiəddin bildirirdi ki, Tanrı insana insanın özündən də yaxındır. Ona görə Şeyx Səfiəddin də Mövlananın sətirlərinə əsaslanaraq təkid ediri ki, Tanrını uzaqlarda axtarmaq və bunun üçün sərgəştə olub çöllərə düşmək bir fayda verməz. Yetər ki, insan könlü ilə Tanrı arasındakı hicabı (pərdəni) aradan qaldırsın: "Həzrət Şeyx (q.s.) buyurdı kim, Həqq-təala bəndəyə bəndədən də yaxınrakdur, pəs anı irağda və

heyrət yabanlarında tələb etmək olmaz və ol iraģlığda sərgəştəlikdən vüsal hasil olmaz. Pəs, sənün mənligün ortada hicabdur. Mənlik hicabı aradan götür kim, mənzilə yetərsən” (151).

Şeyx Əttar Nişapurinin aşağıdakı beyti də Şeyx Səfiəddinin diqqətini cəlb etmişdi:

Əz-bəşəri rəste bud baz bəra-ye bəşər,
Ta be kəmal avərd, xane-ye nöqsan gereft.
(Bəşər üçün bəşərdən azad olmuşdu (doğmuşdu),
Elə ki kamala yetdi, evinə nöqsan gəldi).

Şeyx Səfiəddinə görə, bəşər üçün bəşərdən azad olmaq insanın Haqqa qovuşması zamanı baş verir və müəllifin də məqsədi bunu ifadə etmək idi. Belə ki, Şeyx Səfiəddinə görə salik insan maddi dünyaya bağlı qaldıqca, bu dünyanın dərdi-qəmi ilə yaşamalı olur. Amma insan maddi dünyadan qopub Haqq yolunu tutanda və Haqqa qovuşanda o artıq mərifət sahibi olur, Allahın sirlərinə yol tapır, bu dünyanın cazibələrindən də xilas olmuş olur. Amma insan mərifət mərtəbəsində qalanda, batini dünyaya qovuşanda tərbiyə və irşad işləri ilə məşğul ola bilmir. Mərifət mərtəbəsində olan insan öz yurddaşlarının irşadı və tərbiyəsi ilə məşğul olmaq məcburiyyətində qalanda yenidən nöqsan evinə qayıtmış olur. Nöqsan evi deyiləndə maddi dünya və onun qayğıları nəzərdə tutulurdu (152).

Şeyx Əttardan şərh olunan başqa bir parça isə belədir:

| | |
|---|---|
| Eşq ra gər rəhi bedidəsti | İn dər-e bəste ra kelidəsti |
| Nərəsəd hiç kəs be dərgah-e eşq | Kaş ki, hiç kəs rəsidəsti |
| (Eşqin əgər yolu görünsəydi | Bir bağlı qapını qıfıllardı |
| Heç kim eşqin qapısına çata bilməz | Kaş ki, kimsə çata biləydi). |

Şeyx Səfiəddin bu beytlərin şərhində bildirirdi ki, yol məkan çərçivəsində mövcud olursa, eşq laməkan bir anlayışdır, onun yolu yoxdur, girişi-çıxışı məlum deyil və plan qurmaqla ora

daxil olmaq mümkün deyil. Eşq məqamına yalnız Tanrının iradəsi və tövfiqi ilə daxil olmaq mümkündür. Eşq məqamının girişi-çıxışı olsaydı onun qapısına qıfıl vurub açarla bağlamaq olardı. Bu qapı insani ağlın üzünə bağlıdır və kimsə bəşəri eşqlə bu qapıdan daxil ola bilməz. Ona görə də sonda deyilir ki, kaş ki, kimsə ora çata biləydi. Sonuncu cümlənin bir mənası da belə idi ki, insan maddiyatı ilə həmin eşqə yetə bilməz, ona yetmək üçün Tanrı iradəsini və lütfünü qazanmaq lazımdır. Amma müəllif arzu edirdi ki, kimsə öz maddiyatı ilə də ora çata biləydi (153).

Şeyx Səfiəddinin şərhini verdiyi ədəbi nümunələrin sayını artırmadan belə görmək mümkündür ki, onun dərin bilikləri ədəbi əsərlərin məzmununun dəyərləndirilməsində də böyük imkanlara malik idi və bu istiqamətdə də onun yaradıcılığı öyrənilməyə layiqdir.

## 4.Şeyx Səfiəddin və səma

“Səma” ərəb sözü olaraq “eşitmək”, “dinləmək” mənasındadır. Bu söz Azərbaycan dilində “asiman”, “fəza” mənasında işlədilən “səma” sözü ilə yazılış baxımından oxşarlıq təşkil etsə də, əslində, onların tələffüzü fərqlidir. Təsəffüv termini olan “səma” sözünün ərəb dilindəki yazılışında sonuncu hərf “əyn” hərfidir. Bu hərfin qarşılığı Azərbaycan əlifbasında mövcud deyildir. Təsəvvüf termini olan “səma”nın daha düzgün tələffüzü üçün şərti olaraq onu “səma(a)”  da yazmaq olar.

Təsəvvüfdə səma – musiqi ilə zikrin və insanın fiziki hərəkətlərinin vəhdət tapdığı bir ayindir. Səma zamanı sufilər musiqi alətlərinin sədası altında zikrdən vəcdə gələrək öz hisslərini rəqslə ifadə etməyə çalışırlar. Bu zaman başlıca diqqət edilən zikrin insan qəlbinə daha dərindən təsir etməsinə yönəldilir (154).

Qeyd edilməlidir ki, səma islam dünyasında birmənalı şəkildə qarşılanmır və dini ayinlərin icrasının musiqi ilə, rəqslərlə müşayiət bir sıra islam mütəfəkkirləri tərəfindən qətiyyətlə rədd edilir. Xüsusilə şəriəti əsas tutanlar təsəvvüfə qarşı olduqları kimi, təsəvvüfün səmasnı da birmənalı şəkildə qəbul etmirlər.

Bununla bağlı onlar öz görüşlərini də irəli sürür və çalışırlar ki, səmanın şəriət baxımından doğru olmadığını əsaslandırsınlar.

Digər tərəfdən, səmanın icrasına ruhən bağlı olmayan, onun mahiyyətini dərindən anlamayan və ondan nəzərdə tutulan mənəvi-dini həzzi almayan insanlar da tapılırdı. Müəyyən hallarda səmanın icrası dünyəvi bir ayinin icrası xarakteri alırdı və bu da səmaya bağlanılan nəticəni vermədiyi kimi, arif və salik insanların səmadan uzaqlaşmasına yol açırdı. Bəzi hallarda səma ayinlərinin icrası yemək məclisləri ilə tamamlanırdı və ona görə səma icrasına yemək məclislərinin başlanğıcı kimi baxanlar da tapılırdı. Bunun üçün də bəziləri tərəfindən səma insan qəlbinin nəfslərdən təmizlənməsi, mənəvi kamilləşməsi ayini kimi deyil, dadlı yeməklərə olan meylin həyata keçirilməsi imkanı kimi qarşılanırdı. Səmanın icra olunduğu yerlər isə saflaşma, Tanrıya qovuşma yeri kimi deyil, əyləncənin özünə yer tapdığı yer kimi təsəvvür edilirdi. Arif insanların nəzərində isə belə səma icrası sufilərin inancları və ibadətlərini zəiflədir, onların inanclarını sarsıdır və Tanrı yolçuluğundan yayındırırdı. Az qala keyf, əyləncə məclisləri görüntüsü alan belə səmalar etiqadlı insanlar tərəfindən qəbul edilmirdi və səmada keçirilən vaxt da fövtə verilmiş vaxt kimi qiymətləndirilirdi.

Səmanın doğru olmadığını iddia edənlər öz fikirlərinin “Quran”i-Kərimin Loğman surəsinin 6-cə ayəsinə istinad etməklə əsaslandırmağa çalışırdılar. Həmin ayədə deyilir: “İnsanlar içərisində eləsi də vardır ki, nadanlığı üzündən *(tutduğu işin günahını anlamadan xalqı)* Allah yolundan *(islam dinindən)* döndərmək və bu minvalla onu məsxərəyə qoymaq üçün mənasız *(oyun-oyuncaq)* sözləri satın alar” (155). Güman olunur ki, bu ayədəki “mənasız sözlər” məhz musiqi və mahnı dinlənilməsinə bir işarədir. İddia olunur ki, məhz bu sözlər ibadətin mahnı və musiqi ilə qovuşdurulması və bunun da səmaya çevilməsi din baxımından qəbuledilməzdir. Səmanın qəbuledilməzliyinin əsaslandırılması üçün istinad edilən “Quran” ayəsi isə Nəcm surəsinin 61-ci ayəsidir. Həmin ayədə deyilir: “Siz *(qəflət içində)* oynayır-əylənirsiniz *(ona etina etmirsiniz)”*(156). Bu ayədə də

əylənməyin qəbul edilmədiyi və bunun nəticəsi kimi əylənmə görüntüsünə malik səmanın da düzgün olmadığı bildirilirdi.

İslam müqəddəsləri və arifləri içərisində də səmanı qəbul etməyənlər var idi və onlar da bu ayindən uzaq olmağa çağırırdılar. Məsələn, imam Şafiə səmanın qəbuledilməzliyi barəsində belə bir fiki söyləyirdi: "Şərqi – batil bənzəyən məkruh bir əyləncədir. Kim təğənnini (şərqi və türkü oxumağı) çoxaldırsa, o, səfeh bir insandır, şəhadəti qəbul edilməz" (157). Amma imam Şafiə "Quran"ın avazla oxunmasının əleyhinə deyildi.

Ariflər imam Malik ilə imam Əzəmin də musiqi və şərqi oxunması ilə icra olunan səmanı qəbul etmədiklərini bildirirdilər. İmam Malikə görə, hətta biri özünə bir cariyə alsaydı və sonradan həmin cariyənin şərqi oxuyan olması məlum olsaydı, onda onu alan adamın bu cariyəni geri qaytarmağa haqqı var idi. Ariflərin və möminlərin bir çoxu, ümumiyyətlə, musiqini din baxımdan günah sayır və onun məscidlərdə, dini məkanlarda səsləndirilməsini şəriətdən kənar bir əməl kimi qiymətləndirirdilər (158).

Bəzi sufi ariflərinin fikrincə, islam peyğəmbəri də səmanın doğruluğu haqqında hər hansı bir kəlam bəyan etməmişdi. Əksinə, onun bəzi hədislərinə istinad etməklə səmanın doğru olmadığı bildirilir. Həmin hədislər bunlardır: "İlk sayfa atıb ağlayana və ilk təğənni lim edib şərqi söyləyən iblisdir". "Günah olan iki səsdən mənn [qadağan] edəlim. Birisi, hər hansı bir nemətə qovuşunca gülüb-əylənmək; birisi də müsibət halında bağırıb-çığırmaq" (159). Bu hədislərin ardınca o da bildirilir ki, islam peyğəmbərinin sağlığında səhabələrinin onun başına toplaşıb səma məzmunlu ayinlərin icra etməsi haqqında bir fakt mövcud deyil. Səma xarakterli ayinlərin icrası doğru olsaydı, onda onu islam peyğəmbəri və onun səhabələri də icra etmiş olarlardılar. Bütün bunlara görə, səmanın icrasının doğru olmadığı bəyan edilirdi .

Təsəvvüfün böyük mütəfəkkirlərindən olan Cüneyd Bağdadi də bir vaxtlar səma icra etməsinə baxmayaraq, sonradan onun icrasından uzaqlaşmışdı. Onun fikrincə, yalnız tənbəl müridlər səma icra etməyə meyilli olardılar. Cüneyd Bağdadidən nə

üçün səmanı tərk etməsini soruşduqda isə bildirmişdi ki, səma icra edilməsi Tanrı mərifətinin əldə edilməsi üçündür. Nə qədər ki, bunu düzgün başa düşən və Tanrı mərifəti üçün səmaya duranlar var idi, o da səma icra edərdi. Lakin səmanın ruhunu anlayan və batini bir şövqlə onu icra edənlər yox oldu, onda o da səmadan uzaqlaşdı (160).

Amma səma icrasına ciddi təriqət ayinlərinin biri kimi yanaşan və insanın maddiliklərdən uzaqlaşaraq öz ruhunu kamilləşdirmək imkanı kimi yanaşanlar da az deyildilər. Şeyx Səfiəddin də belələrdən idi. O və onun kimi düşünənlər səmanın mahiyyətinin deyil, onun icrasına necə yanaşılmasının sual doğura biləcəyini mümkün sayırdılar.

Səmanın təsəvvüf ayini kimi doğruluğunu qəbul edənlər də öz inanclarını "Quran"ın aşağıdakı ayələri ilə əsaslandırmağa çalışırdılar. Zümər surəsinin 18-ci ayəsi belə idi: "O kəslərə ki, sözü *(öyüd-nəsihəti)* dinləyib onun ən gözəlinə *(düzgününə)* uyarlar. Onlar Allahın doğru yola yönəltdiyi kimsələrdir. Ağıl sahibləri də elə onlardır!". Maidə surəsinin 83-cü ayəsində isə belə deyilirdi: "Peyğəmbərə nazil olanı dinlədikləri zaman haqqı bildikləri üçün onların gözlərinin yaşla dolduğunu görürsən" (161).

Təsəvvüfün böyük mütəfəkkirlərindən olan Şihabəddin Sührəverdi bu ayətləri təfsir edərkən belə yazırdı: "Bu iki ayəti-kərimədə bəhs edilən "səma", yəni can qulağı ilə dinləmə olayı; yerində ihtilaf edilməyən və əhli-imana aid olan bir səmadır. Buna sahib olanların, hidayət əhli və gerçək ağıl sahibi olduqlarına hökm olunur. Bu tür bir səmanın qəlbdə meydana gətirdiyi hərarət, yakının sərinliyi ilə birləşincə, gözdən yaş axar. Çünki səma bəzən sahibinə hüzn verir, hüzn isə sıcaqdır. Bəzən şövq verir, şövq də sıcaqdır. Bəzən nədamət gətirir, nədamət də sıcaqdır. İşdə bu səma, yakının sərinliyi ilə dolu bir qəlb sahibində bu sifətləri hərəkətə gətirincə göz ağlar və yaş tökər. Çünki hərarət ilə sərinlik birləşdiyi zaman su meydana gəlir" (162).

Bu cümlələrdə, əslində, səmanın mahiyyəti açıqlanmışdır. Yəni səma qəlb qulağı ilə dinlənilən və iman əhlinə məxsus bir

ayin kimi qəbul edilirdi. Sührəverdinin fikrincə, səma iman əhlinə aid olan bir ayin idi və yalnız iman əhli bu ayini icra etməklə öz məqsədinə yetə bilərdi. Yalnız iman əhli müsiqi sədası ilə müşayiət olunan zikri qəlbinin qulağı ilə eşidə biləcəyi halda səma sufinin qəlbini vəcdə gətirir və onun gözündən yaş axmağa başlayır. Ş.Sührəvərdi daha sonra əlavə edirdi ki, insanın səmaya daldığı zaman onun ağlında meydana gətirdiyi təsir daha böyük olur və bu təsir də onun göz yaşı ilə boşalır. O bildirirdi ki, haqq sözə qulaq verib canla dinləməyin təsiri insan ruhuna yetişərək onda mənəvi bir hərəkət və mənəvi dalğalanma yaradırdı. Bu hərəkət və dalğalanma ifrata yetəndə isə insan bədəni çatlamaq durumuna yetişir və bu zaman insan müxtəlif sədaları ifadə edirdi.

Səmanın günah olmaması və onun islami əsaslara malik olması haqqında bir sıra sufi mütəfəkkirləri tərəfindən islam peyğəmbərinin bir sıra hədislərinə də istinad edilmişdir. Bildirilir ki, islam peyğəmbəri də "Quran"a qulaq asanda duyğulanar və qəlbi vəcdə gələrmiş. Yəni ilahi kəlamların dinlənilməsi zamanı qəlbin yumşalması və duyğuların qabarması Tanrı dərgahında qəbul olunan hallar idi. Ona görə də islam peyğəmbəri belə buyurmuşdu: "Qəlblərin yumşalıb incəldiyi zaman duanı qənimət bilin. Çünki o, Allah-təaladan bir rəhmətdir", "Allah qorxusundan qulun dərisi ürpəndiyi zaman, quru ağacdan yarpaqlar töküldüyü kimi günahları tökülər" (163).

Sufi mütəfəkkirləri şübhə etmirlər ki, səma da insanın qəlbini yumşaldır, bu zaman insan özünü tərk edərək Tanrısına yaxınlaşır və o, günahlardan təmizlənir. Sufilərə görə, səmanı icra etməklə insanın əzaları da öz məqsədlərinə yetişmiş olur. Yəni, səma zamanı gözün nəsibi ağlamaq, dilin nəsibi yanıqlı hala düşmək, əlin nəsibi səma zamanı hərəkətə gəlmək, ayağın nəsibi isə rəqsə durmaq olar (164). Bununla belə bir qənaət ortaya qoyulur ki, səmada batini amil əsas tutulsa da, əslində, bu ayinin icrası zamanı ruhun və bədənin vəhdəti öz ifadəsini tapmalıdır.

Səma halal, haram və şübhə olmaq üzrə üç qismə ayrılır. Səma ayininin icrası zamanı nəfsani hisslər, dünya nemətlərinə

bağlılıqlar və şəhvət duyğuları özünü göstərərdisə, belə səma haram sayılırdı. Qəlb qulağı ilə dinlənilən, Haqqa aid olan mənaları eşidən və bu zaman ilahi təcəlliyə tapınan və qəlb ilə icra olunan səma isə halal səma sayılırdı. Haqq yolçuluğunda olan bir sufinin xanımının və ya cariyəsinin sədası altında səma etməsi isə şübhəli səma sayılrıdı. Çünki belə səma insanda həm də əyləncə hissələri yarada bilərdi (165).

Mütəxəssislərin fikrincə, səmanın üç qısımdə olması belə xarakterizə olunurdu: təbiət ilə olan səma, hal ilə olan səma və Haqq ilə olan səma. Təbiət ilə olan səma insanın gerçək olandan, o cümlədən xoş səsdən zövq alması və vəcdə gəlməsi idi. Hal ilə olan səmada isə insan öz batininə qapılır, vüslət, hicran, yaxınlıq, uzaqlıq, üzülmə, əldə edilənə şiddətli şövq, əhdə vəfa, vədəyə sədaqət, hüzn, iştiyaq, ayrılıq qorxusu, vüsal sevinci, tərk olunma qorxusu kimi ilahi varidatları haqqında düşünməklə Tanrıya doğru yol axtarır. Haqq ilə olan səma isə insanı Haqqa bağlayacaq daha təmiz və batini duyğularla səma icra edilməsidir. Bu zaman insan hər cürə hisslərdən uzaqlaşaraq Haqqa qovuşmağı özünə bir həzz və zövq bilirdi (166).

Bəzi ariflərin fikrincə isə səma edənlər iki yerə ayrılırdılar: nəfsi ilə səma edənlər və ağlı ilə səma edənlər. İnsanın bəşəri hisslərlə səma etməsi, dünyəvi hisslərdən bütünlüklə ayrılmadan ayinə qatılması nəfsi səma, səmanın mahiyyətinə varid olaraq dünyəvi cazibələrdən sıyrılmaqla və Tanrının haqqlığına tapınmaqla icra edilən səma isə ağıl ilə icra edilən səma adlanırdı (167).

Yuxarıda qeyd edildiyi kimi, böyük sufi mütəfəkkiri Cüneyd Bağdadi də əvvəllər səmanı qəbul etmiş, lakin sonralar onun icrasından uzaqlaşmışdı. Səmanı qəbul etdiyi zaman o, səmanın fəziləti haqqında belə yazmışdı: “Bu (sufilər) tayfasının üzərinə üç yerdə rəhməti-ilahiyyə enər:

1.Yemək anında. Çünki onlar ancaq zərurət və ehtiyacdan dolayı yeyərlər;

2.Elmi müzakirə anında. Çünki onlar bütün nəbilərin halları və siddiqlərin məqamları  mövzusunda danışarlar

3.Səma halında. Çünki onlar (dinlədikləri gözəl ilahi qəsidə və şeirlər) vəcd işində dinləyib bu vəsilə ilə Haqqı müşahidə edərlər" (168).

Başqa sözlə, səma – Haqqın müşahidə edilməsinin və dərk edilməsinin yollarından biri kimi qəbul edilirdi.

Təsəvvüf əhlinə görə, sufilər səma anında olduqda başqaları üçün gizli qalan mənalar onlar üçün açılmış olur. Sanki bu zaman Tanrı onları səsləyərək "mənə gəl, mənə" deyir. Sufilər də bu ilahi dəvət və cazibədən fərəhlənib sevinərlər. Vəcdə gəldikcə onların fərəhləri ağlamağa çevrilir. Bu zaman bəziləri qərar tutduqları halın (durumun) təsirindən ağlar və ya paltarlarını parçalayarlar. Onların bu ağlamağı və ya paltarlarını parçalamağı, rəqsə qurşanmaları bəşəri hisslərin nəticəsi kimi deyil, öz mənindən uzaqlaşmasının Haqqa doğru çırpınmasının nəticəsi kimi özünü göstərirdi (169).

Şeyx Səfiəddin də səmanı taliblər və müridlər üçün Tanrıya aparan bir yol kimi qəbul edirdi. Bu ayinin icrasında zahirliyin və bəşəri görünüşlərin güclü olmasını batini hisslərin kamilləşməsinə heç də bir maniə saymırdı. O da şübhə etmirdi ki, səma yalnız zahiri və batini məqamların düzgün əlaqələndirilməsi, bu ayinin icrası zamanı həqiqətə yetişməyin əsas tutulması sufinin başlıca məqsədi olmalı idi. Səma dünya cazibələrini, qayğılarını unudaraq qəlbin Tanrıya bağlanması və onun qəlb qulağı və gözü ilə tanınmasına cəhd göstərilməsi kimi qəbul edilməklə Səfəviyyə təriqətində də mühüm ayinlərdən biri kimi icra olunurdu.

Mövcud olan məlumatlara görə, təsəvvüfn zirvələrdindən biri sayılan Mövlana Cəlaləddin Rumi də ilk vaxtlar səma icra etməzmiş. O, islam peyğəmbərinin şəriətindən irəli gələn ibadəti etməklə, riyazət çəkməklə və digər ayinləri icra etməklə səma icra etməkdən uzaq idi. Lakin sonralar ustadı Şəms Təbrizinin tövsiyəsi ilə Mövlana Rumi də səma icra etməyin feyzinə vardı. Məlumata görə, Şəms Təbrisi ona deyibmiş ki, səmaya buyurun, çünki tələb və arzu etdikləriniz hər bir şeyi səmada tapacaqsınız (170).

Şeyx Səfiəddin özü də bu ayini davamlı şəkildə icra edirdi. Səmanın icra edilməsinin bir təcrübəsi də mövcud idi və bu təcrübəyə riayət edilməsi səmanın şərtlərindən sayılırdı. Səmanın icrasında batini məqamlar kimi, zahiri məqamların doğru və düzgün icrası da o dərəcədə mühüm sayılırdı. Batini məqamın dürüstlüyü səmanı icra edənin etiqadının, Tanrıya bağlılığının dərəcəsi ilə əlaqəli idi. Zahiri məqamların düzgün icrası isə səma ilə bağlı olan təsəvvürlərin doğru olması zərurətindən irəli gəlirdi. Səma icrası zamanı zahiri hərəkətlərdə qeyri-dürüstlüyə yol verilməsi bir sıra yanlışlıqların meydana gəlməsinə yol aça bilərdi. Səma Tanrı adına icra olunurdu. Səma hərəkətlərinin doğru olmaması onların Allah tərəfindən belə buyrulması, yəni Allahın adına səhv yazılması kimi başa düşülə bilərdi. Bu, sözsüz, qəbul edilən deyildi. Səma zamanı səhv hərəkət etmək mərasimdə iştirak edənlərin aldadılması və onlarda yanlış təsəvvürün yaradılmasına səbəb ola bilərdi. Müsəlmanın müsəlman tərəfindən aldadılması isə islamda günah sayılırdı. Səhv hərəkətlər məsələdən xəbərdar olmayan insanlar tərəfindən doğru qəbul edilməklə onların icrasına yol verib başqalarında da səhv təsəvvür yarada bilərdilər. Bununla insanların zehniyyətinda səma haqqında yanlış inanc formalaşdırılmış olardı. Səhv hərəkətlərin başqaları tərəfindən təkrar edilməsi isə onların doğru yoldan uzaqlaşması ilə nəticələnə bilərdi (171).

Səmanın icrasının batini məqamı ilə bağlı da sufilərə qarşı müəyyən tələblər irəli sürülürdü. Hər şeydən əvvəl bildirilirdi ki, təsəvvüfün bütün məqamları kimi, səma da sidq və sədaqət üzərində qurulmuşdur və əgər sufi Tanrı niyyətində saf deyildisə, onun səma mərasiminə qatılması da doğru deyildi. Sufi səma ayininə qatılmazdan əvvəl mənəvi durumunun kamilləşməsini niyyət etməli, hər cürə nəfsani hisslərdən uzaq olmalı idi. Səma icrasından əvvəl sufi istixarə etməli və səma zamanı Allah-təalanın ona bərəkət verməsini dua etməli idi. Ayinin icrası zamanı da sükunət içində öz etiqadına tapınmalı idi. Səmada olan sufi ayinin icrası zamanı fiziki rahatlıq aramamağı kənara qoymalı, vəcd və şövq halında özünə nəzarəti itirməməli idi (172).

Səma, bir qayda olaraq, səmaxana adlanan ayrıca məkanlarda icra olunardı. Səmanın icra olunması əvvəldən müridlərə elan olunur və onlar da uyğun geyimi geyinərək səmaxanaya gəlirdilər. Çox zaman səma namazdan sonra icra olunardı. Səmaxanada müridlər dövrə vuraraq oturar və ayinin başlamasını gözləyərlərdi. Müxtəlif təriqətlərdə səmanın başlanması fərqli ayələrlə, müqəddəs kəlamlarla baş verərdi və sonra da Tanrı üçün edilən zikr qaval sədası və rəqslərin müşayiəti ilə davam edərdi. Dairəvi şəkildə edilən rəqslər zamanı sufilər gözlərini qapayaraq başlarını aşağı salar və bununla daxilinə qapanmaqla maddi dünyadan uzaqlaşmağa çalışardılar. Bir tərəfdən zikr, digər tərəfdən musiqi avazı, bir tərəfdən də nizamlı rəqslər yavaş-yavaş sufidə yeni bir hal formalaşdırardı. Bu zaman, sözsüz ki, sufinin psixi durumu, özünü yeni hal üçün kökləyə bilməsi, maddilikdən qopması xüsusi əhəmiyyət kəsb edirdi. Müəyyən zaman ərzində icra edilən səma zamanı sufinin vəcdə gəlməsi, öz mənindən qopması, hərəkətlərinə nəzarəti müəyyən qədər itirməsi və bu halda müxtəlif sədalar ifadə etməsi istisna deyildi. Bəzən belə bir ifadə də işlədilirdi ki, səma zamanı sufilər mənəvi sərxoşluq vəziyyətinə çatırlar. Son nəticədə isə onlar yetişdikləri durumda ilahi feyz və zövq alırdılar, qəlblərində Tanrı sevgisi daha da qüvvət tapırdı.

Şeyx Səfiəddinin həyat tarixi göstərir ki, onun iştirakı ilə icra edilən səmalar heç də yalnız xüsusi ayrılmış məkanlarda deyil, həm də uyğun sayılan məkanlarda icra edilmişdir. Sözsüz ki, səmaların icra edildiyi əsas məkan Şeyx Səfiədinin zaviyəsi idi. Səmanın nə zaman icra edilməsi mürşidin halına və durumuna da bağlı olurdu. Yəni əvvəldən planlaşdırılmış və əvvəldən planlaşdırılmamaış səmalar icra oluna bilərdi. O cümlədən zaviyədən kənarda, səfərlər zamanı, möminlərin evində, hətta açıq təbiətdə də səmalar icra olunurdu.

Səma, bir qayda olaraq, kollektiv şəkildə icra olunurdu. Bu zaman müqəddəs kəlamlar və ya təsəvvüf məzmununda olan beytlər, qəsidələrdən parçalar səsləndirilirdi. Səmanın icra olunması üçün xüsusi musiqiçilər var idi. Bu musiqiçilər daha çox

qaval və ya dəfi səsləndirməklə müvafiq ahəng yaradır və həmin ahəngin sədaları altında səma kəlamları səsləndirilməklə rəqslər icra edilirdi. Faktlardan məlumdur ki, Şeyx Səfiəddin zaviyəsində və ya onun iştirakı ilə keçirilən səmalarda musiqi aləti kimi tütəkdən də istifadə olunmuşdur. Səma anında edilən rəqslər daha çox müridlərin öz ətraflarında dövrə vurması ilə icra olunurdu (173).

"Səfvətüs-səfa" əsərindəki məlumatlardan görünür ki, Şeyx Səfiəddinin iştirakı ilə keçirilən səma mərasimləri çox ciddi və həyəcanlı şəkildə icra edilirmiş. Səma ayinlərinin icrası üçün xüsusi və təcrübəli qəvvallar da var imiş. Məsələn, Şeyx Səfiəddinin yanında olan Fərrux adlı bir qəvval hətta Fərrux Qəvval adı ilə tanınırmış. Ətraf məntəqələrdə yaşayan təcrübəli qəvvallar hər zaman diqqət mərkəzində olarmış və səma məclislərinin belə qəvvalların iştirakı ilə keçirilməsinə üstünlük verilərmiş (174).

Mövcud məlumatlara görə, Şeyx Səfiəddin vaxtaşırı səmada olarmış və səma icra etməkdən yorulmazmış. Məsələn, şahidlərdən biri danışırmış ki, mədrəsədə oxuyarkən Şeyx Səfiəddinin səmada olmasını eşidirmiş. Onun sözlərinə görə, hər dəfə zaviyəyə gedəndə Şeyx Səfiəddini səma məclisində görürmüş. Bundan əlavə onun iştirakı ilə icra edilən səma mərasimi elə bir şövq və enerji ilə həyata keçirilirmiş ki, həm zaviyənin divarları, həm də zaviyəyə bitişik olan binaların divarları hərəkətə gəlirmiş (175).

Şeyx Səfiəddin gecələr də səma ayinini icra edərdi. Bu, onun qərar tutduğu haldan asılı idi və belə hallarda da zaviyədəki taliblər və müridlər də ona qoşulardı. Şeyxin səmasının hərarəti bütün taliblərə də sirayət edərdi və onlar da güclü vəcdə və şövqə gələrək dövrə vurmaqla dünya fikirlərindən uzaqlaşmağa çalışardlar. Bir dəfə gecə səmasının icra edilməsindən ətrafdakılar da xəbər tutur və çoxları dərhal Şeyx Səfiəddinin zaviyəsinə axışır ki, Şeyxin içtirakı ilə icra edilən belə bir müqəddəs mərasimin şahidi olunlar. Hekayət edilir ki, həmin səma ayini elə bir hərarətlə icra edildi ki, hətta tavandan asılmış qəndil (çil-çıraq) da qopub yerə düşdü. Bu qəndilin işıqları yağa batırılmış fitildən

qaynaq alırdı. Bildirilir ki, Şeyx Səfiəddinin kəramətindən bu böyük qəndil tavandan qopub yerə düşsə də onun yağı dağılmadı və piltələr işıq verməkdə davam etdi (176).

Şeyx Səfiəddin öz zaviyəsindən kənarda, başqa məntəqələrdə səma icra edərkən də həmin hərarət və coşqu ilə nümayiş etdirirdi və onun coşqusu ətrafdakıları da öz ağuşuna alardı. Səma icrası zamanı Şeyx Səfiəddin bütün varlığı ilə dünya qayğılarından və maddilikdən uzaqlaşar və Tanrı ziyası ilə könlünü bütünlüklə Haqq sevginə bağlayırdı. Bu zaman o elə bir vəcdə gəlirdi ki, tamamilə öz batini aləminə qapanar və Haqqa qovuşardı. "Sərav şəhərində bir məsciddə kim, Xacə Əfzəlün zaviyəsi eşigində idi, bir səma vaqe oldu. Çün həzrət Şeyx mübarək qədəmini səmaə gətürdi, şəhərdə bir zəlzələ düşdi kim, çox kimsələr evlərindən dışra çıxdılar. ...Əmadəki adamlar görərdilər kim, məscidün divarları öz yerindən qopub, Tanrınun nuri məşəlləri şölə urmış idi. ...Və anlardan kim, səma çağında evlərindən dışxaru düşmüşdilər, birisi Quşçi Əmir Cəmaləddinün xatuni idi və çün köyün başına gəldi və bir əzim ün ilən qovğa avazı qulağına gəldi, ol ünün ardına vardı, ta Xacə Ziyaəddinün məhəlləsinədək yetdi. Anda sordı kim, bu nə halət ilə sur və qovğadur kim, kimsənün yürəgi ilə qüvvəti öz yerində qalmadı?" Dedilər: "Şeyxdür kim, səma ilə vəcddədür". Dedi: "Yol veriniz, ta mübarək cəmalını doyunca görəyim". Məscidin dəhlizinədək gəlüb durdı və Şeyxün cəmalına və səma etdügünə baxa qaldı, amma həman kim gözi Şeyxə düşdi, həzrət Şeyx səmadan durub oturdı. Xadimlər çün Şeyxün qaidəsi ilə adabı bilürdilər kim, qaçan kim bir naməhrəm Şeyxi səmada ikən baxa qalur, həzrət Şeyx vilayət nuri ilə məlum edüb oturur. Pəs damun yuxaru ilə aşağasına baxub təhəffüslər etdilər, evün dəhlizində ol övrəti durmuş gördilər, ana dedilər: "Mundan dışxaru çıx". Övrət dedi: "Neşün?" Dedilər: "Anun içün kim, həzrət Şeyx vilayət nuri ilən məlum etdi kim, bir naməhrəm ana baxar və hal ilə vəqti ana şuridə olub səmadən durdı". Ol övrət dışra çıxdı və öz-özi ilən fikir qıldı kim, əgər bu səma nəfsani olsa idi, naməhrəmün nəzərində artar idi. Çün Tanrılık səmasidür, naməhrəmün nəzərindən məstur gərəkdür".

Sadiq etiqad ilən mürid oldı, danlası bir qalın yeməklər bişürdi və həzrət Şeyxi (q.s.) qonağlayub Əhmədabadun hissəsi kim, anun mülki idi, həzrət Şeyxə pişkəş etdi və həzrət Şeyx Xacə Əfzələ bağışladı" (177).

Bu sətirlərdən aydın olur ki, səma zamanı Şeyx Səfiəddin nə dərəcədə vəcdə gəlsə də naməhrəm gözün onu müşahidə etməsini dərhal bilirdi və səmasını dayandırırdı. Eyni zamanda o da məlum olur ki, səma icra edilərkən bu mərasimin sədası və ünü xeyli uzaqlara da yayılırdı və insanlar bilirdilər ki, bu səda Şeyx Səfiəddinin vəcdə gəldiyi səmanın sədasıdır.

"Səfvətüs-səfa"nın hekayətlərindən məlum olur ki, Şeyx Səfiəddin öz xəlvətini tərk edəndə müridləri və talibləri onun səma icra edəcəyinə əmin imişlər. Bir qayda olaraq Şeyx Səfiəddin xəlvətdən sonra səma icra edərmiş. Səma icrasına başlamaq üçün qəvvallar da onun çox xoşladığı sufi beytləri səsləndirərmişlər. Məlumata görə, Şeyx Səfiəddinin səma icrasına başlamaq üçün xoşladığı qəzəllərdən biri bu beytlə başlayırmış:

Biyar badə ki, dirist dər xomar-e toəm
Əgərçe dəlğkeşanəm, nə yar-e ğar-e toəm
(Badəni gətir ki, çoxdandır sənə xumar olmuşam
Dərviş köynəyi geysəm də, sənin mağaranın yarı deyiləm).

"Səfvətüs-səfa" əsərində bu beytin açması verilməmişdir. Şübhə yoxdur ki, bu beyt irfani bir beytdir və bu beytdə ya Tanrının, ya da islam peyğəmbərinin sifətləri ilə bağlı konkret hadisə və ya hal ifadə olunmuşdur. Əks təqdirdə, Şeyx Səfiəddin bu beytin şövqündən vəcdə gəlməzdi. Bir dəfə öz adətincə Şeyx Səfiəddin xəlvətdən çıxanda taliblər və müridlər belə güman etdilər ki, indi səmanın icrasına başlanacaqdır. Ona görə qəvvallar hazır olub Şeyx Səfiəddinin qəbul etdiyi beytləri səsləndirməyə başladılar. Amma gözlənilənin əksinə olaraq Şeyx Səfəddin səma icrasına başlamadı və bir müddətdən sonra o geri dönüb yenidən öz xəlvətinə qayıtdı. Bunun nə ilə bağlı olduğu kimsəyə bəlli olmadı. Amma görünür, zaviyəyə toplaşanlar hiss edirlərmiş ki,

Şeyx Səfiəddin durumu səma durumudur və ona görə bir qədərdən sonra müridlərdən biri yuxarıdakı beytin ilk misrasını bir qədər fərqli şəkildə səsləndirdi:

Biyar badə ki, omrist dər xomar-e toəm
(Badəni gətir ki, bir ömürdür sənə xumar olmuşam)

Bildirilir ki, bu misranı eşidincə Şeyx Səfiəddin cuşa gəldi, xəlvətxanadan çıxıb hovuzxanaya yollandı və səma icrasına başladı. Yenə əvvəlki coşqu və hərarətlə səma icrasına başladı. Təliblər və müridlər Şeyx Səfiəddinin səma icrasının hansı hərarətlə keçdiyinə bələd idilər və onun hərarəti müridləri də səma icrasının ağuşuna alardı. Beləliklə, zaviyədə olanlar da Şeyx Səfiəddinlə birlikdə səma icrasına başladılar. Həmin gün bir bayram günü olsa da, havanın dumanı və yağışı zaviyyənin həyətini yaş hala gətiribmiş və xəlvətsarayın qarşısına torpaq tökülərmiş ki, adamlar palçığa batmadan rahat hərəkət edə bilsinlər. Bu torpaq isə təmiz torpaq deyilmiş. Onun içində daş-kəsək, sümük və şüşə qırıntıları və digər əşyalar var imiş. Şeyx Səfiəddin də, onun talib və müridləri də ayaqyalın bu torpaq üzərində səma icra edərək dövrə vururlarmış. Şeyx Sədrəddin bildirirmiş ki, bu səmanın icrası zamanı da Şeyx Səfiəddin çox güclü vəcdə gəlmişdi və dövrə vurarkən az qala ayaqları da yerdən üzülərdi. Səma icrası bitəndən sonra güman edilir ki, bu sürətli hərəkətlər zamanı Şeyx Səfiəddinin ayaqları daş və kəsəkdən müəyyən zədələr görə bilərdi. Ona görə Şeyx Sədrəddin və yanındakılar aftafa və ləyənlə Şeyx Səfiəddinin xəlvətinə yollanırlar ki, onun ayaqlarını yusunlar. Şeyx Sədrəddin danışarmış ki, səma icra edən digərlərindən fərqli olaraq Şeyx Səfiəddinin ayaqları sağ-salamat idi, onlara heç bir zədə dəyməmişdi. Onun sözlərinə görə, səma icra edənləri mələklər də qoruyurdular və onlar öz qanadlarını açaraq səma edənlərin əllərini, ayaqlarını yad xətərlərdən hifz edərdilər (178).

Şeyx Səfiəddinin vəcdə gələrək səma icrasına başlaması onun eşitdiyi ilahi və ibrətmiz söhbətlərin təsirindən də baş verə bilərdi. Belə hallar çox tez-tez baş verirdi. Xüsusilə, təsəvvüf

ariflərinin söhbətlərinin məzmunu, onların ilahi ruhu Şeyx Səfiəddində daxili bir coşquya yol açırdı. "Səfvətüs-səfa" hekayətlərindən birində bu barədə danışılır. Şeyx Sədrəddin danışırmış ki, bir dəfə Şeyx Səfiəddin Təbrizdə olarkən Xacə Rəşid məscidində namaza yollanır. Təsadüfən həmin vaxt dövrün tanınmış və məşhur vəzirləri Sultan Yəsir, Rəşidli Xacə Qiyasəddin, habelə dövrünün böyük arifləri Seyyid Əbri, Çarpərdli Mövlana Fəxrəddin, Mövlana Qütbəddin, Şəbankarəli Mövlana Hüsaməddin, Təbrizin elm və bilik sahibləri bu namazda iştirak edirlərmiş. Şeyx Sədrəddinin sözlərincə, bu namazda iştirak edən bilik sahibləri dəniz qədər böyük biliklərə sahib idilər. Namazdan sonra bu bilik adamları ilahi söhbətlərə başlayırlar. Mövlana Şəmsəddin Tutinin təşəbbüsü ilə "Quran"ın Ənkəbut surəsinin 41-ci ayəsinin təfsiri bu söhbətlərin mövzusuna çevrilir. Həmin ayədə deyilirdi: "Allahdan başqa özlərinə dost qəbul edənlərə bənzəyirlər". Bu ayənin mənası belə idi ki, Allahdan başqa digərlərinə pənah aparmaq və ümid etmək hörümçək toruna arxalanmağa bənzəyər. Yəni çox zərif olan hörümçək toru adamı nə istidən qoruyar, nə də soyuqdan. Kiçik bir çöpün toxunması ilə isə bu tor xarab olub gedər. Sonra söhbət iştirakçıları konkret nümunəyə müraciət etdilər. Bildirdilər ki, hər kəs öz işini düzgün və möhkəm qurmalıdır. Onların fikrincə, əgər bir qaranquş bir evin eyvanında yuva qursa, ancaq həmin yuvada yumurta qoyub bala çıxarmasa ev sahibi sözsüz ki, həmin yuvanı dağıdar. Çünki qaranquş evi zibilləməkdən başqa bir iş görmürdü və ev sahibi də razı olmazdı ki, heç nədən hər gün evin eyvanı zibillənsin. Amma bunun əksi də ola bilərdi. Əgər qaranquş tikdiyi yuvada yumurta qoyub bala çıxarsaydı və onun böyüdülməsi ilə məşğul olsaydı, onda onun yuvasının uçurulması düzgün olmazdı. Qeyd edilirdi ki, yuvası uçurulmuş qaranquşun balaları uçmuş yuvalarını tərk edib sultanların köşklərinə qonarlar. Bu sözlər Şeyx Səfiəddinə təsir etdi və ixtiyarsız olaraq qalxıb səma icra etməyə başladı. "Səfvətüs-səfa" əsərindəki təsvirdən və məclis iştirakçılarının sözlərindən aydın olur ki, belə bir səma heç görünməmişdi. Şeyx Səfiəddin son dərəcə böyük bir coşqu və hərarətlə bu səmanın icrasına

başladı və çoxlu sayda insanı da öz hərarətinin ağuşuna aldı. “Səfvətüs-səfa” əsərində Şeyx Səfiəddinin bu səmanın icrasına qalxması belə təsvir olunmuşdur: “Həzrət Şeyx çün bu mənayi eşitdi, ixtiyarsız bir nərə andan çıxdı kim, bir saətədəkin anun sədası qulağlarda baqi idi və din ilə dünyanun əshabı kim, anda hazır idilər, qamu sərasimə olub heyranlığ yabanında mütəhəyyir qaldılar. Pəs Şeyx qalxub səmaə vardı və məscidin içindəki qamu təfərrüc etməgə hücum eylədilər və əzbəs kim qələbəliğ oldı” (179).

Yalnız məsciddəkilər deyil, məscidin ətrafından da xeyli sayda insan bu səma icrasına qoşuldu. Səma iştirakçılarının sayı o qədər artdı ki, onların gəlməsinin qarşısını almaq da çətin oldu. Bu zaman Rəşidli Xacə Əmir Əhməd istədi ki, səma üçün gələnləri nizamlasın, onları istiqamətləndirsin. Lakin Şeyx Səfiəddinin şövqinə səma üçün gələnlərin sayı o qədər çox idi ki, onların qarşısını saxlamaq mümkün olmadı. Hətta Xacə Əmir Əhmədin özü bu gələnlərin ayaqları altında qaldı və onu çox çətinliklə kütlənin ayaqları altından çıxarmaq mümkün oldu. Xacə Əmir Əhmədin fikrincə, baş verənlər Tanrının iradəsi ilə cərəyan edirdi, əgər dövrün padşahları və vəzirləri çalışsaydılar da onların ətrafında belə bir qələbəlik yarana bilməzdi. Sonra təsvir edilir ki, insanlar elə bir istəklə səma icrasına başladılar ki, onların çoxu bu dünyadan qopmuş və batini aləmlərinə qovuşmuşdular. Kimsə artıq özündə deyildi. Bildirilir ki, bu məclisdə Seyyid Bürhanəddin adlı bir arif də iştirak edirdi və bu arif insan təsəvvüfə çox da bağlı deyildi. Yəni təsəvvüfə və səma icrasına dərin etiqadı olmayan bir arif idi. Amma səma iştirakçılarının vəcdi, şövqü və coşqusu o dərəcədə təbii və yüksək idi ki, Seyyid Bürhanəddin də göz yaşlarını saxlaya bilməmişdi. O da baş verənlərin Tanrı sevgisi ilə baş verdiyinə şübhə etmirdi. Bildirilir ki, Seyyid Bürhanəddinin göz yaşlarını saxlaya bilməməsi məclisdə iştirak edən digərlərinin də göz yaşının axmasına səbəb oldu. “Səfvətüs-səfa”nın yazdığına görə, Şeyx Səfiəddinin belə səma icrası bu ayinə meyilli olmayanların da heyrətinə səbəb oldu və həmin mərasimin səsi-sədası xeyli uzaqlara da yayıldı (180).

Məclisdə iştirak edən bilik adamları və ariflər də bu heyranlığı yaşadılar. Cərəyan edənlərin təsirindən uzun müddət uzaqlaşa bilməyənlərə müraciətlə Şeyx Səfiəddin dedi ki, insan gərək öz məqəsdinə doğru qətiyyətli şəkildə irəliləsin. O əlavə etdi ki, bir şahin quşu havada bir ov görsə, gərək bütün diqqətini həmin ov üzərində cəmləsin və ona doğru uçsun. Əgər bu zaman onun gözünə başqa bir ov görünsə və diqqətini həmin ova tərəf istiqamətləndirsə, onda həm birinci ovdan qalar, həm də ikinci ovdan. Şeyx Səfiəddinə görə, talibin könlü də gərək öz məqsədinə doğru istiqamətlənə və məqsədinə yetişməyincə rahatlıq tapmaya: "Həm böylə çün könül məqsud seydinün ardına düşə, gərək kim, yolda özgə nəstələrə mültəfit olmayub öz məqsudi ələ gətirməyincə toxtamaya" (181).

Yuxarıda qeyd edildiyi kimi, səma məclislərinin icrası üçün xüsusi qəvvallar var idilər. Onların da Şeyx Səfiəddinin səma icra etməsi haqqında bəzi xatirələri "Səfvətüs-səfa" əsərində saxlanmışdır. Şeyx Səfiəddinin xidmətində olan qəvval Fərrux Qəvval danışardı ki, bir dəfə Şeyx Səfiəddinin zaviyəsinə getmişdi və onunla görüşmək istəyirdi. On beş gün intizar çəksə də Fərrux Qəvval onunla görüşə bilməmişdi. Belə olanda Fərruz Qəvval öz evinə qayıdır. Evinə yetişincə kiminsə onu səslədiyini eşidir və məlum olur ki, Şeyx Səfiəddin bir nəfəri onun ardınca göndəribdir. Fərrux Qəvval yenidən qayıdır Şeyx Səfiəddinin yanına və onu çox zəif bir halda görür. Bununla belə Fərrux Qəvval yetişincə ondan ilahi beytlərdən səsləndiməyi, yəni səma icrasına başlamağı xahiş edir. Fərrux Qəvval da belə bir beyt səsləndirir:

Gəlübdür sayrusi üsnə həkimi-İsəvisirət
Yüzinə əllərin sürtər, ümmid ol kim, bula səhhət.

Beytin mənası belə idi ki, İsəvisurət həkim öz xəstəsi üstünə gəlibdir. O, əllərin onun üzünə sürtər və ümid edər ki, sağalsın. Heç şübhəsiz ki, Şeyx Səfiəddin bu sətirlərin arxasında başqa mənaları da tapmışdı və ona görə də bu beyti eşidincə zəif olmasına baxmayaraq dərhal səma icra etməyə başladı (182).

Yəni Şeyx Səfiəddin səma icra edilməsinə belə bir əhəmiyyət verirdi.

Ərdəbil ətrafında yerləşən Bərniq kəndində də Həsən adlı bir qəvval yaşayırmış. Bir dəfə Şeyx Səfiəddin Sultaniyyədən gəlirmiş və ətraf kəndlərin adamları bundan xəbər tutanda onu Bərniq kəndi ilə Bərayiq kəndi arasında qarşılayırlar. Həsən də bu qarşılayanlar arasında olur və Şeyx Səfiəddini görəndə bu beyti oxuyur:

Budur can qarşudə, mundə dəgülsən
Çü yoxsan candə, söylə nərədəsən?

Şahidlər bildirirlər ki, bu beyti eşidən kimi Şeyx Səfiəddinin qəlbi cuşa gəldi və dərhal səma icrasına başladı. Şeyx Səfiəddin və onun ətrafına toplaşmış sufilər böyük bir şövqlə səma icrasına qatıldılar. Bir müddətdən sonra qəvval Həsən dünyasını dəyişir. Bərniqdən olan Pirə Seyfəddin adlı bir mömin yuxularının birində qəvval Həsəni cənnətdə görür və ondan soruşur ki, sən elə də mömin bir insan deyildin, amma cənnətə düşmüsən. Bunun səbəbi nədir? Qəvval Həsən də Şeyx Səfiəddinin iştirakı ilə keçən səma məclisini xatırladaraq deyir ki, həmin gün Şeyxə o beyti oxuması və Şeyxin xidmətində olması Tanrı dərgahında yüksək qiymətləndirildi və o, cənnətə layiq görüldü: "Dedi: "Filan gün ki, həzrət Şeyx içün ol beyti oxudum və Şeyx səma eylədi, Allah-təala məndən bəgəndi və suçlarumı qamu bağışladı". Andan sonra Pirə Seyfəddin Şeyxün (q.s.) qulluğına gəlüb gördügi vaqiəni ərz etdi. Həzrət Şeyx buyurdı: "Bəli, ol gün Həsən ol gərçək sufilərə bir zövq yetürdi, Tanrı-təala anı qəbul məhəllinə gətürüb suçların qamu bağışladı" (183).

"Səfvətüs-səfa"nın məlumatına görə, Şeyx Səfiəddinin zaviyəsi, sonradan isə onun türbəsi Şeyx Səfiəddinin səma etdiyi məkanda salınmışdı. Bu səma icrası onun hələ Ərdəbilə yığışmasından əvvəl baş vermişdi. Bir dəfə Şeyx Səfiəddin Ərdəbili gəzirmiş. Şəhər gürcü qoşunlarının hücumundan sonra dağılıb pis günə qalıbmış. Şəhər divarlarının uçulmuş bir yerində bir qəvval

oturaraq Şeyx Əttara məxsus bir qəzəl oxuyurmuş. Şeyx Səfiəddin bu qəzəli eşidincə şövqə gəlir və elə oradaca səma icra edir. Şeyx Sədrəddinin dediyinə görə, həmin məkana Tanrı feyzi də yetişdi və bunun üçün idi ki, Şeyx Səfiəddinin zaviyəsi də həmin məkanda tikildi. Amma Şeyx Səfiəddin şəhərin başqa məkanlarında özünə ev tikmək istəyibmiş. Məsələn, əvvəlcə Ərdəbilin aşağı darvazası yaxınlığında ev üçün başladığı tikinti bir nəticə verməir. Sonra Şeyx Səfiəddin istəyir ki, şəhərin Səəd bağında bir mülk düzəltsin. Amma burada başlanan iş də bir nəticə verməir. Nəhayət, Şeyx Səfiəddin səma icra etdiyi yerdə ev və zaviyə tikintisinə başlayır və öz məqsədinə də yetişir. Məlumdur ki, Şeyx Səfiəddinin türbəsi də elə yaşadığı məkanda tikilmişdir. Şeyx Sədrəddin bu barədə belə deyirdi: "Və ol yerdə ki, Şeyx (q.s.) anda səma qıldı və buyurdı kim, ol Tanrı feyzi kim, mənüm könlümdə endi, bir nəsib dəxi ol mənzilə yetdi, ol məqamdur kim, imdi həzrət Şeyxün münəvvər mərqədi və məüttər məşhədi andadur kim, ümidlülərün qibləsi və cəhanun əmanı Kəbəsi və dinin cəmiyyəti və səfanun asarı qiyamətədəkin bu məqamdan zahirdür" (184).

Şeyx Səfiəddinin Ərdəbildə ilkin icra etdiyi səmalardan birinin məkanında inşa olunmuş Şeyx Səfi türbəsini onun oğlu və təriqət varisi Şeyx Sədrəddin ümidli insanların qibləsi, dünya əmin-əmanlığının Kəbəsi, dinin cəmiyyəti və səfanın əsəri kimi qiymətləndirirdi. Onun fikrincə, bu məkanın feyzi Tanı lütfi ilə Şeyx Səfiəddinin orada icra etdiyi səmadan sonra yaranmışdı.

### 5. Şeyx Səfiəddinin nəsihətləri

"Səfvətüs-səfa" əsərinin fəsillərindən (dördüncü bab, beşinci fəsil) birində Şeyx Səfiəddinin nəsihətlərindən danışan hekayətlər toplanmışdır. Bu fəsil həcmcə çox da böyük deyil və Şeyx Səfiəddinin nəsihətlərinin və ibrətamiz fikirlərinin yalnız bu fəsildə toplandığını söyləmək də doğru olmazdı. Şeyx Səfiəddinin bütün həyatı, fəaliyyəti, söylədikləri və davranışı ibrətamiz məzmun üzərində qurulmuşdu və ona görə onun nəsihətlərinin

hansısa hekayətlərlə məhdudlandırılması doğru olmazdı. Bütünlükdə, onun toxunduğu, haqqında danışdığı bütün məsələlərdə nəsihət və ibrətamiz fikirlər tapmaq mümkündür. Amma onun nəsihətlərində, ibrətamiz fikirlərində bir aparıcı xətt, bir mahiyyət var idi – tövhid, Haqqın təkliyinə inam və iman, maddi dünyanın faniliyinə və Haqq dünyasının əbədiliyinə etiqad. Şeyx Səfiəddin maddi dünyanı Haqq dünyasına bir hazırlıq mərhələsi kimi qəbul edirdi və ona görə də deyirdi ki, diriliyim ölümümdədir, ölümüm diriliyimdədir (bu barədə yuxarıda danışılmışdır). Onun irşadının, tərlim-tərbiyəsinin, nəsihətlərinin mərkəzində məhz tövhid və Haqq dünyası, tövhidlə Haqq dünyasının qazanılması üçün zəruri olan dini-əxlaqi dəyərlər dayanırdı. Şeyx Səfiəddinin etiqadına görə, insanlar bütün işlərində, həyatlarında bu cəhəti əsas tutmalı idilər: "Yaxşılar bir əməl kim, edərlər, əgərçi Tanrı-təala içün edərlər, amma axirətün səvabı ümidi içün qılurlar... Və Tanrıdan özgə heç nəstəyə baş endürməzlər" (185).

Şeyx Səfiəddin şübhə etmirdi ki, təriqət dəyərlərinin mahiyyətində də insanın tərbiyələndirilməsi və onun Haqq yoluna çəkilməsi dayanırdı. Ona görə təriqət dəyrləri ilə bağlı Şeyx Səfiəddinin irəli sürdüyü fikirlər də onun nəsihətlərinin əsasını təşkil edirdi. Onun nəsihətlərində qabarıq xətlə özünü göstərən məqamlardan biri bu idi ki, insan əvvəlcə özü-özünü tanımalı və sonra maddi və batini dünyada öz yerini axtarmalı idi: "Həzrət Şeyx (q.s.) dedi ki, bizdə kəşf ilə kəramat və himmət ilə qədəm var. Və kəşf oldur ki, kişi öz eybinə və hünərinə görüci ola və içindəkinə bilici ola. Və kəramat oldur ki, batinindən əlayiqi görə və öz könli mücərrəd eyləyə. Və qədəm oldur ki, özündən ayağ dışarı basa və özündən dışarı bir səfər eyləyə və məqsəd ilə məqsudinə yetə. Və himmət oldur ki, başı Tanrıdan özgəyə iki aləmə endürməyə. Pəs, bu kəşf ilə kəramat və qədəm ilə himmətdür kim, Tanrıya məşğullıkdur" (186).

Şeyx Səfiəddinin nəsihət və tərbiyəyə aid münasibətini xarakterizə edə biləcək başqa fikirləri ilə də rastlaşmaq mümkündür. Yuxarıda da toxunulmuş olan həmin fikirlərdən biri belədir: "Həzrət Şeyx (q.s.) buyurdı kim, mücahidət cəhd eylə-

məkdür və gövdə ilən Tanrı-təalanun ibadətinə və nəfsün müxalifətinə riyazət çəkmək, Həqq-təalanun rizayi ilən deyə bilmək və həzrət Peyğambər ilə vəsinün şəriətinə baş endürmək və anlarun buyurduğı sidq ilə əmələ gətürmək və könül iyəsinin rizasın saxlamaq. Və riyazət yemək ilə içməgün tərkin etmək dəgül, bəlkim oldur kim, Tanrı ilə Peyğambəri və vəsiyyi və şeyxi ki, tərbiyətün atasıdur, rizalarını saxlaya" (187).

Bu cümlələrdə Şeyx Səfiəddinin nəsihətlərinin və insan tərbiyəsinin əsas istiqamətlərini daha aydın şəkildə görmək mümkündür. Burada da insanın əvvəlcə özü-özünün tanıması fikrinin ifadəsini görmək mümkündür. Təriqətdə və təsəvvüfdə insanın riyazət çəkməsi insanın özü-özünü tanıması, Haqqa doğru addımlaması üçün istifadə olunan əsas üsullardan biridir. Şeyx Səfiəddinə görə, insan özünü tanımaqla Tanrısına yol tapmalı, onu tanımalı, islam peyğəmbərinin şəriətinə baş endirməli, ona riayət etməli və şeyxinin ehtiramını saxlamalı idi. Şeyxə, mürşidə inam və ehtiram, məlum olduğu kimi təriqətin mühüm məqamlarındandır. Yuxarıdakı cümlələrdə də Şeyx Səfiəddin bunu bir daha xatırladırdı və şeyxə ehtiram onun nəsihətlərinin də mərkəzində dayanırdı. Çünki insanın özü-özünü tanımasında, Tanrısını tanımasında, peyğəmbər şəriətinə vaqif olmasında və ona riayət etməsində şeyxin istiqamətverici rolu əvəzsiz idi. Bir çox hallardan sadalananlara vaqif olunması şeyxsiz (mürşidsiz) qeyri-mümkün sayılırdı. Bunu Şeyx Səfiəddin özü də qəbul edirdi və bəyan edirdi ki, yalnız məşayix (şeyxlər) ilə könül sahibləri Tanrının sirlər xəzinəsinə yetişə bilirlər (188). Onun başqa bir fikri isə belə idi ki, insanın könlü məşayixin tərbiyəsi ilə Tanrı tövhidində dirilmiş olur (189).

İnsanların tərbiyəsinin əsasını isə Şeyx Səfiəddin günah sayıla biləcək hər cürə əməldən çəkinməkdə görürdü. Onun fikrincə, hər bir insan "işi və ibadəti riyadan pak eyləyə və andan pəhriz edə və nəfsün məkrindən eymən (qafil) olmaya" (190).

Nəsihətlər adı altında toplanmış hekayətlərdə daha çox söz və əməl birliyinin vəhdəti ifadə olunmuşdur. Söz və əməl birliyi bu hekayətlərdə insanın öz inamına etiqadının ifadəsi, Tanrı

sevgisinin insan batinində əvəzsiz bir sevgiyə çevrilməsi, təlim ilə əməl arasında müxtəlifliyin olmaması, insanın fəaliyyətinin daxili inamla şərtlənməsi kimi öz əksini tapmışdır. Şeyx Səfiəddinə görə, mürid və talib tövbə edib təriqət yolunu tutursa onun sonrakı həyatı bu tövbə üzərində qurulmalı və davam etməli idi. Tövbə insanın bütün varlığını və həyatını, zahiri və batini dünyasını əhatə etməli idi. Şeyx Səfiəddinə görə, "Quran"i-Kərimdə də təlqin olunan "siratəl-müstəqim" (düz yol) Haqqa aparan yolda insanın zahiri və batini vəhdətinin bir ifadəsi idi. Şeyx Səfiəddinin söz və əməl vəhdətinə aid olan nəsihətləri həm talib və müridlərə, həm də təriqət yolunda riyazət çəkmiş və müəyyən mərtəbələrə yetişmiş möminlərə eyni dərəcədə şamil edilə bilər.

Bir dəfə Şeyx Səfiəddinin yanına bir şeyxzadə gəlir və qeyri-təvazökarlıq göstərərək özünü onun yanında tərifləməyə başlayır. Həmin şeyxzadə deyir ki, şeyxlərin yazdıqları altmış cild kitabı oxuyub və artıq alim olubdur. Yəni o özünü Şeyx Səfiəddinin yanında alim kimi göstərir. Şeyx Səfiəddin isə alimliyi hələ lazımınca kəsb etməmiş və alimlik mərtəbəsinə yüksələ bilməmiş birisinin belə belə söhbətlər etməsindən heç də xoşlanmır. Xüsusilə, ona görə xoşlanmadı ki, özünü tərifləyən şeyxzadənin biliyi ilə əməli arasında bir əlaqə görmür. İradını ona çatdırmazdan əvvəl Şeyx Səfiəddin bir hekayət danışır. Həmin hekayətin məzmunu belə idi ki, bir dəfə bir padşah gəzintiyə çıxarkən bir dükanın yanında dayanır və dükan sahibinə tapşırır ki, ona möhkəm bir ağacdan uzun bir ox düzəltsin. Özü də elə bir ağac növü deyir ki, ondan qısa zaman ərzində uzun bir ox yonmaq mümkün deyildi. Bu fikir onu alıb aparır ki, nə etsin, padşahın xoşuna gələ biləcək oxu necə düzəltsin. Elə bu fikrin girdabında olanda bir nəfər ona yaxınlaşır və kefsiz olmasının səbəbini soruşur. Dükan sahibi də məsələni açıb ona danışır. Həmin adam ona deyir ki, əvvəlcə şəhərdən böyük və tarım çəkilmiş bir kaman tap, sonra isə padşahın dediyi oxa oxşar bir ox yon, hazırla. Padşah səndən ox istəyəndə, əvvəlcə kamanı ona ver, sonra da oxu. Dükançı belə də edir və padşah yenidən onun dükanına yaxınlaşıb sifariş etdiyi oxu istəyəndə əvəvlcə kamanı ona

verir, sonra da oxu. Padşah qəzəblənib yalnız ox sifariş etdiyini bəyan edəndə, dükançı bildirir ki, kamansız ox nəyə lazımdır. Ox isə kamana görə yonulmalıdır. Padşah nə qədər edirsə, ona verilmiş kamandan dükançının yonduğu oxu ata bilmir. Ona görə Şeyx Səfiəddin özünü tərifləyən şeyxzadəyə də belə bir cavab verir ki, şeyxlərin, mürşidlərin yazdığı kitabları oxumaq asandır. Əsas məsələ oxunanları həyata keçrimək, sözlə əməl birliyini yaratmaqdır (191). Yəni Şeyx Səfiəddin hətta kifayət qədər bilikli olan möminlərə də çatdırırdı ki, bilik o zaman dəyərlidir ki, bu bilik əməli həyatda insanların xeyri üçün öz ifadəsini tapır.

Alimin sözü ilə əməlinin vəhdət təşkil etməməsini və biri-digərini tamamlamamasını Şeyx Səfiəddin, yuxarıda qeyd edildiyi kimi, həkim-xəstə münasibətlərinə də bənzədirdi. O bildirirdi ki, xəstə tutulduğu xəstəlikdən qurtulmaq istəyirsə həkimin yazdığı reseptə uyğun  əməl etməlidir. Yox, əgər xəstə həkimdən resept almaqla kifayətlənib, reseptdə göstərilənlərə əməl etməyəcəksə, onda həkimdən eşitdiklərinin bir faydası olmayacaqdır. Bu müqayisənin məntiqi nəticəsi kimi, Şeyx Səfiəddin bəyan edirdi ki, alim bildiyini, yəni sözünü əməlində əsas tutmursa, bu bilik onun daxilində gərəksiz bir məzmun kimi örtülü qalıb bir faydaya malik olmayacaqdır (192).

Söz və əməl birliyinin pozulmasının göstəricisi kimi, Şeyx Səfiəddin bir çox qazıların fəaliyyətini göstərirdi. Qazılar o insanlar idilər ki, şəriət məhkəmələrini öz üzərlərinə götürmüşdülər. Yəni onlar haqq və ədaləti qorumalı və insanları da bu yola dəvət etməli idilər. Dəvət etməyinə, onlar insanları haqq yoluna dəvət edirdilər. Lakin əməlləri ilə özləri bu haqq yolundan çıxırdılar və insanlara da dediklərinə uyğun gəlməyən bir əməli nümunə göstərirdilər. Qazıların belə hərəkətlərinin doğru olmamasını Şeyx Səfiəddin misala istinad etməklə belə açıqlyırdı: "Əgər xadim bir çanağ təam götürüb deyə kim, zinhar, mundan yeməyəsiniz kim, bir ağulu əqrəb muna düşübdür və munun yedügi məzərrət yetürür və qamu kimsələri anun yedügindən mən[n] eyləyə, amma özi oturub ol yeməkləri yeyə və əsla andan pərhiz etməyə, görənlər anun ismarladugi andan inanalar, ya yox

və deməyələr kim, əgər gərçək der ki, muna əqrəb düşübdür, özi neşün yeyər? Pəs, məvali xəlayiqi haram lügmələrdən mən[n] edərlər və özləri yeyərlər, xəlq deməsünlər kim, əgər gerçək derlər, neşün özləri yeyərlər?” (193).

Bununla, Şeyx Səfiəddin bütün taliblərinə və müridlərinə, habelə ətrafındakılara bir daha bildirmək istəyirdi ki, insanın nəfsinə qarşı mübarizəsi, xüsusilə taliblərin və müridlərin nəfsinə qarşı mübarizəsi kamil olmalıdır, bu mübarizə ikili xarakter daşımamalıdır və nəfsinə hakimliyi üçün ilk növbədə hər bir insan özü-özlüyündə daxili məsuliyyət daşımalıdır. Yəni insan özü-özünü aldatmamalıdır ki, bu da insanın özü-özünü tanımasının mühüm şərtlərindən biri idi.

Şeyx Səfiəddin öz nəsihətlərində bəyan edir ki, sufi sifətilə özünü xalqa tanıdan və başqalarını düz yola istiqamətləndirməyə çalışan, amma özlüyündə günah işlərlə məşğul olan, dediklərini özü icra etməyən insanlar qoyun sürüsünə hücum çəkmiş qurda bənzər. Kənardan baxanlar qurddan ehtiyat edib ona yaxınlaşmazlar, qurdda isə insaf olmaz və sürünü qırmağa davam etməklə öz işini görər (194).

Yuxarıda qeyd edildiyi kimi, Şeyx Səfiəddin arifliyi də bilikli (irfani) ilə əməllərin bir-birini tamamlamasında görürdü. Ona görə də, Şeyx Səfiəddin bir neçə kitab oxumaqla özünü arif kimi təqdim edən təbrizliyə də arifliyi öyrəndiklərini necə həyata keçirməkdə axtramağı nəsihət edirdi (195).

Şeyx Səfiəddin oğlu Şeyx Sədrəddinə də biliklərinin və əməlinin vəhdətinə nail olmağı nəsihət edirdi. Təriqət biliklərinin öyrənilməsi ilə bağlı isə, Şeyx Səfiəddin nəsihət edirdi ki, sufi gərək əvvəlcə təriqətin zahiri tələblərini yerinə yetirsin və sonra da kəsb etdiyi biliklərlə onların mahiyyətinə nüfuz etsin. Qüşeyrinin risaləsinin mütaliəsi ilə məşğul olarkən Şeyx Sədrəddin atasından belə bir nəsihət aldı: “Əvvəl riyazət çəkubəni dərvişlərin müamilələri hasil etmək gərək, sonra bu məqalatlar mütaliə qılmaq gərək, ta faidələr verə və kəndü etdüklərün müamilələri ol risalələrdə görəsən və məqamunun keyfiyyətlərin məlum eylə-

yəsən. Və əgər ol məqalatun risalələri mütaliə eylərsən, ol müamilələri hasil etmədən faidə verməz və işdən qalursan" (196).

Göründüyü kimi, burada Şeyx Səfiəddin əməlin sözdən, praktikanın nəzəriyyədən əvvəl gəlməsini nəsihət edir. Bu heç də təsadüfi deyil və həmin məqam təriqətin xüsusiyətləri ilə bağlı idi. Şeyx Səfiəddin nəsihət edirdi ki, əvvəlcə praktikaya baş vurulsun ki, sonra nəzəriyyə öyrənilərkən bu nəzəriyyə daha yaxşı dərk edilsin. Bu nəsihət konkret hal üçün nəzərdə tutulmuşdur. Şeyx Səfiəddin nəzəriyyənin daha yaxşı anlaşılması üçün praktikanı əvvələ salmaqla, şübhəsiz ki, təsəvvüf yolçuluğunu nəzərdə tuturdu. Təsəvvüf yolçuluğu isə mütləq şəkildə mürşidin və ya şeyxin rəhbərliyi altında aparılırdı və onun rəhbərliyi altında praktika ilə nəzəriyyənin səmərəli əlaqələndirilməsi öz həllini tapırdı. Nəzəriyyəni bilmədən praktikada atılan addımlar mürşidin rəhbərliyi altında baş verirdi və nəzəriyyəyə əsaslanan mürşid də bilirdi ki, ilk praktiki addımlar necə qurulmalıdır və hansı şəraitdə onlar düzgün nəzəri qənaətlərə gətirib çıxara bilər.

Ona görə Şeyx Səfiəddin hər zaman müridin mürşidə itaətini tələb edirdi. Yəni mürid həm mürşidin iradəsini qəbul etməli, həm də onun öyüdlərini və təlimini qəbul etməli idi. Şeyx Səfiəddinə görə, müridlər nəinki mürşidlərinin təlimini və təlqinlərini qəbul etməli, eyni zamanda onları həyata keçirməyə borclu idilər: "Şeyx (q.s.) buyurdı kim, ol taliblərin məsələi kim, mürşiddən təlqin alalar və əmələ gətirməyələr, eylə ola kim, bir quyıqazıcı çox qazma satun ala, amma anlara heç iş buraxmaya və xatiri munun ilə xoş ola kim, mənüm bu qədər qazmam var. Əgər işləməsəm, əsbabum hazır durair, amma quyı qazan kişi gərək kim, həman kim qazma aldı, işə götürə və işlədə, ta anun səbəbi ilən bulağlar gözükə və arxlar axıda. Pəs, talib gərək kim, həman ki "La ilahə illəllah"un zikri təlqinin ala, ol qədər təkrar eyləyə kim, hikmət bulağı anun könlindən axa" (197).

Ona görə Şeyx Səfiəddin təriqət yolunun talib və müridlərinin tutduqları yol ilə ardıcıl və məqsədyönlü şəkildə addımlamalarını nəsihət və tələb edirdi. Onun söylədiklərinə görə,

müridlər yalnız şeyxin əlindən xirqə geyməklə kifayətlənməli deyildilər. Xirqə geymiş mürid bu xirqənin və onun xeyir-duasını verən mürşidin tələb etdiyi əməlləri yerinə yetirməsəydilər geyindiyi xirqə həmin müridə yalnız zahiri yaraşıq verər və axirt günündə onun köməyinə yetməzdi. Xirqə onu daşıyan şəxsə o zaman axirət faydası gətirə bilərdi ki, xirqəyə layiq də əməllər etmiş olsun (198).

Şeyx Səfiəddin söhbətlərində və nəsihətlərində hər zaman bu dünyada ona bəxş olunmuş möhlətin fövtə verilməməsinə, şeytan məkrlərinə aldanmamasına və əbədi dünyanın bu dünyada qazanılmasına çağırırdı. Onun sözlərinə görə, insanlar bu dünyada qəflətdədirlər, o biri dünyada isə həsrətdə. Yəni insanlar bu dünyada vaxtı fövtə verərək görməli olduqları əməlləri yerinə yetirmirlər, o biri dünyada isə bunu başa düşəndə artıq gec olur. Şeyx ”buyurdı kim, yerün üsti qəflətabaddur və yerün altı həsrətabad, yəni nə qədər kim yerün üstində nəfsün havası ilə məşğuldurlar, qəflətdən qalubdurlar, həman kim, yerün altına girərlər və əməlləri ilə nəfsün əfalı ana zahir olur, məlum edərlər kim, hangı nemətdən məhrum qalubdurlar. Pəs, həsrəti həsrətinə artar”(199).

Şeyx Səfiəddin bu mənada özünü aqil hesab edən insanlara fürsəti fövtə verməmyə çağırırdı. Onun nəzərində hətta təriqət yolunu tutan və müəyyən mərtəbələrə çatan möminlər də əməllərinin fərqinə baxmadan cahil saydıqları insan qədər özlərinə bu dünyada savab qazana bilmirdilər. Bu məsələ ilə bağlı “Səfvətüs-səfa” əsərində də maraqlı bir hekayət vardır. Həmin hekayətdə deyilir ki, bir dəfə Şeyx Səfiəddin yanında olanlara nəsihət və öyüd verməklə məşğul idi. Bu zaman o, Qazı İmadəddin adlı ruhanidən soruşur ki, aqil insan kimdir, cahil insan kimdir? Qazı İmadəddin də xahiş edir ki, bu sualın cavabını elə Şeyx Səfiəddin özü versin. Şeyx Səfiəddin də belə cavab verir ki, aqil insan elə Qazı İmadəddinin özüdür. Çünki o, “Quran” elmini və fiqhi bilir və bundan əlavə çoxlu elmlərə sahibdir. Sonra da əlavə edir ki, cahil insan da kənddə yaşayan və heç bir elmə sahib olmayan adamlardır. Dediyinin təsdiqi kimi, Şeyx Səfiəddin “Quran”i-

Kərimin Zümər surəsinin 9-cu ayəsinə istinad edir. Həmin ayədə deyilirdi: "Heç bilənlərlə bilməyənlər eyni ola bilərmi?". Qazı İmadəddin eşitdiyi bu sözlərdən xeyli xoşhal olur və bir məmnunluq duyur ki, Şeyx Səfiəddin kimi böyük bir arif insan onun haqqında belə bir söz deyir. Amma Şeyx Səfiəddin bununla kifayətlənmir və sözünün davamı kimi ondan soruşur ki, bir il ərzində onun üçün xalqdan nə qədər pul toplanır? "Dedi: "Bey yüz altun". Şeyx dedi: "Çün igirmi yıl böylələik ilə keçə, axirətə varanda on min altun xəlqün məzləməsi gora aparursan və ol cahil rustayi yılda beş yüz altun verür. Həman kim, axirət aləminə varur, neçə min altun malından xəlqün yanundadur? İndi Mövlana dövlət ilən fikir eyləyüb görsün kim, aqil özidür kim, bu qədər məzləmə ilə axirətə varur, yoxsa ol rusrayi tat kim, bu qədər malı xəlqdən almalıdur?" Qazı İmadəddin həman munı eşidincə əllərin qaldurub başına urar idi" (200).

Bununla, Şeyx Səfiəddin bildirmək istəyirdi ki, müxtəlif yollarla sadə zəhmət adamlarının pullarını əllərindən alanlar, özlərini buna haqlı bilənlər və özlərini aqil bilənlər vaxtında fikirləşsinlər ki, bu dünyada kim daha çox aqildir – başqasının zəhmətinə göz dikənlər, yoxsa öz zəhməti ilə dolananlar və başqalarını da dolandıranlar.

Şeyx Səfiəddinin belə nəsihətlərinin sonu yenə də ona gəlirdi ki, insanın öz nəfsi ilə mübarizəsi davamlı və qətiyyətli olmalıdır. İnsanın öz nəfsinə üstün gələ bilməməsi, Şeyx Səfiəddinin nəzərində nəfsin insan üzərində tanrıya çevrilməsi demək idi. "Xodavənd bənde-ye bibənde, xodavənd" (xudavənd bəndəsiz bəndə, xudavənd) misrasını açarkən də Şeyx Səfiəddin buna işarə edirdi. O bildirirdi ki, talibin nəfsi ona tanrılıq etməyə çalışır. Əgər talib nəfsinə qarşı mübarizə aparsa, riyazətlər çəksə ona tanrılıq etməyə çalışan nəfsini öz iradəsinə tabe edə bilər. Belə talib əgər əvvəllər nəfsin tanrılığı altında idisə, nəfsə qalib gəlib özü nəfsinin tanrısına çevrilmiş olur. Yəni insanın ikili halətdən hansında qərar tutması, əslində, onun etiqadı və nəfsi ilə qarşılıqlı münasibətindən asılıdır. Bunlar da Şeyx Səfiəddinin hər zaman təlqin etməyə çalışdığı nəsihətlərindən idi.

## 6.İstifadə olunmuş mənbə və ədəbiyyat


1.Dinpərəst M. Bərrəsi-ye zəmine və zəmane-ye soltan-ül arefin Şeyx Səfiəddin Ərdəbili dər qoftequ ba doktor Səid Salman Səfəvi.
http://iranianstudies.org/fa/
بررسی-زمینه-و-زمانه-سلطان-العارفین-شیخ;
Səfəvi S.S. Səyyadət-e şeyx-ül arefin Seyid Səfiəddin Ərdəbili.
http://iranianstudies.org/fa/سیادت-شیخ-العارفین-سید-صفی الدین-اردبیلی ;
Şeyx Səfiəddin Ərdəbili dər ayine-ye orfan, honər və siyasət. London, 1393, s. 17

2.Astrabadi Seyid Hüseyn. Əz Şeyx Səfi ta Şah Səfi. Tehran, 1366, s. 6-17; Əmini İ. Fotuhat-e şahi. Tehran, 1383, s. 5; Zahidi Ş.H. Silsilətün nəsəb-e Səfəviyye. Tehran, 1343, s. 11

3. Əz Şeyx Səfi ta Şah Səfi, s.17; Fotuhat-e şahi, s. 7

4. Məhəmmədpur D. Aşiqha, şaeran peyrov-e təriqət-e Səfiəddin və mobəlleğani dər miyan-e tudeha-ye mərdom.
http://sheikh-safialdin.com/عاشیق-ها؛-شاعران-پیرو-طریقت-شیخ-صفی-الد

5. Əhəmiyyət-e daneş dər islam.
http://tarikhe-eslam.blogsky.com/1389/12/14/post-15/

6. Əhəmiyyət-e elm dər "Quran".
http://old.ido.ir/a.aspx?a=1391052410

7. Porseş və pasox piramun-e "Quran".
http://thaqalain.ir/?p=96618

8. Bax: Ərzeş-e elm əz didqah-e peyambər.
http://maisam-farzam.blogfa.com/post/2
Əhəmiyyət-e elm və daneş əz nəzər-e "Quran".
http://thaqalain.ir/?p=96618

9. "Quran"i-Kərimin Azərbaycan dilinə tərcüməsi. Tərcümə edənlər: Z.Bünyadov və V.Məmmədəliyev. Bakı, 2004. Taha surəsi, 114-cü ayə

10. Seyid Yəhya əş-Şirvani əl-Bakuvi. Səfa əl Əsrar (Sufiliyin sirləri). Nəşrə hazırlayanı Mehmet Rıhtım. Bakı, 2010, s.117

11. Zümər surəsi, 9-cu ayə ("Quran"dan tərcümələr Z.Bünyadovla V.Məmmədəliyevin tərcüməsindən götürülmüşdür)
12. Bax: Ərzeş-e elm əz didqah-e peyambər. http://maisam-farzam.blogfa.com/post/2
Əhəmiyyət-e elm və daneş əz nəzər-e "Quran". http://thaqalain.ir/?p=96618
13. Bəqərə surəsi, 247-ci ayə
14. Al-İmran surəsi, 7-ci ayə
15. Fatir surəsi, 28-ci ayə
16. Cavadi Amoli, A. Məfatih əl-həyat. Qum,1391, s. 74
17. Yenə orada, s. 74-75
18. Əl-Ələğ surəsi, ayə 1-3.
19. Seyid Yəhya əş-Şirvani əl-Bakuvi. Səfa əl Əsrar, s. 118
20. Cavadi Amoli, A. Məfatih əl-həyat. Qum,1391, s. 349
21. Yenə orada, s. 348-351
22. Seyid Yəhya əş-Şirvani əl-Bakuvi. Səfa əl Əsrar, s. 118
23. Kövsər N. Elm və daneş əz mənzər-e islam. http://www.noorullahkawsar.com|علم-و-دانش-از-منظر-اسلام
24. Loğman surəsi, 20-ci ayə
25. Yusifi H., Nistani C., Şekariniri C., Gəlməğanizadə Əsl M., Şəhid B. Təhlili bər elm və mərifətşenasi-ye təriqət-e Səfəvi bər əsas-e məzamin-e kətibeha-ye məcmue-ye məzhəbi-ye Şeyx Səfiəddin Ərdəbili.
http://sheikh-safialdin.com/
تحلیلی-بر-علم-و-معرفت-شناسی-طریقت-صفوی،
26. Yenə orada
27. Şeyx Səfi təzkirəsi. "Səfvətüs-səfa"nın XVI əsr türk tərcüməsi. Tərtibçilər: Möhsün Nağısoylu, Sevər Cabbarlı və Rauf Şeyxzamanov. Bakı, 2006, s.38-40
28. Şeyx Səfi təzkirəsi, s.347
28a. Yenə orada, s.712
29. Yenə orada, s. 345
30. Qara məcmuə. Tərtib edəni – Hüseyn Məhəmmədzadə Siddiğ. Tehran, 1380, s.97-99
31. Şeyx Səfi təzkirəsi, s.365-366

32. Yenə orada, s. 361
33. Yenə orada, s. 360
34. Yenə orada, s. 357
35. Yenə orada, s. 359
36. Yenə orada, s. 362
37. Yenə orada, s. 698
38. Yenə orada, s. 685
39. Yenə orada, s.197-200
40. Yenə orada, s. 206
41. Yenə orada, s. 200-201
42. Ynə orada, s. 212-213
43. Yenə orada, s. 216
44. Yenə orada, s. 219-220
45. Yenə orada, s. 220
46. Yenə orada, s. 221
47. Yenə orada, s. 457
48. Yenə orada, s. 459
49. Yenə orada, s. 459-460
50.Şeyx Səfi təzkirəsi ("Səfvətüs-səfa"nın XVI əsr türk tərcüməsi). Bakı, 2006, s.347
51. Yenə orada, s. 349
52. Yenə orada, s. 361
53. Yenə orada, s. 354-355
54. Yenə orada, s. 362
55. Yenə orada, s. 358
56. Yenə orada s. 360
57 Yenə orada, s. 360
58. Yenə orada, s. 348, 852
59. Qara məcmuə (Şeyx Səfiəddin Ərdəbilinin şerlər, sözlər, öyüdlər və münqəbələri). Tərtib edəni Hüseyn Məmmədzadə Siddiq. Tehran, 1380, s. 64-65
60. Qara məcmuə, s. 45-46
61. Yenə orada, s. 46
62. Şeyx Səfi təzkirəsi ("Səfvətüs-səfa"nın XVI əsr türk tərcüməsi). Bakı, 2006, s. 372-373

63. Şeyx Səfi təzkirəsi ("Səfvətüs-səfa"nın XVI əsr türk tərcüməsi). Bakı, 2006, s. 375
64. Yenə orada, s. 374
65. Yenə orada, s. 374-375
66. Qara məcmuə (Şeyx Səfiəddin Ərdəbilinin şerlər, sözlər, öyüdlər və münqəbələri). Tərtib edəni Hüseyn Məmmədzadə Siddiq. Tehran, 1380, s. 58
67. Rıhtım M. Seyid Yəhya Bakuvi və xəlvətilik. Bakı,2005, s.141
68. Qara məcmuə (Şeyx Səfiəddin Ərdəbilinin şerlər, sözlər, öyüdlər və münqəbələri). Tərtib edəni Hüseyn Məmmədzadə Siddiq. Tehran, 1380, s. 58
69. Yenə orada, s. 60
70. Yenə orada, s. 72
71. Yenə orada, s. 122-123
72. Şeyx Səfi təzkirəsi ("Səfvətüs-səfa"nın XVI əsr türk tərcüməsi). Bakı, 2006, s.464
73. Qara məcmuə (Şeyx Səfiəddin Ərdəbilinin şerlər, sözlər, öyüdlər və münqəbələri). Tərtib edəni Hüseyn Məmmədzadə Siddiq. Tehran, 1380, s. 113-116
74. Şeyx Səfi təzkirəsi ("Səfvətüs-səfa"nın XVI əsr türk tərcüməsi). Bakı, 2006, s.390-392
75. Qara məcmuə (Şeyx Səfiəddin Ərdəbilinin şerlər, sözlər, öyüdlər və münqəbələri). Tərtib edəni Hüseyn Məmmədzadə Siddiq. Tehran, 1380, s. 86-87
76. Yenə orada, s. 88-89
77. Yenə orada, s. 91-92
78. Yenə orada, s. 60-61, 73
79. Yenə orada, s. 63
80. Yenə orada, s. 63
81. Yenə orada, s. 62
82. Yenə orada, s. 62
83. Yenə orada, s. 65

84. Seyid Yəhya əş-Şirvani əl-Bakuvi və Səfa əl Əsrar (sufiliyin sirləri). Nəşrə hazırlayan-Mehmet Rıhtım. Bakı, 2010, s. 363, 379
85. Şeyx Səfi təzkirəsi ("Səfvətüs-səfa"nın XVI əsr türk tərcüməsi). Bakı, 2006, s. 382- 383
86. Qara məcmuə (Şeyx Səfiəddin Ərdəbilinin şerlər, sözlər, öyüdlər və münqəbələri). Tərtib edəni Hüseyn Məmmədzadə Siddiq. Tehran, 1380, s. 67
87. Yenə orada, s.79
88. Yenə orada, s. 79-80
89. Şeyx Səfi təzkirəsi ("Səfvətüs-səfa"nın XVI əsr türk tərcüməsi). Bakı, 2006, s.695
90. Yenə orada, s. 47
91. Qara məcmuə (Şeyx Səfiəddin Ərdəbilinin şerlər, sözlər, öyüdlər və münqəbələri). Tərtib edəni Hüseyn Məmmədzadə Siddiq. Tehran, 1380, s. 110
92. Yenə orada, s. 76-77
93. Yenə orada, s. 71
94. Yenə orada, s. 76
95. Erdoğan İ. Şeyh Safyuddin Erdebiliye göre ruh-beden ilişkisinde hayvani ruhun yeri, s. 5-6/ İlahiyyat fakültesi dergisi, 15:1 (2010), s. 1-16
96. Qara məcmuə (Şeyx Səfiəddin Ərdəbilinin şerlər, sözlər, öyüdlər və münqəbələri). Tərtib edəni Hüseyn Məmmədzadə Siddiq. Tehran, 1380, s. 126-127
97. Erdoğan İ. Şeyh Safyuddin Erdebiliye göre ruh-beden ilişkisinde hayvani ruhun yeri, s. 6
98. Şeyx Səfi təzkirəsi, s. 350-351
99. Yenə orada, s. 372
100. Şeyx Səfi təzkirəsi ("Səffətüs-səfa"nın XVI əsr türk tərcüməsi). Bakı, 2006, s.380
101. Yenə orada, s.381
102. Yenə orada, s. 466-467
103. Yenə orada, s. 393-394
104. Yenə orada, s. 461

105. Yenə orada
106. Yenə orada, s. 348
107. Yenə orada, s. 349
108. Yenə orada, s. 353
109. Yenə orada, s. 364-365
110. Yenə orada, s. 367
111. Yenə orada, s. 374
112. Yenə orada, s. 383
113. Yenə orada, s. 421
114. Yenə orada, s. 422
115. Yenə orada, s. 345-346
116. Yenə orada, s. 375-376
117. Yenə orada, s. 377
118. Şeyx Səfi təzkirəsi, s. 397
119. Yenə orada
120. Yenə orada, s. 398
121. Yenə orada
122. Yenə orada, s. 399-400
123. Yenə orda, s. 401-402
124. Yenə orada, s. 403
125. Yenə orada, s. 405
126. Yenə orada
127. Yenə orada, s. 406
128. Təsəvvüf tarixi. II nəşr. Bakı, 2011, s. 337
129. Şeyx Səfi təzkirəsi, s. 407
130. Estəxri Ə.Ə. Üsul-e təsəvvüf. Tehran, tarixsiz, s. 632
Təsəvvüf tarixi. II nəşr. Bakı, 2011, s. 344
Seyid Yəhya əş-Şirvani əl-Bakuvi və Səfa əl Əsrar (sufiliyin sirləri). Nəşrə hazırlayan-Mehmet Rıhtım. Bakı, 2010, s. 389
Səccadi C. Fərhəng-e estelahat və təəbirat-e irfani. Tehran, 1370, s. 502
131. Şeyx Səfi təzkirəsi, s. 408
132. Estəxri Ə.Ə. Üsul-e təsəvvüf. Tehran, tarixsiz, s. 634-635
Təsəvvüf tarixi. II nəşr. Bakı, 2011, s. 336-337

Səccadi C. Fərhəng-e estelahat və təəbirat-e irfani. Tehran, 1370, s. 706
133. Şeyx Səfi təzkirəsi, s. 409
134. Yenə orada, s. 416
135. Yenə orada, s. 417
136. Yenə orada, s. 416-418
137. Yenə orada, s. 420
138. Estəxri Ə.Ə. Üsul-e təsəvvüf. Tehran, tarixsiz, s. 675-676
139. Şeyx Səfi təzkirəsi, s. 420-421
140. Yenə orada, s. 409-410
141. Estəxri Ə.Ə. Üsul-e təsəvvüf. Tehran, tarixsiz, s. 641
Təsəvvüf tarixi. II nəşr. Bakı, 2011, s. 344
142. Şeyx Səfi təzkirəsi, s. 411-412
143. Estəxri Ə.Ə. Üsul-e təsəvvüf. Tehran, tarixsiz, s. 649-650
144. Şeyx Səfi təzkirəsi, s. 413-414
145. Estəxri Ə.Ə. Üsul-e təsəvvüf. Tehran, tarixsiz, s. 672-673
146. Şeyx Səfi təzkirəsi, s. 419
147. Yenə orada, s. 423
148. Yenə orada, s. 423-424
149. Yenə orada, s. 426-427
150. Yenə orada, s. 446
151. Yenə orada, s. 447
152. Yenə orada, s. 430
153. Yenə orada, s. 449
154. Təsəvvüf tarixi. II nəşr. Bakı, 2011, s. 356; Jean Chevalier. Sufilik. İstanbul, 1993, s. 90; Eraydın S. Təsəvvüf və təriqətlər. İstanbul, 1994, s. 361; Metinlerle tasavvuf terminleri sözlügü. İstanbul, 2006, s. 891; Seyid Yəhya əş-Şirvani əl-Bakuvi və Səfa əl Əsrar (sufiliyin sirləri). Nəşrə hazırlayan Mehmet Rıhtım. Bakı, 2010, s. 157-158
155. "Quran"i-Kərimin Azərbaycan dilinə tərcüməsi. Ərəb dilindən tərcümə edənlər: Z.Bünyadov və V. Məmmədəliyev. Bakı, 2004, s. 251
156. Yenə orada, s. 332
157. Sührəverdi Ş. Gerçek tasavvuf. İstanbul, 2010, s.239

158. Yenə orada
159. Yenə orada, s. 241
160. Yenə orada, s. 238-239
161. “Quran”i-Kərimin Azərbaycan dilinə tərcüməsi. Ərəb dilindən tərcümə edənlər: Z.Bünyadov və V. Məmmədəliyev. Bakı, 2004, s. 286, 64
162. Sühreverdi Ş. Gerçek tasavvuf. İstanbul, 2010, s.219
163. Yenə orada s. 220
164. Metinlerle tasavvuf terminleri sözlügü. İstanbul, 2006, s. 892
165. Sühreverdi Ş. Gerçek tasavvuf. İstanbul, 2010, s.222
166. Metinlerle tasavvuf terminleri sözlügü. İstanbul, 2006, s. 892
167. Yenə orada, s. 895
168. Sühreverdi Ş. Gerçek tasavvuf. İstanbul, 2010, s.223
169. Yenə orada
170. Eraydın S. Təsəvvüf və təriqətlər. İstanbul, 1994, s. 360
171. Sühreverdi Ş. Gerçek tasavvuf. İstanbul, 2010, s.254
172. Yenə orada, s. 253
173. Şeyx Səfi təzkirəsi (“Səfvətüs-səfa”nın XVI əsr türk tərcüməsi). Bakı, 2006, s.303, 310, 329, 519, 520
174.Yenəorada, s. 520
175. Yenə orada, s. 521
176. Yenə orada, s. 513
177. Yenə orada. s. 512-513
178. Yenə orada, s. 514-515
179. Yenə orada, s. 517
180. Yenə orada, s. 517
181. Yenə orada, s. 518
182. Yenə orada, s. 519
183. Yenə orada, s. 520-521
184. Yenə orada, s. 512
185. Şeyx Səfi təzkirəsi (“Səfvətüs-səfa”nın XVI əsr türk tərcüməsi). Bakı, 2006, s. 386

186. Yenə orada, s. 379
187. Yenə orada, s. 382
188. Yenə orada, s. 381
189. Yenə orada, s. 388
190. Yenə orada, s. 382
191. Yenə orada, s. 453-454
192. Yenə orada, s. 457
193. Yenə orada, s. 457
194. Yenə orada, s. 458
195.Yenə orada, s. 459
196. Yenə orada, s. 459-460
197. Yenə orada, s. 463
198. Yenə orada, s. 466
199. Yenə orada, s. 462-463
200. Yenə orada, s. 468-469

# V FƏSİL. ŞEYX SƏFİƏDDİNİN DÜNYASINI DƏYİŞMƏSİ

## 1. Şeyx Səfiəddinin vəfatı

Məlumdur ki, Şeyx Səfiəddin hələ kiçik yaşlarından fiziki işlərlə məşğul olurdu və bu da onun sağlam həyatınını və səhhətinin formalaşmasına müsbət təsir göstərirdi. Uzun bir həyat sürməsi də onun fiziki imkanlarının yaxşılığından xəbər verirdi. Amma o da məlumdur ki, təsəvvüf yoluna qədəm qoyması ilə Şeyx Səfiəddin özünü müəyyən fiziki məhrumiyyətlərə məruz qoymağa başladı. Nəfsinin idarə edilməsi, xəlvətə çəkilərək uzunmüddətli ibadətlə məşğul olması və ya uzunmüddətli oruc tutması istər-istəməz Şeyx Səfiəddinin səhhətində də müəyyən izlər buraxırdı. Allaha qovuşmaq yoluna üz tutulması, dünya nemətlərindən imtina edilməsi Şeyx Səfiəddinin həyat yolu idi və bu yolda fiziki məhrumiyyətlərə sinə gərilməsini o, haqq işi kimi qəbul edirdi. Məsələn, bəllidir ki, Şeyx Səfiəddin iki həftə ərzində yalnız su içməklə kifayətlənmiş və vaxtını ibadətə sərf etmişdi. Digər belə hallar da Şeyx Səfiəddinin həyatından məlumdur. Ona görə bu istiqamətdə sərt inadcıllıq göstərməsini bəzən elə onun mürşidi Şeyx Zahid də rəva görmürdü. Şeyx Zahid də ona məsləhət görürdi ki, öz üzərinə çoxlu məşəqqətlər götürməsin. Çünki bu məşəqqətlər ahıl yaşlarında Şeyx Səfiəddinin səhhətinə mənfi təsir göstərə bilərdi.

Şeyx Səfiəddinin özünü necə fiziki məhrumiyyətlərə düçar etməsi haqqında Şeyx Sədrəddin belə nəql edirdi: "Çün həzrət Şeyx (q.s.) Təbrizin Rəşidiyyə xanəgahında vəzir Xacə Qiyasəddinün iltiması ilə nüzul etdi və igirmi beş gün anda idi və xəlvətdən həman namaz çağlarında dışra çıxar idi və namazdan sonra xəlvətə girərdi və bir neçə gündə vüzunun üstinə vüzu alur idi və yemək ilə içmək və yemişləri təsərrüf etmək tərk etdi. Və yeməgi ancaq bu idi kim, iftar çağında Təbrizli Xacə Qütbəddinün bir küçücük qazancuğı var idi və anda şorba bişürərdi. Hazır qılanda iki-üç qaşuqcuq ol şorbanun suyundan içərdi" (1).

Şeyx Səfiəddin ömrünün böyük hissəsini xəstəlikdən uzaq oldu və ömrünün ahıl çağlarında sinə gərdiyi məşəqqətlər nəhayət ki, onun səhhətində özünü göstərməyə başladı. Sonradan məlum oldu ki, Şeyx Səfiəddinin sidik kisəsində daş vardır. Vaxt ötdükcə bu daşın ölçüləri də böyüdü və Şeyx Səfiəddin üçün ciddi ağrılara çevrildi. Həmin ağrılar ömrünün sonlarında onu Ərdəbilə qapanmağa vadar etdi və digər məntəqələrə daha səfər edə bilmədi.

Şeyx Səfiəddin bu ağrılarla günlərini keçirir və ibadətindən də geri qalmırdı. Ömrünün sonuncu Ramazan ayı yetişəndə Şeyx Səfiəddin ağrılarına baxmayaraq ibadətini davam etdirirdi. Ramazan ayı xəlvətə çəkilərək günlərini orada keçirdi. Bu da onun səhhətinə müəyyən təsir göstərdi, ağrıları daha da şiddətləndi. Ramazan bayramı günlərində məlum oldu ki, Şeyx Səfiəddinin hərarəti də artmışdır. Həmin günlərdə Şeyx Səfiəddin qatıq yemək arzusunda olduğunu bildirdi və onun xahişi ilə ona qatıq və çörək gətirdilər. O, bir neçə loxmanı qatığa batıraraq yedi və kiçik iştahası onun ağrılarının xeyli şiddətlənməsi ilə nəticələndi. Şeyx Səfiəddinin halı elə mürəkkəbləşdi ki, onun sağalmağına ümidlər də azaldı. Bu zaman ona bir şərbət verdilər. Həmin şərbət Şeyxin ağrılarını bir qədər azaltdı və o bir qədər sakitlik tapdı. Müridlər və ətrafındakılar Şeyx Səfiəddinin halının yaxşılaşmasından xeyli sevindilər və hətta onlar öz sevinclərini şəhər əhalisi ilə də bölüşdülər, şəhərin küçə və bazarlarını bəzəyərək Şeyx Səfiəddinin səhhətinin yaxşılaşmasına öz şükürlərini səsləndirdilər (2).

Amma bu sevinc çox da uzun çəkmədi və bir neçə gündən sonra Şeyx Səfiəddinin səhhəti yenidən pisləşdi. Belə olanda Təbrizə adamlar göndərildi ki, oradakı təbiblərlə məsləhətləşmələr aparılsın və Şeyxin dərdlərini yüngülləşdirə biləcək şərbətlər hazırlansın. Oradakı təbiblər də müxtəlif dərmanlar və şərbətlər hazırladılar və Ərdəbilə göndərdilər. Bir müddət Şeyx Səfiəddinin müalicəsi aparıldı. Nəticədə, yenə də onun dərdlərini bir qədər yüngüllətmək mümkün oldu. Xəstəliyi isə bütünlüklə

müalicə etmək mümkün olmadı və Şeyx Səfiəddin də səbrlə öz dərdlərinə dözməli oldu (3).

"Səfvətüs-səfa" əsərində Şeyx Sədrəddinin adından Şeyx Səfiəddinin xəstəlik dövrü ilə bağlı bir maraqlı hekayət qələmə alınmışdır: "Həzrət Şeyx Səfiəddin bu mərəzdə bir gün Şeyx Sədrəddinə işarət qıldı kim, bir bağun divarı kim, həzrət Şeyxün qardaşı oğlı Mövlana Qütbəddin kim, qeyri-həqq ilən özgənün mülkinə çəkübdür, yıxdur. Şeyx Sədrədin dedi: "Mən anun buyruğundan cüzvicə təvəqqüf eylədüm, zira bilürdüm kim, mundan ötrü qövm ilə qardaşlarun içi məndən inciyür". Genə həzrət Şeyx (q.s.) buyurdu: "Oğul, əgər mənüm oğlum isən, dedügümi yerinə yetür". Çün bu qədəğən həzrət Şeyxdən eşitdüm, ikindü namazınun çağı idi. Talibləri yığışdurub ol divarı yıxdurdum. Mundan ötrü bitün qövmlərimiz: böyük ilən kiçik mənümlən düşmən olub heç hanğısınun könli mənümlən saf qalmadı və həman yalğuz həzrət Şeyxün (q.s.) xatiri mənüm ilən yar qaldı. Bu halətdə ikən həzrət Şeyxün mübarək məzacına mərəz güclü olub müztərib oldı və mən həzrətində durmış idim və (q.s.)-nün əhvalın böylə pərişan görərdüm, öz-özimə dedim: "Bu halətdə bitün qövm və qardaşlar mənümlən düşmən və həzrət Şeyxdən özgə (q.s.) kimsə özümə yar görmənəm. Əgər həzrət Şeyx (q.s.) Tanrınun daisinə icabət ləbbeykinə deyə və canı şahbazı qürbün məqamı sarusına: "İrcii ila Rəbbiki raziyətən mərziyətən" (Dön Rəbbinə, sən Ondan O da səndən razı olacaq – *Fəcr surəsi, 28-ci ayə*) buyruğu ilən pərvaz eyləyə, mənüm halum nə olacaqdur? Bu qədər düşmənlərün içində xatirümə gəldi kim, çün munda əglənmək olmaz, əlbəttə, bu düşmənlərün ortasından çıxüb bir qırağa, bəlkim bu məmləkətdən irağa varam, ta anlarun düşmənlik əli mana yetməyə və bir az müddətdən sonra genə elümə qayıdayım". Dəxi dedim? "Yok, əlbəttə, bu naxoş xəbər mana yetəcəkdür və varayalğuz qəribliğdə bu qüssədə yanacağəm və taqətim taq olacadur. Pəs təqdir budur kim, mən bir parə ağu içim, ta bu möhnətlərdən qurtulub, atam ilən müvafiqət eyləyüb ol həzrətün müsibəti görməyəm" (4).

Yəni qohum-qardaşlarının düşmənçiliyi ilə üzbəüz qalmamaq üçün Şeyx Sədrəddin ya Ərdəbili tərk edib başqa bir yerə getməyi, ya da zəhər içərək həyatla vidalaşmağı düşünürdü. Bu fikirlər ona rahatlıq verməyəndə Şeyx Səfiəddin gözünü açaraq ona deyir ki, belə yanlış fikirlərdən əl çəksin. Sonra da ona bildirir ki, düz yolda olduğu üçün heç nədən çəkinməsin. Şeyx Səfiəddin onu da əlavə edri ki, onun özünün də həyatı heç də maneələrsiz ötüşməyib və bildirir ki, Şeyx Sədrəddinin əmisi İsmayıl hər zaman Şeyx Səfiəddini təsəvvüf yolundan çəkindirməyə çalışmışdı. Şeyx Səfiəddinin  qardaşı İsmayıl belə fikirləşirmiş ki, Şeyx Səfiəddindən heç vaxt şeyx olmayacaq və ona görə də başqa yol tutmalıdır. Şeyx Səfiəddin Gilanda olduğu zamanlarda da Şeyx Zahidin yaxınlarının maneələri ilə qarşılaşdığını dilinə gətirdi. Onlar da Şeyx Səfiəddinin işlərinə qısqanclıqla yanaşır, ona qarşı düşmənçilik edir və onun Şeyx Zahidin davamçısı ola bilməsi ilə heç cürə barışa bilmirdilər. Amma Şeyx Səfiəddin bütün bu qısqanclıq və münaqişələrə qarşı dözüm nümayiş etdirdi və son nəhayətdə öz məqsədinə də yetişdi. Ona görə o, oğlu Şeyx Sədrəddinə də səbirli olmağı, tutduğu düz yoldan çəkinməməyi tövsiyə etdi: "...doğru yoldan dönməyüb, qədəm bərqədəm qoyub bu yolda sabitqədəm idük, lacərəm, Tanrınun tövfiqi ilən kərəmi bizə yoldaş olub, iş muradımızca oldı. Oğul, sən dəxi hər yel əsəndə titrəməyüb dağ kibi sabitqədəm ol kim, qamu afatdan eymən olacaqsan" (5).

Bununla belə, Şeyx Səfiəddinin səhhəti heç də yaxşılaşmırdı. Bəzi vaxtlar dərdləri bir qədər yüngülləşsə də, əslində, xəstəliyi heç də geri çəkilmirdi. Dərdləri yüngülləşəndə danışardı ki, Tanrı-təalanı yuxuda görmüşdür və o, Şeyx Səfiəddinin dərdlərinin yüngülləşməsi ilə maraqlanırdı. Şeyx Səfiəddin bildirirdi ki, o, Tanrını bir neçə dəfə yuxuda görübdür və hər dəfə onu yuxuda görəndən sonra dərdləri daha da artır, xəstəliyi üzərinə bir xəstəlik də gəlirdi. Şeyx Səfiəddin bunu da Tanrıdan gələn bir qədər kimi qarşılayırdı və onun fikrincə, Tanrı-təala özü buyururdu ki, həkimlərin kitabında olan bütün xəstəliklərin hamısını Şeyx Səfiəddinə həvalə edilsin. Allahdan gələn qədəri isə Şeyx

Səfiəddin səbir və şükürlə qarşılayırdı. Belə bir vəziyyətdə də Şeyx Səfiəddin ibadətini dayandırmırdı. Hətta hərəkət məhdudiyyətləri ilə qarşılaşanda belə o öz namazlarından qalmadı. Çətin olmasına baxmayaraq Şeyx Səfiəddin dəstəmaz alır və namazlarını vaxtlı-vaxtında qılırdı. Uzandığı yerdən ayağa qalxmaq çətinləşəndə belə yenə də namazını buraxmaır. Ona tövsiyə edilir ki, namazı oturduğu yerdə qılsın və xəstəlik üzündən oturmuş halda namaz qılınmasının şəriətdə caiz olmasını bildiyi halda belə, namazı ayaq üstə qılmaqda davam edirdi. Vəziyyəti xüsusi ilə pisləşəndə isə iki nəfər ona kömək edərdi və onların köməyi ilə namazı qılardı. Gündəik namazlarından başqa, Şeyx Səfiəddin qəza namazlarını da qılardı. Bir müddətdən sonra Şeyx Səfiəddinin halı daha da pisləşdi və o yemək yeməkdən bütünlüklə imtina etdi. Belə olanda ona nabat şərbəti verdilər və bir müddət yalnız nabat şərbəti ilə qidalandı. Az sonra nabat şərbətinin qəbulu da onun üçün çətinləşdi. Yeməkdən qalmaqla bərabər, Şeyx Səfiəddin həm də yuxusunu itirdi. O, gecələr də yata bilmirdi və yalnız öz dərdinə mübtəla idi (6).

Xəstəliyinin ağırlığına baxmayaraq, bəzi anlarda ona bir sakitlik və dinclik də gəlirdi. Belə dinclik anlarında Şeyx Səfiəddin yenə də kimsəsizlərə və qəriblərə kömək göstərilməsini yaxınlarından istəyərdi. Əlavə edərdi ki, onun nigarançılığı yalnız həmin imkansızlara kömək göstərilməsi ilə bağlıdır. "Səfvətüs-səfa" müəllifinin yazdığına görə, xəstəlik keçirdiyi günlərdə o, bütün gücünü və qüvvəsini Tanrı tərəfindən buyurulmuş siratül-müstəqimdən (düz-yol) dönməmək və Peyğəmbərin şəriətinin fərzlərini icra etmək üçün sərf edərdi: "Və həmin kim bir saət nəfsün istirahətin istərdi, bu mənzilə kim, imdi mübarək həzirəsidür, gəlüb bir nəfəs istirahət alurdı və sağlığı çağında dəxi adət həm böylə idi kim, qaçan kim bir ləhzə asayış istər ola idi, bu məqama gəlüb oturardı və bu halətdə çün möhtərəm hərəmi kim, həzrət Şeyx Zahidin fərzəndi idi (r.ə.) ol həzrəti kəndü mənzilinə gətürürdi, zira kim anda qələbəliğ idi və xidmətin eyləməz idi, fürsət düşüncə öz mütəhhərə hərəminə söylərdi: "Qalx kim, kəndi evimizə varalım". Çün xatunı derdi: "Bu, sənün evindür", - buyurur

idi: “Bu ev bizimki dəgüldür, bizim əsli evimiz oldur, qalx, oraya gedəlim”. ...Və bu sözi özgə kimsəyə söyləməz idi, zira kim vilayət nuri ilən bilürdi kim, hərəmi dəxi tezrak ana yetəcəkdür və həm ol yaxında ol dəxi ol həzrətə vasil olacaqdır” (7).

Şeyx Səfiəddinin xəstəliyi bir il on ay sürdü. Bu müddət ərzində onun dərdləri heç də azalmadı. Amma o, ibadətlərini vaxtlı-vaxtında yerinə yetirməkdən də geri qalmadı. Həmin xəstəliyin onun həyatına son qoyacağına həm Şeyx Səfiəddinin özü, həm də onun ailə üzvləri və ətrafındakılar şübhə etmirdilər. Ona görə həyatını başa vurmasına bir neçə gün qalmış Şeyx Səfiəddin öz vəsiyyətini etdi. Bu vəsiyyətində Şeyx Səfiəddin oğlu Şeyx Sədrəddini özünün varisi elan etdi və bütün müridlərindən, xəlifələrindən tələb etdi ki, Şeyx Sədrəddinin ardınca getsinlər. Ölümündən sonra onun dəfninin təşkilini isə İsfahanlı Seyyid Cəmaləddin Əliyə vəsiyyət etdi: “Və çün həzrət Şeyxün zahir həyatından bir neçə gün qalmış idi, vəsiyyət qıldı kim, sufilər, taliblər, gerçək xəlifələr, biliniz kim, irşad səccadəsi və taliblərə tərbiyət qılğusı islamın xittəsində oğlum Sədrəddinin xassəsidür və heç kimsə anunlən ortağ dəgüldür və fəqirlərün süfrəsində və zəiflərin xidmətində nə qədər kim səyləriniz var, cəhd etməlisiniz və övliyanun sirətindən bir qıl başınca təqsir etməyəsəniz və mənim təchiz ilə təkfinüm məfxərüs-sadat Seyyid Cəmaləddin Əli eyləsün və qüslün şəraiti hər nəstə kim, vacibdir qamu ol yerinə yetirsin” (8).

Şeyx Səfiəddin onu da vəsiyyət etmişdi ki, yastığının altında otuz beş arşın bez saxlayıbdır. Söylədiyinə görə, həmin bez üçün pambığı Gərmrudda tanıdığı bir adam halal bir yerdə əkmiş, həmin adamın anası öz əlləri ilə bu pambığı əyirmiş, Pirə Bədrəddin onu bezə çevirmişdi. Şeyx Səfiəddin istəyirdi ki, onu məhz həmin bezə kəfənləsinlər. Bundan başqa, Şeyx Səfiəddin vəsiyyət etdi ki, son günə qədər qoruyub saxladığı Şeyx Zahidə məxsus köynək, cübbə və nimtənə ilə börkün birini onun qəbrinə qoysunlar. Onun vəsiyyətinin biri də bu idi ki, məsləhət olarsa onu Qəriblər qəbristanlığında və ya məsləhət bilinən yerdə dəfn etsinlər (9).

“Səfvətüs-səfa” əsərində Şeyx Səfiəddinin həyatının son anları haqqında oğlu Şeyx Sədrəddinin xatirələri öz əksini tapmışdır. O xatırlayırdı ki, Şeyx Səfiəddinin ömrünün son günlərində bir gecə yuxuda ikən darvazanın möhkəmcə döyüldüyünü hiss edibmiş. Evindən bayıra çıxsa da qapı qarşısında kimsənin olmasını görmür. Xidmətçilərdən qapının döyülməsi ilə bağlı soruşanda onlar da kimsəni görmədiklərini bildirirlər. Bu vaxt darvazanı yenidən döyürlər. Şeyx Səfiəddin də bu səhnəni izləyirdi və o, xidmətçilərə buyurur ki, darvazanı açsınlar. Darvaza açılsa da, yenə də kimsəni görmək mümkün olmur. Amma Şeyx Səfiəddin darvaza açılınca bu cümləni səsləndirdi: “Əleykəs-səlam və rəhmətullahi və bərəkatühü, eyyühal-mələkül-məmur min əmrillahil-məğfur”. Şeyx Səfiəddin bu sözlərdən sonra oğlu Şeyx Sədrəddini yanına çağırır və ona bildirir ki, artıq dünyanı tərk etmək vaxtı gəlib çatmışdır. Bundan sonra Şeyx Sədrəddin də başa düşür ki, Şeyx Səfiəddinin həyatının sonu gəlib çatıb və darvaza döyülməsi də, əslində, əcəl zəngi imiş. Atasının danışıqlarından o belə başa düşür ki, ölüm mələyi Şeyx Səfiəddinin ardınca gəlib və özü də Hacı Əli adlı birisinin sifətində onun gözlərinə görünüb. “Səfvətüs-səfa” əsərində Hacı Əlinin kim olması xatırlanmamışdır. Amma çox güman ki, Hacı Əli tanış bir insan imiş və ölüm mələyi də bu tanış insanın sifətində özünü göstərmişdi. Şeyx Səfiəddin ölüm mələyinin nə üçün Hacı Əlinin sifətində görünməsini də izah edirdi. Onun dediyinə görə, ölüm mələyi bir neçə dəfə Hacı Əlinin sifətində özünü göstərmişdi. Məqsəd də o imiş ki, Şeyx Səfiəddin Hacı Əlinin sifətinə və gəlişinə öyrəşsin və əcəl günü onun gəlişindən daha dəhşətə gəlməsin. Son gündə ölüm mələyi bir də gəlib darvazanı möhkəmcə döyür. Ətrafındakılar kimsəni görməsələr də, Şeyx Səfiəddin yuxarıdakı cümləni səsləndirir (10).

Ömrünün son günlərində Şeyx Səfiəddin gecələr susuzluq yanğısı ilə əziyyət çəkirmiş. Ona su verilməsi qadağan edilibmiş. Bəlli imiş ki, su onun vəziyyətini daha da çətinləşdirə bilər. Şeyx Səfiəddin xatırlayırmış ki, Şeyx Zahid də ömrünün son günlərində yataqda olarkən susuzluq yanğısı ilə keçirirmiş. Ona su

verilməsinin səhhətini pisləşdirəcəyi məlum olsa da, Şeyx Səfiəddin öz mürşidinin su iltimasları qarşısında dözüm göstərə bilmir və mürşidinin son xahişlərinə gizlicə əməl edir, ona su verir. Həyatının son anlarında su yanğısı onu yandıranda Şeyx Səfiəddin hər zaman onun yanında olan Pirə Cəbrayıldan su istəyir və deyir ki, əgər ona su verməsə, sonralar bu istəyə qarşı çıxmasından peşiman olacaqdır. Pirə Cəbrayıl mürşidinin bu istəyinə qarşı çıxmır, səhhətinə pis təsir edəcəyini bilsə də Şeyx Səfiəddinə gizlicə su verir (11).

Şeyx Səfiəddinin həyatının son günlərində oğlu Şeyx Sədrəddin Sultaniyyəyə səfərə getmək məcburiyyətində qalıbmış. Məlumata görə, həmin səfər on iki gün davam edib. Şeyx Səfiəddin hər gün Şeyx Sədrəddinin intizarını çəkirmiş, onun yolunu gözləyirmiş. Nəhayət, Şeyx Sədrəddin səfərdən geri qayıdır və Şeyx Səfiəddinin intizarına da son qoyulur (12).

Həyatdan köçməsinə iki gün qalmış Şeyx Səfiəddin "Quran"ın tilavətinə başlayır. Bu günlər ərzində davamlı olaraq "Səllu əleyhi və səlləmu təslimən" sözlərini təkrarlayır. Hicri tarixi ilə 735-ci ilin məhərrəm ayının 12-də (1334-cü il sentyabr ayının 12-də), həftənin birinci günü dan namazından sonra onun vəziyyəti ağırlaşır və bir qədərdən sonra gözlərini əbədi olaraq qapayır. "Səfvətüs-səfa"nın yazdığına görə, həyatla vidalaşmazdan əvvəl Şeyx Səfiəddin bu ayəni dilinə gətirdi: "Ya eyyütühannəfsül-mütməinnə-turcii ila Rəbbiki raziyətən mərziyətən" (Ey xatircəm olan kəs! Dön Rəbbinə, sən Ondan, O da səndən razı olaraq". *Fəcr surəsi, 27-28-ci ayələr*). Adı çəkilən əsərdəki məlumata görə, Şeyx Səfiəddinin son sözü "Allah" oldu və ondan sonra ayaqlarını uzatdı (13).

"Səfvətüs-səfa" əsərinin müəllifi Şeyx Səfiəddinin dünyasını dəyişməsi ilə bağlı yazırdı ki, ölüm şərbətini bu dünyanın bütün məxluqatı içməli olacaqdır. Amma sonra da əlavə edirdi ki, "mövtül-alim mövtül-aləm" (14). İslam peyğəmbərindən olan bu hədisdə bildirilirdi ki, alimin ölümü aləmin ölümüdür. Yəni adı çəkilın əsərin müəllifinin qənaəti belə idi ki, Şeyx Səfiəddin kimi

alimin və bilik adamının ölümü özündən sonra dünyada boşluq yarada biləcək bir itki idi.

Şeyx Səfiəddinin gözlərini yummasından sonra insanlar arasında və təbiətdə böyük bir üzüntü və hüznün yaşanmasını “Səffətüs-səfa” əsəri belə təsvir edirdi: “Ol saətdə cəhanun fəzası ol kimsələrün gözlərinə kim, iki cəhan anun kim təfərrüc edərlərdi, lüylətül-merac oldı və gögün zahiri yüzi ol halətdə qaranğu ilə qara bulut örtüldi və gözlərindən bulağlar ilə arxlar kimi yağdı və qəriv ilə fəryad xəlayiqün ümumi içində gözükdi və havadan fəğan ilə vəlvələ üni eşidülərdi” (15).

“Tarix-i Aləmara-yi Abbasi” əsərində Şeyx Səfiəddinin xəstələnməsi, oğlu Şeyx Sədrəddini öz varisi elan etməsi və dünyasını dəyişməsi aşağıdakı kimi təsvir edilmişdir: “O həzrət (Səfiəddin) çoxlu məhrumiyyət çəkdiyindən və bədəninin zəifliyindən ömrünün axırlarında sidik kisəsi xəstəliyinə tutuldu. Bir müddət sufilik aləmində xəstəliyi bir növ dini dərman hesab edərək xoşlanırdı. Sonra isə zəiflik artdı və [o], yatağa düşdü. Xəstəlik zamanı ağrının şiddətindən taqətdən düşdüyü vaxtlar o həzrət indi öz nurlu və ətirli qəbri olan yerə gedib, orada bir qədər rahat olardı. [Sonra] hörmətli zövcəsi onu öz evinə gətirərdi, yenə ağrı şiddətlənəndə deyərdi: «Məni öz evimə aparın!». O həzrətin xidmətçiləri deyərdilər: «Siz öz evindəsiniz!». Buyurardı: «Mənim əsil evim oradır». Şeyxi oraya aparardılar. Neçə dəfə bu hadisə təkrar oldu. Ölüm zamanı Səfəviyyənin müqəddəs nişanlı müridlərini yığıb, müridlərə və övladına vəsiyyət etdi ki, şəriətin mübarək yolu ilə getməkdə davam etsinlər, şeyxlərin yolunu tutsunlar, yoxsullara hörmət edib, xörək verib, kömək göstərsinlər.

[Şeyx Səfiəddin] Həzrət Şeyx Sədrəddin Musa haqqında da buyurdu: «Mənim evimdə namaz qılmağı və bəndələri doğru yola çəkməyi oğlum Sədrəddinin öhdəsinə verirəm». Sonra isə nəsihət və öyüdə başladı. O vaxta qədər ki, Şeyx Səfinin qeybdən ilham alan, möcüzə yaradan dili danışmaq qabiliyyətini itirdi, onun son sözü bununla bitdi: «Ona (Məhəmməd peyğəmbərə) salavat göndərin və onu layiqincə salamlayın». 735-ci ilin məhərrəmül-həram ayının 12-də (12 sentyabr 1334), düşənbə günü, sübh

namazından sonra [o], əcəl saqisinin əlindən şərbət içdi və gözünü örtüb, mövcudluq aləminin qarışıqlıq evini müşahidə etməkdən əl çəkdi. [Səfinin] hörmətli zövcəsi isə Allahın dərgahına etdiyi dua və xahiş vasitəsilə on səkkiz gündən sonra o həzrətə qoşuldu və cənnət bağına getdi. «Biz Allahınıq və əlbəttə ki, onun dərgahına qayıdacağıq». «Bilin ki, Allahın övliyaları ölmürlər və lakin bir haldan başqa bir hala keçirlər» (16).

Şeyx Səfiəddin onu da vəsiyyət etmişdi ki, dünyasını dəyişəndən sonra onun nəşi qadınların üzünə açılmasın. Amma onun dünyasını dəyişdiyi gün, ikindi namazı vaxtı həyat yoldaşı, Şeyx Zahidin qızı xahiş etdi ki, Şeyx Səfiəddinlə son dəfə vidalaşmaq üçün ona rüxsət versinlər. Ailə üzvləri, habelə Şeyx Səfiəddinin ətrafında olan möminlər onun bu istəyinə qarşı çıxsalar da, sonda razı oldular. Ona görə də Şeyxin nəşi ətrafında olan bütün kişi əhli otağı tərk etdi və Şeyx Səfiəddinin xanımı son dəfə onunla vidalşmaq fürsəti əldə etdi: "Və çün həzrət Şeyx (q.s.) buyurmuş idi kim, dişi xatunlara rüxsət verməyələr kim, anun mübarək cəsədin görələr, anı qoymazdılar. Çox mübaliğələrdən kim, ol möhtərəmə xatun qılurdı, qapuyi açdılar və ərkəklər qamu bağçaya vardılar, ta ol xatun içəri girüb, yüzini ol həzrətün ayağlarına sürtüb. ...Andan sonra dedi: "Ulu xəlifələr, doğru sufilər, gerçək taliblər, bir dua eylərəm, siz ittifaq ilən "amin" söyləniz". Dedi: "Bari-Xudaya, Şeyx Zahidin həqqi hörməti içün və bu çok riyazətlər çəkilmiş hazır xacənin izzəti içün kim, məni bu yılın başınadık dünyada möhlət verme və məni ol həzrətlərə ulaşdıra gör". Axirüləmr, səkkiz gün Şeyxdən sonra ol dəxi Tanrının rəhmətinə vasil oldı" (17).

"Səfvətüs-səfa" əsərinin XVI əsrə aid olan tərcüməsində Şeyx Səfiəddinin xanımının onun vəfatından səkkiz gün sonra dünyasını dəyişməsi göstərilmişdir (18). Amma bu əsərin farsdilli nüsxəsində Şeyx Səfiəddinin xanımının onun vəfatından on səkkiz gün sonra dünyasını dəyişməsi qeyd edilmişdir. Çox güman türk dilində olan tərcümədə səhvə yol verilmişdir.

Yəni Şeyx Səfiəddinin xanımı ondan sonra cəmi on səkkiz gün ömür sürdü və sonra o da haqqın dərgahına qovuşdu. Şeyx

Səfiəddin isə vəfatından bir gün sonra, yəni həftənin ikinci günü, ikindi vaxtı dəfn edildi. Həmin gün Şeyx Səfiəddinin cənazə namazının qılınması üçün o qədər insan toplanmışdı ki, həyətdə onların hamısına yer olmadı. Onda qərar verildi ki, darvaza açılsın və insanlar küçəyə çıxsınlar və orada namaz qılınsın. Belə də edilir və cənazə namazı qılınandan sonra Şeyx Səfiəddinin dəfn mərasimi başlayır. Şeyx Səfiəddin bir vaxtlar əyləşməyi xoşladığı bir məkanda dəfn edildi. Həmin məkanda vaxt keçirməkdən Şeyx Səfiəddin xeyli xoşhal olardı. Onun bu məkanda olduğu vaxt başına çoxlu sayda insanlar toplaşardı və o da orada həmin insanlara nəsihətlər edərdi. Şeyx Səfiəddin özü də bildirərmiş ki, feyzdən bu məkana da bir pay düşübdür. Orada mövcud olan böyük və yaşıl bir ağac bu məkanın səfasını daha da artırardı. Bu məkan onun həyətinə bitişik bir yer idi. "Səfvətüs-səfa"nın yazdığına görə, bu məkandan bir pəncərə bağçaya, bir pəncərə hovuzxanaya və bir pəncərə də Şeyxin xəlvətinə açılırdı. Şeyx Səfiəddin kimi ruhanilərin də o məkandan xoşları gələrdi və onlar da arzularlarmış ki, bu məkan Şeyx Səfiəddinin son mənzili olaydı (19).

Hazırda Şeyx Səfiəddinin dəfn edildiyi yerə oğlu Şeyx Sədrəddinin rəhbərliyi altında islam mədəniyyətinin əntiqi sayıla biləcək bir məqbərə tikilmişdir. Atasının dəfn olunduğu məkanın abad olmasına və orada Şeyx Səfiəddinə yaxın olan insanların dəfn edilmsinə Şeyx Sədrəddin xüsusi bir qayğı göstərirdi. Onun razılığı əsasında qüdrətli övliya, kamil bir insan kimi tanınmış Xacə Mühyiddəin, Şeyx Səfiəddinin xanımı, onun ailə üzvləri və qardaşları Şeyx Səfiəddinin məzarı ətrafında dəfn edildilr. Onlardan başqa, Şeyx Səfiəddinin ulu müridlərindən də bəziləri onun məzarı ətrafında dəfn edilmişlər. Sağlığında Şeyx Səfiəddinin xanəgahı ziyarət mərkəzinə çevrildiyi kimi, vəfatından sonra da onun məzarı ziyarət ocağına çevrildi. Ətraf məntəqələrdən, hətta uzaq yerlərdən belə çoxlu sayda zəvvarlar onun ziyarətinə gəlirdilər. Bu zəvvarlar özləri ilə nəzirlər, qəndillər, ələmlər, şəddələr gətirərək Şeyx Səfiəddinin məqbərəsinə bağışlayırdılar. "Səfvətüs-səfa" onu da yazıdı ki, bu məqbərəni ziyarətə

gələnlərin bütün duaları müstəcəb olurdu (20) və bu Şeyx Səfiəddinin kəraməti ilə bağlı idi. Ona görə də Şeyx Səfiəddinin məqbərəsi müqəddəs bir məkana çevrildi.

Amma Şeyx Səfiəddinin məqbərəsini ziyarət edənlər yalnız zəvvarlar deyildilər. Şeyx Səfiəddinin müridləri, təsəvvüf yolunun talibləri də bu məqbərəyə gəlir, gecəni orada keçirir və zikrlə məşğul olurdular. Bundan başqa onların bir çoxu Şeyxin məzarı üzərində “Quran” xətm edirdilər. Xoş avazı olan hafizlər isə davamlı şəkildə “Quran” oxumaqla məşğul idilər. “Səfvətüs-səfa”da bildirilirdi ki, zikr və tilavət səsi heç zaman Şeyx Səfiəddinin məzarı üzərindən əskik olmazdı, orada davamlı şəkildə ibadətlər həyata keçirilirdi. Adına günləri (cümə axşamı) yatsı namazından sonra Şeyx Sədrəddin də Şeyx Səfiəddinin məzarını ziyarət edər, “Quran” ayələri oxuyaraq onun ruhuna bağışlardı (21).

Şeyx Səfiəddinin dünyasını dəyişməsi oğlu Şeyx Sədrəddini son dərəcə kədərləndirmişdi və özünə yer tapa bilmirdi. Ona ürcah olmuş qəm-qüssədən yaxa qurtarmaq üçün Şeyx Sədrəddin Ərdəbili tərk edərək başqa bir məkana üz tutmaq istəyirdi. Elə həmin günlərdə o, yuxuda atasını görür və Şeyx Səfiəddin ona Ərdəbili və Səfəvi xanıgahını tərk etməyi məsləhət görmür. Bundan sonra Şeyx Sədrəddin də bu fikirləri başından atır (22).

Şeyx Sədrəddin nəql edirdi ki, Şeyx Səfiəddinin məzarı üzərində məqbərə ucaldanda Ərdəbilin bütün əhalisi bu məqbərənin tikilməsinə kömək üçün axışdı. Hətta şəhərin qadınları da Şeyx Səfiəddinin məzarı üzərində ucaldılan məqbərənin tikintisində iştirak etməyi savab sayırdılar. Ona görə toplaşan könüllülərin sayı həddən artıq çox olardı və onların yardımları ilə məqbərə üzərindəki tikinti işləri ahəngdar xarakter alır (23).

“Səfvətüs-səfa” əsərində Şeyx Səfiəddinin dünyasını dəyişməsini nəql edən fəsildə onun haqq dünyasında olduğu zaman belə kəraməti ilə insanların diləyinə yetməsi haqqında xeyli sayda hekayətlər vardır. Bu hekayətlərin çoxu ya Şeyx Sədrəddin tərəfindən, ya da dövrünün tanınmış möminləri tərəfindən nəql edilmişlər. Onlar birmənalı şəkildə Şeyx Səfiəddinin kəramət

sahibi olmasını və ondan şəfaət diləyən bütün insanların diləklərinin müstəcəb olmasını və ya olacağını bildirirdilər. Başlıcası isə danışılan bütün hekayətlərdə Şeyx Səfiəddinin islam dünyasının böyük şəxsiyyətinin olması təsdiqlənir və onun adının bəşər tarixindən silinməyəcəyi qabarıq şəkildə ifadə edilirdi.

## 2. Şeyx Səfi məqbərə-kompleksi

Vəsiyyətinə əsasən, Şeyx Səfiəddin öz xanəgahın həyətində dəfn edilmişdir. Qəbir üçün elə bir yer seçilmişdi ki, Şeyx Səfiəddin sağlığında həmin məkanda olmağı çox xoşlardı və bunu onun müridləri və yaxınları da bilirdilər. Mənbələrin məlumatına əsasən, Şeyx Səfiəddinin xanəgahı Ərdəbilin Əsfəreys darvazasının dışarında yerləşirdi və o, bu xanəgahın həyətində çox xoşladığı söyüd ağacının altında dəfn edilmişdi (24).

"Səfvətüs-səfa" əsərində Şeyx Səfiəddinin dəfn edildiyi məkan belə təsvir edilmişdir: "Və xəlifələrin ittifaqı ilə münəvvər mərqədi həm ol yerdə müqərrər oldu kim, zahir həyatında bir vəqti olur idi, oraya varub oturur idi və zövq ilə sürur və cəmiyyət ilə hüzur sürərdi və ol feyzlər kim, ana nazil olur idi, derdi kim, bu mənzilə dəxi feyzdən bir pay nəsib oldı, eylə kim səma(a) babında deyildi. Və ol məqamdan bir pəncərə bağçaya və hovuzxanəyə və mütəbərrəkə xəlvətə açılırdı və bir böyük ağac anda tikili idi və həman kim həzrət Şeyx oraya varurdı, gözi ilə ol ağaca baxar idi. Və seyyidüs-salikin Kürd İbrahim kim, mükasifatda kəmali-mükasifə hasil etmişdi, dedi kim, həmişə bu ağacın yarpağlarına: "İz yəğsas-sidrətə ma yəğsa" [O zaman Sidərini nələr bürümüşdü] məsəli neçə min ruhanilər oturub ol həzrətin cəmalına təfərrüclər edərlərdi, sağın kim neçə yıllar irəlü kim, ol mövze ol mütəhhər rövzəsi ola, ruhanilər müntəzir imişlər kim, bu mənzil ol həzrətin yeri olacaqdır. Pəs seşənbə günü ikindi çağı bu məqamda kim "Əl-qəbirü rövzətün min riyazül-cinani"dür [Qəbir cənnət bağlarından biridir], mütəhhər cəsədi dəfn qıldılar. ...Neçə səhihül-qövldən kim, ol həzrətin (q.s.) cənazəsin götürmişdilər, rəvayət qıldılar kim, çok qələbəliğdən xəlvətsərayda ol

həzrətə, namaz qılmaq müyəssər olmazdı. Çağırdılar kim, dərvazənin dışxarusunda namaz qılınur. Məqsudları bu idi kim, xəlayiq çıxub yer boşala. Pəs cənazəni yerdən götürdülər. Mübarək cəsədi (q.s.) öz ixtiyarı ilən başı qiblə sarusuna döndərüb çevrildi, eylə kim götürənlərün əlində ixtiyar qalmadı və neçələr dedilər kim, mütəbərrik cənazəsi götürənlərin başı üstündən dəxi yuxarı çıxmış idi ol qədər kim, götürənlərin çiginləri cənazəyə yetişməzdi" (25).

Şeyx Səfiədduinin qəbri dərhal da ziyarətgaha çevrildi və oğlu və xələfi Şeyx Sədrəddin tərəfindən onun qəbri üzərində möhtəşəm bir məqbərə tikdirildi. Hazırda bu məqbərəyə "Allah, Allah günbəzi" və hərəmxananın bir hissəsi daxildir.

Məqbərənin layihəsinin də Şeyx Sədrəddin tərəfindən verildiyi bildirilir. Məlumatlara görə, Şeyx Sədrəddin məqbərənin tikilməsini Mədinədən özü ilə gətirdiyi ustaya tapşırdı. Məqbərənin layihəsi barəsində qərar qəbul edilməmişdən əvvəl Şeyx Sədrəddin usta-memardan gözlərini yummağı və daxilində məqbərənin layihəsi barəsində düşünməyi xahiş edir. Memar da bu xahişə əməl edir və gözlərini yumduqdan sonra onun zehninə gələn təsəvvürü Şeyx Sədrəddinə təsvir edir. Şeyx Sədrəddin də memarın təsviri əsasında tikiləcək günbəzin layihəsini müəyyənləşdirir. Şeyx Səfiəddin günbəzi əzəmətinə, yaraşığına və memarlığına görə Şeyx Sədrəddinin möcüzəsi kimi qəbul olunur (26) və o öz dövrünün ən hündür binalarından biri sayılırdı (27).

"Allah, Allah" günbəzinin əsası Şeyx Səfiəddinin dünyasını dəyişdiyi il, yəni 1334-cü ildə qoyulmuş və onun tikintisi bir neçə il davam etmişdi. Əsası qoyulduğu ildən də bu günbəz xanəgahın tərkib hissəsinə çevrildi. Yəni bu günbəz, əslində, Səfiviyyə xanəgahının yeni bir elementi kimi nəzərdə tutulmuşdu və tikildikdən sonra xanəgahla birlikdə vahid bir kompleksi təşkil etdi.

Ümumən, Şeyx Səfi məqbərə-kompleksinin tikilişinin başlanması və davam etməsi bir neçə mərhələyə bölünür. Mütəxəssislər bu tikinti işlərinin dörd mərhələdə aparıldığının bildirirlər: 1-ci mərhələ miladi tarixlə 1300-1349-cu illər arasında olan

dövrü əhatə edir. Məqbərə kompleksinin ilk binalarının məhz bu dövr arasında tikildiyi bildirilir. Həmin dövrdə tikilən binalara Şeyx Səfiəddinin xanəgahı, hərəmxana, “Allah, Allah” günbəzi, Sahət, Darülhəfaz, Şahnişin, Orta həyət, Yeni çilləxana aiddirlər. 2-ci mərhələ 1349-1544-cü illəri əhatə edir. Həmin dövrdə məqbərə kompleksinə daxil olan Şah İsmayılın məqbərəsi, onun anasının məqbərəsi, Dürülhədis, Cənnətsəra, Şəhidgah və Şeyx Səfi məqbərəsinin cənub hissəsində yerləşən həyət tikilmişdir. 3-cü mərhələ 1544-1752-ci illəri əhatə edir. Həmin dövr ərzində Çinixana, Şah Abbas darvazası, bağ tikilmişdir. Nəhayət, 4-cü mərhələ 1752-ci ildən XX əsrə qədər olan dövrü əhatə edir. Bu dövr ərzində isə məqbərə kompleksinə daxil olan mədrəsə, xidmət obyektləri, motorxana, gülxana tikilmişdi (28).

Göründüyü kimi, Səfəvi xanəgahının məqbərə kompleksinə çevrilməsi üçün ilk ciddi addım Şeyx Sədrəddin tərəfindən atılsa da, sonrakı dövrlərdə, xüsusilə, Səfəvi şahlarının hakimiyyəti illərində bu məqbərə kompleksi həm genişlənmiş, həm də rövnəq tapmışdır. Nəticədə, “Allah, Allah” günbəzi ətrafında yeni tikililər meydana gəlmiş və onlar Şeyx Səfi məqbərə-kompleksini daha da tamamlamışlar (Şeyx Səfi məqbərə-kompleksinin ümumi planını şəkil-1-də görmək mümkündür).

Bütünlükdə, təkmilləşdikdən sonra Şeyx Səfi məqbərə-kompleksinə aşağıdakı tikililər və sahələr daxil idi:

- Şeyx Səfiəddin məzarı və “Allah, Allah” günbəzi
- Darülhüfaz; Qəndilxana və ya Namazxana
- Şahnişin
- Şah İsmayılın məzarı və Şah İsmayıl günbəzi
- Hərəmxana  və ya Mühyiəddin Məhəmmədin məzarı
- Çinixana
- Darülhədis (darüssəlam tağı)
- Cənnətsəra məscidinin binası
- Şah Abbas darvazası
- əsas və ya böyük darvaza
- böyük həyət və ya bağ həyəti
- orta kiçik həyət

- Sahət və ya əsas meydan
- Çilləxana
- Darülhədis günbəzinin şimalında yerləşmiş Şəhidgah
- xanəgah və ya zaviyə
- Darülhüfazın cənub hissəsində yerləşən şahzadələr məqbərəsi;
- Şah İsmayıl dövründə darülhədisin üzü qibləyə tikilmiş eyvanı;
- Şah İsmayılın xanımının (Şah Təhmasibin anasının) məqbərəsi
- Darülhədis eyvanı qarşısındakı Məqsurə (namaz qılmaq və ya məzar qurmaq üçün pərdə ilə ayrılmış məkan)
- Şeyx Sədrəddinin fəaliyyət göstərdiyi məkan
- 40-dan artıq hücrə və ya otaq
- Süffə (Səfəvi xanədanının bəzi əmirlərinin və başçılarının məzarları)
- mətbəx və ya çörəkbişirmə sahəsi
- Səfəvi şeyxlərinin üzü Şeyx Səfiəddinin məzarına yönəlik məzarları
- hovuzun, şirniyyat və halva paylanan yerin yanında olan şərbətxana
- xonçaxana, yuxarı və aşağı hücrələri olan anbar
- şərbətxana və xonçaxana arasında yerləşmiş dəftərxana
- nəqaraxana (musiqi otağı) və onun arxasında hamam (29).

Bu məqbərə-kompleksin mühüm özəlliklərindən biri budur ki, onun tikintisi üçün müxtəlif sənət sahələrinə müraciət edilmiş və nəticədə burada müxtəlif sənət sahələri, o cümlədən yüksək sənətkarlıq səviyyəsinə çatdırılmış bənnalıq, kaşı işləmələri, oyma sənəti, xəttatlıq, rənglərin və elelmentlərin məharətli nisbəti, suvaq işləri böyük ustalıqla bir-birinə qovuşmuş və tamamlanmışdır. Divarların və tikililərin müqəddəs kəlamları əks etdirən xəttatlıq nümunələri ilə tamamlanması həmin tikililərə xüsusi bir görünüş verməkdədir. Şeyx Səfi məqbərə-kompleksinin gözoxşayan xəttatlıq nümunələrinin yazılmasında Səfəvilər dövrünün tanınmış xəttatlarından olan Mirimad, Mir Qəvaməd




**Şəkil - 1**

Şeyx Səfi məqbərə-kompleksinin ümumi planı (şəkil-1): 1.Hərəmxana və giriş; 2. "Allah, Allah" günbəzi; 3. Çinixana; 4.Yeni Çilləxana; 5. Darülhəfaz (Qəndilxana); 6. Qurbangah; 7.Şah İsmayılın məqbərəsi; 8. Darülhədis; 9. Cənnətsəra; 10. Məqbərənin əsas giriş tağı; 11. Şah Abbas tağı; 12. Əsas həyət; 13. Alaqapı tağı (darvazası); 14. Bayır həyət; 15. Şəhidgah

din, Məhəmməd İsmayıl və başqaları yaxından iştirak etmişlər. Şeyx Səfi məqbərə-kompleksinin tikililəri üzərində və daxilində nəqqaşlıq və rəssamlıq işləri, bəzək işlərinin aparılmasında qızıldan və gümüşdən istifadə edilməsi də böyük sənətkarlıqla həll olunmuşdur. Məqbərə kompleksinin tikililərinin xarici və daxili bəzədilməsində müxtəlif həndəsi elementlərin və bəzək fiqurlarının uyğun ölçüdə və biçimdə istifadəsinə, irfani ədəbiyyatın nümunələrinə, islami memarlıq ənənələrinin tətbiqinə və tikintinin ümumi ahəngi ilə əlaqələndirilməsinə də rast gəlmək mümkündür. Rəssamlıq və nəqqaşlıq işlərində təbiət mövzularına, müxtəlif heyvanların, o cümlədən quşların, əjdəhaların təsvirinə müraciət edilməsini görmək mümkündür. Bütünlükdə, bu kompleksin tikililərinin tamamlanmasında elə bir ustalıq və məharət ortaya qoyulmuşdur ki, insan heyrətinə yol açmaqla bərabər, həm də uzun zamanlar islam memarlığının meyarı və ən parlaq nümunəsi kimi sənətkarların diqqətini cəlb etmişdir. Mütəxəssislər və tədqiqatçılar şübhə etmirlər ki, bu memarlıq kompleksinin tikintisinə cəlb olunan sənətkarlar irfan və etiqad əhli olmuşlar. Məhz bunun nəticəsidir ki, onlar Səfəvi və bütünlükdə irfani dəyərləri bu memarlıq kompleksinin ümumi məzmununda qabarıq şəkildə əks etdirə bilmişdilər (30)

Kompleksin tikilməsində ulduz təsvirlərindən, 5, 6, 8, 10, 12 bucaqlı elementlərin təsvirlərindən geniş istifadə edilməsi, bu təsvirlərin və digər təsvirlərin həndəsi uyğunlaşdırılması, düzgün rəng təsirinin seçilməsi, islam memarlığının ənənlərindən olan mehrab elementindən daxili və xarici bəzək işlərində geniş və məqsədyönlü şəkildə istifadə edilməsi, müqəddəs kəlamların qabarıq və həm də ümumi arxitektura ahənginə uyğun şəkildə nəzərə çarpdırılması, bütünlükdə, məkanın mənəvi və irfani atmosferinin müəyyənləşməsinə, zəvvarlarda və seyrçilərdə isə məkanın müqəddəsliyinə daxili hisslər formalaşmasına yol açır (31).

Əslində, bu kompleksin elə bir arxitekturası nəzərdə tutulub ki, zəvvarlar və seyrçilər bu kompleksdə özlərini dərhal müqəddəs bir məkanda hiss etsinlər. Giriş darvaza və tağlarının

möhtəşəmliyi, günbəzlərin əzəməti, komleksin ümumi mənzərəsinin müəyyənləşməsinə imkan verən rəng seçimi məhz kompleksin müqəddəslik atmosferinin yaradılmasına xidmət edir. Bu kompleksin yaradılması zamanı ona səy göstərilmişdir ki, yeni məzmun kompleksin xanəgah funksiyasını kölgədə qoymasın və Səfəvi təriqət müridləri və tərəfdarlarında bu məkanı heç bir vaxt mənəvi təmizlənmə məkanı olmaq əhəmiyyətini itirməsin.

Məqbərə kompleksinin daxilində və kənarında bir neçə həyət, açıq fəza vardır ki, kompleksin əsas binaları da bu həyətlərin dövrəsində tikilmişdir. Bu həyətlər sadəcə boş fəzalar deyildirlər. Onlar kompleksi həm arxitektura baxımından tamamlayırlar, həm də onların hər biri dini-irfani məzmun kəsb edirlər. Həmin həyətlərə - bağça həyəti, böyük (əsas) həyət, bağça həyəti ilə əsas həyət arasında qərar tutmuş kiçik həyət və kompleksin cənubunda yerləşən həyət və ya Şəhidgah (32). Bunlardan əlavə, kompleksdə həm də bayır həyət mövcudur.

Şeyx Səfiəddinin məqbərəsi kompleksi Alaqapı meydaının cənub-şərqində yerləşmişdir. Bir vaxtlar bu meydanın sahəsi daha geniş imiş və onun ölçüləri 300x150 addım civarında olmuşdur. Hazırda həmin meydan göstərilən ölçülərdən kiçikdir. Mövcud məlumatlara görə, Şah Abbasın hakimiyyəti illərində bu meydandan şəhər bazarına qapılar açılmış, meydanın ətrafında mağazalar tikilmiş və meydanın künclərindən birində hətta şəhərin inzibati binalarından biri yerləşmişdi. Bütün bunlar isə meydanın ölçülərinin kiçilməsinə gətirib çıxarmışdı. Meydanın divarları boyunca tikilmiş mağazalar, əslində, kompleksin bir elementini təşkil etmişdilər. Çünki onlar kompleksin vəqf əmlakı idilər. Kompleksə aparan giriş 6 metr hündürlüyündə, 4 metr enində və 10 santimetr qalınlığında olan iki taylı qapıdan başlayırdı. Bu giriş qapısı əvvəllər kaşılarla işlənmişdi. Sonralar qapı üzərində aparılan müxtəlif təmirlər nəticəsində kaşıların çoxu tökülmüşdür. Kaşılar arasında ərəb dilində yazılmış kitabə vardır ki, bu kitabə qapının Şah Abbas zamanında tikildiyindən xəbər verir. Həmin kitabə belədir (33) :




**Şəkil – 2. Şeyx Səfi kompleksinə açılan böyük meydan**



**Şəkil-3. Şeyx Səfi kompleksinə açılan qapılardan biri**

« قد اتفق الفراغ من هذه العماره الشريفه الرفيعه ، في ايام دولت خاقان الاعظم والسلان المعظم ، مالك الرقاب العرب والعجم ، السلطان بن السلطان شاه عباس الصفوي الموسوي الحسيني بهادر خان خلدالله ملكه وسلطانه ، افاض الله علي العالمين بره وعدله واحسانه ، به سعي اميرالكبير الموید به تاييد الملك المنان . نظر عليخان المتولي ١٠٥٧ه.ق »

Bu qapı ilə üzbəüz, meydanın qərb hissəsində Alaqapı darvazası adlanan başqa bir darvaza da vardır. Həmin darvaza da öz memarlıq gözəlliyi ilə göz oxşayır və onun tikilməsi II Şah Abbasın hakimiyyəti illərinə təsadüf edir. Mövcud məlumata görə, bu darvazanın memarı Yusif şah ibn Məlik Səfiya, kaşi ustası isə İsmayıl ibn Nəqqaş Ərdəbili olmuşdur. 1321-ci ildə (şəmsi) aparılan təmir işləri zamanı bu darvaza sökülmüş və bu darvazanın üzərində olan kitabə də çıxarılaraq kompleksin anbarına aparılmışdır (34).

Məqbərənin qərb hissəsindəki qapıdan keçməklə baş həyətinə daxil olmaq mümkündür. Bu bağ həyətin ərazisi 96x26,5 metrdir. Bu həyət giriş qapısı ilə kompleksin mərkəzi elementi arasında aralıq sahəni təşkil edir. Həyətin daxilində iki yerdə daş fəvvarə quraşdırılmışdır. Bu fəvvarələrin Səfəvi dövründə quraşdırıldığı güman edilir. Həyətin ətrafına daş divar çəkilib və bu divarın üzəri də kərpiclərlə örtülübdür. Qapının (şəkil-4) üstü mehrab şəklində tikilib və ətrafı nəbatat rəsmlərini əks etdirən kaşılarla bəzədilib (35).

Böyük həyətin sonunda bir dalan vardır.Həmin dalan kiçik məkan və ya aralıq yol kimi də tanınır. Bu dalana böyük həyətdən qapı açılır. Həmin qapı mərmərdən tikilmişdir və qapının üzərində tağ vardır. İndi mövcud olan tağ Qacarlar dövrünün yadigarıdır. Əvvəllər orada Səfəvilər dövründə tikilmiş tağ olmuşdur. Müəyyən vaxtdan sonra öz əvvəlki görkəmini itirdiyi üçün onun yerində Qacarlar dövründə yeni bir tağ tikilmişdir. Ərazisi 14,50x5,70 metr olan dalandan şərqə və qərbə qapılar açılmışdır. Bu qapılar vasitəsilə Çilləxanaya və Şəhidgaha çıxmaq




**Şəkil-4. Şeyx Səfi məqbərə-kompleksinin bağ həyətinə açılan qapı**

mümkündür. Artıq uçub-dağılmış olan Çilləxana Şeyx Səfi xanəgahının mühüm elementlərindən bir olmuşdu. Səfəvi təriqət müridləri öz nəfslərinin cilovlanması və pəhrizkarlığın gücləndirilməsi üçün çilləxanalarda çilləyə oturardılar. Yəni 40 gün müddətində oruc tutmaqla günlərini zikr və ibadətdə keçirərdilər. Çilləxananın qalıqları kompleksin bu hissəsinin də yüksək memarlıq nümunəsi olmasını nümayiş etdirir. Bu məkanın da müəyyən hissələri rəngli kaşılarla örtülmüşdü. Hazırda Çilləxana ərazisi tərk edilmiş dördbucaqlı bir sahədir ki, onun yalnız qərb hissəsində qövsvari tağları olan hücrələr görünməkdədir. Mövcud qalıqları görə, Çilləxananın vaxtilə iki mərtəbəli olması ehtimal edilir (36).

Kiçik məkanın və ya dalanın (aralıq yolun) şərqində böyük məkana daxil olmaq üçün darvaza vardır. Darvaza üstündəki tağ kaşılarla işlənmiş və orada bu darvazanın Şah Abbas tərəfindən tikilməsi haqqında kitabə yazılmışdır. Bu tağ böyük məkanın tağı və ya Şah Abbas tağı kimi tanınmaqdadır. Ölçüləri 30,4X16,1 metr olan böyük məkan həm də Qəndilxana həyəti kimi tanınmaqdadır. Bu məkanın həyətinə böyük daş parçaları döşənmişdir




**Şəkil-5. Böyük məkanın əhatə etdiyi Cənnətsəra məscidi (solda) və sağda ona bitişik Qəndilxana**

və həyətin ortasında bir daş hovuz da tikilmişdir. Hovuz görünüşü çiçək ləçəklərini andırır. Bu hovuzun Şah Təhmasib zamanında tikilməsi ehtimal edilir. Hovuzun dövrəsi boyu 12 lə-

çəkvarı dövrələmə müşahidə olunur. Mütəxəssislərin fikrincə, bu 12 ləçək 12 imamın və ya da 12 qızılbaş tayfasının nişanəsidir.



**Şəkil-6. Qəndilxana ilə üzbəüz tikilimiş yaşayış binası**

Vaxtilə bu hovuzun kənarında su quyusu da mövcud imiş və hovuzun suyu həmin quyudan alınırmış. Sonradan bu quyunun üstü bağlanmışdı. Böyük məkanın şərqində və qərbində tikililər mövcuddur. Qərb tərəfdə Darülmütəvali adı ilə tanınan bina, çilləxana və yaşayış yeri olmuşdur. Sağ tərəfdə olan bina isə Cənnətsəra adlanır. Günbəzə malik olan bu binada ibadət mərasimləri və irfani irşad həyata keçirilirdi (37).

Cənnətsəranın hansı məqsədlə tikilməsi haqqında fərqli fikirlər mövcuddur. Bəzi fikirlərə görə, bu məkan sufi rəqslərinin icrası üçün tikilmişdir. Çünki bu binada indiyədək meydan daşı qalmaqdadır ki, bu daş da sufi rəqsləri üçün lazım olan bir elementdir. Bəzilərinin fikrincə isə bu bina məscid üçün nəzərdə tutulmuşdur. Lakin onun mehrabsız olması bu binanın məscid kimi tikilməsini şübhə altına alır. Sonralar Şeyx Səfi məqbərəsinə

hədiyə edilən əşyaların və xüsusilə də kitabların sayı artdıqda onlar bu binaya toplanıldı və bina kitabxana rolunu oynamağa başladı. Binanın tavanının təmir işləri aparılmış və Qacarlar dövründə tavan yenidən qurulmuşdur. Son dövrlərdə isə binanın tavanında kərpicdən günbəz tikilimişdir. Bu günbəz məqbərə kompleksinin ən böyük günbəzi hesab olunur. Cənnətsəranın şimal və qərb divarlarında qapılar açılmışdır ki, bu da binanın daxilindən qonşu otaqlara keçməyə imkan verir (38).

Böyük məkanın cənubunda, Cənnətsəra binası ilə üzbəüz Darülhədis və ya Tağí-mütəvali yerləşmişdir. Bu binanın şəbəkə ilə işlənmiş böyük qapısı, eyvanının hər iki tərəfində iki kiçik otaq vardır. Binanın bəzədilməsində kaşılardan istifadə edilmiş və onun qarşı tərəfinin divarlarına islam peyğəmbərinin hədisləri nəqş olunmuşdur. Binaya açılıan kiçik məqbərəsyə giriş qapılarda "Ya Səfiullah" sözü mütənasib şəkildə yazılmışdır. Bu bina Səfəvi hakimiyyətinin sonlarında məqbərə-kompleksin xidmətçiləri, habelə dərs keçilməsi üçün tikilmişdi (39).




**Şəkil - 7.Darülhədis və ya Tağí-mütəvali**



**Şəkil-8. Böyük məkanın bir hissəsi**



**Şəkil-9. Cənnətsəra məscidi və Qəndilxana**




**Şəkil-10. Qəndilxananın "Allah, Allah" günbəzinə birləşməsi**




**Şəkil-11. Qəndilxananın giriş qapısının tağı**



**Şəkil-112 Qəndilxananın daxili görünüşü**



**Şəkil-13. Qəndilxananın daxili görünüşü. Yuxarıbaşdakı pilləkanlı məkan Şahneşin adlanır**



**Şəkil-14. Qəndilxanadan Şeyx Səfi məzarına açılan qapı**

qədim binalarından biridir və o da öz memarlıq gözləlliyi ilə göz oxşayır. Binanın Qəndixana adlandırılmasının səbəbi isə vaxtilə onun işıqlandırılmasında çoxlu şamı olan qəndillərdən istifadə edilməsi olmuşdu. Qəndilxananın sahəsi kifayət qədər böyükdür. Ona görə burada toplu şəkildə namaz qılınmış, "Quran" ayələrinin təfsirlərinin müzakirəsi aparılmışdır. Binanın Namazxana və ya Darülhüfaz adlandırılması da ondan namaz məkanı kimi istifadə edilməsi ilə bağlıdır (40).

Qəndilxananın cənub qurtaracağı Şahneşin adlanır. Bu məkan Qəndilxananın döşəməsindən 60 santimetr hündürdür və iki pillə vasitəsilə bu məkana daxil olmaq mümkündür. Şahneşin adlanan məkan Qəndilxanadan gümüş barmaqlıqlar vasitəsilə ayrılır və bu məkanın yuxarısını kiçik tağ tamamlayır. Şahneşin Şeyx Səfiəddinin məqbərəsinə daxil olmaq üçün giriş məkanıdır. Şeyx Səfiəddinin məqbərəsindən isə Şah İsmayılın məqbərəsinə və Hərəmxanaya daxil olmaq üçün keçidlər vardır. Şahneşinin sahəsi 4,8x5,7 metrdir. Bu sahənin divarları da yüksək zövqlə bəzədilmiş, divarlara "Quran" ayələri ilə bərabər Şeyx Səfi nəslinin nümayəndələrinin adları həkk olunmuşdur. Şahneşinin divarlarında dörd gümüş qapı vardır. Bu qapılar zərgərlik texnikasına görə son dərəcə qiymətli sənət nümunələri kimi qəbul edilir. Həmin qapıların bəzilərinin üzərində nəstəliq xətti ilə şeir parçaları da yazılmışdır (41).

Qəndilxananın xarici görünüşü də xüsusi zövqlə işlənmişdir. Binanın yuxarı hissəsində daşlardan şəbəkəyə oxşar xüsusi bəzəklər qurulmuşdur və bu bəzəklər bina boyu uzanmaqdadır. Binanın özül hissəsi hündürlüyü təxminən bir metrə yaxın olan qara daşlarla örtülmüşdür və qara daş örtüyünün üzərində isə beş ədəd pəncərə açılmışdır. Bu pəncərələr mütənasib şəkildə binanın yuxarı qatında da təkrar olunur. Ətrafı kaşilərlə işlənmiş bu pəncərələr dəmir barmaqlıqlarla mühafizə olunurlar. Binanın sol küncündə isə Qəndilxanaya daxil olmaq üçün hündür bir tağ mövcuddur. Bu tağ da həm kaşilərlə işlənmiş, həm də yuxarısında kitabə yazılmışdır. Yuxarı sırada olan pəncərələrin üstündə də bütün bina uzunu kitabə vardır. Bu kitabə kaşılar üzərində yazıl-

mışdır. Binanın aşağı qatındakı ikinci və üçüncü pəncərələrin arasında 1,15X1,31 ölçüsündə divara bərkidilmiş mərmər lövhədə Şah Təhmasibin fərmanı həkk olunmuşdur. Həmin fərmanda bəzi qadağalar haqqında şah hökmü təsbit olunmuşdur (42).

Qəndilxanadan Şeyx Səfi məqbərə-kompleksinin çox maraqlı məkanlarından biri olan Çinixanaya da giriş açılır. Güman eidlir ki, Çinixananın binası məqbərə kompleksinin ən qədim binalarından biri olmaqla "Allah, Allah" gümbəzi ilə eyni zamanda tikilmişdir. Əvvəllər bu bina mərasim salonu və dərvişlərin toplantı məkanı kimi istifadə olunmuşdur. Bina səkkiz güşə üzərində planlaşdırılmışdır və onun dörd guşəsindən hündür tağlar qurulmuşdur. Binanın diametri 18 metrə yaxındır. Ortada beşbucaqlı böyük tağ vardır. Tağların divarlarında isə kitabların və çini qabların yerləşdirilməsi üçün kiçik hücrəciklər yaradılmışdır. Binanın günbəzi vardır və dışarıdan bu günbəzin ölçüsü xeyli böykdür. Daxildən isə günbəzin divarları Səfəvi dövrünün ənənələrinə uyğun olaraq nəqqaşlıq elementləri ilə bəzədilmiş və qızıl suyuna salınmışdır. Binanın daxilində tağlar qurulub və onların qübbəsi yarıgünbəz şəklində düzəldilmişdir. Tağların hamısı beş guşəlidir. Şah Abbasın hakimiyyəti illərində bu bina daxilində yenidənqurma və təmir işləri aparmaqla onun daxili görünüşündə dəyişiklik edilmişdir. Həmin dəyişiklikdən sonra bina nəfis kitabların, qiymətli əşyaların və çini qabların saxlanc yerinə çevrilmişdi. Vaxtilə Çinixanada saxlanılan çini qablar əntiq və bahalı çini qablar sayılırdı və onlar Şah Abbas tərəfindən xüsusi olaraq Şeyx Səfi məqbərəsi üçün Çin ustalarına sifariş edilmişdi. Bu qablara Şah Abbasın möhürü də vurulmuşdu. Həmin möhürdə olan yazının tərcüməsi belə idi: "Bu bəndə Şah Abbas tərəfindən Şeyx Səfi astanasına vəqf edilmişdir". Şah Abbas tərəfindən gətirilmiş çini qabların sayı 1400-ə çatırdı. Bu qabların saxlanması üçün daxili divarlarda 1256 hücrəcik düzəldilmişdi. Hücrələrin hazırlanmasına da yüksək sənətkarlıqla yanaşılmışdır və bu hücrəciklər hətta boş olduqları zaman da binanın daxili görünüşündə bir mütənasiblik yaradırlar. İstrər hücrəciklərin, istərsə də onların kənarlarının işlənməsində və bəzənməsində də məha-

rət və ustalıq nümayiş etdirilmişdir. Bütünlükdə binanın daxili interyerinin yaradılmasında nəqqaşlıq, rəssamlıq, şəbəkə işləri bir



**Şəkil-15. Çinixana**

birini tamamlamış və nəticədə göz oxşayan bir görüntü yaranmışdır. Binanın daxili divarları təxminən üç metr hündürlüyündə təbiət rəsmləri ilə örtülmüşdür. Bu rəsmlər əsasən güllərin, çiçəklərin və digər nəbatat əşyalarının təsvirindən ibarətdir. Nəbatat rəsmlərindən yuxarı isə bütün divar boyu kəmərvari bir haşiyə rəsm edilmiş və bu haşiyədən yuxarıda isə qiymətli kitabların və əşyaların saxlanması üçün müvafiq hücrələr yaradılmışdır. Çinixana dışarıdan xüsusi bəzək işlərinə məruz qalmaıbdır. Xaricdən bu bina səkkizguşəli görünür. Binanın üstündə isə günbəz tikilmişdir. Günbəz üzərində binanın daxildən işıqlandırılması üçün pəncərələr qoyulmuşdur. Çinixana qırmızı kərpicdən tikilib və xaricdən öz təbii halını qorumaqdadır (43).



**Şəkil-16. Çinixana**

Şeyx Səfi məqbərə-kompleksinin mərkəzi elementi, heç şübhəsiz ki, Şeyx Səfiəddinin qəbrinin üzərində tikilmiş "Allah, Allah" günbəzidir. Bu tikili möhtəşəmliyi, memarlıq üslubu, kəsb

etdiyi məzmun etubarilə islam və şərq memarlığının bu gün də göz oxşayan nümunələrindən biridir. Bu günbəzin tikintisində möhtəşəmlik, estetik gözəllik və dini məzmun bir-birini tamamlamaqla islam aləminin ən böyük ariflərindən biri olan Şeyx Səfiəddinin xatirəsinin əbəbdiləşrilməsi üçün dəyərli memarlıq



**Şəkil-17. Şeyx Səfi məqbərə kompleksinə daxil olan Şəhidgahın ümumi görünüşü.**

abidəsinə çevrilmişdir. Tikilişindən uzun müddət ötməsinə baxmayaraq bu günbəz ciddi bir deformasiyaya uğramayaraq günümüzə qədər özünün ilkin gözəlliyini qoruyub saxlaya bilmişdir. Əzəmətinə və gözəlliyinə görə bu günbəzi yalnız islam mədəniyyətinin deyil, dünya mədəni irsinin də ən gözəl nümunələrindən biri hesab etmək olar.

Yalnız zahiri görünüşü bu günbəzin tikintisinə dövrün təcrübəli memar və ustalarının cəlb edilməsindən xəbər verir. Mütəxəssislərin fikrincə, bütünlükdə məqbərə-kompleksə daxil olan digər tikililər kimi, "Allah, Allah" günbəzində də azəri və İsfahan memarlıq üslubundan istifadə edilməsi, həmin günbəzi çox qiymətli bir memarlıq incisinə çevirmişdir (44).

"Allah, Allah" günbəzi Qəndilxananın cənub-qərbində tikilmişdir və yuxarıda qeyd edildiyi kimi, Qəndilxanadan və Şah-

neşindən onun daxilinə keçid vardır. Bu günbəzin özülünü hündürlüyü təxminə 1,5 metr olan böyük qara daşlar təşkil edir və bu özül 8 künc şəklində qurulmuşdur. Günbəzin özü isə xaricdən dairəvi şəkildə, daxildən isə 8 künc şəklində tikilmişdir və onun hündürlüyü 17,5 metrdir. Günbəzin yuxarısı yarımdairə şəklində tamamlanmışdır. Günbəzin diametri txminən 6 metr və onun daxili sahəsi isə 22 kvadrat metrdir. Bu günbəz ayrıca bir bina kimi tikilmiş və yalnız sonralar onun şimal tərəfindən keçid açılaraq Qəndilxana ilə birləşdirilmişdir. Günbəzin şimal tərəfində isə tağvari qapı qurulmuşdur. Bu qapı Qiblə qapısı da adlanır və bu qapının ətrafında ikiqat dördkünc haşiyə yaradılmış və bu haşiyələrin arasında isə kitabə yazılmışdır. Həmin kitabə qapının sağ tərəfində, özüldən başlayaraq qapının perimetri boyunca yazılmış və qapının sol aşağı küncündə qurtarmışdır. Kitabədə Əl-Ənam surəsinin 79-cu, 163-cü və 164-cü ayələri, Əl-Nəsra surəsinin isə 82-ci ayəsi öz əksini tapmışdır. Kitabə süls xətti ilə ağ rəngdə yazılmışdır. Bu kitabənin əhatə etdiyi haşiyənin göy fonunda qılızı rəngdə “Quran”ın Ən-nəsa surəsinin 97-ci ayəsi də həkk olunmuşdur (45).

Günbəz kifayət qədər hündür binadır və tikildiyi zaman şəhərin hər tərəfindən onu görmək mümkün idi. Günbəzin xarici görünüşünün bəzədilməsində göy rəngə üstünlük verilmişdir. Göy rəng islam aləmində həqiqət rəngi kimi qəbul edilməkdədir. Günbəzin bəzədilməsində bu rəngdən üstün şəkiıdə istifadə edilməsi isə o mənanı verir ki, həqiqi olan heç nə ölmür və həqiqət əbədidir. Bununla Şeyx Səfiəddinin və onun etiqadının da əbədiliyinə bir işarə edilmişdir (46). Göy rəng həm də türklük rəngidir. Ola bilsin ki, binanın bəzədilməsində göy rəngə üstünlük verilməsi zamanı bu məqam da nəzərə alınmışdır.

Günbəzin xarici onun həm əzəmətini, həm də müqəddəsliyə bağlılığını xüsusi olaraq qabardır. Divarlar üzərində olan naxışlar eyni zamanda müqəddəs ayələrdən yazılmış kitabələrlə tamamlanmışdır və onlar da günbəzin məzmununu müəyyənləşdirməkdən əlavə, həm də onun xarici görünüşünə və görkəminə əlavə bir yaraşıq vermişdir.





**Şəkil-18. Şeyx Səfiəddinin qəbri üzərindəki günbəzin cənub hissəsindəki pəncərə tağı və günbəzin divarları boyunca "Allah" sözünün göy kaşılarla yazılışı**





**Şəkil-19. "Allah, Allah" günbəzinin daxildən və xaricdən görünüşü**




**Şəkil-20 "Allah, Allah" günbəzinin ümumi görünüşü**



**Şəkil-21. “Allah, Allah” günbəzinin üzərində “Allah” sözünün yazılış formaları. Günbəzin eninə kəsiyində onun xarici və daxili görünüşü**



**Şəkil-22. “Allah, Allah” günbəzinin divarının əsas hissəsi ilə onun qübbəsi arasında yerləşdirilmiş kitabə. Divarın ortasındakı dairə daxilində günbəzin ustasının adı yazılmnışdır**

Günbəzin xarici görünüşünün əsas bəzək elementi, sözsüz ki, “Allah” sözünün bütün divar boyu göy kaşılarla mütənasib məsafədə yazılışıdır. Bu söz ərəb əlifbası ilə düzgün formada, üzü aşağı çevrilmiş formada, üzü aşağı istiqamətdə və üzü yuxarı istiqamətdə, yəni dörd formada yazılmışdır. “Allah” sözünün müxtəlif formada yazılışı ilə divarlar üzərində xalça naxışını andıran bir kompazisiya yaradılmışdır. Günbəzin xarici divarının əsas hissəsi ilə qübbəsi arasındakı keçid sahədə əlavə bəzək işləri aparılmışdır. Əvvəlcə, divar boyu dövrələmə kitabə yazılmış və kitabə aşağıdan və yuxarıdan nəbati haşiyə ilə dövrələnmişdir. Kitabənin yazıldığı hissədə tünd göy fon yaradılmış, bu fon üzərində açıq göy rəngdə nəbati rəsmlər çəkilmiş və onun da üzərində ağ rəngdə kitabə yazılmışdır. Bu kitabə “Quran”dan ayə lərdir. Ehtimal edilir ki, bu ayələr Şeyx Sədrəddinin özü tərəfindən seçilmişdir. Həmin kitabə belədir (47):

« بسم الله الرحمن الرحيم ،اشهدالله انه لااله الاهو، والملائكه واولوا العلم قائما بالقسط ، لااله الا هوالعزيز الحكيم(a). ان الدين عندالله الاسلام(b). هوالحي الذي لااله الّاهو ، فادعوه مخلصين له الدين : الحمدالله رب العالمين(c) . ذلكم الله ربكم لااله الاهو ، خالق كل شيء فاعبدوه وهو علي كل شيء وكيل(ç) . لاتدركه الابصار وهويدرك الابصار وهوالطيف الخبير(d)"

(**Tərcüməsi**: Rəhim və rəhman Allahın adıyla: (a)Allah şahidlik etmiş. Ondan başqa Tanrı yoxdur. Mələklər və insaflı elm sahibləri şahidlik etmişlər. Ondan başqa Tanrı yoxdur. O, güclüdür, müdrikdir [Al-İmran surəsi, ayə 18]; (b)Allah mərtəbəsində din – İslamdır [Al-İmran surəsi, ayə 19]; (ç) Rəbbiniz Allah budur. Ondan başqa Tanrı yoxdur. Odur hər şeyi yaradan. Ona ibadət edin. O, hər şeyə vəkildir [Ənam surəsi, ayə 102]; (d) Gözlər görməz onu. O isə gözləri görür. O lütf edəndir, hər şeydən agahdır [Ənam surəsi, ayə 103];

Kitabənin yuxarısındakı haşiyədə isə bir-birinin içərisində müəyyən məsafədə olan rombşəkilli dördbucaqların şaquli vəziyyətdə künclərinin biri üzərində təsviri verilmişdir. Günbəzin yarımdairəvi qübbəsində də dördbucaqlı elementlərin müxtəlif

vəziyyətə duruşu ilə bəzək kompazisiyası yaradılmışdır. Günbəzin şimal tərəfində, divarın yuxarı hissəsində, kitabəyə yaxın məsafədə yerləşmiş tünd göy dairəvi kaşı içərisində günbəzin ustasının adı yazılmışdır: "Əbdülfəqir əl Raci ila Əfu əs-Səməd Əvəz ibn Məhəmməd" (48).

"Allah, Allah" günbəzinin 8 guşəli olan daxilinin döşəməsi ağ daşlarla və kərpic rəngində olan kaşılarla döşənmişdir. Daxili divarların aşağı hissəsi təxminən 2,3 metr hündürlüyündə ağac materialları ilə örtülmüşdür. Bütün divar qübbəyə qədər gəclə işlənmiş və onun üzərində də rəsmlər çəkilmişdir. Bu rəsmlərdə parlaq rəngləri görmək mümkündür və bütün divar boyu xalça naxışlarını andıran naxışlarla örtülmüşdür. Bu rəsmlərin də əsasını nəbati mövzu təşkil edir və müxtəlif nəbati əşyaların rəsmi zamanı Səfəvi dövrü nəqqaşlığının ən yaxşı ənənə və təcrübəsindən istifadə edilmişdir. Nəticədə günbəz daxilində təbiətlə sanki bir həmahənglik yaradılmışdır. Günbəzin qübbəsində isə açıq rəng üzərində qızılı medalyonlar rəsm edilmişdir və burada qızılı, firuzəyi rəngin ağ rəng üzərində nəqş edilməsi aşağıdan müşahidə edərkən bir sonsuzluq təsəvvürü yaradır. Günbəzin daxili divarları ilə qübbənin keçidində tünd göy rəngli dairəvi haşiyə üzərində kitabə yazılmışdır (49). Həmin kitabədə "Quran"ın Fatihə surəsinin 1-5-ci ayələri həkk olunmuşdur. Məlumdur ki, həmin ayələrdə Allahın rəhimliyinə və rəhmanlığına şükrlər bildirilir və Onun qiyamət gününün sahibi olduğu iqrar edilir. Divarların küncələrinin qübbəyə keçiddəki kitabəyə birləşən hissəsində isə altıkünclü həndəsi elementlərdən bəzək kimi istifadə edilmişdir.

Günbəzin daxildən də hündürlüyü, həndəsi biçimlərin mütənasibliyi, rənglərin seçimi, fəzanın düzgün planlaşdırılması məqbərənin möhtəşəmliyini və əzəmətini daha da qabartmışdır. Bütün planlaşdırma və tikinti işlri eyni zamanda dini məzmunla dəqiqliklə əlaqələndirilmişdir və nəticədə Səfəvi memarlığının dəyərli bir nümunəsi yaradılmışdır. Memarlıq baxımından Şeyx Səfi məqbərəsinin ayrıca və peşəkar bir təhlilə və tədqiqə ehtiyacı

vardır və qeyd edilməlidir ki, bu istiqamətdə səfəvişünaslar tərəfindən artıq xeyli işlər də görülmüşdür.

"Allah, Allah" günbəzinin daxili görünüşünü tamamlayan mühüm elementlərdən bir də Şeyx Səfiəddinin məzarı üzərində görülmüş işlərdir. Əslində, məqbərənin planlaşdırılması, onun daxili və xarici görünüşü ilk növbədə Şeyx Səfiəddinin etiqad dərinliyinə, kəramətinə olan ehtiramın təsdiqinə istiqamətlənmişdir. Onun məzarı üzərində olan sənduğə də məhz bu məqsədə xidmət edir və memarlıq baxımından çox dəyərli bir sənət əsəridir.



**Şəkil-23. Şeyx Səfiəddinin məzarı üzərindəki ağac sənduğə**

Şeyx Səfiəddinin məzar daşı ağ mərmərdəndir. Bu məzar daşının üzərində isə nəfis şəbəkə ilə işlənmiş ağac sənduğə qoyulmuşdur. İşlənmə texnologiyasına, quruluşuna, zərifliyinə görə bu sənduğə Səfəvi dövrü islam və şərq memarlığının ən gözəl

nümunələrindən biridir. Sənduğənin uzunluğu 3,5 metr, eni 1,5 metr və hündürlüyü 1,8 metrdir. Bəzi məluymatlara görə, bu sənduğə Hind padşahı Baburun Səfəvi sarayına pənah gətirmiş canişininin Şeyx Səfi məqbərə-kompleksinə hədiyyəsidir. Onun Şah Təhmasibin dövründə Səfəvi sarayına pənah gətirməsi 1543-cü ilə təsadüf edir (50). Yəni Şeyx Səfiəddinin məzarı üzərində ağac sənduğə XVI əsrin sənət əsəridir. Qeyd etmək lazımdır ki, bu sənduğənin düzəldilməsi tarixi ilə bağlı bəzi müəlliflər tərəfindən fərqli fikirlər də irəli sürülmüşdür (51).

Forma baxımından bu sənduğə iki hissədən ibarətdir. Şərti olaraq onları aşağı və yuxarı hissə kimi də adlandırmaq olar. Aşağı hissə bir növ özül rolunu oynayır və sənduğənin əsas hissəsi (yuxarı) bu özül (aşağı) hissənin üzərinə qoyulmuşdur. Hər iki hissədə həm oyma işləri, həm relyefli yazılar, həm şəbəkə işləri, həm dəmir üzərində nəqaşlıq, həm minakari və digər memarlıq elementləri vardır və bütün bu elementlərin icra üslubu özünəməxsusluğu ilə seçilirlər.

Aşağı hissənin eni yuxarıdakı hissənin enindən genişdir, hündürlüyü isə azdır. Ona görə bu hissələr ölçülərinə görə bir-birindən fərqlənirlər. Konkret olaraq aşağı hissənin uzunluğu 3,12 metr, eni 1,32 metr, hündürlüyü isə 0,52 metrdir. Yuxarı hissənin uzunluğu isə 2,95 metr, eni 1,05 metr və hündürlüyü 1,04 metrdir. Sənduğənin düzəldilməsi üçün müxtəlif növ ağaclardan istifadə olunmuşdur. Bu sənət əsərinin müxtəlif hissələri fərqli ağac növlərindən düzəldilmişdir və bu zaman yonma, oyma, şəbəkə və başqa işlər üçün hansı oduncaq növünün daha yararlı olması nəzərə alınmışdır. Məsələn, yonma və relyef təsvirlər üçün şümşad və meşə armudu ağaclarına üstünlük verilib, sənduğənin kənarlarındakı haşiyənin işlənməsi üçün isə çinar və armud ağaclarından istifadə olunub. Lakin nəzərə alınmalıdır ki,



**Şəkil-24 Şeyx Səfiəddinin məzarı üstündəki sənduğənin sol küncünün təsviri**

sənduğə kifayət qədər qədim bir sənduğədir və onun hazırlanmasına istifadə olunmuş oduncaq üzərində aşınmalar gedib. Ona görə sənduqənin hazırlanmasında hansı odun növlərindən istifadə edilməsini bütünlüklə müəyyənləşdirmək mümkün deyil (52).

Sənduğənin istər yuxarı, istərsə də aşağı hissəsinin mərkəzi hissəsi şəbəkə ilə bəzədilmişdir. Şəbəkənin ətrafı isə haşiyələrlə əhatələnmişdir. Yuxarı hissənin yuxarıdaklı haşiyəsi kitabəni özündə əks etdirir. Kitabənin mətni relyef şəklində həkk olunmuşdur. Yəni mətnin hərflərinin ətrafı oyulmuş, hərflərin tutduğu sahə isə toxunulmamış qalmışdır. Şəkillərdən göründüyü kimi,

Qəndilxanadan daxil olarkən sənduğənin müşahidə edilən tərəfinin sol küncündə kitabə olan haşiyənin sonluğu bir cüt dəmir medalyonla tamamlanır. Bu medalyonlar bir-birinin oxşarıdırlar və onlar sənduğənin küncüün möhkəmləndirilməsi üçün istifadə edilmişdir. Medalyondan sənduğənin yuxarı hissəsinin aşağı künclərində də tək-tək istifadə olunmuşdur. Kitabənin mətninin ətrafı sadəcə olaraq oyulmamışdır. Bu zaman hərflərin ətrafında qalmış boş sahələrdə çiçək təsvirləri həkk olunmuşdur və bu təsvirlər kitabənin hərflərinin səthindən aşağıdadırlar. Kitabənin mətni qızılı rəngə boyanmışdır. Hərflərin arasında oyma ilə təsvir edilmiş çiçəklər isə müxtəlif rənglərə boyanmışlar. Lakin uzun vaxt ötdüyü üçün bu rənglər öz parlaqlığını artıq itirmişlər (53).

Sənduğənin kitabəsinin mətni belədir (54):

« هذا مرقد المنوره ومضجع المتبركه الشيخ الرباني والعارف الصمداني ، كاشف اسرار الحقيقه ، محيي مراسم الطريقه ، حامي مفاخر الابرار ، حاوي مناقب الاخيار ، المكذم باليقين بانظار الخلائق علي العموم والاطلاق قطب العارفين ، سلطان المحققين ، امام قدوه اولياء الله الواصلين الي الفتح ، صفي الحق والمله والدين ، اسحق اجري الله تعالي آثار بركاته في الاطراف وآلافاق المعزز القدسيه المخصوص بارشاد الجنه والانسيه »

(Tərcüməsi: Bu nurlu və bərəkətli qəbr, bu Rəbbani Şeyx və İlahi Arif, həqiqətin sirrlərini kəşf edən, təriqət ayinlərini ihya edən, xeyirxax (əbrar) insanların saleh əməllərini himayəçisi, xeyirli insanların saleh əməllərini hifz edən, məxluqatın nəzərində yəqinə çatmış, ariflərin qütbü, tədqiqatçılaın sultanı, acılışa catmış övliyaların imamı, haqqın və dinin seçilmişi, İshaq – allah onun bərəkətini hər tərəfə yaysın, çin və insanı hidayət xüsusunda hörmətli...)

Kitabəni özündə əks etdirən haşiyənin sənduğənin kəllə və aşağı hissəsindəki davamı sadəcə oyma işləridir. Bu haşiyə sahələrində də müxtəlif ölçülü çiçəklər həkk olunmuşdur. Bununla, haşiyə bütün sənduğə boyu davam etdirilmişdir (55):





**Şəkil-25. Şeyx Səfiəddinin məzarı üzərindəki sənduğənin kitabəsinin relyef və oyma işləri (Sənduğə üzərindəki bəzək işlərinə aid şəkillər S.Mehryarın "Sənduğ-e qəbr-e çubi-ye Şeyx Səfiəddin Ərdəbili, şahkar-e honər-e islami və irfani" məqaləsindən götürülmüşdür)**



**Şəkil-26. Sənduğənin yuxarı hissəsindəki haşiyənin kitabəsiz hissəsindən görünüş**

Sənduğənin yuxarı hissəsinin ikinci haşiyəsi şəbəkə haşiyədir. Bu haşiyədə kiçik ölçülü çubuq parçaları müəyyən bucaq altında bir-birinə geydirilmiş və nəticədə müəyyən həndəsi fiqurlar yaradılmışdır. Şəbəkə işləri nazik taxta parçası üzərində yığılmışdır. Şəbəkə elə qurulmuşdur ki, perpendikulyar şəkildə qoyulmuş çubuqlar arasındakı fiqurlar bir-birini təkrarlamışlar. Şəbəkənin çubuqları müxtəlif ağac növlərindən hazırlanmışdır və onların bir çoxu təbii rəngləri ilə fərqlənirlər. Buna görə də şəbəkənin müəyyən hissələrinin əlavə rənglənməsinə artıq ehtiyac qalmamışdır (56).



**Şəkil-27. Sənduğə üzərindəki ikinci haşiyənin görünüşündən bir parça**

Sənduğənin yuxarı hissəsinin ikinci haşıyəsinin aşağısında daha bir haşiyə vardır. Bu haşiyə digər iki haşiyəyə nisbətən daha ensizdir və onun yaradılmasında rəngli elementlərdən daha çox istifadə olunmuşdur. Bu haşiyə müxtəlif rəngli taxta parçalarının sənduğənin öz taxta parçasında aparılmış oyma sahələrində yer-

ləşdirilməsi ilə yaradılmışdır. Haşiyənin səthi sənduğənin səthi ilə eyni səviyyədədir. Bu haşiyənin hazırlanmasında həm rəngli taxta parçalarından, həm də ağ rəngin əldə edilməsi üçün sümük parçalarından istifadə olunmuşdur. Üçüncü haşiyənin rəng çalarında bir oynaqlıq olsa da, onun ümumi ahəngi sənduğənin bəzək işləri ilə bir uyğunluq təşkil edir (57).



**Şəkil-28. Sənduğənin üçüncü haşiyəsinin görünüşü və yeri**

Sənduğənin yuxarı hissəsinin bəzək işlərinin mərkəzi elementini də nəfis şəbəkə işləri təşkil edir. Bu şəbəkənin tutduğu sahə və onun quraşdırılması üçün istifadə olunan elementlərin ölçüləri daha böyükdür və məzarın xarici görünüşünün əsas məzmununun müəyyənləşdirilməsinə xidmət edir. Şəbəkə işləri ilə məzar üzərində çiçəklərin təsviri verilmişdir və çiçəklərin təsviri, bütünlükdə, bu şəbəkə işlərinin süjetini təsvir edir. Şəbəkə kompazisiyasının mərkəzində 3 ədəd 10 ləçəkli, 2 ədəd isə 8 ləçəkli çiçək quraşdırılmışdır. Bu çiçəklərin yuxarı və aşağı aralıq sahələrinə isə dörd ləçəkli çiçəklər yerləşdirilmişdir. Şəbəkə materiallarının seçilməsinə kompazisiyanın rəng tələblərinə uyğun olaraq yanaşılmışdır. Kompazisiyada nəzərdə tutulan rənglərin alınması üçün istifadə olunan oduncaq parçalarının təbii rənglərinə üstünlük verilmişdir. Oduncaq parçaları seçilərkən həm tünd rəngli, həm də müəyyən qədər açıq rəngli oduncaqlardan istifadə olunmuşdur. Kompaszisiyanın mərkəzində yerləşdirilmiş çiçək təsvirləri dairəvi şəkildə görünsə də, şəbəkənin qurulmasına istifadə olunmuş bütün elementlər bucaq altındadır. Bu məqam kompazisiyanın qurulmasına çətinlik yarada bilsə də, sənətkarlar yüksək məharət nümayiş etdirməyə müvəffəq ola bilmişlər (58).



**Şəkil-29. Şeyx Səfiəddinin məzarı üstündəki sənduğənin yuxarı hissəsinin qarşı tərəfinin mərkəzində yerləşdirilmiş bəzək işləri.**

Sənduğənin qarşı tərəfinin bəzək kompazisiyasını təşkil edən şəbəkənin mərkəzində mehrab şəklində, təxminən 10x20 santimetr ölçüsündə lövhə yerləşdirilmişdir. Lövhənin daxilinin göy fonu üzərində kitabə vardır. Kitabədə qəbrin Şeyx Səfiəddinə

məxsusluğu həkk olunmuşdur. Bu lövhə kompazisiyanın ortasındakı 10 ləçəkli çiçəyin mərkəzində elə yerləşdirilmişdir ki, bu çiçəyin yalnız aşağıdakı bir ləçəyi görünmür. Bütünlükdə isə çiçəyin həndəsi ölçülərinə xələl gətirilməmişdir (59).







**Şəkil-30. Sənduğənin qarşı tərəfinin əsas bəzək kompazisiyasının ayrı-ayrı elementləri**

Şəbəkənin elementləri arasındakı boş qalmış fəzalara xüsusi bəzək fiqurları yerləşdirilmişdir. Bu fiqurlarda da rəng çalarları yaradılmışdı və xüsusən onların tərtibatında ağ rəngi verən sümükdən istifadə olunması həmin fiqurların qabarıqlığını artırmışdır. Bu fiqurlar müxtəlif formaya və ölçülərə malikdirlər və onların forma və ölçüləri şəbəkənin əsas bəzəyinin elementləri arasında qalan fəzanın forma və ölçüsü ilə müəyyənləşmişdir. Bununla belə, həmin fiqurların zövqlə bəzədilməsi və bu işdə ənənəvi materiallardan və təsvirlərdn istifadə edilməsi kompazisiyanın ümumu görünüşünün tamamlanmasına xidmət edir. Fiqurların daxili bəzəklərinin qurulmasında da şərq memarlığının ənənlərinə müraciət edilmişdir.



**Şəkil-31. Sənduğənin qarşı tərəfindəki əsas şəbəkənin mərkəzində yerləşdirilmiş lövhənin təsviri.**

























**Şəkil-32.Səndüğənin qarşı tərəfinin mərkəzindəki şəbəkənin elementləri arasında yerləşdirilmiş fiqurların görünüşü və onların xətti təsviri**

Şeyx Səfiəddinin məzarı üzərindəki sənduğənin yuxarı hissəsinin qarşısındakı bəzək kompazisiyası üzərində kitabə yerləşdirilmiş kiçik lövhə istisna olmaqla sənduğənin arxa tərəfində də təkrar olunmuşdur. Qarşı tərəfin birinci haşiyəsi daxilində olan kitabənin mətni arxa tərəfdəki ilk haşiyənin daxilində davam etdirilmişdir. Bununla, sənduğənin tamamlanmış bəzək kompazisiyası yaradılmışdır.



**Şəkil-33. Şeyx Səfiəddinin məzarı üzərindəki sənduğənin arxa tərəfdən görünüşü**

Şənduğənin yuxarı hissəsinin qarşı və arxa bəzək kompazisiyası ölçülərinə uyğun olaraq sənduğənin kəllələrində də saxlanılmışdır. Qarşı tərəfin yuxarısındakı haşiyədəki kitabə kəllələrdə də davam etdirilmişdir. Sənduğənin aşağı hissəsinin əsas bəzək elementini də yuxarı hissənin mərkəzində olan şəbəkə təşkil edir. Yuxarı hissənin mərkəzi şəbəkəsinin ölçüləri ilə müqayisədə bu şəbəkənin hündürlüyü nisbətən kiçik, uzunluğu isə bir qədər artıqdır. Həmin ölçülərə uyğun olaraq yuxarı hissənin kompazisiya quruluşunun əsas məzmununun saxlanılmasına cəhd göstərilmişdir. Yəni yuxarı hissə ilə aşağı hissənin bəzək işləri vahid kompazisiya təşkil edirlər və bu da sənduğənin ümumi görünüşünə tamamlanmış bir forma vermişdir



**Şəkil-34. Şeyx Səfiəddinin məzarı üzərindəki sənduğənin yuxarı hissəsinin kəllə tərəfindəki şəbəkənin görünüşü və xəti təsviri**



**Şəkil-35. Şeyx Səfiəddinin məzarı üzərindəki sənduğənin yuxarı hissəsinin qarşısının və kəllələrinin bəzək işlərinin xətti təsviri**



**Şəkil-36. Şeyx Səfiəddinin məzarı üzərində qurulmuş sənduğənin qarşı tərəfinin yuxarı və aşağı hissəsinin ümumi görünüşü**

Sənduğənin aşağı hisssinin əsas bəzək elementi olan şəbəkənin kənarları boyunca haşiyə yaradılmışdır. Bu haşiyə oyma vasitəsilə icra edilmiş və haşiyə daxilində nəbati elementlər həkk olunmuşdur. Yanlarda yerləşdirilmiş haşiyələr daxilindəki nəbati təsvirlər bir-birinin təkrarı deyildir.



**Şəkil-37. Sənduğənin aşağı hissəsinin yanlarında olan haşiyələr**



**Şəkil-38. Sənduğənin aşağı hissəsinin aşağısında və yuxarısında olan haşiyənin görünüşü və xətti təsviri**



**Şəkil-39. Şeyx Səfiəddinin məzarı üzərindəki sənduğənin üst tərəfinin elementləri**

Sənduğənin yuxarı hisəsinin bəzək işləri sadə şəkildə qurulmuşdur. Bu hissədə iki yerdə kitabə vardır və bu kitabələrdə müqəddəs ayələr həkk olunmuşdur. Sənduğənin üstündə dəmirdən dərinliyi çox da olmayan və döymə təsvirləri olan kasa yerləşdirilmişdir. Şəkil 39-da sənduğənin üst tərəfinin görünüşü ilə tanış olmaq mümkündür.

Sənduğənin bəzək işlərinin görülməsində oyma işlərinə böyük diqqət yetirilmişdir ki, bu da tədqiqatçıların marağını özünə cəlb etmişdir. Məharətlə işlənmiş bu oyma işlərinin mövzusu demək olar ki, nəbati elementlər, müxtəlf formada olan çiçəklərin və bitkilərin təsviri olmuşdur. Onlar da sənduğənin bəzək işlərinin tamamlanmasına və mövzu kompazisiyasının bütövləşməsinə müsbət təsir göstərmişdir. Aşağıdakı şəkillərdə bu oyma işlərinin nümunələri ilə tanış olmaq mümkündür (60):













**Şəkil-40. Şeyx Səfiəddinin məzarı üzərindəki sənduğənin bəzək işlərində istifadə olunmuş oyma nümunələri**

Mövcud olan bəzi məlumatlara görə, Şeyx Səfiəddinin məzarı üzərindəki sənduğənin bəzədilməsində son dərəcə qiymətli daşlardan da istifadə olunmuşdu. Sənduğənin yuxarı hissəsinin dörd tərəfi qızıl ilə, yaqut, firuzə, zümrüd və digər daşlarla bəzədilmiş, birinci haşiyədə olan kitabə qızıl suyuna tutulmuşdu. İndi bu qiymətli əşyalardan yalnız kitabənin üzərinə çəkilmiş qızıl suyunun izlərini izləmək mümkündür. Məlumdur ki, İranla Rusiya arasında Türkmənçay müqaviləsi imzalandıqdan sonra Şeyx Səfi məqbərəsinin əmlakı Rusiya generalları tərəfindən talan edilmiş, sonradan isə məqbərədə qalan digər əşyalar Tenrana, İranın Milli Muzeyinə aparılmışdı. Güman edilir ki, məqbərə kompleksində olan qiymətli əşyalar da bu talançılığın qurbanı olmuşdu (61).

"Allah, Allah" günbəzinin daxilində olan Şeyx Səfiəddinin məzarının ətrafında daha üç məzar vardır (bax: şəkil-23). Şeyx Səfiəddinin məzarına yaxın olan məzar onun oğlu Şeyx Sədrəddinin məzarıdır. Məlumdur ki, Şeyx Sədrəddin atasının dünyasını dəyişməsindən sonra Səfəvi təriqətinin rəhbəri olmuş və Şeyx Səfi məqərə-kompleksinin memarlıq incisi olan "Allah, Allah" günbəzi də onun istəyi əsasında tikilmişdi. Şeyx Sədrəddinin məzarının qarşı tərəfində görünən məzar isə onun nəvəsi Şeyx İbrahimin məzarıdır. Şeyx Sədrəddinin dünyasını dəyişməsindən sonra Səfəvi təriqətinə rəhbərlik onun oğlu Xacə Əliyə keçmişdi. Ömrünün sonlarına yaxın Həccə səfər edən Xacə Əlinin Qüdsdə ikən səhhəti pisləşmiş və dünyasını dəyişməsindən sonra orada dəfn edilmişdi. Ona görə onun qəbri Şeyx Səfi məqbərə-kompleksində deyil. Şeyx Sədrəddinlə Şeyx İbrahimin məzarları Şeyx Səfiəddinin məzarının şimalında yerləşir. Cənub tərəfdə isə Şah İsmayılın atası Sultan Heydərin məzarı yerləşir. Məlumdur ki, Şah İsmayıl Şirvan üzərinə ikinci yürüşü zamanı atasının məzarının qalıqlarını Ərdəbilə gətirmiş və ulu babasının məzarı yanında dəfn etmişdi (62).

Qəndilxananı "Allah, Allah" günbəzinə birləşdirən Şahneşinin şərq tərəfində gümüşdən düzəldilmiş bir qapı vardır. Bu qapıdan adlamaqla Şeyx Səfiəddinin ailə üzvlərinin məzarlarının

yerləşdiyi Hərəmxanaya daxil olmaq mümkündür. Hərəmxana Şeyx Səfiəddinin ailə üzvlərinin dəfn olduğu bir məkandır. Mövcud məlumata görə, Hərəmxana binasını Şeyx Səfiəddin öz nəzarəti altında tikdirmişdi və bu binanı həyat yoldaşının, onun anasının (Şeyx Zahid Gilaninin həyat yoldaşının) və qızının son mənzili kimi nəzərdə tutmuşdu. Şeyx Səfiəddinin həyat yoldaşı dünyasını daha tez dəyişdiyi və həmin məkanda dəfn edildiyi üçün bu məkan sonradan Hərəmxana adlandırıldı. Hərəmxana çox da böyük olmayan dördbucaqlı bir binadır. Binanın daxili görünüşü kifayət qədər sadədir və onun üzərində yarımkürə şəklində bir günbəz də vardır. Hazırda mövcud olan günbəz ilkin günbəz deyil. Dağıntılara məruz qaldığı üçün Hərəmxanının günbəzi sonrakı dövrlərdə bərpa olunmuşdur. Hərəmxanada Şeyx Səfiəddinin ailəsinə mənsub on nəfərin məzarı vardır. Bu məzarlardan ikisinin kimə mənsubluğu hazırda məlum deyil. Digər məzarlar isə aşağıdakı adamlara mənsubdur:

Girişin sağındakı 1-ci məzar – Mühyiəddin Məhəmməd (Şeyx Səfiəddinin oğlu)

Girişin sağındakı 2-ci məzar – Şeyx Səfiəddinin həyat yoldaşı Bibi Fatimə

Girişin sağındakı 3-cü məzar – Salamulla ibn Xəlilulla ibn Səfəvi

Girişin sağındakı 4-cü məzar – Məhəmməd...

Girişin sağındakı 5-ci məzar – məlum deyil

Girişin solundakı 1-ci məzar – Sultan Bəyazid ibn Xacə Şeyx Səfəvi

Girişin solundakı 2-ci məzar – Şeyx Üveys Şəmsəddin Məhəmməd Yusif ibn  Murtuzaqulu xan

Girişin solundakı 3-cü məzar – məlum deyil

Girişin solundakı 4-cü məzar – Murtuzqulu ağa ibn Allahqulu ağa eşikağası

Girişin solundakı 5-ci məzar – Şeyx Şərəfəddin İsa (Şeyx Səfiəddinin oğlu) (63).





**Şəkil-41. Hərəmxanaya aparan keçid otaqlar**






**Şəkil- 42. Hərəmxanadakı məzarların görüntüləri**





**Şəkil-43. Hərəmxanadakı məzarların görüntüləri**



**Şəkil -44. Şah İsmayılın anasının qəbri**

Başqa bir məlumata görə isə Şeyx Səfiəddinin böyük oğlu Şeyx Mühyiəddin dünyasını dəyişdikdən sonra indi Hərəmxana adlanan məkanda dəfn edilmiş və onun məzarı üzərində kiçik bir bina da tikilmişdi. Sonradan Şeyx Səfiəddinin ailə üzvləri dünyasını dəyişdikcə onlar da Şeyx Mühyiəddinin məzarı ətrafında dəfn edilmiş və bu məkan genişlənərək ailə məzarlığına çevrildiyi üçün Hərəmxana adlandırılmışdı. Hərəmxannın girişində kiçik bir kitabə vardır. Həmin kitabədə insanın ölümlü olması, bu dünyada əbədi qalmaycağı ilə bağlı islam peyğəmbərinin bir hədisi yazılmışdır (64).

Hərəmxanada olan məzarların foto görüntüləri onların da ağ mərmərdən olması təəssüratını yaradır. Onların bir çoxunun üzərində sənduğələr vardır ki, bu sənduğələrin hazırlanmasında şəbəkə işlərindən geniş istifadə olunmuşdur

Şeyx Səfi məqbərə-kompleksində mövcud olan məzarlardan biri də Hərəmxananın həyətində olan və Şah İsmayılın anası Aləmşah bəyimə (Həlimə bəyimə) məxsus olan məzardır. Bu məzar Hərəmxana ilə "Allah, Allah" günbəzi arasındakı ərazidədir və sadə bir məzardır (65).

Şeyx Səfi məqbərə-kompleksinin mühüm elementlərinin birini də Şah İsmayılın məqbərəsi təşkil edir. Onun məzarı və məzarı üzərində tikilmiş günbəz Şahneşinin cənub-şərqindəki qapıdan açılan məkanda yerləşir. Məqbərənin daxili ölçüləri 3,5x2,5 metrdir. Günbəzin daxili hündürlüyü 3 metrdir və onun daxili və tavanı çox nəfis kaşılarla bəzədilmişdir. Kaşılar əsasən qızılı və laciverdi rəngdədirlər. Bu məkana girişin sol tərəfindəki divarın ortasında daş yerləşdirilmiş və onun ətrafında süls xətti ilə kitabə yazılmışdır. Bu işin müəllifi Əlirza Abbasi adlı bir usta olmuşdur. Bəzi məlumatlatra görə isə Şah İsmayıl məqbərəsinin daxili sahəsi 2,65x2,42 metrdir. Bildirilir ki, Səfəvi dövlətinin əsasını qoymuş bir hökmdarın məzarı üçün bu sahə elə də geniş deyil. Amma güman edilir ki, bu sahənin kiçikliyi, ümumən, Şeys Səfiəddinin məqbərəsi ətrafındakı boş sahənin azlığı ilə bağlı olmuşdur (66).



**Şəkil-45. Ön planda Şah İsmayılın məzarı üzərindəki günbəzin yuxarı hissəsi.**



**Şəkil-46. Şah İsmayıl məqbərəsinin daxilinin və Şah İsmayılın məzarının görünüşü.**

Belə məlumatlar da vardır ki, məqbərənin yerinin seçilməsi Şah İsmayılın adı ilə bağlıdır. Güman edilir ki, o hələ sağlığında dəfn olunacağı yeri özü müəyyənləşdrimişdi və hətta günbəzin özünün də onun dövründə tikilməsi ehtimalları vardır. Günbəzin yeri elə seçilmişdir ki, buradakı məzar həm Şeyx Səfiəddinin məzarına yaxındır və həm də Şeyx Səfiəddin məqbərəsindən həmin məzara keçid mümkündür.Şah İsmayılın məzarı üzərində tikilmiş günbəzin xarici görünüşünü iki hissəyə bölmək olar. Bu günbəzin aşağıdan təxminən ortasınadək bəzək işləri yoxdur və yalnız qırmızı rəngdə olan kərpicləri müşahidə etmək olar. Mövcud foto şəkillərə əsasən belə qənaətə gəlmək olar ki, günbəzin aşağı hissəsi düzbucaqlı şəkildədir və yuxarı qalxdıqca xarici divarlar dairəvi şəkil almışdır. Əslində, qeyd edildiyi kimi, günbəzin daxili də aşağıda dördbucaqlıdır və yuxarısı dairəvi şəklə salınıbdır. Günbəzin xarici hissəsinin bəzək işləri bir neçə haşiyədə tamamlanmışdır. Birinci haşiyə xarici divarın təxminən ortasında yerləşib günbəzi dairəvi şəkildə əhatələyir. Həmin haşiyə şəkil-45-də görünən haşiyənin aşağı hissəsindədir və ağ fon təşkil edən bu haşiyənin üzərində iki kitabə vardır. Aşağıdakı kitabənin şərq hissəsi dağılıb tökülmüşdür və onu oxumaq mümkün deyil. Yuxarıdakı kitabə isə yaxşı vəziyyətdədir. Həmin kitabədə şiə müqəddəslərinin adları sadalanır və onlara salavat ifadə olunur (67).

Divarın xarici görünüşündə aşağıdan ikinci haşiyə romb şəkilli həndəsi fiqurlardan düzəldilmişdir. Bu həndəsi fiqurlar təxminən eyni ölçüdədirlər və onlar iki sırada günbəzin haşiyəsini təşkil edirlər. Bu fiqurların daxilində də romb şəklində olan fiqurlar vardır. Daxili fiqurlar qara fondadırlar. Yuxarı fiqurların daxilindəki qara fonlu rombun daxilində də daha kiçik ölçülü və açıq rəngdə olan romb fiquru vardır. Aşağı sırada olan rombların qara fonu daxilində göy rəngli kaşılarla ”Əli” sözü yazılmışdır. Bu söz bütün fiqurların daxilində təkrarlanmışdır.

İkinci haşiyənin yuxarısında eni nisbətən daha az olan başqa bir haşiyə vardır. Bu haşiyənin yeri ağdır və ağ fonda bütün divar boyu təkrarlanan nəbati elementlər təsvir edilmişdir.

Nəhayət bu haşiyənin yuxarısında, günbəzin dairəvi divarının onun qübbə ilə birləşən hissəsində başqa bir haşiyə də vardır. Bu haşiyənin yeri firuzəyidir və onun da daxilində böyük ağ romb fiqurları və bu rombların daxilində də dörd guşəli ulduzu xatırladan fiqurlar yerləşdirilmişdir. Günbəzin qübbəsinin də fonu firuzəyi rəngdədir və bu fon üzərində qara rənglə haşiyələnmiş ağ romb fiqurları təsvir edilmişdir. Firuzəyi və ağ rənglərin qarışığından mütənasib şəkildə istifadə etməklə günbəzin qübbəsində xalça naxışlarını andıran kompazisiya yaradılmışdır. Qübbənin sonluğunda isə beş ədəd qılınc bərkidilmişdir. Bu sayda olan qılınclar, mövcud məlumata görə, Şah İsmayılın hakimiyyət uğrunda başladığı hərəkat zamanı onun müşayiət etmiş beş tayfanın nişanəsidir (68).

Şah İsmayılın məzarı üstündə tikilmiş günbəzin hündürlüyü "Allah, Allah" künbəzinə nisbətən qısadır. Amma məqbərə kompleksinə daxil olan digər günbəzlərlə təxminən eyni hündürlükdədir.



**Şəkil-47. Şeyx Səfi məqbərə kompleksinə daxil olan günbəzlərin ümumi görünüşü**

Şah İsmayılın məqbərəsinin daxili son dərəcə nəfis şəkildə işlənmişdir və öz keyfiyyətinə görə bu məqbərə yüksək sənətkarlıq nümunəsi sayıla bilər. Qeyd edildiyi kimi, məqbərə daxildən dördbucaqlı şəkildə başlamış və yuxarıda yarımmehrab keçidləri vasitəsilə dairəvi forma almışdır. Məqbərənin döşəməsi kaşılarla işlənmişdir. Güman edilir ki, döşəmənin kaşıya tutulması müxtəlif vaxtlarda həyata keçirilmişdir. Döşəmədən başlayaraq məqbərənin yan divarları 1,69 metr hündürlüyündə tünd göy kaşılarla örtülmüşdür. Bu da məqbərə daxilində bir göy fon yaratmışdır. Dördbucaq formada olan göy kaşıların üzərində qızılı rəngdə gül təsvirləri vardır. Göy kaşıların qurtaracağında açıq göy rəngdə olan kaşılarla bütün divar boyu haşiyə yaradılmışdır. Bu haşiyənin üzərində isə nəbati elementin zəncirvari düzülüşü ilə əlavə bir haşiyə yaradılmışdı. Həmin haşiyələr məqbərənin yuxarı hissəsində yerləşən həcmli kitabəyə və qübbə bəzəklərinə keçid təşkil edir. Qara fon üzərində yazılmış olan kitabə özü də, əslində, bütün divar boyu uzanan bir haşiyədir. Bu kitabə kifayət qədər enli bir haşiyəni təşkil edir və ondan yuxarı isə divarların dördkünc formadan qübbəyə keçidi başlayır. Kitabə ilə qübbənin keçidində daha iki haşiyə vardır və bu haşiyələrdən sonra yarımmehrablar məqbərənin daxili hissəsini dairəvi formaya çevirir. Kitabədən yuxarı olan təsvirlər nəbati elementlərdir və onlar kifayət qədər həcmlidirlər. Bu elementlər göy fonda qızılı rənglə işlənmişlər. Məqbərənin qübbəsində bir pəncərə də mövcuddur. Bu pəncərədən düşən işıq həm qübbənin naxışlarını, həm də məqbərənin daxilin işıqlandırır. Qübbənin sahəsi təxminən 2,7x2,4 metrdir. Məqbərənin göy kaşılarla işlənmiş aşağı hissəsində iki yerdə əl təsviri vardır. Bu təsvirlərdən biri məqbərənin şimal divarına geydirilmiş daş lövhə üzərində barmaqları bir-birindən aralı vəziyyətdə olan əl şəkli vardır. Ölçüləri etibarilə bu təsvir kifayət qədər böyükdür və onun hündürlüyü təxminən bir metrə yaxındır. Ehtimal edilir ki, bu təsvir Həzrət Əlinin əlinin təsviridir. Açıq şəkildə və nisbətən kiçik ölçüdəolan başqa bir əl şəkli isə gümüş vərəqədən düzəldilərək məqbərənin sol tərəfinə bərkidilmişdir. (69).



**Şəkil-48. Şah İsmayıl məqbərəsinin daxili görünüşü. Sol tərəfdəki divarda daş lövhə üzərində yerləşdirilmiş əl təsviri görünür. Bu əl təsviri məqbərənin şimal hissəsində qərar tutmuşdur.**

Şah İsmayıl məqbərəsinin daxilinin əsas elementi, heç şübhəsiz ki, Şah İsmayılın qəbri üzərində olan sənduğədir. Bu sənduğənin hazırlanma tarixi haqqında dəqiq məlumat mövcud deyil. Amma bəllidir ki, bu sənduğə səfəvilər dövrünün nadir sənət incilərindən biridir.

İşlənmə texnikası, istifadə olunan tikinti və bəzək materiallarının növü etibarilə Şah İsmayılın məzarı üzərindəki sənduğə Şeyx Səfiəddinin məzarı üzərindəki sənduğədən daha nadir və qiymətli sayılır. Bu sənduğə də Şeyx Səfiəddinin məzarının sənduğəsi kimi iki hissədən ibarədri. Aşağı hissənin hündürlüyü yuxarı hissənin hündürlüyünün təxminən yarısı qədərdir. Aşağı hissənin eni də bir qədər genişdir və bu hissələrin

birləşmə sahəsinin kənarlarında təxminən 10 santimetr enində boş sahə qalmışdır. Həm aşağı hissə, həm də yuxarı hissə zərif şəbəkə bəzəyinə malikdir və bu şəbəkə görünüşünə görə Şeyx Səfiəddinin məzarı üzərindəki sənduğənin əsas şəbəkə bəzəyini xatırladır. Amma bir daha qeyd edilməlidir ki, mütəxəssislərin fikrincə, Şah İsmayılın məzarı üzərindəki şəbəkə sənətkarlıq baxımından daha zərif və baxımlıdır. Sənduğənin ayrı-ayrı bəzək əşyalarının hazırlanmasında qiymətli daşlardan, qızıl və gümüşdən də istifadə olunmuşdur.

Sənduğənin yuxarı hissəsində iki haşiyə vardır və bu haşiyələr sənduğənin şəbəkə bəzəyini yuxarıdan tamamlayır. Həm yuxarı haşiyə, həm də yanlarda olan haşiyə mütənasib şəkildə yerləşdirilmiş fil sümüyündən olan lövhələrdir. Bu lövhələrin üzərində çox böyük ustalıqla və incə şəkildə "Quran" ayələri yerləşdirilmişdir. Bu lövhələr üzərində "Quran"ın aşağıdakı surələrindən ayələr həkk olunmuşdur:

1.Sənduğənin yuxarısının sol kücündəki kitabə - Qaf surəsinin 1-ci ayəsi və 2-ci ayəsinin bir hissəsi;

2. Sənduğənin şimal tərəfinin solunda yuxarıdan aşağı – Əl-Müzəmmil surəsinin 6,7 və 8-ci ayələri;

3. Həmin tərəfdə ikinci kitabə - Əl-Müzəmmil surəsinin 20-ci ayəsi;

4. Sənduğənin şimal tərəfinin sağında aşağıdan yuxarı yerləşmiş kitabə - Əl-Dəhr surəsinin 25, 26 ayələri və 27-ci ayəsinin bir hissəsi;

5. Həmin tərəfdəki ikinci kitabə - Əl-Dəhr surəsinin 16-cı ayəsi və 17, 30, 31-ci ayələrinin bir hissəsi;

6. Sənduğənin qərb tərəfinin solunda yuxarıdan aşağı olan kitabə - Əl-Dəhr surəsinin 3 və 4-cü ayələri və 2-ci ayəsinin bir hissəsi;

7. Sənduğənin sol tərəfinin sağında aşağıdan yuxarı olan kitabə - Əl-Müzəmmil surəsinin 9-cu ayəsi və 10-cu ayəsinin bir hissəsi;

8. Sənduğənin sol tərəfinin yuxarısındakı kitabə - Əl-Dəhr surəsinin 1-ci ayəsinin son hissəsi;

9. Sənduğənin sol tərəfinin aşağısındakı sağdan sola olan kitabə - Əl-Müzəmmil surəsinin 12-ci ayəsi və 11, 13 və 14-cü ayələrinin bir hisəssi (70).

Qeyd edilməlidir ki, kitabələrin yazılması da yüksək sənətkarlıqla yerinə yetirilmişdir. Kitabələr üçün elə ayələr seçilmişdir ki, onlar həm islami dəyərləri, həm də Şah İsmayılın islami dünyagörüşünü özündə əks etdirir. "Quran" kəlamlarından əlavə sənduğə üzərində "Əli" sözünün də təkrar-təkrar və müxtəlif formalarda yazılışına rast gəlmək mümkündür. Bu söz çoxbucaqlı haşiyələr daxilində işlənmişdir və onlar kəsb etdiyi məzmundan əlavə həm də sənduğənin bəzək elementlərini tamamlamağa xidmət edirlər.

Şeyx Səfi məqbərə-kompleksinin əzəmətini və gözəlliyini artıran elementlərdən biri də Şeyx Səfi xalçasıdır. Bu xalça da Səfəvi dövrünün nadir sənətkarlıq nümunələrindən biridir və gözəlliyi ilə bu gün də insanları heyrətləndirməkdə davam edir. Vaxtilə mütəxəsislər arasında aparılmış sorğulara əsasən, Şeyx Səfi xalçası dünyanın 50 ən yaxşı sənət nümunəsi arasında özünə yer almışdır (71).

Şeyx Səfi xalçasının toxunmasına Şah Təhmasibin hakimiyyəti illərində onun göstərişi ilə başlanmışdı. Şah Təhmasib atası Şah İsmayılın və ulu babası Şeyx Səfiəddinin uyuduğu məqbərənin adına layiq olan bir xalçanın toxunmasına göstəriş vermişdi və nəticədə adı çəkilən xalça meydana gəlmişdi. Mövcud məlumata görə, bu xalçanın toxunuşu 3,5 ilə başa çatmışdı (72). Şeyx Səfi xalçası elmi-tarixi əsərlərdə "Ərdəbil xalçası" kimi də təqdim olunmaqdadır.

Şeyx Səfi xalçasının naxış kompazisiyası zahiri gözəlliyi ilə bərabər, həm də irfani məzmun daşıyır. Onun naxışlarının elementləri özündə sufiliyin saysız-hesabsız sirrlərini əks etdirməkdədir. Mövcud məlumatlara görə bu xalçanın müəllifi Maqsud Kaşani adlı bir sənətkardır və verilmiş sifariş əsasında bu sənətkar tərəfindən Şeyx Səfi xalçası cüt şəkildə toxunmuşdur. Hər iki xalça eyni ölçülərə və eyni naxışlara malik olmuşdur. Bu xalçaların toxunuşu uzun müddətə başa gəlmiş və nəticədə son



**Şəkil-49. Şeyx Səfi xalçası**

dərəcə qiymətli bir sənət əsəri meydana çıxmışdır. Şeyx Səfi xalçasının uzunluğu 11,52 metr, eni isə 5,32 metrdir. Bu xalçaya 32 milyon ilmə vurulmuşdur. Xalçanın ayaq hissəsinin ortasında nəbati elementlərlə işlənmiş çərçivədə bir beyt şeir həkk olunmaqla bərabər, xalçanın müəllifinin adı və xalçanın tamamlanma tarixi göstərilmişdir. Xalçanın müəllifi, qeyd edildiyi kimi, Maqsud Kaşani, onun tamamlanma tarixi isə hicri qəməri ilə 946-cı il (miladi tarixlə 1537-ci il) göstərilmişdir. Hafiz Şiraziyə məxsus olan həmin beyt belədir:

Coz-e astan-e toəm dər cahan pənahi nist
Sər məra be coz in dər, həvaleqahi digər nist (73).
(Sənin kandarının bir hissəsiyəm, dünyaya pənah yoxdur
Bu qapıdan başqa digər olacağım bir yer yoxdur)



**Şəkil-50. Şeyx Səfi xalşasının ayaq hissəsində müəllifin adının yazıldığı çərçivə. Müəllif öz adını belə göstərmişdir: "əməl-e bənde dərgah Məqsud Kaşani".**

Şeyx Səfi xalçasının naxış kompazisiyasının Şeyx Səfi məqbərə-kompleksinin Qəndilxanasının tavanındakı naxışların eyni olduğu bildirilir. Bu da irfani biliklərin qabardılması



**Şəkil-51. Şeyx Səfi xalçasının kənar haşiyələrinin görünüşü**

məqsədilə edilmişdi. Qəndixanaya daxil olanlar həm tavanda, həm də döşəmədə eyni mənzərə ilə rastlaşmaqla vəhdəti-vucuda varırdılar. Bununla belə bir inam da yaranırdı ki, cahan (yerdəkilər) yaradanın nurunun təcəllisidir. Yəni yaradanın təcəllisi yerdə də öz əksini tapmışdır.

Xalçaya fon kimi tünd sürməyi rəng götürülmüşdür. Bu rəng xalçaya bir dolğunluq gətirir. Bundan başqa, göy rəng həm də müqəddəslik rəmzidir və təmizlik rəmzidir. Heç şübhəsiz ki, xalçanın fonu kimi göy rəngin seçilməsi irfani dəyərlərdən irəli gəlirdi. Bu rəng həm də naxışların daha qabarıq şəkildə gözə dəyməsini təmin etmişdir. Xalçanın kənarları böyu dörd haşiyə yaradılmışdır. Birinci, üçüncü və dördüncü haşiyələr nəbati elementlərin zəncirvari şəkildə bir-birinə birləşdirilməsi ilə yaradılmış təsvirləri özündə əks etdirir. İkinci haşiyə isə nəbati elementlərdən təşkil olunmuş müxtəlif ölçülü medalyonların sıralanması ilə yaradılmışdır. Bu medalyonların kənarlarında qalan boş fəzalar da kiçik nəbati elementlərin təsvirləri ilə tamamlanmışdır. İkinci haşiyənin fonu xalçanın əsas fonu kimi qaldığı halda, digər haşiyələrin fonları fərqli rənglərdədirlər. Bu da haşiyələrin görünüş fərqlərini qabarıqlaşdırmaqdadır

Şeyx Səfi xalçasının kompazisiyasının mərkəzi elementini dairəvi haşiyə təşkil edir. Elmi-ixtisas yazılarında qızılı rəngdə olan bu haşiyə turunc elementi adlandırılmışdır. Zahirən bu element turunc meyvəsinin formasını xatırlatsa da, əslində, 16 ləçəkli çiçəyin görünüşü təəssüratını yaradır. Bu turuncun daxili də nəbati elementlərdən təşkil edilmişdir. Burada nəbati elementlərdən ayrıca bir kompazisiya yaradılmışdır. Turuncun ətrafında isə 16 ədəd medalyon təsvir edilmişdir. Həmin medalyonlar da nəbati elementlərdir və bu medalyonlar dörd medalyonun təkrarlanmasından təşkil edilmişdir. Onların bəzilərində azacıq təsvir fərqi vardır. Medalyonlar hamısı nəbati elmentlər vasitəsilə turuncun ləçəklərinə birləşdirilmişdir.

Yuxarıda və aşağıda yerləşən medalyonların hərəsindən bir ədəd qəndil asılmışdır. Bu elementlər Şeyx Səfi məqbərə- kompleksinin Qəndilxanasının tavanında olan təsvir elementlərini



**Şəkil-52. Şeyx Səfi xalçasının kompazisiyasının mərkəzi elementləri**

xatırladır. Həmin elementlər "Allah, Allah" günbəzinin daxili qübbəsində olan təsvirlə də müqayisə edilir. Bu təsvirlər arasında da bir oxşarlıq vardır (bax: şəkil- 19).





**Şəkil-53. Şeyx Səfi xalçası üzərindəki medalyon və qəndil təsvirləri**

Mütəxəssislərin fikrincə, xalça üzərindəki qəndil şəkilləri Şeyx Səfiəddinin məqbərəsinin daxilindəki qəndillərinin əksidir ki, bu qəndillər məqbərənin daxili işıqlanmasını təmin edirdilər. Başqa bir fikrə görə isə bu qəndillər, əslində, "Quran"ın Nur surəsinin 35-ci ayəsinə işarədir. Həmin ayədə Yaradanın yer üzünün nuru olmasına işarə edilmişdir (74).

Şeyx Səfi xalçasının künclərində də medalyonlar təsvir edilmişdir. Mərkəzdə təsvir edilmiş böyük haşiyə (turunc) onu əhatə edən medalyonlarla birlikdə dörd yerə bölünərək eynilə dördüncü kənar haşiyələrin daxili küncünə köçürülmüşdür. Bu, bir tərəfdən mərkəzi təsvirlə kənarlardakı təsvirlər arasında bir tamamlanma yaratmış, digər tərfdən də xalçanın daxili künclərini bir-birinə qovuşdurmuşdur.

Xalçanın məsafədən görünüşü onun mərkəzində olan haşiyə-bəzəyin günəş olması, onun ətrafındakı medalyonların planetlərə oxşaması və xalçanın göy fonuna səpələnmiş çoxsaylı gül və çiçək təsvirlərinin isə göy qübbəsindəki ulduzların parlaması təsəvvürünü yaradır. Sanki xalça müəllifi qalaktikanın təsvirini verməyə çalışmış, dünya və varlıq barəsindəki baxışlarını ifadə etmək istəmişdir.

Adı çəkilən xalça XIX əsrin sonlarına qədər Şeyx Səfi məqbərə-kompleksində saxlanılmışdı. Amma təxminən, XIX əsrin ortalarından bu xalça ingilis tacirlərinin və səyyahlarının diqqətini özünə cəlb etmişdir. Belə ki, 1843-cü ildə Ərdəbilə səfər edən iki ingilis səyyahı Şeyx Səfi xalçasını da görmüş və onu öz xatirələrində geniş vəsf etmişdilər. Bu hadisədən təxminən 30 il sonra Ərdəbildə zəlzələ baş vermiş və məqbərə-kompleksin divarlarının bəzi hissələri dağılaraq Şeyx Səfi xalçasının üstünə aşmış və xalçanı zədələmişdi. İstər məqbərə-kompleksinin, istərsə də xalçanın təmir və bərpası üçün müəyyən miqdar maliyyə vəsaitinin tapılması zərurəti yaranır. Belə bir zamanda məqbərə kompleksinin xidmətçiləri xalça ticarəti ilə məşğul olan "Zingler" ingilis kampaniyasına müraciət etdilər. Mərkəzi ofisi Mançestrdə yerləşən bu şirkət Şeyx Səfi xalçasının satılmasını

təklif etdi və 80 tümən qiymətinə bu xalçanı məqbərə-kompleksdən aldı. Belə bir qiymətli xalçanın satılması ilə əldə edilən maliyyə vəsaitinə məqbərə kompleksinin təmir-bərpa işlərinə başlandı. Aparılan təmir-bərpa işləri zamanı Qəndilxananın tavanı da yenidən quruldu. Lakin tavanda Şeyx Səfi xalçasının naxışlarının təkrarı olan naxışları bərpa etmək mümkün olmadı. "Zingler" şirkəti isə Şeyx Səfi xalçasını bərpa etdi və onu satmaq üçün 1892-ci ildə hərarca çıxardı. Məlumata görə, tanınmış ingilis yazıçısı Vilyam Moris hərracda bu xalçanı görərək onun gözəlliyinə valeh oldu. Ona görə də o, Viktoriya və Albert muzeyinin rəhbərliyinə təkid etdi ki, bu xalçanı muzey üçün alsın. Muzeyin rəhbərliyi də bu təkliflə razılaşdı və zəruri maliyyə vəsaitini topladıqdan sonra həmin xalçanı 2 min funt sterlinqə satın aldı (75).

Hazırda Şeyx Səfi xalçası Londonda yerləşən Viktoriya və Albert muzeyində xüsusi şəraitdə saxlanılır. Xalçanın rəngləri öz keyfiyyətini itirməməsi üçün muzey daxilində uyğun işıqlandırma sistemi yaradılmışdır. Burada hallogen lampalardan istifadə edilməsi məqsədəuyğun sayılmışdır. Lakin mütəxəssislər müəyyənləşdirmişlər ki, xalçanın davamlı şəkildə hətta hallogen lampaların təsirinə məruz qalması onun rənglərinin parlaqlığına təsir edə bilər. Mövcud məlumata görə, indi Şeyx Səfi xalçasının saxlandığı salonda hər saat ərzində cəmi on dəqiqə işıq yandırılır.

Hazırda Şey Səfi məqbərə-kompleksində bu xalçanın surəti saxlanmaqdadır. Bu xalça ölçülərinə, təsvirlərinə, ilmələrinin sıxlığına, işlənilən materialların cinsinə görə Şeyx Səfi xalçasının əslinin təkrarıdır.

Şeyx Səfi məqbərə-kompleksinə daxil olan sahələrdən biri də Şəhidgahdır. Şəhidgah məqbərə kompleksinin cənub şərqində yerləşir və nisbətən böyük bir ərazini əhatə edir. Onun meydana gəlməsi Şah İsmayılın dövrünə təsadüf edir. Şah İsmayıl Şirvana ikinci yürüşü zamanı orada dəfn edilmiş atası Sultan Heydərin və onun bir sıra əyan və əmirlərinin məzarlarını Ərdəbilə köçürdü. Sultan Heydər üçün Şeyx Səfiəddinin məzarı kənarında yer ayrıldı. Şirvandan köçürülən digər qızılbaş əmirlərinin məzarları

üçün isə Şeyx Səfiəddinin məqbərəsi yaxınlığındakı ərazidə yer müəyyənləşdirildi. Bununla, əslində, Şeyx Səfi kompleksinin kənarında kütləvi dəfnlər üçün məzarlıq yaradıldı. Çaldıran döyüşünün gedişində həyatlarını itirmiş bir çox Səfəvi əmirləri və əyanlarının cəsədləri də Ərdəbilə gətirildi və Şəhidgah adlanan yerdə dəfn edildi. Həmin vaxtdan Şəhidgah Səfəvi dövlətinin möhkəmləndirilməsində və müdafiəsində xüsusi xidmətləri olan əmirlərin, döyüşçülərin dəfn yerinə çevrildi. Şəhidgahda dəfn olunanların məzarlarının üzərində xüsusi sənduğələr qurulurdu. Həmin sənduğələr bir qayda olaraq ağ mərmərdən, qara daşdan kub şəklində yonulur, onun üzərinə və yanlarına "Quran"dan müqəddəs ayələr həkk edilirdi. Məzar sənduğələrinin üzərində başqa təsvirlərə də rast gəlmək olardı. Belə məzar sənduğələrinin bəziləri günümüzə qədər gəlib çıxmışdır.



**Şəkil-54. Şəhidgahın qədim görünüşü**



**Şəkil-55. Şəhidgahın müasir görünüşü**



**Şəkil-56. Şəhidgahın müasir görünüşü**

Qeyd edildiyi kimi, Şeyx Səfi məqbərə-kompleksinin tikilməsi və təkmilləşdirilməsi uzun bir dövrü əhatə edir və yeni-yeni tikililərin artırılması bu kompleksin tamamlanmasına yol açmışdır. Bu kompleks ibadət mərasimlərinin icra ediləcəyi bir yer kimi deyil, Şeyx Səfiəddin və onun yaxınlarının son məkanı, insanların mənəvi təmizlənmə yeri və ziyarətgah kimi nəzərdə

tutulmuşdur. Bu kompleksin müqəddəsliyinin qabardılması üçün bütün tikinti işlərinə xarici gözəlliyindən əlavə, həm də irfani məzmun verilmişdir. Ona görə də bütün kompleks boyu islami arxitektura elementlərini müşahidə etmək və məkanın müqəddəsliyini dərhal hiss etmək və duymaq mümkündür.

Bir daha qeyd edilməlidir ki, Şeyx Səfi məqbərəsinin daxili və xarici kompazisiyasının tamamlanmasında, habelə bəzək işlərində islami arxitektura və irfani bəzək elementlərindən çoxlu istifadə olunmuşdur. Lakin mütəxəssislər iki başlıca elementi xüsusi olaraq qeyd edirlər. Onlardan biri tikinti işlərində mehrab elementindən çox geniş şəkildə istifadə olunmasıdır (76).

Mehrabın əsas təyinatı məscidlərdə qiblənin istiqamətinin müəyyənləşdirilməsi ilə bağlıdır. Mehrablar, adətən, məscid divarının qiblə istiqamətində divarın daxilində aşağıdan düzbucaqlı şəkildə, yuxarıdan isə qövsvari şəkildə (daha çox isə yarımdairə şəklində) tamamlanan boşluq kimi düzəldilirdi. Məscidə gələn insanlar da üzlərini mehraba tərəf istiqamətləndirməklə namaz qılırdılar. Mehrabın əsas elementi onun yuxarı hissədir. Bu hissədə tərəflərin yuxarı sonluğu qövsvari şəkildə davam edərək mərkəzdə birləşirdi və bununla konusvari bir forma da alınırdı. Yuxarıdakı şəkillərdə də bunun nümunələrini görmək mümkündür. Məsələn, şəkil-56-də göründüyü kimi, Şəhidgahın divarının daxili hissəsi, Şəhidgahın böyük qapıları mehrab formasında tikilmişdir. Şəkil-55-də görünən tikililərin də əsas arxitektura elementi mehrablardır. Ümumən, Şeyx Səfi məqbərə-kompleksində elə bir tikili tapmaq mümkün deyil ki, onun tamamlanmasında mehrab elementindən istifadə olumasın. Tikintinin ümumi kompazisiyasının tamamlanması üçün isə mehrabların forma müxtəlifliyinə geniş yer verilmişdir. Xüsusi ilə, darvazalarda və binaların girişində istifadə olunmuş mehrablar xüsusi bəzək elementləri ilə daha da zənginləşdirilmişdir. İstər Şeyx Səfiəddinin, istərsə də Şah İsmayılın məqbərələrinin daxili tamamlanmasında da mehrab elementlərindən məharətlə istifadə olunmuşdur (bax: şəkil- 19, şəkil-46).

.



**Şəkil-57. Şeyx Səfi məqbərə-kompleksində istifadə olunmuş mehrab elementlərinin görünüşü**

Yuxarıdakı şəkillərdə də Şeyx Səfi məqbərə-kompleksində istifadə olunmuş mehrab elementlərini müşahidə etmək mümkündür. Ümumən, müqəddəsliyin, haqqa aparan yolun nişanəsi olan mehrab elementi bütünlükdə bu kompleksin arxitekturasının ayrılmaz elementlərindən biridir.

Şeyx Səfi məqbərə-kompleksinin başqa bir ayrılmaz xüsusiyyəti bu kompleksin arxitekturası ilə təriqət təfəkkürü arasında bir bağlılığın yaradılmasıdır. Təriqət təfəkkürünə görə, insan Haqqa yetişmək üçün müxtəlif mərhələlərdən (vadilərdən) keçməli və bu mərhələlərdə mənəvi




**Şəkil-58. Şeyx Səfiəddinin məzarına yetişmək üçün ziyarətçilərin keçməli olduqları yeddi sahənin görünüşü (soldan sağa): 1.Meydan və ya birinci həyət; 2. Ərsə və ya ikinci həyət; 3. Qurbangah; 4. Sahət və ya əsas meydan; 5. Dalan; 6. Darülhüfaz; 7. “Allah, Allah” günbəzi (77)**

cəhətdən təmizlənməklə, irfani baxımdan zənginləşməli və nəhayət haqqa yetişməlidir. Təriqət təfəkküründə Haqqa yetişmək üçün insanın yeddi mərhələdən (vadidən) keçməli olduğu təsbit olunmuşdur. Şeyx Səfi məqbərə-kompleksi də elə qurulmuşdur ki, Şeyx Səfiəddinin məzarına yetişincə yeddi sahədən keçmək, yeddi qapını açmaq gərəkdir. Birinci vadi təriqətdə - tələb və ya axtarış adlanır. Bu vadi, əslində, bir niyyət vadisidir və bu vadiyə qədəm qoyan insan özünün gələcək yolunu müəyyənləşdirməyə

çalışır. Onun üçün yaxşı da, pis də hələ bir-birinə qarışmış vəziyyətdədir. Onların bir-birindən fərqləndirilməsi, düzgün seçim edilməsi və düzgün yola qədəm qoyulması tələb və axtarış vadisinin keçilməsi ilə mümkündür. İlk vadidə insan qarşısında yeni bir qapı açılır və bu qapıdan başlanan fəza sirlərlə dolu olsa da, ümid dolu, intizarı çəkilən bir fəzadır (78).

Şeyx Səfi məqbərə-kompleksində birinici vadini bu kompleksin birinci həyəti təşkil edir. Bu həyət kifayət qədər geniş bir həyətdir. Alaqapı darvazası bu həyətə giriş qapısı idi. Doğrudur, bu darvaza hazırda mövcud deyil və çox dağıntılara məruz qaldığı üçün sonradan onun bütünlüklə sökülməsi qərara alınmışdı. Bu meydanın bir küncündə Alaqapı məscidi yerləşirdi və ibadətə



**Şəkil – 59. Məqbərə-kompleksinin birinci həyəti və Alaqapı darvazasının təsviri**

başlamaq üçün namaz qılanlar buraya çəkilmiş olan bulaq suyunda dəstəmaz alıb bir növ təmizlənirdilər. Uzun zamanlar ərzində bu meydanda əzadarlıq mərasimləri də təşkil olunardı. Bu

həyətə daxil olan ziyarətçi "Allah, Allah" günbəzini görə bilmirdi. Həmin günbəzi görmək üçün ikinci həyətə daxil olmaq lazım idi, yəni növbəti vadiyə doğru irəliləmək lazım idi (79).

Təriqətdə ikinci vadi "eşq" adlanır. Eşq insanın niyyətinə olan münasibətidir, qarısında dayanan hədəfə yetmək üçün nümayiş etdirdiyi iradədir. Eşq yoluna düşmək o deməkdir ki, insan kənar meyllərdən uzaqlaşır və bütün diqqətini öz məşuqinə doğru istiqamətləndirir. Eşq və məşuq burada təsəvvüf mənasını daşıyır. Bu yolu tutan əziyyətlərlə, məşəqqətlərlə qarşılaşdığını bilir, lakin heç bir cəfa onu bu yoldan çəkindirə bilmir və qarşısına qoyduğu məqsədə doğru irəliləmək üçün iradə nümayiş etdirir.



**Şəkil-60. Məqbərə-kompleksin ikinci həyəti və bu həyətə giriş qapısının təsviri**

Şeyx Səfi məqbərə-kompleksinin ikinci həyəti və ya Ərsə adlandırılan məkan Eşq vadisinin simvolu olmaqla məqsədə doğru irəliləməyin ikinci mərhələsini təşkil edir. Bu həyət dördbucaqlı şəkildədir və bu həyətdən kənara çıxış üçün hər hansı bir qapı yoxdur. Bu həyətdən yalnız növbəti mərhələyə keçmək üçün qapı açılır. Yəni insanın fikri kənar çıxışlar üçün yayınmır və yalnız irəli hərəkət etmək barəsində düşünür. Bu həyətdə olarkən "Allah, Allah" günbəzini də müşahidə etmək mümkün olur və istər-istəməz bu həyətə daxil olmuş insanda tezliklə həmin günbəzi görmək istəyi yaranır. Ona görə də insan bu günbəzə yetmək üçün növbəti mərhələyə adlamağa çalışır. Bu həyətdən "Allah, Allah" günbəzi insana sirli bir aləm kimi görünür və ona görə cəhd göstərir ki, bu sirrin mahiyyətinə varsın. Bir vaxtlar bu həyətdə çoxlu qırmızı güllər mövcud imiş və qırmızı gül də irfan əhli yanında Allahın əzəmətinin təcəllisi kimi qəbul edilirdi.

Təriqətdə üçüncü vadi – mərifətdir. Mərifət təriqətdə çox geniş məzmun kəsb edir və haqqa doğru hərəkət zamanı sufinin mənəvi təmizlənməsində əsas vadilərdən biridir. Mərifət – Haqqın tanınmasıdır. Bu vadiyə çatmış insan Haqqı dərk edir, onu tanıyır və ona doğru irəliləmək niyyətini qətiləşdirir. Bu vadiyə yetişmiş sufi Haqqa çatmaq yolunda sınaqlarla, əziyyətlərlə qarşılaşacağını da başa düşür. Lakin niyyət aydınlığı artıq onu Haqq yolunda irəliləməkdən çəkindirmir (80).

Şeyx Səfi məqbərə-kompleksində Qurbangah, Yeni Çilləxana və Köhnə Çilləxana Şeyx Səfi məzarına yetişmək istiqamətində üçüncü vadidir. Qurbangah kiçik bir sahəyə malikdir. Burada insan istər-istəməz gözlərini səmaya dikməli olur. Sanki insanlar orada mərifətə qovuşmaq istəyirlər. Oradan Şeyx Səfi məqbərəsinə qovuşduran yolun keçdiyi əsas meydanın kiçik görünüşü açılır və insanda həmin məkana daxil olmaq və orada nə olduğunu öyrənmək istəyi yaranır. Bəzi məlumatlara görə, Qurbangah sözünün İbrahim peyğəmbərin öz oğlunu o, Haqq yolunda qurban etməsi əhvalatı ilə bağlılığı vardır. Yəni İbrahim peyğəmbər öz oğlunu qurban verməli olduğunu biləndə, həqiqəti anlayır və oğlunu qurbangaha gətirir. Haqq qarşısında borclu



**Şəkil-61. Qurbangahın və ona giriş qapısının görünüşü**

olduğunu anladı və dərk etdi. Bu da mərifətin əldə edilməsi idi. Şeyx Səfinin məzarına dorğu irəliləyən də bu məkanda anlayır ki, doğru yoldadır və məqsədə çatmaq yolundadır. Ona görə də yad fikirləri özündən kənarlaşdırır və yalnız məqsədə çatmaq barəsində düşünür.

Sufiliyin dördüncü vadisi istiğnadır. İstiğna sözünün hərfi mənası ehtiyacsız, ehtiyac olmayan, müəyyən mənada lazımsız, dəyərsiz və ona oxşar mənalardadır. Sufilik məqamında da istiğna elə buna yaxın mənalarda işlənir. Sufilik yolu ilə irəliləyən insan bu vadidə dünyanın, maddiliyin, dünya malının gərəksizliyini, lazımsızlığını anlayır və bütün düşüncəsini maddi zövq-

lərdən qopararaq Haqqa qovuşmaq istəklərinə bağlayır. Bununla insan maddi dünyadan təmizlənir, maddi dünya onun gözündə dəyərsiz bir varlığa çevrilir. Bu zaman sufi həm də daxilən



**Şəkil-62. Əsas meydan (Sahət) və ona giriş qapısının görünüşü**

təmizlənir, kin, küdurət, və insani münasibətlərdən doğan hissləri özündən uzaqlaşdırır, onun daxilində Haqqın sevgisi və Haqdan doğan bir sevgi özünə məskən salır (81).

Şeyx Səfi məqbərə-kompleksində dördüncü vadini Sahət və ya əsas meydan təşkil edir. Bu meydan öz arxitektura kompazisiyası ilə, daxili dizaynı ilə insanda xüsusi hissələr yaradır, insanı kənar aləmdən ayırır və onun bütün diqqətini irəliyə doğru addımlamasına cəmləyir. Sahət adlandırılan meydanın daxilində olan hovuz, meydan daxilində aparılmış kaşı işləri meydanın ümumi ahəngi və səma ilə bir vəhdət yaradaraq insanın özünün toparlanmasına, hisslərinin və düşüncəsinin düşdüyü aləmlə bağlanmasına zəmin yaradır. İnsan bu məkanda dünyəvi hisslərini və yaşantılarını da unudur və yalnız bu məkanın dünyasına qatılır. Hazırda bu meydanın "Allah, Allah" günbəzinə açılan divarı mövcud deyil. Texniki aşınmalar və dağıntılar bu divarın aradan qalxmasına yol açmış və ona görə də bu meydandan "Allah, Allah" günbəzinə müstəqim bir görünüş yaranmışdır. Əvvəllər isə bu meydanla günbəz arasında bir divar olmuşdu. Yəni Sahətə gələn insanın günbəzlə birbaşa əlaqəsi olmamışdı. Bu meydana yetişən insan çox vaxt Darülhəfazda səslənən "Quran" səsini eşidər və bu səsin sehrində sükuta qapılardı. Ona görə bu məkan həm də sükut məkanı kimi də tanınır. Sükuta dalmaq isə yeni dünyəvi maddiliklərdən uzaqlaşmaq, meydanın yaratdığı mənəvi dünyaya qapılmaq demək idi. Bu yeni hisslər insanı düşünməyə vadar edir və səbirlə Sahətdən keçərək növbəti vadiyə adlamağa sövq edirdi (82).

Sufilikdə beşinci vadi tövhiddir. Tövhid sözü vahid sözündəndir və onun hərfi mənası tək, yeganə, təkə etiqad və s. deməkdir. Sufilərin dilində isə tövhid qəlbin hər şeydən təmizlənməsi, təcrid edilməsi və insan qəlbində yalnız Haqqın qərar tutmasıdır. Tövhid Allahın təkliyinin tanınmasıdır, onun vahidliyinin iqrar edilməsi və Haqqa etiqadın alternativsizliyinin qəbul edilməsidir. Bu məqamda sufi bütün qəlbi ilə qəbul edir ki, Haqq təkdir, onun şəriki və kimsəyə ehtiyacı yoxdur, bütün dualar və ibadətlər də yalnız ona ünvanlanmalıdır. Haqqa çatmağın yolu isə haqq yolunun seçilməsində və onun izlənilməsindədir (83).

Şeyx Səfi məqbərə-kompleksində tövhidin əvəzi kimi qəbul edilən məkan Dalandır. Dalana daxil olmaq üçün Sahətin

yuxarı başında kiçik bir keçid vardır. Bu keçid Sahətin “Allah, Allah” günbəzindən uzaq olan küncündə açılmışdır. Dalan adlanan məkan kifayət qədər qaranlıq bir məkandır və burada insan istər-istəməz ətrafdan təcrid olunaraq özünə qapılmalı olur. İnsan eyni zamanda yad hissləri özündən kənarlaşdırır və növbəti



**Şəkil-63. Dalanın və  Dalana giriş qapısının görünüşü**

mərhələyə keçmək yolunda daha qətiyyətlə irəliləyir. Bu məkanda olarkən insan qibləyə tərəf dönməli olur və beləcə növbəti vadiyə daxil olur. Hərəkət zamanı qibləyə tərəf dönmək məcazi mənada Haqqın təkliyinə qəbul etmək və ona doğru istiqamət götürmək deməkdir.

Sufiliyin altıncı vadisi heyrətdir. Heyrətə düşmək insanın xüsusi bir halıdır. Heyrət – yəni təəccüb içində donub qalmaq, dünyəvi hissələri əldən vermək, müəyyən mənada bayılmaq və ona oxşar durumdur. Bu durum Haqq yolunda kamilləşmə zamanı baş verir. Yəni insan bu mərhələyə yetişəndə həyatın mənasını yenidən anlamış olur, bu yeni həyatın onun qarşısında açdığı dünyaya öz heyrətini gizlədə bilmir. Yeni durumda insan



**Şəkil-64. Darülhəfazın və ona giriş qapısının görünüşü**

yalnız Haqqa qovuşmaq qətiyyətində olur. Bu vadidə insan zaman və məkan ölçülərini də itirir və məqsədinə yetişmək üçün təcrid olunmuş bir duruma yüksəlir (84).

Şeyx Səfi məqbərə-kompleksində heyrət vadisi Darül-həfazdır. Bu məkan, doğrudan da hər bir ziyarətçini heyrətə sala biləcək bir məkandır. Məkanın möhtəşəmliyi və əzəməti, nəfis və gözoxşayan bəzək işləri, rəng çalarlarının günəşin şüası ilə həm-ahəngliyi ziyarətçini öz sehrinə salır. Bu məkanın tavanı və



**Şəkil-65. "Allah, Allah" günbəzinin və bu günbəzə girişin təsviri**

döşəməsinin (Şeyx Səfi xalçası) eyni naxışlara malik olması insan heyrətinə əlavə bir təkandır və bu naxışlar arasında insan özünü sanki sonsuzluqda hiss edir və onu bürümüş olan bütün qayğıları unudaraq düşdüyü aləmin heyrətinə qapılır.

Sufilik yolunda sonuncu, yeddinci vadi – fənadır. Fəna – məqsədə yetişmək, Haqqa qovuşmaqdır. Bu vadidə Haqq sevgisi, Haqq etiqadı insanın batinini və xaricini öz ağuşuna alır. Şeyx Səfi məqbərə-kompleksində isə bu vadi "Allah, Allah" günbəzində öz əksini tapır. Sadalanan vadilərdən (məkanlardan) irəliləməklə ziyarətçi nəhayət ki, Şeyx Səfinin məzarı ilə üzbəüz qalır



**Şəkil-66. Şeyx Səfi məqbərə-kompleksinin ümumi təsviri**

və bütün diqqətini də bu məzarın ziyarətinə bağlayır. Şeyx Səfi məzarı üzərində tikilmiş günbəz məqbərə kompleksinin başlıca elementi olduğu kimi, Şeyx Səfi məzarının ziyarəti də şübhəsiz ki, bu kompleksin ziyarəti zamanı qarşıya qoyulan əsas məqsəddir.

### 3. Şeyx Səfi məqbərəsinin talanması

İstər Şeyx Səfiəddinin sağlığında, istərsə də onun dünyasını dəyişməsindən sonra Şeyx Səfi xanəgahına çoxlu sayda nəzir və

hədiyyələr gətirilirdi. Bu hədiyyələrin içərisində elələri var idi ki, onlar təkcə maddi yox,  həm də elmi-mənəvi dəyər kəsb edirdi. Məsələn, çoxlu sayda nadir kitablar, nadir "Quran" nüsxələri, qiymətli əşyalar və s. belə hədiyyələrdən idi. Şeyx Səfi məqbərəsinin kitabxanası elə Şeyx Səfiəddinin sağlığında formalaşmış və sonradan bu kitabxana da xeyli zənginləşmişdi. Səfəvi şahlarının hakimiyyəti illərində Şeyx Səfi kompleksi əlavə tikililərlə tamamlandığı kimi, onun hədiyyələr xəzinəsi də zənginləşdi və bu kompleks dövrünün mühüm elm və mədəniyyət mərkəzlərindən birinə çevrildi. Mövcud olan məlumatlara görə, məqbərənin muzeyində qızıldan, gümüşdən hazırlanmış çoxlu sayda əşyalar, qiymətli daşlarla bəzədilmiş hədiyyələr var idi ki, onların qiymətlərini müəyyənləşdirmək də mümkün deyildi. Qızıldan hazırlanmış qəndil və şamdanlar, çoxlu sayda qiymətli miniatürlər, nəfis xalçalar, qızıldan düzəldilmiş yumurtalar, qab-qaşıqlar, xüsusi sifarişlər əsasında hazırlanmış çini qablar bu muzeyin yaraşığı idi.

Təxminən 400 il ərzində Səfəviyyə təriqətinin müridləri, dövrün hakimləri, şahları, nüfuzlu adamları tərəfindən bu müqəddəs ocağa verilən qiymətli əşyalardan toplanan və Şeyx Səfi məqbərəsinin xəzinəsi kimi tanınan hədiyyələr və əşyalar toplusu Səfəvilər hakimiyyətinin süquta uğraması ilə müxtəlif talanların obyektinə çevrildi. Bunun nəticəsidir ki, indi bu zəngin xəzinədən Şeyx Səfi məqbərə-kompleksində bir əsəsr-əlamət qalmamışdır. Bəzi məlumatlara görə, Səfəvilər hakimiyyəti illərində də Şeyx Səfi məqbərəsinin xəzinəsindən xeyli qiymətli əşya çıxarılmış və onlar qoşunların təchizinə sərf edilmişdi. Bu hadisə Şah Təhmasibin dövründə baş vermişdi (85).

Şah Abbasın dövründə isə məqbərə kompleksinin xəzinəsi yenidən zənginləşmiş və Şah Abbasın sifarişi əsasında bu kompleks üçün çoxlu sayda qiymətli çini qab-qacaq hazırlanmışdı. Çin rəssamları və mütəxəssisləri tərəfindən hazırlanan bu qabların daxilində xüsusi texnologiya əsasında rəsmlər çəkilmiş və nəticədə həmin qabların içinə su doldurduqda onun daxilindəki şəkil



**Kitabın müəllifi Mehman Süleymanov Şeyx Səfi türbəsi qarşısında. 17 mart 2006-cı il**

üçölçülü həcmdə görünürdü. Şah Abbas tərəfindən Şeyx Səfi məqbərəsinə çoxlu sayda nadir kitablar da bağışlanmışdı. Şah Abbas istər Şeyx Səfi, istərsə də İma Rza məqbərələrinin kitabxanalarına xüsusi qayğı göstərirdi. Onun Şeyx Səfi məqbərəsinin kitabxanasına bağışladığı kitablar arasında həm ərəb, həm fars, həm də türk dilində kitablar var idi. Həmin kitabların arxasında onların Şah Abbas tərəfindən vəqf olunması haqqında qeydlər var idi: "Bu kitab Əli ibn Əbu Talib əleyhüssəlam məqbərəsinin xidmətçisi Abbas Səfəvi tərəfindən Şah Səfi Əleyh əl-Rəhimin nurlu məqbərəsinə vəqf edildi ki, hər kəs istəsə istifadə etsin, bir şərtlə ki, məqbərədən kənara aparmasın və əgər apararsa İmam Hüseyn Əleyhüssəlamın tökülən qanına şərik olsun" (86).

Şeyx Səfi kitabxanasında toplanan kitabların hamısı əlyazması şəklində hazırlanaraq nəfis şəkildə cildlənmişdi. Həmin kitablar kufi, reyhani, süls nəsx xətlərində dövrün tanınmış xəttatları tərəfindən hazırlanmışdı. Kitabların çoxunun cildlənməsində qızıl, gümüş və digər qiymətli əşyalardan istifadə olunmuş, onların tərtibatında çoxlu sayda miniatürlərdən istifadə edilmişdi. Bu kitabxananın nadir kitabları arasında 744 ədəd otuz cüzlük "Quran" və 234 ədəd otuz paralıq "Quran" var idi. Bu "Quran"ların 3-nü şəxsən Həzrət Əli kufi xətti ilə ceyran dərisi üzərində yazmışdı. Digər 32 ədəd "Quran" kitabı isə digər imam övladları tərəfindən yazılmışdı (87). Şeyx Səfi kitabxanası yalnız "Quran" kitablarından ibarət deyildi. Bu kitabxanada həm dini mövzuda, həm də bədii və tarixi mövzuda digər nadir kitablar da saxlanılırdı. İstər tarixi mənbələrdə, istəsə də elmi-tarixi araşdırmalarda Şeyx Səfi məqbərəsinin kitabxanası islam aləminin ən böyük və ən qiymətli kitabxanalarından biri kimi dəyərləndirilmişdir. Bu kitabxanada islam dəyələrinin, tarixinin, təriqət dəyərlərinin öyrənilməsi, dövrün ədəbi mühitindən məlumat əldə edilməsi üçün kifayət qədər kitablar mövcud idi. Yəni bu kitablar məzmun və tərtibat baxımından nadir incilər olmaqla yanaşı, islam dəyərlərinin təlimi üçün tədris vəsaitləri kimi də xüsusi əhəmiyyət kəsb edirdi.

Səfəvilər hakimiyyətinin zəifləməsi ilə Şeyx Səfi məqbərəsinin kitabxanasının və xəzinəsinin mühafizəsi də zəifləməyə başladı. Məlumatlara görə, Nadir şah Ərdəbilə səfərlər edərkən Şeyx Səfi məqbərəsində saxlanılan qiymətli əşyalardan bir hissəsini götürmüş və onları bir daha geri qaytarmamışdı. Ola bilsin ki, bu əşyalardan Nadirin ətrafında toplanan qoşunların təchizində istifadə olunmuşdu. Amma həmin xəzinənin müəyyən əşyalarının Nadir şahın Kelatda topladığı xəzinəsi içində olmasını ehtimal edənlər də vardır (88).

Elə Nadir şah dönəmində Şeyx Səfi məqbərəsinin kitabxana-xəzinəsi əfqanların, ləzgilərin və Osmanlı sərkərdələrinin də talanlarına məruz qaldı. Baxmayaraq ki, adı çəkilən qüvvələrin Şeyx Səfi məqbərəsini tamamilə talan etmək imkanları var idi, bununla belə, onlar kitabxana və xəzinədə mövcud olan əşyaların yalnız bir hissəsini apara bilmişdilər. Çox güman ki, onlar Şeyx Səfiəddinin cəddindən ehtiyat etdikləri üçün məqbərəni bütünlüklə talan etməmişdilər.

Bununla belə, ehtimal edilir ki, Səfəvilərin süqutu dövründə Şeyx Səfi məqbərəsindən Həzrət Əlinin və İmam Hüseynin katibləri tərəfindən kufi xətti ilə yazılmış lövhələr, son dərəcə qiymətli cildə malik 12 ədəd kitab, Nizami Gəncəvinin çoxlu sayda şəkillli Xəmsəsi, digər qiymətli əlyazmaları, xəttatlıq və nəqqaşlıq nümunələri, altı ədəd “Quran” kitabı, Hatifinin “Teymurnaməsi”, məqbərə kompleksinə aid olan böyük miqdarda gümüş əşyalar, qəlyanlar, qiymətli kasalar, ətiq qablar və s. Nadir şah dönəmində aparılmış və geri qaytarılmamışdı (89).

Şeyx Səfi məqbərə-kompleksinin qiymətli əşyalarının kütləvi şəkildə talanması isə Ərdəbilin Rusiya qoşunları tərəfindən işğalı zamanı və İranda Pəhləvi hakimiyyəti illərində baş vermişdi. XIX əsrin 30-cu illərində Türkmənçay müqaviləsinin imzalanması ərəfəsində Şeyx Səfi məqbərəsinin talanması Rusiya hakimiyyət dairələrinin və generallarının xüsusi diqqəti altında idi. Çünki Şeyx Səfi məqbərəsində toplanan nadir əşyaların qiymətli inci olmalarından onların xəbərləri var idi.

Mövcud məlumatlara görə, rus qoşunları hələ Arazın cənubuna adlamazdan qabaq Peterburqdan general Paskeviçin diqqətinə Ərdəbildəki Şeyx Səfi kompleksində yerləşən əlyazmaları kitabxanasının ələ keçirilməsinin vacibliyi çatdırılmışdı. Son dərəcə zəngin kitabları olan bu kitabxana ilə Rusiya imperatoru da maraqlanırdı. Rusiya ilə şah qoşunları arasında atəşkəs haqqında son razılaşma əldə ediləndən sonra da Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisi general Dibiç general Paskeviçə göndərdiyi məktubunda yazırdı ki, sülh anlaşmasının imzalanmasından sonra İran şahı tərəfindən Rusiya çarına veriləcək hədiyyənin Şeyx Səfi kompleksindəki kitabxana olmasına Rusiya imperatoru üstünlük verərdi. Başqa sözlə, general Paskeviçə tapşırıldı ki, Rusiya imperatorunun şəxsi marağına səbəb olmuş bu kitabxana Peterburqa daşınmalıdır (90).

Farsdilli araşdırmalarda olan məlumata görə, Rusiya qoşunları Cənubi Qafqazda işğalçılıq müharibəsi aparanda qoşun komandanlığından Şərq ədəbiyyatı nümunələrinin toplanaraq Peterburqa göndərilməsi barəsində göstəriş verilmişdi. Bildirilir ki, rus şərqşünası professor Senkovski Rusiya qoşunları Baş Qərargah rəisi general Dibiçə müraciət edərək belə kitabların toplanması barəsində lazımi işlər görülməsini xahiş etmişdi. Məlumata görə, rus qoşunları İrəvan və Naxçıvan xanlıqları ərazisində Şərq kitablarının axtarışı ilə məşğul olmuşdular. Lakin burada böyük kitabxana tapılmamışdı (91).

1827-ci il oktyabr ayının 13-də general-feldmarşal Paskeviçin rəhbərliyi altında olan rus qoşunları Qacar qoşunlarına ağır zərbə vuraraq Tərbiz şəhərini işğal etdilər. Bununla, Rusiya sarayı Cənubi Qafqazın işğal edilməsi məqsədilə başladığı növbəti müharibə kampaniyasının qarşısında dayanan başlıca məqsədə nail oldu. Bir tərəfdən bu işğal Qacar qoşunları daxilində yaranmış böhranı daha da dərinləşdirdi. Digər tərəfdən də Təbrizin işğalı ilə Qacar sarayını Araz çayından şimalda olan Azərbaycan xanlıqlarına və Lənkəran xanlığına olan iddialardan çəkindirmək üçün əlverişli fürsət yarandı. Çünki Rusiya öz qoşunlarını Təbrizdən bir şərtlə geri çəkməyə hazır idi ki, 1813-cü ildə Qacar

sarayı ilə Rusiya arasında imzalanmış Gülüstan müqaviləsinin şərtlərinə əlavə olaraq İrəvan və Naxçıvan xanlıqları da Rusiya işğalı altına düşsün və Qacar sarayı bu xanlıqlara iddia irəli sürməkdən əl çəksin. Əks təqdirdə, Rusiya qoşunları komandanlığı Tehrana doğru hərəkətini davam etdirəcəyini bildirirdi.

Rusiya qoşunlarının Tehrana doğru irəliləməsi Qacar sarayının bütünlüklə iflasa uğraması olardı. Çünki ölkə daxilində Rusiya qoşunlarının qarşısını saxlaya biləcək bir qüvvə yox idi və Rusiya qoşunları öz niyyətlərini həyata keçirmək istəsəydilər onlar çox asanlıqla Tehrana qədər irəliləyə bilərdilər. Bu təhlükənin sovuşdurulması üçün şah sarayı Rusiya ilə danışıqların başlanmasına razılıq verdi. Ona görə 1827-ci il noyabr ayının 8-də Təbriz yaxınlığındakı Dehxarqan kəndində general Paskeviçlə Abbas Mirzə arasında danışıqlar başlandı. Bu danışıqlar zamanı Rusiya nümayəndə heyətinin tərkibinə Azərbaycanın böyük mütəfəkkiri, ədibi, tarixçisi Abbasqulu ağa Bakıxanov da daxil idi. Danışıqların fars dilindən rus dilinə tərcüməsi onun vasitəsilə aparılırdı (92).

Amma bu danışıqlar gözlənilən nəticəni vermədi və tərəflər razılığa gəlmədən ayrılmalı oldular. Qacar sarayını Rusiyanın şərtlərinin qəbul edilməsinə məcbur etmək üçün general Paskeviç yenidən hücumların başlaması əmrini verdi. Qısa müddət ərzində Marağa, Urmiya və Ərdəbil şəhərləri də rus qoşunlarının işğalı altına düşdü. Rusiya qoşunlarının bir dəstəsi isə Ərdəbilə doğru hərəkətə başladı. Bu dəstəyə general-leytenant Suxtelen rəhbərlik edirdi. Onun rəhbərliyi altında olan rus qoşunları ciddi bir müqavimətə rast gəlmədən Ərdəbilə daxil oldular və dərhal da burada talan və təqiblərə başladılar. Bu talanlardan Şeyx Səfi məqbərə kompleksində saxlanan zəngin kitabxana da yan keçmədi.

Qacar sarayının vəliəhdi, Azərbaycanın (Cənubi) hakimi, Qacar qoşunlarınını baş komandanı Abbas Mirzə çalışdı ki, qiymətli Şeyx Səfi kitabxanasını Rusiya qoşunlarının talanlarından qorusun. Amma məqsədinə nail ola bilmədi. O, Şeyx Səfi kitabxanasını Peterburqa daşınmasının icraçılarından biri olan Qriboyedova müəyyən qədər müqavimət göstərmək istədi və onu

inandırmağa çalışdı ki, Şeyx Səfi kitabxanasındakı kitablar çox köhnədir, ağırdır, mürəkkəb bir dildə yazılmışdır. O məsləhət bildi ki, Rusiya imperatoruna daha yeni və daha maraqlı kitablar göndərmək mümkündür. Rusiya tərəfi şübhəsiz ki, bununla razılaşmadı. Ərdəbili işğal etmiş rus qoşunları komandanı general Suxtelen şəhəri ələ keçirən kimi kitabxananın talan edilməsinə başladı. Bunun üçün general Suxtelen bəzi məlumatlara görə, Şeyx Səfi kitabxanasının talanmasına müxalif olan Ərdəbil ruhanilərinə qızıl pullar payladı və bununla da onların etirazlarının qarşısını almağa çalışdı (93).

Farsdilli araşdırmalarda olan məlumata görə, general Suxtelen Ərdəbilə doğru hərəkətə başlayanda Şeyx Səfi məqbərəsindəki kitabxananın talan edilməsi barəsində artıq göstəriş almışdı və hələ Ərdəbilə çatmazdan əvvəl o, bu kitabxananı necə talan etmək barədə düşünməyə və planlar qurmağa başlamışdı (94).

Rus mənbələrindəki məlumatlara görə, fevral ayının 8-də adı çəkilən kitabxananın maneəsiz şəkildə Rusiyaya daşınmasına nail olmaq üçün general Suxtelen Şeyx Səfi türbəsinin ruhanilərini və din xadimlərini yanına toplayıb onlarla söhbət apardı. Onun sözlərinə görə, guya Rusiya hökuməti Rusiya ərazisində yaşayan müsəlmanların dini savadlanması və qayğı ilə əhatə olunması üçün tanınmış Şərq alimlərinin kitablarına və əsərlərinə böyük ehtiyac duyurdu. General Suxtelen ruhanilərə Şeyx Səfi kitabxanasında saxlanılan kitabların üzünün köçürülməsi və öyrənilməsi üçün tapşırıq aldığını bildirdi. Görünür, Ərdəbil ruhaniləri müqavimət göstərməyin mənasız olduğunu qəbul etdilər. Çünki general Suxtelenin yazdığına görə, bu ruhanilər müzakirələrdən və fikir mübadiləsindən sonra polkovnik Reutun müşayiəti ilə Şeyx Səfi türbəsinə yollandılar ki, kitabların qablaşdırılmasına başlasınlar. Bunun üçün əvvəldən sandıqlar da hazırlanmışdı ki, kitablar qablaşdırıldıqdan sonra bu sandıqlar heyvanlar vasitəsi ilə daşınsın. Hər hansı ciddi bir hadisə baş vermədən bu kitablar sandıqlara yığıldı və sonra da bu sandıqlar rus zabitlərinin və Ərdəbil ruhanilərinin möhürləri ilə möhürlən-

di. Bu azmış kimi, general Suxtelenin məlumatına görə, Ərdəbil ruhaniləri Rusiya imperatorunun sağlığına dualar da oxudular. Əvəzində rus zabitləri tərəfindən Ərdəbil kasıblarına qayğı məqsədilə 25 çervon pul ayrıldı. General Suxtelen sevinclə məruzə edirdi ki, Şeyx Səfi türbəsinin kitabxanasının əldə edilməsinə cəmi 50 çervon pul xərclənmişdi (95).

Farsdilli araşdırmalardakı məlumatlara görə isə, Ərdəbil ruhaniləri və ağsaqqalları Şeyx Səfi məqbərəsinə toplanandan sonra rus zabitləri guya Şeyx Səfinin xatirəsinə hörmət əlaməti olaraq onun qəbrinin üzərinə bir Xorasan xalçası, Təbrizdən gətirilmiş bir zərli pərdə və 800 rubl rus pulu qoydular. İlk iki hədiyyə, əslində, rus qoşunlarının yerli əhalidən talan etdikləri əşyalar idi. Sonra general Suxtelen Ərdəbil ruhanilərinə belə bir müraciət eti: "Ərdəbil şəhərinin alimlərinə və böyüklərinə məlumdur ki, Rusiya imperatorluğu ərazisində çoxlu sayda müsəlmanlar yaşayırlar. Rusiya dövləti də islam dininə xüsusi ehtiram göstərir. Amma Rusiya imperatorluğu ərazisində yaşayan müsəlmanların islam ehkamları barəsində lazımi məlumatları yoxdur və layiq olduğu səviyyədə islam qanunlarından agah deyildirlər. Ona görə də, Rusiya imperatoru istəyir ki, onun müsəlman rəiyyətləri islam qanunları və ehkamları ilə yaxşı şəkildə tanış olsunlar və dövlət orqanları da islam şəriətinin vacibatlarına uyğun gəlməyən əmrlər verməsinlər. Ona görə də bizə tapşırıq verilmişdir ki, bu xalçanı və bahalı zərli parçanı Şeyxin qəbrinə hədiyyə edək və imperatorluq bu qiymətli hədiyyənin əvəzində məndən tələb etmişdir ki, bu məqbərənin kitabxanasının Rusiyaya göndərilməsinə icazə verilməsini Ərdəbil şəhərinin böyüklərindən və alimlərindən xahiş edim. Bu kitablar rus dilinə tərcümə edilsin islam dininin təbliği üçün müsəlmanlar arasında yayılsın. Bu işlər görüləndən sonra bütün kitablar yenidən Şeyx kitabxanasına qaytarılacaqdır" (96).

Farsdilli ədəbiyyatdakı məlumatlara görə, Ərdəbil alimləri və ruhaniləri əvvəlcə etiraz etmək istədilər. Onlar bildirdilər ki, bu kitablar vəqf və fiqh kitablarıdır, onları aparmaq olmaz. Ancaq onların sözünə əhəmiyyət verən olmadı. Həmin məlumatlara gö-

rə, ruslar Şeyx Səfi kitabxanasından aşağıdakı kitabları talan edərək Rusiyaya apardılar:

1.Məhəmməd bin Əli - Mətlə xüsus ülkələm fi məani fosus əlhokm

2. Soltanəli Məşhədi. Osma ül həsəni məə (ərəb dilinə tərcümə)

3. Əsnad münacat müxəmməs

4. Abdulla bin Ömər. Səhifeye kamele

5. Bizavi - Təvale ülənvar və mətale ül Enzar

6. Məhəmməd bin Zəkərya . Şəvakil ülhur fi şərh fi həyakül ənvar (2 ədəd)

7.Məhəmməd bin Zəkərya. Əl-işarat və əl-tənbihat

8.Məhəmməd Zəkərya. Kitab ül kənaş məruf be kitab-ül fəxr

9. Yəhya bin Səid. Əm came-ül kəbir əl-məəruf bilhavi

10. Xəttatlıq, nəqqaşlıq, rəsm nümunələri toplusu

11. Xəttatlıq, nəqqaşlıq, rəsm nümunələri toplusu

12. Xəttatlıq, nəqqaşlıq, rəsm nümunələri toplusu

13. Rouze-ye eyn ül-qəzah-e Həmədani

14. Qəzali. Kitabi elm

15. Ləvayehi camii ( 8 ədəd)

16. Töhfe-ye şahi

17. Xəttatlıq, nəqqaşlıq, rəsm nümunələri toplusu

18. Xəttatlıq, nəqqaşlıq, rəsm nümunələri toplusu

19. Xacə Ənsari məqaləsi

20. Qəzali. Kimyayi səadət

21. Tarix-i Təbəri

22. Tarix-i Təbəri

23. Tarix-i Təbəri

24. Firdövsül təvarix

25. Mirxond. Rövzətüs Səfa

26. Xandəmir. Xülaseyül əxbar fi bəyani əhvalül xəyyar

27. Həbübüs siyər

28. Cəvahür-ül əxbar

29. Rəşidəddin. Came ət təvarix

30. Xəttatlıq, nəqqaşlıq, rəsm nümunələri toplusu
31. Zəfərname-ye Teymuri
32. Zəfərname-ye Teymuri
33. Əbdülrezaq Səmərqəndi. Mətlə-ül səidin və məcmə-ül bəhreyn
34. Əbdülrezaq Səmərqəndi. Mətlə-ül səidin və məcmə-ül bəhreyn
35. İbn əl-Bəzzaz. Səffətüs-səfa
36. Şah Təhmasibin elçilərlə mükaliməsi
37. Tarix-e Şərəfnamə
38. Tarüx-ül məəssər kalər rülcəvahir
39. Rövzeyül hübab fi seyrül nəbi vəlal üləshab
40. Məcməül nəsab
41. Məhəmməd bin Zeyd . Əhsənül kobar fi morəüfətül əəmətül əl əthar
42. Məhəmməd bin Zeyd . Əhsənül kobar fi morəüfətül əəmətül əl əthar (II cild)
43. Xülasətül əşar və zebdətül əfkar
44. Divan
45. Nizaminin Xəmsəsi
46. Şahnamə ( 4 ədəd)
47. Ənvərinin divanı
48. Caminin divanı
49. Müxtəlif şeirlərdən ibarət divan
50. Xosrov və Şirin poeması
51.Həkim Sənayinin hədiqəsi
52. Xaqaninin divanı
53. Seyfi divanı
54. Əttarın divanı
55. Kəmaləddinin divanı
56. Kəmaləddinin divanı
57. Sədinin "Gülüstan"ı
58. Kəlmələr (aforizmlər)
59. "Gülüstan" və "Bustan"dan seçmələr
60. "Gülşəni zar" əsəri

61. Əmir Xosrov Dəhləvinin külliyatı
62. Nizami Gəncəvinin əsərləri
63. Əmir Xosrov Dəhləvinin divanından seçmələr
64. "Həşt beheşt" poeması
65. "Leyli və Məcnun" poeması
66. "Xosrov və Şirin" poemasından seçmələr
67. Xəsər xan Dulərani
68. Caminin tərcibəndi
69. Əmir Xosrov Dəhləvinin divanı
70. Zad-ül müsafirin
71. Xacənin divanı
72. İbn Yəminin divanı
73. "Mehr və Müştəri" poeması
74. "Mehr və Müştəri" poeması
75. İmadülməlle  Kermaninin külliyatı
76. İmadülməlle Kermaninin külliyatı
77. Hafiz Şirazinin divanı
78. Həkim Nəzarinin külliyatı
79. Kitabinin divanı
80. Şahinin qəzəlləri (3 ədəd)
81. Kotob səbəə cami
82. Töhfətül əsrar ( 3 ədəd)
83.  Sobhətül əbrar
884. "Yusif və Züleyxa"
85. Silsilətül Zəhab (farsca şerlər)
86. Caminin "Qırx hədis" poeması
87. Əşarın divanı
88. Küy və çovqan (bir neçə ədəd)
89. Hatifinin "Səmərnamə"si (bir neçə ədəd)
90. Hafifinin "Şahnamə"si
91. Nizaminin "Yeddi gözəl" poeması
92. Mərsiyə
93.  Baba Fəqaninin divanı
94. Səhilinin divanı
95. Asifinin divanı

96. Molla Soltanəlinin risaləsi
97. Qəsidə və şeirlər
98. Asar-ül müzəffər
99. Şah İsmayılın "Dəhnaməsi"si
100. Dərviş Hilalinin "Şahnamə"si
101. Əhli Şirazinin külliyatı
102. Əhli Şirazinin külliyatı
103. Əqayid-i şahi
104. "Mehr və Vəfa" əsəri
105. Əmad Fəqiyyə divanı
106. Maninin divanı
107. Hüsn və dil
108. Nəzhətül aşiqin
109. Mərzbannamə
110. Əlfərc bəəd üş şüdətün vəl ziyfə
111. Xəttatlıq, nəqqaşlıq, rəsm nümunələri toplusu
112. Azərbaycan dilində müxtəlif nəzm və nəsr əsərləri
113. Nəvayinin külliyatı
114. Əlişir Nəvayinin "Xəmsə"si
115. Nəvayinin divanı ( bir neçə nüsxədə)
116. "İsgəndərnamə" (97)

Dövrün şahidlərinin yazdıqlarına görə, ruslar istədikləri kitabları toplamaqla bərabər, Şeyx Səfi məqbərəsinin muzeyində qalan əşyaları da talan etdilər.

Rusdilli mənbələrə görə, "Quran" kitabları hesaba alınmaqla Şeyx Səfi türbəsindən 166 ədəd qədim kitab götürüldü və onlar 8 sandığa yerləşdirilərək Ərdəbil qalası daxilinə aparıldı. Yuxarıda göstərilən siyahıda bir neçə kitabdan bir neçə nüsxə aparılmışdı. Yəqin ona görə, ümumi rəqəm 166 ədəd olmuşdu. Bu sandıqlar fevralın 10-da 41-ci yeger alayının 2 bölüyünün, 8 nəfər kazak və 2 ədəd topun müşayiəti ilə Meşkinə göndərildi. Qədim kitabların Meşkindən Tiflisə aparılması və müşayiət edilməsi polkovnik Reneyə tapşırılmışdı. General Suxtelen cildlərinə görə də ələ keçirilən kitabların çox qiymətli olduğunu bildirirdi

və onların ələ keçirilməsinə sevincini general Paskeviçlə də bölüşürdü (98).

Yuxarıda qeyd edildiyi kimi, general Suxtelen Şeyx Səfi kitabxanasının kitablarını ələ keçirərkən Ərdəbil ruhanilərinə onların surətinin çıxarılmasından sonra qaytarılması ehtimalına işarə etmişdi. Onun bu vədi Rusiya sarayında heç də müsbət qarşılanmadı. Saray mənsublarının 1828-ci il aprel ayının 25-də general Paskeviçə göndərdikləri məktubda bildirirdilər ki, Şeyx Səfi türbəsinin kitabxanasının Rusiyadan geri qaytarılması istisna olunur. Ona görə, general Paskeviçdən də tələb olunurdu ki, Qacar sarayı Şeyx Səfi türbəsinin kitabxanasının geri qaytarılması məsələsini qaldırsa, qarşı tərəfin diqqəti bu məsələdən yayındırılsın (99).

Bu kitabların geri qaytarılmayacağına şübhə yox idi. Çünki siyahıdan göründüyü kimi, kitabların çoxu ilahiyyat kitabları deyildi və Rusiya müsəlmanları arasında islamın yayılması üçün onlardan istifadə edilməsi də mümkün deyildi. Sonradan Qacar sarayı tərəfindən bu kitabların geri qaytarılması haqqında məsələ qaldırılması ilə bağlı məlumat mövcud deyildir.

Bununla belə, qeyd edilməlidir ki, rus qoşunları komandanlığı Şeyx Səfi məqbərəsinin kitabxanasını və bu məqbərənin muzeyində qalmış əşyaları bütünlüklə qarət etmədilər. Bunun nə ilə bağlı olduğunu söyləmək çətindir. Çünki istər Şeyx Səfi məqbərəsinin kitabxanasını və muzeyini, istərsə də şəhər əhalisini bütünlüklə talan edəcəyi halda rus qoşunlarına müqavimət göstərə biləcək bir qüvvə mövcud deyildi. Ona görə rus qoşunları komandanlığının əlinə düşən belə bir fürsətdən tamamilə yararlanmaması müəyyən dərəcədə təəccüb doğurur.

Farsdilli araşdımalarda olan məlumatlara görə, Rusiya qoşunlarının talanlarından sonra da Şeyx Səfi məqbərəsinin kitabxanasında xeyli sayda maraqlı və qiymətli kitablar qalıbmış. Şeyx Səfi məqbərə-kompleksinin kitabxana və muzeyinin tamamilə talanması sonrakı illərdə baş verdi və 1314-cü (1936) ildə İranın o zamankı Maarif və Vəqf Nazirliyinin göstərişinə əsasən Şeyx Səfi məqbərəsində qalmış kitablar və qiymətli əşyalar 80 ədəd

böyük sandığa yükləndi və Tehrana göndərildi. Həmin kitablar hazırda İran Milli Muzeyinin islam mədəniyyətinə aid olan fondunda saxlanılır.

Farsdilli araşdırmalarda Şeyx Səfi məqbərə-kompleksindən Tehran muzeylərinə daşınmış qiymətli kitab və əşyaların siyahısı aşağıdakı kimi verilmişdir (100):

1. "Qurani-Məcid" və onun cüzləri – 85 ədəd. Onlar həm qədim, həm də nəfis şəkildə tərtib edilmiş kitablar idi. Şeyx Səfi məqbərəsinin kitabxanasından aparılmış həmin "Quran" kitabları hicri tarixinin III-XIII əsrləri arasında yazılmış kitablar idi. Onların arasında islam aləminin tanınmış mütəfəkkirləri olan Yaqut Mötəsimiyə, Söhrəvərdiyə, Yaqut bin Abdullaya və digərlərinə, habelə Səfəvi xanədanının nümayəndələrindən olan Şah Təhmasib Səfəvi, Bəhram Mirzə Səfəvi və digərlərinə məxsus olan "Quran" kitabları var idi. Məlumata görə bu "Quran" kitablarından 4 ədədi hicri-qəməri ilə III-IV əsrlərdə yazılmışdı. Farsdilli araşdırmalarda bu "Quran" kitablarının hər birinin ayrıca təsviri və təqdimatı verilmişdir.

2. Firdövsinin "Şahnaməsi"

- hicri-qəməri ilə 5-ci əsrdə xəttat Dərviş Məhəmməd Müxlisin nəstəliq xətti ilə yazdığı nüsxə;

- Xanbalıq kağızı üzərində nəstəliq xətti ilə yazılmış və Şah Abbas tərəfindən Şeyx Səfi məqbərəsinə hədiyyə edilmiş nüsxə;

- xəttatı bilinməyən və Şah Abbas tərəfindən hədiyyə edilmiş başqa bir nüsxə;

- xəttatı bilinməyən və X əsrdə (qəməri) yazıldığı güman edilən nüsxə;

3. Qasımi "Şahnamə"si. Bu əsər Mirzə Qasım Qunabadinin Şah Təhmasibə həsr etdiyi poemadır. Əsərin X əsrdə (hicri qəməri) üzü köçürüldüyü ehtimal edilir və o, Şah Abbas tərəfindən Şeyx Səfi məqbərəsinə hədiyyə edilmişdi.

4. Sərihül-mülk (dörd nüsxədə). Bu toplu Şeyx Səfi məqbərəsinə vəqf edilmiş mülklərin və hədiyyələrin siyahısıdır. Həmin toplular bu işlə məşğul olan adamların şəxsi xətti ilə yazılıb.

İlk iki cild Zeylanabdin Əbdi ibn Əbdülmömün ibn Sədrəddin Məhəmməd ibn Nəsrəddin Əhməd Qəvami Şirazi və sonrakı iki cild isə Məhəmməd Tahir Sepahani tərəfindən yazılmışdır. Bu toplular Nəsrəddin şahın hakimiyyti illərində Səltənət kitabxanasına aparıldı. Sonradan isə onlar İranın Milli Kitabxanasına köçürüldü.

5. Nizami Gəncəvinin "Xəmsə"si (3 nüsxə). Şah Abbas tərəfindən hədiyyə edilən bu kitabların da X əsrdə (hicri qəməri) üzü köçürüldüyü ehtimal edilir.

6. Şeir cüngi. X əsrdə (hicri qəməri) üzünün köçürüldüyü ehtimall edilir. Bu cüng qəzəl toplusudur və ona Bəstaminin, Caminin, Nasirinin, Katibinin, Şahinin, Tusinin, Xəyyaminin, İbn Yəminin və digərlərinin qəzəlləri daxil edilmişdi.

7. Xandəmirin "Həbibüs-siyər" əsəri (2 nüsxədə).

8. Mur Münşi Qazi Mirəhmədin "Xülasüt-təvarix" əsəri. Şah Abbas tərəfindən hədiyyə edilmişdir.

9. Xaqaninin divanı (2 nüsxədə). İkinci nüsxə Şəmsəddin inb Mirzəcan Qəzvini tərəfindən nəstəliq xətti ilə yazılmışdır. Şah İsmayıl tərəfindən hədiyyə edilmişdir.

10. Şah İsmayıl Xətayinin nəstəliq xətti ilə yazılmış divanı. Şah Abbas tərəfindən hədiyyə edilmişdir.

11. Talib Amolinin divanı. Nəstəliq xətti ilə təxminən X əsrdə (hicri qəməri) yazılıb və Şah Abbas tərəfindən hədiyyə edilib.

12. Seyid İsmayıl Qurqaninin "Zəxire-ye Xarəzmşahi" əsəri. Bu əsərin nəsx xətti ilə VII-VIII əsrlərdə (hicri qəməri) üzü köçürüldüyü güman edilir.

13. İsmət Buxarainin divanı. Şah Abbas tərəfindən hədiyyə edilib.

14. Mirxondun "Rövzətüs-səfa" əsəri. Kitanın üzü X əsrdə (hicri qəməri) Məhəmməd ibn Şeyx Əminəddin Cəhrami tərəfindən köçürülüb. Bu kitab da Şah Abbas tərəfindən hədiyyə edilib.

15. Hüseyn Nədayinin "Seyfül-nəbüvvət ya Məşhədül-şühəda". Qasım ibn Əli tərəfindən üzü köçürülüb və Şah Abbas tərəfindən hədiyyə olunub.

16. İbrahimi Əmininin “Fotuhat-e şahi” əsəri. Şah Abbas tərəfindən hədiyyə olunub

17. Vəhşinin “Fərhad və Şirin” poeması.

18. Əbülfəzl Ciş ibn İbrahim Tiflisinin “Kamilüt-təbir” əsəri.

19. Sədinin külliyatı (2 nüsxədə).

20. Mövlanə Ruminin “Məsnəvi”si (2 nüsxədə).

21. Hafiz Əbrunun “Məcməüt-təvarix əl Sultaniyyə” əsəri.

22. Məcmuə.

Bu siyahıdan sonra elmi araşdırmalarda Şeyx Səfi məqbərə-kompleksinin kitabxanasından aparılmış “Quran”ların siyahısı verilir. Bu siyahıda 88 “Quran” vardır. Onların hər biri haqqında müxtəsər məlumat da verilmişdir. Həmin məlumatlar da göstərir ki, Şeyx Səfi kitabxanasında çox nadir “Quran” kitabları saxlanmışdır.

Şeyx Səfi kitabxanasından aparılmış kitablar arasında 18 ədəd dua kitabı da olmuşdur ki, onlardan bəziləri İmam Əlinin və İmam Həsənin və digər müqəddəslərin əli ilə yazılmışdı.

Hazırda islam mədəniyyətinin ən gözəl incilərindən olan Şeyx Səfi məqbərə kompleksində bir sıra yeni maraqlı əsərlər və əşyalar saxlanmaqdadır. Lakin onlar vaxitlə Şeyx Səfi məqbərəsinə mənsub olmuş və talanaraq aparılmış muzeyin və kitabxanasının şöhrətini, əzəmətini və milli dəyərini əvəz etmək gücünə malik deyil.

## 4. **İstifadə olunmuş mənbə və ədəbiyyat**

1. Şeyx Səfi təzkirəsi. "Səfvətüs-səfa"nın XVI əsr türk tərcüməsi. Tərtibçilər: Möhsün Nağısoylu, Sevər Cabbarlı və Rauf Şeyxzamanov. Bakı, 2006, s.729
2. Yenə orada, s. 729-730
3. Yenə orada. s. 730
4. Yenə orada, s. 731
5. Yenə orada, s. 732
6. Yenə orada, s. 733
7. Yenə orada, s. 734
8. Yenə orada, s. 738
9. Yenə orada, s. 739
10. Yenə orada. s. 736
11. Yenə orada, s. 737
12. Yenə orada
13. Yenə orada, s. 739
14. Yenə orada, s. 738
15. Yenə orada, s. 740
16. İsgəndər bəy Münşi Türkman. Tarix-i Aləmar-yi Abbasi (Abbasın dünyanı bəzəyən tarixi). I cild. Tərcüməçilər: Oqtay Əfəndiyev və Namiq Musalı. Bakı, 2009, s. 43-44
17. Şeyx Səfi təzkirəsi, s. 740-741
18. İbn Bəzzaz Ərdəbili. Səfvətüs-səfa. Təbriz, 1373, s. 985
19. Şeyx Səfi təzkirəsi, s. 742
20. Yenə orada, s. 743
21. Yenə orada, s. 744
22. Yenə orada, s. 747
23. Yenə orada, s. 773
24. Cəlilikiya M.Təzyin və memari-ye bəqəə-ye Şeyx Səfiəddin Ərdəbili.
   http://sheikh-safialdin.com/
   تزئین-ومعماری-بقعه-شیخ-صفی-الدین-اردبی/
25. Şeyx Səfi təzkirəsi. Bakı, Nurlan, 2006, s. 742

26. Cəlilikiya M.Təzyin və memari-ye bəqəə-ye Şeyx Səfiəddin Ərdəbili.
http://sheikh-safialdin.com/
تزئين-و-معماری-بقعه-شيخ-صفی-الدين-اردبی/
27. Zeynali-Onari M. Pədidarşenasi-ye bəqəə-ye Şeyx Səfiəddin Ərdəbili.......
28. Məcmue-ye xanəgah və bəqəə-e Şeyx Səfiəddin Ərdəbili https://www.karnaval.ir/sheikh-safi-al-din-shrine-ensemble
Bəqəə-e Şeyx Səfiəddin Ərdəbili.
https://www.kojaro.com/2016/6/30/120164/sheikh-safiodin-ardebili/
29. Məcmue-ye xanəgah və bəqəə-e Şeyx Səfiəddin Ərdəbili https://www.karnaval.ir/sheikh-safi-al-din-shrine-ensemble
Bəqəə-e Şeyx Səfiəddin Ərdəbili
www.ivo.ir/portal/file/?252690/
30. Şahməndi Ə. Təəmmoli bər yadeqarnevisiha-ye Qacari dər bəqəə-ye Şeyx Səfiəddin Ərdəbili.
http://sheikh-safialdin.comتاملی-بر-يادگار-نويسيهای-قاجاری-در-بق/
31. Yenə orada
32. Zeynali-Onari M. Pədidarşenasi-ye bəqəə-ye Şeyx Səfiəddin Ərdəbili. http://sheikh-safialdin.com
پديدارشناسی-بقعه-شيخ-صفیالدين-ارد/
33. Cəlilikiya M.Təzyin və memari-ye bəqəə-ye Şeyx Səfiəddin Ərdəbili. http://sheikh-safialdin.com/
تزئين-و-معماری-بقعه-شيخ-صفی-الدين-اردبی/
(Tərcümə- Qərara alındı, əzəmətli sultan, ərəb və əcmlərin rəhbəri (nəzarətçisi) sultan oğlu sultan şah Abbas Səfəvi, Musəvi, Hüseyni, Bahadur xan. Allah onun mülkünü və dövlətini əbədi etsin, onun yaxşılıq, ədalət və ehsanını aləmlərdə üstün etsin. Böyük əmir Məlik əl-Mənnan (Allah) dəstəyini almışdır. 1057-ci hicri ilində doğulmuş Əlixanın nəzəri).
34. Məcmue-ye xanəgah və bəqəə-e Şeyx Səfiəddin Ərdəbili https://www.karnaval.ir/sheikh-safi-al-din-shrine-ensemble
35. Yenə orada
36. Məcmue-ye xanəgah və bəqəə-e Şeyx Səfiəddin Ərdəbili

https://www.karnaval.ir/sheikh-safi-al-din-shrine-ensemble
Cəlilikiya M.Təzyin və memari-ye bəqəə-ye Şeyx Səfiəddin Ərdəbili.
http://sheikh-safialdin.com/تزئین-ومعماری-بقعه-شیخ-صفی-الدین-اردبی/
37. Məcmue-ye xanəgah və bəqəə-e Şeyx Səfiəddin Ərdəbili
https://www.karnaval.ir/sheikh-safi-al-din-shrine-ensemble
Cəlilikiya M.Təzyin və memari-ye bəqəə-ye Şeyx Səfiəddin Ərdəbili.
http://sheikh-safialdin.com/
تزئین-ومعماری-بقعه-شیخ-صفی-الدین-اردبی/
38. Bəqəə-e Şeyx Səfiəddin Ərdəbili.
https://www.kojaro.com/2016/6/30/120164/sheikh-safiodin-ardebili/
Məcmue-ye xanəgah və bəqəə-e Şeyx Səfiəddin Ərdəbili
https://www.karnaval.ir/sheikh-safi-al-din-shrine-ensemble
39. Bəqəə-e Şeyx Səfiəddin Ərdəbili.
https://www.kojaro.com/2016/6/30/120164/sheikh-safiodin-ardebili/
Məcmue-ye xanəgah və bəqəə-e Şeyx Səfiəddin Ərdəbili
https://www.karnaval.ir/sheikh-safi-al-din-shrine-ensemble
40. Bəqəə-e Şeyx Səfiəddin Ərdəbili.
https://www.kojaro.com/2016/6/30/120164/sheikh-safiodin-ardebili/
Məcmue-ye xanəgah və bəqəə-e Şeyx Səfiəddin Ərdəbili
https://www.karnaval.ir/sheikh-safi-al-din-shrine-ensemble
Bəqəə-e Şeyx Səfiəddin Ərdəbili.
www.ivo.ir/portal/file/?252690/
41. Cəlilikiya M.Təzyin və memari-ye bəqəə-ye Şeyx Səfiəddin Ərdəbili.
http://sheikh-safialdin.com/
تزئین-ومعماری-بقعه-شیخ-صفی-الدین-اردبی/
42. Bəqəə-e Şeyx Səfiəddin Ərdəbili.
http://qaramacmua.blogfa.com/post/20
43. Bəqəə-e Şeyx Səfiəddin Ərdəbili.
http://qaramacmua.blogfa.com/post/20

Məcmue-ye xanəgah və bəqəə-e Şeyx Səfiəddin Ərdəbili https://www.karnaval.ir/sheikh-safi-al-din-shrine-ensemble
44. Bərrəsi-ye məscid-e Şeyx Səfiəddin Ərdəbili – memari-ye islami.
45. Şahbazi Şiran H. Bərrəsi-ye saxtar-e memari və təzyinat-e aramqah-e Şeyx Səfiəddin Ərdəbili məəruf be qonbəd-e Allah, Allah və aramqah-e Şah İsmayıl Əvvəl; şahkari honər-e memeari-ye islam dər Ərdəbil. https://www.researchgate.net/publication/310458029
46. Hüseyni S.H. Moərrəfi-ye səbk-e məqbərəsazi-ye motəsəvvəfe-ye Azərbaycan, s. 59/Nəşriyye-ye honərha-ye ziba – memari və şəhərsazi. 1389, N-43, s. 57-68
Zeynali-Onari M. Pədidarşenasi-ye bəqəə-ye Şeyx Səfiəddin Ərdəbili.......
47. Cəlilikiya M.Təzyin və memari-ye bəqəə-ye Şeyx Səfiəddin Ərdəbili. http://sheikh-safialdin.com/ تزئین-ومعماری-بقعه-شیخ-صفی-الدین-اردبی/
48. Yenə orada
49. Şahbazi Şiran H. Bərrəsi-ye saxtar-e memari və təzyinat-e aramqah-e Şeyx Səfiəddin Ərdəbili məəruf be qonbəd-e Allah, Allah və aramqah-e Şah İsmayıl Əvvəl; şahkari honər-e memeari-ye islam dər Ərdəbil. https://www.researchgate.net/publication/310458029
50. Yenə orada
51. Mehryar S. Sənduğ-e qəbr-e çubi-ye Şeyx Səfiəddin Ərdəbili, şahkar-e honər-e islami və irfani. sheikh-safialdin.com/wp-content/uploads/2016/12/4-صنعتی-ایرانی-مهریار-s.pdf
52. Yenə orada
53. Yenə orada
54. Cəlilikiya M.Təzyin və memari-ye bəqəə-ye Şeyx Səfiəddin Ərdəbili. http://sheikh-safialdin.com/تزئین-ومعماری-بقعه-شیخ-صفی-الدین-اردبی/

55. Mehryar S. Sənduğ-e qəbr-e çubi-ye Şeyx Səfiəddin Ərdəbili, şahkar-e honər-e islami və irfani. sheikh-safialdin.com/wp-content/uploads/2016/12/4-صنعتی-ایرانی-مهریار-s.pdf
56. Yenə orada
57. Yenə orada
58. Yenə orada
59. Yenə orada
60. Yenə orada
61. Şahbazi Şiran H. Bərrəsi-ye saxtar-e memari və təzyinat-e aramqah-e Şeyx Səfiəddin Ərdəbili məəruf be qonbəd-e Allah, Allah və aramqah-e Şah İsmayıl Əvvəl; şahkari honər-e memeari-ye islam dər Ərdəbil. https://www.researchgate.net/publication/310458029
62. Məcmue-ye xanəgah və bəqəə-e Şeyx Səfiəddin Ərdəbili https://www.karnaval.ir/sheikh-safi-al-din-shrine-ensemble Şahbazi Şiran H. Bərrəsi-ye saxtar-e memari və təzyinat-e aramqah-e Şeyx Səfiəddin Ərdəbili məəruf be qonbəd-e Allah, Allah və aramqah-e Şah İsmayıl Əvvəl; şahkari honər-e memeari-ye islam dər Ərdəbil. https://www.researchgate.net/publication/310458029
63. Məcmue-ye xanəgah və bəqəə-e Şeyx Səfiəddin Ərdəbili https://www.karnaval.ir/sheikh-safi-al-din-shrine-ensemble Qozareş-e təsviri və təhlili-ye fənni-ye məqbərə-ye Məhyəddin – Şeyx Səfiəddin Ərdəbili. https://sinapress.ir/news/27550/
64. Bəqəə-e Şeyx Səfiəddin Ərdəbili. www.ivo.ir/portal/file/?252690/ Məcmue-ye məzhəbi-ye Şeyx Səfiəddin Ərdəbili dər yek neqah. http://www.arums.ac.ir/fa/page/1600/
65. Əlayi Ə. Aramqah-e Şeyx Səfiəddin ......
66. Cəlilikiya M.Təzyin və memari-ye bəqəə-ye Şeyx Səfiəddin Ərdəbili. http://sheikh-safialdin.com/ تزئین-و-معماری-بقعه-شیخ-صفی-الدین-اردبیلی/

Şahbazi Şiran H. Bərrəsi-ye saxtar-e memari və təzyinat-e aramqah-e Şeyx Səfiəddin Ərdəbili məəruf be qonbəd-e Allah, Allah və aramqah-e Şah İsmayıl Əvvəl; şahkari honər-e memeari-ye islam dər Ərdəbil.
https://www.researchgate.net/publication/310458029
67. Şahbazi Şiran H. Bərrəsi-ye saxtar-e memari və təzyinat-e aramqah-e Şeyx Səfiəddin Ərdəbili məəruf be qonbəd-e Allah, Allah və aramqah-e Şah İsmayıl Əvvəl; şahkari honər-e memeari-ye islam dər Ərdəbil.
https://www.researchgate.net/publication/310458029
68. Şahbazi Şiran H. Bərrəsi-ye saxtar-e memari və təzyinat-e aramqah-e Şeyx Səfiəddin Ərdəbili məəruf be qonbəd-e Allah, Allah və aramqah-e Şah İsmayıl Əvvəl; şahkari honər-e memeari-ye islam dər Ərdəbil.
https://www.researchgate.net/publication/310458029
69. Yenə orada
70. Yenə orada
71. Bəqəə-e Şeyx Səfiəddin Ərdəbili.
https://www.kojaro.com/2016/6/30/120164/sheikh-safiodin-ardebili/
72. Qali-ye Şeyx Səfi. / http://ardebilnews.comقالي-شيخ-صفي/
73. Razha-ye qali-ye Ərdəbil. "Turizm" qəzeti, 2 tir 1395, N.540
74. Bəqəə-e Şeyx Səfiəddin Ərdəbili
www.ivo.ir/portal/file/?252690/
75. Razha-ye qali-ye Ərdəbil. "Turizm" qəzeti, 2 tir 1395, N.540
76. Səadəti R. Motale-te təcəlli-ye form mehrabi dər aramqah-e seyid Səfiəddin Ərdəbili
77. Təsvirlər M. Rzazadə Ərdəbilinin və H. Ənsarinin "Təsir-e təfəkkor-e təriqət bər şeklgiri-ye məcmue-ye məzar-e Şeyx Səfiddin Ərdəbili" məqaləsindən götürülmüşdür. Bax: "Nəşriyye-ye honərha-ye ziba – memari və şəhrsazi", N-48, 1390, s.81-96
78.Rzazadə Ərdəbili M., Ənsari H. Təsir-e təfəkkor-e təriqət bər şeklgiri-ye məcmue-ye məzar-e Şeyx Səfiddin Ərdəbili, s. 86/

“Nəşriyye-ye honərha-ye ziba – memari və şəhrsazi”, N-48, 1390, s.81-96
79. Yenə orada, s. 87
80. Rzazadə Ərdəbili M., Ənsari H. Təsir-e təfəkkor-e təriqət bər şeklgiri-ye məcmue-ye məzar-e Şeyx Səfiddin Ərdəbili, s. 88/ “Nəşriyye-ye honərha-ye ziba – memari və şəhrsazi”, N-48, 1390, s.81-96
Səccadi S.C. Fərhəng-e estelahat və təbirat-e irfani. Tehran, 1380, s. 730
81. Sadiqin M.S. Şərh-e istilahat-e təsəvvüf. I c., Tehran, 1376, s. 200
Rzazadə Ərdəbili M., Ənsari H. Təsir-e təfəkkor-e təriqət bər şeklgiri-ye məcmue-ye məzar-e Şeyx Səfiddin Ərdəbili, s. 89/ “Nəşriyye-ye honərha-ye ziba – memari və şəhrsazi”, N-48, 1390, s.81-96
82. Rzazadə Ərdəbili M., Ənsari H. Təsir-e təfəkkor-e təriqət bər şeklgiri-ye məcmue- ye məzar-e Şeyx Səfiddin Ərdəbili, s. 89/ “Nəşriyye-ye honərha-ye ziba – memari və şəhrsazi”, N-48, 1390, s.81-96
83. Sadiqin M.S. Şərh-e istilahat-e təsəvvüf. III c., Tehran, 1368, s. 265
84. Rzazadə Ərdəbili M., Ənsari H. Təsir-e təfəkkor-e təriqət bər şeklgiri-ye məcmue- ye məzar-e Şeyx Səfiddin Ərdəbili, s. 90/ “Nəşriyye-ye honərha-ye ziba – memari və şəhrsazi”, N-48, 1390, s.81-96
85.Ətayi Natiq M. Gəncine-ye tarac şode-ye bəqəəe-ye Şeyx Səfi. http://qaramacmua.blogfa.com/post/16
Muze-ye Bəqəəe.
http://sheikh-safialdin.com/گنجینه-تاراج-شده-بقعه-شیخ-صفی/
86. Muze-ye Bəqəəe.
http://sheikh-safialdin.com/گنجینه-تاراج-شده-بقعه-شیخ-صفی/
87. Memari Y. Gəncine-ye tarac şode-ye bəqəəe-ye Şeyx Səfi. http://darolershad.org/0/FA/Blog/C/371/
88. Yenə orada
89. Muze-ye Bəqəəe.

http://sheikh-safialdin.com/گنجینه-تاراج-شده-بقعه-شیخ-صفی/
90. Larens Kelli. Diplomasi və qətl dər Tehran. Tehran, 1384, s. 186
91. Muze-ye Bəqəəe. http://sheikh-safialdin.com/گنجینه-تاراج-شده-بقعه-شیخ-صفی/
92. Süleymanov M. Türkmənçay müqaviləsi. Bakı, 2015, s. 549
93. Larens Kelli. Diplomasi və qətl dər Tehran. Tehran, 1384, s. 187
94. Memari Y. Gəncine-ye tarac şode-ye bəqəəe-ye Şeyx Səfi. http://darolershad.org/0/FA/Blog/C/371/
95. Акты собранные Кавказской Археологической Комиссией (АКАК). Т.VII, Тифлис, 1878, с.589
96. Memari Y. Gəncine-ye tarac şode-ye bəqəəe-ye Şeyx Səfi. http://darolershad.org/0/FA/Blog/C/371/
Ətayi Natiq M. Gəncine-ye tarac şode-ye bəqəəe-ye Şeyx Səfi. http://qaramacmua.blogfa.com/post/16
97. Ətayi Natiq M. Gəncine-ye tarac şode-ye bəqəəe-ye Şeyx Səfi. http://qaramacmua.blogfa.com/post/16
Muze-ye Bəqəəe. http://sheikh-safialdin.com/گنجینه-تاراج-شده-بقعه-شیخ-صفی/
Memari Y. Gəncine-ye tarac şode-ye bəqəəe-ye Şeyx Səfi. http://darolershad.org/0/FA/Blog/C/371/
98. АКАК. Т.VII, с.589
99. Yenə orada
100. Ətayi Natiq M. Gəncine-ye tarac şode-ye bəqəəe-ye Şeyx Səfi. http://qaramacmua.blogfa.com/post/16
Muze-ye Bəqəəe. http://sheikh-safialdin.com/گنجینه-تاراج-شده-بقعه-شیخ-صفی/
Memari Y. Gəncine-ye tarac şode-ye bəqəəe-ye Şeyx Səfi. http://darolershad.org/0/FA/Blog/C/371/

# NƏTİCƏ

Şeyx Səfiəddinin həyat yolunun və irsinin öyrənilməsi bir daha bu böyük şəxsiyyətin Azərbaycanın və eləcə də islam dünyasının ictimai fikir tarixində dəyərli bir səhifəni təşkil etməsinə şübhə yeri qoymur. Onun fikir dünyası, zəkası, həyat mövqeyi ilə minlərlə, on minlərlə insanın qəbul etdiyi bir örnək olmuş və bu örnək öz bəşəri əhəmiyyətini bu gün də itirməmişdir.

Şeyx Səfiəddin, hər şeydən əvvəl, Azərbaycan həyatının yetişdirdiyi böyük bir zəka sahibi idi. Onun formalaşmasında, dini-ictimai baxışlarının xarakterində Azərbaycan mühitinin təsirini inkar etmək mümkün deyildir. Milli yaşam və düşüncə tərzi, islami dəyərlər və milli qaynaqlar onun dünyagörüşünün formalaşmasının əsas mənbələri idi. Azərbaycan arealı həm də onun fəaliyyətinin əsas məkanı idi. O, Ərdəbildə doğulub boya-başa çatmışdı, Azərbaycan türklərinin ailəsində tərbiyə almışdı və fəaliyyətinin əsasını da Azərbaycan çərçivəsində aparmışdı. Şeyx Səfiəddin Azərbaycanın bölgələrini davamlı şəkildə gəzmişdi, bu bölgələrdəki həyatla yaxından tanış olmuşdu və Azərbaycan arealında dini baxışların saflaşmasında, bu dəyərlərin doğru-düzgün qəbul edilməsində kifayət qədər xidmət göstərmişdi.

Lakin Şeyx Səfiəddinin zəkası, fəaliyyəti yalnız Azərbaycan sərhədləri ilə məhdudlanşmadı. O, haqlı olaraq islam dünyasının böyük zəkalarından biri sayılır və fəaliyyəti də ümumislam məzmunu kəsb edirdi. Şeyx Səfiəddin dini biliklərin ən böyük ariflərindən biri olmaqla, onun irşadı və təbliği sahəsində də ümumislam əhəmiyyətli işlər görməyi bacarmışdı. Şeyx Səfiəddində möcüzəvi bir fitri istedad var idi və bu istedadı ona imkan vermişdi ki, "Quran" biliklərinin və hədislərin təfsirində yeni bir səhifə açsın. Ona görə də onun ilk növbədə fitri istedadı və öz biliklərinin təmənnasız şəkildə insanlara irşad etməsi Şeyx Səfiəddini zirvə səviyyəsinə yüksəldə bilmişdi.

Şeyx Səfiəddin həm də kəramət sahibi idi. Onun haqqında mövcud olan məlumatlar onu deməyə əsas verir ki, Şeyx Səfiəd-

din hələ uşaqlığından seçilmiş bəndələrdən biri idi və təriqət yolçuluğu ilə Tanrının lütfünü qazanaraq kəramət sahibinə çevrilmişdi. Hələ sağlığında ikən Şeyx Səfiəddin kəramət sahibi olmasını nümayiş etdirə bilmiş və neçə-neçə insanlara şəfaətçi olmaqla onların diləklərinin həyata keçməsinə səbəb olmuşdu. Mənbə məlumatları onu da deməyə əsas verir ki, Şeyx Səfiəddin dini inancları, dini dəyərlərə etiqadı və bu etiqadın əməli ifadəsi ilə Tanrı lütfünə layiq görülmüşdü.

Şeyx Səfiəddinin elm və bilik səviyyəsi, bu dəyərlərin həyatla uğurlu şəkildə əlaqələndirilməsi rəhbəri olduğu Səfəvi təriqətinin də əsasını təşkil edirdi. Onun adına yazılmış Səfəvi təriqətinin ddigər təriqətlərdən başlıca fərqləndirici xüsusiyyəti də bu təriqətin dərin islami biliklərə, bu biliklərin tətbiqində dərin əqidəyə və sədaqətə arxalanması idi. Şeyx Səfiəddinin rəhbərliyi altında Səfəvi təriqəti dövrünün ən kütləvi dini-ictimai təşkilatlarından biri idi və Azərbaycan hüdudlarından kənarda da çox böyük sayda tərəfdarları var idi.

Dini etiqadla bəşərilik Şeyx Səfiəddin tərəfindən təşkilatlanmış təriqətin başlıca xüsusiyyətlərindən biri idi. Şeyx Səfiəddin dini etiqadı, dini dəyərlərə inamı təbliğ edən bir arif idi. Lakin bu zaman Şeyx Səfiəddin fanatizmə yol verilməsinin tərəfdarı deyildi. Şeyx Səfiəddinin təlimlərində və dini-ictimai görüşlərində elmilik və məntiqilik də çox mühüm yer tuturdu. Onun nəzərində, islami dəyərlər düzgün dəyərləndirildikdə və düzgün izlənildikdə həyat normalarını təşkil edə bilərdi. Şeyx Səfiəddin birmənalı şəkildə insanların istismar edilməsinin, insanlara yuxarıdan baxılmasını, insanların bir-birinə qarşı münasibətində halallıqdan kənar çıxılmasını qəbul etmirdi. Bu mənada Şeyx Səfiəddinin təlimi həm də ictimai birgəyaşayışın özünəməxsus və dövrdən irəli gələn bir proqramı idi.

Şeyx Səfiəddinin zəkası, dərin biliyi, təmənnasızlığı, xeyirxahlığı yerli əhali ilə birlikdə yerli hakimlərin də dərin ehtiramını qazanmışdı. Dövrünün hakimləri Şeyx Səfiəddinə böyük ehtiramla yanaşır, onun xeyir-duasnı almağı özlərinə şərəf bilirdilər. Şeyx Səfiəddin isə öz növbəsində dövrünün

hakimlərinə təsir etməklə onların insanların yaşayışına qayğı ilə yanaşmalarına nail olmağa çalışırdı.

Şeyx Səfiəddinin şəxsiyyətinin böyüklüyünə dəlalət edən məqamlardan biri də onun çoxlu sayda ardıcıllar yetişdirə bilməsi idi. Məlumdur ki, istər Azərbaycanda, istərsə də Azərbaycandan kənarda onun çoxlu sayda müridləri var idi. Şeyx Səfiəddin davamlı və ardıcıl şəkildə onların irşadı və yetişdirilməsi ilə məşğul olurdu. Buna nail də olmuşdu. İstər Azərbaycan daxilində, istərsə də Azərbaycandan kənarda onun çoxlu sayda xəlifələri də var idi. Bu xəlifələr həm özləri Şeyx Səfiəddinin biliklrini və əməllərini yaşadır, həm də bu bilik və əməlləri başqalarına təlim edirdilər. Nəticədə, Səfəvi təriqəti islam dünyasında qol-budaq atmış, bu təriqətin uzunömürlüyünə zəmin yaratmışdı.

Azərbaycanın və Şərqin tarixində yeni bir mərhələ olan Səfəvi dövlətinin həyata vəsiqə almasında da Şeyx Səfiəddindən başlanan yolun təsirini nəzərə almamaq mümkün deyildir. Səfəvi təriqəti nəinki uzunömürlü oldu. Bu təriqətdən irəli gələn dini ideoloji düşüncə və fikir sonradan hərbi-dini ideologiyaya qovuşdu və Səfəvi siyasi hərəkatının ideoloji bazisinə çevrildi. Yəni Şeyx Səfiəddindən başlanan təfəkkür vaxt ötdükcə dini-hərbi-siyasi təfəkkürün canlanmasına və bunun da cəmiyyət həyatında köklü siyasi dəyişikliklərin baş verməsinə yol açdı.

Şeyx Səfiəddin yazılı irsin yaradılmasında da dəyərli xidmətlər göstərmişdir. Onun ədəbi yaradıcılığının məhsulu olan bir sıra əsərləri dövrümüzə qədər gəlib çatmış, bəzilərinin mövcudluğu haqqında isə məlumatlarla qarşılaşmaq mümkündür. Bu məqam da Şeyx Səfiəddinin şəxsiyyətinin və istedadının istiqamətlərindən biridir. Həmin əsərlər həm də Azərbaycan ədəbi dilinin inkişafında Şeyx Səfiəddinin xidmətlərindən xəbər verir. Bu mənada Şeyx Səfiəddinin Azərbaycan həyatından qoparılmasına, onun etnik mənsubiyyətinin və ana dilinin danılmasına göstərilən cəhdlərin əsassızlığı da qeyd edilməlidir. Həmin mövzuya həsr edilmiş bəzi yazıların elə ilkin müşahidəsi onların qərəzli mövqedə olmasını nümayiş etdirir.

Bir sözlə, Şeyx Səfiəddin Azərbaycanın ictimai fikir tarixində özünə çox yüksək bir məqam tutmuş zəka sahibidir və heç şübhə yoxdur ki, gələcəkdə davamlı şəkildə aparılan tədqiqatlar bu dahi insanın həyat və fəaliyyətinin yeni-yeni məqamlarının üzə çıxarılmasına imkan verəcəkdir.

## ƏLAVƏLƏR:

### Şeyx Səfiəddinin əsərləri

Şeyx Səfiədin dövrünün böyük irfan əhli və təsəvvüf mütəfəkkirlərindən biri olmaqla yanaşı, həm də zəngin irsə malik olan qələm sahibi idi. Onun günümüzə qədər gəlib çıxmış olan əsərləri də bunu nümayiş etdirir. Doğudur, bu günə çatmış əsərlərin həcmi çox deyildir və onların öz xüsusiyyətləri vardır. Bununla belə, onların mövcudluğu da Şeyx Səfiəddinin istedadının, bilik və zəkasının daha bir əyani nümayişidir.

Hər şeydən əvvəl qeyd edilməlidir ki, Şeyx Səfiəddin irsinin toplanıb çap etdirilməsində və oxuculara çatdırılmasında Təbrizdən olan tədqiqatçı Hüseyn Məhəmmədzadə Sədiqin böyük xidmətləri vardır. Bu yorulmaz tədqiqatçının zəhməti nəticəsində Şeyx Səfiəddinin hələlik elm aləminə bəlli olan əsərlərini toplamaq və onları "Qara məcmuə" adı altında çap etdirmək mümkün olmuşdur. Hüseyn Məmmədzadə Sədiq bu məcmuəni həm də "Məcmue-ye kəbir" adlandırır. Buradan belə bir qənaətə gəlmək mümkündür ki, "Qara məcmuə" adındakı "qara" sözü rəng mənası deyil, "böyük" mənasını daşıyır. Bu mənada həm də belə bir qənaətə gəlmək olar ki, Şeyx Səfiəddinin həcmcə böyük bir məcmuəsi və ya əsərlər toplusu olmuşdur. "Qara məcmuə"nin tərtibçisi öz söhbətlərində bildirirdi ki, Şeyx Səfiəddinin "Qara məcmuə" adı altında kitabının olması haqda və onun Səfəvi xanədanında böyük ehtiramla mühafizə olunması haqqında məlumatlar mövcud idi. Həmin kitabda Şeyx Səfiəddinin şeriləri, nəsihətləri, kəlamları toplanıbmış.

H.Məhəmmədzadə qeyd edirdi ki, hələ 1968-ci ildə mərhum akademik Həmid Araslının "Müxtəsər Azərbaycan ədəbiyyatı tarixi" kitabında Şeyx Səfiəddinə məxsus "Qara məcmuə"nin mövcud olması haqqında məlumatla rastlaşmışdı. Bu məlumatın yaratdığı maraq H.Məhəmmədzadəni Şeyx Səfiəddinin belə bir əsərinin izlərini tapmağa sövq etmiş və bununla da həmin məcmuənin əldə edilməsi istiqamətində axtarışları başlamışdı.

Nəhayət ki, bu axtarışlar öz bəhrəsini vermiş və “Qara məcmuə”ni təşkil edən əsərlər hissə-hissə H.Məmmədzadənin üzünə açılmışdı.

Yazlanlardan da məlum olduğu kimi, “Qara məcmuə” bir əsərdən ibarət deyil. Bu ad altında Şeyx Səfiəddinin müxtəlif əsərləri, şerləri, fikirləri toplanmışdır. Toplanaraq çap etdirilmiş əsərlərin heç də Şeyx Səfiəddinin bütün əsərlərini təşkil etdiyini də söyləmək mümkün deyil. Hətta bu məcmuəyə daxil edilmiş bəzi əsərlərin məhz Şeyx Səfiəddinə məxsus olmasını da əminliklə söyləmək mümkün deyildir. Amma bu əsərlərin Şeyx Səfiəddinə məxsusluğu üçün ehtimallar və əsaslar da böyükdür və bu əsaslar nəzərə alınmaqla onlar Şeyx Səfiəddinin əsərləri kimi təqdim olunmaqdadırlar.

Şeyx Səfiəddinin “Qara məcmuəsi” dövrünün ənənələri üzərində tərtib edilib. Bu məcmuənin tərtibçisinin verdiyi məlumata görə, Şeyx Səfiəddin dövründə və ondan əvvəl də zaviyələrdə, xanəgahlarda “Qara məcmuə” adı altında kitablar tərtib edilir və həmin kitablardan təlim-tərbiyənin aparılmasında istifadə edilirdi. Adətən həmin kitablar müəyyən şəxslər tərəfindən toplanır və xanəgahın mürşidinin adına tərtib edilirdi. Şeyx Səfiəddinin adına toplanmış “Qara məcmuə”nin də onun zamanında və ondan sonra onun müridləri tərəfindən yığılaraq kitab halına gətirildiyi bildirilir. Maraqlıdır ki, mənbələrdə Şeyx Səfiəddinə məxsusluğu bildirilən və “Qara məcmuə” əsərlərinin türk dilində yazılması haqqında da məlumat vardır. Bu da Şeyx Səfiəddinin Azərbaycan həyatına bağlılığının əlavə bir göstəricisi ola bilər.

Mövcud olan məlumata görə, Şeyx Səfiəddinin bu əsərləri mövcud olmuşdur: Cəlaləddin Rumiyə məxsus “Məsnəvi”nin şərhi, “Fəna” risaləsi, “Silətül fəqiyyə” əsəri, “Təhqiqat”, gilək dilində olan şerlər, türk dilində olan şerlər, fars dilində olan şerlər və “Qara məcmuə”. “Qara məcmuə”yə isə əlavə olaraq Şeyx Səfiəddinin bəzi risalələri də daxil idi. Avropa səyyahlarının qeydlərinə görə, “Qara məcmuə”yə 9 min beytlik əsərlər daxil idi və bu əsərlərin hər bir beyti 50 hərfdən ibarət idi. Bu əsərdə toplanan əsərlər, nəsihətlər, müşahidələr o qədər qiymətli imiş ki,

sonralar Səfəvi şahları döyüşlərə yollanmazdan əvvəl bu kitabı açarlarmış və bir növ bununla qarşıdakı döyüşün taleyi barədə ehtimallar əldə edərlərmiş.

Bu sadalanan əsərlərin heç də hamısı günümüzə qədər gəlib çatmamışdır və ya da hələlik üzə çıxarılmamışdır. Şeyx Səfiəddinin türk dilində divanının olması haqqında da məlumatlar mövcuddur. Mövcud olan məlumatlar onu da deməyə əsas verir ki, Şeyx Səfiəddin əsərlərinin böyük hissəsini məhz Azərbaycan türkcəsidə yazmışdır. Lakin təəssüf ki, hələlik onların çox az hissəsi elm aləminə məluçdur.

H.Məhəmmədzadənin tərtibatı ilə çap olunan "Qara məcmuə" Şeyx Səfiəddinin nəzm əsərləri ilə başlayır. Bura Şeyx Səfiəddinin Azərbaycan türkcəsində, gilək dilində və fars dilində yazılmış nəzm parçaları daxil edilmişdir. Mənbələrdə olan məlumatlara görə, həm Şeyx Səfiəddinin özünün, həm onun oğlu Şeyx Sədrəddinin, həm də nəvəsi Xacə Əlinin nəzm ilhamı olmuşdur. Məsələn, "Silsilətül nəsəb Səfəviyye" əsərində Şeyx Sədrəddinin bir qəzəli, Xacə Əlinin isə 32 nəzm əsəri verilmişdir. Xacə Əlinin əsərləri arasında yalnız dörd nəzm parçası iki beytdən ibarətdir. Digər əsərləri isə qəzəl həcmli nəzm parçalarından ibarətdir. Şeyx Səfiədinddən başlanan bu yaradıcılıq meyili onun xələfləri tərəfindən inkişaf etdirilmiş və məlum olduğu kimi, Şah İsmayılın şəxsində özünün ön yüksək zirvəsinə çatmışdı. Səfəvilər sülaləsinin Şah İsmayıldan sonrakı nümayəndələrinin də ədəbi yaradıcılıqlı məşğul olması hazırda elm aləminə məlumdur və onların bədii yaradıcılığının dəyərli nümunələri günümüzə qədər gəlib çatmışdır.

Təqdim olunan nəzm əsərlərində Şeyx Səfiəddinin təsəvvüf görüşləri üstünlük təşkil etsə də, onlar həm də bu böyük zəka sahibinin ədəbi istedadını nümayiş etdirir. Onların arasında elələri vardır ki, Şeyx Səfiəddinə məxsusluğu şübhə doğurmur və bunu nəzm parçalarının məzmunundan da görməl mümkündür. "Qara məcmuə"də özünə yer tapmış gilək dilində nəzm parçalarının bir elmi və tarixi əhəmiyyəti var ki, onlar Ə.Kəsrəvinin qədim azəri dili haqqında konsepsiyasının əsassızlığına bir təsdiq

oldu. Ə.Kəsrəvidən fərlqi olaraq bir sıra alimlər bu nəzm parçalarını azəri dilinin ifadəsi kimi qəbul etmirlər. Həmin nəzm parçalarını bəzi alimlər hətta talış dilinə oxşatsalar da, bir sıra alimlərin tədqiqatında onların gilək dilində məxsusluğu aydın şəkildə təsdiq edilmişdir.

Şeyx Səfiəddinin Azərbaycan türkcəsində və fars dilində yazdığı əsərlərə gəlincə isə, demək lazımdır ki, orta əsrlərdən başlayaraq Səfi təxəllüsü ilə çoxlu sayda müəlliflər özlərindən ədəbi əsərlər miras qoymuşlar. Ehtimal edilir ki, onların çoxu ya Şeyx Səfiəddinin müridi olmuş, ya da Səfəvi təriqətinə mənsub olmuşlar. Bu müəlliflər təriqət başçısı Şeyx Səfiəddinə ehtiram əlaməti olaraq onun adını özlərinə təxəllüs kimi qəbul etmişdilər. Səfi təxəllüsü ilə yazan müəlliflərin əsərlərinin müəyyənləşdirilməsi və onların Şeyx Səfiəddinin əsərlərindən fərqləndirilməsi xüsusi bir tədqiqat tələb etsə də, mütəxəssislərin fikrincə, "Qara məcmuə"yə daxil olan nəzm əsərlərinin Şeyx Səfiəddinə məxsusluğu xeyli inandırıcıdır.

"Qara məcmuə"də yer tapmış risalələr isə Şeyx Səfiəddinin təsəvvüf görüşlərinin anlaşılması üçün elmi dəyər kəsb edir. Bu risalələr və nəsr əsərlərinin Şeyx Səfiəddinin dünyasını dəyişməsindən sonra onun müridləri tərəfindən toplandığı ehtimal olunur. Risalələrdən göründüyü kimi, onların toplanmasında Şeyx Səfiəddinin oğlu Şeyx Sədrəddinin də iştirakı olmuşdur. Nəsr əsərlərinə daxil olan bir çox hekayətlərin də məhz onun dilindən söylənməsini görmək mümkündür. Yəni "Qara məcmuə"yə daxil olan nəsr əsərləri, əslində, Şeyx Səfiəddinin hafizələrdə qalmış sözləri və fikirləridir və sonradan onlar toplanaraq bir əsər halına gətirilmişdir.

Aşağıda Şeyx Səfiəddinin əsərləri təqdim olunur. Bu əsərlər Hüseyn Məmmədzadə Sədiq tərəfindən tərtib edilərək şəmsi tarixi ilə 1380-ci ildə (2002) Tehranda çap olunmuş "Qara məcmuə" toplusundan qismən götürülmüşdür. Burada verilmiş çətin sözlərin lüğətləri də adı çəkilən məcmuəyə məxsusdur. Risalələrin əvvəlində verilmiş kiçik şərhlər də, əsasən, olduğu kimi saxlanılmışdır. Yalnız həmin məcmuədən gilək dilində olan

şerilər və bir də "Səfvətüs-səfa" əsərindən götürülmüş parça burada verilməmişdir. Gilək dilində olan şerilərin burada verilməməsi bu şerlərin oxunmasının və tərcüməsinin çətinliyi ilə bağlı olmuşdur. "Səfvətüs-səfa" əsərinə gəlincə isə, aşağıda bu əsərin "Qara məcmuə"yə daxil edilmiş parçası deyil, başqa bir parça verilmişdir. Həmin parça "Səfvətüs-səfa" əsərinin türk dilinə XVI əsr tərcüməsindən götürülmüşdür.

## ŞEYX SƏFİNİN AZƏRBAYCAN TÜRKCƏSİNDƏ OLAN NƏZM ƏSƏRLƏRİ

### GƏLTUR

Qılınc baği dutubdur gözlərim, saqi, kədu gəltur,
Vurubdur təpəməcən xüm qanından bir səbu gəltur.
…. Lalə dodaqlar sinəmdə açılmış,
Gözüm qanını olmaz bağlamaq camı dolu gəltur.

### AĞLARLAR

Ağaclar sarmaşıb qəddindən ayrı zar ağlarlar,
Sızıldarlar pərirulər kimi təkrar ağlarlar.

### SEVİŞMƏKLƏR

Göyərçin yolladım, yazdım sənə səndən şikayətlər,
Qolunda ol qanadlardır başı bağlı kitabətlər.
Unudma aşiqi, namehriban olma, mənim canım,
İşıqsız sərvə oxşarlar vəfasız sərvqamətlər.
Səni tanrı, necə səndən şikayət etməyim axır,
Hanı ol nazlı baxmaqlar, hanı gizlin işarətlər.
Hanı zalim, hanı gözüm, hanı kafir, hanı canım?
Sevişməklər, barışmaqlar, təpişməklər, qucuşmaqlar!

### NEYLƏR

Olan həqq yadı birlə qayğısız divanə, kəs neylər,
Qılınc əlində məni çağıran ər, dadrəs neylər.
Sınıq könlüm nəva dutmazsa, əskim fövcü kəsilməz,
Böylə ağır qaralı karvan sövti-cərəs neylər.
Çəkən köksün şikafından mənim bidərd könlümni,
Bu qanlı bəhr qarşısında zəngi var, səs neylər.

Dəniz mudrar olmaz it su içmağından, ey arif,
Həqiqət anlıyan arı könüllərdə həvəs neylər.

## CANAN OLUR

Can qılanda cism tərkin məhrəmi-canan olur,
Quş yuvasından azanda həmdəmi – şeytan olur.

## AŞİYAN EYLƏR

Həbibim nazdan Leylini ancaq pasiban eylər,
Mənim könlüm quşu Məcnun başında aşiyan eylər.

## BENGALƏLƏNMİŞ

Tutur könlümdən atəş laləlǝnmiş,
Başımdan dud qalxar haləlǝnmiş,
Keyik kimi çürümüş kükrən naz,
Baxış durna kimi donbalələnmiş.
Tökülmüş zülfi yağı tək qucağə,
İçib hinduləri bengalələnmiş.

## QAÇIN

Eşq zəncirimi uzdü, yol açın,
Uy uşaqlar! Ululu gəldi, qaçın!

## XAR OLSUN

Məni xar eyliyən gözlərdə, ya rəb, xarü zar olsun,
Deməm kim məndən artıq, mən kimi gözlərdə xar olsun.

## MÖVZUN-MÖVZUN

Qoydu üz könlümə qəm ləşkəri hamun-hamun,

Qara baydağlı ələmlər ucu gülgun-gülgun,
Çağırırdım qatı avaz ilə: - Leyli, Leyli!
Dağ səs verdi cavabında ki: - Məcnun, Məcnun.
Gözlərimdən yana od tutladı duzəx-duzəx,
Cigərimdən yana qan qaynadı Ceyhun-Ceyhun,
Bu nə viranə könüldür, Səfi, ey vay, ey vay!
Sərvlər var idi bu bağidə mövzun-mövzun.

## YATIŞ

Bu nə cilvədir, nə qamət, nə rəviş yerişdürür bu,
Nə rəviş yerişdürür bu, nə gözəl rəvişdürür bu?
Bu nə nazlı sürmədir hay, bu nə qanlı qəmzədir vay,
Bu nə gözdürür, nə kiprik, nə qıya baxışdürür bu?
Ağızını öpmək olmaz, dodağını əmmək olmaz,
Ürəyimi qan elərsən, nə bəla gülüşdürür bu?
Mənə gər yanaşa ol gül, sümüyüm küyüb olar kül,
Ki tutuşmuş oddurur o, qurumuş qamışdürür bu?
Bu nə hüsndür, nə afət, bu nə şürü nə qiyamət,
Bu nə eşqdir, nə möhnət, nə xətərli işdürür bu?
Ağarıb başımda tüklər, qapısında oldum əbtər,
Demədi o nazlı dilbər ki bizim gümüşdürür bu?
Səfinin sözün inanma, sən onun oduna yanma,
Özünü oyaq sanma, ki yaman yatışdürür bu?

## QANLI PİYALƏ

Göy güldü, bulud ağladı, ey şanlı piyalə,
Saldı məni mey şövqünə bu qanlı piyalə.
Ol dəm ki dilim dutmaya, saqi, kərəm eylə,
Allahı sevərsən, mənə bir canlı piyalə.

## VALLAHİ, BİLLAHİ

Demin kim dərdimi bilməz, bilir vallahi, billahi,

Desə bilməm, inanmayın, aldadır vallahi, billahi.
Dedin hərgiz mənim könlüm səninlə mehriban olmaz,
Demə zalim, demə kafir, olur vallahi, billahi.
Qıya baxgəc, təbəssüm nazik etgəc iltifat eylə,
Məni axır bu zalim öldürür vallahi, billahi.
Deyin Məcnun gəlibdir şəhrə, evdən çıx tamaşa qıl,
Uşaqdır nazəninim, aldanır vallahi, billahi.
Səfini qoyma yalqız, getmə, getmə, getmə, gəl, gəl, gəl,
Yazıqdır, başına dönüm, ölür vallahi, billahi.

## AYAQ ÇƏKMƏK

Dust kuyundan ayaq çəkmək mənə çox ar idi,
İtləri birlə süründüm ta sümügüm var idi.
Var idi bir gün ki, bəd xubanımla var idi,
Gülsə idim mən gülərdi, ağlasam ağlar idi,
İçdiyim qan, yediyim qəm, rahətim azar idi.

## QƏRİBƏM

Üz gizləmə gün tək qara çadır yiyəsi hay,
Axşam araya girdi, qəribəm, neyləyim vay.

## ŞƏHLA KİMİ

Yar dodağın əmər qarşıda həlva kimi,
Baxa-baxa ağlaram nərgisi şəhla kimi.

## ŞÖLƏ

Günəş bir şölədir əbləq başımdan,
Fələk bir lalədir qanlı yaşımdan,
Bu dərya göz ki, lölödən gül açır,
Buludludur havalanmış yaşımdan.

## Lüğət

Kədu – qabaq, balqabaq
Səbu – bardaq, kuzə
Xüm – küp
Zar – nalə ilə; çarəsiz
Pəriru – pəri sifətli, pəri üzlü; gözəl
Kitabət – yazılar; burada məktublar mənasında
Birlə – birlikdə, bir yerdə
Dadrəs – dada çatan, fəryada yetişən
Fövc – dəstə, camaat
Sövti-cərəs – zınqrov səsi
Şikaf – çat, yarıq; yaran, parçalayan
Arı – təmiz, saf
Aşiyan – yuva, sığınacaq, məskan
Pasiban – gözətçi; kömək edən
Tutur – burada od tutmaq, alışmaq mənasında
Dud – tüstü
Ululu – al arvadı, hululu
Hamun – çöl, səhra
Baydaq – bayraq
Gülgun – qızıl gül rəngi; al, qırmızı
Qatı – bərk, möhkəm
Duzəx – cəhənnəm
Mövzun – yaraşıqlı; sərxoş, məst
Şur – qalmaqal, eşq, sevgi
Əbtər – burada quyruğu kəsik heyvan, it mənasında
Demin – deməyin, söyləmiyin
Xuban – gözəl
Kuy – burada küçə, məhəllə, yer mə’nasında
Əbləq – ala-bula, alaca
Lölö – inci, durr

## ŞEYX SƏFİƏDDİNİN FARS DİLİNDƏ OLAN NƏZM ƏSƏRLƏRİ

Saheb-e kərəmi ke, səd xəta mibəxşəd
Xoş baş Səfi ki, corm-e ma mibəxşəd
An ra ke, cuy-e mehr-e Əli dər del-e ust
Hər çənd gonəh konəd, xoda mibəxşəd
(Yüz xətanı bağışlayan kərəm sahibi
Ürəyini sıxma, Səfi, bizim günahımızı bağışlayar.
Kimin ürəyində zərrə qədər Əli məhəbbəti varsa,
Nə qədər günah etsə də, Allah onu bağışlayar.)

Ah, əz in  zekr fəsord-e, çənd əz in fekr-e deraz
Ahha-ye atəşin və çehreha-ye zərd-e to
(Vay bu sönük zikrə, nə vaxta qədər bu uzun fikirdən
Yanıqlı ahlar çəkəcək və saralmış üzlə /gəzəcəksən/?!)

Mey nuş kon modam ke, mey ra ədil nist
Vəz hiç şərbəti be cəhanəş bədil nist
Xolaf-e səlsəbil çe moquf vədeist
Hal be nəqd bade kəm əz səlsəbil nist
Vəsf-e mezac-e an həqq əgər səlsəbil qoft
Dər bade serrhasat ke dər zəncəbil nist
Gər aqeli be əql həkimanə xoş soxən
Vər qafeli, məxor to, ke ab-e səbil nist
Mey xarə ra be atəş əgər tərs midəhəd
Meydan ke, coz nemanei nar-e Xəlil nist
Dər mədh-e mey mənafe əlnas ayət əst
Niku bexan ki, mənfəət-e u qəlil nist
Mey xaregi əst eyb-e Səfi dər cəhan o bəs
Mennət-e xoda ra ləim və bəxil nist
(«Silsilətün – nəsəb»)
(Daim mey iç ki, meyin tayı-bərabəri yoxdur
Və dünyada heç bir şərbətin ona bənzəri yoxdur.
Səlsəbil suyu yalnız vəd olunduğu üçün

İndi nağd olan şərab Səlsəbildən əskik deyil.
Haqq onun tamını vəsf edərkən «Səlsəbil» dedisə də,
Şərabda elə sirlər var ki, heç zəncəfildə yoxdur.
Aqilsənsə, ağılla, kəmalla, xoş danışıqla (şərab iç),
Yox, qafilsənsə, içmə, çünki bu, yol üstündəki su deyil.
Əgər mey içəni (cəhənnəm) odu ilə qorxudurlarsa,
Bil ki, bu, Xəlilin odunun nişanəsindən başqa bir şey deyil.
Meyi tərifləyən «onda insanlara xeyir var» ayəsi mövcuddur,
Yaxşı oxu, çünki (doğrudan da) onun xeyri az deyil.
Cahanda Səfinin eybi yalnız mey içməkdir
Şükr olsun Allaha ki, alçaq və paxıl deyil_
(«Silsilətün – nəsəb»)

Ruy-e to ço Mustafa əst bi səhv o qələt
Keş kələk qəza neveşte əz meşk fəqət
Çeşm o dəhənət ayei vəqf-e əbr o məh
Mojqan-e ərab xal o xətt-e hərf noqət
(Sənin üzün Mustafa təki səhvsiz və xətasızdır
Və təqdir qələmi onu yalnız müşk ilə yazıb.
Gözün və ağzın – vəqf işarəsi, qaşın – mədd (işarəsidir)
Kipriklərin – hərəkələr, xal və xəttin – nöqtəli hərflərdir).

Hərgez del-e hiç kəs məyazor, Səfi
Ta betəvani del bedəst ar, Səfi
Sər-e reşte-ye kar-e xod negəhdar, Səfi
Zinhar Səfi, hezar zinhar Səfi
(Heç vaxt heç kimin qəlbini incitmə, Səfi,
Əgər bacarsan, bir ürəyi ələ al, Səfi!
Öz işinin cilovunu əldə saxla, Səfi,
Amandır Səfi, min dəfə amandır, Səfi!)

An kəsani ke z surət həmeye məni xanənəd

Ze əbcəd-e dəftər-e donya xətt-e əqəba xanənd
Dər rox-e əbd ço niku negərənd də elm
Əz sərapa-ye vocudəş həme mola xanənd
Əks-e roxsarei məhbub ço pərto nıkonəd
Ləman-e rox-e u nur təcəlla xanəd
Əz kotob-e xane-ye xod xanəd Səfi serr-e xoda
Sufiyan həme ze an serr hoveyda xanənd
(O kəslər ki, surətdən bütün mənanı oxuyarlar,
Dünya dəftərinin əbsədindən axirət yazısını oxuyarlar.
Elm yolu ilə bəndənin üzünə yaxşı nəzər saldıqda,
Onun bütün vücudundan yalnız Aganı oxuyarlar.
Məhbubun üzünün əksi işıq salarsa,
Onun üzünün parıltısını təcəlla nuru adlandırarlar.
Səfi öz kitabxanasından Allahın sirrini oxudu,
Buna görə də sufilər onu aşkar oxuyurlar).

Səfiya, səfa-ye sufi ze şərab-e saf başəd
Nə ze zöhd-e sərsəri-yo söxən-e gəzzaf başəd
Mey-e sərf-e saf-e vəhdət məçeşan müxalifan ra
Ke cədəl konənd və dani ke, cədəl xelaf başəd
To ço layeq-e xoda-yi ke, z xod borun iyayi
Nəbərd əgər çe tiğ əst ço dr qelaf başəd
Çe şuy ço mərd haci be tərəf-e kəəbe raci
Ke məna vo xeyf-e qayeb-e dəm la nəxaf başəd
Be səfa əgər rəsidi Səfiya məro ve Mərve
Ke be gerd-e Kəbei del həme də təvaf başəd
(Ey Səfi, sufinin saflığı saf şərabdan olur,
Zahiri zahidlikdən və boş sözlərdən olmur.
Müxaliflərə saf və xalis vəhdət şərabını dadızdırma,
Çünki onlar dava edirlər, dava isə bildiyin kimi,
yolverilməzdir.
Sən özündən «çıxmayınca» Allaha layiq ola bilərsənmi?!
Qılınc qınında olduğca kəsə bilməz!
Həccə gedən kəs kimi Kəbəni təvaf edib nə diləyirsən?!

Axı «qorxma!» məqamında dilək və qorxu qeyb olur!
Səfaya çatdınsa, ey Səfi, Mərvəyə getmə,
Çünki hər şey ürək Kəbəsinin ətrafına təvaf edər!).

Ta deləm nəqş-e xəyal-e surət-e ruy-e to bəst
Həmçu surətgər be məhşər dər miyan-e atəş neşəst
Çün Siyavuş in soviday-e del sevda zəde
Xiştən ra zəd bər atəş, likən əz atəş verost
Çün Xəlilullah be bad-e an ləb o roxsar o xətt
Dər miyan-e atəş o ab o qol o reyhan neşəst
Azər ər əks-e xəlil-e çohreət dids be xab
Həmçu İbrahim nəqş-e ruy-e botha mişekəst
Vər çu ruyət qeblei dər Kəbe budi bixelaf
Dər zaman-e caheliyyət kəs nəbudi bot pərəst
Hər ke əz cam-e ləb nuşin-e to yek cəre yaft
Həmçu çeşmət şod modam əz badei didar, məst
Bade-ye Safi və ləbha-ye to və cam-e Səfi
Nesbəti darənd cani, ba həm əz ruz aləst
(Ürəyim sənin üzünün surətini nəqş edəndən bəri
Qiyamət günündəki rəssam kimi od içində oturdu.
Bu sevdalı ürəyin dənəsi Siyavuş kimi
Özünü oda vurdu, lakin oddan qurtuldu.
Xəlilullah kimi o dodağı, üzü və xətti xatırlayıb,
Odda su, gül və reyhan içərisində oturdu.
Əgər Azər sənin çöhrənin Xəlilini yuxuda görsəydi,
İbrahim kimi bütlərin üzünün naxışını sındırardı.
Və əgər Kə’bədə sənin üzün kimi bir qiblə olsaydı, şübhəsiz,
Cahiliyyət dövründə heç kəs bütpərəst olmazdı.
Kim sənin şirin dodağının camından bir qətrə daddısa,
Sənin gözün kimi görüş şərabından daim məst oldu.
Saf şərab, sənin dodaqların və Səfinin camı arasında,
Ələst günündən üzü bəri ruhi əlaqə vardır).

# "ƏL-BUYURUQ" RİSALƏS

## «ƏL-BUYURUQ» NƏDİR?

«Əl-buyuruq» risaləsi Şeyx Səfiəddin Ərdəbilinin «talib» adlanan müridləri tərəfindən yazılmışdır. Bu risalə, ümumiyyətlə, Şeyx Sədrəddinin dilindən yazılır. Əsər 50 bölümdədir. Hər bölümdə Şeyx Sədrəddin Sultan Şeyx Səfiəddindən bir sual edir və Şeyx Səfi o suallara cavab verir.

«Əl-buyuruq» mənaqibini Əhəd Hamid əs-Sərraf Mosul ətrafında yaşıyan Qızılbaşiyə bacalan türkləri arasında tapıb, ərəbcəyə çevirib və izahatla nəşr etmişdir.

«Əl-buyuruq» «Qara məcmuə»nin əsas hissəsi kimi «Mənaqibi-şərifi-qütbül arifin həzrət Şeyx Səfi qəddəsallah sirrəhul-əziz» adlanmışdır.

Əsər «ümməti-xas və mömini-pak etiqad olan qardaşlara» təlim etmə üçün «Qara məcmuə»lərə daxil edilmiş bir zaviyə dərsliyi kimi dəyərləndirilir. Əsər sadə nəsr ilə yazılmışdır, cümlələr qısa və gözəl səclər ilə doludur: «… Lölöyi-candır, nə mərcandır, hər biri bir candır, möhkəm saxlayıb bu sözləri can qulaqlarına qoyalar, ənbiyanın sirrin bilib duyalar, övliyanın ərkanıynan uyalar..»

Əsərə Şah İsmayıl Xətainin şeirləri də şahid misal kimi daxil edilmişdir. Bu iş «Qara məcmuə»lərin ümumi halıdır.

## KİTABIN MÜQƏDİMMƏSİ

## «KİTAB ƏL-MƏNAQİB»
## («ƏL-BUYURUQ»)

Bu, Şeyx Sədrəddin ilə qütbül-arifin /āriflərin qütbu/ Şeyx Səfiəddin bin İshaq əl-Ərdəbili arasında təriqət adabı /qaydaları/ haqqında söhbəti ehtiva edən bir kitabdır.

«Kitab əl – mənaqib» müqəddəs kitablar silsiləsindən hesab olunur və onlar da «Əl-burx» / «Əl-buyuruq» /, yaxud buyrulan şeylər, /məsələlər/ haqqında kitab adlandırılır.

Bağışlayan və rəhmli Allahın adı ilə

«Əl-buyuruq» kitabı şərafətli qütbül-arifin /ariflərin qütbu/ həzrət Şeyx Səfinin /Allah onun əziz ruhunu müqəddəs etsin!/ mənqibələri haqqındadır.

Peyğəmbərlərin qəbrlərini ariflər üçün qiblə, çöllərdə dolaşanlar üçün Kəbə etmiş Allaha şükr olsun! Allah onların ipindən yapışmağı qiyamət gününə qədər qurtuluş üçün səbəb etdi və onlara sığınmağı yüksək dərəcələrə çatmaq üçün vasitəyə çevirdi. Səmaları yaradan, böyük bilgi sahibi, başlanğıcı və sonu bilinmiyən aləmlərin Rəbbi olan Allaha şükr olsun! Ən fəzilətli dualar və ən məzmunlu salamlar Allahın seçdiyi sadiq peyğəmbərinə, onun nəslinə, bütün övladlarına olsun! Ey rəhmlilərin rəhmlisi olan Allah, sənin rəhminə görə dualar və salamlar başqa peyğəmbərlərə və elçilərə olsun!

Amma bəd, sərvəri-kainat və xülisətül-mövcudat, şəfiyi-ümmət və sərhəngi-qiyamət və ərkani-risalət, bülbüli-gülüstan, xaceyi-dünya və axirət, sədri-səfvət və mahi qəvəməti və ya, müəlla və müzəkka və müctəba-yəni Həzrət Məhəmməd əl-Mustafa (səlləllahu əleyh və səlləm) həzrətləri cün kim fəna darindən bəqa mülkinə əzm etməli oldu, hədisi-şərif: «Əl möminun la yəmətun bəl yəntəqlunə min darül-fəna əla darül-bəqa». Həzrət Rəsul (əlyehissəlam) buyurur kim: «Möminlər ölməzlər, fənadan bəqaya nəql edilər, haman bir evdən bir evə köçər gibidir».

## NƏBİYİ ƏKRƏM /S/ VƏSİYYƏTİ

Pəs ol vaxt Əsədullahül – qalib Əmirəlmöminin Əli ibn Əbu Talib həzrətləri /ni/ hüzuruna istədi və ayıtdı:

- Ya Əli! Qürbi-həqqə müvasilət qərib olmuşdur. Mən dünyadan axirətə gedirəm və sənə bir qaç vəsiyyət edirəm. Gərəkdir kim, qəbul edəsən, iki cahanda əziz və möhtərəm olasan. Zira təriqət

içində lazım olan nəsnələrdir, mənə Cəbraili-əmin həzrət Rəbbil-aləmindən vəhy gətirmişdir. İndi şəriət ənbiyanın və təriqət övliyanandır, mərifət sulükdur, həqiqət vəslət məqamıdır. Öylə haqq olmaqdır. Pəs bu cövhərləri «Yazı» da sənə yadigar verəlim.

## LÖLÖYİ-CAN

Ümməti-xas və mömini-paketiqad olan qardaşlara, lölöyi-candır nə mərcandır ki, hər biri bir candır. Möhkəm saxlayıb bu sözləri dürr, tən /və/ can qulaqlarına qoyalar. Ənbiyanın sirrin bilib duyalar. Övliyanın ərkanına uyalar.

Möminlikdə paketiqad mühibblər ruzi-məhşərdə qiyamət qayim olunca bizim ələm və sancağımız altında bulunub şəfaətimizdən məhrum qalmayalar. İnşaalah – təala.

## ƏDƏB VƏ ƏRKAN

«Ya Əli! Həqq olub mühibbi-övliya olan kimsənələrə təlqin edib bu vəsiyyətləri deyəsən. Gücləri yetdikçə əla qədrihi övliyanın ədəbindən və ərkanından eşidələr. Bilib, öyrənib övliyanın təriqin dutub gedələr və ona görə əməl edələr. Və daha hər kim bu vəsiyyətləri dinləyib mucibincə əməl edərsə, ol mənim dostumdur, mən ondan xoşnud oluram, yarın həqqin cəmalını kəndisinə göstərirəm. Və hər kim bu vəsiyyətləri eşidib tutmaz isə, mənim düşmanımdır», - dedi.

## MÖTƏBƏR KİTAB

Pəs ol vaxt bu «Vəsiyyətnamə»yi Əmirəlmöminin imam Əli əleyhissəlamə təslim eylədi və neçə dürlu pənd və nəsihət edib buna mütabiq hədisi-şərif söylədi. «Ənə mədinətul elmi və Əliyun babuha», yəni «Mən elmin şəhəriyəm və Əli qapısıdır». «Ənə və Əli mən nuri-vahid», yəni «Mən və Əli bir nurdan xəlqiz».

Əsədullahül – qalib İmam Əli – əleyhissəlam həzrət Rəsul – səlləlahi aleh və səlləmə – həzrətlərinin ləfzi-kühərbarından pənd və nəsihəti qəbul edib hüzuri-şərifində yüzünü yerə urdu və ol «Vəsiyyətnamə»yi Rəsul həzrətinin hüzurunda yazdı, bir mötəbər kitab eylədi. Daima oxuyub mucibincə əməl edir idi. Andan İmam Həsən /ə/ və İmam Hüseyn /ə/ və İmam Zeynəl-abdin /ə/ həzrətlərinə irişdi – rəziullahi-təala əleyhim əcməin.

## ƏRƏNLƏRDƏN YADİGAR

Ta kim silsilə-silsilə övladi – Rəsuldan bu «Vəsiyyətnamə» Şeyx Səfiəddin həzrətlərinə irişdi – qəddəsullah sirrəhul – əziz – oxuyub onlara əməl qıldı. Kəndisinə mürid olub iradət götürən talib və dərvişlərinə məən təlqin edib bu «vəsiyyətnamə» mucibincə övliya məhəbbətlərinə irşad edər idi. Bizə daha ərənlərdən yadigar qaldı. Övliyanın mənaqibi budur, biləsən, taliblərə tərbiyə qılasan.

## ŞEYX SƏFİNİN İLK BUYURUĞU

Şeyxi-aqil və kamil və qürbi-həqqə vasil təhqiq xəlifətullah ənduh Şeyx Səfiəddin – rəhmətullah həzrətləri buyurur: «Hacan bir talib bu vəsiyyətləri dinləsə və mənasını anlasa, ol talib Həqq hüzurunun əmn və amanında olub dünya və axirət qorxularından qiyamət günündə bizim ilə həşr olur. Bu «Vəsiyyətnamə» oxunur /sa/, kimi qulaq dutub dinləməsə və mənasın anlamasa, gözü, könlü, bəyanda övliyanın ədəbin yerinə gətirməsə, ol talibdən Allah bizar, Rəsulallah bizar və filcümlə dünya və övliyalar və məlaikələr bizar olurlar», - dedi.

## TALİBİ-HƏQQ KİMDİR?

Məgər kim Şeyx Sədrəddin həzrətləri məclisdə hazır idi və təriqət içində Şeyx Səfiəddin /in/ oğlu idi. Bu nitqi eşidincə filhal oturduğu yerdən ayağ üzünə durdu, gəlib Şeyx hüzurunda yüz

yerə qoyub təzərrö və niyaz eylədi və daha miskinliklə dedi: - Ya Şeyx! Talibi-həqq nədir? Bizə bəyan eylə, kərəmi-lütfündən, eşidəlim!

## TALİBİN ALTI SİFƏTİ

Şeyx Səfi həzrətləri buyrub kim: «Talibi-həqq oldur kim, əvvəl ədəb /ala/, ikinci, əvamdan kəsilə, üçüncü, məhrəmin bilə, dördüncü, cəmi yədfelin tərk edə, beşinci, həqqə və xəlqə yaramaz iş etməyə, altıncı, hər qanda ola, şeyx qorxusun çəkə. Yəni: «Aşikar və ya məxfi mən bu işi görərsəm, şeyxim görür, bilər».- deyə, etməyə.

Övliya talibin könlünə və gözünə gündə yetmiş kərə nəzər eylər.

Nəzm

Sarayın pak et ki, mehmanxaneyi-həqdir
Vaxt olur kim, təxtini qurmağa sultan gəlir.

Pisi silinmiş-süpürülmüş görüncə, Sultan səfa edər. Topraq ol talib başına ki, övliyayı hazir və nazir bilməyə. Və hər kim könül ayinəsin silməyə, ondan ənbiya və övliya bizardır», – dedi.

## ŞEYXİN RİZASI

İndi talib olan kişi gərəkdir ki, sahibi-əql ola və hər işi ki işlər, əql təsərrüfü ilə işləyə, cəmi hərəkatı ilə zəbt eyliyə, müxaliflik etməyə və əgri təriqə getməyə. Etdigi iş və getdigi yol şeyxin rizası ilə ola. Əgər şeyxin əmrinə müvafiq olmazsa, ol talibin çəkdigi zəhmət və möhnət və məşəqqət filcümlə zaye olur və axirətdə şeytan kimi məlun və məğbun və mərdud olmayasan və dərgahdan sürülməyəsən. Cəhd edəsən kim, yüz min günahın daha olursa, Adam gibi, peyğəmbər gibi məğfur və məqbul olasan.

## SİDQ VƏ ETİQAD

Talib gərək bir iş işləyincək fikir eyləyə, əgər xeyir işləyə, şəri tərk eyləyə. Amma bir kişi zahir və batində Şeyxin işarətinə müntəzir ola və səfa nəzərinə məzhər düşə, haçan bir kişi talibi-həqq ola və daha övliya dərgahına gələ, əl verib ətək dutsa, iradət ilə təslim ola, övliyaya iqrar verib iman gətirsə, bu dünya xəlqindən kəsilib övliya güruhundan ola.

Amma burada imandan murad sidq və etiqad birlə inanmaqdır. Bir kişinin iqrarı sadiq və etiqadı dürüst olmasa, ol kişinin imanı olmaz. Din daha imandır və iman iki qism üzərindədir: biri təhqiqdir, digəri təqliddir. Təhqiq oldur kim, könlu qillü qəşdən mübərra ola və təqlid oldur kim, könlü doydolu vəsvəseyi-şeytan ola.

Və Şeyx Səfi buyurur ki: «Övliya mənzilində otura, talibin könlünə nəzər edə, lövhül-məhfuzə və lövhül-insanə ola. Yəni bir kişi kim, yanına gəldi, nuri-vilayət ilə onun yapdığı xətaları bilə və görə və tərbiyə eyləyə. Və hanki talibin könlü pak degildir, anı yanında qoymuya, rədd edə».

## İMANSIZ ÖLMƏK

Şeyx Sədrəddin həzrətləri yenə sual verib ayıtdı: «Ya Şeyx! Talibin könlü necə olunca pak olur?».

Şeyx Səfi həzrətləri ayıtdı: «Binamaz loğmasın yeməyə. Talib olan kişi xəlqi-aləmə ixtilat etməmək gərək. Yəni əvam ilə alış-verişi etməməkdir. Yəzid övrət ilə yatmaya, yəzidin loğmasın yeməyə, kəndi gövhərini yəzidə xərc etməyə və kəndi loğmasın yəzidə yedirməyə. Bir kimsə münkir və münafiq əkməgin yeyər isə, qursağında ikən ol kişinin vədəsi irişib ölür isə, imansız ölür».

## KÖNÜL HAQQ EVİDİR

Şeyx Sədrəddin ayıtdı: «Ya Şeyx! Binamaz kimlərdir?, - buyur, eşidəlim!».

Şeyx Səfi həzrətləri ayıtdı: «Binamaz anlardır kim, həqq sevgisin, peyğəmbər mehrin və övliya məhəbbətin könlündən çıxara. Bunların yerinə təşviş və qillü qəşdən bədfikir və bədəndişə dolmuş ola və könlü daima təkəbbür ola, həqqə baş endirməyə və həqq sözə baş endirib «bəli» deməyə. Zira namazdan murad olunan niyazdır. Həqqə baş endirib, səcdə qılmaqdır. Bir kişi səcdə tərk eləsə, Həqqi-təala həzrətinə ibadət və pərəstiş etməmiş olur və şeytan kibi mərdud olur. Bir qul əfəndisinə sərkeş olub baş endirməsə və əmrinə müti olmasa, asi olsa, əfəndisi onu qapısında qoymaz, rədd edər. İndi talib olan kişi ciddü cəhd edib qadir olduğu qədər gözə və könülə girmək. Zira kim, könül həqqin evidir. Pəs ev sahibi evdən xali degildir. Bir kişi həqqin evinə girsə, həqq ilə birlik etmiş olur».

## TƏSLİM OLMAQ

Şeyx Sədrəddin ayıtdı: «Ya Şeyx! Təriqətdə səcdə qılmaq nədir?- buyurunuz, eşidəlim və bilələlim».

Şeyx Səfi – əleyhirrəhmə buyurdu kim: «Təriqət içində səcdə qılmaq niyaz məqamıdır, yəni təslim olmaqdır. Təslimdən murad oldur kim, başımı yolunuza qoydum, ayrıq mənim degildir. Zira kim, ər meydanı həqq medanıdır. Bu meydana girən kişi başını top eyləyib kəndini meydana fəda edib, baş və candan keçmək gərəkdir. Böylə olsa, o kişi iradət ilə kəndini təsdiq və təhqiqi-övliyaya təslim etmişdir. Təriqətdə sidqi-etiqadını möhkəm edib könlünə vəsvəsə gətirməyə. Amma ədəb üzərinə olmasa, ol kişinin təslimi olmaz», - dedi.

## SƏCDƏ HƏQQƏDİR

Şeyx Sədrəddin ayıtdı: «Ya Şeyx! Səcdə Həqq üçün isə, burada xof yoxdur və əgər ədəb edərsə, Adəmdən degil, burada Həqdən daha ümid olmaya. Burada səcdə nə üçündür? Bir xoş düşün, bəyan elə, biləlim, müşkülümüz həll edib əyan elə, biz də ona görə qılalım».

Şeyx Səfi – rəhmətullahi-əleyh həzrətləri buyurdu: «Ol vaxt kim, Həqqi-təala həzrət Adəmin qalıbını qüdrət əli ilə düzüb və məlaikələrə səcdə üçün əmr etdi, ol əmr xud həqq oldu. İndi ol vaxt Həqqi-təala Adəmin qalıbında kəndüzünü gizlətdi, məlaikələr kəndüyə səcdə etdilər. Pəs İblis – əleyhəllənə ol vaxt təkəbbürlük edib səcdə etmədi, məlun və mətrud oldu. Bu mənadan kim, İblis qeyri-həqq sandı və Həzrəti-Həqqi Adəmin məzhərində görmədi və tanımadı. «Əbi vəs-təkbərə və kanə minəl-kafirin» oldu (Tərcüməsi: İblisdən başqa hamı səcdə etdi. /yalnız/ o, lovğalanaraq /səcdə etməkdən/ imtina etdi və kafirlərdən oldu. *«Bəqərə» sürəsi, 34-cü ayə*/. Dorumuz (?), bisəm, və bibəsər, biyəd və biyəmşi və bibətəi İblis əleyhəl-lənət kəşf oldu. Və bilmədi kim, Həqdən qeyriyə səcdə qılmaq küfrdür. «Mən səcdəül-qeyr Allah fəqəd kafər». Tərcüməsi: «Əgər Adəm qeyri-həqq olaydı, ona səcdə eləyən kafiri-mütləq olaydı». Pəs məlum oldu kim, səcdə Həqqədir, Həqdən qeyriyə səcdə qılmaq caiz degildir. Əgər Həqq üçün edərsə, ol kişi kafiri-mütləq olur. Bu mənayı yaxşı fəhm eylə, əqlində sekəliyə gör, ta kim, «Latə-fəğhua» lardan olmayasan. «Ula-ikə kəl-ənami bəl hum əzəllu ula-ikə humul-gafilun» (Tərcüməsi: Bunlar heyvan kimidirlər, bəlkə də /ondan/ daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz onlardır! *«Əraf» surəsi, 179-cü ayə*). Onların şənında gəlmişdir ki, həqqi batildən fərq eyləyəməzlər və Adəmə səcdə eyləyəməzlər, səlat və zəkat əhlindən degildirlər, cənabi Həqqin əsrarın nəql və tavil eyləyəməzlər. Heyvan kimi şərabi-şəhvətdən özgə bilməzlər. «Yələmunə ahirən-minəl-hə-ya-tid-dünya və humənil-axirəti hum gafilun»

(Tərcüməsi: Onlar dünya həyatının zahirini /ticarət və əkincilik işlərini, məişət məsələlərini/ bilirlər, axirətdən isə xəbərsizdilər. «Rum» surəsi, 7-ci ayə).

Pəs təriq əhli olan qardaşlara vacibdir ki, hər gün sabah olduqda yerindən durub pak təharət ilə abdəst alıb on iki imamı və çəhardəh məsumi-pakları zikr edib, ali-övladı şəfi götürüb şahi-kərəmə gəlincəyə qədər cəmi məşayixləri yad edib, ruhi-münəvvərlərindən istianət tələb edib yardım diləyə və əhli-beyti – Rəsulun düşmanlarına «təbərra» edib Məhəmməd və Əli dostlarına «təvəlla» eyləyə. On iki imama iqrar edib, mürşidə iradət gətirə, ta kim, imanı dürüst ola.

Bir talib beş vaxt bu şərt ilə /namaz/ qılmaz isə, layiqi-şah və məqbuli – dərgah olmaz və mərdudi-əzəlidir. Ol kimsədən eraz etmək gərək. Nəuzibillah min şərri zalikə. (Tərcüməsi: Onun şərrindən Allaha sığınıram).

## USTAD NƏFƏSİ

Şeyx Səfi həzrətləri buyurmuşdur kim: «Talib olan kimsə gərəkdir kim ustad nəfəsi ilə yürüyə, əmrlərinə qail ola. Müti ola övliyaya. Haçan kim bir talib övliya nəfəsinə iman gətirməsə, baqi etiqad etməyib inanmasa, könlünə şübhə bürünsə, yetmiş övliya qətl etmişcə günah hasil edər».

Və daha Şeyx Səfi həzrətləri buyurmuşdur: «Yol talibi olan kişi daim mücahidə qıla. Mücahidə oldur kim, qadir olduğu qadar talib bir-birinə çox varmaq gərək, könlü xəstə olur. Pəs indi mücahidə ilə könül ayinəsi silinir, pak mücəlla olur. Ol talib hər nəyə kim baxarsa, mürəbbisin görür, könül gözü açılır».

Daha /Şeyx Səfi həzrətləri/ buyurmuşdur: «Talib üç gündə bir dəfə mürəbbisinə vara, didarın görə və söhbətə irə, övliya kəlamın dinləyə, dürlü mərifət hasil eyləyə və neçə müşküllər həll eyləyə. Əgər üç gün-gecə varmasa, beş gün-gecə varmasa, yeddi gün və ya on gün, əl-hasil qırx gün varmasa, vədəsi irişib bu qırx gün içində ölərsə, ol talib övliyadan cüda düşmüş olur. Övliya qövlü onun üzərindədir. Biləsiz, qafil olmayasız».

ÖVLİYA QÖVLÜ

Şeyx Səfi həzrətləri buyurur kim: «Övliyanın on iki qövlü vardır. Altısı talibindir. Pəs hər hangi talib bu altı qövlü bilib övliyanın nəfəsini yerinə gətirməyə, qıldığı dua batildir. Və əgər o altı qövlü yerinə gətirsə, övliya dostu olur».

ALTI QÖVL

Şeyx Sədrəddin həzrətləri sual etdi: «Ya Şeyx! Övliyanın ol altı qövlü nədir?, - buyurunuz, onu daha biləlim, qadir olduğumuzca mucibincə əməl edəlim», - dedi.

Şeyx Səfi həzrətləri buyurdular kim: «Ol altı qövlün birincisi namazi-niyazdır. İkincisi budur kim, mücahidədir, talib bir-birinə çox varmaq gərək. Üçüncüsü, talib olan kişi əvami-nasdən münqəte olub kəsilməkdir və əvam loğmasın yeməməkdir və kəndi daha əvamə loğmasin yedirməməkdir. Dördüncüsü, talib olan kişinin təqvası təmiz olmaq gərək. Yə'ni daima pak təharətli olmaq gərək. Hər hal üzərinə qarşı düşmək caiz degildir».

Dinlə nəfsin canlıdır,
Dutmayanlar qanlıdır,
Xətai, həzər eylə,
Bu yol nədir, yanlıdır.

Daha övliyanın altıncı qövlü oldur kim, daima zikrullahi dilində vird eyləyə, ol zikrin nuru qəlbinə düşə. Leylən və nəharən, sirrən və cəhrən tövhid eyləyə. Gecə və gündüz, gizli və aşikara tövhid kəlməsin söyləyə və həm nəfsi-əmmarənin kökünü qaza və kəndusunu təqvayə irgürə. Ol kimsənə rahi-təqvayə könül bağlayıb cəla verə. Haçan bir talib bu altı qövlü yerinə gətirsə, övliya ilə on iki qövlü yerinə gətirmiş gibi olur.

Amma ol on iki qövlün altısı kim övliyanındır, bəyanə gəlməz, dil ilə şərh olmaz. Ol məqami-haldır, qal degildir. Və daha talib oldur kim, gündüzü kəsrətdə olursa, gecəsi vəhdətdə ola. Zira kim gecə övliya bazarı, gündüz xəlq bazarıdır. Haçan bir talib hər gün xəlq üzünə baxıb xəlq ilə ixtilat eyləyə, ol talib min dərəcə qəti-mənazil etməkdən geri qalır. Pəs indi talib olan kişi gərəkdir gündüz xəlq ilə müamilə edərsə, gecə Həqq ilə müamilə eyləyə».

## GECƏNİN BEŞ BÖLÜMÜ

Şeyx Səfiəddin həzrətləri buyurur: «Sufi gərəkdir bir gecə /ni/ beş qism üzərinə təqsim eyləyə:

Əvvəl qism, taət və ibadət ilə məşğul ola.

İkincisi qism, qal və qeydi fərağət edib rahət etməgə məşğul ola

Üçüncü qism, səhhət etməgə məşğul ola.

Dördüncü qism, vəhdət etməgə məşğul ola.

Beşinci qism, xəlvət etməgə məşğul ola».

Şeyx həzrətləri bu minval üzərinə daima ibadət etmiş idi. Zira kim, nəfsi-mücahidə bütün nicat verir.

Onun üçün kim bir gecənin on iki saatını beş qism edib və hər qismi bir dürlü hal üzərinə keçirsin və hər hal sirr üzərinə. Ol talib olan kişi kəndü /gecəsini/ şöylə təqsim eyləyə. Demişdir: «Amma təriq düşmanı vardır, onlardan həzər ediniz və qorxunuz».

## TƏRİQ DÜŞMANI

Şeyx Sədrəddin ayıtdı: «Ya Şeyx! Təriq düşmanı kimlərdir? Buyurunuz, biləlim», - dedi.

Şeyx Səfiəddini-əleyhirrəhmə buyurdu kim: «Talibin dışarısı xəlqdir və içərisi övliyadır. Övliya pakdır, öylə olsa, talib gərəkdir zahir və batini pak ola. Haçan bir talib övliya məqamın xəlqə göstərsə, həm təriq düşmanıdır və həm bizim üşmanı-

mızdır. «La fəta illa Əli la seyfə illa Zulfiqar». (Tərcüməsi: Əlidən başqa igid, Zülfuqardan qeyri qılınc yoxdur). Pəs indi talib oldur kim, talibi qoxusundan bilə. Zira övliya qoxusu talibdədir. Haçan bir talib ol qoxuyu bilməsə, övliyadan cüda olur və bir talibdə kim, ol qoxu olmazsa, talib degildir, dünyadan axirətə imansız gedər.

Və daha bir kimsə övliya tacın örü nəsnəyə buraxsa, ol cüdadır. Onlardan qaçmaq gərəkdir. Əgər qaçmazlarsa, kəndiləri daha onun kimi cüda olurlar. Övliya ərkanından məhrum qalırlar».

## MÜNAFİQƏ LOĞMA YEDİRMƏ

Və yenə Şeyx Səfi həzrətləri buyurur: «Cənabi-Həqq həzrətləri talibin könlünə bir möhkəm qələ yapmışdır. Şöylə kim ol qələ yetmiş qatdır. Bu dünyadan artıqdır. Və həm yetmiş bargahı vardır, övliyanın bargahıdır.

İndi hər hansı talib kim münkir və münafiqdən sirrini saxlamasa və həm loğmasını münkir və münafiqə yedirsə, ol qələyi xərab etmiş gibidir».

Şeyx Sədrəddin aydır: «Ya Şeyx! Talib bir-biri ilə necə dəyərilsin? Onu daha bəyan elə, biləlim».

Şeyx Səfiəddin – əleyhirrəhmə buyurdu kim: «Haçan bir talib bir talibin evinə varsa, ol ev sahibi olan talib gərəkdir kim, ona izzət və hörmət edib hər nə qadir olsa, mövcud bulunandan meydanə gətirə və onun qədəmin mübarək bilə, gəldigindən səfalər hasil edə.

Əgər ol talib onun gəldigindən səfa və şövq hasil etməyib dərunundan ona məhəbbət göstərməyib varını ondan dəriğ edə, loğmasını saxlasa, cənabi-Həqq və övliya qatında üzü qaradır. İqrarı saf degildir.

Və daha bir talib loğmasın münkirə və münafiqə yedirsə, yetim ətini yedirmiş gibidir

Və daha bir talib kəndi öz ətin bir münkirə versə, on iki imamın ətin yedirmişcə günah hasil edər».

ƏHLİ – ƏYAL İDARƏSİ

Şeyx Sədrəddin ayıtdı: «Ya Şeyx! Talib əhli-əyalı necə idarə etsin?».

Şeyx Səfi – əleyhirrəhmə buyurdu kim: «Haçan bir talibin xatunu bir övliya düşməninə görünsə, yenə ol talib onunla cəm ola, xinzir ilə cəm olmuş gibidir. Ondan ziyadə ehtiraz üzrə olmaq gərəkdir.

Pəs talib olan kişi övliya izin izləyib, mürşid rizasını gözləyib əmrinə görə əməl etmək gərək, ta kim, tanrı dostu ola. Zira kim, ustad nəfəsi təriqətdə imandır. Şöylə bilələr.

TƏHQİQ

Ərz eylədi əmanəti yerlərə və göylərə ol əmanət kim, Allah-təala həzrətinindir, dağlar taqət gətirməyib qaldıra bilmədilər. Və ol əmanəti cənabi-Həqq həzrətləri həzrət Adəm – əlyehissəlamə verdi. Adəm – əleyyhissəlam Həqq əmrini qəbul edib qaldırdı».

YEDDİ SİFƏT

Şeyx Sədrəddin ayıtdı: «Ya Şeyx! Ol əmanət nə idi kim, yerlər və göylər təhəmmül edəməyib götürə bilmədilər və daha insan götürdü?».

Şeyx Səfiəddin ayıtdı: «Ol əmanətlər bunlardır kim: əl, ayaq, göz, qulaq, dil, dodaq və nitq.

Bu yeddi qapı ixlas əslidir kim, yeddi sifətdir. Nə qədər sifətlər varsa, bu yeddi sifətdən hasil olur və bir daha şəhəvati-nütfədir, derlər. Sufi gərəkdir bu yeddi qapuyu zəbt edib məhəllinə sərf eyləyə, cəhənnəmin qapısı onun üzərinə bağlı ola.

Və daha dərvişlik və sufilik oldur kim, nəfsi-əmmarəyi qətl edə, kəndisini ləvaməyə irgürə. Qövli-təala: «Ən əl nəfs la marət ba ləssuh». Yəni bir kişi nəfsinə uyub əmmarə ilə amil olursa, ol kişi kəndisinə zülm etmiş olur. Süfi gərəkdir şəhvət əlindən

biçarə və zəlil olmaya. Qadir olduğu qadar mən eyləyə, şəhvət atəşin söndürə.

Axmaqdır ol kişi kim, nəfsin diləyin verə və aqildir ol kişi kim, nəfsini qətl edə, kəndisini mülhəmə və mütməinə irgürə.

Bunlarınkı nə kim varsa, bu yeddi sifətdən qopar.

İndi bir talib ki, bu məzmumə sifətləri tərk edərsə, insan dərəcəsinə təriq bulur, nəfsi mütməinə ayaq basar, ol vaxt könlü və gözü açılar, eşq arı olar, ziyadə məhəbbət hasil olar, səfayi-qəlb edər. Hansı talib ki, bu mərtəbəyə irsə, insani-kamil olmuş olur».

## YOL İÇİNDƏ

Şeyx Səfiəddin ayıtdı: «Ya Şeyx! Talib yol içində necə gərəkdir? Buyur, eşidəlim və biləlim».

Şeyx Sədrəddin həzrətləri buyurdu kim: «Talib olan kişi dəvə və eşşək və xinzır gibi gərək olsun. Yəni bunun timsalı budur kim, dəvə yük götürücüdür və həm qatar içindədir, bir kimsə məharinə yapışsa, qalan dəvələr cümləsi onun ənsəsincə gedərlər. Sanma ki, müxalifət edərlər.

Pəs talib daha gərəkdir dəvə gibi qatar içində yük götürücü ola və rəhbər ilə müxalifət etməyə.

Mürşid su kimidir, su hər nəyə toxunsa, arıdar, pak edər. Mürşid daha talibin könlünü təmizlər. Mürşidi-kamil adəmi-cami-cahannüma edər. «Cami-cahannüm» nədir? Ayinəyi-Xudadır.

Və cəmiyyət olduğu yerdə hazır ola və bir mənayi-mərifət hasil edə.

Və xinzir daha doğrulduğu yerdən dönməz. Talib daha gərəkdir ki, doğrulduğu yerdən dönməyə. Siratül-müstəqimdə doğru yeriyə və doğru söyləyə, dost könlünü ağrıtmaya, könlü dərvişlikdə, dili mürüvvətdə ola, ta ki bu yolda məqsudunu bula. Daha bir talib iki könlü bir edib ölürsə, münafiqdir».

## ÖLÜMSÜZLÜK

Şeyx Sədrəddin ayıtdı: «Ya Şeyx! Mürüvvət nədir? Bəyan eylə, biləlim».

Şeyx Səfiəddin həzrətləri ayıtdı: «Bir talib övliya kəlamın eşidə, həqq bilə, övliyanın mənaqibin dinləyə, hər nə deyərsə, ona görə əməl eyləyə və mirşüdin əmrini yerinə gətirə, ol talibə hərgiz ölüm yoxdur. Dünyadan axirətə iman ilə gedə, cümleyi-ənbiya və zümreyi-övliya ondan xoşnud ola, cənabi-Həqq həzrətləri ondan razı ola və cəmalını göstərə».

## ÖVLİYADAN ÜZ DÖNDƏRMƏ

Şeyx Sədrəddin ayıtdı: «Ya Şeyx! Bir talib övliyadan üz döndərsə, halı necə olur?».

Şeyx Səfi həzrətləri buyurdu: «Bir talib övliyadan üz döndərsə, pirdən dönmüş olur. Piri qəbul etməmiş, iblisi qəbul etmiş olur. Münkirdir, münafiqdir, üzü qaradır, dünyadan axirətə imansız gedər. Bir talib bir talibə nəfəs versə, bir gün vədə ilə üç gün olsa, varmasa yeddi gün olsa, varmasa, ya on iki gün olsa varmasa, ol talib nəfəsə can buldurmasa, ol nəfsdən ötrü taliblər onunla durub oturmasınlar. İqrarına can buldurmayınca hər kim onunla durub otursa, övliya nəfəsinə iman gətirməmiş olur , üzü qara olur. İlla məgər kim ol talibin üzrü olmuş ola. Öylə olunca vədəsinə xilaf etmiş olmaz. Gəlib mürüvvət dedikdə qəbul edələr. Zira kim «Əl üzr əndə kəramül nas» məqbul deyib buyurmuşlar gərək. Tərcüməsi: Ol talib bu taliblərdən üz döndərirsə, münafiqdir».

## MÜNAFİQ KİMDİR?

Şeyx Sədrəddin ayıtdı: «Ya Şeyx! Münafiq kimlərdir? Bizə bəyan elə, biləlim».

Şeyx Səfi-əleyhirrəhmə buyurdu kim: «Bir kimsənə övliya kəlamın eşidib həqq bilməsə və ona görə əməl qılmasa, könlü saf olmasa, kin, kibr, həsəd, büğz, büxl, təmə, ərinə qeybət məsavi olsa, münafiqdir.

Və daha münafiq oldur kim, bir kişinin üzünə bir dürlü və ardına bir dürlü söyləyə.

Və daha münafiq oldur kim, övliyaya dil ilə iqrar verib iman gətirə. Amma könüldə təhqiq etiqad edib inanmaya. Qövl-təala «Ən əl münafiqun hum əl kafirun». Münafiq kafirdən əşəddir. Onunçun kim zahir(də) kafir kəlmeyi-şəhadət gətirməklə müsəlman olur. Amma münafiq iki üzlü, iki dilli, iki könüllü olur. Onlardan qaçmaq gərəkdir. Zira onlar övliya düşmanlarıdırlar, onların məkanı duzəxdir».

## SEVGİ NİŞANI

Şeyx Sədrəddin ayıtdı: «Övliyaya, behəqq necə məhəbbət etmək gərəkdir?».

Şeyx Səfiəddin həzrətləri buyurur: «Haçan bir talib «övliyayı sevərəm» desə, taliblər ondan nişan istəyərlər. Zira kim, dəvayə məna, aşiqə nişan gərəkdir. Ol talib iqrarın arı olub qıldığı dəvanın mənasın verirsə və nişanın göstərirsə, xoş qəbul edələr. Əgər dəvasında açiz olub nişan gətirməzsə, onu tərd edələr. Qırx gün içlərinə qoymayalar. Əgər qoyarlarsa, kəndiləri də murdar olurlar, övliya düşmanı olub axirətə imansız gedərlər.

Şer: – min Şeyx Səfi – əleyhirrəhmə:
Eşq yolunda odur pəhləvan,
Göstərə məşuq yolunda nişan,
Sevərəm deməklə asandır bürhan!»

## TALİBİN NİŞANI

Şeyx Sədrəddin ayıtdı: «Ya Şeyxi-kamil! Ol talibin nişanı nədir, biləlim».

Şeyx Səfi həzrətləri buyurdu kim: «Ol talibin nişanı övliya ətəgin

tutmaq, iqrar verib can və könüldən inanmaq və iman gətirməkdir. Yəni hər felinə və hər halına «bəli» deyib inanmaqdır. «Mənaqibi-şərif» dinləyib övliya nəfəsin eşidib, mənasını anlayıb, ona görə əməl etməkdir. Cümlə varlığın ərənlər yoluna sərf edib, xərc etməkdir».

## YETMİŞ İKİ MƏQAM

Şeyx Sədrəddin ayıtdı: «Ya Şeyx! Təriqət içində talibin qaç məqamı vardır? Buyurun, anlıyalım», - dedi.

Şeyx Səfi həzrətləri buyurdu kim: «Övliyayi-giram və məşayixi- üzam olan kimsələrin təriqət və həqiqətdə yetmiş iki məqamı vardır. Ol yetmiş məqam dörd qapı içində övliyanındır və iki məqam talibindir. Haçan bir talib o iki məqamı yerinə gətirsə, övliya ilə ol yetmiş məqamı yerinə gətirmiş olar».

## VƏFA VƏ TƏSDİQİ-QƏLB

Şeyx Sədrəddin ayıtdı: «Ol məqamlar nə məqamlardır ki, övliya ilə o yetmiş məqam müqabiləsində olar?»

Şeyx Səfiəddin həzrətləri ayıtdı: «Ol iki məqamın əvvəl məqamı övliyaya vəfa eyləməkdir. Çünki iqrar verdi, gəldi «bəli» dedi, təriqətdə ol «yol oğlu» oldu. Gərəkdir kim, ol iqrar üzərinə əhdini bəkləməkdir. Qövli-təala: «Bima əhədü əleyhə fəsvətiyə əcra əzəmiya». Cənabi-həqq həzrətləri buyurur: «Bir kişi mənim yoluma bel bağlayıb əhdinə vəfa eyləsə, mən ona neçə dürlü ehsanlar eylərəm, şöylə kim hər biri əcri-əzim».

Və daha ikinci məqam təsdiqi-qəlbdir. «Və yəqulun məni həza əl vəd in kuntum sadiqin». Yəni Tanrı buyurur kim: «Ya qulum! Sən eylədigin əhdin vədinə vəfa (et), necə kim ələst dəmində «bəli» demişdin, qövlündə dürüst ol və sadiq ol. Yəni ayna gibi ol».

Pəs hansı talibdə təsaddüqi-qəlb olsa, təhqiq bilmiş olasınız ki, ol talib övliya dostudur.

İndi bir kimsənə can və könüldən və dəruni-dildən övliyayi sevsə, vəfat etməli olsa, Əzrail canına və Şeytan imanına qəsd eyləsə, ol vaxt övliya ol talibin imanını şeytan şərrindən saxlayıb əmin eyləyə. Qövli-təala: «İla ən övliya illah la xövf əleyhim və ləhum yəxzinun».

Təhqiq: Bir talib mürşid ətəkin tutub övliya təriqinə salik olsa, onun üzərinə heç qorxu yoxdur, məlul və məhzun olmasın. Haman sidq ilə bel bağlasın, getdigi yerdə rəhbərin izin izləsin, hər işdə pirin rizasın gözləsin».

## ŞAH XƏTAİNİN BU MƏQAMDA /ŞEYX SƏFİNİN SÖZLƏRİNƏ AİD/ ŞEİRİ

Gəl bir pirə xidmət elə, əmək zaye olmaz ola,
Mürşid ətəgin möhkəm tut, kimsə əldən almaz ola.
Bir işi bitirmək gərək, əsgigin yetirmək gərək,
Yar ilə oturmaq gərək, heç kimsənə gülməz ola.
Bir soyu soylamaq gərək, bir acı toylamaq gərək,
Bir dilün söyləmək gərək, firiştələr bilməz ola.
Çapıq bəhri olmaq gərək, ümmanlara dolmaq gərək,
Bir cəvahir bulmaq gərək, heç sərraflar bulmaz ola.
Gerçək aşiq olmaq gərək, məşuqəsin bulmaq gərək,
Ölməzdən ər olmaq gərək, varıb onda ölməz ola.
Quş diliylə uçmaq gərək, bu mənayı seçmək gərək,
Bir qədəhdən içmək gərək, içənlər ayılmaz ola.
Bir bağcaya girmək gərək, xub təfərrüc qılmaq gərək,
Bir gülü qoxlamaq gərək, hərgiz o gül solmaz ola.
Gəl, Xətai, sən keç otur, dəvayi mə'naya yetir,
Söhbətin bir ərə götür, cana-başa qalmaz ola.

## TALİBİN MÜSİBƏTİ

Şeyx Sədrəddin ayıtdı: «Ya Şeyx! Talibin müsibəti nədir, münafiqin müsibəti nədir? Lütf edib buyurun, eşidəlim və biləlim».

Şeyx Səfi həzrətləri ayıtdı: «Talibin müsibəti övliyadan cüda olmaqdır və münafiqin /müsibəti/ cəhənnəmlik olmaqdır». Və daha /buyurdu:/ Talibin üç müsibəti vardır:

Birincisi budur ki, yalan söyləyə, qəsdən ədəb bəkləməyə.

İkinci müsibəti oldur ki, qeybət və məsavi eyləyə.

Üçüncü müsibəti oldur ki, övliyanın mehr və məhəbbətin könüldən çıxara.

Hər hankı talib bu üç dürlü işi eyləyə, dərgaha qəbul olmaz, dünyadan axirətə imansız gedər və həm qiyamət günündə əzabi-cəhənnəmə layiq olar və bütün həyatında nə qədər savab işlərsə, bil-külliyə «Həbaən mənsur» ("səpələnmiş torpaq" – red.) olur.

Bundan sonra yenə Şeyx Sədrəddin sual etdi: «Ya Şeyx! Xəlqə məbbət həqqində buyurun».

Şeyx Səfiəddin ayıtdı: «Xəlq övliyanın quzusudur. Hər kim övliyanın quzusuna girsə, ol kişi övliyanın bəndələrindən olur. Və daha talib övliyanın quzusuna qədəm basa, yetmiş min cahandan qurtular və həm ona ülayi-zat hasil olar. Gözü və könlü bəşarət ilə dolar, murad və məqsuduna vasil olar. Və hər kim övliya yolunda baş və candan keçərsə, təhqiq, şəhid olar». Və daha /buyurdu/: «Gerçək talibi-həqq oldur kim, əvamdan kəsilə və xəlqdən üzlət eyləyə. Övliya kürəsinə girə, dünayanın olduğca cəmi qorxularından əmin ola. Ol talib mömilərdən olur və ona ölüm yoxdur. Həman ancaq «Dünyadan axirətə nəql edər, bir evdən bir evə köçər» gibidir. Qiyamət günündə hesabsız olaraq övliya məqamında olar. Cənnəti-əlada Həqqin cəmalını və nurunu müşahidə qılar. Ol nur ilə müğtənəm olar. «Əl möminun la yəmətun bəl yəntəqlunə min dərül-fəna əla darul-bəqa» mənzilinə irişərlər».

Və daha buyurur: «Könül üç vəch üzərinədir. İkisi xəlqin, birisi talibindir. Ona heyran deyirlər. Daim məhbubunu tamaşa edər, eşqindən heyran olar. Hər harada kim baxarsa, ona görünər və məhbubun cəmalını seyran edər. Bilmiş olasan kim, bu vəhc üzərə kişi əgər dünyada və əgər axirətdə övliya məqamındadır».

## ÜÇLƏR, YEDDİLƏR VƏ QIRXLAR MƏQAMI

Şeyx Sədrəddin ayıtdı: «Ya Şeyx! Bir talib övliya sülukun bilməsə, məqamı olurmu, yoxsa olmazmı?»

Şeyx Səfiəddin həzrətləri ayıtdı: «Talibin üçü bir yerdə olsa, cənnəti-övliyadır, üçlər məqamıdır.

Ol üçün biri qütbdür övliya mərtəbəsində. Ol ikisi imamın mərtəbəsində olurlar. Biri qütbün sağ yanında və bir sol yanındadır.

Əgər kim, talibin yeddisi bir yerdə olsa, sidqi-övliyadır, yeddilər məqamıdır. Ol vaxt yeddinin biri övliya mərtəbəsindədir.

Və əgər talibin qırxı bir yerdə olsalar, təriqi-məşayixdir, qırxlar məqamıdır. Və yenə ol vaxt ülayı-zat hasil olur. Talibin könül ayinəsi silinir, pak olur, şöylə bilgil kim».

## ŞAH XƏTAİNİN TƏFSİRİ

Mürtəza Əliyi candan sevərsən,
Qəflətdən gözünü gəl aç, oyandur.
Müsahibsizlər ilə durub oturma,
Bir içim su içərsən gəl ziyandır.

Rəhbəri o gündə gerçək bir olmuş,
Varlığından su meydanda soyulmuş,
Gizli gəncə orda ustad saylımış,
O nədir həqq bilir, şaha əyandır.

Getdigi yolun ədəbin taxıdan,
Varlığın aldırır tikib toxudan,
Həm bir cəm içrə təbərra oxudan,
Əli sirrin ami-nasə deyəndir.

Can gözü bağlıdır, həqqi görənməz,

Ustadın yoluna doğru varanmaz,
Cəmiyyətdə sualını verənməz,
Dörd qapı bu qədər halı bəyandır.

Şah Xətai aydır: yer-göy yaradan,
Mən ağdan oxuram, biləm qaradan,
Deyin çıxsın halı bilməz aradan,
Mömin müslim al rənglərə boyandı.

## RƏHMANİ SUFİLƏR

Şeyx Səfiəddin həzrətləri cəmiyyət həqqində buyurur kim: «Bir talib həlqədə turmuş olsa, nəzəri dışarıda olsa, yəziddir. Bu təriq içində olan kişiyə lazımdır ki, əhli-riza ola. Əgər böylə olmaz isə, təriqətdən durdur».

## HEKAYƏT

Günlərdə bir gün Şeyx Səfiəddin həzrətləri gedirmiş kəndi talibləri adın sorub bir ağçaya seyran edirmiş. Şeyx həzrətləri /gördü/ bir ağacda üç alma durur. Bəd dolanıb yenə ol ağac dibinə gəldi, baxdı gördü ol almanın biri yoxdur. Xəbər sorub, bağvandan ayıtdı: «Bu ağacda üç danə alma var idi. Hala birisi yoxdur, necə oldu? – dedi.

Bağvan ayıtdı:- «Şahım, kəndi düşdü».

Şeyx ayıtdı: -«Hanı, necə oldu?»

Bağvan ayıtdı:- «Bir sufi istədi, verdim».

Şeyx ayıtdı: -«İstədimi aldımı? Yoxsa istəmədimi, sən verdin?»

Bağvan ayıtdı:- «İstəmədi, mən verdim».

Şeyx ayıtdı:- «Bahasın verdimi aldı, yoxsa vermədimi aldı?»

Bağvan ayıtdı:- «Şahım! İstəmədən bahasın verdi».

Şeyx ayıtdı:- «İstədinmi aldın bahasın, yoxsa istəmədinmi verdi?»

Bağvan ayıtdı:- «İstəmədən verdi».

Şeyx Səfiəddin həzərtləri Cənabi-Həqq həzrətlərinə çox şükürlər edib ayıtdı:

Əlhəmdülillah, Əliyyən Vəliyullah! Süfilərim rəhmani imişlər, şeytani degilləmiş, - deyib, şükür və səna edib, dua etdilər».

## ŞAH XƏTAİNİN TƏFSİRİ

Söylərəm, ey padşahlar padşahı, çox şükür,
Bəndənin ümmidi sənsən, həm pənahı, çox şükür,
Əfv edərsən sirləri, sirrimizə agahsan,
Çox şükür dərgahına, ya Rəbb, İlahi çox şükür.

Sən yaratdın yeri göyü, bizimçün tutdu qərar,
Dönsə də çərxü fələk leylü nəhar, dönməz qərar,
Pəs bizimçündür dünyavü və üqba hər nə var,
Çox şükür dərgahına, ya Rəbb, İlahi, çox şükür.

Bizim üçün xəlq eylədin abü atəş, xakü bad,
Cismimizə can da verdin, bizə Adəm qoydun ad,
Yaradılmış səndən oldu cümlə məqsudü murad,
Çox şükür dərgahına, ya Rəbb, İlahi, çox şükür.

Görməgə göz verdin, eşitməgə sən verdin qulaq,
Tutmağa əl verdinü yügürməgə verdin ayaq,
Hər nə yerə əzm edərsən yenə az, yaxın, iraq,
Çox şükür dərgahına, ya Rəbb,İlahi, çox şükür.

Səngi-pulad arasından həm verirsən od bizə,
Ət ilə qan arasından verirsən süd bizə,
Çox kərəmlər göstərirsən, ey Kərim, məqsud bizə,
Çox şükür dərgahına, ya Rəbb, İlahi, çox şükür.

Lütfü ehsanü kərəm səndən gəlir, bizdən xəta,
Ol qənimət qismətini kəsmədin öndən sona,
Bu Xətai xəstə cün qapında durmuş bir gəda,
Çox şükür dərgahına, ya Rəbb, İlahi, çox şükür.

**Çətin anlaşılan sözlərin lüğəti**

Əsədullahül-qalib – Həzrət Əlinin adlarından biri: Allahın çox qüvvətli şiri
Ayıtdı – söylədi, dedi
Qürbi-həqq – haqqa yaxınlıq
Müvasilət – bir-birinə yetişmə, qovuşma
Qaç – neçə
Nəsnə – bir şey, nəsə, nə isə
Süluk – rəftar, hərəkət tərzi; təsəvvüfə mənsub olmaq, riyaziyətlə məşğul olmaq
Vəslət – birləşmə, vüsala çatma
Ümməti-xass – seçilmiş, bəyənilmiş ümmət
Lölö – inci, durr
Mühibb – sevən, məhəbbət bəsləyən; dost
Təriq – yol
Mucib – səbəb, bais; lüzum, zərurət
Kəndisinə – özünə
Pənd – nəsihət
Ləfzi – göhərbar – fəsahətli, qiymətli sölər
Andan – ondan
İrişdi – çatdı, yetişdi
İrşad – doğru yol göstərmə, düzgün yola çəkmə
Mənaqib – tərifə layiq sifətlər
Filhal – indi, hazırda; bu saat
Təzərrö – itaətkarlıq, yalvarmaq
Təsərrüf – yiyələnmə, zəbt etmə; israf etmə
Məğbun – aldanmış
Mərdud – rədd olunmuş, qovulmuş; səfil

Məğfur – bağışlanmış; günahları əfv edilmiş
Məzhər – bir şeyin zahir olduğu yer; təzahür
İradət – istək, arzu, dilək; əzm, ixtiyar
Qillü ğəş – hoqqabazlıq, riyakarlıq
Qillü ğəş – hoqqabazlıq, riyakarlıq
Lövhül-məfhuz – Allahın bütün göstərişləri yazılan kitab
Lövhül-insan – insanın yazdığı kitab; insanın qəlbi
İxtilat – yaxın əlaqə, görüş; ünsiyyət; söhbət
Münkir – inkar edən, danan; inanmayan, inamsız
Münafiq – ikiüzlü, riyakar, ikitirəlik salan
Sərkeş – itaətsiz, inadkar
Xud – özü
Əleyhillənə – lənət olmuş
Mətrud – uzaqlaşdırılmış, rədd edilmiş, qovulmuş
Bisəbr – səbrsiz, təmkinsiz
Taharət – təmizlik, paklıq
Abdəst – dəstəmaz
Çahərdəh mə'sum – on dörd pak məxluq /Məhəmməd /s/, Əli /s/, Fatimə /s/ və onların on bir övladı, imamlar/
Şəfi – şəfaət verən, günahları bağışlayan; hamilik edən
Məşayix – şeyxlər, alimlər
İstianət – yardım, kömək istəmə
Təbərra – uzaqlaşma, çəkilmə, uzaq durma
Təvəlla – dostluğu qazanmaq üçün təşəbbüs
Baqi – daimi, əbədi
Mücahidə – çalışma, səy etmə; cihad edən, din yolunda vuruşan
Mücəlla – cilalandırılmış, parlaq
Mürəbbi – tərbiyə edən, müəllim
Didar – görüş, göz
Cüda – uzaq; ayrı
Qövl – söz, danışıq, vəd
Təqva – paklıq, möminlik
Tövhid – Allahın birliyinə inam
Cəla – ayrı düşmə, ayrılma; cilalama, parıldatma
Kəsrət – çoxluq, bolluq, artıqlıq

Vəhdət – birlik
Müamilə – rəftar, hərəkət
Təqsim – bölmə, hissəyə ayırma
Taət – itaət. boyun əymə
Əleyhirrəhmə – Allah rəhmət eləmiş, rəhmət olmuş
Bargah – saray
Cəm – toplama; cütləşmə
Xinzir – donuz; xain, qəddar
Təhəmmül – qatlaşma, səbr etmə, dözüm
İxlas – sədaqət, ürəyi təmizlik, səmimiyyət
Nütfə – maya, toxum
Məhəll – yer, məkan, məqam
Məzmumə – məzəmmət edilmiş, bəyənilmiş; əlavə edilmiş
Məhar – yüyən, cilov, noxta
Siratül-müstəqim – cəhənnəm üzərində qurulmuş qıl körpü; doğru yol
Büğz – ədavət, kin, nifrət
Büxl – paxıllıq; xəsislik, simiclik
Təmə – tamah, acgözlük
Əşədd – daha şiddətli
Duzəx – cəhənnəm
Dəva – tələb, iddia; dava
Məna – səbəb, mövzu, məsələ
Tərd – qovma, uzaqlaşdırma
Təsdiq – sadiqlik, düzlük
Ələst – qiyamət
Təfərrüc - qəm-qüssəni dağıtmaq
Əvam – avam; camaat
Rəhmani – rəhmli, Allahı tanıyan
Üqba – axirət, o biri dünya
Səngi-pulad – polad daş

## YOL ƏHLİNƏ QİLAVUZ

Bu əsəri tərtib edən də məlum deyildir. Əsər «Əl-buyuruq» risaləsi kimi Sultan Şeyx Səfiəddin Ərdəbilinin dilindən yazılmışdır. Çox güman ki, «Yol əhlinə qılavuz» risaləsini Şeyx Səfi özü yazmışdır. Əsər yuxarıda vəsf edilən «Əl-buyuruq» kitabının zəmiməsindən alınmışdır.

### XƏLİFƏNİN TƏRİFİ

Pəs indi yol əhlinin halı budur kim, bildisin və eşitdisin, bir kişi bu təriq içində olmasa, yol əhli demək olmaz. Şöylə məlum ola, dinlə: /Təriqət/ qapısı oldu güşad kim, muradı olan irsin murada.

Əgər bü sözdən ibrət aldınsa, tamam oldu nəsihət burada. Bundan sonra xəlifənin şərtini və xasiyyətini və mə'nasını bildirir. Şeyx Səfiəddin həzrətlərinin buyuruğudur:

«İndi məlum olsun kim, bu cahanda əvvəl xəlifə Adəm Səfiullah əleyhissəlamdır. Onun haqqındə cənabi-Həqq həzrətləri buyurmuşdur kim: «Və iz qalə Rəbbikə lil-məlaikəti cailun fil-ərzi xəlifətun». Cənabi-Həqq həzrətləri məlaikələrə bildirdi kim, Adəm Səfiullah yer üzünün xəlifəsidir. Böylə olunca, əvvəl xəlifə Adəmdir. İkinci xəlifə Xatəmdir. Daha Adəmdən Xatəmə gəlinməyə qədər yeddi min il keçdi. Yüz igirmi dörd min peyğəmbərlər və üç yüz on üç mürsəllər gəldilər, aralarından bir neçəsi xəlifəlik etdilər. Ol cümlədən: Davud Xəlifətullah, Süleyman Nəbiullah, Xızr, Yusif və həm İskəndəri-Zülqərneyn kimi kimsələr xəlifəlik edib, Məğribdən Məşriqə dünyaya gəldilər və həm getdilər, ta kim, Axirəzzaman peyğəmbər Xatəmül-ənbiya Məhəmməd əl-Mustafa – səlləlahu və alihi və səlləmi – dünyaya gəldi. Həpsini müsəxxər eylədi. Cənabi-həqq həzrətləri ona «Həbibim və Rəsulum» dedi. İgirmi üç il aləmi dini-islamə dəvət eylədi. Otuz üç səhabə cəm eylədi. Aqibət olduğu dünyadan getdi, həzrəti-Həqqə vasil oldu. Onun yerinə kim qaimməqam olsa, xəlifədir».

## BEŞ HƏRF

Rəsulun qaimməqamı və həm vəsisi həzrət Əli ibn Əbu Talibdir. Və on bir övladı /həm/cinin xəlifədir. Onların nəsli daha xəlifədirlər. Hər kimi nəsb edib yerlərinə göndərsələr, ol daha xəlifədir. Və ismi – «xəlifə» beş hərfdir: X / /, L / /, İ / /, F / /, H //. Bu beş hərf «Ali-əba» dan ibarətdir. Yəni «dəsti-vilayət, səri-saqiyi-kövsərdir». Bir məna daha, xəlifə oğula deyilir. Xəlifə salehdən ibarətdir. Öylə olsa, «X» xəlifədir, yəni oğuldur, «L» lütf və kərəmdir, «İ» yer kimi sakti olmağa işarədir. «F» fariqul-bal olmaqdır. «H» ismi-hudur, gülbangi-övliyadır, xəlifələrə məxsusdur. «Allah» ismi beş hərfdir, «Məhəmməd» ismi beş hərfdir, «Xəlifə» ismi daha beş hərfdir.

## YEDDİ ÜZ

Talib mənayı iyicə fəhm eyləyə. «Xəlifə» deməgin yeddi üzü vardır. Və hər bir üzün bir təvəccöhü vardır və on iki şərt vardır. Və hər şərtin bir xasiyyəti vardır. Xəlifə məqamında olan kişi gərəkdir ki, bu şərtləri və on iki xasiyyəti bilə. Ol zaman ona «xəlifə» demək layiq olar. Əgər bu yeddi üzü və on iki xasiyyəti bilməsə, ona «xəlifə» demək böhtandır. Və bir kimsə kənduya böhtan eyləsə, əqlin kəmalı nöqsan ola. Və ol yeddi üz bunlardır: vəhdət, xidmət, iradət, imamət, səlamət, məlamət, dövlət. Hər kim bunları yerinə gətirsə, cümləsin tamam yerinə gətirmiş olar.

## YEDDİ ÜZÜN ŞƏRHİ

Bunların təvəccöhü isə, pəs indi /belədir/:
1«Vəhdət» oldur kim, ikilikdən keçib birliyə irişə. Onun əsəri vahidindir.
2. «Xidmət» oldur kim, yol əhli olan qardaşların cümləsinə bir gözlə baxmaqdır. Yəni böyük və kiçigi bir bilməkdir. Həpsinə birdən xidmət eyləməkdir. Onun əsəri təkəbbürlügü tərk edib, könüldə təvazö və miskinət olmaqdır.

3. «İradət» oldur kim, bu yola sidq ilə gəlib, mürşidi-kamilə iradət gətirməkdir. Onun əsəri eşqdir. Məşuqə cəmalın müşahidə qılmaqdır.

4. «İmamət» oldur kim, imamlar yoluna, din eşqinə düşə. Onun əsəri oldur kim, qeyr ilə həmdəm olmamaqdır.

5. «Səlamət» oldur kim, kəndi imanın və dinin səlamət tutmaqdır. Onun əsəri xaslardan qeyri ilə söhbət etməməkdir.

6. «Məlamət» oldur kim, rüsvayi-aləm olub, ar və namusu tərk etməkdir. Yəni xərabat güşəsində xərab olmaqdır. Onun əsəri məhəbbət məclisində elm təlim etməkdir. Yəni göylərdən xəbər verməkdir.

7. «Dövlət» oldur kim, tərki-təəllüqat edib cümlə varlığın yoxluğa satmaqdır. Nə qədər kim var isə, din qardaşları ilə yeyib-içib, xoş görməkdir. Onun əsəri dəmi-didar görməkdir və onlardan murad almaqdır və dostun cəmalı müşahidəsinə irməkdir. Və murad istəyənlərə murad verməkdir.

XƏTAİNİN ŞEİRİ

Nəfəsi əhli-dilin gövhəri-kandır bilənə,
Nitqimiz qüdrəti-həqq, ruhü rəvandır bilənə.
Mərifət kövhərinin kanına mədən ola gör,
İştə bu elmü hünər gənci-nihandır bilənə.
Qövlü yalançı müsahibləri at, gəl çək əlin,
Həmdəm olmaq dev ilə külli-ziyandır bilənə.
İstədi, buldu Xızır abi-həyat çeşməsini,
Ey kim ol məşuqənin yurdu amandır bilənə.
Şərbəti-həqdən içən eşq əri, azadə olar,
Şöylə sərməst olanın küfrü imandır bilənə.
Ey Xətai! Həqqi sən tanqı, özündən fariq ol,
Daha söz söyləməgil, söz də həmandır bilənə.

ON İKİ ŞƏRT

Şeyx Səfiəddin həzrətləri buyurdu: «Cün bu yeddi üz tamam

oldu, on iki şərt bəyan və əyan edəlim: səxavət, səadət, qeyrət, ibrət, hörmət, söhbət, mürüvvət, şəfqət, iqrar, isar, təvəlla, təbərra.

İndi «səxavət» oldur kim, yeyəsən, yedirəsən, adını sahibi-comərd dedirəsən. Amma ariflər bunda bir məna buyurmuşlar: «Yeyən baazardır, yeməyib yedirən biazardır», - demişlər.

Bunun əsəri yeyib-yedirmək, həqq üçün olma/qdır/, kimsəyə minnət etməyəsən.

«Səadət» oldur kim, qadir olduğun qədər əldən gələni mən etməyəsən. Onun əsəri murad yaxşı olmaqdır, könül evin yapıb mə'mur qılmaqdır.

«Qeyrət» oldur kim, din uğrunda çalışasan, nəfs ilə ruzü şəb cihad edəsən. Onun əsəri cəhd edib İblisin üzərinə qalib olmaqdır. Əldən gəldikcə məğlub olmamaqdır.

«İbrət», can gözü açıq ola, hər nəyə baxarsa, ondan ibrət ala. Həqqin hikmətin müşahidə qıla. Onun əsəri «məqami-müntəhayə» qədəm basmaqdır.

«Hörmət», kəndi əli altında olan kimsələrə riayət etməkdir. Və dadlı /söz/ söyləməkdir. Onun əsəri mehr və məhəbbətdir.

«Söhbət» oldur kim, məclislərdə danışarkən, düşünərək danışmaq. Onun əsəri mərifətdir.

«Mürüvvət» oldur kim, düşmanı qəhr etməyə qadir ola. Ona mürüvvət göstərib əvf eyləyə. Onun əsəri müdara qılmaqdır.

«Şəfqət» oldur kim, zəif və miskinləri görəndə, rəhm edib əsirgəyə, təriqət əhli qardaşlarının hər bir hacətin /yerinə/ yetirə. Onun əsəri möhtaclıqdan xilas olmaqdır.

«İqrar» oldur kim vədəyə xilaf etməmək, vədəsi yetdikdə yerinə gətirməkdir. Onun əsəri dostlar yolunda can verib, təriqət içində xak olmaqdır.

«İsar» oldur kim, hər nə var isə, dost yoluna saçıb, kəndi öz canını ərənlər yoluna fəda edib baş ilə candan keçməkdir. Onun əsəri sahibi-əsrar olmaqdır.

«Təvəlla» oldur kim, əhli-beyti-Rəsula məhəbbət edib, al və övladına can /və/ könüldən və dəruni-dildən on iki imama tabe olmaqdır. Onun əsəri tərki-dünyadır.

«Təbərra» oldur kim, Məhəmməd və Əli həzrətləri düşmanlarına nifrət edib qaçmaqdır, əhli-beytə ədu olan məlunlara lənət qılmaqdır. Onun əsəri Məhəmməd və Əlidən qeyriyə könül verməyib murad almaqdır.

Pəs indi xəlifənin şərt və xasiyyətləri budur kim, zikr olundu.

## BU MƏQAMDA ŞAH XƏTAİNİN ŞEİRİ

Naci derlər bir güruha uğradım,
Hamı bir-birinin almış əlini.
Hamınıza harda dedim, söylədim,
Məkan tutmuş həqiqətin elini.

Güllərin ləlü gövhərdən tökmüşlər,
Dost bağçasına məhəbbət əkmişlər,
…………………………………..
Öyrənmişlər o bağvanın dilini.

Südü qüdrət göllərindən alınmış,
Damazlığı o qırxlardan çalınmış,
Orucu tutulmuş, fərzi qılınmış,
Ol həqqə çevrilməmişdi dalını.

Əgər arif isən sözümü eşit,
Gerçək aşiq isən hərfini gözət,
Qəsavəti, kibri, kinəni tərk et,
Məhəbbət seliylə doldur gölünü.

Eşqin şərbətindən içdim, xak oldum,
Qüdrət dəryasına girdim, pak oldum,
Həqqə ulaşdım, həqqi gördüm, həqq oldum,
Onunçün iradə etdim yolumu.

Eşqin şərbətindən içən aqildir,

Qırxlar nişanın göstərən saildir,
Şah Xətai xidmətinə qaildir,
Mövlam əsirgəsin mömün qulunu.

## MÜRƏBBİLİK ŞƏRTLƏRİ

Bundan sonra mürəbbi şərtlərin və nişanların bəyan edər. Bir kimsənə mürəbbilik edib talib gətirməli olsa, gərəkdir kim, həlqeyi-söhbətdə hazır olan həqq əhli qardaşlar ona nəzər edib görələr zahir və batin ol kimsənələrdə mürəbbilik nişanı varmıdır, yoxsa degildir?

Pəs indi bir kimsənə mürəbbi olmayıb talib gətirə mürəbbilik eyləsə, təriqət içində ərkan degildir. Zira bir kişi yol bulmayınca, qilavuz olmanın nə mənası var? Həman bihudə əmək çəkər. Əgər ol kişi mürəbbilik etmək murad dilərsə, gərəkdir kim, üç şərti, dörd nişanı ola.

Ol sərnişanlar hər kimdə bulunmasza, layiqi-şah və məqbuli-dərgah degildir.

Ol nişanlar bir kimdə bulunarsa, mürəbbilik etməyə layiq olur. Şöylə məlum ola.

1.Əvvəl şərt: İndi mürəbbiliyin əvvəl şərti budur kim, mürəbbi köprü kimi ola. Zira daha ol köprünün yanında qorxuluq gibidir, ol talibi köprüdən düşməyə qoymaz.

2. İkinci şərt: İkinci şərt oldur kim, kişi qəlbi vase ola. Heç darılmaya, qağıyıb kimsəyə kişi surət göstərməyə, gülər üzlü, şirin sözlü, nəfsi həlim və qəlbi səlim ola.

3. Üçüncü şərt: Üçüncü şərt oldur kim, mürəbbi olan kişi heç bir nəsnədən ikrah etməyə, kəm nəzər ilə baxmaya, kimsənin xatir /və/ könlün yıxmaya. Cümlə yaradılmış məxluqata bir göz ilə baxa, qadir olduğu qədər hər kişinin könlünə görə.

## MÜRƏBBİLİK NİŞANLARI

1. Birinci nişan: /Birinci nişan/ oldur kim, bu aləmdə hər nə

ki varsa, bula, kəndündə hər nə ki, müşkül var, həqq qatında hasil ola.

2. İkinci nişan: Və daha mürəbbiliyin ikinci nişanı oldur kim, zəbanı arı ola, kimsəyə azarlıq yetirməyə, kimsə ondan rəncidə olmaya və kəndisindən xilaf söz gəlməyə

3. Üçüncü nişan: Mürəbbiliyin üçüncü nişanı oldur kim, səttar ola, kimsənin eyibinə baxmaya. Göz ilə gördügün ətək ilə örtə və kimsənin eyibini üzünə urmaya.

4. Dördüncü nişan: Və daha mürəbbiliyin dördüncü nişanı oldur kim, mürəbbi olan kimsə gərəkdir dünyaya meyli-məhəbbət etməyə, həqq yoluna varını sərf edə, baş və candan keçmiş ola, fəna şərbətini içmiş ola.

## ŞEYX SƏFİ HƏZRƏTLƏRİN BUYURDUĞU

Şu nişanlar kim, dedim, hər kimdə bulunursa, əhli-haldır. Mürəbbilik qapısını bu yeddi dürlü /şərtlər və/ nişanları daşıyan kişilərdən hər kim təriqə görə hərəkət edərsə və bu təriqət üzrə irərsə, mürəbbilik onun həqqidir.

Daha bir qardaş kim, dərgaha gəlmiş olmaya, xəlifə oğlu olmaya və sikkəxanadan gəlmiş olmaya, talib toplayıb mürəbbilik edəcək olursa, üzü qara olar. Və həm də ərkan degildir, yol qardaşlarımıza şöylə məlum.

## ŞAH XƏTAİNİN BU MƏQAMDA ŞEİRİ

Əli İsmayılam gəldim, seyran eylədim,
Zülfüqar durmaz qınında, gündə yüz min qan eylədim,
Görürəm divan düzəni, qıraram yoldan azanı,
Yeni başdan bu düzəni bir qədim ərkan eylədim,
Minərəm Düldülü, atı, kimsə bilməz bu sifatı,
Vilayəti, kəraməti təriqətdə kan eylədim.
Şahi-adiləm burada, yoxdur sanı qapımızda,
Səfillərin hamısını canıma canan eylədim.

## İzahat

1. «Və iz qalə Rəbbikə lil-məla-ikəti inni ca-ilun fil-ərzi xəli-fə-tun». *«"Quran"ın «Bəqərə» sürəsinin 39-cü ayəsindən.* Tərcüməsi: Sənin Rəbbin mələklərə: «Mən yer üzündə bir xəlifə /canişin/ yaradacağam», - dedikdə….

2. Adəm – dünyada ilk yaradılmış insan və ilk peyğəmbər, bəşəriyyətin atası.

3. Xatəm – peyğəmbərlərin sonuncusu, möhürü, Həzrət Məhəmmədə /s/ verilən adlardan biri.

4. Davud – "Quran"da adı bir neçə dəfə çəkilən peyğəmbərlərdən biri. Süleyman peyğəmbərin atası. Miladdan 1071-il əvvəl Beytül-ləhmdə anadan olmuş, Allah-təala tərəfindən ona beş bölüm və 130 hissədən ibarət olan «Zəbur» göndərilmişdir. «Zəbur»u gözəl və məlahətli səslə oxuyar, heyvanlar və quşlar da heyran qalıb onu dinləyərlərmiş. Onun möcüzələrindən biri bu imiş ki, dəmir əlində mum kimi yumuşalarmış və o, dəmir məftildən paltar toxuyarmış. Gündə bir zireh toxuyub satar və bununla da dolanarmış. Peyğəmbər olmaqla yanaşı, həm də hökmdar olmuşdur.

5. Süleyman – "Quran"da adı çəkilən peyğəmbərlərdən biri, Davud peyğəmbərin oğlu. Qədim yəhudilərin peyğəmbəri sayılan Süleyman peyğəmbər eyni zamanda yəhudilərin hökmdarı da olmuş, heyvanların, quşların, balıqların dilini bildiyi üçün, rəvayətə görə, onlara da hökmranlıq etmişdir. Rəvayətə görə, külək Süleyman peyğəmbərin ixtiyarında olduğundan, səyahət edərkən taxtını və ordusunu yelə bağlayıb gedərmiş. Onun sehrli üzüyü /möhürü/ varmış ki, o, bu üzüyünün vasitəsilə bütün aləmə hökm edərmiş. Səba şəhərində hökmdarlıq edən Bilqeyisin aşiqi imiş və sonralar onunla evlənmişdir. "Quran"da onun adı 17 dəfə çəkilir.

6. Xızr – "Quran"ın 18-ci surəsində /Əl-Kəhf surəsi/ adı bir neçə dəfə çəkilən peyğəmbər. Həzrət Musa peyğəmbər ondan elm öyrənmişdir. /Ətraflı bax: *"Quran", «Əl-Kəhf» surəsi, 60-82-ci ayələr/.*

7. Yusif – "Quran"da adı çəkilən peyğəmbərlərdən biri. "Quran"ın 12-ci, 111 ayədən ibarət olan «Yusif» sürəsi bütünlükdə Yusif, atası Yəqub, Yusifin qardaşları və onun başına gələnlər barədədir. /Ətraflı bax: "Quran", «Yusif» surəsi/. Şərq ədəbiyyatında Yusif gözəllik rəmzi kimi işlənir və onun taleyi, xüsusilə qardaşlarının onu quyuya atması və Züleyxa ilə bağlı macərası haqqında çoxlu əsərlər yazılmışdır.

8. İskəndər Zülqərneyn – b.e.ə. 356-323-cü illərdə yaşamış Makedoniya hökmdarı, dünyanın ən görkəmli sərkərdə və padşahlarından biri. "Quran"ın «Əl-Kəhf» surəsinin 83-98-ci ayələrində onun haqqında danışılır /Ətraflı bax: *"Quran", «Əl-Kəhf» surəsi, 83-98-ci ayələr/.*

9. Məhəmməd əl-Mustafa – sonuncu peyğəmbər, müqəddəs İslam dinin yaradıcısı. Atasının adı Abdullah, anasının adı Aminə xatundur. Həzrət Məhəmməd /s/ 569-cü il rəbiülləvəl ayının 17-də Məkkə şəhərində anadan olmuş, 632-ci ildə, səfər ayının 28-də, 63 yaşında Mədinə şəhərində dünyasını dəyişmişdir.

10. Əli ibn Əbu Talib – Həzrət Məhəmmədin əmisi oğlu və kürəkəni-həzrət Fatimənin əri. Həzrət Əli /ə/ həm ata, həm ana tərəfdən Haşimidir. Atasının adı Əbu Talib, anasının adı Fatimə olan Əli 599-cü il rəcəb ayının 13-də Məkkədə, Kəbənin divarları arasında anadan olmuşdur. Əli «Raşidi xəlifələrin» dördüncüsü və axırıncısıdır. Müqəddəs on iki imamın birincisi olan Əli üçüncü xəlifə Osman ibn Əffanın ölümündən sonra hakimiyyətə gəlmiş və 4 il 9 ay xəlifəlik etmişdir. 663-cü il ramazan ayının 17-də Kufə məscidində sübh namazı qılarkən səcdədə Əbdürrəhman Mülcəm oğlu tərəfindən zəhərli qılıncla yaralanmış və həmin ayın 21-də bu yaradan vəfat emişdir.

11. On bir övlad – həzrət Əlidən sonrakı on bir imam /İmam Həsən /625-670/, İmam Hüseyn /626-680/, İmam Zeynəlabidin /659-714/, İmam Məhəmməd Baqir /677-733/, İmam Cəfəri-Sadiq /702-766/, İmam Museyi-Kazım /745-800/, İmam Rza /770-819/, İmam Mə-həmməd Təqi /811-835/, İmam Əliyənnəqi

/829-868/, İmam Həsən Əskəri /845-874/, İmam Qaimi-əleyhissəlam /869-/ nəzərdə tutulur.

12. Ali-Əba – Məhəmməd peyğəmbər, həzrət Əli, Fatimə, İmam Həsən və İmam Hüseyn.

**Lüğət**

Qilavuz – yol göstərən, mürşid; rəhbər, bələdçi
Zəmimə – əlavə olunmuş, artırılmış, üstünə qoyulmuş hissə
Təriq – yol, məslək
İrsin – çatsın, yetişsin
Mürsəl – Allah tərəfindən göndərilmiş, yollanmış
Həpsini – hamısını
Müsəxxər – alınmış, zəbt olunmuş
Həbibim və rəsulum – dostum və elçim
Səhabə – tərəfdar, dost, yoldaş
Vasil – qovuşan, çatan
Qaimməqam – yerinə keçən, yerini tutan, canişin
Vəsi – vəsiyyətini yerinə yetirən, canişin, yardımçı
Nəsb – bir vəzifəyə qoyma, tə'yin etmə
Saleh – səlahiyyəti olan, dinin əmrlərinə uyğun hərəkət edən
Fariğül-bal – asudə, sakit ürək
Gülbang – nəğmə, cəhcəh; fəryad, haray
İyicə – yaxşıca
Təvəccöh – bir şeyə tərəf dönmə, hüsn-rəğbət, diqqət
Kənduya – özünə
Təvazö – özünü sadə tutma, sadəlik
İradət – istək, arzu, əzm, ixtiyar
İsar – bəxşiş, bağışlama; fədakarlıq
Təvəlla – dostluğu qazanmaq üçün edilən təşəbbüs
Təbərra – uzaqlaşma, çəkilmə, uzaq durma
Məmur – abad
Ruzü şəb – gündüz və gecə
Məqami-müntəha – axır, son məqam

Riayət – gözləmə, qayda-qanuna əməl etmə; sayma, sayğı
Mürüvvət – mərdlik, insana yaraşan sifət, mərhəmət
Qəhr etməyə – tabe etməyə
Mənn – qadağan etmə, qabağını saxlama
Müdara – dözmək
Hacət – ehtiyac, lazım olan şey
Sahibi-əsrar – sirr sahibi
Ədu – düşmən
Vase – geniş, enli
Zəban – dil
Səttar – örtən, gizləyən
Sikkəxana – burada övliya və mürşidlərin olduqları yer
Miskinət – miskinlik, yazıqlıq; bacarıqsızlıq, acizlik
Təəllüqat – bağlılıq, əlaqələr
Fariq – asudə, azad

## «MÜZZƏKKİÜN-NÜFÜS» RİSALƏSİ
## («QƏLBLƏRİ PAKLAŞDIRAN» RİSALƏ)

### «MÜZƏKKİÜN-NÜFUS» RİSALƏSİ HAQQINDA

Bu əsərin tədvin edilməsi Əşrəfoğlu Abdullah Rumiyə mənsubdur. O, 870 (1465/66) – ci ildə vəfat etmişdir. Nəşr edilən mətn Konya kitabxanasında saxlanılan 5452 saylı əlyazmanın Faxir İz tərəfindən nəşr edilən bölümündən alınmışdır.

Bu əsər də başqa əsərlər kimi «Qara məcmuə»lərə daxil etmə üçün yazılmışdır.

Əsərə «Təriqət fərmanı» adı da verilir. Əsər taliblər və müridlər üçün Şeyx Səfiəddin Ərdəbilinin dilindən yazılmışdır.

Əsərin bir yerində Şeyx Səfinin Mövləvi Ruminin məsnəvəsinə yazdığı şərhdən söz gedir və həmin kitabdan bir hissə nəql olunur. Şeyx Səfinin türkcə yazdığı «Şərhül – Məsnəvi» kitabı hələ tapılmamışdır, burada zikr olunan hissə, bu baxımdan əhəmiyyət daşıyır.

Bir başqa yerdə «Təhqiqi-Şeyx Səfi» ünvanlı bir hissə gəlir. Bu hissə də zahirən bəzi qaynaqlarda adı çəkilən Şeyx Səfinin «Təhqiqat» kitabından alınmışdır.

«Qara məcmuə»lərdə «Təhqiq» bölümləri yenə də vardır və bu məsələnin daha dərindən incələnməsinə ehtiyac duyulur.

Risalə belə başlayır «Ey əziz! Bu təriqət fərmanı Şeyx Səfi həzrətləri – qüddəsə sirrəhu əzizin sözləridir. Bu təriqəti-ərus «Müzəkkiun-nufus» adlanır və onu oxu, bilgil Şeyx həzrətləri nə buyurmuşdur».

### DÜNYA MƏHƏBBƏTİ

Ey əziz! Bu dünyaya hər kim könül verib cəm etməyə məşğul oldusa, axır peşiman olub peşimanlıq daşı ilə başını anca döydü. Və lakin sonrağı peşimanlıq fayda verməz. Bu gün bunda fürsət əldə var ikən, cəhd elə bu murdarı ayırtlaşı gör. Könlünü bundan götürü gör. Və ol dünya cəm edənləri və dünya yoluna

ömür çürüdənləri gözətmə. Sən onları gözət kim, sonları nəyə vardı? Ol ər gibi yığdığları mal necə tarü mar olur! Dağılıb varislər üləşib kəndi varıb əzabın, hesabın çəkər.

Ey əziz! Şol sultanları gözət kim, dünyaya gəldilər və lakin heç etibar gözü ilə baxmadılar. Və ya dünyanın ardına düşüb cəm etməyə məşğul olmadılar. Axirət əməllərinə məşğul oldular. Çün gördülər bu dünya bir yol uğrağı imiş. «Axirət yolunun üzərində buna aldanmaq, könül verib məşğul olmaq nəyə gərəkdir», - dedilər. Yol yırağında öldülər, qafilədən ayrılmadılar.

## DÜNYAYA BAĞLANMA

Bir gün yenə Rəsul həzrəti-səlləlahu əleyh və səlləm – Əbu Hüreyrəyə rəziyallahu ənhu-aydır kim: «Sənə dünyanın misalını göstərim», - deyir. Əlindən yapışdı Əbu Hüreyrənin. İlətdi bir dərya kimi yerə. Ol dərya məzbələ idi. Ayıtdı: «Ya Əbu Hüreyrə! Bax, bu dərya!». Əbu Hüreyrə baxdı, gördü kim, quru adam başları və sümükləri və əski buzlar və heyvan çifələri və sümükləri dökülmüş yatır biqiyas.

Şol aydır: «Ya Əbu Hüreyrə! İşbu başları kim, görürsən, bu başların kimi igid, kimi qoca, kimi övrət, kimi oğlan, kimi qul, kimi xəlayiq, kimi sultan, kimi vəzirdir. Kimi yoxsul, kimi baydır. Bunlar dəxi bizciləyin adam idi. Bunların daha hissləri var idi. Uzaq-uzaq sunular sunurlardı Bunlar daha çərb yeyib nəfis donlar geyirlərdi. Atlar minib yorurlardı. Şimdi gör kim, quru sümüklər olmuşlar, yatırlar. Ətləri, dəriləri çürümüş, topraq olmuş, nazik cərb yeyən ağızları çənələrindən ayrılmış, yatır.

Və bunların içində kişilər vardır kim, halal-haram deməyib düşürüb yığardı. Və qalın döşəklərdə yatırlardı. Və saraylarda otururlar, deyu. Şimdi gör kim, bu məzbələdə cifə olub necə yatırlardı. Necə topraq olub yatırlar. Gələn-keçən basar bunları. Və kimi bunlardan yanrınır, amma uslular bunlardan ibrət alır və bu yatan əskiləri kim görürsən, yellər dağıdıb savurur. Bunlardan kimi sufi və kimi kimxa və kimi bezdir. Bunlar bu yatanların

donları idi. Bunları geyib bunlar sallanır və fəxrlənirlərdi. Şimdi gör çürümüş, yellər savurur.

Bu yatan davar ölülərin kim görürsən, bəzi at, bəzi qatır və bəzi dəvə və bəzi himardır. Bunların binətləri idi. Bunlar bunlara binib dilədikləri yerlərə varırlar, gəlirlərdi. Şimdi gör dökülüb necə yatırlar.

Uş dünyanın misalı kim görürsüz, budur. Aqibət dünyanın işi bu olusardır. Ya Əbu Hüreyrə! Sən daha, mən daha ibrət alalım. Axirət işimizin halı /nın/ şöylə olacağını anlayalım. Şol bizim əlimizdə, qoynumuzda, evimizdə olanlar həp bizim degildir. Bizdən öndən daha hər birinin usu vardı. Bizdən sonra daha usu vardır. Gəlisərdir. Sən onu sanırsan kim, ol sənindir.

Ya Əbu Hüreyrə! Var, indi ölməzdən ön, bu dünyadan könlünü götür. Dünya səni tərk etmədən, sən dünyanı tərk eyləyi gör. Əlində malın fəqirlərə ver gör. Yoxsa ötə, sən daha şöylə olursan», - dedi.

Bu dünyaya aldanma! Bunun rahətinə məğrur olma! Bu dünya kimə güldü, aqibət ol ağlamadı? Bu dünyada kim rahət oldu, aqibət ol möhnətə sataşmadı? Hər qancaru baxarsan, bu dünya bir qəm və qüssə görünürdü.

## FƏQR DÜNYASI

Bu fəqirlik dedikləri əgər sual olunarsa, bir gizli sultanlıqdır. Kimsə bilməz bunun ləzzətini. Yenə də füqəra bilir. Və bu fəqirlər uçmaqda daha sultan olsalar gərəkdir.

Rəsul həzrətləri /səlləlahu əleyh və səlləm/ aydır: «Merac gecəsi mənə cənnəti ərz etdilər, əksər xəlqini füqəra gördüm».

Deyir: «Cəhənnəmi ərz etdilər, əksər xəlqi xatunlar ilə qənilər gördüm».

Deyir: «Bu fəqirlərə sultanlar demək məna/sı/ budur kim, bunlar şeytan qulu olmaqdan qurtulmuşlar. Və bu qənilər şeytan qulu olubdurlar. Şeytan bunları dünyanın ol yeddi dürlü bəndinə bağlamışdır, qul etmişdir. Necə kim, Həqqi-təala-cəllə və ali - ol yeddi duzağı bəyan edər…

Pəs bu bəndlər ilə şeytan bunları əvvəldən tutdu. Könüllərini bu dünyanın bu mətalarına mütəəlliq edib möhkəm bağladı. İraq, bunların bu duzağdan qurtulması asan degildir. Məgər ki, inayəti-Həqq yetişə. Əbu-bəkrə irişdiyi gibi, daha qalan əzizlərə irişdiyi gibi kim, cəmi dünyalarını Həqq yoluna derdilər. Daha kəndiləri bir loğma, bir xirqə ixtiyar etdilər, ibadət /və/ taət yolun tutdular, rəhmətullahi-əleyh oldular.

Və bu baylıq azmağa səbəbdir, dünyadan imansız getməyə. Görməzsən kim, heç bir fəqir tanrılıq dəvası etmiş yoxdur. Qanda bir bədbəxt varsa, həp qina ucundan təkəbbürlük edib aləmdə mənlikə yürüdü. Nə dənli tanrılıq dəvası etmiş bədbəxt varsa, həp qina ucundan təkəbbür /lük/ etdilər.

Və daha bu fəqirlik əgər yaramazsa, ya xorluq etmişsə, Seyyidi-kainat Məhəmmədi – Mustafa – səlləllahu əleyh və səlləmi Həqqi-təala fəqir eyləməzdi. Baylıq iyiymişsə kafirlərə yiyəcək, ətmək verməzdi. Pəs bundan əqlin var isə anla kim, fəqirlik ulu səadət imiş. Məhəmmədi – Mustafa sifəti imiş.

Pəs onun üçün Tanrı dostları cəmi mallarını füqəraya ulaşdırdılar, fəqirlik ixtiyar etdilər. Onun üçün kim, bu fəqirlik ənbiyalara sifətdir. Və həm həqiqəti, yarın qiyamət günündə bu fəqir qullarını qığırıb üzr etsə gərəkdir. Xatirciklərini təsəlli etsə gərəkdir.

Ayıta gərək: «Ey mənim fəqir qullarım! Dünayda sizə dünya vermədigim, sizi fəqir etdigim sevmədigimdən degildir. Bilin, sevdigimdən idi kim, şol çox sevdigim Məhəmmədin /s/ sifətilə sizi sifətləndirdim», - deyir.

Və Həqqi-təala o fəqir qullarına ayıdsardır kim: «Ey mənim qullarım! Dünyada mən sizə çox dünya versəm, sizi daha qəni eyləsəm, bunun sizə hesabı qatı olsa gərəkdir. «Bu qiyamət gününün hesabını görməsinlər», - dedim. Görün axı şu qənilərə nə qatı hesab olunur. Daha qəni olsanız, sizə daha şöylə qatı hesab edilərdi. Gəlin indi, ey fəqirlərim! Əgər sizi dünyada fəqir eylədimsə, bu gün qəni-qəni eyləyim. Həp əksləri yetirəyim. İşdə sizə uçmaq, hangısında gərəksə, sakinlənin!», - deyə. «Ey biçarə! Kəndini dünyaya əsir etmiş məğbun, şu mərtəbə nəyə dəgməz!

Bir kişinin min il ömrü olsa, min ilin daha aclıqla, susuzluqla, yalınçıqlıqla keçirsə, şu təsəlliyə hənuz azdır!»

Bu mərtəbələri bildikləri üçün sultanlıq və padşahlığı tərk etdilər, fəqirlik ixtiyar etdilər.

HEKAYƏT

Şeyx Mənsur Əmmar deylər, bir şeyx, əziz kişi vardı, rəhmətullahi – əleyh. Bir gün Bəsrə şəhərinə gedirdi. Yol sultanın qapısı önünə uğradı. Gördü kim, bu böyük qapının önündə neçə itlər /və/ qullar tutmuş dururlar. Bu qapıdan içəriyə Şeyx nəzər etdi. Gördü kim, bu qapıdan içəri bir meydan, ol meydanda bir altun çadır qurulmuş və bu çadırın içində bir altun təxt. Bu altın təxtin üstündə bir sultan oturubdur. Dürlü-dürlü mürəssə donlar geymiş və çevrə yanına neçə bəglər oturmuşlar. Və neçə bəglər daha ayaq inan dururlar, şürb edirlər.

Şeyx Mənsür Əmmar dərhal içəri yürüdü. Vardı ol təxtin yanında əsasına dayandı, durdu. Bir azdan tamaşa eylədi. Şeyxin nuru bunların üzərinə qələbə eylədi. Söhbətlərini sutadı. Bunlar daha bu feyzdən usanı verdilər.

Padşah aydır: «Söhbəti dağıdın».

Bu bəglər həp dağıldılar, getdilər, sultan yalqız qaldı. Sultan içəri çağırdı: «Hey Nəşvanə», - deyir. Bir azdan bir xatun içəridən çıxa gəldi. Başında altun tac, əgnində altun hərir geyir. Sağınca, solunca, ardınca, önüncə kəndi misli cariyələr. Çün bu sultan bu xatunu gördü, tez təxtdən endi, bu xatuna hamı qarşı vardı. Əlinə yapışdı, təxtə çıxardı. Cariyələr səf bağladılar. Qarşı durdular. Şeyx baxdı bunları gördü. Kəndi /kəndinə/ aydır: «Hey, şimdi nəsihətin vaxtıdır». Əsasını təxtin təqtasına çaxadı və bir kərrət çığırdı:

- Hey qafillər! Bu dünyanın yalançı bəgligciginə və yalançı xatunluğuna aldanmış, məğrur olmuş, bəqayi fənayə dədişmiş və baqi padşahı unutmuş biçarələr, - dedi.

Baxdılar gördülər bir pir əsayə dayanmış durur. Sultan aydır:

- Nə qocasan? Nərədən girdin? Şu dışarıda qapıçılar səni görmədilərmi?
Şeyx aydır:

- Mən qapıçı, bacaçı bilməzəm. Nərəyə xatirim dilərsə, girərəm. Mən bir təbib kişiyəm. Günah xəstələrini timar edici və möminləri günah rəncindən qurtarıcıyam. Bu dünyanın yalançı zövqcığazına nə yoluq aldanmışsız və bu rəiyyət bəgligciginə və xatuncığına nə yoluq məğrur olmuşsuz! Ertə bu bəgligi sizdən alırlar və sizi mülki-qədimi qatına aldırılar. Və bu əlvanlıqdan sizə us olmaz. Saraylarınız issiz qalır və bu qələbələriniz həp dağılır. Ölüm gələr, həp bunları tarmar edər. Necə kim sizdən öndənləri ölüm gəldi, tarmar eylədi. Şimdi onların birinin əsəri, tozu bəlirməz. Və bu izz /və/ naz ilə bəslədiginiz nazik tənlərinizə ilanlar, çayanlar üşər. Və süküklərinizi yer altında çürüyüb topraq oluyardır. Ol cəhənnəmin dürlü-dürlü əzabları sizə gəlir iriş-sər. Siz fəryad-zari edib çağırasız, illa dərman bulmayasız. Şimdi fürsət əldə ikən bu fani bəgligi və fani xatunluğu əbədi bəgligə dəgişirün, - dedi.

Sultan şeyxin sözlərini dinlədi. Bir kərə ah eylədi. Gətirdi kəndini təxtdən yerə urdu. Əql başından getdi. Bir zaman yetdi, bir zamandan kəndi duru gəldi. Ayıtdı şeyxə:

- Necə edəlim sultanım! Yolu yanılmışız!, - deyir.

Şeyx aydır:

- Gəlin hələ bir şimdi tövbə edin. Bu şimdi ikən etdiginiz işlərizə peşiman olun! Ol günahlarınız getsin, - deyir.

Gəldilər. Ər daha, övrəti daha şeyxin əlin tutub tövbə etdilər. Şeyx daha «Sizi Allaha ismarladım», - dedi. Şu ayəti oxudu. Ayət kim: «Fə Allahu xeyrul hafizən və hüvə ərhəmər-rahimin» (Tərcüməsi: «Allah ən yaxşı hifz edəndir və o, mərhəmətlilərin ən mərhəmətlisidir*».«Yusif» surəsi, 64-cü ayə*).

Çıxdı, yürüyürdü. Nəşvanə xatun sultana aydır:

- Necə edəlim, yolu yanılmışız?

Sultan xatuna aydır:

- Səbr et, xatun, kim yol göründü, axşam olsun, - deyir.

Çün axşam oldu. Sultan duru gəldi. Əvvəl mürəssə donları çıxardı, vardı bir əski keçə buldu, köklüksüz. Şöylə gövdəsi üzərinə bu keçəyi bərkitdi, qaftan kimi eylədi. Gəldi Nəşvanə xatuna aydır:

- Ya Nəşvanə xatun! Sən daha mənimlə gedərmisən?

Xatun aydır:

- Ya, daha nə işim vardır bu fani yurdu bəkləyəsi? Sənin mövlan isə, mənim daha mövlamdır.

Duru gəldi. Nəşvanə xatun daha ol hərir libasları soyundu, tökdü. Ol daha ancılayın bir əski yabana buraxılmış keçə buldu. Ol nazik tənin üzərinə bərkitdi.

İkisi daha böylə saraydan çıxdılar, yürü yürüdülər. Bu xəzinələrdən və bu nemətlərdən və bu saraydan kəndilərinə bir öyün ətmək almadılar vəb ir içim su daha almadılar. Çıxdılar, yürüdülər.

Sabah bu sarayın xəlqi duru gəldilər. Gördülər kim, nə sultan var və nə xatunu var. Hər yeri gördülər, bulmadılar. Şəhərə qülqülə düşdü. Həp ulu-kiçik cəm oldular. Fəryad, dadlar eylədilər. Yaslar elədilər. Heç kimsə bilmədi kim, bunlar nə oldular. Axır ayıtdılar kim:

- Məgər bu sarayda bir canavar dururdu, bunları yedi çıplaq döşəkdə yatırkən, - dedilər.

Bəli, gerçək uduldular bunlar eşq nəhənginə. Pəs vardılar bunlar Beytullahda mücavir oldular. Riyazətə, ibadətə məşğul oldular. Bunların yerinə gəldi bir kişi daha sultan oldu. Ol xəzinələr, dolu mallar və yüklər və cariyələr və qullar və itlər, cəmi nə ki varsa, ol sultan olan kişi həp aldı. Amma bu saraya gəlib həp sakinləmədi. «Bunda adam udar canavar var», - deyə iraq kimsə daha gəlib sakinləmədi. Şöylə məzbələ oldu bu saray qaldı.

Ey əziz! Kişi dünyanı tərk edəcək, şöylə tərk /edər/ və eşq gəlincək kişi /yi/ xərab edər və kişi Allaha dönəcək, şöylə dönər..

Ey əziz! Bir kişiyə inayəti-ilahi yetişcək, şöylə olur. Cahan gözünə zərrəcə görükməz.

Çün bunların halları buraya yetişdi, bunca ildən sonra Şeyx yenə Məkkəyə gedər oldu. Yolu yenə Bəsrə şəhərinə uğradı.

Şəhərdə bir arada dərvişlərə qonuldu. Dərvişlərə aydır: - Şurda mən bir iş başardım gibi idi. Bir kişiyə nəsihət etdim, tövbə verdim idi. Görəyim mənim nəsihətim əsər eylədimi? Və könülləri üzünü iki cahanın dövlətindən çevirdim idi. Görəyim onun üzərinə durdularmı? - dedi.

Getdi o sarayın önünə gəldi kim, bunlara nəsihət ayıtdı idi. Gördü kim, ol saray xərab olmuş, itlər yatağı olmuş.

/Ey/ əziz! Bu eşq həm aşiqin məkanın xərab edər, həm surətin xərab edər.

Bir az vaxt bu sarayın önündə durdu. Bir kişi gəldi. Şeyx o kişiyə sorar, aydır:

- Şurda əvvəl bir saray var gibi idi və bir padşah bu sarayda oturardı, - deyir. Şimdi bu saray xərab olmuş olamı? - deyir.

Ol kişi aydır:

- Bəli, öndən bu saray şunun gibi saray idi kim, heç bir padşahın bunun gibi sarayı yox idi. Bunda bir padşah var idi kim, onun zamanında onun gibi padşah daha yox idi. İlla kim bu sarayda bir canavar var idi. Onu daha, övrətin daha yedi, getdi. Ol qorxudan bu sarayda iraq kimsə gəlib sakinlənmədi, - dedi.

Şeyx Mənsur Əmmar – rəhmatullahi-əleyh bildi kim, başardığı iş təhqiq oldu. Bəqayət fərəh olub: «Əlhəmdülillah kim, bizim daha sözümüz əsər eyləmiş ola. Şeytan və nəfs və dünya əlindən bir daha bir kimsə qurtarmış olavuz», - dedi.

Qalxdı bu şəhərdən getdi. Zaman ilə Məkkə şəhərinə vardı. Məkkəni təvaf edərkən Şeyx gördü kim, bir igid bənizi sararmış, saçı-saqqalı qarışmış, təni qayət incəlmiş, arıq olmuş, gözləri çuxura düşmüş, bir dəgənəkcik əlinə almış, Kəbənin divarına yapışmış, Kəbəni təvaf edər yap-yap, arxasına bir keçə parası geymiş, bitlərin biri girər, biri çıxar. Bağrını bitlər dəlik-dəlik eyləmiş.

Çünki baxdı, Şeyxi gördü. Gəldi Şeyxin ayağına düşdü. Ağladı, aydır:

- Əlhəmdülillah kim, arzum Şeyxin mübarək camalını görmək idi, gördüm, - deyir.

Şeyx aydır:

- Sən kimsən? - deyir.

İgid aydır:

- Mən ol Bəsrə şəhərinin sultanıyam kim, sənin İsa nəfəsin mənim -könlümü diriltdi, - deyir.

Şeyx aydır könlündə: «Hanı bunun ol sultanlığı, ululuğu, nəfis yeyib, nəfis yedikləri? Şimdi bir əski keçə içində bağrını bitlər dəlik-dəlik eyləmiş. Eşq bunu nərəyə buraxmış? - dedi, daha ağladı, dedi.

Aydır:

- Ya igid! Hanı sənin xatunun Nəşvanə? - deyir.

Ol igid aydır:

- Onun halı qayət zəif olmuşdur. Bir yerdə düşmüşdür, yatır. Məkkəni təvaf eyləməyə gəlməz. Amma arzu edər kim, sultanımın mübarək üzünü görə. Daha ölürsə, ondan /sonra/ ölə, - deyir.

Şeyx aydır:

- Yeri, varalım, onu daha görəlim, - deyir.

Vardılar, gördülər. Kəndi /sin/ dən getmiş yatır. Ol igid iləri vardı. Aydır:

- Ya Nəşvanə! Ac gözünü, ol bizim şeyximiz, sultanımız gəldi, - deyir.

Nəşvanə xatun gözün açdı, şeyxi gördü, duru gəldi. Şeyxin ayağına düşdü. Şeyx gördü kim, Nəşvanə xatun nə bənzər ol igidə. Əski keçə bu daha geymiş. Bitlərin bunun keçəsinə daha mini girir, mini çıxır.

Şeyxin ayağında yatırkən Nəşvanə xatun bir kərrət hıçqırdı, can verdi. Bunu gördu ol igid, daha şeyxin ayağına düşdü, ol daha can verdi.

Şeyx bunları gördü, ayıtdı kim:

- Zehi aşiqi-sadiqlər kim can verməyincə durmadılar, - dedi.

Gör indi gerçək tövbə etmək necə olur. Həm yoldaşların tərk etdilər və həm donların dəgişdirdilər və həm yeməklərin.

Çün Şeyx bunların halını gördü, şeyx daha ağladı. Şol qədər ağladı kim, bixud oldu. Kəndudən getdi.

Bir azdan kənduyə gəldi, bazara vardı, kəfən aldı. Gətirdi kim, bunların qeydin götürüb həqqinə qoya. Gördü kim, yuyunmuş, kəfənlənmiş, ikisi daha bir-birinin yanında yatırlar. Şeyx təəccübə vardı. Şeyxin sərinə bir nida yetişdi kim:
- Ya Şeyx! Sən bunların namazın qıl, daha bunları bizə ismarla, çün bizim üçün can tərk etdilərsə, biz daha bunlara didarımızı qanbaha verdik və bunlar bizim üçün bu fani dünyanın fani bəgligçigin tərk etdilərsə, fani saraylarını qavdılarsa, biz daha səkkiz uçmağımızı onlara mülk eylədik, - dedilər.

Şeyx bunların namazını dərvişlər ilə qıldılar, daha bunları dəfn eylədilər, Allaha ismarladılar.

## QƏNAƏT VƏ TƏVƏKKÜL

.. Ola kim, «mən dünyayı sevməzəm» deyirsən. İndi, ey biçarə! Ya nə üçün qeyri nəsnəyə talib olmazsan? Və ya qeyri nəsnənin tələbində olmazsan? Və gecə-gündüz onun əndişəsində olmazsan?

Pəs məlumdur kim, sevərsən. Ya sevliməyən istənilirmi? Saxlanılırmı? Ya kasalara qoyulurmu? Möhürlənirmi? Fəqir gəlib Allah üçün istəyəcək, «nəsnəm yoxdur!»- deyilirmi? Yalan söylənilirmi?

Tut ki, sən burada sevməzsən deyəsən, höccət gətirəsən. Həqq xud qullarının könlünə nəzər eylər, surətinə, höccətinə nəzər etməz. Necə kim buyurar: «İnəllahu ləyunziru ilə surətikum və la ilə əmalikum bəl yunzirunə fi qulubikum və niyyətikum» /Tərcüməsi: Həqiqətən Allah-təala sizin üzünüzə baxmaz, nə də sizin əməllərinizə baxmaz, əksinə, sizin qəlb və niyyətlərinizə baxar./ Amma bizim məqsudimiz höccət degil, bəlkə aşiqlərə bir nəsihət edib hal nitəligin bildirməkdir.

Pəs sən daha bu nəsihətləri və bu ayətləri eşidib, inanıb, Allahdan qorxub və Rəsulundan utanıb insaf edərsən, Allaha dönərsən, uzun ağ olar.

Aydırsan kim: «Mənə dünya gərəkdir, dost var, düşmən var, gələcəgi-gedəcəgi var. Oğul-qız var, övrət var. Və bunların

hər birinin bir dürlü məqsudları var. Ruziləri vardır, yerinə gətirmək gərəkdir. Mən əlimdə dünyacıgım tərk edib, fəqir olub möhtac olumazın. Bu günü xoş keçirəyim. Ertə necə olursa, ola» deyirsən. Yeri var, sənə dünya qutlu olsun. Başdan-ayağa mübarək olsun! Onun ləzzətləri sənə dadlı olsun! Və lakin bezə səndən Allah-təala, qaça səndən cəmi peyğəmbərlər, qava səni dünlü övliyalar, duta səni zəbanilər!

Görəsən qatı əzab, çəkəsən bəla və zəhmətlər, görəsən cəfa və möhnətlər. Və bu murdar dünyayı daha burada qoyasan, gedəsən. Əcəb! Orada varacaq nə edəsən? Şol dünyada diləmədigin kişilər gələ, ol qəhr ilə qazandığın dünyanı oluşələr, yeyələr, yedirələr, dökələr, sən qara gün dar yerdə yatıb, hesabın verəsən, əzabın görəsən».

Və illa aydırsan kim: «Mənə dünya gərəkməz, mən dünyadan bizaram, Allaha təvəkkül edirəm, Allahın vədəsinə inanıram, əlimdə /ki/ var/ın/ cəmini füqəraya Allah yolunda verirəm. Əlimdə fürsət var ikən yarağım görürəm», - deyirsən, Allah sənin yardımçın və Rəsul sənin şəfaətçin və məşayixlər sənin mürşidin və möminlər sənin duaçın və səkkiz uçmaq sənə ərz oluna. Hansından dilərsən, sakinlənəsən.

İndi, ey əziz qardaş! Çünki bildin bu nəfsi-əmmarə yeddi başlı bir əjdəha imiş. Və bu əjdəhanın qayət böyük bir başı kim qalan başları ona tabedir, dünya sevmək imiş. Və ol böyük başı kəsilcək, qalan başları daha ona tabedir, həp qurar gedər imiş. Və iki cahanın şərri daha dünya sevməkdən imiş. Və ol nəfsi-əmmarənin böyük başın kəsmək dünyadan yigrənmək imiş.

Və iki cahanın səadəti daha dünyadan yigrənməkdə imiş. Və bu dünyanı tərk edib dünyadan yigrənmək, daha şol yuxarı dedigim gibi, ölümün etməgi ilə olurmuş.

Pəs bunları bildikdən sonra bunu bilgil kim, dünya sevməkligin səbəbi nədir? Onu daha sənə deyə verəyim. Və dünya sevməgin səbəbinə səbəb nədir? Bunu daha deyəyim, eşit!

Və bu kitabda müşkil qalmasın. Zira bu kitab asan türk dilincə, Şeyx Səfi həzrətləri dilincə onun üçün söyləndi kim, mübtədiyə yol asan ola, dedim bir qaç yerdə.

Pəs bu dünya sevməklik səbəbin deyəyim və ayətlə, hədislə isbat edəyim. Və məşayixi-kibar və əshabi-Rəsul sözlərini daha dəlil gətirəyim. Hətta sən daha inanasan. Könlün əmin ola. Əmələ məşğul olasan. Bilgil indi, ey əziz qardaş və din yolunda müvafiq yoldaş! Bu dünyayı sevməyin səbəbi ölümün unutmaqdır. Və ölümün unutmağın səbəbi uzaq əndişələr etməkdir. Yəni uzaq sunular sunmaqdır.

Bir kişi şunu şöylə edəyim və bunu böylə edəyim deyib yirsə, ölümün unudur. Ölümün unutmaq dünyayı sevdirər. Nəfsi – əmmarə bir sunular sunucu, bir uzaq əndişələr edici kimsədir. Bir sunular kim, yüz ildə hasil olmaz. Ertəyə çıxacağın bilməz. Bağlar, bağçalar ediniz, duvarlar, arzular, yerlər, sular ediniz. Və oğullar və qızlar urar.

Pəs buna dünya gərək. Və dünyanın xud dərdinə düşüb sevdasında olmayınca hasil olmaz.

İndi şunu təhqiq şöylə bilgil kim, bu Adəm oğlanlarını aldayıb məğrur edib uzaq əndişələr etdirən üç nəsnədir: biri ümniyədir, biri dünyadır, biri daha şeytandır.

Pəs bu üç nəsnə ediginə adamı aldayın üç ayət dəlildir:

Şeytan əleyhül-lənət aydır kim:

- İşlə, nə dilərsən? Allah kərimdir, əzab eyləməz, üqubət etməkdə iyiməz, - deyir.

Və lakin aqil olan kişilər şeytanın bu iğvasına aldanmaz. Həqqi-təalanın daim bu sözünü qulağından gedərməz. Buyurdu: «İnnə şeytanə ləkum ədüvvün fə əttəxizuhu ədüvvən». /Tərcüməsi: Şeytan sizin düşməninizdir, siz də onu düşmən bilin». *«Fatir» sürəsi, 6-ci ayə*).

Və bir ayətdə daha buyurur kim: «İnnəhu ləkum ədüvvün mübin» /Tərcüməsi: «Həqiqətən, o (şeytan) sizin açıq-aşkar düşməninizdir». *«Bəqərə» surəsi, 168-ci ayə*).

Çünki bildin şeytan düşmandır, qədimi ata-dədə düşmanıdır. Hərgiz xeyir sunmaz. Ondan xeyir uman daha xeyrə uğramaz. Eşitmədinmi Adəm atamız – əleyhissəlamə və Həvvaya nə eylədi? Və zürriyyətinə daha edir? Neçələri dünyadan imansız gedirtdi. İman hörmətini kibr oduna yandırdı. Uzaq sunular ilə

ölümdən qafil eylədi. Axır ölüm gəldi, qafil bulundular. Qəflət ilə imanını şeytana aldırdılar, imansız, üzü qara Həqq həzrətinə vardılar.

## ÜZLƏTİN FAYDALARI

Bilgil indi, ey əziz qardaş! Kişi bu xəlqdən üzlət edib kəsilməyincə dilini, dinini, qarnını, gözünü və bu yeddi əzasını saxlayamaz. Zira bu cəmi əzaları şərrə ilətməgə səbəb bu xəlqdir. Haçan bir kişi bü xəlqə qarışsa, əlbəttə, bu xəlqə uymaq lazım gələr. Əgər uymayıb müxalif edərsən, sənə düşman olurlar. Sənə rahət göstərməzlər. Səni incidərlər. Elə olsa, bunlardan üzlət gərəkdir. Və həm neçə dürlü afətlər bu xəlqə qarışmaqdan gələr. Bəzi ariflər demişlərdir kim, bu xəlqə müsahib olmaq, haman od ilə müsahib olmaq gibidir. Pəs bu oddan kişi mənfəətlənmək gərəkdir. Amma ki, həzər etmək gərəkdir kim, bu od kənduyi yandırmaya.

Qardaş! Qeybət ixtilatdır, riya ixtilatdır. Yəni xəlqə qarışmaqdır. Yalançılıq ixtilatdır. Təkəbbür, həsəd, nifaq ixtilatdır. Daha nə dənli yaramaz fel var isə həp ixtilatdadır.

Pəs üzlət salamatlıqdır. Kişi xəlvətdə otursa, neçə mövla ilə müamiləyə yol bulmaz. Xüsusən kim, bu şimdiki zamanda, bu şimdiki zamanın qövmündən üzlət etmək, əlbəttə, gərəkdir.

Şol hədis ilə kim, Rəsul həzrətləri – əleyhissəllam buyurmuşdur: «Axır bir zaman gələ kim, zəif üzrə ola islam, iman. Vaizlər çox ola, dünya üçün vəz edələr, bulduqların söyliyələr, Tanrıya və Rəsuluna böhtan edələr. Yəni Tanrıya və Rəsuluna böhtan edib, isnad edib sözlər söyləyələr. Ol zamanın alimləri az ola ol zalimləri dəf etməyə. Kəndi/ləri/ minbərə çıxıb əkləriklərі üçün onlar daha dinməyələr. Dilənçuları çox ola, vericiləri az ola. Elə olsa, ol zaman kim irişsə, zinhar, onlara qarışmanız, onlardan üzlət ediniz».

Ey əziz! Təhqiq şunu biliriz kim, ol bizim seyyidimiz və peyğəmbərimiz, axir zaman peyğəmbəri Məhəmmədi-Mustafa kim, məhbubi-həzrətdir və şəfiyi – ümmətdir, bizə atamızdan və

anamızdan şəfqətlidir. Elə olucaq bizə gəli gəlsin, yenə bizdən ol yey bilər. Çün ol bizə buyurdu, biz daha onun sözünə uymaq gərək. Xəlqdən kəsilmək gərəkdir.

Döndülər, Rəsul həzrətlərinə sordular, ayıtdılar kim:

- Ol nə vaxt olur, ya Rəsulallah?

Ol sultanül – ənbiya aydır:

- Ol vaxt olur kim, elmə yiltinalar nəfs həvası üçün, yəni dünya ululuğu üçün, izzət üçün və mənsəb üçün, ya qazı olub qəzaya uğramağ üçün və yaxud müdərris olub tənə'üm etmək üçün, sədrə keçmək üçün.

Və daha oxuyalar elmi, nəfslərinə ilətələr. Elmi Allah qapısına varmağa səbəb etməyələr. Bəlkə dünya bəgləri qapısına varmağa səbəb edələr. Ol zamanın bəgləri daha əhli-elmi xor görələr. Ol zamanın alimlərinin qayət dini vardır. Dinlərini dünyaya satalar, füqərayə şəfqətləri olmaya. Məscidlər yolu və məscidlər xəlvət ola. Və meyxanələr yolu və meyxanələr qələbə ola, - deyə buyurdu.

Rəsul /əleyhissəlam/ ol pər üsul /?/, pəs ol zamanın qövmünü bəyan eylədi. Və bu şimdiki zaman haman ol zamandır. Və qövmü daha ol qövmdür. Biz gözümüz ilə görə dururuz kim, bu qövmün gündən-günə şərləri arta durur və xeyirləri əksili durur. Çün hal böylədir, sən onlara nə üçün qarışasan və yolundan şaşasan? Varasan, oda düşəsən?

Eşitdin ola kim, məşayixdən neçələri ittifaq etdilər, bu xəlq arasından çıxdılar, vardılar kimi dağlar başındakı mağaralarda oturdular, ibadətə, taətə məşğul oldular. Kəndulər/inə/ mürid /və/ mühibb olanlara daha vəsiyyət eylədilər kim, xəlqdən qaçalar, şol arslandan qaçarım gibi.

Və ol məşayixlərdən birisi Süleyman Daranidir ki, rəhəmtullah-əleyh müridlərinə vəsiyyət edib ayıtdı kim:

- Qaçın xəlqdən, daha şol arslandan qaçar gibi.

Yəni necə kim, arslandan qaçırsız, xəlqdən daha qaçın.

Daha ayıtdı kim:

- Qarışın bu xəlqə bir qaç yerdə: bir cümə namazında, namaz qılınca. Və bir /də/ bayram namazında, namaz qılınca.

Ancaq şu qaç yerdən qeyri vaxtda bu xəlqin arasına girməgə dəstur yoxdur. Taliblərə cəmi məşayixlərin ittifaqı bunun üzərinədir. Əgər qarışırsa, həqdən məhrum qalır, mərayi olur. Mərayi xud müşrikdir. Zira Rəsul həzrəti – əleyhissəlam elə buyurdur: «Pəs elə olsa, xəlqdən qaçmaq gərək».

Şeyx Süfyan Sövri rəhmətullahi-əleyh /aydır/:

- Vallah, şimdiki zamanda üzlət etmək halaldır. Bu xəlqə qarışmaq haramdır. Zira bu şimdiki qövm zəlaləti artırdılar. İçlərində haram nəsnə şol bir halal kimi istemal olur oldur.

İmam /Məhəmməd/ Qəzzali aydır-rəziyallahu ənhu.

- Bu şimdiki zamanda üzlət etmək fərzdir, - deyir. Və «Ətəzilukum və ma tabudun» ayətini höccət gətirdi. /Tərcüməsi: «Mən sizdən və sitayiş etdiklərinizdən uzaqlaşıram». «Məryəm» surəsi, 48-ci ayə).

İmam bu sözü deyəli beş yüz ildən ziyadədir. Bu, şimdiki bizim zamanımızda xud daha fərzdir.

Bilgil indi, ey qardaş! Bu xəlqdən sənə heç bir fayda yoxdur. Bu xəlqə qarışcaq müxalifəti ortadan götürmək gərəksən, bunların xud işləri, qövlləri, felləri görünür durur. Əgər bunlara müvafiqət edərsən, Allaha asi olarsan və Rəsuluna uymamış olarsan, əgər müxalifət edərsən, sənə nüktə edərlər. Və səni incidərlərdi. Sənin ol dənli kamalın yoxdur kim, bunların zəhmətinə təhəmmül edə biləsən. Azmayasan, yoxsa bu gen dünyayı sənə dar edərlər, səfan gedərərlər. Köklü, köksüz kənduləri /ni/ sənə düşmən edərlər.

Sən daha nagah səbr edəməyib bu xəlqə nəfsin üçün qarğıyasan, bəd dua edəsən. Sənə rizq verən və səni yoxdan var edən Sultanın qapısına varasan. Hər qapılardan avara olasan və bu xəlqdən kəsiləsən. İxlas ilə Onun qapısını ixtiyar edəsən. Madam ki, Onun qapısında mücavir olasan, hər günlərin bayram və hər gecələrin qədr ola, iki cahanda səlamət olasan.

## ŞEYX İLƏ MÜRİD

Bilgil indi, məşayixin ədəblərindən birisi daha budur kim, şeyx

ilə mürid bir süfrəyə sunmaya və bir xalıcaya oturmaya və şeyxin oturduğu yerə daha oturmaya və şeyx ilə bir bardaqdan su içməyə və şeyxi dünyadan nəql edərsə və ya boşarsa, övrətini almaya kim, adabi-təriqətdə yoxdur.

Şeyxin kisvətini, yəni xirqəsini dəstursuz geyməyə və şeyxi ziyarət etmək istəyəcək, yəni şeyxin əlin-ayağın öpmək istəyəcək abdəstsiz etməyə kim, bir qaç nəsnəyə abdəstsiz yapışmaq biədəblikdir.

Bir müshəfə və bir peyğəmbərə və qəbirlərinə daha ziyarət etmək haman kəndiləri həyatında ziyarət etmək gibidir. Və bir daha Kəbəyə və bir daha övliyalara abdəstsiz varıb yapışmaq ədəb degildir.

Və bu övliyaların könlü daha Kəbədir və zahir Kəbəyə «Kəbeyi-Xəlili» derlər və bu könül Kəbəsinə «Kəbeyi-Cəlili» derlər. Və ol zahir Kəbə /ni/ daş ilə, topraq ilə Xəlil peyğəmbər yapdı – əleyhis-səlam. Və bu könül Kəbəsi ki, övliyanın könlüdür, onu Cəlili-cəbbar yapdı.

Və ol zahir Kəbə /ni/ ziyarət edənin təni oddan qurtular və bu batin Kəbə /ni/ ziyarət edənin həm təni və canı oddan qurtular.

Və vüsali-dust daha könül Kəbəsindədir. Necə kim, Mövlana Cəladəddin həzrəti buyurmuşdur:

Ey qövme be Həcc rəfte, kocayid, kocayid?
Məşuq həmin cast, biyayid, biyayid!

Tərcüməsi:
Ey Həccə gedən tayfa, hardasınız, hardasınız?
Məşuq buradadır, gəlin, gəlin!

Və Şeyx Səfi/əddin Ərdəbili/ - qəddəsallah sirrəhu bu beytin mənasında buyurur kim: «Beytullah ikidir. Yəni Kəbə ikidir yer üzündə. Biri beytullahdır kim, xəlayiq onu kəndilər/inə/ fərz olduğca təvaf edərlər və biri daha könül Kəbəsidir kim, beytdə keçən xitab əvvəlki Kəbənin taliblərinədir.Yəni dəmin olur kim,

əkərci ədayi-rükni-islam ol zahir Kəbə ilə hasil olur, amma mərifətullah könül Kəbəsində hasil olur».

Pəs şöylə olur bu beytin mənası kim: «Ey mərifət tələb edənlər və Həqq istəyənlər! Könül Kəbəsinə gəlin və onu Kəbədə tələb edin. Və həqq tələb edənlər etmək qəti-məsafəti surət ilə olmaz ki: «Və izə səələkə ibədi fə ənni garibun və nahnu əqrabu ileyhi min həblil vurid»

(Tərcüməsi: «Bəndələrim məni səndən soruşduqda /de ki/ Mən onlara yaxınam… Biz ona boynunun damarından da yaxınıq» *(«Bəqərə» surəsi, 186-ci ayə və «Qaf» surəsi, 16-ci ayə*).

Pəs Şeyx /Səfiəddin Ərdəbili/ buyurdu ki: «Mərd ərənlər oturarkən Həqq tələbin səfərin edərlər, bularlar. Və namərdlər Həqq tələb edib yazılarda sərgərdan gəzərlər, bulmazlar.. Çünki Həqqi-təala qula quldan yaxındır. Yazılarda sərgəştə kəzməklə vüsal hasil olmaz. Pəs sənin hicabın örtən haman sənsən. Kənd /i/ hicabını ortadan götür, daha vüsal ələ gətir».

Pəs övliyayi – Allahı abdəstsiz ziyarət etmək biədəblikdir. Pəs bu sözlərdən murad qülubi-övliyadır ki, ol qəlbi-həqiqidir.

Və haçan şeyx ilə yerimək, yola getmək vaqe olsa, şeyxin yanınca getmək ədəb degildir. Şeyxin ardınca yab-yab getmək yaxşıdır. Əgər şeyx aydırsa kim: «Gəl önümcə yeri!», - yerimək gərəkdir. Onda hikmət vardır, onu əhlinə derlər.

Və bir ədəbi daha müridliyin budur ki, şeyxə qayət hörmət edə və şeyxə hörmət etdigi gibi oğluna, qızına, quluna, xəlayiqinə, hətta atına, quşuna, cəmi heyvancıqlarına belə hörmət edə kim, hörmətsizlik daha ədəbsizlikdir, məhrumluğa səbəbdir. Zira Həqqi-təala əzəmət ilə bu salehlərə hörmət edər, onlara hörmət etdikdən onların heyvancıqlarına daha belə hörmət edər. Görməzmisən Əshabi-kəhfin itini və Saleh peyğəmbərin dəvəsini və İbrahim peyğəmbərin boz ağısını və İsmayıl peyğəmbərini qoçunu və Musa peyğəmbərin sağırını və Yunus peyğəmbərin balığını və Üzeyrin eşşəgini və Süleymanın qarıncıasını və Bilqeyisin hüdhüdünü və Məhəmmədi-Mustafanın – salivatullahu və səlləm – dəvəsini?

«Məqatil» rəvayətində böylədir. Bu heyvancıqlar salehlərə xidmət edib belə yoldaşlıq etdikləri üçün Həqqi-təala bunları cənnətə qoyar və bunlara hörmət-izzət edib və qalan heyvanlar içindən bunları üründülər, hörmətini bilməyəsən və onların təvabeinə izzət etməyəsən. Əlǝlxüsus müridlik dəvasını daha edəsən!

Ey biar adəmi! Heç qeyrətin yoxdu ki, it cənnətə girə, salehlərə xidmət edib və salehləri sevdigi üçün, sən cəhənnəmə girəsən salehləri sevməyib və salehlərə etiqadın-hörmətin olmadığı üçün?

Amma sənin süləhayi sevmədiginə bir səbəb vardır. Səbəb oldur kim, nəfsi – əmmarə kafirsifətdir, süləhayi sevməz. Pəs sən daha nəfsi-əmmarəyə tabe olub durursan nə salehlərə xidmət eylədin və nə könüllərinə girdin kim, bunların dərunlarından sənin daha könlünə bir yumşaqlıq hasil olaydı. Pəs gerçək müridlər şeyxdən nəsib və himmət istəyə, doğru taliblər gərəkdir kim, şeyxə və şeyxin cəmaətinə və xidmətkarlarına və heyvancıqlarına məhəbbət edib hörmət eyləyə. Ta kim ol daha hörmət və himmət bula. Amma adabi-təriqət budur kim, mürid şeyxdən hörmət ummaya və «şeyx müridə hörmət etmək» yoxdur. Vəqtha bir kərrət xatircığın təsəlli edib riayət edərsə, dürüstdür. Və mürid olub, talib olub məşayix eşigində olan kişilər şeyx yeməgindən artıq yemək ədəb degildir. Bazara varmaq hacət olmadan və bazar yeməgin yemək və dükan yeməgin və ölü üçün pişən yeməgi yemək və vəqf ətməgin yemək və əvanlar ətməgin yemək, müridə cəmi bunları yemək qayət ədəb-sizlikdir və könlü daha qarardar.

Mürid/in/ bunun gibi loğmaları yeməgi kəndi-kəndinə təqsirlik edib hörmətini kəndinin əli ilə oda vurmaq gibidir. Və mürid olan kişi /dən/ ədəbsizlik etmək olmaz. Pəs ədəb budur kim, hərgah kim bir iş işlər, şeyx məşvərətilə işləyə. Və hər nə kim edər, şeyxinə danışmayınca, işləməyə.

Ya səfərə getməli olsa və ya nəsnə satmalı və ya nəsnə almalı olsa və ya oğul everməli olsa, və ya qız çıxarmalı olsa, şeyxinə danışmaq gərəkdir. Danışmadan mürid başlı-başına bir iş

işləmək kütsaxlıq, ədəbsizlikdir. Və işi rast daha gəlməz və həm təriqətə müxalifdir.

Necə kim əshab Rəsul zamanında – səlləllahu əleyh və səlləm – hər işlərini Rəsul həzrətinə danışmayınca işləməzlərdi. Hətta: «Bu gecə evə varalımmı?», - derlərdi və «Xatunlarımıza yaxın olalımmı?», - derlərdi.

Pəs təriqətdə mürid hər işi şeyxə danışmaq gərək və şeyxin sözünü tutmaq gərək. Və mürid bir işində mütəhəyyir olsa, varıb şeyxinə «Şu/nu/ mən necə edəyim? Şu işimdə aciz qaldım», - demək gərəkdir. Şeyx necə məsləhət görərsə, necə buyurarsa, elə etmək gərəkdir. Və əgər danışmazsa, qatı yaramazlıq edər.

HEKAYƏT

Şeyx Zunnun Misrinin – rəhmətullahi əleyhi – bir müridi işində aciz qaldı və mütəhəyyir oldu. Fəqirlik qələbə etdi, necə edəsini bilmədi. Oğlancıqları daha var idi. Gəldi şeyxə aydır:

- Sultanım! Şu/nu/ mən necə edəyim? Halım nə olasıdır? Cəmaətim aclıqdan büküldülər və yalıncıqlıqdan xeyli zəhmət çəkirlər. İşim-gücüm keçməz, mənə nə buyurursunuz? - dedi.

Şeyx ona qağıyaraq aydır:

- Var ox-yay al, bir dərbəndə otur, həramilik eylə! - der.

Dərhal dərviş duru gəldi, evinə gəldi. Evində bulduğu əskicələrdən satdı, bir qaç axça eylədi, vardı oxa-yaya verdi.

Vardı bir dərbəndə oturdu, yola baxır kim, hal nə ola. Nagah bir bölük həramilər çıxa gəldilər, onu bu arada gördülər, ayıtdılar:

- Nə kişisən?

Dərviş aydır:

- Həramiyəm, uş yol urət kim mənə bir adam əlimə girə, soyam.

Pəs dərvişlikdə yalan söyləmək yoxdur, rast söylədi. Bu həramilərin ululuarı aydır:

- Uş. Biz daha bir neçə həramiləriz. Bir bölük bazərganlar gəlir, cüstələdik. Uş gəldilər, dərbəndə girdilər.

- Bir tərəfə sən daha dur, nə dənli hünərin varsa işlə, həm bizə olsun, həm sənə olsun, - dedilər.

Onu daha bir tərəfə qavdılar. Bir azdan bir bölük bazərganlar gəldilər. Bu həramilər daha bunları gördülər. Dörd yandan səyirtdilər, ox urdular, cənk etdilər, bazərganları tutdular, əllərini bağladılar, həp qumaşlarını aldılar, bir araya cəm eylədilər.

Hər birisini bu bazərganların bu həramilər aldılar, bir bucağa öldürməgə getdilər. Bu həramilərin uluları qumaş qatında bu dərviş ilə qaldı.

Bu hərami bu dərvişə aydır:

- Dərviş! Sən daha /dur/ma! Bunların birini öldür mənim qatımda, mən dəxi görəyim sənin hünərini, - dedi.

Əlini bağladı, dərvişin önünə çəkirdi bu bazərganların birisini. Və bir qılınc əlinə verdi. «Çal başını tez!», - dedi. Kəndi bir heybə əlinə aldı, baş aşağı dəprətməgə məşğul oldu.

Bu dərviş bu bazərganə baxdı, döndü bu həramilərbaşına baxdı. Gördü kim, həramibaşı kəndi-kəndinə heybə dəprədir. Tez tövbə etdi şeyxdən yana. Şeyxin sirrindən istimdad etdi. Dərhal dərvişə bir avaz yetişdi kim: «Nə durursan, ol məzlumu qav, bu zalimin boynunu çal əlindəki qılınc ilə, dəplə bu məlunu"», - deyə.

Çün dərviş bu avazı eşitdi, Həqqə dərunundan niyaz eylədi. Bu məzlumu qavdı, ol zalımı çaldı ənsəsindən, başı üzüldü, yuvalandı. Şunda getdi tez ol kişinin əlin çizdi. İkisi bəla əvn eylədilər, çağırışdılar. Bu həramilər əlli əlindəkiləri buraxdılar, qavdılar, qumaşlara səyirtdilər. Gəldilər gördülər kim, ol ululları dəplənmiş yatır. İki kişi əllərində yalın qılınc, elə sandılar kim, üstlərinə mübaliğə adam yetişdi. Başların qurtarmaq ardınca oldular. Hər biri bir dərəyə uçdular, qaçdılar, dağıldılar, getdilər.

Bunlar səyirtdilər, vardılar ol bazarganları buldular, əllərin çizdilər, salı verdilər. Həp bazarganlar bir araya dəplədilər, dərvişə ayıtdılar:

- Dərviş! Sən Xızırmısan? Nə hallı kişisən kim, bu həramilərdən bizi qurtardın, - dedilər.

Ol dərviş aydır:

- Nə Xızır və nə İlyasam, bir fəqir miskin dərvişəm. Oğlancıqlarım vardır, şeyxim vardır. Çün bu fəqirlikdən halım mükəddər oldu, vardım şeyximə danışdım. «Mənim oğlancıqlarım bunaldılar, mən necə edəyim?», - dedim. Şeyx daha mənə qağıyaraq: «Var həramilərə qoşul!», - dedi. Mən daha gəldim, uş bu həramilərə irişdim. Qəziyyə nə oldusa, deyu verdi. «Mən daha Allaha sığındım, şeyxə təvəccöh etdim, dərhal şeyxin sirrindən bir nida eşitdim ki: «Qav ol məzlumu, çal ol məlunu», - deyildi. Oldu ki, çaldım ol məlunun başını, önünə düşdü. Bu kişinin daha əlini çizdim, bu daha əlinə qılınc aldı, çağırdıq. Sizi Allah qurtardı», - dedi.

Vardılar bu bazərganlar axçadan, füloridən, qumaşdan buldular, bu dərvişə verdilər. Hər biri hal və halınca dərvişi qəni eylədilər. Yenə evinə göndərdilər və kənduləri daha dərvişə və şeyxinə dua edə-edə yolların getdilər.

İndi qardaş! Mürid şöylə, şeyx daha şöylə olur, müridini şöylə gözədər. Gör ol sadiq mürid şeyxin sözünü sıdımı? «Bu sənin dediklərin şərə müxalifdir, məni öldürərlər, oğlancıqlarım ənsəsiz qalar», - dedimi? Dərhal şeyxin nəfəsin yerinə gətirmək ardınca oldu. Həqqi-təala daha onun muradını hasil edirdi. Halaldan neçə mal verdi.

Şeyx olan kimsələrin önlərində əzəl-əbəd dairəsi bir el iyəsi gibidir. Pəs gözədərlər müridlərini. Çünki kəndiləri /nin/ dəsturu ilə işlədirlər bir işi. Ona şərə müxalif iş etdirməzlər. Zira bu şeyxlər mədədlərini, əllərini müridlərinin başından götrüməzlər ta əbədə dəgin. Bəlkə müridlər şeyxlərə ismarlanmışdır əzəldə. Bunlar daha əzəldən əbədə müridlərini gözədərlər.

Pəs mürid oldur kim, hər cünbişi şeyx dəsturu ilə edə. Şeyx dəsturunsuz bir addım atmaya və bir içim su udmaya və günəşdən qalxıb kölgəliyə varmaya, ta ki şeyxlər ona müridi-sadiq deyələr.

HEKAYƏT

Bir gün Sultan Şeyx Əbdülqadir Gilaninin müridi – sadiqlərindən birisi şeyxə aydır:

- Ya Şeyx! Mürid ilə, mühibb ilə şeyx arasında həqqi-hüquq nədir? Murid necə olur və şeyx necə olur? Bizə lütf edib bəyan edin! - der.

Sultan Şeyx Əbdülqadir Gilani daha – qəddəsallah sirrəhu – aydır:

- Dərviş! Var indi məndən padşaha salam ilət, ayıt kim: «Şeyx sizlərə salam və dua etdi», - de, daha iraq bundan ziyadə kələci söyləmə. Şeyxi daha, müridi daha, mühibbi daha biləsən», - dedi.

Dərvişi padşaha göndərdi. Dərviş daha bir neçə rüzgar səfər etdi. Vardı ol məmləkətin padşahına yetişdi. Padşahla buluşdu, ayıtdı:

- Padşahım! Şeyx həzrətləri sizlərə salam-dua etdilər, - dedi.

Padşah daha tez təxtindən endi, iki əlin köksündə qoydu, iki büküldü, qapu qaldı, şeyxin salamını aldı. Bu dərvişə salam gətirdigi şükranəsi beş yüz fülori verdi və şeyxə min fülori hədiyyə bu dərvişlə göndərdi.

Dərviş daha min fülori şeyxin və beş yüz fülori kəndinin, götürdü yola girdi.

Məgər dərvişin yolu üzərində bir şəhərdə məşhurə xatun var idi. Çəngi idi. Adı «Dilarami-çəngi» derlər idi. Bəqayət cəmilə xatun idi. Qırx cariyəsi var idi. Biri-birindən cəmilələr idi. Xub avaz ilə çənglərin uydurub avazlarına urulduqları vaxtdan Zöhrəyi mat edərlər idi. Hər kim bunların avazın eşitsə, üzlərin görsə, dərhal bunların duzağına tutulub əqli bihuş olub kəndindən gedərdi. Hər nəyi kim varsa, bunların yolunda fəda edərdi.

Şeyxin və kəndinin fülorisini alıb şeyxə gəlirkən yol gəldi nagah bunların evləri önünə uğradı. Dilaram daha qırx çəngi cariyələr ilə oturub söhbət edirlərdi. Dərvişin qulağına bunların ünü toxundu. Dərviş bir ləhzə dinlədi bunların çənglərini və avazlarını, dərhal aşiq oldu. Dilədi kim, Dilaram ilə bir gecə söhbət eyləyə. İləri vardı, onların xadimlərindən birisini buldu, ayıtdı:

- Dilərəm kim, bu gecə sizinlə söhbət eləyim, Dilaramı bu gecə təfərrüc eyləyim.

Ayıtdılar:

- Onun bir gecə söhbəti beş yüz füloriyadır.

Dərviş ayıtdı:

- Xoş ola, uşdə mənim beş yüz fülorim vardır.

- Gətir, - dedilər.

Dərhal dərviş beş yüz fülоricığını saydı, verdi. Aldılar. Ona: «Gecə gələrsən», - dedilər.

Məgər kim Dilaramın adəti bu idi kim, bir gecə söhbət üçün beş yüz fülori alırdı. Amma iki yüzünü yenə ol gecə xərc edərdi. Əvvəli bir söhbət adı verərdi. O gecə söhbətin görən beş yüz fülori varsa, daha verərdi, «Bir daha söhbət edəyim», - deyə.

Çün dərvişin beş yüz füloriyasını aldılar, iki yüz fülori dərhal xərc etdilər, dərviş üçün söhbət yarağın gördülər. Dərvişə: «Gecə gələrsən», - dedilər.

Çün gecə oldu, xoş yeməklər, nemətlər hazır oldu. Dilaram daha kəndüzünü dürlü-dürlü bəzəklər ilə bəzəmiş çıxa gəldi. Sanasan kim bir bədr ay bulud içindən çıxa. Dərvişin dizin basa oturdu. Dərviş dilədi kim, Dilaramın boynuna qolunu sala. Çün dərviş Dilarama qolun uzatdı, divar yarıldı, bir əl çıxdı, dərvişə bir şillə vurdu. Dərviş təpəsi üzərinə yıxıldı. Dərvişin ağzını köpük bağladı. Bir az tələbidi, yatdı, kəndindən getdi. Bir azdan dərviş yenə kəndinə gəldi. Dilaram qayət qorxuya düşdü, aydır:

- Dərviş, nə oldun?

Dərviş aydır:

- Sənə əlim sındığım saət divar yarıldı, şeyximin əli zahir oldu, mənə bir şillə vurdu. Bir az daha olsa, canım verərdim, - dedi. Ol füloricigim sənə halal olsun, mənə yol verin gedim, - dedi. Duru gəldi.

Yol göstərdilər, beş yüz fülorisini yenə əlinə verdilər. Ol xatun daha qayət qorxdu. «Bu cəmi cariyələrim həp azad olsun», - dedi. «Cəmi malım həp şeyxin olsun», - dedi. «Tövbə olsun bir daha bunun gibi şərə müxalif iş etməm», - dedi.

Dərviş getdi. Ol xatun daha nəyə malik idisə, həp satdı. Füloriya verdi, aldı şeyxə gətirdi. Şeyxin əlin tutdu, tövbə eylədi.

Dərviş daha ol padşah verdigi beş yüz fülori və şeyxə verilən min füloriyanı gətirdi şeyxin hüzurunda qoydu.

Şeyx ayıtdı:

- Dərviş, gördünmü mühibb necədir və necə olurmuş? Salamın almağa beş yüz fülori şükrana verdi və şeyxə daha salam göndərdigi üçün min fülori göndərdi. Və şeyx daha necə olurmuş, gördünmü? Müridinə şərə müxalif iş işlətmədi. Bir aylıq yoldan şilləsin irişdirdi. Mürid daha sənsən kim, şeyxin şilləsin yedin. Ol yaramaz işdən qorxdun, şənk gibi cəmilə xatundan keçdin. Və sənin qorxun və şeyxin gerçəkligi və mühibb padşahın sidqi yetişdi şənk gibi müfsid xatunu tövbəyə gətirdi, fisqindən usandırdı. İndi sən daha gerçək müridsən. Zinhar hər işini şeyxə danış və şeyx nə buyursa, elə et. Gör kim dünya, axirət səadəti sənə necə qarşı gəlir.

## TƏHQİQİ – ŞEYX SƏFİ HƏZRƏTLƏRİ

Şöylə bilgil kim, bu şeyxlər hər iş kim işlərlər, həqq dəsturunsuz işləməzlər.

Ey əziz! Neçə nəsnələr vardır kim, talib onu xeyir sanır, amma şərdir. Və necə nəsnələr vardır kim, talib onu şər sanır, amma xeyirdir.

Pəs kişi hər işini bir işarət əhlinə məşvərət etmək xeyirlidir.

Bunu bildikdən sonra bunu daha bilgil kim, müridligin bir ədəbi daha şeyx sevdigini sevib və şeyx sevəmdigini sevməməkdir. Əgər ol şeyx dilədigi kişi müridin atası, anası, oğlu, qızı daha olarsa. Çün şeyx rədd etdi, mürid daha rədd etmək gərəkdir.

Pəs şeyxin qəbulu muridin qəbulu gərək. Və şeyxin rəddi müridin daha rəddi gərəkdir.

İndi ey əziz! Bunca ayat və əxbar və dəlayil birlə təriqi-təriqət bildinsə, yəni iradəti-kamili bildinsə, yəni muridligin şərtlərini, ədəblərini bildinsə, cəhd elə şeyxi-aləm xidmətinə,

hörmət və təzim dilə, mülazim ol. Ol şeyxin könlünü ələ gətirmək ardınca ol. Hərgiz qilü-qal eyləmə. Gərəkməz nəsnələri şeyxə sormağıl. Həzrət Musaya «Fəla təsəlni an şeyin» («Elə isə məndən heç bir şey haqqında soruşma», *«Kəhf» surəsi, 70-ci ayə*) dedigi ədəbi saxlağıl, ta ki ustadın və şeyxin xatiri sənə məlul olmaya. Nəsibsiz, məhrum, növmid qalmayasan.

Uşda müridligin qayət gərəklisi degildir. Haçan bu şərtlər ilə və bu ədəblər ilə bir şeyxə mürid olasan, kim ol şeyx daha gerçək şeyx olsa, şol yuxarı dedigim gibi, pəs onun gibi şeyx sənin həqqin zaye eyləməz, səni tərbiyət edər. Səndən nəsnə olmaz. Və əgər bu ədəblərdən və bu şərtlərdən fariq olub mücərrəd bir şeyxdən tövbə edib daha qolayına üz vursan, vəqtha yer-göy durduqca şeyxin söhbətinə gəlib, yenə varıb kəndi işində – gücündə olub ölürsən, müridi-kazibsən, kəndi muradına mürid olub yerirsən. Şeytan gibi əgər yer ilə göy arası dopdolu mürşidi-kamil olursa, səni bir adam yer /inə/ almayalar.

Pəs iradəti – kamil gərək, ta ki şeyxdən fayda tuta biləsən.

**Lüğət**

Cəm – yığmaq, toplamaq; var-dövlət
Anca – o qədər
Sonrağı – sonrakı
Ayırtlaş – ayırlmış, ayrı
Gözətmək – fikir vermək
Üləşmək – bölmək, bölüşdürmək
Uğrağ – səyahət, gəzinti yeri
İlətdi – gətirdi, yaxınlaşdırdı
Məzbələ – zibillik, zibilxana
Sükük – sümük
Biqiyas – ölçüsüz, çox, həddindən artıq
Xəlayiq – xalq, camaat
Bizciləyin – bizim kimi, bizə bənzər
Hirs – tamah, acgözlük
Sunular – hədiyyələr

Çərb – buğda çörəyi
Yarınır – yolunu azır
Uslular – ağıllılar
Sufi – ipək və yundan düzəldilmiş parça
Kimxa – boz, dəyərsiz parça
Himar – uzunqulaq, eşşək
Binət – minik
Uçmaq – ölmək, dünyadan keçmək
Duzəx – cəhənnəm
Mütəlliq – bağlı, asılı, aid
Qina – sərvət, var-dövlət; zənginlik
Xirqə – bez və ya qumaş parçadan hazırlanmış üst geyim
Taət – itaət, boyun əymə
Məğbun – aldanmış
Məiyyət – böyük bir şəxsi müşaiyət edən adamlar
Şürb – araq və çaxır içmək
Sutadı – kəsildi, sustaldı, süst oldu
Hərir – ipək parça
Bəqa – daimi, əbədi
Qancaru – tərəf, səmt
Ətmək – çörək, ərzaq
Qığırmaq – səsləmək, də’vət etmək
Qatı – çox, ağır
Yalınçıqlıq – paltarsızlıq, lütlük
Çaxamaq – vurmaq, çırpmaq
Kəndi duru gəldi – ayıldı, özünə gəldi
İssiz – sahibsiz, yiyəsiz
Aldayıb – aldadıb, azdırıb
Ümniyə – arzu, istək, dilək
İyiməz – fayda, xeyir görməz
Yıltınalar – yaxınlaşar
Arta durur – artur, çoxalır
Yazı – çöl, düz, səhra
Əvan – pis adamlar
Evermәli – evləndirməli

Cüstələmək – araşdırmaq, təhqiq etmək
Dəpləmək – hücum etmək
Yuvalanmaq – diyirlənmək, yuvarlanmaq
Salı vermək – boşlamaq, ötürmək
Sıdmaq – sındırmaq, qırmaq
İyə – sahib, yiyə
Ziyadə kələci cöyləmə – artıq söz demə, söyləmə
Tələbimək - çırpınmaq
Fəna – müvəqqəti
Timar – baxma; qulluq etmə, qayğısına qalma
Rənc – əzab, əziyyət
Us – ağıl
Mövla – sahib, yiyə, havadar
Ancılayan – onun kimi
Qülqülə – təşviş, narahatlıq; basabas, izdiham
Beytullah – Allahın evi
Riyazət – zahidlik, nəfsini öldürmək
İnayət – qayğı, kömək, hüsn-rəğbət
Təvaf – ziyarət vaxtı müqəddəs yerin ətrafına dolanmaq
Bir kərət – bir dəfə
Zəhi - çox, artıq; əhsən, afərin
Bixud – ixtiyarsız, özündə olmadan
Kəndi – özü
Təvəccöh – həsn-rəğbət, meyl; diqqət
Səkkiz uçmaq – cənnətin səkkiz bağı
Talib – tələb edən; təhsillə məşğul olan, tələbə
Höccət – dəlil, sübut
Qutlu – xoşbəxt
Məşayixi-kubra – böyük şeyxlər
Üqubət – cəza, əzab-əziyyət
Üzlət – güşənişinlik, təklik
İxtilat – yaxın əlaqə, qaynayıb-qarışma
İstemal – işlətmə, istifadə
Rizq – azuqə, ruzi
Adab – qayda-qanun

Müshəf – Qur’an
Hicab – örtük, pərdə
Qülubi-övliya – övliyanın ürəyi, qəlbləri
Dəva – tələb, iddia
Məşrut – şərt edilmiş, şərtə görə tələb olunan
Gustax – arsız, sırtıq, utanmaz
Mütəhəyyir – heyrətə düşmüş, çaşmış
Dərbənd – dar keçid, boğaz; çığır, dağ yolu
Hərami – quldur
Dəprətmək – tərpətmək, yırğalamaq
İstimdad – imdad, yardım, kömək istəmək
Ənsə – baş
Cünbiş – hərəkət;zövq, əyləncə
Çəngi – oxuyan, oynayan, eyş-işrətlə məşğul olan
Təffərüc – qəm-qüssəni dağıtmaq; gəzinti,seyr
Şənk – gözəl, göyçək; oğru, quldur; mübaliğə etmək
Cəmilə – gözəl, yaraşıqlı
Müfsid – aravuran, fəsad törədən
Mülazim – lazımi, gərəkli; tərəfdar; bir şəxsi müşaiyət edən
Fariq – fərqləndirən, təvafüt qoyan,

# «KÖNÜL» RİSALƏSİ

«Qauğusuz» təxəllüsü ilə şiə türklər arasında və qızılbaşlar, bəktaşilər və bu kimi təriqətlərə daxil çoxlu arif şairlər və mənqibə toplayanlar olmuşdur. Təqdim edilən «Qayğusuzun könül risaləsi»ni bir «Qara məcmuə» bölümü olaraq, mərhum Faxir İzin «Əski türk ədəbiyyatında nəsr» əsərinin «Dini mətnlər» bölümündən alınıb. O mərhum bu əsəri Ankara ümumi kitabxanasının 169 saylı əlyazma məcmuəsindən almışdır (səh. 10-127).

Bu əsərin əvvəllərində risalənin adı «Qara məcmuə» adlanır və gözəlcəsinə müraati-nəzir sənəti ilə əsərin adına işarə olunur. Buradan da sübut etmək olar ki, «Qara məcmuə» müxtəlif müridlər tərəfindən yazılan «Ədəb-ərkan» kitablarına deyilirmiş və hamısı Şeyx Səfiyə mənsub və ya onun dilindən imişlər. Əslində də «Qara məcmuə» Şeyx Səfiəddin Ərdəbilinin öz təlifi olmalıdır, lakin onun əsas və əsil mətnini tapmaq hələlik mümkün olmamışdır.

«KÖNÜL» RİSALƏSİ

Şeyx Səfi/əddin Ərdəbili/ aydır: «Sözün əsli könüldür. Hər kim könül bəhrinə yol buldu, nə durr istərsə, dalıb çıxardı. Onlar kim surətə baxdı, qəflət ipin boynuna taxdı, taət xərmənin oda yaxdı, duxanı göylərə çıxdı. Zira könlü Həqq kəndi üçün yaratdı. «Hər kim məni istərsə, sınıq könüllər içrə bulsun», - dedi.

Hər kim könülə yol bulmadı və istədigi nəsnəni onda daha bulmadı, uçmağa daha girmədi, Padşah didarın daha görmədi. Qafil olma! Könülə yol bulan kişiyə qul olan Məcnun degildir. Əgər ol səni qulluğa qəbul edərsə, zehi dövlət. Pəs indi onun kim, könüldən xəbəri olmaya, qamışı şəkərdən ayırmış ola. Mən ona nə deyim? Ol nə anlaya? Zira öyüdü əhlinə demək gərəkdir. «Durru sədəfdə, nafəni ahuda görün», - demişlər.

Pəs indi nadana mərifəttulah demək şora toprağa toxum əkmək gibidir. Və mərkəb gərdanına cəvahir asmaq gibidir. Sağır

önünə şəkər tökmək gibidir. Öyüd möminə dövlət, cahilə möhnət /dir/. Zira sirrullah Həqqin çərilərdir, bir könülə gircək, nə qədər nəsnə var isə, sorub çıxarar, möhnətləri əridər, ərləri şirmərd edər, şirmərdləri xürd edər, fərdləri əhli-dərd edər, əhli-dərdi şərbət edib safi edər. Bu kəz «Və mən-dəxələhu kanə minən allah"» zümrəsinə daxil olub əmin olur. («Və ora daxil olan kəs əmin-amanlıqda olar», *«Ali-İmran» surəsi, 97-ci ayə*). İndi sən daha könlünü əlinə al, elmi-rəbbani kitabından oxu, könül göyündə doğan dövlət ayını və səadət günəşini gör, ta gözündən qəflət hicabı gedib, Həqq kitabı rövşən ola. Qara tənindən ağ güllər açıla, vücudun qaranquluğundan aydınlıqlar saçıla. «Qara məcmuə»yi əlinə al, oxu, könlünün sarayı rövşən olub, oğrular ondan kəsilə, mələklər dola. Zira bu vücud bir dükandır, sənə kirayə verilmişdir, içində rəncbərlik edərsən. Bu dükanın küncündə gənc vardır. Dükan əlində ikən küncü qaz, gənci bul. Yoxsa vədə gəlicək səni dükandan çıxararlar və küncündə gənci bularlar. Ardınca baxa-baxa qalarsan.

Pəs indi vücudun mülkü ol zaman sənə müsəlləm olur kim, Süleyman gibi xatəmi nəfsin divi əlindən qurtarıb əmin olasan. Yoxsa xatəmi divin əlinə verdinsə, «xudapərəst» ikən «divpərəst» oldun.

MİSAL. Məsələn, bir xatun bir kimsəyə nikahlı olsa, bir kimsə daha onu nikah edə bilməz. Yəni könül dünyaya tabe isə, onda Həqq təsərrüfü olmaz və əgər Həqqə tabesən, onda nəfs təsərrüfü olmaz. Ərz bu kim, talibi-həqq xudbinligi tərk etməyincə, xüdabin olmaz. Sənə deyim, qardaş! Daha rövşəntər xəbər söylərəm. Bu kəz anlayasan, hərifimin, şərifimin könlünü mənə çevir. Könül gözü ilə bax və könül qulağı ilə dinlə və söyləyəni qav, söylədəni bax.. Əgər sənin gələ gözlündən sənə desəm halın pərişan olub, könlün haldan-hala dönər, məlul və məhzun olarsan. Və əgər deməsəm, neylim özündən xəbərin yox, nazənin ömri badə verdin, rüzgarın bu halla keçdi.

Sübhi-qiyamətdə səni kim uyxudan oya/dar/lar, bundakı canı bulamazsan, ol vəqt çün peşiman olursan, vücudun mülkü

əlindən çıxar, fələkin çərxi, ol həsari yıxar, indi surət və məni səndə ikən, nə üçün can mülkündən xəbər almıyasan?

«Məcməül-bəhreyn» özündə ikən və «Cami-cəm» padşahı ikən, nə üçün dilənçi olursan, aləmin canı və məqsudu ikən nə üçün çakəri-tən olursan? Və əgər «səid» isən, sənə «fəna» donun çıxarıb «bəqa» kisvətin geydirərlər. Və əgər «şəqi» isən, «nur» donunu çıxarıb «nar» donunu geydirərlər. Dünyada ömrün nəyə sərf və karü kəsbin nəyə xərc eylədin? - deyərlər.

Cavab verмədinsə, gəl gör üqabı. Amma neylim halından xəbərin yox. Vücudun Səddi-İskəndər olmuş, pənd və nəsihət kar eyləməz. Nə oldun sən daha hüşyar ol, məada muqarin ol. Dərd hasil elə, dərmana irəsən. Əmayi – biar olma. Tapdığın tanrı degil, bütdür. Kəbə arzusun qılarsan, amma könlün Lat və Mənat ilə dolmuşdur.

Zehi nadan! Kim Həqq istər və Ruhül-qüds tələb edər, Dəccali-ləindən ayrılmaz. Ol vaxt çox peşiman olur, amma fayda olmaya. Pəs indi «Ruhül-qüds» mənasına irən nəhv və sərf lüğətini neylər? Çün külü odda buluna, bağı neylər? Əgər şəkər istər, misri neylər? Və əgər mişki-xalis istər, Xəta və Xütəni neylər?

Anla kim «Ərəfə»yə girdilər, arif oldular. Onların gecəsi «qədr», gündüzü «eyd» olmuşdur. Onlara irən müqəllid ikən arif olur, arif ikən aşiq olur, aşiq ikən məşuq olur. Bundan iləri məqam olmaz. Buna «Məqami-Mahmud» derlər ki, bunu ariflər bilər», - dedi.

Pəs indi bundan qərəz budur kim, haman Həqqi bunda ikən bul və həqiqət səndə ikən sən səni bil deməkdir. Zira hamı felin və hal və qalın məhşərdə əyan olacaqdır. Hər bir əməlin bunda qətrə ikən, onda dərya olacaqdır. Kiminə nurdan surət olar, kiminə nardan kisvət olar. Cümlə yaradılmış dilə gələr, söyləşərlər. Onları sən rövşən görərsən. Ol vaxt Həqqi-təalanı dolun ay gibi görərsən. Onda kim Həqqin liqasın görərsən, mən nə deyim? Məstanəliklər qılarsan kim, dillər ilə vəsf olmaz. Anda tamaşa baqi, didar baqi, şərab və eyş baqi, rəbb saqi. «Səqahum rəbbu-

hum şərabən təhura». («Və Rəb-bləri onlara çox pak bir şərab içdirəcəkdir». *«İnsan» surəsi, 21-ci ayə*).

Ol şərabı Həqq öymüşdür, onu içən qəniyyi-mütləq olur. Daha nə cənnət üçün şad olar və nə cəhənnəm üçün xövf çəkər. Onda nə əql və nə idrak qalar. Məst, daha hur və qılman bu söhbətə sığmaz. Pəs indi sən ol daha badənuşun özünü gör, vüsali badəsindən nuş et, daha hər nə olursan qayırma. Yarın bir qıl sənə bir dağ gibi görünməyə. Bu razı könlünün sandığında saxla, tul və diraz fikirləri qav. Məqam əhli və hal əhli ol, bu rəmzi anla-ya/san/.

Həqdir ki, fürsətin əldə ikən qaya quşu gibi ömrünü lağlaq ilə keçirmə. Əma gibi dəvə dəpməsini somun sunma. Haman sən özün saldın, Həqq ilə oldun. Həqq daha özün sənə bildirir. Səni kənduyə məhbub edər, rəhmət suyuna bandırar. Bu kəz ol qul sevgili üzündən Həqqə naz edər, tifil gibi hər sözü Həqq qatında müqabil olar. Həqiqi qul ki derlər, ol kimsənə olur. Pəs indi hər kəs yükündə nə olduğun bilər. Əgər müvəhhid isən, anladın, əmin oldun. Yox, mülhid isən, haman öz əlinlə özün toprağa göm. Zira müqəllidin havası səni gedərmişdir, daha müvəhhidlikdən xəbə-rin yoxdur. Hava və həvəs ilən orada ki, doldurmuşsan, boş do-lumdan ağzına nə gələr, fır-fır sünlirsən. Çünki varlıq havası səni qablayıbdır. «Bilirəm!» - demə kim, Həqqin gümrahı olmıyasan. Zira müvəhhidlik qal ilə olmaz. Məcazi söz hal ilə olmaz və «bal» deməklə ağız bal olmaz. Dərvişlik şəmlə və şal ilə olmaz, əh-li-gülxən taci-şahi uranmaz, hər ahunun göbəyində müşk olmaz, hər sədəfin arasında dürr olmaz. Hər qamışın içində şəkkər olmaz, hər qayanın suyu Zəmzəm olmaz.

Sən zahidlik edib quru yerə başın salıb dodağın dəbər-dirsən, içərində və dışarıdakı riya əməlini xud Həqq bilər. Nə üçün mülhidligi müvəhhid surətində göstərirsən? Bir neçə dərvişlər dedilər: «Midani, nəmidani?» Bilməziz, kim quş dilimi söylərsən? Türki söylə kim /eşidən/ anlasın».

Şeyx Səfi/əddin Ərdəbili/ həzrətləri ayıtdı: «Sənə bir rövşəntər xəbər söylərəm. Kəndü vəsfi-halımdır. Siz daha halınızı məndən qiyas eyləyin», - dedib ayıtdı: «Ey aqillər və ey

kamillər! Və ey Həqqi kəndu vücudunda bilən əhli-dillər! Murad nədir? Can və dildir. Anlayın və seyr edin və bu sözün həqiqətinə xub nəzər eyləyin kim, nə bəyan edər», - dedi.

Ol vaxt kim əncüm və əflak yox idi, ənasiri-təbayedən bir nəsnə vücuda gəlməmişdi. Biz daha Adəm kisvətin görməyib və geyməyib Sultan vücudunda bir can idik. Təqdir işin belə işlərdik. Ol qədimi-layəzal dilədi kim, gizli gəncin aşkar edə, kəndusunu tamaşa edə, təcəlla eylədi zatına, zatı bilinsin deyə.

Əsma /və/ sifatı kəndusi kəndusinə naz eylədi. «Kaf» və «nun»a urdu bir saz eylədi. Bu kəz «kaf» və «nun» arasında bu karxanəni bünyad eylədi. Cümlə yaradılmış əskiksiz yerli-yerində qərar tutdu. Padişahi-aləm haman karxana içrə sirr oldu. Daha kimsənə nişan verə bilmədi. Bizə daha Adəm donun xələt verdi. Canımıza əmr etdi ki, ədəmdən aləmə gəldik. Çün mənə daha növbət gəldi. Adəm donun geyib, bu mülkü seyranə gəldim. Bir nəsnədən xəbərim yox idi. Çün çərisinə tuş oldum, ayıq ikən sərxoş oldum və xoşhal ikən kəm məaş oldum. Doğru ikən qəllaş oldum, nihan ikən aləmə faş oldum.

Əlqissə, Xaliqin əmri məni kuzəgər palçığı gibi dövranın çərxi üzərinə qoyub dolab gibi döndərdi. Gah məni kuzə düzdü, gah bozudu kasə düzdü. Gah saraylarda kərpic eylədi, gah ayaqlar altında hiç eylədi. Gah gül etdi başə çıxdım, gah kül etdi xakə düşdüm. Gah xəlq icrə əziz eylədi, gah insan, gah heyvan eylədi. Gah nəbat və gah mə'dən eylədi, gah şah və gah gəda eylədi, gah xiş və gah yad eylədi.

Gah gəzindim yatdım, gah xəzinəyə batdım. Gah qul olub satıldım, gah dəllal olub satdım. Gah oynayıb utdum, gah bilməyib utuzdum. Gah hakim eylədi, gah həkim eylədi, gah qəzzaz eylədi, gah bəzzaz eylədi. Gah əttar, gah həllac eylədi. Gah bir pər, gah zərgər eylədi.

Gah işçi, gah başçı eylədi, gah dəmirçi eylədi. Gah məni Şərqə ilətdi, gah Qərbə. Gah dəryada mahi eylədi, gah dağlarda ahu eylədi. Gah avçı etdi ov ovladım, gah məni av eyləyib avlatdı.

Gah oxudum alim oldum, gah ümmi eylədi nə oldum.

Əlqissə, dünyada bir surət qalmadı ki, etmədim. Gah şagird etdi öyrəndim, gah ustad etdi öyrətdim. Gah məni ana, ya ata eylədi, gah məni tifil edib onlara bəslətdi, gah onları tifil edib mənə bəslətdi.

Və əlhasil, başınızı ağrıdayım, neçə min kərə ata belindən ana rəhəminə, neçə min kərə ana rəhəmindən cəhanə gəldim. Neçə min kərə yağmur olub yerə yağdım. Neçə min kərə gah çərəndə, gah pərəndə oldum. Neçə min kərə küfr və imanə qarışdım. Neçə min kərə kah zülmata və gah aydınlığa düşdüm. Neçə min kərə dürlü cənazələrə qarışdım, neçə min kərə dürlü xəl’ətlər geyib, neçə min kərə dürlü yaxalardan baş göstərdim. Neçə min kərə ellər, aşinalar gözətdim. Neçə min isimlər və ləqəblərə urundum.

Əlhasili-kəlam, bu nəfs əskəri məni köçdən-köçə və qabdan-qaba boşaltdı. Şəhərbəşəhər, qəryəbəqəryə, dərbədər gəzdirdi kim, dil ilə əyan və qələm ilə bəyan olmaz. «Şenidən key bovəd manənde didən» /Tərcuməsi: «Yüz eşitməkdən bir görmək yaxşıdır»/.

Pəs indi eşidəni qav, görəndən xəbər al. Əlbəttə, bir gün sən də görərsən. Keçən halları ki, hey güləsən. Hələ söz çox. Bu nəfs əskərinə kim duş olurdum, nalan və giryan olub, hərgah təzərrö və zarlıq edirdim, bir kimsə mənə rəhm etməzdi. Neçə zamanlar keçərdi, dövranlar dönərdi. Neyləyib nə edəcəyimi bilməzdim. Heyran və sərgərdan qalmış idim.

Yenə bir gün atımı at eyləmiş idim, əgnimi don. Haman qulağıma bir səda gəldi ki:

- Yetər! Gəl, qon!

Sankim yox idim, var oldum.

Əlqissə, anadan doğub şirxar oldum, tifil oldum, baliğ oldum, igid oldum, pir olum. Nagah bir gün ruh aşinalarına duş oldum. Halımdan xəbər sordular. Dedilər:

- Dərviş, əgri otur, doğru söylə. Az söylə, öz söylə. Çox söz baş ağrıdar.

Mən ayıtdım:

- Namərddir ol kişi kim, bilmədigi sözü söyləyə. Mən alim degiləm elmim ola, vəli degiləm kəramətim ola.

Qarpız gibi yığın yumru sözün top düzüb ərənlər meydanına qavdım. Gördigim mənzillərdən nişan verdim. Arif bildi ki, nə dedim. Nadan özün xəyalda qavdı.

Anlayana bir kitab sözdür, anlamayana min söz daha desən, nə fayda. Söz çox, hər sözü söyləmək olmaz. Söz var xəlq içində, /söz var xülq içində/.

Pəs indi bu sözlərdən qərəz budur kim, sən daha könlünü cəm elə, əqli-məadə müqarin ol. Dünyaya ilişmə, sonun fikir elə.

Sultan Şeyx Səfi/əddin Ərdəbili/ - qəddəsə sirruhu – sözləri buyurdu. Buyuruq buyurdu, intəha bulmadı.

**Lüğət**

Bəhr – dərya, dəniz
Taət – itaət, boyun əymə
Duxan – tüstü
Uçmaq – dünyadan köçmək; cənnət
Zehi – artıq, çox; afərin, əhsən
Nafə – göbək
Mərkəb – minik heyvanı
Çəri – əskər
Xürd – kiçik, balaca
Safi – qəlbi təmiz, düz
Qaranqu – qaranlıq
Rəncbər – zəhmətkeş, əkinçi
Gənc – xəzinə
Müslim – itaət edən, müsəlman
Xatəm – üzük
Təsərrüf – yiyələnmə, zəbt etmə; qənaətlə işlətmə
Xudbin – burada Allaha inanmayan mənasında; özündən razı
Xudabin – Allahı tanıyan, Allaha inanan
Rövşəntər – daha işıqlı, daha aydın
Bir kəz – bir dəfə

Çakərtən – nökər kimi, nökər bədənli
Kisvət – paltar, qiyafə; zahiri görkəm
Nar – od, atəş
Nur – işıq
Üqab – qartal, qaraquş
Üqba – axirət, o dünya
Pənd – nəsihət
Məad – qayıtma, qayıdış yeri; axirət
Müqərrər – iqrar olunmuş; söylənilmiş, qərarlaşdırılmış
Əma – kor
Dəccal – şeytan
Müqəllid – təqlid edən, oxşadan; saxtakar
Raz – sirr
Tul – qaranlıq; uzun
Diraz – uzun
Mülhid – Allaha inanmayan, dinsiz
Gümrah – yol azmış, doğru yoldan çıxmış
Müvəhhid – Allaha inanan, dindar
Əncam – son, nəhayət, aqibət
Əflak – fələklər, köy cismləri
Layəzal – həmişəlik, əbədi

**İbn Bəzzaz Ərdəbili**

**SƏFVƏTÜS-SƏFA**

## DÖRDÜNCÜ BAB

### Ikinci Fəsil

**Həzrət Şeyx Səfiəddinün (q.s.) təhqiq sözləri kim, həzrət peyğəmbərin (s.) neçə hədislərində buyurubdur və neçə suallar kim, ol həzrətdən sorubdurlar, müştəməl iki tərəf ilə:**

**Əvvəlki tərəf –həzrət peyğəmbərin (ə.s.) əhadisində**

Həzrət Şeyx Sədrəddin (r.r.) buyurdı kim, Güstasfidə iki talib bir-biri ilən bəhsləşürlərdi bu hədisdə kim, "Səhihi-Buxari"də və Müslimdə yazılubdur kim, hədisün axırı budur kim, Peyğəmbər (s.) buyurdı: **"La tüxeyyirumi min beynil-ənbiyani fəinnən-nasə yəsəqunə yövməl-qiyaməti fəəkunə əvvələ mən yüfuqü fəizən bi Musa axizün biqaimətin min qəvaimi-ərşi fəla ədra afaqə qəbli övcəra bisəqətit-turi və fi rivayətin fəəkunə əvvələ mən yənşəqü ənhül-ərzü fəiza əna bi Musa axizün biqaimətin min qəvaimil-ərşi və zəkərə nəhvəhu"**. Və bu mənada təəccüb edirdilər və bu ki, çün Peyğəmbərimiz toprağdan baş qaldıra, Musa (ə.s.) ərşi-əzimün baldurına əl urmış ola, munda Musanun ululığı bilinür, yoxsa Musa, Məhəmməddən (ə.s.) ilərü baş qaldurur? Həzrət Şeyx anlarun bəhslərin eşitdi, sordı: "Məvali bəhsiniz neçindür və nədən ötrü təəccüb eylərsiniz? Ol musa ki, toprağda yatur, qalxmakda həzrət Mustafanun intizarındadur kim, əvvəl həzrət Mustafa (ə.s.) baş qaldura, andan sonra həzrət Musa baş qaldura və ol kim ərşün baldurına əl urmış ola, Musanun (ə.s.) sifəti ola, yok Musa.

**Beyt:**

Məşriqi-Yəsribdən, ey iki cəhanun günəşi,

Başini qaldur ki, mövqufundururlar ənbiya.
Yüzüni görsət ki, müştaqundurlar insü can,
İntizaruni çəkərlər suçlarlar ruzi-cəza.

**Sual.** Sual etdilər ki, Peyğəmbərün (s.) seyri surət ilə idi. Neşün özgələrün seyri sifət iləndür və surət ilə dəgül?. Yoxsa Peyğəmbərün seyri dəxi sifətdə imiş?

**Cavab.** Həzrət Şeyx (q.s.) buyurdı kim, Peyğambərün cismi (ə.s.) ruhdan idi, andan ötrü anun kölgəsi yox imiş və surəti özgələrün sifətinə oxşar. Qaçan kim riyazət ilə sifətləri ruhani edərlər və surətün hicabı gidərələr, pəs ol yerlərdə ki, özgələrün sifati seyr edər, Peyğambərün surəti anda saitdür və ol yerlərdə kim, özgələrün əsrarı, yəni batini anda yetər, Peyğambərün mənayı o yerlərə yetüpdür və heç kimsə andan xəbərdar etməyübdür və heç kimsə dəxi oraya yetəməz.

**Beyt:**

Qanda kim razun sənün, aləmdür andan bixəbər,
Xanda kim sirrün sənün, adəm qaçan anda yetər?
Anda kim yetdi ayağun, anda yetməz Cəbrəil,
Anda kim seyrün sənün, ərvahlar bipavü sər.

**Hekayət.** Sual qıldılar bu hədisdən kim, Nisainin kitabında var ki, **"Hübbibə ileyyə min dünyaküm səlasün: ət-tibü-vən-nisaüvə qürrətü eyni fis-səlati"** [Sizin dünyadan mən üç şeyi sevdim: yaxşılıq, qadınlar və gözümün qarası olan namaz] kim, neşün xass bu üç nəstə iləndür və mundan ögə nəstələrə demədi və dünyanı özgələrə neşün nisbət edübdür, buyurdı "dünyaküm", çün ol həzrət dəxi dünyada idi?

**Cavab.** Həzrət Şeyx (q.s.) buyurdı kim, dünyanı özgələrə anun içün nisbət etdi kim, anun toprağı cənnətdən idi, andan ötrü kölgəsi yox idi və özgələrün toprağı dünyadan. Anun içün dünyanı özgələrə nisbət etdi.

**Beyt:**

Özgələrnün nisbəti toprağ ilə sulandurur,
Toprağun firdövsdəndür, abi-heyvandan suyun.

Və bu üç nəstəni anun içün xass etdi kim, adəmi üç nəstədən mürəkkəbdür: cism ilə ruh və könül. Pəs, mübarək cismi

həzzi içün nisa buyurdı, yəni dişi xatunlar, ol dəlil ilən kim, çün Tanrınun feyzi, ya vəhyi ana yetər idi və anı dünyadan alur idi, xatunlarına məşğul olur idi, ta ol ruhani halətdən cismani halətinə qayıdub ümmətün tərbiyətinə məşğul ola idi. Misalı bu kim, gəmi dənizdə ikən çün yellər güclü olub tufan qopdı, saxlamağ ixtiyarı gəmiçinün əlindən ala, naçar anı ləngərləməq gərək, ta dəniz öz qərarına gələnədəkin, yoksa qərarsız olur. Və əgər bir ləngər ilə durmadı, iki ləngər ilən, ya üç, ya dörd, ya beş, ol qədər ki qərar ilə sükuni hasil olsun. Və ruhi həzzi xatiri içün tib buyurdı, yəni yaxşı qoxu ki, xass ruhun həzzidür və **"qürrətü eyni fis-səlati"** anun içün kim, namazda ikən türlü-türlü mükaşifələr kim, ol könül gözinün qürrəti-eynidür, ol həzrətə gözükür idi və ol mükaşifələrdən türlü-türlü məariflər hasil olurdı. Pəs, buyurdı ki, üç nəstə: biri cismün həzzi içün və biri ruhun kifayəti içün və biri mübarək könlünün faidəsi içün. Dedi: **"Sələvatüllahi və səlamühü əleyhi və alihi".**

**Sual** qıldılar kim, rəvayət edərlər kim, Peyğambər (s.) aclığdan qarnına daş bağlardı. Həzrət Şeyx bəyan etsün kim, aclığdan idi, ya yox?

**Cavab.** Həzrət Şeyx (q.s.) buyurdı kim, aclığdan dəgül idi, bəlkim qarna daş bağlamağ aclığ arturur və dəxi bu, səhih hədisdür ki, mənn etmiş vüsali-orucdan, yəni gecələr iftar etməyüb oruc oruca aparalar və buyurmış: **"Eyyüküm mislinni əbitü ində Rəbbi yütimüni və yüsgini"** [Sizlər də mənim kimi olun! Mən Rəbbimin yanında gecələyirəm, O da məni yedirir və içirdir]. Bu, bir bəlli dəlildür kim, aclığdan dəgül idi, bəlkim andan ötrü qarnına daş bağlar idi kim, mütəhhə cismi sifət ilən müşabih idi ol dəlil ilən kim, kölgəsi yox idi. Qaçan kim, könli Tanrı-təalanun meylin edərdi, könül uçmağa qəsd edərdi və yaxun olur idi kim, mübarək cismi dəxi qopub yuxarı aləminə vara. Andan ötrü dünyadan bir ağır nəstə kim, ol daşdur, qarnına bağlar idi, ta mübarək surəti ümmətinə tərbiyət içün xəlqün içində qala.

**Sual** etdilər bu hədisdən kim, "Səhihi-Buxari"dədür: "**Ənnə Rəsuləllah (s.) qalə: "Latəqumüş-saətü hətta la yüqal fil-ərzillah"** [Peyğəmbər (s.) demişdir: Elə bir saat olmayacaq,

deyilməsin ki, yerdə-göydə Allah vardır], yəni qiyamət qopmaz, ta Yerin üstündə bir Allah deyən var ola, bu məna necə olacaqdur: olamı ki, Yerün üstündə bir Allah söyləyən olmaya?

**Cavab.** Həzrət Şeyx (q.s.) buyurdı kim: "Bu, Allah deyəndən məqsud bir kimsədür kim, könül iyəsindən təhqiq alub Allah demiş ola və könli anun dili ilən deyici ola. Xaçan kim munun kimi bir Allah deyən Yerün üstində var, qiyamət qopmaz".

**Sual** qıldılar bu hədisdən kim, **"Ehyayi-ülum"dadur: "Qalə Rəsulüllah (s.): Əl-ibadəti əşərətü əczai tisətün minha fi tələbi-həlali"** [Peyğəmbər (s.) demişdir: İbadət on hissədən ibarətdir, onlardan doqquzu halallıq istəməkdir]. Mənası bu ki, ibadət on cüzvdür, doqquzi halal kəsbinün tələbindədür, neşün?

**Cavab.** Həzrət Şeyx (q.s.) buyurdı: "Anun içün kim, bəndədən bir taət kim, sadir olur, könül ilən gövdə və əllər ilə hasil olur, amma əgər halal lüqmə adamun qurşağına girər, könül taətə qüvvət verür və gövdə ilə qanatlar taətə meyl edərlər və əgər haram lüqmə hövsələyə girər, könül zəif edər və şəhvətlərün həvası arturur və qanatlar məsiyətə və nəfsi məsiyət etməgə durğuzur və hər nəstə kim gövdədən hasil olur, taət ilən məsiyətdən könül ilən nəfsün vasitəsindən eylər və qamusının qeydi lüqmədəndür kim, əgər kişi halal lüqmə yeyər, gövdəsi qamu taətə meyl edər və əgər haram yeyər, qamu məsiyətə meyl edər və mundadur kim, Tanrı-təala buyurur: "**Ya eyyühar-rüsülü külu minət-teyyibati vəməlu salihən"** ["Ey peyğəmbərlər! Təmiz, halal nemətlərdən yeyin və yaxşı işlər görün". (*Müminun surəsi, ayə 51*)] kim, əgər yeygüsi arı və halal ola, saleh əməl andan bitər və əgər xəbis ilən haram olsa, yaman fellər olur. Pəs, əlbəttə, əvvəl halaldan yemək gərək. Məsəli budur ki, əgər bir duzlaq yerdə kimsə ziyarət eyləyə, heç nəstə bitməz, amma əgər günbəgün şirin su ol yerə verələr, yerün duzlığı əksilür. Çün yer şirin oldı, ziraətə qabil olur. Andan sonra hər nəstə kim, anda əkərlər, qamu muradca bitər və səmər verür. Və əgər yer şirin isə və anda əkin eylərlər və dənizün suyi günbəgün ana verələr, ol yeri yandurur və şirinliği bərtərəf olur və xasiyyəti gidərür və əkdikləri batil və zaye olur,

bəlkim andan çör ilə çöp bitər. Haram lüğmə dəxi həm böylədür kim, dənizün şor suyı şirin yerə eylər.

**Sual** qıldılar bu sözdən kim, təzkir kitabında hədis ilən məşhurdur, amma Şeyx Həsən Bəsrinün kəlamıdur ki: **"Mən istəva yövmahü fəhüvə məğbun"**, yəni çün talib kişinün iki günü bərabər ola, bəs ol məğbundur.

**Cavab.** Həzrət Şeyx (q.s.) buyurdı kim, bu sözdən məqsud mənzillərdür kim, hər kim hər gün bir özgə mənzili qət etməyə və bugünki mənzildə qala, məğbun olur və bu mənzil sifətündürür kim, ana məkandur. Amma sufinün mənası gərək kim, gündə bir əsaca seyr eyləyə və bir əsa bir adam boyıncadur və adamun boyı ərşdən torpağadəkindür kim, əgər bu seyri olmasa və əvvəlki məqamında qala, məğbun qalacaqdur.

**Sual** etdilər bu kəlamdan kim, hədis ilə məşhur olubdur ki, **"Mən əkələ məə məğfurin ğüfrə ləhü"** [Günahı bağışlanmışla oturub yeyənin də günahı bağışlanar] kim, çün həzrət Peyğəmbərdən (s.) məğfurrak kimsə yoxdur ki: **"Liyəğfirə ləkəllaho ma təqəddəmə min zənbikə və ma təəxxərə"** [Allah sənin əvvəlki və sonrakı günahlarını bağışlayacaq (*Fəth surəsi, ayə 2*)]. Və münafiqlər ilən kafirlər ol həzrət ilən yemək yeyübdürlər, gərək idi kim, anlar dəxi məğfur ola idilər.

**Cavab.** Həzrət Şeyx (q.s.) buyurdı ki, bu deməkdən murad imanun xanı ilə süfrəsidür kim, müsəlman qardaşı ilən ol xanda oturub din lüğməsi ilən yeməgə müvafiqət eyləyə, eylə kim ol məğfurdur, ol dəxi məğfur olacaqdur və əgər imanun xanında müvafiqət etməmiş ola, əgərçi Peyğəmbər ilən (ə.s.) yemək yemiş ola, məğfur olmaz.

**Sual** etdilər kim, neçə möminlərün eylə ki hədisdədür kim, gorları göz görincə gen olur və neçə möminlərün eylə kim xəbərdardür, yetmiş arçın-səksən arşun olur və kafirlər ilə münafiqlərün neçələri gori eylə dar olur kim, qapurğaları qapurğalarundan keçər **"nəuzübillahi minzalikə"** [Allah bizi bundan qorusun]. Pəs, gərək idi kim, ol kimsənün kim gorı genliği göz görincədür, qonşıdakı gori vəqt olamı kim, bu genliği məcal olmaya, bəlkə neçə rəvayətlərdə var kim, möminlərün neçəsi gorı

genliği məşriqdən məğribədəkindür və bu qövmdən kim, anlarun gorı bu qədərdür, neçə min-min kimsələr vardurlar.

**Faidə.** Həzrət Şeyx (q.s.) buyurdı kim, bu sözdən məqsud vücud goridur kim, köksi inşirahı genrak və gorınun genliği genrak və nə qədər kim darrak-darrak və əgər kimsənün köksi açıldığı kəmala yetişmiş ola, gorının genliği məşriqdən məğribədəkindür: **"Fəmən yürid Allahü ən yəhdiyəhü yəşrəh sədrəhü lil-islami və mən yürid ən yüziləhü yəcəl sədrəhü zeyyiqən hərəcən"** [Allah kimi düz yola yönəltmək istəsə, onun köksünü islam [dini] üçün açub genişləndirər, kimi azdırmaq istəsə, onun ürəyini daraldar (*Ənam surəsi, ayə 125*)]. Pəs, hər kimün köksi inşirahı genrak, anda nurüllah ilə mərifətüllah məcalı artuqrak və gori genrak.

**Faidə.** Həzrət Şeyx (q.s.) buyurdı kim, bu ayətdən kim, **"əl-müminunə la yəmutunə"** [iman gətirənlər ölmürlər] məqsud mömінün könlidür ki, çün Tanrınun zikrinə məşğul olmış ola, hərgiz ölməz. Sual etdilər bu hədisdən kim, "Ehyayi-ülum" ilə "Əvarif"də və "Mərsad"dadur kim, **"təxəlləqu biəxlaqillahi"**, bəndə Tanrının əxlaqi sifətinə necə müttəsif olur, zira kim, bəndə bəndədür və Tanrı və bəndənün sifati qanda və tanrınun sifati qanda?

**Sual** etdilər bu hədisdən kim, "Ehyayi-ülum" ilə "Əvarif"-də və "Mərsad"dadur kim, **"təxəlləqu biəxlaqillahi"**, bəndə Tanrınun əxlaqı sifətinə necə müttəsif olur, zira kim, bəndə bəndədür və Tanrı Tanrı və bəndənün sifati qanda və Tanrınun sifati qanda?

**Faidə.** Həzrət Şeyx (q.s.) buyurdı: "Tanrı-təala hər bəndəni kim seçdi, anı bir sifət ilə öz sifatinə məcaz ilə mövsuf edər, eylə kim, Həqq-təala kərimdür, bəndəyə bir kərəm verür və Tanrı-təala rəhmdür, bəndənün könlində bir rəhim salur. Allah-təala mömindür, bəndəsi dəxi mömin edər və munun kimi misalları çoxdur.

**Sual** qıldılar bu hədisdən ki, **"Övliyai təhtə qülabi la yərifühüm ğeyri"** [Mənim övliyalarım mənim qübbələrimin (göylərimin) altındadır, onları məndən başqa kimsə tanımaz] an-

lar hanğıdurlar və olamı kim, anlar dəxi özlərini vəli sağınmayalar?

**Cavab.** Həzrət Şeyx (q.s.) buyurdı kim, vəlilik üç qismdür. Əvvəl, ol kim, ol özi bilə ki, vəlidür, amma el anı bilməyələr. İkincisi, oldur kim, nə özi bilür kim, vəlidür və nə el. Və Mustafanun (s.) **"övliyai təhtə qübabi"** deməkdən məqsudi vəlidür. Üçüncüsü, ol kim, öz bilə ki, vəlidür və el dəxi bilələr ki, vəlidür və Tanrı-təala anı vilayət sərhəddinə yetürmiş ola və kəndü mərifətini ana bildirniş ola və anı andan qayıtdurmış ola xəlqə tərbiyət ilə irşad verməк içün və xəlqə görsətmiş ola. Pəs əvvəlki vəliyi-amlardurlar, yəni abdallar ilə övtadlar və anlar üç yüz qırx yedidürlər kim, xəlayiq anları bilməzlər. İkinci, vəliyi-xaslardurlar kim, bəkülli Həqq-təalaya məşğuldurlar kim, özüni tanımazlar v tanrıdan özgə kimsə anları tanımaz. Üçünci, xassül-Xasdurlar kim, anlar Tanrı-təalayi bilübdürlər və Tanrı-təala anları xəlqə görsədübdür irşad etməyə və kəmal mərtəbəsi verüb xəlqə göndərübdür.

**Sual** qıldılar bu hədisdən kim, təzkir kitabında var ki, **"Hübbül-vətəni minəl-imani"** [Vətən sevgisi imandandır] ki, çün kafir öz vətəni və firəngi Firəngistanı sevə, necəlik imandan olur və munun mənası nə ola?

Cavab.Q.s. buyurdı: **"Hübbül-vətən"** mənası budur kim, kişi üns ilə müşhidə aləmindən həbs ilə zindan aləminə gəlübdür və indi ol aləmi sevər. Bu sevmək imandandur.

**Beyt**:

Dustunun kuyi içün canun quşi açar qanat,
Kim, bulay kana yetürə özini, bula həyat.

Və səllallaho əla xeyri xəlqihi Mühəmmədin və alihit-tahirin.

### İkinci tərəf

## Neçə suallarda kim, həzrət Şeyxdən eyləyübdürlər və cavabları həzrət Şeyx Sədrəddinün rəvayəti ilən

**Sual** qıldılar həzrət sültanül-vilayətə və bürhanül-hidayətə əmirəlmöminin və imamülmüttəqin əsədüllahül-ğalib.

**Misra:**

Əmirəlmöminin Heydər Əliyy ibni Əbi Talib

Əleyhis-səlat vəs-səlamun kəlamından ki, kim, bu kəlamdan anı məlum eylərüz ki, hər kim öz nəfsini tanıdı, Tanrı-təalanı tanımış ola.

**Cavab.** Həzrət Şeyx (q.s.) buyurdı ki, **“mən ərəfə nəfsəhü”**nun mənası budur ki, hər kim öz nəfsinün eyiblərinə bilici oldı, gərək kim nəfsinün islahına məşğul olsun. Məsələn, kimsə əgər cüzvicə çirkinliği kəndü geyəcisində görə, anun gidərməginə durub səy eyləyə, ol, təharət eybinün təzkiyəsindəndür və hər kim təzkiyə qıldı, nəfsdən qurtuldı və həman kim nəfsün pəlidliğindən qurtuldı, Tanrı-təalanun əzabından rəstgar oldı. Pəs, ol vəqt kim nəfsdən qurtuldı, Tanrı-təalanun əzabından rəstgar oldı. Pəs, ol vəqt nəfsdən qurtuldı, nəfsdən təbərra edüb bizar oldı, həzrət Həqq-təalaya təvəccöh eylər. Andan sonra kim bu nəfsinün mərfəti hasil etmiş ola, özini tanıyub özligindən çıxmış ola, gözləri Tanrıya görüci olur və Tanrı-təalanun mərifəti nəfsün bildügindən sonra hasil olur və yaradılmış Yaradana dəlildür, vallahü ələm.

**Sual** qıldılar bu sözdən kim: **“Əs-səidü mən səədə fi bətni ümmihi vəş-şəqiyyü mən şəqiyə fi bətni ümmihi”** və neçələr muni hədisdən sayurlar ki, çün səadət ilə şəqavət uşağa ana qarnında yazubdurlar və ol heç təğyir bulmaz, bizim cəhdimizdən nə faidə, bəlkə nəyə yarar?

**Cavab:** Həzrət Şeyx (q.s.) buyurdı kim, bu bətn, yəni qarın, tərbiyət bətnidur, ta bu bətndən necə doğar, eylə ki, **“Fitrətəllahil-ləti fətərən-nasə əleyha”** [Allahın fitri olaraq insanlara verdiyi din (*Rum surəsi, ayə 30*)]-əl-ayə. Və eylə kim Səhihi-Buxari”dədür: “**Ən Əbi Hüreyrə (rəziyəllahü ənhü) qalə; qalə Rəssulüllah (səllallahü əleyhi və alihi və səlləm): Ma min muludin illa yulədü əlal-fitrəti fəəbəvahü yehivvidanihi və yünəssiranihi və yüməccisanihi kəma tünticül-bəhimətü cədən həl tühissunə fiha min cədaə sümmə**

**yəqulü” “fitrətəllahil-ləti fətərən-nasə əleyha la təbdilə lixəlqillahi zalikəd-dinül-qeyyimü”** [Allahın fitri olaraq insanlara verdiyi dini heç vəchlə dəyişdirmək olmaz (*Rum surəsi, ayə* 30)]. Pəs, xəlayiq fitrət ilə doğarlar və ataları ilə anaları yəhud, ya nəsrani, ya məcusi edərlər. Əgər mücərrəd ananun bətni olsa idi, ataları ilə anaları anları yəhudi ilə nəsrani, ya məcusi edəməzdilər. Həman böylə əgər kimsə bir özgə millətlü qövmə yetər, həm anlarun millətində böyür və anlarun millətin dutar. Pəs, bətndən məqsud tərbiyət ilə söhbətdür.

**Qitə:**

Hər kimünlən oturub söhbət dutarsan, ey oğul,
Gər yaman, gər yaxşı sana söhbətin eylər əsər.
Səy qıl yaxşılar ilən söhbət et, dövlətlü ol,
Kim yamanlarla oturur, dövləti andan qaçər.

**Sual** qıldılar kim, ol fəqir hanğı fəqirdür kim, könül iyəsilər deyübdürlər: **“Əl-fəqrü sıvadül-vəchi fid-dareyn”** [Yoxsulluq hər iki dünyada üz qaraldır].

**Cavab.** Həzrət Şeyx (q.s.) buyurdı kim, ol fəqir bir nəstədür ki, fillahun fənasında hasil olmış ola, yəni bəşəriyyət asarı və ol fənanun bir nuri var ki, ol nur qararağ görünür. Həman kim ol nur təcəlli edər, anun səfalu güzgüsində həm ol rəng ilən görünür və “səvadül-vəchi” andan ibarətdür, yok kim dünya ilə axirətün yüz qaralığı, bəlkə “**Yövmə təbyəzü vücuhün və təsvədü vücudün”** [Bəzi üzlərin ağ, bəzi üzlərin qara olacağı gündə (*Ali-İmran surəsi, ayə 106*)] günində anlarun şənində zühur olubdur, “və əmmal-ləzinəbyəzzət vücuhühüm fə fi rəhbətillahi” [Üzü ağ olanlar Allahın mərhəməti içərisində qalacaqlar (*Ali-İmran surəsi, ayə 107*)] zümrəsində olacaqdurlar.

**Beyt:**

Hər kimi yüzi yuyuldı eylə fərqün suyindən,
İki aləmdə yüzidür gün təki bişəkkü zənn.

**Sual** qıldılar kim, Həqq-təala (c.c.) çün kim şirin damardan bəndəyə bəndədən yaxınrakdur, eylə kim buyırmış: **“Və nəhnü əqrəbü əleyhimin həblil-vəridi”** [Biz ona şah damarından da yaxınıq (*Qaf surəsi, ayə 16*)], pəs **“əs-seyrü ilallah”** və **“seyri**

**fillah”** və **“əs-seyrü məəllah”** necəlik ilən olur və bunların mənaları nədür? Və çün Tanrı-təala yeriməkdən münəzzəhdür, **“əs-seyri məəllah”** necə olur?

**Cavab.** Həzrət Şeyx buyurdı: **“Əs-seyrü ilallah”** nəfsün irağlığından həzrətdəndür, yox həzrətün irağlığı bəndədən kim, il qamu kimsəyə yakındur və bir irağlığ ki var, nəfsdəndür, həzrətdən bir neçə hicabdan ötrü kim ortadadur. Pəs, bəndənün səyi **“əs-seyrü ilallah”**un hicabı gidərmək içindür. Ol qədər kim, nəfsün hicabı ortadan götürülə, “əs-seyrü fillah” məcalı gəldi, yəni nəfsün yamanlığı ortadan götürüldü:

Dilbərün küyinədək çok yol dəgül, dedim sana,
Bir qədəm nəfəs üsnə qoy, ikincisi məqsuduna.

Və **“əs-seyrü fillah”** cavabına, yəni “**əs-seyrü fis-sifatillahi-təala”** ola, amma ta sifətdən sifətə tərəqqi olur, həzə təkvindədür. Həman kim həqiqət yetdi, andan sonra təmkin olur. Pəs, “əs-seyrü məəllah” olur təmkin halətində və “əs-seyrü məəllah”un cavabında ki, məiyyət, Tanrı ilən seyrdə necə olur? Həzrət Şeyx buyurdı: “Bu məiyyət ol məna ilən dəgül kim, birlik ilən ikilik ola kim, anda birlik olur, kəsrət olmaz, amma mənası ana bənzər kim, bir kimsə bir qətrə su dənizə sala, ol qətrə bəhrdə müstəhlək olub yok olur və ikiligi birligə müstəğrəq gözükür və qamu birlik dənizündür, amma ittihadi, yəni birlik olmaz, anun için kim, dəniz dəniz ola və qətrə qətrə və özgəlik anlarun ortasında zahir. Əgər dəniz cünbüşə gəlüb mövc ura, ixtiyar bəhründür, yok qətrənün”.

**Sual** aıldılar kim, həzrət Şeyx (q.s.) buyurur kim, zahiri kəşf ilə kəramat və qədəm bizdə yolun hicabıdur, bu, necədür?

**Cavab.** Həzrət Şeyx (q.s.) buyurdı kim, anun içün kim, keşişlərdə dəxi kəşf var ki, batil ilə ibadət edərlər və qədəm cin ilə şeytanlarun dəxi var ki, bir göz yumunca məşriqdən məğribə varub gəlürlər və kəramat dəxi şeytanlığ olur. Pəs, kəşf ilə kəramat və qədəm ortağdur, islamun əhli ilən keşişlər ilə cin və şeytanlar ortasında:

Kəramatü qədəm üsnə qədəm qoy, arifi-aşiq,
Ki, bunlar iştirakindən hicabun qoxusu gəlür.

**Sual** qıldılar kim, müsəlman ilə keşişlərin kəramatları ortasında fərq nə nəstədür?

**Cavab**. Həzrət Şeyx (q.s.) buyurdı kim, keşişlərin kəramatı ana bənzər kim, pehin içində bir su durmış ola, danlası həman kim ana baxarlar, pehinün üstində su saf görünür və kişinin surəti ol suda gözükür, amma ol sudan nə içmək olur və nə təharət almaq?

Surətində zahirün bir-birinə bənzər, vəleyk
Batinin arılığında fərqlər çox anlarun

**Sual** qıldılar kim, ol hanğı kəşf ilə kəramat və qədəm ilə himmətdür kim, anları etibar etmək olur?

**Cavab**. Həzrət Şeyx (q.s.) dedi ki, bizdə kəşf ilə kəramat və himmət ilə qədəm var. Və kəşf oldur ki, kişi öz eybinə və hünərinə görüci ola və içindəkin bilici ola. Və kəramat oldur ki, batinindən əlayiqi görə və öz könli mücərrəd eyləyə. Və qədəm oldur ki, özindən ayağ dışxarı basa və özindən dışxarı bir səfər eyləyə və məqsəd ilə məqsudinə yetə. Və himmət oldur ki, başı Tanrıdan özgə iki aləmə endürməyə. Pəs, bu kəşf ilə kəramat və qədəm ilə himmətdür kim, Tanrıya məşğullıkdur və hər kəşf ilə qədəm kim, kişinin könli özgələrlə məşğul edər, yolun hicabıdur.

Özün eybinlə bina ol, mücərrəd eyləgül könlün,
Vücudi-baqi mütləqi-Xuda bil, dəxisi mədum.

**Sual** qıldılar ki, fəna neçədür?

**Cavab.** Həzrət Şeyx (q.s.) buyurdı kim, fəna üçdür. Biri, surətin fənası sifətün bəqasına, yəni surət fani olmayınca sifət baqi qalmaz və fənadan məqsəd sifətün eynidür surətdən ki: **"Ənnövmü əxul-mövti"** [Yuxu ölümün qardaşıdır]. Və biri, sifətün fənasıdur məna bəqasına kim, ol ruhdur və anı bəşəriyyət fənası derlər və ol, eşqün artuqlığı ilən olur kim, bəşəriyyətün asarı yok olur. Üçünci, ruhun fənasıdur Tanrı-təala bəqasına. Ol vəqt ki, Tanrının ənvarı təcəlli qılsa, bəşərliğ ilə insanlığ ismi və rəsmi yok eylər və bu üçünci fənaya fillahun fənası derlər və bu beytün məzmunin inşa qıldı.

**Beyt:** Tanrı təcəllisində fəna buldı çünki ruh,
Tanrıdan özgə qılmadı nəzzarə Tanrıyı.

**Sual** qıldılar kim, könlün kisvəti neçədür və nə nəstədür?

**Cavab**. Həzrət Şeyx (q.s.) buyurdı: “Könlün kisvəti ikidür: biri Günəş və biri Yer, yəni bunlarda yüz görsədü. Amma əvvəlki Günəş andan ötrü kim, Günəş qamu Yerə və qamu nəstəyə yetər və qamu bitənlər ilə yeriyənlərə və mədənlər ilə kanlara tərbiyət verür. Lacərəm, könül iyəsi Günəş kimidür, eylə kim qamu nəbat ilə yemişlər və kanlar mədənlərdə və yurtlar ilə məqamlarda gərək dağ isə, gərək yazı, hər yerdə ki, var, qamunun tərbiyəti andandurur. Həm böylə taliblərün tərbiyəti və təriqətün rəng ilə qoxusı vermək və ulu könüllərün yerləri kim, qamu günahlar zəmharirində savıyup yok olubdurıar, Günəşün tərbiyəti hərarətində irşadun qüvvətində dirildür və eylə kim Günəş qamun yerlərə yetər, könül iyəsinün tərbiyəti dəxi bitün taliblər ilə müridlərün hallarına yetər.

**Beyt:**

Dirilik lafın uraruz cavidan,
Bu həyatun abidən kim, içmişüz.

İkincisi, Yerdür, anun içün kim, Yer ziraət ilə imarətün məhəlidür. Könül iyəsinün könli dəxi eşqün imarəti məhəlli və məhəbbətün ziraəti və Tanrınun mərifəti yeridür və eylə kim, zahir yerdə cəmiyi-insan ilə heyvanun yeygüsi içün əkin edərlər və biçərlər, könül iyəsi dəxi gərək kim, qamu taliblər ilə müridlər içün yumşağ və səlim və zəhmətlərinə qatlayan ola. Və qamu kimsələrdən Tanrı xatiri içün təhəmmüledici ola və eylə kim Yerin miskinliğ ilə üftadəlik qamu kimsə ilən var, könül iyəsi dəxi Tanrı xatiri içün qamu kimsələr ilə təvazö və miskinlik eyləyə və eylə kim Yer bitün cəvahirün mədəni və kanıdur, könül iyəsi dəxi gərək kim mənalar ilə mərfətün kanı ola kim, ulular buyurubdur: **“Ən-nasü məadinün kəməadiniz-zəhəbi vəl-fizzəti”** [İnsanlar da qızıl ilə gümüş mədənləri kimi mədənlərdir], yəni adəmi qızıl və gümüşün mədəni kimidür.

**Nəzm:**

Adəmi mədəni-məarifdür,
Özi gər bilsə muni, arifdür.
Əhli-dil adəmün xülasəsidür,

Nə xülasə ki, Tanrı xassədür.

**Sual** qıldılar ki, çün həzrət Şeyx (q.s.) taliblərinə məşayixün sözləri ilə yazduğları oxumağdan mənn eylər kim, hicabdur? Pəs, məşayix bu məqalələr ilə risalələr nəyə yazdurubdurlar və anlarun məqalatları oxumaq nədən hicab olur?

**Cavab.** Həzrət Şeyx (q.s.) buyurdı kim, məşayix ilə könül iyəsilər Tanrınun əsrarı gəncinə yetübdürlər və gəncnamələr yazubdurlar kim, gələn qardaşlar ol gəncnamə oxuyub gənci istəyələr və anı ələ gətürələr və andan faidələr görələr, yok ol kim həman gəncnaməyi oxuyub, könül anun oxumağına məşğul edüb gəncün tələbindən eymən oturalar. Eylə kim bir padşah kəndü yaş uşağları içün bir fikir edüb hərəsi üçün bir gənc ayru-ayrı yerlərdə gizlətdi və vəziri ilən danışub dedi: "Bilgil ki, hər oğlum içün bir gənc qoyubəm ayru-ayru və gəncnamələ budur. Sana tapşurdum oğlanlarum baliğ olunca. Pəs, məndən sonra hər hanğıda ki, padşahlığ qabiliyyəti andan görəsən, padşahlığ ana rücu eylə və qalanına gəncnamələr tapşur kim, varub hər kimsə öz verdügüm gənci alub məaş eyləyə". Neçə yıl mundan sonra padşah dünyadan nəql etdi, vəzir ol gəncnamələri saxladı ol qədər kim, padşahun ulu oğlı kəmala yetdi. Vəzir gəncnamələrdən birisi ana verdi. Padşahzadə çox səylər eyləyüb, ol gənci tapub padşahlığa yetdi. Vəzir dəxi ol ortada dünyadan nəql etdi. Gedəndə gəncnamələr ulu padşahzadəyə tapşurdı, amma padşahzadələr həman ol gəncnamənün oxumağına məşğul oldılar və gənci istəməgində durmadılar və həman anun mütaliəsinə qənaət etdilər. Lacərəm, nə padşahlığa yetdilər və nə də gənci buldılar və təmaməti-ömri yoxsul və müflis və etibarsız qaldılar. Pəs, ol dedügüm padşah Peyqəmbərdür (s.) və vəziri və vəsisi əmirəlmöminin və imamül müttəqin Əli ibn Talib (ə.s.)-dür. Və gəncnamə "Quran"i-məcid ilə hədis. Pəs, hər kim gənci tələb eyləyə, yoxsul qala.

**Şeir:**

Gəncü gövhər çoxdurur gəncinəsində aləmün,
İstəyənlər ayrudurlar, oxuyanlar ayruca.
İstəyən gənci bulur, istəməyən məhrum olur,
İstə kim, sənün içündür gəncü kanlar ayruca.

**Sual** qıldılar kim, mücahidət hanğıdur və riyazət hanğı?

**Hekayət**. Həzrət Şeyx (q.s.) buyurdı kim, mücahidət cəhd eyləməkdür və gövdə ilən Tanrı-təalanun ibadətinə və nəfsün müxalifətinə riyazət çəkmək, Həqq-təalanun riyazi ilə deyə bilmək və həzrət Peyğambər ilə vəsinün şəriətinə baş endürmək və anlarun buyurduğı sidq ilən əmələ gətürmək və könül iyəsinün rizasını saxlamaq. Və riyazət yemək ilə içməgün tərkin etmək dəgül, bəlkim oldur kim, Tanrı ilə Peyğambəri və vəsiyyi və şeyxi ki, tərbiyətün atasıdur, rizalarını saxlaya. Və əgər nəfs xəlvət istər ola, ana müxalifət eyləyüb cəmün ortasına gələ və əgər nəfsi cəmaət içinə girmək istər ola, ana müxalif olub, xəlvətə girə və əgər nəfsi zikr istər ola, zikri tərk eyləsün. Və bu düstur ilən hər taət kim, anda bir nəfsaniyyət rüunəti var ola, ana xilaf eyləsün ol qədər kim, özinə aclıq ilən susızlıq kim, qeyri-millət öz nəfslərinə qoyalar, qoya kim, Həqq-təalanun buyruğı və Peyğambərün şəriəti olmaya.

**Rübaiyyət:**

Hər nəqş ki, nəfsün rəqəmi olsa, xərab et,
Hər yerdə ki, dur dedi isə, durma şitab et.
Gər taətə meyl etsə, səni azdurur andan,
Eşitmə sözi, anun ilən cəngü itab et.

Və qatırak hicab kim, xəlqün işindən sonucı pak olur, riyadur. Pəs, ana cəhd etmək gərək kim, işi və ibadəti riyadan pak eyləyə və andan pəhriz edə və nəfsün məkrindən eymən olmaya. Əgərçi kim igən zəif olub müti gözükə kim, ol bir məkkardur kim, çün öz həvası ilən halını tərk eyləyə, bir busuda oturub məkrün fikrində ola kim, yabanda qurt həman kim zəif oldı və yügürməkdən güci qalmadı, özini bir çuxura, ya bir quru arxa toprağ içinə yatdura və gizlüdə anun intizarında ola kim, qoyunlar qafil ikən anun üstinə, ya yavuxuna gələlər, bir uğruda sıçrayub qoyunun boğazını dutub həlak eyləyə.

**Beyt:**

Bususindən nəfsünün pəhriz qılgil kim, səni
Divnün məkrü fünun çəngalinə bıraxmaya.

**Sual** qıldılar kim, məşayix neçəsi zikri gizlü söyləyübdürlər və həzrət Şeyx aşkarən buyurur. Müridlər içün gizlü yaxşımudur, yoxsa aşkar?

**Cavab.** Həzrət Şeyx (q.s.) buyurdı kim, mübtədi müridlərə, yəni yeni mürid olanlara açux yegrakdur, zira kim açuxda müşahidət artuqdur. Məsələn, bir sayrunun bir qatı mərəzi var. Əgər həkim ana səhlcə cüllab ilə şərbət versə, anun faidəsi ana dəgməyə, bəlkə zəhməti arta. Pəs, lazım ana bir güclü şərbət vermək gərək, ta kim əməli güclü ola və qatı zəhmətlər ilə mərəzlər gövdəsindən gidərə. Andan sonra zəif əlaclar eyləyə, ta səhhət bula.

**Beyt:**

Gər mərəz qatıdurur, qatı əlac etmək gərək,
Hər nə könül iyəsi der, anı eşitmək gərək.

Dəxi aşkar zikr etmək zahir əməllərdəndür və zahir əməllər cismə təəllüqdür kim, ol dəridə əsər ilə əməl eylər. Andan sonra könülə **"sümmə təlinü cüludühüm və ülubühüm ila zikrillahi"** [Allahın zikrindən sonra dəriləri ilə qəlbləri yumşalar (*Zümər surəsi, ayə 23)*]. Pəs, dışxarkı əməllər gərək kim, zahir ilə ola və andan sonra güclü zikr ustadun tərbiyəti mədənindən hasil olur və həm böylə Rəşidlü Xacə Qiyasəddin Məhəmməd sual qıldı kim, ya Şeyx, zikr gizlü demək yaxşıdur, yoxsa aşkar? Həzrət Şeyx (q.s.) cavab verdi kim, fərzənd, əgər bir kimsə düşmən ilən savaşda olsa, düşməninə əgər bir qatı zərb ursa, yaxşımudur, yoxsa səhlcə? Dedi: "Yok, qat gərək". Pəs dedi: "Həman böylə, hər kim nəfs ilə şeytana savaşsa, zərbi qatırak ursa, yaxşırakdur kim, əgər səhlcə ursa, müti olmaz, bəlkim həman kim sən anunlən yumşağ söyləyəsən, kim, fərzənd əgər bir kimsə düşmən ilən savaşda olsa, düşməninə əgər bir qatı zərbə ursa, yaxşımudur, yoxsa səhlcə? Dedi: "Yox, qatı gərək". Pəs dedi: " Həman böylə, hər kim nəfs ilə şeytana savaşsa, zərbi qatırak ursa, yaxşırakdur kim, əgər səhlcə ursa, müti olmaz, bəlkim həman kim sən anunlən yumşağ söyləyəsən, ol sənünlən mühaba eyləməyüb səhl dutmaz. Pəs, qatı zikr eyləmək yekrakdur, ol qədər kim zakir aşkarən zikrə yetə kim, ol ixtiyarsızlık zikridür. Andan sonra könül gizlü

zikrə məşğul ola və əvvəlki aşkarən zikr ilən axır gizlü zikri cəm etmiş ola".

Genə vəzir Xacə Qiyasəddin **sual** qıldı kim, zakirlər neçəsi çahar zərbi zikri buyururlar, eylə kim nəfy kəlməsi ki, "La İlahə" ola, bir yandan söyləlәr və isbat kəlməsi ki, "illallah" ola, bir yandan və könül içində təmam edərlər, həzrət Şeyx (q.s.) necə buyurur? Şeyx (q.s.) anun cavabında söylədi: "Oğul, "La İlahə illallah" ixlas kəlməsidür, ixlas ilən söyləmək gərək kim, ol xüd məqamı ilə nişanı bilür və məqsudi məlum edüb öz işi işlər.

**Beyt:**

Tayiri-qüdsi kimi hər yerdə kim, açsa qanat,
Bir bilici quşdurur kim, öz məqamini bilür.

**Hekayət**. R.r. buyurdı kim, həzrət Şeyx (q.s.) buyurdı kim, övliyanun faidəsi ilə həzzi təfavüt ilən Həqq-təalanun bu dörd adəti himayətindədür kim, **"hüvəl-əvvəl, hüvəl-axir, hüvəz-zahir, hüvəl-batin"** [Əvvəl də, axır da, zahir də, batin də Odur (*Hədid surəsi, ayə 3*] və anlarun durduğı vəqtı həm bu adlar iləndür. Hanğınun kim, həzzi bu zahir adlardandur, Tanrınun əcaib qüdrətlərinə görücidür, yəni hər nəstə kim, göz ilən anı görmək olur və hanğınun kim, həzzi bu əvvəlki adlardandur, hər nəstə kim, əvvəldən zahir olubdur, bilici olacaqdur. Və Bayəzid Bistami deyübdür ki, hər kim bu dörd addan faidə görüb məhzuz oldı, vəliyyi-kamildür. Və Şeyx Əbülqasim Qüşeyri söyləyübdür kim, ol kimsə həzə vəliyyi-kamil dəgüldür və bu sözlər Könül iyəsi yanında heçdür və könül elmi oldur kim, bunlardan ayrudur və ol Tanrınun zati ilə sifati elmidür.

**Rübai:**

Anlar kim, anun eşqidə söz söylərlər,
Dil lövhidə əsrarı-cəhan yazərlər.
Ol mədrəsədə ki, əqldür anda hicab,
Dərsi-qəmi-eşqünni edərlər əzbər.

**Sual** qıldılar ki, kimyagərlik hanğıdur və simyagərlik hanğı?

**Hekayət**. Q.s. buyurdı kim, simya kimyanun məcalığıdur, andan ötrü kim, hər nəstə kim, simyagər görsədür, məcaz ilə

xəyaldandur və həqiqət dəgül. Amma hər nəstə kim, könül iyəsi görsədə, həqiqətlü kimyadur, zira kim həqiqətlü kimyagər oldur, eylə ki paqırun vücudi həqiqətdə qızıl eylər. Pəs, munda həqiqətdür, yok məcaz. İmdi hər nəstə kim, könül iyəsi görsədə, həqiqət kəramatından olur, eylə kim əgər öldürsə ölür və əgər bir ölü könlü tərbiyət ilən dirildə, əbədədəkin diri qalacaqdur. Və əgər kimya nəzəri ilən talibün vücudi paqırı qızıla döndərə, qızıldur və gənci-rəvan ki, əvamün-nasun dilində məzkurdur, könül iyəsinün vücudidür ki, bir şəhərdən bir şəhərə rəvan olur, ta hər kimün əzəli səadətdən nəsibi var, ol gəncdən ana bir faidəyə yetüb məhzuz ola, yok cəmad gənci, zira kim cəmad mütəhərrik olmaz.

**Beyt:**

Hər kim əzəldən anun dövlət olupdur nəsib,
Sonra əlini yetər böylə rəvan gəncinə.

**Sual** qıldılar kim, sifati-zəmimə güdərmək olurmı kim, həmidə sifati yerində oturtdurlar?

**Cavab**. Q.s. buyurdı kim, bəli, sifati-zəmimə, yəni yaman sifətlər çün gedər, həmidə sifati yerində qaimməqam olur, eylə kim məsiyyət ilə günah gedər və taət ilə ibadət yerinə gəlür və riya gedər və ixlas gəlür və olur kim, bitün sifati-zəmimə gedə və yerinə həmidə sifat gəlüb qona.

**Beyt:**

Çün qaranğulığ gedər, aydın gəlür,
Gecə çünkim keçdi, lazim gün olur.

Və könül təxtün misalıdur və gövdə məmləkətün üzəngi və ləvvamə ki, sifətdür rəiyyət kimi. Pəs, hər xaçan kim, könül təxti divün fərmanında ola və üzük anun barmağında, məmləkət anun təsərrüfi ilə hökmində ola və rəiyyətlər qamu anun buyruğında, qamu sürülmüş sifatlar anlardan vücuda gəlür. Və əgər könül təxti divün əlindən qurtarub, üzügi anun barmağından çıxarub öz təsərrüfi təxtində gətürə və mütməinnəyə verə, könül mülki anun bayrağı altında ola, hər nəstə kim, andan sadir olur, həmidə sifati olacaqdur və rəiyyətlər qamu ana mütabiət edərlər və anlardan yaxşı sifatlar zühur eyləyəcəkdür.

**Beyt:**

Süleyman mülki ilən üzügi divün əlindən al
Kim, üzükdür sənün malun, Süleyman təxti mülkündür.

**Sual** qıldılar kim, yaxşılarun yaxşılığı və müqərrəblərün yamanlığı necə olur?

**Cavab.** Həzrət Şeyx (q.s.) buyurdı: "Yaxşılar bir əməl kim edərlər, əgərçi Tanrı-təala içün edərlər, amma axirətün səvabı ümidi içün qılurlar, həm eylə kim əməl ilə Tanrıyı pərəstişlik qərəz ilən edərlər, amma vasitə ortaya gətürürlər, likən müqərrəblərün himməti ucadur və anlar həman Tanrı içün Tanrıyı taparlar, yok kim uçmağ təməi içün, ya damunun qorxusından anlar riza məqamundadurlar, ta kim təqdir anlarun həqqində necə isə olsun.

**Beyt:**

İstəmən cənnəti-ədn ilə cəhan əsbabi
Ki, həman iki cəhandan səri-kuyun dilərəm.

Və Tanrıdan özgə heç nəstəyə baş endürməzlər. Həman ki, zərrəcə bu qaidədən döndilər, hicablu olurlar və ulu əzab anlarun yanında hicabdur.

**Sual** qıldılar kim, həzrət Şeyx buyurur kim, ribaxarlığ bir ulu günahdur və qiyamətdə ribayeyici çok əzablar görəcəkdür. Əvvəla, bir cins götürürlər və artuq baha ilən müqərrər edərlər və kifayətini bir müəyyən müddət ilə yəqin edərlər və bir-birinin üstə aparub hesablarlar və andan sonra əl verüb bey edərlər ki, əgər ol müəyyən məta kim, müqərrər edərlər, ortada olmasa, ol bey batil və ribadur. Bir neçə talibi-elm hazır olub dedilər: **"Və əhəlləllahül-beyə və hərrəmər-riba"** [Allah alış-verişi halal, sələm almadığı isə haram etmişdir (*Bəqərə surəsi, ayə 275*)], yəni Tanrı-təala beyi halal eyləyübdür və riba haram deyübdür.

**Cavab.** Həzrət Şeyx (q.s.) buyurdı ki, çün satan ilən alan və yazıcı ilə danuğlar qamu bilürlər kim, ol bey hesab eyləyüb sudını üstinə aparubdurlar və özlərinə eyləyübdürlər kim, iki altunun müəyyən müddətədəkin kifayəti nə qədər olacaqdur. Qamusın cəm eyləyüb bitik yazarlar və məqsəd bunlardan ribadur kim, dürlü-dürlü kisvətlərə çulğayub müqərrər edərlər, Tanrı-təala

bunları bilməz. Və hal ol kim, iş niyyət iləndür və niyyətlər qamu məlumdur ki, nə nəstədür.

Genə dedilər: “Bunlar şəriətün müxəyyələ ilə hiylələridür”. Həzrət Şeyx (q.s.) dedi: “Ah, ah! Şəriət idi kim, anda hiylə yok idi, anun içində dəxi hiylə gətürdilər”.

**Şeir:**

Türlü-türlü hilələr qazı edər,
Şərnün buyruğidür adın qoyar.
Eylə sanur kim, anı bilməz Xuda
Hiləsindən qurtulur ruzi-cəza
Ah o gündən kim, Xuda qazı ola,
Mustafa işində narazi ola.
Ola məkrü alı cümlə aşkar,
Nə utanmaqdur, Xudaya, zinhar.

**Hekayət.** Ərdəbilli Təvəkküli Mövlana Şəmsəddin Məhəmməd (q.s.) sual qıldı bu kəlamun mənasından ki: **“Mən məşa məə alim xətvəteyni və cələsə indəhü cəlsəteyni və səmiə minhü kəliməteyni və cəbət ləhü cənnətani”** [Kim alim ilə iki addım atarsa, onunla iki dəfə oturub-durarsa, ondan iki kəlmə söz eşidərsə, ona iki cənnət vacib olar].

**Hekayət.** Q.s. buyurdı kim, bu alimdən məqsud **“Müeyyəd min indəlləhi”** könül iyəsidür kim, həman kim kişi ixlas ilən iki qədəm biləsincə yerə basa, birisi şəriətdə və biri təriqətdə və anun məclisində iki qatla otura, əvvəlki məclisdə hər müşahidət xəlvətində masivallahdan, yəni Tanrıdan qeyri qət eyləyə və iki kəlmə andan eşidə, birisi teyyibat kəlməsi kim, sirati-müstəqim ola, ikincisi eşitdügi əmələ gətürüb hər vaqiə kim, ana görünə, könül iyəsinə ərz eyləyüb dedügi can ilən qəbul eyləyə, şövqi günbəgün arta və ana cənnətül-məva lazım olur**:”lil-ləzinə əhsənül-hüsna və ziyadətün”** [Yaxşı işlər görənləri cənnət və daha artıq mükafatlar gözləyir (*Yunus surəsi,ayə 26)].*

**Beyt:**

Kim ki, könül iyəsilən oturə,
Hər nə kim məqsudidür, hazır görə.

**Sual** qıldılar kim, nədən alimün yatduğı zahidün ibadətindən yegrakdur?

**Cavab.** Həzrət Şeyx (q.s.) buyurdı: "Bu, bir məşhur hədisdür, amma ol alim bir kimsə ola kim, könli məşayixin tərbiyəti ilə Tanrınun tövhidinə dirilmiş ola kim, gözi uyxudadur və könli Tanrı-təalanun münacatına məşğul ola".

**Beyt:**

Uyuduğı bu kimsənün yeg zahidün taatidin,
Bu, riyaludur, vəli ol biridür bikübrü kim.

**Sual.** Bir danişmənd bir talibdən sordı kim, Xızır peyğəmbərün batin elmi var idi kim, gəmiyi dəldi və bir uşağı öldürdi. Sizdə əgər elmi-batin var, neşün birisini öldürməzsiniz?

**Cavab.** Həzə Şeyxdən sual etmədün ol talibə buyurdı: "Neşün cavabını verməzsən ki, biz Peyğambərün (ə.s.) peyrəviüz. Əgər Xızır peyğəmbər bir uşağı öldürdi, dərvişlər ulu könülləri dirildürürlər və həzrət Məhəmməd Mustafa (s.) surət ilən meraca vardı, anun ümməti sifət ilən varurlar məqsud tələbi içün, amma Məhəmməd həzrəti öz qurşağı qədərincə və taliblər öz qurşağı sığışınca qarçağaynun töməsi sərçəyə verməzlər.

**Beyt:**

Hər quşun bir töməsi var, anun ardınca varur,
Sərçə həm bir quşdurur, yedügi yeməz şahbaz.

**Sual** qıldılar kim, çün talib uzax yolları kəsüb mənzildən dəxi ötmüş ola, ana dəxi heç iş qalmış ola, ya yox?

**Cavab.** Həzrət Şeyx buyurdu kim, ana həzə iki iş qalmış ola. Biri ol ki, bilə kim, Tanrınun qəbulidür, ya yox. Və biri ol kim, bavücudi-qəbuliyyət, bilə kim, gəncinün kilidini ana tapşururlar, ya yox? Əgər tapşururlar, işi təmamdur, yoxsa natəmamdur.

**Şeir:**

Talibün işi təmam ol çağ olur kim, sidq ilən,
Əhli-dil anı könülnün işinə yer verələr.
Çün könül anı qəbul etdi, kilidi-mərifət
Əllərinə tapşuralar, məxzən içinə girər.

**Hekayət.** Bir gün Gərmrudlu Mövlana Yusif ilən Pir Əli həzrət Şeyxün (q.s.) yanunda oturmışdılar. Yusif Fəqih sual qıldı kim, taliblər ilən tövbəlülər qamu ümmidürlər və çoxı dəxi türk birlə tatdurlar və çün Kəlamüllahı eşidürlər, əgərçi kim ərəb dili bilməzlər, ixtiyarsız anlardan fəryad çıxar və hal ol kim, nə anun mənasını bilürlər və nə ayatınun üsul ilən füruri fəhm edərlər və məlumları dəgül kim, ayətün mənası ümmidmidür, yoxsa qorxu, bizdə igən əcəb gəlür.

**Hekayət.** Həzrət Şeyx (q.s.) buyurdı: "Əgərçi kim anlarun dili türk ilə əcəmdür və çoxi dəxi ümmidürlər, amma könülləri xamu dil ilə bilicidür və könül Kəlamullahun dilini bilür ki, könül ərəbdür və kəlam ərəbi".

**Beyt:**

Mərifətün məktəbində eşqnün ustadidin
Tifli-dil ixlas ilən təlimi-eşq alupdurur.

**Hekayət.** Pirə Zeynəddin dedi kim, neçə taliblər ilə Şeyxün xidmətinə varurduk. Fəqih Baba peyğam göndərüb dedi kim, həzrət Şeyxdən (q.s.) sual eyləniz ki, mən hər qaçan kim, həzrət Şeyxün xidmətində mülazim oluram, mana zövqlər qalib olub eyni-səfadəəm. Çün xidmtindən ayrıluram, neçə gündən sonra ol zövq ilə hüzurda fitrət zahir olur. Genə həzrət Şeyxün qulluğına varınca zühur eylər. Anun peyğamını həzrət şeyxə yetürdük. Həzrət Şeyx (q.s.) buyurdı kim, ana söyləniz: "Sən cücəli yumurtalar gətürürsən, mən Tanrınun tövfiqi ilə Şeyx Zahidün himməti ilə birlə anları sındurub, cücələri çıxarub sana verürəm. Necə kim mundasan, ol cücələr uçmağdadur, genə ol Uçanlarun qanatlarını sən kəsərsən, lacərəm, uçmağdan qalurlar və uçdukları batil olur".

**Şeir:**

Vardurur bu yumurtalar işrə
Quşlar kanlarun yeridür Qaf
Kəsdilər çün qanatların, naçar
Dəxi uçmağdan uramazlar laf.

**Hekayət.** Pirə Cəmaləddin dedi: "Həzrət Şeyxdən sual qıldılar bu mənada ki: **"Əl-mümin kən-nəhləti la yəkülü illa**

**teyyibən və la yəzəü illa teyyibən”** [Mömin şəxs xurma ağacı kimidir, yalnız yaxşı şeylərlə qidalanır və işi də (meyvəsi də) yaxşı olur].

**Cavab**. Həzrət Şeyx (q.s.) buyurdı ki, iman bir batinlü işdür və imanı qəbul eyləyən könüldür. Pəs, könlün əsli kəlimeyi-teyyibədür kim, imanun əslidür və anun fəri islamdur və könül kim, mömindür, tövhid qüvvəti ilən arıdur və “La İlahə illallah” anun qulıdur. Amma mömini nəhlə, yəni bal arusına bənzətmək anun içündür kim, Tanrı-təala nəhlə vəhy göndərübdür: **“Və övha Rəbbükə ilan-nəhli”** [Rəbbin bal arısına vəhy etdi (*Nəhl surəsi, ayə 68)*]. Mömինün könlinə dəxi iman endürübdür ki: **Ula ikə kətəbə fi qülubihimül-imanə”** [Qəlblərinə iman yazılmış kəslər (Mücadələ surəsi, ayə 22)]. Və munda doquz məqam var. **Əvvəlki** ol kim, nəhl imansız və sultansız heç yerdə durmaz və sultan gəlməyincə qərar dutmaz, mömin dəxi həm böylə Peyğambərün mütabiətinə (s.) və islam əhli ilən qərar dutar və Peyğambərün müxalifətini hərgiz eyləməz. **İkinci.** Çün nəhl sultansız heç yerdə durmaz və andan buyuruqsuz heç yerə varmaz, mürid dəxi hüzur ilən qeybətdə pirün irşadından dönməz və andan işarətsiz dirilməz. **Üçünci**. Nəhl hər lətafət kim, nəbatlardan hasil edər, sultanun xidmətinə aparub, qanda kim, sultanun buyruğı olur, qoyar. İşarətdür kim, mürid dəxi könül iyəsinün təlqini zahir ilə batində əməl eylər və hər lətafət kim, tövhid kəlməsindən hasil olur və ol gördügi vaqiələrdür kim, gərək kim, şeyxdən özgə kimsəyə söyləməyə, ta şeyxün buyruğı ilən qanda kim əmri olsa, tapşura. **Dördünci.** Ol kim, nəhl əvvəl kəndü evinün içi doldurub məmur edər, andan sonra zahirdə özgələrə faidə görsədür. Mürid dəxi gərək kim, əvvəl kəndünün vücudi, içi mərifətdən dolu və məmur eyləyə, sonra dinlü qardaşlarına ulaşdıra. **Beşinci.** Ol kim, nəhlün qaidəsidür kim, nəhlün qaidəsidür kim, heç canəvər sinəkdən, muçəkdən, qarıncadan və özgə heyvanlardan evlərinə girdürməzlər və əgər bunlardan xəbərsiz birisi girə, anı görincə dutub evdən çıxardurlar və anunlən söhbət eyləməzlər. Mürid dəxi böylə gərək ki, Tanrınun rizasızlığından pərhiz edüb, özgənün zikri ilə xəyalı könlinə yer

verməyə və əgər nagah girə, anı gidərməgində səy eyləyüb müxaliflərün söhbətindən ehtiraz eyləyə. **Altıncı.** Nəhl fərasət ilən hər mövsimün ovqatı bilür və işləri öz çağında eylər. Məsələn, yaz çağı toxum içün su aparur və həman ki çiçəklər bitər, evləri yapar və çiçəklərdən doldurur və çün uşağı becərmək çağı gəlür, evdəki çiçəkləri yeyüb, evlərini boşaldub baldan doldurur: **"Şərabün [müxtəlifün] əlvanühü fihi şifaün lin-nasi"** [İnsanlar üçün şəfa olan (müxtəlif) rəngli bal (Nəhl surəsi, ayə 69)]. Mürid dəxi həm böylə gərək ki, öz ovqatı qismət edüb günün zaye əməl ilən keçürməyə kim, fövt mövtdən betərrakdur, zira kim mövtdə ümidvarlık var və fövtdə yok. Və çün zahir vəqtı saxlaya, batini dəxi bəzətsün. **Yedinci**. Ol kim, nəhldür və ay kim, üç ərbəin, yəni üç çilədür və yılın üç damğından bir danğıdur, xəlvətdə sultanın hüzurində oturur və cəmalınun təfərrühündən özgə nəstəyə məşğul olmaz. Mürid dəxi gərək kim, bir gün ilə bir gecənün iki danğı könlinün cəmalı müşahidəsində hüzur ilən otura. **Səkizinci.** Nəhl hər qut kim, dışxarıdan gətürüb cəm eylər, anlarub hesabına məşğul olmaz və özinün yığduğı özininki saymaz və əməl ilən məşğul olur, nə təsərrüf. Mürid dəxi gərək kim, hər nəstə kim, öz əlinün kəsbindən hasil olur, bəlkə hər nəstə kim, əlinə girər, mütləqən kəndü içün təsərrüf etməsün və qamu mürşidi yanına iltürə və minnət dəxi bilə və işə məşğul olsun, yok hesaba və taət ilən keçürə, yok nəzərə və əmələ məşğul olsun, yok təsərrüfə. **Doquzıncı.** Ol kim, nəhlün uşağları vücuda gələndə hər qatla neçə sultanzadələr zahir olurlar kim, qamu Padşahlığa layiqdürlər, ittifaq eyləyüb hanğısı kim, padşahlığa yakışır və qabiliyyətlüdür, sultanlığa müqərrər edərlər və anunlən beyət qılurlar və qalanı işlərindən sürərlər və işlərində qoymazlar. Və əgər ol padşahzadələrdən birisi dəviyə durur, müttəfiq olub anı öldürərlər və dışxarıya bıraxurlar. Mürid dəxi həm böylə gərəkdür kim, mürşidi ilə piri və inanduğı həman bir ola və hər ün ilə səsdən mütəhəyyir olmayub, məşrəbi bir bilsün və bu məqamda özini yelə verməsün kim, çox müstəid taliblər bu məqamda mənligə düşüb özini həlakətə salubdurlar, zira kim bir namaz iki qiblədə qılmaq dürüst olmaz. Qiblə bir və peyğəmbər bir və

mürşid ilə yol təriq bir bilmək gərək. İmdi şəbihi – **“əl-müminü kən-nəhləti”** [Mömün şəxs xurma ağacı kimidir] bu zahir doquz məqamdur və doquz məqam dəxi **“və övha Rəbbükə ilan-nəhli”** [Rəbbin bal arısına vəhy etdi (*Nəhl surəsi, ayə 68*)] batinində var kim, anları dil ilən deməlü dəgül.

**Beyt:**

Vardurur gizlüdə çox avazlar,
Anları açuq qulağlar eşidür.
Kim ki könlinün qulağıdur açuq,
Mərifət eşitmək anun işidür.

Amma bu əhlün nəqizi bir saru aru dəxi var kim, balun arusuna bənzər və ol aruda dəxi bir gizlü sirr var və anlarda dəxi bir ittifaq var kim, bir yerdə cəm olurlar və anlarun içində bir neçə sultanlar var və qamuları qəbul edərlər və qamusına müttəfiqdürlər. Hər gün birisinün buyruğı ilən əməl edərlər və nəhlün arusı kimi evlər düzəldərlər, amma hər biri özgə təriq ilən. Və evlərindən şəm hasil olmaz və bal dəxi verməz və qalan əhvalı böylədür. Dəxi sordular ki, ya Şeyx, bu müridlərün əhvalıdur, şeyxün əhvalı dəxi necəlik ilən məlum etməq olur? Buyurdı kim, nəhlün sultanı əmri iş buyurmağ və dad vermağdur və ədəblər ögrətmək. Hanğı yerdə kim, bu müamilə müşahidə qılurlar, məlum edərlər.

**Beyt:**

Sözlərində bir həlavət var kim, arif bilür
Dadı anun, yoxsa hər namərdi-cahil nə bilə?

**Hekayət.** Urumlu Cəmaləddin dedi kim, məğfuri-məbrur Xacə Mühyiəddinün (r.r.) vəfatından sonra Makulu Mövlana Cəmaləddin həzrət Şeyxün xidmətinə gəldi. Yasin verməgə və hal ol kim, anun dəxi bir oğlı ölmişdi və bu matəmdə igən pərişan idi və ağladı ol qədər kim, həzrət Şeyxi dəxi ağlatdı. Sonra sual qıldı kim, çün biz qamumuz bilürüz kim, ölüm haqdur, gərək idi kim, yanımızda ölüm məkruh dəgül ola idi. Həzrət Şeyx (q.s.) buyurdı kim, Mövlana, bilürüz kim, ölüm haqdur və hər bəndənün iki evi var: biri dünyada və biri axirətdə. Və biz gəlmişüz kim, axirət evi məmur edəüz. Çün nəfsani ləzzati ilən dünyanun

imarətinə məşğul oluruz, şəksiz, axirətün imarəti fövt olur və bilirüz kim, ol yanun imarəti xərabdur. Bir kimsə kim, abadanlıqdan xərabaya varmağı gərək, xatiri pərişan və qayğulu olur. Mövlana saətdə həzrət Şeyxün ayağına düşüb tövbə qıldı və təlqin aldı.

**Beyt:**

Qatı işdür gülüstandən külxanə varmağ, könül,
Səy qıl kim, gülüstanə qılasan bir doğru yol.

**Hekayət.** Həm bu Urumlu Cəmaləddin dedi: "Çün Şeyx (q.s.) Urumi şəhərinə vardı, bitün danişməndlər Mövlana Səlahəddin kimi və şəhid Mövlana Sədrəddin təki kim, şəhərün müftiləri idilər və Əsəs Mövlana Məcməddin və Şeyx Müinəddin həzrət Şeyxün qulluğına ziyarət qılmağa vardılar. Və bunlardan neçəsi imtahan üzərinə gəlmişdilər və günortanun namazı çağı idi. Cəmaət namaz qıldılar. Qəzadan pişnamazlık edən kişi əvvəlki təşəhhüdi unudub, ayağa qalxub, üçüncü rükət ilə dördünci rükəti tamam edüb salamdan sonra səhv səcdəsin qıldı və salam verdi. Çün namazdan fariğ oldılar, həzrət Şeyx (q.s.) dedi: "Bu qədər ki, namaz qılubəm, hərgiz muncılayın namaz qılmayubəm". Pişnamaz dedi: "Səhv eylədüm, andan ötrü səhv səccadəsin qıldım". Həzrət Şeyx dedi: "Bilürəm, amma qalx kim, yenidən namaz qılalım ki, mən bu parə-parə namazı sevmənəm". Əlqissə, qalxubəni yenidən namaz qıldılar. Həman kim namazdan fariğ oldılar, Əsəs Mövlana Məcməddin dedi: "Həzrət Rəsulüllahun (s.) ikindi namazında, haşa səhv oldı və əvvəlki təşəhhüdə salam verdi və çün səhabələrdən Zülyədeyn adlı xəbər verdi və təhqiq qıldı, qaxub namazı tamam əda qılub və səhv səcdəsin qıldı. Əcəb ki, həzrət Şeyx əvvəlki namazı bəgənməyüb yenidən namaz qıldı?"

**Cavab:** Həzrət Şeyx (q.s.) dedi: "Ol nəstə kim, zahir namazdan məlum etdilər, eylədür və şəraitdə yaxşıdur və andan heç bəhsimiz yoxdur. Amma muni bilürsiniz kim, peyğəmbərlər ilə imamlara səhv ilə xəta və nisyan etmək olmaz və həzrət Rəsulüllahun hər namazı bir merac idi və ol həzrətün namazı məna üzərində batində merac idi və zahirdə namaz surəti. Və çün

Rəsulüllahun (s.) ol namazda uzun seyri vaqe oldı, əvvəlki təşəhhüdə məcmui-meracun keyfiyyəti hasil olmışdı, andan ötrü salam verdi. Amma çün zahir qaidəsinə baxdı, əvvəlki təşəhhüd idi, zahir vəzifəsi dəxi riayət qıldı kim, zahirdə heç xələl ilə nöqsan tapılmaya. Amma səhv səcdəsi anun içün qıldı, ta dinün müddəiləri dində tənə urmayalar və özlərindən təzvir ilən mühal nəstələri bağlamayalar, amma sufilərün məzhəbi böyləfür kim, böylə səhvlərə böylə şərh ilə tövcirlər edərlər. Mövlalar həman kim, muni eşitdilər, qamu tövbəyə gəlüb ramazan ayında xəlvətdə oturdılar. Mövlana Salahəddin ilən Mövlana Xasbəgün işləri açulub mötəqidlərdən oldılar. Pəs, Şeyxdən sual qıldılar kim, mürşidligün nişanəsi nə nəstədür? Buyurdı kim, böylə ki görərsiniz, yəni inkardan sonra etiqada gətürən.

**Beyt:**

Ruh ilə könüllərün qutidürür böylə kəlam,
Adəmün canü dili bu danədən düşər bə-dam.

**Hekayət.** Xətib Mövlana Məhəmməd ilən Dehxuda Məhəmməd rəvayət qıldılar ki, bir danişmənd həzrət Şeyxdən sual qıldı kim, zina əməli kim bəndədən sadir olur, Tanrınun (c.c.) anda rizası var, ya yok? Həzrət Şeyx (q.s.) dedi: “Yok”. Ol kişi dedi kim, pəs qüdrət ilən hərəkət neşün verür?

**Faidə.** Həzrət Şeyx (q.s.) buyurdı kim, ol hərəkətün yaradanı oldur “**Vəllahü xələqəküm və ma təməlunə” [**Allah sizi də, sizin düzəltdiklərinizi də yaratmışdır. (*Səffat surəsi, ayə 96*)]. Neşün ol hərəkəti halal yerdə xərc etməyəlim, ta andan bir fərzənd vücuda gəlüb müsəlmanlarun mənfəəti səbəbi ola.

**Beyt:**

Hər yamanla yaxşı Tanrı yaradupdur, bil, vəli
Yaxşılığ Andan, yamanlığ bəndədən görmək gərək.

Sonra həzrət Şeyx (q.s.) anlardan sordı: “Məvali, sizin yanınıza kimə əhl derlər?” Dedilər: “Ol kimsəyə əhl derlər kim, elmdə bəqayət səy eyləmiş ola”. Həzrət Şeyx (q.s.) dedi: “Məşayixi-təriqət eylə kimsəyə əhl deməzlər, bəlkə əhl bir kimsəyə itlaq edərlər kim, ol iki aləmi tərh edüb ayağı altına gətürmüş ola və hal ol kim, eylə kimsə həzə yarımmərddür.

**Beyt:**

Bundan qamu həfü surətün aləmidür,
Sonra səfəri aləmi-mənidə olur.

Məvali dedilər: “İki aləmin yuxarusında nə nəstədür?” Həzrət Şeyx (q.s.) bir təbəssüm qılub dedi: “Məvali, bir nəstə veriniz, ta mən deyim”. Əlqissə, ol gün keçdi. Danlası ertə məvali həzrət Şeyxə gəldilər. Həzrət Şeyx (q.s.) buyurdı: “Məvali, sordugüniz əmanətdür. Qamu kimsəyə demək olmaz: **“İnnəllahə yəmürüküm ən tüəddul-əmanat ila əhliha”** [Allah sizə əmanətləri öz sahiblərinə qaytarmağınızı əmr edir (*Nisa surəsi, ayə 58)*]. Çün kişi ol aləmə qədəm basa, andan ana xəbər verürlər”.

**Beyt:**

Kəbənün təvafın yabandə eyləmək olmaz, bilün,
Kəbəyə varun, görün, andan təvafini qılun.

**Hekayət.** Hacı Əli öz atasından Pirə Nəcib rəvayət edir kim, iki danişmənd Kəlxoran kəndindən həzrət Şeyxün xidmətinə yetdilər. Anlardan birisi dedi kim, ya Şeyx, bir yerdə yazılmış gördüm ki, hər yüz yılda Tanrınun məhəbbində bir yel qopar kim, hər kimün yüzinə dəgdisə, məğfur olur və Allah-təala hər yüz yılda bər-həsbi: **“İnnəllahə yəbəsü lihazül-ümməti əla rəisi külli miəti sənətin mən tücəddid ləha deyənha”** [Həqiqətən, Allah bu ümməti hər yüz ildən bir dirildərək onlara dinlərini təzədən xatırladar, öyrədər]. Bunların nə mənası var?

**Faidə.** Həzrət Şeyx (q.s.) buyurdı: “Bəli, hər yüz yılda Tanrı-təala bir könül iyəsi zühura gətürür ki, hər kim anun nəfsin qəbul eyləyə və mütabiətin qıla, Allah-təala anı yarlığaya.

**Beyt:**

Əhli-dil İsa kimi dürüldür ölüyi, yəqin
Yarlığar Tanrı suçin hər kim kəlamin anladı.

İkinci danişmənd yaman məzhəblü idi və məzhəbin gizlədi. Dedi: “Ya Şeyx, həzrət Fatimeyi-Zəhrayi (ə.s.) vaqiədə gördüm kim, başını bir göy micər ilən örtmiş idi”. Həzrət Şeyx (q.s.) buyudı: “Ol qiyamətün xatunı və ümmətün şəfaçisidür, amma bu duşi görənün etuqadında xələli var”. Ol danişmənd arı etiqad ilən

qalxub başını həzrət Şeyxün ayağına qoyub dedi: "Böylədür kim, həzrət Şeyx buyurur.

**Beyt:**

Xəffaş ki, gözlərində zülmət vardur,
Günəş nuri gözi bilə görməz olur.
Ol kimsələrün mədhi necə kimsə desün
Kim, Müşhəf çində Tanrı, anlar ögünür.

## Üçüncü fəsil

## Məşayixin sözləri ilə ibaratı təhqiqi kim, həzrət Şeyx Səfiəddin (q.s.) buyurupdur həzrət Şeyx Sədrəddinün rəvayəti ilən

### Vəqtün təhqiqində

Həzrət Şeyx (q.s.) buyurdı kim, vəqt bir halətdür kim, həzrət Tanrı-təaladan kişiyə enər və elə ol həman andadur, eylə ki Həqq-təala yaradılmışlarun əhvalı müqəddər eyləyübdür iman ilə küfrdən və səadət ilə şəqavətdən və baylığ ilə yoxsulluğdan və sayrulığ ilə sağlığdan və şadlıq ilə qayğudan və təqdir qiyməti anun ilən boğaz eyləyübdür və bəgəsbi **"Küllə yövmin hüvə fi şənin"** [O, hərgün bir işdədir (*Ər-Rəhman surəsi, ayə 29*)]. Həqq-təala anları hər biri öz vəqtində zühura gətürür.

**Beyt:**

Qeybnün nəqşi ki, vardur pərdeyi-təqdirdə
Hər biri öz çağidə bişəkkü reyb eylər zühur

Və **"Əl-vəqtü seyfün qatiün"** [Zaman iti qılınc kimidir] mənası xud həman budur ki, çün bunlardan birisi zühura gəlür, hər nə kim sonradur, ilərüsüni kəsdürür, eylə kim gecə ilə gündüz ki, həman kim gecə gəlür, gecənün qaranluğı ilən gündüzün aydınlığı qət eylər və həman kim gündüz olur, gündüzün nuri gecənün qaranğuluğını gidərür: **Əl-ümrü bəqrün lamiün vəl-vəqtü seyfün qatiün**. Və bu ki, sufilər deyübdürlər: **"Sufi ibnül-vəqt"**dür, mənası budur kim, ol qarın kim, qismət hamilə-

dür, bu vəqtdə anun içün nə doğar? Əgər fərəh doğar, ol anun fərzəndidür ol çağadəkin ki, ibnül-vəqt bərtərəf ola və munun kimi qamu əhval, gərək yoxsullığ olsa, gərək baylığ ya sayrulığ, yoxsa əsənliğ və qeyriha.

**Beyt:**

Eşqdən doğduk, qamumiz eşqnün uşağiüz,
Zinhar, ey vəqt iyəsi, eşqsizliğ demə söz.

Gərək kim, vəqt iysinün vəqt çağından ehtiraz eyləyələr kim, olmaya kim, ol vəqt qeyrət vəqti ola və zərəri ana yoluxub naçiz eyləyə.

**Beyt:**

Qəmzeyi-xunrizi hər qaçan ki çəksə navəki,
Kim qılur güstaxlığ, öz canı ilən oynadur.

**Məqamun təhqiqində**

Həzrət Şeyx (q.s.) buyurdı kim, məqam durmağ yeridür və dünyanun uşağlarınun məqamı həm dünyadur ki, özlərinə iqamət mənzili qılubdurlar ömri qədərincə və taət ilə məişətin kəsbi qədərincə kim, əgər taəti kəsb eyləmiş ola, anun yeri cəhhətün dərəcatında ola və əgər günah ilə məsiyət kəsb etmiş ola, yeri damunun dərəkatında ola.

**Beyt:**

Görgil ki, məqamun nərədə yapupsən?
Uçmağ ilə damu, hanğısın tapubsən?

Amma süluk əhlinün məqamı uca himmət ilən anun cəhdindədür və əsl məqsədi tələb etmək. Əgər nəuzübillah, şeytani anı sirati-müstəqidən özgə yola apara, anun məqamı ol ola və əgər himmət başı dəxi sirati-müstəqimə endürməyə, saliki-təmam ola, ol qədər kim, məqsədə yetə və təmkin iyəsi ola, pəs anun məqamı ol ola.

**Beyt:**

Himmətün rəxti çu bu yerlərdə baş endürmədi,
Bir məqamə yetəsən kim, anda yok bimi-zəval.

Və bir kimsə kim, sülukda lətif məqamatda kəşf ilən kəramat və qədəm kimi, ya bir aləm cinnilərün aləmlərində, ya mələk ilə ruhanilərün mənzili kim, ol uçmağ ilən uçmağun datlu nəstələri ola, hur ilə qüsur kimi və yeməklər ilən içməklər başın endürə, anun məqamı həman ol ola. Və məqamun nəhayəti ol qədərdür kim, yolıdur və mənzili ilən yol ol qədərdür kim, məkandur. Həman kim məqamı tükətdi, dəxi məqam yoxdur və mundan sonra seyr olur, süluk dəgül.

**Beyt:**

Dilbərün kuyinədək var uzağ yol korada,
Məqsəd ilə yolü mənzil qamu andadur hicab.

**Hekayət.** Həzrət Şeyx (q.s.) buyurdı kim, məqam kəsb ilən hasil etmək olur, amma hal kəsb ilən hasil olmaz və ol Tanrınun ətasından olur kim, çün birində riyazət çəkməgə layiq görür, öz fəali ilən Tanrı sübhanəlü və təala ana hasil edər. "**Zalikə fəzlüllahi yütihi mən yəşaü vəllahü...**" [Bu, Allahın lütfüdür, onu istədiyinə verər. Və Allah... (*Maidə surəsi, ayə 54*)]. Və buyurdı kim, bizim bir vaqiəmiz vardur və vaqiə ol ola kim, salik səy və kəsb ilə öz mənzilində uyxunun arasında qərib şəkillər ilən rənglər görər öz məqamında və mənzillərində. Əql anı nəqşbəndlik eyləyüb təəqqül edər və həman kim anı surət aləminə gətürə, ana vaqiə derlər və anun gərçəkliğində heç xilaf yoxdur və əqlün mədxəli ol yerdə dəxi yox.

**Şeir:**

Hər nə kim, əql anı nəqş etdi, gətürdi surətə
Andan ayru eşqnün çok vəz ilə halati var.

Amma hal kəsb və səy ilən olmaz və çün halun enməgi çağı ola, əql anda yol bulmaz və vaqiəsi örtülür və halun enməgi gah ola kim, türkənlik ilən ola və vəqt ola kim, gecikə və çox zaman qala və bu çox zaman qalduği qələbatda ola ki, halun sultanı ana qalib olmış ola və hal iyəsi tərəqqidə ola haldan hala və sifatdan sifata və halun iyəsi bir halda qalmaz. Necə kim, haldan hala tərəqqi eylər və hal günəşün şövqi ilə nurinə bənzər kim, yemişlərün daşına-içinə girüb anları bişirür və əsər edər, ta kim rəng ilə qoxu və təm ilə datı təmam edər və bişürür. Həman kim püxtə

oldı, yekrəng və yekcəhət olur və əhvalda qəmgin olur, ol çax təlvindən çıxmış ola və təmkin iyəsi olmuş ola:

Ta təcəllinün şərabı nuşi-can etdi könül,
Ol şərabun dadlığından həşrədək sərxoş qalur.

**Heybət ilə ünsün təhqiqində**

Həzrət Şeyx (q.s.) buyurdı kim, heybət ilə üns qürb ilə vüsal əhlünün məxsusidür, eylə kim bir padşahun padşahlığı və əzəməti ilə şövkəti avazəsi eşitmiş ola və andan bir heybət ilə qorxu anun könlində düşmüş ola və həzrətinə varmağ qəsd eyləyə, nə qədər ki yaxınrak ola, heybəti artuğraq olur. Həman kim ol padşahun ordusuna yetə, heybəti arta və çün padşahun divanxanəsinə yaxunlaşa, heybəti dəxi arta. Amma çün padşahun xass hərəminə yetə və padşahun əzəməti ilən səltənəti görə, qorxu ilən heybət anda qalib ola və vəqt ola kim, sultanun heybət ilə əzəmətindən özündən qafil qala.

**Beyt:**

Aşiq ər qaldı özündən qaib, anı qılma eyb,
Özini itirməyüb məşuqə görsətməz cəmal.

Amma çün neçə qatla məclisinə varub, padşah anunlən oynayub tələttüf edə, ol vəhşət andan gedüb heybəti üns ilən mübəddəl olur.

**Beyt:**

Aşiqin canı nigarun vəslinə çün buldı üns,
Qeyrdən qeyrətlü olur, özidən vəhşisifət.

Bu dəlil ilən üns heybətdən hazırrak ola və yaxınrak və üns iyəsi dəxi yaxınrak. Pəs, əgər ünsün iyəsinə aləmün bəlası yağışı başına yağa, zərrəcə ünsün səfası qararmaya.

**Beyt:**

Hər bəla kim gəlsə dilbərdən, qənimətdür mana,
Gər əzabü zəhmət olsa, cümlə rahətdür mana.

Amma heyrət iyəsi orta ola heybət ilən ünsün ortasında və anlar kim, heybətdə qalmış olalar, eylə heybətün dənizində

müstəğriq olalar kim, təfərrücə pərva etməyələr padşahun cəmal ilə kəmalı və səltənəti zinətindən. Və heyrət əshabı həm ortadurlar və eylə qərq olubdurlar kim, görələr və eşidələr və bilməyələr kim, nə görərlər və nə eşidərlər və deyələr və bilməyələr ki, nə derlər və aşiq olalar və bilməzlə kim, kimə aşiqdürlər və bilməzlər kim, özlərindədürlər, ya yok və müsəlmandurlar, ya kafir və islam və küfrün arasında fərq edəməzlər. Və q.s. bu beyti inşa qıldı

**Beyt:**

Aşiqəm, amma kimə, heç bilməzəm,
Nə müsəlmanəm, nə kafir, pəs nəəm?

Amma ünsün əhli həzrətün lütf və şəfəqqəti ilən bu halətdən qurtulub həzrətün lütfi ilə üns dutmış olalar.

**Beyt:**

Dustun lütfilə ol qədər vəslində üns
Közgənün hərgiz xəyali xatiri etməz xəyal.

## Təcavüd ilə vəcd və vücudun təhqiqində

Həzrət Şeyx (q.s.) buyurdı kim, təcavüd mübtədilərün olur və vəcd ortalarun və vücud müntəhilərün. Təcavüd əhlinün bir titrəməgi olur isitmə, anun içün kim, könli mərəzdən qurtulmuş ola, amma bəkülli səhhət ilə qüvvət bulmamuş və hər babdan qəflətə yoluxmış ola. Eylə ki bir sayrunun cəsədinə titrəmək qalib olub güclü olmış ola, həman ki isitmə ilə titrəməgün səsin eşidə, titrəməgə düşə və səma ilə hərəkətlər kim, andan zahir ola, təkəllüflü ola. Eylə ki bir zəif bimar ki, sayrulığı sağalmağa yüz urmış ola və bu halət sayrulığı ilən səhhətün ortasındadur, munda dəxi bir hərəkət var təvacüd ilə vəcdün ortasında və bu kimsə əgərçi vəqt anı sışradur və zövqə gəlür, amma ixtiyarı əlində ola:

Yəxəsini dutar öz əli ilən,
Gəlür meydanə ərlər kimi türkən.
Nə qəhr alur əlindən ixtiyarı,
Nə vardur ixtiyarı, etibarı.

Amma vəcd bir kimsənündür kim, ixtiyar iyəsi ola. Və vəcd iyəsi bir kimsədür kim, könli sayrulığdan səhhət tapılmış ola və cismaniyyəti ruhiyyə dönmiş ola və könli Tanrıdan gəldügi məhəlli olmış ola. Həman kim varidat, yəni gəldügi ana varid və sultan anun halı güclü qılmış ola, anun hərəkəti güclürak və ixtiyarı qatırak ola və əgər zəifrak ola, hərəkəti dəxi zəifrak ola, dəgirmənün çarxı misalı kimi kim, əgər su ki, dəgirmənün hərəkəti verən və çevirəndür, artuq və güclüdür, dəgirmanün çevrildügi tezrakdur və ol ağır daşı yünülrak gəzdürür. Həm böylə vəcdün iyəsinə çün varidatı qüvvətlüdür, cismaniyyəti ağırlığı tezrak və çüstrak gəzdürür. Və vəcdün iyəsi öz ixtiyarı əlində dəgül və vəqt ola kim, vəcdün artuqluğundan və varidat ilə hal qüvvətlügindən eylə ussuz-ixtiyarsız qala kim, əgər bir yara ana uralar və ya gövdəsindən bir üzvi kəsdürələr, anun heç xəbəri olmaya. Amma həman kim, bir laçınun gözü tumağəli ola, həman kim anı başından götürələr və anun avı görsədələr, laçın həman kim öz avını görə, adətincə uçub qərar dutmaya, öz avını almayınca. Pəs, vəcdün iyəsi çün qəvvaldan bir nəstə eşidə kim, anun mənzili ilə məqamından xəbər verür, ruhaniyyət qüvvəti ana qalib olub, ol tumağəyi gözindən qalxa və məqamatı ilən halı ana məkşuf ola, ana vəcd derlər. Pəs, vəcd iyəsi öz halı ilə vəqti yaxşıca zəbt eyləyə, ta halı ilə vəqti muradınca sürə və həman ki vəqti axır ola, qayıda.

**Beyt:**

Çünki laçın seydi ardınca gedə,
Alubən avı yerinə qayıda.

Amma vəqt iyəsi öz halı ilə vəqtinün zəbtin eylər və iradə ilə ixtiyar anun mələkəsidür və cilovı əlində əgər istər, ol halda hərəkət eyləyüb tərpənür və əgər istəməsə, eyləməz, amma bir yerdə kim sakin olur, özini yerdə və yeriməkdə görür zahirən hərəkətsiz. Eylə ki, Əbülqasim Cüneyd Bağdadi bir səmada heç hərəkət eyləməz idi və anun müridləri ilə məşayix ki, hazır idilər, qamu səmadə və vəcddə idilər, Şeyx Cüneydə dedilər: “Neşün sən heç tərpənməzsən?” Buyurdı kim, siz nərədən məlum etdiniz ki, mən heç hərəkət eyləməyüb, tərpənməzəm. Dedilər: “Biz

munda heç sənün hərəkətün görmədük”. Dedi: **“Və təral-cibalə, təhsəbüha camidətən və hiyə təmürrü mərəs-səhabi**”, yəni siz dağlar kim, görərsiniz, sağınırsınız kim, bir yerdə durub sakindürlər, hal ol kim bu dağlar bulutlar kimi seyrdədürlər. Və həzrət Şeyx (q.s.) bu vücuda məqam haləti deyübdür, yəni hər yerdə ki, var, öz çağında enər, anun içün kim, vəcd əhlinün heç ixtiyarı yoxdur vəcd ilə halı gətürməgə və vücud əhlinün var və bu ixtiyardan ötrü vücud halına yetər, əgər hərəkət eyləyə və əgər eyləməyə. Dəxi buyurdı: “Təvacüd bir səmadur gövdə ilən və vəcd bir səmadur könül ilən və vücud bir səmadur ruh ilən və təvacüd iyəsinün həman ki, haləti zahir olur, əgər ol qədər hərəkət eyləməsə kim, anun hiddət ilə tündliğin bir yan eyləyə, gövdəsinə zəhmət dəgər. Və vəcdün iyəsi əgər andan ilərü kim, ana bir halət enə, özini saxlayub bir hərəkət etməyə, könli andan incinə və ufana və vücud əhli əgərçi kim ixtiyar əlindədür, amma əgər ol ruhaniyyət mütabiəti ilən ol dat ilə hüzur və zövq ilə sürur kim, andadur, etməsə, ruhinə pərişanlik ilən xəstəlik düşər. Məsələn, bir quş kim, uçmaqda igən uçqun ola, ya bir kişi seyrdə yeldən dəxi yerigən ola, əgər bir kimsə anları uçməkdən, ya yeriməkdən mən eyləyə, ol saətdə uçana və yeriyənə çox-çox məlalət ilə pərişanlığ yetər. Və bu üç növ səma mübahdur və təcavüdün səmai ammə sufiləründür və vəcd səmai xassə sufiləründür və vücud səmai xassül-xassə sufiləründür və əvam xəlayiqün səmai həm böylə üç qisimdür: biri, ayağ yerə urmaq və ikincisi, oynamaq, üçünci, adət. Amma ayaq yerə urmaq oldur kim, oynamagə varub yağluğ ilən eylə kim bidət əhli ərkək ilən dişlərdə var və oynamagun səmai ilən kim, bidət əhlində var kim, yigitlər yatub başları bir-birinün ayağlarına qoyalar və təkəllüf ilən bir-birini qucağlarlar və oynamagə çəkərlər və nəfsani ilən şəhvani hərəkətlər peyvəstə edərlər. Və adətün səmai eylə kim fisq ilə fücur əhlinün adət ilə rəsmidür kim, məclislərdə kim, dişi xatunlar və saya oğlanlar hazırdurlar, anlara baxıcıdurlar və bu üç növ səma sufilərün yanında haramdur, amma mübah səma könül iyəsinün mütabiətin eyləmək gərək kim, anun zövq ilə sürəri qamu Tanrı-təaladandur.

**Beyt:**
Hər vəcd ki, Tanrıdən irağ, böhtandur,
Hər zikr ki, qeyri-Tanrıdur, nisyandur.

**Cəm ilə təfriqənün təhqiqində**

Həzrət Şeyx (q.s.) buyurdı kim, cəm ikidür və təfriqə iki. Əvvəlki təfriqə oldur kim, dünyanun əlayiq ilə əvayiqi və nəfsanlığı bilə xatiri mütəfərriq və pərişan olub, nəfs anı öginə alub məşğul edə. Xaçan kim özini ol təfriqə ilən pərakəndəlikdən cəm edə və nəfsani təfriqəni nəfy edüb gidərə, ana əvvəlki cəm derlər və bu mərtəbə mücahidlərün, yəni qazi salikləründür ki, nəfs ilən cihaddadurlar ki, saətfəsaət nəfsalığ həva ilə həvəsi nəfy edüb sürərlər. Və bu əvvəlki cəm mənzilə yetənlər ilə kəmal əhli yanında təfriqədür andan ötrü kim, həzə özinə məşğuldur və kəndüyə məşğulluq təfriqədür.

**Beyt:**
Salik ol dəm cəm olur kim, kəndüsindən dışxaru
Seyr edə ol vadidə kim, kəndüsini itürə.

**Cəmi-cəmün** təhqiqində kim, əvvəl cəmi-cəmdür, oldur kim, kişi özindən alub Tanrı-təalaya məşğul ola. Pəs, əgər daim cəmi-cəmdə ola, ol bir qeybətdür bəşəriyyətdən və şəriətün ehkamı ilə əmrinə qiyam edəməz və əgər həmişə özinün, ya özgənün təfriqəsində ola, ol haldan məhrum ilə hicablı qalur və mərifəti hasil olmaz. Pəs, gərək kim, zərurətdən bir çağ cəmdə ola və bir çağ təfriqədə. Eylə ki "Səhihi-Müslim"ün kitabında var kim, həzrət Peyğambər (s.) buyurmuş Hənzələ ibn ər-Rəbi əl-Əsədiyə: **"Vəl-ləzi nəfsi biyədihi löv tədumunə əla ma təkununə indi və fiz-zikri ləsafəhətkümül-məlaikəti əla fürişiküm və lakin, ya Hənzələ, saətən səlasə mirarin"** [Kim Məni tutarsa və həmişə Mənim yanımda olarsa və Məni zikr edərsə, mələklər onları yataqlarında da, yolda gedərkən də müşayiət edər, lakin ya Hənzələ, saatda üç dəfə]. Və dəxi vəhyün nüzuli çağında kim, həzrət Peyğambər əleyhissəlam dünyadan nəql edərdi, xatununa dedi: "Kəllimini, ya Hümeyra", eylə kim,

hədislərdə var kim, əgər həmişə ol halda qala idi, bitün himməti anun din irşadı ilə təlimindən məhrum qalurlardı.

**Beyt:**

Gər qalaydı daima ol cəmi-cəmün içində,
Necə hasil olur idi ümmətün islahini?!

**Fəna ilə bəqanun təhqiqində**

Həzrət Şeyx (q.s.) buyurdı kim, hər ölümün bir fənası var, amma hər fəna ölüm olmaz və bu taifə surətün bəqası bəqa saymazlar. Anun içün kim, hər kim dirilik əbədi bəqasından hasil etməmiş ola və kəndünün könlini dirildürməmiş ola və könüllü olmış ola, əgərçi məhşərdə dirilə, həman ölü könüllik həsrəti anda qalmış ola və zindədillik neməti andan fövt olmış ola.

**Beyt:**

Kim ki, qoxu almadı bu dirilikdən, ey oğul
Bil ki, ölü doğdı, ölü qaldı, murdar oldı ol.

Amma bu taifənün bəqası fənadur, yəni ta kimsə kəndüdən fani olmaya, baqi olmaz kim, **"həyati fi məmati və məmati fi həyati",** yəni mənüm diriligüm ölümümdədür və ölümüm dirilügümdə. Və "mutu qəblə ən təmutu"dan murad bəşəriyyət fənasıdur, yəni nəfsani sifatindən ölüniz andan ilərü kim, ölüm gələ və dirilün andan ilərü kim, bu sifatun ölümi gələ, yəni ölüm ilən gor və qiyamət ta yəqin əhlindən olasınız və qeybiniz iman ilə yəqinə dönsün. Və q.s. buyurdı kim, kişi ta kəndünün nəfsani faidələrindən fani olmaz, bəqa məşrəbindən zövq ilə bəqa şərbətin işəməz.

**Beyt:**

Nəfsnün faidəsindən keçə gör, fani ola,
Ta bəqadan içəsən zövqü səfa şərbətini.

Və həm böylə buyurdı kim, fani ilə bəqa üç növdü: surətün fənasıdur, andan sonra sifətün bəqası, yəni ta surətdən qaib olmaz sifəti-seyran ilə təfərrücə gəlməz. Və dəxi sifət surətinün fənasıdur kim ruhun bəqası andan sonradur, yəni bəşəriyyət sifətindən kim, ol mütləq sifətdür ki, əqlü hiss və vəhmü xəyal

anun yoldaşıdurlar, ta ol xəyaldan qaib olmaz, ruh məna aləmində eşq ilə baqi olmaz.

**Beyt:**

Könül quşi ki, qaib olmiş idi,
Genə eşq ilə gəldi yuvasinə,
Uçubən eşqi aldı biləsincə,
Xirədlə candən imdi assısi nə?

Dəxi ruhun fənasıdur Həqqün bəqasına, ta kəndüdən təmam fani olmayınca Tanrıya baqi olmaz və ta öz həstiliğindən bəkülli fani olmaz, Tanrınun həstliğinə yetməz.

**Şeir:**

Həqqə baqi olmağ istərsən, özündən fani ol,
Ta könlünün bağçəsindən açıla yüz türlü gül.

**Qeybət və hüzurun təhqiqində**

Həzrət Şeyx buyurdı ki, qeybətün bir növü oldur kim, surətdən qaib olalar. Və bir növ dəxi oldur kim, könüldən qaib olalar və böylədür kim, bir heybət ilən qorxu damudən, ya özgə nəstədən, ya kəlamüllahdən bir ayət eşitməkdən kəndü surətindən qaib olurlar. Və bu surətün qeybəti böylədür ki, hərəkət ilə tərpənməkdən qala və bu halətdə vəqt ola kim, könül ilə hazır ola və vəqt ola kim, könüldən dəxi qaib ola və muna suri qeybəti derlər və ol kim, könül dəxi qaib olur, Tanrınun əzəmət ilə heybətindən ola və: **“Vələmu ənnəllahə yəhulü beynəl-məri və qəlbihi”** [Bilin ki, Allah insanla onun qəlbi arasına girər (*Ənfal surəsi, ayə 24)*]. Amma hüzur çün kəndüdən və xəlqdən qaib olur, Tanrıya hazır olur və bu mərtəbəyə mühazirə ilə hüzur derlər.

**Səhv ilə sükrün təhqiqində**

Həzrət Şeyx (q.s.) buyurdı kim, səvh əql ilə bəşəriyyətün aləmüdür və sükr eşqün aləmi. Və hər kim səhvdə, yəni huş-yarlıqda ola, əql ilə bəşəriyyətün aləmində ola və kəndüyə və qeyrə və dünya ilə axirətün əhvalına məşğul ola. Və bu ixtiyar

aləmüdür. Və sükr, yəni əsrülik eşqin aləmidür. Həman kim, eşq aləminə yetdi, eşqün həvası anda əsər eylər və çün eşqün sükr ilə əsrüligi göründi, sərxoşlarun bixudlığın zahir olur, amma həman kim, əsrüligi artdı, əql andan qaçup bucağa varur.

**Beyt:**

Çünki eşq aslani könlün bişəsində dutdı yer
Əql andan tilkü dək qaçər, dəlüginə girir.

Və hər kimün məstliği eşqnün şərabı qədərincədür və nə qədər kim, şərabı çoxrak, sərxoşlığı dəxi artuğraq. Amma həman kim, sükri kəmal həddinə yetdi, qeybət gətürür. Və əgər kəmal həddinə yetməmiş ola, sükr qeybətdən artuqrağdur. Və ta kimsədə bəşəriyyət sifati var ola və əql ilə vəhm və hiss ilə fəhm anunlən bilə ola, bunlar ilən eşq aləminə qədəm qoymaz, zira kim eşq aləmi öldürəndür və ölmək əql ilə bəşəriyyətün sifətidür.

**Beyt:**

Böylə məclisdə ki, mey qandur, əyağ baş kasəsi,
Aşiqi-sadiq gərəkdür, yox hərifi-sərsəri.

Və kişi eşqün çaxırı içməyincə bəşəriyyətün əqli ilə sifati bucağa girməz və sükrün cürəti ilə bəhadurlığı anda görünməz. Amma haman kim, eşqün çaxırı içdi və əql ilə bucağa girdi və sükr güclü oldı, ol aləmə ayağ basar və ta sərxoşlığda yürəklü olmayınca can ilən həstliğin bir yan eyləməz və həqiqətün dənizində qövs edəməz və həqiqətün qapusına yetəməz:

İxtiyarum əllərümdə var idi mey içmədin,
Sərxoş oldu, urdum iki aləm üsnə püşti-pay

Və sükr iyəsiləri ixtiyarsızdurlar və anlardan tərbiyət ilə irşad gəlməz.

## Zövq ilə şürbün təhqiqi

Həzrət Şeyx (q.s.) buyurdı kim, zövq ilə şürb təcəlli ilə kəşfün nəticəsidürlər və təcəli ya nurludur, ya suri. Əgər təcəlli nurlu olsa, mənaları bilməkdən məaninün zövqindən hasil olur və çün kişi andan qayıda, bir zövq ilə hüzur və şadiliq ilə sürur anda var. Və əgər təcəlli nuri olsa, məani şahidün zühurindən olur və

anlarun müşahidə ilə kəşfində və anlarun röiyyəti ilən vüsalun varlığı hasil olur və anlarun vüsalı görməkdən şərab lazım gəlür. İmdi bu şürb ilən şərab üç qisimdürlər. Bir qism mömin ilən sufiyi-əvamundur kim, ol "şərabən təhura"dur və anı içməkdən vüsalun tələbi və təmənnası hasil olur. Və ikinci qism bir şərabdur kim, Tanrı-təala anı kəndü xass bəndələri içün saxlayubdur kim, ol eşq ilə məhəbbətün şərabıdur və anı içməkdən "masivəllah"ı tərk etmək və Tanrıya hasil olur. Və üçünci bir şərabdur ki, Tanrı-təala kəndü xassül-xass bəndələri içün mühəyya qılupdur və ol, mərifət şərabıdur ki, müayinə məşrəbindən içərlər və safi olub könülləri təskin bulur və bu çaxırun sükri yoxdur.

**Beyt:**

Ol şərabi-xasdan kim, camı yok qeyri-vüsal,
Məstivü bəzmü şərabü cam olur anda hicab.

Və şərabin şürbi dəxi təfavüt ilən kişinün hövsələsi qədərincədür, yəni nə qədər kim hissi odı artuğraqdur, şürb ilə zövqün məhəlli çoxraqdur və çaxır içməkdə əyağ ilə peymanə və küp vardur. Əyağ ərləründür və peymanə ilə küp kamil ərləründür. Və zövq dəxi iki növdür: bir zövq var ki, məaninün əhvalı zühurindən hasil olur və bir zövq var ki, şürbdən hasil olur və "şərabən təhura" şürbindən vüsalın tələbi və təmənnası hasil olur və eşq ilə məhəbbətün şərabı şürbindən qamu ləzzatun tərki hasil olur və həqiqətün mərifəti və həqqi hasil olur.

**Beyt:**

Çaxirimiz rümuzdur, vəchi-həbib rövzəmiz,
Nüqlimiz oldı sirr sözi, nəqlimiz oldı zikri-dust.

**Məhv ilə isbatun təhqiqində**

Həzrət Şeyx (q.s.) buyurdı kim, məhv iki növdür. Biri oldur kim, Tanrı-təala anı məhv ilə yok edüb kəndü həstligini isbat edə. Və dəxi oldur ki, bəndə öz səy və cəhdi ilən məhv ilə isbat eyləyə kəndüsini məhv edə və Tanrı-təalanı isbat edə və gərəkməz sifatları məhv edüb özindən gidərə zahir ilə batinindən və gərəklü sifatları isbat eyləyə və təbdil ibarətinün mənası budur. Amma ol

məhv ilə isbat dəxi kim, Tanrı-təala edər, iki növdür. Biri oldur kim, bəndənün könlindən küfri gidərüb məhv edə və bəndəni isbat edə və günahları məhv edə və taətləri isbat qıla və həm böylə bir nəstə ki, löhi-məhfuzda müqəddər eyləyübdür müəlləq, yəni asılu səbt edüpdür kim, nəstələri məhv edə və artuq-əskük eyləyə. Eylə kim bəndənün könli ilə dilindən qeyrnün zikrini məhv edə və kəndinün zikri isbat eyləyə. İkinci ol kim, kəndü yolında saliklərinün bəşəriyyət asarını məhv edə və isbatın edə, ta kim ibadətə qiyam edə bilə.

**Şeir:**

Məhv_______________ ola ol fənanun yoxinə,
Bəs bula isbatdən cümlə bəqa.
Kəndü rəsmindən qamu fani ola,
Həqq bəqasindən bula zövqü səfa.

**Sitr ilə təcəllinün təhqiqində**

Həzrət Şeyx (q.s.) buyurdı kim, sitr örtməkdür və təcəlli kəşfdür və Tanrınun örtügi xass bəndələri içün lütf ilə rəhmətdür. Anun içün kim, əgər daimüt-təcəlli ola, bəndə mütəlaşi və heyran olub, bəşəriyyət ləvazimindən kim, ol ibadət ilə kəmalatı kəsb etməkdür, məhrum qalur və gah-gah təcəllinün halətində Həqq-təalanun mərifətinə məşğul ola bilür.

**Beyt:**

Çalmasaydı hər nəfəs bir pərdə eşqün mütribi,
Pərdədən xaçan çıxardı aşıqün əsrarini?

Və təcəlli neçə türlüdür: cəmal ilə lütfün təcəllisi və cəlal ilə qəhrin təcəllisi və surət təcəllisi. Və nur təcəllisi və qəhr ilə cəlaliyyət təcəllisindən bəndəyə fəna lazım olur kim, bəşəriyyət ilə cismani rəsmi məhv edə və bir qeyrət munın ilən böylədür ki, qeyri ortaya qoymaz.

**Beyt:**

Mənligün rəsmü rüsumi yandura cümlə bu bərq,
Kim, ruxi-yari-həqiqidən təcəlli eyləyə.

Və lütfi ilən cəmal təcəllisi kim, bəndəyə bu sifət ilən mütəcəli ola və əgərçi kim kişi kəndözindən alur, amma götürüci və tərbiyət vericidür. Misal bu kim, günəş çün şövqi ilə şüası kölgəyə sala, kölgəlik andan gidərür və anun kölgəligi öz vücudində məhv edər və həman kim günəş hicab pərdəsinə girər, ya məğribdə batar, genə kölgə öz halına gəlüb gözükür.

**Şeir:**

Lütf ilən qılur təcəlli, gah cəmali günəşi
Kölgəni kəndü vücudində edər naçizü məhv
Ərsənün xəlvətsərayində gəhi məstur olur,
Eylə kim kəndüsi bilür kəndözi biəmdü səhv.

Və qəhr ilə cəlali təcəllisi eylə ki həzrət Musanun (ə.s.) Turun dağında gəldi və cəmal ilə lütfi təcəllisi eylə kim həzrət Məhəmmədün (s.) meracda göründi kim, həm özi gördi və andan xəbər verdi və səhih hədislər bu mənada sabitdür.

**Beyt:**

Hər nə kim gördi Məhəmməd gözini
Görməz anı kimsə hərgiz dər-xəyal.

Və cəlalı nuri kim, anda ləzzət ilə qəhrün sifəti var, cəmalınun pərdəsidür kim, əgər bu cəlal nuri və cəmal pərdəsi olmasa idi, cəmalı məkunat ilə "**masivəllah**"ı yandıra idi, eylə kim, "Səhihi-Müslim"in hədisində var: **"Hicabühün-nurü küşifə ləəhrəqət sübühatü vəchihi mantəha ileyhi bəsərü mən xələqəhü"** [Onun hicabı işıqdır. Əgər açılsa, üzünün ulduzları alışıb yanar. Çünki onu yaradanın nəzəri onun üstündən tükənməyibdir].

**Beyt:**

Ey xoşa ol can ki, bu nurundurur həmxanəsi,
Oldı şəmi canlara ruhülqüdüs pərvanəsi.

Amma suri ilən nuri təcəllisi türlü-türlü və qism-qismdür: ibtida təcəllisi və orta təcəllisi və intəha təcəllisi və bunlarun şərhi demək ilən yazmağ olmaz:

Həqiqət sözi kim, hərfü ibarət anda yol bilməz,
Bu dəftərlərdə anun şərhi yüzdən biri yazilməz.

**Mühazirə ilən mükaşifə təhqiqində**

Həzrət Şeyx buyurdı kim, mühazirə könüldür, yəni pərakəndəlik ilən pərişanlığdan kim, ol Həqdən qeybətdür, kəsilə və Həqq hazır ola. Və bu müqəddimə mükaşifənün nəticəsidür kim, ana əşyanun kəşfi olur və munun əsrarı gözükə, yəni görici ola və bu məqamdan yuxarı mükaşifədən Tanrınun təcəlliyat anvarı və sifat kəşfidür.

**Beyt:**

Hər nə kim, Həqdən təcəlliyi-sifatü nuridür,
Münkəşif olsa, xaçan Musa oradə qatlənür?

Və müşahidədən məqsud Tanrınun cəmalıdur, təala şanəhü. Və Tanrınun vücudi ola qədər kim, şəkk ilə güman bəkülli kəsilüb bir yan olsun, ol qayətə kim, mərifətün gögi saf və aydın olmış ola və hicabun bulutı ortadan kəsilmiş ola və həqiqi günəş tovhidün bürcündən zahir olmış ola və həm bu əşyada bəsirəti kamil iyəsinün heç nəstəyə güman ilə şəkki qalmayubdur. Müşahidə iyəsinün dəxi Həqq-təalanun şühudinə mütləqa şəkk ilə reyb yoxdur və murad bu müşahidədən və Tanrınun röyətindən mütəfavitdür, neçəsində çoxrak və neçələrdə azraqdur.

**Beyt:**

Dilbərün hüsni çü qayətsizdürür,
Hər kəs öz qədərincə anları görür.

Və müşahidədən ucarak oldur kim, yaxınrakdur və ana həqiqət derlər andan ötrü kim, müşahidə gah olur kim, hər saət özgə libas ilən özini cilvə edər və aşiqə qələq ilə iztirab arturur və könli təsəlli olmaz, zira kim şahid birdür və libas türlü-türlü.

**Beyt:**

Özgə kisvətdə cəmalı cilvə edər hər nəfəs,
Andan ötrü aşiqün halı pərişan oldı bəs.

Yoxsa böylə ola kim, həman kim məşuqəsin irağdan görə, müşahidə ola. Amma külli müayinə hasil olmaz və nə qədər kim, müşahidə yaxınrak, müayinə ilən təsəlli artuqraq və müşahidə ilən müharizə əşyanun təəqqüli əql ilən eylər və mükaşifə iyəsi

Tanrını idrak eyləmək elm ilən eylər və idrak iyəsi mərifət ilən eylər.

**Beyt:**

Ey neçə nurü səbahət kim, nəzər ögindədür,
Hər birində dəmbədəm bir cilvə eylər hüsndən.

**Ləvayih ilə ləvame və təvame təhqiqində**

Həzrət Şeyx buyurdı kim, bu üç ibarət mütəcəlliyyat ənvarından müqəddimələridür. Və amma **ləvayih** oldur kim, ol çağ kim, könlün gögi hicabun bulutundan təmam olmamış ola, yaz ayınun bərqi misalı ənvarun ləvayihi ola. Pəs, sufinün dəxi bir yaz çağı kim, könlün yerini dirildür və könlün gögi bulutdan hicablı ola və bir ildırımdur kim, anun nuri sürət ilən çakub genə gizlənür. Həm böylə kim, suri yaz görünür və **ləvame** bu çakmakdan ibarətdür və çün könülnün hicabı azraq və yuxaraq olur, nur ilə aydınlığ artuğrak olur ol qədər kim, nurdan zərrəcə durmaq qala, ana ləvame derlər kim, göründügi cüzvicə məks oldı. Və çün könlün gögündə heç hicab qalmaya və bu gög pak və sag oldı, ənvarun tüluidür qeyb aləmindən kim, kişinün könlinə zahir olur. Bu nur yoğunrak və baqirakdur ləvameün nurindən və muna **təvale** derlər və bu təvaleün nuri dəxi hicab və örtmək var, eylə kim günəş ilə ayun çıxduğı və batduğı var.

**Beyt:**

Ol ayun hicrindən olmışam dəlü,
Kim görünür gahi incə, gəh dolu.

Və bu ənvara iqtibas ənvarı derlər kim, nuri özgə nurdan tərəqqi eyləyüb qırx rəng ilən zühur eylər və sonrakı nura təvale derlər.

**Beyt:**

Şəmlərdən şəmlər yandurdılar,
Ta könül pərvanələr yandurdılar.

**Büvadə ilə hücumun təhqiqində**

Həzrət Şeyx (q.s.) buyurdı kim büvadə bir nıstıdür kişiyə enər çadluğ ilən qayğu misalı kim, könüldə zahir olur və andan könlünün bir həyəcanı, yəni bur quruluğə olur qasif adlunun yeli kimi kim, dənizə əsər və dənizi mövcə gətürüb tufan zahir edər. Və vəqt olur kim, bu həyəcan könül hərəkətə gətürə və vəqt ola kim, təmkin əhlinün hücumdan könül həyəcanı olmaya. Və könlün hücumi ilə həyəcanı ana bənzər ki, bir ulu balığ dənizdən qırağa düşə və dənizün mövci tufanı xəyalına qələq ilə iztiraba düşüb istəgi həman ol ola kim, özini dənizə sala.

**Beyt:**
Nigarun öginə aşiq ki, zarü bicandur,
Dəniz qırağında balığ kimi pərişandur.

**Təvinün [və təmkinün] təhqiqində**

Həzrət Şeyx (q.s.) buyurdı kim, salik təlvinün iyəsidür kim, ol Tanrınun doğru yoluna qədəm basubdur və yol xovf ilə xətərdən eyməndür və salik səy ilə cəhddədür kim, özini mənzildən mənzilə və aləmdən aləmə və sifatdan sifata Tanrunun hidayəti ilən tərəqqisi ola və xaçan kim tərəqqidədür, təlvinün iyəsidür. Və həman kim qamu xovf ilə xətər yollları sidq qədəmi ilən yeriyə və bunlardan keçə, ol qədər kim məqsudə yetə və həqiqinün Kəbəsi hərəminə qədəm basa və anda qonub aram duta və ol məxaviflərdən eymən ola, ana təmkin iyəsi derlər. Misalı ana bənzər kim, susız badiyədə su istəməgə hər yandan sorağ ala və həman ki bulağun üstinə yetə və ol sudan doyunca içə və yenidən tazələnə, anun könli təsəlli bulur. Və əgər susızun yanında min qatla suyun adı və vəsfi söyləyələr, susızlık andan bərtərəf olmaz, bəlkə nə qədər kim suyun adın eşidür, susızraq olur və suya yetməyincə və su içməyincə susizligi getməz. Həm böylə Tanrınun talibləri kim, Həqqün yolında ayağ basubdurlar və Həqqi tələb edərlər və vüsal zülalinün susızlarıdurlar, vüsala yetməyincə vüsalun dadını dadmayınca, könülləri təskin bulmaz.

**Beyt:**

Ta Xızır kimi həyatun suyi bir dəm içməz,
Aşiqi-süxtənün könlini təskin bulməz.

Və həm böylə padşahun xassələri ilə naibləri kim, saət-fəsaət padşahun vüsalındadurlar və vüsalda mütəməkkin oturubdurlar və özgə kimsələr kim, irağda durub padşahun vüsalı zəhmət ilən bulurlar və ta vüsalda təmkin bulmayubdurlar, bərabər dəgüldrlər:

Hər kimə olur müyəssər şah vəsli dəmbədəm,
Məsnədi-izzətdədür peyvəstə şadü möhtərəm.

**Böd ilə qürbün təhqiqində**

Həzrət Şeyx (q.s.) buyurdı kim, bizdə böd var və bödi-böd və qürb və qürbi-qürb var. Amma böd, yəni irağlıq oldur kim, talib əgərçi Həqq-təalanun taəti ilə mütaviətinə məşğul olmış ola, özinə dəxi məşğul ola və çün kəndi axirəti içün taətə məşğuldur, kəndözinə məşğuldur. Və **bödi-böd** oldur kim, kişi nəfsinün mütaviətinə məşğul olub, ovqatı anun istədüginə sərf eyləyə. Və **qürb** oldur kim, kəndü nəfsinün itaətindən və həvasından iraq olub yüzini Tanrı həzrətinə qoya və nəfsün etdüginə arxa verə. Nə qədər kim, Həqq-təalanun taətinə və nəfsün müxalifətin səy artuq eyləyə, Allah-təalaya yaxınraq olur. Amma qürbi-qürb ol bəndəlükdür kim, xass Tanrı-təala içün ola, nə uçmağun təmi içün və nə damunun qorxusundan. Və bu, bir təqərrübdür, Haqq-təalaya ki, **“yüridunə vəchəhü”** xalis etiqad ilən və nə qədər kim, ol Tanrı həzrətinə təqərrüb artuğraq eyləyə, Həqq-təla dəxi ana təqərrüb artuğraq edər, eylə kim, “Səhihi-Buxari”dədür: “**Yərvihi ən Rəbbəhi əzzə və cəhlə qalə iza təqərrəbəl-əbdü ileyyə bişibrin təqərrəbtü ileyhi ziraən və iza təqərrəbə ileyyə ziraən təqərrübtü minhü baən və iza ətani biməşyin əteytühü hərvələtən”**. Pəs, Tanrı-təala ana öz ilə qulağ bağışlaya kim, anlar ilə görə və eşidə, eylə kim, “Səhihi-Buxari”dədür: **“Qalə Rəulüllah səllallahü əleyhü və alihi və səlləmə:İnnəllahə-təala qalə mən ada li vəliyyən fəqəd azəntühü bil-hərbi və ma**

**təqərrəbə ileyyə əbdi bişeyin əhəbbü ileyyə mimma-ftərəztü və ma yəzalü əbdi yətəqərrəbü bin-əvafili hətta ühibbəhü fəiza əhbəbtühü küntü səməhül-ləzi yəsməü bihi və bəsərəhül-ləzi yübsirü bihi və yədəhül-ləti yəbtiçü biha və riclihül-ləti yəmşi biha və ən səələni əteytühü və ləin istəazəni ləüizənnəhü”**. Və buyurdı kim, Həqq-təala münəzzəhdür andan kim, qürb ilə böd ana itlaq eyləyələr, amma çün nəfsün hicabı kəndünün həstligi ortadan götürülə, **“və nəhnü əqrəbü ileyhi min həblil-vəridi”** [biz ona şah damartından da yaxınıq (Qaf surəsi, ayə 16)] həqiqəti bulunur.

**Beyt:**

Çünki nəfsün zilməti ilə tozi yoldan götürülə,
Sonra yüz türlü səfayi-qürbi-ənbər-qürb var.

**Şəriət ilə təriqət və həqiqətün bəyanında**

Həzrət Şeyx (q.s.) buyurdı kim, şəriət həzrət Məhəmmədün (s.) vəzi və qoyulduğıdur Tanrı-təalanun buyuruğı ilən həzrət Məhəmmədün (ə.s.) qövlindən. Və təriqət həzrət Məhəmmədün felidür və həqiqət həzrət Məhəmmədün (s.) halidür. Və anun şəraiəti avamir və nəvahi və təklifdür kim, surətdə vaqe olur və təriqət anun əməli. Və əməl oldur kim, hər nəstə kim, vacibatda və şəriətün mənsubatında qatıraq və müşkilraq ola, anunlən əməl eyləyə və təriqətün yolı ol yoldur kim, Həqqə varur və yolun müntəhası kövn aləmincədür.

**Sual** qıldılar kim, bəs bu necə olur ki, **“ət-türüqü iallah biədədi ənfasil-əlayiqi”** [Allaha doğru gedən yollar xəlq olunmuşların nəfslərinin sayı qədərdir].

**Cavab.** Həzrət Şeyx (q.s.) buyurdı kim, yol bu mükəvvənat aləmün nəhayətincədür və bu ki, hər könülnün həzrətinə bir özgə yol var, həqiqət əhlinün yolıdur.

**Beyt**:

Həzrətinə səd həqəran yol açupdur Həqq, vəli
Hər könülnün bir yoli var kim, yetər dərgahinə.

Pəs, süluk əhlinün meracı sifət iləndür, eylə kim həzrət Peyğambərün (s.) surət ilən və həqiqət Tanrı-təalanun mərifəti ilən müşahidəsidür və anı bulmaq və tanımak. Pəs, həqiqət eylə ola kim, yemişün məğzi və əgər məğzün əti ilə dərisi olmasa, bəslənməz və əslsiz ola və əgər yemişün əti qabuğsız və salxumsız ola, ol yemiş kəmala yetməz, bəlkə zaye olur. Pəs, təriqət şəriətsiz və həqiqət təriqətsiz dürüst olmaz.

**Xəvatirün təhqiqində**

Həzrət Şeyx (q.s.) buyurdı kim, xəvatir bir ilhamdur kim, kişinin zəmirinə və içinə girər və bu ilham beş növdür: ya nəfsanidür, ya şeytani, ya quləki, ya qəlbi, ya Həqqi və Rəbbani. Amma nəfsani vəsvəsədür və şeytanlıq iblisün təsərrüfidür və mələki firiştənün ləmməsidür və qəlbi yəqinün ilhamıdur kim, ol Həqdəndür və sadiq danuğ anun həqiqətinə eylə kim "Müsnəd" kitabında var: **"istəfti qəlbəkə".** Və ol nəstə kim, könül anun ilən deyici ola və ol danuğ ola, amma Həqqi və Rəbbani ilhamı anda heç xilaf ilə şəkk və şayibə yoxdur və ol nəstə kki, nəfsün vəsvəsəsidür, qamı batildiür və hər nəstə kim, vəsvəsə və təmənna eylər, ol istəməkdən bəcidd dura və ta öz məqsudin hasil etməz, qərar dutmaz və ol ilham ki, şeytanlıdur, həm batildür və bitün günahdur. Amma həman kim şeytanun istədüklərindən birisini mən eyləyələr və qəbul etməyələr, özgə təmənna ilən istəmək öginə gətürür. İstədügi ol kim, kişi üsyana bıraxa anun şərrindən Tanrı-təalaya pənah və nəfs ilə şeytan hərgiz kişiyə doğru yol göstərüb taətə buyurmazlar üsyandan özgə. Və əgər dəxi bir taətə rücu eyləyə, ana bənzər ki, ağuyi bala qatmış ola və istər kim, anı içürüb həlak eyləyə.

**Nəzm:**

Sənün xəsmündürür iblisi-məlun,
Həzər eylə anun buyurdugindən.
Əgər şeytan sana taət buyursa,
Eşitmə kim, səni azdurur andən.

Və bu nəfsani vəsvəsəsindən və şeytani ləmməsindən bir kimsə xilas olur ki, həmişə riyazətlə ola və anun müxalifi olub, hər nəstə kim, könlinə və xatirinə gəlür, təmiz eyləyüb anlarun ilhamı məlum edər. Amma  Amma məläki ilham oldur kim, xeyir işlərə buyurur. Əgər kişi anun buyurduğuna mütabiət eyləyə: **"fənimal-məunətü minəllahi"** [Bağışlanan nemət Allahdandır].

Amma ilhami-qəlbi oldur kim, könli Tanrınun elm və mərifət və hikməti ilən dindürə. Pəs, hər nəstə kim, ol buyurur, xeyri-məhz ola.

**Beyt:**

Hər nə dil dedi, hamu dilbərdürür,
Hər nə kim can dedi, ol behtərdürür.

Bir gün neçə kimsələr həzrət Şeyxdən bir sual etdilər. Şeyx əvvəl sağ qolına baxdı və bir təəmmül etdi, genə sol qolına baxdı və bir təəmmül etdi. Dəxi könlinə nəzər qıldı və cavab verdi. Səbəbin sordılar, buyurdı: sordunumızı məlumum dəgül idi, sağumdakı firiştədən sordum, bilməzdi, solumdakı firişdətən sordum, ol dəxi bilməzdi, könüldən soruşdum, cavabum verdi. Andan mən dəxi cavabunızı verdüm.

**Beyt:**

Çün könül güzgü kibi aydun olur,
Hər nə kistərsən, orada görünür.

Və Həqqi və Rəbbani bir könülnündür kim, arı və səfalı olmış ola. Pəs, ol ilham ana yetər və ol ilham qamu töhmət ilən şəkk və reybdən bəri aridur. Və bu Rəbbani ilham bir çağ olur kim, hərf ilə sövtdən irağ ola, anun mənası könülə yetər və könülə bildürür və vəqt ola kim, bu ilham hərf ilə sövtdən bilinə və könlünün qulağına dəgə.

**Beyt:**

Hər nə kim, könül dedi, eşitdi cümlə Həqdürür,
Zira kim anunladur Həqq, ol dəxi Həqq ilədür.

Amma nəfsün vəsvəsəsi ilə şeytanun ləmməsi ortasında bu qədər fərq var kim, nəfsaninün vəsvəsəsi aşağıdan tütün kimi yuxarı varur, eylə kim əgər kimsənün ol qədər hissi var isə kim, məlum eyləyə bilür kim, aşağudan könülə yaxun varur və

şeytanlıq ləmməsi sağ qoldan və sol qoldan və arddan gəlür. Amma mələkinün ləmməsi yuxarudan gəlür və vəqt olur kim, balun arısı kimi avazı gələ və vəqt ola kim, qonqırazun üni kimi gələ və vəqt ola kim, kişi kəndü içərüsindən ehsas eyləyə. Amma Rəbbani ilham eyləyə. Amma Rəbbani ilham eylə ola kim, cəmi cəhatdən **"dəfətən vahidətin"**, yəni bir uğurda gələ və könül andan xəbərdar olub əsəri zahir ola.

**Beyt:**

Dörd yanü şeş cəhətdən çün gəlür Həqdən nida,
Aşiqün hər tüki bir dil olubən ləbbeyk edər.

Və mələkinün ləmməsi və nəfsaninün xəvatiri şeytani ləmməsi ilən bilə olur, talib gərək kim, əvvəlki xatirinin mütaiətin edə.

## Elmül-yəqin və eynül-yəqin və həqqül-yəqinün təhqiqində

Həzrət Şeyx (q.s.) buyurdı kim, ülmül-yəqin dərasətün elmidür və eynül-yəqin fərasətün elmi və həqqül-yəqin dərayətün elmi. Amma elmül-yəqin bir elmdür ki, qələm ilən kəsbdən hasil olur və bu elmül-yəqində bir iman var qeybdən ki, **"Əl-yəzinə yüminunə bil-ğeybi"** [O kəslər ki qeybə inanır (Bəqərə surəsi, ayə 3)]. Və eynül-yəqin bir elmdür kim, saleh əməl ilən hasil olur ki, çün elmül-yəqin əmələ gətürələr, eynül-yəqinin elmi olur, pəs, görsün və yəqin hasil etsün. Və eynül-yəqində şeytanun məcalı ilə mədxəli yoxdur, zira kim eynül-yəqinün iyəsi andan döndərməz, amma eynül-yəqində məcalı və mədxəli var və həqqül-yəqin görmiş ola və anun həqiqəti ana görsətmüş ola. Eylə kim **"ərinal-əşyayə kəma hiyə"** [Bizə əşyaları olduğu kimi göstər] Peyğəmbərdən (s.) sadir olubdur anun içün kim, olur ki, talib bir nəstənün surətini görə və həqiqətini eylə ki, var, dəgül ola və Peyğambərün (s.) məqsudi "kəma hiyə"dən "əşya"nun mənası ilə həqiqətdür.

**Beyt:**

Əql ilə fəhmü xəyaldan gizlü sözlər var kanun,

Bir həqqivü bir həqiqət var, likən örtülü.

Və elmül-yəqin şəriət əhlinündür və həqqül-yəqin həqiqət əhlünün. Amma elmül-yəqin surət ilən və surətün gözi ilə hasil etmək olur və eynül-yəqin sifət ilə və sifətün gözi ilən hasil etmək olur və həqqül-yəqin məna gözi ilən fəhm etmək olur.

**Beyt:**

Vardurur elmül-yəqin əsraridə çok rəmzlər
Kim, anun təlqinü dərsi qamu kimsə verəməz.

**Varidatun təhqiqində**

Həzrət Şeyx buyurdı kim, varidat Tanrınun ətasıdur kim, könüldə keçirür kəsb etmədin. Və bu varidat ol çağ olur kim, kimsənün bir elmi ilə mərifəti hasil olmış ola və andan fəhmi ilə irfanı kəsb etmiş ola və vəqt ola kim, bir nur ola kim, yoxsa bir lütf ola Tanrınun əltafından və vəqt ola kim, eşq ilə məhəbbətün odı ola.

**Beyt:**

Ta ki, eşqün bərqi urdı könlümə,
Sındı zöhdün rövnəqi-bazarini.

Və anun endügindən eşq ilə məhəbbətün odı şölə urur, ya şadiliğ ilən qayğu səbəbsiz. Və vəqt olur kim, varidat ruhani olur və anun etdügindən bir fərəh ilə rövh ana yetər ya yaxşı nəğmələrün üni eşidür. Və vəqt olur kim, ol kişiyə kim, varudat varid olur, bir ağırlıq zahir olur, eylə kim vəhy halətində həzrət Peyğambərə (s.) sadir olur idi və zahirində bir incimək və fürumandəlik zahir olur. Amma həman kim ol halətdən qurtuldı, özində bir yünüllük ilə şadiliğ və tərəb ilə ləzzətlər bulur. Və vəqt ola kim, ol varidatı məlum eyləyə və vəqt ola kim, bilməyə.

**Beyt:**

Anun cəmali xəyalindən eylə şadəm mən,
Ki, dünyanün yok ilə varı heç bilməzəm.

**Şahidün təhqiqində**

Həzrət Şeyx (q.s.) buyurdı kim, şahid deməkdən məqsud oldur kim, könüldə hazırdur və qamu əhvaldan danuğdur və həqqi batildən seçər və halalı haramdan fərq eylər. Və təsəvvüfin əhli kəlimatında şəm ilə şərab çoxdur və şəm imanun nurindən ibarətdür ki, kişinün könlündə yanar və şahid könülnün içindəki hazıra derlər kim, ol danuğdur. Və bu danuğdan murad **"istəfti qəlbikə"** bazgəştidür, yəni könülnün danuğından fitva istə. Və çün könül şəmi könül evində rövşən ola, könülnün məta ilə qumaşı kim, ol iman ilə taətdür, oğrıdan eymən qala, zira kim, əgər oğrı oğırlığa əzm edə, könlün şəmi şövqindən rüsva ola. Və çün könülnün şahidi yüzindən pərdə götürülə və hər nəstə kim, Həqq-təalanun xilafi-rizası ola, ana keçməyə və hər nəstə kim, Tanrınun xəzanəsi kim, könüldür, layiqi olmaya, ana girməyə.

**Beyt:**

Çün niqab alur yüzindən şahid bazibü fərr,
Yüzidin aşiq görər Həqqün cəmali cilvəgər.

**Nəfsün təhqiqində**

Həzrət Şeyx (q.s.) buyurdı kim, nəfs üçdür: əmmarə, ləvvamə və mütməinnə. Amma ləvvamə ilə mütməinnə şəxsinküdürlər və şəxsə daxildürlər. Amma əmmarənün nəfsi şəxsə müvəkkildür və ana yakın və cibilləri küfr ilə üsyana müttəfiqdür və sürülmüş əxlaqi kim, ana zəmimə əxlaqı derlər, məhəllidür, eylə kim mütməinnənün nəfsi əxlaqi-həmidə, yəni bəgənilmiş əxlaqınun məhəlli və yeridür. Və əmmarə nəfsi bir gizlü cismdür kim, anı görmək olmaz və eylə kim şeytan adamun gövdəsində damarlar ilən sinirlər içindədür ki: **"İnnəş-şeytanə yəcri min ibni adəmə məcrad-dəmi"** [Şeytan Adəm övladının qanını axıdır] Əmmarə nəfsün dəxi məcalı var və əmmarə nəfsi həmişə üsyan ilən günaha əmr eylər: **"İnnən-nəfsə ləəmmarətün bis-sui illa ma rəhimə Rəbbi"** [Rəbbimin rəhm etdiyi kimsə istisna olmaqla, nəfs pis işləri görməyi əmr edər (Yusif surəsi, ayə 53)].

Və vəqt olur ki, əmmarə nəfsi şəxsün əlindən müsəlman olur, amma münafiqdir və həqiqi müsəlman dəgül və acizliğindən özini müsəlman kimi görsədür və anı aciz müsəxxər eyləmək olmaz, məgər güclü riyazət və qatı aclığ ilən: **“Əc kəlbəkə yütikə”,** yəni itini ac saxla, ta sənün mütiün olsun.

**Beyt:**

Nəfsünə vergül riyazət, eyləgül anı zəbun,
Sonra anı bəndə çək, yoxsa anun bəndindəsən.

Və **mütməinnə nəfsi** kim, Tanrınun fərmanı altında aram dutubdur

Və heç yamanlığ andan sadir olmaz və həmidə əxlaqun yeridür və lətif cismdür, qamu yaxşı sifatlar ilən bəzəklüdür və gözlərdən gizlü bu qaildə əmanət durur.

**Beyt:**

Məxzəni-gənci-lətayif, mədəni-hüsnü xisal,
Can kimi dibaçeyi-ənvai-lütfi-zülcəlal.

Və **ləvvamə nəfsi** bir lətif cisimdür kim, görmək olmaz, zücəsədeyndür, yəni ikiyüzlüdür: bir yüz mütməinnənün aləminə qoyupdur və bir yüz əmmarə aləminə. Əgər əmmarə nəfsi güclüdür, anunlən bilədür və anun mütabiətin eylər və andan dəxi əxlaqi-zəmimə vücuda gəlür. Və nəfsi-ləvvamə anun içün məhəlli-qəsəmdür Tanrıya, eylə kim buyurmış və: **“Lə üqsimü bin-nəfsil-ləvvaməti”** anun içündür kim, anun elm artuğlığı var kim, gah mütməinnə nəfsün tərəfindən kəsb eylər və gah əmmarə nəfsün yanında faidə alur. Və ləvvamə ol iki nəfsün ortasında vasitə və kəlməcidür və elmün artuğlığı içün Tanrı anunlən and içər. Və bu nəfsi-ləvvamənün iki tərəfi var: bir tərəf yuxaruya mütməinnə aləmində və bir tərəf aşağıya, əmmarənün canibində.

## Ruhun təhqiqi

Həzrət Şeyx (q.s.) buyurdı kim, ruh bir lətif cismdür pak, arı kim, şəhvət ilə yemək-içmək yeri dəgül və Tanrı-təala anı Peyğəmbərün nurindən yaradupdur və qarşusunda müşahidə aləmində durğuzubdur və müşahidə qüvvəti ilən bəsləyübdür. Və

ruh müşahidə qamu görməklikdən göz idi. Və ərvahı yaratmak çağında səf-səf durmak buyurdı və neçələri neçələrə tanışlık ilən ülfət: **“Fəma təarəfə minha itələfə”** [İnsan tanıdığı nə varsa, onunla dost olar] verdi və neçələrə inkar və ixtilaf: **“Və ma tənakərə minha ixtələfə”** [İnsan tanımadığı nə varsa, ona müxalif olar] verdi və bu aləmdə ol surət anlardan zühura gəldi. Pəs, gövdə ilən əcsamun yaratmak çağı ol ərvah bir biri üns aləmindən cəsəd zindanına gətürüb diri etdi və cəsəd anun həyatı ilən diridür və çün gövdədən müfariqət qıla, cəsəd ola və uyquda cəsəddən ayrılmaz kim, əgər ayrılaydı, cəsəd ola idi ona “insani ruh” oxurlar. Və ol ruh kim, ol halətdə anun yemək ilə içmək və şəhvəti var kim, zahirdə qüsl səbəbi olur. Və nəfs ilə cəsəd və heyvani ruh xəlqün yaradılmış aləmündəndürlər və insani ruh əmr aləmindən: **“Əla ləhül-xəlqü vəl-əmrü təbarəkəllahü Rəbbül-aləminə”** [Yaratmaq da, əmr etmək də Ona məxsusdur. Aləmlərin Rəbbi olan Allah nə qədər uca, nə qədər böyükdür (*Əraf surəsi, ayə 54*)]. Və ruh əql aləmindən dışxarudur və hər nəstə kim, əql aləmində sığmaz, anun tərifin etmək olmaz kim, əgər bir ibarət andan mümkün ola idi, Tanrı-təala anı bəyan edərdi və Peyğəmbər dəxi şərhin der idi və **“Qülir-ruhi min əmri Rəbbi”** [De ki, “Ruh Rəbbimin əmrindədir” (*İsra surəsi, ayə 85)*] mücməlindən bəyanın varid olur idi.

**Beyt:**

Türlü-türlü cövhəri-əsrar kim, bu təndədür,
Nikbəxt ol kimsə kim, məni gözi ilən görür.
Olma qafil zərrəcə özündən, ey əhli-kəmal,
Hər nə kim iki cəhanda var, qamu səndədür.

## Sirrün təhqiqində

Həzrət Şeyx (q.s.) buyurdı kim, sirr Tanrınun əmanəti-lətifəsidür kim, əmanət ilən qoyulupdur və ol sirrə kimsənün ittilai ilə vüqufi Tanrıdan özgə yoxdur və adam bu sirrün səbəbindən ötrü məlaikənün məscudidür. Və şeytan çün Adəmün tinəti qaranğulığını gördi və Tanrı gəncinün həqiqəti kim, Adə-

mün pozulmuş vücudində var, görmədi, Adəmə (ə) münkir məlun oldı.

**Beyt:**

Ol İlahi gənci kim, bu torpaq içrə gizlüdür,
Tanrınun sirridürür kim, yaradılmış nuridür.

Və könül mərifət ilə məhəbbətün məhəlli ilə yeridür və ruh müşahidənün məhəllidür və sirr müayinənün məhəlli və əmanətün həqiqəti sirrün lətifəsi "**və hüvə məəküm eynəma küntüm**"dür [Siz harada olsanız, O, sizinlədir (Hədid surəsi, ayə 4)] və bu sirr ruhdan lətifrak və şərifrakdur və əsrarun həqiqətindən Tanrıdan özgə kimsə bilməz.

**Nəzm:**

Hanğı məclisdə ki, sirrün şəmini yandurdılar,
Qeyrnün gözini anun görmədigündən tikdilər.
Görmədilər əqlü fəhm anun hərimün mərhəmi,
Yadlərnün göslərinə mili-qəflət çəkdilər.
Vəs-səlatü vəs-səlamü əla Mühəmmədin və alihi.

## İstifadə olunmuş ümumi mənbə və ədəbiyyat

### Azərbaycan dilində

Azərbaycan tarixi. II cild

Babayev Y. Təriqət ədəbiyyatı: sufizm, hürufizm. Bakı, 2007

Bakuvi S.Y. Səfa əl Əsrar. Nəşrə hazırlayanı M.Rıhtım. Bakı, 2010

Böyük hökmdarın babası Azərbaycanda uyuyur. https://sputnik.az/life/20170421/409923996/boyuk-hokmdarin-babasi-azerbaycanda-uyuyur.html

Bünyadov Z. Azərbaycan Atabəylər dövləti. Bakı, 2007

Bünyadov Z. Azərbaycan VII-IX əsrlərdə

Əfəndiyev O. Azərbaycan Səfəvilər dovləti. Bakı, 1993

İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi. C.I, Bakı, 2009. Tərcüməsi Oqtay Əfəndiyevə və Namiq Musalıya məxusdur.

İsmayılzadə O. Şeyx Zahid Tacəddin İbrahim ibni Rövşən Əmir Gilani-Şıxakərani. Bakı, 2014

"Quran"i-Kərimin Azərbaycan dilinə tərcüməsi. Ərəb dilindən tərcümə edənlər Z.Bünyadov və V.Məmmədəliyevdir. Bakı, 2004

Quliyev S. Şeyx Zahid irsi. referat.ilkaddimlar.com › d_pdf_refe_felse_5431

Mədətli E. Azərbaycan həqiqətləri İran tarixşünaslığında. Bakı, 2011

Mədətli E. Azərbaycan tarixi məsələləri İran tarixşünaslığında (XX əsrin əvvəlləri). Bakı, 2017

Musalı N. I Şah İsmayılın hakimiyyəti ("Tarix-i Aəlara-yi Şah İsmayıl" əsəri əsa sında). Bakı, 2011

Nəcəfli T. Səfəvilərin etnik mənsubiyyətinin mənşəyi müasir Türkiyə tarixşünaslığında. http://www.strategiya.az/chap.php?id=9600

Rıhtım M. Seyid Yəhya Bakuvi və xəlvətilik. Bakı, 2005

Süleymanov M. Şah İsmayıl Səfəvi. Bakı, 2018

Süleymanov M. Türkmənçay müqaviləsi. Bakı, 2015
Şeyx Səfi təzkirəsi. "Səfvətüs-səfa"nın XVI əsr tərcüməsi. Tərtib edənlər: Möhsün Nağısoylu, Sevər Cabbarlı, Rauf Şeyx-zamanov
Təsəvvüf tarixi. II nəşr. Bakı, 2011

**Fars dilində**

Aləmara-yi Səfəvi. Tehran, 1350
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384
Amoli Kəlxoran İ. Təbar-e Şeyx Zahed Gilani.......
Asemi T. Səyyadat və təşəyyo-e Şeyx Səfiəddin Ərdəbili, s.111 / Şeyx Səfiəddin Ərdəbili də ayine-ye orfan, honər və siyasət. Məqalələr toplusu, London, 1393, s.105-115
Astrabadi Seyid Hüseyn. Əz Şeyx Səfi ta Şah Səfi. Tehran, 1366
Bəqəə-e Şeyx Səfiəddin Ərdəbili. https://www.kojaro.com/2016/6/30/120164/sheikh-safiodin-ardebili/
Bərrəsi-ye məscid-e Şeyx Səfiəddin Ərdəbili – memari-ye islami.
Cahanqoşa-ye xaqan. İslamabad, 1986
Cavadi Amoli, A. Məfatih əl-həyat. Qum,1391
Cəlilikiya M.Təzyin və memari-ye bəqəə-ye Şeyx Səfiəddin Ərdəbili. http://sheikh-safialdin.com/تزئین-و-معماری-بقعه-شیخ-صفی-الدین-اردبی/
Dinpərəst M. Bərrəsi-ye zəmine və zəmane-ye soltanül arefin Şeyx Səfiəddin Ərdəbili dər qoftequ ba doktor Seyyid Səllman Səfəvi.
http://iranianstudies.org/fa/بررسی-زمینه-و-زمانه-سلطان-العارفین-شیخ/
Estəxri Ə.Ə. Üsul-e təsəvvüf. Tehran, tarixsiz
Əfrasiyabpur Ə.Ə. Təriqət, şəriət və həqiqət əz didqah-e Şeyx Səfiəddin Ərdəbili/Şeyx Səfiəddin Ərdəbili dər aine-ye orfan, honər və siyasət.Məqalələr məcmuəsi, London, 1393, s.267-286
Əhəmiyyət-e daneş dər islam.

http://tarikhe-eslam.blogsky.com/1389/12/14/post-15/
Əhəmiyyət-e elm dər “Quran”. http://old.ido.ir/a.aspx?a=1391052410
Ələvi M.Ə. Ərkan-e təalim-e Səfəvi/Şeyx Səfiəddin Ərdəbili dər aine-ye orfan, honər və siyasət. Məqalələr məcmuəsi, London, 1393, s.221-242
Əmini, Əmir Sədrəddin İbrahimi. Fotuhat-e şahi. Tehran, 1383
Ənsari H “Təsir-e təfəkkor-e təriqət bər şeklgiri-ye məcmue-ye məzar-e Şeyx Səfiddin Ərdəbili” / “Nəşriyye-ye honərha-ye ziba – memari və şəhrsazi”, N-48, 1390, s.81-96
Ərzeş-e elm əz didqah-e peyambər. http://maisam-farzam.blogfa.com/post/2
Ətayi N. Şeyx Səfiəddin. http://qaramacmua.blogfa.com/post/6
Ətayi Natiq M. Gəncine-ye tarac şode-ye bəqəəe-ye Şeyx Səfi. http://qaramacmua.blogfa.com/post/16
Muze-ye Bəqəəe. http://sheikh-safialdin.com/گنجینه-تاراج-شده-بقعه-شیخ-صفی/
Faruq Sümər. Nəqş-e türkan-e Anatoli dər təşkil və tousəə-ye dövlət-e Səfəvi. Tehran, 1371
Gövhərin S.S. Şərh-e istilahat-e təsəvvüf. Cild-e şeşom. Tehran, 1380
İbn Bəzzaz Ərdəbili. Səfvətüs-səfa. Tərtibçi Qulamrza Təbatəbayi Məcd. Təbriz, 1373
İbrahim Zahid-i Geylani. Həyatı hakkında bilgi. http://www.mumsema.org/arap-islam-alimleri/195744-ibrahim-zahid-i-geylani-hayati-hakkinda-bilgi.html
İnsafpur Q. Tarix-e təbar və zəban-e mərdom-e Azərbaycan. Tehran, 1377, s.
Heydəri Ə. Cədd-e bozorg-e padşahan-e Səfəvi (nəğd-e nəzəriyyat-e Əhməd Kəsrəvi). http://rasekhoon/net/article/show/1067663
Heydəri Ə., Baqeri Bidəhəndi N. Naqahi be mövzu-e səyyadat-e Şeyx Səfiəddin Ərdəbili/Tarix dər ayine-ye pəjuheş. Sal-e həştom, N-2, s.59-82

Heydəri Ə. Məzhəb-e Şeyx Səfiəddin Ərdəbili/ Tarix dər ayine-ye pəjuheş. Sal-e həftom, N- 4, 1389, s.63-86
Heydəri Ə. Neqahi be mozuu-e səyyadat-e Şeyx Səfiəddin Ərdəbili/Tarikh dər Ayene-ye Pazhuhesh. Summer 2011, Vol.8, N-2, p.59-82
Hüseyni S. Nəqş-e əcdad-e Şeyx Səfiəddin Ərdəbili dər bəramədən-e Səfəviyan/Şeyx Səfiəddin Ərdəbili də aine-ye irfan, honər və siyasət. London, 1393, s. 117-130
Hüseyni S.Ə. Nəqş-e Şeyx Səfiəddin Ərdəbili dər ru-ye kar amədən-e Səfəviyan.
نقش-شیخ-صفی-الدین-اردبیلی-در-روی-کارآمد
http://sheikh-safialdin.com//
Kəsərvi Ə. Şeyx Səfi və təbarəş. Tehran, 2535
Kəsrəvi Ə. Azəri ya zəban-e Bastan-e Azərbaycan, s.12 (elektron variant)
Kövsər N. Elm və daneş əz mənzər-e islam.
http://www.noorullahkawsar.com|علم-و-دانش-از-منظر-اسلام
Qaffarifərd A. Xastqah niyakan-e Şeyx Zahid və məhəll-e konuni-ye aramqah-e u.
http://ensani.ir/file/download/article/20120329152946-5055-14.pdf
Qali-ye Şeyx Səfi. / http://ardebilnews.comقالي-شيخ-صفي/
Qara məcmuə (Şeyx Səfiəddin Ərdəbilinin şerlər, sözlər, öyüdlər və münqəbələri). Tərtib edəni Hüseyn Məmmədzadə Siddiq. Tehran, 1380
Qozareş-e təsviri və təhlili-ye fənni-ye məqbərə-ye Məhyəddin – Şeyx Səfiəddin Ərdəbili. https://sinapress.ir/news/27550/
Qulam Sərvər. Tarix-e Şah İsmayıl Səfəvi. Tehran, 1374
Larens Kelli. Diplomasi və qətl dər Tehran. Tehran, 1384
Mehryar S. Sənduğ-e qəbr-e çubi-ye Şeyx Səfiəddin Ərdəbili, şahkar-e honər-e islami və irfani.
sheikh-safialdin.com/wp-content/uploads/2016/12/4-صنعتی-ایرانی-مهریار-s.pdf
Məcmue-ye xanəgah və bəqəə-e Şeyx Səfiəddin Ərdəbili
https://www.karnaval.ir/sheikh-safi-al-din-shrine-ensemble

Məcmue-ye məzhəbi-ye Şeyx Səfiəddin Ərdəbili dər yek neqah. http://www.arums.ac.ir/fa/page/1600/
Memari Y. Gəncine-ye tarac şode-ye bəqəəe-ye Şeyx Səfi. http://darolershad.org/0/FA/Blog/C/371/
Məhəmmədpur D. Aşiqha, şaeran peyrov-e təriqət-e Səfiəddin və mobəlleğani dər miyan-e tudeha-ye mərdom. http://sheikh-safialdin.com/عاشيق-ها؛شاعران-پيرو-طريقت-شيخ-صفى-الد
Mənuçehr Parsadust. Şah İsmayil əvvəl. Tehran, 1375
Məmmədzadə Sədiq H. Fərziyye-ye zəban-e azəri və Kəsrəvi. Tehran, 1389
Muze-ye Bəqəəe.
http://sheikh-safialdin.com/گنجينه-تاراج-شده-بقعه-شيخ-صفى/
Hüseyni S.H. Moərrəfi-ye səbk-e məqbərəsazi-ye motəsəvvəfe-ye Azərbaycan/Nəşriyye-ye honərha-ye ziba – memari və şəhərsazi. 1389, N-43, s. 57-68
Orfan bedun-e paybəndi be təriqət emkan nədarəd. Şəriət əsas-e soluk-e orfani.
http://www.mokhbernews.ir/Home/ShowNewsInfo/4254557/عرفان-بدون-پايبندي-به-طريقت-امكان-ندارد-شريعت؛-اساس-سلوک-عرفاني
Porseş və pasox piramun-e "Quran". http://thaqalain.ir/?p=96618
Rzazadə Ərdəbili M., Ənsari H. Təsir-e təfəkkor-e təriqət bər şeklgiri-ye məcmue-ye məzar-e Şeyx Səfiddin Ərdəbili/ "Nəşriyye-ye honərha-ye ziba – memari və şəhrsazi", N-48, 1390, s.81-96
Razha-ye qali-ye Ərdəbil. "Turizm" qəzeti, 2 tir 1395, N.540
Rəcəbi Ə. Təalim-e orfani-ye Şeyx Səfiəddin Ərdəbili və təqabol-e an ba təsəvvof bedun-e şəriət/ Şeyx Səfiəddin Ərdəbili dər aine-ye orfan, honər və siyasət. Məqalələr məcmuəsi, London, 1393, s.243-268
Rəhimzadə Səfəvi. Zendeqani-ye Şah İsmayıl Səfəvi. Tehran, 1389
Rəşidi H. Zəban-e torki və mouğiyyət-e qozəşte və konuni-ye an dər İran (Bohran-e höviyyət). Tehran,1395
Sadiqin M.S. Şərh-e istilahat-e təsəvvüf. I c., Tehran, 1376

Səadəti R. Motale-te təcəlli-ye form mehrabi dər aramqah-e seyid Səfiəddin Ərdəbili
Səccadi C. Fərhəng-e estelahat və təəbirat-e irfani. Tehran, 1370
Seyid Əlaülcəvadi. Mülahizat innülşeyx Səfiəddin əl Ərdəbili/ Şeyx Səfiəddin Ərdəbili də ayine-ye orfan, honər və siyasət. Məqalələr toplusu, London, 1393
Səfəvi S.S. Səyyadat şeyxül arifin Seyid Səfiəddin Ərdəbili/Şeyx Səfiəddin Ərdəbili də ayine-ye orfan, honər və siyasət. Məqalələr toplusu, London, 1393
Şahbazi Şiran H. Bərrəsi-ye saxtar-e memari və təzyinat-e aramqah-e Şeyx Səfiəddin Ərdəbili məəruf be qonbəd-e Allah, Allah və aramqah-e Şah İsmayıl Əvvəl; şahkari honər-e memeari-ye islam dər Ərdəbil. https://www.researchgate.net/publication/310458029
Şahməndi Ə. Təəmmoli bər yadeqarnevisiha-ye Qacari dər bəqəə-ye Şeyx Səfiəddin Ərdəbili. http://sheikh-safialdin.com/ تامّلی-بر-یادگار-نویسیهای-قاجاری-در-بق
Şakir Keçeli Baba. Katletmediğimiz Şah İsmail Safevî Kalmıştı!.. www.refikengin.com/upload/files/.../744REHAÇAMUR.doc
Şeyx Səfiəddin Ərdəbili də aine-ye irfan, honər və siyasət. London, 1393
Şeyx Səfi təzkirəsi. “Səfvətüs-səfa”nın XVI əsr türk tərcüməsi. Tərtibçilər: Möhsün Nağısoylu və Sevər Cabbarlı. Bakı, 2006
Şeyx Hüseyn. Silsilət-ül nəsəb Səfəviye. Berlin, 1343
Şeyx Zahid Gilani (Lahicani). http://www.cloob.com/c/hitmanclub/43788508
Şeyx Zahid Gilani. http://www.instantweb.com/j/jjjsz/zahed.html
Şurmix M. Ruykərd-e siyasi Şeyx Zahid Gilani və Şeyx Səfiəddin Ərdəbili əz mənzər-e motun-e tarixi,/Motaleat islami – tarix və fərhəng. N-87, 1390, s. 89-106
Tacbəxş Ə. Tarix-e Səfəviyyə". Şiraz 1372
Valter Hints. Təşkil-e dövlət-e milli dər İran. Tehran, 1361

Yusifcamali M.K., Pənahi A. Rəvabet-e mütəqabil-e Şeyx Zahid Gilani və Şeyx Səfiəddin Ərdəbili bər yek digər. research.iaun.ac.ir › pdfs › PaperM_4763

Yusifi H., Nistani C., Musəvi Kuhpər S., Hejbəri Nobəri Ə. Təhlili bər səyyadat-e səfəviyan dər dövre-ye piş-e səfəviyan bər əsas-e sənədi noyafte-ye bastanşenasi dər məcmue-ye xaneqahi və aramqahi Şeyx Səfiəddin Ərdəbili, s. 197/Pejuheşha-ye bastanşenasi-ye İran, 1394, N- 8, 191-207

Zeynali-Onari M. Pədidarşenasi-ye bəqəə-ye Şeyx Səfiəddin Ərdəbili.....

**Türk dilində**

Coşan M. E. Tasavvf ve tarikatlar. http://www.dervisan.com/yazi/tarikat.html

Ekinçi M. Safeviyye tarikati və türkmenler üzerindeki rolu/ Sakariya Universitesi yayınları. 1.Baskı, 2010, s.142-174

Eraydın S. Təsəvvüf və təriqətlər. İstanbul, 1994

Erdoğan İ. Şeyh Safyuddin Erdebiliye göre ruh-beden ilişkisinde hayvani ruhun yeri/ İlahiyyat fakültesi dergisi, 15:1 (2010), s. 1-16

İbrahim Zahid-i Geylani. Həyatı hakkında bilgi. http://www.mumsema.org/arap-islam-alimleri/195744-ibrahim-zahid-i-geylani-hayati-hakkinda-bilgi.html

Jean Chevalier. Sufilik. İstanbul, 1993

Kaptan R. Dört kapı, kırkmakam. http://www.alevitentum.de/Insan-i_Kamil_Olmanin_Yolu_Dort_Kapi_Kirk_Makamdan_Gecer.pdf

Karadeniz Y. Safevi devletinin kuruluşe meselesi II. Safeviler döneminde tarikat-şeriat mücadilsei/Journal of Qafqaz University-History? Law and political science

Metinlerle tasavvuf terminleri sözlügü. İstanbul, 2006

Musalı N. Şeyh Safi türbesinin arşiv blgelerinde türkce şahıs ve unvan adları/Türük Uluslararası Dil, Edebiyyat ve Halk-

bilimi Araştırmaları Dergisi. 2016, yıl 4, sayı 7, sayfa 172-194
Musalı N. Şeyh Safi velayetnamesi: tahkiki ve transkrapsiyonu. Türk kültürü ve Hacı Bektaş Veli araştırma dergisi. Kış 2017, sayı 84, sayfa 163-193
Ögke A. Türk təsavvuf düşüncesinde şeriat, tarikat, hakikat, marifat kavramları ve
Marmaravide "dört kapı-kırk makam" anlayışının izleri.
http://www.hbvdergisi.gazi.edu.tr/index.php/TKHBVD/article/viewFile/417/409
Sühreverdi Ş. Gerçek tasavvuf. İstanbul, 2010
Tarikat və tarikatçılık.
http://www.dinimizislam.com/detay.asp?Aid=3994
Tasavvuf – Tarikat Çerçevesi
http://hasankamilyilmaz.com/tasavvuf-tarikat-cercevesi.html
Tatlılıoğlu D. Tasavvuf ve tarikata sosyolojik bir bakış/ Dinbilimleri akademik araştırma dergisi, IX (2009), sayı 1, s.99-128
Yılmaz K. Anahatlarıyla tasavvuf ve tarikatlar. İstanbul, 2004
Yılmaz H. Halvetilik və Anadolu aleviligi ilişgisi çevresinde Pir Ahmed efendi ahfadına genel bir bakış/ NEÜ Sosyal Bilimler Enstitüsü Dergisi 2 (2013), s.121-130

## MÜNDƏRİCAT

**GİRİŞ.................................................................................3**

**I FƏSİL. ŞEYX SƏFİƏDDİNİN NƏSLİ VƏ UŞAQLIQ İLLƏRİ.........................................................................9**
1. Şeyx Səfiəddinin ulu əcdadları............................................9
2. Şeyx Səfiəddin anadan olması və gənclik dövrü...................25
3. İstifadə olunmuş mənbə və ədəbiyyat...................................42

**II FƏSİL. ŞEYX SƏFİƏDDİN VƏ ŞEYX ZAHİD MÜNASİBƏTLƏRİ..........................................................45**
1.Şeyx Zahid.........................................................................45
2.Şeyx Səfiəddin Şeyx Zahidin müridliyində...........................80
3.Şeyx Zahidin vəfatı və dəfni................................................107
4.“Səfvətüs-səfa” əsərində Şeyx Zahidlə bağlı olan hekayətlər...................................................................117
5. İstifadə olunmuş mənbə və ədəbiyyat.................................124

**III FƏSİL. ŞEYX SƏFİƏDDİNİN HƏYATI.......................130**
1.Şeyx Səfiəddinin mürşidliyi................................................130
2.Şeyx Səfiədinin fiziki və mənəvi keyfiyyətləri.....................169
3.Şeyx Səfiəddinin kəraməti..................................................190
4.Şeyx Səfiəddinin seyidlik və məzhəb mənsubluğu məsələsi.........................................................................222
5.Şeyx Səfiəddinin etnik və dil mənsubiyyəti.........................256
6. İstifadə olunmuş mənbə və ədəbiyyat.................................267

**IV FƏSİL. ŞEYX SƏFİƏDDİNİN TƏSƏVVÜF GÖRÜŞLƏRİ..............................................................278**
1.Şeyx Səfiəddin elm və təhsil haqqında................................278
2.Şeyx Səfiəddinin təsəvvüf baxışları...................................312
3.Bəzi təsəvvüf kəlamlarının Şeyx Səfiədin tərəfindən təfsiri.......................................................................357

4.Şeyx Səfiəddin və səma....................................................386
5.Şeyx Səfiəddinin nəsihətləri..............................................403
6. İstifadə olunmuş mənbə və ədəbiyyat...............................412

**V FƏSİL. ŞEYX SƏFİƏDDİNİN DÜNYASINI DƏYİŞMƏSİ ........................................................................421**
1.Şeyx Səfiəddinin vəfatı.......................................................421
2.Şeyx Səfi məqbərə-kompleksi............................................433
3.Şeyx Səfi məqbərəsinin talanması......................................519
4. İstifadə olunmuş mənbə və ədəbiyyat.................................536

**NƏTİCƏ............................................................................544**

**ƏLAVƏLƏR.......................................................................548**
Şeyx Səfiəddinin əsərləri.............................................548

**Qeyd:**

**Qeyd:**

**Qeyd:**

**Qeyd:**

| | |
|---|---|
| Ədəbi redaktor | Mərhəmət Abiyev |
| Korrektor | Nüşabə Süleymanova |

**Nəşriyyat direktoru:** İsmayıl Nərimanoğlu

Kitab hazır depozitivlərdən istifadə edilərək
“Maarif” nəşriyyatında çap edilmişdir.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin “Maarif” Dövlət
Tədris Pedaqoji Ədəbiyyatı nəşriyyatı

Çapa imzalanmışdır: 13.10.2019
Kitabın formatı: 60x84 1/16.
Həcm: 44 ç.v.

Ünvan: Mətbuat prospekti, 529-cu məh.